**Azərbaycan Respublikası Bakı Dövlət Universiteti**
**Dövlət Gömrük Komitəsinin Akademiyası**
**Milli Elmlər Akademiyasının "Hüquq və İnsan Haqları" İnstitutu**

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN ƏSASLARI

***(elmi-nəzəri, hüquq əsasları və təcrübi aspektləri)***

**Dərslik**

***Dərslik Bakı Dövlət Universitetinin və Dövlət Gömrük Komitəsinin Akademiyasının elmi şuralarının qərarları ilə nəşrə tövsiyyə edilmişdir. Universitetin rektoru, akademik A.M.Məhərrəmovun 13.XI.2017-ci il tarixli əmri ilə təsdiq edilmişdir.***

***Bakı 2018-ci il***

## KİTABDA İSTİFADƏ EDİLMİŞ İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ** | – Amerika Birləşmiş Ştatları. |
| **AFR** | – Almaniya Fedarativ Respublikası. |
| **AHYDK** | – Azərbaycan Hava Yolları Dövlət Konserni |
| **AR** | – Azərbaycan Respublikası. |
| **BCAİ** | – Baş Cinayət Axtarış İdarəsi. |
| **BMCMİ** | – Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi |
| **BMT** | – Birləşmiş Millətlər Təşkilatı. |
| **BNMİ** | – Baş Narkotiklərlə Mübarizə İdarəsi. |
| **BƏSİİ** | – Baş əməliyyat- Statistik İnformasiya İadarəsi |
| **GİSHQMBİ** | – Gömrük İşi Sahəsində Hüquqpozmalarına Qarşı Mübarizə Baş İdarəsi |
| **CÇM** | – **C**əza Çəkmə müəsisəsi. |
| **CM** | – Cinayət Məcələsi. |
| **CPM** | – Cinayət – Prosesual Məcəlləsi. |
| **DGK** | – Dövlət Gömrük Komitəsi. |
| **DİXK** | – Daxili İşlər Xalq Komissarlığı. |
| **HMO** | – Hüquq-mühafizə orqanları |
| **DİN** | – Daxili İşlər Nazirliyi. |
| **DİO** | – Daxili İşlər Orqanları. |
| **DSX** | – Dövlət Sərhəd Xidməti. |
| **DTK** | – Dövlət Təhlükəsizlik Komitəsi. |
| **EHM** | – Elektron hesablama maşını. |
| **ETİ** | – Elm Tədqiqat İnstitutu. |
| **ƏAF** | – Əməliyyat–axtarış fəaliyyəti |
| **ƏAO** | – Əməliyyat–axtırış orqanı. |
| **ƏAT** | – Əməliyyat–axtırış tədbirləri. |
| **ƏN** | – Ədliyyə Nazirliyi. |
| **FHN** | – Fövqəladə Hallar Nazirliyi. |
| **ŞRPİ** | – Şəhər, rayon polis idarələri. |
| **BPİ** | – Baş polis idarəsi. |
| **SM** | – Su Məcəlləsi. |

| | |
|---|---|
| **HM** | – Hava Məcəlləsi. |
| **MEA** | – Milli Elmlər Akademiyası |
| **GM** | – Gömrük Məcəlləsi |
| **İAQMBİ** | – İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi. |
| **İXM** | – İnzibati Xətalar Məcəlləsi. |
| **İT** | – İstintaq təcridxanası. |
| **KM** | – Konstitusiya Məhkəməsi. |
| **MAS** | – Məlumat–axtarış sistemi. |
| **MCB(T)** | – Mütəşəkkil cinayətkar birlik (təşkilat). |
| **MCQ** | – Mütəşəkkil cinayətkar qruplaşmalar. |
| **MDB** | – Müstəqil Dövlətlər Birliyi. |
| **MM** | – Milli Məclis. |
| **MN** | – Müdafiə Nazirliyi. |
| **MTN** | – Milli Təhlükəsizlik Nazirliyi. |
| **NK** | – Nazirlər Kabineti. |
| **RF** | – Rusiya Federasiyası. |
| **SSRİ** | – Sovet Sosialist Respublikaları İttifaqı. |
| **VN** | – Vergilər Nazirliyi. |
| **DTX** | – Dövlət Təhlükəsizlik Xidməti |
| **XKX** | – Xarici Kəşfiyyat Xidməti |
| **KQMSİPO** | – Korrupsiyaya Qarşı Mübarizə Sahəsində İxtisaslaşmış Prokurorluq Orqanı |
| **HƏKX** | – Hərbi əks kəşfiyyat xidməti |
| **XTV** | – Xüsusi texniki vasitələr |
| **NMR** | – Naxçıvan Muxtar Respublikası |
| **QMV Dİİ** | – Qarabag Muxtar Vilayət Daxili İşlər İdarəsi |
| **AD və İHOMİ** | – Ali Dövlət və İcra Hakimiyyəti Orqanlarının Mühafizə İdarəsi |
| **İSCQMİ** | – İqtisadi Sahədə Cinayətlərə Qarşı Mühafizə İdarəsi |
| **KTİ** | – Kriminalistik Tədqiqatlar İdarəsi |
| **ƏAO** | – Əməliyyat Axtarış Orqanı |
| **NHA** | – Normativ Hüquqi Akt |

# ÖN SÖZ

Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi yeni təfəkkürün formalaşması və inkişafı, ölkənin daxili və xarici siyasətində, o cümlədən hüquq-mühafizə fəaliyyətində köklü dəyişikliklər aparılması və sivil dövlətlərə müvafiq olaraq təkmilləşdirilməsi üçün əlverişli zəmin yaradır. Bütün bunlar nəzərə alınaraq dövlət tərəfindən həyatın bütün sahələri üzrə elmi, hüquqi və təcrübi baxımdan əsaslandırılmış, müvafiq proqramlar əsasında islahatlar aparılır. Bunlardan biri də təhsil sistemində olan islahatlardır və onun əsas məqsədi beynəlxalq standartlara uyğun, geniş dünyagörüşünə, dərin və hərtərəfi biliyə, yüksək peşə hazırlığına malik, xalqına, vətəninə sadiq mütəxəssislər, işçilər, alimlər pleyadası yaratmaqdır ki, bu da təhsil sistemi qarşısında çox vacib və aktual vəzifələr irəli sürür. Bu vəzifələrin həyata keçirilməsi vahid məqsədə nail olunmasına, cinayətkarlığa qarşı mübarizənin müasir dövrün tələblərinə uyğun səviyyədə təmin edilməsi sahəsində hərtərəfi, dərin biliyə, yüksək peşə vərdişi və qabiliyyətinə, mərd, iradəli, insanpərvər, yaradıcı və s. xüsusiyyətlərə malik olan hüquq-mühafizə orqanlarının əməkdaşlarının hazırlanmasına istiqamətlənməlidir.

Son illər ölkəmizin xarici əlaqələrinin genişlənməsi, onun ərazisinə daxil olan və hüdudlarından xaricə gedən insanların, həmçinin nəqliyyat vasitələrinin axınının artması, müxtəlif qəbildən olan böyük miqdarda yüklərin tranzit daşınması, iqtisadi sahədə həyata keçirilən özəlləşdirmə prosesləri, ölkənin geopolitik vəziyyəti və coğrafi-iqlim şəraiti, qondarma Dağlıq Qarabağla bağlı problemlər, mütəşəkkil cinayətkarlığın, korrupsiya və rüşvətxorluğun artması, digər dövlətlərə xas olan cinayətlərin, o cümlədən insan oğurluğu, sifarişli qətllər, terror aktları, nadir üsullarla törədilən cinayətlər, narkotik vasitələrin qanunsuz dövriyyəsi, dövlətlərarası xarakter daşıyan informasiya texnologiyaları ilə bağlı cinayətlərin meydana gəlib artması ehtimalını əsaslandırmağa imkan verir. Həmçinin qeyd etmək lazımdır ki, son illər ölkə ərazisində cinayətkarlıqla mübarizədə kriminogen vəziyyətin xeyli sağlamlaşmasına baxmayaraq, göstərilən amillər bu sıra qəbildən olan bəzi cinayətlərin açılması ilə bağlı təşkilati və taktiki aspektlərin təkmilləşdirilməsi, polis əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini şərtləndirir.

Bu gün əməliyyat aparatları və onların əməkdaşları qarşısında duran əsas vəzifələrdən biri də qanunçuluq, təqsirsizlik prezumpsiyası və cəzanın labüdlüyü kimi vacib prinsiplərə riayət edərək insan və vətəndaş hüquq və azadlıqlarını təmin etməkdir. Yuxarıda göstərilən bu vəzifələrin həlli prosesində cinayətkarlığa qarşı mübari-zədə əməliyyat-axtarış fəaliyyətinin elmi-nəzəri, hüquqi və təcrübi əsaslarının daha dərindən işlənib hazırlanması, öyrənilməsi və tətbiqi məsələləri mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə peşəkar cinayətkarlığa, o cümlədən cəmiyyət üçün böyük təhlükəli olan terrorizm, mütəşəkkil transmilli, korrupsiya, insan alveri, kibber və s. ağır və xüsusilə ağır cinayətlərə qarşı mübarizədə hüquq-mühafizə orqanlarının digər fəaliyyət növləri ilə müqayisədə (inzibati, profilaktik, ibtidai istintaq və təhqiqat) əməliyyat-axtarış fəaliyyətinin rolu daha önəmli və böyükdür. Belə ki, narkotiklərin və silahların qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıq, terrorçuluq, korrupsiya kimi cəmiyyət üçün yüksək dərəcədə təhlükəli olan təzahürlərin gizli xarakter daşıması, həmçinin onların maliyyə, texniki, mühafizə və s. təminatları onlara qarşı mübarizədə əsasən məxfi qüvvə, vasitə, metod və formalardan istifadənin zəruriliyini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, əməliyyat-axtarış fəaliyyətinin uzun müddət əsas etibarilə məxfi (gizli) formada, qanunqüvvəli, o cümlədən təşkilati idarə səciyyəli normativ aktlarla təşkil edilib həyata keçirilmiş, ayrıca bir elm sahəsi kimi tədqiq olunmamış, çox qədim tarixə malik kriminalistika elmi çərçivəsində öyrənilmişdir. Bütün bu amillər isə hüquqi, sivil, demokratik dövlətin əsas prinsiplərindən olan insan hüquq və azadlıqlarının, qanunçuluğun təmin edilməsi ilə tam uzlaşmamış, cəmiyyətdə müxtəlif neqativ hallara səbəb olmuşdur.

Ötən dövrlə müqayisədə XIX və XX əsrlərdə ƏAF sahəsində aparılan elmi-nəzəri və təcrübi baxımdan əhəmiyyət kəsb edən, daha geniş həcmdə fundamental elmi tədqiqatların aparılması əməliyyat-axtarış fəaliyyətinin əvvəl nəzəriyyə, sonra isə cinayətkarlığa qarşı mübarizədə ayrıca bir xüsusi və praqmatik elm sahəsi kimi tanınmasına zəmin yaratmışdır. Bununla yanaşı, əməliyyat-axtarış fəaliyyətinin ilk növbədə qanunla nizamlanması, onun daha dərindən öyrənilməsini və cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tətbiqini, insan hüquq və azadlıqlarına hörmətlə yanaşma münasibətlərini bir zəruriyyət və reallığa çevrilməsinə kömək etmişdir.

Azərbaycan Respublikasının əməliyyat-axtarış fəaliyyəti üç əsas mahiyyətə malikdir: **birincisi**, bu, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının cinayətkarlığa

trial mübarizə və milli təhlükəsizliyin təminatı üzrə hüquqi dövlət fəaliyyətinin xüsusi növüdür; **ikincisi**, digər elmi sahələrin, xüsusilə də hüquqi elmlərin inteqrasiyasına, cinayətkarlığa qarşı mübarizə sahəsində obyektiv təcrübəyə əsaslanan müstəqil hüquqi elmdir; **üçüncüsü**, xüsusi hazırlıq və hüquqi təhsil sistemlərində ayrıca tədris fənnidir.

Qeyd etməliyik ki, əməliyyat-axtarış fəaliyyəti böyük tarixə malikdir. Həm milli, həm də beynəlxalq baxımdan bu fəaliyyətin əhəmiyyəti tədqiqatçılar tərəfindən açıq şəkildə lazımi dərəcədə bilavasitə göstərilməsə də, müxtəlif dövrlərdə onunla əlaqəsi olan bir sıra əsərlər yaçılmışdır. Onların əksəriyyəti memuarlar adı altında ictimaiyyətə təqdim olunmuşdur. Dövlət müstəqilliyinə qədərki dövrədək keçmiş sovet məkanından xaricdə əməliyyat-axtarış fəaliyyəti haqqında çeşidli və geniş oxucu ictimaiyyəti üçün nəzərdə tutulmuş kitablar nəşr olunmuşdur. Bunların arasında ABŞ kəşfiyyatçısı A.Dallesin məşhur “Kəşfiyyat sənəti” adlı əsərini, əməliyyat sahəsi ilə bağlı Qərbi Almaniyadan olan R.Hesnerin və U.Hersoqun 1990-cı ildə nəşr etdirdikləri “Hüququn fasadı arxasında” kitabını misal gətirmək olar. Geniş hüquqi məxəzlərdən istifadə edilməklə yaçılmış bu kitablarda yeni məxfi polis metodlarından aşkar surətdə və təfərrüatı ilə bəhs edilir, əməliyyat axtarışının forma və metodlarına dair misallara istinad olunur. Bu əsər SSRİ məkanında elə dövrdə nəşr olunmuşdu ki, onda hələ agentur-Əməliyyat fəaliyyətindən açıq danışmaq belə mümkün deyildi. Lakin xarici dövlətlərin SSRİ-dən fərqli olaraq real hüquqi, demokratik əsaslara söykənməsi həmin ölkələrin ictimaiyyətinə, elm adamlarına dövlət orqanlarının məxfi fəaliyyəti haqqında açıq çıxış etməyə, müvafiq mövzuların müzakirəsinə və tədqiqinə imkan verirdi. Beləliklə, demokratiyanın bərqərar olduğu ölkələrdə əməliyyat-axtarış fəaliyyəti problemi tam qapalı sahə deyildi. Məsələ bundadır ki, cəmiyyət hüquqi vasitələrlə, qanunlar əsasında idarə olunanda ictimaiyyətin əlində dövlət orqanlarını vətəndaşların nəzarətində saxlaya biləcək vasitələr hüququn aliliyinə istinad edir, dövlətin ali nümayəndəli orqanının qəbul etdiyi qanunvericilik aktlarına əsaslanır. Təbii ki, belə olan halda demokratiyanın təcəssümü olan ali qanunverici orqan bütövlükdə cəmiyyətin ümumi mənafeyinə xidmət edir və bu mənada dövlətin daxili işlər və xüsusi orqanlarının tam qapalılığına imkan vermir. Sovet sistemi isə tam qapalı siyasi sistem olduğundan ona daxil olan bütün dövlət subyektlərinin istənilən fəaliyyətini məxfiləşdirmək mümkün idi. Məhz bu səbəbdən sovet dönəmində Azərbaycanda əməliyyat-axtarış fəaliyyəti məxfi fəaliyyət kimi ali qanunvericilikdən kə-

narda duran, sahələr üzrə normativ aktlarla tənzimlənən tam qapalı proses idi. Buna baxmayaraq, sovet sisteminin dağılmasına yaxın son illərdə dövlət təhlükəsizliyi ilə bağlı qanun və bir sıra digər normativ hüquqi aktlar qəbul olunmağa başlanmışdı ki, bu da rejimin demokratikləşməyə cəhd göstərməsi ilə şərtlənirdi.

Əməliyyat-axtarış fəaliyyətinin qanuniləşdirilməsi haqqında hələ keçən əsrin 70-ci illərində CPM-də (maddə 114 və s.) və SSRİ Ali Soveti Rəyasət Heyətinin bir sıra fərmanlarında (məsələn, 08.06.1973-cü il tarixli "Sovet milisinin əsas hüquq və vəzifələri haqqında" Fərmanında) öz əksini tapmış ümumi müddəalar DİN və DTK orqanlarına belə fəaliyyət aparmaq səlahiyyəti versə də, onun həyata keçirilməsi ilə bağlı böyük həcmdə səlahiyyətləri bütövlüklə bu orqanların öhdəsinə buraxmışdı ki, bu da yerlərdə onların fəaliyyətindəsubyektivizmə və özbaşınalığa səbəb olmaya bilməzdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi, dövlət quruculuğu sahəsində son illərdə həyata keçirilən islahatlar, xüsusilə də müstəqil Azərbaycan dövlətinin sivil, hüquqi dövlət standartlarına və beynəlxalq qanunvericiliyin tələblərinə cavab verən konsepsiyalarının qəbul olunması, Azərbaycanın Avropa Şurasına qəbul edilməsi və beynəlxalq təşkilatların insan hüquq və azadlıqları ilə bağlı konvensiya, pakt və xartiyalarına qoşulması ƏAF sahəsində (xüsusilə onun məxfi hissəsində) ictimai münasibətlərin ayrıca qanunla nizamlanmasını bir zəruriyyətə çevirmişdir.

28 oktyabr 1999-cu ildə qəbul edilmiş və 17 oktyabr 1999-cu ildə qüvvəyə minmiş "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının ilk qanunu əməliyyat-axtarış fəaliyyətini ölkəmizdə qanuniləşdirmiş və cəmiyyətdə **bu fəaliyyət haqqında** qanun çərçivəsindən kənara çıxan və əxlaq prinsiplərinə zidd olan təsəvvürlərin aradan qaldırılmasına xidmət etmişdir. Əməliyyat-axtarış fəaliyyətinin sosial qanunauyğunluğu və ictimai zəruriliyi onun hüquq-mühafizə və xüsusi xidmət fəaliyyətinin mühüm tərkib hissəsi olmasından, qanunvericilik qaydasında təsbit edilməsindən irəli gəlmişdir.

Milli zəmində müxtəlif sahələr üzrə əməliyyat-axtarış fəaliyyətinin qismən gerçəkləşdirilməsi istiqamətində bundan əvvəl də bir sıra qanunlar qəbul edilmişdi. Azərbaycan Respublikasının "Dövlət sərhədi haqqında" (1991), "Dövlət sirri haqqında" (1996, 2004-cü illər), "Məhkəmələr və hakimlər haqqında" (1997), "Milli təhlükəsizlik haqqında" (2004), "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" (2004) qanunlar,

"Gömrük Məcəlləsi" (1997,2011), "Cinayət Məcəlləsi" (2000), "Cinayət-Prosessual Məcəlləsi" (2000), "Vergi Məcəlləsi" (2002) və s. buna misaldır. Son illərdə qeyd edilən və digər normativ-hüquqi aktlarla real həyatda tənzimlənməsinə zərurət olan ictimai münasibətlər nəzərə alınaraq yeni normativ- hüquqi aktlar qəbul olunmuşdur. Göründüyü kimi, son illərdə ölkəmizin əməliyyat-axtarış qanunvericiliyində inkişafa doğru önəmli addımlar atılmaqdadır.

Müasir dövrdə dünyada mövcud olan kriminogen durum, onun get-gedə kəskinləşməsi, süni olaraq yaradılmış terror qurumlarının ekstremist və separatçılıq fəaliyyəti, sosial-iqtisadi və siyasi həyatda baş verən neqativ dəyişikliklərin təhlili göstərir ki, ƏAF sahəsində qanunvericilik daim təkmilləşməlidir.

Onu da etiraf etmək lazımdır ki, SSRİ-nin mövcud olduğu və həmçinin müasir dövrdə əməliyyat-axtarış nəzəriyyəsinin inkişafında, xüsusilə də onun fundamental əsaslarının yaradılmasında bir çox alimlərin, o cümlədən A.F.Lekar, D.B.Qrebelski, A.İ.Alekseyev, B.Q.Bobrov, V.A.Lukaşov, V.Q.Samoylov, A.S.Vandişev, Q.K.Sinilov, B.M.Atmajitov, N.N.Basetski, A.İ.Qurov, B.E.Boqdanov, S.S.Ovçinnikov, P.A.Oleynin, İ.P.Kazaçenko, Y.S.Blinov, E.İ.Bordilovski, A.İ.Şumilov və digərlərinin də böyük əməyi olmuşdur.

Azərbaycan Respublikasının "Dövlət dili haqqında", "Təhsil haqqında", "Polis haqqında", "ƏAF haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" və s. qanunları qəbul edildikdən sonra ölkənin ali tədris ocaqlarında, o cümlədən Polis Akademiyasında "DİO-nun əməliyyat-axtarış fəaliyyəti" fənni, Dövlət Gömrük Akademiyasında, Bakı Dövlət Universitetində "ƏAF-nın əsasları" fənni üzrə dərs vəsaitləri, dərsliklərin hazırlanmasında müəyyən dirçəliş baş vermiş, bir sıra ədəbiyyatlar nəşr olunmuşdur.

Dərsliyi hazırlayan müəllifər çalışmışlar ki, onun məzmununda ƏAF-nın əsaslarını yüksək dərəcədə işləyib hazırlamış alimlərin nəzəri-təcrübi tədqiqat işlərinin nəticələri və rəyləri əks etdirilsin. Qeyd edilənlərlə yanaşı, dərslikdə bu elm sahəsində son illərdə aparılan bir sıra tədqiqatların nəticələri də öz əksini tapmışdır. Bundan əlavə, dərslikdə bu elm sahəsində müasir nəzəri və təcrübi əhəmiyyətli işləmələrlə bağlı bilgilər, 1999/2016-ci illərdə digər dövlətlərin ali təhsil ocaqları üçün hazırlanmış dərslik, dərs vəsaitləri, son illərdə nəşr olunmuş monoqrafik əsərlərin materiallarından da istifadə olunmuşdur.

Dərsliyə həmçinin əməliyyat-axtarış fəaliyyəti sahəsində milli qanunvericiliyi, bu fəaliyyət sahəsində olan problemli aspektləri, təcrübədən götürülmüş misalları əks etdirən bilgi və materiallar da daxil edilmişdir.

Dərsliyin müəllifəri ümid edirlər ki, bu vəsait nəinki xüsusi təhsil müəssisələrində, həmçinin mülki ali təhsil ocaqlarında da ƏAF fənninin geniş tədrisinə kömək edəcək, əməliyyat aparatları əməkdaşlarının fəaliyyət sahəsində biliklərinin zənginləşməsinə, onlardan cinayətkarlığa qarşı mübarizədə xidməti fəaliyyətdə müvəffəqiyyətlə tətbiq edilməsinə və nəticədə qeyd edilənlər ƏAF-nın təbiəti və məzmununa dair hal-hazırda ayrı-ayrı elmi baxışları ümumiləşdirməklə vahid və sabit bir elm sahəsinə - vahid əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinə çevrilməsi işinə xidmət edəcəkdir.

Müəllifərin oxucuya təqdim etdikləri "Əməliyyat-axtarış fəaliyyəti" adlı dərslik "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, habelə bu sahə ilə bağlı digər qanunvericilik və normativ aktların tələblərinə müvafiq olaraq hazırlanmışdır. Onların **məxfi olmayan** əsas müddəalarının nəzəri-hüquqi açıqlanması ali təhsil üçün zəruri həcmə uyğun olaraq verilmişdir. Dərslikdə müasir əməliyyat-axtarış nəzəriyyəsinin yaranmasına və inkişafına öz əhəmiyyətli töhfələrini vermiş nəzəriyyəçi alimlərin əsas təməl ideya və konsepsiyalarından ümumiləşdirilmiş halda istifadə edilmişdir.

Dərsliyin materiallarına əməliyyat-axtarış fəaliyyətiniə dair müdavim, dinləyici və ali məktəb tələbələrinə tövsiyə olunan ədəbiyyatların siyahısı (əlavə 1) əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyə aid edilən bir sıra normativ –hüquqi aktların mətnləri və onlardan çıxarışlar, məhkəmə sənədləri (əlavə 2) daxil edilmişdir.

Gələcəkdə dərsliyin bu fəaliyyətin açıq qrifi ümumi və xüsusi hissələrinin müasir müddəalarını əhatə edən bir neçə ardıcıl hissədən ibarət buraxılışı da nəzərdə tutulur.

*Bu- kitab* **"Əməliyyat-axtarış fəaliyyətinin öyrənilməsinə giriş"** və **"Əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi", "Əməliyyat-axtarış fəaliyyətinin subyektləri", "Əməliyyat-axtarış tədbirləri", "Əməliyyat-axtarış fəaliyyətinə nəzarət", "Əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatı", "Əməliyyat-axtarış fəaliyyətinin psixoloji təminatı", "Əməliyyat-axtarış fəaliyyətinin maliyyə və maddi-texniki təminatı", "Əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin istifadə edilməsi"** adlı I- XI bölmələrdən və I-XX fəsillərdən ibarətdir.

Dərslik ali təhsil müəssisələrinin hüquq fakültələrinin tələbələri, aspirantları, hüquqşünaslar, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarının əməkdaşları üçün hazırlanmışdır, lakin ondan məhkəmə, prokurorluq işçiləri, DİN, DTX və XKX, DSX, DGK, ƏN, VN, FHN və digər sahələrə aid təhsil müəssisələrinin tələbələri, müdavimləri, dinləyiciləri və bu sahəyə maraq göstərən digər şəxslər də yararlana bilərlər.

Sözsüz ki, dərslik ilk dəfə hazırlandığından heç də özünün xüsusi orijinallığı ilə bütün tələblərə cavab verməsi iddiasında olmayıb, müəyyən çatışmazlıq və qüsurlardan xali deyildir. Ona görə də müəllifər onun məzmununa dair verilən təklif və iradlara görə hər bir kəsə əvvəlcədən öz minnətdarlıqlarını bildirirlər.

**Müəlliflər kollektivindən**

# I BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNƏ GİRİŞ

## I FƏSİL
## Əməliyyat-axtarış fəaliyyətinin qısa tarixi başlanğıcı, mahiyyəti və məzmunu

### § 1. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin qısa tarixi başlanğıcları

Bildiyimiz kimi, cəmiyyətdə antoqonist sinifərin meydana gəlməsi və əmlak bərabərsizliyinin yaranması nəticəsində klassik alimlərin dediyi kimi “zor aparatı” – dövlət meydana gəlmişdir. Dövlət meydana gəldiyi vaxtdan davranış qaydalarını (həm icazə verilən, həm də qadağan olunan) müəyyən etməyə başlamışdır. O, cəmiyyətdə insanları, onların mülkiyyətində olan əmlakları, eləcə də təhlükəli qəsdlərdən müdafiə etmək funksiyasını da üzərinə götürmüşdür. Dövlət mövcud olduğu vaxtdan müasir günümüzə qədər cinayətlərin baş verməməsində əsasən maraqlı tərəf kimi çıxış edir və təbii ki, bu cinayətlərin qarşısını almaq üçün müəyyən metodlardan istifadə etmək məcburiyyəti yaranmışdır.

Əməliyyat-axtarış fəaliyyətinin inkişafı haqqında danışmaq üçün uzaq və yaxın keçmişə nəzər salmaq məqsədə müvafiq olar. Belə ki, insan tarixi ilə bağlı bütün dövrlərdə müxtəlif dövlətlər öz aralarında hegemonluq üçün müxtəlif üsullarla mübarizə aparmışlar. Bu mübarizədə rəqibi barədə dəqiq və geniş məlumatlara malik olan dövlətlər qalib çıxırdı və bunun üçün sınaqdan çıxmış üsuldan – casusluqdan istifadə olunurdu. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar. Belə ki, bizim eradan dörd əsr əvvəl Çinin hərbi traktatında qeyd olunurdu: “düşmənimiz olan dövlət haqqında, əsasən də onun hərbi qüdrəti barədə tam həcmdə məlumatları nə Allahdan, nə “qara qüvvələrdən” (magiya), nə də müqayisəli təhlilə görə əqli nəticə yolu ilə əldə etmək qeyri-mümkündür. Düşmənin hərbi vəziyyəti haqqında məlumatları yalnız müxtəlif etibarlı mənbələrdən, xüsusilə də insanlardan əldə etmək olar”.

Bizim eranın I-III əsrlərinin qədim Hind ədəbi yaddaşı olan "Artxaşasantrada" da qədim Hind cəmiyyətində fəaliyyət göstərmiş xüsusi xidmətlərin strukturu barədə məlumatlara rast gəlmək olar. Bu mənbədə olan məlumatlara görə, qədim Hindistanda hökümdarlar və şahlar üçün əhəmiyyət kəsb edən məlumatların toplanması üçün müxtəlif əməkdaşlar pul və qiymətli hədiyyə əvəzində seçilirdi. Seçilmiş şəxslərə tapşırılırdı ki, əgər dövlətə qarşı və şahın əleyhinə (şahın həyatına sui-qəsd edilməsi və s.) aid məlumat eşitsə, o dəqiqə bu məlumatları dövlət rəhbərinin xüsusi təyin etdiyi şəxsə xəbər versin. Burada həmçinin şübhəli şəxslərin üzərində və hakimiyyətdə olan şəxslərin qeyri-qanuni gəlirlərinə seçilmiş şəxslər tərəfindən nəzarət edilməsi barədə məlumatlara da rast gəlinir.

Yuxarıda qeyd edilən tarixi faktlar uzaq keçmişimizdə dövlət başçıları və onun müvəkkil etdiyi şəxslər tərəfindən idarəçiliyin həyata keçirilməsində məxfi məlumatların seçilmiş mənbələrdən alınması məhz həmin dövrlərdə, əməliyyat-axtarış fəaliyyətinin ilkin rüşeymlərinin yaranmasına bariz sübut kimi özünü təsdiq edir.

Əməliyyat-axtarış fəaliyyətinin inkişafı haqqında danışarkən orta əsrlərə nəzər salmağımız da vacibdir. Belə ki, bu dövrlərdə Avropanın aparıcı dövlətləri olan Almaniyada, Fransada, İngiltərədə, İtaliya və s. dövlətlərdə əməliyyat-axtarış fəaliyyəti polis orqanları, əsasən isə kriminal polis dəstələri və fərdi detektivlər meydana çıxdıqdan sonra daha da inkişaf etməyə başlamışdır. Bu dövrlərdə cinayətləri törədən şəxslərin aşkarlanması və məsuliyyətə cəlb olunması üçün xüsusi orqanlar tərəfindən cinayət törədilən yerdə yaşayan əhali arasında müəyyən sorğular keçirmək və dəlillər toplamaq kimi tədbirlər aparılmağa başlanılmışdır.

Qədim arxiv materialları təsdiq edir ki, əcdadlarımız da bu metoddan istifadə ediblər. Məsələn, Səfəvilər dövlətində ümumi idarəçilikdə, xüsusilə inzibati idarəçilikdə daruqələrin rolu böyük idi. Daruqələr bir növ agentur işini də təşkil edir və həyata keçirirdilər. Daruqələrin adamları gündəlik gizli nəzarəti həyata keçirir, gün ərzində baş vermiş bütün hadisələr haqqında geniş məlumatlar alırdılar. Daruqələr adətən, öz inanılmış adamlarından məlumat almaq üçün şəhərin bir məhəlləsini seçir və həmin məhəllədə axşamdan üç saat keçmiş süvari halda gəzintiyə çıxaraq, onların məlumatlarını dinləyirdilər. Alınmış məlumatlar yoxlanıldıqdan sonra tədbirlər görülürdü[1].

Müasir elmi-tədqiqat materialları, tarixi arxiv sənədlərinə istinad edərək belə demək olar ki, qədim zamanlarda əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliy-

1 N.Cəfərli. Səfəvilər dövlət hakimiyyəti və idarəçilik orqanları. səh. 139

yətinin özəyini, əsasını **agentur metodu** təşkil edib. Bu metod isə hüquq-mühafizə və xüsusi xidmət orqanlarının əməliyyat əhəmiyyətli informasiyanın əldə edilməsi və hüquqazidd hərəkətlərin sənədləşdirilməsi üçün bu səpkidə məlumatlara malik olan şəxslərlə etibarlı əlaqələrin qurulması və ya inkişafı üzrə əməliyyat işçilərinin və məxfi əməkdaşların əfsanələşdirilmiş (uydurulmuş) davranışının üsulları və tərzləri məcmusu kimi başa düşülür.

Agentlərin[1] (kəşfiyyatçıların) dövlətlərarası əlaqələrdə girov kimi istifadəsini təsdiq edən ən birinci arxeoloji mənbələrdən biri e.ə. XII əsrə aid Suriyanın ərazisində tapılmış qədim yazıları olan yandırılmış lövhəcikdir. Bu lövhəciyin üzərində bir şəhər - dövlətin hökmdarı digərinə şikayət edir ki, o, razılığa görə casusları azad edib, amma bu vaxta qədər onların əvəzində pul almayıb.

“Müharibə sənəti” elmi əsəri ilə məşhurlaşan və qədim Çin mütəfəkkiri Konfutsi ilə bir vaxtda yaşamış (e.ə. VI əsr) Çinin məşhur hərb nəzəriyyəçisi Sun Tzı kəşfiyyat fəaliyyətinə xüsusi əhəmiyyət verirdi. Sun Tzı təsbit edirdi ki, agentlərlə iş son dərəcədə sirr tələb edir və onların varlığı, imkanları mühüm əhəmiyyətə malikdir, lakin onlardan bacarıqla istifadə etmək vacib və önəmlidir. Agentur metodunun tədbiqindən hərbi rəhbərlərin imtinasını o “son dərəcəli ağılsızlıq” kimi qiymətləndirirdi və qeyd edirdi ki, müharibələrdə və döyüşlərdə “əsl humanizm – mümkün qədər az itkilərlə döyüşmək kimi dərk edilməlidir”. Hərbi sahədə nəzəri işləri ilə tanınmış alim informasiyanın toplanmasına xüsusi əhəmiyyət verirdi və bununla əlaqədar agentlərin mütəşəkkil gizli sistem təşkil edən 5 kateqoriyasını fərqləndirirdi: yerli, daxili (düşmən ölkəsində onun vətəndaşları sırasından agentlər), döndərilmişlər (ikili və yaxud yenidən cəlb edilmiş agentlər), qaytarılmazlar (və ya təxribatçılar) və uyğunlaşmışlar (kəşfiyyatçılar).

Məşhur istilaçı – şah Pontiyalı VI Mitridat (e.ə. I əsr) agentur metodunu xeyli zənginləşdirmiş, müasirlərin şəhadətinə görə o özü dəfələrlə məxfi agent rolunda şəxsən çıxış etmişdir. Tarixi salnamələr onu şübhəli, qəddar, bic və yorulmaz istilaçı kimi xarakterizə edir. Mitridatın agentləri yerli sakinlərin narazılıqlarından istifadə edərək Roma və Yunanıstanın bir çox Asiya torpaqlarında yorulmadan fəaliyyət göstərirdilər.

1 Agent – latın dilində olan “agentis” sözündən götürülüb, “fəaliyyət göstərən” kimi tərcümə edilir, kiminsə tapşırığı ilə işləyən şəxs mənasında başa düşülür (bax: Словарь иностранных слов. ГИИНС. M. 1949, səh. 21

E.ə. 480-cı ildə məşhur filosof və mütəfəkkir Herodotun işlərində qədim yunanlar tərəfdən iranlı agentlərdən istifadə edilməsi göstərilir. Agentlərdən daha çox Makedoniyalı İsgəndər və Karfagen generalı Hannibal da istifadə edirdilər. Plutarxın yazılarına görə Hannibal məxfi informasiyanı əldə etmək üçün casusları düşmən düşərgəsinə yollayırdı. Belə ki, ikinci Pun müharibəsi zamanı (e.ə. III əsr) Siciliya şəhərinə hücum etməzdən əvvəl, Hannibal ora öz agentini göndərmiş, onlar karfagen qoşununa od və tüstu ilə siqnallar ötürmüş, nəticədə isə şəhər az itkilərlə zəbt olunmuşdur. İtaliyaya basqın etmiş Hannibal Roma qoşunları və istehkamların möhkəmləndirilməsi, ərazilər haqqında ətrafı məlumat toplamaq üçün ora ordudan əvvəl onlarla və yüzlərlə agent yollayırdı. Antik tarixçilər Polibiy və Liviy deyirlər ki, Karfagen sərkərdəsi özü dəfələrlə kəşfiyyat xarakterli məlumat əldə etmək üçün parik və saxta saqqal geyərək Roma düşərgəsinə soxulurdu.

Məxfi xidmətin və agentur işin təşkilinə və taktikasına dair əsas metod və üsulları monqollar tətbiq etmişlər. Çingiz xan agentura işini çox yüksək qiymətləndirirdi, ondan çox fəal istifadə edirdi və rəqibin kəşfiyyat tədbirlərinin təhlükəsini başa düşərək düşmən casuslarını qəddar və amansızcasına cəzalandırırdı.

Bizim eramızın VI əsrində Konstantinopolda Bizans imperiyasının kəşfiyyat xidməti dövlətdə çox mühüm rol oynayırdı. Agentləri tacir qismində xarici ölkələrə göndərirdilər, onlar isə Bizans imperiyasının potensial düşmənlərinin planları haqqında informasiya əldə edirdi.

Müsəlman dövlətləri də Afrika, Asiya və Şərqi Avropaya hərbi basqınlar zamanı agentur metodundan fəal istifadə edilən yüksək səviyyəli məxfi xidmətlər yaratmışdılar. IX əsrdə bir xəlifənin casus qadınlardan ibarət olan və düşmənləri ilə rəqabət apara bilən gizli polis sistemi var idi.

Orta əsrlər dövründə italyan tacirləri Şərq haqqında faydalı kəşfiyyat informasiyasını toplayır, amma Avropa siyasətçiləri ondan az istifadə edirdi. XIV əsrin ikinci yarısında İngiltərədə kral hakimiyyəti uğrunda daxili mübarizə getdiyi zamanda agentura metodu VII Henrix Tyudorun hökmranlığı dövründə geniş yayılmışdı. O, öz düşmənləri haqqında ətrafı informasiya əldə etmək məqsədilə çoxşaxəli agentura şəbəkəsini yaratmışdı. VII Henrixin məxfi xidmətində olan adamlar 4 qrupa bölünürdü: **birinci qrupa** rezident rolunu yerinə yetirən məxfi agentlər aid idi (ingilis diplomatları və ya tacirləri), **ikinciyə** - konkret tapşırığın həll edilməsi üçün cəmiyyətin aşağı təbəqələrindən işə tutulan “informatorlar”, **üçüncüyə** – peşəkar kəşfiyyatçılar, onlar müəyyən

şəxsləri daimi müşahidə altında saxlayırdı, onların əlaqələrini üzə çıxarırdı, zərurət olduqda isə onları qaçırdırdı, **dördüncü qrupa** - peşəkar kəşfiyyatçılar aid edilirdi və onlar görünüş üçün hansısa sosial rolu yerinə yetirirdi (həkim, keşiş, yazar) və bu isə onları lazım olan məlumatlara malik şəxslərin əhatəsinə girməyə imkan verirdi.

İtalyan hökuməti XV əsrdə xaricdə daimi səfirliklər təsis edəndə xarici siyasət sahəsində kəşfiyyat işi fəallaşdı və lazımi informasiyanı toplamaq üçün peşəkar kəşfiyyatçılar bu səfirliklərə göndərildi. Strateji informasiyanın toplanmasında Venesiyalı elçilər yüksək peşəkarlıq, taktiki fərasət və bacarıq göstərmişdi. Onların məruzələri məlumatların konkretliyi, tutarlı müşahidələrin orijinal xülasəsi ilə fərqlənirdi. Onlar agentura işinə namizədləri məharətlə seçirdilər və bununla daimi fəaliyyətdə olan casus şəbəkəsini yaradırdılar. O zamanlar casusluq və diplomatiya arasında sərhəd praktiki olaraq yox idi. Qədimdə səfirlər həmişə ikili oyun aparırdı: rəsmi olaraq onlar diplomatik, gizli isə – kəşfiyyat funksiyalarını yerinə yetirirdi. XVI əsrə kimi artıq Avropa ölkələrinin çoxunda əməliyyat işinin təşkilati forması mövcud idi. Orta əsrlər dövründə hətta kilsənin də bütün Avropa ərazisində kəşfiyyat-agentur şəbəkəsi var idi. Bunlar adətən kənd əhalisinin vəziyyəti haqqında yüksək kilsə məmurlarına (ruhanilərinə) məlumat çatdıran kənd keşişlərindən tutmuş, dövlət rəhbərlərinin sirli planları haqqında məlumat əldə edə bilən saraydakı monarxın nümayəndələrinə qədər olan şəxslər idi. Belə informasiyanın alınmasında səmərəli üsullardan biri vətəndaşların kilsə məmurları qarşısında tövbə etməsi idi. O vaxtdan xristian dünyasında intibah dövrünə qədər dünyanın başqa dövlətləri haqqında ən yaxşı məlumatı olan Roma taxt-tacı idi.

XVI əsrin birinci yarısında kilsə kəşfiyyatının inkişafında "Iusus kompaniyası (cəmiyyəti)" - iezuitlər ordeni böyük rol oynamışdı. Bu orden reformasiyanın uğurları ilə mübarizə aparmaq üçün yaradılmışdı. Bu ordenin üzvləri həm öz ölkələrinin daxilində və həm də xaricində fəaliyyət göstərən şəxsləri agent qismində istifadə edilə bilərdi. Çox vaxt eyni şəxs həm keşiş, həm kəşfiyyatçı kimi fəaliyyət göstərirdi. İezuit ordeninin kəşfiyyat xidmətindən başqa əks-kəşfiyyatı da var idi və bu orqanın əsas vəzifəsi orden sıralarında olan casusları aşkar etmək idi. İezuit agentur kəşfiyyatı onlarla uğurlu sui-qəsdlərin təşkilatçısı idi. Onların fəaliyyəti nəticəsində vacib siyasi məsələlər həll edilirdi, dövlətlər arasında ittifaqlar bağlanırdı və ya ləğv edilirdi, hakimiyyət devrilirdi. XVI əsrin sonu XVII əsrin birinci yarısında Avropada ən məşhur siyasi qətllərin törədilməsində iezuitlər bilavasitə və ya qismən iştirak edirdilər.

Fransa kriminal polisinin fəaliyyətində hələ XVIII əsrin əvvəlində polis kəşfiyyatı sahəsində xidmətdə olan məxfi agentlərin və “xəbər verənlərin” optimal ahənginə (uyğunluğuna) təmayül yaranmağa başlandı. Polisin konspirasiya fəaliyyətinin bu aspektini fransız kriminal polisinin (Süarte) banilərindən biri sayılan Anri və ona kömək edən Vidok adlı bir şəxs həyata keçirdilər. Cinayətkarlıqla mübarizə üçün yaradılmış Paris polis prefekturası bölməsinin rəhbəri olarkən Anri intuisiya ilə belə qənaətə gəldi ki, axtarış işinin adi xəbər (məlumat) əldə etməsi formasının istifadəsindən digərinə keçmək lazımdır, çünki köhnə metod artıq o vaxtlar Parisi caynağına çəkmiş cinayətkarlıqla mübarizədə cüzi nəticə verirdi. Tale Anrini Vidok soyadlı bir adamla görüşdürdü. Sonuncunun olduqca zəngin kriminal təcrübəsi var idi. Buna o, Fransa, Belçika, Avstriyada sərsəri həyat keçirərək quldurluqla məşğul olmuş və nəticədə katorqa həbsxanalarına düşərək yiyələnmişdi. Burada Vidok həbsxana həyatının zəngin təcrübə və vərdişlərinə yiyələnmişdi, çünki illər ərzində təhlükəli cinayətkarlarla yan-yana yaşamış, həbsxanalardan uğurlu qaçışlar etmişdi. Sonuncu qaçış ona 10 il müddətinə azadlıq gətirdi, amma onu aşkar edən keçmiş dustaqlar ondan onları gizlətməyi tələb edirdilər. Bu onunla izah edilirdi ki, Vidok qaçışdan sonra uğurla leqallaşmış hörmətli burjua (sahibkar) kimi yaşayırdı. Satılmaq və ya polislə razılaşmaya gəlib sonradan həbs təhlükəsindən azad olmaq seçimlərinin arasında qalan, Vidok ikincini seçdi və Anrinin yanına könüllü gəlib təslim oldu. Bu kontaktın əsas nəticəsi o oldu ki, Anri Vidokda nəinki polislə əməkdaşlığa razı, hətta digər “xəbər verənlərdən” fərqli keyfiyyətdə bu işi bacaran adamı gördü. Bunun üçün Vidokun dustaqxanadan qəsdən hazırlanmış qaçışı təşkil olundu, sonra o qalmaq üçün etibarlı yerlə təmin edildi və Anridən xüsusi tapşırıqlar almağa başladı. Əlbəttə, burada həlledici o oldu ki, Anri Vidoka sərbəst hərəkət etməyə icazə verdi. Anrinin bu qərarına təkan verən saxta pul hazırlayan şəxsin tutulması üçün Vidokun müvəffəqiyyətlə yerinə yetirdiyi tapşırıq oldu. Vidokun hərəkətlərinə rəhbərlik edən Anri başa düşdü ki, onun cinayət aləmi ilə müfəssəl tanışlığı, dözümü və intuisiyası, artistizm və rola girmə bacarığı, fenomenal görmə qabiliyyəti və yaddaşı polisə lazımdır. Bu isə axtarışın yeni bir formasını təcrübədən keçirməyə imkan verdi, yəni cinayət aləminə yeridilmiş, polisə mənsubiyyətini gizlədən peşəkar xəfiyyə tərəfdən kriminal səciyyə daşıyan informasiyanın əldə edilməsinin bir üsulunu formalaşdırdı. Bundan başqa Vidokun hərəkətlərini düzgün qiymətləndirərək Anri ona köməkçilər işə götürməyə imkan verdi və bu qrup “təhlükəsizlik briqadası” kimi qeyd edildi. Paris polisində isə bu briqadanın varlığı nümayiş etdirilmirdi.

Beləliklə, Vidokun və onun briqadasının fəaliyyətində əsas cəhətlərdən biri əməliyyat-axtarış tədbirlərinin kompleksli tətbiqi ilə bərabər xəfiyyələrin maskalanması idi. Bu halda axtarışın bu forması belə şüarların düzlüyünü təsdiq edirdi ki, "cinayətkara ancaq cinayətkar qalib gələ bilər". Bununla belə Vidokun briqadası islahata məruz qaldı, nəticədə isə onun tam ləğv edilməsinə gətirib çıxardı, çünki məhkumluğu olan şəxsləri xəfiyyə qismində kriminal polisə işə götürmək qadağan edildi. Bununla əlaqədar Süartenin uğurları azalmağa başladı. Yaranmış vəziyyət Vidokun varislərini belə təcrübəni yenidən dərk etməyə və axtarış sahəsindəki uğurlu tapıntıları yeni tələblərə uyğunlaşdırmağa vadar etdi.

XVII əsrdən başlayaraq dövlətin daxili təhlükəsizliyinin təmini üzrə agentur metodunun sərhədləri və hüdudlarının müəyyənləşdirilməsi gözə çarpırdı, bunun üçün sonralar əks-kəşfiyyat xidməti adlanan sərbəst strukturlar yaradılmağa başlandı. Rusiyada imperator ailəsi və çar rejiminin təhlükəsizliyini təmin etmək üçün 1826-cı ildə imperatorun şəxsi dəftərxanasının Üçüncü şöbəsi şəklində siyasi polis yaradılmışdı. Sonralar bu funksiyalar Daxili İşlər Nazirliyinin təhlükəsizlik sisteminə verilmişdir. Polis mühafizə xidməti çar rejiminə qarşı qeyri loyallıqda şübhəli bilinən çoxsaylı şəxslər haqqında informasiya əldə etmək üçün agent və xəbər verənləri aktiv olaraq əməkdaşlığa cəlb edirdi. Emiqrant tələbə və inqilabçıların agentur tədqiqi üçün mühafizə xidməti öz agentlərini xaricə də göndərirdi. Göründüyü kimi, burada xüsusi xidmət orqanları və polis işinin bütün üç forması birləşdi: **kəşfiyyat, əks-kəşfiyyat və polis axtarışı.** Agentura işi adətən xarici ölkələrdə məqsədyönlü hərbi və xarici siyasət kəşfiyyatını həyata keçirən sərbəst strukturlar tərəfindən yerinə yetirilirdi.

Alman tarixşünaslığı kral II Fridrixi tərifəyərək (hakimiyyət dövrü 1740-1786) Almaniyada əmin-amanlığın yaradılmasında onun xidmətlərini yüksək qiymətləndirdi. Avstriyaya qarşı müharibəyə başlayaraq kral yaxşı təşkil edilmiş kəşfiyyatın zərurətini başa düşdü. Almaniyanın xarici səfirləri olduğu ölkələrdə məxfi agentləri əməkdaşlığa cəlb etməli və düşmən ordusunun döyüş hazırlığı haqqında məxfi məlumatları əldə etməli idilər. II Fridrixin özünün etibarlı aşpazı və yüzlərlə başqa agentləri var idi. O, bu agentləri **aşağıdakı kateqoriyalara** bölürdü:

*1)* ***vacib agentlər*** *— yüksək vəzifəli məmurlar, dövlət sirlərinə "əli çatan" saray xadimləri;*

*2)* ***adi agentlər****, az pulla gizli tapşırıqları yerinə yetirən, əsasən kasıb təbəqə nümayəndələri;*

*3)* ***məcbur edilən agentlər****, onlar hakimiyyətin təzyiqləri altında gizli tapşırıqların yerinə yetirilməsinə məcbur edilirlər;*

*4)* ***ikili agentlər*** *– ifşa edildikdən sonra əməkdaşlığa razılıq verən düşmən casusları.*

Adətən onlar öz birinci rəhbərlərinə dezinformasiya vermək üçün istifadə edilirdi. Hər bir agent kateqoriyası “kral filosofun” fikrincə (II Fridrix özünü belə adlandırırdı) xüsusi psixoloji hazırlıq və təlimatlandırma şəraitini tələb edirdi, bunların arasında şirnikləndirmə və məcburetmənin (yaxınların cəzalandırılması ilə hədə və s.) uzlaşdırılması kimi metodlar da var idi.

Bu hədlərə görə ayırma ümumi xarakter almışdı. Təsadüfi deyil ki, xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən şəxslər arasında “Robinzon Kruzo” kitabının müəllifi Daniel Defo; “Fiqaronun evlənməsi”, “Sevilya bərbəri” əsərlərinin müəllifi Karon de Bomarşe; Uolt Disney və s. kimi məşhur adamlar var.

Mövcud olan tədqiqat materialları və bütün qeyd edilənlər belə bir fikri təsdiq etməyi əsaslandırmağa imkan verir ki, ƏAF-nin imkanlarından insan cəmiyyətinin yarandığı dövrdən istifadə olunmağa başlanmışdır və ona görə də o qədim tarixə malikdir. Bununla yanaşı, bu fəaliyyət sahəsində elm digər elmlərlə müqayisədə çox gəncdir və onun tədqiq olunub öyrənilmə aspektlərinin həcmi çox böyükdür.

Baxmayaraq ki, XXI əsrin əvvəlində elmi-texniki tərəqqinin təsiri altında kəşfiyyat, əks-kəşfiyyat və axtarış işi üçün maraq kəsb edən şəxslər və faktlar haqqında məxfi informasiyanın toplanması, analizi və saxlanması üçün informasiya texnologiyalarından ƏAF sahəsində fəal istifadə edilir, dövlət təhlükəsizliyinə və vətəndaşların konstitusion hüquq və azadlıqlarına qəsdlərlə mübarizədə çoxəsrli sınaqlardan keçmiş agentura metodu ən səmərəli vasitə kimi qalmaqda davam edir və çox mühüm əhəmiyyət kəsb edir.

## § 2. Əməliyyat-axtarış fəaliyyətinin ilkin vəziyyəti, sosial rolu və digər qovuşuq fəaliyyət növləri ilə qarşılıqlı münasibəti

**Əməliyyat-axtarış fəaliyyətinin qanuni və elmi tərifi**. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda əməliyyat**-axtarış fəaliyyəti** - müvafiq dövlət orqanları tərəfindən **aşkar və qeyri-aşkar üsullarla** bu Qanunla **müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi üzrə fəaliyyət növü kimi** müəy-

yönləşdirilmişdir. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanları öz səlahiyyətləri hüdudlarında əməliyyat-axtarış tədbirləri keçirilməsi vasitəsilə insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən birbaşa müdafiə etmək məqsədi güdürlər. Azərbaycan Respublikasının hüquq-mühafizə və xüsusi xidmət orqanlarının əməliyyat-axtarış fəaliyyəti dedikdə nə başa düşülür?

**Fəaliyyət** - özlüyündə **məşğuliyyət, iş** və yaxud **əməl** mənasında başa düşülür. Bu mənada əməliyyat-axtarış fəaliyyəti - müvafiq dövlət orqanlarının aşkar və qeyri-aşkar üsullarla gerçəkləşdirdiyi qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinin xüsusi forması, o cümlədən həm də xüsusi sosial vəzifələrin yerinə yetirilməsinə yönəldilmiş səlahiyyətli dövlət orqanının dövlət hüququ ilə müəyyən edilmiş ictimai faydalı fəaliyyətinin hüquqi mahiyyət daşıyan bir növüdür. Bu fəaliyyəti cinayətkarlığa qarşı dövlət-hüquqi mübarizənin bir forması kimi də qiymətləndirmək düzgün olardı.

Digər baxımdan ölkəmizin əməliyyat-axtarış orqanlarının əməliyyat-axtarış fəaliyyəti - dövlətin hüquq-mühafizə fəaliyyətinin bir növüdür. Ancaq Azərbaycan Respublikası özünün qanunverici, icra və məhkəmə hakimiyyətlərinin ali orqanlarının simasında (onların səlahiyyətləri hüdudlarında) hər hansı subyektə əməliyyat-axtarış fəaliyyəti həyata keçirmək hüququ verə, onlara müəyyən vəzifələr həvalə edə və əməliyyat-axtarış fəaliyyətində qanunvericilik normalarının tətbiqinə nəzarət edə bilər. Lakin əməliyyat-axtarış fəaliyyətinin qanuniliyinin bəyan edilməsi hələ onun hüquqi fəaliyyət kimi dərk olunması üçün kifayət etmir.

**Əməliyyat-axtarış fəaliyyətinin elmi tərifi**. Bu fəaliyyətin nəzəriyyəsinə əsaslanaraq belə bir məqsədyönlü nəticəyə gəlmək olar ki, bu elmi tərif sözün **məhdud** və **geniş** mənalarında başa düşülməlidir.

Azərbaycan Respublikasında əməliyyat-axtarış fəaliyyəti, sözün **məhdud** mənasında, qanunvericiliyin səlahiyyət verdiyi subyektlərin **insanı, cəmiyyəti və dövləti** cinayətkar qəsdlərdən müdafiəsi zamanı qarşıya çıxan obyektiv çətinliklər nəticəsində və yaxud digər qanuni vasitələrin gerçəkləşdirilməsi ilə bu məqsədə nail oluna bilmədikdə, xüsusi qüvvələrin, vasitələrin və metodların gizli və aşkar tətbiqinin, həmçinin əməliyyat-axtarış hərəkətlərinin yerinə yetirilməsinin və əməliyyat cəhətdən mühüm olan qərarların qəbul edilməsinin ölkə qanunvericiliyinə əsaslanan **davranış aktları sistemindən ibarət sosial əhəmiyyətli dövlət hüquqi fəaliyyət növlərindən biridir.**

Sözün geniş mənasında isə əməliyyat-axtarış fəaliyyətinin tərifində onun əsas subyektiv ünsürlərindən birinin – **məqsədinin** məzmunu dəyişir, genişlənir. Onun məhdud mənası (qanunla mühafizə olunan obyektlərin cinayətkar qəsdlərdən müdafiəsi) ilə yanaşı, əhalinin, dövlət mülkiyyətinin, vətəndaşların mülkiyyətinin, təhlükəsizliyinin təminatı məqsədi əməliyyat-axtarış fəaliyyətinin mənasını genişləndirir.

Beləliklə, əməliyyat-axtarış fəaliyyətinin məzmununun müəyyənləşdirilməsində iki qrup əlaməti ayırmaq olar: obyektiv və subyektiv əlamətlər. **Subyektiv əlamətlər** daima hərəkətdə, dəyişkən olanlardır. Onlar qanunvericinin iradəsindən asılı olaraq dəyişdirilə bilər. Subyektiv əlamətlərə aiddir: belə fəaliyyətin bu və ya digər məqsədinin **məhdud** və ya **geniş** müəyyən edilməsi; əməliyyat-axtarış fəaliyyətində ictimai münasibətlərin (bütövlüklə və yaxud bir hissəsinin) qanun səviyyəsində tənzimlənməsi şəraiti; bu və ya digər xüsusi qüvvə, vasitə və metodların (əməliyyat-axtarış hərəkətlərinin həyata keçirilməsi) tətbiqinin qadağan edilməsi və yaxud əksinə, onların keçirilməsinə icazə verilməsi; əməliyyat-axtarış fəaliyyətində aşkarlığın (və ya konspirativliyin) hüdudlarının müəyyən edilməsi.

Əməliyyatrialarış fəaliyyətinin müəyyən edilməsinin **obyektiv əlamətlər** qrupu həmçinin öz aralarında bir-birinə bağlı (və subyektiv əlamətlər) olan şərtlərdən (çətinliklərdən və yaxud qarşıya qoyulmuş məqsədə digər qanuni tədbirlərdən istifadə etmək yolu ilə nail olmaq mümkün olmadıqda) və əməliyyat-axtarış fəaliyyətinin gerçək məzmununu səciyyələndirən əlamətlərin məcmusundan yaranır. Əməliyyat-axtarış orqanlarının təcrübəsini əks etdirən belə əlamətlərin dəstini hər hansı bir subyektin (xüsusilə qanunvericinin) iradəsi ilə inkar etmək mümkün deyil.

Xüsusilə vurğulamaq yerinə düşərdi ki, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan əməliyyat-axtarış tədbirlərinin tətbiqi (10-cu maddənin I hissəsinin 3-5, 8, 9 ( texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə) və 10-cu bəndləri CPM-in 445.1.5, 446.2 maddələri qanunverici tərəfindən birmənalı olaraq xüsusi şərtlərlə məhdudlaşdırılır və göstərilir ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri qanunla müəyyən edilmiş qaydada qeyd olunan əməliyyat-axtarış tədbirlərini, *nəzərdə tutulmuş məqsədlərə başqa qanuni vasitələrlə nail ola bilmədikdə,* məhkəmənin qərarı əsasında həyata keçirə bilərlər. Əslində, burada əməliyyat-axtarış fəaliyyətinin keçirilməsinə **ehtiyac** əsaslandırılmış sosial şəraitin **son zəruriyyətindən** doğur. Özü də qanuni vasitələrin, üsulların və

tədbirlərin istifadə edilməsi adı altında ilk növbədə "ƏAF haqqında" Qanun və Cinayət-Prosessual Məcəllə ilə nəzərdə tutulan müvafiq müddəalar başa düşülməlidir. Təbii ki, belə bir mühüm amili nəzərə almaq lazımdır ki, əməliyyat-axtarış fəaliyyətinin mənəvi-əxlaqi əsasları onun tətbiqində məhdudiyyət prinsipinin qanunvericilik qaydasında müəyyənləşdirilməsini və möhkəmləndirilməsini tələb edir. Bu prinsip qanunla nəzərdə tutulmuşdur.

Əməliyyat-axtarış fəaliyyətinin elmi anlayışlarının məzmunu bir sıra tanınmış alimlər tərəfindən bəzi dəyişikliklərlə və mahiyyət etibarilə yaxın olan məzmunda ifadə olunmuşdur. Lakin ƏAF-nin qanunda əhatə edilən məzmun ilə nəzəriyyədə olan məzmun arasında bir sıra təcrübə ilə uzlaşmayan ciddi qüsurlar mövcuddur[1].

**«Əməliyyat-axtarış fəaliyyəti» məfhumu haqqında**. "Əməliyyat-axtarış fəaliyyəti" məfhumunun məzmunu və onun işlənməsi haqqında bəzi təsəvvürləri şərh etmək yerinə düşərdi. Əsasən bütün məxfi fəaliyyətin mahiyyətini nəzəri cəhətdən bir məfhumla (Əməliyyat, cinayət axtarışı və s.) ifadə etmə cəhdləri mövcuddur. Son illərdə qəbul edilmiş qanunvericilik aktlarında ("ƏAF haqqında" Qanunda, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda, "Cinayət Məcəlləsində", "Polis haqqında" Qanunda, "Gömrük Məcəlləsində" və s.) "Əməliyyat-axtarış fəaliyyəti" termini açıq ifadə edilir və təəssüf ki, heç də vahid məna daşımır.

"Əməliyyat" sözünün Azərbaycan dilində anlamı, ilk növbədə, hər hansı fəaliyyətlə, tədbirlə bağlı fəal və çevik yerinə yetirilən iş, dövri, sürətli hərəkəti bildirir. Məsələn, "cərrahiyyə əməliyyatı", "döyüş əməliyyatı", "əməliyyat keçirmək", "xüsusi əməliyyat", "sərhəd əməliyyatı" və s. Bu ifadələrdə yuxarıda göstərdiyimiz mənalar öz əksini tapır. Lakin dövlət orqanlarının xüsusi bölmələrinə verilən ad kimi, məsələn, "Əməliyyat orqanı", "Əməliyyat-axtarış orqanı", "Əməliyyatçı", "Əməliyyat-axtarış fəaliyyətinin qüvvəsi", "Əməliyyat-axtarış fəaliyyətinin vasitəsi", "Əməliyyat tədbiri" və s. mənalarda işlədilən "Əməliyyat" sözü xüsusi orqanları və onlara məxsusluğu bildirir ki, bu da əvvəlki mənadan köklü surətdə fərqlənir. "Əməliyyat" sözünün "əmələ", "əməli" formaları var ki, onlar "iş", "fəhlə", "işçi", "təcrübi" və s. anlayışları bildirir. Lakin xüsusi orqanlara məxsusluq bildirmə ərəb dilindən alınma bu sözün tarixi anlamında rastımıza gəlməmişdir. Bu gün bu sözün müasir "əməliyyatçı" mənası rus dilindən hərfi tərcümədir və artıq ana dilimizdə

1 S.İ.Hüseynov. Əməliyyat – axtariş fəaliyyəti anlayışı və onun strukturu ilə bağlı aktual məslələr. AMEA. Fəlsəfə və STHİ, elmi əsərlər.№2. Bakı,2006

tam hüquqla rus dilindəki "operativnıy" sözünün demək olar ki, bütün çalarlarını əks etdirir. "Əməliyyat" - vətəndaşlıq pasportu almış bir istilah kimi ölkəmizin hüquq-mühafizə orqanları, dövlət sərhədi və hərb elmi sahələrində müxtəlif mənalar daşıyır. Məsələn, Silahlı Qüvvələrdə əməliyyat şöbəsi döyüşün təşkili və aparılması ilə bağlıdırsa, Daxili İşlər Nazirliyi sistemində, Milli Təhlükəsizlik Nazirliyində (DTX və XKX), Dövlət Sərhəd Xidmətində və s. Əməliyyat şöbəsi xüsusi fəaliyyətlə məşğul olan qurum anlamındadır. Lakin aşağıda gətirəcəyimiz nümunədə "Əməliyyat" termininə bir qədər də diqqət yetirək.

"Əməliyyat-axtarış fəaliyyəti" anlayışı daha geniş məna daşıyır və özündə əməliyyat orqanının bütün xüsusi fəaliyyətini ehtiva edir. Nəzəri cəhətdən belə çıxır ki, qanunvericinin tələbinə görə, **əməliyyat orqanlarının əməliyyat-axtarış fəaliyyəti dedikdə burada həm də digər fəaliyyət növlərini, o cümlədən əməliyyat vasitələrinin qeyri-aşkar istifadə edildiyi təhqiqat və s.** başa düşülməlidir (burada nəzərə almaq lazımdır ki, sadaladığımız məsələlərlə bağlı digər qanunlar respublikada hələlik qəbul edilməmişdir). Deməli, əməliyyat-axtarış prosesi özündə həm əməliyyat axtarışını, həm kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini, həm də təhqiqat-icraat məsələlərini vahid bir anlayışda birləşdirmək imkanına malikdir.

**Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti - qanun və qanunqüvvəli normativ aktlar əsasında xüsusi səlahiyyətlər verilmiş əməliyyat aparatları, vəzifəli şəxslər və digər qüvvələr tərəfindən, əsas etibarilə qeyri-aşkar qaydada, onlara məxsus olan vasitə, metod və formalar tətbiq etməklə cinayətkarlığa qarşı səmərəli mübarizə aparmaq məqsədilə həyata keçirilən kəşfiyyat-axtarış tədbirlərinin elmi təşkil edilmiş sistemidir.**

Beləliklə, dərslikdə əməliyyat-*axtarış orqanlarının* **əməliyyat-axtarış fəaliyyəti** *adı altında həmin orqanın bütün xüsusi fəaliyyətinin nəzərdə tutulmasının* məqbul sayılması hazırkı dövr üçün məqsədəuyğundur (mövcud qanunvericilikdə boşluqları nəzərə almaqla).

**Əməliyyat-axtarış fəaliyyətinin növləri və istiqamətləri**. Bu fəaliyyətdə müxtəlif hüquqi münasibətlərin mövcudluğu onun müəyyən növlərə ayrılmasına imkan verən məcmu xüsusiyyətlərə malik olmasına şəhadət verir. Onlardan əsasları aşağıdakılardır:

1) əməliyyat-axtarış prosesi (sırf əməliyyat-axtarış işi kimi);

2) inzibati əməliyyat-yoxlama işi, yəni əməliyyat-axtarış qüvvələri, vasitələri, metod və hərəkətləri ilə inzibati-hüquqi rejimlərin təminatı.

Bu və ya digər məsələlərin həllindən asılı olaraq əməliyyat-axtarış fəaliyyətinin əsas növlərinin hər biri özü də daxilən digər bölgülərə ayrılır. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunda onlardan bilavasitə göstərilənlərin mahiyyəti ondan ibarətdir ki, onların vəzifələri aşağıda həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətlə bağlıdır:

– ictimai təhlükəli hüquqazidd (cinayət xarakterli) əməllərin törədilməsinin qarşısının alınması ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinin III hissəsinin 1-ci bəndi);

– törədilmiş cinayətlərin aşkar edilməsi və açılması ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinin III hissəsinin 2-ci bəndi);

– cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinin III hissəsinin 3-cü bəndi);

– məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və itkin düşən şəxslərin axtarılması ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinin III hissəsinin 4-cü bəndi);

– naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi («Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 1-ci maddəsinin III hissəsinin 5–ci bəndi). Onu da qeyd etmək lazımdır ki, MDB–yə daxil olan bir neçə ölkənin, o cümlədən RF–nın anoloji qanunlarında sonuncu göstərilmir və onun yerinə ƏAF-nin digər növləri (xas olmayanları) dəyərləndirilir. Məsələn, RF-nın ƏAF haqqında Qanununun 2-ci maddəsinin 3-cü abzasında onlardan biri kimi Rusiya Federasiyasının dövlət, hərbi, iqtisadi və ekoloji təhlükəsizliyinə hədə yaradan hərəkət və hadisələr haqqında məlumatların toplanması göstərilmişdir (zənnimcə ona görə əsaslı deyil ki, bu istiqamətdə informasiyanın əsas toplanma üsulu kəşfiyyat və əks-kəşfiyyat işidir).

**Əməliyyat-axtarış fəaliyyətinin məzmununun ünsurləri (elementləri)**. Əməliyyat-axtarış fəaliyyətinin məqsəd və vəzifələrini, obyekt və subyektlərini, forma və növlərini, vasitələrini metod və hərəkətlərini aydınlaşdırmadan və həmçinin əməliyyat-axtarış prosesini, onun mərhələlərini və qarşılıqlı əlaqədə olan başqa məsələləri müəyyənləşdirmədən onun məzmununu açmaq mümkün deyil. Əməliyyat-axtarış fəaliyyətinin məzmununun tədqiq edilməsində onun çoxtərəfi xassələrə ma-

lik olması xüsusi çətinlik yaradır. Əməliyyat-axtarış fəaliyyətinin bu xüsusiyyəti (sözün müfəssəl mənasında) özünü dövlətin qarşıya qoyduğu məqsədlərə nail olunması üçün xüsusi qüvvə və vasitələrin tətbiqinin ən təsirli imkanlara malik olmasında göstərir. Beləliklə, sosial-hüquq sisteminin müəyyən tərkib hissəsi kimi əməliyyat-axtarış fəaliyyəti cəmiyyətin sosial-siyasi quruluşunun mahiyyətindən asılı vəziyyətdədir. Elə buna görə də **xüsusi** *xidmətlərin-və-orqanların-əməliyyat-a xtarış-fəaliyyəti-dövlət- siyasətinin-sistem-mahiyyətinin-xüsusi-elem enti,-müasir-dövr-üçün-onun-ayrılmaz-hissəsi,-subyektlərinin-faktiki-sayları-ilə-qarşılıqlı-bağlı-olan-vəzifələri-yerinə-yetirmək - və-məqsədlərinə-çatmaq-üçün-xüsusi-qüvvələr,-vasitələr-və-metodların-tətbiq i-vasitə-silə-həyata-keçirilən-* **dövlət fəaliyyətidir**.

Bu fəaliyyət **gizli-aşkar gerçəkliyin nəzəri dərkinin və əməliyyat-axtarış münasibətlərinin əməli tətbiqinin vəhdətini səciyyələndirən fəaliyyətdir**. Onun sözün geniş və məhdud mənalarında qavranılmasından asılı olaraq kifayət qədər mürəkkəb sosial hüquq sistemi olan əməliyyat-axtarış fəaliyyətində bu və ya digər istiqamətləri ayırd etmək olar. Onlar çoxyönlü (çoxaspektli), çoxsaylı olsalar da, sistemləşdirilməyə qabildirlər (**sistem nəzəriyyəsi** açıq, homestatik hüdudlardır, yəni sistemləşmə, özünütənzimləmə qanunauyğunluqlarına tabedir və bütöv sistemin ünsürlərini özündə ehtiva edir) . Əməliyyat–axtarış fəaliyyətində əməliyyat-axtarış, sosial-siyasi və mənəvi-əxlaqi xüsusiyyətlərin nəzərə alınması həm nəzəri, həm də əməli cəhətdən olduqca vacibdir.

**Əməliyyat-axtarış fəaliyyətinin müxtəlif yönəmləri (aspektləri) aşağıdakı kimi səciyyələndirilə bilər:**

*–-əməliyyat-a xtarış-fəaliyyəti-mühafizə-obyektlərini-qorumaq-üçün-xüsusi-qüvvə- və-vasitələrin-tətbiqinə-yönəldilmiş-bilavasitə-əməli-iş-kimi;*

*–dövlət-hakimiyyəti-orqanlarının-informasiya-ilə-təmin-edilməsinə-yönəldilm iş- məlumatlandırma-işinin-tərkib-hissəsi-kimi;*

*– əməliyyatçıların- əməli- işinin- idarə- edilməsində- gerçəkləşd irilən- təşkilatçılıq- fəaliyyəti-kimi;*

*–-əməliyyat-a xtarış-fəaliyyəti-iştirakçılarının-hüquq i-məd ən iyyətin in,-o-cümləd ən- bütöv-cəm iyyətin-hüq uq i-məd ən iyyətin in-yüksəld ilm əsin ə-yön əld ilm iş-tərb iyəvi-işin- mühüm-tərkib-hissəsi-kimi;*

*–elmi-iş-kimi;*

*– əməliyyat-axtarış fəaliyyətində elmin əldə etdiyi biliklərin əməli tətbiqinə yönəldilmiş pedaqoji fəaliyyət kimi.*

Gördüyümöz kimi, əməliyyat-axtarış fəaliyyəti çoxtərəfi, çoxyönlüdür. Gəlin burada əməliyyat-axtarış fəaliyyətinin məzmununun bəzi əlamətlərini nəzərdən keçirək.

**Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi formaları**. Forma dedikdə, nəzərdə tutulan fəaliyyətin məzmununun zahiri ifadəsi başa düşülür. Əməliyyat-axtarış fəaliyyəti bir-birini tamamlayan iki formada - aşkar və qeyri-aşkar şəkildə aparılır. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən vəzifəli şəxslər mənsub olduqları dövlət orqanının maraqlarını rəsmi (aşkar) surətdə təmsil edir və ya onun adından çıxış edirlər. Bununla yanaşı əməliyyatçı və ya əməliyyat-axtarış fəaliyyətinin keçirilməsinə yardım edən şəxs "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə verilən öz səlahiyyətlərini qeyri-aşkar formada da yerinə yetirə bilər.

Cinayətkarlıqla mübarizədə aşkar qüvvə və vasitələrlə yanaşı, əməliyyat-axtarış fəaliyyətinin gizli qüvvə, vasitələri və metodlarından istifadə edilməsi dövlətin və cəmiyyətin müdafiəsinin təmin edilməsi məqsədi ilə həyata keçirilən məcburi tədbiridir. Bir qayda olaraq, qəsdən ağır və xüsusilə ağır cinayət hazırlayan və törədən şəxslər bu cinayətləri (xüsusilə banditizm, terrorizm, mütəşəkkil qruplaşmalarla bağlı cinayətlər, qaçaqmalçılıq, narkotik vasitələrin və strateji malların, silah-sursatın və sairənin qanunsuz dövriyyəsi ilə bağlı hallarda) kifayət qədər gizli, konspirativ üsullardan istifadə etməklə hazırlayırlar. Elə bu səbəblərə görə ölkə ictimaiyyəti və dövlət ictimai təhlükəli cinayət törədən şəxslərə qarşı qanuni əməliyyat-axtarış tədbirlər sisteminin tətbiq edilməsini nəinki bəyənir, həmçinin onu həyata keçirən nümayəndələrinə belə fəaliyyəti reallaşdırmağı qanunvericilik qaydasında birbaşa həvalə edirlər. Dövlət əməliyyat **fəaliyyətinə** münasibəti liberallaşdırmasaydı, onu qanuniləşdirməsəydi, məxfi üsullardan və gizli metodlardan, əməliyyat-axtarış tədbirləri sistemindən istifadə etməklə müxtəlif gizli, mürəkkəb fəndlərin tətbiqi vasitəsilə qəsdən cinayət törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının, cəzanın labüdlüyü prinsipinin təminatı xeyli dərəcədə çətinləşmiş olardı.

**Əməliyyat-axtarış fəaliyyətinin sosial əhəmiyyəti**. Əməliyyat-axtarış fəaliyyəti öz predmetinin sərhədləri çərçivəsində Azərbaycan Respublikasında hüququn, hüquq-mühafizə (sosial) vəzifəsinin gerçəkləşdirilməsinin təminatına, yəni ona məx-

sus xüsusi vasitələrlə vətəndaşı, dövləti, cəmiyyəti cinayətkar qəsdlərdən müdafiə etməyə doğru yönəldilmişdir. Əməliyyat-axtarış fəaliyyətinin sosial əhəmiyyəti də elə bundadır.

**Əməliyyat-axtarış fəaliyyətinin qovuşuq fəaliyyət növləri ilə müştərək (qarşılıqlı) münasibətləri**. İctimai həyatın nisbətən müstəqil hadisəsi kimi əməliyyat-axtarış fəaliyyətinin mahiyyətini və məzmununu araşdırmaq üçün onunla qovuşuq hadisələrin müqayisəli təhlilini aparaq. Kifayət qədər geniş əhatə dairəsindən günümüz üçün ən aktual sayılan əməliyyat-axtarış fəaliyyətini xəfiyyə (detektiv) və s. fəaliyyət növləri ilə müqayisə edək (qeyd edilənlərlə yanaşı, ƏAF dövlət fəaliyyəti, əməliyyat işçilərinin hüquqi davranışı və hüquqi fəallığı və s. kimi hadisələrlə müqayisə etmək olar və bu zəruri hesab olunur).

**Əməliyyat-axtarış və sosial fəaliyyət**. Həyat təcrübəsi və əməliyyat-axtarış fəaliyyəti sahəsində nəzəri biliklərə əsaslanaraq hesab emək olar ki, əməliyyat-axtarış fəaliyyəti insan fəaliyyətinin sosial faydalı bir növüdür. Bunun həqiqətdə də belə olmasını əyani olaraq aşağıdakı əsalandırılmış mülahizələrlə təsdiq etmək olar.

**Sosial fəaliyyət** – cəmiyyətin sosial təşkilatının müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə müəyyən sosial məqsədlər və maraqlar güdən və bu məqsədlərə nail olmaq, maraqları gerçəkləşdirmək naminə subyektlərin (müxtəlif təbəqənin, qrupun, şəxsiyyətin) həyata keçirdikləri bu və ya digər iqtisadi, sosial, siyasi və ideoloji sahədə sosial əhəmiyyətli hərəkətlərinin məcmusudur. Aydın məsələdir ki, sosial fəaliyyət cəmiyyət üçün həm faydalı, həm də zərərli ola bilər. Sosial fəaliyyətin mənfi halları yaxşı məlumdur. Buraya hüquqazidd ictimai təhlükəli əməllər, habelə müxtəlif neqativ sosial-hüquqi fəaliyyət (korrupsiya, terrorizm, qaçaqmalçılıq, narkomaniya, insan alveri, təxribat və s.) və sosial sapmalar (süründürməçilik, əxlaq sahəsində pozuntular və s.) daxildir. Müvafiq sahələrin mütəxəssisləri (hüquqşünaslar, sosioloqlar, kriminoloqlar, ekspertlər və s.) müxtəlif mənfi sosial-hüquqi təmayüllər haqqında az yazmayıblar. Lakin təcrübəmiz və son illərin tədqiqat xarakterli, bir sıra kontent təhlili göstərir ki, əməliyyat-axtarış fəaliyyətinin hüquq baxımından antisosial kateqoriyaya aid edilməsi üçün kifayət qədər əsas yoxdur. Buna baxmayaraq, mənəviyyat zəminində sapmalarla (pozğunluqlarla) bağlı məsələlərin araşdırılmasında çatışmazlıqlar hələ az deyil.

Mənəvi-əxlaqi pozuntuları müxtəlif üsullar və əsaslar üzrə şərti olaraq təsnifləşdirmək olar. Bu zaman məsələnin normativ və əxlaqi tərəfərinin nəzərə alınması

mühüm məna kəsb edir. Təsnifəşdirmə probleminə normativlik müstəvisindən yanaşdıqda, sosial tənzimlənən sistemin ən azı aşağıdakı tərkib hissələri arasında müxtəlif münasibət (müsbət və ya mənfi) variantları nəzərə almaq vacibdir: a) fərdi əxlaqi normaları; b) əxlaq normaları və prinsipləri haqqında hamılıqla qəbul edilmiş təsəvvürlər (bura ictimai adətlər, əxlaqi dəyərlər, ənənələr və s. daxildir); c) cəmiyyətin ali məqsədi və mənəvi və əxlaqi ideallar. Sadaladığımız mənəvi-əxlaqi normaların əməliyyat-axtarış fəaliyyəti ilə qarşılıqlı münasibətində yer ala bilən *bəzi uyğunsuzluqlar bu fəaliyyətin mənəviyyata zidd səciyyə daşıması* haqqında əsassız düşüncələr, mübahisələr doğurur və beləliklə, onun gizli xarakter daşıyan hissəsinin ləğv olun-ması tələbini qarşıya qoyur.

Mənəviyyat probleminin məqsədi və ona nail olma vasitələrindən istifadə xüsusi xidmət, hüquq-mühafizə orqanları əməliyyatçılarının qeyri-aşkar fəaliyyətində ən ağrılı məsələlərdən biridir. Cəmiyyətin fəal sosial üzvləri vətəndaşın qeyri-humanist, ictimaiyyətə zidd əməllərdən müdafiə edilməsində əməliyyat-axtarış fəaliyyətinin, bütün başqa imkanlar tükəndikdən sonra həyata keçirilən məcburi vasitə olduğunu anlayırlar. Dövlətin və milli təhlükəsizliyin, daxili təhlükəsizliyin, bir sözlə, cəmiyyətin təhlükəsizliyinin təmin və cinayətkar qəsdlərdən mühafizə edilməsində *qanunla müəyyən olunmuş digər vasitələr (xüsusilə CPM ilə nəzərdə tutulanlar) nəticə vermədikdə və ya verməyəcəyi hallarda əməliyyat-axtarış tədbirləri keçirilir.*

**Əməliyyat-axtarış və əks-kəşfiyyat fəaliyyəti**. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsi məqsədilə (ölkə milli qanunvericiliyin tələbləri rəhbər tutulmaqla) dövlətin bir sıra xüsusi orqanları əks-kəşfiyyat fəaliyyəti həyata keçirmək səlahiyyətinə malikdirlər. **Əks-kəşfiyyat fəaliyyəti - dövlət təhlükəsizliyi orqanlarının onlara qanunla həvalə edilmiş səlahiyyətləri hüdudunda xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, həmçinin ayrı-ayrı şəxslərin kəşfiyyat və digər fəaliyyətinin Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə qəsdlə bağlı niyyətlərini və əməllərini aşkar etmək, qabaqlamaq və onların qarşısını almaq üzrə fəaliyyətidir.** Bu fəaliyyət Azərbaycan Respublikası xüsusi xidmət orqanlarının fəaliyyət növüdür. Onun mahiyyəti dövlət təhlükəsizliyini təmin etmək məqsədilə xarici dövlətlərin xüsusi xidmətlərinin, xarici təşkilatların və onların nümayəndələrinin kəşfiyyat-təxribat fəaliyyətinə qarşı (bir qayda olaraq konspirativ vasitələrlə və üsullarla) mübarizə aparmaqdan ibarətdir.

**Ayrıca olaraq əməliyyat-axtarış fəaliyyətinin əks-kəşfiyyatdan əsas fərqlərini nəzərdən keçirək:**

*– birincinin məqsədi – dövləti, cəmiyyəti cinayətkar qəsdlərdən mühafizə etmək, ikincinin məqsədi isə – Azərbaycan Respublikasının təhlükəsizliyini xarici xüsusi xidmətlərin və təşkilatların ölkəmizin mühüm həyati mənafelərinə qarşı apardıqları kəşfiyyat təxribat və digər fəaliyyətə əks təsir göstərmək vasitəsi ilə təmin etməkdir;*

*– ölkəmizin qanunvericiliyi ilə əməliyyat-axtarış fəaliyyəti həyata keçirən subyektlərin dairəsi əks-kəşfiyyat işi aparan dövlət orqanlarının dairəsindən olduqca genişdir;*

*– əməliyyat-axtarış fəaliyyətinin ümumi və əsas qaydaları "əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun normalarında əks etdirilmişsə, əks-kəşfiyyat fəaliyyəti isə daha təfərrüatı ilə "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" Qanunla və digər müvafiq aktlarda öz əksini tapır;*

*– əks-kəşfiyyat fəaliyyəti əksəriyyətcə əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi yolu ilə həyata keçirilir. Eyni zamanda, əks-kəşfiyyat işinə digər xüsusi tədbirlər məcmusu daxildir ki, onların bir qismi bəzi inzibati hüquqi rejimlərin (Azərbaycan Respublikası ərazisinə xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin gəlmə və burada olma rejimi və s.) təmin edilməsinə doğru yönəldilmişdir. Beləliklə, MTN (yeni struktur dəyişikliyi ilə əlaqədar DTX və XKX) orqanlarında* ***əməliyyat-axtarış fəaliyyəti həm müstəqil fəaliyyət (cinayətkarlığa qarşı əsas mübarizə növü kimi) və həm də əks-kəşfiyyat fəaliyyətinin bir hissəsi kimi*** *mövcuddur.*

**Azərbaycan Respublikası əməliyyat-axtarış, kəşfiyyat, əks-kəşfiyyat (DTX XKX) və ƏAF-nın digər subyektlərinin fəaliyyətlərinin əlaqəsi**. Bəzi MDB ölkələrinin qanunvericiliyində ilk dəfə olaraq kəşfiyyat fəaliyyəti anlayışının açıqlamasına cəhd göstərilmişdir. "Xarici kəşfiyyat haqqında" RF-nin Qanununda qeyd edilir ki, **kəşfiyyat fəaliyyəti - dövlətin təhlükəsizliyini potensial və ya gerçək təhlükə altında qoyan xarici dövlətlərin və xarici təşkilatların (onların nümayəndələrinin) niyyətləri, planları və tədbirləri haqqında informasiya əldə etmək məqsədilə xüsusi qüvvələrin, vasitələrin və metodların sistem halında tətbiqi ilə həyata keçirilən xüsusi fəaliyyətdir.**

Yuxarıdakı tərifdən belə çıxır ki, kəşfiyyat fəaliyyətinin özünəməxsus hədəfi var və o, əməliyyat-axtarış fəaliyyətinin məqsədindən fərqlənir. O, əsasən Azərbaycan Res-

publikasının hüdudlarından kənarda (bu özü onu əməliyyat-axtarış fəaliyyətindən fər-

qləndirir) həyata keçirilir. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi ilə bağlı **kəşfiyyat fəaliyyətinin "tərəfləri" (subyektləri və obyektləri)** bir yandan (ölkənin kəşfiyyat fəaliyyəti aparan əməliyyat orqanları nümayəndələrinin şəxsində) müvafiq mərkəzi icra hakimiyyəti strukturları, digər tərəfdən isə Azərbaycan Respublikasının milli təhlükəsizliyi konsepsiyasına uyğun olaraq dövlət siyasəti ilə müəyyən edilən həmsərhəd və ya digər dövlət (dövlətlər) yaxud orada fəaliyyət göstərən beynəlxalq təşkilatdır. Müasir demokratik ölkələrin qanunvericilik təcrübəsində xarici kəşfiyyat fəaliyyəti xüsusi qanunla tənzimlənir ki, onun müddəaları əməliyyat-axtarış fəaliyyətinə aid edilmir. Lakin Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, dövlət sərhədi və sərhəd xidməti, habelə bir sıra digər sahələr haqqında normativ hüquqi aktlarda əməliyyat orqanlarının kəşfiyyat fəaliyyəti ilə bağlı özünəməxsusluqlar mövcuddur.

Kəşfiyyat istilahı birbaşa təyinatına görə, sözün geniş mənasında da, o cümlədən axtarış, xəfiyyəçilik ünsürü anlamında da işlədilir. Əməliyyat-axtarış fəaliyyəti və ya kəşfiyyat anlayışlarından hansı birinin daha geniş mənaya malik olması haqqında həmişə mübahisə getməsinə baxmayaraq, nəzərə alınmalıdır ki, əməliyyat-axtarış fəaliyyəti, böyük əksəriyyətlə kəşfiyyat xarakteri daşıyan həm aşkar və həm də gizli geniş tədbirlər kompleksini özündə ehtiva edir.

Sözsüz ki, geniş mənada kəşfiyyat həm məxfi, həm də açıq surətdə ən müxtəlif məlumatlar almaq üzrə və onları həyata keçirmək üçün son dərəcə bir-birindən fərqli vasitələri və metodları (radiokəşfiyyat, kosmik kəşfiyyat və s.) tətbiq etmək üzrə özündə şaxəli nəhəng fəaliyyəti əks etdirən, fövqəladə tutumlu anlayışdır. Bundan əlavə mübaliğəsiz demək olar ki, kəşfiyyat anlayışı müəyyən dərəcədə bütün bəşər tarixi boyu məlumat əldə etmək uğrunda mübarizənin çoxəsrlik təcrübəsinin inikasıdır.

Lakin cinayətkarlıqla mübarizə məsələlərinə tətbiq edilmə baxımından daha üstün mahiyyətə malik olan əməliyyat-axtarış fəaliyyəti anlayışı, müəlliflərin konseptual nəzər nöqtəsinə görə, kəşfiyyat anlayışından daha genişdir və təbii ki, bütün kompleks kəşfiyyat tədbirlərini, xüsusən həm təhlili (analitik) kəşfiyyatı, həm kompüter kəşfiyyatı, kriminal kəşfiyyatı (cinayətkarlar arasında istifadə edilən) terminindən, xarici ölkələrdə (Böyük Britaniya, ABŞ, Almaniya) və İnterpolun Baş Katibliyinin fəaliyyətində fəal istifadə edilir və adları çəkilən tədbirləri, həmçinin informasiya kəşfiyyatını özündə birləşdirir.

Əməliyyat-axtarış fəaliyyətinin üstünlüyü onunla bağlıdır ki, bu və ya digər **əməliyyat-axtarış kəşfiyyat tədbirlərinin keçirilməsi nəticəsində alınan məlu-**

**matların** dəyəri bilavasitə bu tədbirlərin hüquqi statusu ilə müəyyənləşdirilir. Çünki informasiya-*sübutayetirmə-səciyyəsinə-malik* olduqda, o, istintaq hərəkətlərində və bilavasitə məhkəmə prosesində cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq sübut vasitəsi kimi istifadə edilə bilər. Bu şərtlər əməliyyat-axtarış kəşfiyyat tədbirlə-rini kəşfiyyatın digər növlərindən fərqləndirir, onların keçirilməsi üçün qüvvədə olan qanunauyğun əsaslar, əldə edilmiş kəşfiyyat məlumatlarının müvafiq hüquqi qaydada rəsmiləşdirilməsi və sənədləşdirilməsini tələb edir.

Bu gün, yuxarıda qeyd edildiyi kimi Azərbaycan Respublikasında dövlətin və cəmiyyətin təhlükəsizliyinə qəsd etməklə həyata keçirilən mütəşəkkil cinayətkarlıq halları o dərəcədə güclü sosial-iqtisadi, transmilli və müəyyən mənada həm də siyasi hadisədir ki, onlarla mübarizədə ən müxtəlif metod və vasitələrin, o cümlədən informasiya texnologiyalarına əsaslanan kəşfiyyat tədbirləri məcmusunun tətbiq edilməsi məqbuldur.

Nəzərə almaq lazımdır ki, məhz kəşfiyyat-axtarış səciyyəli tədbirlər keçirməklə mütəşəkkil cinayətkarlığın törədə biləcəyi qəsdləri və təhlükələri daha real qiymətləndirməyə nail olmaq olar. Məsələn, Dövlət Sərhəd Xidməti əməliyyat orqanlarının əməliyyat-axtarış fəaliyyəti çərçivəsində keçirdiyi tədbirlər dövlət sərhədinin pozulması ilə bağlı cinayətlərin qarşısının alınmasına və təhqiqatına yönəldildiyi halda, kəşfiyyat tədbirləri cinayət-hüquq zəminindən kənarda yerləşən təhlükələrin aşkar edilməsini nəzərdə tutur. Təkcə kəşfiyyat fəaliyyəti çərçivəsində, o cümlədən, radioefirdə, informasiya sistemlərində, internetin qlobal kompüter şəbəkəsində və s. axtarış-kəşfiyyat (axtarış-kəşfiyyat tədbiri, əməli və anlayışı daha çox kəşfiyyat səciyyəlidir) tədbirləri keçirilə bilər. Nəhayət, kəşfiyyat fəaliyyəti əldə edilmiş məlumatların gerçəkləşdirilməsinin ən müxtəlif variantlarını (təkcə cinayət-prosessual fəaliyyəti çərçivəsində deyil) nəzərdə tutur ki, bu da mütəşəkkil cinayətkarlıqla mübarizədə qeyri-ənənəvi metodların işlənməsində fövqəladə mühüm əhəmiyyət kəsb edir.

Əməli işin bundan sonrakı təşkili hüquqpozuculuğa qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin artıq mövcud metod və üsullarının yeni informasiya-texniki istiqamətlərlə təmin edilməsindən asılı olacaqdır.

**Əməliyyat-axtarış və özəl axtarış (xəfiyyə, detektiv)**[1] **fəaliyyəti**. Özəl detektiv və mühafizə fəaliyyəti müasir Azərbaycan cəmiyyətinin gerçəkliyi üçün bir so-

1 Detektiv – ingilis və latın sözləri olub açıqlama kimi tərcümə edilir; cinayətlərin açılması ilə məşğul olan şəxs kimi başa düşülür; qanunvericiliyə müfaviq olaraq fərdi axtarış fəaliyyəti məşğul olmaq üçün lisenziya almış şəxs mənasında da açıqlanır.

sial-hüquqi hadisə kimi tamamilə yeni sahədir. Göstərmək yerinə düşərdi ki, xarici ölkələrdə özəl axtarışın (xəfiyyəçilik fəaliyyətinin) dərin tarixi kökləri var və hüquq-mühafizə orqanlarının bir sıra vəzifələrinin özəl axtarış şirkətlərinə verilməsi meylləri sabit şəkildə yüksəlməkdədir. Məsələn, ABŞ-da Şimalla Cənubun vətəndaş müharibəsi dövründə əks-kəşfiyyat məsələlərini həll etmək üçün özəl xəfiyyələrin cəlb edilməsi geniş yayılmışdı. Onlardan biri də Pinkerton idi ki, sonradan Şimali Amerika Birləşmiş Ştatları dövlətinin əks-kəşfiyyatına başçılıq etmişdir.

ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Yaponiya və bir çox başqa ölkələrdə tarixən və ənənəvi olaraq özəl xəfiyyəçilik (detektiv fəaliyyəti) kifayət qədər inkişaf etmiş xüsusi bir sahədir. Şimal qonşumuz Rusiyada özəl xəfiyyəçilik fəaliyyəti 1992-ci ildən qanuniləşdirilmişdir. Belə inkişafın səbəbləri əslində hüquq-mühafizə orqanlarının saxlanmasına dövlət büdcəsinin məsrəfərinin azaldılması imkanları ilə bağlıdır.

**Özəl xəfiyyəçilik müqavilə əsasında fiziki və hüquqi şəxslərə şirkətlər (xüsusi xəfiyyələr) tərəfindən ödənişli şərtlərlə müştərilərin qanuni hüquq və maraqlarını müdafiə etmək məqsədilə göstərilən fəaliyyət kimi** başa düşülməlidir. Bəzi ölkələrin qanunvericiliyinə görə özəl xəfiyyə fəaliyyəti həyata keçirənlərə hüquq-mühafizə orqanları əməkdaşlarının statusu aid edilmir. Bundan əlavə, özəl xəfiyyələr qanunla müstəsna olaraq əməliyyat bölmələrinin səlahiyyətinə daxil edilmiş bəzi əməliyyat-axtarış tədbirləri (insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı ƏAT istisna olmaqla) keçirmək hüquqları verilir. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa görə həm də "müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən əməliyyat-axtarış tədbirlərinin aparılması, habelə gizli qaydada məlumat alınması üçün nəzərdə tutulmuş xüsusi və digər texniki vasitələrdən istifadə olunması qadağandır."

Beləliklə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməliyyat-axtarış fəaliyyətinin özəl xəfiyyəçilikdən (detektiv fəaliyyətindən) fərqi aşağıdakılardan ibarətdir:

– əməliyyat-axtarış fəaliyyəti ancaq dövlət orqanları, özəl axtarış (xəfiyyəçilik) fəaliyyəti isə qeyri-dövlət strukturları və xüsusi şəxslər tərəfindən həyata keçirilir;

– əməliyyat-axtarış orqanlarının əməliyyat-axtarış fəaliyyətinin məqsədi - milli təhlükəsizliyin təminatı ilə bağlı insan həyat və sağlamlığını, hüquq və azadlıqlarını, cəmiyyəti, dövləti ictimai - təhlükəli əməllərdən müdafiə etməkdirsə, özəl xəfiyyələ-

rin (detektivlərin) məqsədi isə öz müştərilərinin qanuni hüquq və mənafelərini əvəzli əsaslarla müdafiə etmək üzrə hərəkətləri həyata keçirməkdir.

Bizim ölkəmizdə özəl xəfiyyəçilik fəaliyyəti qanunvericilikdə nəzərdə tutul-mamışdır.

Lakin həll etdikləri məsələlərin məzmununa görə əməliyyat-axtarış fəaliyyəti ilə özəl xəfiyyəçilik (axtarış) arasında oxşarlıq çoxdur. Özəl xəfiyyələr, bir qayda olaraq, itkin düşmüş şəxslərin axtarışı, hüquqi fakt və proseslərin iştirakçıları ilə müqavilə əsasında cinayət işləri üzrə məlumat toplamaqla və s. ilə məşğul olurlar. Dövlət mənafelərini qəsdlərdən mühafizə etmək və əlamətlərə görə cinayətkarları axtarmaq üzrə bənzər məsələlər əməliyyat-axtarış fəaliyyətində də həll edilir. *Özəl-xəfiyyə-axtarışı-ged işind ə* əməliyyat-axtarış tədbirlərinin bəzi növlərindən (məsələn, şəxslərin və vəzifəli şəxslərin sorğuları, arayışların alınması, əşya və sənədlərin öyrənilməsi, zəruri məlumat almaq üçün müşahidə və s.) istifadə edilir. Bir sıra qonşu ölkələrin qanunvericiliyinə görə xəfiyyələrə özlərini hüquq-mühafizə orqanlarının əməkdaşla-rı kimi təqdim etmək qadağan edilmişdir. Lakin onların özlərini başqa vəzifəli şəxslər kimi təqdim etmə imkanları saxlanılır. Bu minvalla qanunverici, əslində xəfiyyələrə qeyri-aşkar fəaliyyət göstərməyə şərait yaradır.

Şərh etdiyimiz mətndə özəl xəfiyyəçiliyə diqqət yetirməyimizin səbəbi bu vasitələrin əməliyyat-axtarış orqanlarının fəaliyyətində dövlət təhlükəsizliyinin təminatı və cinayətkarlığa qarşı mübarizə istiqamətində dəyərləndirilməsi, həmçinin belə özəl təsisatların bir sıra ölkələrdə təşəkkülünə önəm verilməsinə duyulan ehtiyacdan irəli gəlmişdir.

## § 3. Əməliyyat-axtarış fəaliyyətinin məqsədləri vəsifələri və funksiyaları

Dövlət cinayətkarlıqla mübarizədə hüquq-mühafizə fəaliyyətitnin müxtəlif növlərindən və onların tətbiqində müxtəlif üsul, forma və metodlardan istifadə edir.

Əməliyyat-axtarış fəaliyyəti dövlətin səlahiyyətli orqanları tərəfindən həyata keçirilən mübarizənin hüquqi formalarından biridir. Onu başqa mübarizə, üsul, forma və metodlardan fərqləndirən cəhət ondan ibarətdir ki, əməliyyat-axtarış fəaliyyəti prosesində səlahiyyətli orqanlar cinayətin qarşısının alınması, açılması, axtarışda olan cinayətkarların yaxalanmasında gizli qüvvə, vasitə, metod və tədbirlərdən ge-

niş istifadə edirlər. Beləliklə, **əməliyyat-axtarış fəaliyyəti** – cinayətlərin qarşısının alınması, açılması və axtarışda olan cinayətkarların yaxalanması, xəbərsiz itkin düşmüş şəxslərin axtarışı məqsədilə səlahiyyətli subyektlər tərəfindən qanun və digər normativ aktlara müvafiq qüvvə, vasitə, metod və tədbirlərdən istifadə etməklə, əsas etibarı ilə qeyri-aşkar üsullarla həyata keçirilən kəşfiyyat-axtarış tədbirlərinin sistemi kimi hüquq-mühafizə fəaliyyətinin bir növü kimi başa düşülür. Əməliyyat-axtarış fəaliyyəti anlayişının qısa məzmunu «ƏAF haqqında» Qanunun 1-ci maddəsində öz əksini tapmışdır. Lakin etiraf etmək lazımdır ki, bu anlayış ƏAF-nin məzmunu və mahiyyətini tam əhatə etmir, onları məhdudlaşdırır [1].

**Əməliyyat-axtarış fəaliyyətinin məqsədləri** – əməliyyat-axtarış fəaliyyətinin qüvvələrinin, vasitələrinin və bu fəaliyyətin digər iştirakçılarının əsas səylərinin yönəldiyi nəticələrin əldə edilməsinin düşünülmüş mahiyyətinin öncə görümüdür. Yəni əməliyyat-**axtarış fəaliyyətinin məqsədlərini** "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və sahələr üzrə qanunvericilik aktlarında göstərilən **obyektlərin cinayətkar qəsdlərdən mühafizəsi təşkil edir.**

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən və müvafiq sahələr üzrə qanunlarda öz əksini tapmış sosial faydalı məqsədlərə nail olmaq üçün əməliyyat fəaliyyətinin tənzimlənməsi istiqamətində qanunverici, dövlət təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyət kəsb edən mühüm mənafelərinin xarici və daxili təhlükələrdən qorunması ilə əlaqədar vəzifələrin yerinə yetirilməsini də xüsusilə vurğulayır. Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə uyğun olaraq insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. İnsan və vətəndaş haqlarının və azadlıqlarının etiraf edilməsi, onlara riayət olunması və onların müdafiəsi dövlətin vəzifəsidir. Dövlət (milli) təhlükəsizliyi ilə bərabər insan həyatı və sağlamlığının hüquq və azadliqlarının əməliyyat-axtarış fəaliyyətinin qüvvə, vasitələri və metodlarının köməyi ilə cinayətkar qəsdlərdən müdafiəsi Konstitusiyanın 12-ci maddəsi ilə hər bir şəxsin yaşamaq hüququ haqqında müddəasını real məzmunla daha da dolğunlaşdırır. Konstitusiyamızda təsbit edilən və onun zəmanət verdiyi insan və vətəndaş hüquq və azadlıqları cinayətkar qəsdlərdən qorunması anlamı onların dövlətimiz tərəfindən **mühafizə altına** alınmışı mahiyyətini daşıyır.

1 Bax: S.İ.Hüseynov "ƏAF-inin anlayışı və onun sturkturu ilə bağlı bəzi problemlər". AMEA, Fəlsəfə və SHTİ. Elmi əsərlər, Bakı, 2007

Xüsusilə belə **mühafizə vasitəsi** əməliyyat-axtarış orqanları tərəfindən zəruri və qanunun yol verdiyi hallarda həyata keçirilən əməliyyat**-axtarış fəaliyyətidir**.

Təbii ki, dövlət orqanlarının əməliyyat-axtarış fəaliyyətində ən əsas məqsədlərindən biri, ilk öncə vurğuladığımız kimi, dövlətin iqtisadi təhlükəsizliyinin, mülkiyyətinin mühafizəsinin təmin edilməsidir. **İqtisadi təhlükəsizliyin təminatı dedikdə, şəxsiyyətin, cəmiyyətin və dövlətin mühüm həyati maraqlarının daxili və xarici təhlükələrdən mühafizə olunması vəziyyəti nəzərdə tutulur**. Özü də qanunverici mühüm həyati mənafelər anlayışı mənasında şəxsiyyətin, cəmiyyətin və dövlətin mövcudluğunu və onların mütərəqqi inkişafı imkanlarının təhlükəsizliyinin təminatı tələblərinin məcmusu başa düşülür. Misal üçün qeyd edilən sahələrdən birinin əsas obyekti kimi Dövlət Sərhəd Xidmətini göstərmək olar: «Dövlət sərhədi haqqında» Azərbaycan Respublikası Qanununda təhlükəsizliyin əsas obyekti dövlət sərhədinin toxunulmazlığıdır. Dövlət sərhədi bazar iqtisadiyyatına əsaslanan cəmiyyətin siyasi sisteminin əsas institutlarındandır və dövlətin suverenlik atributu olaraq onun müstəqil iqtisadi fəaliyyətinin tənzimlənməsində qlobal əhəmiyyət daşıyır.

Dötrialn sərhəd toxunulmazlığı, təhlükəsizlik amili kimi onun mühüm həyati mənafelərinin xarici və daxili təhlükələrdən sabit mühafizə vəziyyətini əks etdirən ictimai münasibətlərin məcmusudur. Dövlət sərhədinin sabitliyi dövlətin normal fəaliyyət göstərməsinə və inkişafına əlverişli imkan yaradır. Buna görə də dövlət sərhədinin təhlükəsizliyi Azərbaycan Respublikasının təhlükəsizlik sisteminin vacib tərkib hissələrindən biridir.

**Dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi dedikdə, dövlətin və cəmiyyətin normal fəaliyyət göstərməsi və inkişafı üçün dövlət sərhədində potensial və gerçək təhlükələri neytraliaşdırmaq və məhdudlaşdırmaq məqsədilə müxtəlif səciyyəli tədbirlər sisteminin təşkil edilməsi və həyata keçirilməsi başa düşülməlidir.**

Dövlət cinayətkarlıqla mübarizədə müxtəlif üsul, forma və metodlardan istifadə edir. Əməliyyat-axtarış fəaliyyəti dövlətin səlahiyyətli orqanları tərəfindən həyata keçirilən mübarizənin hüquqi formalarından biridir. Onu başqa mübarizə, üsul, forma və metodlardan fərqləndirən cəhət ondan ibarətdir ki, əməliyyat-axtarış fəaliyyəti prosesində səlahiyyətli orqanlar cinayətin qarşısının alınması, açılması, axtarışda olan cinayətkarların yaxalanmasında gizli qüvvə, vasitə, metod və tədbirlərdən geniş istifadə edirlər. Beləliklə, əməliyyat-axtarış fəaliyyəti – cinayətlərin

qarşısının alınması, açılması və axtarışda olan cinayətkarların yaxalanması, xəbərsiz itkin düşmüş şəxslərin axtarışı məqsədilə səlahiyyətli subyektlər tərəfindən qanun və normativ aktlara əsasən müvafiq qüvvə, vasitə, metod və tədbirlərdən istifadə etməklə, əsas etibarı ilə qeyri-aşkar üsullarla həyata keçirilən kəşfiyyat-axtarış tədbirlərinin məcmusudu:

**Əməliyyat-axtarış fəaliyyətinin əsas məqsədi** – yuxarıda şərh etdiklərimizi konkretləşdirərək - deyə bilərik ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunu ilə müəyyən edilmiş əməliyyat-axtarış fəaliyyətinin əsas məqsədi insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etməkdir.

**Əmətrialt-axtarış fəaliyyətinin vəzifələri** isə həll edilməsi Azərbaycan Respublikasının əməliyyat-axtarış qanunvericiliyi ilə nəzərdə tutulmuş və habelə digər normativ hüquqi aktlarla müəyyən edilən tələblərdən ibarətdir ki, onların yerinə yetirilməsi ilə əməliyyat-axtarış fəaliyyətinin məqsədinə nail olunur. **Beləliklə, əməliyyat-axtarış fəaliyyətinin məqsədinə nail olmaq üçün həll edilməsi zəruri olan vəzifələr bunlardır:** ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, m.1. III hissə):

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;

3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;

5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

**Əməliyyat-axtarış fəaliyyətində vəzifələr cinayətkar qəsdlərdən mühafizə üzrə iki qrupda təsnifləşdirilə bilər:**

– *bilavasitə* – cinayətkar əməllərinin aşkar edilməsi, açılması, qarşısının alınması və habelə cinayət törətmiş və qanunvericiliklə müəyyən edilmiş digər şəxslərin axtarışı üzrə vəzifələr;

– *vasitəli* – cinayətin baş verməsinin qarşısının alınması, Azərbaycan Respublikasının dövlət, sərhəd, hərbi, iqtisadi və ya ekoloji təhlükəsizliyi üçün təhlükə yaradan hadisə və əməllər haqqında məlumat əldə etmə üzrə vəzifələr.

***Funksional istiqamətlərinə görə*** əməliyyat-axtarış fəaliyyətinin vəzifələri dörd qrup üzrə təsnifəşdirilə bilər:

1) *qabaqlayıcı-təyinatlı.* Bu qrupa aşağıdakı məsələlər daxil edilir: cinayətlərin baş verməsinin qarşısının alınması və Azərbaycan Respublikasının təhlükəsizliyinə qəsd, təhlükə yaradan hadisələr və ya əməllər haqqında məlumat əldə etmək;

2) *aşkarlayıcı.* Buraya cinayətlərin aşkar edilməsi və onların açılması daxildir;

3) *qarşısıalınma.* Bu məsələlər qrupu, hər şeydən öncə, qanunda göstərilənlərdən ibarətdir. Bura aiddir: əməliyyat-axtarış tədbirləri keçirilən zaman sənədlərin, materialların və məlumatların əldə edilməsi;

4) *axtarış.* Təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən, itkin düşmüş hesab olunan şəxslərin axtarışı.

Əməliyyat-axtarış fəaliyyətinin məqsədləri sistemində birincilər sırasında başlıca yeri qabaqlayıcı təyinatlı vəzifələr qrupu tutur. Məhz ictimai təhlükəli əməlin həyata keçirilməsinin qarşısı alındığı halda əməliyyat-axtarış fəaliyyətinin məqsədinə tam nail olmaq, Azərbaycan Respublikasının qanunvericiliklə müdafiə olunan müvafiq obyektlərinii cinayətkar qəsdlərdən qorumaq mümkündür.

Əməliyyat-axtarış fəaliyyətinin bütün vəzifələri qarşılıqlı əlaqəli olduğu kimi, həmçinin də bir-birindən qarşılıqlı surətdə də asılı vəziyyətdədir. Bununla yanaşı, onların hər biri, hər şeydən əvvəl, həyata keçirilməsinin vasitə və üsulları ilə şərtlənən ayrıca konkret məzmuna malikdir və müəyyən hüquqi əhəmiyyət daşıyan nəticələr verir.

**Əməliyyat-axtarış fəaliyyətinin funksiyaları** (sahə funksiyaları kimi)- "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunla nəzərdə tutulmuş, konkret hüquqi məqsədlərdən asılı olaraq bir-birindən fərqlənən əməliyyat-axtarış fəaliyyətinin ayrı-ayrı istiqamətləridir.

Əməliyyat-axtarış işinin mürəkkəbliyi və çoxyönlülüyünə görə onun müvafiq funksiyalarının ayrı-ayrı növlərini bir-birindən fərqləndirmək zəruridir. Onları xüsusilə əsas və əlavə hissələrə bölmək olar. **Əsaslara – aşağıdakıları aid etmək olar:**

– barəsində ibtidai istintaq aparılması məcburi olan cinayətlərin törədilməsinin qarşısının alınması;

– cinayətlərin aşkar edilməsi;

– cinayət törətmiş (cinayətin törədilməsi faktı və ya təhqiqat, istintaq, yaxud məhkəmə orqanlarından gizlənən və yaxud cinayətlə bağlı cəza çəkməkdən yayınan) şəxsin və habelə cinayətin izi üzərində qalmış, oğurlanmış və s. əşyaların axtarışı;

– əməliyyat-qeydiyyat işi üzrə vəzifələrin həlli;

– işin baxılmasında məhkəməyə köməkliyin göstərilməsi;

– cinayətlərin açılması ilə əlaqədar olan digər dövlət orqanlarına yardım.

Bundan əlavə, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq obyektlərin mühafizəsinin nəzərdə tutulmuş məqsədlərindən asılı olaraq əməliyyat-axtarış fəaliyyətində işin aşağıdakı istiqamətlərini fərqləndirmək mümkündür:

a) insanın və vətəndaşın həyat və sağlamlığını, hüquq və azadlıqlarını cinayətkar qəsdlərdən qorumaq;

b) xüsusi, ictimai dövlət və bələdiyyə mülkiyyətinin cinayətkar qəsdlərdən müdafiəsi;

c) cəmiyyətin və dövlətin təhlükəsizliyinin təminatı (cinayətkar qəsdlərdən mühafizə baxımından).

Bundan başqa, qanunda nəzərdə tutulmuş müvafiq obyektlərin mühafizəsi məqsədlərindən asılı olaraq əməliyyat-axtarış fəaliyyətində işin aşağıdakı əsas istiqamətlərini fərqləndirmək olar: a) insanın və vətəndaşın həyat və sağlamlığının, hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunması; b) mülkiyyətin cinayətkar qəsdlərdən qorunması; c) cəmiyyətin və dövlətin təhlükəsizliyinin təminatı (cinayət törətmiş şəxslərdən mühafizə edilməsi baxımından).

Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanununa uyğun olaraq əməliyyat-axtarış fəaliyyətinin **əlavə vəzifələrinə** aşağıdakıları aid etmək olar:

Əməliyyat-axtarış fəaliyyəti və cinayət mühakiməsi iştirakçılarının hüquqlarının, mənafelərinin və təhlükəsizliyinin təminatı, əməliyyat-axtarış fəaliyyətinin təminatı, əməliyyat-qeydiyyat işi üzrə icraatın əməliyyat-xidmət baxımından idarə edilməsi, qanunvericiliyə müvafiq olaraq cinayət mühakiməsi iştirakçılarının təhlükəsizliyinin təminatı, itkin düşmüş şəxslərin axtarışı, Azərbaycan Respublikasının milli əməliyyat-axtarış qanunvericiliyinə və beynəlxalq müqavilələrinə uyğun olaraq beynəlxalq hüquq-mühafizə təşkilatlarına və xarici dövlətlərin orqanlarına yardım.

# II FƏSİL
# Əməliyyat-axtarış fəaliyyətinin anlayışı, prinsipləri və bu fəaliyyətdə dövlət sirləri

## § 1. Əməliyyat-axtarış fəaliyyəti anlayışı və onun prinsiplər sistemi

**Prinsiplər**[1] (latınca prinsipium – başlanğıc, əsas) təbiət və cəmiyyətin inkişafının ümumi qanunauyğunluqları əsasında formalaşır və insanların bu və ya digər praktiki fəaliyyət sahələrində onların rəhbər tutduqları təşkiledici mahiyyətli ideyalar, tələblər və qaydalar şəklində ifadə olunurlar. Bununla yanaşı, «prinsip» termini davranış normasını müəyyənləşdirən daxili inam, əqidə, hadisələrə, əşyalara baxış kimi də nəzərdə tutulur. Prinsiplər yalnız hadisələrin mahiyyətini ifadə edən əsas kateqoriyalarla tutuşdurulur.

Əslində prinsiplər sırf qnoseoloji (idraki) anlayışdır, lakin bununla belə varlıq haqqında ümumiləşdirilmiş bilik, həm də onun dərketmə vasitəsidir.

Prinsiplər öz-özünə hansısa fəaliyyətdən kənar mövcud ola bilməzlər, bu fəaliyyət onların məzmununu təşkilati və taktiki baxımdan dolğun ifadə etməyə və konkretləşdirməyə imkan verir. Eyni zamanda prinsiplər biliyin vahid və eyni cür izah olunmasına kömək edir və onlar hansısa fəaliyyətin əsas obyektiv qanunauyğunluqlarının biliklərdə əks olunması üçün bir vasitədir. Beləliklə, prinsip hansısa fəaliyyətin obyektiv qanunauyğunluqlarının bilikdə əks olunmasıdır. Prinsiplərdən uzaqlaşma onun mahiyyətinin təhrif olunmasına, uzaqlaşma çox olduqda isə fəaliyyətin başqa fəaliyyət növünə çevrilməsinə gətirib çıxarır.

İnsan fəaliyyətinin hər bir sahəsində prinsiplərə materialistcəsinə yanaşma onların obyektiv əsası olan ideyalar kimi baxılmasını nəzərdə tutur.

Əməliyyat-axtarış fəaliyyətinə hüquq fəaliyyətinin hər bir başqa növü kimi müəyyən prinsiplər xasdır. Bu prinsiplər müəyyən qanunun normalarında, hökumətin qərarlarında, idarədaxili normativ aktlarda öz əksini tapır və onlara hüquq-mühafizə

1 ƏAF-də prinsiplər anlayışının məcmusunu Konstitusiyada təsbit edilmiş müdəaların, idarəçilik elminin və bu fəaliyyət sahəsində elmi-nəzəri əsasların, həmçinin təcrübənin tələbllərindən irəli gəlir və əsaslı olaraq bu sahədə münasibətləri tənzimləyən normativ-hüququ aktlarda təsbit olunan normalarda əhatə edilir.

orqanlarının əməkdaşları tərəfindən riayət olunmalıdır. Bu prinsiplər cinayətkarlıqla mübarizə sahəsində spesifik qanunauyğunluqların əksidir və bu mübarizə əməliyyat-axtarış fəaliyyətinin qüvvə, vasitə və metodları ilə aparılır.

Əməliyyat-axtarış fəaliyyətinin prinsipləri qanunvericilik və digər normativ aktlarda təsbit edilmiş və əməliyyat-axtarış təcrübəsi prosesində formalaşmış rəhbər tutulan ideyalar, əsaslardır, habelə, cəmiyyətin əməliyyat-axtarış qüvvələrinin mahiyyəti, məqsədi, təşkili və tətbiqi taktikası barədə əxlaqi təsəvvürlərdir.

Mahiyyət etibarı ilə əməliyyat-axtarış fəaliyyətinin prinsipləri səlahiyyətverici (hökmverici), amiranə xarakterə malikdir və məcburi göstərişlərdən ibarətdir. Bu göstərişlərin yerinə yetirilməsi əməliyyat-axtarış fəaliyyətinin bütün vasitələri ilə təmin edilir.

Prinsiplərin ilkin sistemləşmiş elmi təsnifatına 70-ci illərin xüsusi ədəbiyyatında geniş yer verilmişdir. Onlarda verilən anlayışların müxtəlif izahına baxmayaraq, bütün alimlər onların mövcudluğunu təsdiq edirlər və müəyyən xüsusiyyətlərə malik olmasını əsaslandırırlar.

Hər bir prinsip ictimai həyatın müəyyən qanunauyğunluqlarını əks etdirir, eyni kompleks xüsusiyyətləri və əlamətləri özündə cəmləşdirir. Bunlar bütünlükdə müstəqil xarakter aldığına görə, əməliyyat-axtarış fəaliyyətinin hansısa əsas müddəasına çevrilir. Öz növbəsində, hər bir əməliyyat-axtarış fəaliyyəti prinsipi onun əsaslarının sisteminə təsir etməlidir. Bütünlükdə o, əməliyyat-axtarış fəaliyyətinin mahiyyətini, sosial və hüquqi təbiətini ifadə etməlidir.

Sistem dedikdə, müxtəlif hissələrin birləşməsi nəticəsində yaranmış vahid bütövlük nəzərdə tutulur. Sistemdə əməliyyat-axtarış orqanları qarşısında duran funksiyaların icra olunmasına, vəzifələrin yerinə yetirilməsinə tam şərait yaradan prinsiplər olmalıdır. Sistemin hər bir prinsipi məzmunca nisbətən müstəqil olmalıdır. Lakin bu, o demək deyildir ki, bir prinsipin pozulması başqa prinsipin pozulmasına gətirib çıxartmayacaq. Onlar hər bir müddəanın və yaxud bütün sistemin ümumilikdə konsepsiyasının formalaşmasına şərait yaradır, bununla da əməliyyat-axtarış fəaliyyətinin müxtəlif istiqamətlərinin təkmilləşdirilməsini təmin edirlər.

**Xarakterindən və məzmunundan asılı olaraq aşağıdakı prinsipləri qeyd etmək olar:**

1. hüquqi
2. təşkilati

3. mənəvi – əxlaqi

**Əməliyyat-axtarış fəaliyyətində hüquqi prinsiplər iki qrupa bölünür:**

- əməliyyat-axtarış fəaliyyətində tətbiq olunan konstitusiyada təsbit edilən (ümumi hüquqi) prinsiplər;

- yalnız əməliyyat-axtarış fəaliyyətinə aid olunan sahəvi (xüsusi) prinsiplər.

**Ümumi hüquqi prinsiplər hüquq-mühafizə sistemi üçün rəhbər tutulan prinsiplərdir.** Onlara aşağıdakılar aid olunur:

1) qanunçuluq;

2) humanistlik;

3) insan və vətəndaş hüquq və azadlıqlarına hörmət.

Bu üç prinsipi qanunverici orqan konstitusiya prinsipləri adlandırır, çünki onlar konstitusiya normalarına əsaslanır.

Sahəvi (xüsusi) prinsiplər əməliyyat-axtarış fəaliyyətinin qanunauyğunluğundan irəli gəlir və əməliyyat-axtarış orqanlarının təcrübəsinin hüquqi baxımdan əsaslandırılmış tələblərinə cavab verir, çünki onlar lokal xarakterə malikdirlər və yalnız bu sahədə reallaşdırılırlar. Bu prinsiplərin bir qismi Azərbaycan Respublikası «ƏAF haqqında» Qanunun 3-cü maddəsində öz əksini tapmışdır:

1) konspirasiya;

2) aşkar və gizli iş üsullarının uzlaşdırılması.

Qeyd edilməlidir ki, əməliyyat-axtarış fəaliyyətinin bütün prinsipləri müstəqildir, onların arasında əsas və ikinci dərəcəli prinsip yoxdur və sistem daxilində bir prinsip başqasına qarşı qoyula bilməz.

Bununla belə, əməliyyat-axtarış fəaliyyəti üçün vacib olan və onun idarədaxili normativ-hüquqi aktlarla tənzimlənən xüsusi qüvvələrlə, vasitələrlə, ciddi konspirasiya əsasında həyata keçirilməsi də səciyyəvidir. Bu fəaliyyət öz xüsusi aparatı, iş qaydaları, mənəvi və əxlaqi normaları olan spesifik sistemdən ibarətdir və dövlət tərəfindən ümumilikdə qəbul edilmiş normalara uyğundur, belə ki, cinayətkarlıqla mübarizəyə yönəlmişlər. Bu zaman əməliyyat-axtarış fəaliyyətinin qanunauyğunluqları sosial praktikanın bir növü kimi bu fəaliyyətin sahəvi (xüsusi) prinsiplərinin əsasını təşkil edir. Bu xüsusi prinsiplərə konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması ilə yanaşı, operativlik (cəldlik), konfidentlərin (gizli qüvvələrin) istifadə edilməsi, hərtərəfilik, əməliyyat-qeydiyyat işləri üzrə icraatın aparılmasının obyektivliyi, tamlığı və s. aid etmək olar.

Cinayətkarlıqla mübarizəyə daxil olan sosial sahədə ayrı-ayrı şəxslərin və sosial qrupların hərəkətlərinin nizamlanmasına yönəlmiş təşkilati aspektlər xüsusi əhəmiyyət kəsb edir. Sosial təşkilin mexanizmi insanlar arasında qarşılıqlı münasibətin bütün sahələrini və səviyyələrini əhatə edir, birləşdirici funksiyanı yerinə yetirir, sosial sistem tərəfindən şəxslərin hərəkətlərinin idarə edilməsini təmin edir. Bununla əlaqədar bir sıra prinsiplər əməliyyat-axtarış orqanlarının çoxcəhətli fəaliyyətini müəyyənləşdirən əsaslarını, rəhbər tutulan müddəalarını əks etdirir.

Qeyd edilənlər nəzərə alınaraq əməliyyat-axtarış fəaliyyətinin təşkilati prinsiplərinin ayrılıb göstərilməsi də vacibdir və əməliyyat-axtarış fəaliyyətinin təşkilində mühüm əhəmiyyətə malikdir. **Onlara elmilik, planlılıq, ictimaiyyətlə əlaqə, demokratik mərkəzləşmə, vahid rəhbərlik və s. prinsiplər aiddir.**

Belə nəticəyə gəlmək olar ki, əməliyyat-axtarış fəaliyyətinin prinsiplərinin təsnifatının ən ümumi və başlıca əsası kimi onların əks etdirdikləri qanunauyğunluqlar rəhbər tutula bilər.

**Deməli, əməliyyat-axtarış fəaliyyətinin prinsipləri bütövlükdə**

*1)-onun-sosial-və-hüquqi-xarakterini-əks-etdirməlidir;*

*2)-onun-mahiyyətinin-dərk-edilməsinə-imkan-yaratmalı-və-xidmət-etməlidir;*

*3)-onun-hüquqi-tənzimlənməsinin-təkmilləşdirilməsinə-kömək-etməlidir;*

*4)- mövcud- normativ- aktlarda- və- əməliyyat- aparatlarının- fəaliyyətinin- konkret -*

*təşkili-və-taktiki-aspektlərinin-məzmununda-öz-əksini-tapmalıdır;*

*5)-bu-fəaliyyətin-spesifik-və-müstəqil-xarakteri-qeyd-edilməlidir;*

*6)-onun-yerini-və-hüquq-mühafizə-fəaliyyətinin-digər-növləri-ilə-qarşılıqlı-münasibətini-əks-etdirlməlidir;*

*7)- əməliyyat-axtarış- fəaliyyətində- şəxsiyyətin- hüquq- və- azadlıqlarının- riayət-olunmasına-təminat-verməlidir;*

*8)- əməliyyat-axtarış- fəaliyyətinin- təkmilləşdirilməsinin- əsas- istiqamətlərinin-müəyyən-edilməsində-təməl-(baza)-rolu-daşımasına-xidmət-etməlidir.*

Bununla belə, konkret əməliyyat-taktiki vəzifələrin həlli qaydasının normativ tənzimlənməsi olmayan hallarda, prinsiplər əməliyyat-taktiki vəzifələrin həlli yollarının və düzgün icra edilməsi hədlərinin seçilməsində özünəməxsus tənzimləyici rolunu oynaya bilər.

Əgər əməliyyat-axtarış fəaliyyətinin mahiyyəti mənəvi nöqteyi-nəzərdən dərk edilərsə, istər-istəməz bu fəaliyyətin əxlaqi baxımdan qiymətləndirilməsi və əməliy-

yat-axtarış fəaliyyəti sahəsində bu və ya digər fərdi vəzifələrin konkret həlli üsulunun tətbiq edilməsinin mümkünlüyü və ya yolverilməzliyi ilə bağlı fikirlərlə qarşılaşmağın zəruriliyini qeyd etmək vacibdir. Belə vəzifələrin həlli prosesində mənəvi xarakterli münasibətlər yarandığına görə, nəzərdən keçirilən sistemdə mənəvi-etik prinsiplər qrupunu ayırıb göstərmək zəruridir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar, onların vəzifəli şəxsləri öz fəaliyyətini təhlil olunan prinsiplər sistemi əsasında qururlar və onların pozulmasına görə məsuliyyət daşıyırlar. Bununla yanaşı, bu prinsipləri müxtəlif dövlət orqanları, əməliyyat-axtarış orqanlarının əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə vəsatətlərə, təqdimatlara baxan müvafiq qaydada prokurorlar, hakimlər (vətəndaşların konstitusiya hüququna toxunan məsələlər barədə), habelə əməliyyat-axtarış fəaliyyəti münasibətləri sahəsinə cəlb olunan vətəndaşlar rəhbər tutmalıdırlar.

## § 2. Əməliyyat-axtarış fəaliyyəti prinsiplərinin məzmunu

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən, əməliyyat-axtarış fəaliyyəti qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması və həmçinin cinayətkarlığa qarşı mübarizədə bu fəaliyyətin təşkili və həyata keçirilməsi təcrübəsinin cinayət-hüquq siyasətinin tələblərindən irəli gələn, qanunçuluğa zidd olmayan xüsusi, sahəvi prinsiplərə əsaslanır.

Əməliyyat-axtarış fəaliyyəti prinsiplərinin məzmunu dedikdə, onların ibarət olduqları hüquqi və digər tələblərin mahiyyəti nəzərdə tutulur. Bu tələblər onların sosial mənasını və bunda əsaslandırılmış əməliyyat-axtarış praktikasının istiqamətini müəyyənləşdirir. Məhz hüquqi tələbin mahiyyəti, daha qanunvericinin seçdiyi qayda və ya üsul yox, hər bir prinsipin məzmununu ifadə edir.

Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsində prinsiplərin məzmununun təhlilinin böyük əhəmiyyəti vardır və onların praktiki reallaşdırılmasına şərait yaradır. Bizim hansı prinsipi rəhbər tutmağımızdan asılı olaraq, bu fəaliyyətlə bağlı bilik sahəsinin düzgün dərk edilməsi və formalaşması, habelə cinayətkarlıqla mübarizədə praktiki tədbirlərin səmərəliliyi ilə bağlı vəziyyəti müəyyənləşdirmək olar.

**Qanunçuluq prinsipi** o deməkdir ki, əməliyyat aparatlarının əməkdaşları əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Kons-

titusiyasını, əməliyyat-axtarış qanunvericiliyin (ilk növbədə «ƏAF haqqında» Qanunun 2, 3, 4, 21-ci və s. maddələrinin), habelə müxtəlif təşkilati səciyyəli normativ aktların tələblərini rəhbər tutmalıdırlar.Bu prinsip əməliyyat-axtarış fəaliyyəti barədə qanunvericiliklə nəzərdə tutulmayan vəzifələri yerinə yetirmək və məqsədlərə nail olmaq üçün həyata keçirilməsinə yol vermir («ƏAF haqqında» Qanunun 4-cü maddəsi).

**Əməliyyat-axtarış fəaliyyətində qanunçuluğun təmin olunması aşağıdakıları nəzərdə tutur:**

- onun yalnız əməliyyat-axtarış qanunvericiliyi tərəfindən səlahiyyət verilmiş subyektlər vasitəsilə həyata keçirilməsi:
- əməliyyat aparatlarının və konkret əməliyyat işçilərinin fəaliyyətində qanunvericiliyin tələblərinin və normativ aktların pozulmasına yol verilməməsi;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların vəzifəli şəxslərinin qanunu pozduqları halda məsuliyyətə cəlb olunması («ƏAF haqqında» Qanununun 21-ci; CM-nin 284 və 302-ci maddələri);
- qanunçuluğun pozulmasının səbəb və şəraitinin aradan qaldırılmasına yönəlmiş kompleks tədbirlərin işlənib hazırlanması;
- onların müvafiq sənədlərlə rəsmiləşdirilməsi və bu fəaliyyətin həyata keçirilməsinə idarədaxili, prokuror və məhkəmə nəzarəti («ƏAF haqqında» Qanun, maddələr 19.1, 20).

Qanunçuluğun təmin olunması hüquq düşüncəsinin yüksək səviyyəsindən, əməliyyat işçisi ilə dövlət arasındakı hüquqi münasibətləri tam əhatə edən hüquqi məsuliyyətin mövcudluğundan, əməliyyat işinin ümumilikdə nüfuzunun möhkəmlənməsi kimi faktorlardan asılıdır.

Digər hüquqi fəaliyyət sahələrində olduğu kimi, bu fəaliyyət sahəsində də qanunçuluq prinsipi əsas prinsipdir. İstənilən hər hansı bir başqa prinsipin pozulması həm də qanunçuluq prinsipinin pozulması deməkdir. Hüquq elmində bu prinsip ən zəruri və əsas prinsip hesab olunur, bütün dövlət və ictimai təşkilatlar üçün aparıcı və başlica prinsipdir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən insan və vətəndaş hüquq və azadlıqlarına hörmət onu ifadə edir ki, insanların ayrı-ayrı hüquq və azadlıqlarının məhdudlaşdırılması müstəsna və müvəqqəti xarakter daşıyır. Onlar yalnız məhkəmənin qərarı ilə hərəkətlərində ağır, xüsusilə ağır və s. cinayətlərin əlamətləri olan

şəxslər barədə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qanunvericilikdə göstərilən qaydada tətbiq oluna bilərlər. Bundan başqa, bu prinsip fiziki və maddi ziyan vuran, şəxslərin həyatını və təhlükəsizliyini təhlükə altına qoyan, ətraf mühitə ziyan vuran əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə qadağa qoyur. Bununla belə, yadda saxlamaq lazımdır ki, vətəndaş və insanların bir sıra hüquq və azadlıqları heç bir şəraitdə məhdudlaşdırıla bilməz. Bunlara, o cümlədən şəxsiyyətin şərəf və ləyaqətinin müdafiəsi hüququ (Azərbaycan Respublikası Konstitusiyası, mad. 21), dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətləri nəticəsində vurulmuş ziyanın ödənilməsi (Azərbaycan Respublikası Konstitusiyası, mad. 68), vətəndaşlıq hüququnun təminatı, müraciət etmək hüququ (Azərbaycan Respublikası Konstitusiyası, mad. 57) və s. daxildir.

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin normaları əməliyyat-axtarış fəaliyyətində kimsənin razılığı olmadan onun şəxsi həyatı barədə məlumatın toplanması, saxlanılması, istifadə edilməsi və yayılmasına qadağa qoyulmasında reallaşdırılır. Bu məlumatların şəxsin razılığı olmadan toplanması yalnız onların qanunvericiliyə müvafiq olaraq əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin yerinə yetirilməsi zərurəti olduqda və qanunla nəzərdə tutulan hallarda və qaydada mümkündür.

Bu prinsipə müvafiq olaraq, ayrı-ayrı fiziki və hüquqi şəxslər əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan onların hüquqlarının məhdudlaşdırılması barədə yazılı izahat almağa və yuxarı orqanlara, prokurora və yaxud məhkəməyə şikayətlə müraciət etməyə hüquqları vardır. Lakin əməliyyat-axtarış orqanlarına dövlət və yaxud qanun tərəfindən qorunan, əməliyyat-axtarış orqanlarına, insanın mənafeyinə və dövlətin təhlükəsizliyinə ziyan gətirən, digər sirri təşkil edən məlumatları verməyə və yaymağa icazə verilmir (AR «ƏAF haqqında» Qanunun, 4-cü maddəsinin 5-ci hissəsi; 6-cı maddəsinin, 9-cu bəndi ; 14-cü maddəsinin, 9, 10-cu hissələri və s.).

İnsanın hüquq və azadlıqlarının əməliyyat-axtarış fəaliyyətinin keçirilməsi prosesində pozulması, habelə, qanunla müəyyən edilmiş qaydada şəxsin təqsirinin sübut olunmadığı hallarda yuxarı orqan prokuror və yaxud məhkəmə pozulmuş hüquqları bərpa etməli və qanunvericiliyə uyğun olaraq vurulmuş maddi və mənəvi ziyanın ödənilməsini təmin etməlidir.

Konspirasiya, gizli və açıq metod və vasitələrin əlaqələndirilməsi (uzlaşdırılma-sı) prinsipləri hüququn başqa sahələrində tətbiq olunmur və əməliyyat-axtarış fəa-

liyyətini cinayətkarlıqla mübarizənin digər dövlət-hüquqi vasitələrindən fərqləndirir. Buna görə onları ənənəvi olaraq sahəvi (xüsusi) prinsiplərə aid edirlər.

**Konspitriala prinsipi**[1] əməliyyat-axtarış tədbirlərinin spesifik kəşfiyyat xarakterini əks etdirir və onun həyata keçirilmə prosesində hüquq-mühafizə orqanlarının cinayətkarların ifşa edilməsinə istiqamətlənmiş əməliyyatlarının şübhəli şəxslərdən və ətrafdakı vətəndaşlardan gizli saxlanmasına imkan verən qayda və üsullarının zəruriliyini və legitimliyini (qanuniliyini) bildirir.

Konspirasiya müxtəlif üsullarla və ilk növbədə əməliyyat aparatlarının əməkdaşları tərəfindən xüsusi qüvvə, vasitə və metodların optimal və səmərəli istifadə edilməsi yolu ilə təmin edilir.

Bu zaman əməliyyat-axtarış fəaliyyətinin təşkili prosesində və məxfi əməkdaşlarla iş prosesində əməliyyat aparatlarının kargüzarlıq fəaliyyətində məxfilik rejiminin müəyyən olunmuş (normativ-hüquqi aktlarla) qaydalarına riayət olunması məsələləri mühüm əhəmiyyətə malikdir.

Konspirasiya qaydalarına riayət olunması zərurəti naməlum şəraitdə törədilmiş, habelə **latent**[2] cinayətlərlə mübarizədə adekvat mübarizə tədbirlərinin görülməsindən irəli gəlir və cinayət törətməkdə şübhəli şəxslərin əsassız və vaxtından qabaq günahlandırılmasına, məxfi əməkdaşların istifadə edilməsi sirrinin (dövlət sirrinin) açılmasına yol verməməyə imkan verir.

Konspirasiya prinsipinin reallaşdırılması mexanizmi əməliyyat-axtarış qanunvericiliyinin ayrı-ayrı normalarında əhatə olunmuşdur. O cümlədən «ƏAF haqqında» Qanunun 4-cü maddəsinin IV, V hissələrinə müvafiq olaraq, şəxs əməliyyat-axtarış fəaliyyəti subyektinin tabe olduğu yuxarı orqanının rəhbərinə, prokurora və ya məhkəməyə şikayət etmək hüququna malikdir və əməliyyat-axtarış fəaliyyətinin subyekti məhkəmənin qərarına əsasən, dövlət, hərbi və xidməti sirrin yayılması və əməliyyat-axtarış fəaliyyətinin keçirilməsinə gizli qaydada yardım göstərən şəxslər haqqında məlumatlar istisna olmaqla, əməliyyat-qeydiyyat işinin məzmunu ilə şikayətçini tanış etməyə borcludur.

1 *Konspirasiya* – latın sözü olub, razılıq, həmrəylik, əlbirlik mənası daşıyır. ƏAF-də bu fəaliyyətin qüvvə vasitələri və metodlarının, onun həyata keçirilməsinin təşkilati və taktiki aspektlərinin gizliliyinin (məxfiliyinin) təmin edilməsi üçün istifadə edilən üsul və fəndlərin sistemi (məcmusu) kimi başa düşülür.)

2 Latent – latın sözü olub gizli, görünməyən, açıq-aşkar özünü büruzə verməyən mənası daşıyır; kriminologiya elmi sahəsində istifadə edilən anlayış olub, latentliyin təbii və süni növləri qeyd edilir.

Bununla belə, əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həll edilməsində konspirasiya qaydalarına riayət edilməsi vəzifəsi əməliyyat aparatlarına həvalə edilmişdir («ƏAF haqqında» Qanun, mad. 6, bənd 6). Eyni zamanda, Qanun «konspirasiya məqsədilə əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə (əməliyyat aparatlarına) uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək hüquqları verilmişdir».

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi prosesində konspirasiya qaydalarına riayət olunması məxfi əmr və təlimatlarda bu qaydaların normativ tənzimlənməsi yolu ilə təmin oluna bilər. Bunlar habelə əməliyyat xidmətlərinin elmi-metodiki və maddi-texniki təchizatı arasında yaxşı təşkil olunmuş qarşılıqlı informasiya sistemi ilə, əməliyyat aparatlarının şəxsi heyətinin konspirasiya qaydaları və taktiki üsulların öyrədilməsi ilə və s. təmin olunur.

**Aşkar və gizli iş üsullarının uzlaşdırılması (əməliyyat-axtarış və digər tədbirlərin əlaqələndirilməsi) prinsipi**. Cinayətkarlığa qarşı mübarizədə rəhbər tutulan bu prinsip bir sıra hallardan irəli gəlir və vəziyyətlərlə şərtləndirilir. Yalnız aşkar tədbirlərin istifadə edilməsi ədalət mühakiməsinin məsələlərini tam həcmdə həll etməyə imkan vermir və əksinə, yalnız və təkcə qeyri-aşkar tədbirlər həyata keçirməklə bu məsələlərin həll edilməsini həmişə təmin etmək mümkün deyil. Onu da nəzərə almaq lazımdır ki, bu tədbirlərin və onların keçirilməsi üsullarının bir-birinə qarşı qoyulması işi çətinləşdirir, özünü doğrultmayan xərclərə, bəzən isə cinayətkarlıqla mübarizədə gizli qüvvə, vasitə və metodların açıqlanması riskinə gətirib çıxarır.

Təcrübə göstərir ki, cinayətkarlıqla mübarizə üzrə vəzifələrin səmərəli həlli əməliyyat-axtarış qüvvələrinin kompleks istifadəsi ilə, aşkar və gizli tədbirlərin optimal əlaqələndirilməsi ilə təmin olunur. Belə əlaqələndirmə mövcud olan real əməliyyat şəraitinə və həll edilməsi tələb olunan vəzifələrə müvafiq olaraq müəyyən olunur.

Qeyri-aşkar tədbirlər cinayətin törədilməsinə şərait yaradan hallar, hüquqazidd meylli şəxslər haqqında məlumatlar almaq üçün daha səmərəli hesab olunur və vətəndaşların əməliyyat aparatlarının əməkdaşları ilə məxfi əməkdaşlıq prosesində intensiv istifadə olunur. Aşkar tədbirlərin tətbiq edilməsində isə profilaktiki tədbirlərin keçirilməsi üçün vətəndaşların ərizə və şikayətlərinin, aşkar mənbələrdən daxil olan

informasiyanın (dövlət orqanlarının sənədlərinin, kütləvi informasiya vasitələrinin materiallarının, məhkəmə hökmlərinin) öyrənilməsi daha səmərəlidir.

**Həmləlik (operativlik) prinsipi** əməliyyat-axtarış fəaliyyəti üçün səciyyəvidir və cinayətkarlıqla mübarizədə birbaşa, cəld, çevik, tez bir vaxtda tədbirlərin görülməsini nəzərdə tutur. Ona müvafiq olaraq əməliyyat işçiləri cinayətlərin vaxtında aşkar edilməsində qətiyyətli olmalı, təxirəsalınmaz, cəld, çevik hərəkətlər etməli, təşəbbüs göstərməli, bu cinayətləri hazırlayan, törədən və törətmiş şəxslərə qarşı qanuni tədbirlər görməli, vaxtında məqsədyönlü profilaktiki tədbirlər həyata keçirməlidir.

Bu prinsip Azərbaycan Respublikası «ƏAF haqqında» Qanununun 1, 6-cı maddələrinin məzmunundan irəli gəlir və əməliyyataxtarış tədbirlərinin planlaşdırılması, onların cinayətlərin ümumi və fərdi profilaktikası prosesinin həyata keçirilməsində tətbiq edilməsi ilə reallaşdırılır. Bu prinsip, habelə hüquqazidd fəaliyyətin yaranması və inkişafının ilkin mərhələsində, xəbərdarlığı və qarşısının alınmasında, həmçinin hüquq pozuntusuna yol verməyə meyilli olan şəxslərlə tərbiyəvi işin aparılmasında, cinayətlərin törədilməsinə, onların gizlədilməsinə səbəb olan şəraitin müəyyən edilib aradan qaldırılmasında rəhbər tutulur və tətbiq olunur.

Əməliyyat-axtarış profilaktikasının fəal keçirilməsi nəinki operativliyi təmin edir, habelə cinayətkarlıqla mübarizənin ən humanist prinsipini reallaşdırmağa imkan verir, çünki praktiki olaraq zərərli nəticələrin baş verməsinə yol vermir. Hüquqazidd hərəkət artıq ediləndən sonra, əməliyyat-axtarış tədbirlərinin fəal tətbiq edilməsi cinayətin aşkar edilməsi və açılması mərhələsində «isti izlərlə» hərəkətlər sisteminin tətbiq edilməsi yolu ilə təmin edilir. Burada söhbət törədilmiş cinayətin izlərini, cinayət alətlərini gizlətməyə və yaxud məhv etməyə cəhd göstərən, məsuliyyətdən və ya cəzadan boyun qaçıran şəxsləri cinayətkar əməllərinin qabaqlanmasından (xəbərdarlığından) gedir.

Bu prinsipdə əməliyyat-axtarış fəaliyyətinin müdafiə funksiyası və onun kəşfiyyat-axtarış səciyyəsi öz əksini tapır.

***Operativlik prinsipinə bunlar daxildir:***- xidməti ərazidə əməliyyat şəraiti haqqında məlumata malik olmaq, DİO (polis) və digər HMO tərəfindən əməliyyat marağı kəsb edən şəxslər və faktlar barəsində məlumatların vaxtında alınmasının təmin edilməsi;

- daxil olan məlumatlara uyğun olaraq kadrların yerləşdirilməsinin optimal variantından istifadə edilməsi və funksional vəzifələrin bölüşdürülməsi əsasında vaxtında reaksiya verilməsi;
- əməliyyat aparatlarının cinayətlərin qarşısının alınması və açılması, cinayətkarların axtarışı məqsədilə cəld, uzlaşdırılmış və ahəngdar hərəkətləri;
- törədilmiş cinayətlərin ibtidai araşdırılmasının əməliyyat-axtarış təminatı.

Əməliyyat-axtarış tədbirlərinin həmləliyi qırılmaz surətdə cinayətlərin açılması, ibtidai araşdırılması (ibtidai istintaq və təhqiqat) üzrə əməliyyat-axtarış təminatı ilə bağlıdır. Belə təminat bir tərəfdən cinayətlərin açılması və ibtidai araşdırılması subyektlərinin bu məqsədlərlə əməliyyat-axtarış qüvvələrinin, vasitələrinin və metodlarının istifadə edilməsi üçün daim peşəkar hazırlığı şəraitinin yaradılmasına, digər tərəfdən cinayətlərin açılmasının və ibtidai araşdırılmasının hər bir halında bu şəraitin praktiki olaraq reallaşdırılmasına yönəlmişdir.

**Əməliyyat-axtarış təminatı əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən aşağıdakı məqsədlərlə həyata keçirilən tədbirlər sistemidir:**

- *sübut olunma prosesinin tam və obyektiv surətdə həyata keçirilməsi üçün optimal şəraitin yaradılması;*
- *kriminal mühitin dövlətin hüquq mühafizə funksiyasının yerinə yetirilməsinə müqavimətinin aradan qaldırılması və neytrallaşdırılması;*
- *cinayət prosesinin iştirakçılarının müdafiəsinin (təhlükəsizliyinin) təmin olunması;*
- *təqsirkarların törətdikləri qanunazidd əməllərə görə məsuliyyətlərinin labüdlüyü prinsipinin reallaşdırılması.*

**Əməliyyat-axtarış işləri üzrə icraatın hərtərəfliliyi, tamlığı və obyektivliliyi prinsipi** əməliyyat-qeydiyyat işləri üzrə iş prosesində özünü göstərir. Bu prinsip əməliyyat işçisi (əməliyyat müvəkkili) tərəfindən iş üzrə bütün fərziyyələrin (ehtimal olunan səciyyəli və əsaslı mülahizələrin) irəli sürülməsini, onların eyni dərəcədə yoxlanılmasını və bunun nəticəsində əsaslandırılmış qərarların çıxarılmasını tələb edir.

Bu prinsipin tələblərinə riayət olunması əməliyyat aparatlarına böyük həcmdə daxil olan ilkin və müxtəlif məzmunlu məlumatların alınmasında və istifadə edilməsində vacibdir. Lakin təcrübədə elə hallar da olur ki, əməliyyat aparatlarına cinayətkarlarla əlbir olan digər maraqlı şəxslər tərəfindən yanlış məlumat daxil olur. Bəzən

daxil olmuş məlumat, onu verən şəxsin səriştəsizliyindən və yaxud başqa səbəblərə görə düzgün dərk etmədiyindən təhrif oluna bilər.

Belə hallar daxil olan ilkin məlumatın əməliyyat işçisinin bütün imkanlarından istifadə etməklə yoxlanılmasının vacibliyini şərtləndirir.

**Obyektivlik prinsipinin** reallaşdırılması əməliyyat-qeydiyyat işlərinin aparılması zamanı mühüm əhəmiyyət kəsb edir. Burada bu prinsipin tələbləri ondan ibarətdir ki, əməliyyat işçisi hüquqazidd əməlin törədilməsi şəraitini, hər bir iştirakçının rolunu qiymətləndirərkən, yanlış, qərəzli nəticə çıxarmağa, subyektiv münasibət göstərilməsinə yol verməsin. Həm ittiham etmək, həm də bəraətləndirmək meylindən çəkinmək lazımdır.

Obyektivlik prinsipinin təmin edilməsi cinayət-mühakimə icraatının vəzifələrinin daha səmərəli həll edilməsinə və obyektiv həqiqətin müəyyənləşdirilməsinə şərait yaradacaq.

**Əməliyyat-axtarış fəaliyyətində konfidentlərin istifadə edilməsi prinsipi** konfident («konfidentia» latın sözüdür, etibar etmə kimi tərcümə olunur), kiməsə gizli köməklik göstərmə və ya ƏAF qanunvericiliyinə əsasən və onunla müəyyən olunmuş qaydada fiziki şəxsin əməliyyat-axtarış orqanı ilə konspirativ olaraq konfidensial əməkdaşlığı mənasında başa düşülür.

Məxfi əməkdaşlığa cəlb edilməsi prinsipi ƏAF-nin ən əhəmiyyətli aspektlərindən birini əks etdirir. Bu onunla izah olunur ki, əməliyyat-axtarış fəaliyyətinin hüquqi təbiəti xeyli dərəcədə spesifik olduğuna görə, onun məlumat daşıyıcıları müxtəlif gizli məlumat verən mənbələrdir. Məxfi əməkdaşların istifadə edilməsinin mümkünlüyü İsa Peyğəmbərin doğulmasından 5 əsr qabaq yaçılmış Çin traktatlarının birində öz əksini tapmışdır.

Konfidentlərin cəlb edilməsi prinsipi əməliyyat-axtarış orqanlarının təmənnasız (əvəzsiz) və yaxud ödənişli (əvəzli) əsas üzrə bu orqanlara gizli surətdə yardım etməyə razılıq vermiş şəxslərlə əməkdaşlıq etməsinə, habelə onlarla vətəndaşların əməkdaşlıq etməsinə (AR «ƏAF haqqında» Qanun, maddələr 6, 17) əsaslanır.

Bu prinsipin əhəmiyyətini qeyd edərkən, Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti Akademiyasının professoru Şumilov göstərir ki, konfidentdən istifadə edilmədiyi halda əməliyyat-axtarış fəaliyyətinin tələb olunan səviyyədə həyata keçirilməsi mümkün olmaz və o, sosial faydalı olan başqa hüquqi fəaliyyət növünə çevrilə bilər.

**Təşkilati** prinsiplər əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi prosesi və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların işinin təşkilinin obyektiv qanunauyğunluqlarını müəyyənləşdirir. **Bu qanunauyğunluqlar əməliyyat-axtarış fəaliyyətinin elmilik, planlılıq, ictimaiyyətlə əlaqə, demokratik mərkəziyyət, kollegiallıq və vahid rəhbərlik kimi prinsiplərində öz əksini tapır.**

**Elmilik prinsipi** - əməliyyat aparatlarının fəaliyyətinin təşkilində əsas və aparıcı hesab edilir, praktiki fəaliyyətdə müxtəlif elmlərin nailiyyətlərindən istifadə edilməsini nəzərdə tutur (ƏAF nəzəriyyəsi, kriminologiya, cinayət hüququ və cinayət prosesi, psixologiya, idarəetmənin elmi təşkili nəzəriyyəsi və s.), habelə empirik materialı nəinki ümumiləşdirməyə, həm də cinayətkarlıqla mübarizə tendensiyaları və qanunauyğunluqlarını üzə çıxarmağa imkan verir, bu isə əməliyyat işçilərinə mənfi sosial halların mahiyyətinə daha dərindən müdaxilə etməyə və deməli, onlarla daha səmərəli mübarizə aparmağa şərait yaradır.

Elmilik prinsipi əməliyyat-axtarış fəaliyyətində müasir elmi-texniki vasitələrin, informasiya texnologiyalarının istifadə edilməsində, cinayətlərin qarşısının alınmasının və açılmasının mütərəqqi metodlarının işlənib hazırlanmasında, gizli mənbələrdən əməliyyat məlumatlarının daim fəaliyyət göstərən sisteminin təşkilində tətbiq edilir.

Elmi yanaşma əməliyyat işçiləri tərəfindən nəinki cinayətkarlığın özünün təhlili üçün, həm də ona təsir edən sosial-iqtisadi və s. amillərin, əməliyyat-axtarış qüvvələrinin tətbiqinin nəticəsi, habelə məxfi əməkdaşların düzgün rəhbərlik metod və formalarının müəyyənləşdirilməsi, cinayətkarlıqla mübarizəyə yardım göstərən ictimaiyyətlə işgüzar münasibətlərin təşkili üçün vacibdir.

**Planlılıq prinsipi** – dövlət orqanlarının fəaliyyətinin bütün sahələrində, o cümlədən əməliyyat-axtarış fəaliyyətində də öz təzahürünü tapır.

**Ptrialşdırma ƏAF-in subyektlərinin intelektual fəaliyyəti ilə bağlı olan prosesi və onun nəticəsini özündə əks etdirir. Qeyd edilənlər verbal və ya rəsmiləşdirilmiş qaydada həyata keçirilən tədbirlərin onların keçirildiyi yerə, vaxta, icraçılara dair mılumatları özündə ehtiva edir.**

Elmi cəhətdən əsaslandırılmış planlaşdırılma əməliyyat işçilərinin ilk növbədə cinayətkarlıqla mübarizədə əsas vəzifələrin həllində diqqətini cəmləşdirməyə, mövcud qüvvə və vasitələrin istifadəsinin daha səmərəli yollarının arzu olunan məqsədlərə çatmaq üçün müəyyənləşdirməyə imkan verir. Planlaşdırma əməkdaşların funksional vəzifələrinin bərabər bölüşdürülməsini təmin edir və əməliyyat aparatlarının öz

aralarında qarşılıqlı əlaqəsi üçün müxtəlif dövlət orqanları və ictimai təşkilatlarla iş prosesində qarşılıqlı əlaqənin yaradılması üçün etibarlı əsas yaradır.

Yaxşı təşkil olunmuş planlaşdırılma əməliyyat aparatlarının fəaliyyətinin təşkilinin mühüm elementidir, o qüvvələrin kompleks istifadə edilməsini təmin edir, əməliyyat aparatlarının bütün səviyyələrdə (baş idarə, idarə, şöbə, bölmə, qrup) işinin təşkili, o cümlədən yuxarı vəzifəli rəhbərlərin əmr və göstərişlərinin dəqiq yerinə yetirilməsi üçün şərait yaradır.

Əhalinin cinayətkarlıqla mübarizədə iştirakının mühüm forması əməliyyat-axtarış tədbirlərinin keçirilməsində vətəndaşların yaxından kömək göstərməsidir. Belə hallarda əməliyyat işçiləri tərəfindən vətəndaşların köməyindən hüquqazidd fəaliyyətin aşkar edilməsi və belə faktların sənədləşdirilməsi məqsədilə, habelə müxtəlif hüquq pozuntularına səbəb ola bilən halların üzə çıxarılması və aradan qaldırılması üçün istifadə edilə bilər.

**Demokratik mərkəziyyət prinsipi** mərkəzləşdirilmiş rəhbərlik ilə yerli orqanların yaradıcı təşəbbüsünün inkişafının əlaqələndirilməsindən ibarətdir.

Əməliyyat aparatlarının idarə edilməsi bu prinsip əsasında həyata keçirilir. Əməliyyat aparatları sisteminə daxil olan qurumlar istər ərazi, istərsə də funksional planda yuxarı əməliyyat aparatlarına inzibati-xidməti baxımdan tabedirlər. HMO-nun, o cümlədən, daxili işlər orqanlarının (polis orqanlarının) yuxarı əməliyyat aparatları aşağı əməliyyat aparatlarına rəhbərlik edirlər.

Aşağı əməliyyat aparatlarının yaradıcı təşəbbüsü yuxarı daxili işlər orqanlarının əmr, göstəriş və planlarının yerlərdəki əməliyyat şəraiti nəzərə alınmaqla, habelə konkret vəzifələrin həllində reallaşdırılır.

HMO-nun, o cümlədən daxili işlər orqanlarının ƏAO fəaliyyətində demokratik mərkəziyyət prinsipinin istifadə edilməsinin spesifik xüsusiyyəti onların ikiqat tabeliyindən ibarətdir. Onlar həm yuxarı daxili işlər orqanlarına, həm də hakimiyyət orqanlarına tabedirlər. Bunu yerli hakimiyyət orqanlarının fəaliyyətinin ictimai təhlükəsizlik və hüquq qaydalarının təmin edilməsində, cinayətkarlıqla mübarizədə və qanunçuluğun möhkəmləndirilməsində mühüm şərtlərdən biri kimi qiymətləndirmək lazımdır.

Bununla belə, yerli hakimiyyət orqanları hüquq-mühafizə fəaliyyətinə daha səmərəli qaydada nəzarət edə bilərlər, habelə onun həyata keçirilməsində lazımi yardımı göstərə və konkret inzibati ərazidə müxtəlif subyektlərin fəaliyyətini əlaqələn-

dirə, zəruri olan hallarda isə dövlət və ictimai təşkilatların qüvvə və vasitələrini cəlb edə bilərlər.

**Kollegiallıq və vahid rəhbərlik prinsipi.** Bu prinsip idarəçilik qərarlarının hazırlanmasında və qəbul edilməsində, onların icrasının təşkilində öz əksini tapır. Əməliyyat işçisi qərarların hazırlanmasında iştirak edir. O, səlahiyyəti çərçivəsində hər bir məsələni müzakirə edib təklif verə bilər, habelə onu qiymətləndirə bilər. Qərarı isə qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, yalnız əməliyyat aparatının rəhbəri qəbul edə bilər. Əməliyyat işçiləri həm də qəbul olunmuş qərarı həyata keçirir. Əməliyyat işçiləri xidməti borc kimi rəhbər işçinin qanunvericiliyin tələblərinə zidd olmayan qərarını yerinə yetirməlidirlər.

Təhlil olunan prinsiplər əməliyyat-axtarış qanunvericiliyi sistemində əsas yer tuturlar, onlar həmişə ilkin normaların rolunu ifadə edirlər. Yüksək ümumiləşmə xüsusiyyətinə malik olub və digər qaydalarda ifadə olduqlarına görə, onlar əməliyyat-axtarış fəaliyyəti institutları mexanizmini vahid şəklə salırlar.

## § 3. Əməliyyat-axtarış fəaliyyətinin mənəvi-əxlaqi prinsipləri

Əməliyyat aparatlarının fəaliyyəti daim cəmiyyətin diqqət mərkəzindədir, çünki o, müxtəlif dərəcədə cəmiyyətin bütün üzvlərinin marağına toxunur və bir çox mənəvi problemlərlə əlaqədardır. Bu problemlər əməliyyat-axtarış fəaliyyətinin məqsədlərinin, məzmununun, formasının, vasitələrinin və metodlarının xüsusiyyətlərindən, əsasən də onun müəyyən hissəsinin məxfi olmasından irəli gəlir. Hüquq-mühafizə orqanları tərəfindən məcburiyyət tədbirlərinin tətbiq edilməsi və şəxsiyyətin hüquqlarını məhdudlaşdıran tədbirlərin həyata keçirilməsi hər bir vətəndaşın istər ictimai, istərsə də fərdi şüurunda ziddiyyətlər kompleksi oyadır.

Əxlaq ilk növbədə qoruyucu rol oynayır, hüquqazidd hərəkətləri mühakimə edən, törədilmiş cinayətlə barışmazlıq münasibəti yaradan ictimai rəyin üzə çıxmasına şərait yaradır. Bundan başqa, o, əməliyyat işçisinin özünə verilən mənəvi tələbləri müəyyənləşdirir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşlara əməliyyat-axtarış tədbirlərini keçirmək üçün nəinki hüquqi, həm də əxlaqi sanksiyanın verilməsi, eyni zamanda onlar qarşısında qanunçuluğa riayət olunması, həm də hüquq-mühafizə orqanları əməkdaşlarına verilən mənəvi tələblərə öz fəaliyyətinin uyğunlaşdırılma-

sı vəzifəsini də qoyur. **Ona görə də əməliyyat aparatlarının fəaliyyətində mənəvi-əxlaqi kateqoriyalar nəinki mühüm yer tutur və həmçinin aşağıdakıların formalaşmasına kömək edir:**

-

- *hüquqazidd əməlləri mühakimə edən və cəmiyyətə zidd davranışa barışmaz münasibət yaradan ictimai rəyə;*
- *əməliyyat aparatı işçilərinin mənəvi mövqeyinin müəyyənləşməsinə;*
- *əməliyyat-axtarış fəaliyyətinin mənəvi-əxlaqi prinsipləri sisteminin yaranmasına.*

Beləliklə, hüquqi və təşkilati prinsiplərlə yanaşı, əməliyyat-axtarış fəaliyyətinə mənəvi-əxlaqi prinsiplər də xasdır, onlar da bu fəaliyyət subyektlərinin mənəvi planda davranışını tənzim edən bütün normaları, qaydaları nəzərdə tutur.

Mənəvi prinsiplər bütünlükdə cəmiyyət üçün səciyyəvidir və ayrı-ayrı sosial, o cümlədən peşəkar qruplara aid olan lazımi davranışlarla dəqiqləşdirilir və konkretləşdirilir. Əməliyyat-axtarış fəaliyyətinin prinsipləri ümumi əxlaqi normalara əsaslansa da, əməliyyat işçilərinin peşəkar funksiyalarının reallaşdırılmasına aid özünün mənəvi tələblər sistemini də müəyyənləşdirir. Əvvəllər ilkin olaraq əsasən, məhkəmə, prosessual, vəkil etikası məsələləri müzakirə olunurdu. Lakin əməliyyat-axtarış fəaliyyəti sahəsində mənəvi-əxlaqi prinsiplərin əhəmiyyəti ondan irəli gəlir ki, hüquq normaları bu prosesin hər bir iştirakçısının davranışını hərtərəfi tənzimləyə bilmir. Əməliyyat-axtarış fəaliyyətində qeyri-aşkar vasitə və metodların istifadə edilməsi kriminal proseslərin ilkin mərhələdə xəbərdarlığı, qarşısının alınması və cinayətin açılması kimi obyektiv tələbatdan irəli gəlir. Bir sıra hallarda əməliyyat-axtarış tədbirləri keçirilmədən ağır cinayətlərin açılması və mütəşəkkil cinayətkar qrupların ifşa edilməsi son dərəcə çətin olur.

Bu aspektdə əməliyyat-axtarış fəaliyyəti nəinki mənəvi normaların tələblərinə cavab verir, habelə cinayətkarlıqla, yəni əxlaqsızlığın son həddi ilə mübarizədə onun həyata keçirilməsinə imkan yaradır. Cinayət açılmadığı və cinayətkar ifşa edilmədiyi halda nəinki hüququn özü, həm də tapdalanmış əxlaq normaları da ədalət bərpa olmayınca və cinayətkar layiqli cəza almayınca reallaşdırılmadığına görə gücsüzdür. Buna görə də nəzərə alsaq ki, ağır və xüsusilə ağır cinayətlərin əksəriyyəti əməliyyat-axtarış tədbirlərinin tətbiqi nəticəsində açılır və belə halda bu fəaliyyət cəmiyyətdə əxlaq normalarının bərqərar edilməsinin səmərəli vasitəsi kimi hesab edilə bilər.

İlk dəfə əməliyyat-axtarış fəaliyyəti sahəsində əxlaqi-mənəvi münasibətlərin tədqiqatının aparılması zərurəti barədə məsələ XX əsrin 60-80-ci illərin elmi əsərlərində öz əksini tapmışdır (rus alimləri Lekar, Qrebelski, Sinilov, Samoylov, Voznıy və s.).

Bu problemə göstərilən maraq təsadüfi deyil, çünki qanunçuluğa dönmədən və dürüst riayət olunması, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, əməliyyat işçilərinin şüurunun peşə deformasiyası məsələləri xeyli dərəcədə hüquq-mühafizə orqanları əməkdaşlarının peşəkar fəaliyyətinin mənəvi-əxlaqi problemlərinin nəzəri cəhətdən tədqiq edilməsindən asılıdır.

Hüquq-mühafizə orqanları işçilərinin peşəkarlıq səviyyəsinin artırılması problemlərinə, onların mənəvi simasının təkmilləşdirilməsinə və cəmiyyətdə nüfuzunun möhkəmləndirilməsinə Avropa Şurası xüsusi əhəmiyyət verir və onun üzvü olan Azərbaycan dövləti üçün qeyd edilən məsələlər çox önəmlidir. Bu mövzunun beynəlxalq səviyyəyə qaldırılması onunla əlaqədar idi ki, etika əsasında ictimai təhlükəsizliyin istənilən sahəsində məqsədlərin, vasitələrin və işin nəticələrinin qarşılıqlı əlaqəsi, cinayətkarlıqla mübarizədə məcburiyyət tədbirlərinin əxlaqi cəhətdən bəraətləndirilməsi, mənəvi dəyərlər mövqeyindən insan və vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi məsələləri həll edilir. Bununla əlaqədar olaraq, əxlaqın və etikanın HMO-nun fəaliyyətində roluna əsaslanaraq, ***beynəlxalq forumda bu məsələlər qoyulmuşdu*:** bu mövzuda toplanmış təcrübəni ümumiləşdirmək; ictimai münasibətlərin təhlil olunan sahəsində ümumi Avropa standartlarını işləyib hazırlamaq; etik normalara praktikada nəzarət edilməsinə aid səmərəli tədbirlər təklif etmək.

Beynəlxalq səviyyədə məsələnin belə həlli bütün HMO-ya, o cümlədən polis təşkilatlarına, o cümlədən əməliyyat-axtarış fəaliyyəti kimi sosial cəhətdən faydalı fəaliyyət növünə də aiddir. Müəyyən dərəcədə bu onunla şərtləndirilir ki, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların işi şəxsin hüquq və azadlıqlarının məhdudlaşdırılması, məxfi qüvvə, vasitə və metodların, habelə müxtəlif məcburiyyət tədbirlərinin tətbiq edilməsi ilə əlaqədardır.

Bununla belə, bu cür fəaliyyətin qanuni sayılması hələ onun əxlaqi cəhətdən yol verilməsini şərtləndirmir. Bu halda əməliyyat işçilərinin hərəkətlərinin ictimai əxlaq baxımından müəyyən meyarı kimi mənəvi-etik prinsiplərlə əhatə olunan müəyyən göstərişlər istifadə edilə bilər.

Bu prinsiplər nisbətən sabitliyi ilə fərqlənir və mənəvi normalarda konkretləşirlər. Onlar əxlaqi şüur tərəfindən şərtsiz tələb kimi qəbul edilirlər və bu normalara riayət etmək bütün hallarda vacibdir. Əməliyyat-axtarış tədbirlərinə münasibətdə

tətbiq edildikdə, əsas ***mənəvi-əxlaqi prinsiplərə bunları aid etmək olar:*** humanizm, kollektivçilik, ədalət, şüurluluq, əməyə vicdanlı münasibət.

**Humanizm[1] əxlaqi prinsip** kimi insanlara məhəbbəti, insan ləyaqətinin müdafiəsini ifadə edir. Bu əsas, hüququn bütün sahələrini əhatə edən və əxlaqın bütün normalarını müəyyən edən prinsipdir. Humanizm əməliyyat işçiləri və vətəndaşlar arasında əxlaqi-hüquq münasibətlərinin bütün sisteminin əsasını təşkil edir. Hüquq-mühafizə fəaliyyətinin humanist məzmunu onun mahiyyətindədir və bu sosial stabilliyin təmin edilməsində, insana qayğı göstərməkdə, onun ləyaqətinə hörmət etməkdə, cəmiyyətin və şəxsin mənafelərinə zidd əməllərin üzə çıxarılmasında ifadə olunur.

Əməliyyat-axtarış fəaliyyətində humanizm prinsipi insan ləyaqətini alçaldan, onun şəxsi həyatı haqqında məlumatların yayılmasına, həyatını, sağlamlığını təhlükə altına qoyan, əsassız olaraq ona mənəvi və yaxud fiziki iztirablar verən əməlləri qadağan edir. Bu prinsipə əməl olunmaması qanun və ictimaiyyət tərəfindən mühakimə edilir.

Əməliyyat işçilərinin peşəkar maraqları bütün cəmiyyətin maraqlarından ayrılmazdır. **Eyni zamanda xüsusi şərait onları əxlaq normalarına uyğun gəlməyən, adi münasibətlərə tətbiq edilməyən və cinayətkarlıqla mübarizənin vacibliyi ilə əlaqədar olan bir sıra hərəkətləri həyata keçirməyə məcbur edir: *gizli müşahidə, vətəndaşları məxfi əməkdaşlığa cəlb etmə, şübhəli şəxsə yanlış məlumatların verilməsi və s.***

Lakin bu hərəkətlər qanun normalarına uyğun olduqlarına görə, əxlaq prinsiplərinə zidd deyillər, çünki əməliyyat-axtarış orqanlarının əsas vəzifəsi ağır və xüsusilə ağır cinayətlərin aşkar edilməsi və açılması, onu törədən şəxslərin ifşa olunmasıdır ki, bu isə öz növbəsində ölkəmizdə cəmiyyətin əsas maraqlarını əks etdirir və deməli, humanizm prinsipinə uyğundur.

**Ədalətlilik prinsipi** əməliyyat aparatları əməkdaşlarının peşəkar əxlaqının ən mühüm prinsipidir. O, ictimai həyatın bütün sahələrini əhatə edir, lakin hüquqi sahədə daha çox əhəmiyyət kəsb edir, belə ki, ən əhəmiyyətli ictimai münasibətləri tənzim edir. Ümumi mənada ədalətlilik prinsipi vətəndaşların qanun qarşısında bərabər hüquqlara malik olmasını nəzərdə tutur. Müəyyən mənada bu prinsip «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda öz əksini tapır (maddə 3). Bu Qanuna müvafiq olaraq Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulma-

1 Humanizm - latın sözü olub, insanlıq, insana məhəbbət, insan şərəf və ləyaqətinə hörmət mənası daşıyır

yıbsa, hər hansı bir şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları Azərbaycan Respublikası ərazisində onlara qarşı əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

Ədalətlilik prinsipi əməliyyat işçisinin praktiki fəaliyyəti və xidməti vəziyyəti arasında, onun şəxsi xidmətləri ilə onların cəmiyyətdə qəbul edilməsi arasında, hüquq və vəzifələri arasındakı qarşılıqlı uzlaşdırılmanın nəzərdə tutulmasını tələb edir. Bu münasibətlərdəki uyğunsuzluq ədalətsizlik kimi qiymətləndirilir. Bu prinsip cinayət yolu ilə varlanmağın mümkünlüyünün, kiməsə hüquqazidd olan himayədarlığın edilməsi, əsassız imtiyazların verilməsinin qarşısının alınmasında, habelə əməliyyat-axtarış münasibətlərinin iştirakçılarına sosial təminatların verilməsində, xidməti vəzifələrini yerinə yetirərkən aldıqları xəsarət və əlilliyə görə onlara təqaüdün təyin edilməsində çox böyük rol oynayır.

**Kollektivçilik prinsipi** əməliyyat-axtarış fəaliyyətinin lazımi səviyyədə təşkili və kriminal mühitə qarşı səmərəli və müvəffəqiyyətli müqavimət göstərmək üçün vacibdir. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın işinin nəticəsi xeyli dərəcədə onun əməkdaşlarının daxil olduğu kollektivindən, onların məqsəd yönümündən və birgə hərəkətlərindən asılıdlır. Bu prinsipə bir neçə ***xüsusi prinsip daxildir*:** məqsəd və iradə birliyi, əməkdaşlıq və qarşılıqlı kömək, demokratizm, intizam.

Əməliyyat işçisi müəyyən hakimiyyət səlahiyyətlərinə malikdir, ona görə də bu prinsip əməliyyat-axtarış fəaliyyəti prosesində onun şəxsi məsuliyyətinin daha yüksək olmasını nəzərdə tutur. Kollektivçilik hissini rəhbər tutaraq, o, öz hərəkətlərini kollektivin maraqları, son nəticədə isə cəmiyyətin maraqları ilə müqayisəli qaydada qiymətləndirir. Kollektivin hər bir üzvünün hərəkəti vətəndaşların konkret əməliyyat aparatlarına və həmçinin ümumilikdə əməliyyat-axtarış fəaliyyətinin subyektinə dair münasibətini formalaşdırır və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar haqqında ictimai rəyə təsir göstərir.

**Şüurluluq prinsipi** əməliyyat işçisi tərəfindən cəmiyyətin əxlaqi tələblərinin dərk edilməsi, əməliyyat-axtarış fəaliyyəti sahəsinə cəlb edilmiş vətəndaşların maraqları əsasında hərəkətlərin seçilməsini nəzərdə tutur.

Şüurluluq hansı məqsədə nail olmaq üçün edilən hərəkətlərin dərk edilməsini nəzərdə tutur və insanın müdafiə etdiyi işin haqlılığına onun inamının əsasını təşkil edir.

Azərbaycan Respublikasının «ƏAF haqqında» Qanununun 1-ci maddəsinin II hissəsində öz əksini tapmış bu fəaliyyətin məqsədi tam əxlaqidir, çünki bizim cəmiyyətin maraqlarını tam ifadə edir. Bu zaman əməliyyat işçisi tərəfindən xidməti borcunun dərk edilməsi xüsusi əhəmiyyətə malikdir, o, bu və ya digər hərəkətlərin edilməsində konkret mənəvi dəyərlərin müəyyənləşdirilməsində düzgün istiqaməti nəzərdə tutur, çünki bu dəyərlərdən birini digər, daha vacib dəyərlər naminə qurban vermək lazım gəlir. Təcrübədə bu şərtlərin yerinə yetirilməsinə əməliyyat işçisinin davranışının əməliyyat çevikliyi, əməliyyat müstəqilliyi və əməliyyat riski kimi komponentləri şərait yaradır.

Göstərilən mənəvi-etik prinsiplər əməliyyat-axtarış fəaliyyəti kimi spesifik sahənin xüsusiyyətləri nəzərə alınmaqla ümumi mənəvi prinsiplərin tətbiq edilməsini əhatə edir. Onların siyahısı kifayətedici deyil və əxlaqla sıx əlaqədar olan hüququn təsiri altında inkişaf edə bilər. Öz növbəsində, cəmiyyətin mənəvi-əxlaqi əsaslarının təkmilləşdirilməsi əməliyyat-axtarış orqanları fəaliyyətini tənzimləyən hüquq normalarının tətbiq edilməsinə və reallaşdırılmasına mühüm dərəcədə təsir göstərir.

Mənəvi-etik əsaslar baxımından əməliyyat-axtarış fəaliyyətinə iki istiqamətdə yanaşma mümkündür. Bir tərəfdən bu fəaliyyəti müasir mərhələdə cinayətkarlıqla mübarizənin zəruri vasitəsi kimi qiymətləndirmək olar. Bu vasitə əxlaqi və yaxud qeyri-əxlaqi o vaxt olur ki, ona əxlaqi qiymət verilir və müəyyən qrup insanların maraqları naminə müəyyən məqsədlərə nail olmaq üçün istifadə olunur. Müvafiq olaraq mənəvi-etik prinsiplər mövqeyindən bu vasitənin günahsız adama qarşı tətbiq edilməsi qeyri-əxlaqi, cəmiyyətin marağı naminə isə cinayətkara qarşı tətbiqi yüksək əxlaqa müvafiq hesab olunur. Digər tərəfdən əməliyyat işçisi həyatı, reallığı, özünü dərk edir və başa düşür ki, şübhəli şəxs (rəqib) qanunsuz, qeyri-əxlaqi, çox vaxt maskalanmış şəkildə fəaliyyət göstərir. Məhz bunlar da əməliyyat işçisi tərəfindən xüsusi qüvvələrin, vasitələrin, konspirasiyanın, müxtəlif taktiki üsulların, hiylənin tətbiq edilməsinin vacibliyini şərtləndirir, bu isə mübarizənin hər növünə xasdır.

Əməliyyat-axtarış fəaliyyəti prosesində əməliyyat işçisinin öz funksional vəzifələrinə vicdanlı münasibəti xüsusi əhəmiyyət kəsb edir, o həm də öz peşəkar maraqlarını və tələbatlarını cəmiyyətin maraqları və tələbatları ilə əlaqələndirməyi bacarmalıdır. O ki, qaldı ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə, yəni vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran (telefon danışıqlarına qulaq asma, binalara, o cümlədən, yaşayış yerlərinə və s. yerlərə daxil olma və baxış keçir-

mə, insanların güdülməsi və s.) tədbirlərin keçirilməsinə, əməliyyat aparatı əməkdaşları bu zaman vətəndaşların ayrı-ayrı taktiki üsulların tətbiq edilməsinin yolverilməzliyinə dair mülahizələri və mənəvi qiymətləndirilməsi ilə rastlaşacaqları qaçılmazdır.

Etikaya, əxlaqa aid məsələlərə, əhaliyə mətbuat, radio, televiziya vasitəsilə cinayətkarlar, zərərçəkənlər, şübhəli şəxslər və cinayətlə əlaqəsi olan başqa şəxslərin şəxsi həyatı ilə bağlı bəzi cəhətləri barədə məlumat verilməsinin hədləri ilə bağlı məsələləri də aid etmək olar. Cinayətlərin açılması prosesində elə vəziyyətlər yarana bilər ki, şəxsi həyatın bəzi tərəfəri, intim münasibətlər, müəyyən meyllər, zöhrəvi və yaxud ruhi xəstəlik barədə məlumat vermək ehtiyacı üzə çıxa bilər. Bu zaman belə məlumatların aşkarlanması bir tərəfdən cinayətin tezliklə açılmasına və təqsirkarın müəyyən edilməsinə, digər tərəfdən konkret insana və yaxud onun ətrafındakı şəxslərə ciddi mənəvi, hətta psixi zərbə vura bilər. Bundan başqa, humanistlik, xeyirxahlıq, insanın şəxsi həyatının qorunması prinsiplərini əsas tutan ictimai əxlaqa da ziyanlı təsir göstərə bilər.

Mənəvi-etik xassəli problemlərdən biri də kütləvi informasiya vasitələrindən istifadə etməklə cinayətlərdə şübhəli olan şəxslərə məqsədli olaraq yanlış məlumatların (dezinformasiya) verilməsi ilə bağlı məsələdir. Belə hallarda nəzərə almaq lazımdır ki, konkret bir şəxsə yalan məlumat verməklə, əməliyyat aparatı ictimai rəyin formalaşmasına təsir edir, belə ki, sayca böyük auditoriya bu cür təsirin obyektinə çevrilir.

Bu problem barədə xüsusi ədəbiyyatda qeyd olunur ki, cinayəti törədib və məsuliyyətdən boyun qaçıran şəxs ictimai əxlaqa qarşı əks mövqe tutur. Deməli, bu kateqoriyadan olan şəxsin dezinformasiyası cinayətin tez və tam açılması kimi ictimai faydalı məqsədə çatmaq üçün təsirli tədbirlərdən biridir. Bu halda, şübhəsiz ki, məqsəd bir şərtlə əxlaqlı sayılır, yəni ona nail olunma vasitəsi məqsədin özünə (adekvat) uyğundur. Deməli, şübhəli şəxsə yanlış məlumatın verilməsi (şübhələrə kifayət qədər əsas olduqda) törədilmiş cinayətlərin açılmasında müsbət nəticə əldə etməyin bir üsulu kimi (müəyyən qaydaları gözləməklə) rəsmən qəbul olunmuş etik normalara zidd deyil.

Ölkədəki sosial-iqtisadi dəyişikliklər cəmiyyətin mənəvi vəziyyətində əks olunmaya bilməz. Dəyərlərin yenidən qiymətləndirilməsi əsasında ictimai həyatın müxtəlif sahələrində əhəmiyyətli dəyişiklər baş vermişdir. Təcrübə göstərir ki, son illər əməliyyat-axtarış orqanlarına vətənpərvərlik motivləri ilə yardım edən konfidentlərin sayı azalır. Məxfi əməkdaşlıq etməyə indi daha çox həvəsləndirici amil paxıllıq, intiqam, biznes üzrə rəqibin aradan götürülməsi, cəzanı yüngülləşdirmək arzusu,

pul mükafatının alınması və sairdir. **Belə vəziyyət ictimai əxlaqın rolunu azaldır, hüquq-mühafizə orqanları ilə əməkdaşlığı mühakimə edir, əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin nüfuzuna ümumiyyətlə mənfi təsir edir.**

Lakin əxlaq baxımından əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla məxfi əməkdaşlığın mahiyyətinin dərk edilməsi müxtəlif taktiki üsulların (məxfi əməkdaşların əldə edilməsi, onlara rəhbərlik, konfidentlərin əməliyyat tədqiqi obyektləri ilə etibarlı münasibətlərin yaradılması və s.) düzgün qiymətləndirilməsi üçün şərait yaradır. Bu zaman labüd olaraq əməliyyat-axtarış tədbirlərinin tətbiqinin əxlaqi cəhətdən yolverilməzliyi barədə tənqidi münasibətlərlə qarşılaşmaq halları qaçılmaz olur.

Əməliyyat-axtarış orqanları qarşısında duran məqsədlərin və onlara nail olunması üçün tətbiq edilən vasitələrin qarşılıqlı münasibətini müəyyənləşdirdikdə ona əsaslanmaq lazımdır ki, vasitə qarşıda duran vəzifənin həlli üçün, yəni məqsədə nail olmaq üçün həqiqətən lazımdır və məqsədin əxlaqi xarakterini azaltmır, həmçinin vasitə məqsədə nail olunmaq üçün kifayətedicidir.

Əməliyyat-axtarış fəaliyyəti prosesində yaranan mənəvi-etik problemlərin həll edilməsi məqsədilə tanınmış rus alimi A.F.Voznıy əməliyyat aparatları əməkdaşlarının əməliyyat-axtarış tədbirlərinin keçirilməsi prosesində davranışının ümumi, mənəvi əsaslarını ümumiləşdirilmiş qaydada əks etdirən «Əməliyyat işçisinin etik Kodeksi»nin işlənib hazırlanması və qəbul edilməsinin vacibliyini öz elmi işlərində qeyd etmişdir.

Bununla yanaşı, İ.İ.Basetskinin fikrincə, əməliyyat-axtarış fəaliyyəti prosesində qanuni olan hər şeyə yol verilə bilər: psixoloji oyun, yanlış məlumat (dezinformasiya), psixoloji təsir. Belə fikir, həqiqətən, diqqətəlayiqdir və nəzərə alınmalıdır, çünki ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin keçirilməsi problemlərinin yalnız etik normalar əsasında həll edilməsi əməliyyat işçilərinin taktiki üsulların seçilməsində yaradıcı təşəbbüsünü ləngidə və azalda bilər. Lakin mənəvi-etik prinsipləri yalnız formal (deklorativ) surətdə (formada) gözləmək də düzgün deyil. Güman edirik ki, belə vəziyyətdə peşəkar davranışın tənzimlənməsi, habelə bəzi üsulların, metodların və əməliyyat-axtarış səciyyəli hərəkətlərin mümkünlüyü deontologiya Kodeksində müəyyənləşdiriləcəkdir.

Sonda qeyd olunmalıdır ki, bütün yuxarıda təhlil olunmuş prinsiplər deontoloji xarakter daşıyır, bu onlar üçün peşəkar tələb və davranış normasıdır. Təcrübədə bu prinsiplər hər bir kollektivə və əməliyyat aparatının fəaliyyətinin xüsusiyyətlərinə görə konkretləşdirilə bilər.

## § 4. Əməliyyat-axtarış fəaliyyətində dövlət sirləri və onun qorunmasının təmin edilməsi

Əməliyyat-axtarış fəaliyyətinin əsas məqsədlərindən biri də dövlət sirlərini cinayət qəsdlərdən müdafiə etməkdən ibarətdir (Azərbaycan Respublikasının «ƏAF haqqında» Qanunu, maddə 1, II hissə).

***Dövlət sirri – dövlətin hərbi, xarici siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır.***

"Dövlət sirri" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun müddəalarına əsasən ƏAT-nin keçirilməsində istifadə edilən qüvvə, vasitə, mənbələr, metodlar, bu fəaliyyətin planları, nəticələri, mütəşəkkil cinayətkar qruplara daxil edilən, ştatda olan məxfi əməkdaşlar, həmçinin ƏAF-nin subyektlərinə konfidensial əsaslarla köməklik göstərən şəxslər, həmçinin ƏAT-nin təşkili və keçirilməsinə dair məlumatlar dövlət sirrinə aid edilir.

**«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il tarixli Qanununa əsasən, əməliyyat-axtarış fəaliyyəti sahəsində aşağıdakı məlumatlar dövlət sirlərinə aid edilmişdir:**

- əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları planları və nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında;
- şifrələnmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında şifrlər, şifrlərin işlənməsi və hazırlanması, onlarla təminat, şifrləmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-analitik sistemləri haqqında;
- məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında;
- dövlət sirrinin mühafizəsinin təşkili və faktiki vəziyyəti haqqında;
- Azərbaycan Respublikasında dövlətin müdafiəsinin, təhlükəsizliyinin və hüquq-mühafizə fəaliyyətinin təmin olunması ilə əlaqədar dövlət büdcəsinin xərcləri haqqında;

- dövlət təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən tədbirləri açıqlayan kadr hazırlığı haqqında;

Əməliyyat-axtarış fəaliyyəti prosesində istifadə olunan məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula biləcək ziyanın kəmiyyət və keyfiyyət göstəricilərinə görə və «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq belə məlumatlara aşağıdakı məxfilik dərəcələri verilə bilər:

"Dövlət sirri" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun müddəalarına əsasən ƏAT-nin keçirilməsində istifadə edilən qüvvə, vasitə, mənbələr, metodlar, bu fəaliyyətin planları, nəticələri, mütəşəkkil cinayətkar qruplara daxil edilən, ştatda olan məxfi əməkdaşlar, həmçinin ƏAF-nin subyektlərinə konfidensial əsaslarla köməklik göstərən şəxslər, həmçinin ƏAT-nin təşkili və keçirilməsinə dair məlumatlar dövlət sirrinə aid edilir.

**ƏAT-nin təşkili və taktikasına dair məlumatlara aşağıdakılar aid edilir:**

- *ƏAT ilə bağlı konkret hərəkətlərin hazırlanıb keçirilməsinin təminatını səciyyələndirən məlumatlar;*
- *Əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələrinin daha səmərəli tətbiqini səciyyələndirən məlumatlar;*
- *Konkret ƏAT-nin keçirilməsi ilə bağlı məqsədə nail olmağın fənd və üsullarına dair məlumatlar;*

ƏAF-nin təşkili dedikdə konkret ƏAT-nin hazırlanması, təmini və keçirilməsinə və ƏAO-nun hərəkətlərinə istiqamətlənmiş kompleks tədbirlər başa düşülür. Bu qəbildən olan məqsədyönlü tədbirlərə ƏAT-nin hazırlanması və həyata keçirilməsini, onların həyata keçirilməsinə idarəçilik təsiri, həmçinin onların həyata keçirilməsinin bilavasitə təşkilini təmin edən kompleks sərəncamverici, maddi-texniki və digərlərini aid etmək olar.

ƏAF-nin taktikası dedikdə nəzərdə tutulmuş məqsədə nail olmaq üçün konkret ƏAT-nin keçirilməsində ƏAF-nin qüvvə və vasitələrinin məqsədəuyğun tətbiqi qaydası və istifadə edilən fənd və üsulların məcmusu başa düşülür. Taktika ilk öncə ƏAT-nin ardıcıl keçirilməsini, onların nəticələrinin realizə edilmə üsullarını, eyni zamanda aşkar və qeyri-aşkar vasitə və metodların tətbiqini, ƏAT-nin keçirilməsində iştirak edən qüvvələrin pərdələnməsi və onların əfsanələşdirilmiş hərəkətlərini, əməliyyat və digər texniki vasitələrdən istifadə edilməsini və s. kimi hərəkətləri əhatə edir.

***ƏAF-nin qüvvələrinə aid edilir*:**

ƏAT-nin hazırlanması və keçirilməsində bilavasitə iştirak edən və onların hazırlanması və keçirilməsində köməklik göstərən subyektlər, ƏAF-nin qüvvələrinə ƏAF-nin həyata keçirilmə səlahiyyəti olan ƏAF subyektlərinin vəzifəli şəxslərini, ştatda olan və olmayan məxfi əməkdaşları, konfidentləri, həmçinin ƏAT-nin keçirilməsinə cəlb edilən mütəxəssisləri və s. şəxslər.

***ƏAF-nin mənbələrinə aid edilir:***

Əməliyyat-axtarış fəaliyyyətinin vəzifələrinin həlli üçün əhəmiyyət kəsb edən məlumatların daşıyıcıları (belə məlumatlara malik olan fiziki şəxslər) əməliyyat marağı təşkil edən məlumatları özündə əks etdirən sənədlər və əşyalar.

***ƏAF-nin vasitələrinə aid edilir:***

Xüsusi təyinatlı informasiya, texniki-informasiya proqram, məhsullar və digər əşyalar, (Əməliyyat-axtarış uçotları, texniki vasitələr), həmçinin əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həlli məqsədi ilə ƏAT-nin keçirilməsində istifadə edilən axtarış itləri.

***ƏAF-nin metodları:***

-ƏAF-nin məzmununu təşkil edın ayrıca hərəkətlərin və ya onların məcmuusunun tətbiq edilməsinin fənd və üsullarıdır.

**ƏAF-nin nəticələri** dedikdə ƏAF haqqında Qanuna və digər normativ- hüquqi aktların tələbləri rəhbər tutulmaqla hazırlanan törədilən və törədilmiş cinayətlərin əlamətlərinə, cinayətləri hazırlayan, törədən, törətmiş, təhqiqat, istintaq məhkəmədən gizlənən, cəza çəkməkdən boyun qaçıran və itkin düşən şəxslər barəsində, həmcinin ƏAF-nin subyektlərinin vəzifələrinin həlli üçün əhəmiyyət kəsb edən məlumatların əldə ediməsi başa düşülür. Onlar əməliyyat-xidməti sənədlərdə (arayış, raport, akt, arayış-icmal və s.) həmçinin ƏAT-nin gedişatını özündə əks etdirən materiallarda (foto, audio, video çəkilişlərində, səs yazmalarında, həmçinin ƏAF-nin subyektləri ilə əməkdaşlıq edən şəxslərin məlumatlarında öz əksini tapır.

Əməliyyat-axtarış fəaliyyəti prosesində istifadə olunan məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula biləcək ziyanın kəmiyyət və keyfiyyət göstəricilərinə görə və «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq belə məlumatlara aşağıdakı məxfilik dərəcələri verilə bilər:

**«Xüsusi əhəmiyyətli»** – dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikasının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

**«Tam məxfi»** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsinə Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

**«Məxfi»** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində ayrı-ayrı dövlət müəssisə, idarə və təşkilatlarının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi.

Əməliyyat-axtarış fəaliyyətində dövlət sirlərinin təmin edilməsinin hüquqi əsasları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun bir neçə maddəsində əksini tapır. Məsələn, Qanunun 3-cü maddəsində əməliyyat-axtarış fəaliyyəti prosesində konspirasiyanın təmin olunması əsas prinsiplərdən biri kimi göstərilmişdir.

**Qanunun 6-cı maddəsində əməliyyat-axtarış fəaliyyəti subyektlərinin əsas vəzifələrinə:**

- əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;
- öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq;
- hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək kimi vəzifələr aid edilmişdir.

Qanunun 7-ci maddəsində əməliyyat-axtarış fəaliyyəti subyektləri öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən, Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;

- məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;
- əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq;
- konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş

şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək kimi hüquqlar verilmişdir.

Qanunun 10-cu maddəsinin VIII hissəsində «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunla müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən əməliyyat-axtarış tədbirlərinin aparılması, habelə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi və digər texniki vasitələrdən istifadə olunması qadağan edilir. Belə texniki vasitələrin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada lisenziyalaşdırılmalıdır.

**Qanunun *14-cü maddəsinin VIII hissəsində isə göstərilir*:**

- əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən dövlət, hərbi və xidməti sirr sayılan, əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, əməliyyat məlumatlarının mənbəyinə, üsul və metodlarına aid olan məlumatlar aşkarlanmamalıdır;
- əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya Qanunla birbaşa nəzərdə tutulmuş hallarda açıqlana bilərlər.

***Qanunun 16-cı maddəsinin VII hissəsində göstərilir:***

- hər hansı cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaqı aparan şəxsə, prokurora və ya məhkəməyə verilir.”

Əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar (korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının ƏAT ilə bağlı məlumatları istisna olmaqla)prokuror nəzarətinin predmetinə daxil deyil. Bu şəxslər onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər. (Azərbaycan Respublikası «ƏAF haqqında» Qanunu, mad. 20, IV, V hissələr). Bu məsələdə alim və mütəxəssislər arasında yekdil fikir yoxdur.

Nəhayət, əməliyyat-axtarış fəaliyyətinin təşkili və həyata keçirilməsi, onun keçirilməsi üçün etibar edilmiş və ya iş və xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa və s. əməllərə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydaya müvafiq olaraq cinayət, intizam məsuliyyəti daşıyırlar (AR CM, mad. 302, 284, 285).

Bu masələlərdə qanunvericilik tam aydınlıq gətirmir və onun təkmilləşdirilməsinə ehtiyac vardır.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun yuxarıda göstərilən normalarının tətbiqində əsas məqsəd əməliyyat-axtarış tədbirlərinin səmərəliliyini və onun iştirakçılarının təhlükəsizliyini təmin etməkdən ibarətdir. Belə ki, telefon danışıqlarına qulaqasma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, insanların güdülməsi, nəzarət qaydasında mal alma, məxfi əməkdaşların köməyindən istifadə olunması və s. kimi tədbirlər ancaq konspirativ şəraitdə keçirildikdə səmərə verə bilər. Əməliyyat-axtarış fəaliyyətində konspirasiyanın qorunması qarşıda duran vəzifələrin həll edilməsində mühüm əhəmiyyət kəsb edir.

*Əməliyyat-axtarış fəaliyyətində dövlət sirlərinin qorunmasının əhəmiyyəti və vacibliyi, həmçinin müvafiq qanunların Azərbaycan Respublikasının Konstitusiyası, "Dövlət sirri haqında" Qanun, bu sahədə dövlət sirləri ilə bağlı münasibətləri tənzimləyən Prezident Fərmanları, Nazirlər Kabinetinin Qərarları və HMO-nın normativ hüquqi aktlarının tələblərindən irəli gəlir və tələblərə riayət etmək əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifə borcudur.*

# III FƏSIL
# Əməliyyat-axtarış fəaliyyətinin mənəvi əsasları

## § 1. Əməliyyat-axtarış fəaliyyətinin əxlaqi əsaslarının təşəkkülü

Əməliyyat-axtarış fəaliyyəti sahəsində əxlaq münasibətlərinin tədqiq edilməsi ölkəmizin müstəqillik əldə etməsi dövründən əvvəllərə təsadüf edir. Məsələnin qoyuluşunun bir qədər əməli mücərrədliyi bəzilərini elə bir fikrə gətirə bilər ki, guya əməliyyat-axtarış fəaliyyətinin əxlaq dəyərlərinə əsaslanması şübhə doğurucudur. Bu, heç də belə deyil. Ola bilsin ki, bəzi hallarda zəruri təcrübəsi və peşəkar hazırlığı olmayan əməliyyatçılar əxlaqazidd hərəkətlərə yol versinlər. Amma bu, əməliyyat-axtarış fəaliyyətinin əxlaq fövqündə durmasına, mənəviyyatsız başlanğic olmasına heç də dəlalət etmir. Bütövlükdə götürdükdə, əməliyyat-axtarış fəaliyyətinin əxlaq prinsiplərinin "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda aydın və birmənalı şəkildə göstərilməsi onu əxlaq baxımından şübhə altına almağa imkan vermir. Əməliyyat-axtarış fəaliyyəti gedişində əməliyyatçılar və agentlər arasında, əməliyyatçıların özləri arasında, onların və əməliyyat qeydiyyatına götürülmüşlərin arasında yaranan özünəməxsus əxlaq münasibətləri mütləq mütəxəssislərin tədqiqat mövzusuna çevrilməlidir.

Əməliyyat-axtarış fəaliyyətinin əxlaqi əsaslarının əhəmiyyətini vurğulayaraq qeyd etmək lazımdır ki, bu fəaliyyətin əksər üsullarının son dərəcə özəl xüsusiyyətlərə malik olması **səylə örtüklənmiş** (pərdələnmiş) və çox vaxt **incəliklərinədək düşünülüb hazırlanmış cinayətlərlə** mübarizə aparılması zəruriyyətindən irəli gəlir. "Əfsanələr"in əməliyyat-axtarış tədbirlərinin böyük məharətlə gizlədilməsinin, şifrələnməsinin müxtəlif üsullarının tətbiqi cinayətkarlarla mübarizədə onların yaxın əlaqələrindən (o cümlədən cinayətlə əlaqəsi olanlardan istifadə edilməsi, xırda (böyük ictimai təhlükə törətməyən) hüquqpozuntularına yol vermiş şəxslərin gizli əməkdaşlığa cəlb edilməsi, agentlərlə işin müxtəlif aspektləri (agentlərə rəhbərlik, onların maarifləndirilməsi, agentlərin əməliyyat-qeydiyyat işləri üzrə tədqiqə daxil edilməsi və oradan çıxarılması, agentin öyrənilən şəxslə etibarlı münasibət yaratmasının təmin edilməsi və s. məsələlər günün tələblərindən irəli gəlir) - bütün bunlar labüd olaraq

əməliyyat-axtarış fəaliyyəti sahəsində üzə çıxan məsələlərin həllinin bu və ya digər konkret üsullarının əxlaq cəhətdən yolverilənliyi və ya yolverilməzliyi haqqında mühakimə yürütməyə vadar edir.

Rusiyalı alimlər A.İ.Alekseyev və Q.K.Sinilov hələ XX əsrin 70-ci illərində həyata keçirdikləri əməliyyat-axtarış fəaliyyətində əxlaq norma və münasibətlərinin məcmu tədqiqində əməliyyat-axtarış fəaliyyəti şəraitinin bir sıra tipik, təsnifəşdirilmiş əsaslarına və son əxlaq zəruriyyəti halını müəyyən edən şərtlər olduqda, müxtəlif əməliyyat-axtarış tapşırıqlarının həlli üzrə elmi əsaslandırılmış tövsiyələrə uyğun işlənib hazırlanmış əməliyyat-axtarış fəaliyyətinin əxlaqi (mənəvi-etik) əsaslarını nəzərdən keçirmişlər.

Əməliyyat-axtarış fəaliyyətinin mənəvi-etik aspektlərinin öyrənilməsində N.V.Filimonov (Rusiya), L.N.Kalinoviç (Belarus) kimi tanınmış alimlərin əməyini də qeyd etmək olar. Məsələn, N.V.Filimonov öz işlərində bu sahədəki problemlərin öyrənilməsi və həll edilməsi ilə bağlı perspektivi və zəruri olan tədqiqatların aparılması istiqamətləri sırasında aşağıdakıları qeyd edir.

– DİO-nun əməliyyat aparatlarının (BMCMİ, BCAİ, İAQBMİ, BNMİ və s.) bütün idarəçilik səviyyəsində ƏAF-nin təşkilinin mənəvi-etik əsaslarının işlənilməsi;

– ƏAF taktikasının mənəvi-etik əsaslarının tədqiqi;

– əməliyyat müvəkkillərinin funksional vəzifələrinin həyata keçirilməsinin mənəvi-etik xüsusiyyətlərinin tədqiqi və s.

Professor N.N.Basetski tərəfindən isə gizli əməkdaşlarla işin mənəvi-etik və psixoloji aspektlərinin tədqiq olunub öyrənilməsi istiqamətində təcrübə üçün əhəmiyyət kəsb edən müəyyən işlər görülmüşdür.

O dövrün nəzəriyyəçiləri qeyd edirdilər ki, son əxlaq zəruriyyəti əməliyyat-axtarış işinin "imtiyazı" deyil, ona digər fəaliyyət növlərində də rast gəlmək olur, əsasən də xəstəliklərin müalicəsi sahəsində. Belə ki, həkimin iş prinsiplərindən biri doğruçuluqdur. Amma xəstəni aldatması heç də onun fəaliyyətinin universal üsulu deyildir. Lakin elə vəziyyət yaranır ki, ***həkim əxlaqi amansız həqiqəti*** ağır xəstəyə nəinki bildirməyə yol vermir, hətta onu bu acı gerçəklikdən qorumağı, bəzən də xəstəyə həqiqətə uyğun gəlməyən məlumatlar söyləməyi məsləhət görür. Həqiqətdən yayınma bu halda xəstəyə artıq əziyyət verməmək istəyi ilə doğruldula (bəraətlənə) bilər. Başqa sözlə desək, vəzifə borcunun yarartdığı təzad–iki həqiqətdən biri, əxlaq cəhətdən bu şəraitdə daha münasib olanı icra etməlidir. Bax, elə bu vəziyyətin özü son əxlaq zəruriyyəti kimi başa düşülməlidir. Bu qəbildən olan "incə" münasibətlərin iştirakçılarının davranışında hü-

quqi tənzimləmə mexanizmi axtarmaq boş vaxt itirməkdən başqa bir şey deyildir. Burada şahidi olduğumuz xəstəyə qarşı rəftarın yeganə meyarı əxlaq normalarıdır.

Beləliklə, əməliyyat-axtarış fəaliyyətində öyrənilənləri (tədqiq edilənlərin) və onların yaxın əlaqələrini bilərəkdən yanıltma (yanlışlığa yönəltmə, dezinformasiya, aldatma) üslubları sözsüz ki, əməliyyat tapşırıqlarının həllinin universal vasitələri deyil və onlar heç də həmişə istənilən hər hansı şəraitə tətbiq edilmir və edilməməlidir.

Əməliyyat-axtarış fəaliyyətində əxlaq problemləri təkcə fövqəladə hallarda (kütləvi iğtişaşlar, ağır cinayətlər haqqında məlumat daxil olduqda) deyil, həm də nisbətən sabit şəraitdə də gerçəkləşdirilir. Məsələn, bir gizli əməkdaşın digəri vasitəsilə yoxlanması və yaxud şübhəli bilinən şəxs haqqında əməliyyat kombinasiyasının keçirilməsi. Təbii ki, fövqəladə hallarda və adi şəraitdə əxlaq tələblərinin səviyyəsi fərqli ola bilər, bu səviyyə əməliyyatçıların və ya gizli əməkdaşların fəaliyyət göstərdiyi konkret şəraitlə səciyyələnir. Kütləvi iğtişaşların qarşısının alınmasına yönəldilmiş əməliyyat-axtarış tədbirləri keçirilərkən əxlaq cəhətdən özünü tam mənada doğruldan bu və ya digər **taktiki üslüb** digər bir sahədə sosial təhlükəsizliyə qəsdə cəhd etmiş şəxslərin axtarışı üzrə “adi” kəşfiyyat sorğusu aparılarkən tətbiq edilərsə, əxlaq cəhətdən şübhəli dəyərə malik ola və hətta əxlaqdankənar səciyyə daşıya bilər. Bu o deməkdir ki, xüsusi xidmət və əməliyyat-axtarış orqanlarında **əməliyyat – axtarışın əxlaq problemləri** “ümumiyyətlə” deyil, məhz əxlaq prinsipləri səviyyəsində, bütövlükdə isə əməliyyat işinin əxlaqa söykənən əsasları səviyyəsində konkret şəraitə, fəaliyyətin subyektlərinə, metod və vasitələrinə uyğun olaraq tədqiq edilməlidir.

Qeyd etmək yerinə düşərdi ki, əməliyyat-axtarış fəaliyyətində dezinformasiyanın əxlaq baxımından dəyərləndirilməsi (nəyinsə haqqında yanlış məlumatvermə, doğru olmayan məlumatlandırma, kimisə yanlış fikrə sövqetmə) mühüm rol oynaır. Öz-özlüyündə dezinformasiya ictimai faydalı fəaliyyətin bütün sahələrində mütləq qəbulolunmaz deyildir. Dezinformasiya aktlarının əxlaq baxımından dəyərləndirilməsi zamanı ilk növbədə, onun məqsədini, subyektlərin və ünvanların kimliyini, həyata keçirildiyi konkret şəraiti nəzərə almaq lazımdır. Əməliyyat-axtarış fəaliyyətində əməliyyat-axtarış orqanlarının birinin digərini dezinformasiyaya uğratması yolverilməzdir; müstəntiqə həqiqətə uyğun gəlməyən məlumatlar təqdim etmək olmaz və s. Lakin bəzi şəxslərə, prinsip etibarilə, natamam, dəqiqləşdirilməmiş, konkret əməliyyat-axtarış məqsədlərinə uyğun “təhrif” edilmiş məlumatlar təqdim etməyə qanunla yol verilir.

Zənnimizcə, əməliyyat-axtarış fəaliyyətinin kəşfiyyat xarakterini vurğulamaq və kəşfiyyat işinin belə üslübların tətbiq edilməməsi ilə aparılmasını təsəvvür etməyin mümkün olmadığını yada salmaq yerinə düşərdi. Çətin ki, bəzi şəxslərin, məsələn, tədqiq edilənlərin (yoxlanılanların) və yaxud onların yaxın əlaqələrinin yanlış yönəldilməsinin müxtəlif, o cümlədən əxlaq baxımından təcrübədə sınanılmış ənənəvi əməliyyat-axtarış tədbirləri çərçivəsinə sığmasına göz yummamaq olmaz. Göstərdiyimiz vəziyyətlərin (əməliyyat kombinasiyasının, agentin hərəkətlərinin əfsanələşdirilməsi üsulu ilə maskalanması, lazımi ləvazimatla təchizatı və s.) həyata keçirilməsi tədqiq edilənlərin yanlış istiqamətə yönəldilməsini nəzərdə tutur və burada başqa əlverişli çıxış yolu yoxdur. Bəzi hallarda dezinformasiyaya yol verilməsinin qanuniləşdirilməsi ilə bağlı qeyd edilməlidir ki, ədalət naminə yanıltma, aldatma problemi bu gün həm nəzəri, həm də əməli cəhətdən aktualdır. R.S.Belkinin vurğuladığı kimi, «açıq etiraf etmək lazımdır ki, dövlət hüquq-mühafizə məkanında aldatmaya yol verilməsini etiraf edir: o, cinayətlərin aşkar edilməsi və açılmasının vasitəsi kimi çox hallarda dezinformasiyaya, yanıltmaya əsaslanan əməliyyat-axtarış fəaliyyətini qanuniləşdirdi. Əməliyyat aparatının əməkdaşına qarşı mövqedə olan və hüquqpozmada şübhəli olan şəxsin aldadılması əxlaqazidd hesab edilmir; aldatmadan istifadə etmədən cinayətkar qruplaşmaya daxil olmaq, rüşvətxoru, dələduzu cinayət başında tutmaq və s. çətin olur və ya mümkün olmur».

Bu qeyd edilənlərin məntiqi təhlili yönünün verilməsinə nizamlanma normativlərini rəhbər tutaraq belə qəti fikri təsdiqləmək olar ki, onların məntiqi mövqedən insan hüquq və azadlıqlarının, dövlətin təhlükəsizliyinin təmin edilməsi baxımından ƏAF-nin qanunla nəzərdə tutulması artıq mənəvi cəhətdən düzgündür, belə ki, qanun normativ aktların ən yüksək formasıdır.

Xüsusi xidmət və əməliyyat-axtarış orqanlarında əməliyyat-axtarış fəaliyyətinin özəl xüsusiyyətlərindən bəhs edərkən qeyd etmək yerinə düşərdi ki, bir sıra alimlər aşağıdakıları fərqləndirirlər:

**1. Əməliyyat*çı üçün insanın daxili aləminə “nüfuz etmək”, şəxsiyyətə bilavasitə təsir göstərmək və çox vaxt onun taleyinin dəyişməsində birbaşa iştirak etmək zəruriyyəti.*** Bu özəlliklər peşəkar əxlaq normaları ilə şərtlənir ki, onlar bir tərəfdən, peşə, xidmət vəzifələrinin uğurla həyata keçirilməsinə yardım edir, digər tərəfdən isə əməliyyat-axtarış fəaliyyəti obyekti olan şəxsiyyətin mənafelərinin müdafiəsinə təminat verir.

**2. Əməliyyat –** ***axtarış fəaliyyətində yaradıcılığın yüksək xüsusi çəkisi.*** Əməliyyat işi basmaqəlib üsulları sevmir və buna görə onun bütün təfərrüatının hüquqi normalarla təsbit edilməsi heç də həmişə mümkün olmur. Heç bir təlimatla nəzərdə tutulmamış, hər hansı ölçüyə, standarta uyğun gəlməyən şərait əməliyyatçını qarşıya çıxan məsələni yaradıcılıqla həll etməyə məcbur edir. Əməliyyatçıların fəaliyyətinin qanunlar, təlimatlar, əmrlər və digər normativ sənədlərlə lazımi həcmdə tənzimlənməsinə baxmayaraq, bir qayda olaraq bu fəaliyyətin məxfi özəlliyi çox vaxt elə mürəkkəb şərait yaradır ki, burada insanın yeganə məsləhətçisi onun vicdanı, vəzifə borcu və yüksək mənəvi-əxlaq keyfiyyətləri olur. ***Hüququn gücsöz olduğu, yol verilən davranışın ancaq ümumi çərçivələrinin cizgisini çəkdiyi yerdə* əxlaq *əsas ictimai tənzimləyici* rolunu *oynayır.***

3. Əməliyyatçılara öz peşəkar xidmət vəzifələrini yerinə yetirmək üçün xüsusi vasitə və metodlardan istifadə etmək imkanı verən **cəmiyyət *onlara qarşı yüksək tələblər qoyur, böyük etibar göstərir.*** Yuxarıda qeyd edilən iki xüsusiyyətdən törəyən bu üçüncü özəllik şəxsiyyətə, onun müqəddəratına təsiretmə hüququ, fəaliyyətin yaradıcı xarakteri, şübhəsiz, cəmiyyət qarşısında yüksək məsuliyyətlilik tələb edir».

Əməliyyat-axtarış fəaliyyətinin əxlaq məzmununun bəzi xüsusiyyətləri onun məxfi (konspirativ) səciyyəsindən irəli gəlir. Bu xüsusiyyətlər ***əməliyyat-axtarış orqanlarının cari fəaliyyəti üzərində geniş ictimaiyyətin mənəvi-əxlaqi nəzarətini məhdudlaşdırır.*** İctimaiyyət bir qayda olaraq əməliyyat-axtarış fəaliyyətinin bu və ya digər nəticələrini qiymətləndirir, lakin bu fəaliyyətin məxfiliyinə görə o, bu və yaxud digər forma və metodların, qüvvə və vasitələrin tətbiqinin qanunauyğunluğunu qiymətləndirə bilmir. Məhz bu səbəbdən xüsusi xidmət və əməliyyat-axtarış orqanlarında əməliyyatçıların fəaliyyətində ictimai və peşəkarlıq borcunun rolu, öz əməlləri üçün məsuliyyət son dərəcə yüksək olmalıdır. Burada əməliyyatçılara əməliyyat-axtarış fəaliyyəti haqqında anlayışı olmayan digər adamların əməliyyat-axtarış fəaliyyətini əxlaq baxımından dəyərləndirmə fərqinin olacağı labüddür. İş orasındadır ki, məxfilik, həmçinin dövlət sirlərinin mühafizə qaydaları bu və ya digər əməllərin (hərəkətlərin) həqiqi məzmununu, o cümlədən onların əxlaqi xüsusiyyətini gizlətməyi tələb edir. Buna görə də ***dərin əxlaq məzmununa malik əməliyyat-axtarış tədbirləri ƏAF haqqında məlumatı olmayan, bu tədbirlər tətdiq edilən şəxslər və bəzən kənardan müşahidə edənlər tərəfindən əxlaq normalarına zidd təsəvvür edilə bilər.***

## § 2. Əməliyyat-axtarış fəaliyyətinin əxlaqi məzmunu

Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinə görə, o, ictimai faydalı hüquq-mühafizə fəaliyyəti kimi dəyərləndirilir və cəmiyyətdə, əxlaq baxımından birmənalı qarşılanmır.

Əməliyyat-axtarış fəaliyyətinə birmənalı münasibət göstərilməməsi onunla bağlıdır ki, o:

– şəxsiyyətin hüquq və azadlıqlarını (qanunla müəyyən edilmiş qaydada) məhdudlaşdırır;

– cinayətkarlıqla mübarizədə xüsusi vasitə və metodlardan istifadə edir;

– məcburi tədbirlər tətbiq edir.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində bəzən ictimai və peşəkar maraqlar və tələbatlar toqquşur. Peşəkar marağının gerçəkləşdirilməsi (əməliyyat-axtarış fəaliyyəti məsələlərinin ən əlverişli həlli) müəyyən hallarda cəmiyyətin maraqları ilə (şəxsiyyətin hüquq və azadlıqlarına, cəmiyyətin və dövlətin mənafelərinə riayət edilməsinə) ziddiyyət təşkil edir. Belə hallarda bu mənafelərin düzgün uzlaşdırılması son dərəcə vacibdir. Peşəkar marağı, əməliyyat-axtarış fəaliyyətinin xidmət etdiyi vətəndaşların (cəmiyyətin, dövlətin) maraqları hesabına gerçəkləşdirilməməlidir. Peşəkar marağı üstünlük təşkil etdikdə o, ictimai mənafelərlə ziddiyyətə girir. Belə hallarda cəmiyyət əməliyyat-axtarış orqanına öz müdafiəçisi kimi deyil, ona ictimai əxlaq baxımından yad olan və yolverilməz fəaliyyət vasitələri və metodlarından istifadə edən dövlət orqanları kimi baxır.

Göstərilən şəraitdə ideal vəziyyət – peşəkarlıq tələbatının və ictimai tələblərin üst-üstə düşməsi bir-birinə uyğun gəlməmişdir. Xüsusilə cəmiyyət xüsusi xidmət və əməliyyat-axtarış orqanları qarşısında şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, onların cinayətkar qəsdlərdən qorunması vəzifələrini qoymaqla, bu vəzifələrin yerinə yetirilməsini mümkünləşdirən fəaliyyətin vasitə və metodlarından istifadə edilməsinə də imkan yaratmalıdır. Başqa sözlə desək, ictimai və peşəkar mənafelər elə uzlaşdırılmalıdır ki, qarşıya qoyulmuş məqsədi bir tərəfdən cəmiyyətin qəbul etdiyi, digər tərəfdən isə, əməliyyat-axtarış məsələlərinin həlli baxımından kifayət qədər təsirli və ən əlverişli vasitələrlə əldə etmək mümkün olsun.

Maraqların, yuxarıda qeyd edildiyi kimi uzlaşdırıla bilmədiyi hallarda ziddiyyət yaranır: ya qorunan obyektlərin təhlükəsizliyini cinayətkar qəsdlərdən cəmiyyətin icazə vermədiyi vasitələrlə mühafizə etmək və yaxud məqsədə nail olmaqdan əl çəkməklə cinayətkarlara öz hüquqazidd, heç bir məsuliyyət daşımadıqları əməllərini yerinə yetirməyə imkan vermək və yaxud da cinayətkarlıqla mübarizə məqsədi ilə bu və ya digər fəaliyyətə yol verilməsini cəmiyyətdən tələb etmək lazımdır.

Əməliyyat-axtarış fəaliyyətinin məhz bu xüsusiyyəti onun dəqiq normativ tənzimlənməsi tələbatını, yol verilən və ya yol verilməyən hüdudlarının keçilməməsini şərtləndirir. Bu qızıl həddi tapmağın ən kəsərli vasitəsi əxlaqdır. O, əməliyyat-axtarış tədbirləri keçirilən zaman mümkün olan və yol verilən çərçivəni və özünü müəyyənləşdirir. *Beləliklə,* **əməliyyat-axtarış fəaliyyətinin əxlaqi tənzimlənməsi** *hüququn tənzimlənməsinin əsaslandığı bünövrə rolunu oynayır*. Başqa sözlə desək, Azərbaycan Respublikasında əməliyyat-axtarış fəaliyyəti normaları tam mənada Azərbaycan xalqının əxlaqı, ümumbəşər əxlaqı çərçivəsində olmalıdır.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu bir sıra müddəalar təsbit etmişdir ki, bunların tam məcmusu həmin fəaliyyətin **əxlaq məzmunu haqqında mühakimə yürütməyə əsas verir. Onların sırasına aşağıdakıları aid etmək olar:**

– *əməliyyat-axtarış fəaliyyətinin müsbət əxlaqi məqsədinin insan həyatının, sağlamlığının, hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin, dövlət sirrinin, habelə milli təhlükəsizliyin cinayətkar qəsdlərdən müdafiəsi kimi müəyyənləşdirilməsi ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun, mad. 1, 2-ci hissə). Qanunla göstərilənlərdən başqa məqsədlərin əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün əsas ola bilməməsi (mad.11). Bu tədbirlər ancaq cinayətdə iştirakına əsaslandırılmış şübhələr olan şəxslərə tətbiq edilməklə cinayətlərin vaxtında aşkarlanmasını, qarşısının alınmasını, onlara yol verilməməsini və günahkarların (təqsirli şəxslərin) məsuliyyətə cəlb olunmasını təmin etməli və qanunlara riayət edən vətəndaşlara qarşı yönəldilməməlidir;*

– *Azərbaycan Respublikası Konstitusiyası ilə nəzərdə tutulmuş insan hüquqları və azadlıqlarına hörmət tələbləri (mad.12, § 24-71);*

– *hər hansı şəxsin icazəsi olmadan onun şəxsi həyatının toxunulmazlığına, o-*

cümlədən-şəxsi-və-ailə-həyatının-sirrinə,-habelə-onun-şərəf-və-ləyaqətinə-dair-əmə-liyyat-axtarış-tədbirləri-gedişində-əldə-edilmiş-məlumatların-yayılmasının,-qanunla-

*nəzərdə-tutulmuş-hallar-istisna-olmaqla,-yayılmasının-qadağan-olması-(mad.4)-İnsan- və- vətəndaş- hüquqları- və- azadlıqlarına- hörmət- və- onlara- riayət- edilməsi- prinsipi - üstün-prinsip-kimi-rəhbər-tutulur.-Bu,-o-deməkdir-ki,***-əməliyyat-axtarış fəaliyyətində hüquq və azadlıqların müdafiəsi aşağıdakıları nəzərdə tutur:***

*a)-əməliyyat-axtarış-fəaliyyətinin-məqsədi;-b)-istinad-etdiyi-əsası-c)-onun-əsilliyinin-və-istifadə-edilən-vasitələrinin-meyarı-olmalıdır.-Bu-prinsip-nəinki-cinayətlərə - aidiyyəti-olmayan-vətəndaşlara,-həmçinin-cinayətlərin-törədilməsində-şübhəli-bilinən-şəxslərə-də-şamil-edilir;*

*—- əməliyyat- axtarış- fəaliyyətinin- müstəsna- hallarda,- cinayətkarlıqla- mübarizə- məsələlərinin- həllinə- digər- vasitələrlə- nail- olmaq- mümkün- olmadıqda- həyata- keçirilməsi- (mad.13).- Bu- müddəa- ona- yönəldilmişdir- ki,- əməliyyat- axtarış- fəaliyyəti- vasitələrinin-tədbiqinin-gizliliyi,-mürəkkəbliyi-və-özünəməxsusluğu-nəzərə-alınaraq - onların-tətbiqinə-***son zəruriyyət kimi yanaşılsın:***

*—- əməliyyat- axtarış- fəaliyyətinin- keçirilməsi- üçün- dəqiq- əsasların- və- şəraitin,- əməliyyat- axtarış-tədbirlərinin-mümkün-növlərinin-siyahısının,-habelə-əməliyyat-axtarış-orqanlarının-növlərinin-və-onların-səlahiyyətlərinin-və-s.-yalnız-qanunla-müəyyənləşdirilməsi-(«Əməliyyat-axtarış-fəaliyyəti-haqqında»-Qanun,-mad.-5,-10,-11,-12,-13,-14,-15).- Bu- tələblərin- qəti- müəyyənləşdirilməsi- ona- görə- zəruridir- ki,- qanunla- müəyyən-edilməmiş-hallarda-digər-əməliyyat-axtarış-tədbirlərinin-keçirilməsinə-qadağa-qoyulsun-və-həm-də-yol-verilməyən-vasitələrin-(fitnəkarlıq,-böhtan,-özünəşəratma,-materialların-saxtalaşdırılması-və-s.)-tətbiqi-istisna-edilsin.*

Bununla yanaşı, bu və ya digər fəaliyyətin qanuni hesab edilməsi hələ onu əxlaq baxımından avtomatik olaraq mümkün olmasını təstiq etmir. Çünki qanun öz-özlüyündə cəmiyyətin şüurunda qeyri-əxlaqi dəyərə malik ola bilər. Məhz buna görə əməliyyat-axtarış fəaliyyətinin keçirilməsi üçün qanunla müəyyən edilmiş əsaslar olduğu halda belə, onun əxlaq məzmununu təyin etmək, əxlaq normalarına uyğunluğunu üzə çıxarmaq ehtiyacı yaranır. Əməliyyataxtarış fəaliyyətinin məzmunu, onun məqsədləri, prinsipləri, formaları və s. hüququn nəzərdə tutduğu qaydalarla müəyyənləşdirilirsə də, əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin konkret taktikası, konkret şəraitin qiymətləndirilməsi, bu və ya digər qərarın bilavasitə qəbulu hüquq normaları

ilə tənzimlənir. Belə hallarda əməliyyatçıların hərəkətlərinin düzgünlüyünün meyarı işin təkcə uğurla bitməsi ilə deyil, həm də onun əxlaq göstəriciləri ilə müəyyən edilir.

Şübhəsiz ki, Azərbaycan Respublikasında əməliyyat-axtarış fəaliyyətinin qüvvə vasitə və metodlarının istifadə edilməsi ölkədə dövlət təhlükəsizliyi obyektlərinin cinayətkar qəsdlərdən mühafizəsi ilə bağlıdır. Dövlət təhlükəsizliyi obyektlərinin əleyhinə yönəldilmiş ictimai təhlükəli səciyyə daşıyan cinayətkar fəaliyyət özünün başlanğıcında hüquqpozucuların cinayətkar niyyətlərini, cinayətə hazırlığı, əksər hallarda isə cinayətin özünü gizlətməyi və məsuliyyətdən yayınmağı nəzərdə tutur. Belə cinayətkar fəaliyyəti bir qayda olaraq mükəmməl və qəddar xarakter daşıyır, insan birgəyaşayışının ən ibtidai normalarını belə kobudcasına tapdalayır.

Azərbaycan Respublikasının ümummilli təhlükəsizliyi üzrə mənafelərin müdafiə edilməsi üçün cinayətkarları vaxtında aşkar etməyə, tutmağa, onların cinayət əməllərinin qarşısını almağa və törətdikləri cinayətlərə görə onları məsuliyyətə cəlb etməyə imkan verən müvafiq tədbirlər görmək lazımdır. Bu tədbirləri həyata keçirməklə cinayət proseslərini ən ilkin mərhələlərdə əlverişli şəraitdə qanunvericiliyin (idarədaxili normativ aktların) tələbləri rəhbər tutulmaqla izləməyə və yoxlanılan şəxslərdən gizlicə onların davranışını nəzarət altında saxlamağa, onların tərəfindən hüquqazidd addımlar atılmasının qarşısını almağa, habelə cinayəti açmaq üçün məlumat əldə etməyə məhz əməliyyat-axtarış fəaliyyəti ilə nail olmaq mümkündür. Əməliyyat-axtarış tədbirləri keçirmədən hüquqazidd fəaliyyətdə şübhəli bilinən şəxslərin gizli planları, niyyətləri və cəhdləri haqqında səhih məlumat alınmasını təşkil etmək, cinayətlərin qarşısının alınması və açılması üzrə vaxtında etibarlı əməliyyat mövqeləri yaratmaq qeyri-mümkündür. Təcrübə göstərir ki, belə hallarda əməliyyat-axtarış tədbirləri müsbət nəticələr əldə edilməsinin yeganə vasitəsidir.

Bu baxımdan əməliyyat-axtarış fəaliyyəti əxlaq normalarının tələblərinə nəinki cavab verir, hətta cinayətkarlıqla mübarizə aparmaq vasitəsilə onların gerçəkləşməsinə bilavasitə yardım edir, çünki məhz cinayətkarlıq əxlaqi davranışın birinci düşmənidir. Baş vermiş cinayət açılmadıqda, cinayətkar ifşa edilmədikdə məlum olur ki, ədalət bərpa olunanadək və cinayətkar layiqli cəzasına çatanadək kobudcasına pozulmuş əxlaq normaları gerçəkləşmək imkanından məhrum qalacaq. Buna görə ağır cinayətlərin böyük əksəriyyətinin müstəsna olaraq ancaq əməliyyat-axtarış tədbirləri sayəsində açıldığını nəzərə alaraq deyə bilərik ki, bu fəaliyyət cəmiyyətdə əxlaq normalarının təsbit edilməsi üçün ən təsirli vasitədir. Bütün bunlar əməliyyat-axtarış fəaliyyətinin müsbət əxlaqi cəhətlərini, insanpərvərliyini və ədalətin təsdiqinə yönəldiyini əyaniliklə sübut edir.

Lakin göz yummaq olmaz ki, xeyirxah məqsədlərə nail olunması mənfi çalar daşıyan vasitələrdən istifadə edilməsi ilə bağlıdır. Əməliyyat-axtarış fəaliyyəti gedişində əməliyyatçı konspirativ tədbirlər tətbiq etmək, uydurmalardan, dezinformasiyadan istifadə etmək, məxfi münasibətlər qurmaq, insanların şəxsi həyatına müdaxilə etmək məcburiyyətində qalır. Eyni zamanda yaşayış mənzillərinə gizli daxil olmağa, telefon danışıqlarına qulaq asmağa, poçt göndərişlərinə, teleqraf və digər məlumatlara nəzarətə, texniki rabitə kanallarından məlumatın götürülməsinə və s. yol verilir.

Onu da nəzərə almamaq olmaz ki, **əməliyyat-axtarış fəaliyyəti əməliyyatçıların özlərinə və onlara məxfi kömək göstərən vətəndaşlara heç də həmişə müsbət təsir göstərmir**. Xüsusilə onların əxlaq mövqelərinin aşılanması, vətəndaşların şəxsi və ictimai həyatına hər hansı müdaxilənin yol verildiyinə inamın formalaşması, həyatın «astar üzünə» alışması, həya hissinin kütləşməsi və s. hallar baş verə bilər.

Yəqin ki, belə vəziyyət əməliyyatçıların fəaliyyətində bu cür vasitələrin qanuniliyinə şübhə doğurmaya bilməz. Elə buna görə əməliyyat-axtarış fəaliyyətinin əxlaq məzmunu haqqında məsələnin qoyuluşu çox zəruri və xüsusi əhəmiyyətə malikdir.

Əməliyyat-axtarış fəaliyyətinin bəzi forma və metodlarının ictimai rəyə müvəfiq olaraq mənfi dəyərləndirilməsi əsasən əhali arasında kifayət qədər geniş yayılmış stepeotip (qəlib) düşüncə tərzi ilə bağlıdır ki, bu zaman bu və ya digər hadisəyə onun əvvəlki mahiyyəti, sosial təbiəti, məzmunu yeni şəraitdə tamamilə dəyişsə də köhnə münasibət dəyişməz qalır.

Həqiqətən, sahibinin iradəsindən asılı olmayaraq məxfi qaydada alınan məlumat faktı özlüyündə, sosial şərait nəzərə alınmadan, vətəndaşların şəxsi həyatına müdaxilə, təbii ki, müsbət qəbul edilmir. Lakin belə faktlara hər hansı qiymət mücərrəd hallara deyil, konkret hadisələrə verilir. Elə buna görə də qeyd etmək yerinə düşərdi ki, iki eyni hadisə müxtəlif şəraitdə bir-birinə əks qütblü əxlaq dəyərinə malik ola bilər. Belə ki, gizli surətdə əldə edilmiş məlumatı kəşfiyyat və casusluq, hazırlanan və ya törədilmiş cinayət haqqında məlumatı əməliyyat-axtarış orqanlarına kömək və xəbərçilik, məxfi əməkdaşlığı vətənə xidmət və satqınlıq adlandırmaq olar.

Hadisələrin ikimənalı dəyərə malik olmasını unutmaq, onun ya müsbət, ya da mənfi mənasını mütləqləşdirmək çox vaxt yanlış fikirlərə və səhvlərə səbəb olur. Vətəndaşların əməliyyat-axtarış orqanına məxfi köməyini xəbərçiliklə (çuğulluqla) eyniləşdirmək sağlam əxlaqa malik hər bir insanda təbii olaraq mənfi münasibət do-

ğurmalıdır. Lakin bunu insan etiraf etməyə bilməz ki, cəmiyyəti və onun vətəndaşlarını bu cəmiyyətin üzvlərinin köməyindən, o cümlədən gizli köməyindən **istifadə edilməməsi** yolu ilə *cinayətlərdən-müdafiə-olunmaqdan* məhrum etmək əxlaq normalarından kənardır.

**Əməliyyat-axtarış fəaliyyətini elə fəaliyyət növlərinə aid etmək olar ki, onların gedişində insanın konkret hərəkəti, əməli, istifadə etdiyi vasitələr ideal əxlaq səciyyəsi daşımasın, lakin nəcib məqsədlərə nail olmaq üçün zəruri olsun**. Hazırkı şəraitdə mümkün olan bütün davranış variantlarından və sərəncamımızda olan vasitələrdən, o cümlədən məqsədə nail olunmasından əl çəkməkdən əməliyyat tədbirləri ən münasibi və elə buna görə mümkün olanıdır. Onlardan imtina etmək böyük və çox zərərli nəticələrə aparıb çıxara bilər. Məişətdə buna «ən kiçik bəlanı» seçmək, hüquqda isə **son ehtiyac** deyilir.

Gerçək şərait özündən əxlaq normasını tam həcmdə yerinə yetirməyin mümkün olmaması, əməliyyat-axtarış fəaliyyətinin bir sıra vasitə və metodlarının seçimi qarşısında ayrı-ayrı əxlaq normaları tələblərinin toqquşması müxtəlif normaların yerinə yetirilməsi, fərqli davranış variantlarının seçilməsi məsələlərinin səylə götür-qoy olunmasını tələb edir. Bunda məqsəd seçimin itkisiz və zərərsiz olmasına səy göstərilməsidir.

Cinayətkarlığa qarşı mübarizə şəraitində iki əxlaq normasının münaqişəli toqquşması – şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin cinayətkar qəsdlərdən əməliyyat-axtarış vasitələri ilə qorunması zəruriyyəti və insanın şəxsi azadlığı məkanına gizli müdaxilənin yolverilməzliyi, qanunla dəqiq təyin edilmiş hüdudlarda və zəruri şərtlərə riayət edilməsilə belə müdaxiləyə imkan verən güzəştli norma törədir. **Vətəndaşın şəxsi azadlığına tam etinasızlıqla yanaşaraq dövlətin təhlükəsizliyi normasına üstünlük verdikdə əslində, insanı dövlətin tam nəzarəti altında saxlayan totalitar dövlət tipi qazanmış oluruq**. Vətəndaşların davranışına güclü nəzarət qoyulduqca (o cümlədən əməliyyat-axtarış fəaliyyəti vasitələri ilə) hüquqazidd əməllərin törədilməsi üçün imkanlar da azalır. Lakin belə nəzarətin əsaslandırılmadan genişləndirilməsi əks nəticələr verir – şəxsi azadlığının təmin edilməsi üçün insanın müdafiəsi vasitəsi məqsədə çevrilir və bu halda, ilk əsas məqsəd – şəxsi azadlıq isə yoxa çıxır. Əksinə, vətəndaşların şəxsi azadlıq məkanına toxunan əməliyyat-axtarış tədbirlərindən tam imtina edilməsi cinayətkarların əl-qolunu açardı və beləliklə də elə bu azadlığı heçə endirmiş olardı.

Mövzumuzla əlaqədar Q.V.Plexanovun sözlərini yada salmaq pis olmazdı. O, yazırdı ki, insanların əxlaq hissləri «bizim yaxınlarımızın maraqlarına xidmət işində bizə hələ düzgün yol göstərmir. Həkimə öz xəstəsinə təkcə can yandırmaq kifayət etmir: o, orqanizmin **fiziki** gerçəkliyi ilə hesablaşmalı, onunla mübarizədə *ona istinad etməlidir*. Əgər həkim xəstəliyə qarşı ancaq mənəvi hiddətlə kifayətlənsəydi, ən pis istehzaya məruz qalardı.

Hüquqazidd fəaliyyətlə mübarizə təkcə «mənəvi hiddət» deyil, həm də konkret hərəkət tələb edir. Bu hərəkətlər cinayətkarlıqla mübarizənin gerçək şəraitindən doğmalıdır. Xəstənin təkcə halına acımaqla özünü məhdudlaşdırmayan və əksər hallarda xəstəyə ağrı, xoşagəlməz əziyyət verməyə məcbur olan həkim kimi əməliyyatçılar da cəmiyyət üçün heç də həmişə əlverişli olmayan, lakin ölkədə qanun-qaydanı bərpa etməkdən ötrü zəruri olan vasitələrdən istifadə etməklə dövlətin və həvalə olunmuş obyektlərin təhlükəsizliyi mənafelərini müdafiə edirlər. Bu vasitələr **əxlaqi cəhətdən yol verilən vasitələr** adlanır. Onlar əxlaq normaları çərçivəsinə sığsa da obyektiv şəraitin təsirləri sayəsində ideal sayılmır. Başqa sözlə desək, əməliyyat-axtarış fəaliyyətinin yol verilən əxlaqi səciyyə daşıması barədə danışarkən «arzuedilməz» tərəflərini inkar etmədən onun əxlaqiliyini təsdiqləyirik.

Əltrial, əməliyyat-axtarış fəaliyyətinin gizli xüsusiyyətindən, qanun pozanlara qarşı münasibətdə məcburi hüquqi tədbirlərdən imtina edilməsi cəmiyyət və vətəndaşların şəxsi azadlığı üçün ideal tələbat olardı. Lakin belə imtina eyni zamanda digər vətəndaşlara, cəmiyyətə qarşı münasibətdə əxlaqi normaların tamamilə pozulmasına səbəb olar və beləliklə bu cinayətkar fəaliyyətin daha geniş yayılmasına meydan açardı. Məhz buna görə əməliyyat-axtarış fəaliyyəti vasitələrindən istifadə etmək və ya etməmək məsələsində ən humanist və ədalətli seçim kimi onlardan istifadə etməyə üstünlük verilməlidir. Bu **vasitələrdən** istifadə edilməsi son zərurətin və «məcburi vasitələrin» güzəştli əxlaqi seçiminin gerçəkləşdirilməsi nümunəsidir. Mövcud əməliyyat şəraiti problemlərini **bunlarsız** həll etmək mümkün deyil.

Göründüyü kimi söhbət ancaq belə vasitələrə nə dərəcədə yol verilməsindən, onların hər hansı konkret halda tətbiqinin əsaslılığından gedə bilər. H.Hegelin dediyi kimi «məhkəmələr, döyüşçülər nəinki adamları öldürmək hüququna malikdir, həm də bu onların vəzifəsidir, lakin eyni zamanda hansı adamlara qarşı və hansı şəraitdə buna yol verilməsi və vəzifə borcu hesab edilməsi ***dəqiq müəyyənləşdirilməlidir.*** Təəssüflər olsun ki, hüquq-mühafizə sistemlərinin fəaliyyətində ümumi «qanunauyğun» hal

kimi çox vaxt «qaş düzəldən yerdə vurub gözü də çıxarmaq» deyiminə uyaraq bəzən müalicə «vasitəsi» kimi cinayətkar qəsdlərdən qorumağa yönəldilmiş fəaliyyət insan azadlıqlarının, dövlət təhlükəsizliyinin mənafelərinin daha çox pozulmasına səbəb olur. Məhz buna görə hər hansı konkret şəraitdə davranışın yol verilən əxlaqi həddini düzgün müəyyən etmək son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının mövcud qanunvericilik normaları və əməliyyat təcrübəsi əməliyyat işində əsas səmt götürmək üçün bir sıra meyarlar təqdim edir. Bunlara söykənərək xeyrin şərə çevrildiyi hədləri tapmaq, onları vaxtında görmək və təsirli ölçü götürmək mümkündür. Bəzən cəmiyyəti cinayətlərdən müdafiə etmək kimi xeyirxah məqsəd ona zərər vurmuş olur. **Belə meyarlar arasında aşağıdakıları göstərmək olar:**

– məhz bu vasitələrin istifadəsinin və bu əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zəruriyyətinin və yaxud digər vasitələrin köməyi ilə lazımi nəticələrin alınmasının mümkünlüyü;

– bu və ya digər əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin nəzərdə tutulan maddi və mənəvi nəticələri;

– belə əməliyyat-axtarış tədbirlərinin keçirilməsi gedişində əldə ediləcək materialların əməliyyat-qeydiyyat işi üçün əhəmiyyətli olması və kifayət etməsi;

– Cinayətin və cinayətkarın ictimai təhlükəlilik dərəcəsi.

Sadalanan meyarları nəzərə almaqla əməliyyat-axtarış tədbirləri keçirilməsi haqqında qərar qəbul edilərkən və onların həyata keçirilməsi prosesində düzgün seçim zəruridir. Çünki bəzən cinayətin qarşısının alınmasının və ya onun açılmasının mənfi nəticələri əldə edilmiş cüzi müsbət nəticələrdən qat-qat artıq ola bilər.

Bu və ya digər əməliyyat-axtarış tədbirlərinin tətbiqinin mümkünlüyü haqqında qərar o zaman düzgün hesab edilə bilər ki, onun bütün və ya ən azı qərarın subyektinin görə biləcəyi daha əhəmiyyətli nəticələri nəzərə alınmış olsun. Gündəlik həyat şəraitində çox vaxt qərar qəbul edilərkən və yaxud bu və ya digər əməl üçün məsuliyyət**birbaşa nəticələr hüdudlarında** müəyyənləşdirilir. Bu isə öz növbəsində yanılmalara səbəb olur, çünki bu zaman ikinci dərəcəli kimi diqqətdən yayınmış amillərin nəticələri birbaşa nəticələrdən daha yüksək əhəmiyyət kəsb edə bilər. Bu nəzər nöqtəsindən yanaşdıqda ikinci dərəcəli o nəticələr hesab edilməlidir ki, onlar ya alınmış nəticə ilə birbaşa bağlı deyillər, amma subyektin sonrakı fəaliyyətinə təsir göstərirlər (məsələn, əməliyyatçı tərəfindən hüquqazidd hərəkətə yol verilməsi qanun pozucusunun hüquqi təfəkkürünə təsir göstərir,

onu digər belə əməllər törətməyə sövq edir), yaxud da bu nəticələrin bilavasitə aidiyyəti olmadığı cəmiyyət üzvləri üçün əhəmiyyətə malik olurlar (məsələn, əməliyyat-axtarış tədbirləri keçirilən zaman əməliyyat-axtarış orqanlarının nəzarəti sahəsinə düşmüş fiqurantlarla bağlı olan, lakin cinayətə aidiyyəti olmayan şəxslərin mənafeləri).

Əxlaqi nəticələr elə xüsusiyyətlərə malik olur ki, zahirən sanki lazımsız, təsirsiz görünən, əməli cəhətdən bilavasitə dəyərsiz bir rəftar yüksək sosial önəm kəsb edir. Buna görə bu və ya digər əməliyyat-axtarış tədbirinə əxlaqi baxımdan yol verilməsi haqqında düzgün qərar qəbul edilməsi üçün bu hərəkətlərin həm insan davranışına və talelərinə, həm də onların şüuruna göstərdiyi müsbət və mənfi təsirlərin bütün məcmusu nəzərə alınmalıdır.

Beləliklə, bu və ya digər əməliyyat-axtarış tədbiri və yaxud əməliyyat-axtarış fəaliyyəti vasitəsi əxlaq cəhətdən o zaman yolverilən hesab oluna bilər ki, onun keçirilməsi və ya istifadə edilməsi daha az fiziki, əxlaqi, maddi və digər zərər vurmuş olsun (nəinki onların heç keçirilməməsi) və ya başqa cür desək, bu əməliyyat-axtarış tədbirinin keçirilməsinin köməyi ilə əldə edilmiş müsbət nəticə onun vurmuş olacağı zərərdən əhəmiyyətli dərəcədə yüksək olsun. Xüsusilə vurğulamaq lazımdır ki, burada söhbət məsələyə praqmatik yanaşmadan (təsirli olan, həm də əxlaqi cəhətdən yolveriləndir) getmir, söhbət əxlaqi zəruriyyət nəzər nöqtəsindən yanaşma haqqındadır, daha doğrusu, əxlaq keyfiyyətinə malik təsirdən gedir. Digər tərəfdən bu əxlaqi təsirlilik bu və ya digər əməliyyat-texniki tədbirlərinin keçirilməsinin həm birbaşa, həm də dolayısı ilə və sonradan aşkarlanan nəticələrini nəzərə alır (bu tədbirlər həyata keçirmiş insanların mənəvi-əxlaqi durumuna, onların sonrakı davranışına göstərilən təsir və s.).

Əməliyyat-axtarış fəaliyyətinin bu və ya digər vasitələrinin seçilməsində yuxarıda göstərdiyimiz mümkün əxlaq meyarlarını tətbiq etdikdə onların tətbiqinin hansı zəruriyyətdən irəli gəldiyini aydınlaşdırmaq lazımdır. Əgər biz əməliyyat-axtarış orqanları qarşısında duran vəzifələri həll etmək üçün qanunvericiliklə müəyyən edilmiş digər hüquqi vasitələrdən istifadə etmək imkanına malikiysə, onda təkcə bu hal sadaladığımz əməliyyat-axtarış tədbirlərinin istifadə edilməsinin yolverilməzliyini etiraf etməyə əsas verir. Bu və ya digər əməliyyat-axtarış vasitələrinin istifadə edilməsi zəruriyyəti hələ heç də onların əxlaqi baxımdan mümkünlüyü haqqında söz deməyə əsas vermir. Öncə buna görə onların tətbiqindən dəyən zərərin əldə ediləcək müsbət nəticələrdən daha çox olmayacağını müəyyənləşdirmək lazımdır ki, nail olunan nəticənin dəyəri heçə enməsin.

Hər hansı konkret halda bu və ya digər əməliyyat-axtarış tədbirinin keçirilməsinin mümkünlüyü həddinin müəyyən edilməsi fərdi əxlaq və hüquqa əsaslanan təfəkkürə malik əməliyyatçılar tərəfindən yerinə yetirilir. Onlar əxlaq və hüquq norma və dəyərlərinin mahiyyəti haqqında, əxlaqi və qeyri-əxlaqi, qanuni və hüquqazidd meyarlar haqqında öz fərdi keyfiyyətlərinə məxsus özəl təsəvvürə malikdirlər.

Əməli işdə bu özəllik ona gətirib çıxarır ki, eyni əməliyyat-axtarış tədbirləri müxtəlif şəxslər tərəfindən həm yolverilən, həm də yolverilməz hal kimi səciyyələndirilə bilər. Bu xüsusiyyəti nəzərə almaq əməliyyat-axtarış fəaliyyətində onun təşkilatçıları, rəhbərləri üçün son dərəcə vacibdir. Planlaşdırılan əməliyyat-axtarış tədbiri həm obyektiv (əxlaq və hüquq tələblərinə uyğun) olaraq qəbul edildikdə, həm də subyektiv (subyektin əqidəsinə uyğun) olaraq yolverilən kimi dərk edildikdə məhz məqbul sayıla bilər. Fərdi və ictimai şüurda əməliyyat-axtarış tədbirlərinin dəyərləndirilməsində fikir ayrılığı, *fərqli-yanaşma* onların həyata keçirilməsinin təsirliliyində və məqsədyönlüyündə özünü büruzə verir, sonuncuda isə dövlətin (cəmiyyətin, şəxsiyyətin) təhlükəsizliyi mənafelərinin müdafiəsinin nəticələrində özünü göstərir.

Hər bir əməliyyatçı dövlətin təhlükəsizliyi əleyhinə yönəldilmiş cinayətkar qəsdlərlə mübarizədə əməliyyat-axtarış fəaliyyəti vasitələrinin tətbiqinin zəruriliyi və qanuniliyinə əmin olmalı, məhz onlardan istifadə edilməsinin cəmiyyət, dövlət üçün müsbət əxlaqi nəticələrinin mahiyyətini başa düşməlidir. Belə inamın olmaması, həyata keçirilən tədbirlərin əxlaqi tərəfərinin anlaşılmaması əməliyyatçının öz məxfi köməkçilərinə münasibətində, onlarla işlədiyi metod və vasitələrdə, habelə əməliyyat-axtarış fəaliyyəti obyektlərinə münasibətdə qaçılmaz surətdə mənfi əks təsirini göstərəcəkdir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən səlahiyyətli şəxslər qarşısında əxlaq seçimi problemi təkcə hər hansı əməliyyat-axtarış tədbirinin keçirilməsi imkanlarını dəyərləndirərkən deyil, həm də onların gündəlik xidmət fəaliyyəti gedişində də daima dayanmaqdadır. Əməliyyatçı öz vicdanı, imanı və digər bəşəri prinsiplərlə təklikdə qaldıqda əxlaq seçiminin əhəmiyyəti kəskin surətdə artır. Belə hallar əməliyyat-axtarış fəaliyyəti üçün olduqca səciyyəvi xarakter daşıyır. Əməliyyatçı çox vaxt mürəkkəb və təxirə salınmadan həlli tələb edilən və kimsədən kömək, məsləhət almaq imkanı olmayan qeyri-adi şəraitdə müstəqil qərar qəbul etmək məcburiyyətində qalır. Əksər hallarda konkret əməliyyatın uğurla nəticələnməsi onun əxlaqi seçimindən asılı olur.

Atılan addımın həm əməli, həm də əxlaqi cəhətdən ən təsirli olması üçün əməliyyatçı mümkün gedişlərinin bütün variantlarını öncədən bilməli və yaxşıca dərk etməlidir ki, öz əqidəsinə görə onlardan ən yaxşısını və əlverişlisini müəyyən edə bilsin. Bəzi əməliyyat-axtarış tədbirlərinin məxfi xarakteri seçim variantlarının anlaşılmasını bir sıra özəlliklərlə bağlayır. Bunlardan ən önəmlisi, əməliyyatçının həmin anda atacağı bu və ya digər addımın, həyata keçirəcəyi hərəkətin (əməlin) bütün nəticələrinin və ya onların ən əhəmiyyətlilərinin irəlicədən aydınlaşdırılması imkanına malik olmamasıdır. Unutmaq olmaz ki, əxlaqi seçim çox vaxt ən çətin vəziyyətlərdə, risk tələb olunan şəraitdə həyata keçirilir. Məhz belə hallarda əməliyyatçının şəxsi əxlaq və iradə keyfiyyətləri böyük əhəmiyyətə malik olur.

***İstənilən mürəkkəb bir sahədə, xüsusilə də əməkdaşları alternativ seçim qarşısında qoyan kəskin qarşıdurmalarla, məxfi davranışla, qeyri-adi şəraitlə bağlı olan əməliyyat-axtarış fəaliyyətində səhvlərdən tamamilə yan ötüşmək çox çətindir. Lakin qüsurların mümkün qədər azaldılmasına səy göstərilməlidir. Adi və ya çətin şəraitdə seçimin nəticəsi olan hər hansı uğursuzluğun dəyərləndirilməsi onun dərindən təhlilinə əsaslanmalıdır. Yerinə yetirdiyi hərəkəti düzgün seçməsi müəyyən edildiyi halda, obyektiv şərait və ya əməliyyatçının qabaqcadan görə bilmədiyi şərait düzgün seçimin gerçəkləşməsinə maneəçilik törətmişsə də, əməliyyatçının hərəkəti əxlaqi cəhətdən qiymətləndirilməlidir. Məhz bacarıqsızlıqdan, seçilmiş vasitələrin məqsədəuyğunsuzluğundan törəyən hərəkətdəki səhvlər mənfi dəyərləndirilməyə layiqdir. Özünü doğrultmayan riskə gedən əməliyyatçı məsuliyyət daşımalıdırsa, həvalə edilmiş vəzifələri yerinə yetirməyənlər, nəticələrindən qorxduğu üçün fəaliyyətsizlik göstərənlər daha yüksək məsuliyyətə cəlb olunmalıdır.***

## § 3. Əməliyyat-axtarış fəaliyyətində mənəvi-əxlaqi münasibətlər

Əməliyyat-axtarış tədbirləri keçirilməsi prosesində əməliyyat-axtarış orqanlarının əməkdaşları çoxsaylı və müxtəlif çeşidli münasibətlərə girirlər. Belə münasibətlərin mürəkkəbliyi ondadır ki, onların əksəriyyəti, əxlaq tənzimlənməsindən fərqli olaraq, təsir qüvvəsi məhdud çərçivədə olan hüquqi tənzimləmə məkanına sığmır. Buna görə əməliyyat-axtarış tapşırıqlarının yerinə yetirilməsi üçün əxlaq amilinin əhəmiyyətini aydın dərk etmək, onu bacarıqla tətbiq etmək və əxlaq normalarının hüquqi normalardan az təsir qüvvəsinə malik olmadığını nəzərə almaq lazımdır.

Əməliyyat-axtarış fəaliyyətində müxtəlif əsaslar üzrə təsnifəşdirilə bilən çoxsaylı münasibətlər yaranır. Onlardan ən önəmliləri ***əməkdaşlıq və qarşıdurma*** münasibətləridir.

**Əməkdaşlıq münasibətləri** – əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar ilə onların əməkdaşları arasında və həmçinin bu orqanlarla onlara kömək göstərən vətəndaşlar arasında yaranan **məqsədyönlü münasibətlərdir.**

Azərbaycan Respublikasının təhlükəsizliyinə qarşı yönəldilmiş cinayətkar qəsdlərlə mübarizə – əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların ümumi vəzifəsidir. Məhz buna görə ölkənin ***digər əməliyyat-axtarış orqanları ilə qarşılıqlı fəaliyyət*** prosesini ləngidən sahə mənsubiyyəti, sahə təkəbbürlüyü, öz dar sahə mənafeyini güdmə meyillərinin aradan qaldırılması çox vacibdir. Yəqin ki, belə mənfi halların mövcudluğunun obyektiv və subyektiv səbəbləri vardır. **Tutaq ki, məsələn, hər bir əməliyyatçı öz fəaliyyət xəttinə aidiyyəti olmayan, amma digər orqanlar üçün əhəmiyyət kəsb edən məlumatı əldə etməkdən ötrü potensial imkana malikdir. Lakin onu, ilk növbədə əlbəttə ki, ancaq öz vəzifə tapşırıqlarını yerinə yetirməyə imkan verən məlumatı almaq daha çox maraqlandırır və bu da təbiidir. Əslinə qaldıqda isə onun ala biləcəyi və digər orqanlar üçün prinsipial əhəmiyyət kəsb edən məlumatlar tələb olunmamış qalır.**

Qarşılıqlı əlaqə saxlanılan mərkəzi və bölgə əməliyyat-axtarış orqanları ilə belə münasibətlərin saxlanmasını müəyyənləşdirən forma və metodların formal normativ əsaslarının olmasına baxmayaraq, həmin orqanlarla digər əməliyyat-axtarış fəaliyyəti həyata keçirən orqanlar arasında qarşılıqlı əlaqənin qurulması və gerçəkləşdirilməsi əksər hallarda bu bölmələrin rəhbərlərinin, əməkdaşlarının arasında ***şəxsi əməkdaşlıq*** münasibətlərinin yaranmasından, onların vəzifə və məsuliyyət hissindən, mənəvi-əxlaq normalarına sadiqliyindən çox asılı olur. Dövlətin təhlükəsizliyinə qarşı cinayətkar qəsdlərin açılması, qarşısının alınması və yol verilməməsi üzrə ümumi və xüsusi tapşırıqların həllində mövcud qüvvə və vasitələrdən daha səmərəli istifadə etmək məqsədilə mühafizə edilən obyektlərin qarşılıqlı fəaliyyət göstərən əməliyyat-axtarış orqanlarının müvafiq hərəkətlərinin məhz razılaşdırılaraq birgə aparılması yolu ilə nail olmaq mümkündür.

**Əməliyyatçıların öz aralarında yaranan münasibətlərin əhəmiyyəti də az deyildir və çox önəmlidir.** Əməliyyat bölmələrinin kollektivlərində digər bölmələrdə olduğundan daha çox prinsipiallığa, səmimiyyətə, qarşılıqlı inama, etibarlılığa

və bir-birinə təmənnasız köməyə əsaslanan əməkdaşlıq münasibətləri qurulmalıdır. Əməliyyatçıların iş xüsusiyyəti daima və fasiləsiz olaraq mikrososial qurumlarda birgə fəaliyyətdə iştirak etmələri, cinayətkarlığa qarşı mübarizə naminə mürəkkəb əxlaqi-mənəvi şərait çərzivəsində çalışmaları onların arasındakı davranışı, rəftarı, münasibətləri bir sıra özəlliklərə məruz qoyur, şərtləndirir. Xüsusilə onların böyük əksəriyyəti aşkarlanmasına qanunvericiliklə yol verilməyən materiallarla işləyir. Burada nə yersiz şəxsi maraq göstərməyə, nə də boşboğazlığa yol vemək olar. Elə buna görə xidmət zəruriyyəti və rəisin icazəsi olmadan digər əməkdaşların hazırda nə ilə məşğul olması ilə maraqlanmaq, onların hansı xidmət fəaliyyəti göstərməsinə müdaxilə etmək, qarışmaq olmaz.

Əməkdaşın əməliyyat-axtarış tədbirlərinin keçirildiyi obyektlərə və şəxslərə maraq göstərmək, habelə həmkarların xidmət fəaliyyətinə gizli kömək göstərən şəxsləri müəyyənləşdirməyə cəhd etmək əməliyyat-axtarış orqanlarında qəbul olunmamış hal kimi sayılır və xidməti ənənə, həmçinin konspirativliyin təmin edilməməsi və ya xidmətə xəyanət, satqınlıq (riyakarlıq) qismində dəyərləndirilir. Özünün iştirak etmədiyi bu və ya digər işin gedişi haqqında həmkarını sorğu-suala tutmaq onun əməliyyat işinin vəziyyəti haqqında öz rəyini söyləmək, yaxud bu və ya digər əməliyyat-axtarış tədbirləri keçirilməsində öz iştirakına təkid etmək olduqca yersiz hərəkət, nəzakətsizlik və hətta əməliyyat işinə uyğunsuzluq kimi başa düşülməlidir. Hər bir əməliyyatçı belə sorğu-sualları və təklifəri rədd etməkdə haqlı olsa da, bunu mədəni surətdə, həmkarının mənliyinə toxunmadan etməlidir. Sorğulardan boyun qaçırma heç də həmkarlar arasında xoş münasibətləri pozmamalıdır, əksinə, onların arasındakı münasibət, hörmət və qarşılıqlı inam daha da möhkəmlənməlidir, çünki əməliyyat-axtarış orqanı kollektivinin üzvü əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətini yaxşı başa düşməlidir.

**Eyni qaydada əməliyyatçı planlaşdırılan, keçirilən və ya keçirilmiş əməliyyat-axtarış tədbirləri haqqında məlumatı, xidmət ehtiyacı olmadan, hətta mütləq etibarlılıq şəraitində belə həmkarına verməməlidir. Məsələ təkcə onda deyil ki, bu məlumatı əməliyyat işçisinin həmkarı şüurlu surətdə tamah və digər məqsədlərlə istifadə edə bilər, təsadüfi olaraq ağızdan qaçırılmış bir söz və yaxud bu və ya digər iş haqqında məlumata malik olmasına işarə ediməsi əməliyyatın pozulmasına, gizli əməkdaşın ifşa olunmasına və ya da əməliyyat-axtarış tədbirinin keçirilməsi prosesinə hər hansı zərər yetirilməsinə səbəb ola bilər.**

**Məhz buna görə əməliyyat-axtarış tədbirlərində iştirak edən əməliyyatçı ancaq bilavasitə yerinə yetirdiyi tapşırıqla əlaqədar məlumatlandırılmalıdır.**

Azərbaycan Respublikasının əməliyyat orqanları ilə onlara qanunvericilikdə göstərilən əsaslarla kömək edən vətəndaşlar arasındakı münasibətlər xüsusi səciyyəyə malikdir. Bu münasibətlərdə xüsusilə müqavilə bağlamadan məxfi əməkdaşlıq edən tərəfər əxlaq öhdəlikləri daşıyıcıları rolunda çıxış edirlər və öz əməllərində başlica olaraq əxlaq normalarına əsaslanırlar. Əməliyyatçılar yüksək hüquqi, peşəkar, əxlaqi-psixoloji hazırlığa malik olmadan vətəndaşları gizli əməkdaşlığa cəlb etmək üzrə işi təşkil edə və onların fəaliyyətindən yüksək nəticələr ala bilməzlər.

**Əməliyyat-axtarış orqanı əməkdaşının vətəndaşlar arasında öz ləyaqətilə qazandığı hörmət məxfi əməkdaşı onun tapşırıqlarını yerinə yetirməyə səfərbər edən qüvvədir.** Və əksinə, məxfi əməkdaşlığın əxlaq tərəfərinə laqeydlik, əməliyyatçının əxlaq səviyyəsinin aşağı olması ona gətirib çıxarır ki, əməliyyat aparatı ilə gizli əməkdaşlığa qərar vermiş vətəndaş tutduğu işə təəssüfənməyə, peşmançılıq çəkməyə başlayır. Əməliyyatçının hörmətdən düşməsi çox vaxt ona kömək edən şəxslər tərəfindən qeyri-sağlam ehtiyatlılıq, yerinə yetirdikləri əməllərin zəruriyyətinə və əxlaqi cəhətdən doğruluğuna inamsızlıq yaradır. Bu da öz növbəsində, nəinki onların fəallığını azaldır, hətta əksər hallarda müxtəlif amillərin və şəraitin təsiri altında əməkdaşlıqdan boyun qaçırmağa imkan yaradır.

Əməliyyatçı ilə məxfi əməkdaş arasındakı xüsusi münasibətlər keyfiyyətcə həm formasına, həm də onların yaranmasını şərtləndirən vəzifələrə görə digər münasibətlərdən fərqlənir. Təbii ki, bu hal belə münasibətlərin iştirakçılarının davranışına, rəftarına müəyyən təsir göstərir.

**Hər şeydən öncə gizli əməkdaşların köməyindən istifadə edən əməliyyatçılara yüksək tələblər irəli sürülür. Belə şəxslər tərəfindən əməliyyatçı təkcə əməliyyat-axtarış fəaliyyəti orqanının nümayəndəsi kimi deyil, həm də bir şəxsiyyət kimi qəbul edilir. Məhz əməliyyatçının şəxsiyyətinə olan münasibət məxfi əməkdaşın əməliyyat-axtarış tapşırıqlarının yerinə yetirilməsində kömək etməyə razılıq verməsi üçün həlledici amil rolunu oynayır. Elə buna görə də əməliyyat işçisinin hansı şəxsi keyfiyyətlər daşıyıcısı olmasından onunla məxfi əməkdaşlıq edənlərin fəaliyyətinin nəticələri əhəmiyyətli dərəcədə asılı olur. Əməliyyatçıdan tələb olunmalıdır ki, onun həyat tərzi və davranışı onda inamsızlıq göstərilməsi-**

**nə əsas verməsin, xidməti tapşırıqların həllində ona müraciət etməli olan şəxslər tərəfindən onun nüfuzu düşməsin.**

***Əməliyyatçının və gizli əməkdaşın əxlaq münasibətlərində sonuncunun işinin nəticələrinin, biliyinin, insani keyfiyyətlərinin birinci tərəfindən düzgün dəyərləndirilməsi böyük əhəmiyyətə malikdir. Məxfi əməkdaşın fəaliyyətinin qiymətləndirilməsi təkcə onun əldə etdiyi nailiyyətləri qeyd etməklə deyil, habelə onunla gələcək əməkdaşlığın həvəsləndirilməsi, stimullaşdırılması ilə gerçəkləşdirilməlidir. Bütün bu dəyərləndirilmələr son dərəcə ədalətli və prinsipial olmalıdır. İstənilən ədalətsizlik insanı alçaldır, onu mənəvi cəhətdən yaralayır.***

***Məxfi əməkdaşın hətta ən kiçik, o qədər də əhəmiyyət kəsb etməyən uğurlarını belə qeyd etmək zəruridir. Bu onu öz gözündə ucaldar və əməliyyat orqanı ilə əməkdaşlığını müsbət qiymətləndirməyə sövq edər.***

Əməliyyat münasibətlərində nəinki daxili, yəni mənəvi-əxlaq aspekti, habelə zahiri tərəfin də böyük əhəmiyyəti var. Normal insan münasibətlərinin ayrılmaz şərtləri nəzakətlilik, dürüstlük, qanacaq, xeyirxahlıqdır. Eyni zamanda ona çalışmaq lazımdır ki, bu hisslər təbii olsun, "növbətçi" vəzifəyə çevrilməsin, əks halda məxfi əməkdaş əməliyyatçıda süni "səmimiyyət", işdə marağı olmayan, onu məlumat əldə etmək üçün köməkçi vasitə hesab edən, onun şəxsiyyətinə qiymət verməyən bir rəsmi şəxs kimi görəcəkdir.

**Təcrübə göstərir ki, gizli əməkdaşla əməkdaşlıq münasibətlərinin normal inkişafı üçün əməliyyatçıdan birinciyə əxlaqi-psixoloji təsir göstərməkdən ötrü öz üzərində ciddi işləmək tələb olunur ki, bu da bir sıra amillərlə şərtlənir.**

**Birincisi,** cinayətkar qəsdlərlə mübarizə məkanına məxfi əməkdaşın qoşulması faktı onun dünyagörüşündə, dəyərlərə münasibətində bir sıra yeni baxışların yaranmasına səbəb olur. Məxfi əməkdaşın əməliyyat-axtarış orqanına kömək göstərməyə razılıq verməsi hələ aydın olmayan bütün mənəvi-əxlaq səciyyəli sualların onun üçün tamamilə həll olunmasına dəlalət etmir. Onların əksəriyyətində atdıqları addımın düzgünlüyünə şübhə yeri qalır, onlar əməkdaşlıq etməyə söz verdikləri orqana öz əlaqələri, hətta dostları və digər yaxın adamları haqqında məlumat verməyin əxlaqi cəhətdən məqbul olması barədə məsələni özləri üçün aydınlaşdırmağa cəhd edirlər.

Məxfi əməkdaşların heç də hamısı bu sahədə fəaliyyətə başlayarkən gizli işin təyinatını və məqsədini ilk vaxtlarda sonadək başa düşə bilmir və tam anlamır. Məhz bu vəziyyət əksər hallarda onların bəzisini əməliyyat tapşırıqlarının yerinə yetiril-

məsinə mənfi münasibət bəsləməyə sövq edir. Belə şərait yarandıqda əməliyyatçı bütün bacarığını toplayaraq öz gizli köməkçisinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın istifadə etdiyi vasitələrin obyektiv zəruriyyətdən doğduğunu və əxlaq normalarına uyğunluğunu təmkinlə izah etməli, səylə başa salmalı və onun bu işə şəxsi maraq göstərməsinə yardım etməlidir. Məxfi əməkdaşlıq mühüm səbəblərə əsaslandıqda şəxsi maraqlar yaranır ki, onların formalaşdırılması əməliyyatçının xidməti vəzifələrindən biridir. Bu baxımdan ən dəyərli səbəb - məxfi əməkdaşın cinayətkarlığa qarşı mübarizəyə könüllü surətdə kömək göstərmək istəyidir. Əməliyyatçı məxfi əməkdaşa onun işinin əhəmiyyətini izah edə bilərsə, bu, əməliyyat işində uğur qazanılmasına aparan vasitələrdən birinə çevriləcəkdir.

**İkincisi**, bütün hallarda məxfi əməkdaşlıq insana ağır mənəvi-psixoloji yükdür. Bu onun uzunmüddətli əsəb və mənəvi gərginlik keçirməsinə səbəb ola bilər ki, öz növbəsində belə vəziyyət onun işinin nəticələrində əks olunmaya bilməz. Bu şəraitdə əməliyyatçı yaranmış gərginliyin səngiməsindən ötrü bütün imkanlardan istifadə etməlidir. Əməliyyatçının ən önəmli keyfiyyətlərindən biri konfidentin (agentin və s.) mənəvi durumuna təsir edə bilmək qabiliyyətidir ki, sonuncunun çalışqanlığına təminat verir.

**Üçüncüsü,** məxfi əməkdaş həyata həmişə öz əxlaq mühitinə malik müəyyən məhdud sosial qurumlarla bağlı olur. İstər-istəməz belə mikroqurumların ictimai rəyi məxfi əməkdaşın öz davranışını əxlaqi cəhətdən dəyərləndirilməsi üçün meyar rolunu oynayır. Elə buna görə də o, təmasda olduğu belə qurumun rəyi ilə az-çox hesablaşmağa məcburdur. Eyni zamanda əməliyyatçıya kömək göstərən şəxslərin böyük əksəriyyəti belə sosial qurumlarda hökm sürən əxlaq normaları və dəyərlərinə bir qayda olaraq riayət edir. Gizli əməkdaşın çalışdığı qurumlarda psixolojı-əxlaq şəraitinin ümuməxlaq normalarına uyğun olmaması da nadir hal deyildir. Buradan belə nəticə çıxarmaq olar ki, gizli əməkdaşın yaşadığı, ona təsir qüvvəsinə malik olan mühiti, ictimai rəyi öyrənmək və onun tərbiyələndirilməsində istifadə etmək əməliyyatçının birbaşa vəzifəsidir.

Əməliyyat-axtarış fəaliyyəti gedişində yaranan münasibət növlərindən biri də ***qarşıdurmadır.*** Belə münasibətlər əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə bu fəaliyyətin yönəldiyi şəxslər arasında yaranan münasibətlərdir. **Məhz belə münasibətlər aşağıdakıları şərtləndirir:**

– əməliyyat-axtarış fəaliyyətinin xüsusi vasitələrinin istifadə edilməsinin əxlaqi və hüquqi cəhətdən mümkünlüyü, əməli zəruriyyəti;

– əməliyyat-axtarış fəaliyyətinin münaqişəli mənşəyə malik xüsusiyyəti;

– əməliyyat-axtarış fəaliyyəti həyata keçirən şəxslərin şəxsi keyfiyyətlərinə və məsuliyyət səviyyəsinə qoyulan yüksək tələblər.

Əməliyyatçtrialn əməliyyat-axtarış fəaliyyəti obyektləri ilə münasibətlərində yol verdikləri əxlaq səviyyəsinin (həmkarlar və köməkçiləri ilə müqayisədə) aşağı olmasına baxmayaraq, əməliyyat-axtarış fəaliyyətinin prinsipləri ***öyrənilən və yoxlanılan şəxslərin qanuni hüquq və azadlıqlarına şərtsiz riayət olunmasını*** tələb edir. Bu o deməkdir ki, əməliyyatçılar əməliyyat-axtarış fəaliyyəti obyektləri ilə münasibətində onların insanlıq ləyaqətini alçaltmamalı, onlara qarşı fitnəkarlığa yol verməməli, onlara aid faktları və materialları saxtalaşdırmamalı və onları özünə və özgəsinə qarşı böhtan atmağa məcbur etməməlidirlər.

Əlbəttə, hər hansı mübarizə kimi cinayətkarlıqla əməliyyat-axtarış vasitələrindən istifadə etməklə aparılan mübarizə kəskin və barışmaz səciyyə daşıyır. Amma bu o demək deyildir ki, əməliyyat-axtarış fəaliyyətində “məqsəd vasitələri doğruldur” kimi əcaib, antihumanist bir prinsip əsas götürülməlidir. Azərbaycan Respublikasının əməliyyat-axtarış orqanları humanizm və ədalət prinsiplərinə söykənən hüquqi mübarizə formalarının daşıyıcısı olmalıdırlar. Əks halda, onlar mübarizə apardıqları cinayətkarlardan fərqlənməz, vətəndaşların, əhalinin könüllü yardımından məhrum ola bilərlər. Elə buna görə ölkəmizin əməliyyat-axtarış fəaliyyətini həyata keşirən orqanların fəaliyyətində nəinki hüquq, həm də əxlaq normalarının hüdudlarının müəyyənləşdirilməsi hüquqi dövlətin təbii tələblərinə tamamilə cavab verməlidir.

# IV FƏSIL
# Əməliyyat-axtarış fəaliyyəti və onun metodologiyası

## § 1. Vahid əməliyyat-axtarış nəzəriyyəsinin yaranması və inkişafı

Əməliyyat-axtarış fəaliyyətinin bir elm (nəzəriyyə) kimi mövcudluğuna dair fikirlər nisbətən böyük tarixə malik olmasa da ona aid edilən bu nəzəriyyəyə daxil olan cinayətkarlığa qarşı mübarizə təcrübəsində istifadə olunan digər elm və fəaliyyət sahələrinə aid olan müəyyən bilik və vərdişlər demək olar ki, qədim tarixə malikdir. Məhz bu qeyd edilənlər alimlər və mütəxəssislər tərəfindən tam həcmdə kifayət dərəcədə öyrənilməmişdir. Bildiyimiz kimi bütün elmlər tədricən fəlsəfə elmindən ayrılmış və müstəqil elm sahəsi kimi yaranıb inkişaf etmişdir. Bu inkişaf prosesinə digər elm sahələri də, elmi biliklərin inteqrasiyası və diferensasiyası da öz təsirini göstərmişdir və göstərir. Əməliyyat-axtarış fəaliyyətinə də digər elmlər kimi elmi biliklərin inkişafının qeyd edilən bu qanunauyğunluğun təsiri olmuşdur. Vaxtilə diferensasiya və inteqrasiya prosesləri cinayət-prosessual elminin daxilində kriminalistika elminin yaranmasına səbəb olduğu kimi, eləcə də kriminalistika elminin daxilində əməliyyat-axtarış fəaliyyəti ilə bağlı elmi biliklər yaranmış, sonradan isə onun müstəqil bir elm kimi ayrılması prosesi baş vermişdir.

Əməliyyat-axtarış fəaliyyəti sahəsində tədqiqatların və ümumiləşdirmələrin (keçmiş SSRİ dövlətləri məkanında) ilk gələcək bünövrəsi XX əsrin əvvəllərində Rusiyanın cinayət-axtarış fəaliyyətini həyata keçirən orqanlarında qoyulmuşdur. Qeyd edilən dövrdə çar polisinin, cinayət-axtarış aparatının müxtəlif təlimatları hazırlanmış, axtarış işinin taktiki və texniki üsulları tənqidi baxımdan təhlil olunmuş, cinayət qeydiyyatı ilə bağlı materiallar, keçmiş mütəxəssis-kriminalistlərin bilik və təcrübəsi geniş öyrənilmişdir. Bu dövrdə Sovet Rusiyası və keçmiş SSRİ-nin digər respublikalarının Daxili İşlər Xalq Komissarlıqları daktiloskopik və əməliyyat-axtarış məlumatlar bazasının təkmilləşməsi, cinayət-axtarış xidmətlərinin təşkilati-struktur məsələlərinin qaydaya salınması, cinayətkarlığa qarşı mübarizənin idarələrarası əlaqələndirilməsi, axtarış işi üzrə mütəxəssislərin hazırlanması və s. sahələrdə mühüm işlər aparmışlar.

30-cu illərdə gizlənmiş cinayətkarın Ümumittifaq (SSRİ üzrə) axtarışı üzrə və milisin əməliyyat aparatlarının (cinayət-axtarış və sosialist əmlakının talanmasına qarşı mübarizə xidmətləri) azadlıqdan məhrumolunma yerləri ilə qarşılıqlı əməkdaşlığına dair bir sıra nizamnamə və təlimatlar hazırlanıb qəbul edilir. Eyni zamanda SSRİ milisi sistemində son qeyd edilən xidmətin yaranması ilə əlaqədar olaraq dövlət və ictimai əmlakının talanmasına qarşı mübarizədə əməliyyat-axtarış xarakterli tədbirlərin təşkili və taktiki məsələlərinin əsaslı olaraq hazırlanması üzrə işlərə başlanır.

Keçən əsrin 40 -50-ci illərinin birinci yarısında əməliyyat-axtarış fəaliyyəti sahəsində elmi tədqiqatların intensivliyi mühüm dərəcədə aşağı düşür və bu sahədə əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin inkişafına mane olan amillərdən biri də ona sırf təcrübi bir bilik sahəsi kimi münasibət göstərilməsi ilə əlaqədardır. Bunun nəticəsində uzun müddət əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsi təcrübi işin sadəcə öyrənilməsi, onun populyarlaşması və elementar (bəsit) ümumiləşmələrin hazırlanması çərçivəsindən kənara çıxmamışdır. Buna səbəb DİXK-DİN-in müəyyən dövrlər üçün xarakterik olan, həddən artıq şişirdilmiş gizli şəraitdə fəaliyyət göstərməsi idi. Bunun nəticəsində hüquq elmlərinin nümayəndələri əməliyyat-axtarış fəaliyyətinin problemlərinin tədqiqində praktiki olaraq iştirak etmək imkanından məhrum olurdular.

Cinayət-prosessual qanunvericiliyin, cinayət hüququ, cinayət prosesi və kriminalistika kimi elmlərin sonrakı inkişafı əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin müstəqil inkişafına təkan verdi və onun müstəqil bir elm sahəsi (fənn) kimi tanınmasına imkan yaratdı.

Ətrialn bir elm (fənn) kimi yaranması və inkişafında, onun elmi dərk edilməsində Xüsusi Orta Milis Məktəbi kollektivinin böyük əməyi olmuşdur (1954-cü ildən SSRİ DİN-in qeyd edilən tədris ocağı Ali Milis məktəbinə çevrilmişdir). Bu məktəbdə hələ hərbi dövrdə milis polkovniki S.D.Solovyovun rəhbərliyi altında "Milisin əməliyyat işi" kursu üzrə materiallar hazırlanmışdır. 1944-cü ildə isə milis podpolkovniki S.İ.Babuşkinin redaktorluğu altında "Milisin agentur-əməliyyat işi" kursunun bütün mövzuları üzrə məcmuə hazırlanır. 1948-ci ildə polkovnik Q.V. Yefimenkonun cinayətkar elementlərin agentur tədqiqinin təşkili və taktikasının geniş kompleks problemlərini əhatə edən mühazirələrinin stenoqraması işıq üzü görür.

40-cı illərin sonu, 50-ci illərin əvvəllərində Ali Milis məktəbində "Agentur-əməliyyat işi" kursu üzrə dərslik hazırlanır və o, milisin və islah-əmək müəssisələrinin əməliyyat aparatları üçün tədris materialı və təcrübi vəsaitinə çevrilir. Bu dövrdə SSRİ-

nin DİXK-nin təcrübəli əməkdaşları və rəhbər işçiləri Ali Milis Məktəbi ilə sıx və fəal əməkdaşlıq edirlər. ƏAF nəzəriyyəsinin mühüm məsələləri ilə bağlı elmi işləmələrin fəallaşması prosesi 1956-cı ildə ali məktəbdə əməliyyat işi kafedrasının açılması ilə əlaqəlidir. Bu kafedranın kollektivi onun birinci rəisi A.Q.Lekarın, daha sonra isə 70-80-ci illərdə (SSRİ DİN-in Akademiyası) D.V.Qrebelskinin, V.A.Lukaşovun, V.Q.Bobrovun rəhbərliyi altında bu kursu möhkəm elmi-nəzəri əsaslar üzrə tədrisi təşkil edirlər. Qeyd edilən tədris ocaqlarında Azərbaycan Respublikası DİN-in rəhbər kadrları (adı çəkilən akademiyanın ali akademik kurslarında, DİO-da idarəetmənin təşkili fakültələrində) təhsil almış və sözsüz ki, cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar əldə olunmuş milli təcrübələri akademiyanın müəllim-professor heyəti ilə bölüşmüş, onlar isə öz növbəsində, elmi-təcrübi tədqiqatlarda və işləmələrdə, o cümlədən normativ-hüquqi aktların hazırlanmasında həmin biliklərdən istifadə etmişlər. Bu dövrlərdə qeyd edilən akademiya və keçmiş SSRİ-yə daxil olan ölkələrdə yaradılmış ali milis məktəblərinin "ƏAF kafedralarında" müxtəlif istiqamətlərdə problemlərlə bağlı müvəffəqiyyətli tədqiqatlar aparılmış, həmçinin dərsliklər hazırlanmışdır.

70-ci illərdə SSRİ DİN-in Ümumittifaq Elmi-Tədqiqat İnstitutunda (indi RF DİN-in ETİ) əməliyyat-axtarış fəaliyyətinin problemləri üzrə bu gün də öz aktuallığını itirməyən bir çox nəzəri monoqrafiyalar hazırlanmışdır (A.İ.Alekseyev, M.P.Yaşin, V.A.Lukaşov, S.S.Ovçinski, Q.K.Sinilov, Y.V.Solopanov və b.). Bu institutun alimlərinin təklifi ilə daxili işlər orqanlarının təcrübəsinə əməliyyat-axtarış təyinatlı mərkəzləşdirilmiş MAS tətbiq edilmişdir və hal-hazırda onun imkanlarından müxtəlif istiqamətlərdə (cinayətkarın axtarışı, oğurlanmış əşyaların, odlu silahların və nəqliyyat vasitələrinin axtarışı və s.) istifadə olunur. Yuxarıda göstərilən alimlərdən başqa, DİO-nun ƏAF nəzəriyyəsinin yaradılması və inkişafında V.M.Atmajitov, V.O.Bobrov, İ.İ.Basetski, Y.S.Blinov, B.E.Boqdanov, J.P.Kozaçenko, Q.Q.Layevski, A.T.Markuşin, V.N.Amelin, S.A.Smirnov, E.V.Tokarev, B.P.Smaqarinski, V.Q.Samoylov, K.V.Surkov, A.B.Utevski, V.P.Xomkolov, A.N.Qurov, Y.Y.Voldman, Y.F.Kvaşa və s. bu kimi alimlərin, axtarış işi peşəkarlarının danılmaz və böyük əməyi vardır.

**Sözsüz ki, bu sahədə elmin inkişafı və təcrübənin təkminləşməsində ölkəmizin Ümummilli Lideri, dünya miqyaslı dövlət və siyasi xadim, ensiklopedik, o cümlədən kəşfiyyat və əks-kəşfiyyat sahələrində yüksək bilik və təcrübəyə malik olan Heydər Əliyev məktəbinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.**

Bu illərdə milli təhlükəsizlik orqanlarının əməkdaşları tərəfindən əks-kəşfiyyat və ƏAF sahələrində də bir çox fundamental işlər görülmüşdür.

90-cı illərdən başlayaraq ƏAF nəzəriyyəsinin gömrük, vergi, dövlət mühafizə xidmətlərinin, ədliyyə orqanlarının fəaliyyət sahələri daha da inkişaf etdirilib, yeni elmi-təcrübi biliklərlə zənginləşdirilməsi zəruriliyi yeni iqtisadi (bazar) münasibətlərin təşəkkülü və onların inkişafı ilə şərtləndirilən və məhz ona görə də qeyd olunan orqanların ƏAF sahəsində də müəyyən işlər görülür. Bütün bunlar isə imkan verir ki, yaxın vaxtlarda vahid əməliyyat-axtarış nəzəriyyəsinin formalaşması problemi həll edilsin. Şübhəsiz ki, əməliyyat-axtarış təcrübəsinin tələblərindən doğan çoxillik elmi axtarışlar və tədqiqatlar ümumi əməliyyat-axtarış paradiqmasının (yunan dilindən - nümunə) hazırlanmasına, yəni, ölkəmizin bütün hüquq-mühafizə orqanları və xüsusi xidmətləri üçün vahid olan ƏAF elminin əsaslarının yaranmasına kömək edəcəkdir. Burada onu da nəzərə almaq lazımdır ki, bu elmi biliklərin hüquqi əsaslarını formalaşmaqda olan əməliyyat-axtarış hüququ təşkil etməlidir. Qeyd edilən fikirləri daha da konkretləşdirsək belə deyə bilərik ki, əməliyyat-axtarış hüququ 2 hissədən (ümumi və xüsusi) ibarətdir. Bu hüquq sahəsinə cinayətkarlığa qarşı mübarizədə qeyd edilən hüquq sahəsinin mənbələrinin hüquq normalarının müxtəlif təcrübi situasiyalarda tətbiqi məsələləri, empiriyaya (təcrübəyə) əsaslanan biliklərin, işləmələrin və s. xüsusiləşdirilmiş (spesifik) bir hissəsinin (HMO-in, o cümlədən DİO-nun ƏAF) aid edilməsi, bizim fikrimizcə düzgün olardı.

Deyilənləri nəzərə alaraq belə bir sual ortaya çıxır: bəs ƏAF elmini necə təsəvvür etmək olar?

Bu elmi nəzəriyyə ölkənin hüquq-mühafizə orqanları və xüsusi xidmətlərinin spesifik növ fəaliyyətinin təcrübəsini ümumiləşdirən və izahını verən biliklərin elmi sistemi olub insan və cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin obyektivlik zəruriyyətindən irəli gələrək eyni zamanda ƏAF-nin təkmilləşdirilməsi məqsədilə onun inkişafının əsas qanunauyğunluqlarını açıqlayır. Lakin ölkənin müxtəlif dövlət orqanları üçün (ƏAF-nin subyektləri) vahid əməliyyat-axtarış nəzəriyyəsinin mövcudluğuna dair söylənilən fikirlərin obyektiv olmasını təsdiq etmək də problematik xarakter daşıyan, bəzi qaranlıq olan məqamlara aydınlıq gətirilməsinin zəruriliyini təsdiq etmək olar.

Bu suala birmənalı cavab vermək üçün hüquq-mühafizə orqanları və xüsusi xidmətlərin təcrübəsində və nəzəriyyədə mövcud olan kompleks problemlərin həlli tə-

min edilməlidir. Fikrimizcə, ƏAF subyektlərinin müxtəlifiyini, onların səlahiyyətlərinin fərqlənməsi, öz fəaliyyətlərində ƏAF sahəsində vahid qanuna (ƏAF haqqında) və ondan irəli gələn müxtəlif təşkilati və taktiki xarakterli normativ aktlara, vahid beynəlxalq sazişlərə, əhəmiyyət kəsb edən müxtəlif ümumiləşdirilmiş təcrübəyə əsaslanması belə bir fikri təsdiq etməyə imkan verir ki, ƏAF-də onun bütün subyektləri üçün ümumi (hüquqi, təşkilati-idarəçilik, taktiki, mənəvi-psixolojı, maddi-texniki, nəzəri müddəalar) və xüsusi müddəaların mövcudluğu etiraf olunur və bu da vahid nəzəriyyənin formalaşmasını inkar etmir.

Təsadüfi deyil ki, problem (yunan dilindən - vəzifə, tapşırıq, nəzəri və ya təcrübə ilə bağlı məsələnin həllinin tələb edilməsi başa düşülür) dedikdə, hər hansı bir çətin, mürəkkəb məsələnin, sualın həll edilməsi, tədqiqi və öyrənilməsi başa düşülür. Belə məsələlərdən biri də mütəxəssislər (ilk növbədə, DİN və MTN) tərəfindən xüsusi fənlərin öyrənilməsi prosesində əldə etdikləri təcrübi və nəzəri səciyyəli biliklərin sintezidir.

**Vahid əməliyyat-axtarış nəzəriyyəsinin əsas anlayışları haqqında**. Məlumdur ki, istənilən nəzəriyyənin əsasını onun kateqoriya anlayış aparatı təşkil edir, belə ki, onlar digər hissə və elementləri birləşdirir və qaydaya salır. İdeallaşdırılmış (təsəvvür edilən) obyektlər, elmi faktlar, qanunlar, əməliyyat-axtarış nəzəriyyəsinə (istənilən digər nəzəriyyələrdə olduğu kimi) anlayışlar formasında daxil edilir. Məhz bu anlayışlarda elmi axtarışın nəticələri ümumiləşdirilir və öz əksini tapır.

**Ona görə də bütün hüquq-mühafizə orqanları və xüsusi xidmətləri üçün vahid olan əməliyyat-axtarış nəzəriyyəsi anlayışını xarakterizə edərkən aşağıdakıları nəzərə almaq lazımdır:**

– **birincisi,** anlayışların dialektik qarşılıqlı əlaqəsi və qarşılıqlı inkişafı cəmiyyətin həyatının müstəqil növü kimi ƏAF-nin reallığı və ziddiyyətliliyini obyektiv əks etdirir.

– **ikincisi**, bu anlayışlar hüquq elminin terminləri ilə qəbul edilən müəyyən dil vahidlərində (sözlər, söz birləşmələri) əks edilir və onlar ƏAF-ni təşkil edən hadisə və proseslərin nisbətlərini düzgün əks etdirir, öz növbəsində, anlayışların məzmunu isə onların tərifəri vasitəsilə açıqlanır.

– **üçüncüsü,** hadisələrin xüsusiyyətlərini maksimum ümumiləşdirən və əks etdirən amillər əməliyyat-axtarış fəaliyyətinin fundamental anlayışlar kateqoriyalarına aiddir.

– **dördüncüsü**, vahid əməliyyat-axtarış fəaliyyətinə daxil olan anlayışlar elə müəyyən sistem yaradır ki, orada hər bir anlayış digərləri ilə qarşılıqlı əlaqədə olur.

Öz həcmi, abstraktlıq (mücərrədlik) dərəcəsi və digər əlamətlərinə görə fərqlənən anlayışların iyerarxiya quruluşunda əməliyyat-axtarış fəaliyyətinin ictimai həyatın bir təzahürü kimi özünün sistemli xarakter daşıması əks etdirilir, bu isə digər təzahürlərdən obyektiv asılılıqdadır.

Anlayışlar sistemini, mükəmməl və düzgün nəzəriyyəni müvafiq anlayışların sıra ardıcıllığını nəzərə almadan yaratmaq mümkün deyil. O, real ƏAF-ni əks etdirən nəzəri modelin yaradılması zəruriliyi ilə müəyyən olunur. Bununla belə, nəzərə almaq lazımdır ki, anlayışlar sırasının seçilməsi özbaşına və əsassız olmamalıdır. Məlumdur ki, istənilən nəzəriyyə hər bir anlayışlar sırasının özəyini təşkil edən kateqoriyaya malikdir.

Belə fikir var ki, vahid əməliyyat-axtarış nəzəriyyəsində belə fundamentallıqla əməliyyat-axtarış fəaliyyəti anlayışını xarakterizə etmək olar. Burada qeyd etmək vacibdir ki, bu anlayış polifunksional xarakter daşıyır, yəni müxtəlif mətnlərdə istifadə edilə bilər: obyektiv elmi dərketmənin predmeti, idarəetmənin obyekti, müəyyən sosial-siyasi və hüquqi dəyərli və s. kimi. Ona görə də ƏAF-ni tədqiq edərkən bu şəraiti nəzərə almaq zəruridir və ƏAF anlayışından müvafiq mənada istifadə etmək lazımdır. Əks-təqdirdə anlaşılmazlıq yaranır, anlayışların bir-biri ilə əvəz olunması baş verir və terminlər üzrə mübahisələr (bəzən çox xırda, cılız və əhəmiyyətsiz olan) başlayır.

“Hüqtrialhafizə orqanlarının, o cümlədən xüsusi xidmətlərin əməliyyat-axta-rış fəaliyyəti” sahəsində biliklərlə bağlı kateqoriyaları müvafiq anlayışlar sırası yara-dan digər qarşılıqlı asılı anlayışlar sistemi vasitəsilə açıqlanmalıdır. Onlara ilk növ-bədə və əsas etibarilə mahiyyət və təzahürlər (hadisələr), struktur və sistem, ƏAF-nin məzmun və formalarını aid etmək olar. Məsələn, ƏAF-nin məzmununu ƏAF-nin “obyektləri”, “subyektləri” və “iştirakçıları”, “Əməliyyat-axtarış hərəkətləri”, “Əməliyyat-axtarış tədbirləri” və “xüsusi vasitələr”, “ƏAF-nin məqsədi”, “vəzifələri və nəticələri” anlayışların vasitəsilə açıqlamaq olar. Vahid ƏAF-nin dərk edilməsində (istər elmi, istərsə empirik səviyyədə) mühüm əhəmiyyətə malik və onun əsas parametrlərini xarakterizə edən anlayışlar vardır: sosial dəyəri, qanunçuluq, həcm və həyata keçirilmə sferası (sahəsi), effektivliyi, gərginliyi və s.

ƏAF-nin hüquqi tənzimlənməsinin təkmilləşdirilmiş mexanizminin olmaması onun nəzəri modelinin hazırlanmasının aktuallığını təsdiq edir.

Bütün bunları qeyd edən bir sıra tanınmış aparıcı alimlərin (R.S.Belkin, V.E.Boqdanov, D.V.Qrebelski, A.Q.Lekar, V.A.Lukaşov, V.Q.Samoylov, A.F.Voznıy, A.M.Vinberq, S.S.Ovçinski, A.A.Çuvilyov, Q.Q.Maroxin, K.K.Qoryainov, V.S.Ovçinski, A.Y.Şumilov) fikirlərinə görə vahid əməliyyat-axtarış nəzəriyyəsi ƏAF haqqında elmin obyektinin strukturunun məntiqi modeli kimi başa düşülməlidir. Qeyd edilən fikri başqa cür belə ifadə etmək olar: vahid əməliyyat-axtarış nəzəriyyəsi ƏAF-nin mahiyyətini interpretasiya məzmun və genezis ("genezis" yunan sözü olub mənbə, yaranma, mənşə, yaranma və inkişaf kimi başa düşülür) edən kateqoriya, anlayış və prinsiplərin qarşılıqlı əlaqədə olan və qarşılıqlı şərtləndirən kateqoriyalarının sistemidir.

Bununla belə indiki bu nəzəriyyə ƏAF-nin bütün subyektlərinin kortəbii, dağınıq və tam olmayan əməliyyat-axtarış təcrübəsinə dair elmi biliklərin keçid vəziyyətini əks etdirir.

Hazırda elmi nöqteyi-nəzərdən tələb olunacaq dərəcədə formalaşmaqda olan əməliyyat-axtarış nəzəriyyəsinin elmi biliklərin bir sahəsi kimi əsas təyinatı (məqsədi) bütün əməliyyat-axtarış orqanlarını cinayətkarlığa qarşı mübarizə təcrübəsini ƏAF-nin effektli təşkili və həyata keçirilməsi üçün zəruri olan elmi nailiyyətlər və tövsiyələr sistemi ilə təmin etmək və onların müvəffəqiyyətli fəaliyyəti üçün hüquqi, təşkilati, informasiya, metodiki, kadr və resurs bazasının və şəraitinin yaradılmasından ibarətdir.

"ƏAF haqqında" Azərbaycan Respublikasının Qanunu əməliyyat-axtarış fəaliyyətinin qanunvericiliklə nəzərdə tutulmayan məqsəd və vəzifələrin yerinə yetirilməsi üçün tətbiq edilməsinə qadağan qoyur. Məhz buna görə də qanunda öz əksini tapmış bu məqsəd və vəzifələr ƏAF sahəsində nəzəri tədqiqatların əsas məqsəd və vəzifələrini müəyyən edir.

Bu tədqiqatların məqsədinin əsas istiqaməti insan və vətəndaşların hüquq və azadlıqlarının, həyat və sağlamlığının, o cümlədən mülkiyyətinin, cəmiyyətin və dövlətin təhlükəsizliyini cinayət qəsdlərindən qorumaqdır. Onların məzmunu isə qanunverici tərəfindən ifadə edilmiş ƏAF-nin məqsəd və vəzifələri ilə müəyyən olunur. Vahid ƏAF nəzəriyyəsi uzun müddət ilk növbədə hüquqi bir elm kimi inkişaf etmişdir. Buna görə də o, kriminal sahəyə aid olan elmlərlə (cinayət və cinayət-icra hüququ, cinayət prosesi, kriminalistika, kriminologiya, prokuror nəzarəti, cinayət mühakimə üsulu və s.), həmçinin digər hüquq elmləri (inzibati, mülki, maliyyə, vergi, gömrük, dövlət, beynəlxalq hüquqla və hüququn digər sahələri) ilə sıx əlaqədədir.

Eyni zamanda, ƏAF nəzəriyyəsi fənlər (elmlər) arası səviyyədə, iqtisadi, psixoloji, etik, sosioloji, tarixi, texniki və s. biliklərin ən geniş spektrindən istifadə etməklə inkişaf etmişdir. Ona görə də tam əsaslı olaraq onu elmlərarası əlaqəli bir müstəqil elm kimi xarakterizə etmək düzgün olardı.

## § 2. Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin (elminin) predmeti

Son bir neçə onillikdə alimlər və mütəxəssislər tərəfindən ƏAF nəzəriyyəsinin bir sıra bölmələrinin işlənib hazırlanması təşəbbüslərinə baxmayaraq, bu elm sahəsi predmetinin müəyyən edilməsində bir çox çətinliklər olmuşdur. Bunun səbəblərini müəyyən dərəcədə onunla izah etmək olar ki, müəyyən mərhələlərdə ƏAF-nin nəzəriyyə və təcrübə sahəsində tədqiqatçıların diqqəti tədris kursunun çox vacib və əsası olan problemlərin, xüsusən də ƏAF-nin mahiyyəti və prinsiplərinin işlənməsi və açıqlanması, onun cinayətkarlığa qarşı mübarizə tədbirlərinin ümumi sistemində yeri, kursun digər elm və tədris fənləri ilə əlaqəsi və s. kimi istiqamətlərə yönəlmişdi.

Aparılan tədqiqatların nəticələri, ƏAF-nin nəzəri əsaslarının təkmilləşdirilməsinin zəruriliyini təsdiq etməsinə baxmayaraq, bu nəzəriyyənin predmetinin müəyyən edilməsi vəzifəsi praktiki olaraq qarşıya qoyulmurdu. Bəzi alimlər, o cümlədən professor R.S.Belkin və s. bunun səbəbini onunla izah edirdilər ki, ƏAF kriminalistika elminin tərkib hissəsi sayılır, bu isə ƏAF nəzəriyyəsinin öz tədqiqetmə və öyrənmə predmetinə malik olması baxışını rədd edirdi.

Yalnız 1973-cü ildə A.İ.Alekseyevin və Q.K.Sinilovun ƏAF nəzəriyyəsinin aktual problemlərinə həsr olunmuş monoqrafiyasında ƏAF nəzəriyyəsinin işlənməsi ilə bağlı boşluqları onun predmetinin tədqiqi ilə aradan qaldırmaq üçün çox uğurlu cəhdlər edilmişdir. Bu halda onlar əməliyyat-axtarış nəzəriyyəsinin müstəqil kompleksli elm sahəsi (fənn) olmasını və onun özünün tam elmi müstəqilliyə malik olması üçün hazırki dövrdə zəruri olan müəyyən həddi keçməsi kimi mübahisə doğurmayan əsaslara istinad edirdilər. **Qeyd edilən müəlliflərin fikirlərinə görə ümumi müddəalara əsaslanan ƏAF nəzəriyyəsinin predmetinə aşağıdakılar daxildir:**

1. Əməliyyat-axtarış qüvvə, vasitə və metodlarından istifadə etməklə cinayətkarlığa qarşı mübarizə təcrübəsi;

2. Bu qüvvə, vasitə və metodların tətbiqi prosesində yaranan hüquqi və digər münasibətlər sistemi;

ƏAF nəzəriyyəsinin predmetinə dair məsələnin düzgün həll edilməsi, xüsusən bir tərəfdən ƏAF nəzəriyyəsinin obyektinin tədqiqi, digər tərəfdən isə bu nəzəriyyənin predmeti və məzmunu ilə sıx əlaqəlidir.

Məlumdur ki, istənilən elmin predmeti real həyatın obyektiv qanunauyğunluqlarının müəyyən dairəsini təşkil edir və onların real həyatda tətbiq olunması məqsədilə tədqiq olunub dərk edilməsi tələb edilir. Elmin predmetini onun məzmunundan fərqləndirmək lazımdır. Elmin məzmunu onun predmetinin tədqiqi prosesində əmələ gəlir və o, bu predmet haqqında tədqiqatlara dair müəyyən elmi biliklərin sistemi kimi təsəvvür olunur. Bu biliklərə təcrübə səciyyəli tövsiyələrin hazırlanması üçün mənbə kimi istifadə olunan anlayışlar, elmi nəzəriyyələr, elmlər, qanunlar daxildir.

Elmin məzmunu və predmeti məlum olan dərəcədə tədqiq edilən obyektdən irəli gəlir, yəni belə halda o nəzərdə tutulur ki, elmlərin təsnifi barədə müasir konsepsiya ona əsaslanır ki, elmlər forma və məzmun etibarilə adekvat (eyni, bərabər) qaydada maddi aləmin real əlaqələri və münasibətlərini əks etdirməlidir.

Öz növbəsində çox müxtəlif tərəf və xassələrinin əks etdirilməsinin adekvatlığı bir-biri ilə qarşılıqlı əlaqəli olan şərtlərlə müəyyən edilir. Onlardan biri obyektin fəaliyyətdə (hərəkətdə), dinamikada olması, digəri isə obyektə sistem yanaşması ilə baxılması, yəni onun çoxlu sayda kiçik hissəcikdən (xassə və qaydalar) ibarət bir tam hissənin tədqiqi kimi nəzərə alınmasıdır.

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, elm ziddiyyətli obyektlərlə, dinamik sistemlərlə sıx əlaqəlidir və onların çərçivəsində materiyanın hərəkətinin müxtəlif formaları qarşılıqlı əlaqədə olur.

Yuxarıda göstərilənlər bütünlüklə ƏAF nəzəriyyəsinə də aiddir və o, təsviri metoddan daha çox uzaqlaşıb zənginləşdirilmiş biliklərin sistemləşdirilməsi metoduna istiqamətlənir. Hal-hazırda isə bu nəzəriyyə ƏAF-nin təşkili formaları, cinayətlərin aşkar edilməsi, xəbərdarlığı, qarşısının alınması və açılması, onları törədən şəxslərin müəyyənləşdirilməsi, məhkəmə, istintaq və təhqiqatdan gizlənən, cəzaçəkmə müəssisələrindən qaçan, xəbərsiz itkin düşən şəxslərin axtarışı, milli təhlükəsizliyin təmin edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin keçirilməsi taktikasının qanunauyğunluqlarına əsaslanır. Beləliklə, ƏAF-nin özünün çoxşaxəli olmasına baxmayaraq, o, bütövlükdə ƏAF nəzəriyyətinin tədqiqat obyektidir. Qeyd etdiyimiz mürəkkəb bir dinamik sistem olan ƏAF çoxlu istiqamət, xassə və münasibətlərə malikdir və onlar tədqiqat predmetində öz əksini tapmalıdır.

Cinayətkarlığa qarşı mübarizədə ƏAF-nin həyata keçirilməsi ilə bağlı statistik və dinamik hadisə, proses və münasibətlər haqqında tam təsəvvür yaratmaq üçün yalnız tədqiqatların aşağıdakı istiqamətlərini göstərmək olar:

– ƏAF-nin tərkib struktur elementləri (dinamikada öz mahiyyətini açıqlayan, yəni cinayətkarlığa qarşı mübarizə və təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəzifələrin həlli prosesində);

– ƏAF subyektlərinin quruluşunu (strukturu), xassələri və funksional fəaliyyətinin əsasları (idarəçilik, icraçılıq və təminedici);

– ƏAF ilə bağlı proseslərin idarə edən və idarəolunan hissələrlə daxili əlaqəsi və asılılığı;

– ƏAF-nin xarici mühitin faktorları (sosial-iqtisadi, kriminogen, antikriminogen və digər), cinayətkarlığa qarşı mübarizədə iştirak edən dövlət və ictimai strukturlarla xarici qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı;

– ƏAF-nin sistemaltı müxtəlif təşkilati-struktur və funksional elementlərinin, fəaliyyətin vasitə, metod və fəndlərinin cinayətkarlığa qarşı mübarizədə istifadə edilməsini müəyyənləşdirən faktorlar (təşkilati, hüquqi, psixoloji kriminogen və s.);

– ƏAF nəzəriyyəsi və təcrübəsi ilə bağlı hadisə və prosesləri əks etdirən ümumi qaydada qəbul edilməsini (tanınan), sabit olmasını, birmənalı və asanlıqla başa düşülməsini, dəqiqliyi, aydınlığı və sadəliyini təmin edən linqvistik, riyazi-statistik və digər formal əsaslar.

Predmet haqqında belə bir fikri təsdiqləmək olar ki, o, obyektiv real aləmin ən əsas, vacib tərəfərini, yəni cəmiyyətin və dövlətin indiki inkişafının indiki mərhələsi üçün xarakterik olan yeni, mühüm dərəcədə dəyişən ictimai münasibətlərdə ƏAF qanunauyğunluqlarını əks etdirir.

ƏAF sahəsində mövcud qanunauyğunluqların xarakterinə dair məsələ çox mübahisəlidir. Hələ 1966-cı ildə A.Q.Lekar (RF-də ƏAF sahəsində öz fundamental işləri ilə tanınan və böyük hörməti olan alim, h.e.d., professor) bu elmin (fənnin) predmetinin müəyyən edilməsində başlanğic əsaslar kimi ƏAF təcrübəsində mövcud qanunauyğunluqları öyrənməyin vacib olması fikrini söyləmişdir. **Həmin fikir rəhbər tutularaq bu qanunauyğunluqlara aşağıdakı səbəbli əlaqələr aid edilirdi:**

-cinayətin məxfi, gizli yolla hazırlanması, törədilməsi ilə gizli metod və vasitələrlə onların qarşısının alınması və açılması arasında; cinayətkarların hərəkətlərinin

xüsusiyyətləri ilə onların ifşa olunmasının taktiki fəndləri arasında; ƏAF-nin həyata keçirilməsinin effektivliyi ilə cinayətkarlığa qarşı mübarizənin nəticələri arasında.

Bu göstərilən problemlərin sonrakı tədqiqinin aparılmasından asılı olaraq ƏAF-də mövcud qanunauyğunluqların siyahısı, məzmunu və xüsusiyyətlərinin konkretləşdirilməsi işləri davam etdirilmişdir. **Cinayətlərin qarşısının alınması və açılması üçün çox vacib faktiki məlumatların yaranması, aşkar edilməsi və ƏAF-də istifadə olunmasında qanunauyğunluqların və qanunauyğun əlaqələrin mövcudluğunu xüsusilə qeyd etmək olar (D.V.Qrebelski).** Həmçinin ƏAF nəzəriyyəsi predmetinin konkretləşdirilməsi üçün onun 2 tərkib hissəyə ayrılması (dərketmə və fəaliyyət göstərmək) və onların ayrılıqda öyrənilməsi əsasında ƏAF nəzəriyyəsi predmetinin konkretləşdirilməsi təklifəri formalaşmışdı (A.İ.Alekseyev, Q.K.Sinilov). **A.Q.Markuşin ƏAF-nin mahiyyət və məzmununu müəyyən edən qanunauyğunluqlara dair kompleks təsəvvürləri yaratdı. Onlara aşağıdakı qanunauyğunluqlar aid edilirdi:**

– ƏAF-nin mahiyyətini, xüsusiyyətini və xarakterini müəyyən edən və onun vasitə və fəndlərini ifadə edən ƏAF-nin kəşfiyyatçılıq təbiəti;

– ƏAF-nin təşkili (kadrların seçilməsi, yerləşdirilməsi və peşə hazırlığı, analitik-informasiya və uçot-qeydiyyat işi, təşkilati-idarəçilik və digər aspektləri);

– ƏAF-nin taktikası haqqında (bütün sahələrdə cinayətlərin qarşısının alınması və açılmasına hazırlıq, ona qarşı mübarizənin həyata keçirilməsi, şəxsiyyətə təsir, cinayətkarın tutulması və s.);

– hüquqi tənzimləmə və qanunçuluğun təmin edilməsi və s.;

–ƏAF-nin iştirakçıları arasında yaranan hüquqi və digər münasibətlər;

– ƏAF-nin mənəvi-etik və əməliyyat-psixolojı sahələri haqqında;

Artıq qeyd edildi ki, sistem yaradan bütün elementlər kimi göstərilən qanunauyğunluqlar bir-biri ilə sıx əlaqəlidir və bir-birini qarşılıqlı şərtləndirir.

ƏAF nəzəriyyəsinin müasir inkişaf mərhələsi bu məsələnin istər dövlət-hüquqi nöqteyi-nəzərdən, istərsə də onun sistem-struktur analiz mövqeyindən qanunauyğunluqlarını konkretləşdirməyə imkan verir.

**Bu cür kompleks yanaşmaya əsaslanaraq ƏAF-də aşağıdakı 3 qrup qanunauyğunluğun olmasını təsəvvür etmək olar:**

**1. Tarixi təhlil edilən dövrdə ƏAF-nin həyata keçirilməsinə tələbatın və onun inkişafının perspektivliyini müəyyən edən qanunauyğunluqlar:**

– Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları ilə müəyyən edilən insanı, vətəndaşı ən yüksək sərvət kimi, onun hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi bəyan edilməsi, onların gözlənməsi və qorunmasını öz üzərinə götürməsi şərtilə hüquqi, demokratik və dünyəvi dövlətin qurulması;

– MDB-yə daxil olan ölkələrdə və dünyanın digər xarici dövlətlərində iqtisadiyyatda olan qeyri-tənasüblüyün yaranması, istehlak bazarlarındakı böhranlar, istehsal prosesindəki neqativ proseslər, işsizliyin artması, əhalinin gəlirlərinə görə differensasiyası, əhalinin “marginal” (əyyaşlar, narkomanlar, nəzarətsiz olan yetkinlik yaşına çatmayanlar və s.) hissəsinin mövcudluğu nəzarətə alınmaqla kriminal vəziyyətin daha da gərginləşməsi və onunla bağlı “cinayət aləmi”nin silahlanması cinayət-axtarış xətti üzrə və iqtisadiyyat sahəsində cinayətkarlığın, korrupsiya, narkobiznes, terrorizm kimi cinayətkar təzahürlərin sıx əlaqəsi cinayətkar qruplaşmaların sövdələşməsi və mütəşəkkil cinayətkarlığın çox güclü, şaxələnmiş sistemə çevrilərək siyasət və iqtisadiyyatda liderliyə iddialı olması ehtimallarının şərtləndirilməsi;

– cinayətkar elementlərin öz güclərini nümayiş etdirməklə küllü miqdarda pul vəsaiti əldə etmək məqsədilə cinayətkar qəsdlərin obyektləri kimi bank təşkilatlarını, müəssisə, şirkət, təşkilatların kassaları, inkassatorları, vətəndaşların mənzillərini, deputatları, məsul dövlət işçilərini seçməsi və s. tədbirlərin görülməsi;

– cinayətlərin törədilməsinin yeni forma və üsullarının yaranması (korrupsiyanın yayılması prosesinin davam etməsi, gəlirlərin vergidən gizlədilməsi, antiinhisar qanunvericiliyin pozulması, “bürokratik” yollarla rüşvətin tələb edilməsi, qiymətli kağızlarla bağlı emissiya qaydalarının pozulması, yalançı sahibkarlıq, qəsdən müflisləşmə, saxta müfisləşmə və s. ilə bağlı cinayət əməlləri);

– müasir dövrdə meydana çıxan yeni, qeyri-ənənəvi forma, metod və üsullarla törədilən, mütəşəkkillik xarakteri daşıyan, açılması çox mürəkkəb və çətin olan cinayətlərin qarşısının alınması və açılması sahəsində hüquq-mühafizə orqanları əməkdaşlarının təcrübəsinin və zəruri biliklərinin olmaması.

**2. ƏAF sahəsində idarəolunmanı təmin edən aşağıdakı qanunauyğunluqlar:**

– ƏAF-nin optimal idarəedilməsinə olan obyektiv tələbat, onun radikal, siyasi və iqtisadi islahatlar şəraitində, hüquq qaydalarının və cinayətkarlığa qarşı mübarizənin məqsəd, miqyas, vasitə və üsullarında baş verən dəyişiklikləri nəzərə almaqla, kriminal vəziyyətə müvafiq uyğunlaşdırılması;

– mərkəzləşdirmə və icraçıların yaradıcı təşəbbüsü prinsiplərinin düzgün uzlaşdırılması və bu əsaslar üzərində qanunçuluğa ciddi riayət olunmaqla, əməliyyat-axtarış tədbirlərinin səmərəliliyini yüksəltmək məqsədilə ölkə və rayon, şəhərlər səviyyəsində əməliyyat-axtarış orqanlarının idarəedilməsinin yüksək peşəkarlıq və elmi səviyyəsinin təmin olunmasının zəruriliyi;

– ƏAF-də subyektiv faktorun maksimum tam səfərbər edilməsi (Əməliyyat-axtarış orqanında normal sosial-psixoloji mühiti, əməliyyat işçisində fəal həyat mövqeyinin tərbiyə edilməsini, onların hərəkətlərinin yüksək dərəcədə təşkilini, işə yaradıcı münasibəti və vacib olan təşəbbüskarlığı, müxtəlif vəziyyətlərdə ƏAF-nin vəzifələrinin həllində inadkarlıq və çətinliklərin fəthini təmin edən);

– ƏAF-nin idarəolunma sisteminin cinayətkarlığa qarşı mübarizədə müvəffəqiyyətlərin əldə edilməsi üçün baza olan və əsas özül kimi hesab edilən əməliyyat-axtarış taktikasının hərtərəfi effektivliyinin yüksəlməsinə istiqamətlənməsi.

**3. Cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin təşkilati-taktiki forma, metodları və taktiki fəndlərinin məzmununu müəyyən edən qanunauyğunluqlar;**

– cəmiyyətin demokratikləşdirilməsi və cinayətkarlığa qarşı mübarizə siyasətinin humanistləşdirilməsi proseslərinin davam etməsinə müvafiq olaraq ƏAF-nin profilaktikaya istiqamətlənməsinin genişlənməsi;

– cinayət-mühakimə icraatının, o cümlədən, cinayət-prosessual qanunvericiliyin cinayətlərin açılması və cinayətkarların, həmçinin cinayətlərin və digər hüquqpozmaların fərdi və ümumi profilaktikası ilə bağlı vəzifələrin həll edilməsi üçün əməliyyat-axtarış prosesində informasiyanın toplanması, qiymətləndirilməsi və təcrübədə istifadə olunmasında onun tamlığı, obyektivliyi və hərtərəfiyi prinsiplərinin ardıcıl olaraq öz əksini tapması;

– ərazinin, obyektin və ƏAF-nin müxtəlif istiqamətlərinin əməliyyat xidmətinin təşkilində cinayətkarlığın əməliyyat-taktiki xarakteristikası və real şəraitə uyğun olaraq ƏAF-nin qüvvə və vasitələrinin yerləşdirilməsi sisteminin müvafiqliyinin təmin edilməsi;

– cinayət və cinayət-prosessual qanunvericiliyin əsas müddəaları, cinayətkar fəaliyyətin qanunauyğunluqları, cinayətkar ünsürlərin psixoloji və digər şəxsiyyət xüsusiyyətləri, kriminalistik və əməliyyat-texniki metod və vasitələrinin taktiki-tex-

niki imkanları, əməliyyat şəraitinin informasiya, təşkilati, maddi-texniki və s. faktorları ilə əlaqələri nəzərə alaraq əməliyyat-axtarış taktikasının formalaşması.

Təhqiqatçıları, əməliyyat-axtarış orqanlarının əməkdaşlarını ƏAF-nin həyata keçirilməsinin təşkilati formalarını və taktikasını inkişaf etdirib təkmilləşdirilməsinə istiqamətləndirən ƏAF-nin predmetinin dərketmə və metodoloji aspektləri qeyd edilənlərdir.

ƏAF sahəsində qanunauyğunluqlar əsasən cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində yaranan, inkişaf edən və bitən müxtəlif növ münasibətlərdə obyektivləşir.

Ədəbiyyatlarda belə bir fikir də söylənilir ki, ƏAF üzrə yaranan bu xüsusi ictimai münasibətlər hüquqi münasibətlərin bütün xassələrinə malikdir (A.Q.Markuşin).

Belə fikirlər də var ki, ƏAF-nin həyata keçirilməsi prosesində əməliyyat aparatı (əməliyyat işçisi) ilə konfidensial əsaslarda əməkdaşlıq edən şəxs arasında yalnız bu fəaliyyətə xas olan və öz xüsusiyyətləri olan hüquqi münasibətlər yaranır (N.N.Baçetski). Bir çox aparıcı alimlərin yuxarıda qeyd edilən fikirlərə ƏAF-nin müxtəlif sahə və səviyyələrinə müvafiq olaraq diferensial yanaşmağı qeyd etməsini, zənnimizcə, düzgün saymaq olar.

V.A.Lukaşov və bir sıra tanınmış alimlər ƏAF-ni bir mürəkkəb dinamik sistem kimi qəbul edib onun aşağıdakı spesifik münasibətlər formalarına ayrılmasının mümkünlüyünü qeyd edirlər.

**Dövlət strukturlarının daxili təşkilati fəaliyyətinə xarakterik olan formal idarəçilik münasibətləri.** Əməliyyat-axtarış orqanları sisteminə tətbiqedilmə baxımından idarəçilik münasibətləri öz əsaslarına görə ƏAO və onların əməkdaşlarının nizamlanmış fəaliyyəti olub, hüquq və vəzifələrin bölüşdürülməsini, səlahiyyətləri və məsuliyyətini, işgüzar əlaqələrini və qarşılıqlı əməkdaşlığı, iş rejimini və s. Əks etdirir. Dövlət qulluğu ilə bağlı yaranan və bu qəbildən olan münasibətlər inzibati-hüquqi münasibətlərin bütün əlamətlərinə malik olur, belə ki, bir dövlət təşkilatı kimi əməliyyat-axtarış orqanının sistemdaxili fəaliyyətinin formal tənzimlənməsinə əsaslanır.

Əməliyyat-axtarış idarəçiliyi çərçivəsində yaranan münasibətlərdə, yəni əməliyyat-axtarış orqanının və ya müvəqqəti əməliyyat qərargahlarının (əməliyyat qruplarının) meydana çıxan əməliyyat-taktiki vəzifələrinin müvəffəqiyyətlə icra edilməsini təmin etmək üçün kompleks əməliyyat-axtarış tədbirlərinin (əməliyyatların) hazırlanmasında bu məsələ başqa yanaşma tələb edir.

Burada inzibati-hüquq subordinasiya (latın sözü olub, qaydaya salmaq, kiçiyin böyüyə xidməti, tabeliyi kimi başa düşülür) ilə bağlı münasibətlərlə yanaşı, əməliyyat-axtarış vəzifələrinin icra olunmasına bilavasitə cəlb edilən qüvvə və vasitələrin əməliyyat-axtarış baxımından idarə edilməsinin mexanizmi ilə bağlı olan münasibətlər həlledici rol oynayır.

Bu nöqteyi-nəzərdən belə münasibətləri əsaslı olaraq əməliyyat-axtarış münasibətləri kimi xarakterizə etmək olar. Bu münasibətlər onların yarandığı, inkişaf etdiyi və bitdiyi əməliyyat şəraitinin xüsusi şərtləri ilə müəyyən olunur.

**triallif ƏAO arasında vahid əməliyyat qanunvericiliyi çərçivəsində yaranan ixtisas sahələrarası münasibətlər.** Qanunverici ƏAF-ni həyata keçirən bütün əməliyyat-axtarış orqanlarının qarşılıqlı əlaqəli işinin mexanizmini nizamlamır və onların qarşılarında duran vəzifələrin müstəqil, vətəndaşların köməyindən istifadə etməklə öz aralarında qarşılıqlı əlaqələr yaratmaqla həll edilməsini göstərməklə kifayətlənmir.

Qarşılıqlı əməkdaşlığın konkret məsələlərinin həlli (istər təşkilati, istərsə də taktiki) təşkilatlararası (ixtisas sahələri) razılaşmalar və normativ aktlar çərçivəsində həll edilməsini nəzərdə tutur.

Məhz ona görə də ƏAF-ni həyata keçirən müxtəlif orqanlar arasında müxtəlif təşkilatlar (ixtisas sahələri) arasındakı münasibətləri onların həyata keçirdikləri bu fəaliyyətin qanunverici əsasları olan əməliyyat-axtarış münasibətlərinə aid etmək olar. Onlara xüsusilə məlumatlar mübadiləsi, terrorizm, korrupsiya, narkobiznes, qaçaqmalçılıq, digər ağır və xüsusilə ağır cinayət təzahürlərinə qarşı kompleks əməliyyat-axtarış tədbirlərinin proqnozlaşdırılmasını və planlaşdırılmasını, həmçinin bizim ölkəyə qarşı istiqamətlənən xarici dövlətlərin xüsusi xidmət orqanlarının kəşfiyyat fəaliyyəti ilə bağlı informasiyanın toplanmasını da aid etmək lazımdır.

**ƏAF subyektlərinin xətt strukturları (məsələn, DİO-nun müxtəlif sahəvi xidmətləri olan cinayət-axtarış, mütəşəkkil cinayətkarlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə və s. xidmətləri) və funksional strukturları, ƏAF subyektlərinin ixtisaslaşmış informasiya, əməliyyat-axtarış, əməliyyat-texniki, ekspert-kriminalist və s. xidmətləri) arasında qarşılıqlı yardım və məsləhətləşmələrlə bağlı funksional-idarəçilik münasibətləri.** Xətt və funksional strukturlar arasında qarşılıqlı qaydada informasiya mübadiləsi və konstruktiv əlaqəli fəaliyyət həyata keçirilir. Bu isə müxtəlif idarəçilik səviyyəsində (ölkə, rayon, şəhər

səviyyəsində ƏAO-nun) əməliyyat xarakterli məlumatlar bankından, müxtəlif uçot, kartoteka, kolleksiyalardan istifadə edilməsi, gizli müşahidənin həyata keçirilməsi, arayış-soraqlaşma işinin aparılması, əməliyyat-texniki təyinatlı xüsusi vasitələrin tətbiqi, əməliyyat-axtarış məqsədləri üçün ekspert-kriminalist və sair xidmətlərin imkanlarından istifadə edilməsi ilə bağlıdır.

**"ƏAF haqqında" Qanunla nəzərdə tutulan ƏAT-nin hazırlanması, keçirilməsi və nəticələrinin realizə olunması istiqamətləri üzrə yaranan əməliyyat-taktiki münasibətlər.** Bu halda əməliyyat-axtarış münasibətlərinin mövcüdluğu şübhə doğurmur, belə ki, əməliyyat-axtarış tədbirləri qanuna əsaslanır və onların həyata keçirilməsi prosesi ilə bağlı əməliyyat aparatlarının, əməliyyat-axtarış strukturları, əməliyyat-texniki, ekspert-kriminalist və s. xidmətlərin hüquqları, vəzifə və səlahiyyətləri təşkilati-normativ aktlarla nizamlanır.

Əməliyyat-axtarış orqanları ilə müqavilə əsasında konfidensial qaydada əməkdaşlıq edən və ƏAF-də iştirak edən şəxslər də əməliyyat-axtarış münasibətləri ilə əhatə edilir. Belə ki, əməkdaşlığın subyektləri arasında əldə edilən razılaşmadan irəli gələn və rəsmiləşdirilmiş müqavilədə (kontraktda) bu subyektlərin müəyyən hüquq, vəzifə və məsuliyyəti yaranır.

*Professor V.A.Lukaşova görə əməliyyat-axtarış orqanı ilə konfidensial qaydada müqaviləsiz əsaslar üzrə əməkdaşlıq edən vətəndaşlar və əməliyyat müvəkkilləri arasında yaranan münasibətlərə gəldikdə isə onların hüquqi münasibətlər yaratmaması və müəyyən həcmdə olsa da hüquq normaları ilə tənzimlənməməsi fikirlərini söyləmək olar. Bunu eyni dərəcədə əməliyyat işçilərinin müvəqqəti etibarlı əməliyyat əlaqəsi (kontaktı, təması) yaratdığı və həmçinin, ƏAT-nin hazırlanması və keçirilməsinə digər formalarda cəlb edilmiş (məsələn, nəzarət qaydasında mal alınması, müqayisəli tədqiq üçün nümunələrin götürülməsi və s.) vətəndaşlara da aid etmək olar. Lakin bu münasibətlər ƏAF ilə bağlı yarandığı üçün onların qeyri-hüquqi informasiya xarakterli əməliyyat-axtarış münasibətlərinə aid olduğu qeyd edilmişdir. Bu fikirləri, şübhəsiz ki, qəti qəbul etmək də problematikdir. Bizim fikrimizcə, bu münasibətlər də qanunvericilikdə konkret normalarla tam həcmdə əhatə olunmalı və onlara, xüsusilə qeyd edilən vətəndaşların əməliyyat müvəkkilləri arasında təması ilə bağlı təhlükəsizliyinin təmin edilməsi aspektləri məsələləri də daxil edilməlidir.*

**ƏAF sahəsindəki münasibətlərin yuxarıda göstərilən analizinə əsaslanaraq**

**onu iki növ münasibət formasına ayırmaq olar: təşkilati-idarəçilik (sahələrarası**

**münasibətlərin və funksional-idarəçilik münasibətlərin əməliyyat-axtarış idarəçiliyi) və əməliyyat-taktiki. Onlardan normativ-hüquqi tənzimlənmə ilə əhatə olunanlar özlərini hüquqi münasibətlər kimi göstərir.**

ƏAF sahəsində təşkilati-idarəçilik münasibətlərinin mövcudluğu bütün ƏAO-nun, ayrıca əməliyyat işçisinin və onların birgə səylərinin "ƏAF haqqında" Qanunla müəyyən edilmiş məqsəd və vəzifələrinin həyata keçirilməsinə yönəltməklə bağlı koordinasiya edilməsinin (əlaqələndirilməsi) zəruriliyi ilə müəyyən olunur.

Bu münasibətlərə sistem-struktur analiz mövqeyindən, ƏAF-nin müxtəlif sistemaltı (sistem elementləri) strukturları, həmçinin əməliyyat-axtarış orqanının idarəedən və idarəolunan sistemlərinin səviyyələri arasında bu iş sahəsinə rəhbərlik prosesində yaranan informasiya və idarəçilik əlaqələrinin cəmi də daxil edilir. Təşkilati-idarəçilik münasibətlərində ƏAF-nin statistikası və dinamikası ifadə olunur: ƏAO sisteminin struktur quruluşu, qüvvə və vasitələrin yerləşdirilməsi, ayrı-ayrı struktur elementlərinin münasibətləri, koordinasiya və qarşılıqlı işi, ƏAF sisteminin məkan və vaxt üzrə hərəkəti.

Qeyd edilənlərə əsasən belə demək olar ki, təşkilati-idarəçilik münasibətləri ƏAFdə mürəkkəb dinamik sistemin bütün xarakterik əlamətlərinə malik olmasına imkan verir və bu sistemdə onu təşkil edən elementlərin qarşılıqlı əlaqələrinin idarə olunması ən vacib vəzifələrdən biridir.

Belə fikirlər də mövcuddur ki, idarəçiliyin qanunauyğunluqlarının və beləliklə təşkilati-idarəçilik münasibətlərinin öyrənilməsində idarəçilik elmi üstünlük təşkil edir və ona görə də təbii ki, ƏAF nəzəriyyəsində idarəçilik münasibətlərinin tədqiq edilməsi mümkün deyil. Bütün bunlarla yanaşı RF-nin professoru Q.Q.Zuykovun idarəetmə elminin iki istiqamətinə dair fikirlərini düzgün saymaq olar. Onlardan birinci müəyyənedici istiqamətin mahiyyəti ondan ibarətdir ki, dövlət idarəçiliyinin ümumi qanunauyğunluqları tədqiq olunur. İkincisi, idarəçilik elminin xüsusi sahələrindən və ya onların ayrı-ayrı hissələrindən ibarət olub dövlət idarəçiliyinin bu və ya digər sahələrinin spesifik qanunauyğunluqlarını tədqiq edir. Bu deyilən fikir və mülahizələrə əsaslanaraq (əksər aparıcı, tanınmış alimlər tərəfindən qəbul olunub) belə hesab olunur ki, ƏAO-nun idarə olunmasının spesifik (xüsusi) qanunauyğunluqlarının tədqiq edilməsi bu fəaliyyətə dair nəzəriyyənin predmetinə daxildir. Burada ƏAO sistemi fəaliyyətinin tətbiqinə interpretasiya (latın sözü olub, şərh edilmə, açıqlanma, nəyinsə izahı deməkdir) olunan idarəçiliyin ümumi qanunauyğunluqlarının

bazasında cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış imkanlarının istifadə edilməsinin təşkili və taktikasının spesifik xüsusiyyətləri tədqiq edilir. Bu cür yanaşma təşkilati-idarəçilik və əməliyyat-taktiki elementlərinin qarşılıqlı əlaqə və asılılığının obyektiv mövcudluğunu əks etdirir.

ƏAF nəzəriyyəsi predmetinin müəyyənləşdirilməsində xarici mühitlə qarşılıqlı əlaqə, cinayətkarlığa qarşı mübarizədə sistem qarşısında duran təcrübi məsələlərin həllinə imkan verən və əməliyyat şəraitinin real vəziyyətində fəaliyyət göstərən ƏAF sisteminin daxili quruluşu kimi vacib xüsusiyyətlər çox mühüm əhəmiyyətə malikdir.

Bu mövqedən ƏAF sistemi üzrə xarici mühitə kompleks kriminogen və antikriminogen faktorları, həmçinin əməliyyat şəraitinin xarakterinə təsir edən, ƏAF-nin istiqamətini və intensivliyini müəyyənləşdirən sosial-demoqrafik, iqtisadi-coğrafi, kriminoloji və digər şəraiti aid etmək lazımdır.

Xarici mühitə həmçinin əməliyyat-axtarış, qüvvə, vasitə və metodların istiqamətləndirildiyi obyekt olan cinayətkarlığı da aid edirlər. Xarici mühitin göstərilən faktorlarının və şəraitinin dərin təhlili HMO-ya, o cümlədən DİO-ya zəruri olan biliklər, ənənələr və meyllərə dair məlumata malik olmağa imkan verir. Bunlar isə öz növbəsində cinayətkarlığa qarşı mübarizənin təşkili üçün böyük əhəmiyyətə malik olub bu sahədə gedən proses və hadisələrin proqnozlaşdırılmasına, cinayətlərin qarşısının alınması və açılmasının əsas istiqamətlərinin, konkret vəzifələrinin və təşkilati formalarının xarakter və məzmununun müəyyən edilməsinə, profilaktiki, əməliyyat-axtarış və digər tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsinə imkan verir.

ƏAF nəzəriyyəsinin təyinatı kriminologiya, cinayət statistikası, sosial psixologiya, kriminalistika və s. elmlərin əldə etdikləri nailiyyətlər əsasında ƏAF-nin təşkilati formaları və taktiki fəndlərinin həyata keçirilməsinə birbaşa və bilavasitə təsir edən cinayətkarlığın konkret aspektlərini və xarici mühitin digər şərtlərini müstəqil öyrənməkdən ibarətdir. Bu isə ilk növbədə cinayətləri, hüquqpozmaları törədənlərin şəxsiyyətinin, ərazi və vaxta görə cinayətlərin yayılmasının və ƏAF-nin müvəffəqiyyətlə həyata keçirməsini və son nəticələrini şərtləndirən digər şəraitin əməliyyat-axtarış səciyyəsinə aiddir.

**Cinayətkatriala bağlı hadisələrinin tədqiqində ƏAF nəzəriyyəsi kriminogen mühitin aşağıdakı obyektiv mövcud olan spesifik xassələrinə müvafiq olaraq istiqamətlənir:**

– cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin gizli xarakteri;

– cinayət təzahürlərinin əksər hissəsinin (oğurluqlar, mənimsəmə və ya israfetmə, hədə-qorxu ilə tələb etmək, dələduzluq, cinsi münasibətlərlə bağlı cinayətlər, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların qanunsuz dövriyyəsi və s.) xarici mexanizm və konkret nəticələrinin latentliyi;

– cəmiyyətə zidd davranışın kriminogen fəallığı ilə konspirativliyin (latın dilində olub, nəyinsə kənar şəxslərdən gizli saxlanması kimi başa düşülür və s.) uzlaşması;

– cəmiyyətə zidd formalaşmış qrupların komformizmi (latın sözü olub şəxsin davranışının başqa şəxslərin, qrupun real təsiri altında dəyişməsi kimi başa düşülür) və bunun nəticəsi kimi onların üzvləri tərəfindən sosial dəyərlərə etinasızlıq, birgəyaşayış norma və qaydalarının pozulması;

– yeni sosial-hüquqi şəraitə tez və çevik uyğunlaşma kimi sayılan kriminal dinamizm.

Buna maliyyə-kredit sahəsindəki cinayətləri, özəlləşdirmə prosesində, vergilərlə bağlı baş verən və s. cinayətləri də misal göstərmək olar. Kriminal dinamizm cəmiyyət üçün təhlükəli olan cinayətlərin mütəşəkkilliyi dərəcəsinin, kriminal peşəkarlığının yüksəlməsi, cinayətkar qruplara, kriminogen obyektlərə daxilolmaya göstərilən müqavimətin güclənməsi, cinayətkar maraqların müdafiəsində aqressivliyin artmasını da əhatə edir;

– antikriminogen faktlara yanaşmada konservativlik və müqavimət göstərmək dərəcəsi (məsələn, hər hansı bir kollektivin, ailə üzvülərinin, gizli əməkdaşların və s. profilaktiki təsiri);

– cinayətkar aləmin nüfuzlu şəxslərinin (avtoritetlər)[1], "oğru oturanlar", əvvəllər dəfələrlə ağır və xüsusilə ağır cinayətlərə məhkum olunanların ətrafında olan zəif iradəli, sarsılmaz və sabit olmayan şəxslərə parçalayıcı təsir göstərmək, o cümlədən cinayətkar mühitdə xüsusi tapşırıqları icra edən məxfi əməkdaşlara, neqativ təsir etmək qabiliyyəti və s.

Kriminogen mühitin yuxarıda qeyd edilən xassələrinin hərtərəfi kompleks tədqiqi ƏAF-nin, ilk növbədə konfidensial (latın sözü olub, açıqlanmaya yol verilməyən, gizli mənasında işlədilir) fəaliyyətin strategiyası və taktikasının işlənib hazırlanması üçün başlanğic ilkin material kimi sayılır.

ƏAF nəzəriyyəsinin predmetinin müəyyən edilməsi üçün ƏAF-nin digər funksional alt sistemlərlə (institutlarla) prosessual, inzibati-hüquq, həmçinin cinayət-icra

1 Cinayət aləminin nüfuzlu şəxsləri mənası daşıyır

fəaliyyətinin cinayətkarlığa qarşı mübarizə və ictimai qaydanın mühafizəsi ilə bağlı qarşılıqlı, birgə və kompleksli fəaliyyətinin mühüm dərəcədə əhəmiyyəti vardır.

Bu alt sistemlərin müstəqil olmasına baxmayaraq, onlar öz aralarında sıx və qarşılıqlı asılı münasibətlərdə olurlar və nəticədə bu münasibətlər hüquq-mühafizə orqanları və xüsusi xidmətlər sisteminin tamlığı və cinayətkarlığa qarşı mübarizə və milli təhlükəsizliyin təmin edilməsi ilə bağlı həll edilən vəzifələrin ümumiliyi ilə müəyyən olunur.

**Ntrialt, ƏAF nəzəriyyəsinin predmetini** ƏAF-nin bir sistem kimi çərçivəsində meydana gələn təşkilati-idarəçilik münasibətləri təşkil edir. Onlar analitik informasiya işinin, planlaşdırmanın, əməliyyat-axtarış qüvvələrinin müəyyən olunması, müxtəlif əməliyyat şəraitində onların çevik istifadə edilməsi üsulları, müxtəlif ƏAO-nun operativ hazırlığı və onların qarşılıqlı əlaqələrinin təşkili, şəxsi heyətin peşə hazırlığı və əməliyyat ustalığının artırılması, informasiya-axtarış sistemlərinin yaradılması, xüsusi – texniki vasitələrin tətbiq edilməsi və s. ilə əlaqəlidir.

**ƏAF-nin predmetinə** konkret əməliyyat-qeydiyyat işləri və əməliyyat materialları üzrə əməliyyat-axtarış qüvvə, vasitə və metodlarının tətbiq edilməsi prosesində yaranan əməliyyat-taktiki münasibətlərin bütün məcmuusunu aid etmək lazımdır.

**ƏAF-nin predmetinə** həmçinin, ƏAF təcrübəsində meydana çıxan hüquqi, etik və psixolojı münasibətlər də aid edilməlidir.

**Ümumiləşdirilmiş halda ƏAF nəzəriyyəsini aşağıdakı elementlər təşkil edir:**

– ƏAF-nin əsas mahiyyət tərəfərini, onun qanunauyğunluqlarını əks etdirən və məntiqi formaların, daxili əlaqələrin, elmi və sosial mühitlə əlaqələrin, elmi-tədqiqat üsullarının cəmini özündə əhatə edən bilavasitə ƏAF nəzəriyyəsi;

– ƏAF-nin həyata keçirilməsinin təşkilati formaları və taktiki fəndlərinin müəyyən edilməsində nəzərə alınan bu tədbirlərin məzmunu və xarakterinə bilavasitə təsir edən cinayətkarlığın kriminoloji aspektləri, xarici mühitin kriminogen və antikriminogen şəraitləri;

– ƏAF-nin hüquqi əsasları;

– ƏAF sahəsində hüquqi, təşkilati-idarəçilik, əməliyyat-taktiki, mənəvi-etik və əməliyyat-psixoloji münasibətlər;

– cinayətkarlığa qarşı mübarizədə ƏAT-nin həyata keçirilməsinin təşkili və taktikasının hüquqi nizamlanmasının təkmilləşdirilməsi tədbirlərinin perspektivliyi.

ƏAF nəzəriyyəsinin bu təcrübi istiqamətliliyi nəzəriyyə ilə əməliyyat-axtarış təcrübəsinin dialektik vəhdət təşkil etməsini əks etdirir. Bu sonuncunun elmi tədqiqatlar nəticəsində müəyyən edilmiş qanunauyğunluqların, prinsiplərin və digər elmi konstruksiyaların həqiqiliyinin (düzgün olmasının) kriteriyası kimi qiymətləndirilməsinə baxmayaraq, o özü də nəzəriyyəyə təsir göstərərək onun gələcək əsas istiqamətlərinin inkişafının perspektivliyini müəyyən edir.

ƏAF nəzəriyyəsinin predmetini müəyyən etməklə onun vəzifələrini də dəqiqləşdirmək olar. Bu vəzifələrin müəyyən edilməsi konkret problemlərin aşkar olunması və onların tədqiq olunma metodlarının müəyyən edilməsi üçün çox mühüm əhəmiyyətə malikdir.

**ƏAF nəzəriyyəsinin ən əsas vəzifələrinə aşağıdakıları aid etmək olar:**

– çoxtərəfi əməliyyat-axtarış təcrübəsində mühüm, sabit, zəruri olan təkrarlanan əlaqələrin, hadisələrin, proseslərin elmi metodlarla aşkar edilməsi və onun əsasında bu spesifik biliklər sahəsində əsas prinsiplər, anlayışlar və kateqoriyaların işlənib hazırlanması;

– Azərbaycan dövlətinin milli ƏAF institutunun yaranması və inkişafı tarixinin öyrənilməsi;

– ƏAF-nin prosessual, inzibati və cinayət-icra fəaliyyətləri ilə uzlaşdırılmasının optimal variantının müəyyən olunması, onların kompleks qaydada təkmilləşdirilməsi üsullarının işlənib hazırlanması; xarici dövlətlərin hüquq-mühafizə orqanlarının ƏAF nəzəriyyəsi və təcrübəsinin öyrənilməsi və tətbiqi aspektlərinin müəyyənləşdirilməsi;

– ƏAF-nin təşkilati-struktur və funksional problemlərinin tədqiqi, təşkilati-idarəçilik və əməliyyat-taktiki tədbirlərin optimal uzlaşdırılması əsasında bu fəaliyyətin təkmilləşdirilməsi yollarının səmərəli axtarışı;

– qabaqcıl əməliyyat-axtarış təcrübəsinin öyrənilməsi və onun əsasında əməliyyat şəraitinin müxtəlif vəziyyətində ƏAF-nin təcrübi təşkilinin əməli üsullarının işlənib hazırlanması, əməliyyat şəraitini nəzərə almaqla və qanunçuluğa ciddi riayət olunmaqla ƏAF-nin qüvvə, vasitə və metodları, onların cinayətkarlığa qarşı mübarizədə təcrübi tətbiqinin təşkili və taktikasına dair ümumiləşdirici materialların işlənməsi;

– ƏAF-nin hüquqi aspektlərinin tədqiq olunması və onun normativ tənzimlənməsi metodikasının işlənməsi, əməliyyat-axtarış fəaliyyətinə aidiyyəti olan hüquqi aktların və prosessual normaların reallaşdırılması mexanizminin, əməliyyat-axtarış

qüvvə, vasitə və metodların tətbiq edilməsi məsələlərini nizamlayan qanunqüvvəli normativ aktların müasir tələblərə müvafiq olaraq işlənib hazırlanması;

– ƏAF-nin informasiya aspektlərinin tədqiqi, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən informasiya axtarışı işinin təşkili metodları və mexanizmi ilə bağlı məsələlərin işlənib hazırlanması;

– ƏAF-nin psixoloji aspektlərinin, o cümlədən kompleks ƏAT-nin iştirakçılarının kommunikativ (birgə) fəaliyyətinin, həmçinin ƏAT-nin həyata keçirilməsi prosesində nəzərə alınması vacib olan hüquqpozanların şəxsiyyətini xarakterizə edən psixoloji xüsusiyyətlərin tədqiqi. Əməliyyat-axtarış praktikası üçün psixolojı və taktiki xarakterli müvafiq tövsiyələrin işlənib hazırlanması;

– ibtidai istintaq prosesində sübut əhəmiyyətinə malik ola bilən faktiki məlumatların axtarışı və möhkəmləndirilməsi məqsədilə ƏAF-də əməliyyat-texniki vasitələrin və kriminalistik texnikanın tətbiq edilməsi effektivliyinin artırılması yollarının tədqiqi;

– sənədləşmə və sübutetmənin predmetlərinin əlaqələri və onlar arasındakı nisbətin aşkar edilməsi əsasında əməliyyatçı ilə müstəntiq arasında qarşılıqlı əlaqənin əməliyyat və prosessual aspektlərinin işlənib hazırlanması;

– ƏAF-də cinayətlərin açılması və cinayətkarların axtarışı ilə bağlı qeyri-ənənəvi metodların tətbiqedilmə imkanlarının tədqiqi və s.

## § 3. Əməliyyat-axtarış fəaliyyətinin problemlərinin elmi tədqiqinin metodologiyası

ƏAF ilə bağlı münasibətlərin, onların təbiətinin və mexanizminin dərin təhlili metodologiyaya dair məsələlərin elmi işlənməsi təmin edilmədən mümkün deyil.

ƏAF nəzəriyyəsində kompleks halında metodologiya ilə bağlı məsələlər ilk dəfə 1973-cü ildə bu sahədə fundamental işləri ilə tanınmış rus alimləri A.İ.Alekseyev və Q.K.Sinilov tərəfindən müəyyən dərəcədə öyrənilmişdir. Onlar öz tədqiqatlarında əsas diqqəti ƏAF üçün metodoloji əhəmiyyətə malik dialektik materializm və tarixi materializm, həmçinin bu sahədə ümumi elmi dərketmə metodlarının tətbiq edilməsinə vermişlər.

ƏAF nəzəriyyəsinin metodologiyası məsələlərinin işlənməsində bu fəaliyyət sahəsində fundamental, uğurlu tədqiqatlar aparan rus alimi, professor Qrebelskinin böyük əməyi olmuşdur. Onun ƏAF-nin nəzəri əsasları və təşkilati-hüquqi problemlərinə həsr olunmuş monoqrafiyasında (1974) ƏAF çərçivəsində həll olunan vəzifələrin çoxplanlı və çoxsərhədli olmasına dair fikirləri öz əksini tapmışdır. Bununla bağlı o, qeyd etmişdir ki, digər elmi biliklər (kriminologiya, psixologiya, sosiologiya, idarəçilik nəzəriyyəsi və s.) sahələrində işlənib tətbiq edilən elmi dərketmə (təfəkkür) metodlarının ƏAF nəzəriyyəsində istifadə edilməsi hüquqi, əməli nöqteyi-nəzərdən düzgündür və məhsuldardır. Bu işdə belə bir fikir də öz əksini tapmışdır ki, ƏAF nəzəriyyəsində elmi dərketmənin (təfəkkürün) müxtəlif metodlarının kompleksindən, onların uzlaşdırılması qaydasında istifadə olunması zəruridir və bu baxımdan ilk növbədə aşağıdakılardan istifadə edilməsi vacib və məqsədəuyğun sayılır:

– bilavasitə faktlara, müşahidə və təcrübi məlumatlara və onlardan abstraksiya, analiz və sintez yolu ilə nəzəri mahiyyətli nəticələrə (müşahidə, müqayisə, eksperiment, intervyu (müsahibə) keçirmə, anketləşmə, sənədlərin tədqiqi və s.) əsaslanan məzmun səciyyəli metodlar;

– abstraktlaşdırmanın (**abstraksiya** – latın sözü olub ayırma, təcridetmə deməkdir-elmi-tədqiqat metodu, idrakın tərəfəri və formalarından biri, predmetlərin bir sıra xassələrindən, onlar arasındakı münasibətlərdən fikrən sərf-nəzər edilməsi və hər hansı xassənin, yaxud münasibətin seçilib ayrılmasıdır, elmə daxil edilmiş abstraksiyanın həqiqiliyi, elmiliyi, meyarı praktikadır) vəzifələrinə, artıq dürüst ifadə olunmuş anlayışlardan məntiqi olaraq çıxarılmış yeni anlayışların müəyyən edilməsi vəzifələrinə tabe olan formalaşdırılmış metodlar (modelləşdirmə, əməliyyat-iqtisadi analiz, struktur sxemlərin qurulması və s.);

– predmetin, tədqiqatın vəzifələri, tədqiqatın ehtimal olunan və məntiqi nəticələrinin müəyyən edilməsini səciyyələndirən nəzəri analiz və sintezin metodları.

Müəllifin elmi dərketmənin fərdi və xüsusi metodlarının mahiyyəti, məzmunu və sistemləşməsinin (təsnifatı) müəyyən edilməsi məsələlərinə dair müxtəlif baxışların olmasının hüquqi baxımdan düzgün olmasının təsdiq edilməsinə dair fıkirləri əksər alim və mütəxəssislər tərəfindən qəbul edilir. Bu qeyd edilənləri ƏAF elminin metodologiyası problemlərinin həddən artıq mürəkkəbliyi ilə izah etmək olar.

ƏAF nəzəriyyəsinin metodoloji əsaslarını müəyyənləşdirərkən onların arasında sıx əlaqələrin mövcud olmasına baxmayaraq, ƏAT-nin elmi-tədqiqat metodları ilə

eyniləşdirmək düzgün deyil. Bu əlaqələr dərketmə, izaholunma, evristik və proqnozlaşdırma funksiyaları, həmçinin elmi tədqiqatların və onlara istinad edilən tövsiyələrin təcrübədə tətbiqinin (reallaşdırılmasının) təmin edilməsi funksiyasına əsaslanır.

Bu ilkin mülahizələr ƏAF nəzəriyyəsində istifadə olunan metodlar sistemini müəyyən etməyə imkan verir. Bu metodları xüsusi problemlər üzrə nəzəri tədqiqatların metodologiyası haqqında ümumiləşdirilmiş təsəvvürlər təşkil edir.

ƏAF sahəsinə uyğun olaraq mövcud olan dərketmə metodlarının istifadə edilməsi ilə bağlı toplanmış təcrübəni nəzərə alaraq onların strukturunu aşağıdakı kimi təsəvvür etmək olar:

1. Elmi dərketmənin dialektik metodu - dialektik materializm. Bu metod tədqiqatın ümumelmi metodlarının tətbiq edilməsinin əsası sayılır;

2. Tədqiqatın ümumelmi metodları:

a) materialların məntiqi işlənməsi metodu;

b) tarixi-məntiqi metod;

c) riyazi və statistik metodlar;

ç) sosioloji metodlar;

d) psixoloji və sosial-psixolojı metodlar;

e) sistem-struktur metodu;

ə) modelləşdirmə metodu;

f) nəzəri-eksperimental (təcrübi) metod;

g) proqram-məqsədli metod.

**I. Elmi dərketmənin dialektik metodu - dialektik materializm.** Dərketmənin (təfəkkürün) dialektik metodları ümumelmi metodların müəyyən edilməsinə heç bir istisna olmadan bütün təbii, ictimai və texniki elmlərin tədqiqat obyektlərinin fəlsəfi mahiyyətini açıqlamağa imkan verir. Bu qeyd edilənlər elmi biliklərin obyekti kimi ƏAF nəzəriyyəsinə də şamil edilir.

ƏAF nəzəriyyəsinin problemləri üzərində işləyən tədqiqatçı onları yalnız dialektika əsasında, yəni ən ümumi əlaqələr, bizi əhatə edən kriminogen və antikriminogen asılılığı haqqında bir elm kimi öyrənilməsi prosesində dərk edə bilər.

Dərketmənin dialektik metodologiyasına əsaslanaraq ƏAF nəzəriyyəsi əməliyyat-axtarış praktikasının obyektiv qanunauyğunluqlarını, onların cinayətkarlığa qarşı mübarizənin digər forma və metodları ilə qarşılıqlı əlaqəsini açıqlayır və əməliyyat işçilərinə onlardan kompleksli qaydada istifadə etməyi öyrədir.

**Dialektik dərketmə metodlarının əsas müddəalarından bir zəruriyyət kimi aşağıdakı nəticələri çıxarmaq olur:**

ƏAF cəmiyyətin hüquq-mühafizə strukturunun dövlət-hüquqi tərkib hissəsidir (cinayətkarlığa qarşı mübarizənin dövlət-hüquqi bir formasıdır); o, humanistlik təbiətinə malikdir və demokratik-hüquqi dövlət şəraitində insan və vətəndaşların həyat və sağlamlığını, mülkiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin cinayətkar qəsdlərdən müdafiəsini təmin edir; ƏAF sosial baxımdan əhəmiyyəti, səmərəliliyi, son nəticədə onun nə dərəcədə insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiə və riayət olunmasına xidmət etməsi ilə müəyyənləşdirilir.

Cəmiyyətin sosial-iqtisadi vəziyyəti, hüquq düşüncəsi və əhalinin mənəvi-əxlaqi vəziyyəti, onun sosial qrupları və regional xüsusiyyətləri cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış tədbirlərinin məqsədlərinin formalaşması, onların vəzifələrinin təşkilati formalarının və taktikasının müəyyən edilməsinə həlledici təsir edir.

**Dtrialtik materializmin metodologiyasına söykənərək və onlara əsaslanaraq aşağıdakilara nail olunur:**

– ƏAF təcrübəsi ilə bağlı hadisələri, prosesləri inkişafda, dinamikada tədqiq etməyə; ƏAF-nin təşkili və keyfiyyətinə təsir edən amilləri aşkarlamağa; ƏAO-nun fəaliyyətinin səmərəliliyini əks etdirən (ifadə edən) kəmiyyət meyarlarını (ölçülərini) müəyyənləşdirməyə; əməliyyat-axtarış təcrübəsində olan külli miqdarda hadisələrdən zəruri və təsadüfərin aşkar edilməsi; inkişaf ənənəsini və onun sosial determinantlarını müəyyən edən hadisə və mahiyyətləri aşkarlamağa; ƏAF sahəsində hüquqi, təşkilati və digər sosial tənzimləyicilər vasitəsilə düşünülmüş idarəetmənin həyata keçirilməsinə.

Dərketmənin dialektik metodunun tətbiqi ümumilikdə nəinki elmə aydın dünyagörüşü prinsipləri verir, həmçinin onu yeganə, düzgün olan elmi dərketmənin ümumi metodologiyası - dialektik materializmlə təmin edir.

Xüsüsi elmlər sahəsinin nümayəndələri tərəfindən dialektik prinsiplərin dərk edilib tətbiq edilməsi elmin tərəqqisi üçün ən vacib, zəruri şərtlərdən biridir. Dialektika yalnız nəzəri axtarışların bir aləti olmayıb, eyni zamanda, yeni biliklərin əldə edilməsi metodudur.

Yuxarıda qeyd edilənlər bütövlükdə və tam ƏAF nəzəriyyəsinə də aiddir, belə ki, bu nəzəriyyə öz qneseoloji mahiyyətinə görə digər elmlərdən heç nəyi ilə fərqlənmir, heç bir elmi biliklər sahəsini təmin edə bilmədiyi cinayətkarlığa qarşı mübarizə təc-

rübəsinin obyektiv, zəruri səciyyəvi tələblərini təmin edir. ƏAF nəzəriyyəsində onun sistem keyfiyyətlərinə kompleksli xarakterə malik olması, kriminalistika, kriminologiya, cinayət hüququ və cinayət prosesi, pedaqogika, psixologiya və digər elmlərlə qırılmaz əlaqələrinin olması özünü aydın büruzə verir.

**II. Ümumelmi tədqiqat metodları.** Bu metoddan az və ya çox dərəcədə ƏAF-nin istər təşkilati-idarəçilik, istərsə də əməliyyat-taktiki problemlərinin tədqiqində istifadə edilir. Bu qeyd edilənlərdən təşkilati-idarəçilik problemlərinin tədqiqinin bəzi vacib aspektlərini qısa da olsa qeyd etməyi vacib bilirik. Bu baxımdan, ilk növbədə, sosial idarəetmə elminin fundamental əsasları rəhbər tutulmalıdır. Belə ki, bu elm də digər elmlər kimi, 2 əsas aspektə malikdir: birincisi odur ki, o, tədqiqat fəaliyyəti olub sosial idarəetmənin mexanizminin dərk edilməsinə yönəlir; ikincisi isə ondan ibarətdir ki, təcrübədə işlənib hazırlanmış və sınaqdan çıxmış qanunların xarakterini, onların qarşılıqlı əlaqələrini və inkişaf dialektikasını açıqlayan və izah edən baxışlar, ideyalar, anlayışlar sistemidir.

İdarəçilik münasibətləri ƏAF-nin təşkili, idarə olunması və həyata keçirilməsi prosesində ayrı-ayrı şəxslər, insan kollektivləri (ƏAO ilə onlarla gizli əməkdaşlıq edən şəxslər, cinayətin hazırlanması, törədilməsində şübhəli olan şəxslər arasında, ƏAO-lar arasında və s.) yaranıb formalaşır. İdarəçilik münasibətləri bir tərəfdən də onların obyektiv xarakter daşıması ilə səciyyələnir. Belə ki, onlar cəmiyyətin həyatı, fəaliyyəti prosesində yaranır, digər tərəfdən onlar subyektivdir, belə ki, insanlar arasındakı münasibətləri əhatə edir və insan şüurundan bu və ya digər dərəcədə keçən idarəetmədə yaranır.

**Sosial idarəetmə elminin bu və digər əsas müddəalarını dərketmənin dialektik metodunun bazis müddəalarına əsaslanaraq 2 əsas qrupa bölürlər.**

**Birinci qrupa** yuxarıda qeyd etdiyimiz kimi, ümumelmi metodlar daxildir (onların əsasını dialektik metod təşkil edir) və bütün elmlər tərəfindən tətbiq edilir. Bu qrupa həmçinin kompleksli, tarixi, sistemli yanaşma, analiz, sintez, induksiya, deduksiya, məntiqi və s. metodlar da daxildir.

**İkinci qrupu** isə konkret elmi xüsusi dərketmə metodları təşkil edir. Onlar isə öz növbəsində 2 qrupa ayrılır: məlumatların toplanması və işlənməsi metodu və informasiyanın analizi.

**Məlumatların (informasiyanın) toplanması və işlənməsi metodlarına** isə aşağıdakıları aid etmək olar: müşahidə, anketləşmənin üsul və fəndləri, intervüləş-

dırmə (ingilis sözü olub jurnalistin mətbuat üçün nəzərdə tutulan hər hansı bir şəxslə söhbəti kimi başa düşülür və s.), sosioloji metodları, statistik məlumatların seçilməsi, onların qruplaşdırılması və s.

**Məlumatların analizi metodlarına** isə aşağıdakıları aid edirlər: sosial-iqtisadi hadisə və təzahürlər arasında səbəb-nəticəli əlaqələrin və kəmiyyət asılılıqlarının aşkar edilməsi; onların inkişafına müsbət və mənfi təsir edən amillərin təsnifatı; hadisə və proseslərin əsas kəmiyyət və keyfiyyət göstəricilərinin riyazi modelləşdirilməsi. Məlumatların analizi metodlarına həmçinin qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılmasını da aid etmək olar. Sosial idarəetmə elminin bu metodlarından ƏAF nəzəriyyəsinin və onun tərkib hissəsi olan ƏAF-nin idarə edilməsində olan problemlərin tədqiqində də istifadə edilir.

Bu metodların bir-birindən təcrid olunmuş qaydada deyil, sistemli, kompleksli tətbiq edilməsi vacib sayılır. Məhz belə halda ƏAF-nin idarə edilməsi sahəsində həlli vacib olan məsələlərin, problemlərin (hadisə və proseslərin) daha dərin və hərtərəfli tədqiq olunub dərk edilməsinə nail olmaq mümkündür. İndi isə başqa elmlərdə olduğu kimi ƏAF nəzəriyyəsi üçün vacib olan digər konkret ümumi elmi metodları nəzərdən keçirək

**a) əməliyyat-axtarış nəzəriyyəsi və təcrübəsi materiallarının məntiqi işlənməsi metodları** (sintez, analiz, induksiya-konkretdən abstrakta və abstraktdan konkretə yüksəliş - fəlsəfədə konkret təfəkkürdən abstrakt təfəkkürə və əksinə yüksəliş (ƏAF nəzəriyyəsinin çox vacib və etibarlı metodoloji instrumentariyası, kompleks tədqiqat vasitələri).

ƏAF-nin hüquqi əsaslarının və normativ-hüquqi nizamlanmasının tədqiqində o, məntiqi-semantik (məna) analizinin bir vasitəsi kimi rol oynayır, ƏAF sistemində hüquqi tənzimlənmənin boşluqlarının aşkara çıxarılması, mövcud olan ziddiyyətlərin və digər çatışmazlıqların aradan qaldırılmasına yönəlmiş tövsiyələrin işlənməsinə, ƏAO-nun fəaliyyətinin hüquqi nizamlanması sisteminin təkmilləşdirilməsinə kömək edir. Bu metod həmçinin ƏAF-nin nəzəri-hüquqi tədqiqində, o cümlədən ilk növbədə ƏAF nəzəriyyəsinin kateqoriya aparatının, onun daxili strukturu, səviyyəsi, sistemaltı elementlərinin işlənməsində və həmçinin bu elmi nəzəriyyənin dilinin işlənməsində mühüm rol oynayır.

Bütün bu qeyd edilənləri, o cümlədən ƏAF sahəsində son illərdə aparılan tədqiqatların nəticələri nəzərə alınmaqla əməliyyat-axtarış elminin daha da inkişaf etdi-

rilməsinə böyük ehtiyac olmasının zəruriliyini təsdiqləmək olar. **Bu baxımdan ƏAF nəzəriyyəsinin inkişafının aşağıdakı əsas istiqamətlərini xüsusilə qeyd etmək olar.**

1. "ƏAF haqqında" Qanunda ƏAF anlayışının məzmunu və mahiyyətinin müəyyən edilməsi problemləri, həmçinin qanunda və ümumiyyətlə ƏAF sahəsində qanunvericilikdə olan bir sıra ziddiyyətli məsələlərin mövcudluğu və onların daha dərindən öyrənilib aradan qaldırılması;

2. HMO-da ƏAF-nin metodoloji problemləri;

3. HMO-da ƏAF-nin hüquqi problemləri, onun subyektlərinin və vasitələrinin problemləri;

4. Əməliyyat-axtarış tədbirlərinin və metodlarının problemləri, bu tədbirlərin keçirilməsində gizli iştirak edən şəxslərin sosial və hüquqi təminatı problemləri;

5. ƏAF-də vətəndaşların iştirakı prosesində olan problemlər;

6. Əməliyyat-axtarış taktikasında olan problemlər;

7. HMO-nun ƏAF sahəsində insan və vətəndaşların hüquq və azadlıqlarının, qanunçuluğun təminatı problemləri;

8. HMO-nun ƏAF nəzəriyyəsinin inkişafında müxtəlif elm sahələrinin biliklərindən istifadə edilməsi problemləri və s.

**b) Tarixi məntiqi metod.** Bu metodun tətbiq edilməsi ƏAF sahəsində öyrənilən hadisə (təzahür) və proseslərin genetik analizini, onların inkişafının məntiqini əks etdirir, tədqiqatçılar qarşısında ardıcıl halda vaxt etibarılə bizim biliklərimizin dərinləşdiyini açıqlayır.

Müasir dövr tədqiqatları üçün ƏAF-nin inkişaf tarixinin praktiki əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tarix cinayətkarlığa qarşı mübarizə təcrübəsinin mühafizəçisi kimi çıxış edir. Cinayətlərin qarşısının alınması və açılması ilə bağlı ƏAF-nin təşkilati və qeyri-aşkar vasitə və metodlarının tətbiqinin müasir problemləri öz struktur və xüsusiyyətlərinə görə çox mürəkkəbdir və ona görə də nəinki perspektivlik nöqteyi-nəzərindən, həmçinin tarixi mənşəyinə görə də dərindən tədqiq olunmalıdır.

ƏAF-nin problemli məsələlərinin tədqiqində tarixi yanaşmanın məntiqi yanaşma ilə sıx və qırılmaz əlaqəsi var. Tarixi yanaşmadan fərqli olaraq məntiqi yanaşma hadisənin analizinə tarixi inkişafın nəticəsi kimi baxır. Əgər tarixi metod ƏAF-nin inkişafını predmetin tədqiqi kimi əks etdirirsə, onda məntiqi metod fəaliyyətin nəzəriyyəsini verməyə xidmət edir. Hər bir digər ictimai təcrübə sahəsində olduğu kimi ƏAF-də da tarixilik prinsipi o demək deyil ki, materialın şərhi xronoloji ardıcıllıqla verilməlidir.

Bu prinsip daxili qanunauyğunluqların, cinayətkarlığa qarşı mübarizədə kompleks tədbirlərin həyata keçirilməsi prosesində hadisələrin (təzahürlərin), əlaqələrin açıqlanmasını, onların ƏAO-nun digər növ və istiqamətləri (inzibati-hüquq, prosessual, cinayət-icra və s.) ilə fəaliyyətinin uzlaşdırılması, ƏAF tarixinin öyrənilməsi, digər tərəfdən tarixi inkişafın qanunauyğunluqlarını, nəzəri fikirlərin inkişafının möhkəm ənənələrini müəyyən etməyə imkan verir. Deməli, ƏAF-nin qanunauyğunluqlarının onun tarixinin öyrənilməsi əsasında aşkarlanması mühüm əhəmiyyətə malikdir. Bu, çox mürəkkəb vəzifədir. Onun həlli keçmişin təcrübəsinin mexaniki olaraq müasir şəraitə keçirilməsinə, hər hansı bir dəyişməz əsasların və prinsiplərin yaradılmasına yol vermir.

**ƏAF tarixinin öyrənilməsi** həm də ona görə vacibliyini qoruyub saxlamışdır ki, o, bir çox ümumi əsaslara (müddəalara), prinsip və anlayışlara söykənir, keçmişdə nəzəriyyədə işlənmiş anlayışlara əsaslanır. ƏAF-nin dili bir elm sahəsi, fənn kimi çox möhkəm tarixi əsaslara malikdir. ƏAF nəzəriyyəsinin dilinin inkişaf tarixinə nəzər yetirsək, dərketmə və təcrübə üçün böyük əhəmiyyətə malik olduğunu görərik, belə ki, o, mövcud anlayışları dəqiqləşdirmək, konkretləşdirmək, onları müasir məzmunla əhatə etməyə imkan verir.

**c) Riyazi və statistik metodlar.** Optimal idarəetmə (o cümlədən ƏAF-də) o zaman mümkün olur ki, o halda yalnız ümumi qanunauyğunluqların keyfiyyət ifadəsi ilə yanaşı, həmçinin həmin hadisəyə (təzahürə) məxsus əlaqələrin, münasibətlərin və qarşılıqlı asılılığın ciddi kəmiyyət təsviri də mövcud olur.

Statistik tədqiqat metodları riyaziyyat aparatlarından istifadə etməklə sosial praktika proseslərinin mürəkkəb statistik toplusunun öyrənilməsini nəzərdə tutur, belə ki, bu, böyük rəqəmlər qanununa əsaslanaraq tədqiq olunan obyektlərin müəyyən statistik qanunauyğunluqlarını və onların statistik təbiətini müəyyən etməyə imkan verir. ƏAO əməliyyat şəraitinin öyrənilməsi və qiymətləndirilməsi, ƏAF-nin vəziyyəti, əməliyyat-axtarış təcrübəsi və xüsusi elmi tədqiqatlarla bağlı məlumatların alınması və işlənilməsində, riyaziyyat və statistik metodları tətbiq edir (statistik-riyaziyyat metodları: seçimin əsaslandırılması, faktor təhlili, reprezentativliyin hesablanması və s.).

Onlar əsas etibarilə cinayət və əməliyyat-axtarış materiallarına əsaslanır və onlara hüquq-mühafizə orqanları tərəfindən vahid göstəricilər sistemi üzrə ardıcıl hesablamalar keçirmək yolu ilə əldə olunan geniş mənada sosial, kriminoloji və təşkilati-taktiki xarakterli ümumiləşdirilmiş məlumatlar kimi baxılır.

Bu statistik materialların köməyi ilə ƏAF-nin subyektlərinin fəaliyyətinin nəticələri, onların sistem elementləri, cinayətkarlığın vəziyyətinin kəmiyyət məlumatları əldə edilir, təhlil olunur və qiymətləndirilir. Statistik və riyaziyyat metodlarının tətbiqi ƏAO-nun fəaliyyətinin effektivliyini müasir qiymətləndirmə kriteriyalarının (meyarlarının) praktikada tətbiqinə, ən vacib kriminogen və təşkilati-taktiki faktorlar nəzərə alınmaqla, bu orqanların ştat sayının normativlərini hesablamağa imkan verir.

Son illər təcrübədə orqan, xidmət və hissələrin cinayətkarlığa qarşı mübarizədəki fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinə bir neçə müxtəlif yanaşma qaydaları işlənmişdir. Son vaxtlar xarici mühutin real təsir edən faktorları kimi rol oynayan və cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasında baş verən dəyişikliklərlə əlaqədar olaraq ƏAF-nin nəticələrinin analizinin statistik-riyaziyyat metodlarının daha geniş tətbiq edilməsi ənənəsi açıq nəzərə çarpır. Burada onu qeyd etmək vacibdir ki, bütün bunlar öyrənilən hadisə və proseslərin yalnız kəmiyyət xarakteristikasının zənginləşməsinə gətirmir. Dərketmənin kəmiyyət və keyfiyyət elementlərinin, forma və məzmun, mahiyyət və hadisələrin qarşılıqlı bir-birinə daxil olması (keçidi) və vahidliyi formal riyaziyyat göstəricilərində (rəqəmlərdə, onların toplusunda və s.) ƏAF-nin müəyyən dərəcədə məzmun və mahiyyətini, onun əsas istiqamətlərini əks etdirməyə imkan verir.

ƏAF-nin təşkilati-taktiki səviyyəsində də statistik-riyaziyyat metodlarının istifadə olunmasının perspektivliyi vardır. ***Məsələn, cinayətkarlığın vəziyyəti, strukturu və coğrafiyası ilə əlaqədar olaraq qüvvə və vasitələrin, onların məkan (ərazi) üzrə yerləşdirilməsi və istifadə edilmə intensivliyinin hesablanması.***

ƏAF-nin əməliyyat-taktiki səviyyəsinə gəldikdə isə taktiki xarakterli qanunauyğunluqları riyaziyi hesablamalar yolu ilə ifadə etməklə bağlı indiyədək edilən cəhdlər müvəffəqiyyətli olmamışdır. Burada tədqiqat obyektinin mürəkkəbliyi özünü göstərir. Ona görə də qarşıda duran vəzifə ondan ibarətdir ki, riyaziyyat metodlarının tədqiqi, öyrənilməsinə uyğun olaraq ƏAF nəzəriyyəsini, onun anlayışlar fondunu, sübutlar sistemini, məntiqi strukturunu hazırlamaq lazımdır.

**ç) Tədqiqin sosioloji metodları.** Bu metod ƏAF-də xüsusən də əməliyyat şəraitinin və onun kriminoloji şəraitlə nisbətinin öyrənilməsində çox geniş tətbiq olunur. Kriminoloji tədqiqatın məlumatları əməliyyat-axtarış orqanının işinin təmin olunmasının vacib tərkib hissəsinə aid edilirsə, cinayətkarın şəxsiyyətinin xarakteristikasının ayrıca aspektləri cinayətkarlığın əməliyyat-taktiki xarakteristikasının ayrılmaz tərkib hissəsidir.

**Sosioloji tədqiqatların digər formaları ƏAF-nin aşağıdakı təşkilati-taktiki aspektlərini əhatə edir:**

təşkilati-struktur və kadr məsələləri; iş stili və metodları; idarəetmə sisteminin təkmilləşdirilməsi, hüquqi tənzimlənmənin səmərəlilik dərəcəsi və s.

Bu vəzifələrin həll edilməsinə sosiologiya sahəsində işlənmiş aşağıdakı prosedurların (üsulların) tətbiq edilməsi ilə nail olunur: anketləşmə və intervüləşdirmənin keçirilməsi, müxtəlif şkala və qrafiklərin qurulması, korrelyasiya (latın sözü olub, predmet və əşyaların qarşılıqlı münasibəti, nisbəti, qarşılıqlı asılılığı deməkdir), faktor analizi və başqa metodların tətbiqi və s.

**d) Psixoloji və sosial-psixoloji metodlar.** Bu metodlar ƏAF-də həddən artıq mühüm rol oynayır, belə ki, o, ƏAO-nun fəaliyyət göstərməsi, dövlət qulluqçularının böyük dəstəsinin şüurlu, məqsədyönlü fəaliyyəti ilə bağlıdır və sonuncular öz aralarında, məxfi əməkdaşlar, zərərçəkən, şübhəli və təqsirli şəxslər, şahidlərlə və ƏAO tərəfindən hüquq-mühafizə fəaliyyəti sahəsinə cəlb edilən digər vətəndaşlarla hüquqi, təşkilati və əməliyyat-taktiki münasibətlərə girirlər. Psixolojı baxımdan ƏAF sahəsində meydana çıxan kompleks hüquqi, təşkilati və əməliyyat-taktiki münasibətlər ayrı-ayrı şəxslərin, sosial qrupların psixolojı prosesləri, xassə və vəziyyətlərinin qarşılıqlı əlaqəsinin mürəkkəb sistemi kimi verilə bilər.

Bu münasibətlər bir çox hallarda maraqların ziddiyyətliliyi və gərginləşməsi ilə xarakterizə olunur. Belə ki, onlar sosial konfiktlərin həlli, baş vermiş cinayətlərlə bağlı pozulan ədalətin bərpa edilməsi ilə əlaqədardır. Eyni zamanda, ƏAF sahəsində geniş münasibətlər dairəsi bilavasitə əməliyyat-axtarış profilaktikası, vətəndaşlara tərbiyəvi təsir etmək vəzifələri ilə müəyyən olunur.

**e) Sistem-struktur yanaşma metodu** ƏAF-nin bir sistem kimi daxili təşkilini, onun xarakterini, istiqamətini, sistem əmələ gətirən əlaqələrinin qüvvələrini, həmçinin ƏAF sisteminin onun fəaliyyət göstərdiyi mühitlə əlaqəsini, sistemi formal dildə təsvir etmək və ƏAF sahəsində idarəetməyə məntiqi zəminlik yaratmaq üçün tətbiq edilir.

ƏAF-nin təhlilinə sistem-struktur yanaşma bu fəaliyyətə idarəetmə nəzəriyyəsi mövqeyindən baxmağa, ƏAF-ni struktur-funksional sistem elementlərinə (sistemaltı) ayırmağa, onların qarşılıqlı əlaqələrini öyrənməyin optimal nisbətini və sonrakı təkmilləşdirilməsini müəyyənləşdirməyə, ƏAF səviyyələrini müəyyən etməyə və beləliklə, əməliyyat-axtarış qüvvə, vasitə və metodlarının tətbiqinin səmərəli təşkili yollarını nəzərdə tutmağa imkan verir.

**ə) Modelləşdirmə metodu** elmlərarası (fənlərarası) ümumi elmi metodlara əsaslanır, sonuncuları konkretləşdirir və inkişaf etdirir, lakin hər bir elmlə şərtləndirilən öz xüsusiyyətlərinə malikdir. Rus alimlərinin işlərində ən geniş əksini tapan fikirlər ondan ibarətdir ki, modelləşdirmə müxtəlif sistemlərin, onların modellərinin qurulması yolu ilə tədqiqinin bir elmi metodu olub, tədqiqat predmetinin bəzi əsas xüsusiyyətlərini saxlayır və modelin fəaliyyəti ilə bağlı alınan məlumatların tədqiqat predmetinin üzərinə keçirilməsini öyrənir.

Modelləşdirmənin dərketmə xassələri onunla müəyyən olunur ki, o sanki həmin məntiqi və empirik metodlar arasında aralıq mövge tutur, nəzəriyyə və təcrübə, duyğu və məntiqi dərketmə arasında əlaqələndirici qismində rol oynayır.

**ƏAF-nin proses və hadisələrin modelləşdirilməsi ən ümumi halda aşağıdakıları əhatə edir:**

– tədqiq olunan proses və hadisələrə dair informasiyanın dəqiq sistemləşdirilməsi. ***Məsələn, ƏAF-nin təşkilati və taktiki formaları, onların nizamlanmış qaydada şərhi;***

– daha sadə, sınaqdan çıxmış və təsdiq olunmuş əyani əks etdirilən təsəvvürlər və anlayışların köməyi ilə ən mühüm xassələr və mürəkkəb asılılıqların izah edilməsi və onlara dair misalların göstərilməsi;

– əqli eksperimentləşdirmə və dərin analiz etmək yolu ilə tədqiq olunan hadisə və proseslərin, xassələri (xüsusiyyətləri) haqqında yeni məlumatların alınması və bunun əsasında onların halının dərinləşməsinə dair proqnozların verilməsi. ***Məsələn, ƏAF-nin təşkilati-taktiki formalarının cinayətkarlığın əməliyyat-taktiki xarakteristikasına adekvat (uyğun) olmamasının müəyyən edilməsi;***

– ƏAF proses və hadisələrinin inkişafı haqqında əvvəllər verilən (irəli sürülən) proqnozların və yeni proqnozların dəqiqləşdirilməsi. ***Məsələn, müxtəlif ƏAT-nin optimal uzlaşdırılması yolu ilə ərazinin əməliyyat xidməti sisteminin təkmilləşdirilməsində mümkün olan praktiki qabaqlayıcı tədbirlərinin görülməsi ƏAF-nin hadisə (təzahür) və proseslərin modelinin verilməsi fikrən eksperimentləşdirməyə, yəni daha optimal variantın seçilməsi məqsədilə müxtəlif təşkilati-taktiki variantların fikrən canlandırılmasına imkan yaradır.*** Gələcək perspektiv planda bu metodun inkişaf etdirilməsi yeni informasiya texnologiyaları əsasında ƏAF hadisə və proseslərinin modelləşdirilməsi ilə əlaqəlidir.

**f) Nəzəri-eksperimental metod** ƏAF-nin tədqiq olunan proses və hadisələrinin mühüm əlamətləri və qarşılıqlı əlaqələrini adekvat əks etdirən əsaslandırılmış nəzəri-

təcrübi müddəaların qurulması üçün tətbiq olunur. Bu metodu tətbiq etməklə praktiki meyarlar əsasında fikrən və yaxud predmetli (təşkilati və taktiki) eksperimentləşdirmə yolu ilə hər hansı bir baxış konsepsiyası tətbiq olunur və ya təkzib edilir.

***Tədqiqatın nəzəri-eksperimental metodu ƏAF-nin təşkilinin çox vacib sahəsi olan qabaqcıl təcrübənin öyrənilməsi, formalaşması və əməli fəaliyyətdə (praktikada) istifadəsində geniş tətbiq edilməlidir.***

Əməliyyat-axtarış təcrübəsinin sürətli inkişafı və təkmilləşdirilməsi, əməliyyat işçilərinin təlim sisteminin və ixtisaslaşmasının mürəkkəbliyi qabaqcıl təcrübədən istifadə edilməsinin səmərəliliyinin artırılması məsələsinin zəruriliyini çox qəti və kəskin tələb kimi irəli sürür. Bu nöqteyi-nəzərdən onun təcrübə üçün əhəmiyyəti, iqtisadi faydalılığı cəhətdən məqsədəuyğunluğu, həmçinin qanunçuluğun təmini baxımından onun qiymətləndirilməsinin analizi mühüm rol oynayır. ***ƏAO-nun rəhbərləri müəyyən təcrübəni tətbiq etməzdən əvvəl onun iqtisadi effektini əvvəlcədən dəqiq hesablamalıdırlar. Bu işdə subyektivizm və təsadüfük elementlərinə yol vermək olmaz. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, tətbiq olunan sınaq təcrübəsi vaxt etibarilə məhduddur və mənəvi cəhətdən köhnələ bilər. Məhz ona görə də onun aşkar edilməsi, öyrənilməsi, ümumiləşdirilməsi və əməli işdə tətbiq edilməsi maksimal dərəcədə çox qısa müddətdə həyata keçirilməlidir.***

***Qabaqcıl təcrübə imkan etibarılə də məhduddur. O, lazımi effekti, nəticəni o zaman verir ki, təxmini olaraq eyni şəraitlərdə tətbiq olunsun. Bu əsaslar ƏAF-nin təşkili təcrübəsinin yayılmasında, qüvvə və vasitələrin optimal yerləşdirilməsində, əməliyyat-axtarış informasiya sisteminin, habelə digər ƏAO ilə qarşılıqlı əlaqələrin təşkilində çox mühüm və həlledici rol oynayır.***

ƏAF-nin elmi təşkili bu fəaliyyətin forması və dərk edilməsi vasitəsi rolunu oynayan, həmçinin təşkilati-taktiki eksperimentlərə söykənir. Təşkilati-taktiki eksperimentlər cinayətkarlığa qarşı mübarizədə təşkilati formaların və taktiki fəndlərin yenilərinin işlənməsi və artıq mövcud olanların təkmilləşdirilməsi, qüvvə və vasitələrin idarə olunmasının səviyyəsinin artırılmasında əsas vasitələrdən biri kimi sayılır.

**g) Proqram məqsədli metodlar** nəzəri işləmələr və modelləşdirmə əsasında ƏAF-nin təşkilati-hüquqi, maddi-texniki, kadr və digər təminatının inkişafı perspektivliyini proqramlaşdırmağa imkan verir. Müasir dövrdə və şəraitdə belə bir faktı daha aydın müəyyən etmək olur ki, müxtəlif növ hüquq-mühafizə fəaliyyəti, onun nə dərəcədə müvəffəqiyyətlə keçirilməsinə baxmayaraq, ancaq son məqsədə nail olmağın bir

vasitəsidir. Məhz ona görə də onları kompleks qaydada, planlı inkişaf etdirmək lazımdır. Bu belə izah olunur ki, yəni hər hansı bir fəaliyyət növünün birtərəfli inkişafı çox mühüm disproporsiyanın (qeyri-nisbilik) yaranmasına və cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin aşağı düşməsinə gətirə bilər. Bu şəraitdə ƏAF-nin inkişafının perspektivliyinin müəyyən edilməsi və kompleksli analizin həyata keçirilməsinə proqram məqsədli yanaşmanın tətbiq edilməsi çox vacib əhəmiyyətə malikdir.

Dialektik dərketmə metodlarının və həmçinin müasir ümumi elmi metodların tətbiqinin çox mühüm vəzifələri və son nəticələri cəmiyyət həyatının bütün sahələrində (sosial, iqtisadi və s.) olan ziddiyyətlərin vaxtında aşkarlanması və düzgün həll edilməsindən ibarətdir.

Bu ziddiyyətlər sosial praktikanın istənilən sahələrində, o cümlədən hüquq-mühafizə fəaliyyətində, xüsusən də ƏAF-də mövcuddur. Belə halda idarə olunan sistemin özündə ziddiyyətlərin yarandığı bu fəaliyyətin təşkilati-idarəçilik aspekti nəzərdə tutulur. ***Məsələn, ƏAF-nin əməliyyat-taktiki aspekti bir çox hallarda qanunun keşiyində duran dövlət nümayəndələri HMO-nun, o cümlədən polis əməkdaşları ilə hüquq və mənəvi normaları pozan, onlara etinasızlıq edən, hüquqpozmaları törədən şəxslər arasında olan barışmaz, kəskin ziddiyyətləri ilə xarakterizə olunur. Bu ziddiyyətləri düzgün həll etmədən və dərindən dərk etmədən cinayətkarlığa qarşı mübarizənin və milli təhlükəsizliyin səmərəli təşkilinin təmin edilməsindən danışmaq düzgün olmazdı.***

**ƏAF-nin təşkilati-idarəçilik səviyyəsində onların düzgün və tez həllinin vacibliyi nöqteyi-nəzərindən ən aktual olanlarına aşağıdakıları aid etmək olar:**

– ƏAO rəhbərlərinin peşəkarlığı və səlahiyyətliliyi ilə bağlı tələblər və təyinatlarla bu vəzifələrə yerlərdə, xüsusi və hətta hüquqi hazırlığı (təhsili), həmçinin əməliyyat işi sahəsində təcrübəsi olmayan şəxslərin təyin edilməsi hesabına olan komplektləşdirmə təcrübəsi arasındakı ziddiyyətlər;

– ƏAO-nun rəhbəri və ona tabe olan şəxsi heyəti tərəfindən ekstremal vəziyyətlərdə çox inamlı və düzgün əməliyyat-taktiki qərarların qəbul edilməsinin zəruriliyi ilə gələcək məsuliyyətdən yaxasını qurtarmaq və riskə (bəzən əməliyyat riskinə) yol verməkdən (bir çox hallarda bunsuz ƏAF-ni həyata keçirmək də çətindir, əsaslı risk nəzərdə tutulur) irəli gələn bəzi əməkdaşların belə qərarları qəbul etmək niyyətinin olmaması arasında olan ziddiyyətlər;

– inzibati ərazilərin, obyektlərin və əməliyyat işinin müəyyən istiqamətlər üzrə əməliyyat xidmətinin kompleksli xarakteri ilə ixtisaslaşmış müxtəlif xidmətlərin maraqları arasında olan ziddiyyətlər;

– ƏAO-nun səlahiyyətləri çərçivəsindən kənarda olan, kompleks əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün əməliyyat işçilərinin bir hissəsinin daha yüksək idarəçilik səviyyəsində ixtisaslaşmasını tələb edən müasir cinayətkarlığın əməliyyat-taktiki xarakteristikası ilə əməliyyat işçilərinin əsas qüvvələrini aşağı idarəçilik səviyyələrdə (şəhər, rayon, qəsəbə və s.) cəmləşdirmək niyyətləri arasındakı ziddiyyətlər.

ƏAF sistemində bu və digər ziddiyyətlər idarə edilən obyektlərin mürəkkəbliyi və onların həlli üçün məqsəd və vasitələrin seçilməsinə verilən tələblərin ziddiyyətli olması ilə izah edilir.

ƏAF təcrübəsində belə ziddiyyətli məsələlərin müvəffəqiyyətlə həll edilməsinə aid çoxlu sayda misallar vardır. ***Məsələn, artım hesabı ilə gedən informasiya axınıyla onun işlənib yoxlanması arasında olan ziddiyyətlər təcrübədə (praktiki işdə) əməliyyat-axtarış təyinatlı MAS-ın tətbiq edilməsi, mikro EHM bazasında əməliyyat uçotlarının təşkili, yerli, ümumi dövlət, dövlətlərarası (məsələn, MDB-yə daxil olan ölkələr və s.), beynəlxalq axtarış (İnterpol, Evropol və s.) sistemlərin təkmilləşdirilməsi yolu ilə aradan qaldırılır.***

İnzibati ərazilərin, obyektlərin və əməliyyat işinin müxtəlif istiqamətlərinin əməliyyat xidmətinin optimal variantları işlənir və onun çərçivəsində sahəvi ƏAO-nun səyləri inteqrasiya olunur. Agentur aparatının çoxməqsədli istifadə edilməsi prinsipi fəal tətbiq olunur. ƏAO kadrlarının seçilməsi, hazırlanması, tərbiyə olunması və öyrədilməsi üzrə bir çox tədbirlər həyata keçirir.

***Ziddiyyətlərin tədqiqi və onların həlli üsulları ƏAF nəzəriyyəsi və praktikasının inkişafı və təkmilləşdirilməsində bir katalizator rolunu oynayır. Sözsüz ki, bu ziddiyyətlərin vaxtında aşkar edilməsi və həll olunması çox mühüm və həlledici dərəcədə bütün idarəçilik səviyyələrində ƏAO-nun rəhbərlərindən asılıdır. Onların fəaliyyəti müasir, möhkəm, geniş və dərin biliklərə əsaslanmalı, obyektiv həqiqəti, təcrübənin dialektik-materialist analizini, ciddi məntiqi təfəkkürü, qanunları bilməsini və s. zəruri amilləri əks etdirməlidir.***

ƏAF-nin əməliyyat-taktiki səviyyəsində ziddiyyətlərin həlli xarakteri başqadır. Bu səviyyəyə müxtəlif davamiyyətli və kəskinliyə malik şəxsiyyətlərarası konfiktlər (münaqişələr, vəziyyət və hallar) xarakterikdir və onların mənbəyini əməliyyat

trialəri ilə cinayətkarlar arasında olan rəqabət münasibətləri və sonuncuların hüquq-mühafizə tədbirlərinin keçirilməsinə müqavimət, əks-təsir hərəkətləri təşkil edir. Cinayətkar ünsürlər, onların marağı olan əlaqələri və köməkçiləri öz cinayətkar niyyətlərini həyata keçirmək və qanunla nəzərdə tutulmuş məsuliyyətdən azad olmaq üçün tamamilə şüurlu surətdə və bir çox hallarda əməliyyat işçilərinə qarşı müxtəlif növ təsirlər etmək istiqamətlərində hərəkət edir, fəal gizli iş aparırlar. Bununla onlar lazımi qərarları qəbul etməkdən və əməliyyat işçilərini nəinki zəruri olan məlumatları almaqdan məhrum edir, həmçinin dezinformasiya üçün, hətta qanunun keşiyində duran hüquq-mühafizə orqanlarının, o cümlədən ƏAO-nun nümayəndələrinə fiziki təsir etmək məqsədilə tədbirlər görürlər.

Konfikt situasiyalar (vəziyyətlər, hallar) özünü əməliyyat-taktiki vəziyyətlərin ən vacib psixoloji komponenti kimi göstərir, belə ki, bu vəziyyətlərin iştirakçılarının (əməliyyat işçiləri-cinayətkarlar) maraqları bir qayda olaraq bir-birinə əksdir və onların hərəkətləri bir-birini rədd edən məqsədlərə nail olmağa yönəldilir.

**Bu şəraitdə ziddiyyətlərin həlli hüquqi və mənəvi normaların şərtsiz təmin edilməsi əsasında qurulur və özünə aşağıdakıları daxil edir:**

– birincisi, əməliyyat işçiləri tərəfindən cinayətkar elementlərin davranışının məqsəd və mexanizminin müəyyən olunması (onların hərəkətlərinə cinayət-hüquqi və əməliyyat-taktiki qiymətin verilməsi);

– ikincisi, əməliyyat-axtarış prosesinə təsir etmək imkanı və qabiliyyətinə malik müxtəlif təsadüfi təzahürlərin, cinayətkarların və onlarla əlaqəsi olan şəxslərin əks-təsir göstərmək tədbirlərinin çox dəqiq, hərtərəfi nəzərə alınması;

– üçüncü, bunun əsasında cinayətkar niyyətlərinin həyata keçirilməsinə yol verilməməsi, onların "parçalanıb dağıdılması", cinayətkar fəaliyyətin həyata keçirilməsi şəraitinin aradan qaldırılması, cinayətlərin qarşısının alınması və açılması, təqsirli şəxslərin qanunla nəzərdə tutulan məsuliyyətə cəlb olunmasını təmin edən qəti və konret əməliyyat-axtarış və qanunla nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsi, əməliyyat- axtarış profilaktikası, cinayətkar elementlərin, əməliyyat yolu ilə yoxlanması və tədqiqi, cinayətkarların tutulması ilə bağlı əməliyyatların keçirilməsi ("Şimşək", "Yaxalama", "Nabat" və s. əməliyyatlar DİO-da müxtəlif vəziyyətlərdə müxtəlif növ kateqoriyalardan olan cinayətkarların tutulması məqsədilə həyata keçirilən xüsusi əməliyyatlar).

## § 4. Əməliyyat-axtarış fəaliyyəti tədris kursunun predmeti və sistemi

Əməliyyat-axtarış fəaliyyəti tədrisi fənnini və onun predmetini aşağıdakı məzmunla əhatə etmək daha düzgün sayılır. ƏAF bir tədris fənni (kursu) kimi ƏAF-nin məzmunu və mahiyyəti haqqında elmi-nəzəri tədqiqatlara əsaslanmış, sabit biliklər sistemindən ibarət olub, hüquqşünaslıq sahəsində mütəxəssislərin təlimi və hazırlanması məqsədinə xidmət edir (ilk növbədə hüquq-mühafizə orqanları və xüsusi xidmətlər üçün peşəkar kadrların hazırlanması məqsədilə).

Bir qayda olaraq hüquq fənlərinin tədris kurslarının əsasını bu və ya digər hüquq sahələrinin öyrənilməsi təşkil edir (məsələn, cinayət və cinayət-prosessual, mülki və s.). ƏAF-nin tədrisinə də belə yanaşma rəhbər tutulur.

Tədris kursunun əsasını normativ-hüquqi materiallardan ibarət olan ƏAF haqqında qanunvericilik və ƏAF nəzəriyyəsinin (elminin) əsasları təşkil edir. ƏAF tədris fənni açıq, dövlət və xidməti sirlərlə bağlı məxfi hissələrdən ibarətdir. Məhz bu fənnin məxfi hissəsi dövlət tərəfindən müəyyən edilmiş xüsusi təhsil ocaqlarında tədris olunur. Son illər hüququn müstəqil bir sahəsi kimi formalaşan və mütəxəssislər arasında əsas etibarılə birmənalı qəbul edilən əməliyyat-axtarış hüququnun yaranması və ƏAF-nin ən vacib fundamental hüquqi bazasına çevrilməsi ƏAF-nin mülki ali tədris ocaqlarının hüquq fakültələrində, xüsusən də kriminalistika kafedralarında tədris olunan fənlər sırasına daxil edilməsini şərtləndirir.

ƏAF tədris fənninin açıq hissəsinin predmetini insan və vətəndaşların, cəmiyyətin, dövlətin cinayət qəsdlərdən müdafiəsi üçün ölkənin əməliyyat-axtarış orqanları tərəfindən xüsusi qüvvə, vasitə və metodların (açıq və konfidensial) tətbiq edilməsinin zəruriliyini şərtləndirən obyektiv qanunauyğunluqlar təşkil edir. Tədris fənni elmi biliklərdən başqa empirik (**empriya** yunan mənşəli sözdür, təcrübəni, həqiqətin dərk edilməsində yeganə vasitə kimi tanıyan, məntiqi təhlili və elmi ümumiləşmələri nəzərə almayan elm mənasını daşıyır) məzmun və mahiyyətli bilikləri də əhatə edir. Ona görə də tədris kursunu ümumilikdə əməliyyat-axtarış orqanlarının təcrübəsi təşkil edir.

Son elmi biliklər sahəsində olan nailiyyətlərə əsaslanaraq, bizim fikrimizcə, əməliyyat-axtarış hüququ kimi hüquq sahəsi tam formalaşdıqdan sonra bu fəaliyyə-

tin fundamental bazasına olan baxışlar da təkmilləşəcək və daha geniş, zəngin dərin və yeni biliklər yaranacaqdır.

**Tədris kursunun predmetini təşkil edən qanunauyğunluqlar 2 sistem elementinin (sistemaltı) birləşdirilməsi yolu ilə təsnif olunur:**

1. ƏAF-də müvafiq hüquqi tənzimlənməsi tələb olunan ictimai münasibətləri xarakterizə edən qanunauyğunluqlar (cinayətin törədilməsi ilə bağlı onun səbəbi və aşkar edilməsinin zəruriliyi üzrə);

2. Hüquq-mühafizə orqanları və xüsusi xidmətlərinin ƏAF-nin, o cümlədən ƏAT-nin təşkili, taktikası və metodikasının qanunauyğunluqları.

Beləliklə, bu kurs çərçivəsində ƏAF-nin mahiyyəti əhatə edən cinayətin törədilməsi ilə bağlı yaranan və onun konspirativ aşkarlanmasının zəruriliyi ilə bağlı ƏAF-də yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsi, bu növ hüquqi fəaliyyətin təşkili, ƏAT-nin həyata keçirilmə taktikası ilə bağlı məsələlər təşkil edir.

**Əməliyyat-axtarış fəaliyyəti" kursunun sistemi.** Tədris kursunun predmeti onun məzmununu nəzərdə tutur bu isə öz növbəsində onun sistemli ifadə edilməsini tələb edir və nəticədə yeni hüquq fənninin daha dərindən müəyyənləşdirilməsi təmin olunur (mülki ali təhsil müəssisələri üçün). Tədris kursuna ƏAF-nin məzmunu və xarakterinin elmi təhlili, onun inkişaf tarixi, əməliyyat-axtarış qanunvericiliyinin normativ göstərişləri, xarici dövlətlərdə bu fəaliyyətin, o cümlədən qeyri-aşkar (məxfi) işin hüquqi nizamlanması təcrübəsi ilə bağlı mövzular və s. daxildir. MDB-yə daxil olan ölkələrdə, o cümlədən, RF-də bu fənnə aid proqramda onun strukturu verilir və elmi, pedaqoji ictimaiyyətin müzakirəsinə təqdim olunur.

Yuxarıda qeyd edilən bir sıra dövlətlərin tədris ocaqlarında "Əməliyyat-axtarış fəaliyyəti" əsas tədris kursundan əlavə ali məktəblərin buraxılış kurslarında xüsusiləşdirilmiş (fakultativ) kursların öyrənilməsi nəzərdə tutulmuşdur. Bu kursların məqsədi ƏAF-nin müxtəlif istiqamətlərinə, onun digər tədris fənləri ilə əlaqəsinə dair dərin və geniş biliklər verməkdən ibarətdir.

**Bu kursun (fənnin) tədrisi ilə bağlı proqrama daxil olan mövzuların öyrənilməsi aşağıdakı istiqamətdə ilkin biliklərin əldə edilməsinə imkan verir:**

- ƏAF anlayışı; onun tarixi, əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi; ƏAF sahəsində münasibətləri tənzimləyən qanunvericilik; ƏAF-ni həyata keçirən ƏAF subyektlərinin hüquqi vəziyyəti, onların vəzifə, hüquqları və məsuliyyəti; ƏAF prosesində qəbul edilən qərar və hərəkətlərin qanunvericilikdə nizamlanması; cinayət

mühakimə icraatının əməliyyat-axtarış təminatı; ƏAF-yə nəzarəti; ƏAF-nin təşkili; onun informasiya, maddi-texniki, maliyyə, psixoloji və s. təminatı.

Bütün bunların nəticəsində əldə olunmuş biliklər tələbələrə (dinləyicilərə) ƏAF-nin digər hüquqi dövlət fəaliyyəti növləri içərisində yerini və rolunu, onda əhatə edilən hüquqi münasibətlərin antikriminal silsiləsindən olan müvafiq hüquq sahələrinin normaları ilə nizamlanmasını daha yaxşı mənimsəməyə və dərk etməyə xidmət edir. Bu isə öz növbəsində onlara gələcəkdə işlədiyi, xidmət etdiyi sahədən asılı olaraq onların əməli işində mənimsədikləri bilikləri bu və ya digər dərəcədə səmərəli istifadə etməyə kömək edəcəkdir.

"Əməliyyat-axtarış fəaliyyəti" açıq tədris kursu, açıq qanunvericilik aktları və digər normativ aktlara, tədris materiallarına və bu fəaliyyət sahəsində təcrübəyə əsaslanıb ali təhsil ocaqlarının hüquq fakültələrində tədris üçün nəzərdə tutulmuşdur.

Bu kursun (fənnin) tədrisinin aktuallığı ondan ibarətdir ki, mülki ali tədris müəssisələrinin hüquq fakültələrini bitirmiş məzunlar hüquq-mühafizə orqanları və xüsusi xidmətlərdə işləyərkən qısa müddətdə öz vəzifələrini dövrün tələbləri səviyyəsində müvəffəqiyyətlə icra etsinlər. Tədrisin aktuallığını şərtləndirən amillərdən biri də odur ki, "ƏAF haqqında" Qanun qəbul olunub və bununla bağlı ƏAF-nin hüquqi tənzimlənməsi ilə bağlı xüsusi ali təhsil ocaqlarında (DİN, DTX, FHN və s.) məxfilik dərəcəsinə malik olan bir sıra tədris və tədris-metodiki materiallar öz əhəmiyyətini qismən itirmişdir, həmçinin onların nəzəri-empirik bazasını təşkil edən hüquq yaradıcılığının pərakəndəliyi və keçmiş SSRİ qanunları ləğv edilmişdir. Zənnimizcə, bu fənnin tədrisinin zəruriliyini əsaslandıran ən mühüm amillərdən biri müstəqil, demokratik, hüquqi, sivil dövlət quruculuğunun bərqərar olunmasını təsdiq edən insan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının, aşkarlıq və plüralizmin prinsiplərinin təmin edilməsidir.

Vahid ƏAF elminin bir istiqaməti və tərkib hissəsi olan ƏAF-nin müxtəlif subyektlərinin bilavasitə fəaliyyəti ilə əlaqəli olan ƏAF tədris kursunun predmeti, vəzifələri və sisteminin oyrənilməsi də çox vacib və önəmlidir.

Bununla əlaqədər olaraq dərslikdə DİO-nun əməliyyat-axtarış fəaliyyəti kursunun predmeti, vəzifələri və sisteminə dair bir sıra biliklərin əhatə olunması məqsədə uyğun sayılır.

"Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti" kursunun fundamentini, özəyini, Sözsüz ki, ümumi əməliyyat-axtarış nəzəriyyəsi təşkil edir. Lakin DİO-nun

qanunvericiliklə müəyyən olunmuş vəzifələri, onların icra edilməsi ilə bağlı səlahiyyətləri, tarixi inkişaf prosesində empirik materialların toplanması, tətbiq olunması və onların ümumiləşdirilmiş elmi əsaslarının bir sıra xüsusiyyətləri, o cümlədən ƏAF və dövlət sirri sahəsində qanunvericiliklə bu fəaliyyətin bəzi təşkilati və taktiki aspektlərinin xidməti və dövlət sirlərinə aid edilməsinin zəruriliyi bu kursun müəyyən hissəsinin açıq verilməsini qadağan edir və həmin hissəyə aid mövzuların xüsusi tədris ocaqlarında daha geniş və dərindən öyrənilməsini şərtləndirir.

"Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti" tədris kursunun məzmunu öz əsaslarına görə onun predmeti, vəzifələri və sistemi ilə müəyyən edilir.

Bu kursun predmetini DİO-nun cinayətkarlığa qarşı mübarizədə xüsüsi qüvvə, vasitə, metod və formaların tətbiqi prosesində mövcud olan qanunauyğunluqlar təşkil edir. Şübhəsiz ki, onlar öyrənilib tədqiq edilməli və ümumiləşdirilməlidir. Bir sözlə, bu ümumiləşdirmələr təcrübədən, empirik materiallardan irəli gələrək hissəvi də olsa, qanunvericilik bazasına, mənəvi normalara və insana, cəmiyyətə xidmət edən irsi təcrübəyə əsaslanmalıdır. Onlara dair sistemləşdirilmiş biliklər DİO-nun əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyəsini təşkil edir.

Qeyd etdiyimiz kimi bu tədris kursu elmi biliklərlə yanaşı, təcrübi bilikləri də özündə ehtiva edir və öyrədilən şəxslərə xidməti fəaliyyəti üçün zəruri olan vərdiş və bacarığı əldə etməyə imkan yaradır. Məhz ona görə ümumi halda belə də demək olar ki, kursun predmetini əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsi və təcrübəsi təşkil edir. Lakin son zamanlar aparılan tədqiqatların nəticəsi, cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının beynəlxalq standartlarının təminatı və aşkarlıq, qanunçuluq, humanistlik prinsiplərinin ən yüksək amil kimi nəzərdə tutulması və sivil, demokratik, dünyəvi, müstəqil dövlətçiliyin əsas, həlledici meyarı kimi sayılması və bu qeyd edilənlərdən irəli gələrək "ƏAF haqqında" qanunvericiliyin təməlinin qoyulması əməliyyat-axtarış hüququnun, əməliyyat- axtarış prosesinin formalaşması, inkişafının vacibliyini şərtləndirir. Eyni zamanda hal-hazırda əməliyyat-axtarış prosesi və əməliyyat-axtarış fəaliyyəti arasında əlaqələr ilə bağlı mübahisəli məsələlər meydana çıxır, bu isə, öz növbəsində, bu fəaliyyətin açıq və gizli hissələrinin mövcudluğu və zəruriliyini bu fəaliyyət sahəsində daha dərin, geniş, çoxistiqamətli tədqiqatların aparılmasının zəruriliyini təsdiq edir.

**ƏAF sahəsində öz fundamental elmi-nəzəri işlərilə tanınmış bir çox məşhur alimlər bu kursun predmetini şərti olaraq 4 qrupa bölürlər:**

**1. Əməliyyat-axtarış məlumatlarının aşkar edilib əldə edilməsi, yoxlanılması və qeydə alınmasına aid qanunauyğunluqlar.** Dərketmə nəzəriyyəsinin ümumi əsaslarına istinad edərək əməliyyat-axtarış fəaliyyətinə cinayətkarın ƏAO əməkdaşlarının "rəqibi", onlara qarşı duran tərəfin hərəkət və davranışının öyrənilməsi kimi baxmaq lazımdır. Bu halda "rəqib" kimi artıq cinayət törətmiş şəxslərlə yanaşı, elə şəxslər də nəzərdə tutulur ki, onların cinayətlər törədə biləcəyini gözləmək olar. Bu sonunculara cinayət niyyəti olanları, cinayəti hazırlayan və törədən, öz cinayət əməllərini gizlətməyə, pərdələməyə cəhd edən şəxsləri, təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən təqsirli şəxsləri, cəzaçəkmə müəssisələrindən qaçan məhbusları və s. aid etmək olar. Burada ƏAF nəzəriyyəsi "rəqibin" və onun davranışının öyrənilməsi probleminə qeyri-aşkar xarakterli tədbirlərin həyata keçirilməsi nöqteyi-nəzərindən yanaşır.

Bu qrup qanunauyğunluqlar həmçinin cinayətkarlığa qarşı mübarizənin müvəffəqiyyətlə aparılmasını təmin edən əməliyyat – axtarış məlumatlarının əldə olunması, yoxlanması və qeydə alınmasında çox mühüm amil olan cinayətin gizli törədilməsi ilə onun qeyri-aşkar üsullarla dərk edilməsi arasında olan əlaqə ilə bağlıdır. Cinayətin gizli hazırlanması və törədilməsi, cinayət yolu ilə əldə olunan əşya, predmetlərin gizli qaydada xırıd edilməsi (satılması), axtarılan təqsirli şəxslərin müəyyən vaxt qeyri-leqal vəziyyətdə qalması yalnız bu hallara məxsus öz izlərinə malik olması ilə xarakterizə olunur. Bu izlər əsas etibarılə daha çox hallarda ƏAF-nin sərəncamında olan qüvvə, vasitə və formalarından istifadə etməklə onun metodlarının köməyi ilə aşkar edilir. Burada az əhəmiyyətə malik olmayan, bir tərəfdən cinayətin törədilmə üsulu, onun gizlədilməsi və şübhəli olan şəxsin davranışı ilə, digər tərəfdən, onun haqqında informasiyanın aşkar edilməsi, yoxlanması və qeydə alınması üçün əməliyyat-axtarış qüvvə, vasitə, metod və formaların tətbiq edilməsi taktikası arasında bilavasitə əlaqə vardır.

Yaxşı məlumdur ki, cinayətin törədilmə üsulu və onun gizlədilməsi ətraf mühitə təsir edərək onda müəyyən izlər qoyur. Cinayətlərin xarakteri və baş verdiyi yerdən asılı olaraq onların aşkar edilməsi məqsədilə ƏAF-də bu cinayətlərlə bağlı izlərin aşkar edilməsi, möhkəmləndirilməsi, saxlanması üçün müvafiq qüvvə, vasitə və metodlar seçilir. Qeyd edilən qanunauyğunluqlar ƏAF-nin əsasən dərkedilmə mahiyyətini xarakterizə edir, onun nəzəriyyəsi və tədris kursunun predmetinin çox mühüm hissəsini təşkil edir.

**2. Əməliyyat-axtarış məlumatlarının daxili işlər orqanlarının fəaliyyətində istifadə edilməsinə aid olan qanunauyğunluqlar.** Bu qanunauyğunluqlar cinayətlərin qarşısının alınması, açılması, gizlənən cinayətkarların, xəbərsiz itkin düşən şəxslərin axtarışı, məhkum olunanlar tərəfindən cinayətlərin residivinə, təkrar cinayətlərə yol verilməməsi və digər vəzifələrin həlli ilə bağlı konkret tədbirlərin məzmununu müəyyən edir. Bu tədbirlərin həyata keçirilməsi əldə olunmuş müvafiq əməliyyat-axtarış məlumatlarının istifadə edilməsi nəticəsində təmin olunur.

Burada yoxlanılan və tədqiq olunan şəxslərin müəyyən hərəkətlərə yol verməsi məqsədilə (məsələn, cinayət niyyətindən əl çəkməsi və yaxud öz cinayət əməllərini etiraf etməyə sövq etdirmək və s.) onlara psixoloji təsiretməyə dair qanunauyğunluqlar çox mühüm əhəmiyyətə malikdir. Məhz bunların öyrənilməsi elə tövsiyələrin hazırlanmasına imkan verir ki, onlardan istifadə etməklə əldə olunmuş əməliyyat-axtarış məlumatları əsasında "rəqibin" (yoxlanılan, tədqiq olunan şəxs) mövqeyində olan zəif hissələr (amillər) müəyyən edilir və buna müvafiq təsirli fənd və üsullar araşdırılır, onların mövqelərini zəifətmək, qırmaq mümkün olur. Qeyd etdiyimiz qrupa elə qanunauyğunluqlar da aid olunur ki, onlar təqsirli şəxslərə qanunla nəzərdə tutulan aşkar tədbirlər tətbiq edilməsi üçün (xüsusilə də ibtidai istintaq prosesində) əməliyyat-axtarış məlumatlarının istifadə olunması taktikasını müəyyən edir.

**Onlardan çox vacib sayılanlara aşağıdakıları aid etmək olar:**

– əldə olunan məlumatlardan elə istifadə etmək lazımdır ki, onların alındığı mənbələr aşkarlanmasın;

– bu mənbələrin şifrələnməsi məqsədilə əməliyyat-taktiki vəzifələrin həlli üsullarından istifadə etmək;

– aşkar istifadə olunan materiallara verilən müvafiq cinayət-prosessual qanunvericiliyinin tələblərini nəzərə almaqla belə məlumatların lazımi sənədlərlə rəsmiləşdirilməsi və s.

Bu qanunauyğunluqların dərk edilməsi əməliyyat-axtarış məlumatları əsasında prosessual sübutların əldə olunma fəndlərini müəyyən etməyə və onların rəsmləşdirilməsinə imkan verir. Nəticədə isə məlumatların əldə edilməsi mənbəyinin gizli saxlanılması şərtilə onların realizə olunması təmin edilir.

Cinayətlərin hazırlanması və törədilməsi, cinayət yolu ilə əldə olunmuş predmet, əşyaların realizəsinə (xırıd edilməsi, satılması) aid olan qanunauyğunluqları bilməklə cinayətlərin qarşısının alınmasının səmərəli yollarını müəyyənləşdirməyə, təqsirli

şəxslərin tutulması və onlarda olan maddi sübutların aşkarlanıb götürülməsinin müvafiq üsul və fəndlərinin işlənib hazırlanmasına nail olunur.

Bu qrup qanunauyğunluqlar DİO-nun əməliyyat-axtarış fəaliyyətinin əməli fəaliyyət tərəfini xarakterizə edir.

**3. HMO-nun, o cümlədən DİO-nun əməliyyat-axtarış fəaliyyətinin təşkilinə dair qanunauyğunluqlar.** Bu qanunauyğunluqlar ƏAF-nin müxtəlif təşkilati-idarəçilik və əməliyyat-taktiki idarəçilik səviyyələrində (ŞRPİ, BPİ, DİN və s.) mühüm rol oynayır.

***Qeyd edilən qanunauyğunluqlardan aşağıdakı istiqamətdə müəyyən edilənlər ən vacibləri kimi sayılır:***

– yaranmış əməliyyat-taktiki vəzifənin əsas istiqamətlərinin;

– belə vəzifələrin həllinə cəlb edilən hər bir iştirakçı tərəfindən zəruri məlumatların alınmasının;

– həyata keçirilən və digər tədbirlərin kifayət dərəcədə maddi-texniki təminatının və s.

Bu qanunauyğunluqların dərk edilməsi DİO-nun əməliyyat işçilərinin, onlarla məxfi əməkdaşlıq edən şəxslərin seçilib yerləşdirilməsi, onların ixtisaslaşması, peşə hazırlığı və ustalığının təkmilləşdirilməsi, cinayətkarlığa qarşı mübarizədə onların fəaliyyətinə köməklik göstərilməsi və nəzarət edilməsinə imkan verir.

Bu qanunauyğunluqların öyrənilməsi konfidensial fəaliyyətə müvafiq olan əməkdaşlara verilən tələbləri işləyib hazırlamağa, onların öyrənilməsi, tərbiyə olunması, fəndlərini tətbiq etməyə və HMO-nun, o cümlədən DİO qarşısında qanunvericiliklə müəyyən olunmuş vəzifələrin (Azərbaycan Respublikasının CPM, "Polis haqqında" və "ƏAF haqqında" qanunlar və s.) səmərəli həll edilməsinə imkan verir.

Bu qrup qanunauyğunluqlar DİO-nun əməliyyat aparatlarının texniki və digər maddi təminat səviyyəsini və ümumilikdə ƏAF-nin təşkilati təminatını müəyyən edir. Buraya, əməliyyat işçisinin (müvəkkilin) xidməti təhkim olunmuş ərazidə və yaxud müəyyən xətt üzrə (axtarış işi, mülkiyyət əleyhinə olan cinayətlərə qarşı mübarizə və s.) fəaliyyətinin təşkili, həmçinin əməliyyat aparatlarının onların üzərinə düşən bütün funksiyalarının icrası ilə bağlı fəaliyyətinə aid qanunauyğunluqlar da daxildir.

Bu hissədə göstərilən qrup qanunauyğunluqlarının bir qismi əhatə edilmişdir.

**4. Hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının ƏAF-nin hüquqi tənzimlənməsinin qanunauyğunluqları.** ƏAF sahəsindəki ictimai münasibətlərin

XX əsrin sonunda qanunla tənzimlənməsini müstəqillik əldə etmiş dövlətimizin hüquqi fəaliyyəti sahəsində siyasətinin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır. 28 oktyabr 1999-cu ildə ilk dəfə olaraq "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun qəbul edildi. Bu qanun qəbul ediləndək uzun illər bu fəaliyyət sahəsində münasibətlər qanunqüvvəli, əsas etibarılə idarədaxili normativ aktlarla, habelə Cinayət-Prosessual Məcəlləsində, keçmiş SSRİ Nazirlər Sovetinin 1973-cü il tarixli "SSRİ Milisi haqqında Əsasnamə"si və SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 08.06.1973-cü il tarixli "Sovet milisinin əsas hüquq və vəzifələri haqqında" Fərmanında öz əksini tapmış bir sıra ümumi səciyyə daşıyan hüquq və vəzifələrlə bağlı normalarla tənzimlənirdi..

Lakin hüquqi, dünyəvi, sivil və digər demokratik təssisatları, insan hüquq və azadlıqları ali məqsəd kimi rəhbər tutulan hüquqi dövlət quruculuğunda ƏAF-nin hüquqi tənzimlənməsi, onun qanunauyğunluqlarının öyrənilib tədqiq olunması bir zəruriyyətə çevrildi. **Məhz bu qanunauyğunluqlar aşağıdakıları müəyyən edir:**

– ƏAF-də hüquqi nizamlamanın predmetini;

– bu fəaliyyəti ümumilikdə və onun müxtəlif istiqamətlərini tənzimləyən normalar sistemini.

Bu qrup qanunauyğunluqların nəzəriyyə və təcrübədə dərk edilməsi yaradıcı xarakter daşıyır və dərketmə obyektinə əks-təsir göstərir. Bu isə öz növbəsində, yeni qanunauyğunluqların aşkarlanmasına, məlum olan qanunauyğunluqların dəqiqləşdirilməsinə və nəticədə bu kursun predmetinin də konkretləşdirilməsi və dəqiqləşdirilməsinə gətirib çıxarır.

Bu kursun tam həcmdə işlənməsi və hazırlanması prosesində ƏAT-nin köməyi ilə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, təkmilləşdirilməsi, səmərəliyinin artırılması məqsədilə empirik biliklər əsasında (bazasında) elmi və təcrübi (praktiki) səciyyəli tövsiyələr hazırlanır və tətbiq olunur. Buna isə əməliyyat-axtarış işi sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması nəticəsində nail olmaq olar.

**Bu qeyd etdiyimiz 4 qrup qanunauyğunluqların müəyyən etdiyi tədbirlərin, istiqamətlərin məzmun və mahiyyəti daha genişdir.**

**Bir sıra alimlər, o cümlədən V.İ.Yelinski öz monoqrafik elmi-nəzəri işində bu qrup qanunauyğunluğu müvafiq olaraq aşağıdakı qaydada təsnif etmişdir:**

1. ƏAF-nin mahiyyətinin dərk edilməsinə aid olan qanunauyğunluqlar;

2. Cinayətkarlığa qarşı mübarizə ilə bağlı vəzifələrin həllinə aid olan qanunauyğunluqlar (məsələn, cinayətin gizli törədilməsinə kömək edən səbəb və şəraitin əməliyyat-axtarış yolu ilə aşkarlanması);

3. ƏAF-nin təşkilinə aid olan qanunauyğunluqlar (məsələn, konkret kriminal və ya kriminoloji hadisə ilə bağlı əməliyyat-axtarış şəraitinin (vəziyyətinin) öyrənilməsi; həyata keçirilən tədbirlərin, o cümlədən ƏAT-nin kifayət dərəcədə maddi-texniki təminatı və s.)

***Professor V.M.Atmajitovun araşdırmalarına söykənərək əvvəldə qeyd edilən qanunauyğunluqlar yuxarıda göstərilənlərdən yalnız öz adlarına görə (məzmun etibarılə yox) bir qədər fərqlənməsinə baxmayaraq, mahiyyət etibarılə oxşardırlar.***

Bu qanunauyğunluqların təsdiq edilməsi ƏAF elminin digər elmlər, tədris fənləri arasında öz yerinə malik olmasını şərtləndirir.

# V FƏSIL
# Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin elmlər, tədris fənləri sistemində yeri

## § 1. Dövlət və hüquq nəzəriyyəsi, kriminalistika və əməliyyat-axtarış fəaliyyəti

**a) Dövlət və hüquq nəzəriyyəsi və əməliyyat-axtarış fəaliyyəti.** Dövlət və hüquq nəzəriyyəsi (elmi, tədris kursu-burada və sonrakı müvafiq başlıqlarda adı çəkilən elmlər dedikdə, tədris fənni və ya nəzəriyyəsi də nəzərdə tutulur) bütün hüquq elmlərində olduğu kimi, əməliyyat-axtarış fəaliyyəti üçün də metodoloji əhəmiyyətə malikdir. Dövlət və hüquq nəzəriyyəsi ictimai həyatın dövlət və hüquq hadisələrini öyrənən elmdir. Bildiyimiz kimi bu elm hüquqi elmdir, dövlət və hüququn inkişafının ümumi qanunauyğunluqlarını öyrənir. Dövlət və hüquq nəzəriyyəsi eyni zamanda "xidmətedici elmdir", çünki o, dövlət və hüquq haqqında ilkin anlayışları formalaşdırmaqla sahəvi elmlərin (sahəvi hüquq elmlərinin) elmi anlayışlar aparatının, onların öz nəzəriyyələrinin formalaşması üçün zəruri ümumnəzəri baza ilə təmin edir. Bu fikirləri xüsusi hüquq elmlərinə (kriminalistika, əməliyyat-axtarış fəaliyyəti, hüquq psixologiyası, məhkəmə psixiatriyası, məhkəmə mühasibatı və s.) şamil etmək olar. Dövlət və hüquq, dövlət və hüququn funksiyaları, hüquq mənbələri, hüquq normaları, hüquq düşüncəsi, hüquqi münasibətlər, hüquqi prinsiplər, normativ-hüquqi aktlar, hüququn realizə formaları, hüquq normalarının sistemləşdirilməsi və onların təfsiri, hüquqauyğun davranış, hüquq pozuntuları və hüquq məsuliyyəti, ictimai münasibətlərin hüquqi nizamasalma mexanizmi, qanunçuluq və hüquq qaydası istər sahəvi, istərsə də xüsusi hüquqi elmlərin özəyini təşkil edir.

**b) Əməliyyat-axtarış fəaliyyəti və kriminalistika elmləri**. ƏAF nəzəriyyəsi və kriminalistika öz nəzəri və təcrübi (praktik) məzmunlarına görə daha yaxın hüquq elmləridir. Onlar vahid öyrənmə obyektinə malikdirlər. Bu obyektlərə müxtəlif növ cinayətkar fəaliyyət və onların aşkar edilib açılması, həmçinin tədqiqatı, istintaqı ilə bağlı fəaliyyət daxildir. Onların inkişaf tarixi, istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin keçirilməsi taktikası və metodikasında da çoxlu sayda ümumilik və uzlaşmalar var. Bu da təsadüfi deyil, belə ki, ƏAF-nin bir çox elmi müddəaları, me-

tod və fəndləri kriminalistika elmi çərçivəsində formalaşmışdır. Məhz buna görə də buna müvafiq olaraq kriminalistika elminin bir sıra müddəaları və tövsiyələri qeyd edilən elmin (tədris fənninin) əsaslarına daxil olmuşdur.

ƏAF-nin istintaqdan daha qədim olmasına baxmayaraq, faktiki olaraq onun olmadığını demək olardı, belə ki, onun istintaqdan fərqli olaraq nəzəri-metodiki bazası yox idi. Lakin istintaqın nəzəri əsasları həmin dövr üçün işlənib hazırlanmışdı. Yalnız kriminalistikanın yaranmasından sonra, onun bilikləri nəinki özünün, habelə ƏAF-nin məxfi sahəsinə dair taktikimetodiki və texniki arsenalının, həmçinin müəyyən nəzəri əsaslarının formalaşması üçün istifadə edilməsinə imkan verdi.

Sonradan keçmiş SSRİ dövründə kriminalistikanın nəzəri və təcrübi bazasında ƏAF nəzəriyyəsi və təcrübəsi inkişaf etmişdir. XX əsrin əvvəllərində istər SSRİ dövründəki, istərsə də xarici dövlətlərin kriminalistika elmlərində bu elmin tövsiyələrinin ***2 sahədə - prosessual (təhqiqat və istintaq) və qeyri-prosessual (ƏAF) sahələrdə tətbiq edilməsi haqqında fikirlər, təsəvvürlər formalaşmışdır.***

Məhz ona görə də onun bəzi tövsiyələri ikili standart xarakter daşıyırdı.

Qeyd edilənləri qanunauyğun saymaq olardı, belə ki, o zaman kriminalistika elmi artıq sabit və müstəqil status almışdı və çox dəqiq inkişaf perspektivliyinə malik idi. O, həmçinin istintaq mədəniyyətinə dair bir elm kimi qiymətləndirildi və axtarış işinin məharətlə aparılması onun bir hissəsi kimi sayıldığından ƏAF-ni nəzəri və təcrübi (praktiki) biliklərlə bağlı olaraq, sadəcə, təchiz etməyə borclu idi. Artıq kriminalistika elminin yaranmasından sonra ƏAF-də istifadə olunan xüsusilə xarici dövlətlərin kriminalistləri tərəfindən çoxlu sayda işləmələr hazırlanmışdır. Hətta onların yaradıcısı olan kriminalistikanın başlanğıcının əsasını qoyan Hans Qross öz elmi işində kriminalistik biliklərin nəinki polis əməkdaşlarının axtarış fəaliyyəti üçün əhəmiyyətini qeyd etmiş, həmçinin əsas diqqətini istintaq xarakterli yox, yüksək dərəcədə əməliyyat-axtarış xarakterli məsələlərin baxılmasına yönəltmişdir. Onların arasında cinayətkarların müxtəlif kriminal fəndləri (cinayət əməllərinin maskalanması və s.) və onların aşkar edilmə, o cümlədən gizli üsulları, cinayətkarların dilinə dair cinayət aləmində işlədilən **"jarqon"** (jarqon fransız mənşəli söz olub, hər hansı bir qeyri-rəsmi hesab edilən ictimai qrupun, birləşmənin üzvlərinin ünsiyyət dili olub, ümumi qəbul edilmiş dildən məzmun etibarı ilə əsasən tam fərqlənən, kənar şəxslərə məlum olmayan sözlərin, ifadələrin işlədilməsi mənasını daşıyır) sözləri, ifadələri və s. ibarət, şifrələnmiş məktubların oxunması, oğurluqların və dələduzluqların tö-

rədilmə üsullarına dair və s. sualları, məsələləri qeyd etmək olar. **ƏAF-nin taktiki-metodiki və texniki arsenalının genişlənib zənginləşməsində çox mühüm əməyi olan Avropa kriminalistləri A.Veynqard, R.Geyndl, Q.Şneykert və başqalarını misal göstərmək olar. Qeyd edilən müəlliflərin əksəriyyətinin xeyli işləri bilavasitə əməliyyat aparatlarının əməkdaşlarına ünvanlanmışdır. Bu işlərdə onlar kriminalistik taktika və texnikanın metod və fəndlərinə dair biliklərin axtarış işində necə istifadə edildiyini (qaydalarını) göstərmişlər.**

Bu arsenalın formalaşmasında birinci rus kriminalistləri İ.N.Yakimovun, S.M.Potapovun, P.S.Semenovskinin, V.N.Qromovun və başqalarının əməyi az olmamışdır. Xarici kriminalistlərin təsirinə düşərək belə fikirlər söylənilirdi ki, kriminalistik məlumatların tətbiqinin aşkar və gizli formaları mövcuddur və gizli axtarış, cinayətlərin açılması və istintaqı ilə bağlı vahid fəaliyyətin hissəsidir. *Məsələn, İ.N.Yakimov özünün "Современное розыскное дело" (1926) adlı elmi əsərində əməliyyatçıların diqqətini kriminal mühitin, müxtəlif növ cinayətkarların, onların ənənələri və mənəviyyatının, cinayətkar peşələrə dair biliklərin öyrənilməsinin zəruriliyinə yönəldir. O, "Практическое руководство к расследованию преступлений" (1924) adlı əsərində əməliyyatçının və ya əməliyyat müvəkkilinin hansı keyfiyyətlərə malik olmasını və onların əməliyyat-axtarış məharəti, ustalığının (o, incəsənət adlandırırdı) dərk olunmasında vacibliyini qeyd edirdi. Bununla yanaşı, o, hesab edirdi ki, "...agentin peşəsi "incəsənət peşəsindən" başqa bir iş deyil və nəinki həyat təcrübəsinə, həm də xüsusi biliklərə əsaslanmalıdır". Onun "Kriminalistika: cinayət taktikası" adlı əsərini nəinki kriminalistika, həm də ƏAF-yə dair ilk dərsliklərdən biri kimi saymaq olar. Bu elmi əsərdə o, öz dövrünə aid olan cinayətkarların xarakteristikasını, cinayət törətməzdən əvvəl və sonra onların gizli münasibətlərini, ünsiyyətini və davranışına dair məlumatları qeyd edir.*

**Kriminalistikaya dair dərslikdə (1980-ci il) öz mülahizələrini A.N.Vasilyev belə izah etmişdir: "əvvəllər cinayətlərin istintaqında istifadə edilən əməliyyat-axtarış hərəkətlərinin kriminalistika ilə əhatə edilməsi fikirlərinin mövcud olmasını əsas etibarilə onunla izah etmək olar ki, bütün əməliyyat-axtarış hərəkətlərini birləşdirən xüsusi fənn (elm) formalaşma prosesində idi və onun elmlər sistemində öz yerini alması ilə əlaqədar olaraq yuxarıda qeyd edilən baxış, fikir-**

**lər (nöqteyi-nəzər) də dəyişmişdir”.**

***A.N.Vinberq əvvəllər ƏAF-nin fəndlərini kriminalistikanın predmetinə aid etməsi ilə bağlı mülahizələrinə baxmayaraq 1959-cu ildə[2] ilk dəfə DİO-nun ƏAF-ni öyrənən xüsusi elmin (nəzəriyyənin) mövcud olması barədə baxışları, fikirləri qəbul etdi.***

**Sonradan R.S.Belkin də öz növbəsində köhnə fikir və baxışlarından imtina etdi və ƏAF elminin tanındığını etiraf edərək öz baxışlarının belə dəyişməsini konkret elmi əsaslarla şərtləndirdi. Onun fikrincə, ƏAF nəzəriyyəsinin bütün bölmələrinin intensiv işlənməsi nəinki həmin nəzəriyyənin təməlini qoydu, həmçinin bu elmin müstəqil predmetinin işlənib hazırlanmasının zəruriliyini, onun kriminalistika elmi ilə sıx əlaqəli olan, lakin onun predmetindən fərqli olduğunu əsaslandırırdı.**

Sonrakı elmi tədqiqatların fundamental xarakterli nəticələri, onların əməliyyat-axtarış təcrübəsində müvəffəqiyyətlə tətbiq edilməsi bu fəaliyyətin nəzəriyyəsinin əsaslarının yaranmasına kömək etməklə yanaşı onun öz predmetinin olmasının və müstəqil bir elm kimi öyrənilməsinin zəruriliyini dialektik elmi nöqteyi-nəzərdən birmənalı qaydada təsdiq edilməsinə imkan verdi. **Bütün bunların nəticəsində ƏAF nəzəriyyəsinin reallığı bir obyektiv faktora çevrildi.**

Bununla yanaşı o, qeyd edirdi ki, əməliyyatçılar cinayət-prosessual hüququ və taktiki hərəkətlər sahəsində nəyi bilməlidir. Eyni zamanda o, qeyd edirdi ki, axtarış işi üçün hansı yardımçı vasitələr (o cümlədən xarici görkəmini qrimləmə, qamətin və s. dəyişməsi, cinayətlərin törədilməsində şübhəli olan şəxslərin kriminalistik təsviri və s.) əməliyyatçılara lazımdır və onlar cinayətlərin xəbərdarlığı və qarşısının alınması üçün necə hərəkət etməlidirlər. Ayrı-ayrı hərəkətlərin keçirilməsinin taktiki xarakterli tövsiyələri nəinki istintaq, həm də əməliyyat-axtarış səciyyəsi xarakteri daşıyırdı. O, işin bu hissəsini "Тактика следственно-розыскных действий" adlanırdı.

***S.M.Potapov tərəfindən detektiv foto və kino çəkilişinin fəndləri işlənmiş və belə fotoaparatlar üçün verilən tələblərə dair tövsiyələr hazırlanmışdır.***

Əgər İ.N.Yasinov və V.M.Qromov öz işləri ilə ƏAF-nin taktiki-metodiki arsenalının formalaşmasına köməklik göstərmişlərsə, onda L.S.Semyonovski və S.M.Potapov onun texniki təchizatına kömək etmişlər.

Kriminalistlərin sonrakı nəslinin (V.M.Potapov, R.S.Belkin, N.F.Qerasimov, A.N.Vasilyev və s.) işləri ƏAF-nin və kriminalistikanın qeyri-aşkar hissəsinin tak-

tiki-metodiki və texniki əsaslarının təkmilləşdirilməsi məsələlərinin işlənməsinə yönəldilmişdir.

Müasir dövrün əksər kriminalistləri (A.N.Vasilyev, A.İ.Vinberq, R.S.Belkin və s.) əvvəldən ƏAF və onun nəzəriyyəsini kriminalistikanın bir hissəsi sayırdılar (belə fikirlər onların elmi işlərində də öz əksini tapmışdır).

***80-ci illərdən başlayaraq onların böyük hissəsi ƏAF nəzəriyyəsinin bir xüsusi hüquq elmi kimi müstəqilliyə malik olduğunu etiraf etməyə başladı.***

***A.N.Vasilyev 1980-ci il tarixli "Kriminalistika" dərsliyində belə təsdiqləyici qəti fikirlər söyləyir ki, "cinayətlərin xəbərdarlığı, aşkar olunması və qarşısının alınması üçün istifadə edilən əməliyyat-axtarış hərəkətləri (istintaqaqədərki dövr, həm də təhqiqat və istintaq prosesində) xüsusi fənnin tərkib hissəsini təşkil edir".***

Müasir dövrdə bu fikirlərin reallığı aparılmış çoxsaylı nəzəri məsələlər üzrə mühüm, ciddi, yeni monoqrafik tədqiqatların nəticələri ilə təsdiq olunur. Bu qeyd edilənlər yekunda ƏAF nəzəriyyəsinin kriminalistikadan fərqli olan müstəqil cinayət-hüquqi silsiləyə aid xüsusi hüquqi bir elm kimi mövcudluğuna dair fikir və baxışların, demək olar ki, bütün kriminalistlər tərəfindən qəbul edilməsinə gətirdi.

Həqiqətən də, kriminalistikanın vacib bir əsas kimi ƏAF nəzəriyyəsinin vəzifələrinə onun mahiyyəti, strukturu və bir çox taktiki-metodiki tövsiyələrinə təsiri çox böyükdür. Hələ ƏAF nəzəriyyəsinin obyekt və predmetinin müəyyən edilməsində bu məsələ üzrə kriminalistika elmində olan baxışların təsiri özünü göstərir. Belə ki, ƏAF nəzəriyyəsinin ümumi obyekti qismində, faktiki olaraq, kriminalistika elmində olduğu kimi cinayətkar fəaliyyəti müəyyən sosial hadisə (təzahür) kimi sayırlar və ƏAF-ni cinayətkarlığa qarşı mübarizədə ictimai praktikanın bir növünə aid edirlər. ƏAF nəzəriyyəsinin predmetinə isə onun tədqiqat obyekti üçün xarakterik olan qanunauyğunluqları, münasibətləri, əlaqələri aid edirlər.

ƏAF nəzəriyyəsinin məzmununda da kriminalistikanın təsiri nəzərə çarpır. Belə ki, ƏAF nəzəriyyəsinin əsas vəzifəsi tədqiqat obyektinə xas qanunauyğunluqların aşkar edilməsi və öyrənilməsi, həmçinin cinayətin törədilmə mexanizmində xarakterik olan tipik, təkrarolunma və sabitliyin aşkarlanması və analizindən ibarətdir. Bu qeyd edilənlər kriminalistika nəzəriyyəsinin də vacib vəzifəsidir. Ondan əlavə qeyd etmək lazımdır ki, kriminalistik informasiyaya malik olmadan cinayətlərin mexanizmi və onların xüsusiyyətlərinə dair biliklər tədqiq oluna bilməz. Ona görə də belə tədqi-

qatları kriminalistlər tərəfindən işlənmiş böyük həcmdə materialları nəzərə almadan həyata keçirmək mümkün deyil.

ƏAF nəzəriyyəsi kriminalistikada olduğu kimi, kriminalistik mühüm informasiya yaranma mexanizminin səbəb-nəticə əlaqələrini, onların axtarışı, prosedur və qaydalarını, qeydə alınması və qiymətləndirilməsi, həmçinin hazırlanan və törədilən cinayətlər, onlara aid olan şəxslərə dair prosessual və əməliyyat-taktiki xarakterli qərarların qəbul edilməsi üçün onlardan faktiki məlumat kimi istifadə edilməsini öyrənir.

ƏAF nəzəriyyəsi əməliyyat-axtarış məlumatları, əməliyyat-axtarış fərziyyələri, əməliyyat kombinasiyaları və taktiki əməliyyatlar haqqında bir təlim kimi nəinki yalnız kriminalistik informasiyanı özünə daxil edir, həm də əsas etibarılə bu elmin ilkin nəzəri əsaslarına söykənir (istinad edir).

Kriminalistika və ƏAF nəzəriyyəsi üçün ümumi olan mənəvi-etik problemlərdir. ƏAF nəzəriyyəsi və kriminalistikanın metodologiyasında da çoxlu ümumiliklər var. Qeyd edilən nəzəriyyə də öz tədqiqatlarında ümumi elmi, fərdi elmi, xüsusi metod və metodika sistemlərindən istifadə edir və onlar birlikdə bu nəzəriyyənin metodoloji funksiyası rolunu oynayırlar.

Əməliyyat taktikası əsasən öz başlanğıcını kriminalistika çərçivəsində formalaşdırmışdır. Həqiqətən də onun müasir hissəsində, xüsusən əməliyyat-axtarış situasiyası (vəziyyəti), əməliyyat-axtarış fərziyyələri, əməliyyat-taktiki proqnozlaşdırma, strateji və taktiki qərarların, işlərin qəbul edilməsi, əməliyyat kombinasiyaları və taktiki əməliyyatlar nəzəriyyəsi ƏAF subyektlərinin prosessual fəaliyyət subyektləri arasında qarşılıqlı hərəkətlərin əməliyyat-taktiki və ümumi formaları kimi məsələlərə baxılır, mühüm dərəcədə kriminalistikanın bu məsələlər üzrə əsas müddəalarına istinad edilir. Bunlar təsadüfi deyil, belə ki, "ƏAF haqqında" Qanunla nəzərdə tutulan əməliyyat-axtarış tədbirləri, xüsusilə də vətəndaşların sorğusu, müqayisəli tədqiq üçün nümunələrin toplanması, əşya və predmetlərin tədqiqi, şəxsiyyətin eyniləşdirilməsi, yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qapalı tikililərə, qurüulara, torpaq sahələrinə daxil olma və baxış keçirmə cinayət-prosessual xarakterə malik deyil, əsas etibarılə kriminalistik taktikanın tövsiyələrindən asılıdır.

Əməliyyat-axtarış metodikası isə kriminalistik təhqiqat metodikasının əsaslarından (müddəalarından) daha artıq dərəcədə istifadə edir. Məhz onda kriminalistikanın prinsipial əsasları realizə edilir və o, konkret növ cinayətlərin törədilməsi üçün şəraiti nəzərə almaqla istintaq və əməliyyat situasiyalarının (vəziyyətinin) xüsusiyyətlərin-

dən, şübhəli şəxslərin xassələri tipologiyasından, yəni müvafiq növ cinayətlərin kriminalistik xarakteristikasını əks etdirən məlumatlardan asılı olaraq qüvvə, metod və vasitələrin vahid əlaqədə, sistemli tətbiqinə istiqamətləndirir.

Kriminalistikada olduğu kimi ƏAF nəzəriyyəsində də ayrı-ayrı əməliyyat-axtarış metodları fərdi metodika kimi qiymətləndirilir və öz məzmunu və həcminə görə əksərən kriminalistik metodikaya yaxındır. Bu metodikalar şübhəsiz ki, istintaq fəaliyyətinin fəndlərinə yaxın olmamalıdır, çünki belə halda onlar ƏAF-nin yaxşı üsulu kimi ola bilməz və onlarda daha çox əməliyyat-axtarış xüsusiyyətləri olmalıdır.

Əməliyyat texnikasının metod və vasitələrinin işlənməsi və onlardan düşünülmüş şəkildə istifadə edilməsi üçün kriminalistik texnika sahəsində olan məlumatların istifadə edilməsi də az əhəmiyyətə malik deyil.

ƏAF nəzəriyyəsinin bu hissəsi demək olar ki, onun digər hissələrindən, xüsusilə də kriminalistik texnikadan daha gec ayrılmışdır (bu, 1950-ci ilə təsadüf edir). O, əsasən özünə kriminalistika üçün də ənənəvi olan axtarış, səs və videoyazı texnikası, fotoçəkiliş, həmçinin aşkar olunan informasiyanın götürülməsi və yazılmasının tətbiqi məsələlərinin tədqiqini də daxil edir. Kriminalistikada olduğu kimi əməliyyat-axtarış texnikası üçün də məlumat-axtarış sistemləri (MAS) böyük əhəmiyyətə malikdir. Bu sistemlərdə cəmləşən məlumatlardan cinayətlərin “isti izlərlə” açılmasında (müvəffəqiyyətli təhqiqatında), xüsusilə də iylərlə əlaqəli izlərə, qana, mikrohissəciklərə (mikroobyektlərə) görə şəxsiyyətin instrumental eyniləşdirilməsi (identifikasiyası), həmçinin müxtəlif qəbildən olan maddə və sənədlərin ekspress-tədqiqatların aparılmasında belə sistemlərdən istifadə edilir. Sonda belə nəticələrə gəlmək olar ki, ƏAF nəzəriyyəsinin kriminalistik əsasları onun gələcək inkişafı üçün çox geniş və əhəmiyyətlidir. Eyni zamanda, kriminalistika elmi də ƏAF nəzəriyyəsindən bəhrələnə və çox şeyi götürə bilər.

ƏAF nəzəriyyəsinin müstəqil bir elm olduğunun qəbul edilməsi onu elmlər sırasına daxil etməyə və onun məlumatlarının kriminalistikada bilavasitə və müəyyən dərəcədə dəyişdirilmiş halda istifadəsinə imkan verir. Bu nəzəriyyənin sonrakı inkişafı və təkmilləşdirilməsi proseslərinə müvafiq olaraq onun işlənmiş yeni müddəaları kriminalistikada cinayətlərin açılması və istintaqı üzrə yeni texniki vasitələrin, taktiki üsul və fəndlərin, metodiki tövsiyələrin işlənməsində daha çox istifadə olunacaqdır.

## §2. Əməliyyat-axtarış fəaliyyəti və cinayət hüququ

Məlumdur ki, cinayət hüququ vahid hüquq sisteminin müstəqil sahəsi kimi cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, cinayət sayılan əməllərin dairəsini, ictimai təhlükəlilik dərəcəsini, cinayətə görə tətbiq olunan cəzanın növlərini və həddini, cinayət məsuliyyətindən və cəzadan azadetmənin şərtlərini və s. müəyyən edən ali dövlət hakimiyyəti orqanı tərəfindən (MM) qəbul olunmuş hüquq normalarının məcmusudur.

Bununla əlaqədar olaraq dərsliyin bu hissəsində ƏAF üçün əhəmiyyət kəsb edən cinayət hüququnun ayrı-ayrı normalarının yox, yalnız bəzi hüquqi institutlarının nəzərdən keçirilməsi məqsədəuyğun hesab edilir. Cinayət hüququnun daxili strukturu kifayət qədər çoxsaylı müxtəlif institutlarla xarakterizə olunur.

Onlardan ƏAF üçün istiqamətləndirici və bir sıra hallarda modelləşmə funksiyasını daşıyan daha mühüm əhəmiyyətə malik olanlarını nəzərdən keçirək. Burada ƏAF-nin istiqamətlərinin seçilməsi, lokal (latın sözü olub, yerli, həmin yerə xas olan deməkdir) məqsədlərin qoyulması, ƏAF strukturunun seçilməsi və elə məzmunla əhatə olunması başa düşülür ki, onlara istinad edilməklə əməliyyat-axtarış məlumatlarının, cinayət-hüquqi məsələlərin həllində istifadə edilməsinə imkan olsun. Burada müxtəlif sahələr üçün vahid olan cinayət hüququ normalarının tətbiqi ilə bağlı həll edilən və nail olunan məqsəd və vəzifələri birləşdirmək olar: insan hüquq və azadlıqlarının, mülkiyyətin, ictimai qayda və təhlükəsizliyin, ətraf mühitin, Azərbaycan Respublikasının konstitusion quruluşunun cinayətkar qəsdlərdən qorunması, sülhün və bəşəriyyətin (sülh və insanlıq əleyhinə cinayətlər) təhlükəsizliyinin təmin edilməsi, həmçinin cinayətlərin qarşısının alınması.

Bu hüquqi institut bütün ƏAF üçün həlledicidir. Bu məqsədlərə nail olmaq üçün əməliyyat aparatlarının daha səmərəli və məqsədəuyğun strukturu, onların işinin effektli təşkili və taktikası seçilir. Bununla yanaşı əməliyyat-axtarış qüvvələrinin səfərbər olunması, bütün mümkün mənbələrdən istifadə edilməsi təmin olunur, əməliyyat-axtarış informasiya bankları yaradılır, cinayətkar və kriminogen mühit barədə məlumatlanmaya (məlumatların toplanılıb təhlil edilməsinə) nail olunur.

ƏAF üçün sözügedən hüquqi institutda qanunçuluğa riayət olunması xüsusi əhəmiyyət kəsb edir.

Qanunverici bilavasitə ƏAF təcrübəsi ilə əlaqəli olan əməllərə dair bir sıra cinayət-hüquqi qadağanlar müəyyən etmişdir (məsələn, CM-yə Xüsusi hissədə "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlı VIII bölmənin "İnsan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə olan cinayətlərə dair" XXI fəslində, "yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma" (maddə 155), "şəxsi həyatın toxunulmazlığını pozma" (maddə 156), mənzil toxunulmazlığını pozma (maddə 157), hüquqi şəxslərin binalarının (otaqlarının) toxunulmazlığını pozma (maddə 158), "ƏAF haqqında qanunvericiliyi pozma" (maddə 302) kimi əməllərə dair cinayət məsuliyyətini nəzərdə tutan normalar daxil edilmişdir).

Bununla əlaqədar belə bir məsələni nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası 10 dekabr 1948-ci il tarixli BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannamə"sinə, 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur. Onların müvafiq olaraq 3, 8 və 12 -ci maddələrinin məzmununda yuxarıda göstərilən insan və vətəndaşların hüquqlarına hörmətlə yanaşma, onlara özbaşına müdaxilənin yolverilməzliyi öz əksini tapmışdır. Bununla belə, bu hüquqların həyata keçirilməsinə dövlət orqanlarının müdaxiləsinin bir sıra istisna halları qeyd edilmişdir: qanunla nəzərdə tutulmuşsa və demokratik cəmiyyətdə buna zərurət varsa milli təhlükəsizlik mənafeyi üçün, ictimai asayiş və ölkənin ictimai rifahı üçün, qaydanı qorumaq və cinayətin qarşısını almaq üçün, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün Azərbaycan Respublikasının 12.XI.1995-ci il tarixli Konstitusiyasının 32-ci "Şəxsi toxunulmazlıq hüququ" və 33-cü "Mənzil toxunulmazlığı hüququ" maddələrinin məzmununda bu hüquqların yalnız qanunda nəzərdə tutulmuş qaydada, hallarda və ya məhkəmə qərarı əsasında məhdudlaşdırılmasına yol verilməsinin mümkünlüyü öz əksini tapmışdır.

Digər tərəfdən, Azərbaycan Respublikasının "ƏAF haqqında", "Polis haqqında" Qanunlarında da bu hüquqların istər hakimin icazəsi ilə, istərsə də icazəsi olmadan məhdudlaşdırılması hallarını (son zərurət və müəyyən edilmiş hallarda) nəzərdə tutan, konkret hüquq normaları öz əksini tapmışdır.

Həmçinin insan və vətəndaşların konstitusiyada təsbit edilən hüquqlarını pozan, lakin "ƏAF haqqında" Qanuna və müvafiq qanunqüvvəli aktlara əsaslanaraq həyata keçirilən əməliyyat-axtarış tədbirlərini əməliyyatçılar tərəfindən son zərurət halında törədilən (yol verilən) əməl kimi saymaq lazımdır. ***Azərbaycan Respublikasının Cinayət Məcəlləsində son zərurət anlayışı aşağıdakı redaksiyada verilmişdir: "Son***

***zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün bu məcəllə ilə qorunan obyektlərə zərər vurmaq yolu ilə törədilmiş hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə cinayət sayılmır".***

Əməliyyat-axtarış vasitə və metodları ilə cinayət qanunvericiliyinin məqsəd və vəzifələrinin təmin edilməsinə nail olmaq üçün "əsaslı risk" kimi yeni yaranan hüquq institutunun böyük əhəmiyyəti var. ***CM-də "əsaslı risk" anlayışı belə redaksiyada verilmişdir: "İctimai faydalı məqsədə nail olmaq üçün əsaslı risk nəticəsində bu məcəllə ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır".***

Bu norma müasir dövrdə ayrı-ayrı vətəndaşların (habelə HMO-nun əməkdaşlarının) cəmiyyətdə elmi-texniki, təsərrüfat və peşə sahələrində cəsarətinə, iradəliyinə əsaslanan müstəqilliyinə, yaradıcılığına, təşəbbüskarlığına geniş meydan açmış olur.

**Risk - tərəqqinin təbii hərəkət etdiricisidir.** Bəşəriyyət öz inkişaf yolunda bütün yeni vasitə, texnologiyalardan istifadə etməklə bütün maneələri keçir. Bu gün biz risk etməklə etibarlı sabahımızı qururuq. Praktiki olaraq riskdən və eksperimentdən azad olan davranış yoxdur. "**Təcrübə** - çətin səhvlərin oğlu" həm tipik, həm də eksperimental situasiyalarda əldə edilir. **Risk** - müvəffəqiyyət əldə etmək üçün, lakin nəticəsi əvvəlcədən bəlli olmayan hərəkətlərdir. Risk - ziyan vurma qorxusu olan təhlükədir. Risk - şəxsiyyətin fəallığının özünü göstərməsidir (əks etdirməsidir). Bütün bunlar müxtəlif sahəvi lüğətlərdə habelə Cinayət Məcələlərinin komentariyalarında öz əksini tapmışdır. Məhz əməliyyat-axtarış fəaliyyətində qeyd edilənlərə daha tez-tez rast gəlmək olar.

Hansı ekstremal şəraitdə olmasından asılı olmayaraq, hər bir vətəndaşın, HMO-nun, o cümlədən polis əməkdaşının risk etmək hüququ var. Ona görə də onun qanunauyğun şərtlərini bilmək vacibdir. **Onlar CM-in 39-cu maddəsinin təfsirində əhatə olunmalıdır:**

a) cinayət qanunu ilə qorunan mənafelərə vurulan zərər məhz risk edənin hərəkətləri (hərəkətsizliyi) ilə yetirilir. Belə hərəkət (hərəkətsizlik) mütləq ictimai faydalı məqsəd güdməlidir;

b) belə məqsədin riskdən başqa digər adi vasitələrlə əldə edilə bilməsi qeyri-mümkün olmalıdır;

c) risk zamanı baş verən nəticə risk edənin hərəkətlərinin doğurduğu nəticələrdən, yaxud da ehtimal olunan nəticələrdən biri kimi dərk edilir;

ç) törədilən hərəkət (hərəkətsizlik) müvafiq bilik və bacarığa əsaslanmalı, məlum şəraitdə obyektiv olaraq zərərli nəticənin baş verməsinin qarşısını almalıdır;

d) risk edən şəxs zərərli nəticələrin qarşısını almaq məqsədilə lazımi tədbirlər görməlidir.

Belə amilləri də nəzərə almaq lazımdır ki, risk hərəkətləri (hərəkətsizliyi) mütləq müvafiq bilik və bacarığa, məsələn, müasir elmi-texniki bilik və təcrübəyə, elmin, texnikanın, istehsalın, hər hansı peşə fəaliyyətinin müasir tələblərinə əsaslanmalıdır. Risk nəticəsində əldə edilmiş müsbət nəticələr elmi-texniki və s. fəaliyyətdə yenilik kimi qeyd olunmalıdır. Riskin insan intuisiyası ilə əlaqəsi var. Bilə-bilə insanların həyatı üçün təhlükə ilə, ekoloji və digər fəlakət təhlükəsi ilə müşayiət olunan risk əsaslı hesab edilmir.

Bütün bu qeyd edilənlər, xüsusilə də qanunvericilik bu institutun bilavasitə konkret mahiyyətini açıqlamır. Rus dilində "risk" sözü iki mənaya malikdir: mümkün olan təhlükə və xoşbəxt nəticə ümidi ilə uğur qazanmaq üçün hərəkətlər.

**B.V.Voljenkin bununla əlaqədar yazır ki,** "cinayət qanunu əsaslı riskə bu qanunla qorunan maraqlara zərər vurulmasına görə hərəkətlərdə cinayət tərkibinin və məsuliyyətin olmasını rədd edən bir şərait kimi baxır, yəni şəxsin elə hərəkətlərini nəzərdə tutur ki, onların həyata keçirilməsi ilə bağlı xoşbəxt (uğurlu) nəticəyə dair ümidlər özünün kifayət qədər əsaslarına malik olur.

**E.F.Pobeqaylo hesab edir ki,** əsaslı risk hüquq-mühafizə maraqlarına hüquqi cəhətdən düzgün sayılan mümkün təhlükənin yaradılmasıdır ki, bunda da məqsəd ictimai faydalı nəticənin əldə edilməsidir. Həmçinin o, qeyd edir ki, belə nəticəni adi, risksiz vasitələrlə əldə etmək mümkün deyil və onlar cinayət əməllərini rədd edən şərtlərdəndir.

AR CM-də (maddə 39.3) qeyd edilmişdir ki, "bilə-bilə insanların həyatı üçün təhlükə ilə, ekoloji və ya digər fəlakət təhlükəsi ilə müşayiət olunan risk əsaslı hesab edilmir". Bu son göstərilən neqativ halların ƏAT-nin keçirilməsinin çox nadir hallarda baş verməsini nəzərə alsaq, belə demək olar ki, qanunverici əsaslı risk şəraitində ƏAT-nin keçirilməsinə geniş imkan verir. Bundan əlavə, əsaslı riskin həddinin aşılmasına cinayət qanunvericiliyi ilə cəzanın yüngülləşdirici halı kimi baxılır (CM-in 59.1.7-ci maddəsi). Əksər əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin risklə əlaqəli

olduğunu nəzərə alaraq cinayət qanunvericiliyinin bu normasının ƏAF üçün zəruriliyini təsdiq etmək olar. Bütün bu qeyd edilənlərə əsaslanaraq belə demək olar ki, cinayət hüququ ilə əməliyyat-axtarış hüququ və əməliyyat-axtarış fəaliyyəti sıx əlaqəlidir, həmçinin əməliyyat aparatlarının işçiləri cinayət-hüquqi normaları, onların təfsirini (şərhini) yaxşı bilməlidirlər.

ƏAF nəzəriyyəsində yeni cinayət-hüquqi kateqoriya sayılan əsaslı riskə ümumən ona mahiyyət etibarı ilə yaxın olan əməliyyat riski konsepsiyası hələ çox əvvəllər işlənmişdir.

**D.V.Qrebelski 1973-cü ildə öz elmi əsərlərində yazırdı ki, ƏAF-də risk dedikdə, əməliyyat işçisi və digər şəxslər üçün əlverişli olmayan real şəraitin yaranmasının mümkünlüyü halında təhlükəli cinayətlərin qarşısının alınması və açılması üçün ƏAT-nin keçirilməsi zəruriliyi başa düşülür.** Belə əlverişsiz və perspektiv olmayan hal şübhəsiz ki, əməliyyat işçisi tərəfindən qərarın qəbul edilməsində və onun hərəkətlərinin taktikasının müəyyənləşdirilməsində nəzərə alınmalıdır, lakin onlar dövlətin və vətəndaşların qanuni maraqlarının qorunması ilə bağlı qoyulan konkret məqsədlərə nail olmağa mane olmamalıdır.

**Əməliyyat riski daha geniş və müfəssəl halda Q.V.Samoylov tərəfindən işlənmişdir.** O, xüsusilə qeyd edir ki, ƏAT-nin keçirilməsi zəruriliyi əməliyyat işçisini daim peşə riski şəraitinə salır, ona görə ki, uğurlu nəticə əldə edilməsinə təminat verilmir. Eyni zamanda, ƏAT-nin keçirilməsi qərarının qəbul edilməməsi mümkün deyil, belə halda əməliyyat işçisi qanunçuluğun pozulmasına yol verilməsi, özünün və əməliyyat aparatının hörmətinin, peşə nüfuzunun aşağı düşməsi ilə risk edir. ƏAF özü onun vasitə, metod və qanunda göstərilən bəzi halların konfidensial qüvvələrinin açıqlanması mümkün olan hallar ilə müşayiət oluna bilər və bu mənfi nəticələrə gətirə bilər. Beləliklə, **V.Q.Samoylovun fikrincə, ƏAT keçirilərkən riskə məruz qalan ən vacib obyektlərə aşağıdakılar aiddir:** cəmiyyətin maraqları, mülkiyyət (dövlət, xüsusi və bələdiyyə); şəxsiyyət, yoxlanılan şəxsin əmlakı və marağı, məxfi əməkdaşların şəxsiyyəti və maraqları, vətəndaşların şəxsiyyəti, əmlakı və maraqları, əməliyyat işçisinin şəxsiyyəti və maraqları, əməliyyat aparatlarının nüfuzu.

ƏAT keçirildikdə qanunçuluğun pozulması təhlükəsi olan bütün hallarda cəmiyyətin maraqlarının pozulması təhlükəsi yaranır. ***Məsələn, məxfi əməkdaşa yoxlanılan şəxsin cinayət törətməsinə təhrik edilməsi (sövq etdirilməsi) və ya özünün cinayətdə iştirak etməsi təhlükəsi olan tapşırığın verilməsi; cinayəti hazırlayan və ya***

***onu törədən şəxsə qarşı vaxtında müvafiq tədbirlərin keçirilməməsi qanunçuluğun pozulmasına gətirir və nəticədə ictimaiyyətin maraqları pozulur.***

**ƏAT keçirilən zaman mülkiyyət də əməliyyat riskinin obyekti ola bilər. Bu proses aşağıdakı hallarda baş verə bilər:** ƏAT-nin keçirilməsi oğurluq, dövlət və bələdiyyə mülkiyyətinin talama yolu ilə mənimsənilməsi anında; sonradan axtarılıb təqsirli şəxslərin ifşa edilməsində istifadə etmək üçün pul əskinasları və mülkiyyətin nişanlanması; oğruların, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin hərəkətləri üzərində müşahidə aparmaq, onları güdmək, bu hərəkətləri foto, kino və videoçəkiliş vasitəsilə qeydə almaq və s. Belə hallarda əməliyyat müvəkkilləri qarşısında alternativ qərar qəbul etmək sualı meydana çıxır, risk etməmək və məsuliyyətə cəlb olunmamaq üçün əməkdaş belə qərarın qəbulundan imtina edir və bu halda cinayətkar öz cinayət niyyətini, əməlini həyata keçirir və nəticədə vətəndaşların, dövlətin maraqlarına ziyan vurulur. Zənnimizcə, belə halda cinayətkarın cinayət əməllərini ifşa etmək çətinləşir. Əgər əməliyyat müvəkkili belə qərar qəbul edərsə, onda yoxlanılanın (tədqiq olunanın) müəyyən maraqlarını poza bilər və bəzi hallarda isə bunu qanunu pozmaq təhlükəsi altında edər və nəticədə CM-də nəzərdə tutulan cinayət-hüquqi normalar (CM maddə 302) pozula bilər.

Tədqiq olunan və yoxlanılanların şəxsiyyəti və maraqları daha tez-tez əməliyyat riskinin obyektləri kimi özünü göstərir. Bunu isə onunla şərtləndirmək olar ki, yoxlanılan şəxslərə qarşı keçirilən istənilən ƏAT müəyyən dərəcədə də olsa onların hüquqlarını və qanunla qorunan maraqlarını məhdudlaşdırır. Məhz ona görə də ƏAT-nin keçirilməsinə dair qərar qəbul etdikdə onları elə keçirmək lazımdır ki, yoxlanılan və tədqiq olunan şəxslərin bilavasitə hüquqazidd hərəkətləri ilə əlaqəli olmayan qanuni maraqları məhdudlaşdırılmasın və ya onlara müdaxilə edilməsin.

Əməliyyat-axtarış məlumatlarının realizə edilməsi zamanı ƏAT-nin keçirilməsi prosesində də risklə bağlı hallar mövcuddur. Belə riskə bu tədbirlərin yoxlanılan və tədqiq olunan şəxslərin yanılması (aldadılması) və onların cinayət əməlləri haqda cinayətin iştirakçılarının birinin verdiyi məlumata əsasən bəlli olmasını inandırmaq istiqamətində keçirilməsi hallarında daha çox yol verilə bilər. Bəzi hallarda ƏAT-nin keçirilməsində əməliyyat riskinin obyekti kimi yoxlanılan şəxsin maraqlarına dair müəmmalı suallar da meydana çıxır. **Məsələn, ƏAT cinayətkar qrupun bir və ya bir neçə üzvünün nüfüzdan salınması (ləkələndirilməsi) və süni olaraq daxili**

**konflikt yaratmaq yolu ilə bu qrupun parçalanmasına istiqamətlənmişdir (oğurlanmış əmlakın, pul vəsaitlərinin və s. bölüşdürülməsində, satqınlıqda şübhəli olduğuna görə və s.). Ona görə də belə vəziyyətlərdə qərar qəbul edən əməliyyat müvəkkili risk dərəcəsinin aşağı salınması haqqında çox ciddi fikirləşməli və müəyyən proqnozları nəzərdə tutmalıdır.**

***Yoxlanılan və tədqiq edilən şəxs qismində olmayanların şəxsiyyəti,* əmlakı və maraqları da bəzən əməliyyat riskinin obyekti ola bilər.** Bu qeyd edilənlərdən gizli qaydada məlumatlar alına bilər və sonradan bu məlumatlar təqsirli şəxslərə qarşı qanuni tədbirlərin keçirilməsində istifadə edilə bilər. Məsələn, tədqiq prosesində onlarla gələcəkdə şahid qismində istifadə edilmək üçün sorğular, həmçinin bu şəxslərin mənzillərində, xidməti otaqlarında cinayətkarların tutulmasıt ilə bağlı tədbirlər keçirilə bilər. Burada onu da qeyd etmək lazımdır ki, bir çox şəxslər sorğu zamanı yazılı izahat verməkdən imtina edir və bunu onların özünün və ailə üzvlərinin həyatının təhlükəsizliyi ilə əlaqələndirirlər. Nəzərə almaq lazımdır ki, CM-də ifadə verməkdən boyun qaçırma (maddə 298), cinayət barəsində xəbər verməmə (maddə 307) haqqında cinayət-hüquqi normalar var, həmçinin cinayət prosesinin iştirakçılarının dövlət müdafiəsi haqqında Qanunun qəbul edilməsinə baxmayaraq, yuxarıda qeyd olunan şəxslərin, onların ailə üzvlərinin həyat və sağlamlığının bir çox hallarda qorunması ilə bağlı da risk ola bilər.

***ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslərin maraqları və şəxsiyyətinin riskə məruz qalması* daha böyük ehtimala malikdir.** Bu isə əsas etibarılə bu əməkdaşların qeyri-peşəkar, düzgün olmayan davranış və hərəkətlərə yol verməsi, yoxlanılan və tədqiq edilən şəxslərin həddən artıq ehtiyatlılığı və sayıqlığı, əməliyyat müvəkkilinin konspirasiya qaydalarını pozması nəticəsində onların aşkarlanması təhlükəsinin mövcud olması ilə sıx bağlıdır. Belə risk, həmçinin gizli qüvvələrdən əldə olunan məlumatların yoxlanması və yoxlanılan şəxslərə qanuni tədbirlərin tətbiq edilməsi məqsədilə aşkar ƏAT-nin keçirilməsi prosesində də baş verə bilər. Bütün bunlar isə öz növbəsində, ayrı-ayrı şəxslər tərəfindən gizli əməkdaşların mənəvi məzəmmətinə, yoxlanılan və tədqiq olunan şəxslər tərəfindən onlara qarşı böhtan atmaq və divan tutmaq təhlükəsi ilə bağlıdır.

"ƏAF haqqında" Qanunda belə əməkdaşların sosial və hüquqi müdafiəsi ilə bağlı hüquq normalarının olmasına baxmayaraq, onun rəsmi təfsirinin (həmçinin risklə bağlı) olmaması, bu məsələ ilə bağlı hüquq tətbiqinin konkret mexanizminin (realizə

edilmə mexanizmi) olmaması onların həyat və sağlamlığının qorunması ilə bağlı məsələlərdə riskin mühüm əhəmiyyətə malik olmasının zəruriliyini şərtləndirir. ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslərə verilən tapşırıqların məzmununu müəyyənləşdirərkən xüsusən də onların yoxlanılan şəxslərlə çox etibarlı yaxın münasibətlərə girməsi üçün o, cinayət hərəkətlərinə istiqamətləndirilə, sövq etdirilə bilər və nəticədə onun cinayət məsuliyyətinə cəlb olunması təhlükəsi yarana bilər. Məhz ona görə də CM-də nəzərdə tutulan "iştirakçılıq" və "iştirakçılığın növləri" (maddələr 31, 32) rəhbər tutulmalıdırsa da, eyni zamanda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci tarixli Qanunun 31-ci maddəsi (hansı hallarda cinayətlə bağlı əməllərə sövq etdirmə təhrik sayılmır) nəzərə alınmalıdır. Məhz bu qanunların hüquq normalarının arasındakı (baxmayaraq ki, cinayət-hüquqi norma mahiyyətcə üstünlüyə malikdir) ziddiyyətlər, ümumiyyətlə qanunvericilikdə olan bir çox boşluqlar risk zamanı nəzərdən keçirdiyimiz şəxslərin hüquq və azadlıqlarının pozulması təhlükəsinin dərəcəsini daha çox yüksəldir.

***ƏAT-nin keçirilməsinin bütün mərhələlərində əməliyyat işçisinin (əməliyyat müvəkkilinin) şəxsiyyəti və maraqları əməliyyat*** **riskinin obyekti kimi ola bilər.** Əməliyyat müvəkkili həmişə dilemma qarşısında olur. Bu məsələlərə əvvəldə qısa da olsa, toxunulmuşdur. Burada onu da nəzərə almaq lazımdır ki, bir çox hallarda əməliyyat işçisi öz həyat və sağlamlığı ilə risk edir. Məsələn, əməliyyat müvəkkili əldə etdiyi məlumatı realizə etmək məqsədilə silahlı cinayətkarın tutulması ilə bağlı tədbirlər keçirir, yaxud o, cinayətkar qrupa və ya kriminogen obyektə daxil edilmişdir və onun üzərində fəal müşahidə aparılır, onun ağır və xüsusilə ağır cinayətlərdə iştirak etməsi təhlükəsi mövcuddur.

**V.Q.Samoylov belə fikri təsdiq edir ki, ƏAF daimi risklə müşayiət olunur. ƏAF-nin həyata keçirilməsi riski əməliyyat müvəkkilini daim peşə riski şəraitində hərəkət etməyə məcbur edir.**

***V.Q.Samoylovun fikrincə risk vəziyyətində əməliyyat-taktiki qərarların qəbul edilməsi aşağıda qeyd edilən şəraitlə şərtləndirilir*:** yoxlanılan şəxslərin cinayətkar niyyətləri və hərəkətləri barədə kifayət qədər informasiyanın olmaması; cinayətkarların bu və ya digər vəziyyətlərdəki hərəkətlərini əvvəlcədən müəyyən etməyin mümkün olmaması; qarşıda duran vəzifələrin həlli üçün zəruri olan qüvvə və vasitələrin məhdudluğu; ƏAT-nin həyata keçirilməsində iştirak edən qüvvələrin lazımi dərəcədə

hazırlığa malik olmaması; əməliyyat-taktiki qərarların qəbul edilməsi və həyata keçirilməsi üçün əlverişli şəraitin olmaması.

**Risk mənəvi, hüquqi və məntiqi cəhətdən əsaslı olmalıdır.**

***V.Q.Samoylov risk şəraitində ƏAT-nin keçirilməsinə dair qərar qəbul edən əməliyyat işçiləri üçün rəhbər tutulması vacib sayılan aşağıdakı qaydaları işləyib hazırlamışdır:***

**Birincisi**, bu tədbirlər ictimai baxımdan zəruri olmalı və ictimaiyyətin, dövlətin və vətəndaşların hüquq və qanuni maraqlarının qorunmasına istiqamətləndirilməlidir.

**İkincisi**, həyata keçirilən hərəkətlər hüquqa müvafiq və ƏAF-ni tənzimləyən qanun və normativ aktların tələblərinə uyğun olmalıdır;

**Üçüncüsü**, risk o halda məqsədəuyğundur ki, onsuz qarşıda duran vəzifəni həll etmək mümkün deyil;

**Dördüncüsü**, riskə bəraəti o halda vermək olar ki, onun müsbət nəticələri öz əhəmiyyətinə görə mümkün olan zərərli nəticələri üstələyir (çox artıqdır, həddi aşıb keçir);

**Beşitrial,** risk şəraitində qarşıda duran vəzifələrin bir neçə həlli variantını nəzərdə tutmaq və imkan dairəsində onları "məşq etməklə sınaqdan çıxarmaq" (şərti olaraq real vəziyyətə yaxın şəraitdə yoxlamaq);

**Altıncısı,** qarşıda duran vəzifələrin həlli üçün kifayət edən miqdarda qüvvə və vasitələrin müəyyən olunması və istifadə edilməsinin zəruriliyi.

Bütün bunları nəzərə alaraq, belə bir tələbi xüsusilə yadda saxlamaq lazımdır ki, əməliyyat riski ilə bağlı ƏAT-nin keçirilməsinin əsas şərti ondan ibarətdir ki, o, əsaslı riskə dair cinayət qanunvericiliyinin normasına uyğun olmalıdır.

Özünə cinayətin hüquqi anlayışını və cinayət məsuliyyətinin əsaslarına dair müddəaları daxil edən cinayət məsuliyyəti institutu da ƏAF-nin məzmununu öncədən müəyyən edir. Cinayət məsuliyyətinə yalnız cinayətlərdə təqsirli olan şəxslərin cəlb edilməsi müddəası rəhbər tutularaq cinayət əlamətlərinin və ya cinayətin törədilməsinin mümkünlüyünü təsdiqləyən əlamətlərin aşkar edilməsindən asılı olaraq ƏAF-nin də istiqaməti və məzmunu dəyişir: birinci halda o, cinayətkarların ifşasına yönəlir və onun məzmunu cinayətkarların təqsirini sübut etmək üçün informasiyanın alınmasını təşkil edir; ikinci halda isə cinayətlərin qarşısının alınmasına yönəlir və əməliyyat-profilaktiki məzmuna malik olur. Burada belə bir cinayət-hüquqi normanı nəzərə almaq lazımdır ki, yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yö-

nəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur (CM-in 28.2-ci maddəsi). Azərbaycan Respublikasının 28.X.1999-cu il tarixli "ƏAF haqqında" Qanununda ƏAF anlayışı, onun məqsədi və vəzifələri öz əksini tapmışdır (maddə 1). Cinayət qanunvericiliyinin yuxarıda qeyd edilən cinayət-hüquqi normaları və "ƏAF haqqında" Qanunda öz əksini tapmış ƏAF-nin anlayışı, məqsədi və vəzifələrini (maddə 1, I-III hissələr) müəyyən edən hüquq normalarının qarşılıqlı müqayisəli təhlili onu göstərir ki, ƏAT yalnız cinayətkarlığa qarşı mübarizədə tətbiq edilməlidir və ona görə də qanunazidd əməldə cinayətin (CM, maddə 14) və ya inzibati xətanın (IXM, m. 12) tərkibinin olub-olmaması məsələlərinin müəyyənləşdirilməsi əməliyyat aparatları və onların əməkdaşları üçün mühüm əhəmiyyət kəsb edir. ƏAT-nin keçirilməsində bu tələbin təmin edilməsi obyektiv və zəruridir, əks halda kobud surətdə insan və vətəndaşların hüquq və azadlıqlarına mühüm zərər vurula bilər. **Burada müəyyən problemlər də var.** Məsələn, IXM-nin 69-cu maddəsində xırda talama anlayışı kimi inzibati xətaya görə məsuliyyət nəzərdə tutulub və belə inzibati xəta qeyri-aşkar şəraitdə baş verərsə, yəni onu törədən şəxs müəyyən edilməzsə və belə şəxsi müəyyən etmək üçün ƏAT-nin xüsusilə də Konstitusiyada bilavasitə öz əksini tapmış şəxsi toxunulmazlıq (maddə 32) və mənzil toxunulmazlığı (maddə 33) hüquqlarının məhdudlaşdırılması ilə bağlı olan belə tədbirlərin keçirilməsinə qanunla qadağan qoyulmuşdur. Bu isə ictimaiyyət arasında müəyyən təəccüb və naraçılıq doğurur və bu məsələ problemə çevrilir. Bu problemlərə narkotiklərlə bağlı inzibati xətaları da şamil etmək olar.

Cinayətlərin təfsiri institutu ilə əlaqəli olan bütün məsələlər ƏAF-də cinayət əlamətlərinin və cinayətkar fəaliyyətin xarakterinin aşkar edilməsi anlayışlarında öz əksini tapır. Hüqüq tətbiqi fəaliyyətində tövsifetmə konkret baxılan halın, hadisənin Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulan normadakı cinayətin tərkibinə uyğun olmasının məntiqi prosesi kimi başa düşülür. Eyni zamanda, o, ictimai təhlükəli əmələ verilən müəyyən hüquqi qiymətləndirmədir. Tövsifetmə cinayət prosesinin bütün mərhələlərində həyata keçirilə bilər, lakin onun səciyyəsi birmənalı deyil. Məsələn, cinayət işinə başlayanda o, ilkin xarakter daşıyır, lakin o, hökm qərarının çıxarılması mərhələsində maksimum dərəcədə dəqiq olmalıdır. Əməliyyat müvəkkili konkret şəxslərin hüquqazidd əməlləri ilə qarşılaşdıqda (onlar haqqında məlumat alarkən) əməlin tövsif edilməsi ilə bağlı cinayət hüququna və CM-ə, onun rəsmi təfsirinə istinad etməlidir. Sözsüz ki, bu sahədə onun ümumi hüquqi bilikləri olmalıdır (tövsif üçün vacibdir). Leqal tövsif xarakteri yalnız o şəraitdə yaranır ki, onlar rəsmi

cinayət-prtrialual sənədlərdə öz əksini taparaq möhkəmləndirilir və hüquqi nəticələr yaradır və cinayət işinin başlanması və ibtidai istintaqın keçirilməsi, ittihamın elan edilməsi, məhkəməyə verilməsi və ittiham hökmünün çıxarılması üçün əsaslara xidmət edir.

Cinayət-hüquq nəzəriyyəsində leqal tövsifə yanaşı, doktrinal (qeyri-rəsmi) tövsif anlamı da var. Bu, cinayət əməllərinə elmi işlərdə, digər dərc edilmiş məqalələrdə və s. mənbələrdə verilən şərhdir (izahının verilməsi, qiymətləndirilməsi). Lakin bu hallara əməliyyat işçilərinin hərəkətləri aid edilmir. Onlar tərəfindən verilən tövsif xidməti təyinata, qeyri-rəsmiliyə və taktiki nəticəyə malik olur, belə ki, cinayətin xarakterindən asılı olaraq əməliyyat axtarışının taktikası, cinayətkarların tutulması fəndləri və üsulları, əməliyyat tədqiqinin taktikası seçilir və informasiyanın toplanması və sənədləşdirilməsi üçün zəruri olan sübutlar modelləşdirilir.

Məhz ona görə də bu tövsifin qeyri-rəsmi olduğunu nəzərə alaraq belə demək olar ki, ƏAF həyata keçiriləndə cinayət əməlinin bu fəaliyyətin məzmunu üçün konkret nəticələri kimi qiymətləndirilən tövsif əməliyyat-taktiki xarakter daşıyır. Belə tövsif leqal tövsif kimi həmçinin cinayət məsuliyyətinin əsas prinsipinə əsaslanır, yəni bu məsuliyyət bu və ya digər növ cinayətin tərkibinin bütün əlamətlərinin müəyyən edildiyi halda yarana bilər.

ƏAF-də cinayətlərin tövsifinin daha bir aspekti də var, o da proqnozlaşdırıcı aspektdir (“cinayətə” qədər olan, müəyyən edilmiş qaydalardan kənara çıxan müxtəlif növ davranışın, hərəkətlərin qiymətləndirilməsində istifadə olunan). Proqnozlaşdırıcı model əməliyyat işçisinə (əməliyyat müvəkkilinə) qeyri-mənəvi (amoral) yaxın əlaqələr dairəsinə zərərli, mənfi təsirlə əlaqəsi olan təhrikedici hərəkət və davranışların hansı cinayət əməllərinə qədər artmasının (cinayətlərə keçməsinin) mümkünlüyünü “görməyə” imkan verir. Belə “görmə” (təsəvvür) onunla əsaslandırılır və şərtləndirilir ki, cinayət qanunvericiliyinin normaları real, obyektiv həqiqəti əks etdirir, onlarda həyati faktlar (hadisələr, davranış və əməllər) ümumiləşdirilib və onlar cinayət tərkibinin bütün elementlərindən ibarətdir. Məhz bu əlamətlər əməliyyat müvəkkilinə hansı kriminal fəal şəxslərin və qrupların davranışlarının cinayət əməllərinə keçməsi mümkünlüyünü müəyyən etməyə imkan verir.

ƏAF-də əməliyyat-axtarış profilaktikasının obyektinin müəyyən edilməsi və seçilməsi onların təsnifatı və kompleks səmərəli profilaktiki tədbirlərin müəyyənləşməsi və keçirilməsində (cinayətkar təcrübəsi nəzərə alınmaqla) leqal tövsifdən

də istifadə olunur. Sözsüz ki, əməllərində tövsifedici əlamətlər, xüsusilə tövsifedici əlamətlərin olması, az ağır, ağır və xüsusilə ağır cinayətlərin törədilməsi, onların təkrar törədilməsindən asılı olaraq həyata keçirilən profilaktiki tədbirlərin məzmunu da fərqlənir. Məsələn, əvvəllər ağır və xüsusilə ağır cinayətlərə görə dəfələrlə məhkum edilmiş şəxslərə qarşı həyata keçirilən profilaktiki tədbirlər geniş, sistemli və kompleks həyata keçirilə bilərsə, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuşlara qarşı belə tədbirlərin keçirilməsinə nadir hallarda ehtiyac olur. Qeyd edilən müxtəlif kateqoriyaya aid şəxslərin profilaktiki uçotunun növləri də müxtəlif olur (idarədaxili təşkilati-normativ aktlarda nəzərdə tutulur). Belə leqal tövsif əsasında cinayətkar fəaliyyətini istiqaməti üzrə əməliyyat-axtarış uçotları sistemləşdirilir. Leqal tövsif öz-özlüyündə bir çox halda müəyyən kateqoriyadan olan, əvvəllər məhkum olunanların əməliyyat uçotlarına qoyulmasını qabaqcadan müəyyən edir.

***Cinayətin törədilmə mərhələləri institutu gizli inkişaf edən, ƏAF-nin metod və vasitələrinin köməyi ilə aşkar olunan cinayətkar davranışa qarşı tətbiq edilən təsirin xarakterini müəyyən edir. Cinayət hüququnda qəsdən törədilən cinayət 3 inkişaf mərhələsini keçir: cinayətə hazırlıq, cinayət etməyə cəhd (başa çatmayan cinayət) və başa çatmış cinayət. Hüquqi tənzimlənmə əhatəsindən kənarda olan daha bir mərhələ var və bu mərhələ niyyətin formalaşması və aşkar edilməsidir. ƏAF üçün bütün bu 4 mərhələnin mühüm əhəmiyyəti var, belə ki, onların hansına əməliyyat-axtarış müdaxiləsindən asılı olaraq ƏAT-nin istiqaməti, məzmunu və taktikasının seçilməsi mühüm dərəcədə asılıdır.***

Cinayət qanunvericiliyində, "ƏAF haqqında", "Polis haqqında" Qanunlarda və s. hüquqi mənbələrdə bu üç mərhələ öz əksini tapmışdır. Lakin bu mərhələlərin məzmunu və mahiyyəti cinayət qanunvericiliyində öz əksini tapmış normalarla müəyyən olunur (CM-in 27-29-cu maddələri - başa çatmış, başa çatmamış cinayət, cinayətə hazırlıq, cinayət etməyə cəhd). Bu hüquqi institutun cinayətin başa çatmasına və beləliklə müəyyən qrup ictimai münasibətlərə zərər vurulmasına yol verilməməsi ilə bağlı vəzifələrin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Əməliyyat müvəkkilləri ilk növbədə çalışırlar ki, məhz cinayətə hazırlıq və ya cəhd mərhələsində ƏAT-nin həyata keçirməklə əldə etdikləri informasiyanı realizə etsinlər və cinayətkar əməllər nəticəsində insan hüquq və azadlıqlarının pozulmasına yol verilməsin, ağır nəticələrin qarşısı alınsın (insan həyat və sağlamlığı, insanların və dövlətin mülkiyyəti, dövlətin

konstitusiya quruluşu və s.). Belə faktlar əsas etibarılə rüşvətxorluğun iştirakçıları, dələduzların, cibgirlərin, narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin tutulması üçün daha xarakterikdir.

Cinayət hüququnun belə institutunun tətbiqi kombinasiyalı ƏAF aparılmasına istiqamətlənir, cinayətkar tərəfindən son nəticə olan cinayət əməlinin başa çatdırılmasına nail olmasının bütün mümkün maneələrinin yaradılması məqsədinə xidmət edir.

ƏAF üçün cinayətkar məqsədin aşkar edilməsi mərhələsi mühüm rol oynayır, belə ki, bu mərhələdə cinayət törətmək niyyəti ifadə olunur. Belə niyyətin aşkar edilməsi əməliyyat-profilaktiki müdaxiləni tələb edir. Əməliyyat işçilərini (əməliyyat müvəkkillərini) həmişə düşünülmüş cinayətlərin incəlikləri, xırda elementlər ilə bağlı məsələlərdən ehtiyat etməsi, narahatlığı ilə yanaşı, həmçinin istənilən əlverişli şəraitə uyğun olan cinayət niyyətinin yaranması mühüm amillərdən biri kimi maraqlandırmalıdır. Bu qeyd edilənlər şəxsiyyətin ictimai təhlükəliliyinin formalaşması və inkişafının təsdiqi kimi qiymətləndirilir.

**Bu problemi daha dərindən və hərtərəfli B.Q.Moroxin (1957-ci il) və P.F.Qrişanin (1967-ci il) tədqiq etmişlər. Lakin cinayət-hüquqi nəzəriyyəsi bazasında cinayətlərin qarşısının alınması üzrə ƏAT-nin təşkili və taktikasının daha tam və hərtərəfli açıqlanması sahəsində mühüm işləri A.Q.Lekar (1967-ci il) həyata keçirmişdir.** Onun ƏAO-nun profilaktiki-xəbərdarlıq fəaliyyətində cinayətlərin törədilmə (baş vermə) mərhələlərinə dair əsasların fəal istifadə edilməsinə dair fikirləri müasir cinayət hüququ elmində, həmçinin ƏAF nəzəriyyəsi və təcrübəsində öz geniş əksini tapmışdır.

Cinayət hüququnda üstünlük təşkil edən bir baxış (nöqteyi-nəzər) kimi cinayət niyyətinin cinayətin törədilmə mərhələlərinə aid edilməməsi fikri ilə razılaşsaq da (M.D.Şarqorodski, B.S.Nikiforov, V.N.Kuznetsov, N.D.Durmanov, N.F.Kuznetsova və b.), cinayət niyyəti aşkar olunmuş şəxslərin ictimai təhlükəli olmasını inkar edənlərlə razılaşmağı düzgün saymırıq.

Əgər cinayətkar niyyət həyata keçirilməzsə, bu o fikri rədd etmir ki, məhz onun həyata keçirilməsi halında o, cinayətin subyektiv tərəfini formalaşdırardı. Deməli, niyyət və həyata keçirmək (realizə etmək) arasında müəyyən əlaqə var və niyyət başqa bir şey olmayıb müvafiq hərəkətlərin əsasını ifadə edir.

Bu əlaqənin dağıdılması əməliyyat müvəkkilinin vəzifəsidir. Təcrübə materialla-rının təhlili əsasında və cinayət hüququ elminin mövqeyi baxımından belə fikri təsdiq

etmək olar ki, bəzi cinayətlərin xüsusiyyətəllərinə görə bir sıra hallarda cinayətə hazırlıqla bağlı hərəkətləri sənədləşdirmək nəinki çətindir, bir çox hallarda mümkün deyildir. Belə hallarda "cinayətkarın cinayət başında" cinayətə cəhd edərkən tutulması daha məqsədəuyğundur (narkotik vasitələrin alqı-satqısı, cibgirlik cinayətləri və s.).

Burada belə cinayət-hüquqi normanı da nəzərə almaq lazımdır ki, yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur (CM, m. 28). Bu halda belə sual da meydana çıxa bilər - əgər hər hansı şəxsdə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə aid edilən (CM, m. 15) əməlləri həyata keçirmək niyyəti varsa və ya onların həyata keçirilməsi üçün hazırlıq aparılarsa, Cinayət Məcəlləsində yuxarıda qeyd edilən maddəni rəhbər tutaraq hazırlıq hərəkətləri aparılan zaman və yaxud ondan əvvəl formalaşan cinayət niyyətindən çəkindirilməsi üçün əməliyyat-axtarış tədbirləri keçirilməsi düzgündürmü? İstər ölkədə cinayətkarlığa qarşı mübarizə siyasəti, istərsə də Konstitusiyanın, cinayət qanunvericiliyinin, "ƏAF haqqında", "Polis haqqında" qanunların bir çox müvafiq normalarının təhlili, cinayətkarlığa qarşı mübarizənin labüdlüyü, insan və vətəndaşların hüquq və azadlıqlarının dövlət təminatının verilməsi, həmçinin beynəlxalq qanunvericiliyin tələbləri bu suala birmənalı cavab verməyi əsaslandırır. Bu cavab belədir: bəli, düzgündür. Lakin bu mərhələdə müxtəlif əməliyyat situasiyalarında (vəziyyətlərində) əməliyyat işçiləri incəliklə, bəzən lazımsız sayılan, lakin çox vacib olan amilləri nəzərə almalı və məharətlə hərəkət etməlidirlər. Bu, çox mürəkkəb, çətin, yüksək peşəkarlıq və əməliyyat ustalığı, son illər elmdə istifadə edildiyi kimi əməliyyat-taktiki ustalığı tələb edən prosesdir. Bu prosesdə mənəvi-etik, psixoloji faktlara xüsusi diqqət yetirilməlidir. Son illər cəmiyyəti, əksər dünya dövlətlərini narahat edən müasir dövrün ən böyük faciəsi və təhlükəli təzahürü sayılan mütəşəkkil cinayətkarlığın bütün istiqamətlərində (narkobiznes, narkomafiya, korrupsiya, terrorizm və s.) mübarizədə cinayətdə iştirakçılıq institutunun böyük və mühüm əhəmiyyəti var. Bu institut mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin praktiki olaraq hüquqi çərçivəsini müəyyən edir və əməliyyat işçiləri üçün onun modellərinin variantlarını yaradır. Cinayət qanunvericiliyində bu institut iştirakçılığın növlərinin **(cinayətin icraçısı, təşkilatçısı, təhrikçisi və köməkçisi)**, iştirakçıların məsuliyyətinin, cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) (CM-in 31-35-ci maddələri) tərəfindən törədilməsi kimi anlayışların məzmunu ilə verilmişdir.

Ən çox təhlükə yaradan isə təşkilatçılardır, onların cinayət əməllərini ifşa etmək bir çox hallarda həddən artıq çətin və mürəkkəbdir. Ona görə də onlar əməliyyat yoxlamasının (tədqiqinin) əsas obyektləri sayılırlar. Onlar cinayətlərin törədilməsini təşkil edir, MCQ və MCT(B)-də münasibətləri və davranışı, qrupdaxili intizamı müəyyən edirlər. Təşkilatçı sabit olmayan, iradəsi nisbətən zəif olan şəxslərin şüuruna təsir edir, onları cinayət törətməyə istiqamətləndirir, digər iştirakçıların cinayətkar hərəkətlərinə müəyyən sistemin tətbiqini həyata keçirir, onlar arasında konspirativ əlaqələri sahmana salır, çox dəqiq pərdələnməsini tələb edir və əks agentur tədbirləri görür. İcraçılar arasında bir qayda olaraq rollar müəyyənləşdirilir: bir hissə çox, digər hissə isə az ictimai təhlükəli funksiyaları icra edir. Rolların belə bölüşdürülməsi onların cinayətkar təcrübəsindən, mənəvi, iradi və fiziki hazırlığından çox asılıdır. İcraçıların ictimai təhlükəlilik dərəcəsinin qeyri-bərabərliyi mühüm əhəmiyyətə malikdir. Bunlar əməliyyatçılara əməliyyat yoxlanılması və tədqiqinin bütün mərhələlərində MCQ və MCB(T)-də "zəif həlqələrin" (hissələrin) tapılmasına kömək edir. Bunlar təsir altına düşmüş, aldanmış iştirakçılar və ya zəif əsəb sisteminə malik, öz üzərində cəzanın labüdlüyünü keçirmiş və əməli olaraq sübutların gücünə inanan təcrübəli cinayətkardır.

**Köməkçilər** xüsusi əməliyyat marağı kəsb edirlər. Cinayətin törədilməsinə kömək etməklə onlar cinayət alətini, cinayətin törədilməsi nəticəsində əldə edilən əşya və predmetləri saxlayan şəxslər qismində iştirak edir, cinayətlərin törədilməsi detalları (təfsilatları) haqqında yaxşı məlumatlara malik olurlar.

**Təhrikçilər** bir fiqurant kimi ƏAF üçün çox mühüm əhəmiyyətə malikdir, xüsusilə də yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizədə. Deməli, mütəşəkkil cinayətkar qrup, dəstə və birləşmə üzvlərinin əməllərinin cinayət qanunvericiliyi müstəvisində düzgün qiymətləndirilməsi cinayət prosesində çox çətin olur və onların tam ifşası üçün ƏAF-nin rolunun əvəzsiz olduğunu təsdiqləmək mümkündür.

Cinayət məsuliyyətindən və cəzadan azad olunma institutu cinayətkarlığa qarşı mübarizə üzrə ƏAF-də xüsusilə fəal istifadə edilməlidir. **Cinayət qanunvericiliyi bu iki anlayış arasında mühüm fərqlərin olmasını nəzərdə tutur:**

1. Cinayət məsuliyyətindən azad olma əsas etibarılə böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərlə əlaqəlidir; cinayət məsuliyyətindən azad edilmə bu əlamətlə çox sıx və kəskin əlaqə təşkil etmir;

2. Şəxs cinayət məsuliyyətindən cinayət prosesinin və cinayətin mühakimə icraatının bütün mərhələlərində azad ola bilər (ittiham olunan, mühakimə edilən, məhkum olunmuş); cəzadan isə yalnız haqqında ittiham hökmü olan şəxs azad edilə bilər;

3. CPM-ə görə şəxs cinayət məsuliyyətindən nəinki məhkəmə, o cümlədən prokuror və onun razılığı ilə müstəntiq və təhqiqatçı tərəfindən də azad edilə bilər; cəzadan isə yalnız məhkəmənin qərarı ilə azad edilə bilər.

Axırıncı şərt ƏAF üçün daha böyük əhəmiyyətə malikdir. Cinayət qanunvericiliyinin normalarına müvafiq olaraq əməliyyat müvəkkilləri, əməliyyat aparatlarına kömək edən şəxslərin cinayət məsuliyyətindən azad edilməsinə dair qərar çıxarılmasına mühüm dərəcədə təsir edə bilər.

ƏAF üçün cinayət qanunvericiliyində nəzərdə tutulan (CM-in 36-40-cı maddələrində) zəruri müdafiə, cinayət törətmiş şəxs tutularkən ona zərər vurulması (məsələn, silahlı cinayətkarın tutulması məqsədilə əməliyyatçılar mənzilə daxil olur və qapını sındırır, cinayətkarın sağlamlığına müəyyən zərər yetirirlər və s.), son zərurət, əsaslı risk, əmrin və sərəncamın yerinə yetirilməsi kimi normaların da xüsusi əhəmiyyəti var. Hər bir HMO-nun, o cümlədən polis orqanın əməkdaşı, xüsusilə də əməliyyat aparatının əməkdaşları onların leqal və qeyri-leqal təfsirini bilməli, cinayətkarlığa qarşı mübarizədə tətbiq etməyi bacarmalıdır. Məsələn, "ƏAF haqqında" Qanunda (maddə 14, VII hissə) qeyd edilmişdir ki, əməliyyat tapşırığını yerinə yetirərkən ƏAF subyektlərinin müvəkkil edilmiş şəxsin, cinayətkar qrupların və kriminogen obyektlərin daxilində olması, habelə bu zaman zəruri özünümüdafiə və ya son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətlər Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibini yaratmır.

***ƏAF-nin məqsədləri baxımından cinayətdən könüllü olaraq imtina etmə institutunun* daha böyük imkanlara malik olması mühüm əhəmiyyətə malikdir.** Cinayət qanunvericiliyində öz əksini tapmış normaya görə cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən şəxs tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəlmiş əməlin (hərəkət və ya hərəkətsizlik) dayandırılması cinayət törətməkdən könüllü imtina etmə sayılır (CM, maddə 30). Könüllü imtinanın əsas hüquqi nəticəsi cinayət məsuliyyətinin rədd edilməsidir. Bu maddə həmçinin cinayətin təşkilatçısı, təhrikçisi və köməkçisinin də cinayət məsuliyyətindən azadolunma hallarını əhatə edir.

Bütün bunları nəzərə alaraq demək olar ki, cinayətin bütün iştirakçılarını cinayətdən könüllü imtinaya sövq etdirmək məqsədilə əməliyyatçıların və məxfi əməkdaşların hərəkətlərinin hüquqi diapazonu lazımi dərəcədə genişdir.

ƏAF nəzəriyyəsi həmişə cinayət niyyəti olan, onu hazırlayan şəxslərə qarşı ƏAOnun fəal taktikasına əsaslanmışdır. Belə baxışlar və nöqteyi-nəzər nəinki ƏAF nəzəriyyəsi, həmçinin cinayət hüququ sahəsində çalışan mütəxəssislər tərəfindən də qəbul edilib dəstəklənmişdir. Sualın mahiyyəti ondan ibarətdir ki, əgər cinayət hüququ elmində bir sıra alimlər tərəfindən işlənmiş müddəalara tənqidi, əməliyyat çevikliyi baxımı ilə yanaşılmasa onda ƏAO-nun xəbərdaredici fəaliyyəti cinayət niyyəti olan, cinayəti hazırlayan və yaxud ona cəhd edən subyektlərin könüllü iradəsini ifadə etməsini passiv gözləməsinə çevrilmiş olardı. Belə mövqeyə sosial baxımdan bəraət qazandırmaq, görünür düz deyil və o, cinayətkarlığa qarşı mübarizə siyasətinə, həmçinin ƏAF-də həmləlik prinsipinə uyğun deyil. Belə mövqenin qəbul edilməsi halı cəmiyyət üçün, dövlət təhlükəsizliyi, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı ağır və xüsusilə ağır cinayətlərin baş verməsi təhlükəsinin artması, onların qarşısının alınmasının çətinliyi, problemlərin yaranması və s. amillərlə bağlıdır. **E.F.Pobeqaylonun qeyd etdiyi kimi könüllü imtinanın əsas təyinatı cinayətləri xəbərdar etmək və onların qarşısını almaqdır. Qanunverici tərəfindən şəxsin başlanmış cinayətkar fəaliyyətdən** əl çəkməsi ilə bağlı olaraq cinayət məsuliyyətindən azad olması imkanının nəzərdə tutulması şəxsin cinayət niyyətindən imtina etməsini stimullaşdırır. Bu imkan xüsusi ədəbiyyatda şərti olaraq bədii formada **"geri çəkilmək üçün qızıl körpü"** adlandırılır. Cinayətlərin qarşısının alınması, yəni əməliyyatçıların hadisələrin gedişinə açıq müdaxilə etməsilə müqayisədə ƏAF-də könüllü imtina etmə institutunun tətbiq edilməsi bir sıra üstünlüklərə malikdir. Məlum olduğu kimi, açıq müdaxilə həmişə müsbət nəticə vermir, belə ki, subyekt qarşısında elə şərait yaradılır ki, o, öz cinayət əməllərini başa çatdıra bilmir. Məhz ona görə də heç bir təminat yoxdur ki, o, başqa vaxt əlverişli bir vəziyyətdə təkrar belə cinayət törətməyə cəhd etməyəcəkdir.

Könüllü imtina isə əsas etibarilə son və qəti qərar kimi qiymətləndirilir, bu halda obyektə cəhd (qəsd) edilmədən imtina olunur, hüquqla mühafizə olunan obyektin daha etibarlı təhlükəsizliyinə təminat verilir.

ƏAO-nun ilkin və əsas vəzifəsi cinayətin qarşısını almaqdır, ona görə də o, cinayəti hazırlayanın öz niyyətindən və hazırlıq hərəkətindən könüllü imtina etməsini gözləyə

bilməz. Onlar öz istifadəsində və səlahiyyət çərçivəsində olan qüvvə və vasitələrdən fəal, səmərəli və məqsədyönlü istifadə edərək belə hərəkətləri qabaqlamalıdırlar.

ƏAF üçün ***könüllü imtinanın könüllü peşmançılıq kimi cinayət-hüquqi institutdan fərqləndirilməsi çox mühüm əhəmiyyətə malikdir.*** Onu nəzərə almaq lazımdır ki, ilk növbədə bu institut cəzanı yüngülləşdirən hallara (CM, maddə 59) aiddir və o, cinayət məsuliyyətindən azadetmənin əsasını təşkil edr (CM, maddə 72). ƏAF-nin taktikası üçün Cinayət Məcəlləsinin sonuncu maddəsinin norması çox mühüm amildir, onun xüsusilə vətəndaşların məxfi əməkdaşlığa cəlb edilməsi ilə bağlı keçirilən ƏAT üçün əhəmiyyəti daha böyükdür. Məsələn, CM-in 72-ci maddəsində (səmimi peşmançılıqla bağlı cinayət məsuliyyətindən azad etmə) qeyd edilmişdir:"İlk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına dərhal və fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər". Bu normaya müvafiq olaraq "ƏAF haqqında" 28 oktyabr 1999-cu il tarixli qanunun 17-ci maddəsi (VIII hissə) aşağıdakı redaksiyada verilmişdir:" ƏAF-nin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü tərkibində cinayət əlamətləri olan və ağır nəticələrə səbəb olmayan əməllər törədibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olur". CM-in maddələri və "ƏAF haqqında" qanunun yuxarıda göstərilən maddələrinə nəzər salsaq, onlar arasındakı müəyyən dərəcədə uyğunluğu görmək olar.

***Cinayət Məcəlləsinin Xüsusi hissəsində bəzi ağır və xüsusilə ağır cinayətlərin törədilməsi ilə bağlı xüsusi hallarda da cinayət məsuliyyətindən azad etmək nəzərdə tutulmuşdur. Məsələn, CM-in 277-ci maddəsi (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama), 214-cü maddə (terrorizm), 144-cü maddə (adam oğurluğu), 234-cü maddə (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya proekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma), 228-ci maddə (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) və 312-ci maddəsində (rüşvət vermə) belə hallar nəzərdə tutulmuşdur.*** Qeyd edilənlərdən göründüyü kimi, cinayət hüququnda yeni bir institut kimi səmimi peşmançılıq cinayətlərin qarşısının alınması və açılmasında əməliyyat aparatları qarşısında geniş imkan yaradır və fəaliyyət sahəsi açır.

Əməliyyat-axtarış təcrübəsi istər bu, istərsə də cinayətdən könüllü imtina institutlarının uzlaşdırılması qaydasında səmərəli, effektli tətbiqinin çoxlu sayda nümunəvi misalları ilə zəngindir.

***Cinayət qanunvericiliyinin cəza, cəzadan azadetmə, onun yüngülləşdirilməsi institutunun müəyyən normalarının da əməliyyat aparatlarının fəaliyyəti üçün xüsusilə mühüm əhəmiyyəti var. Məsələn, CM-in 42, 49, 53-cü maddələri (cəzanın növləri, islah işləri; azadlığın məhdudlaşdırılması) və 62-ci maddəsinin (cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) ƏAF-də uzlaşdırılması qaydasında səmərəli, effektli tətbiqinin də çoxlu sayda nümunəvi misalları mövcuddur.***

Cinayət qanunvericiliyinin cəza və cəzadan azadetmə institutunun digər normalarının da əməliyyat aparatlarının fəaliyyəti üçün xüsusilə mühüm əhəmiyyəti var. Məsələn, CM-in 42, 49, 53-cü maddələri (cəzanın növləri, islah işləri; azadlığın məhdudlaşdırılması), 62-ci maddəsi (cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi), 70-ci (şərti məhkumetmə), 71-ci (şərti məhkumetmənin ləğv edilməsi və ya sınaq müddətinin uzadılması) və s. maddələri kimi cinayət-hüquqi normaların ƏAF-də geniş tətbiq edilməsi təcrübəsinin nəticələrinin təhlili və tələbləri, elmi tədqiqatların nəticələri ilə şərtləndirilir və onların zəruriliyini təsdiqləyir.

**Bu maddələrdə qeyd edilən cinayət-hüquqi normalar tətqiq olunan şəxslərə qarşı əksər hallarda aşağıdakı istiqamətlərdə əməliyyat-axtarış hərəkətləri keçirilməsi üçün vacibdir:** Cinayət məsuliyyəti və cəzadan azad olan, həmçinin azadlığı məhdudlaşdıran şəxsin düşdüyü, olduğu mühitin öyrənilməsi məqsədilə əməliyyat yoxlamalarının keçirilməsi; kriminogen kateqoriyadan olan cinayətkar ünsürlərlə əlaqəsinin olduğu hallarda onlar üzərində gizli müşahidənin həyata keçirilməsi; belə şəxslər cinayətkarlığa qarşı mübarizədə kömək edə, xeyir verə bilərlərsə, bu imkanların həcmi və belə şəxslərin şəxsi-psixolojı keyfiyyətlərindən asılı olaraq onlarla məxfi əməkdaşlıq əlaqələrinin yaradılması və inkişaf etdirilməsi.

Bu qeyd edilənlər cinayət qanunvericiliyi və ƏAF sahəsində qanunvericilik, cinayət hüququ elmi ilə yaxın gələcəkdə həmçinin əməliyyat-axtarış hüququ elmi arasında çox sıx əlaqələrin zəruriliyini və onun cinayətkarlığa qarşı mübarizədə ayrılmazlığı, bölünməzliyi və vahidliyini təsdiq edir. Biz qeyd edilən vahidliyi və sıx əlaqəni əsaslandıran və bu hissədə əksini tapan bəzi müddəalara toxunduq, lakin onlar qeyd olunanlardan daha genişdir.

## §3. Əməliyyat-axtarış fəaliyyəti və cinayət prosesi

Cinayət prosesi cinayət işləri üzrə ədalət mühakiməsinin vəzifələrinin yerinə yetirilməsinə yönəldilmiş demokratik prinsiplər əsasında qanunla müəyyən edilmiş prosessual formada həyata keçirilən təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət işinin başlanması, istintaqı, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyətidir.

Azərbaycan Respublikasının CPM-də qeyd edilmişdir ki, Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir (maddə 1.1. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin təyinatı). Göstərilən maddədə həmçinin cinayət-prosessual qanunvericiliyin ən vacib istiqamətlərindən biri aşağıdakı redaksiyada verilmişdir: "Qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun". "ƏAF haqqında" Qanunda (maddə 1.) Bu fəaliyyətin məqsəd və vəzifələri cinayət-prosessual qanunvericiliyin təyinatı və vəzifələri ilə uzlaşır. Bundan əlavə, əgər ölkə Konstitusiyasında öz əksini tapmış təqsirsizlik prezumpsiyası (maddə 63) anlayışını əhatə edən redaksiyanı, cinayət-prosessual elminin və qanunvericiliyinin təyinatı və yönəldiyi istiqamətləri, "ƏAF haqqında" Qanunda öz əksini tapmış bu fəaliyyətin məqsədi, vəzifələri, əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadəni müəyyən edən normaların qarşılıqlı əlaqəli qaydada təhlili (xüsusilə də "ƏAF haqqında" Qanunun 16-cı maddəsində öz əksini tapmış "ƏAF nəticəsində əldə edilmiş materiallar, bu qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının CPM-in tələblərinə uyğun təqdim edildikdə və yoxlandıqda cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər", redaksiyası altında verilən norma cinayət prosesi elmi (cinayət-prosessual hüququ) ilə əməliyyat-axtarış fəaliyyəti elmi (hüququ) arasında zəruri, qırılmaz, sıx əlaqələrin olmasını əsaslandırır. "ƏAF haqqında" Qanunda həmçinin qeyd edilir ki, hər hansı bir cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaqı aparan şəxsə, prokurora və ya məhkəməyə verilir (maddə 16).

**Yuxarıda qeyd edilənlər, cinayət-prosessual elminin və ƏAF elminin bir çox müddəaları, cinayət-prosessual və "ƏAF haqqında" qanunvericiliklərin bir sıra normalarının hüquqi tətbiqi aspektləri və s. bu iki elm arasında olan qırılmaz əlaqəni əyani olaraq görməyə imkan verir və onlar aşağıdakılarla müəyyən edilir:**

– ƏAF-nin və prosessual fəaliyyətin vəzifələrinin vahidliyi;

– cinayət-prosessual qanunvericilikdə birbaşa göstərilmiş normalar: bağlı qalmış cinayət işləri üzrə təhqiqatçı cinayət törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür (CPM, m. 86);

– müstəntiq müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılmasından ötrü əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün tapşırıq vermək və görülmüş tədbirlər barədə məlumat almaq hüququna malikdir (CPM, m. 85);

– əməliyyat-axtarış tədbirlərinin təhqiqat, ibtidai istintaq orqanları və məhkəmə hakimiyyəti orqanlarının cinayət-prosessual fəaliyyətinin informasiya təminatına istiqamətlənməsi;

– ƏAT-nin keçirilməsi nəticəsində toplanmış materiallar üzrə cinayət işinin başlanmasının əsaslarının cinayət-prosessual xarakteri; ibtidai istintaqın, təhqiqatın və ya məhkəməyədək materialların hazırlanmasının protokol formasının aparılması məcburi olan hüquqazidd əməllərin hazırlanması və törədilməsinə dair informasiyanın alınması və bu halda cinayətin əlamətlərinin olmasına dair kifayət qədər məlumatların olmaması; icraatda olan cinayət işləri üzrə müstəntiqin tapşırığı, prokurorun göstərişi və ya məhkəmənin qərardadı və s.;

– ƏAF və cinayət-prosessual qanunvericiliklərdə ƏAF-ni həyata keçirmək səlahiyyəti olan subyektlərin insanların yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin saxlanması və mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılması ilə bağlı əməliyyat-axtarış tədbirlərinin hakimin icazəsi ilə keçirilməsinin öz əksini tapması ("ƏAF haqqında" Qanunun 10-cu maddəsi, CPM-in 445-ci maddəsi);

– ƏAF qanunvericiliyində ƏAF-nin nəticələrinin cinayətlərin xəbərdarlığı, qarşısının alınması və açılması üzrə istintaq hərəkətlərinin və ƏAT-nin hazırlanması və keçirilməsində istifadə edilməsi, həmçinin onları cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulan qaydada yoxlayıb qiymətləndirildikdən sonra cinayət

işi üzrə istifadə edilməsi qaydaları öz əksini tapmışdır ("ƏAF haqqında" Qanunun 16-cı maddəsi);

– ƏAT-nin keçirilməsi insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinə prokuror və məhkəmə nəzarətinin qanunvericilikdə nəzərdə tutulması (ƏAF haqqında" Qanun, m. 4, 10, 19-1,20, CPM, m. 442-448[1]);

– ƏAT-nin keçirilməsində Azərbaycan Respublikasının qanunlarının müvafiq orqan və vəzifəli şəxslər tərəfindən dəqiq və dürüst icra edilməsinə prokuror nəzarətinin qanunvericilikdə nəzərdə tutulması və s.

Yuxarıda qeyd edilən cinayət-prosessual qanunvericilikdə və "ƏAF haqqında" Qanunda nəzərdə tutulan digər normalar ƏAF elmi (nəzəriyyəsi) və cinayət-prosessual elmi sahələrinin qarşılıqlı əlaqələrinin tədqiqinin başlanğic hissəsidir. Onlar, xüsusilə əməliyyat-axtarış fəaliyyətinin (ƏAT-nin) sənədləşməsi və prosessual sübutetmədə cinayət-mühakimə icraatının vəzifələrinin həll edilməsi üçün prosessual hərəkətlərin və ƏAT-nin elmi uzlaşdırılmasını təmin edir.

## § 4. Əməliyyat-axtarış fəaliyyəti və kriminologiya

ƏAF nəzəriyyəsi kriminologiya elmi ilə sıx, üzvi əlaqəlidir. Kriminologiya elmi cinayətkarlığın qanunauyğunluqlarını, inkişaf ənənəsini, onun səbəb və şəraitini, cinayətkarın şəxsiyyətini, cinayətkar davranışın determinasiyası (latın sözü olub müəyyənləşdirmək deməkdir) və genezisini (yunan sözü olub, anadan olma, əmələ gəlmə, mənbə deməkdir) öyrənən bir elmdir.

**Əgər kriminologiya elminin sosial-hüquqi bir elm olmasını nəzərə alsaq, qeyd etmək lazımdır ki, onun öyrənmə predmeti çox istiqamətlidir və əsas etibarılə aşağıdakıları əhatə edir:**

- cinayətkarlıq, onun anlayışı və onu xarakterizə edən faktorlar, cinayətkarlığın səbəbləri, cinayətkarın şəxsiyyəti, fərdi cinayətkar davranışın səbəb və şəraiti, cinayətkarlığın öyrənilməsinin təşkili və metodikası, cinayət statistikası və onun kriminoloji tədqiqatlarda istifadə edilməsi, kriminoloji proqnozlaşdırma və cinayətkarlığa qarşı mübarizənin planlaşdırılması, DİO-nun cinayətkarlığın qarşısının alınması ilə bağlı fəaliyyətinin hüquqi, təşkilati və taktiki əsasları, profilaktikanın əsas formaları, məzmunu, səviyyəsi və növləri, cinayətlərin profilaktikası sahəsində fəaliyyətin təş-

1 Bax: kitaba əlavədə, tövsiyyə edilən ədəbiyyatların siyahısına

kili və idarə olunmasının elmi və təcrübi əsasları, müxtəlif növ cinayətlərin kriminoloji xarakteristikası və profilaktikası.

Kriminologiyanın, cinayətkarlığın törəməsi olan çoxsaylı, müxtəlif hadisə, təzahürlərə dair çox dərin bilikləri əks etdirən kateqoriyaları ƏAF-nin təşkili və taktikasına bilavasitə təsir göstərir.

ƏAF-nin subyektlərinin strukturu, onların sahəvi və xətt üzrə ixtisaslaşması cinayətkarlığın strukturu, yalnız onun növləri ilə deyil, həmçinin kriminologiya nəzəriyyəsində işlənmiş formaları (residiv, yetkinlik yaşına çatmayanların, qrup halında, peşəkar və mütəşəkkil) ilə də müəyyən olunur. Bu qeyd edilənlər ƏAF-nin təşkilində istifadə olunan cinayətkarlığın kriminoloji xarakteristikasının bir aspektidir. Bu təşkili məsələnin ən vacib elementlərindən biri ƏAF subyektlərinin fəaliyyətinin bütün səviyyələrində əməliyyat şəraitinin qiymətləndirilməsidir.

Belə qiymətləndirilməyə mütləq cinayətkarlıqla səbəb əlaqəsi olan cinayətkarlığın kriminoloji analizi, onun vəziyyəti, strukturu və dinamikası, həmçinin yerli və ya regional, coğrafi, demoqrafik, iqtisadi və sosial-psixolojı faktlar daxildir.

Məhz analiz əsasında cinayətkarlıqdakı meyllilik, ənənə müəyyən olunur, ərazinin, nəqliyyat obyektinin (dəmir yolunun və s.) daha çox hüquqazidd hərəkətlərdən zərər çəkən sahələri və əraziləri aşkara çıxarılır, cinayət təzahürləri daha çox ehtimal edilən yerlər, onların miqdarı və strukturuna dair proqnozlar verilir. Belə taktiki və əsaslı proqnozların nəzərə alınması ƏAF subyektlərinin qüvvələrinin yerləşdirilməsi variantının seçilməsi, ərazi və obyektlərin əməliyyat nəzarəti altına alınmasının təşkilinə yönəlmiş düzgün qərarların çıxarılmasına imkan verir. Cəzaçəkmə müəssisələrində və onların yerləşdiyi ərazilərdə, yerli əhalinin strukturunun, məhkum olunanların, müəssisənin istehsalat profili və onların obyektlərinin dislokasiyasının analizinə kriminoloji yanaşma mühüm əhəmiyyətə malikdir. Əməliyyat şəraitinin hərtərəfi, dərin təhlili və mütəşəkkil cinayətkarlıqda olan ənənənin proqnozlaşdırılması kriminologiyada müəyyən olunmuş neqativ meylli davranışla, cinayətlərin dinamikası, zorakılıq, tamah-zorakılıq cinayətləri (qəsdən adam öldürmə, sağlamlığa az ağır, ağır zərər vurma, quldurluq, soyüunçuluq, oğurluq, xuliqanlıq) arasında asılılığın müəyyənləşdirilməsinə kömək edir.

Xırda xuliqanlıq, xırda talamaya yol verən, əyyaşlıq edən, ictimaiyyətə zidd tüfeyli həyat tərzi sürən, narkotikləri istehlak edən, əvvəllər məhkum olunmuş (xüsusən də təkrar cinayətlərə yolvermişlər, törətdiyi cinayətlər təhlükəli və xüsusilə

təhlükəli cinayətlərə aid edilənlər) şəxslər və onların hüquqazidd əməllərində olan meyillilik, ənənə, inzibati qaydada məcburi gətirilmə və rəsmi məzəmmətin tətbiqi, qeyri-formal qruplaşmaların (o cümlədən yetkinlik yaşına çatmayanların) qrup halında hüquq qaydalarını pozması haqqında statistik məlumatlar cinayətlərin baş verməsinin (yaranmasının) çox dərin proseslərini əks etdirir və cinayətkarlıqda (o cümlədən mütəşəkkil) ehtimal olunan meyil və ənənələri qabaqcadan görmək, proqramlaşdırmaq üçün bir cihaz, vasitə kimi istifadə olunmalıdır.

Kriminologiyada cinayətkarın şəxsiyyəti çox geniş və böyük həcmli anlayış səciyyəsi daşıyır. O, müxtəlif tipdən olan cinayətkarın sosial mahiyyətini, onların əlamətlərini, xassələrini, əlaqələrini, münasibətlərini, onların mənəvi aləmini, cinayətin baş verməsini bu və ya digər dərəcədə müəyyənləşdirən, fərdi və sosial həyatı şəraitlə qarşılıqlı əlaqədə olan inkişafda ifadə edir.

ƏAF üçün məhz cinayətkarın şəxsiyyəti, onların xarakterizə olunduğu xassələrin formalaşması haqqında ümumiləşdirilmiş tipoloji məlumatlar çox vacibdir. Cinayətkarların mənəvi cəhətdən formalaşması şəraiti, xüsusilə də onunla yaxın məişət əhatəsində olanlar, əlaqələri və tanışları içərisində formalaşması ƏAF üçün əhəmiyyət kəsb edir. Cinayətin açılması üçün konkret həyat şəraiti (vəziyyəti), şəxsiyyətin xüsusiyyətləri nəzərdə tutulmaqla, cinayətin baş verməsinə təsir göstərən kriminoloji şəraitin aşkar edilməsi son dərəcə vacibdir. Lakin ƏAF üçün həlledici amil kimi cinayətkarın sosial, psixolojı və mənəvi xassəsinə (baxışları, vərdişləri, adətləri, maraq dairəsi və onun məzmunu, tələbat səviyyəsi, xarakterinin xüsusiyyətləri və s.) dair müasir biliklərin olması, onlardan təcrübədə məharətlə istifadə edilməsi vərdişləri, bacarığı mühüm əhəmiyyətə malikdir.

Bu qeyd edilən göstəricilərlə yanaşı, cinayətkarın təcrübəsi, peşəkarlığı, cinayət əlaqələri və s. dair məlumatlar işlərdə, əməliyyat uçotlarının avtomatlaşdırılmış banklarında (informasiya sistemləri) istifadə olunur. Mənəvi-psixoloji xüsusiyyətləri əks etdirən məlumatları qiymətləndirməklə əməliyyat axtarışının, əməliyyat profilaktikasının və əməliyyat yoxlamasının (tədqiqinin) taktikası seçilir, cinayətlərin profilaktikası, məhkum edilmiş şəxslərin islah olunması prosesinin əməliyyat təminatı təşkil edilir.

Cinayətlərin açılmasında (xüsusilə də şəxsiyyət əleyhinə törədilən və s.), viktimoloji[1] amillər (cinayətin qurbanları, zərərçəkmiş şəxsi səciyyələndirən) də az əhəmiyyət kəsb etmir. Müxtəlif tip cinayətkarların şəxsiyyətinə dair kriminoloji məlumatlar daha əsaslı və etibarlıdır, belə ki, onlar daha geniş ümumiləşdirmələrə, yalnız

1 Viktimologiya- yunan sözündən götürülüb, cinayətlərin qurbanlar haqqında elm sahəsidir.

ayrıca şəxslərin öyrənilməsinə deyil, həmçinin cinayətkarları böyük insan kütləsindən seçməyə imkan verən ümumi və tipik xüsusiyyətlərə əsaslanır. Bu baxımdan kriminologiya çox zəngin ənənələrə malikdir, müxtəlif metodikalardan istifadə edir və nəticədə kifayət qədər informasiya əldə edilir. Belə informasiya əməliyyat işçiləri tərəfindən cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində müvəffəqiyyətlə istifadə olunur. Bu məlumatlar cinayətkar davranış mexanizmini ümumilikdə və onun müxtəlif növlərinin dərk edilməsinə, başqa sözlə, əməliyyat marağı obyektinin və ƏAF-nin predmetinin öyrənilməsinə kömək edir. Adətən bu biliklər əsasında əməliyyat işçiləri (əməliyyat müvəkkilləri) cinayətin törədilməsi şəraiti ilə üzləşdikdə yalnız obyektiv məlumatlara görə artıq əməlin cinayət-hüquqi əlamətləri haqqında deyil, həmçinin cinayətkarın əhalinin bu və ya digər sosial-demoqrafik, etnik qruplarına məxsus olması, onların mənəvi xassələri və psixoloji xüsusiyyətləri haqqında mühakimə yürüdə bilər və eyni zamanda bu xassə və xüsusiyyətlərin müəyyən kriminogen mühitdə formalaşması və onların harada axtarılmasına dair əsaslı fikir, təsəvvür yaranır. Məhz onları nəzərə almaqla əməliyyat-axtarış fərziyyələri irəli sürülə, cinayətlərin qarşısının alınması və açılması məqsədilə məqsədəuyğun, əsaslı tədbirlər keçirilə bilər. Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə ƏAF təcrübəsi üçün cinayətkar davranışın öyrənilməsinə kriminoloji baxımdan yanaşma həddən artıq vacib əhəmiyyətə malikdir. Belə yanaşmada cinayətkar davranışa yalnız cinayətkar hərəkətləri daxil edən məkan və vaxt etibarilə inkişaf edən proses deyil, həmçinin belə hərəkətlərin başlanğıcı olan sosial və psixoloji təzahür, hadisələr də nəzərdə tutulur. Kriminologiya cinayətkar davranışın mexanizminin öyrənilməsi əsasında onun necə yaranması, inkişafı və müxtəlif kateqoriyadan olan cinayətkarlar və müxtəlif növ cinayətlər üçün fərdi və qrup hallarında necə həyata keçirilməsi suallarına cavab verir. Belə qəbildən olan kriminoloji informasiya istər əməliyyat-profilaktiki müdaxilə tələb olunan zaman kriminogen proseslərin diaqnostikası üçün, istərsə də ilkin fərziyyələri çox səthi (dolğun olmayan) məlumatlar əsasında konkret cinayətin mexanizmini təsəvvür ("canlandırmalı") etməli olan əməliyyat müvəkkili tərəfindən əməliyyat-axtarış fərziyyələrin irəli sürülməsi üçün hədsiz dərəcədə qiymətlidir. Belə halda əməliyyatçı cinayət baş verənədək olan vəziyyətin (halın) və tipik cinayət davranışının modelini qura bilir və bu modelə istiqamətlənərək cinayətkarın izi və onun haqqında məlumatları məhz onların mövcud olduğu yerlərdə axtarır və müvafiq əməliyyat-axtarış tədbirləri keçirir.

Cinayətkar davranışın motivinə (kriminal motivə) dair kriminoloji məlumatların çox mühüm əhəmiyyəti var. Belə ki, onlar cinayətkarın yerinə "fikirləşməyə" kömək edir, bu isə əməliyyat-axtarış taktikası üçün çox vacib olan intellektual başlanğic və əsasdır. Əməliyyat müvəkkili cinayətkarın niyyətini, nəyi nəzərdə tutduğunu, necə hərəkət etdiyini, nə üçün başqa yox, cinayət törədilən vaxt məhz bu hərəkətləri etdiyini bilməklə yalnız cinayətkarın mənəvi və sosial libasını kifayət qədər aydınlaşdırmağa yox (modelləşdirməklə müvafiq sosial tipə aid olmasını), həmçinin onun fərdi obrazını (bəzən informasiyanın eyniləşdirilməsi yolu ilə cinayətkarın şəxsiyyətini) müəyyən etməyə müvəffəq olur. Bu amil ƏAF-nin qüvvə və vasitələrinin istiqamətləndirilməsi üçün mühüm əhəmiyyətə malik olub əməliyyat-axtarış fəaliyyəti dairəsini (sahəsini) konkretləşdirməyə kömək edir.

ƏAF-də fərdi və qrup halında olan cinayətkar davranışının proqnozlaşdırılmasından istifadə edilməsi də vacibdir. Belə proqnozlaşdırma ona görə mümkün olur ki, cinayətkar davranışın sosial mühitin obyektiv hadisə və təzahürləri ilə çoxsaylı əlaqələri var.

Proqnoztrialrma əməliyyat uçotlarının əsasını təşkil edir, belə ki, onun informasiya bankı müəyyən kriminogen kateqoriyadan olan şəxslərin ehtimal edilən cinayətkar davranışının proqnozlaşdırılması əsasında yaradılır. Məhz onların həm keçmişdəki (məhkumluğu, hüquqpozmaları, cəmiyyətə zidd hərəkətləri və s.), həm də indiki davranışları (neqativ əlaqələr saxlaması, tüfeyli həyat tərzi, cəmiyyətə və hüquqazidd işlərə, əməllərə meylliliyi və s.) onların gələcəkdə ehtimal olunan hüquqazidd əməllərinə dair proqnostik fikir söyləməyə, təsəvvürlər yaratmağa əsas verir. Əməliyyat marağı kəsb edən şəxslər üçün kriminogen və cinayətkar mühitin nümayəndələrinin fikirlərinin nə dərəcədə rol oynaması kimi onlara verilən sosial qiymətləndirmə meyarları da nəzərə alınmalıdır. Bütün bunlar birlikdə kriminogen proqnozlaşdırma metodikasının elementlərini təşkil edir və onlar əməliyyat axtarışında, əməliyyat profilaktikası və əməliyyat yoxlamasında, əməliyyat-axtarış hərəkətlərində qarşılıqlı olaraq özünü göstərir.

Proqnozlaşdırma fəaliyyəti əməliyyat-axtarış profilaktikası və əməliyyat yoxlaması (tədqiqi) obyektlərinin seçilməsində səhvlərə yol verməkdən qaçmağa, cinayətkarların hərəkətlərini müvəffəqiyyətlə qabaqlamağa imkan verir. ƏAF-nin strukturunda aparılan proqnozlaşdırma işi bu fəaliyyətin formasına çevrilir və bütün təşkilatçılıq və intellektuallıq fəallığın yüksəldilməsini tələb edir. Bu istiqamətdə hadisə

və təzahürlərə dialektik yanaşma keçmişin təhlilinin, indikinin diaqnostikasının və gələcəyin proqnozlaşdırılmasının vahid bir prosesdə birləşdirilməsinə imkan verir. Burada ƏAF-də gələcək dedikdə, hadisənin (təzahürün) baş verməsinin gözlənilməsi (cinayətin baş verməsinin) kimi başa düşülməsi yox, baş verən neqativ proseslərə fəal müdaxilə (təsir) etməklə indikinin praktiki dəyişdirilməsi kimi başa düşülür. Bu deyilənlər həm kriminoloji, həm də əməliyyat-taktiki proqnozlaşdırmaya xasdır.

Cinayətlərin törədilməsinin səbəb və şəraiti haqqında elm olaraq kriminologiya onların aradan qaldırılması yollarını işləyib hazırlamaqla yanaşı dövlət, ictimai və hüquq-mühafizə fəaliyyətinin müxtəlif səviyyələrində cinayətlərin qarşısının alınmasının nəzəri əsaslarını və təcrübi səciyyəli tövsiyələrini də formalaşdırır. Bu tövsiyələrin əksəriyyəti əməliyyat profilaktikasının metodlarına transformasiya olunur, bu profilaktika isə cinayətlərin qarşısının alınmasının ümumi sisteminə aid edilir və o, hər bir rayon və şəhərdə, sənaye, tikinti, aqrar-sənaye, ticarət, nəqliyyat və digər obyektlərdə istifadə edilir.

Kriminologiya elminin cinayətkar motivlərin öz mahiyyətinə görə insanlara xas olan adi motivlərin modifikasiyası olmasına dair çıxardığı nəticə, lakin qanunla qadağan olunmuş və hüquqazidd vasitələrdən istifadə etməklə əlaqəli olan məqsədlərə yönəlməsi, hüquqpozanların ƏAF metodlarının köməyi ilə islah olunması və tərbiyə edilməsinin əsasını təşkil edir. Cinayətkar davranışın motivinin bu cür başa düşülməsi və qəbul edilməsi bəzi kateqoriyadan olan insanların cinayətkar davranışa düçar olması (cinayətkarların, əvvəllər məhkum olunanların islahının mümkün olmaması barədə) kimi təsəvvürləri rədd etməyə imkan verir. Bunlar isə öz növbəsində, əməliyyat aparatlarının (o cümlədən, cinayət-axtarış, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, narkotiklərlə mübarizə və s. xidmətlərin) işçilərində "cinayət aləminin" nümayəndələrinin gizli əməkdaşlığa cəlb edilməsinin humanistliyi və perspektivliyi haqqında inam yaradır. Burada ilk növbədə, o da nəzərdə tutulur ki, qeyd edilən kateqoriyaya aid bəzi qəbildən olan şəxslərin islah və tərbiyəsi məqsədilə onları cinayətkarlığa qarşı fəal mübarizəyə cəlb edirlər.

Müəyyən növ cinayətlərin əməliyyat-taktiki xarakteristikası üçün kriminoloji biliklər mühüm əhəmiyyətə malikdir.

Qeyd edilənləri nəzərə almaqla əksər növ cinayətlərin törədilmə yerini, vaxtını analiz etmək (ilin fəsillərinə, aylarına, həftə və günlərinə bölməklə) cinayət əməlinin yönəldiyi obyektləri, cinayətkarların şəxsiyyəti və mənəvi libasını xarakterizə etmək

mümkün olur. Cinayətlərin kriminoloji xarakteristikası ümumilikdə əməliyyatçıların ƏAF-nin predmeti haqqında biliklərini mühüm dərəcədə genişləndirir, cinayətlərin hazırlanması və törədilməsi mexanizminə dair məlumatların alınmasının fundamental əsaslarını yaradır ki, bu da, öz növbəsində, əməliyyat tədqiqi taktikasının müvəffəqiyyətlə keçirilməsi üçün həlledici amildir.

Belə bir çox mühüm və vacib amili də nəzərə almaq lazımdır ki, kriminoloji tədqiqatdan fərqli olaraq, əməliyyat-axtarış orqanının qeyri-aşkar imkanları, ƏAF-nin vasitə və metodları hər bir konkret halda konkret cinayətkar fəaliyyətin şəraitini daha dərindən öyrənməyə imkan verir. ƏAT-nin keçirilməsi prosesində cinayətkar mühitdə, həmçinin fərdin cinayətkar davranışının inkişafında yaranan və kriminoloqlara məlum olmayan proseslər aşkar edilir. Ona görə də kriminoloji nəzəriyyədə və kriminoloqların təcrübi xarakterli tövsiyələrində toplanmış biliklər ƏAF sahəsində uğurları tam həcmdə təmin edə bilməz. Bu fəaliyyət növü bəzi hallarda özünəməxsus xüsusiyyətləri olan kriminoloqlar üçün də bəlli olmayan proseslərin tədqiqinin çox unikal tədqiqat metodikasını yaradır və onların tətbiqi nəticəsində öyrənilən cinayətlərin başvermə səbəbləri cəmiyyətə yad olan şəxsiyyətlər və qruplararası münasibətlərə transformasiya olunur. Bu münasibətlər nəinki cinayətkar və kriminogen mühitdə, həmçinin bu mühitin nümayəndələrinin əlaqədə olduğu çoxsaylı dairələrdə öyrənilir. Bütün bunlar kriminologiya elmi çərçivəsindən kənarda qalır və əsas etibarilə gizli məlumat mənbələrinin köməyi ilə dərk olunur və nəticədə kriminoloji biliklərin genişləndirilməsinə və kriminologiyanın bir çox müddəalarının zəruri olan əməliyyat-taktiki şərhini verməyə imkan verir.

Qeyd edilənlər mütəşəkkil cinayətkar qruplar (MCQ) və mütəşəkkil cinayətkar birliklərin (MCB) liderlərinin, təhlükəli və xüsusilə təhlükəli residivə yol verən və cinayətkar fəaliyyətdən əl çəkməyən şəxslərin, həmçinin cinayətkar təcrübəsi sosial yetkinləşməni qabaqlayan hüquqpozmalara yol verən yetkinlik yaşına çatmayanlar arasında baş verən mühüm dəyişikliklərə və həmçinin cinayətkar təcrübə ilə cinayətkar ixtisaslaşma kimi əsas kateqoriyalar arasındakı əksliklərin münasibətlərinə və əməliyyat-taktiki əhəmiyyətə malik cinayətkarlığın digər təzahürlərinə də aiddir. Ona görə də kriminoloji biliklər cinayətkarlığın və cinayətkarın şəxsiyyətinin öyrənilməsi üçün fundamental baza olub, əməliyyatçıları əməliyyat-axtarış profilaktikasının metodları ilə təmin etməklə yanaşı, daim gizli mənbələrdən daxil olan cinayətkarlıq haqqında məlumatlarla genişləndirilməlidir.

Cinayətkarlığın regionlar üzrə öyrənilməsi əməliyyat-axtarış orqanına aşağıdakıları müəyyən etməyə imkan verir: cinayətkarlığın strukturu və dinamikası üzrə düzgün istiqamətlənməyə; cinayətkarlığın səviyyəsi nisbətən yüksək olan regionların (şəhər, rayon, qərb, cənub və s. regionlar üzrə) müəyyən edilməsinə; şəxsi, dövlət, bələdiyyə və digər mülkiyyət formalarına cinayətkar qəsdlərin edilməsinə; cinayətkar təzahürlərin intensivliyi ilə xarakterizə olunan iqtisadiyyat sahələri və sosial sferanı müəyyənləşdirməyə; kriminogen nöqteyi-nəzərdən uğursuz olan yaş və sosial qruplar; neqativ inkişaf ənənəsi olan cinayət növlərinin aşkarlanması; ƏAF-ni həyata keçirərkən diqqəti və qeydə alınması tələb olunan cinayətkar davranışın tipini və s.

Bütün bunlar ölkə, müxtəlif inzibati-ərazi bölgələrində ƏAF-nin təşkilinə diferensial yanaşmağa, ƏAO-nun diqqətini ƏAF-nin aktual istiqamətlərinə yönəltməyə, yerli şəraiti nəzərə almaqla məqsədyönlü qaydada cinayətlərin qarşısının alınması və açılmasının daha effektli tədbirlərinin işlənib hazırlanmasına imkan verir. Əsas vəzifəsi cinayətkarlığın və ona təsir edən faktorların sabit ənənələrini müəyyənləşdirmək olan kriminoloji proqnozlaşdırma, daha təhlükəli və yayılan cinayətkar təzahürlərin formalarına qarşı mübarizə üzrə əməliyyat-axtarış proqnozlaşdırılması və tədbirlərin planlaşdırılması üçün zəruri əsasdır.

Son illərin kriminoloji tədqiqatları ƏAF nəzəriyyəsinin nümayəndələrinə cinayətlərin əməliyyat-axtarış profilaktikasının hüquqi və təşkilati-taktiki əsaslarının müasir səviyyədə tədqiqini davam etdirməyə imkan vermişdir. Əməliyyat-axtarış profilaktikasının eyni tədqiqat obyekti cinayətkarlığın təşkil etməsinə baxmayaraq, o, cinayətkarlığın o tərəfərini öyrənir ki, onlar ƏAF-ni həyata keçirməklə aşkar olunur və rəsimləşdirilir. Bununla əlaqədar olaraq əməliyyat-axtarış profilaktikası ƏAO-nun profilaktika olunan şəxslər tərəfindən cinayətlərə yol verməmək üçün onlara təsir etmək və cinayətkar niyyətin həyata keçirilməsinə yol verməmək məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi üzrə gizli fəaliyyətinin xüsusiyyətləri ilə xarakterizə edilir. Əməliyyat-axtarış profilaktikasının prinsipial xüsusiyyətlərindən biri də odur ki, o, əməliyyat uçotlarında olan, cinayətlərin hazırlanması və törədilməsində əsaslı şübhə doğuran şəxslərə qarşı həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin xüsusi informasiya təminatı ilə müşayiət olunur.

trial tərəfdən, əməliyyat-axtarış profilaktikasının cinayətkarlığın vəziyyətini, cinayətlərin və hüquqpozmaların səbəb və şəraitini müəyyən edən faktorlar haqqında əməliyyat-axtarış məlumatlarını analiz etmək kimi də vəzifəsi vardır. Eyni zamanda,

əməliyyat-axtarış profilaktikası, ƏAF-nin müstəqil bir istiqaməti kimi olmaqla yanaşı hüquqpozmaların sosial profilaktikasının ümumi və fərdi səviyyələrində xüsusi sistemaltına daxildir. Bütün bunlar bir daha göstərir ki, ƏAF nəzəriyyəsi ilə kriminologiya elminin sıx və üzvi əlaqəsi var.

Müasir ƏAF nəzəriyyəsinin yaradıcılarından sayılan A.İ.Alekseyev, D.V.Qrebelski, A.Q.Lekar, V.A.Lukaşov, Q.K.Sinilov, S.S.Ovçinski öz fundamental əsərlərində (1978-ci il) qeyd edirdilər ki, kriminoloji biliklərdən ƏAF nəzəriyyəsi və təcrübəsinin inkişafında geniş istifadə etmək lazımdır. Elmi-təcrübi nöqteyi-nəzərdən əsaslandırılan bu fikirlər və XX əsrin son illərində aparılan tədqiqatların nəticələri təsdiqləyir ki, ƏAF və kriminologiya elmlərinin sərhəd təşkil etdiyi sahədə bu iki elm sahəsinin simbiozu" (yunan sözü olub, iki orqanın birgə yaşaması, çalışması deməkdir) olan əməliyyat-axtarış kriminologiyası kimi istiqamətli elm sahəsinin yaranmasından danışmaq olar.

Əlbəttə ki, əməliyyat-axtarış kriminologiyasının yaranması və inkişafına dair son illər monoqrafik elmi-nəzəri işlər var. Sözsüz ki, onun formalaşması və inkişafı böyük nəzəri və təcrübi çətinliklərlə bağlıdır və geniş tədqiqatların həyata keçirilməsini tələb edir.

## § 5. Əməliyyat-axtarış fəaliyyəti və digər elmlər

Əməliyyat-axtarış fəaliyyətinin digər hüquq sahələri və elmləri ilə də sıx əlaqəsi var. ƏAF nəzəriyyəsinin elmi işləmələri **cinayət-icra hüququnun** məlumatlarından istifadə edilməsi ilə də əlaqəlidir.

Təcrübi aspektdən bu əlaqə onunla əsaslandırılır ki, Ədliyyə Nazirliyinin Pentensiar Xidmət sisteminin ƏAO öz səlahiyyətləri çərçivəsində nəinki cinayətlərin aşkar edilməsi, xəbərdarlığı, qarşısının alınması və açılması, həmçinin azadlıqdan məhrumolunma yerlərindən qaçan məhkum olunanların axtarışı ilə bağlı vəzifələri, həmçinin CÇM və İT-də müəyyən edilmiş rejim tələblərinə riayət olunmasının əməliyyat-axtarış təminatı ilə bağlı vəzifəni də həyata keçirir. Bu qeyd edilən müəssisələrin, əsas etibarilə cinayət-icra qanunvericiliyi əsasında fəaliyyət göstərməsinə baxmayaraq, mühafizənin, nəzarətin və ƏAF-nin təminatının hüquqi, təşkilati-taktiki məsələləri ilə sıx əlaqəlidir. Məhz ona görə də bu istiqamətlərdə fəaliyyət göstərən mütəxəssislərin iştirakı ilə onların kompleks elmi işlənməsi üçün zərurət yaranır.

Əməliyyat-axtarış fəaliyyətinin **inzibati-hüquq** elmi ilə də çox sıx əlaqəsi var. ƏAF-ni həyata keçirən ƏAO-nun əməliyyat işçisi inzibati xəta ilə cinayət əməli arasında (bəzi hallarda onlar arasında fərqi asanlıqla müəyyən etmək olmur) olan (məsələn, xuliqanlıq, xırda xuliqanlıq və təhqir, oğurluq, xırda talama və dələduzluq və s.) və qanunvericilikdə nəzərdə tutulan fərqi bilməlidir. Bunun üçün onlar inzibati-hüquq normalarının, İXM-in Xüsusi hissəsinin müvafiq maddələrinin məzmunu və mahiyyətini dərk etməlidir.

Azərbaycan Respublikasının 28.X.1999-cu il tarixli "ƏAF haqqında" Qanunun 21-ci və ƏAF-nin subyektlərinin normativ aktlarına əsasən ƏAT-nin həyata keçirilərkən qanunçuluğun pozulmasına görə intizam, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulmuşdur ki, bunlar inzibati və cinayət hüquqi elmlərinə aiddir. Onu da qeyd etmək lazımdır ki, ƏAF-də inzibati təsir və inzibati tənzimləmə tədbirlərindən geniş istifadə olunur. Bu, ilk növbədə inzibati xətalara görə məsuliyyətə cəlb olunmuş cinayət əməllərinə meylli, inzibati və profilaktiki təsir məqsədilə uçota qoyulmuş şəxslərə aiddir. "ƏAF haqqında" Qanunda əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələrində (maddə 6) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxslərin yoxlanması nəzərdə tutulmuşdur. Bu norma inzibati-hüquq norması olub, öz kommentariyasına görə şəxsin dedektiv və mühafizə fəaliyyəti ilə məşğul olmağa icazə verilməsi, dövlət sirlərini təşkil edən sənədlərə, məlumatlara, işlərə və s. buraxılması üçün onların şəxsiyyətinin ƏAT-nin keçirilməsi yolu ilə öyrənilməsini nəzərdə tutur.

ƏAF nəzəriyyəsi və inzibati hüquq elmi hüquq-mühafizə fəaliyyətinin qeyd edilən və digər sərhəd təşkil edən problemlərini öyrənir və məhz bununla da onların sıx qarşılıqlı əlaqələrinin zəruriliyi əsaslandırılır.

Mütəşəkkil və iqtisadi cinayətkarlığın, terrorizm və narkobiznesin beynəlxalq miqyasda get-gedə daha sürətlə artması şəraitində ƏAF-nin beynəlxalq hüquqla qarşılıqlı əlaqəsi möhkəmlənir.

triala müxtəlif dövlətlərin ƏAO və istintaq orqanlarının cinayət işləri üzrə hüquq yardım məsələləri ilə bağlı qarşılıqlı əməkdaşlıqla əlaqəli problemlər üzrə hüquqi və elmi-təcrübi səviyyəli işləmələrin (ümumiləşmələrin, icmalların, tədris-metodiki, o cümlədən təlimlərin keçirilməsinə dair materialların) hazırlanması mühüm əhəmiyyət kəsb edir. Məhz beynəlxalq hüquq elminin əsas müddəaları nəzərə alınmaqla dövlətlərarası iki və çoxtərəfi müqavilə, sazişlər imzalanir və beynəlxalq təşkilatla-

rın konvensiyalarına qoşulma rəsmiləşdirilir. Məhz bu normativ-hüquqi aktlara və Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının cinayətkarlığa qarşı mübarizə sahəsində müvafiq konvensiyalarının tələblərinə əsasən dövlətlər beynəlxalq miqyasda öz fəaliyyətlərini təşkil edirlər (məsələn, 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" və 1988-ci il tarixli "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" konvensiyalar; 1957-ci il tarixli "Hüquqpozmaları törədən şəxslərin verilməsi haqqında" Avropa Konvensiyası, 2002-ci il tarixli MDB-yə daxil olan ölkələrin "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər üzrə" Konvensiya və s.). Bu və çoxlu sayda digər normativ- hüquqi sənədlərdə müxtəlif hüquq sahələrinə aid işlər üzrə müxtəlif dövlətlər arasında hüquqi yardım, hüquqi münasibətlər, beynəlxalq istintaq tapşırıqları və əməliyyat sorğularının icraedilmə qaydaları, beynəlxalq axtarışın həyata keçirilməsi və cinayətkarların ekstradisiyası (verilməsi) məsələlərinin həlli, cinayət yolu ilə əldə olunmuş əmlakın və pul vəsaitlərinin beynəlxalq axtarışı, həbsi və müsadirə olunması məsələləri öz əksini tapır. Beynəlxalq miqyasda cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üçün müxtəlif və böyük həcmdə yuxarıda qeyd edilən sənədlərin əməliyyat- axtarış informasiya sistemləri olan İnterpol və digər təşkilatlarla informasiya mübadiləsinin beynəlxalq-hüquqi məsələlərinin daim təkmilləşdirilməsi tələb olunur.

**Əməliyyat-axtarış fəaliyyətinin iqtisadiyyat elmi ilə əlaqəsi dövlətin cinayətkarlığa qarşı mübarizə siyasəti ilə sıx bağlıdır və bu, öz əksini Azərbaycan Respublikasının CM-də tapmışdır. İqtisadi sahədə cinayətkarlığa qarşı mübarizə (ilk növbədə, mülkiyyət formalarına qarşı, təsərrüfat fəaliyyəti sferasında və s.) cinayət qanunvericiliyində əsas prioritet istiqamətlərdən biri sayılır.** İqtisadiyyat sahəsində cinayətkarlığa qarşı əməliyyat-axtarış fəaliyyəti vasitəsilə mübarizənin problemlərinin nəzəri işləmələrinin hazırlanması müasir iqtisadi elmə istinad olunmasını tələb edir, eyni zamanda ƏAF-nin tətbiqi üzrə bazar iqtisadiyyatı münasibətlərinin dərin nəzəri və təcrübi tədqiqatları və yeni təsərrüfatçılıq formaları ilə əlaqəlidir.

Müasir dövrün hal-hazırkı mərhələsində iqtisadi cinayətkarlığa qarşı mübarizənin elmi təminatının ən perspektivli istiqamətlərindən birinə iqtisadi biliklərin dövlət xidməti sahəsində (ilk növbədə ticarətdə, nəqliyyatda, xarici iqtisadi fəaliyyətdə, lisenziyalaşdırma, özəlləşdirmə və kredit- bank sistemi sahəsində işlə məşğul olan

orqanlarda və s.) korrupsiyaya qarşı mübarizənin kompleks tədbirlərinin hazırlanmasında geniş istifadə edilməsini aid etmək olar.

Gəlirlərin vergi rüsumlarından gizlədilməsi, antiinhisar qanunvericiliyinin və qiymətli kağızların emissiyası qaydalarının pozulması, qəsdən müfisləşmə, saxta müfisləşmə, qanunsuz və yalançı sahibkarlıq və s. ilə bağlı cinayət məsuliyyəti nəzərdə tutulmuş hərəkətlərin iqtisadi aspektləri də böyük diqqətə və əhəmiyyətə malikdir.

Müasir dövrdə keçmiş SSRİ ölkələrinin kriminal polis xidmətlərinin bazar iqtisadi münasibətlər şəraitində valyuta əməliyyatları qaydalarının pozulması (xarici valyuta vəsaitlərinin xaricdən qaytarılması, qiymətli metalların alınması və s.), qiymətli daş-qaşların çıxarılması, emalı və buraxılması obyektlərindən oğurluq və talama, xüsusi dəyəri olan əşyaları talamaya qarşı mübarizə metodlarının problemlərinin işlənməsi məsələləri daha da aktuallaşır.

Bu gün cəmiyyət dərk edir ki, **psixologiya elmi sahəsində** bilik və nailiyyətlər həyatımızın bütün sahələrinə, o cümlədən cinayətkarlığa qarşı mübarizədə istifadə olunan bütün dövlət-hüquqi mübarizə formalarının (profilaktika, inzibati fəaliyyət, təhqiqat və ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti) ayrılmaz əsas zəruri atributlarından biridir. ƏAF psixologiya elmi ilə çox sıx və bilavasitə əlaqəlidir. Ə**AF sahəsində psixoloji tədqiqatların nəticələrinin istifadə edilməsinin zəruriliyi aşağıdakı xüsusiyyətlərlə müəyyən edilir.**

**Birincisi,** ƏAF ilə cinayətkar mühit, cinayəti törətmək düşüncəsi (niyyəti) olan, onu hazırlayan və ya törətmiş şəxslər arasında daim və gizli olan konfikt səciyyəli gizli qarşılıqlı təsir mövcuddur. Ona görə də ƏAF-nin həyata keçirilməsində aşağıdakılar nəzərə alınır:

a) konspirativ qaydada həyata keçirilir;

b) refeksiv fəaliyyətdən ibarətdir, yəni yoxlanılan və tədqiq olunan şəxslərə təsir etməklə xarakterizə olunur;

c) cinayət hadisələri və onlara aidiyyəti olan şəxslərə dair kifayət dərəcədə informasiyanın qıtlığına görə müəyyən risklə bağlıdır və ona görə də müəyyən dərəcədə təsadüfərdən asılıdır;

ç) kriminal elementlər daim əks-təsir, müqavimət göstərdiyinə görə özündə obyektiv olaraq həyata keçirilən ƏAT-nin müvəffəqiyyətsiz sona çatması və istənilməyən, bəzən isə təhlükəli nəticələrə gətirməsi ehtimalını daşıyır;

d) təşkilati formaların və taktiki fəndlərinin daim müxtəlifiyinə, əksər hallarda vaxt məhdudiyyətinə, peşə riski və fiziki təhlükə faktorlarının mövcud olmasına görə ekstremaldır.

**İkincisi**, ƏAF aşağıdakılarla xarakterizə olunur:

a) yoxlanılan və tədqiq olunan şəxslərin qəbul etdikləri qərarların təqlid edilməsi və bunun nəzərə alınması əsasında öz xüsusi əməliyyat-taktiki qərarlarının hazırlanması;

b) kriminal elementlərin və öz fəaliyyətinin nəticələrinin analizi və proqnozlaşdırılması;

c) keçirilən tədbirlərin gizliliyinin, yoxlanılan və tədqiq olunan şəxslər barəsində əməliyyat nöqteyi-nəzərindən əhəmiyyətli və qiymətli məlumatların alınması və istifadə olunmasının effektivliyinin təmin edilməsi məqsədilə müxtəlif motivlərdən müəyyən rolu əks etdirən oyunlardan istifadə edilməsi;

ç) daim ekstremal vəziyyətlərdə hərəkət etməyə tam əməliyyat hazırlığında olmaq;

d) sərt emosional-iradi nəzarətdən ibarətdir.

**Üçüncüsü**, ƏAF-nin özünəməxsus xüsusiyyəti ibarətdir:

a) normativ-hüquqi əsas üzərində qurulur, yəni qüvvədə olan hüquq və mənəvi normalarla tənzim olunur;

b) çox miqdarda qüvvə, vasitə və metodların cəlb edilməsi, yəni kompleks və kollektiv fəaliyyət kimi həyata keçirilməsi ilə əlaqəlidir;

c) həmişə əməliyyat şəraiti və konkret əməliyyat-taktiki situasiyaya müvafiq olur (uzlaşır);

ç) fəaliyyət göstərdiyi mühitin daim dəyişməsi ilə əlaqədar olaraq yüksək dinamikliyi ilə fərqlənir.

**Dördüncüsü,** ƏAF-nin məqsəd və vəzifələrinin təmin edilməsi, onun təşkili və həyata keçirilməsində, cinayətkarlığa qarşı mübarizənin psixolojı təminatı ilə bağlı toplanmış müasir milli və beynəlxalq təcrübə, bilik və məlumatlarla sıx əlaqəsi və onlardan sistemli, səmərəli qaydada istifadə edilməsi və təkmilləşdirilməsi.

ƏAF-nin spesifik xüsusiyyətlərini yalnız yuxarıda qeyd edilənlərlə məhdudlaşdırmaq olmaz. Lakin onları ən mühüm və əhəmiyyətli kimi qiymətləndirmək düzgün olardı. Bu xüsusiyyətlərin məzmununun tam həcmdə əhatələnməməsinə baxmayaraq, yuxarıda qeyd edilənlər qətiyyətlə təsdiqləyir ki, bu fəaliyyət istənilən fəaliyyət

kimi çox mühüm psixoloji komponentlərə malikdir və insan psixikası onun daimi, zəruri, son dərəcə dinamik elementidir.

Məhz bununla əlaqədar olaraq ƏAF-nin ümumi nəzəriyyəsi çərçivəsində əməliyyat-axtarış psixologiyası yaranır və özünun mövcudlüüunun zəruriliyi əsaslandırılır.

Bir çox alimlərin həyata keçirdikləri əsaslı tədqiqatların nəticələri göstərir ki, müasir elmi biliklərin yaranması və inkişafı bir-birinə əks və eyni zamanda bir-biri ilə sıx əlaqəli olan ənənələrin - diferensasiya və inteqrasiyası ilə xarakterizə olunur.

Keçirilən tədqiqatlar nəticəsində rus alimləri A.İ.Alekseyev, K.K.Qoryankov, A.F.Voznıy, V.A.Çerepanov tərəfindən agentur işinin psixoloji aspektlərinin nəzəri əsasları, V.Q.Sokolov, V.A.Çerepanov tərəfindən əməliyyat-axtarış metodlarının psixoloji əsasları işlənmiş və sonradan D.V.Qrebelski, Q.K.Sinilov, V.A.Çerepanov və başqa alimlərin əməyi nəticəsində ƏAF sahəsində ümumi psixoloji nəzəriyyənin ilk cücərtiləri yaranmışdır. Bu yeni elm sahəsinin predmeti və vəzifələri, elmi-nəzəri əsaslarına dair bir çox tədqiqatlar aparılmış, elmi-nəzəri və təcrübi əhəmiyyətə malik fundamental əsərlər nəşr edilmişdir. Bu elmin predmetinə dair də bir çox fikirlər ümumiləşdirilmişdir və bu sahədə əksər alimlər tərəfindən qəbul edilmiş elmi-nəzəri müddəaların olmasına baxmayaraq, müəyyən problemlər də var. Əməliyyat-axtarış psixologiyasının predmetinə əsasən ƏAF-nin subyektləri kimi iştirak edən şəxslərin və onlara qarşı duran kriminal elementlərin, yəni hüquqazidd fəaliyyətlə məşğul olan şəxslərin və onların yaxın dairəsinin psixologiyasının mexanizmi və qanunauyğunluqlarını aid edirlər. Lakin bir sıra alimlərin fikrincə, əməliyyat-axtarış psixologiyasına, predmetinə nəinki ayrıca fərdin (individin) psixologiyasını, əməliyyat-axtarış fəaliyyəti ilə məşqul olan qurumların (əməliyyat-axtarış orqanları və s.) kollektivlərinin psixologiyasını, cinayətkar qrup və cinayətkar birliklərin psixologiyasını, həmçinin müvafiq obyektiv şəraitdə onlar arasında olan konfikt qarşıdurmanın psixologiyasını da aid etmək olar.

**Professor Y.V.Çufarovski monoqrafik xarakterli "Əməliyyat-axtarış psixologiyası" adlı işində bu elm sahəsində aşağıdakı əsas istiqamətləri əhatə etmişdir:** cinayətkar davranışın psixologiyası, cinayətkarın şəxsiyyətinin və cinayətkar qrupun davranışlarının psixologiyası; hüquq-mühafizə orqanlarının əməliyyat-axtarış fəaliyyətinin psixologiyası; hüquq-mühafizə orqanlarının əməliyyat-axtarış fəaliyyətində ünsiyyətin psixoloji əsasları; hüquq-mühafizə orqanlarının ƏAF-də informasiyanın

alınmasında psixologiyadan istifadə olunması; hüquq-mühafizə orqanlarının ƏAF-də maraq dairəsində olan şəxsin şəxsiyyətinin psixoloji əsasları; hüquq-mühafizə orqanlarının ƏAF-yə şəxsiyyətə psixoloji təsir; hüquq-mühafizə orqanlarının ƏAF-də şəxsiyyətin xarakteristikasının psixolojı əsasları; ƏAF-də maraq kəsb edən şəxslərin sorğusunun psixoloji aspektləri. Sözsüz ki, ƏAF psixologiyasını bu qeyd edilən istiqamətlərlə də məhdudlaşdırmaq düzgün olmazdı.

**ƏAF üçün aşağıdakı istiqamətlərdə psixoloji əsaslandırma birinci dərəcəli əhəmiyyətə malikdir:**

1. ƏAF-nin subyektlərinin psixologiyasının qanunauyğunluqları: əməliyyat işçilərinin və konfidentlərin (gizli əməkdaşlıq edən şəxslərin);

2. Ayrı-ayrı şəxslərin, mütəşəkkil cinayətkar qrup və birliklərin, xüsusən onların motivlərinin psixolojı komponentləri, cinayətkar submədəniyyətinin (sub latın sözü olub, altında deməkdir), motivlərin dinamikasının psixologiyasının müxtəlif obyektiv faktların təsiri altında olması və s.;

3. ƏAF subyektlərinin cinayət törədən şəxslərlə mübarizə psixologiyasının (münaqişəli qarşıdurma) spesifik xüsusiyyətləri;

4. Cinayətkarlığa qarşı mübarizədə ƏAT-nin həyata keçirilməsi prosesində ƏAF subyektləri tərəfindən əməliyyat xarakterli məlumatların alınmasının psixoloji üsul və fəndləri;

5. Müxtəlif ƏAT-nin keçirilməsinin psixolojı aspektləri (təminatı).

**Əməliyyat-axtarış psixologiyası ƏAF nəzəriyyəsini məntiqi-psixolojı qanunauyğunluqlara dair biliklərlə təmin etmək məqsədi güdür və onlara aşağıdakıları aid etmək olar:**

1. Düşünülən, hazırlanan və törədilən cinayətlərə dair məlumatların alınması ilə bağlı mövcud olan və əməliyyat-axtarış fərziyyələrinin və proqnozlarının qurulmasında əks edilən.

2. İnformasiya qeyri-müəyyənliyi və əməliyyat riski şəraitində problemli vəziyyətlərin analizi ilə əlaqəli olanlar.

3. Əməliyyat-axtarış düşüncəsinin evristik metodlarının tətbiqi, əməliyyat-axtarış təcrübəsində intuitiv (intuisiya - latın sözü olub, diqqətlə baxmaq kimi başa düşülür; hiss etmək, instinktiv başa düşmək və s.) biliklərin təbiəti, mənbələri, istifadə edilməsi imkanları və hədləri.

Müasir dövrdə ƏAF-nin sosial-psixolojı aspektlərinin bu fəaliyyətin təşkilati-idarəçilik səviyyəsi üçün əhəmiyyəti artır. Bu qeyd edilənləri daha geniş belə açıqlamaq olar.

**Müasir dövrdə qeyd olunan səviyyədə psixolojı tədqiqatların nəticələrini aşağıdakı istiqamətlərdə istifadə etmək olar:**

a) kadrların ƏAO-ya seçilməsi və öyrənilməsi (peşəkar seçim);

b) həll etdiyi vəzifələrdən asılı olaraq ƏAO-nun şəxsi heyətinin peşə hazırlığının metod və üsullarının və mənəvi-psixoloji imkanlarının işlənməsi;

c) idarəçilik qərarlarının qəbul edilməsində psixoloji biliklər əsasında ƏAF-nin qüvvə və vasitələrinin idarə olunmasının keyfiyyətinin artırılması;

ç) informasiya-analitik işin təşkili və təkmilləşdirilməsi, planlaşdırma və proqnozlaşdırma;

d) qüvvə və vasitələrin əməliyyat hazırlığı vəziyyətində saxlanılması, onların qarşılıqlı işinin və koordinasiyasının təşkili;

e) elmi əsaslanmış meyarlar və digər əsaslı göstəricilərə müvafiq olaraq əməliyyat işçilərinin əməyini (əməliyyat müvəkkillərinin) ƏAF-nin nəticələrinə görə qiymətləndirmək yolu ilə stimullaşdırılması;

ə) qabaqcıl iş təcrübəsinin, xarici dövlətlərin kriminal polis xidmətlərinin iş təcrübəsinin öyrənilməsi və cinayətkarlığa qarşı mübarizədə tətbiq edilməsi, əməliyyat aparatlarının cinayətkarlığa qarşı mübarizə fəaliyyətinin müasir kriteriyalarının müəyyənləşdirilməsi və s.

ƏAF çərçivəsində əməliyyat-axtarış psixologiyasının bir elm sahəsi kimi sonrakı formalaşması və inkişafı, ümumilikdə ƏAF-nin təşkilati-idarəçilik və əməliyyat-taktiki səviyyələrində səmərəli tövsiyələrin hazırlanıb tətbiq olunmasını təmin edir.

ƏAF-də psixoloji biliklərlə yanaşı, **pedaqoji biliklər** də bir zərurət kimi öz tətbiqini tapmışdır. Bu biliklər xüsusən aşağıdakı vəzifələrin həlli üçün vacib sayılır: əməliyyat-axtarış işinin gedişində MCQ və MCB-nin ikinci dərəcəli iştirakçılarının cinayət törətməkdən imtina etməsi məqsədilə onların davranışı və şüurunun kriminogen deformasiyasının aradan qaldırılması; cinayətkar fəaliyyətə cəlb edilən və ya cəlb edilmiş yetkinlik yaşına çatmayanların, əməliyyat-axtarış profilaktikası ilə bağlı tədbirlər həyata keçirilən şəxslərin davranış və şüurunda olan kriminogen deformasiyanın aradan qaldırılması.

Pedaqoji biliklər ƏAO ilə konfidensial əsaslarla könüllü əməkdaşlıq edən şəxslərin öyrənilməsi və tərbiyə edilməsi prosesində müvəffəqiyyətlə tətbiq olunur. Pedaqoji biliklər həmçinin ƏAO əməkdaşlarının xidməti hazırlıq sistemində peşə hazırlığı və əməliyyat ustalığının artırılmasında da geniş istifadə edilir.

Cinayətlərin açılmasında istifadə olunan ənənəvi kriminalistik və əməliyyat-axtarış metodları çox hallarda kifayət qədər səmərə vermir. Bu qeyd edilənlər cinayətkarlığa qarşı mübarizənin nəticələrinin təhlili materialları ilə təsdiq olunur. Eyni zamanda xarici dövlətlərin hüquq-mühafizə fəaliyyətinin təcrübəsi göstərir ki, bu metodlarla yanaşı, digər qarışıq elm sahələrindən olan parapsixologiya, astrologiya, geofizika və s. götürülən cinayətlərin açılmasında istifadə edilən metodların imkanlarından da istifadə olunur. Sözsüz ki, Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının, o cümlədən, DİN-in əməliyyat aparatlarının təcrübəsində də belə hallar var, sadəcə olaraq onların daha dərindən öyrənilib ümumiləşdirilməsi vacibdir.

triali dövrdə bu metodlar "cinayətlərin açılmasının qeyri-ənənəvi metodları" anlayışı altında birləşdirilmişdir. Cinayətin açılmasında qeyri-ənənəvi metodların tətbiqi konsepsiyasını işçi hipotezi qismində geniş məlum olan elmi faktorlar təşkil edir və onlara görə hüquqazidd hərəkətlər tam qabarıq, emosional və əsəbi-psixoloji gərginlik fonunda "xüsusi" psixi halda olan insan tərəfindən törədilir. Burada qeyd edilən kateqoriyadan olan insanın "xüsusi" psixoloji vəziyyəti, öz növbəsində, onun davranış reaksiyasını şərtləndirir. Qeyd olunan bu "xüsusi" psixi halların öyrənilib sistemləşdirilməsi, bu halların xarici mühitin faktorları və funksional statusu, cinayətlərin kriminalistik əlamətləri ilə qarşılıqlı asılılığı və qarşılıqlı şərtlənməsinin axtarılması təcrübədə cinayətlərdə şübhəli olan şəxslərin dairəsinin kiçilməsini və cinayətkarın axtarışında mövcud qüvvə və vasitələrin istifadə olunmasının səmərəliliyini artırmağa imkan verir.

**Bu konteksdə baxılan əsas elmi-praktiki istiqamətlərə aşağıdakıları aid etmək olar:**

– gizlədilən məlumatı aşkar etmək məqsədilə sorğu prosesində sorğu aparılan şəxsin psixofizioloji reaksiyasının ifadə edilməsini qiymətləndirmək üçün psixoloji streslərin qeydiyyatları (poliqraf, "yalan detektorları");

– şəxsiyyət əleyhinə törədilən çoxseriyalı xüsusilə ağır cinayətlərin açılmasında istifadə etmək məqsədilə cinayət davranışının analizi və cinayətkarın informasiya modelinin qurulması (məsələn, cinayətkarın psixoloji portretinin qurulması və sonra-

dan şəxsiyyəti bəlli olmayan cinayətkarın axtarışı məqsədilə onun "psixoloji portretinin" və psixolojı xarakterli istiqamətləndirmələrin hazırlanması və s.);

– bu və ya digər səbəbdən yadda qalmayan cinayət hadisəsinin başvermə şəraitini təsəvvüründə "canlandırmaq", yada salmaq məqsədilə zərərçəkən və şahidlərin yaddaşının fəallaşdırılması kimi psixoloji fenomendən istifadə edilməsi. **Məsələn, ƏAF sahəsində qanunvericiliyi rəhbər tutmaqla hipnozun (hipnoloqların) köməyindən istifadə edilməsi.**

Bu istiqamətlərdən hər biri öz möhkəm nəzəri bazasına malikdir və onlar öz əksini müxtəlif elm sahələrində tanınmış mütəxəssislərin, RF-ın akademikləri – Anoxin (fiziologiya), V.P. Kaznaçeyev (fəlsəfə, fizika), B.F. Lomovun (psixologiya) işlərində tapmışdır.

Cinayətlərin açılmasında insanın psixofizioloji reaksiyasının istifadə edilməsi konsepsiyası belə əsaslarla təsdiq olunur ki, insanın istənilən, o cümlədən də hüquqazidd fəaliyyəti az və ya çox dərəcədə emosional gərginlik fonunda həyata keçirilir, yəni psixofizioloji əsaslara istinad edir. Subyektin vəziyyətinin onun üçün nə dərəcədə əhəmiyyətli olmasından asılı olaraq, onun psixofizioloji reaksiyası da müvafiq olaraq özünü göstərir. Onlardan insan üçün ən aktualları cinayətin törədilmə faktlarına və törədilməsinə aiddir.

Poliqrafdan istifadə etməklə xüsusi metodika ilə keçirilən sorğuda belə vəziyyətlərin və ya onların elementlərinin modelləşdirilməsi, 86-92% halda (yəni törədilən cinayətlərə aidiyyətinin müəyyən edilməsinə), şərti olaraq desək, "təqsirli məlumatların" aşkar edilməsinə və ya 95-98 %-də, yəni cinayətlərə aidiyyətinin olmaması hallarında belə məlumatların olduğunu müəyyən etmək olur.

Belə bir amili də nəzərə almaq lazımdır ki, təqsirkarın şəxsiyyəti bir sıra hallarda hadisələrlə bağlı amillərdə (əlamətlərdə) elə kodlaşdırılır ki, onların açılması və ona müvafiq olaraq axtarış əlamətlərinin dəqiq müəyyənləşdirilməsi xüsusi "açarların" tətbiqini tələb edir. Onların işlənməsi kriminalistikanın və ƏAF nəzəriyyəsinin yeni istiqamətlərinin aktual vəzifələridir (ƏAT-nin keçirilməsində poliqraf tədqiqatları əksər dövlətlərdə, o cümlədən ABŞ və Yaponiyada birinci instansiya məhkəmələri tərəfindən cinayətdə şübhəli şəxslərin təqsirli olub-olmamasının müəyyənləşdirilməsində sübut kimi istifadə edilir).

Çoxseriyalı qətllərin və zorlamalar üzrə axtarılan, ehtimal olunan cinayətkarın psixoloji portretinin yaradılması təcrübəsi ABŞ, İngiltərə, Hollandiya və digər ölkə-

lərdə geniş tətbiq edilir. Bu ölkələrin hüquq-mühafizə orqanlarında artıq formalaşmış kompüter məlumatlar bazası var ki, onların köməyi ilə qısa müddətdə cinayətdə şübhəli olan, şəxsiyyəti naməlum qalan şəxsin psixoloji portreti hazırlanır və ona əsasən, cinayətkarın ehtimal olunan yaş həddi, peşə fəaliyyəti, dünyagörüşü, təhsil səviyyəsi, irqi mənsubiyyəti, intellektual, iradi keyfiyyətləri, xarakterinin xüsusiyyətləri, patoloji xüsusiyyətlərini və əməliyyat nöqteyi-nəzərdən əhəmiyyət kəsb edən digər amilləri, əlamətləri müəyyən etmək mümkün olur. Məsələn, RF DİN ETİ-də **"Monstr"** (fransız sözü olub, eybəcər, kifir, nəhəng və ya dəhşətli deməkdir) şərti adla yaradılmış avtomatlaşdırılmış sistem bağlı qalmış cinayətlər üzrə ehtimal olunan cinayətkarın psixoloji portretinin hazırlanması işini mühüm dərəcədə asanlaşdırır, onun yaradıcıları tərəfindən işlənib hazırlanmış alqoritm (tədbirlər sistemi) təcrübədə tətbiq edilir.

Kriminalistikanın və ƏAF-nin qeyd olunan qeyri-ənənəvi metodları onların ənənəvi metodlarına qarşı qoyulmur, əksinə, onları zənginləşdirmək məqsədi güdür. Onların köməyi ilə əldə olunan məlumatlar sübut əhəmiyyətə malik deyildir və istiqamətləndirmə xarakteri daşıyır, onlar ƏAT keçirilməsi prosesində əməliyyat-axtarış və istintaq fərziyyələrinin formalaşdırılıb irəli sürülməsində geniş istifadə edilə bilər.

XXI əsrin əvvəlinin ƏAF-ni **yüksək texnologiyalar sahəsində təbii elmlərin** daha müasir nailiyyətlərindən bəhrələnməyə bilməz. Müasir informasiya texnologiyalarının tətbiq edilməsi nəticəsində ƏAF-nin tərkibində ƏAO-nun fəaliyyətinin yeni çox prinsipial olan mütəşəkkil cinayətkarlığa qarşı, həmçinin yüksək texnologiyalar və informasiya sferalarında cinayətkarlığa qarşı mübarizə kimi istiqamətlər yarandı. Hələ 70-ci illərdə informasiya texnologiyalarının tətbiq edilməsinin ƏAF-nin inkişafı prosesində və onun müstəqil elmi istiqamət almasında hədsiz dərəcədə mühüm rolu olmuşdur. Əməliyyat uçotları, MAS yaradılması və təkmilləşdirilməsindən başlayan, həmçinin qərarların qəbulu proseslərinin, elektron ekspert sistemlərinin yaradılması ilə əlaqəli olan elmi və təcrübi işləmələr müasir ƏAF-nin elmi bazasının mühüm hissəsini təşkil edir.

ƏAF-də yeni istiqamət kimi **informasiya təhlükəsizliyinin təmin edilməsini** qeyd etmək olar. XXI əsrdə hər bir dövlətdə vətəndaş cəmiyyətinin bir informasiyalaşdırılmış cəmiyyət kimi qurulması vəzifələri, insanların, cəmiyyətin və dövlətin inkişafında informasiyanın, informasiya resurslarının və texnologiyaların rolunun artması milli təhlükəsizliyin (istər daxili, istərsə də xarici) təmin edilməsi sistemində

informasiya təhlükəsizliyini ön plana çəkirlər. Məhz ona görə də müasir dövrdə bir çox dövlətlərdə bu sahə informasiya haqqında qanun və normativ aktlarla tənzimlənir. Informasiya təhlükəsizliyi altında ölkənin milli maraqlarının balanslaşdırılmış əsaslara müvafiq olaraq şəxsiyyətin, dövlətin və cəmiyyətin həyati vacib maraqlarının informasiya sferasının daxili və xarici təhlükələrdən müdafiə edilməsi vəziyyətinin başa düşülməsi təklif olunur və əksər alim-mütəxəssislər tərəfindən belə yanaşmaya münasibət müsbətdir.

Bu sahədə də ƏAF-nin subyektlərinin, onların əməliyyat-axtarış orqanlarının öz yeri var və onlar səlahiyyətləri çərçivəsində müəyyən tədbirlər həyata keçirirlər. Məsələn, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunda nəzərdə tutulmuşdur ki, (maddə 6) bu fəaliyyətin subyektləri ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri çərçivəsində bütün qanuni tədbirləri həyata keçirməlidir.

Məlum məsələdir ki, müasir şəraitdə ƏAT-nin həyata keçirilməsi mühüm dərəcədə məlumatların gizli alınmasına xidmət edən xüsusi texniki vasitələrdən istifadəni də nəzərdə tutur. Lakin indiki dövrdə mütəşəkkil cinayətkarlığa, o cümlədən, korrupsiyaya qarşı mübarizədə texniki vasitələrdən istifadə olunması informasiya-texniki əks-təsir sferasına keçir. Mütəşəkkil cinayətkarlıq və onun istənilən dövlət üçün çox təhlükəli təzahürlərindən olan korrupsiya fəaliyyəti ilə məşğul olan mütəşəkkil cinayətkar qruplaşmalar (qrup, dəstə, təşkilat və ya birlik) informasiyanın mühafizəsi məqsədilə son dərəcə müasir texnikadan tam səmərəli istifadə edirlər, bundan əlavə, tez-tez gizli məlumatların (hüquq-mühafizə orqanlarının fəaliyyəti və ya öz fəaliyyətləri sahəsində) alınmasını təmin edən texniki vasitələrdən, informasiya təsiri və hücumu vasitələri tətbiq edirlər.

Xüsusi texnikadan və informasiya təminatından danışarkən ilk növbədə o nəzərdə tutulur ki, müasir məlumatların əldə edilməsinə xidmət edən texniki vasitələr və məlumatların işlənməsi ilə bağlı kompüter sistemləri daha çox vahid kompleks təşkil edirlər. Bundan əlavə, bəzi vəziyyətlərdə xüsusi texnikanın tətbiqini kompüter texnologiyalarından ayırmaq mümkün olmur və ya əksinə. Belə cəhəti də qeyd etmək lazımdır ki, müasir texniki qurğular, bir qayda olaraq, informasiyanın rəqəmli işlənməsi prinsiplərinə əsasən qurulur. Xüsusi texniki vasitələrin köməyi ilə alınan informasiya kompüter sistemləri ilə işlənir. Kompüter texnologiyaları və xüsusi texniki vasitələrin qarşılıqlı əlaqəsi informasiyanın müdafiəsi sisteminin qurulması prosesində özünü daha kəskin büruzə verir.

Müasir rabitə əlaqələri (radiotelefonlar, peycerlər, kiçik ölçülü radiostansiyalar) MCQ və MCB öz fəaliyyətinin gizliliyini və səfərbərliyini mühüm dərəcədə artırmağa imkan verir. Bir sıra MDB ölkələrində, o cümlədən, RF-də MCQ və MCB özlərinin çoxsaylı gizli rabitə mənbələrini yaratmağa nail olmuşlar. Telefon inteqfeysindən (inteqfes latın sözü olub aparan, keçirmə mənasını daşıyır,burada dalğaların biri-birinin üzərinə qoyulmaqla gücləndirilməsi və ya zərifəməsi kimi verilir) istifadə edilməsi, avtomatik telefon, o cümlədən beynəlxalq danışıq stansiyalarına çıxmağa şəhər qovşaqları, şəhərlərarası və beynəlxalq rabitə kanalları ilə danışıqların aparılmasına kömək edir.

Eyni zamanda, cinayətkar fəaliyyətdə müasir kommunikasiya vasitələrindən istifadə edilməsi, öz növbəsində, çox qiymətli müxtəlif əlaqə sistemləri vasitəsilə ötürülən məlumatlara gizli nəzarət yolu ilə qiymətli əməliyyat məlumatlarının əldə edilməsi, cinayətkar hərəkətlərin sənədləşdirilməsi üçün yeni imkanlar açır.

Beləliklə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə informasiya-texniki sferaya keçir və MCQ tərəfindən yaradılmış gizli radio şəbəkələrinin gizli qaydada aşkarlanması, onlara nəzarət və bəzi hallarda onların işinin dayandırılması, sıradan çıxarılması ilə bağlı əməliyyatların keçirilməsini də nəzərdə tutur. Nəzarət edilən şəbəkənin radio əlaqələrinin işçi tezliklərinin aşkar edilməsi radiomonitorinqin kompüter kompleksləri ilə həyata keçirilir.

ƏAT və yaxud xüsusi əməliyyatlar keçirilərkən MCQ gizli radio şəbəkələrinin işinə fəal daxil olmağa imkan verir, səs-küylə müşayiət olunan siqnallarla onların işini dayandırmaq olar. Belə radio şəbəkələrinə müəyyən dövrdə fasiləsiz təsir nəticəsində retrotranslyatorların çıxış kaskadları qızaraq nasaz halına salınır, nəticədə nəzarət edilən rabitə şəbəkəsi tam sıradan çıxarılır.

Cinayətkarlığa qarşı mübarizədə xüsusi texnika, rabitə vasitələri və informasiya texnologiyasının tətbiq edilməsinin bütün bu aspektləri ƏAO üçün nisbi mənada yeni fəaliyyət sferası sayılır və əvvəldə qeyd edildiyi kimi, mütəşəkkil cinayətkarlığa qarşı informasiya-texniki əks-təsir sferası kimi qeyd etmək olar.

Sonda bir daha qeyd etmək lazımdır ki, ƏAF nəzəriyyəsinin bütün hüquq elmləri, digər elmlər, o cümlədən hərbi elmlər ilə bu və ya digər dərəcədə əlaqəsi var, lakin onların məzmun və mahiyyətini bir dərslik çərçivəsində vermək mümkün deyil, bu qarşılıqlı əlaqələri əks etdirən biliklər müasir tədqiqat materiallarının nəticələri ilə zənginləşməli və genişlənməlidir.

# II BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## VI FƏSİL
## Əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsinin əsasları

### § 1. Əməliyyat-axtarış fəaliyyətində ictimai münasibətlərin tənzimlənməsinin hüquqi mənbələrinin ümumi səciyyəsi

Dövlət və hüquq nəzəriyyəsinin əsas institutlarından biri də hüququn mənbələridir. Hüququn mənbələri dedikdə, hüquq normalarının təsbiti və ifadəsi üsulları nəzərdə tutulur. Hüququn mənbələri hüquq normalarının zahiri ifadə formalarını bildirmək üçün işlədilən xüsusi hüquq terminidir. Hüququn mənbələri hüquq normalarının təsbit olunduğu rəsmi dövlət sənədləridir.

**Htrialn bu əsas mənbələri aşağıdakı kimi fərqləndirilir:** hüquqi adət, hüquqi presedent (məhkəmə təcrübəsi), normativ-hüquqi akt. Məhz dövlət və hüquq nəzəriyyəsinin bu fundamental əsaslarını rəhbər tutaraq ƏAF-nin hüquqi mənbəyi, mənbələr sisteminin məzmununu və mahiyyətini açıqlamaq olar. Bildiyimiz kimi hüququn, onun müxtəlif sahələrinin ümumi maddi mənbələri inkişaf edən ictimai münasibətlərdir.

**Hüququn inkişaf tarixində isə, bir qayda olaraq, hüququn mənbələrinin aşağıdakı növləri fərqləndirilir:** hüquqi adət, məhkəmə və inzibati presedent, normativ akt və normativ müqavilə. **Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, bütün bunları da kifayət dərəcədə böyük həcmə malik 2 qrupa bölmək olar: milli və beynəlxalq-hüquqi mənbələrə. Əməliyyat-axtarış fəaliyyətinin milli-hüquqi mənbələri sırasında normativ akt, kontrakt (normativ müqavilə), inzibati presedent, məhkəmə hakimiyyətinin aktı və hüquqi adəti misal göstərmək olar.**

ƏAF-nin beynəlxalq-hüquqi mənbələri qrupuna isə müxtəlif səviyyəli və hüquqi qüvvəyə malik konvensiya və müqavilələri (sazişləri) daxil etmək olar (məsələn, Azərbaycan dövlətinin BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" va-

hid Konvensiyası, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında", 1988-ci il tarixli "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyaları, 2000-ci il tarixli «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqqinda» Polermo Konvensiyası, Azərbaycan Respublikasının Türkiyə, RF və başqa dövlətlər ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında imzaladığı müqavilələr, MDB-yə daxil olan ölkələrin daxili işlər nazirliklərivə digər HMO arasında "ƏAF-nin xüsusi müşayiət olunması sahəsində əməkdaşlığa dair saziş" və s.)

**ƏAF-nin milli-hüquqi mənbələri**. Bu hüquqi mənbələr içərisində ilk növbədə normativ-hüquqi aktları nəzərdən keçirək. Bu qrupa daxil olan normativ aktlar kifayət qədər genişdir.[1] Bütün bunlar ƏAF-nin normativ hüquqi tənzimlənməsinin böyük hissəsini təşkil edir və əsas etibarilə onlara müvafiq olaraq ƏAF bilavasitə tənzim olunur. Bu hüquqi mənbələrə daxil olan normativ hüquqi aktlar Azərbaycan Respublikasının Konstitusiyasının 148, 149-cu maddələri rəhbər tutulmaqla belə sistemləşdirilir:

– ƏAF-nin hüquqi əsaslarını yaradanlar;

– əməliyyat-axtarış qanunvericiliyinə daxil edilənlər;

– əməliyyat-axtarış qanunvericiliyini təşkil edənlər;

– Azərbaycan Respublikası Ali və Konstitusiya məhkəmələrinin ƏAF, cinayət prosesi ilə bağlı aidiyyatı qərarları, Baş Prokurorluğunun normativ aktları.

Qeyd edilən təsnifatın məzmunu ƏAF-nin hüquqi əsaslarında açıqlanacaqdır. Sözsüz ki, belə təsnifatın məzmunu və mahiyyəti Azərbaycan Respublikası Konstitusiyasının V-"Hüquq və qanun" bölməsində Konstitusiyanın hüquqi qüvvəsi, normativ hüquqi aktlar, bələdiyyə aktları, beynəlxalq aktların hüquqi qüvvəsini əks etdirən maddələri, 21 dekabr 2010-cu il tarixli «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun müvafiq normaları rəhbər tutulmaqla açıqlanmalıdır. Qeyd edilən qanunlarda nəzərdə tutulmuş normativ hüquqi aktların məzmunu bu redaksiyada ifadə edilmişdir:

Konstitusiyanın 149-cu maddəsində qeyd edilir ki, "normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır". "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunun 2-ci maddəsində isə qeyd

1 Ş.İ.Hüseynov, B.Ə.Əliyev, E.Y.İsmayılov "Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanun sxemlərdə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik dərs vəsiti, Polis Akademiyası, DİN-in mətbəəsi, B.2008

edilir: “Normativ hüquqi aktların növləri Azərbaycan Respublikası Konstitusiyası 148-ci maddəsi ilə müəyyən edilir. Normativ hüquqi aktıların hüquqi qüvvəsi Konstitusiyanın 149-cu maddəsinın II, III, IV, V, VI hissəlәlri və 151-ci maddəsi ilə müəyyən edilir.”

**Kontrakt (normativ müqavilə)** – latın sözü olub, hüquqi mənası hər iki tərəf üçün səlahiyyətləri müəyyən edən müqavilə, razılıq deməkdir ƏAF-də kontrakt ƏAO (əməliyyat işçisi təmsilində) ilə məxfi əməkdaşlıq edən şəxs arasında hər iki tərəf üçün müəyyən hüquqi nəticələrə səbəb ola bilən müqavilədir (bir qayda olaraq rəsmi sənədləşdirilmiş). Kontraktın müqaviləyə aid edilməsi kifayət dərəcədə onu sazişin bir növü kimi saymağa imkan verir və bunun nəticəsində tərəfər arasında spesifik əməliyyat-axtarış hüquqi münasibətləri yaranır.

**İndi isə presedentin** (latın sözü olub “qabaqda gedən” mənasını verir, əvvəllər olan hadisələrə nümunə və ya onlara bəraət verən hadisə kimi başa düşülür) – ƏAF-nin hüquqi nizamlanmasının inkişafındakı roluna nəzər salaq.

Bildiyimiz kimi, hüquqi presedent dedikdə, konkret hüquqi işlər üzrə dövlətin ümumməcburi əhəmiyyət verdiyi məhkəmə qərarları və inzibati qərarlar başa düşülür. Bu qeyd edilənlə yanaşı, bu günə qədər yayılan onun digər növü olan **inzibati presedent** də mövcuddur. Hüquqi mənbələrin bu növləri, bir qayda olaraq, konkret əməliyyat-qeydiyyat işləri üzrə icmal növü kimi rəsmiləşdirilir, təcrübə ilə bağlı axtarış fəaliyyətində yaranan anoloji vəziyyətlərdə nümunə, misal kimi istifadə olunmağa xidmət edir.

**Məhkəmə presedenti** isə məhkəmə tərəfindən konkret iş üzrə çıxarılan elə qərardır ki, onun əsaslandırılması həmin və ya aşağı instansiyadan olan məhkəmələr üçün anoloji işlərin həll edilməsində bir qayda kimi istifadə edilir. Bir sıra MDB ölkələrində, o cümlədən, RF-də ƏAF sahəsində belə qərarlar ali məhkəmə instansiyaları tərəfindən qəbul edilmişdir. ***Məsələn, 14 iyul 1998-ci ildə RF-nin Konstitusiya Məhkəməsi RF-nin “ƏAF haqqında” Federal Qanununun bir sıra müddəalarının Konstitusiyaya müvafiq olmasına dair vətəndaş İ.Q.Çernovanın şikayət ərizəsi ilə bağlı yoxlama əsasında qərar çıxarmışdır. Bu qərarda müəyyən edilmişdir ki, RF-in 12 avqust 1995-ci il tarixli “ƏAF haqqında” Federal Qanunun müddəalarının tətbiqi ilə bağlı vətəndaş Çernovanın şikayətində göstərilən Konstitusiyada təsbit edilmiş hüquqlarının pozulması hallarına yol verilməyibdir və əməliyyat-qeydiyyat***

***işinin açılması bu hüquqların məhdudlaşdırılması ilə bağlı ƏAT-nin keçirilməsinə yol vermir.***

Bu qeyd edilənlərlə yanaşı, məhkəmə hakimiyyətinin bir sıra digər aktları da var. Məsələn, RF Ali Məhkəməsinin Plenumu daha 2 akt, 24 dekabr 1993-cü il tarixli 13 saylı, Konstitusiyanın 23 və 25-ci maddələrinin tətbiqi ilə bağlı və 31 oktyabr 1995-ci il tarixli "Məhkəmə prosesinin həyata keçirilməsində məhkəmələr tərəfindən RF Konstitusiyasının tətbiq edilməsi haqqında" qərar qəbul etmiş və onlarda ƏAF-nin hüquqi nizamlanmasının bir sıra çox vacib aspektlərinin şərhini vermişdir. Azərbaycan Recpublikasının Konstitusiya Məhkəməsinin Pleniumunun da bu istiqamətdə qərarları var. (bax əlavəyə)

**ƏAF-nin beynəlxalq hüquqi mənbələri.** Qeyd edilən qrup hüquqi mənbələrə, ilk növbədə Azərbaycan Respublikası tərəfindən imzanlanmış və ya tanınmış konvensiya, pakt və sazişləri aid etmək olar. Qeyd edilənlər sırasına aşağıdakıları aid etmək olar:

**a) universal xarakterli,** məsələn, BMT-nin "Mülki və siyasi hüquqlar haqqında" 16 dekabr 1996-cı il tarixli Paktı; 1988-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Vyana Konvensiyası; 2000-ci il tarixli "Transmilli, mütəşəkkil Cinayətkarlığa qarşı mübarizə haqqında" Palermo Konvensiyası v. s.;

**b) regional əhəmiyyətli:** Avropa Şurasının 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında"; 13 dekabr 1957-ci il tarixli "Hüquqpozanların verilməsi haqqında" Konvensiyaları, "MDB iştirakçısı olan ölkələrin "Cinayətkarlığa qarşı mübarizə haqqında" 25 noyabr 1998-ci il tarixli sazişi; 2 oktyabr 1998-ci il tarixli "Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, ələlxüsus onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Saziş; 4 iyun 1999-cu il tarixli "MDB iştirakçısı olan ölkələrin terrorizmə qarşı mübarizə haqqında" Müqaviləsi və s.);

**c) ikitərəfli və çoxtərəfli:** "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mülki və Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında" 2 noyabr 1992-ci il tarixli Müqavilə; Azərbaycan Respublikası ilə Özbəkistan, Qazaxıstan respublikaları ilə eyni adlı müvafiq olaraq 18 iyun 1991 və 10 iyun 1997-ci il tarixli müqavilələr və s.

Bundan əlavə, Azərbaycan hökuməti MDB-yə daxil olan və digər xarici dövlətlərlə cinayətkarlığa qarşı mübarizə sahəsində son illərdə çoxlu sayda hökumətlərarası sazişlər imzalamışdır (məsələn, 12 aprel 1996-cı il tarixli "İqtisadiyyat sahəsində MDB-yə daxil olan ölkələr arasında cinayətkarlığa qarşı mübarizə" ilə bağlı Saziş; "Azərbaycan ilə Ukrayna respublikaları arasında iqtisadi və maliyyə pozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında" hökumətlərarası 30 iyul 1999-cu il tarixli Sazişi və s.)

Azərbaycanın hüquq-mühafizə orqanları və xüsusi xidmətlərinin xarici dövlətlərin anoloji xidmətləri ilə imzaladığı saziş və protokollar (məsələn, Azərbaycan Respublikası DİN və Moldova Respublikası DİN arasında (17.02.1995), RF DİN arasında (19.04.1996), Belorus Respublikası DİN arasında (05.06.1999) qarşılıqlı əməkdaşlıq haqqında sazişlər, "İran İslam Respublikası Ölkə Nazirliyi ilə DİN arasında narkotik və psixotrop maddələrin qaçaqmalçılığına qarşı mübarizə haqqında" 30.07.1996-cı il tarixli Niyyət Protokolu və s.)

ƏAF-nin yuxarıda qeyd edilən II qrup hüquqi mənbələrinə, həmçinin beynəlxalq təşkilatların məcburi olmayan və yalnız tövsiyə xarakteri daşıyan beynəlxalq-hüquqi aktları da aid edilir (məsələn, BMT-nin 17 dekabr 1999-cu il tarixli "Hüquq-mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsi", 7 sentyabr 1990-cı il tarixli "Hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən gücün və odlu silahın tətbiqinin əsas prinsipləri", 29 noyabr 1985-ci il tarixli "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamə, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının iclasında (6.12.1997) qəbul edilən "ƏAF haqqında" Model Qanunu və s.).

Sözsüz ki, cəmiyyətdə baş verən dəyişikliklər müvafiq olaraq ictimai münasibətlərə təsir edir və onların bir qisminin yeni hüquqi mənbələrlə nizamlanmasını, bir qisminin isə sona çatmasını, dəyişilməsini və təkmilləşdirilməsini tələb edir. Bu isə yeni hüquqi normaların, yeni hüquqi mənbələrin işlənib hazırlanmasını zəruri edir. Məhz ona görə də ƏAF istər milli hüquqi, istərsə də beynəlxalq hüquqi mənbələrinin daim inkişaf edib təkmilləşməsi və genişləndirilməsi bir reallıq kimi qəbul edilməlidir.

## § 2. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi anlayışı, onun hədləri və səviyyələri

ƏAF-nin hüquqi nizamlanmasının dərk edilməsi üçün ilk növbədə hüquq nəzəriyyəsində hüququn ilk hüceyrəsi sayılan hüquq norması anlayışına toxunmaq lazımdır. Hüquq norması dövlət tərəfindən müəyyən edilən tipik ictimai münasibətlərin nümunəsidir. Hüquq norması səlahiyyətverici-məcburedici xarakter daşıyır və onun realizəsi zəruri hallarda dövlət məcburiyyət tədbirləri vasitəsilə həyata keçirilir. Həmçinin onlar ictimai münasibətlərin dövlət tənzimçisi rolunu oynayır. Hüquq normaları hüquqi münasibətlərlə əlaqəlidir və özlərini hüquqi münasibətlərdə büruzə verir. Hüquq münasibəti isə tərəfərin dövlət tərəfindən mühafizə edilən hüquq və vəzifələrlə əlaqədə olduğu ictimai münasibətlərdir. Belə münasibətlər həyat fəaliyyəti prosesində (o cümlədən ƏAF prosesində) yaranır, insanlar bir-birləri ilə müxtəlif münasibətlərə girirlər (əmək, ailə və s.). Lakin heç də bütün həyati münasibətlər hüquq normalarının köməyi ilə nizama salınmır. Hüquq münasibətlərinin iştirakçıları qarşılıqlı hüquq və vəzifələr daşıyırlar, onlar şüurlu-iradi mahiyyətə malikdirlər, həmçinin dövlət tərəfindən təmin edilir və zəruri hallarda onun məcburetmə qüvvəsiylə qorunurlar. Bu münasibətlər hüquqi sahələr üzrə fərqlənir və bu əsasa görə də dövlət hüququ, inzibati hüquq, mülki hüquq, ailə hüququ, cinayət hüququ, həmçinin artıq yeni formalaşan və inkişaf edən əməliyyat-axtarış hüququ və başqa sahəvi hüquqi münasibətlərin biri o birindən seçilir.

Hüquq nəzəriyyəsinin yuxarıda qeyd edilən digər müddəalarını, Azərbaycan Respublikasının dövlət hakimiyyəti, o cümlədən qanunvericilik hakimiyyəti və s. ilə bağlı normalarının mahiyyətini rəhbər tutaraq hüquq nizamlanması dedikdə, aşağıdakı redaksiya ilə ifadə edilmiş məzmun başa düşülməlidir: **"İctimai münasibətlərin qaydaya salınması üzrə və bu münasibətlər çərçivəsində hüquqi normaların müəyyən edilməsi, yaranan hüquqi vacib məsələlər üzrə zəruri hallarda fərdi-nizamlayıcı qərarların qəbul edilməsi üsulu ilə dövlətin, onun orqanlarının və vəzifəli şəxslərinin spesifik fəaliyyəti başa düşülür".**

Hüquqi nizamlanma mexanizmi – ictimai münasibətlərin, hüquqi dövlətin məqsəd və vəzifələrinə uyğun olaraq qaydaya salan hüquqi vasitələr sistemidir. Hüquqi nizamlama mexanizminin əsas struktur ünsürlərinə hüquq normaları (mexanizmin ünsürü və əsası kimi), hüquq münasibəti (hüququn real mövcudluğunun mü-

hüm və zəruri ünsürü), hüquq və vəzifələrinin realizə aktları aid edilir. Hüquqi nizamlamanın başlica məqsədi cəmiyyətdə hüquq normalarının tələblərinə tam uyğun gələn, sosial ədalət prinsiplərinə cavab verən qaydanın yaradılmasıdır.

Qeyd edilənlərə müvafiq olaraq belə demək olar ki, hüquqi nizamlama ümumən funksional və idarəçilik mahiyyəti, ƏAF-də isə funksional xarakter daşıyır. Onu da nəzərə almaq lazımdır ki, bu işdə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının müdafiəsi ilə əlaqədar olaraq hüquqi normaların vasitəsilə dövlətlə (onun nümayəndəsi ilə) vətəndaş (ilk növbədə cinayət qanunvericiliyi ilə qorunan obyektlərə qəsd edən) arasındakı münasibətlər nizamlanır.

Yuxarıda qeyd edilən fundamental və əsaslı biliklərə istinad edilən ƏAF-nin hüquqi nizamlanması dedikdə bu fəaliyyətlə bağlı və bu fəaliyyətdə yaranan, davam edən və son qoyulan ictimai münasibətlərin qaydaya salınması məqsədilə Azərbaycan dövlətinin normativ amiranə təsiri başa düşülür. Belə təsir əməliyyat-axtarış münasibətləri çərçivəsində yaranan hüquqi mühüm məsələlər üzrə hüquqi normaların təyin olunması yolu ilə həyata keçirilir.

**ƏAF-nin hüquqi tənzimlənməsinin hədləri. ƏAF-nin təyinatı və məqsədinin düzgün dərk edilməsi üçün onun hüquqi tənzimlənməsinin hədlərinə dair məsələnin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.** Əməliyyat-axtarış işinin təsirliliyi və beləliklə, müxtəlif kateqoriyadan olan şəxslər tərəfindən törədilən cinayətlərin xəbərdarlığı və qarşısının alınması üzrə tədbirlərin reallığı, həmçinin hüquq-mühafizə orqanları və xüsusi xidmətlərin nəzər dairəsində olan insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin təminatı və bu məsələnin həlli ilə sıx əlaqəsi əsas etibarilə ondan asılıdır. Lakin belə bir məsələni də nəzərə almaq lazımdır ki, hələ keçmiş SSRİ məkanında və hal-hazırda hüquq nəzəriyyəsində ümumi hüquqi tənzimlənməyə vahid bir yanaşmanın olmaması ƏAF-nin hüquqi nizamlanması həddinin tam öyrənilməsində çətinlik yaradır. Bütün bunlara baxmayaraq, bir sıra tanınmış alimlər ƏAF-nin ümumi hüquqi nizamlanmasının həddi kimi müəyyən amillərlə şərtləndirilən hüquq normalarının köməyi ilə ictimai münasibətlərə hakimiyyət və dövlətin müdaxiləsinin başa düşülməsini təklif edirlər: "ƏAF-də ictimai münasibətlərin nizamlanması hədləri dedikdə cinayətin törədilməsi və ya törədilən cinayətə dair kifayət dərəcədə ehtimalın olması və ya onun bilavasitə xüsusi qüvvə, vasitə və metodların tətbiq edilməsi vasitəsilə, həmçinin əməliyyat-axtarış və bəzi digər hüquq sahələrinin normalarına müvafiq qaydada əməliyyat-axtarış hərəkətləri etməklə, aş-

kar və yaxud konspirativ xəbərdarlığı, aşkar edilməsi və qarşısının alınması ilə bağlı yaranan ictimai münasibətlərə, obyektiv faktorlarla şərtləndirilən, dövlət-hakimiyyət müdaxiləsinin sərhədləri başa düşülür. Professor A.Y.Şumilovun verdiyi bu redaksiya ilə ƏAF sahəsində çalışan bir sıra alimlər razılaşsalar da, onun məzmununun dəqiqləşdirilməsi və təkmilləşdirilməsinə ehtiyac olduğunu etiraf edirlər.

Sözsüz ki, ƏAF hüququnun nizamlanması həddinin öyrənilməsində hüquq nəzəriyyəsində işlənmiş ümumi qanunauyğunluqlar rəhbər tutulmalıdır. Belə ki, ümumi hüquq nizamlanması hədlərinin öyrənilib dərk edilməsi, heç olmasa, ikili təbiətə malik qarşılıqlı əlaqəsi olan aşağıdakı şərtlərin analizini tələb edir: ilk növbədə o faktorları ki, onlardan ƏAF-nin sərhədləri bu və ya başqa cür asılıdır; ikincisi bu və digər ictimai münasibətləri dəyişdirmək, təkmilləşdirmək və ya formalaşdırmaqda hüquqi imkan tədbirləri.

**ƏAF-nin hüquqi nizamlanması hədlərini şərtləndirən faktorlar.**

**Birinci** faktor odur ki, ondan bu fəaliyyətin hüquqi nizamlanması hədləri asılıdır və bu fəaliyyətin özünün predmetinin daxilindədir, yəni nizamlanması və qaydaya salınması tələb olunan ictimai münasibətlərdədir.

Hüquq nəzəriyyəsində müəyyən edilmişdir ki, antoloji baxımdan bütün ictimai münasibətləri nizamlamaq olar və potensial olaraq nizamlama həddi həyatın müxtəlif sahələrində obyektiv və iradəliyin nisbətlərinin dəyişməsi ilə əlaqədar sonuncunun xeyrinə artır. Beləliklə, bütüvlükdə ƏAF hüquqi nizamlana bilər. Burada onu da nəzərə almaq lazımdır ki, hüquqi nizamlamanın bu və ya digər variantının seçilməsi əsas etibarilə qanunvericinin iradəsindən asılıdır. Belə nəticənin çıxarılması hüquq-mühafizə orqanlarının və xüsusi xidmətlərin təcrübi fəaliyyəti üçün son dərəcə vacibdir. Lakin bu məsələlərdə onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın istər BMT-nin, Avropa Şurasının, istərsə də digər beynəlxalq təşkilatların üzvlüyünə qəbul edilməsi, onların qanunvericilik yaradıcılığı sahəsində zəruri olan tələbləri, prinsipləri, ölkəmizin imzaladığı konvensiya, pakt və sazişlərin tələblərini təmin etməlidir.

Bütün bu qeyd edilənlər bir daha onu müəyyən və təsdiq edir ki, ƏAF-də hüquq tətbiqçisi öz fəaliyyətində hüquq normalarını rəhbər tutmalı, siyasi məqsədəuyğunluq və s. prinsiplərə istinad etməməlidir.

**İkinci faktorun** mahiyyəti ondan ibarətdir ki, qanunvericinin müəyyən iradəsinin mövcudluğuna baxmayaraq, hüquqi, sivil dövlətdə ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmaması o zaman həyata keçirilə bilər ki, onlarda bu və ya digər

davranış qaydalarının seçilməsinin obyektiv imkanları mövcuddur, yəni hüququn nizamlayıcı təsir sferası hər bir tipik vəziyyətdə insan davranışının normativ qaydada müəyyən olunmuş variantları ilə məhdudlaşır.

Ümumi hüquq nizamlanmasının həddini müəyyən edən **üçüncü faktor** – hüququn köməyi ilə bu və ya digər ictimai münasibətlərə dövlətin təsir göstərmək marağı və bu təsirin məqsədəuyğunluğudur. Burada onu da qeyd etmək lazımdır ki, bu təsir yalnız nizamlama predmetinin özünün inkişaf ənənələri deyil, həmçinin ümumilikdə cəmiyyətin tələbləri ilə şərtləndirilməlidir.

Müasir dövrdə hər bir dövlətdə olduğu kimi Azərbaycanda da cəmiyyətdə gedən mütərəqqi, ənənəvi xarakter daşıyan ictimai sosial proseslər onu təsdiqləyir ki, ümumilikdə cəmiyyət və onun ayrı-ayrı fərdləri əvvəlki illərdən fərqli olaraq, bu gün hüquq-mühafizə orqanları və xüsusi xidmətlərin qeyri-leqal fəaliyyətinin daha geniş həcmdə və sərt qaydada hüquqi nizamlanmasını istəyir və bu məsələlərə böyük maraq göstərir. Bu isə ilk növbədə, cəmiyyətdə baş verən demokratik proseslər, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində dünyanın inkişaf etmiş, sivil dövlətlərin, beynəlxalq təşkilatların səy və qüvvələrinin səfərbərliyi və s. amillərlə sıx əlaqəlidir.

**ƏAF-nin hüquqi nizamlanması hədlərinə təsir edən IV və V faktorlara aşağıdakıları aid etmək olar:**

1. Əməliyyat işçilərinin (əməliyyat müvəkkili və digər) və ƏAF-nin digər iştirakçılarının fərdi imkanları;

2. Birinci bənddə qeyd edilən subyektlərin hüquqi göstərişləri və davranış qaydalarını şüurlu olaraq dərk etmək qabiliyyəti;

3. Hüququn potensial imkanları, onun formal prizmadan müəyyənliyi, sistemliliyi və dövlət məcburetmə və ya mükafatlandırma tədbirləri ilə təminatı.

Bu qeyd edilən obyektiv və subyektiv faktorlar qarşılıqlı əlaqəli və qarşılıqlı şərtləndirici xarakter daşıyır və yalnız onları ümumilikdə nəzərə almaqla ƏAF-nin hüquqi nizamlanmasının hədlərini müəyyən etmək olar.

**ƏAF-nin ictimai münasibətlərinin hüquqi tənzimlənməsinin sərhədləri.** Professor A.Y.Şumilov öz monoqrafik əsərində onları şərti olaraq yaxın və uzaq sərhədləri kimi fərqləndirir. Bu halda hesablama nöqtəsi kimi bir tərəfdən dövlətin nəzərdə tutduğu prosessual hüququn inzibati-prosessual, cinayət-prosessual və s. "ənənəvi" sahələrinin normalarının köməyi ilə nizamlanması mümkün olmayan, ictimai müna-

sibətlərə müdaxilə imkanlarıdır. Lakin belə müdaxilə **prevensiya *(latın sözü olub xəbərdarlıq, qabaqlamaq kimi başa düşülür)*** məqsədilə insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etmək üçün tələb olunur və vacib sayılırsa (axtarış fəaliyyətində hüquqi nizamlanan **uzaq hədləri**), digər tərəfdən isə əməliyyat-axtarış hüququnun cücərtiləri əmələ gələn hüquq sahələrinin hüquqi nizamlanmasının hədləri ilə onların "qovuşma" anları (**yaxın hədləri**) seçilir.

ƏAF-nin hüquqi nizamlanmasının «**uzaq sərhədləri**» o yerdə yaranır ki, orada aşağıdakı zəruriyyət meydana çıxır: Cinayətin törədilməsi, cinayətin törədilməsi ehtimalının olması, xəbərsiz itkin düşən şəxsin axtarışı ilə əlaqədar olaraq informasiyanın yoxlanılması (axtarış fəaliyyətinə xas olan metod və vasitələrlə); dövlətin həyati vacib maraqlarına zərər vurulmasına yol verilməməsi məqsədilə perspektiv tədbirlərin həyata keçirilməsi ("geniş" həcmdə ƏAF keçirilməsi çərçivəsində); insan və vətəndaşların Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının məhdudlaşdırılması (ƏAF haqqında göstərilən əsaslara müvafiq).

ƏAF-nin hüquqi nizamlanmasının *"yaxın"- hədləri* mahiyyətcə aşağıdakı istiqamətlərlə qovuşur, bir növ sərhəd təşkil edir: Cinayət-prosessual fəaliyyətlə (xüsusilə axtarış prosesinin təhqiqat və ibtidai istintaqla qarşılıqlı əlaqəsi prosesində); cinayət-icra üsulları üzrə icraat (cəza çəkən şəxslər üzərində müşahidə və s. tədbirlərin keçirilməsi prosesində).

**Müasir dövrdə ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmasının dinamikası.** Bu fəaliyyətin hüquqi nizamlanmasının hədləri statistik deyil. Onların dəyişkən olması bir sıra obyektiv və subyektiv faktorlarla şərtləndirilir və bu, daim baş verir (bu və ya digər ahəngdə). Ona görə də hüquqi tənzimləmənin dinamikası hədlərini bilmək çox vacibdir.

Ölkəmizdə beynəlxalq standartlara müvafiq olaraq həyata keçirilən islahatlar, o cümlədən hüquqi islahatlar çərçivəsində ƏAF-nin hüquqi nizamlanmasının hədləri genişlənmə ənənəsinə malikdir. Bu baxımdan xüsusi axtarış və detektiv ***(latın sözü olub, fərdi axtarış fəaliyyəti ilə məşğul olmasına qanunla müəyyən olunmuş qaydada lisenziya verilmiş şəxs mənasında işlədilir)*** fəaliyyət haqqında və s. digər qanunların da qəbul edilməsi vaxtına da az qalıbdır. Məhz ona görə də hüquqi nizamlamanın hədlərinin dinamikası haqda məlumatlara malik olmaq çox vacibdir. Qeyd edilən fəaliyyət sahəsi əvvəllər xüsusi hüquqi nizamlamaya məruz qalmırdı. Keçən əsrin son illərində keçmiş SSRİ-nin bir sıra dövlətlərində, o cümlədən RF-də (1992-

ci ildə) bu fəaliyyət haqqında qanunlar qəbul edilmişdir. Bu fəaliyyət sahəsini əhatə edən normativ-hüquqi aktların, materialların təhlili göstərir ki, baxmayaraq ki, bu fəaliyyət öz qanununa müvafiq olaraq "yaşayıb" fəaliyyət göstərir, bununla yanaşı, dövlət orqanlarına xas olan ƏAF-nin müxtəlif elementlərini özündə daşıyır.

Dövlət quruculuğunda olan islahatlara, o cümlədən hüquq-mühafizə orqanları sistemində və onların tərkibində həyata keçirilən struktur dəyişikliklərinə müvafiq olaraq ƏAF sferasında olan münasibətlər daha da genişlənib və onların hüquqi mənbələrinin yenidən işlənməsinə böyük ehtiyac duyulur (məsələn, ƏN, DSX, DİN, DTX, XKX, VN, FHN və s. bağlı struktur və səlahiyyət dəyişikləri).

**ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmasının səviyyələri.**-Problemin hansı müstəvidən (prizmadan, aspektdən) baxılmasından asılı olaraq (ümumiyyətlə nəyinsə, o cümlədən ictimai münasibətlərin) hüquqi nizamlanmanın əsaslandırılmış səviyyələri fərqləndirilir. Qeyd olunan məsələdə xüsusi olaraq normativ aktın hüquqi qüvvəsi və onun təsirinin məkan etibarilə yayılması hədlərini (təsir dairəsinin hədlərini, sərhədlərini) ayırırlar. Burada ən vacibi odur ki, ƏAF-nin hüquqi nizamlanması səviyyəsinə normativ hüquqi aktın hüquqi qüvvəsini əks etdirən müstəvidə baxılsın.

**Məhz bu baxımdan hüquqi nizamlamanın 3 səviyyəsini fərqləndirirlər:** əsas (baza), orta (və ya inkişaf edən), təfsilatı (detallaşdırıcı).

**Əsas (baza) səviyyəsi.** Bu səviyyədə hüquqi nizamlanma konstitusiya və qanunlar səviyyəsində həyata keçirilir. Məsələn, bu səviyyədə ƏAF-yə səciyyəvi olan ictimai münasibətlər yalnız qeyd edilən konstitutsiya və qanunlar ilə deyil, habelə bir sıra digər qanunvericilik aktları ilə nizamlanır. Qeyd edilən münasibətlərin bu səviyyədə nizamlanmasında Azərbaycan Respublikasının "Dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il Konstitusiya Aktı, "İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu da rəhbər tutulur. Qeyd olunan səviyyədə rəhbər prinsip kimi onu da nəzərdə tutmaq lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasında sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bu səviyyədə ƏAF-də insan və vətəndaşların hüquq və azadlıqları ilə bağlı ictimai münasibətlərin nizamlanmasında 23 dekabr 2003-cü il tarixli "Konstitusiya məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq çıxarılan qərarlar da rəhbər tutulmalıdır.

**Orta (inkişafda olan) səviyyə.** Bu səviyyədə ƏAF-də ictimai münasibətlər, bir qayda olaraq, adi qanunlarda, kodekslərdə öz əksini tapmalıdır. Bu səviyyədə hüquqi nizamlanma yalnız qanun və kodekslərdə öz modelinin tapılmasını tələb edən ictimai münasibətləri əhatə edir (bu qanun və kodekslərdə blanket, göndərici xarakterli normalar olur ki, nəticədə hüquqi nizamlanmanın bir variantı kimi konkret normativ aktlar ola bilər). Məsələn, "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 12-ci bəndində "nəzarət qaydasında mal alınması" kimi ƏAT qeyd edilmişdir, lakin bu qanunun rəsmi təsviri olmadığından onun elə bir müddəası yoxdur ki, ƏAF subyektləri narkotik vasitələrin, odlu silahın qeyri-leqal dövriyyədən götürülməsi üçün bu tədbiri həyata keçirsin. Belə norma Azərbaycan Respublikasının "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Qanunun 31-ci maddəsi ilə qismən müəyyənləşdirilir (belə ki, maddənin özündə ƏAF-nin konkret subyektləri açıqlanmır) və narkotik vasitə, psixotrop maddə və prekursorların konkret təsnifatı, az, çox və külli miqdarı, şəxsi istehlak miqdarı müvafiq olaraq 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiya, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasına, Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Azərbaycan Respublikası ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə "Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit naql edilməsi və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahısının təsdiq edilməsi haqqında" Qanunda və s. öz əksini tapmışdır. Bu sahəyə gömrük, vergi məcəllələrini, cəzaların icrası məcəlləsini də aid etmək olar. Bütün bunlara baxmayaraq, bu səviyyədə ƏAF-də ictimai münasibətlərin nizamlanmasında müəyyən qədər çatışmazlıqlar, boşluqlar var və onların aradan qaldırılması üçün qanunların bu münasibətlərin tam həcmdə nizamlanması üçün təkmilləşdirilməsinə ehtiyacı var. Ölkə Prezidentinin 22 may 2007-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə imzaladığı Fərman, habelə Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli Qanunu ilə "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin VII hissəsinə edilən və digər dəyişikliklər, bu qeyd olunanları təstiq edir, belə ki, ƏAF sahəsində qanunvericilik zamanın və təcrübənin tələblərinə əsasən daim təkmilləşdirir. Laki bu gün də qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac duyulur.

ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmasının yuxarıda qeyd edilən 2 səviyyəsi bu fəaliyyətin qanunvericiliklə nizamlanmasının vahid sistemini təşkil edir.

ƏAF-nin qanunvericilik nizamlanması dedikdə, hüquqi nizamlanmanın əsas (konstitusiya) və orta (inkişaf edən) səviyyələrdə həyata keçirilən sosial əhəmiyyətli hüquqi fəaliyyətin özünə xas olan növünün əməliyyat-axtarış münasibətlərinə dövlət hakimiyyətinin normativ-təşkiledici təsiri başa düşülür (professor A.Y.Şumilov).

**Təfsilatlı səviyyə.** Hüquq nəzəriyyəsinə əsaslanaraq bu səviyyədə qanunqüvvəli hüquqi aktları da **ümumi qanunqüvvəli aktlara, yerli qanunqüvvəli aktlara, idarə səciyyəli normativ hüquqi aktlara və təşkilatdaxili** qanunqüvvəli aktlara bölmək olar. Bildiyimiz kimi, ümumi qanunqüvvəli aktlar qanunlardan sonra gəlirlər və onlarla dövlət idarəetmə prosesi həyata keçirilir. Bu aktlara ali (mərkəzi) icra hakimiyyət orqanlarının normayaradıcı aktları aid edilir. Onları ölkə prezidenti və ya hökümət başçısı qəbul edir. Dövlət idarəetmə formasından asılı olaraq (prezident və ya parlament respublikası) ali icraedici hakimiyyətin normativ-hüquq aktları öz ifadəsini iki müxtəlif formada tapır: prezidentin normativ fərmanları (28iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların dövriyyəsi haqqında" AR Qanununun tətbiq edilməsinə dair, 19 iyun 2001-ci il tarixli "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgösü haqqında" fərmanları və s.); hökumət (Nazirlər Kabinetinin qərarları, məsələn, Nazirlər Kabinetinin 20 sentyabr 2000-ci il tarixli qərarı (ƏAF subyektlərinin qeyri-leqal fəaliyyətinin maliyyə təminatı sahəsində münasibətlərə dair), 7 avqust 2000-ci il tarixli "Sərxoşluq hallarının bütün növlərinin və insan bədənin daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə tibbi müayinənin keçirilməsi qaydası və s.

İlk qeyd edilən aktlar, prezidentin hüquqyaratma sahəsində səlahiyyətləri Konstitusiya ilə və ya xüsusi konstitusiya qanunları ilə müəyyən olunur. Onlar ictimai həyatın dövlət idarəetməsi ilə bağlı ən müxtəlif tərəfərini tənzimləyirsə, ikincilər prezidentin fərmanları konteksində qəbul edilir və zəruri hallarda müxtəlif sahələrin, o cümlədən hüquq-mühafizə fəaliyyətinin və s. dövlət idarəetməsinin daha konkret məsələlərinin tənzimlənməsinə yönəldilir.

**İdarələrarası (sahələrarası) xarakter daşıyan normativ-hüquqi aktlar:** Məsələn, ƏN ilə DİN arasında cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətlərini əhatə edən təlimatlar, hava gəmisinin cinayətkarlar tərəfindən ələ keçi-

rilməsi halları ilə bağlı müxtəlif hüquq-mühafizə orqanlarının birgə keçirdikləri əməliyyatların təşkili və taktiki aspektlərini əhatə edən təlimatlar və s., sırf təşkilati (idarədaxili), sahəvi xarakter daşıyan normativ-hüquqi aktlar (məsələn, ƏAF subyektlərinin əməliyyat-axtarış fəaliyyətinin müxtəlif istiqamətlərini, o cümlədən ƏAT-nin təşkili və keçirilməsini nizamlayan normativ-hüquqi aktlar). Bunlar ƏAF-nin müxtəlif subyektləri (təşkilatlar) tərəfindən (DİN, DTX, XKX, DGK, VN, ƏN və s.) öz daxili məsələlərinin tənzimlənməsi üçün (məsələn, DİN-in əməliyyat aparatlarının səlahiyyətlərini əks etdirən əsasnamələr və s.) qəbul edilən və həmin təşkilatların üzvlərinə aid olan normativ hüquqi aktlardır. Digər ali hüquqi qüvvəyə malik aktların müəyyən etdikləri hədlərdə təşkilatdaxili normativ aktlar dövlət idarələrinin konkret fəaliyyətində yaranan ən müxtəlif münasibətlərin məhdud sahələrinə aid olur.

**İdarə səciyyəli normativ hüquqi aktlar.** (əmr, nizamnamə və təlimatlar) “ƏAF haqqında” Qanunun 2-ci maddəsinin II hissəsində ƏAF-ni həyata keçirən orqanlara (subyektlərə) öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq ƏAT-nin təşkili və taktikasını tənzimləyən normativ hüquqi aktlar qəbul etmək hüquqları vermişdir (məsələn, onlar məxfi əməkdaşlarla bağlı, habelə ƏAT-nin təşkili və taktiki aspektlərinə dair təlimatlar qəbul edə bilərlər). Lakin belə bir amili də nəzərə almaq lazımdır ki, bu normativ hüquqi və normativ aktların qəbul edilməsində ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə yanaşı, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu, “Normativ hüquqi aktların və normativ aktların dövlət uçotu və qeydiyyatı qaydası haqqında "Əsasnamənin təsdiq edilməsi haqqında” 21 oktyabr 2000-ci il tarixli Fərmanının tələbləri təmin edilməlidir.

## § 3. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsasları

ƏAF-nin hüquqi əsasları onda meydana gələn bütün ictimai münasibətlərin nizamlanmasının özək (təməl) hissəsidir. Bununla belə, bu hüquqi əsaslar əməliyyat-axtarış münasibətlərinin hüquqi nizamlanmasının bütün mənbələrinin vahid hissəsi olmayıb, onun yalnız çox vacib bir fraqmenti olan normativ aktdır.

“ƏAF haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində bu fəaliyyət haqqında qanunvericilik anlayışı iki hissə ilə əhatə olunmuşdur. Bu maddənin

I hissəsində qeyd edilmişdir ki, ƏAF haqqında qanunvericilik ölkə Konstitusiyasından, "ƏAF haqqında" Qanundan, digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Qeyd edilən maddənin 2-ci hissəsində göstərilmişdir ki, ƏAF-ni həyata keçirən orqanlar öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ƏAT-nin təşkili və taktikasını tənzimləyən normativ hüquqi aktlar qəbul edirlər. Keçmiş SSRİ-yə daxil olan bir sıra dövlətlərin eyniadlı qanunlarında qeyd edilən maddəyə anoloji olan maddə "ƏAF-nin hüquqi əsasları ifadəsi ilə" verilmişdir.

Professor A.Y.Şumilov hazırladığı tədris vəsaitində əməliyyat-axtarış qanunvericiliyinin cinayət-axtarış qanunvericiliyi, ƏAF sahəsində qanunvericilik, ƏAF-nin hüquqi əsasları, əks-kəşfiyyat və xüsusi detektiv fəaliyyəti haqqında qanunvericiliklər arasında fərqləndirici cəhətlər öz əksini tapmışdır.

O, göstərilən tədris vəsaitində ƏAF-nin hüquqi əsaslarına, qanunlarla yanaşı, qanunqüvvəli normativ aktların da aid edilməsini qeyd etmişdir. ƏAF sahəsində (haqqında) qanunvericiliyə isə yalnız federal qanunları deyil, federasiya subyektlərinin qanunvericilik aktlarını, həmçinin ƏAF haqqında qrupaltı hüquq normaların (bilavasitə aid olmayan göndərici və blanket normalara müvafiq olaraq mövcud olan normalar) bir hissəsini özündə daşıyan federal qanunların daxil olunmasını qeyd etmişdir.

***Bütün bu qeyd edilənləri və müasir elmi baxışları nəzərə almaqla ƏAF-nin hüquqi əsaslarının iki səviyyəli olduğunu söyləmək olar: onu təşkil edən normativ hüquqi aktların bir hissəsi qanunlardan, digər hissəsi isə qanunqüvvəli aktlardan ibarətdir.***

**ƏAF-nin hüquqi əsaslarını təşkil edən normativ hüquqi mənbələrin sistemi.** Hal-hazırda formalaşan əməliyyat-axtarış qanunvericiliyini dövlət qanunvericiliyinin bir kompleksli sahəsi kimi saymaq olar və onunla aşağıdakılar əhatə olunur: qanunla səlahiyyət verilmiş subyektlər tərəfindən əməliyyat-axtarış qərarlarının qəbul edilməsi, ƏAT-nin həyata keçirilməsi və müvafiq vasitələrin tətbiq edilməsi yolu ilə insanın, cəmiyyətin və dövlətin əsas etibarilə cinayətkar qəsdlərdən müdafiəsi prosesində şəxs və dövlət arasında ictimai münasibətləri nizamlayan qrup hüquqi normaları (hüquqi institutları, onların hissələrini) özündə daşıyan qanunların məcmusu. Müxtəlif sahələrin normativ-hüquqi kompleksini birləşdirən bu qanunvericilikdən fərqli olaraq, cinayət-axtarış qanunvericiliyi (hələlik yalnız nəzəriyyədə ayrılmış) hüquqi nizamlanmanın müstəqil predmetinə malikdir və o, cinayət-axtarış münasibətləridir.

Azərbaycanda ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmasının mənbələri dairəsinə qüvvədə olan normativ hüquqi aktların toplusunu **6 qrupda sistemləşdirmək olar** (hüquqi qüvvəsindən və axtarış işinin nizamlanmasında oynadığı roldan asılı olaraq).

**I qrupa Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya qanunlarını aid etmək olar.**

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində (Dövlətin ali məqsədi) qeyd edilmişdir ki, dövlətin ali məqsədi insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsidir və bu ali qanunda sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq olunur. Konstitusiyanın II bölməsinin III fəslində (əsas insan və vətəndaş hüquqları və azadlıqları), 24-71-ci maddələrdə şəxsiyyətin hüquqi statusunu müəyyən edən insan və vətəndaşların hüquq və azadlıqları öz əksini tapmışdır. Məsələn, Konstitusiyanın 29-cu maddəsinin (Mülkiyyət hüququ) IV hissəsində qeyd edilmişdir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. 32-ci maddənin I və IV maddələrində qeyd olunur ki, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır və hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir və bu hüquq qanunla nəzərdə tutulmuş (CPM-in 255-259-cu mad., "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III-V hissələri) qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər, həmçinin 33-cü maddənin (Mənzil toxunulmazlığı hüququ) I və II maddələrində göstərilir ki, hər kəsin mənzil toxunulmazlığı hüququ var və qanunla müəyyən edilmiş hallar (CPM-in 442-448-cü maddələri, "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III-V hissələri, "Polis haqqında" qanunun 24, 25-ci maddələri) və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Qeyd edilənləri və s. rəhbər tutaraq əsas və həlledici fundamental hüquqi baza kimi aşağıdakıları da istisna etmək lazımdır: Konstitusiyanın 24-cü maddəsinin (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi) II hissəsində qeyd edilmişdir ki, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir; 71-ci maddədə (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) qeyd edilir ki, Konstitusiyada təsbit edilmiş insan

və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur və onların həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Azərbaycanda qanunvericilik yaradıcılığında Milli Məclis tərəfindən qəbul olunmuş qanunlarda beynəlxalq təşkilatların tövsiyə və məcburi xarakter daşıyan müvafiq bəyannamə, konvensiya, pakt, davranış məcəllələrinin müddəaları da nəzərə alınır. Məsələn, BMT-nin 1948-ci il tarixli “İnsan hüquqları haqqında Ümumi Bəyannamə”sinin 29-cu maddəsində qeyd edilmişdir ki, öz hüquq və azadlıqlarını həyata keçirərkən hər bir şəxs yalnız elə məhdudiyyətlərə məruz qala bilər ki, onlar qanun tərəfindən digərlərinin hüquq və azadlıqlarının tanınması və hörmət olunmasının təmin edilməsi və demokratik cəmiyyətin əxlaqi, ictimai asayiş və ümumi rifah tələblərini yerinə yetirmək məqsədilə təyin edilmiş olsun. BMT-nin digər 1966-cı il tarixli “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Paktın 4-cü maddəsində paktın təmin edilməsini öhdəsinə götürən ölkələr üçün qeyd edilən hüquqlardan istifadəni yalnız onların təbiətinə uyğun olduğu qədər və yalnız demokratik cəmiyyətin ümumi rifahının yaxşılaşdırılması məqsədilə qanunla müəyyənləşdirilmiş dərəcədə məhdudlaşdırıla bilməsi müəyyən edilmişdir. Azərbaycan Respublikasının “Konstitusiya Məhkəməsi haqqında” 23 dekabr 2003-cü il tarixli Qanunun 1-ci maddəsinə (Konstitusiya Məhkəməsinin təyinatı və əsas məqsədləri), həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV və V hissələrinə müvafiq olaraq Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının qanunlarını şərh etmək, hər kəsin hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından pozulmuş insan hüququ və azadlıqlarının bərpa edilməsi məqsədilə bağlı şikayətlərə baxmaq səlahiyyətləri vardır. Həmçinin Azərbaycan Respublikasının “Milli Məclisin deputatlarının statusu haqqında” 17.05.1996-cı il tarixli Konstitusiya Qanununun 12-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinə görə deputatın şəxsiyyəti toxunulmazdır və toxunulmazlıq onun evinin, mənzilinin, əşyalarının, şəxsi və xidməti nəqliyyat vasitələrinin, ona məxsus sənədlərin, yazışmalarının toxunulmazlığını da əhatə edir. Bu maddədə həmçinin qeyd edilir ki, Konstitusiyanın 90-cı maddəsində nəzərdə tutulmuş hallarda və Milli Məclisin Daxili Nizamnaməsində müəyyən edilmiş qaydada bu toxunulmazlığa xitam verilir.

**Hüquqi əsasların ikinci qrupunu** və ya başqa sözlə desək, “özəyini” “ƏAF haqqında” Qanunun normaları təşkil edir. Bu kompleks məzmunlu ali hüquqi qüvvə-

yə malik normativ hüquqi aktdır. Həmçinin hüquq-mühafizə orqanları və xüsusi xidmətlərin (məsələn, Xüsusi Dövlət Mühafizəsi Xidməti, Fövqəladə Hallar Nəzirliyi və s.), ƏAF və bəzi digər fəaliyyət növləri sahəsində (istisna hallarda əks-kəşfiyyat, cinayət-prosessual və cinayət-icra fəaliyyətləri) ictimai münasibətləri tənzimləyir.

"ƏAF haqqında" Qanun 28 oktyabr 1999-cu ildə Milli Məclis tərəfindən qəbul olunmuş, 11 noyabr 1999-cu ildə onun tətbiq edilməsinə dair prezident fərmanı imzalanmış və 17 oktyabr 1999-cu il qüvvəyə minmişdir. ***Lakin qanun istər qanunvericilik yaradıcılığı, istər elmi-nəzəri və hüquq tətbiqi nöqteyi-nəzərindən, fikrimizcə, bir sıra nöqsan və boşluqlardan azad ola bilməmişdir və Sözsüz ki, təkmilləşməsinə ehtiyac duyulur.***

"ƏAF haqqında" Azərbaycan Respublikası Qanunu preambuladan, 3 fəsildən, onlara daxil olan 24 maddədən və keçid müddəalarından ibarətdir. Bu maddələrdən bəziləri bir sıra blanket və göndərici hüquq normalarından ibarətdir (məsələn, maddələr 1, 2, maddə 5, I-IV hissələr, maddə 12, I hissə, 14-1, 14-2, 19-1 və s. maddələr, 14, VII hissə, maddə 16, I hissə, maddə 17, VIII hissə, maddə 21, I hissə və s.). Eyni zamanda hüquq tətbiqi zamanı ƏAF-də açıq və məxfi qrifi normativ hüquq aktlarından istifadə edilməsi də qanunvericilikdə nəzərdə tutulur. "ƏAF haqqında" Qanun tam həcmdə olmasa da, qismən dövlət-hüquqi fəaliyyət növünün məzmununu müəyyən edir (maddə 1, I hissə), ƏAT-nin keçirilməsində qanunçuluğun təminat sistemini möhkəmləndirir, həmçinin formalaşmaqda olan əməliyyat-axtarış qanunvericiliyinin və əməliyyat-axtarış hüququnun (cinayət-axtarış hüququnun) özəyini təşkil edir.

**ƏAF-nin hüquqi tənzimlənməsinin III qrupuna** (qanunvericinin iradəsinə və müəyyən etdiyi müddəaya əsasən) digər qanunlar daxil edilir. Onu da qeyd etmək lazımdır ki, qanunverici qanunda (2-ci maddə) belə qanunların ümumi siyahısının dairəsini verilməmişdir. Məhz ona görə də bu qrupa daxil olan qanunları şərti olaraq bir neçə yarımqrupa bölməklə sistemləşdirmək olar.

**I yarımqrupa ƏAF-də** və onun həyata keçirilməsi ilə bağlı meydana çıxan qrup ictimai münasibətləri tənzimləyən qanunvericilik aktlarını aid etmək olar. Bu yarımqrupa xüsusilə Azərbaycan Respublikasının CM, CPM, 7 sentyabr 2004-cü il tarixli "Dövlət sirri haqqında", 10 iyun 1997-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında", 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında", 11 dekabr 1998-ci il tarixli "Məhkəmə, hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında", 3 aprel 1998-ci il tarixli "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi

haqqında", 18 iyun 1999-cu il tarixli "Terrorizmə qarşı mübarizə haqqında" və s. qanunları aid etmək olar.

**II yarımqrupa ƏAF-də** və onun keçirilməsi ilə bağlı yaranan konkret (ayrıca) ictimai münasibətləri tənzimləyən hüquq normaları daxil olan qanunvericilik aktlarına aid etmək olar. Onların arasında Azərbaycan Respublikasının GM, VM, CIM, 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Notariat haqqında" 16 noyabr 1999-cu il tarixli, "Gömrük orqanlarında xidmət haqqında əsasnamənin təsdiq edilməsi barədə" 7 dekabr 1999-cu il tarixli Qanunları və s. misal göstərmək olar.

II yarımqrupun xüsusi növünə isə "ƏAF haqqında" Qanunun 5, 6, 7-ci maddələrindəki normaları, ƏAF-ni həyata keçirən orqanların səlahiyyətlərini bu və ya digər dərəcədə təkrarlayan qanunvericilik aktları aid edilir. Məsələn, "Polis haqqında" 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu (maddə 3, II hissə, 10, 12-ci bəndlər, maddə 15, 4-cü bənd , 19-cu maddə, 3-cü bənd), "Daxili qoşunlar haqqında" 8 fevral 1994-cü il tarixli (maddə 18), "Sərhəd qoşunları haqqında" 6 yanvar 1994-cü il tarixli qanunları (maddə 5, bənd 2) və s.

ƏAF-nin hüquqi əsaslarının **IV qrupuna** qanunlar istisna olmaqla, digər normativ-hüquqi aktları aid etmək olar. Belə normativ-hüquqi aktlara Azərbaycan Respublikası Prezidentinin fərmanlarını, Nazirlər Kabinetinin qərarlarını aid etmək olar. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında", Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların dövriyyəsi haqqında" Qanunun tətbiq edilməsinə dair 9 avqust 2005-ci il tarixli, "Azərbaycan Respublikasında normativ hüquqi aktların və normativ hüquqi aktların dövlət uçotu və qeydiyyatı haqqında" 21 noyabr 2000-ci il tarixli fərmanları, "Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlakı üçün nəzərdə tutulan miqdarı haqqında" 12 oktyabr 2000-ci il tarixli, "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydası haqqında" 6 oktyabr 2005-ci il, 9 fevral 1993-cü il tarixli "Azərbaycan Respublikasının beynəlxalq cinayət polisi təşkilatına (İnterpola) daxil olması haqqında" NK-nın Qərarları və s.

ƏAF-nin hüquqi əsaslarının **V qrupunu** ƏAF-i həyata keçirən orqanların **2 qrup normativ hüquqi aktları** təşkil edir. Onlara ƏAF-ni həyata keçirən nazirlik, təşkilatlar və onların bu sahədəki fəaliyyətinə nəzarəti reallaşdıran orqanlar (prokurorluq, məhkəmə orqanları və s.) aid olunur. Bu aktlara ümumi tələblər verilir. Bu tələblər "ƏAF haqqında" Qanunun 2-ci maddəsinin II hissəsində aşağıdakı redaksiyada öz əksini tapmışdır: ƏAF-ni həyata keçirən orqanlar öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin təşkilini və taktikasını tənzimləyən normativ-hüquqi aktlar qəbul edirlər. Bundan əlavə ƏAF-nin hüquqi əsaslarını təşkil edən bu qrup normativ aktlar, hansı ki, insan hüquq və azadlıqlarına toxunur və yaxud idarələrarası xarakter daşıyır, mütləq Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçməlidir.

"Ədliyyə Nazirliyi haqqında" əsasnamədə də bu qeyd edilənlər nəzərdə tutulmuşdur. Bütün bu aktlar müvafiq formaya malik olmalıdır. Onlar icra hakimiyyəti orqanları tərəfindən qərarlar, əmrlər, sərəncamlar, qaydalar, təlimatlar, əsasnamələr, nizamnamələr formasında verilir. İcra hakimiyyəti orqanlarının struktur və ərazi xidmətlərinə normativ hüquq aktları qəbul etmək hüquqları verilmir.

Bu qrup normativ hüquq aktlarına hər hansı bir konkret nazirlik, təşkilat tərəfindən qəbul edilən və yaxud ƏAF-nin bu və digər istiqamətləri üzrə onların birgə qəbul etdikləri normativ hüquqi aktlarını da aid etmək olar.

Bir qayda olaraq bu qrup normativ aktlar bağlı (məxfi, xidməti) səciyyə daşıyır və "ƏAF haqqında" Qanunun 2-ci maddəsinin II hissəsinə əsasən ƏAT-nin təşkili və taktikasını tənzimlənməsini əhatə edir.

Müasir dövrdə ƏAF sahəsində qanunvericiliyin təkmilləşməsinin zəruriliyi nəzərə alınmaqla, aşağıdakı açıq xarakterli normativ hüquqi aktların işlənməsi zəruriyyəti meydana çıxır və bu sahədə boşluqlar vardır:

1. "Hava gəmilərinin girov götürülməsi ilə əlaqədar cinayətlərə qarşı mübarizə ilə bağlı DTX, DİN, DSX, XDMX, MN və s. arasında qarşılıqlı əlaqələri nizamlayan idarələrarası normativ akt.

2. Müxtəlif kateqoriyadan olan cinayətkarların axtarışının təşkili ilə əlaqədar olaraq DİN, ƏN, DTX və s. arasında qarşılıqlı əlaqəli fəaliyyəti tənzimləyən normativ akt.

3. ƏAF-nin subyektləri və Baş Prokurorluğun qanunun icra edilməsinə prokuror nəzarətinin həyata keçirilməsi üçün DİO tərəfindən materialların təqdimedilmə qaydasını müəyyən edən normativ akt.

4. DTX, DİN, DGK, VN, DSX, ƏN, FHN, XDMX tərəfindən ƏAF-nin nəticələrinin tədqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarına təqdimedilmə qaydalarını nizamlayan normativ akt.

5. DTX, DİN, DGK, VN, DSX və s. arasında əməliyyat-texniki tədbirlərin keçirilməsinin təşkili və taktikasını nizamlayan normativ akt.

6. Hüquq-mühafizə orqanlarının İnterpolun MMB informasiya təminatı sahəsində əməkdaşlığını nizamlayan normativ akt və s.

Keçmiş SSRİ dövründə hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətlərini bu və ya digər dərəcədə nizamlayan idarələrarası normativ hüquqi aktlarının olmasına baxmayaraq, onların bir qismində insan və vətəndaşların hüquq və azadlıqların təmin edilməsində, həmçinin təşkilati və taktiki aspektlərdə yeni qanunvericiliyin müasir dövrün tələblərinə cavab verməyən müddəalari olduğundan onların sistemli qaydada dəyişdirilməsinə baxmayaraq, bu istiqamətdə işlərin təkmilləşdirilməsinə ehtiyac duyulur.

"ƏAF haqqında" Qanunun 2-ci maddəsinin II hissəsinin şərhinə istinad edərək Baş Prokurorluğun bu fəaliyyətlə bağlı normativ aktlarının ƏAF sahəsində qanunvericiliyə aid edilməməsinə baxmayaraq, bu sənədlərin ƏAF-nin qanuna müvafiq həyata keçirilməsində mühüm əhəmiyyəti var və 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsi və "ƏAF haqqında" Qanunun 20-ci maddəsinin məzmununa müvafiq olaraq Baş Prokurorluq belə normativ hüquqi aktları qəbul edə bilər (məsələn, Azərbaycan Respublikasının Baş Prokurorluğunun 14 mart 2001-ci il tarixli "ƏAF-yə prokuror nəzarətinin təşkili haqqında" əmri və s.).

ƏAF-də ictimai münasibətlərin hüquqi nizamlanmasının **VI və ya xüsusi** qrupuna aşağıdakı aktları və sənədləri aid etmək olar:

1. Bu, o qanunvericilik aktlarıdır ki, onlarda xüsusi əməliyyat-axtarış münasibətlərinin bilavasitə nizamlanması ilə bağlı hüquq institutları və ayrıca qaydalar yoxdur, lakin onlara daxil olan normative səciyyəli göstərişlər universal xarakter daşıyaraq ƏAF-də mütləq realizə olunur. Məsələn, onlara IXM, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" 4 aprel 1996-cı il, "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" 11 iyun 1999-cu il tarixli, "Daktiloskopik qeydiyyat haqqında" 6 mart 2000-ci il tarixli qanunlar və s aid etmək olar.

**2. Beynəlxalq-hüquqi xarakterli normativ aktlar**. Bu növ sənədlərin qeyd olunan mənbələrə aid edilməsinin əsasını Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin II hissəsi təşkil edir. Əgər beynəlxalq müqavilələrdə qanunda göstərilən qaydalardan fərqli olaraq digər qaydalar müəyyən edilibsə, belə hallarda beynəlxalq müqavilələr tətbiq olunur. Belə sənədlərə beynəlxalq əhəmiyyətli Azərbaycan dövləti tərəfindən tanınmış beynəlxalq müqavilə və sazişlər aid edilir. Bu sənədlərə aşağıda sadalananları və s. aid etmək olar: 4 noyabr 1950-ci il tarixli “İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyası, BMT-nin 16 dekabr 1966-cı il tarixli “Mülki və siyasi hüquqlar haqqında” Paktı, 1988-ci il tarixli “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Vyana Konvensiyası və s.

Bununla yanaşı Azərbaycan bir sıra dövlətlərlə, o cümlədən həmsərhəd dövlətlərlə bir çox ikitərəfi, çoxtərəfi müqavilə və sazişlər imzalamışdır. Bu müqavilə və sazişlər ilk növbədə sərhəd məsələlərini, o cümlədən DSX-nin birgə ƏAF həyata keçirilməsi qaydalarını nizamlayır.

İkinci növbədə onlar dövlətlərarası hüquqi yardım və hüquqi münasibətləri nizamlayır (ailə, mülki və cinayət işləri üzrə).

Üçüncü növbədə ƏAF-nin bu hüquqi mənbələr qrupunun bir növü altında Azərbaycanın hüquq-mühafizə orqanlarının MDB-yə daxil olan və başqa xarici ölkələrin hüquq-mühafizə orqanları ilə imzaladığı aktlardır (müqavilə, saziş, konvensiya, protokol və s.). Onlara misal olaraq aşağıdakıları göstərmək olar: “MDB-nin DİO-nun cinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əlaqəyə dair” saziş (23, 24 aprel 1992), MDB-nin DİO arasında “Ailə, mülki və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlərə dair” 2000-ci il tarixli Minsk Konvensiyası, MDB üzrə ƏAF-nin müşayiət olunması sahəsində” Saziş (16-18 dekabr 1998), “Azərbaycan Respublikası DİN ilə Özbəkistan Respublikası DİN-i arasında əməkdaşlıq haqqında” 18 iyul 1997-ci il tarixli saziş, Azərbaycan Respublikası DİN-i ilə “Avstriya Respublikası Federal DİN-i arasında 12 aprel 2000-ci il tarixli Memorandum” və s.

Bundan əlavə, ƏAF sahəsində qanunvericiliyin tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair Ali Məhkəmənin Plenumunun qərarları, vətəndaşların hüquq və azadlıqlarının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarında pozulması ilə bağlı şikayətləri üzrə Konstitusiya Məhkəməsinin çıxardığı qərarlar (Konstitusiyanın 130-cu maddəsinin V hissəsi), həmçinin Konstitusiya Məhkəməsinin cinayət-

hüquqi və əməliyyat-axtarış fəaliyyəti sahəsində istifadə edilən qanunvericilik aktlarının normativ göstərişlərinin izahı ilə əlaqədar olan qərarları da ƏAF-nin hüquqi əsaslarının VI qrupuna aid etmək olar.

ƏAF-nin hüquqi nizamlanmasının bu qrup mənbələrinə şərti də olsa, beynəlxalq təşkilatların (BMT, AŞ və b.) icrası məcburi xarakter daşımayan davranış məcəllələrini, beynəlxalq standartlar prinsiplərini daxil etmək olar (BMT-nin 17 dekabr 1979-cu il tarixli "Hüquq-mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsi", BMT-nin 9 dekabr 1988-ci il tarixli "Hər hansı formada həbs və ya azadlıqdan məhrum edilmiş bütün şəxslərin müdafiəsinin başlica prinsipləri" və s. aid etmək olar. Məsələn, polis tərəfindən təhqiqat aparılmasına dair beynəlxalq standartlarda təhqiqatın əsas prinsipləri, təhqiqata dair xüsusi müddəalar sırasında təqsirsizlik prezumpsiyası, şəxsi həyata özbaşına müdaxiləyə, gizli məlumat verənlərlə davranışa aid müddəalar və s. öz əksini tapmışdır. Qeyd edilən standartlarda belə şəxslərlə gizli əməkdaşlığın cinayətkarlığa qarşı mübarizədə xüsusi əhəmiyyət kəsb etməsi, lakin bu prosesin təhlükələri və qaydaları qeyd olunur. **Bu qaydalar sırasında aşağıdakılar öz əksini tapır:** gizli məlumat verən ilə gizli əlaqələrin saxlanmasına və münasibətlərin həyata keçirilməsinə görə bir polis əməkdaşı məsuliyyət daşıyır. Məlumat verənin şəxsiyyəti tamamilə məxfi saxlanmalıdır. Gizli məlumat verənlərlə münasibətlərin həyata keçirilməsi yollarını və bu münasibətlər üzərində nəzarət dərəcəsini tabelikdə olan polis əməkdaşları tərəfindən bir mənalı dərk etmək üçün dəqiq təlimatların və müfəssəl prinsiplərin müəyyənləşdirilməsi və s.

Bütün bunları nəzərə alaraq bəzi tanınmış alimlər ƏAF-nin hüquqi əsaslarını, o cümlədən DİO ƏAF-nin normativ aktlara daxil olan normaları və ya əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə zəmin yaradan (şərait) və ya cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış qüvvə, vasitə, metod və formalarının tətbiqinin hüquqi, təşkilati və taktiki məsələlərinin bilavasitə nizamlanmasının dərk edilməsi kimi təklif edirlər. DİO-nun ƏAF-nin hüquqi əsaslarına dair bir sıra konkret biliklər dərsliyin əvvəlki hissələrində qismən də olsa konkret məzmunla əhatə olunduğundan və bu hissədə qeyd edilən elmi-nəzəri biliklərin də DİO-nun ƏAF-yə şamil edilməsini nəzərə alaraq onun ayrıca başlıq altında verilməsi məqsədəuyğun sayılmır.

ƏAF-nin hüquqi əsaslarına dair qeyd edilən biliklərin mahiyyəti bir daha təsdiqləyir ki, o, əməliyyat-axtarış qanunvericiliyindən qismən fərqlənir və sonuncunun formalaşması, inkişafı, təhkimləşməsi və tətbiqi prosesində rəhbər tutulması üçün bir zəruriyyətdir.

## § 4. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyinin formalaşması

Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinin III hissəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır. Konstitusiyanın 148-ci maddəsinin I hissəsinin 1-6-cı bəndlərində qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktların siyahısı verilmişdir. Azərbaycan Respublikasının ali qanunu olan Konstitusiyanın bu müddəalarını, hüquqi nəzəriyyənin bir sıra fundamental əsaslarını rəhbər tutmaqla əməliyyat-axtarış qanunvericiliyinin formalaşması kimi aspektlərin, məsələlərin şərh edilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu başlıqda göstərilən mövzunun məzmununu açıqlamaq və dərk etmək üçün ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinin III hissəsi və 148-ci maddəsinin I və II hissələri nəzərə alınmalıdır.

MDB-yə daxil olan ölkələrdə əməliyyat-axtarış fəaliyyəti qanunvericiliyinin formalaşması keçmiş SSRİ-nin parçalanmasının ilk illərinə təsadüf edir və bu sahədəki ictimai münasibətləri nizamlayan qanunun qəbul edilməsindən sonra başlanmışdır. "ƏAF haqqında" Qanun RF-də 1992 və 1995-ci illərdə (sonuncu), Moldovada, Litva və Ukraynada 1992-ci ildə qəbul edilmiş və onların mətnlərində insan və vətəndaşların hüquq və azadlıqlarına, hüquq tətbiqi ilə bağlı, beynəlxalq təcrübəyə müvafiq olaraq bir çox əlavələr və dəyişikliklər edilmişdir. Azərbaycanda isə bu sahədə qanunvericiliyin formalaşmasının başlanğıcı 28 oktyabr 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilmiş "ƏAF haqqında" Qanunun qəbul edilməsindən sonra başlayır.

Əvvəlki paraqrafarda əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsasları və qanunvericiliyinin məzmunu açıqlanmışdır (ƏAF sahəsində mühüm elmi nəzəri və təcrübi işləri ilə tanınmış alimlərin əksəriyyəti tərəfindən qəbul olunmuşdur).

Əməliyyat-axtarış qanunvericiliyi[1] anlayışı formaca ona oxşar anlayışlardan öz məzmununa görə fərqlənir və onlar aşağıdakılardan ibarətdir:

– cinayət-axtarış qanunvericiliyi özünün müstəqil hüquqi tənzimlənmə predmeti olan əməliyyat-axtarış münasibətlərinə malikdir. Əməliyyat-axtarış qanunvericiliyi isə müxtəlif hüquq sahələrinə aid olan normativ hüquqi aktların kompleksini əhatə edir;

1 Ş.İ.Hüseynov, B.Ə.Əliyev, E.Y.İsmayılov. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun sxemlərdə və əməliyyat-axtarış qanunvericiliyi»; Azərbaycan Respublikasə DİN-in mətbəəsi; Bakı, 2008.

– əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilik isə AR Konstitusiyası, Konstitusiya qanunları və Azərbaycan Respublikasının digər qanunları ilə yanaşı, ƏAF sahəsində münasibətləri bilavasitə tənzimləyən qanunvericilik aktlarını, "ƏAF haqqında" bir qrup (yarımqrup, qrupaltı) hüquqi normaları özündə daşıyan qanunları əhatə edir;

– əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsaslarını əvvəldə qeyd etdiyimiz kimi qanunlarla yanaşı, qanunqüvvəli aktlar da təşkil edir;

– əks-kəşifiyyat və xüsusi detektiv fəaliyyət sahəsində qanunvericilik isə hüquqi tənzimləmə predmetinə görə fərqlənir.

Bütün əvvəllər şərh olunmuş biliklər, müddəalar əməliyyat-axtarış qanunvericiliyi anlayışının müəyyən edilməsinə aiddir və Azərbaycanda tamamilə müəyyən nizamlanma predmetinə malik olan qanunvericiliyin müstəqil sahəsinə aid olmayıb, az və ya çox dərəcədə oxşar mənşəli normativ hüquqi göstərişlərin cəminin müəyyən edilməsinə, həmçinin qeyd edilən qanunvericilik dövlətin qeyri-leqal fəaliyyət (əməliyyat-axtarış fəaliyyəti) sahəsində ictimai münasibətlərin nizamlanmasına xidmət edir. Lakin istər MDB-yə daxil olan ölkələrdə, istərsə də Azərbaycanda cinayət-axtarış qanunvericiliyinin dövlətin qanunvericilik sistemi sahəsində müstəqil yer alması istər elmi-nəzəri, istərsə də sosial tələbat baxımdan şərtləndirilir və zəruri hesab olunur.

Cinayət-axtarış qanunvericiliyi dedikdə,ilk növbədə əməliyyat-axtarış, əks-kəşfiyyat, cinayətprosessual və cinayət-icra fəaliyyətində cinayət-axtarış münasibətlərini nizamlayan normaları özünə daxil edən qanunlar sistemi başa düşülür.

Bir çox tanınmış hüquqşünaslar ƏAF-nin hüquqi tənzimlənməsi problemini analiz edərək göstərirlər ki, dövlətin fəaliyyətinin hüquqi sisteminin yaradılması işinin əsasını, o cümlədən HMO-nun işinin təşkilinin nizamlanmasını əsas etibarilə qanunlar təşkil etməlidir. Bu, öz növbəsində demokratik, sivil, insan hüquq və azadlıqları bərqərar olan hüquqi dövlətin yaradılması ilə də əsaslandırılır. Məhz ona görə də inkişaf etmiş sivil xarici dövlətlərdə əməliyyat-axtarış işinin həyata keçirilməsi prosesində xüsusi xidmətlərin və hüquq-mühafizə orqanları əməkdaşlarının ilk növbədə müxtəlif kəşfiyyat və kriminal xarakterli məlumatların toplanması və yoxlanması üsul və metodlarına əməl etməsi bir vəzifə borcu kimi açıq elan olunmuş qanunvericilik aktlarında qeyd edilir.

Bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, məhz bu göstərilənlərə əsasən müxtəlif əməliyyat aparatlarının fəaliyyətinin dövlət hüquqi sisteminin yaradılması üzrə əsas işin həyata keçirilməsini belə bir prinsip də təşkil etməlidir ki, hazırlanıb qəbul edilmiş hüquqi aktların beynəlxalq standartlara uyğun olmasını nəzərdə tutsun.

***Reyn-Vestvaliy Şimal Torpağının (keçmiş AFR) Polis haqqında Qanununun I fəslinin III hissəsində "İnformasiyanın toplanmasının xüsusi metodları" başlığı altında bölmə vardır. Bu bölmədə informasiyanın toplanması metodları sırasında müşahidə, məlumatların gizli texniki vasitələrdən istifadə etməklə (o cümlədən telefon danışıqlarına qulaq asmaqla), tədqiqata şəxslərin daxil edilməsi vasitəsilə məlumatların əldə edilməsi (belə şəxslərin anonimliyi təmin edilməklə və s.) göstərilmişdir.***

**Burada ABŞ-ın qanunlar külliyyatının əsas etibarilə XVIII bölməsinə daxil olan qanunun müddəalarını xüsusilə qeyd etmək lazımdır. Bu müddəalarla xüsusi xidmətlərin və kriminal polisin kommunikasiya xətlərinə (teleqraf, telefon, radio, kompüter əlaqəsi) buraxılış qaydaları, əks-kəşfiyyat xarakterli məlumatların əldə edilməsi məqsədilə ABŞ-ın ərazisində radiotelekommunikasiya xətlərinin ələ keçirilməsi, məlumatların ələ keçirilməsi, texniki vasitələrin istehsalı, həmçinin ABŞ vətəndaşlarına qarşı onların istifadə olunması, habelə informasiyanın qeyri-qanuni çıxarılmaqdan mühafizəsi və s. məsələlər nizamlanır.**

Əməliyyat-axtarış qanunvericiliyinin nizamlanması predmetini cinayətin törədilməsi ehtimalı ilə əlaqədar olaraq açılmış əməliyyat-qeydiyyat işləri üzrə yaranan, mövcud olan, inkişaf edən və son qoyulan ictimai münasibətlər təşkil edir.

***Nəzəriyyədə qanunvericiliyə istinad edilməklə əməliyyat-axtarış qanunvericiliyinin yaranması və inkişafını aşağıdakı 3 qrup faktora ayırırlar:***

1. qanunvericiliklə nizamlanan predmetin müəyyən edilməsi;
2. qanunvericilik fəaliyyətinin iştirakçılarının mövqeyinin ifadə edilməsi;
3. xüsusi hüquqi xarakter.

Bu faktorların xüsusi çəkisi və nisbətləri dəyişə bilər. Bütün bunlar təmaslarla əməliyyat-axtarış qanunvericiliyinin formalaşması prosesinə də şamil edilir. **Bu prosesə daha əməli təsir edən faktorlar sırasında aşağıdakıları qeyd etmək olar:**

- antikriminal silsilə sahələrinin elementi kimi əməliyyat-axtarış qanunvericiliyinin formalaşmasına dair elmi əsaslandırılmış konsepsiyanın olmaması; ƏAF-də Konstitusiyanın normativ göstərişlərinin bilavasitə təsirinə istiqamətlənmə; bəzi hal-

larda keçmiş SSRİ-nin hüquqi standartlarının nəzərə alınması, dünyanın aparıcı dövlətlərinin normativ hüquqi standartlarının dərk edilməsi cəhdləri və bu halda onların tam həcmdə dövlətin hüquq müstəvisinə keçirilməsi məqsədəuyğunluğunun lazımi dərəcədə öyrənilib dərk edilməməsi.

Əməliyyat-axtarış qanunvericiliyinin Azərbaycanda qanunvericilik sistemində öz yeri var. O, antikriminal silsilədən olan hüquq sahələrinin kompleksinə, yəni cinayət, cinayət-prosessual və cinayət-icra qanunvericilik sisteminə daxildir. Formalaşmaqda olan (əməliyyat-axtarış) qanunvericiliyi bu qanunvericilik sahələrinin vahid kompleksinin çatışmayan həlqəsidir. Məhz onu əhatə etməklə bu kompleks tamamlanır və dövlət qanunvericiliyinin yeni sahələri sırasında az əhəmiyyət kəsb etməyən yeni əməliyyat-axtarış qanunvericiliyi meydana çıxır.

# VII FƏSİL

## Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunu

### § 1. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun ümumi səciyyəsi və quruluşu

Bildiyimiz kimi, qanun müasir dövlətin əsas normativ hüquqi aktıdır və dövlət həyatının ən mühüm tədbirlərini tənzimləyən hüquq normalarını özündə əks etdirir. Dövlətin normativ hüquq aktları sistemində qanunların aparıcı və müəyyənedici vəziyyəti qanunculuğun əsas tələblərindən birini-ictimai münasibətlərin tənzimlənməsində qanunun aliliyini ifadə edir. Bu baxımdan 28 oktyabr 1999-cu ildə Azərbaycan Respublikasının ali qanunverici orqanı olan Milli Məclis tərəfindən qəbul edilən və 17 noyabr 1999-cu ildə qüvvəyə minən "ƏAF haqqında" Qanun böyük əhəmiyyətə malikdir. Bu qanun, onun preambulasında göstərildiyi kimi əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir. Əməliyyat-axtarış Qanunu anlayışı ümumi, toplayıcı termin mənasında işlədilir. Əməliyyat-axtarış Qanunu dedikdə, əsas etibarilə ƏAF sahəsində, həmçinin hüquq-mühafizə orqanlarının, o cümlədən xüsusi xidmətlərin ƏAF ilə əlaqəli olan digər, xüsusilə əks-kəşfiyyat və cinayət-mühakimə prosesi ilə əlaqəli olan fəaliyyətdə ictimai münasibətlərin nizamlanması təyinatı olan ali hüquqi qüvvəyə malik dövlətin kompleksli normativ hüquqi aktı başa düşülür.

Qüvvədə olan əməliyyat-axtarış Qanunu əsas normativ hüquqi massivi əhatə edir. Lakin bu qanuna cox saylı digər qanunlarla əlavə və dəyişikliklər edilmişdir və ona görə də əsas qanunun bəzi müddəaları öz qüvvəsini itirmişdir. Qanunun təkmilləşdirmək niyyətinin olmasına baxmayaraq onda bir sıra kolliziyaların yaranmasını etiraf etmək lazımdır. Bütün bunlara baxmayaraq, CPM-in 445.1.1-445.1.6 maddəsində göstərilən məhkəmənin qərarı əsasında həyata keçirilən ƏAT-nin siyahısı "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsində nəzərdə tutulan belə tədbirlərin siyahısı ilə uzlaşmır. Daha konkret desək, 2000-ci ildə qəbul edilən Azərbaycan Res-

publikası Cinayət-Prosessual Məcəlləsində yeni (445.1.5-ci maddə) əməliyyat-axtarış tədbiri nəzərdə tutulmuşdur. Belə yeni ƏAT-nin Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsinə dair qanunla deyil, ƏAF haqqında qanuna əlavə və dəyişikliklərə dair ayrıca qanunla əlavə edilməsi daha əsaslı olardı.

Bu fikirlər ona görə qeyd edilir ki, qüvvədə olan "ƏAF haqqında" Qanunun bir sıra normaları müəyyən çatışmazlıq və nöqsanlardan azad ola bilməyib və bəzi müddəalar ziddiyyətlidir, həmçinin bir sıra yeni normaların daxil edilməsi zəruri hesab edilir və s.

Qeyd edilən qanunun tətbiqinə dair 11 noyabr 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən fərman imzalanmışdır və bu fərmanla səlahiyyət hədlərində qanunun müvafiq normaları konkretləşdirilir və Nazirlər Kabinetinə bir sıra qanunqüvvəli normativ hüquqi aktların hazırlanması tapşırılmışdır. Bu fərman və qanunun müvafiq normalarının (maddə 5, II hissə və s.) tətbiqi ilə əlaqədar olaraq 19 iyun 2001-ci ildə "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Fərman imzalanıb, 2 fevral 2001-ci ildə "Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun müdəaləri rəhbər tutulmaqla, ƏAF-nin müxtəlif subyektlərinin normativ aktları hazırlanaraq təsdiq edilmişdir. Bu qeyd edilən normativ aktlar qanunun və prezident fərmanlarından irəli gələn tələblərin bir qismi olub, qanunvericilik yaradıcılığı sahəsində işlərin daha hərtərəfi və sistemli həyata keçirilməsi reallığının zəruriyyətidir.

**"Əməliyyatrialarış fəaliyyəti haqqında" Qanunun öyrənilməsinin əsas və başlanğıc məqamları.**

Bu paraqrafın əvvəlki hissəsində qeyd edilənləri, ƏAF sahəsində qanunvericilik aktlarının təhlili xarici dövlətlərin bu istiqamətdəki fəaliyyətinin öyrənilməsi nəticəsində belə qənaətə gəlmək olar ki, "ƏAF haqqında" Qanun 2000-ci ildə qəbul edilmiş CM, CPM və s. qanunvericilik aktları ilə uzlaşdırılmalı, onda olan boşluqlar, nöqsan və çatışmazlıqlar aradan qaldırılmalıdır. Hüquq yaradıcılığı prosesində hüquq tətbiqinin nəticəsi, elmi-nəzəri nöqteyi-nəzərdən əvvəldə qeyd edilənlər əsaslıdır və obyektiv bir zərurətdir. Məsələn, MDB ölkələrində, o cümlədən RF-də (1992 və 1995-ci illərdə ƏAF haqqında iki dəfə qanun qəbul edilib, 1997-1998-ci illərdə sonuncu qəbul olunan qanunlara dəyişiklik edilmişdir) bu qanunlar yenidən təzə redaksiyalarda qəbul olunub və sonradan onun mətninə əlavə və dəyişikliklər edilmişdir.

28 oktyabr 1999-cu il tarixli "ƏAF haqqında" Azərbaycan Respublikası qanunu preambuladan, 3 fəsildən (I - ümumi müddəalar: 1-9; II - əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi: 10-14,14-1,14-2,15,16; III - yekun müddəalar: 17-19,19-1,20,21.); keçid müddəalarından və ümumilikdə 24 maddədən ibarətdir (Moldova Respublikasının qanununda 6 fəsil, 18 maddə, Rusiya Federasiyasının qanununda 4 fəsil, 23 maddə). Qanun bir sıra blanket və göndərici hüquq normalarından ibarətdir (əvvəlki mövzularda belə normaların bir qismi göstərilmişdir). Əməliyyat-axtarış Qanununun blanket normaları bu qanunun hüquq tətbiqçisinin (istifadəçisinin) digər qanunvericiliyin (qanunqüvvəli və təşkilati da daxil olmaqla) normalarına (ayrıca normativ göstərişlərinə) istinad etməklə (ondan istifadə etməklə) lazım olan məlumatın əldə edilməsi (tapılması) mənasında başa düşülür. MDB-yə daxil olan ölkələrin "ƏAF haqqında" Qanununda olduğu kimi Azərbaycan Respublikasının "ƏAF haqqında" Qanununun bir sıra normaları formal xarakter daşıyır və onların təkmilləşdirilməsinə ehtiyac duyulur (məsələn, maddə 6, I-VI bəndlər, maddə 9, I-III hissələr, maddə 19, maddə 21, I və II hissələrdə qismən və s.).

Bu qanunun bir sıra maddələrinin tətbiqi prosesində müəyyən problem və ziddiyyətlər meydana çıxır, belə ki, əməliyyat-axtarış tədbirlərinin ƏAF müxtəlif subyektləri tərəfindən tətbiq etmək hüquqları formal xarakter daşıyır və s. Bu qanunda istər leqal, istərsə də qeyri-leqal (doktrinal) təsvirin olmaması, Sözsüz ki, onun tətbiqində müəyyən problemlərin meydana çıxmasına səbəb olur. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik aktlarının tam həcmdə müəyyənləşdirilməsi sahəsində də tədqiqat işlərinin aparılmasına böyük ehtiyac var.

"ƏAF haqqında" Qanunun mühüm əhəmiyyətindən biri odur ki, o, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin özəyi rolunu oynayır, onun bütün normaları formalaşmaqda olan əməliyyat-axtarış hüququnun müxtəlif institutlarına aid edilir.

Bundan əlavə, "ƏAF haqqında" Qanunun normaları sistem əmələ gətirən normativ hüquqi massiv yaradır ki, o da axtarış fəaliyyəti sahəsində kodifikasiya prosesinə, əməliyyat-axtarış və əks-kəşfiyyat sahəsi və müvafiq kodekslərin hazırlanmasına (məsələn, cinayət-axtarış prosesi, cinayət-axtarış kodeksləri) işinə xidmət edir. Məhz bu qeyd edilənlər rəhbər tutulmaqla "ƏAF haqqında" Qanun daha geniş və dərindən öyrənilməli, geniş və dərin məzmunlu tədqiqatlar aparılmalıdır.

**"ƏAF haqqında" Qanunun hüquqi məzmunu və əməliyyat-axtarış fəaliyyəti qanununun normaları ilə nizamlanan ictimai münasibətlər.**

Bu qanunun qəbul edilməsi ilk növbədə dünyada gedən demokratik proseslərlə, hüquqi, dünyəvi dövlətin, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, beynəlxalq təşkilatların (BMT, Avropa Şurası və s.) insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi prinsipləri ilə şərtləndirilir. Uzun illər bu fəaliyyət sahəsində ictimai münasibətlər əsas etibarilə müxtəlif məxfilik dərəcəsinə malik olan təşkilati, sahəvi xarakterli əmr, təlimatlarla nizamlanırdı, əksər hallarda insan və vətəndaşların hüquq və azadlıqlarının pozulması hallarına yol verilir, belə hallar məhkəmə və prokuror nəzarətindən kənarda qalırdı və s. "ƏAF haqqında" Qanunun qəbul edilməsi nəticəsində bu sahədəki münasibətlərin hüquqi əsaslarını təşkil edən qanunvericilik yarandı, yeni hüquq sahəsi olan cinayət-axtarış hüququ meydana çıxdı və inkişaf etməyə başladı, ƏAF cinayətkarlığa qarşı mübarizə sahəsində dövlət hüquqi bir forma statusu aldı.

**Müasir ƏAF-də aşağıda göstərilən ictimai münasibətlər yaranır, davam edir və sona çatır (bitir):**

- ümumi qəbul edilmiş (tanınan) müxtəlif hüquq sahələri ilə nizamlanan (ilk növbədə cinayət və inzibati, həmçinin cinayət və inzibati prosessual hüquqla) bu hüquq sahələrinin ayrıca qaydalarını (normanın hissəsini) qanunverici "ƏAF haqqında" Qanuna daxil etmişdir. Məsələn, cinayət-hüquqi normativ göstərişlər (10-cu maddənin, IV hissəsinin, 1, 2-ci bəndləri, VI-VII hissələri, 14-cü maddənin, VI hissəsinin, I bəndi, VII hissəsi, 17-ci maddənin, VIII hissəsi, 21-ci maddənin, I hissəsi, Cinayət-Prosessual - maddə 5, I hissə, maddə 10, III hissə, maddə 16, I hissə), inzibati-hüquqi-(maddə 6, bənd 7, 21-ci maddə, I hissə), mülki - (maddə 7, bəndlər 2, 4, maddə 17, III hissə), maliyyə (17-ci maddə, III hissə, IV-VII hissələr, maddə 18, I, II hissələr) və s.

Yuxarıda göstərilən hüquq sahələrinin heç biri ilə lazımi həcmdə nizamlanmayan əməliyyat-axtarış münasibətləri, məsələn, "ƏAF haqqında" Qanunun 6-cı maddəsinin 4-6-cı bəndləri (qismən), 7-ci maddə, 10-cu maddə, I hissə (ƏAT-nin təşkili və taktikası), 15-ci maddə və s. onları yuxarıda qeyd edilən bu və ya digər dərəcədə müvafiq hüquq sahələri ilə əlaqələndirməyi əsaslandırır, lakin onların əksər hissəsi xidməti və dövlət sirləri ilə bağlı olduğundan və əsas etibarilə ƏAT-nin və metodlarının təşkili və taktikası aspektlərinə aid olduğundan təşkilati, sahəvi normativ aktlarla tənzim edilir.

**Əməliyyat-axtarış qanununda öz əksini tapmış bəzi ümumi qaydalar.**

"ƏAF haqqında" Qanunun bir sıra normalarında ümumi qaydalar nəzərdə tutulmuşdur (məsələn, ƏAT-nin keçirilməsinin səbəb və əsaslarını əks etdirən 11-ci

maddəsi və s.). Lakin, ƏAF-nin həyata keçirilməsində bu qaydalardan istisna halları var və onları bilmək xüsusilə mühüm əhəmiyyət kəsb edir. Belə hallara ƏAT-nin keçirilməsi nəticəsində əldə olunan cinayət prosesi üçün mühüm əhəmiyyət kəsb edən məlumatların müvafiq subyektə (müstəntiq, prokuror və hakimə) verilməsi və bu halda müvafiq şərtlərə əməl olunması aid edilir və bunun məqsədi konspirasiya, qanunçuluq, dövlət və qulluq sirlərini təşkil edən məlumatların, o cümlədən cinayət prosesinin marağının müdafiəsidir. **Belə istisna halları təmin etmək ƏAF-də müsbət nəticələr əldə etməyə və qanunçuluğa və konspirasiya qaydalarına ciddi riayət olunması üçün ən vacib şərtlərdən biri sayılır. Belə istisna hal kimi "ƏAF haqqında" Qanunun mətnində aşağıdakıları göstərmək olar: maddə 4, I-III, V hissələr, maddə 6, bənd 3, maddə 8, maddə 9, II hissə, maddə 10, III-V hissələr, VII hissə, X hissə, maddə 13, maddə 16, IV-VII hissələr, maddə 17, VIII hissə, maddə 20, III-IV hissələr və s.**

"ƏAF haqqında" Qanunun istər leqal, istərsə də qeyri-leqal təfsirinin olmaması bəzi istisna edilən halların tam həcmdə əhatə edilməməsinə səbəb olmuşdur. Məhz ona görə ƏAF qanunvericiliyinə daxil olan qanunların müvafiq normalarının köməyi ilə belə halları müəyyən etmək olar. Məsələn, "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 12-ci bəndində nəzarət qaydasında mal alınması kimi əməliyyat-axtarış tədbiri öz əksini tapmışdır. Bu tədbiri ƏAF-nin bütün subyektləri öz səlahiyyətləri çərçivəsində həyata keçirə bilər. Lakin mülki dövriyyəsi qadağan olunmuş əşya, predmetlərin, maddələrin, o cümlədən narkotik vasitələrin nəzarət qaydasında alınmasını Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunun 31-ci maddəsinə və bu qanunun tətbiq edilməsinə dair prezident fərmanına əsasən DİN, DSX, DGK və MTN (MTN-in DTX və XKX strukturlarına bölünməsi nəzərə alınaraq) onlara da belə hüquqların verilməsu qanunvericilikdə təsbit edilməsi zəruri hesab edilir.

Bundan əlavə, "ƏAF haqqında" Qanunda "xüsusi siyahılar" öz əksini tapmışdır, yəni sıra üzrə müəyyən qaydalar sadalanmış, həmçinin belə sıralanmanın siyahısı verilmişdir. Bir sıra MDB ölkələrinin qanunvericiliyində, o cümlədən RF-nın "ƏAF haqqında" Qanununda bilavasitə 6 siyahının adı nəzərdə tutulur.

**ƏAT-nin siyahısı. "**ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 1-18-ci bəndlərində göstərilən əməliyyat-axtarış tədbirlərinin siyahısı bu maddənin II hissə-

sinə əsasən yalnız qanunla dəyişdirilə bilər. Burada da belə bir problem ondan ibarətdir ki, CPM-ə əlavələr və dəyişikliklər edilməsi haqqında Qanunda "ƏAF haqqında" Qanuna dəyişikliklər edilməsi qanunvericilik yaradıcılığı, hüquqi dövlət prinsiplərinə nə dərəcədə uyğundur. Məsələn, 20 iyul 2001-ci il tarixli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə CPM-in 445.2. və 446.1.3-cü maddəsinə edilən dəyişikliyin "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III və V hissələrinə şamil edilməsi nə dərəcədə düzgün hesab edilə bilər? Məhz ona görə də qanunun 10-cu maddəsinin II hissəsinin düzgün şərh edilməsi mühüm əhəmiyyət kəsb edir. İlk növbədə əməliyyat-axtarış tədbirlərinin siyahısında edilən istənilən dəyişikliklər o zaman düzgün hesab edilər ki, qanunverici orqan tərəfindən qəbul edilən qanunla edilən dəyişikliklər digər qanunlara (məsələn CPM-ə) yox, ilk növbədə və bilavasitə "ƏAF haqqında" Qanuna edilsin. Bu dəyişikliklər digər qanunlara edilərsə, belə halda o, qanuni sayılması zənimcə düzgün hesab edilə bilməz. Belə ki, ƏAF sahəsində münasibətləri tənzimləyən əsas normativ-hüquqi akt "ƏAF haqqında" Qanundur. Məsələn, 25 avqust 2000-ci ildə MM-in qəbul etdiyi qanunun 445.1.5-ci maddəsində nəzərdə tutulan ƏAT "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 1-18-ci bəndlərdə göstərilən ƏAT sırasında bilavasitə konkret olaraq öz əksini tapmamışdır, ona görə də hüquq yaradıcılığı baxımından problem xarakteri daşıyır. Bu maddənin məzmununda olan qüsurlardan biri də odur ki, burada müşahidənin obyekti kimi yalnız mənzil nəzərdə tutulur, digər obyektlər (dövlət və özəl müəssisələr, qapalı tikililər və s.) qeyd edilməmişdir. Bu isə öz növbəsində əməliyyat aparatları qarşısında bir sıra problemlər yaradır. Bu məsələyə də yalnız son illərdə CPM-ə əlavələr edilməklə aydınlıq gətirilirdi.

RF-in 12 avqust 1995-ci il tarixli "ƏAF haqqında" Qanununa 1997-2014-cü illərdə bir neçə dəyişiklik və əlavələr edilmişdir. Qeyd edilənlər məhz DİO-nun "ƏAF haqqında" Qanuna əlavə və dəyişiklər barədə Dövlət Duması tərəfindən qəbul olunmuş qanuna müvafiq olaraq həyata keçirilmişdir.

İkinci vacib məsələ ondan ibarətdir ki, yeni ƏAT-nin təşkilati normativ aktlarda göstərmək yolu ilə ƏAT siyahısının məzmununun geniş qaydada şərhinə (izahına) yol verilmir. Məsələn, ƏAO tərəfindən psixofizioloji tədqiq (poliqrafın tətbiqi) bir sıra MDB ölkələrində DİN-in əmri ilə təsdiq olunmuş müstəqil əməliyyat-axtarış tədbiri kimi qəbul etmək olmaz və bunun üçün ayrıca qanunla "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsində göstərilən ƏAT siyahısına daxil edilməlidir.

**Məlumatların gizli alınması təyinatı olan xüsusi texniki vasitələrin növlərinin siyahısı.** "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin IX hissəsinə və bu Qanunun tətbiq edilməsinə dair 17 noyabr 1999-cu il tarixli prezident fərmanına əsasən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada lisenziyalaşdırılmalıdır. Göstərilən maddənin X hissəsində qeyd edilir ki, IX hissədə qeyd olunan texniki vasitələrin növləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

ƏAF-ni həyata keçirən orqanların "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III hissəsində ƏAT-nin keçirilməsində vətəndaşların konstitusiya hüquqlarının məhdudlaşdırılmasına dair əsaslandırılmış qərarları təsdiqləmək səlahiyyəti olan **rəhbər işçilərin kateqoriyasının siyahısı** təşkilati normativ aktlarla müəyyən edilir. Bu normativ aktlarda yalnız belə rəhbər işçilərin kateqoriyasının siyahısı verilmişdir. Həmçinin onu da nəzərə almaq lazımdır ki, bu normativ aktlarda ayrıca vəzifəli şəxslərin şəxsiyyəti və ya rəhbər işçilərə aid olmayan əməkdaşların göstərilməsi düzgün deyildir. Zənnimizcə, ƏAF-nin subyektlərini tam həcmdə həyata keçirən ƏAO-nun da siyahısının qeyd edilməsi düzgün olardı. Belə ki, bu orqanlar və onların ƏAF-də hüquqi statusu və ƏAF subyektlərinin normativ hüquqi statusu ƏAF subyektlərinin normativ hüquqi aktları ilə müəyyən edilir (məsələn, DİN-in, BCAİ, MCQMİ, BNMİ, İAQMBİ və s.)

**Əməliyyat-qeydiyyat işlərinin siyahısı.** ***Əməliyyat-qeydiyyat işləri,*** onların başlanması, qeydiyyata alınması, onlar üzrə icraatın aparılması, xətm edilməsinin ümumi qaydaları "ƏAF haqqında" Qanunun 15-ci maddəsində öz əksini tapmışdır. Bu maddədə qeyd edilən normalar ümumi xarakter daşıyır, belə ki, bu normalar ƏAT-nin təşkili və taktiki aspektlərinin ƏAF subyektlərinin normativ hüquq aktlarında konkretləşməsini şərtləndirir. Uzun illər müxtəlif ƏAF subyektləri tərəfindən əməliyyat-qeydiyyat işlərinin açılması, qeydiyyatı və onlar üzrə icraatın aparılması təcrübəsi və bunun bir çox alimlər tərəfindən keçirilmiş tədqiqatlara müvafiq olaraq əsaslandırılması, qanunverici orqanlar tərəfindən, qəbul edilməsi, qanun və qanunqüvvəli aktlarla çox məhdud sayda normalarla ümumi qaydada nəzərdə tutulması və müasir dövrdə dövlətlərin qanunvericilik aktlarında bilavasitə öz əksini tapması bir daha təsdiqləyir ki, belə işlərin kateqoriyasının siyahısı müəyyən edilməlidir. Bu işlərin siyahısının müəyyənləşdirilməsində ƏAF subyektlərinin ƏAF-in xüsusiyyətləri və ilk növbədə "ƏAF haqqında" Qanunun I maddəsinin II hissəsində göstərilən məqsədlərə xidmət etməsi nəzərə alınmalıdır. Söz-

süz ki, hüquq-mühafizə, o cümlədən xüsusi xidmətlərin əməliyyat-qeydiyyat işlərinin kateqoriyasının siyahısı müxtəlif ola bilər və onlar "ƏAF haqqında" Qanunun məqsəd və vəzifələrinin təmin edilməsini nəzərdə tutan şərt ilə qanuni sayılır.

**Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyektlər.** "ƏAF haqqında" Azərbaycan Respublikası Qanununda konkret olaraq istər əməliyyat-axtarış fəaliyyəti subyektləri, istərsə də ƏAO-nun siyahısı nəzərdə tutulmamışdır. Qanunun 5-ci maddəsinin I hissəsində qeyd edilir ki, ƏAF-ni Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları Korrupsiya ilə baglı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirirlər. Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 14 iyul 2000-ci ildə qəbul etdiyi CPM-in 214.2-ci maddəsi, CPM-in tətbiq edilməsi barədə 25 avqust 2000-ci il tarixli prezident fərmanının 2-ci bəndinə müvafiq olaraq onlara DİN, vergi və gömrük orqanları, Ədliyyə Nazirliyi, Xarici Kəşfiyyat və Dövlət Təhlükəsizlik Xidmətləri və s. ƏAF-in 5-ci maddəsində nəzərdə tutulan subyektlərinə aid edilir. Qanunun 5-ci maddəsinin II hissəsinə müvafiq olaraq ƏAT-nin hansı təhqiqat orqanı tərəfindən hansı həcmdə keçirilməsi 19 iyul 2001-ci il tarixli prezident fərmanı ilə müəyyən edilir. Bundan əlavə, qeyd edilən maddənin IV hissəsində, 10-cu maddənin I hissəsinin 3-5-ci bəndlərində göstərilən ƏAT-nin keçirilməsi səlahiyyəti olan orqanların siyahısına "ƏAF haqqında" Qanunun tətbiq edilməsinə dair 11 noyabr 1999-cu il tarixli Prezident Fərmanının 2-ci bəndinə əsasən isə DİN, DTX, HƏKX (yeni qanunvericiliyə əsasən XKX) ƏN, XDMX, DGK daxil edilmişdir. Bu məsələlərdə də müəyyən problemlər mövcuddur.

Lakin bir sıra MDB ölkələri, o cümlədən RF-də qəbul olunmuş "ƏAF haqqında" Qanunlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların konkret siyahıları göstərilmişdir (məsələn, RF-in "ƏAF haqqında" qanununun 13-cü maddəsinin 3-cü hissəsində, Ukraynanın, Moldova Respublikasının eyniadlı qanunlarının müvafiq olaraq 4 və 2-ci maddələrində göstərilmişdir). Bundan əlavə, bir sıra dövlətlərin qanunvericiliyində, o cümlədən "ƏAF haqqında" RF Qanununun 13-cü maddəsinin II hissəsində qeyd edilmişdir ki, MN-in xarici kəşfiyyat orqanları bu orqanların təhlükəsizliyini təmin etmək üçün ƏAT keçirmək hüquqları var. Həmçinin qeyd edilən dövlətlərin qanunlarında göstərilmişdir ki, ƏAF-ni həyata keçirən orqanların siyahısı ilə əlaqədar yeni səlahiyyət bölgüsünün aparılması qanunla dəyişdirilə bilər. Milli ƏAF haqqında Qanun 10-cu maddəsinin II hissəsinə əsasən isə qeyd edilən nor-

manın şərhinə görə, qanunverici orqanın ifadəsinə müvafiq olaraq ƏAT-dən fərqli olaraq, bu orqanların siyahısı yalnız "ƏAF haqqında" Qanuna bilavasitə aid edilən qanunla deyil, istənilən digər qanunla dəyişdirilə bilər. Bundan əlavə, qanunverici belə dəyişdirilmiş siyahının qüvvədə olan əməliyyat-axtarış qanununa mütləq yalnız ƏAF sahəsində münasibətləri tənzimləməsini nəzərdə tutan qanunla daxil edilməsini nəzərdə tutmur. Son illər dövlət quruculuğunda həyata keçirilən tədbirlərlə əlaqədar bir sıra hüquq-mühafizə orqanları və s. struktur dəyişiklikləri edilməsi ilə bağlı olaraq HƏKX MTN-in strukturuna daxil edilmiş sonradan MTN iki xüsusi xidmətə (DTX və XKX) ayrılmış və ƏAF subyekt subyektlərinə aid edilmişdir, SQ isə MTN-in tərkibindən çıxarılaraq DSX və ƏAF-nin digər yeni subyekti olan FHN və Baş Prokurorluğun strukturunda korrupsiya ilə bağlı cinayətlərə qarşı mübarizə üzrə ƏAF-nin yeni subyekti baş idarə yaradılmışdır. Dövlət quruculuğunda həyata keçirilən islahatlar çərçivəsində MTN iki müstəqil xüsusi xidmətə ayrılmağı ilə əlaqədar yeni səlahiyyət bölgüsü aparılmışdır. Məhz bu dəyişikliklərlə əlaqədar olaraq "ƏAF haqqında" qanunun 5-ci maddəsi ilə nəzərdə tutulan ƏAF subyektlərinin siyahısına HəKX-in səlahiyyətlərini nisbətən geniş miqyasda həyata keşirən XKX, habelə yeni qurumlar – FHN və Baş Prokurorluğun yanında KQMSCQMBİ yaradılmışdır. Bu dəyişikliklər cinayət-prosessual və s. qanunvericilik aktlarında da öz əksini tapmışdır.

Sonda ƏAF-nin öz səlahiyyətlərini tam həcmdə həyata keçirən əməliyyat və digər xidmətlərin siyahısına nəzər salaq. "ƏAF haqqında" Azərbaycan Respublikasının Qanununda belə orqanların siyahısını, strukturunu və işinin təşkilini müəyyənləşdirən bilavasitə konkret normalar yoxdur. Lakin qanunun 2-ci maddəsinin II hissəsi, 5-ci maddəsinin III hissəsinin normaları qeyd edilən məsələlərə qismən aydınlıq gətirir və blanket normalardır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinə müvafiq olaraq HMO-nun əsasnamələri və strukturları Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə müəyyən edilir (DİN-nin Əsasnaməsi və strukturu Prezidentin 30 iyun 2001-ci il tarixli Fərmanı ilə). DİN-nin strukturuna daxil olan BCAİ, MCQMBİ, BNMİ İAQMBİ kimi əməliyyat aparatlarının daxili struktur qurluşu və səlahiyyətlər dairəsi Daxili İşlər Naziri tərəfindən təsdiq olunur (əsasnmələrdə öz əksini tapır). DİN-in strukturuna daxil olan BƏSİİ və İnterpolun MMB (baş idarə statuslu), KTİ də ƏAF sahəsində müəyyən səlahiyyətlərə (məhdud) malikdir. Onlarında struktur qurluşu səlahiyyətləri DİN-in əmrləri ilə təsdiq edilmiş əsasnamələrdə öz əksini tapır. Bu əsasnamələrin məzmununun təhlili

göstərir ki, bir sıra xidmətlər BƏSİİ, KTİ ƏAF-ni məhdud həcmdə, İnterpol MMB nisbətən geniş həcmdə öz səlahiyyətləri çərçivəsində həyata keçirə bilər. Sözsüz ki, "ƏAF haqqında" qanunvericilik nəzərə alınmaqla bu xidmətlərin fəaliyyətinin qeyd edilən istiqamətini nizamlayan normativ hüquqi aktların məzmununun təkmilləşdirilməsinə də ehtiyac duyulur.

RF "ƏAF haqqında" Qanununun 13-cü maddəsinin 3-cü hissəsində müvafiq olaraq ƏAF-ni həyata keçirmək hüquqları olan orqanların səlahiyyətləri, bu orqanların rəhbərlərinin əməliyyat aparatlarının strukturunun müəyyən edilməsi və işinin təşkilini həyata keçirmək səlahiyyətləri (məsələn, DİN, DGK, VN, DSX, XKX və s. rəhbərləri) öz əksini tapmışdır. "ƏAF haqqında" Azərbaycan Respublikasının Qanununda bu, bilavasitə göstərilməmişdir, lakin ƏAF subyektlərinin "ƏAF haqqında" RF Qanununun 13-cü maddəsinin II hissəsində ƏAF subyektlərinin qeyd edilən səlahiyyətlərini Azərbaycandakı ƏAF-nin subyektlərinə də şamil etmək olar (yuxarıda qeyd edilən və s. qanunvericilik aktlarının təhlili əsasında). Fərq ondadır ki, RF-də əməliyyat aparatlarının siyahısını da ƏAF-nin subyektlərinin rəhbərləri müəyyən edir. Burada əsas və mühüm əhəmiyyət kəsb edən məsələ ondan ibarətdir ki, Azərbaycanda bu siyahının ƏAF subyektlərinin rəhbərləri tərəfindən müəyyən edilməsinə baxmayaraq, əməliyyat-axtarış xidməti və aparatlarının strukturu, səlahiyyətləri, səlahiyyət dairəsi, işinin təşkili ƏAF subyektlərinin (məzmun və mahiyyətindən asılı olaraq ƏAF-ni həyata keçirən ifadəsi ƏAO kimi də başa düşülür) rəhbərləri tərəfindən təsdiq edilmiş əsasnamə, nizamnamə və s. normativ aktlarda əhatə olunur. Hüquq norma yaradıcılığının bu istiqamətdə belə təşkili təcrübədə ƏAF-ni həyata keçirən orqan və xüsusi xidmətlərə vaxtında əməliyyat şəraitinə, milli təhlükəsizliyin vəziyyətində olan dəyişikliklərə vaxtında, adekvat cavab verməyə, cinayətkarlığa, milli təhlükəsizliyə qarşı yönəldilən cəhdlərə qarşı əks-təsir etməyə imkan verir.

**Bununla yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyinə istinad edərək ƏAO-nun səlahiyyətləri ilə bağlı belə qaydaları tətbiq etmək olar:**

a) ƏAF subyekti əməliyyat aparatlarının siyahısına dair ölkə prezidentinə əsaslandırılmış təklifər verə bilər;

b) əməliyyat aparat və xidmətlərinin səlahiyyətləri "ƏAF haqqında" Qanunun müəyyən etdiyi hədlər çərçivəsində müəyyən edilə bilər;

c) ƏAF-ın subyektləri əməliyyat aparatlarının və xidmətlərinin strukturunu və işinin təşkilini müəyyən edir.

Eyni zamanda, əvvəldə qeyd etdiyimiz kimi, ƏAF subyektləri "ƏAF haqqında" Qanunun 2-ci maddəsinin II hissəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirlərinin əməliyyat-axtarış orqanları xidmətləri və digər xidmətlər tərəfindən təşkili və taktikası barədə", ƏAF haqqında" Qanunun, CPM-in, CM-in və s. qanunvericilik aktlarının aidiyyəti müddəalarını rəhbər tutmaqla, normativ-hüquqi aktlar qəbul etmək səlahiyyətlərinə malikdir. Məsələn, Daxili İşlər naziri, Dövlət Gömrük Komitəsinin sədri və ƏAF-nin digər subyektləri ƏAF-nin təşkili və ƏAT-nin təşkili və taktikasının ən vacib məsələlərini nizamlayan təlimatları təsdiq edir və onlarda istər əməliyyat aparatlarının, istərsə digər xidmətlərin (KTİ, BƏSİİ, İnterpol MMB və s.) səlahiyyət dairəsini, həddini müəyyən edə bilər. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin fərman və ya sərəncamları ilə bu aparatların siyahısı dəyişdirilə bilər.

## §2. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun zamana görə qüvvəsi

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun ümumiyyətlə hüquqi qüvvəsindən danışmaq üçün, ilk növbədə, Azərbaycan Respublikası Konstitusiyasının 1, 3, 12, 97, 98, 147-151 və s. maddələrini əsas kimi qəbul etmək lazımdır.

Azərbaycan Respublikası Konstitusiyasının 147-151-ci maddələri rəhbər tutulmaqla, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 21 dekabr 2010-cu ildə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanun qəbul edilmişdir. Bu qanunun I-normativ hüquqi aktların zamana, məkana və şəxslərə görə qüvvəsi fəslində (maddələr 86-94) Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin I hissəsinin 1-6-cı bəndlərində öz əksini tapmış Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktların zamana, məkana, subyektlərə görə qüvvədə olmasını müəyyənləşdirən konkret normaları təsbit edilmişdir.

"ƏAF haqqında" Qanunun zamana, məkana və səxslərə görə qüvvəsinin mahiyyətini düzgün dərk etmək üçün Konstitusiyanın 151-ci maddəsinin (beynəlxalq aktların hüquqi qüvvəsi) məzmununu, 149-cu maddəsinin VII hissəsinin və 12-ci maddəsinin II hissəsinin şərhini bilmək tələb olunur. Məsələn, Azərbaycan Respublikasının ərazisində ƏAF sahəsində beynəlxalq aktların hüquqi qüvvəsi təcrübə üçün çox vacibdir və Konstitusiyanın 151-ci maddəsində bu məsələlər aşağıdakı redaksiyada

verilmişdir: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir".

Qanunların zamana görə qüvvəyə minməsi Azərbaycan Respublikası Konstitusiyasının qeyd edilən maddələri və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa əsaslanır. Məsələn, Konstitusiyanın 98-ci maddəsində göstərilir ki, "Qanunun və Azərbaycan Respublikası Milli Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir". Həmçinin Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsində qeyd edilir ki, hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə yeni qanun tətbiq edilir. Bununla yanaşı Konstitusiyanın 147-151-ci maddələri "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunun 86-94-cü maddələri ilə konkretləşdirilmişdir.

Normativ hüquqi aktlar hüquqi qüvvəyə mindikdən sonra tətbiq edilməyə başlayır. Normativ hüquqi aktın qüvvəyə minməsinin dəqiq vaxtının müəyyən edilməsi o deməkdir ki, məhz həmin vaxtdan etibarən o, icra olunmalıdır, yəni normativ hüquqi akt hüquqi qüvvəyə mindiyi vaxtdan sonrakı münasibətlərə aid edilir. Onun geriyə qüvvəsi yoxdur.

**Bu prinsiplərdən istisnaya iki halda yol verilir (hüquq nəzəriyyəsi, qanunşünaslıq və qanunvericiliyə, o cümlədən Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinə əsasən):**

a) əgər normativ hüquqi aktın özündə onun geriyə qüvvəsi müəyyən edilmişdirsə;

b) əgər cinayət qanunu, yaxud inzibati qanunvericilik aktı cəzanı yüngülləşdirirsə və ya ümumiyyətlə, əməlin cəzalanmalı olmasını aradan qaldırırsa.

**"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunun 87.2 maddəsinin də qeyd edilir:** fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquqi məsuliyyəti aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktın qüvvəsi həmin normativ-hüquqi aktda və ya onun qüvvəyə minməsi haqda aktda birbaşa göstərilib göstərilməməsindən asılı olmayaraq onun qüvvəyə minməsindən əvvəl əmələ gələn münasibətlərə şamil olunur".

Yuxarıda qeyd edilənləri rəhbər tutaraq əməliyyat-axtarış qanununun zamana görə qüvvəsinin əsas qaydasını belə ifadə etmək olar: **“Azərbaycan Respublikasında həyata keçirilən ƏAT-nin xarakter və məzmunu konkret ƏAT-nin həyata keçirilməsi və ƏAF-nin subyektləri tərəfindən müvafiq qərarların qəbul edilməsi vaxtı qüvvədə olan əməliyyat-axtarış qanununun normaları ilə müəyyən edilir”.**

Bununla yanaşı, aşağıda qeyd olunan ümumi qaydaları da rəhbər tutmaq lazımdır.

**Birincisi** odur ki, əməliyyat-axtarış qanununun, ƏAF-nin həyata keçirilməsi sahəsini məhdudlaşdıran (daraldan) əməliyyat-axtarış qanununun normalarının göstərişləri geriyə qüvvəyə malikdir.

**İkincisi** odur ki, əməliyyat-axtarış qanununun ƏAF-nin həyata keçirilməsi sahəsini genişləndirən əməliyyat-axtarış qanununun normaları (məsələn, ƏAF-ni həyata keçirən subyektlər və ya onun həyata keçirilməsi obyektləri dairəsinin artırılması) geriyə qüvvəyə malik deyildir.

Azərbaycan Respublikasının ƏAF sahəsində qanunvericiliyinə istinad edərək (“ƏAF haqqında” Qanunun 5-ci maddəsi, I hissə, CPM-in 214-cü maddəsi, CPM-in təsdiq edilməsinə dair 25 avqust 2000-ci il tarixli Prezident Fərmanının 2-ci bəndinə, Dövlət sərhəd-mühafizə xidmətinin yaradılması haqqında”Prezident Fərmanı və s.), dövlət quruculuğu işləri sahəsindəki islahatların nəticələrini nəzərə alaraq ƏAF-nin subyektlərinin siyahısında dəyişikliklər edilmişdir. MTN tərkibindən çıxarılan DSMX ƏAF-nin müstəqil subyektlərinin siyahısına DSX adı altında əlavə edilmiş, HƏKX isə MTN-nin tərkibinə daxil edildiyindən bu xidmət ƏAF subyektlərinin siyahısından çıxarılmış, həmçinin MTN-nin iki xüsusi xidmətə ayrılmasından sonra isə onlar (DTX və XKX) bu siyahıya əlavə olunmuşdur. DSX ƏAF-nin müstəqil subyekti statusu almış və HƏKX-in isə bir subyekt kimi səlahiyyətləri MTN-ə, daha sonra isə DTX və XKX-yə verilmişdir. Sözsüz ki, belə dəyişikliklər milli və beynəlxalq səviyyədə cəmiyyətin həyatının müxtəlif istiqamətlərində gedən inkişaf prosesləri ilə sıx əlaqəlidir və dövlətimizin təhlükəsizliyini təmin edilməsinə xidmət edir.

RF-nin 12 avqust 1995-ci il tarixdə qəbul etdiyi “ƏAF haqqında” Qanun əvvəlki illərdə qüvvədə olan qanunla müqayisədə ƏAF-ni həyata keçirən orqanların siyahısını genişləndirmişdir. Bu qanunun 13-cü maddəsinin 2-ci hissəsinə müvafiq olaraq RF Müdafiə Nazirliyinin və Hökumət Rabitə Əlaqəsi və Informasiya Federal Agentliyinin xarici kəşfiyyat orqanının əməliyyat aparatları ƏAT-ı keçirmək hüquqlarına malikdir. Bu halda qeyd edilən subyektlərin ƏAF-ni həyata keçirmək səlahiyəti 18

avqust 1995-ci il tarixdən qanunun qüvvəyə mindiyi andan hüquqi baxımdan qanuni hesab olunur.

Bundan əlavə, belə bir vacib amili də nəzərə almaq lazımdır ki, "ƏAF haqqında" Qanunda əksər normalar blanket xarakteri daşıdığından, hüquq tətbiqçisi hər bir konkret halda mütləq müəyyən etməlidir ki, "ƏAF haqqında" Qanunun bu və ya digər maddəsinin göndərdiyi normativ akt qüvvədədirmi və ya qüvvədə deyil (istər qanun, istərsə də qanunqüvvəli akt).

Azərbaycan Respublikasının dövlət quruculuğu sahəsində, o cümlədən hüquq-mühafizə orqanlarının fəaliyyət sahələrində həyata keçirdiyi islahatlar gələcəkdə Azərbaycanda ƏAF subyektlərinin genişləndirilməsi proqnozunu verməyi əsaslandırır.

"ƏAF haqqında" Qanunun 21-ci maddəsinin I hissəsində ƏAT keçirilərkən qanunçuluğun pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə cinayət, inzibati və intizam məsuliyyəti nəzərdə tutulmuşdur. Məsələn, Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli CM-in 302-ci maddəsində ƏAF qanunvericiliyini pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. "ƏAF haqqında" Qanunun 21-ci maddəsinin I hissəsində nəzərdə tutulan cinayət məsuliyyəti CM-in qüvvəyə mindiyi gündən (1 avqust 2001-ci il ) sonra törədilən əməllərə görə yaranır.

"ƏAF haqqında" Qanun I-III hissələrdən ibarət keçid müddəaları ilə tamamlanır. I hissədə konkret olaraq göstərilmişdir ki, bu qanun dərc edildiyi gündən qüvvəyə minir (17.XI.1999), II hissədə qeyd olunur ki, hakimlərin ƏAT-nin həyata keçirilməsi ilə əlaqədar bu qanunda nəzərdə tutulmuş səlahiyyətləri yeni cinayət-prosessual qanunvericiliyi qəbul olunduqdan və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, hakimlər təyin edildikdən sonra qüvvəyə minir. III hissədə isə göstərilir ki, hakimlərin ƏAT keçirilməsi ilə əlaqədar bu qanunla nəzərdə tutulmuş səlahiyyətləri qüvvəyə minənədək həmin səlahiyyətlər mövcud cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Bu qeyd edilənləri rəhbər tutaraq istər hüquq tətbiqçisi kimi əməliyyat aparatlarının əməkdaşları, istərsə də hakimlər ilk növbədə nəzərə almalıdırlar ki, Azərbaycan Respublikasının CPM-in 14 iyul 2000-ci il tarixli qanunu ilə təsdiq edilərək 30 avqust və 1 sentyabrda "Azərbaycan" qəzetində rəsmi dərc olunmuş və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmişdir. "Məhkəmələr və hakimlər haqqında" Qanun 10 iyul 1997-ci ildə qəbul olunmuş (sonrakı illərdə əlavələr və dəyişikliklər edilmiş) və qüvvəyə minmişdir.

"ƏAF haqqında" Qanunun 21-ci maddəsinin I hissəsinə əsasən, ƏAT keçirilər-kən qanunçuluğun pozulmasına görə məsuliyyət nəzərdə tutulmuşdur. Qeyd edilən I hissədə ƏAT-nin təşkili və həyata keçirilməsi üçün etibar olunmuş iş və ya xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa görə digər növ məsuliyyətlərlə yanaşı, cinayət məsuliyyəti də daşıyırlar. Bundan əlavə, 20-ci maddənin III hissəsi, 16-cı maddənin VII hissəsi və 14-cü maddənin VIII hissəsinin təhlili göstərir ki, belə qanunpozmalardan biri əməliyyat işçilərinə qarşı tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılmasıdır. Azərbaycan Respublikasının 11 dekabr 1998-ci il tarixli "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Qanununun 3-5, 21 və s. maddələri, 11 dekabr 1998-ci il tarixli "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanununun 3-7, 24 və s. maddələrinin məzmunu da belə hüquqpozmaların müəyyən edilməsində rəhbər tutulmalıdır. Azərbaycan Respublikasının CM-in 301-ci maddəsində yuxarıda qeyd edilən təhlükəsizlik tədbirləri haqqında məlumatların yayılmasına görə məsuliyyət nəzərdə tutulmuşdur. Əvvəldə qeyd edilən "müxtəlif kateqoriyadan olan şəxslərin dövlət müdafiəsi haqqında" ikinci qanun 11 dekabr 1998-ci ildə qəbul edilmiş və onların tətbiq edilməsinə dair müvafiq prezident fərmanları 13 fevral 1999-cu il tarixdə imzalanmışdır. Bunlara baxmayaraq, ilk növbədə onu rəhbər tutmaq lazımdır ki, Azərbaycan Respublikasının CM 30 dekabr 1999-cu ildə qəbul olunsa da, 1 yanvar 2000-ci ildən qüvvəyə minmiş və ona görə də "ƏAF haqqında" Qanunun 21-ci maddəsi ilə və yuxarıda qeyd edilən maddələrə müvafiq olaraq cinayət məsuliyyəti, cinayət xarakterli əməldən asılı olaraq CM-in 301, 302, 284, 285 və s. maddələrində nəzərdə tutulmuş cinayət məsuliyyətinə cəlbedilmə CM-in qüvvəyə mindiyi andan sonra həyata keçirilə bilər.

**"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 14-cü maddəsinin VI hissəsində əməliyyat-axtarış tədbirlərinə son qoyulmasının iki halı öz əksini tapmışdır.** Birinci halda bu tədbirlərə bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunduqda, ikinci halda isə haqqında ƏAT keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

Qanunun istər leqal, istərsə də qeyri-leqal şərhinin olmaması və göstərilən bu iki halın məzmununa istinad edərək belə başa düşmək olar ki, ikinci halı əks etdirən vaxtla bağlı qayda birinci hala da şamil oluna bilər. İkinci halda göstərilən 6 ay müddətinin hesablanmasında vaxtın dayandırılması məsələləri konkret normalarla müəy-

yən edilməmişdir. Məsələn, tədbirin keçirilməsi müddəti məhkəmənin qərarı ilə 6 ay müəyyənləşdiribdir və ƏAO iki ay müddətində tədbiri keçirdikdən sonra dayandırır, 3 ay keçdikdən sonra qalan 4 ay müddətində yenidən tədbiri davam etdirir və nəticəsindən asılı olmayaraq cəmi ümumilikdə 6 ay müddətində tədbiri həyata keçirdiyinə görə ona son qoyur. Əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilik aktlarının təhlilinə əsaslanaraq tədbirin bu qaydada keçirilməsi hüquqa ziddir. Əgər tədbir iki ay müddətində keçirilib, sonradan ona fasilə verilibsə onun yenidən keçirilməsi üçün yeni səbəb və əsaslar olmalıdır. 6 ay keçdikdən sonra həmin tədbirin davam etdirilməsi zəruriyyəti ilə bağlı konkret normaların (qaydaların) olmaması da müəyyən müəmmalı məqamların meydana çıxmasına və hüquq tətbiqçisi (ƏAO və onların əməkdaşları) qarşısında müəyyən əngəllərin yaranmasına səbəb olur.

“ƏAF haqqında” qanunun zamana görə qüvvəsini müəyyən edən əsas normalarını rəhbər tutmaqla ƏAF-nin subyektlərinin ƏAT-nin təşkili və taktikasına dair normativ hüquq aktlarında digər müddətlər də nəzərdə tutula bilər (məsələn, ƏQİ-nin növləri üzrə onların açılma, icraat müddətləri, onların icraatının uzadılması, xitam olunması və s.). Bu qeyd edilən problemli aspektləri ƏAF-nin nəzəri əsasları, təcrübəsi və qanunvericiliyi arasında, həmçinin “ƏAF haqqında” Qanunda boşluqların və onun müddəaları arasında bir sıra ciddi ziddiyyətlərin olması ilə izah etmək olar.[1]

## § 3. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun məkana görə qüvvəsi

Normativ hüquqi aktın məkana görə qüvvəsi dedikdə, hüquq nəzəriyyəsinə və qanunvericilik yaradıcılığının əsas prinsip və tələblərinə, beynəlxalq təcrübəyə əsasən həmin aktın aid edildiyi əraziyə görə qüvvədə olması başa düşülür. Dövlətin ərazisinə quru sahəsi, daxili və ərazi suları, onun üzərindəki hava məkanı, həmin ərazinin yeraltı hissəsi, həmçinin dəniz, çay və hava gəmiləri və s. daxildir. Normativ hüquqi aktlar, bir qayda olaraq, bu aktları qəbul etmiş orqanın aidiyyətində olan ərazidə hüquqi qüvvəyə malik olur. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsində (ərazi) qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xə-

1 Ş.İ.Hüseynov. “Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi və təcrübi məsələləri və problemlərinin həlli yolları”, XX və XXI Bölmələr, Bakı: Mütərcim, 2016

zər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikasının ərazisinin tərkib hissəsidir. "Dövlət sərhədi haqqında" 9 dekabr 1991-ci il tarixli Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində (Azərbaycan Respublikasının dövlət sərhədi) qeyd edilmişdir: "Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su hövzəsinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir, Azərbaycan Respublikasının dövlət suverenliyinin ərazi hüdududur".21 dekabr 2010-cu il tarixli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiyası Qanununun 88-ci maddəsində normativ hüquqi aktın məkana və şəxslərə görə qüvvəsi öz əksini aşağıdakı redaksiyada tapmışdır: "Normativ hüquqi aktlar Azərbaycan Respublikasının bütün ərazisində məcburi qüvvəyə malikdir".

Yuxarıda qeyd edilənləri rəhbər tutaraq belə demək olar ki, "ƏAF haqqında" Qanunun normaları Azərbaycan Respublikasının ərazisində tam həcmdə tətbiq olunur.

Azərbaycan Respublikasının "Aviasiya haqqında" 24 iyun 2005-ci il tarixli Qanunun 3-cü maddəsində (Hava məkanı üzərində Azərbaycan Respublikasının suverenliyi) qeyd edilir ki, bu qanun Azərbaycan Respublikasına məxsus hava gəmilərinin "Azərbaycan Respublikasının ərazisindən kənarda olduğu zaman həmin anda ərazisində və ya ərazi üzərində olduğu dövlətin qanunvericiliyinə zidd olmamaqla tətbiq edilir".

Azərbaycan Respublikası CM-in 11-ci maddəsində (cinayət qanunvericiliyinin Azərbaycan Respublikası ərazisində törədilən cinayətlərə görə qüvvəsi) qeyd edilmişdir ki, Azərbaycan Respublikasının hava və dəniz limanında qeydiyyatda olan, Azərbaycan Respublikasının bayrağı və ya tanınma nişanı altında Azərbaycan Respublikasının hüdudlarından kənarda açıq sularda və ya hava fəzasında hərəkət edən su və ya hava gəmisində cinayət törətmiş şəxs bu məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir (maddə 11.3.), həmçinin Azərbaycan Respublikasının hərbi donanmasına və ya hərbi hava qüvvələrinə məxsus olan gəmidə cinayət törətmiş şəxs, həmin gəminin olduğu yerdən asılı olmayaraq, bu məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir (maddə 11.4.).

Bu qeyd edilənləri nəzərə alaraq belə bir müddəanı təsdiq etmək olar ki, ƏAF-nin məqsədlərinə nail olmaq üçün "ƏAF haqqında" Qanunun normalarını yuxarıda qeyd edilən mühitlərdə (məkanda) tətbiq etmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının 11-ci, CM-in 12-ci maddələrinin və "Konsulluq və səfirlik əlaqələri haqqında" beynəlxalq normativ hüquqi aktların normalarını rəhbər tutaraq belə bir müddəanı da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının digər xarici dövlətlərdə, o cümlədən keçmiş SSRI-yə daxil olan dövlətlərin ərazisində yerləşdiyi konsulluq və səfirliklərinin ərazisi, bir qayda olaraq, Azərbaycan Respublikasının ərazisi sayılır.

**"Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanununun məkana görə qüvvəsində istisna edilən hallar.** "ƏAF haqqında" Azərbaycan Respublikası Qanununda qanunverici orqanın iradəsinə görə belə istisna hallar nəzərdə tutulmuşdur (qanunun 3-cü maddəsinin II hissəsi və s.).

**Birinci istisna hal:** Azərbaycan Respublikasının CM-in 12-ci maddəsində (Cinayət Qanununun Azərbaycan Respublikası ərazisindən kənarda törədilən cinayətlərə görə qüvvəsi) öz əksini tapmış normada qeyd edilir ki, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu məcəllə əsasında cinayət məsuliyyətinə cəlb olunurlar (maddə 12.1.). Bu normanın realizə olunması üçün belə zəminin yaradılması ƏAF-nin xaricdə keçirilməsi ehtimalını nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikasının xarici dövlətin ərazisində yerləşən nümayəndələrinin və yaxud xarici dövlətin ərazisində yerləşən bu dövlətdə Azərbaycan dövlətinin vətəndaşları tərəfindən yaradılmış özəl şirkət, bank və s. müəssisələrin işçiləri olan Azərbaycan vətəndaşları həmin xarici dövlətdə Azərbaycan dövlətinə xəyanət xarakterli hərəkətləri törətmək məqsədilə müxtəlif dəstə, birlik və təşkilatları maliyyələşdirirsə, belə hallarda həmin şəxslərin ƏAT keçirmədən ifşa edilməsi son dərəcə çətindir. Burada belə bir real amili nəzərə almaq lazımdır ki, Azərbaycan dövlətinin 4 iyun 1999-cu il tarixli "MDB iştirakçısı olan dövlətlərin terrorçuluğa qarşı mübarizə haqqında" müqaviləyə qoşulmasına baxmayaraq, bu dövlətlər öz əraçılərində yerləşən yuxarıda qeyd edilən bank və müəssisələrin cinayətkar fəaliyyətini ƏAT keçirməklə aşkarlaya bilmirlər, belə ki, qeyd edilən obyektlər qanuni biznes fəaliyyəti ilə məşğul olurlar və onlara qarşı ƏAT-nin keçirilməsi üçün xarici dövlətin

məkanında heç bir səbəb və əsas olmur. Ona görə də bir sıra hallarda ƏAT birgə keçirilir və bu hala ayrıca II istisna halında baxılacaqdır.

"ƏAF haqqında" Qanunda ölkə hüdudlarından xaricdə ƏAF-nin həyata keçirilməsinə qadağan qoyan konkret normalar yoxdur. Bundan əlavə, DTX və XKX-nin fəaliyyətinin hüquqi əsaslarını təşkil edən qanunvericilikdə (həmçinin Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş xüsusi xidmətlərin əsasnamədə) Azərbaycan ərazisinin hüdudlarından kənarda ƏAF-nin həyata keçirilməsinə də qadağan qoyan normativ göstərişlər yoxdur. (sözsüz ki, bu məsələlər MTN-in iki xüsusi xidmətə ayrilması onların səlahiyyətləri ilə bağlı hüquqi mənbələrdə öz əksini tapacaqdır.) ƏAF-nin, həmçinin onun özəyini təşkil edən ƏAT-nin həyata keçirilməsini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, milli təhlükəsizlik orqanları və onun kəşfiyyat xidmətləri xarici dövlətdə də ƏAT keçirə bilər. Faktiki olaraq istər Azərbaycanın, istərsə də keçmiş SSRİ dövlətlərinin milli təhlükəsizlik orqanları və xüsusi xidmətləri **zərurət olan hallarda ölkələrinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə bu tədbirləri beynəlxalq və milli normativ-hüquqi aktların müvafiq müddəalarını rəhbər tutmaqla həyata keçirirlər.**

**İkinci istisna hal.** 13 iyun 1995-ci il tarixli "Beynəlxalq müqavilələrin baülanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı belə istisna halına yol verilir. Bu qanunun 1-ci maddəsi aşağıdakı redaksiyada verilmişdir: "Azərbaycan Respublikası Konstitusiyasına, hamılıqla tanınan beynəlxalq hüquq prinsiplərinə və normalarına müvafiq surətdə bu qanun adından asılı olmayaraq Azərbaycan Respublikasının bütün yazılı beynəlxalq müqavilələrinin (müqavilə, saziş, konvensiya, hökm, protokol, məktublar və ya notaların mübadiləsi və başqa adlı beynəlxalq müqavilələr) bağlanması, icrası və ləğv edilməsi qaydalarını müəyyənləşdirir. Məhz qeyd edilən imzalanmış beynəlxalq müqavilələr çərçivəsində Azərbaycan Respublikasının hüdudlarından kənarda əməliyyat-axtarış tədbirlərinin keçirilməsi imkanlarını reallaşdırmaq mümkündür. Burada da belə prinsipial məqamlar mühüm yer tutur: "ƏAF haqqında" Qanunda nəzərdə tutulan ƏAT-ı hansı həcmdə digər dövlətin ərazisində həyata keçirmək olar, onların keçirilməsinə icazəni kim verməlidir? Sözsüz ki, ƏAT-nı bir dövlətin əməliyyat-axtarış fəaliyyətinin subyektləri digər dövlətin ərazisində sərbəst keçirə bilməzlər. Bu onu göstərir ki, bu istiqamətdə də müəyyən problemlər mövcuddur. Müasir dövrdə bütün bunları nəzərə alaraq MDB-yə daxil olan ölkələr üzrə "ƏAF haqqında" Vahid

Konvensiyanın hazırlanması və imzalanması çox mühüm və aktualdır, belə ki, bu, II istisna halı tam həcmdə konkret normalarla əhatə olunmasını mümkün edərdi. Məhz ona görə də cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətlərində imzalanmış iki və çoxtərəfi müqavilələrdə Azərbaycan dövlətinin ərazi hüdudlarından kənarda ƏAT-nin keçirilməsi nəzərdə tutulub reallaşa bilər. Belə müqavilələr AR qanunları ilə ratifikasiya oluna bilər.

MDB ölkələri arasında imzalanmış 22 yanvar 1993-cü il tarixli "Mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər və hüquqi yardım haqqında" Konvensiyanın 6-cı bölməsində (hüquqi yardımın həcmi) qeyd edilmişdir ki, razılaşan tərəfər bir-biri ilə soraqlaşma tədbiri həyata keçirən tərəfin qanunvericiliyində nəzərdə tutulan prosessual və digər hərəkətləri (əməliyyat-axtarış tədbiri də başa düşülür) həyata keçirməklə köməklik göstərə bilər (qeyd edilən konvensiyada bir sıra mühüm hüquqi boşluqların olmasıyla əlaqədar bəzi normaların yenisi ilə əvəz edilməsi nəzərdə tutulmuşdur). Konvensiyada hüquqi yardım göstərilməsinə dair tapşırığın (soraqlaşma) forması, məzmunu, icra qaydası da öz əksini tapmışdır.

MDB-yə daxil olan dövlətlərin daxili işlər nazirlikləri Şurası tərəfindən 18 dekabr 1998-ci ildə imzalanmış "Əməliyyat-axtarış fəaliyyətinin xüsusi müşayiət sferasında əməkdaşlıq haqqında" Saziş (əməliyyat-axtarış tədbirlərinin, o cümlədən gizli müşahidənin müşayiət olunması nəzərdə tutulur) imzalanmışdır. Bu sazişin 2-ci maddəsində nəzərdə tutulmuşdur ki, tərəfər ƏAF-nin xüsusi müşayiət olunmasına dair soraqlaşmaların icra edilməsi yolu ilə əməkdaşlıq edirlər. Qeyd edilən saziş Azərbaycan Respublikası Prezidentinin 14 may 1999-cu il tarixli sərəncamı ilə təsdiqlənmişdir. Sazişdə qeyd edilmişdir ki, dövlət suverenliyinə uyğun olaraq digər dövlətin ərazisində əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən xüsusi müşayiətin həyata keçirilməsinə yol verilmir. Yuxarıda qeyd edildiyi kimi, tərəfər arasında əməkdaşlıq müşahidə obyektinin ərazisində olduğu və ya yollandığı ölkənin əməliyyat hissələri tərəfindən ƏAF-nin xüsusi müşayiət olunmasına dair təşəbbüs göstərən ölkənin yazılı soraqlaşmalarının icrası yolu ilə həyata keçirilir. Müşahidə obyekti digər dövlətin ərazisindən keçərkən təcili zərurət tələb edilən hallarda əməliyyat-axtarış orqanlarının rəhbərləri qarşıda duran vəzifələrin həlli məqsədilə, sorğu daxil olanadək öz aralarında bilavasitə əlaqə yarada bilərlər (maddə 5). Yəni belə əlaqələr prosesində qarşıda duran bütün məqamlar, yaranacaq çətinliklər, şəraitlər müzakirə olunur və

qarşı tərəfin əməliyyat-axtarış orqanları daha ətrafı məlumatlar əldə edir və nəticədə tədbirin daha səmərəli keçirilməsinə nail olunur və s.

**Üçüncü istisna hal.** Bu halın məzmununun açıqlanması üçün, ilk növbədə, beynəlxalq hava və su hüququnun əsas prinsipləri nəzərə alınmalıdır.

BMT-nin “Hava gəmisində hüquqpozmalar və bəzi digər aktlar haqqında” 1963-cü il tarixli Tokio Konvensiyasının 4-cü maddəsində qeyd edilmişdir ki, bütün hallarda hava gəmisində yurisdiksiyanı həmin gəminin qeydiyyatda olduğu dövlət həyata keçirir. Lakin burada istisna hal var və onun məzmunu ondan ibarətdir ki, əgər hava gəmisində qanunazidd hərəkət hər hansı bir başqa dövlətin vətəndaşına qarşı yönəlmişsə və ya törədilən cinayətin nəticələri o dövlətin ərazisinə aiddirsə və onun təhlükəsizliyi ilə əlaqələndirilirsə və ya ikitərəfi öhdəliklərlə nəzərdə tutulubsa, belə hallarda istənilən dövlət hava gəmisinin yurisdiksiyasına müdaxilə edə bilər. Bu konvensiyada həmçinin qeyd edilmişdir ki, hava gəmisi hansı dövlətdə qeydə alınıbsa, həmin dövlətə məxsusdur. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq hava gəmisi anlayışı ilk öncə nəzərdə tutur: “Hava gəmisi qeydə alınır və dövlət reyestrinə daxil olunur”. BMT-nin 10 dekabr 1982-ci il tarixli SU hüququna dair Konvensiyasında dəniz ərazi suları, gəminin sülhməramlı keçidi və s. kimi anlayışlar əhatə edilmişdir. Konvensiyada qeyd edilir ki, sahilyanı dövlət, onların ərazisinə daxil olan dəniz ərazi sularından keçən xarici dövlətin gəmilərində cinayət yurisdiksiyasını həyata keçirməlidirlər, gəminin sülhməramlı keçidi vaxtı onda cinayət törədən hər hansı bir şəxsi həbs və ya onun barəsində cinayət təqibi üzrə icraatı həyata keçirə bilməzlər. Bu qeyd edilənlərlə yanaşı, konvensiyada sahilyanı dövlətin sülhməramlı keçid edən, xarici dövlətə məxsus gəminin yurisdiksiyasına müdaxilə etməsini nəzərdə tutan istisna hallar da öz əksini tapmışdır.

**Belə istisna hallar aşağıdakılardır:**

1. Əgər gəmidə törədilən cinayətin nəticələri bu dövlətin ərazisinə aid olan nəticələrdən ibarətdirsə;

2. Əgər cinayət sülh və insanlıq əleyhinə yönələrsə;

3. Əgər belə müdaxilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satışının qarşısının alınması üçün həyata keçirilirsə və s.;

Azərbaycan Respublikasının Konstitusiyası, “Dövlət sərhədi haqqında” Qanun, CM, CPM, SM, həmçinin imzalanmış iki və çoxtərəfi müqavilələr, yuxarıda qeyd

edilən beynəlxalq-hüquqi aktları və s. rəhbər tutaraq hava və su gəmilərində Azərbaycan Respublikasının "ƏAF haqqında" Qanununun tətbiqinə yol verilir.

MDB-yə daxil olan bir sıra ölkələrdə, o cümlədən RF-də belə bir istisna dördüncü halı da ayırırlar ki, o da müstəsna iqtisadi zonaya və Rusiyanın kontinental şelfinin məkanına tətbiq edilir.

**Dördüncü istisna hal.** Qeyd edilən istisna halın məzmununu açıqlamaq üçün ilk növbədə bəzi qanunvericilik aktlarına nəzər salmaq düzgün olardı. 28 oktyabr 1999-cu il tarixli "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin II hissəsinin 12-ci bəndində qeyd edilmişdir ki, polisin əsas vəzifələrindən biri də odur ki, "Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyəti həyata keçirir". İstintaq təcridxanalarının Ədliyyə Nazirliyinin strukturuna (Penitensiar xidmətin tərkibinə) daxil olmasına baxmayaraq, orada ƏAF-ni DİN- və xüsusi xidmətlər tərəfindən həyata keçirilirdi. (belə struktur və vəzifə bölgüsü ilə bağlı istər İT, CÇM-in istərsə də əməliyyat-axtarış orqanlarının fəaliyyətində bir sıra ciddi problemlərin yaranmasına səbəb olurdu). Qanunla bağlı həyata keçirilən tədqiqatların yekunlarına müvafiq olaraq, bir sıra əsaslı təklifərin verilməsinə baxmayaraq uzun müddətdən sonra "ƏAF haqqında" Qanunda və digər normativ-hüquqi aktlarda dəyişiklik edilmişdir. Belə halın əsas səbəblərindən biri ondan ibarətdir ki, aparılan elmi tədqiqatların nəticələri qanunverici orqanın müvafiq qurumları tərəfindən lazımi dərəcədə nəzarətdə saxlanılıb öyrənilmir.

"ƏAF haqqında" Qanunun 14-2 maddəsində Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinin qanunvericilik əsaslarının ümumi müddəalar təsbit edilmişdir.

**"Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanun ilə nəzərdə tutulmuş ƏAF-nin digər subyektləri və ya ƏAO, o cümlədən ƏN-in əməliyyat aparatları İT-də ƏAT-ı DİN-in yuxarıda qeyd edilən əməliyyat aparatlarına (xidmətlərinə) sorğu göndərməklə bu xidmətlər vasitəsilə həyata keçirirlər. Zəruri hallarda bu tədbirlərin keçirilməsində ƏAF-nin digər subyektləri (ƏAO) cəlb edilə bilər. Onu da nəzərə almaq lazımdır ki, belə qarşılıqlı münasibətlər idarələrarası normativ hüquqi aktlarla nizamlanmalıdır. Zənnimizcə qanunvericilikdə edilən belə dəyişikliklər əvvəldə qeyd edilən problemlərin bir qisminin həllinə müəyyən dərəcədə xidmət edirsə də təcrübi fəaliyyət üçün müəyyən problemlər də yaradır.**

MDB-yə daxil olan ölkələrdə, o cümlədən RF-də, Ukrayna Respublikasında istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində ƏAF-ni cinayət-cəza sisteminin əməliyyat-axtarış orqanları həyata keçirir. DTX, XTX, DİN və ƏAF-nin digər subyektləri İT-də və həmçinin cəzaçəkmə müəssisələrində (onların ərazisində) ƏAT-ı müstəqil həyata keçirmək hüquqlarına malik deyillər və tələb olunan zəruri hallarda bu tədbirləri İT və ÇM ƏAO ilə birgə həyata keçirə bilərlər.Qeyd edilən yerlərdə ƏAT-nin keçirilməsində ƏAF-nin subyektlərinin qarşılıqlı əməkdaşlıq münasibətləri ƏN-də qeydiyyatdan keçmiş idarələrarası normatıv aktlarla tənzimlənməlidir.

"ƏAF haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin II hissəsini və ona müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2001-ci il tarixli "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində ƏAF subyektləri arasında səlahiyyət bölgüsü haqqında" Fərmanını nəzərə alaraq əməliyyat-axtarış qanununun məkana görə qüvvədə olan digər istisna hallarını da göstərmək olar. **Məsələn, "ƏAF haqqında" Qanunun 5-ci maddəsinin IV hissəsinin, 10-cu maddəsinin I hissəsinin 6, 15, 16 və s. bəndlərində göstərilən ƏAT-nin təşkili və keçirilməsi qaydalarının dərindən təhlili belə qərara gəlməyi şərtləndirir.**

Bütün bu qeyd edilənlər bir daha "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun məkana görə qüvvəsində dörd və s. istisna halların mövcudluğunu şərtləndirməyə imkan verir və onların daha geniş və dərindən tədqiq edilməsinin zəruriliyini əsaslandırır.

## § 4. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun şəxslərin dairəsinə görə qüvvəsi və onun növləri

**"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun şəxslərin dairəsinə görə qüvvəsinin ümumi müddəaları.** Bu istiqamətdə ümumi müddəaların qısa şərhini vermək üçün ilk növbədə Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsası olan Konstitusiyanın və digər qanunların bir sıra normalarını rəhbər tutmaq lazımdır. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının 24-71-ci maddələri (insan və vətəndaş hüquqları və azadlıqları) rəhbər tutulmalıdır. Qeyd edilən maddələr içərisində, xüsusilə də **25-ci maddənin (Bərabərlik hüququ)** I və III hissələrini bir fundamental əsas kimi rəhbər tutmaq lazımdır. Konstitusiyanın 25-ci maddəsinin göstərilən hissələrində qeyd edilir:

***I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir;***

***II. Dövlət irqindən, milliyyətindən, dinə münasibətindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.***

Bununla yanaşı Konstitusiyanın 24-cü maddəsində (İnsan və vətəndaşların hüquq və azadlıqlarının əsas prinsipi) qeyd edilir ki, hüquq və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Məhz bu normalar rəhbər tutularaq "ƏAF haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin II hissəsində qeyd edilir ki, Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

Yuxarıda qeyd edilən normaları nəzərə alaraq belə bir fikri qəti söyləmək olar ki, qanunvericilikdə nəzərdə tutulan bir sıra istisnalarla mühafizə olunan obyektləri cinayətkar qəsdlərdən müdafiə etmək məqsədilə hər bir şəxsə qarşı ƏAT-ı həyata keçirmək olar. Qanunvericiliklə toxunulmazlıq statusuna malik olan şəxslərə qarşı ƏAT tətbiqində Azərbaycan Respublikasının Konstitusiyasının 90, 106, 123, 128-ci və s. maddələrinin, digər qanunları ilə müəyyən olunmuş normaların və beynəlxqlq normativ-hüquqi aktların tələbləri rəhbər tutulmalıdır. Onu qeyd etmək lazımdır ki, qanunvericilikdə istisna hal kimi toxunulmazlıq statusuna malik olan şəxslərə qarşı ƏAF-nin tətbiq edilməsinə müəyyən qadağaların qoyulmasına baxmayaraq, bu fəaliyyətin, o cümlədən ƏAT-nin tətbiq edilməsinin mümkün olan halları konkret normalarda nəzərdə tutulmamışdır və qanunvericiliyin tətbiqi ilə bağlı bu istiqamətdə də müəyyən problemlər mövcuddur. Lakin ƏAF haqqında qanunvericiliyin bu münasibətlərlə əlaqəli normalarının təhlilinə əsasən demək olar ki, bu tədbirlər müəyyən hallarda və şərtlərlə tətbiq edilə bilər.

Qanunda sadalanan ayrıca insanın bir şəxsiyyət, fərd və vətəndaş kimi sosial əhəmiyyətli səciyyəsinin məzmunu onun hüququn tətbiqində mühüm yer tutmasını nəzərə alaraq açıqlanır.

**Vətəndaşlıq.** Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində **(Vətəndaşlıq hüququ)** qeyd edilmişdir ki, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 30 avqust 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi (Vətəndaşlıq hüququ) Konstitusiyasının 52-ci maddəsində öz əksini tapmış redaksiyadan ibarətdir.

Konstitusiyanın 69-cu maddəsində (əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqları) göstərilir ki, bu qeyd edilən şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə və bütün vəzifələri yerinə yetirə bilərlər. Belə şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Sözsüz ki, Azərbaycan Respublikasının ali qanununun bu normalarının təmin edilməsi üçün əcnəbi və vətəndaşlığı olmayan şəxslər anlayışı hüququn tətbiqçisi üçün mühüm əhəmiyyət kəsb edir və ona görə də ƏAO-nun əməkdaşları 13 mart 1996-cı il tarixli "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikası Qanununun bir sıra əsas normalarını yaxşı bilməlidirlər. Məsələn, bu qanunun 2-ci maddəsində (əsas anlayışlar) aşağıdakılar qeyd edilmişdir:

**Əcnəbilər** - Azərbaycan Respublikasının vətəndaşlığı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslərdir.

**Vətəndaşlığı olmayan şəxslər** - Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərdir.

trialilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi olmağa müvafiq qaydada icazə aldıqda, yaxud onlara Azərbaycan Respublikasında daimi yaşamaq hüququ verildikdə onlar Azərbaycan Respublikasında daimi yaşayanlar hesab edilirlər.

**Mühacir** - bu və ya digər əsaslarla yaşadığı ölkəni uzun müddətə tərk edən və Azərbaycan Respublikasında yaşamağa gələn əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərdir.

Yuxarıda sözü gedən qanunun 4-cü maddəsində qeyd edilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növü və xarakterindən və digər hallardan asılı olmayaraq Azərbaycan Respublikası və məhkəmələr qarşısında bərabərdir.

**Milliyyət** - hər hansı bir millətə, xalqa mənsubiyyəti bildirir. Millət insan birliyinin tarixən təşəkkül tapmış və xalqı əvəz etmiş forması, insanların yeni sosial və beynəlmiləl birliyidir. Millət üçün hər şeydən əvvəl maddi həyat şəraitinin, ərazinin və iqtisadi həyatın ümumiliyi, dil ümumiliyi, milli xarakteri, onun mədəniyyətinin milli özünəməxsusluğunda təzahür edən müəyyən cəhətlərinin ümumiliyi xasdır.

Millət anlayışı tarixən təşəkkül tapmış insanların sabit birliyindən ibarət olub dil, etnik və sosial-iqtisadi birliyi, mədəniyyəti və xarakteri əsasında yaranmışdır. Millət anlayışının tam açıqlanması üçün xalq anlayışının məzmununun açıqlanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının 1-6-cı maddələrinin dərk edilməsi vacibdir. Məsələn, Konstitusiyanın 1-ci maddəsində (Hakimiyyətin mənbəyi) qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı isə respublika ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Bundan əlavə, Konstitusiyanın 44-cü (Milli mənsubiyyət hüququ) maddəsində qeyd edilən hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququnun da rəhbər tutulması vacib sayılır. Konstitusiyanın 5-ci maddəsində qeyd edilir ki, Azərbaycan xalqı vahiddir.

**Cins** - iki canlı varlığın (kişinin və qadının) genetik və fizioloji əkslikləri olan fərdlər qrupu başa düşülür. Hər hansı bir cinsin mümkün dəyişməsi həmin şəxsin fəaliyyətinə qarşı əsaslandırılmış ƏAT keçirilməsinə təsir etmir. **Germofrodizm** - yəni bir orqanizmdə kişi və qadın cinsi orqanlarının olması da həmçinin ƏAT keçirilməsinə maneçilik yaratmır. Bir sıra fəaliyyət növlərində, gömrük işində gömrük nəzarətinin formalarının tətbiqində (şəxsi yoxlama, tibbi müayinə və s.), cinayət prosesində (şəxsi yoxlama, şəxsi axtarış və götürmə) Prosesual hərəkətlərin bu şəxslərə qarşı həyata keçirilməsində müəyyən problemlər yaranır ki, onların da qanunvericilikdə həll edilməsini zəruri hesab etmək olar.

**Yaşayış yeri və olduğu yer**. Bu anlayışları başa düşmək üçün ilk növbədə aşağıdakı fundamental hüquqi əsasları nəzərdən keçirmək vacib sayılır. Azərbaycan Respublikasında bu anlayışların məzmununu açıqlamaq üçün ilk növbədə Konstitusiyanın 28-ci maddəsində qeyd edilən aşağıdakı normanı rəhbər tutmaq lazımdır: "Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər, Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər və Azərbaycan Respublikasının vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır". Onu da nəzərə almaq lazımdır ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında əsasnamənin təsdiq edilməsi barədə" 8 dekabr 1999-cu il tarixli AR Qanunu qəbul edilmişdir.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" 4 aprel 1996-cı il tarixli Azərbaycan Reçpublikasının Qanununun 1-2-ci maddələrində müvafiq olaraq yaşayış yeri və olduğu yer üzrə qeydiyyatın əsasları və anlayışının məzmunu açıqlanır. Qanunun 2-ci maddəsində aşağıdakılar öz əksini tapmışdır:

**Şəxsin yaşayış yeri** - tam həcmdə fəaliyyət qabiliyyətli şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri və digər bu kimi yaşayış yerləri başa düşülür.

Cinayət-prosessual məcəlləsinin məqsədləri üçün yaşayış yerinə aid olan obyektlər bu məcəllənin 7.0.34-cü maddələrində əhatə edilmişdir.

**Şəxsin olduğu yer** - onun yaşayış yeri sayılmayan, müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və digər ictimai yerlər, habelə yaşayış binası (özünün, qohumunun, tanışının və s.) başa düşülür.

Bu maddədə, həmçinin 14 yaşı olmayan, yetkinlik yaşına çatmayanların və ya qəyyumluq altında olan şəxslərin yaşayış yeri onların qanuni nümayəndələrinin - müvafiq olaraq valideynlərinin, övladlığa götürənlərin və ya qəyyumların yaşayış yeri, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların (tam həcmdə fəaliyyət qabiliyyəti əldə edənlər istisna olmaqla) yaşayış yeri isə onların qanuni nümayəndələrinin - müvafiq olaraq valideynlərinin, övladlığa götürənlərin, yaxud qəyyumların və ya himayəçilərin razılığı ilə müəyyən olunur. Bu qanunla təsdiq olunmuş əsasnamənin 1-ci bəndində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmağa borcludurlar. İXM-in 563, 565, 566, 568-ci

maddələrinə müvafiq olaraq yaşayış yeri və olduğu yer üzrə əlaqədar inzibati xətalara görə məsuliyyət nəzərdə tutulmuşdur.

**Sosial və əmlak vəziyyəti, qulluq mövqeyi.** Bu anlayışın da şərhində Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 25, 29, 35, 38, 42, 54, 55 və s. müvafiq maddələrində göstərilən normaları bir fundamental baza kimi rəhbər tutmaq vacibdir. Bu anlayışları fərdiyyət və cəmiyyət üçün şəxsiyyətin əhəmiyyət kəsb edən, qazandığı və ya irsən əldə etdiyi keyfiyyətlərin səciyyəsi əhatə edir. Əmlak vəziyyəti insanın mülkiyyətə münasibətlərini (bu münasibətlər ilk növbədə Konstitusiyanın 12, 13, 25, 29, 30, 68 və s. maddələri Mülki Məcəllə və s. qanunvericiliklə müəyyən olunur), qulluq mövqeyini, şəxsin dövlət hakimiyyət orqanları və ya qeyri-dövlət qurumlarında hər hansı bir vəzifə tutmasını (bu sahədəki münasibətlərin əsasını ilk növbədə Konstitusiyanın 12, 25, 35-38, 54, 55 və s. maddələri, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanunu və s. qanunvericilik aktları ilə nizamlanır) səciyyələndirir. ***Şəxsin sosial mənsubiyyəti*** dedikdə isə onun hansı sosial qrupa (sinfə və ya sosial təbəqəyə, yaşlı insanlara, gənclərə və uşaqlara və s.) aidiyyətini səciyyələndirir (bu sahədəki münasibətlər də Konstitusiyanın 12, 16, 25, 38 və s. maddələri, Azərbaycan Respublikasının "Dövlət gənclər siyasəti haqqında" 13 noyabr 1991-ci il tarixli, 19 may 1998-ci il tarixli "Uşaq hüquqları haqqında", 8 aprel 1992-ci il tarixli "Kəndli (fermer) təsərrüfatı haqqında", 23 iyun 1992-ci il tarixli "Vətəndaşların pensiya təminatı haqqında", 28 iyun 1994-cü il tarixli "Veteranlar haqqında" Qanunlar və s. qanunvericilik aktları ilə əhatə olunur. Məsələn, "Dövlət qulluğu haqqında" AR Qanununun 2-ci maddəsində (dövlət qulluğu) qeyd edilmişdir ki, "dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir. Bu maddədə həmçinin bu qanun icra hakimiyyəti orqanlarında, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara, prokurorluq, o cümlədən DİN, DTX, XKX və s. orqanlara bir sıra şərtlərlə şamil edildiyi qeyd olunur. Qanunun 9 və 14-cü maddələrində müvafiq olaraq "dövlət qulluğu vəzifəsi" və "dövlət qulluqçusu" anlayışları, digər normalarla dövlət qulluğu sahəsində əsas münasibətlər müəyyən edilir.

**İctimai və dini birliklər, siyasi ictimai birliklər.** İctimai və dini birliklər anlayışlarını bir sıra MDB ölkələrində qanunverici orqan özlərinin, mənəvi və digər qeyri-maddi tələbatlarının qane edilməsi məqsədilə qanunla müəyyən edilmiş qay-

dada öz ümumi maraqları əsasında birləşən vətəndaşların könüllü birliyi kimi ifadə edir. Məhz ona görə də ƏAT-nin siyasi mübarizə məqsədləri üçün istifadə edilməsinə, hər hansı müvafiq birliyin nizamnamədə göstərilən məqsəd və vəzifələrindən irəli gələrək kiməsə təsir etməyə yol verilmir. Sözsüz ki, bu anlayışların açıqlanmasında Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 35, 48, 54, 55, 58 və s. maddələri, 24 fevral 1994-cü il tarixli "Həmkarlar ittifaqları haqqında", 13 iyun 2000-ci il tarixli "Qeyri-hökumət təşkilatları (ictimai birliklər) və fondlar haqqında", 10 oktyabr 1992-ci il tarixli "İctimai birliklər haqqında", 3 iyun 1992-ci il tarixli "Siyasi partiyalar haqqında" və digər qanunların müddəaları rəhbər tutulmalıdır.

"Qeyri-hökumət təşkilatları haqqında" 18 iyun 2000-ci il tarixli AR Qanununun 2-ci maddəsində (qeyri-hökumət təşkilatı) belə təşkilat anlayışı aşağıdakı redaksiyada verilmişdir: "İctimai birlik təsis sənədlərində müəyyən olunmuş bir neçə fiziki və (və ya hüquqi) şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarə edən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.

**Fond** - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri- hökumət təşkilatıdır.

Qanunun 1-ci maddəsində (bu qanunun məqsədi) qeyd olunur ki, bu qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə təşkilatlarına şamil edilmir.

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində siyasi partiya anlayışı aşağıdakı redaksiyada verilmişdir:"Bu qanunda siyasi partiya dedikdə, ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının birlikləri nəzərdə tutulur"; "Siyasi partiyalar Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olan vəzifələrini və məqsədlərini əsas götürərək Azərbaycan Respublikası vətəndaşlarının siyasi iradəsinin formalaşdırılmasında fəal iştirak edirlər".

Qanunun 13-cü maddəsində qeyd edilir ki, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının və vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə qarışmasına yol verilmir.

İstər bu qanunlarda, istərsə də CM-də qeyd edilən birliklərin fəaliyyəti sahəsində qanun pozuntuları ilə bağlı müxtəlif məsuliyyət növləri də nəzərdə tutulmuşdur.

Yuxarıda göstərilən qanunları (onun normalarını), onların əhatə etdiyi ictimai münasibətləri ƏAO əməkdaşlarının mükəmməl bilməsi zəruridir.

**Dinə münasibət** - anlayışının düzgün şərhi və dərk edilməsi üçün Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 18, 25, 48, 54, 55 və s. maddələri, "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Qanun və digər qanunvericilik aktları hüquqi bir baza kimi rəhbər tutulmalıdır. Bu anlayış hər hansı bir insanın qəbul və ya rədd etdiyi dünyagörüşü və dünyanı dərk etməsi, habelə Allahın, fövqəltəbii qüvvənin mövcudluğuna əsaslanan müvafiq davranışın və özünəxas xüsusiyyətləri (ibadətləri) kimi başa düşülür. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində (Din və dövlət) qeyd edilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan xalqının əksər hissəsinin islam dininə etiqad etməsinə baxmayaraq, onun digər dinlərdən üstünlüyü və ümumi məcburiliyi təyin olunmamışdır.

Konstitusiyanın 48-ci maddəsində (Vicdan azadlığı) qeyd edilmişdir ki, hər kəsin vicdan azadlığı var və dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ var. Bu maddədə həmçinin qeyd edilmişdir ki, dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində (Dini etiqad azadlığı) qeyd edilir: "Hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dinə etiqadında, ibadətlərdə, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənməsi yolunda hər hansı maneçiliyə yol verilmir. Dini etiqadların, dini həyat tərzinin və ibadətlərin zor işlədilməklə və ya insanlar arasında nifaq salmaq məqsədilə təbliği, dini etiqada məcbur etmək qadağandır". Dini etiqad azadlığının həyata keçirilməsində yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə və Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olan hüquq və azadlıqların mühafizəsi üçün zəruri hallarda məhdudiyyətlər qoyula bilər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır və s.

**triali məsləklər.** Bu anlayışın məzmununun da düzgün açıqlanması və dərk edilməsində Azərbaycan Respublikasının Konstitusiyası, "Siyasi partiyalar haqqın-

da" Qanun və digər qanunvericilik aktları rəhbər tutulmalıdır. Bu anlayışlarla bağlı bu və ya digər dərəcədə əlaqəli normaların sırasında Konstitusiyanın 12, 25, 47, 49, 50, 54-58-ci və s. maddələri misal göstərmək olar. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində qeyd edilir ki, partiyanın hər bir üzvü və ya üzvləri qrupu öz iradəsini sərbəst ifadə etmək hüququna malikdir və siyasi partiya üzvlərinin hüquqları onun nizamnaməsi ilə müəyyən olunur və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına zidd ola bilməz. Bu qanunun 12-ci və s. maddələrinin məzmununun təhlili göstərir ki, öz siyasi baxışlarını rəhbər tutaraq heç bir siyasi partiya və onun üzvləri dövlət orqanları və vəzifəli şəxslərin işinə qarışa bilməz.

***Siyasi məsləklər (baxışlar) anlayışı dedikdə müəyyən insana ayrıca siyasi məsələlər və ümumilikdə siyasət haqqında möhkəm və sabit formalaşan müəyyən fikrin (ideyanın), yəni mahiyyəti dövlətin fəaliyyətinin məzmunu, vəzifə formalarını müəyyənləşdirən sosial qruplar arasında münasibətlərlə əlaqəli olan fəaliyyət sahəsi başa düşülür.***

**Əməliyyat-axtarış Qanununun şəxslər dairəsinə görə qüvvəsində olan istisna hallar.**

Əvvəlki anlayışların məzmununun açıqlanmasında Azərbaycan Respublikası Konstitusiyasının hüquq normalarının bazis xarakter daşıması fikirlərini bu sonuncu hala da şamil edilir. Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələri və xüsusən də 12, 13, 24-71, 72-80, 90,91, 106, 107, 123 və 128-ci maddələri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Qeyd edilən anlayışın açıqlanmasında "Milli Məclisin deputatının statusu haqqında" 17 may 1996-cı il tarixli, "Konstitusiya Məhkəməsi haqqında" 23 dekabr 2003-cü il tarixli, "Məhkəmələr və hakimlər haqqında", 10 iyun 1997-ci il tarixli, "Prokurorluq haqqında" 7 dekabr 1999-cu il tarixli, "İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında" 5 mart 2002-ci il tarixli və s. qanunların bir sıra normalarını da rəhbər tutmaq vacibdir. Sözsüz ki, ƏAT-nin keçirilməsində Azərbaycan Respublikası CM-in 6-cı maddəsi (Qanun qarşısında bərabərlik prinsipi) rəhbər tutulmaqla belə tədbirlərin keçirilməsi məhdudiyyəti ilə bağlı məsələlərdə CM-in 2 maddəsi də nəzərə alınmalıdır. CM-in 11.5-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş xarici dövlətlərin diplomatik nümayəndələrinin və toxunulmazlıq hüququ olan digər şəxslərin cinayət məsuliyyəti haqqında məsələ beynəlxalq hüquq normalarına uyğun həll edilir. Həm-

çinin CM-in 12-ci maddəsinin normalarının da nəzərə alınması düzgün hesab olunur. Azərbaycanın yuxarıda qeyd edilən qanunlarında bir sıra hallarda şəxsin, vətəndaşın hüquqi statusuna müvafiq olaraq xüsusi qaydada cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı normativ göstərişlər öz əksini tapmışdır. Mahiyyətcə onlar bir sıra kateqoriyadan olan şəxslərə qarşı xüsusi qaydada ƏAT-nin keçirilməsinin əsasını təşkil edir (lakin bu sahədə də bir sıra problemli məsələlər var; məsələn, cinayət məsuliyyətinə cəlb etməklə bağlı xüsusi qaydaların tətbiqi üçün ilk növbədə əsaslı ƏAT keçirilməsi yolu ilə belə kateqoriyadan olan şəxslərin hüquqazidd əməllərində cinayət tərkibinin olması müəyyənləşdirilir ki, sonradan həmin şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi qaydaları təmin edilir).

Azərbaycan Respublikası Konstitusiyasının 90, 91, 106, 107, 123, 128-ci maddələrində, həmçinin "Milli Məclisin deputatlarının Statusu", "Məhkəmələr və hakimlər", "Ombudsman" haqqında və s. qanunlara müvafiq olaraq, MM-in deputatlarının, Azərbaycan Respublikası Prezidenti, Baş naziri, hakimlərin, ombudsmanın, digər şəxslərin toxunulmazlığı və xüsusi qaydada cinayət məsuliyyətinə cəlb edilməsi qaydalarına dair normativ göstərişlər öz əksini tapmışdır. Bundan əlavə, Azərbaycan Respublikasında "Konstitusiya Məhkəməsi haqqında" (maddə 16), "MM-in deputatının statusu haqqında" (maddə 12), "Prokurorluq haqqında" (maddə 33), "Məhkəmələr və hakimlər haqqında" (maddə 101) qanunlarda da müvafiq şəxslərin toxunulmazlığı və cinayət məsuliyyətinə cəlb edilməsi müstəsna hallar kimi öz əksini tapmışdır. Məsələn, Konstitusiyanın 90-cı maddəsində deputatların toxunulmazlığını əhatə edən normalar (Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının toxunulmazlığı) qeyd edilmişdir ki, Milli Məclisin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq oluna bilməz, cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, deputatı tutan orqan bu barədə dərhal Azərbaycan Respublikası Baş prokuroruna xəbər verməlidir. Bu maddədə həmçinin göstərilir ki, MM deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən MM-in qərarı ilə xitam verilə bilər.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunun 12-ci maddəsində (Deputatın toxunulmazlığı) aşağıdakılar öz əksini tapmışdır: "Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinə görə, deputatın şəxsiyyəti toxunulmazdır. Deputatın toxunulmazlığı onun evinin, mənzilinin, əşyalarının,

şəxsi və xidməti nəqliyyat vasitələrinin, istifadə etdiyi rabitə vasitələrinin, ona məxsus sənədlərin, yazışmaların toxunulmazlığını da əhatə edir. Deputatın toxunulmazlığına Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsində nəzərdə tutulmuş hallarda və Azərbaycan Respublikasının MM-in Daxili Nizamnaməsində müəyyən edilmiş qaydada xitam verilir.

Bundan əlavə, bu qanunun 11-ci maddəsi (Deputatın məlumat almaq və yaymaq hüququ), 13-cü (Deputatın şahid qismində ifadə verməkdən imtina vermək hüququ) və s., həmçinin CPM-in müvafiq normativ göstərişləri də nəzərə alınmalıdır.

“Azərbaycan Respublikası MM-in Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında” 17 may 1996-cı il tarixli Qanununun 22-ci maddəsində MM deputatının toxunulmazlığına xitam verilməsi qaydası müəyyən edilir, bu maddədə və bir sıra normativ göstərişlərdə qeyd edilmişdir ki, MM-in iclasında deputatlığa xitam verilməsi ilə bağlı məsələ müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz və MM tələb olunan səs çoxluğu ilə deputat toxunulmazlığına xitam verə bilər. Sözsüz ki, qeyd edilən normativ-hüquqi aktların da təkmilləşdirilməsinə ehtiyac duyulur.

Yuxarıda qeyd edilən qanunların, hüquq normalarının təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, “ƏAF haqqında” Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin I hissəsinin 3, 4, 7, 8, 9-cu bəndlərində göstərilən tədbirlərin MM deputatının qanunverici hakimiyyət orqanının nümayəndəsi kimi istifadə etdiyi maddi obyektlərə tətbiq edilməsi kifayət dərəcədə məhdudlaşdırılır. Onların keçirilməsinə yalnız cinayət işi çərçivəsində yol verilir (ibtidai istintaqı məcburi olan hallarda) və deputatın ictimai təhlükəli əməlinə görə bu cinayət işinin başlanması nəzərdə tutulur. Lakin ƏAT-nin qanunda göstərilən digər obyektlərə və deputata qarşı ümumi əsaslarla keçirilməsinə yol verilir. Nəzərə almaq lazımdır ki, qeyd edilən normativ-hüquqi aktlarda bu münasibətləri tənzimləyən konkret normalar kifayət və zəruri həcmdə deyil.

Burada hüquq tətbiqçisi həmçinin 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası “Polis haqqında” Qanununun 24, 25-ci maddələri (mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri müəyyən edilir), ilə “ƏAF haqqında” Qanunun müvafiq maddələri arasında fərqləndirici amilləri də nəzərə almalıdır.

Fikrimizcə, qeyd edilən məsələlərdə bir sıra qaranlıq, mübahisəli məqamlar mövcuddur və onlara aydınlığın gətirilməsində Konstitusiya Məhkəməsinin mühüm rolunu qeyd etməliyik. Bu gün də qeyd edilən məsələlərə tam aydınlıq gətirilməyibdir.

Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinə (Hakimlərin toxunulmazlığı) əsasən hakimlər toxunulmazdır. Bu norma eyni dərəcədə bütün hakimlərə (hansı məhkəmədə, hansı vəzifədə işləməsindən asılı olmayaraq, o cümlədən Konstitusiya, ali, apellyasiya və kassasiya instansiyası məhkəmələrində, ümumi məhkəmələr və digər ixtisaslaşdırılmış məhkəmələrə də) aid edilir.

Bundan əlavə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 101-ci maddəsində (Hakimlərin toxunulmazlığı) qeyd edilən bir sıra aşağıdakı normalara nəzər salaq. Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin I hissəsinə uyğun olaraq hakimlər toxunulmazdır. Hakimlər cinayət məsuliyyətinə cəlb oluna, tutula və ya həbs edilə bilməzlər, onların barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, onlar axtarışa, şəxsi müayinəyə və məcburi gətirilməyə məruz qala bilməzlər. Cinayət və hüquq pozuntusu törətməkdə şübhəli şəxs qismində saxlanmış hakim şəxsiyyəti müəyyənləşdirildikdən sonra dərhal azad edilməli, bu barədə Azərbaycan Respublikası Baş prokuroruna yazılı təqdimat verilməlidir. Hakimlər vəzifədən kənarlaşdırıldıqdan sonra, Ali Məhkəmənin İntizam Kollegiyasının razılığı olduqda Azərbaycan Respublikası Baş prokurorunun qərarına əsasən cinayət məsuliyyətinə cəlb oluna və həbs edilə bilərlər. Hakimlərin toxunulmazlığı, həmçinin onların mənzillərinə, xidməti otaqlarına, nəqliyyat və rabitə vasitələrinə, poçt və teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil olunur.

Bütün bunları nəzərə alaraq belə bir müddəanı təsdiqləmək olar ki, hakimlərin mənzillərinə, yaşayış yerlərinə (xidməti otaqlarına), onların şəxsi və ya istifadə etdikləri xidməti nəqliyyat vasitələrinə daxil olub baxış keçirməyə, onların poçt, telefon, teleqraf yazışmalarını yoxlamağa, telefon danışıqlarına qulaq asmağa, əmlak və sənədlərinə baxış keçirməyə konkret hakimin cinayət əməli ilə əlaqədar başlanmış cinayət işi icraatı çərçivəsində (ibtidai istintaqı məcburi olan işlər üzrə) yol verilir. Bununla yanaşı, hər hansı bir hakimə qarşı digər ƏAT ümumi əsaslara müvafiq olaraq həyata keçirilə bilər. Bu istiqamətdə qanunvericiliyin təhlili göstərir ki, hüquq və

azadlıqların məhdudlaşdırılması ilə bağlı ƏAT-in hakimlərə tətbiqi müyasibətlərin əhatə edən hüquq normalarının konkretləşdirilib dəqiqləşdirilməsinə ehtiyac vardır.

“Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsində (Prokurorluq işçisinin məsuliyyəti) qeyd edilir ki, prokurorluq işçisi cinayət törətdikdə ümumi əsaslarla məsuliyyət daşıyır. Azərbaycan Respublikasının prokurorluq işçilərinin inzibati qaydada həbs olunması, gətirilməsi, saxlanılması, cinayət məsuliyyətinə cəlb edilməsi, həbsə alınması, mənzilində, nəqliyyat vasitəsində, iş yerində axtarış və şəxsi axtarış, telefon və digər vasitələrlə danışığına qulaq asmaq, cinayət başında yaxalanma halları istisna edilməklə, Azərbaycan Respublikası Baş Prokurorunun müraciəti əsasında Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin razılığı olmadan həyata keçirilə bilməz. Azərbaycan Respublikası Baş Prokurorunun toxunulmazlığına dair həmin hərəkətlər Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun razılığı olmadan həyata keçirilə bilməz. Bu qanunun və CPM-in (maddə 84) normativ göstərişlərinə görə, prokuror və ya prokurorluq orqanlarının müstəntiqləri tərəfindən hüquqpozmaların törədilməsinə dair istənilən fakt haqqında məlumatın yoxlanması prokurorluğun müstəsna səlahiyyətinə daxildir. Burada onu da nəzərə almaq lazımdır ki, prokurorluq anonim xarakterli məlumatları yoxlamır, onu məxfi mənbələrdən alınan məlumat kimi ƏAO yoxlaya bilər. Bütün bu hallarda ƏAT-nin ümumi əsaslarla həyata keçirilməsi məsələlərində də müəyyən problemli məsələlər ortaya çıxa bilər və onların qanunvericilik qaydasında həll olunması zəruri hesab edilir.

Azərbaycan Respublikasının “İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” 28 dekabr 2001-ci il tarixli Qanunun 6-cı maddəsində (müvəkkilin toxunulmazlığı) müvəkkilin toxunulmazlığına dair müdəalar təsbit edilmişdir: “Müvəkkil səlahiyyət müddəti ərzində toxunulmazdır. Müvəkkil səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Müvəkkil cinayət başında yaxalanarsa, onu tutan orqan bu barədə 24 saat müddətində Azərbaycan Respublikası Baş prokuroruna və Azərbaycan Respublikasının Milli Məclisinə xəbər verməlidir. Müvəkkilin toxunulmazlığı, həmçinin onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil edilir”.

ƏAT-nin müvəkkilə qarşı tətbiqində də müəyyən istisna hallar var ki, o da yuxarıda qeyd edilən hakimlərə şamil olunan istisna hallarla eynidir.

Yuxarıda qeyd edilən şəxslərə tətbiq edilən qanunvericilik məhdudiyyətləri cinayətlərdə onlarla iştirak edən şəxslərə şamil edilmir, bu isə cinayət qanunvericiliyinin məqsəd və vəzifələri, cəzanın labüdlüyü, təqsirsizlik prezumpsiyası, korrupsiyaya qarşı sivil mübarizə siyasətində müəyyən ziddiyyətli, problemli məsələlərin mövcudluğunu müəyyən mənada şərtləndirir.

## § 5. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun təfsiri və növləri

Hüquq nəzəriyyəsində və qanunvericilik yaradıcılığı sahəsində fəaliyyət prosesində qanunların təfsiri (izahı, şərhi) mühüm əhəmiyyət kəsb edir. Qanunların təfsiri dedikdə, hüquq normalarının təfsirini (izahı və şərhini) başa düşmək lazımdır.

**Hüquq normalarının təfsiri** - səlahiyyətli dövlət orqanlarının, ictimai təşkilatların və ayrı-ayrı vətəndaşların normanın həqiqi mənasının dərk edilməsinə yönəlmiş fəaliyyətidir. Təfsir vətəndaşların və təşkilatların öz hüquq və vəzifələrinin həyata keçirmələri zamanı icra, məhkəmə və prokurorluq orqanlarının fəaliyyətində hüquq normasının tam və hərtərəfi dərk edilməsi və realizəsininin (leqallaçdırılmasının) təmin etməsi mənasını daşıyır. Bununla da təfsir işi hüquq normalarının qüvvədə olduğu bütün ərazidə eyni cür başa düşülməsinə kömək edir, ictimai həyatın bütün sahələrində qanunçuluğu və sabit hüquq qaydasını təmin edir. ƏAF-nin müəyyən həcmdə konfidensiallıq şəraitində təşkili və həyata keçirilməsini nəzərə alaraq hüquqi, sivil dövlətin əsas prinsiplərinin, insan hüquq və azadlıqlarının təmin edilməsində “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun, onun normalarının təfsirinin müasir dövrdə xüsusilə böyük əhəmiyyət kəsb etdiyini qəti təsdiqləmək olar.

**Hüquq normalarının təfsirinin 2 istiqaməti var:** aydınlaşdırma (“özü üçün”) və izahetmə (“başqaları üçün”). Hüquq normalarının mənasının aydınlaşdırılması və tələblərinin düzgün dərk edilməsi onun tətbiqinin zəruri şərtidir. Belə bir amili də nəzərə almaq lazımdır ki, o hüquq norması izah edilir ki, onların hərfi izahı qeyri-dəqiq olur, təcrübədə düzgün tətbiq edilmir və ya tətbiqində müəyyən çətinliklər və problemlər olur. Təfsir elə bir intellektual fəaliyyətdir ki, həmin fəaliyyət prosesində hüququn başlica xüsusiyyətləri elmi mövqedən dərk olunur, hüquq normalarında ifadəsi

şərh edilir. Sözsüz ki, "ƏAF haqqında" Qanunun kommentariyasının (izahı), onun normalarının təfsiri işinin keyfiyyəti, hüquq normalarının həqiqi mənasının dərk edilməsi, onların düzgün tətbiqi ƏAO əməkdaşlarının peşə hazırlığının səviyyəsindən də çox asılıdır.

**Hüquq nəzəriyyəsində hüquq normalarının təfsirinin əsas üsulları sırasında qrammatik təfsir, sistematik təfsir, tarixi-siyasi təfsir üsulları fərqləndirilir.**

Hüquq normasının təfsiri (izahı) normanın tam və dəqiq tətbiqini (realizəsini) təmin edir və təcrübədə onların tətbiqi zamanı səhvə yol verilməsini aradan qaldırır.

Hüquq normasının izahı - normanın həqiqi məzmununun açıqlanmasına yönəldilmiş göstəriş və yaxud tövsiyələrdir.

**Subyektlərinə görə təfsir (izah); rəsmi və qeyri-rəsmi təfsirə bölünür.**

Rəsmi təfsir (autentik) dedikdə, səlahiyyətli orqanın verdiyi təfsir başa düşülür (MM, KM və s.).

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinin göstərişinə əsasən, Konstitusiya Məhkəməsinin respublikanın əsas Qanununu - Konstitusiyasını və digər qanunlarını şərh (izah) etmək səlahiyyəti var. Konstitusiya Məhkəməsinin respublikanın ali qanunverici orqanı olan MM-in qəbul etdiyi qanunlara, eləcə də cinayət qanunvericiliyinə dair verdiyi izah leqal izah sayılır və izahdan irəli gələn nəticələri nəzərə almaq bütün səlahiyyətli orqanlar üçün məcburidir. Bu maddənin V hissəsində qeyd edilir ki, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət verə bilər.

**Rəsmi təfsir** - öz həcminə görə normativ və kazual təfsirə bölünür. Normativ və kazual təfsir isə öz məzmununa görə məhkəmə və inzibati təfsirlərə bölünür.

Bundan əlavə, təfsirin nəticələri normanın mətni ifadəsi ilə ("qanunun hərfi mənası") onun məzmunu ("qanunun ruhu") arasındakı nisbətdən asılı olaraq növlərə bölünür. Bu əlamətlərə görə hüquq norması təfsirlərə bölünür. Bəzi hallarda normanın məzmunu ilə onun hərfi ifadəsi arasında uyğunsuzluq meydana çıxır. Belə halda "qanunun hərfi mənası" ilə "qanunun ruhu mənası" üst-üstə düşmür. Əgər aydınlaşdırma zamanı müəyyən edilsə ki, hüquq normasının həqiqi məzmunu onun mətni

ifadəsindən dardır, bu zaman təfsir məhdudlaşdırıcı olmalıdır. Burada "qanunun ruhu mənası" qanunun "hərfi mənasın"dan dardır. Məhdudlaşdırıcı təfsirdə normanın mətni ilə onun məzmunu tam uyğunlaşdırılmalıdır. Əgər normanın təfsirinin nəticəsi göstərsə ki, normanın həqiqi məzmunu onun mətni ifadəsindən bir qədər genişdir, onda normanın genişləndirici təfsiri verilməlidir.

Hüquq normasının təfsirini öz səlahiyyətləri daxilində yerli özünüidarəetmə orqanları da verə bilər. Bu zaman o, həqiqi əraziyə aid edilir. Ola bilər ki, rəsmi təfsir müvafiq səlahiyyətli orqan tərəfindən akt formasında verilsin.

**Hüquq normalarının rəsmi təfsir aktları (interpretasiya aktları)** bir tərəfdən özündə hüquq normasının məzmununu, digər tərəfdən isə onların tələblərinin konkretliyini və dəqiqliyini ifadə edir. İnterpretasiya aktlarının xüsusiyyəti ondan ibarətdir ki, onlar təfsir olunan hüquq normalarını özündə əks etdirən normativ hüquqi aktlarla birgə fəaliyyət göstərir. İnterpretasiya aktları onların məzmunundan və əhatə dairəsindən asılı olaraq təsnifəşdirilir.

**Qeyri-rəsmi təfsir** - hüquq normaları mənasının məcburi xarakter daşımayan təfsiridir.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun preampulalarında göstərilmişdir ki, bu qanun normativ-hüquqi aktların hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edir. Qanunun 90-cı maddəsində normativ hüquqi aktların şərhi ilə bağlı münasibətlər əhatə edilir, tənzimlənir və tətbiq edilir.

Qeyd edilən maddədə təsbit edilir ki, NHA-in məzmununda qeyri-müəyyənliklər və fərqlər, habelə tətbiqi təcrübələrində ziddiyyətlər aşkar edildikdə həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi müvafiq normaları rəsmi şərh edir. Normativ-hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və digər əlaqələrini müəyyən edir. Genişləndirici və yaxud məhdudlaşdırıcı təfsirə yalnız normativ hüquqi aktın mətni və mənası əsasında açıq-aşkar fərq olanda yol verilir.

Yuxarıda qeyd olunan elmi-nəzəri, hüquqi fundamental bilik və müddəaları rəh-bər tutaraq "ƏAF haqqında" Qanunun təfsiri (şərhi) anlayışının məzmununu açıqla-

yaq. Bu qanunun düzgün tətbiq edilməsi dedikdə, hüquq tətbiqçisi tərəfindən onun normalarının dəqiq, birmənalı dərk edilməsi başa düşülür. Yuxarıda qeyd edildiyi kimi, qanunları, o cümlədən "ƏAF haqqında" Qanunu dərk etmək, düzgün tətbiq etmək onun təfsiri (şərhi) verilmədən mümkün deyil. Bu ilk növbədə ƏAF-nin kompleksli hüquqi fəaliyyət növünə aid edilməsi, onun təşkili və taktikası ilə bağlı müyasibətlərin, böyük həcmdə dövlət sirlərinə aid edilməsi və əsas etibarı ilə gizli qüvvə, vasitə, metod və formalardan istifadə edilməsi yolu ilə həyata keçirilməsi ilə şərtləndirilir. "ƏAF haqqında" Qanunda çoxlu sayda blanket, göndərici normaların olması, belə şərhin verilməsini bir zərurət kimi əsaslandırır və qanun tətbiqi təcrübəsinin nəticələri qəti olaraq belə fikir söyləməyə əsas verir ki, qanunun özündə bir sıra boşluq və ziddiyyətlər mövcuddur. "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun normalarının təfsiri (kommentariyası) hüquq normalarında olan göstərişlərin ƏAF-də və ya onunla əlaqədar yaranmış vəziyyətlərdə (şəraitlərdə) düzgün tətbiqi məqsədini güdür. Təfsirin (kommentariyanın, şərhin) məqsədi sadəcə olaraq normanın mənasını izah etmək olmayıb, onun mənasını konkret söylənən fikirlərlə ifadə etməkdən, hüquq normasının məzmununu daha konkret müddəalarla açıqlamaqdan ibarətdir. Lakin belə müddəalar o dərəcədə konkret vəziyyətlərə (şəraitlərə) yaxın olmalıdır ki, onlar bu situasiyaların şərh edilən hüquq normasına aid olmasında heç bir şübhə doğurmamalı və onun tətbiqini asanlaşdırmalıdır. Məhz ona görə də professor A.Y.Şumilov **"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun təfsiri anlayışını aşağıdakı redaksiyada verir: "Bu qanunun şərhi dedikdə dövlət orqanları, həmçinin bilavasitə hüquq tətbiqçisinin (əməliyyat işçisinin - müstəntiqin, təhqiqatçının, hakimin və s.) "ƏAF haqqında" Qanunun konkret normasında (göstərişində) ifadə olunan qanunvericilik iradəsinin bildirilməsinin məna və məzmununun izahı və aydınlaşdırılmasına, onun istiqamətləndirilməsinə, normanın məzmununun və ƏAF sahəsində digər hüquqi normalarla nisbətinin dəqiq müəyyən olunmasına yönəldilmiş fəaliyyəti kimi başa düşülməlidir.**

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun digər bir sıra hüquq sahələrinə və müxtəlif növ hüquqi fəaliyyət sahələrinə aid olan sözlərdən (terminlərdən), anlayışlardan istifadə edilməsi mütləq onların mənası və məzmununa uyğun olmalıdır. Məsələn, təhqiqat orqanı, təhqiqatçı kimi anlayışların düzgün dərk edilməsi üçün ("ƏAF haqqında" Qanunun 5-ci maddəsində təhqiqat orqanları anlayışı işlənir) CPM-in 214-cü maddəsi və CPM-in tətbiq edilməsinə dair əvvəldə qeyd etdiyimiz

prezident fərmanını rəhbər tutmalı və CPM-in 86-cı maddəsində qeyd edilən təhqiqatçı anlayışından fərqləndirici elementləri bilmək vacibdir.

**"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun şərhinin (təfsirinin) növləri.**

***Onlar müxtəlif əsaslara görə təsnif olunur. Təfsirin (şərhin) növləri arasında aşağıdakıları qeyd etmək olar: məcburiliyin dərəcəsinə görə (hüquqi qüvvəsinə); təfsirin (izahın) həcminə görə; təfsirin üsullarından (fəndləri) asılı olaraq;***

**"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun normalarının məcburiliyi dərəcəsinə (hüquqi qüvvəsinə) görə təfsirinin növləri**.

Yuxarıda qeyd etdiyimiz fundamental elmi-nəzəri, hüquqi əsasları rəhbər tutmaqla adətən rəsmi (onun müxtəlif növləri kimi autentik, normativ və kazual təfsir) və qeyri-rəsmi (doktrinal, elmi, cari) təfsirləri fərqləndirirlər. Bir sıra hüquqşünaslar, əvvəldə qeyd etdiyimiz kimi, məhkəmə təfsirini (izahını) ayırırlar. Lakin "ƏAF haqqında" Qanunun normalarının təsviri üçün bu qeyd edilən müxtəlif təfsirlərdən müasir dövrdə yalnız bəziləri reallıqda mümkündür. Məsələn, "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin VII hissəsində qeyd edilmişdir ki, cinayətkar qruplara və kriminogen obyektlərə daxil edilməsi və ya hüquqi şəxsin yaradılması kimi ƏAT-nin həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

**Azərbaycan Respublikası CM-in 34-cü maddəsində cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi anlayışlarının cinayət-hüquqi məzmunu ümumi səciyyə daşıyan müddəalarla açıqlanıbdır. Lakin "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin VII hissəsinin düzgün tətbiq edilməsi üçün ƏAO əməkdaşları üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 24 aprel 1999-ci il tarixdə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə" anlayışının şərh edilməsi haqqında" Konstitutsiya Məhkəməsinin Qərarını bilmək vacibdir və onun 1-ci bəndində qeyd edilir:**

***"İzah edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə" dedikdə, bir və ya bir neçə cinayətin törədilməsi üçün əvvəl-***

***cədən birləşmiş iki və yaxud daha çox şəxslərdən ibarət olan möhkəm cinayətkar qrup başa düşülməlidir; mütəşəkkil dəstənin möhkəmliyi onun tərkibinin və təşkilati qurumlarının sabitliyi, üzvlərinin birliyi (sıxlığı) cinayətkar fəaliyyətin forma və üsullarının daimiliyi xarakterizə edir". Qərarın 2-ci bəndində qeyd edilir ki, "mütəşəkkil dəstənin başqa cinayətkar qruplardan fərqləndirilməsi üçün istifadə edilə biləcək digər xüsusiyyətlərlə yanaşı, ilk növbədə, dəstədə təşkilatçı və başçının irəli sürülməsi və ciddi intizamın gözlənilməsi, cinayət niyyətlərinin ümumiliyi, cinayətin törədilmə planının işlənib hazırlanması və bunun üçün mükəmməl hazırlıq görülməsi, cinayət törədilməsində rolların bölüşdürülməsi, cinayətin törədilmə üsulunun qabaqcadan müəyyənləşdirilməsi, cinayətin törədilməsi üçün mürəkkəb üsullardan istifadə olunmasının mümkünlüyü, hazırlanmış plana uyğun olaraq cinayətin törədilməsi üçün hərəkətlərin razılaşdırılması, cinayət yolu ilə əldə edilmiş mənfəətlərin qrupun strukturlarındakı mövqelərə uyğun bölüşdürülməsi kimi nəzərə alınmalıdır. Qərarın 5-ci bəndində isə göstərilir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı qətidir, heç bir orqan və şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və yaxud rəsmi təfsiri oluna bilməz.***

"ƏAF haqqında" Qanunda Konstitusiyada təsbit olunmuş insanların yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürdükləri məlumatların toxunulmazlığı hüquqlarını məhdudlaşdıran (maddə 32) əməliyyat-axtarış tədbirlərinin keçirilməsi məhkəmənin qərarı ilə nəzərdə tutulmuşdur ("ƏAF haqqında" Qanunun 10-cu maddəsinin III hissəsi). Hakim icazə vermədikdə, ƏAO-nun hakimin belə qərarından şikayət vermək hüququ var, o cümlədən nəzərə almaq lazımdır ki, CPM-in 454-cü maddəsində belə hüququn qeyd edilməsinə baxmayaraq, onun məzmunu tam açıqlanmamışdır, bu isə öz növbəsində müəyyən çətinliklər, anlaşılmazlıqlar yaradır ki, onların da aradan qaldırılması zəruridir. Məsələn, RF Ali Məhkəməsi Plenumunun 24 dekabr 1993-cü il tarixli 13 saylı "RF Konstitusiyasının 23 və 25-ci maddələrinin (yuxarıda qeyd edilən insan hüquqlarının toxunulmazlığı ilə bağlı maddələr) tətbiqi ilə bağlı bəzi məsələlər haqqında qərarına əsasən, əgər hakim yuxarıda qeyd etdiyimiz hüquqların məhdudlaşdırılması ilə bağlı ƏAT keçirilməsinə icazə vermirsə, səlahiyyətli müvafiq ƏAO və onların vəzifəli şəxsləri bu məsələlərə görə yuxarı instansiya məhkəməsinə şikayət verə bilər. Bu misallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun məhkəmə təfsirinin verilməsini əyani sübut edir. Azərbaycan Respublikasının Ali Məhkəməsi də Azərbaycan Respublikası Konstitu-

siyasının 131-ci maddəsi və "Məhkəmələr və hakimlər haqqında" Qanunun 79-cu maddəsinə müvafiq olaraq müxtəlif kateqoriyadan olan cinayət işlərinin öyrənilməsi və təhlili əsasında, yol verilən tipik səhvləri müəyyən edərək, məhkəmələr üçün vacib sayılan şərhlər (izahlar) vermək hüququna malikdir. Bununla belə, Ali Məhkəmə (o cümlədən RF-nın) hüquqyaradıcı orqan sayılmır, hüquq normaları yaratmır.

***RF Konstitusiya Məhkəməsinin 14 iyul 1998-ci il tarixli vətəndaş İ.Q.Çernovanın "ƏAF haqqında" Federal Qanunun ayrıca müddəalarının Konstitusiyaya uyğun olmasına dair ərizəsi əsasındakı iş üzrə çıxardığı qərarda xüsusilə qeyd edilir ki, cinayətkar əməl insanın şəxsi həyat sahəsinə aid deyildir. Bu sahə üzrə məlumatları onun razılığı olmadan toplamaq, saxlamaq, yaymaq olmaz, məhz ona görə də ehtimal olunan cinayətin qarşısını almaq üçün məlumatların toplanmasına yönəlmiş ƏAT-nin keçirilməsi Konstitusiyanın I hissəsinin 24-cü (Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsi) maddəsində göstərilən Konstitusiyada təsbit olunmuş hüquqların pozulması kimi sayıla bilməz.***

**Elmi (doktrinal) təfsir** - dedikdə, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun məzmununun alimlər və mütəxəssislər tərəfindən qanunvericilik aktlarında təfsirində (kommentariyasında), dərsliklər və tədris-təcrübi vəsaitlərdə, monoqrafiyalarda və elmi məqalələrdə, mühazirələrdə və s. verdikləri şərhlər (izahlar) başa düşülür. Belə təfsir peşəkar əməliyyat işçilərinin hazırlanması işi üçün mühüm əhəmiyyətə malik olmaqla yanaşı, ayrı-ayrı hüquq tətbiqçilərinin, həmçinin ümumilikdə bütün cəmiyyətin hüquqi mədəniyyətinin artırılmasında çox mühüm rol oynayır. Bütün bunlara baxmayaraq, elmi təfsir (şərh) məcburi xarakter daşımır, yalnız ayrıca alimlərin konkret fikir və baxışlarını, onların bu və ya digər normativ göstərişlərini başa düşməsini əks etdirir. Lakin, fikrimizcə, belə təfsir (şərh) fundamental elmi-nəzəri, hüquqi əsaslara, müasir sivil və qabaqcıl hüquq tətbiqi təcrübəsinin öyrənilməsi və təhlilinə əsaslandığı üçün qanunvericilikdə olan boşluqlar, kazusların aşkar edilməsi və müvafiq olaraq qanunvericilik aktlarının təkmilləşdirilməsi, onun tətbiqinin keyfiyyətli və səmərəli olması üçün çox böyük əhəmiyyətə malikdir. Məsələn, "ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 1-ci bəndində nəzərdə tutulan "vətəndaşların sorğusu" kimi hüquq-mühafizə orqanlarının əməkdaşları, xüsusilə də ƏAO-nun əməkdaşları tərəfindən cinayətkarlığa qarşı mübarizədə daha geniş tətbiq edilən ƏAT-nin anlayışı tam həcmdə əhatə edilməmişdir. ƏAO qeyd edilən normanı oxumaqla onun tətbiq edilməsi ilə bağlı bir çox məsələləri tam dərk edə bilməz.

Məhz ona görə də "ƏAF" fənni ilə bağlı dərsliklərdə, "ƏAF haqqında" Qanunun kommentariyalarında və s. "vətəndaşların sorğusunun" müxtəlif istiqamətlərini əhatə edən böyük həcmdə elmi-nəzəri, hüquqi və s. xarakterli məlumatlar var. Lakin bütün bu biliklərin təhlili göstərir ki, vətəndaşların sorğusunun təşkili və taktikasını əks etdirən elə bir konkret hüquq norması yoxdur ki, o, kifayət dərəcədə bu tədbirin həyata keçirilməsi məsələsini əks etdirsin. Sözsüz ki, bu, həmçinin qeyd edilən normanın blanket xarakteri daşıması ilə şərtləndirilir. Məsələn, vətəndaşların sorğusu prosesində fiziki və psixoloji zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə edilməsi, hipnoza məruz qoymaq, hədə-qorxu, mənəvi və psixolojı təsir, aldatma üsullarından istifadə edilməsi və s. ilə bağlı məsələlərə aydınlıq gətirmək üçün Azərbaycan dövləti adından imzalanmış insan və vətəndaşların hüquq və azadlıqlarına dair bir sıra konvensiyaları, CM, CPM, "ƏAF haqqında", "Polis haqqında" qanunlar və ƏAF sahəsində digər qanunvericilik aktlarının müvafiq aidiyyəti normalarının təhlilinə və alim-mütəxəssislərin konkret fikir və baxışlarına da istinad edilmişdir. Ümumiyyətlə, ƏAF sahəsində münasibətlərin konkret qanun səviyyəsində nizamlanması, qanunvericilik sistemində, dövlət quruculuğu sahəsində olan islahatlar, ƏAF qanunvericiliyinin tətbiqi təcrübəsi ƏAF qanununun konkret normalarının və onların təfsirinin təkmilləşdirilməsini tələb edir. Bu qeyd edilənlərin əsaslı olmasına baxmayaraq, hüquq nəzəriyyəsinin norma, qanun yaradıcılığının, Azərbaycan Respublikası Konstitusiyasının və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun əsas prinsip və tələblərini rəhbər tutaraq belə fikri bir daha qəti olaraq təsdiq etmək olar ki, doktrinal (elmi) təfsir məcburi xarakter daşımır.

**Təfsirin həcminə görə şərhinin növləri**.-Onlar arasında hüquq nəzəriyyəsinə və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa müvafiq olaraq hərfi, məhdudlaşdırıcı və genişləndirici təfsirləri fərqləndirirlər. Əməliyyat-axtarış qanununun hərfi (və ya adekvat) təfsiri dedikdə, o başa düşülür ki, hüquqi normanın (onun hissəsinin) mənası və sözlərinin məzmunu üst-üstə düşür. Məsələn, "ƏAF haqqında" Qanunun 14-cü maddəsinin III hissəsində göstərilmişdir ki, "qanunla birbaşa buna müvəkkil edilmiş şəxslər istisna olmaqla əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onların vəzifəli şəxslərinin qanuni hərəkətlərinə heç kəs müdaxilə edə bilməz". Bu normanın hərfi (adekvat) məzmununa görə ƏAF subyektinin (ƏAO-nun) və onun vəzifəli şəxslərinin fəaliyyətinə müdaxilə etmək hüququ olan bir qrup şəxs ƏAF və sair müvafiq qanunlarda və digər normativ aktlarda öz əksini tapmışdır. Onu da nəzərə

almaq lazımdır ki, "ƏAF haqqında" Qanunun bəzi normalarının göstərişlərinə görə, belə müdaxiləyə müəyyən hədlər çərçivəsində yol verilir: "ƏAF haqqında" Qanunun 4-cü maddəsinin IV və V hissələrinə əsasən ƏAF subyektlərinin hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş şəxsin orqanın rəhbərinə, prokurora və məhkəməyə şikayət verməsi, bu orqanlar tərəfindən qanunvericilikdə göstərilən qaydada belə şikayətin mahiyyəti üzrə qərar qəbul etmək üçün xidməti yoxlama və məhkəmə baxışının aparılması, 18-ci maddənin II-IV hissələri, 10-cu maddənin III-V hissələri, 19,19-1 və 20-ci maddələri, CPM-in 84-cü maddəsi, 442-ci, 445-ci (məhkəmə qərarı əsasında həyata keçirilən ƏAT), $446^1$-cı (ƏAT-nin həyata keçirilməsi üçün prokurorun vəsatəti ilə məhkəməyə müraciət etmə), $447^1$-ci $448^1$-ci maddələri, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 4, 18-ci maddələri və "Məhkəmələr və hakimlər haqqında" Qanunun 98-ci maddəsinin daha konkret və dəqiq izahlarına ehtiyac duyulur. Bütün bunlara baxmayaraq, yuxarıda qeyd etdiyimiz kimi, ƏAF-yə bəzi qrup şəxslərin müdaxiləsi qanunvericiliklə müəyyən edilən həcmdədir, bir sıra məhdudiyyətləri ƏAO (onun əməliyyat işçiləri) bilməli və onların təmin edilməsinə borcludurlar. Məsələn, "ƏAF haqqında" Qanunun 20-ci maddəsində qeyd edilir ki, "ƏAT-nin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil və yaxud 4-cü maddənin V hissəsində göstərilir ki, vətəndaşın şikayəti ilə bağlı həyata keçirilən məhkəmə baxışı nəticəsində əks etdirilən məhkəmə qərarına əsasən ƏAF-nin subyekti dövlət sirrinin, xidməti sirrin yayılması və ƏAF-nin keçirilməsinə gizli surətdə yardım göstərən şəxslər haqqında məlumatlar istisna olmaqla, əməliyyat-qeydiyyat işinin məzmunu ilə şikayətçini tanış etməyə borcludur.

Keçmiş SSRİ-yə daxil olan bir sıra dövlətlərin, o cümlədən "ƏAF haqqında" RF federal Qanununda ƏAF-yə (ƏAO və onun işçilərinin işinə) müdaxilə etmək səlahiyyəti olan şəxslər sırasında fiziki şəxslər kimi RF-nin prezidenti ("ƏAF haqqında" Federal Qanunun 20-ci maddəsi), Baş prokuroru və onun müavinləri tərəfindən müəyyən olunmuş prokurorlar (21-ci maddə), hakimlər və ƏAF-ni həyata keçirən orqanların rəhbərləri (maddə 22), hüquqi şəxslər qismində isə RF-in Federal İclası (maddə 20) və RF hökuməti göstərilmişdir.

**Məhdudlaşdırıcı təfsir -** ondan ibarətdir ki, "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun normaları araşdırılarkən onun hərfi məzmununa (mətni ifadəsinə), həqiqi məzmunundan ("qanunun ruhu") məhdud (dar) məna verilir.

**Getrialndirici təfsir -** isə ondan ibarətdir ki, "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun normasının hərfi məzmunu onun həqiqi mənasından ("qanunun ruhu") daha geniş məna daşıyır.

Bütün bunları nəzərə alaraq belə demək olar ki, əməliyyat-axtarış təcrübəsində "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanununun normalarının nə məhdudlaşdırıcı, nə də genişləndirici təfsirinə yol vermək olar, belə ki, bu təfsirlər normativ göstərişlərin qiymətləndirilməsində subyektivizmə gətirə bilər və nəticədə ƏAF-də qanunçuluğun pozulmasına səbəb olar.

**"Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun şərhinin üsullarından (fəndlərindən) asılı olan təfsiri.** Qeyd etdiyimiz kimi, hüquq nəzəriyyəsində onları qrammatik, sistematik, tarixi-siyasi (tarixi) və məntiqi təfsirlər kimi fərqləndirirlər.

**Qrammatik (dil üzrə) təfsir** - "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun konkret normasının mənası və məzmununu müəyyən etmək üçün normada əks olunan göstərişləri əhatə edən ifadə və sözlər arasında struktur əlaqələrinin analizini nəzərdə tutur. Qanunun normasının analizini məhz onun dilçilik şərhindən başlamaq daha məqsədəuyğun hesab olunur. Təfsirin bu üsulu ilk növbədə onu nəzərdə tutur ki, normanın redaksiyasında istifadə olunan söz və ifadələrin mənası ilə onların adi və peşəkar qaydada işlədilməsi əhatə edilsin. Məsələn, "operativ" sözü adi danışıqda işlədilən "tez və cəld", "çevik", "təxirə salınmadan", "dərhal və tez", "ləngimədən və vaxtında işləri yoluna qoymaq və ya istiqamətləndirmək bacarığı" sözləri mənasında başa düşülə bilər, lakin ƏAF-də və müvafiq olaraq əməliyyat-axtarış qanunvericiliyində başqa mənada gizli qüvvələrin və vasitələrin köməyi ilə həyata keçirilməsi və s. mənalarda işlədilə və başa düşülə bilər.

**Sistematik (ardıcıl) təfsir -** dedikdə, təfsir (izah) olunan normanın "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun (ƏAF sahəsində digər qanunların) normaları və göstərişlərinin müqayisəli və onun qanunvericilik aktlarının iyerarxiyasında yerinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

"Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun çoxsaylı normalarının blanket (və ya göndərici) xarakter daşımasını nəzərə alaraq bu qanunun təfsirində blanket dispozisiyalı normaların şərhi mühüm yer tutur. Belə normaların təfsiri ilk növbədə "ƏAF haqqında" Qanundan əlavə ƏAF-də normaları tətbiq olunan (realizə edilən) qanunlara və daha sonra normativ göstərişlərindən istifadə edilən çoxsaylı qanunqüvvəli aktlara müraciəti nəzərdə tutur. Belə təfsir də sistematik təfsirə aid edilir.

Məsələn, "ƏAF haqqında" Qanunun 5-ci maddəsinin I hissəsində ƏAF-nin Azərbaycan Respublikasının cinayət-prosesual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu təhqiqat orqanlarını (onların siyahısını) müəyyən etmək üçün CPM-in 86, 214-cü maddələri və Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2002-ci il tarixli "CPM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Qanunun və həmin Qanunla təsdiq edilmiş Cinayət Prosessual Məcəlləsinin tədbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanın 2-ci bəndi və s. qanunvericilik aktlarının normaları əsasında müəyyən etmək olar. "ƏAF haqqında" Qanunun 21-ci maddəsinin I hissəsində ƏAF sahəsində hüquqpozmalara görə cinayət, inzibati və intizam məsuliyyəti nəzərdə tutulur. Bu sahədə cinayət məsuliyyətini müəyyən etmək üçün yol verilən hüquqazidd hərəkətlərin cinayət xarakterli olduğunu müəyyən etmək üçün ilk növbədə "Dövlət sirri haqqında" 7 sentyabr 2004-cü il tarixli Qanun, ondan irəli gələn bir sıra qanunqüvvəli aktların müvafiq norma və göstərişlərinə, daha sonra CM-in 284, 285, 302-ci və s. maddələrinə, CPM-in 199, 200 və s. maddələrinə müraciət etmək və onları rəhbər tutmaq zəruridir. Burada nəzərə almaq lazımdır ki, "ƏAF haqqında" Qanun 28 oktyabr 1999-cu ildə qəbul olunub, 17 noyabr 1999-cu ildə qüvvəyə minmişdir, CM isə 30 dekabr 1999-cu ildə qəbul olunub, 21 aprel 2000-ci ildə dərc olunub, 26 may 2000-ci il tarixli qanuna əsasən isə 1 avqust 2000-ci ildən qüvvəyə minmişdir və ona görə də CM-in 302-ci maddəsinin (Əməliyyat-axtarış qanunvericiliyini pozma - əvvəlki CM-də belə norma olmayıb) tətbiqində 1 avqust 2000-ci il tarixdən tez olmayaraq icazə verilir).

**Təfsirin tarixi üsulundan -** o zaman istifadə edilir ki, "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun normasının məzmununun təfsiri üçün onun əvvəllər qəbul olunmuş anoloji qanunun norması ilə müqayisə edilməsi zəruridir. "ƏAF haqqında" Qanun 28 oktyabr 1999-cu ildə qəbul olunmuşdur və ona anoloji digər qanun olmayıbdır. Zənnimizcə, əvvəllər belə qanunun olmamasına baxmayaraq və ƏAF sahəsində münasibətlərin tənzimlənməsi ilə bağlı normaları qanunqüvvəli aktlarda (məsələn, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 8 iyun 1973-cü il tarixli "Sovet milisinin əsas hüquq və vəzifələri haqqında" fərmanı və SSRİ Nazirlər Sovetinin "Sovet milisi haqqında" Əsasnamənin ümumi səciyyəli normaları və normativ göstərişləri, həmçinin cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulan cinayətlərin qarşısının alınması və açılması ilə bağlı təhqiqat orqanlarının səlahiyyətlərini əks etdi-

rən ümumi xarakterli normaları və əsas etibarı ilə məxfi xarakter daşıyan təşkilati (ƏAF subyektlərinin) normativ aktlarda öz əksini tapmış normativ göstərişlərin də əməliyyat-axtarış qanununun müvafiq oxşar normativ göstərişləri ilə müqayisə edilməsi də təfsir işi sahəsində mühüm yer tutur və belə müqayisəli izahı da müəyyən mənada tarixi təfsirə aid etmək olar.

Sözsüz ki, öz müstəqilliyinin ikinci onilliyini bitirən Azərbaycan Respublikasında qanunvericilik siyasəti sahəsində həyata keçirilən sivil, geniş və dərin dəyişikliklər "ƏAF haqqında" Qanunun, əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericiliyin təkmilləşməsini və gələcəkdə, zərurət olan hallarda tarixi təfsirdən istifadəni təmin edəcəkdir.

Bütün bunlar "ƏAF haqqında" Qanuna əlavə və dəyişikliklər edilməsi zərurətini əsaslandırmağa imkan verir və gələcəkdə belə təfsirdən istifadə edilməsi ehtimalının gerçəkləşməsini söyləməyə zəmin yaradır. Son illər "ƏAF haqqında" Qanunda 19-a yaxın qanunla 40-a yaxın əlavə və dəyişikliklər edilmişdir. Bütün bunlara baxmayaraq qanunda yeni dəyişikliklərin edilməsinə ehtiyac vardır.[1]

1 Ş.İ.Hüseynov "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi məsələləri və problemlərinin həlli yolları, XX və XXI Fəsillər. Dərs vəsaiti, Mütərcim, Bakı, 2016

# III BÖLMƏ
# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN SUBYEKTLƏRİ VƏ VASİTƏLƏRİ

## VIII Fəsil
## Əməliyyat-axtarış fəaliyyətinin subyektləri, qüvvələri və vasitələri

### § 1. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri və onların səlahiyyətləri

İlk öncə səlahiyyət sözünün məzmun tutumuna aydinliq gətirilməsini vacib bilirik. Bu söz latın mənşəli “kompetentio” sözə (tərcüməsi - nail olmaq, müvafiq olmaq, uyğun olmaq) müvafiq olaraq, hüquqi baxımdan məzmun tutumuna görə isə qanunvericiliklə təsbit edimiş müəyyən dövlət və s. orqanların, onlarn vəzifəli şəxslərinin hüquq və vəzifələrini (onların dövlət və s. orqanlar sistemində yerini) nəzərdə tutur.

Hüquqi elmlər sistemi kimi hüquqşünaslıqda (dövlət və hüquq nəzəriyyəsi, mülki, cinayət prosesi, cinayət-axtarış hüququ və s.) hüquqi münasibətlərin və onlara müvafiq olan fəaliyyət növlərinin subyekti kimi fiziki (vətəndaşları) və hüquqi şəxsləri – hüquq və vəzifə daşıyıcılarını və hüquqi münasibətlərin həqiqi və mümkün olan iştirakçılarını təşkil edən kollektiv qurumları adlandırırlar.

Bu konseptual müddəalara əsaslanaraq, əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyəsi əməliyyat-axtarış münasibətlərinin potensial iştirakçısı kimi fərdi surətdə, əməliyyat-axtarış tədbirlərinin yerinə yetirilməsindən asılı olaraq, bu münasibətlərə cəlb oluna bilən hər bir vətəndaşı və hüquqi şəxsləri adlandırır. Belə iştirakçılar adətən əməliyyat-axtarış münasibətlərinin subyektlərinə aid edilirlər. “ƏAF haqqında” Qanuna müvafiq olaraq subyektlərə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanları və onun əməkdaşlarını və s. aid etmək olar (maddələr 5, 6, 7 və s.).

«ƏAF haqqında» Qanunun 5-ci maddəsi, CPM-nin 214-cü maddəsinə (cinayət işi üzrə təhqiqatın aparılması), «Azərbaycan Respublikası CPM-nin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanunun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası CPM-nin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin

25 avqust 2000-ci il tarixli Fərmanının 2-ci bəndinə, Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təşkil edilməsi haqqında» 28 fevral 2006-cı il tarixli Fərmanına və s. qanunvericilik aktlarına əsasən, *ƏAF subyektlərinə DİN, DTX, XKX, ƏN, DGK, VN, XDMX, DSX, FHN və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı aid edilir.*

CPM-nin 86-cı (təhqiqatçı) maddəsində qeyd olunmuşdur ki, «təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil».

«ƏAF haqqında» Qanunun 5-ci maddəsinə müvafiq olaraq ƏAT-ni CPM-lə müəyyən edimiş təhqiqat orqanları, korrupsiya liə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mubarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirir.

Əməliyyat-axtarış tədbirlərinin ƏAF-nin hansı subyekti tərəfindən və hansı həcmdə tətbiqi Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 507 saylı "Əməliyyat- axtarış tədbirlərinin həyata keçirilməsində ƏAF-nin subyektlərin səlahiyyət bölgüsü haqqında Fərmanı ilə müəyyən olunmuşdur.

**Göstərilən fərmana əsasən, əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər, Ədliyyə, Vergilər Nazirlikləri, Dövlət Gömrük Komitəsi və Xüsusi Dövlət Mühafizə Xidməti və "Korrupsiya ilə bağlı cinayətlər üzrə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı" tərəfindən bu orqanların səlahiyyətləri daxilində, onların tələbatları və bu fərmanla müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilir.**

**"ƏAF haqqında" Qanunun** 5-ci maddəsinin 5-ci hissəinə əsasən korrupsiya ilə bağlı cinayətlər üzrə ƏAT-ni yalnız korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı, yaxud həmin orqanın yazılı tapşırğı əsasında təhqiqat orqanları həyata keçirirlər.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2007-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanunun icrasının təmin edilməsi barədə" Fərmanına əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorları ilə bağlı "nəzarətli göndəriş" və "nəzarət qaydasında mal alınması" əməliyyat-axtarış tədbirlərini DİN, MTN (DTX və XKX), DGK və DSX öz səlahiyyətləri daxilində həyata keçirir.

ƏAF-nin subyektlərinin səlahiyyətləri və onlara daxil olan strukturlar (idarə və baş idarələr) ölkə prezidentinin təsdiq etdiyi fərmanlarla bu subyektlərinin əsasnamələrinin müddəalarının məzmunu ilə əhatə edilmişdir.

Qeyd edilən fərmanlarla müəyyən edilən bu subyektlərə daxil olan strukturların (idarə və baş idarələr) səlahiyyətləri isə ƏAF-nin aidiyyati subyektlərinin təsdiq etdiyi Əsasnamələrdə əhatə edilir. ƏAF-nin subyektləri bu strukturlara daxil olan qurumlarda (bölmə, şöbə və idarələrin ) dəyişiklik etmək səlahiyyətlərinə malikdirlər.

“ƏAF haqqında” Qanuna edilən dəyişikliyə əsasən (mad. 14-2) həbs yerlərində və cəzaçəkmə müəssisələrində ƏAF-ni müvafiq olaraq qeyd edilən subyektlərin müdriyyəti həyata keçirir. DİN, DTX və XKX öz səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə ƏAF-ni həbs yerlərinin və ya cəzaçəkmə müəssisələrinin müdriyyəti ilə birgə keçirirlər (səlahiyyətlərin bu qaydada müəyyən edilməsi də mübahisəlidir və müəyyən ciddi problemlərin yaranmasına səbəb olur).[1]

Nəzərə almaq lazımdır ki, ƏAF-nin qeyd edilən subyektləri ƏAF sahəsində ƏAF haqqında qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərlə yanaşı onların fəaliyyəti sahəsinə digər hüquq sahələrinin münasibətləri ilə (inzibati, prosessual, cinayət, mülki, beynəlxalq və s.) tənzimlənən səlahiyyətlərə də malikdirlər.

Məsələn, gömrük orqanlarının əsas vəzifə və hüquqları GM-nin 8 və 9-cu maddələrində, hüquq-mühafizə fəaliyyəti sahəsində hüquqları 17-ci maddəsində, inzibati xətalar üzrə icraatın aparılmasının hüquqi əsasları GM-nin 18-ci maddəsi və İXM-nin 479-509-cu maddələri və onun tətbiqi ilə baglı 29 dekabr 2015-ci il tarixli Prezident Fərmanı ilə, əməliyyat-axtarış fəaliyyəti sahəsində GM-nin 19-cu və 216-cı maddələrində ümumi müddəalarında, ƏAF sahəsində səlahiyyətləri “ƏAF haqqında” Qanunun 5, 6, 7-ci və s. maddələrində, həmçinin digər normativ-hüquqi aktlarda (qanunqüvvəli) əhatə edilmişdir. Belə halda DGK-nin aparatına, strukturuna daxil olan qurumlar qarşısında duran əsas vəzifədən asılı olaraq səlahiyyətlər müəyyən edilir.

Qanunvericiliyin müddəaları və elmi-nəzəri əsasları rəhbər tutaraq ƏAF-nin subyektlərinin ümumi təsnifatını aşağıda göstərilən qaydada vermək olar:

1 Bax – Ş.İ.Hüseynov. “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi, təcrübi məsələləri və problemlərinin həlli yolları”. Dərs vəsaiti. XX və XXI Fəsillər. Bu fəsillərdə ƏAF nəzəriyyəsi və qanunvericiliyinin təkmilləşdirilməsinə dair çoxsaylı təkliflər verilmişdir) Bakı: Mütərcim nəşriyyatı, 2016.

## Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin ümumi təsnifatı

<table>
<tr><td colspan="6">ƏAF-nin vəzifələrinin icra edilməsində iştirak edən subyektlər</td></tr>
<tr><td colspan="2">Ştatda olan HMO-nun əməliyyat aparatlarının (bölmələrinin) əməkdaşları (vəzifəli şəxsləri)</td><td colspan="4">ƏAF həyata keçirən orqanlara köməklik göstərən şəxslər</td></tr>
<tr><td>Əməliyyat-axtarış funksiyalarının həyata keçirilməsində özlərinin HMO-ya aidiyyatını (onlara xidmət etməsini) əsas etibarilə açıq (qeyri-konspirativ) saxlayan vəzifəli şəxslər</td><td>Öz vəzifələrinin icra edilməsinin xüsusiyyətlərinə və qanunvericiliyin tələblə-rinə müvafiq olaraq özlərinin HMO-ya aidiyyatını (onlara xidmət etməsini) konspirativ (gizli) saxlayan vəzifəli şəxslər</td><td colspan="2">HMO-nun əməliyyat aparatlarına açıq (qeyri-konspirativ) qaydada köməklik göstərən ştatda olmayan şəxslər (könüllü əməkdaşlıq edən şəxslər)</td><td colspan="2">HMO-nun əməliyyat aparatlarına yalnız konfi-densial (qeyri-aşkar) əsaslarla könüllü köməklik göstərən şəxslər- 1</td></tr>
<tr><td colspan="2" rowspan="2">Əməliyyat-axtarış funksiyalarını tam həcmdə həyata keçirməyən əməkdaşlar</td><td>Müqavilə (kontrakt) əsasında</td><td>Müqaviləsiz (kontraktsız)</td><td>Müqavilə (kontrakt) əsasında</td><td>Müqaviləsiz (kontraktsız)</td></tr>
<tr><td></td><td colspan="2">Əvəzli (daimi ödənişli)</td><td></td></tr>
<tr><td colspan="2">Əməliyyat-axtarış funksiyalarını tam həcmdə həyata keçirən əməkdaşlar</td><td colspan="4">Əvəzsiz (daimi ödənişli olmayan)</td></tr>
</table>

**QEYD-1**:
*Bir-sıra-dövlətlərdə,-xüsusilə-ağır--və-xüsusilə-ağır-cinayətlərin-qarşısının-alınması-və-açılmasında-əməliyyat-aparatlarının-fəaliyyətini-tənzimləyən-normativ--hüquqi-aktlarda-şəxslərin-əməliyyat-imkanları-nəzərə-alınaraq-onlar-barəsində-olan-kriminal-səciyyəli-məlumat-və-faktlardan-istifadə-etməklə-onların-məcburi-köməklik-göstərməsi-halları-və-qaydaları-nəzərdə-tutulur.*

*ƏAF-nin-subyektlərinin-səlahiyyətlərini-təsbit-edən-normativ-hüquqi-aktların,-o-cümlədən-müasir-dövrdə-dünyada-baş-verən-qloballaşma-proseslərinin-və-yaranmış-kriminogen-vəziyyətin-kəskinləşməsini-və-sair-amillərin-qarşılıqlı-sistem-təhlili-bir-daha-təsdiq-edir-ki,-ƏAF-nin-subyektlərinin-fəaliyyətinin-qanunvericilik-əsasları,-həmçinin-səlahiyyətləri-daim-təkmilləşdirilməlidir.*

## 1.1. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri

Əməliyyat-axtarış fəaliyyəti subyektlərivənin vəzifələri «ƏAF haqqında» Qanunun 6-cı maddəsində öz əksini tapmışdır.

Bu Qanunun 1-ci maddəsində göstərilən məqsədlərə nail olmaq üçün əməliy-

yat-axtarış fəaliyyəti subyektlərinin aşağıdakı vəzifələri vardır:

1) insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri görmək;

2) əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirmək;

3) əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək;

4) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularına cavab vermək;

5) Azərbaycan Respublikasının ərazisində əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətinə aid olan faktların aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər keçirməklə, onları xəbərdar etmək və lazımi kömək göstərmək;

6) əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;

7) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq;

8) öz əməkdaşlarının, onların yaxın qohumlarının, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlakının hüquqazidd qəsdlərdən qorunmasını təmin etmək;

9) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

10) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

Sözsüz ki, vəzifə və hüquqlar sıx və təbii vəhdət təşkil edir. Əməliyyat-axtarış fəaliyyətinin qarşısında qanunda nəzərdə tutulmuş cinayətlərə qəsd edə biləcək halların aradan qaldırılması üçün ƏAF-ın subyektlərinə hakimin qərarı olmadan qanunvericiliklə müəyyən olunmuş hallarda binalara, o cümlədən, yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə daxil olub baxış keçirmək hüquqları verilmişdir. Həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində ibtidai

istintaqa prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəmə nəzarətini həyata keçirən hakimə əsaslandırılmış qərarı təqdim edilməlidir.

«ƏAF haqqında» Qanunla (10-cu maddənin VII hissəsində, həmçinin müəyyən olunmuşdur ki, əməliyyat-axtarış tədbirlərinin siyahısında (10-cu maddənin I hissəsi) 16 və 17-ci bəndlərdə göstərilən əməliyyat-axtarış tədbirlərinin tətbiqinə, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişini yalnız mütəşəkkil cinayətkar qruplar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

ƏAF-nin subyektlərinin səlahiyyətləri Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş əsasnamələrdə əhatə edilir və onlar bir qayda olaraq həmin subyektlərin əmrləri ilə elan olunur. Qeyd edilən Fərmanlarla ƏAF-nin subyektlərinin strukturu müəyyən edilir. Həmin subyektlərin əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların funksiya və vəzifələrini isə onların rəhbərləri tərəfindən müəyyən edilir (əmrlə təsdiq edilmiş əsasnamədə).

Nəzərə almaq lazımdır ki, ƏAF-nin subyektləri bu fəaliyyət sahəsində vəzifələri icra etməklə yanaşı, onların fəaliyyəti ilə bağlı, qanunvericiliklə bağlı digər vəzifələri də daşıyırlar (inzibati, prosessual, profilaktiki).

Məsələn, GM-nin 8-ci maddəsində gömrük orqanlarının vəzifələrinin dairəsi daha genişdir (8.0.1. – 8.0.32.). DGK-nin ƏAF-ni həyata keçirən GHQMBİ ƏAF sahəsində əsas vəzifələrlə yanaşı qanunvericiliyin tələblərinə müvafiq olaraq digər orqan və xidmətlərin əsas vəzifələri hesab edilən vəzifələri müxtəlif yaranmış şəraitlərdə müəyyən həcmdə və həddə icra edə bilərlər.

Məsələn, GM-nin 8.0.14. maddəsinə əsasən gömrük orqanları insan alverçilərinin, habelə insan alveri qurbanlarının gömrük sərhəddindən keçməsinin qarşısını qanunvericilikdə nəzərdə tutulmuş qaydada almalıdır. Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "İnsan Alverinə Qarşı Mübarizə" haqqında Qanunun 8.4. maddəsinə əsasən əgər gömrük orqanının və ya digər orqanların əməkdaşları tərəfindən şəxsin insan alverindən zərər çəkməsi ehtimal edilərsə, yaxud insan alveri ilə bağlı cinayətlərin törədilməsi və hazırlanması faktları aşkar edilərsə, bu barədə dərhal xüsusi polis qurumuna məlumat verilməli, müvafiq sənədlər həmin quruma təqdim edilməli və zəruri köməklik göstərilməlidir. Qeyd edilən hüquq normalarının tətbiqində də təcrübədə mühüm problemlər yaranır, onların təkmilləşdirilməsinə ehtiyac vardır.

**Göstərilən vəzifələr təyinatı və istiqamətlərinə görə qanunvericiliyin çoxsaylı, müxtəlif məzmun tutumlu müddəaları ilə tənzimlənir və onların şərhinə ehtiyac var. ƏAF-nin vəzifəli şəxsləri məhz onları dərindən mənimsəməli və bununla da bu günün tələbləri səviyyəsində tətbiq etməyi bacarmalıdırlar.**

## 1.2. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları

***Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları*** «ƏAF haqqında» Qanunun 7-ci maddəsində öz əksini tapmışdır.

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən, ***qanunla müəyyən olunmuş aşağıdakı hüquqlara malikdirlər*:**

- «ƏAF haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;
- əməliyyat-axtarış fəaliyyəti subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;
- əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək;
- əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;
- konspirasiya məqsədilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək.

Qeyd edilən hüquqlara malik əməliyyat-axtarış fəaliyyətinin subyektlərindən biri olan DİN-in (onların əməliyyat aparatları) ilk növbədə «Polis haqqında» Qanunla təsbit olunmuş «polis əməkdaşlanın ümumi hüquqları» (17-ci maddə), «cinayətlərin qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşlarının hüququ»nu (19-cu maddə), polis tərəfindən mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılmasını (24-cü maddə), CPM-nin 86 və 214-cü maddələrini (təhqiqatçı və təhqiqat orqanının səlahiyyətləri) və s. hüquq normalarını bilməli və onları xidməti fəaliyyətində rəhbər tutmalıdır.

**Fəslin bu hissəsində qısaca, ümumiləşdirilmiş olaraq belə demək olar ki, ƏAF-nin subyektlərinin səlahiyyətləri müvafiq qanun, məcəllə, fərman, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının uzlaşdırılması, funksiya və səlahiyyətlərin təkrarlanmaması, dövlətin təhlükəsizliyinin, insan hüquq və azadlıqlarının təmin edilməsi prinsipləri və mütləq qaydada Azərbaycan Respublikasının Konstitutsiyasının və "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanunun müddəaları rəhbər tutulmaqla müəyyən edilir.**

## § 2 əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar, onların sistemi və qüvvələri

DİO-nun əməliyyat xidmətləri cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılmasını, məhkəmə, istintaq və təhqiqatdan gizlənən təqsirli şəxslərin, həmçinin cəzaçəkmə müəssisələrindən qaçan şəxslərin axtarışını və yoxlanılmasını səlahiyyətli dövlət orqanları həyata keçirir, ayrı-ayrı şəxslərin, ictimaiyyətin köməyindən geniş istifadə edirlər. **Göstərilən qüvvələr şərti olaraq iki növə bölünür:**

1. aşkar qüvvələr (hüquq mühafizə orqanları və onların əməliyyat bölmələrinin vəzifəli şəxsləri) – bu orqanların və əməliyyat aparatlarinın rəhbərləri, əməliyyat işçiləri, ştatdankənar əməkdaşları və bu orqanlarla cinayətkarlığa qarşı mübarizədə ictimai əsaslarla əməkdaşlıq edən ictimai qurumlar);
2. gizli qüvvələr (ƏAF-nin subyektlərinə məxfilik əsasında könüllü köməklik etməyə razılaşan şəxslər).

**Qeyd edilən kateqoriyaya aid olan qüvvələri daha konkret olaraq aşağıdakı kimi təsnif etmək olar:**

- əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməliyyat aparatlarının vəzifəli şəxsləri;
- əməliyyat aparatları ilə könüllü olaraq və gizli qaydada əməkdaşlıq edən şəxslər;
- əməliyyat aparatlarına açıq qaydada köməklik göstərən müxtəlif kateqoriyadan olan ayrı-ayrı şəxslər.

**Hüquqi əsaslara müvafiq olaraq və ƏAF-də real iştirakının hədlərinə (səlahiyyətlərinə) görə hüquq-mühafizə fəaliyyətinin bu növünün qüvvələrini DİN sistemində şərti və konkret olaraq aşağıdakı üç kateqoriyaya bölmək olar:**

- ƏAF-ni tam həcmdə öz səlahiyyətləri çərçivəsində həyata keçirmək hüquqlarına malik olan orqanlar və onların əməkdaşları (məsələn, DİN-in BCAİ, BNMİ, İAQMBİ, BMCQMİ, DTİ, DGK, GİSHOMBİ, Əİ, DTİ və s.);

- ƏAF-ni məhdud həcmdə həyata keçirmək hüquqlarına malik olan orqanlar və onların əməkdaşları (İnterpolun DİN-in MMB, KTİ, BƏSİİ, ƏAİ, yuxarıda qeyd edilən orqanların tapşırıqlarını səlahiyyətləri çərçivəsində icra edən, həmçinin öz müstəqil vəzifə və hüquqları müəyyən edilmiş orqanlar və s.);

- statda olmayan, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərə müvafiq olaraq aşkar formada ƏAF-ni həyata keçirən orqanlara kömək edən şəxslər;

- ƏAF-ni həyata keçirən orqanlara konfidensial əsaslarla kömək edən şəxslər.

**Əsas aşkar qüvvələrə** HMO-ın, o cümlədən DİN-in (polis orqanlarının), onların əməliyyat aparatlarının səlahiyyətli rəhbərləri, əməliyyat işçiləri (məsələn, DİN-də CA, MCQM, NM və s. xidmətlərinin əməkdaşları) daxildir. Belə aşkar qüvvələrin hüquq və vəzifələri «ƏAF haqqında» Qanunun 6, 7-ci maddələri, «Polis haqqında» Qanun, CPM-in müvafiq maddələri ilə və ƏAF subyektlərinin fəaliyyətini tənzimləyən digər qanunvericilik aktlarında və onlar tərəfindən təsdiq olunmuş müvafiq normativ aktları ilə əhatə olunur.

**Şəxslərin məxfi əməkdaşlığa seçilməsi, cəlb olunması, onlarla işin təşkili və istifadə olunması DİN-in normativ aktları ilə tənzimlənir.** DİO-nun əməliyyat xidmətlərinə məxfi əməkdaşlığa Milli Məclisin deputatlarını, hüquq-mühafizə orqanlarının əməkdaşlarını, qanunvericilik və icra orqanlarının məsul vəzifəli şəxslərini cəlb etmək qadağandır. Bu məsələlərində qanunvericilikdə konkret hüquq normalarında təsbit edilməsini zəruri hesab etmək olar.

Qeyd edilən şəxslərin (subyektlərin) əməliyyat-axtarış fəaliyyətinə buraxılmasına dair qərar olmalı, dövlət sirləri ilə bağlı öhdəlikləri olmalıdır. Belə şəxslərin cəlb edilməsinin hüquqi əsasları «ƏAF haqqında» Qanunun 7, 9 və 17-ci maddələrində öz əksini tapmışdır.

***Məsələn, 7-ci maddədə ƏAF subyektlərinin hüquqları göstərilir:***

- əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə – məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;

- müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;

- konspirasiya məqsədlərinə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək hüquqları verilmişdir.

«ƏAF haqqında» Qanunda (mad. 17) göstərilir ki, əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilir:

ƏAF-i həyata keçirən orqanlarla vətəndaşların əlaqəsi konfidensial (gizli, məxfi əməkdaş) və anonim ola bilər.

***Aşkar köməklik göstərən şəxslər*** (vətəndaşlar) sonradan cinayət işləri üzrə şahid qismində iştirak edə bilər. Aşkar köməklik göstərən şəxslər polis orqanının rəhbərlərinin əmri ilə ştatdankənar şəxs qismində də fəaliyyət göstərə bilər (xüsusi vəsiqə verilməklə). Belə münasibətlər və ştatdankənar əməkdaşların hüquq və vəzifələri təşkilati-normativ aktlarla nizamlanır.

***Anonim köməklik prosesində isə şəxs məlumatı əməliyyat aparatına təqdim edir,*** lakin anket məlumatlarının açıqlanmasını və cinayət prosesində iştirak etməsini istəmir. Belə hallar da qanunvericilik və təşkilati-normativ aktlarda nəzərdə tutulur.

***Kofidensial köməklik HMO-ın idarədaxili normativ aktlara əsasən şəxsin könüllü razılığı əsasında, qarşılıqlı anlaşma əsasında bağlanmış müqavilə və digər əməliyyat-xidməti sənədlərlə rəsmiləşdirilir*** («ƏAF haqqında» Qanunun 7 və 17-ci maddələri və HMO-ın normativ aktları və s.). Belə köməklik müvəqqəti və uzunmüddətli ola bilər.

*Konfidensial əsaslarla köməklik edən şəxslərin DİO qarşısında öhdəlikləri olur, onlar əməliyyat aparatının tapşırığı ilə fəal kəşfiyyat-axtarış işi həyata keçirirlər.*

*Konfidensial münasibətlər fəaliyyət qabiliyyəti, həmçinin mülki hüquq fəaliyyət qabiliyyəti olan, yetkinlik yaşına çatmış şəxslərlə həyata keçirilə bilər* (milliyyət, vətəndaşlıq, cinsiyyət, təhsil, dini və ictimai qurumlara mənsubiyyət, siyasi baxışlar və s. məhdudiyyət qoyulmur, lakin dövlət qulluğunda olan müəyyən vəzifəli şəxslərə, məhkəmə və s. orqanların bir sıra əməkdaşlarına məhdudiyyət qoyulur).

## 2.1. Əməliyyat-axtarış fəaliyyətini keçirən orqanlar və onların sistemi

trialyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar təşkilati cəhətdən xüsusiləşdirilmiş müstəqil idarəçilik vahidləridir və onlar üçün əməliyyat-axtarış qanunvericiliyi, habelə qanunqüvvəli idarə səciyyəli normativ aktlar vasitəsilə vəzifələr, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üzrə səlahiyyətlər müəyyənləşdirilmişdir.

"ƏAF haqqında" Qanunnun 5-ci maddəsində qeyd edilmişdir ki, bu fəaliyyəti Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları həyata keçirir. CPM-in 214-cü maddəsinin və CPM-in tətbiq edilməsinə dair Prezident Fərmanının (25 avqust 2000-ci il tarixli) 2-ci bəndinə müvafiq olaraq ƏAF-nin subyektlərinin konkret dairəsi (ƏAF-ni həyata keçirən təhqiqat orqanları) müəyyənləşdirilmişdir və onlar əməliyyat-axtarış funksiyalarının reallaşdırılmasını təmin edir. ƏAF sahəsində qanunvericiliklə Azərbaycan Respublikası ərazisində əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək hüququ müvafiq icra hakimiyyəti orqanlarına həvalə olunmuşdur. Onlara aşağıdakı dövlət orqanları və onların əməliyyat aparatları (bilavasitə bu fəaliyyəti həyata keçirən) aid edilmişdir:

1. Daxili İşlər Nazirliyi;
2. Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti;
3. Ədliyyə Nazirliyi;
4. Dövlət Gömrük Komitəsi;
5. Dövlət Sərhəd Xidməti;
6. Fövqəladə Hallar Nazirliyi;
7. Xüsusi Dövlət Mühafizə Xidməti;
8. Vergilər Nazirliyi;
9. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı.

Bir sıra dövlətlərdə göstərilən subyektlərdən başqa, əməliyyat-axtarış fəaliyyətini digər dövlət orqanları da həyata keçirirlər (məsələn, RF-nın Müdafiə Nazirliyinin xarici kəşfiyyat orqanlarının əməliyyat aparatları və Rusiya Prezidenti yanında Federal agentliyin xarici kəşfiyyat orqanları, narkotiklərin dövriyyəsinə nəzarət Komitəsinin əməliyyat aparatları). Onlar əməliyyat-axtarış tədbirlərini yalnız öz təhlükəsizliyini təmin etmək məqsədilə səlahiyyətləri çərçivəsində və ya başqa orqanların səlahiyyətlə-

rinə toxunmamaqla həyata keçirirlər. Bu, ilk növbədə bu orqanların vəzifələrindən və məqsədlərindən, habelə digər əməliyyat xidmətlərinin funksiyalarının təkrarlanmamaq (o cümlədən idarəçilik elminin prinsipləri, təhlükəsizliyin təmin edilməsi tələbləri rəhbər tutulmaqla) səyindən irəli gəlir. Bu orqanların fəaliyyətinin lazımi səviyyədə təşkilində onun təhlükəsizliyini təmin edilməsi xüsusi əhəmiyyət rəsb edir.

**Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların təhlükəsizliyinin təmin edilməsi dedikdə, müxtəlif xarakterli tədbirlər sisteminin təşkili və reallaşdırılması nəzərdə tutulur. Bunların məqsədi dövlət orqanlarının normal fəaliyyətinə potensial və real təhlükənin zərərsizləşdirilməsidir və bu təhlükə aşağıdakı hallarda yaranır:**

- orqanın özünün fəaliyyətində (əməkdaşlar arasında ayrı-ayrı korrupsiyaya qurşanmış, vəzifə cinayətləri hazırlayan, törədən şəxslərin aşkar edilməsi);
- xarici kəşfiyyat orqanları əməkdaşları tərəfindən dövlət orqanının təhlükəsizliyinə zərər gətirə bilinməsi ehtimal olunan hüquq pozuntularının qarşısının alınması;
- xaricdən yönələn təhlükələr, təhdidlər (xarici dövlətlərin xüsusi xidmətlərinin, xarici təşkilatların xarici kəşfiyyat orqanların hüquqa zidd niyyətlərinin aşkar edilməsi, bu orqanlara qarşı və yaxud onun əməkdaşlarına qarşı cinayət hazırlayan, törədən şəxslərin, onların Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarına daxil olmaq cəhdlərinin, onlara mənfi təsir göstərmə səylərinin qabaqlanması və aradan qaldırılması);

Mahiyyət etibarı ilə bütün əməliyyat-axtarış orqanlarının əməliyyat-axtarış tədbirlərini öz təhlükəsizliyini təmin etmək üçün keçirməyə hüquqları vardır (korrupsiyaya qurşanmış əməkdaşların, yanlış məlumat verən və riyakarlıq (ikiüzlülük) edən məxfi əməkdaşların, dövlət sirrini yayan şəxslərin aşkar olunması və s.). Bu funksiyaların həyata keçirilməsi vətəndaşların və hüquqi şəxslərin hüquqlarını və azadlıqlarını məhdudlaşdıra bilər, buna görə ciddi surətdə qanunçuluğa riayət olunmalıdır. Əməliyyat-axtarış fəaliyyətinin funksional subyektləri haqqında təsəvvürlərə əsaslanaraq (onlar peşəkar vəzifələrini müstəqil surətdə, bir-biri ilə qarşılıqlı əlaqədə, habelə vətəndaşların köməyindən istifadə etmək yolu ilə yerinə yetirirlər), onların sisteminin və səlahiyyətlərinin qısa izahını vermək yerinə düşərdi.

Azərbaycan Respublikasının ərazisində ƏAF-ni həyata keçirən orqanların siyahısına dəyişikliklər və əlavələr qanunvericiliklə edilə bilər. «ƏAF haqqında» qanunvericiliklə bu səlahiyyətlər qismən ölkə Prezidentinə də verilmişdir. Başqa dövlət və

ictimai təşkilatlar ƏAF-nin kollektiv hüquq və vəzifələrinin daşıyıcıları kimi qəbul edilmir. Buna görə də müxtəlif dövlət və qeyri-dövlət strukturları (fərdi mühafizə) ƏAT-ni həyata keçirmək hüquqlarına malik deyillər. Belə məhdudiyyət mürəkkəb və konspirativ (gizli) səciyyə daşiyan, böyük məsuliyyətlə bağlı olan əməliyyat-axtarış funksiyalarinın məzmunundan irəli gəlir.

Qanunverici yalnız hüquqi şəxsləri və yaxud əməliyyat-axtarış funksiyasını həyata keçirmək səlahiyyətinə malik olan hüquq-mühafizə orqanlarını müəyyən etmişdir.

**Bu halda qanun onları iki kateqoriyaya bölür.** ***Birinci halda*** subyekt kimi bütöv bir sistem çıxış edir, yəni əməliyyat aparatlarının sistemi (strukturu), digər hallarda isə öz təhlükəsizliyini təmin etmək məsələlərində məhdud səlahiyyətlərə malik və bu tədbirlərin keçirilməsi zamanı birinci qrup subyektlərinin onların səlahiyyətlərinə toxunmamaq şərti ilə qarşılarına qoyulmuş vəzifələri həyata keçirən subyektlər.

Bizim zənnimizcə, belə təsnifat şərtidir və ƏAF-nin subyektlərini öz səlahiyyətlərindən, ƏAF-nin həyata keçirilmə məqsədlərindən, həcmindən asılı olaraq fərqləndirmək olar.

Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin səlahiyyətlərinin bu cür fərqləndirilməsi prinsipial əhəmiyyətə malikdir, çünki bu fərqləndirmə göstərir ki, həmin səlahiyyətlər cinayətkarlıqla mübarizə mənafeyi ilə, yəni vətəndaşların, cəmiyyətin və dövlətin hüquqlarinın və mənafelərinin qorunması ilə məhdudlaşdırılıb. Bu qeyd edilənlərə və apardığımız araşdırmaların nəticələrinə əsaslanaraq, bu istiqamətdə biliklərin təkmilləşdirilməsini zəruri hesab edirik.

Müasir şəraitdə, yəni mütərəqqi islahatların keçirilməsi şəraitində nazirliklərə, komitələrə və idarələrə rəhbərlik sistemi təkmilləşdirilir. Bu qeyd edilənlər həm də strukturunda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən aparatlar olan orqanlara da aiddir. Məsələn, dünyada sosial-iqtisadi, kriminogen durumda və s. sahələrdə baş verən dəyişikliklər Azərbaycan Respublikası HMO-ın, o cümlədən DİN-in strukturunda da öz müsbət təsirini göstərmişdir. ***Bununla əlaqədar olaraq, ölkə Prezidentinin müvafiq Fərmanlarına və onların icrasına yönəlmiş DİN əmrlərinə əsasən DİN-in strukturunda aşağıdakı dəyişikliklər baş vermişdir:***

- Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi Baş İdarə statusu almış, onun tərkibində korrupsiya hüquqpozmaları və maliyyə saxtakarlığı üzrə Əməliyyat-Axtarış tədbirləri İdarəsi yaradılmışdır. Sonrakı islahatlar prosesində onlar ixtisara düşmüş, günün tələbləri və cinayətkarlığın strukturunda baş verən yüksəliş ənənəsi

olan kriminal səciyyəli dəyişikliklər və s. amillər nəzərə alınmaqla zəruri struktur dəyişiklikləri edilmişdir.

- Narkotiklərlə Mübarizə İdarəsi Baş İdarə statusu almış, onun qərb və cənub regional şöbələri yaradılmışdır;

- Cinayət-Axtarış İdarəsi Baş İdarə statusu almış, onun tərkibində şəxsiyyət və mülkiyyət əleyhinə cinayətlərlə mübarizə idarələri yaradılmışdır;

- İnsan Alverinə Qarşı Mübarizə İdarəsi yaradılmışdır və sonradan ona baş idarə statusu verilmişdir.

Səlahiyyətlər nəzərə alınmaqla müvafiq dəyişikliklər ƏAF-nin digər subyektlərinin strukturlarında da baş vermişdir.

ƏAF-nin subyektlərinin səlahiyyətlərini və strukturunu (o cümlədən onlara daxil olan mərkəzi əməliyyat aparatlarının) qanunvericiliyə əsasən, ölkə Prezidenti təyin edir (məsələn, Prezidentin 30 iyun 2001-ci il tarixli Fərmanı ilə DİN-in Əsasnaməsi və strukturu təsdiq olunmuşdur). Bu subyektlərin tərkibinə daxil olan strukturlarına daxil olan qanunları bölmə, şöbə və idarələri və onların səlahiyyətlərini isə (məsələn, BCAİ-nin, GİSHQMBİ və s.) ƏAF-nin subyektinin rəhbəri (məsələn, DİN, DGK-nin sədri və s.) müəyyən edir (təsdiq etdikləri əsasnamələrdə). Məsələn, DİN-də nazir onun struktur mərkəzi aparatlarına daxil olan idarə, şöbə və bölmələrinin siyahısını, onların səlahiyyətlərini və işinin əsas istiqamətlərini müəyyən edirlər. Müvafiq olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın əməliyyat aparatları sisteminin daxili strukturu, sahə fəaliyyət istiqamətləri formalaşdırılır və onlar əməliyyat-axtarış orqanının ümumi səlahiyyətinə müvafiq olaraq fəaliyyət göstərirlər.

DİN-in ölkə Prezidenti tərəfindən təsdiq olunmuş Əsasnaməyə əsasən, DİO üçün əməliyyat-axtarış fəaliyyəti onun əsas funksiyalarından biri kimi müəyyən edilir və bu fəaliyyətin həyata keçirilməsinə dair müddəalar Azərbaycan Respublikasının "Polis haqqında" Qanununun 3, 13, 15, 19 və s. maddələri ilə əhatə olunmuşdur. «ƏAF haqqında» Qanunun 1-ci maddəsinin III hissəsinə görə əməliyyat-axtarış fəaliyyəti polisin aşağıdakı vəzifələrinin həll edilməsi üçün keçirilir: hazırlanan və törədilmiş cinayətlərin qarşısının alınması, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi, məhkəmədən, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən yayınan, itkin düşmüş şəxslərin axtarışı, naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Son struktur dəyişiklikləri nəzərə alınmaqla Azərbaycan Respublikası DİN sistemində tətbiq edilən əməliyyat-axtarış fəaliyyətini bu və ya digər həcmdə həyata keçirən qurumlar (o cümlədən, əməliyyat aparatları) sistemini 1 saylı cədvəl şəklində təqdim etmək olar.

Cinayətkarlıqla mübarizə üzrə ixtisaslaşma və digər hüquq-mühafizə vəzifələrinin yerinə yetirilməsi tələblərinə əsaslanaraq, DİO-nun müxtəlif struktur bölmələrinə əməliyyat-axtarış səlahiyyətləri verilir. Əməliyyat-axtarış funksiyasını əsas funksiya kimi daha geniş həcmdə həyata keçirən DİN Baş Cinayət Axtarış İdarəsi onun RPİ(ş)-nin struktur bölmələridir.

Bununla belə, DİO-nun tərkibində əməliyyat-axtarış fəaliyyətini tam həcmdə yerinə yetirən əməliyyat aparatları (CAŞ və s. ), habelə məhdud həcmdə və köməkçi funksiyasını yerinə yetirən bölmələri (KTB və s.) qeyd etmək olar.

*Cədvəl-1*

| **Əməliyyat aparatlarına ümumi rəhbərliyi (kuratorluğu) həyata keçirən nazir müavini** | |
|---|---|
| Baş Mütəşəkkil cinayətkarlıqla Mübarizə İdarəsi (mərkəzi əməliyyat aparatı, ƏAF-ni tam həcmdə həyata keçirir) | Baş Cinayət Axtarış İdarəsi (mərkəzi əməliyyat aparatı, ƏAF-ni tam həcmdə həyata keçirir) |
| Baş Narkotiklərlə Mübarizə İdarəsi (mərkəzi əməliyyat aparatı, ƏAF-ni tam həcmdə həyata keçirir) | İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi (mərkəzi əməliyyat aparatı ƏAF-ni səlahiyyətləri çərçivəsində tam həcmdə) |
| Azərbaycanda İnterpolun Milli Mərkəzi bürosu (ƏAF-ni məhdud həcmdə həyata keçirir) | Baş Statistik-İnformasiya İdarəsi (ƏAF-ni məhdud həcmdə həyata keçirir) |
| Əməliyyat-Axtarış İdarəsi (ƏAF-ni məhdud həcmdə müəyyən edilmiş hədlərdə həyata keçirir) | Daxili Təhlükəsizlik İdarəsi (ƏAF-ni tam həcmdə, müəyyən edilmiş hədlərdə və səlahiyyətlər həcmdə həyata keçirir) |

Cədvəl 1-də qeyd edilən subyektlərin ƏAF sahəsində səlahiyyətlərinin həcmi onların əsasnaməsində əhatə edilir və idarədaxili normativ aktlarının konkret müddəalarının məzmun tutumununda öz əksini tapır.

**Qeyd: Belə təsnif edilmənin nəzəri əsasları elmi mənbələrdə əhatə edilir.**

Bir sıra dövlətlərin DİN sistemində fəaliyyət göstərən kriminal milis və ya polis sistemlərinə cinayətkarlıqla mübarizədə müxtəlif vəzifələri həyata keçirən və səla-

hiyyətlərə malik olan struktur bölmələri daxildir. Məsələn, onları ümumilikdə RF-nin DİN üzrə aşağıdakı 2 nömrəli təxmini sxemi ilə əhatə etmək olar:

*Sxem-1*

Nazir müavini - kriminal polis xidmətinin müavini




Azərbaycan Respublikasının daxili işlər orqanlarında idarədaxili normativ aktlarla müəyyən olunmuş və əsas etibarı ilə tam həcmdə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək hüquqları səlahiyyətlər nəzərə alınmaqla aşağıdakı aparatlara verilmişdir:

- Baş Cinayət Axtarış İdarəsi;
- Baş Narkotiklərlə Mübarizə İdarəsi;
- Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi;
- İnsan alverinə qarşı Mübarizə Baş İdarəsi;
- Daxili Təhlükəsizlik İdarəsi.

Cinayətkarlıqla mübarizənin vəzifələrinə əsaslanaraq, məhdud həcmdə əməliyyat-axtarış fəaliyyətini həyata keçirməyə səlahiyyəti olan aparatlara İnterpolun Azərbaycan MMB-si, Baş İctimai Təhlükəsizlik İdarəsi, Əməliyyat-axtarış İdarəsi (baş idarə statusunda), Baş Əməliyyt-Statistik İnformasiya İdarə aid edilir.

Öz növbəsində, əməliyyat-axtarış orqanları sistemində bir sıra bölmələr köməkçi funksiyalarını yerinə yetirirlər və digər aparatlara əməliyyat-axtarış fəaliyyətinin tam miqyaslı vəzifələrinin həllində kömək göstərirlər. Belə aparatlara Kriminalistik Tədqiqatlar İdarəsinin əməliyyat-texniki xidmətləri və s. aiddir.

Əməliyyat aparatlarının xüsusiyyəti ondan irəli gəlir ki, onların şəxsi heyəti leqal (kadr) əməkdaşlardan və gizli fəaliyyət göstərən əməliyyat işçilərindən ibarət ola bilər, onların hüquq-mühafizə orqanlarına (xüsusi xidmətlərə) mənsubiyyəti məxfi saxlanılır. **Əməkdaşların birinci kateqoriyasının** əməliyyat-axtarış tədbirlərini digər qanunla nəzərdə tutulmuş hüquqi xarakterli hərəkətlərlə (cinayət-hüquqi, cinayət-icra və s.) əlaqələndirməyə qanunvericiliklə nəzərdə tutulmuş hüquqları vardır. Bu qeyd edilənlər əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların normativ-hüquqi statusunu müəyyənləşdirən qanunvericilik aktları ilə müəyyənləşdirmişdir. **Xüsusi işçilərin ikinci kateqoriyası** məlumatın əldə edilməsinin yalnız kəşfiyyat səciyyəli bəzi metodlarını tətbiq etmək imkanlarına malikdirlər.

**Əməliyyat-axtarış aparatları (bölmə, şöbə və idarələri) aşağıdakı əsas əlamətlərlə xarakterizə edilirlər:**

***- hüquq-mühafizə orqanlarının tərkibində (DİN, DSX, DGK, ƏN) və ya bilavasitə dövlətin təhlükəsizliyini təmin edən orqanlar (DTX, XKX, XDMX, DSX) fəaliyyət göstərirlər;***

***- əməliyyat-axtarış qanunvericiliyi ilə nəzərdə tutulan vəzifələri öz səlahiyyətləri çərçivəsində yerinə yetirirlər;***

***- öz fəaliyyətlərində əməliyyat-axtarış fəaliyyətinin qüvvə, vasitə, metodlarından və əməliyyat-axtarış tədbirlərindən istifadə edirlər;***

***- əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həllində məxfi əməkdaşların imkanlarından istifadə edirlər;***

***- əməliyyat-axtarış orqanı vəzifəli, səlahiyyətli şəxsin rəhbərliyi altında fəaliyyət göstərir;***

***- öz idarələrinin xidmət və hissələri ilə, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən digər orqanlarla qarşılıqlı əlaqəli tədbirlər həyata keçirirlər.***

Sözsüz ki, ƏAF-nin subyektlərinin belə xarakterizə edilməsi şərti (nisbi) səciyyə daşıyır.

Qeyd edək ki, milli təhlükəsizlik, o cümlədən xüsusi xidmətlərin strukturunda da onların üzərinə qoyulmuş vəzifələrin həll edilməsini təmin edən əməliyyat qurumları (idarə, şöbə, bölmə) sistemi mövcuddur. Məsələn, RF-nın FTX-yə əks-kəşfiyyat departamenti, iqtisadi təhlükəsizlik, konstitusiya təhlükəsizliyi, terrorizmlə mübarizə üzrə departamenti, hərbi əks-kəşfiyyat idarəsi və s. daxildir.

**Onun fəaliyyətinin əsas istiqaməti bunlardır:** casusluq fəaliyyətinin aşkar edilməsi, xəbərdarlığı, qarşısının alınması və açılması (habelə terrorçuluq fəaliyyətinin, korrupsiyanın, silahların qanunsuz dövriyyəsinin, qaçaqmalçılığın və başqa cinayətlərin). Bununla belə, həmin xidmət tərəfindən qarşılarına RF-nın konstitusiya quruluşunu zorla dəyişmək məqsədi qoymuş qanunsuz silahlı birləşmələrin fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması üzrə əməliyyat-axtarış tədbirləri həyata keçirilməsi kimi vəzifələri həlli də qoyulur. Əks-kəşfiyyat fəaliyyətinin həyata keçirildiyi dövrdə bu orqanlar bir qayda olaraq, öz ölkələrinin «Kəşfiyyat və əks-kəşfiyyat», «Təhlükəsizlik orqanları haqqında» qanunvericiliyi, cinayətkarlıqla mübarizəni təşkil etdikdə isə «Əməliyyat-axtarış fəaliyyəti barədə» qanunvericiliyin müddəalarını rəhbər tuturlar.

RF-də sərhədyanı mühafizə orqanlarında əməliyyat-axtarış fəaliyyətini öz təhlükəsizliyinin təmini xidməti, Kəşfiyyat departamenti, RF-nin Federal hökumət rabitə əməliyyat-axtarış idarəsi həyata keçirirlər.

DİN, Vergilər Nazirliyinin, DGK-nin və s. strukturlarına daxil olan əməliyyat bölmələrinin siyahısını qanunqüvvəli normativ aktlara (idarə səciyyəli) müvafiq olaraq bu qurumlara rəhbərlik edən şəxsləri (nazir, komitə sədri) müəyyənləşdirir.

Məsələn, Azərbaycan Respublikasının Prezidenti 30 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «DİN haqqında» Əsasnamənin 5.3.3.-5.3.7-ci bəndlərinə müvafiq olaraq Daxili İşlər Nazirliyi baş idarə, idarə, şöbə və digər qurumların Əsasnamələrini, Nizamnamələrini təsdiq edir, nazirliyin mərkəzi aparatlarının strukturuna daxil olan qurumların yaradılması, yenidən qurulması, ləğv edilməsi barədə qərarlar qəbul, mərkəzi aparatlarının strukturlarının təkmilləşdirilməsi (yeni strukturların yaradılması və ya ixtisara salınmasına) dair Prezident Administrasiyasına Prezident tərəfindən baxılması üçün əsaslandırılmış təklifər verir.

Azərbaycan Respublikasının DGK-nin əməliyyat aparatları ƏAF sahəsində qanunvericilik, Gömrük Məcəlləsi, o cümlədən "DGK haqqında" Əsasnaməyə uyğun

olaraq fəaliyyət göstərir və onların tərkibində daxili təhlükəsizlik, gömrük işi sahəsində hüquqpozulmalara qarşı mübarizə və gömrük qaydalarının pozulmasına qarşı mübarizə üzrə ixtisaslaşan bölmələri və s. fəaliyyət göstərir. DGK-nin əməliyyat-axtarış fəaliyyəti aparatlarının məqsədləri Gömrük Məcəlləsi və «ƏAF haqqında» Qanunla əhatə olunmuşdur. DGK-nin vəzifələri, funksiyaları, strukturu ölkə Prezidentinin 6.06.2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuşdur. Qeyd edilən qanunvericilik aktlarının müddəaları rəhbər tutularaq, DGK-nin sədrinin əmri ilə "Gömrük İşi Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi" təsdiq olunmuşdur. Bu Əsasnamə ilə Baş İdarənin əsas vəzifələri, funksiyaları, strukturu onun rəisinin səlahiyyətləri müəyyən olunmuşdur.

Azərbaycan Respublikası DİN-in 8 dekabr 2004-cü il tarixli əmri ilə DİN-in «Baş Narkotiklərlə Mübarizə İdarəsi haqqında» Əsasnamə və 28.02.2001, 21.05.1999-cu il tarixli əmrinə müvafiq olaraq bu idarənin qərb və cənub bölgələrində regional şöbələri və onların haqqında Əsasnamələr təsdiq olunmuşdur. Baş İdarə haqqında Əsasnamədə onun strukturu (təşkilati-analitik şöbə, əməliyyat-axtarış şöbəsi, beynəlxalq əlaqəli cinayətlərlə mübarizə şöbəsi, növbətçi hissə, katiblik), əsas vəzifələri, funksiyaları və Baş İdarə rəisinin vəzifə və hüquqlarına dair müddəalar öz əksini tapmışdır.

Bir sözlə, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirməyə hüququ olan əməliyyat aparatlarının özünün strukturunu və səlahiyyətlərini, əsas vəzifə və funksiyalarını müəyyən etmək hüququ verilmişdir. Lakin bu orqanların rəhbərlərinin əməliyyat-axtarış qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlərin çərçivəsindən kənara çıxmaq hüquqları yoxdur.

Ədliyyə Nazirliyi (onun təmsilçisi qismətində penitensiar xidmət) əməliyyat-axtarış fəaliyyətinin müstəqil subyektidir. Bu cəza-icra sisteminin DİN-dən Ədliyyə Nazirliyinə keçməsi ilə əlaqədardır. Ədliyyə Nazirliyi sistemində əməliyyat-axtarış tədbirlərinin keçirilməsi səlahiyyətlərinə əməliyyat aparatları malikdir, onların öz müstəqil strukturu vardır.

Cəzaların İcra Məcəlləsinə müvafiq olaraq əməliyyat-axtarış fəaliyyəti cəzaçəkmə müəssisələrində məhkum olunmuşların, bu müəssisələrin şəxsi heyətinin və digər şəxslərin şəxsi təhlükəsizlik şəraitinin yaradılması ilə rejimin təmin edilməsi vasitəsi kimi, cəzaçəkmə yerlərində cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılması, məhkumların qaçışının qarşısının alınması, cəzaçəkmənin tələblərinə riayət olunmamasının aradan qaldırılması vasitəsi kimi həyata keçirilir.

Lakin onu da qeyd etmək lazımdır ki, ƏN-in penitensiar xidmətinin strukturuna daxil olan istintaq təcridxanasında əməliyyat-axtarış fəaliyyətini polis orqanları Azərbaycan Respublikasının «Polis haqqında» Qanununun 3-cü maddəsinin II hissəsinin 12-ci bəndinə və "ƏAF haqqında" Qanun 14-2 maddəsində müvafiq olaraq Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə birgə həyata keçirirlər. ƏAF-nin digər subyektləri istintaq təcridxanalarında və CÇM-də ƏAF-nin keçirilməsinə dair öz tələbatlarını DİN və xüsusi xidmətlər istisna olunmaqla, ƏN-nin PX vasitəsi ilə həyata keçirirlər.

Qeyd edilən yerlərdə ƏAT-nin digər subyektlər tərəfindən keçirilməsi onların sorğusu ilə PX-nin əməliyyat-aparatları tərəfindən keçirilir. Belə münasibətlər idarələrarası normativ-hüquqi aktlarla tənzim edilir. Bu tədbirlərin keçirilməsində də təcrübə üçün əhəmiyyət kəsb edən problemlər mövcuddur və onların həll edilməsi təcrübi fəaliyyət üçün çox önəmlidir.

ƏAF-nin subyektlərinin ƏAT-nin həyata keçirilməsində ƏAF-nin subyektlərinin səlahiyyət bölgüsü "ƏAF haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunları, VM, GM, ölkə Prezidentinin «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» 19 iyun 2001-ci il tarixli Fərmanı, digər qanun və qanunqüvvəli aktları ilə tənzimlənir. Bu tədbirlərin təşkili, taktikası və nəticələrinin sənədləşdirilməsi isə ƏAF-nin subyektlərinin idarədaxili və idarələrarası məxfi qrifi aktları ilə tənzimlənir.

Qeyd etmək lazımdır ki, ƏAF-nin subyektlərinin qarşılıqlı əməkdaşlığı sahəsində münasibətləri tənzimləyən idarələrarası normativ-hüquqi aktların təkmilləşdirilməsi istiqamətində işlərin aparılması bugün daha da aktualdır.

## 2.2. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşları bu fəaliyyətin subyekti kimi

Əməliyyat-axtarış qanunvericiliyi əməliyyat-axtarış funksiyasını həyata keçirən əməliyyat aparatının əməkdaşları olan fiziki şəxslərin bilavasitə hüquqlarını tənzimləyən normaları əhatə etmir. Lakin, onun bəzi maddələrinin məzmununun təhlili əsasında belə nəticə çıxarmaq olar ki, hüquqi şəxslərə, yəni əməliyyat aparatlarına verilən səlahiyyətlər bilavasitə fiziki şəxslər tərəfindən reallaşdırılır. Bunlar Qanunun terminologiyasına görə fiziki şəxs adlandırılır və bu fiziki şəxslər əməliyyat-axtarış qanunvericiliyi və normativ aktlarla nəzərdə tutulmuş hüquq və vəzifə daşıyıcılarıdır.

***Vəzifəli şəxs*** dedikdə, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi və ona nəzarət sahələrində daimi, müvəqqəti və yaxud xüsusi səlahiyyət üzrə hakimiyyətin nümayəndəsi funksiyalarını reallaşdıran şəxs nəzərdə tutulur.

Ətrialyat aparatının vəzifəli şəxsləri rəis heyətin xüsusi və ya hərbi rütbəli, əməliyyat-axtarış funksiyasını əsas peşəkar vəzifə kimi yerinə yetirən ştatda olan əməkdaşlarıdır. Qüvvədə olan normativ aktlara görə vəzifəli şəxslərin dürd səviyyəsini ayırıb göstərmək olar **(DİN timsalında 3 nömrəli sxemlə əhatə etmək olar, belə təsnifləşmə digər HMO-na da şamil edilə bilər).**

Lakin əməliyyat-axtarış hüquq münasibətlərinin əsas hissəsini (özülünü), şübhəsiz ki, əməliyyat işçiləri təşkil edir.Bu termin ümumiləşdirici növ anlayışı kimi DİN sisteminin əməliyyat-axtarış aparatının vəzifəli şəxsini nəzərdə tutur.

*Sxem-3*

**3-cü səviyyə**

Azərbaycan Respublikası DİN-in, Naxzıvan MR DİN-in, Nəqliyyatda Baş Polis İdarələrinin əməliyyat aparatlarının rəhbərləri, DİN-in mərkəzi aparatlarının, (BCAİ, BMCMİ, BNMİ, İAQMBİ) Baş İdarələrinin və İdarələrinin rəisləri, onların müavinləri

**2-ci səviyyə**

Həmin Baş İdarələrin şöbələrinin, bölmələrinin rəisləri, onların müavinləri, əməliyyat müvəkkilləri, baş əməliyyat müvəkkilləri, kiçik əməliyyat müvəkkilləri

**1-ci səviyyə**

Bölmə rəisləri, onların müavinləri, əməliyyat müvəkkilləri, baş əməliyyat müvəkkilləri, kiçik əməliyyat müvəkkilləri

ŞRPİ(Ş)-nin əməliyyat aparatlarının (CA, MCM, NM qurumlarının rəisləri, müavinləri, əməliyyat müvəkkilləri, kiçik əməliyyat müvəkkilləri) vəzifəli şəxsləri, ŞRPİ(ş)-nin rəisləri, onların əməliyyat işləri üzrə müavinləri

Adları çəkilmiş şəxslərin fəaliyyəti müəyyən xüsusiyyətləri ilə fərqlənir. ***Məsələn, əməliyyat aparatının əməkdaşına öz fəaliyyətinin həyata keçirilməsi üçün müəyyən şərtlər tələb olunur. Onlara aşağıdakılar aid edilir:***

- konkret əməliyyat aparatında vəzifəyə təyin edilmə, əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinə uyğun səlahiyyətlərin verilməsi;
- əməliyyat-axtarış işi üzrə bacarıq və qabiliyyətinə uyğun ixtisaslaşma (əməliyyat işi, analitik fəaliyyət, əməliyyat-texniki və s.).

Cinayətkarlıqla mübarizədə əməliyyat-axtarış tədbirlərini şəxsən həyata keçirən əməliyyat aparatlarının əməkdaşlarının hüquq və vəzifələri HMO-nun, o cümlədən DİO-nun ştatda nəzərdə tutulan xidmət və bölmələrinin səlahiyyətlərindən irəli gəlir. Onların səlahiyyətləri əməliyyat-axtarış orqanına verilmiş ümumi hüquq və vəzifələrdən, habelə müvafiq əməliyyat aparatının səlahiyyətini təşkil edən, vəzifəyə uyğun olan hüquq və vəzifələrdən ibarətdir. Ümumi və bilavasitə işlə (tutulan vəzifə ilə) əlaqədar vəzifələr və hüquqlar ümumilikdə əməliyyat işçilərinin səlahiyyətlərini təşkil edir. Həcminə və əməliyyat-axtarış funksiyasına aid edilməsinə görə HMO-nun əməliyyat aparatlarının vəzifəli şəxslərinin bir kateqoriyası bu səlahiyyətlərin hamısına malikdir, digər kateqoriya isə əməliyyat aparatlarının ixtisaslaşmasından asılı olaraq məhdud səlahiyyətlərə malikdirlər.

Tam həcmdə əməliyyat-axtarış səlahiyyətinə malik əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə cinayət axtarışı aparatlarının rəhbər heyətinin ştatda olan vəzifəli şəxsləri aiddir (cinayət axtarış, mütəşəkkil cinayətkarlıqla mübarizə, narkotiklə mübarizə, insan alverinə qarşı mübarizə və daxili təhlükəsizlik qurumları və s.)

Fiziki şəxslərin bu kateqoriyası şəxsən və yaxud digər mütəxəssislərin cəlb olunması ilə cinayətkarlığa qarşı mübarizədə öz peşə vərdişlərinin həyata keçirilməsində «ƏAF haqqında» Qanunun nəzərdə tutduğu əməliyyat-axtarış tədbirlərinin əksər hissəsinin həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş hüquqlara malikdirlər. Onların səlahiyyətlərinin tamlığı, habelə təmənnalı (əvəzli) və yaxud təmənnasız (əvəzsiz) əsaslarla yardım göstərməyə razılıq verən vətəndaşlarla məxfi əməkdaşlıq münasibətləri qurmaq hüququ ilə müəyyənləşdirilir.

Göstərilən əməliyyat aparatlarının əməkdaşları əməliyyat-axtarış təyinatlı əməliyyat-axtarış sistemlərinin yaradılmasının təşəbbüskarları və təşkilatçılarıdırlar (bu, habelə əməliyyat-axtarış və əməliyyat-texniki bölmələrin, həmçinin başqa hüquq-mühafizə orqanlarının imkanlarının əməliyyat-axtarış vəzifələrinin yerinə yetirilməsi üçün istifadə edilməsinə aiddir).

Məhdudlaşdırılmış əməliyyat-axtarış səlahiyyətlərinə malik əməliyyat aparatlarının kateqoriyasına axtarış fəaliyyəti ilə məşğul olan aparatların, xüsusi texniki tədbirlər bölmələrinin rəis heyəti və s. aiddir.

Göstərilən vəzifəli şəxslərin əməliyyat-axtarış səlahiyyətlərinin məhdudluğu HMO-nun bu xidmət və bölmələrinin səlahiyyətləri və onların peşə üzrə ixtisaslaşması ilə müəyyən edilir. Belə ki, əməliyyat-axtarış səlahiyyətlərinin tam həcmdə ol-

masının əsas əlaməti məxfi əməkdaşlarla iş aparması, habelə cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılması üzrə əməliyyat-axtarış tədbirlərini təşkil etmək hüququnun olması ilə müəyyən olunur. Əməliyyat-texniki xidmətlərinin (bölmələrinin) əməkdaşları texniki metod və vasitələrin tətbiqi barədə əsasən tam həcmdə əməliyyat-axtarış səlahiyyətlərinə malik əməliyyat aparatlarının tapşırıqları üzrə ixtisaslaşırlar.

**Əməliyyat aparatları əməkdaşlarının qarşısına xüsusi tələblər qoyulur. Bu tələblər aşağıdakıları qadağan edir:**

- əməliyyat-axtarış fəaliyyətindən «ƏAF haqqında» Qanunda nəzərdə tutulmayan məqsəd və vəzifələrə nail olunması üçün istifadə etmək;
- dövlət aparatı orqanlarının, siyasi partiyaların, ictimai və dini birliklərin işində onların fəaliyyətinin xarakterinə təsir göstərmək məqsədilə gizli surətdə iştirak etmək;
- əməliyyat-axtarış tədbirləri nəticəsində məlum olan vətəndaşların şərəfinə, ləyaqətinə, təmiz adına ləkə gətirən, onların razılığı olmadan şəxsi və ailə həyatı sirri barədə məlumatları yaymaq.

Əməliyyat-axtarış fəaliyyətinin bu subyektlərinin vəzifə və əməliyyat-axtarış səlahiyyətlərinin ümumi həcminə onların polis əməkdaşı (pentensiar xidmətin, gömrük orqanın və s.) kimi müvafiq icraedici orqanlarının dövlət-hakimiyyət səlahiyyətləri də əlavə olunur. Səlahiyyətlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə əməliyyat aparatının əməkdaşları cinayət, inzibati, intizam və s. məsuliyyəti daşıyırlar («ƏAF haqqında» Qanunun 21-ci maddəsi).

Əməliyyat aparatlarının əməkdaşları öz sosial roluna görə geniş hakimiyyət səlahiyyətlərinə malikdirlər və onlar hüquqazidd hərəkətlərə meylli, ona yol verən vətəndaşlara təsir etməyə imkan verir. Bu səlahiyyətlərin reallaşdırılmasından ötrü əməkdaşların peşəkar və şəxsi keyfiyyətlərinə müvafiq tələblər irəli sürülür. Əməliyyat aparatı əməkdaşları qarşısında qoyulan tələblər sistemi müəyyən funksiyaların yerinə yetirilməsinin təsiri altında formalaşır.

***Əməliyyat işçisinin fəaliyyətinin sosial funksiyası ondan hər bir hüquq qaydalarına əməl edən vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinə humanist, ədalətli və eyni münasibət bəsləməsini və hüququ pozan şəxslərin əməllərinin obyektiv qiymətləndirilməsini tələb edir. Peşə borcunun yerinə yetirilməsində peşəkar davranış, cinayətkarlığa qarşı barışmaz mövqe tutmaq, mərdlik, vicdanlılıq, ba-***

***carıq və s. kimi keyfiyyətlər əməliyyat aparatı əməkdaşlarının cəmiyyətdə sosial əhəmiyyətini artırır.***

**Əməliyyat-axtarış funksiyalarının yerinə yetirilməsi yaddaş, diqqət, təmkin, müşahidə qabiliyyəti, yüksək fiziki və psixoloji dözüm tələb edir.**

***Əməliyyat-axtarış fəaliyyətinin kommunikativ (kontakt, əlaqə) funksiyası da mühüm əhəmiyyətlidir. Bu funksiya əməliyyat işçisindən müxtəlif kateqoriyadan olan insanlarla tez və qısa müddətdə səmimi əlaqə qurmaq, onların etimadını qazanmaq, şübhə yaratmadan açıq söhbətə sövq etdirmək, onlardan lazımi məlumatları almaq bacarığını tələb edir.***

Əməliyyat-axtarış fəaliyyətinin konstruktiv (səmərəli) tərəfi əməliyyat işçilərində retrospektiv və analitik təfəkkür tələbləri, müstəqillik və insanlarla münasibət qurmaq bacarığı, məqsədyönlük və sözsüz hüquq qaydalarına əməl etmə və peşəkar intuisiya (hissiyyat) keyfiyyətləri aşılayır.

Əməliyyat aparatının əməkdaşı əməliyyat-axtarış fəaliyyətinin əsas subyekti kimi təşkilati funksiyası peşəkar mütəşəkkillik və başqa subyektləri cinayətkarlıqla mübarizə vəzifələrinin müvəffəqiyyətlə yerinə yetirilməsinə cəlb etmək tələblərindən ibarətdir. Bunun üçün intizamlılıq, təşəbbüskarlıq, qətiyyətlilik kimi keyfiyyətlər vacibdir. Bunlar məxfi əməkdaşların fəaliyyətinin qaydaya salınmasina, əməkdaşların onların qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün səylərinin birləşdirilməsinə (səfərbər edilməsinə) imkan verir.

**Əməliyyat işçisi ekstremal vəziyyətlərdə soyuqqanlı, cəld, çevik hərəkət etmək, lazımi obrazlara (rollara) girmək və s. kimi bacarıq və qabiliyyətə malik olmalıdır.**

Bununla belə, əməliyyat işçisi özünün gördüyü işi qanunvericiliyə müvafiq olaraq sənədləşdirməyi bacarmalıdır (raportlar, arayışlar, izahatlar, qərarlar, aktlar, protokollar və s.). Bunlar dəqiqliyi, aydınlığı, məntiqiliyi, şifahi və yazılı nitqi, səliqəliliyi, faktların hüquq normalarına uyğun olaraq dəqiq izahını tələb edir.

**Ətrialyat aparatlarında kadrların fasiləsiz peşə hazırlığı üçün elmi və təcrübi baxımdan əsaslandırılmış sistemin yaradılması vacibdir. Bu sistemə ixtisasartırmanın bir neçə mərhələsi daxildir.**

***İlkin hazırlıq işi (tədrisi)*** əməliyyat aparatlarına yeni qəbul olunmuş əməliyyat işçiləri üçün nəzərdə tutulur. O, bir qayda olaraq tədris mərkəzləri, xüsusi ali təhsil müəssisələri (polis, gömrük və s. akademiyaları, xarici dövlətlərin hüquq-mühafizə

orqanlarının təhsil müəssisələri və s.) bazasında tədris planları, proqramları üzrə aparılır, bunlar xidmət sahəsinə və təlim alanların vəzifəsinə uyğun gəlməlidir.

Əməliyyat işçiləri müstəqil olaraq öz peşə hazırlığının və əməliyyat ustalığının artırılması (özünə təhsil) üzərində çalışırlar, ixtisasartırma kurslarında, öz peşə biliklərinin artırılması və vərdişlərinin təkmilləşdirilməsinə nail olurlar.

Bu qeyd edilənlər əməkdaşların tutduqları vəzifəyə tələb olunan bilik və vərdişlərinin artırılmasına, inkişaf etdirilməsinə şərait yaradır.

***Təlim-tədris prosesi əməliyyat-axtarış təcrübəsinin konkret və müasir materialları üzərində qurulur: yeni normativ aktların öyrənilməsi, hüquq tətbiqi təcrübəsinin təhlili, real vəziyyətə yaxın olan şəraitlərdə işgüzar oyunların əməliyyat-taktiki və qərargah təlimlərinin keçirilməsi, qabaqcıl iş təcrübəsinin öyrənilməsi və s.***

Xidməti hazırlıq kabinetləri (hadisə yeri qismində mənzil, əmanət kassası, valyuta dəyişmə məntəqəsi, mağaza və s.) idarələrin, təhsil müəssisələrinin bazası üzərində mövcud ola bilərlər, onlar həm ayrı-ayrı əməliyyat xidmətlərinin, həm də müxtəlif bölmələrin konkret nümayəndələrinin əməliyyat-xidməti vəzifələrin həlli zamanı qarşılıqlı əlaqə problemləri üzrə qrup şəklində təlimindən ibarətdir.

Tədris edənlər qismində tədris müəssisələrinin əməliyyat-axtarış və digər kafedraların professor-müəllim heyəti, əməliyyat xidmətlərinin rəhbərləri və daha təcrübəli, peşəkarlıq cəhətdən yüksək hazırlıqlı əməkdaşlar çıxış edirlər. Məşğələlərdə illüstrasiyalı materiallar, texniki vasitələr, kriminal silsilədən olan videofilmlər və s. istifadə olunur. Tədris prosesində təlimin fəal (interaktiv) metodları və formalarından daha çox istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu metodlara konkret əməliyyat-axtarış situasiyalarının analiz metodu, əməliyyat təlimləri metodu, elmi-praktiki konfranslar, qabaqcıl təcrübənin öyrənilməsi üzrə seminarlar, treninqlər aiddir.

Kadrların yenidən hazırlığı əsas xidməti vəzifələrdən ayrılmaqla və ayrılmamaqla həyata keçirilir. Xidmətdən ayrılmaqla təhsil qısamüddətli kurslarda, əməliyyat işçilərinin peşəkar fəaliyyətinin tələblərinə cavab verən xüsusi təhsil və ya ali hüquq müəssisələrinin nəzdində qısamüddətli kurslarda və yaxud qiyabi təhsil formasında həyata keçirilir. Peşə hazırlığında əyanilik təmin etməklə virtual təlimlərin keçirilməsinin də böyük əhəmiyyəti vardır.

Əsas xidməti fəaliyyətdən ayrılmaqla uzunmüddətli təhsil ali məktəblərdə həyata keçirilir. Əməliyyat işçilərinin əyani və qiyabi təhsil prinsipinin əsasını kadrların hüquqi və xüsusi hazırlığı təşkil edir.

Rəhbər kadrların hazırlanması sahəsində Dövlət Gömrük Komitəsinin və Polis Akademiyalarının strukturlarında müvafiq olaraq idarəetmənin təşkili bölmə və fakültəsi, əməliyyat aparatlarının rəhbər işçilərin digər vəzifəli şəxsləri üçün ixtisasartırma kursları fəaliyyət göstərir.

## 2.3. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların səlahiyyətləri

Hüquq ədəbiyyatında səlahiyyət dedikdə, adətən normativ-hüquqi aktlar vasitəsilə müəyyən edilmiş hüquq və vəzifələrin məcmusu nəzərdə tutulur. Bu hüquq və vəzifələr müəyyən fəaliyyət sahəsində funksiyanın yerinə yetirilməsinə səlahiyyəti olan təşkilatlara, orqanlara, vəzifəli şəxslərə aiddir.

***Səlahiyyət (kompetensiya latınca kompetentic – hüquqa uyğun mənsubiyyət mənasını daşıyır, hər hansı bir təşkilat və ya şəxsin səlahiyyətləri, şəxsin məsələlər dairəsi istiqamətində biliklərə, təcrübəyə malik olması mənasında işlədilir) qanun və ya digər normativ aktlar vasitəsilə konkret və yaxud vəzifəli şəxsə verilmiş hüquq və müəyyən olunmuş vəzifələr kimi də müəyyən edilir.***

Qanunvericilik aktları ilə müəyyənləşdirilmiş statusa əsaslanaraq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara əməliyyat-axtarış, inzibati-hüquq və cinayət-prosessual qanunvericiliyə müvafiq olaraq bu və ya digər səlahiyyətlər verilir. «ƏAF haqqında» Qanunun konseptual müddəalarına əsaslanaraq, əməliyyat-axtarış fəaliyyəti ilə bağlı səlahiyyətlər üzərində dayanaq.

Əməliyyat aparatlarının əməliyyat-axtarış fəaliyyətinin subyekti kimi səlahiyyəti qanunvericiliklə onların üzərinə qoyulmuş vəzifə kimi və onlara verilmiş hüquqlar kimi müəyyən edilmişdir. Qanunverici tərəfindən onların üzərinə qoyulan vəzifələr və verilən hüquqlar konkret müddəalarla əhatə olunmuşdur. Əməliyyat-axtarış orqanlarına verilmiş hüquqlar və onlara həvalə olunmuş vəzifələr əməliyyat işçilərinə təcrübi fəaliyyətdə qanunçuluğun pozulması hallarından yan keçməyə imkan verir. Sadəcə onlara əməl etmək lazımdır.

Əməliyyat-axtarış orqanlarının vəzifələri qanunvericiliyin normativ göstərişlərində, habelə müxtəlif qanunqüvvəli normativ aktların müvafiq müddəalarında öz əksini tapa bilər. Təcrübi işdə ilk növbədə «ƏAF haqqında» Qanununu və idarə səciyyəli normativ aktların tələblərini rəhbər tutmaq lazımdır. Bu qeyd edilən hüquqi mənbələrə əsasən əməliyyat aparatlarının üzərinə kompleks vəzifələr qoyulur və

bunların yerinə yetirilməsi əməliyyat-axtarış fəaliyyəti vəzifələrinin reallaşdırılmasını təmin edir.

Əməliyyat-axtarış orqanlarının əsas məqsədi insan və vətəndaşın konstitusiyada təsbit edilən hüquq və azadlıqlarının, əmlakın, habelə dövlətin və cəmiyyətin təhlükəsizliyinin və s. təmin edilməsindən ibarətdir («ƏAF haqqında» Qanunun 1-ci maddəsinin II hissəsi).

Müdafiə olunmalı insan və vətəndaşın konstitusiyada təsbit edilən hüquq və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasının 24-71-ci maddələrində və digər normativ aktlarda öz əksini tapmışdır. Konstitusiyanın 29-cu maddənin mahiyyətinə müvafiq olaraq mülkiyyətin müxtəlif formaları əməliyyat-axtarış orqanları tərəfindən qorunmalidır. Qeyd etmək lazımdır ki, «ƏAF haqqında» Qanunun 1-ci maddəsinə əsasən əməliyyat-axtarış orqanları insan və vətəndaşları, dövlətin cinayətkar qəsdlərdən və əməllərdən qorunması məqsədilə ƏAF-ni həyata keçirməlidirlər.

Bu qanuna müvafiq olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar təhqiqatçının, müstəntiqin icraatında olan cinayət işləri üzrə onların, prokurorun və hakimin əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə göstərişlərini və qərarlarını yerinə yetirməlidirlər. Bu göstərişlər və qərarlar qanunvericiliyin tələblərinə uyğun olaraq mütləq yazılı formada verilməlidir.

Tapşırıq alınarkən ƏAO-nun rəhbər işçi bilavasitə icraçını təyin edir. İcranın nəticələri barədə təşəbbüskara xəbər verilir.

Başqa ölkələrlə Azərbaycan Respublikası tərəfindən bağlanmış hüquqi yardım haqqında beynəlxalq müqavilələrin və sazişlərin şərtlərini yerinə yetirərək və digər ölkələrin hüquq-mühafizə orqanları ilə beynəlxalq xarakterə malik (terrorçuluq, qaçaqmalçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, saxta pul hazırlama, insanları girov götürmə və s.) ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, xəbərdar edilməsi və açılması məqsədilə qarşılıqlı əlaqə saxlayaraq, əməliyyat-axtarış orqanları müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatların, xarici ölkələrin hüquq-mühafizə orqanlarının və xüsusi xidmətlərin sorğularına cavab verməlidirlər.

Sözsüz ki, bu sorğular normativ-hüquqi aktların tələblərinə cavab verməlidir. Əməliyyat-axtarış orqanları eyni funksiyanı yerinə yetirən digər orqanlara onlara aidiyyati olan hüquqazidd hərəkətlər barədə məlumat verməli və lazımi yardım göstərməlidirlər. Yardım əməliyyat-axtarış məlumatının təqdim edilməsində, əməliyyat-axtarış tədbirlərinin birgə planlaşdırılması və keçirilməsi istiqamətlərində oluna bilər.

Qeyd edək ki, tədbirlər keçirilərkən əməliyyat aparatları konspirasiya qaydalarına riayət etməlidirlər. Bu məqsədlə əməliyyat-axtarış təcrübəsi əsasında onların gizli davranışını təmin edən xüsusi qaydalar və üsullar işlənib hazırlanır. Konspirasiya qaydalarının təmin edilməsi qabaqcıl təcrübənin müəyyən etdiyi qaydaların, habelə əməliyyat işçiləri tərəfindən xüsusi tədris müəssisələrində və xidməti hazırlıq sistemi prosesində öyrənilən üsulların üzərində qurulur.

«ƏAF haqqında» Qanunun 6-cı maddəsinə əsasən, əməliyyat-axtarış orqanları öz əməkdaşlarının, onların yaxın qohumlarının, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara kömək edən şəxslərin, cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarinın şəxsi təhlükəsizliyini və əmlakını hüquqazidd qəsdlərdən qorunmasını təmin etməlidirlər. Bu halda da onlar milli qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələri rəhbər tutmaqla tədbirlər keçirirlər.

Öz əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi üçün əməliyyat-axtarış orqanlarında şəxsi təhlükəsizliyi təmin edən xidmətlər (məsələn HMO-da daxili təhlükəsizlik bölmələri) fəaliyyət göstərir. Əməliyyat işçisinin həyatına, sağlamlığına, əmlakina təhlükə yarandığı hallarda o, əməliyyat aparatının rəhbərinin adına əsaslandırılmış raportla müraciət edir. Əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarına əsasən yaranan vəziyyəti nəzərə alaraq, onun təhlükəsizliyinin təmin edilməsi üzrə qanunvericilikdə nəzərdə tutulmuş aşağıdakı tədbirlər görülə bilər: ***şəxsi mühafizə, mənzilin mühafizəsi, silahın və fərdi xüsusi vasitələrin verilməsi, müvəqqəti təhlükəsiz yerdə yerləşdirilməsi, iş və yaşayış yerinin, sənədlərin dəyişdirilməsi və s.***

Cinayətkarlıqla mübarizədə əməliyyat-axtarış vəzifələrinin səmərəli və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə müvafiq hüquqlar («ƏAF haqqında» Qanun, mad. 7) verilir. Bu hüquqların təcrübi reallaşdırılması onların fəaliyyətinin vəzifələrinin həllinə xidmət edir. Qanunverici onlara aşkar və qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirlərini həyata keçirmək hüququ verir. Əməliyyat-axtarış tədbirlərinin aşkarlığı onları həyata keçirən subyektlərin hərəkətlərinin kənar şəxslər üçün bəzi hallarda gizli (pərdələnməsinin) olmamasını da nəzərdə tutur. Buna misal olaraq vətəndaşların aşkar sorğusunu, müqayisəli tədqiq üçün əşya və sənədlərin aşkar şəraitdə götürülməsini və s. göstərmək olar.
Əməliyyat-axtarış tədbirlərinin gizliliyi (qeyri-aşkar üsullarla keçirilməsi), on-ların məzmununun kənar şəxslərə bildirilməməsindən və onların keçirildiyi dövrdə

konspirasiyanın təmin edilməsindən ibarətdir. Konspirasiyanın gözlənilməsi kriminal mühitə xas olan davranışın xarakterindən irəli gəlir. Bu mühitdə davranış tərzi bir qayda olaraq gizli, pərdələnmiş, incə, çevik hərəkətlərlə və fəndlərlə, texniki vasitələrin tətbiqi ilə, cinayət qurbanlarına göstərilən psixoloji və fiziki zorakılıqla fərqlənirlər. Konspirasiyanın gözlənilməsi ağır, xüsusilə ağır, latent xarakterli cinayətlərin açılmasında gözlənilməzlik, qətiyyətlilik, həmləlik, operativlik prinsiplərini tam tətbiq etməyə, habelə əməliyyat-axtarış fəaliyyətinin nəticələri barədə vaxtından əvvəl məlumatın açıqlanmasına imkan vermir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara («ƏAF haqqında» Qanunun 7-ci maddəsinin 2-ci bəndi) məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək hüququ verilib. Cinayətkarlıqla mübarizə vəzifələrinin həllində əməliyyat-axtarış orqanları ilə vətəndaşın məxfi əməkdaşlığı könüllülük və inamlı münasibətlər əsasında qurulur.

Qoyulmuş məqsədə nail olmaqda maraqların üst-üstə düşməsi əməliyyat aparatına təmənna (əvəzsiz) olmadan şəxsləri məxfi əməkdaşlığa cəlb etməyə imkan verir. Belə hallarda onlar özlərinin sosial, peşəkar imkanlarından və şəxsi keyfiyyətlərindən asılı olaraq əməliyyat-axtarış orqanının tapşırıqlarını kriminal mühitdə mütəmadi olaraq yerinə yetirirlər. Əgər məxfi əməkdaşlar yüksək peşəkarlıq və müəyyən ixtisasa malikdirsə, cinayətkarlıqla mübarizədə fəal iştirak etmək qabiliyyətinə və istəyin olması onun fəaliyyətinin əvəzli xarakter daşımasına imkan verə bilər.

Məxfi əməkdaşlıq münasibətləri elə qurulmalıdır ki, onlarda cinayətkarlıqla mübarizədə fəal iştirakını stimullaşdıran şəxsi keyfiyyətlərin və sabit mövqeyinin, yəni özünün məxfi işinin zəruriliyinə əminliyi, cinayət aləminin əxlaqi və mənəviyyatını qəbul etməməsi, əməliyyat əməkdaşları ilə münasibətində səmimilik, mərdlik, ehtiyatlılıq və s. tam formalaşması, möhkəmləndirilməsi və inkişafına imkan yaransın.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirməyə səlahiyyəti olan orqanlara onun vəzifələrinin həll edilməsini təmin edən informasiya sistemlərinin yaradılması və istifadə edilməsi hüququ verilir. İnformasiya sistemlərinin əsasını kriminal, əməliyyat-axtarış və profilaktik uçot növləri, kartotekalar və kolleksiyalar təşkil edə bilər, bunlar kriminal məlumatların respublika və regional bankları istiqamətlərində formalaşdırılır. Belə sistemlər adətən, əvvəllər törədilmiş cinayətlərin üsulu və digər

səciyyələndirici cəhətləri barədə, cinayət məsuliyyətinə cəlb olunan və yaxud yeni cinayətlərin hazırlanmasında və törədilməsində şübhəli şəxslər, başqa vətəndaşlarda aşkar olunmuş, oğurlanmış əşyalar, sənədlər, cinayətkar məqsədlərlə istifadə olunan avtonəqliyyat barədə məlumatın toplanmasından, qaydaya salınmasından, təhlilindən və saxlanılmasından ibarətdir.

Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı müqavilə və ya şifahi razılıq əsasında binalardan, idarələrin, müəssisələrin, təşkilatların əmlakından, habelə qeyri-yaşayış binalarından, nəqliyyat vasitələrindən və s. istifadə edilməsi hüququ verilmişdir. Əməliyyat-axtarış orqanları və göstərilən ev sahibləri, nəqliyyat vasitələri və əmlak sahibləri arasında münasibətlər mülki və «ƏAF haqqında» qanunvericilik normaları ilə tənzimlənir.

Yaşayış yerlərindən və yaşayış binalarından, mənzillərdən, onların əmlakından və nəqliyyat vasitələrindən müvəqqəti istifadə etmə, bir qayda olaraq, təmənnasız qaydada şifahi razılıq əsasında həyata keçirilə bilər. ***Bu hüquq əməliyyat aparatları tərəfindən konkret əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində istifadə edilir: soraqlaşma, müşahidə, binalara, yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara, torpaq sahələrinə, nəqliyyat vasitələrinə və s. baxışın keçirilməsində, habelə təhlükəli, silahlı cinayətkarların tutulması əməliyyatlarının keçirilməsi zərurəti olduqda, şübhəli şəxslərin təqib edilməsində, girov götürülən şəxslərin azad edilməsində geniş istifadə olunur.***

Konspirasiya məqsədilə əməliyyat-axtarış orqanlarına əməliyyat-axtarış tədbirlərini həyata keçirən vəzifəli şəxslərin şəxsiyyətini, müəssisələrin, idarələrin, təşkilatların, bölmələrin, nəqliyyat vasitələrinin, habelə onlara konfidensial surətdə yardım edən vətəndaşların iştirakının gizli saxlanılmasını təmin edən sənədlərin istifadə edilməsi hüququ verilmişdir («ƏAF haqqında» Qanun, mad. 7). Əməliyyat işçisinin şəxsiyyətini gizli saxlayan sənədlər, habelə mənzillər və nəqliyyat vasitələri əməliyyat-axtarış tədbirlərinin iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi şərtlərindən biridir və aparılan tədbirlərin müsbət nəticələri üçün əlverişli şərait yaradır.

Qanunla nəzərdə tutulmuş vəzifələrin həll edilməsi üçün əməliyyat-axtarış orqanları Azərbaycan Respublikasının qanunvericiliyi ilə («ƏAF haqqında» Qanunun 7-ci maddəsinin 5-ci bəndi və 10-cu maddəsinin 17-ci bəndi) ilə müəyyən edilmiş qaydalar əsasında müəssisələr, idarələr, təşkilatlar və bölmələr yaratmaq hüququna malikdirlər. Təşkil olunan müəssisələr hüquqi şəxs kimi qeydiyyatdan keçməlidir

və onların sonrakı fəaliyyəti Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında konspirativlik təmin edilməklə həyata keçirilir. «ƏAF haqqında» Qanunun 7-ci maddəsinin 5-ci bəndində qeyd olunur ki, ƏAF subyektləri konspirasiya məqsədilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq hüququna malikdirlər. Ölkə Prezidentinin 19 iyun 2001-ci il tarixli «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanının II bəndinə əsasən ƏAF prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının dövlət təhlükəsizlik, xarici kəşfiyyat, daxili işlər və vergilər nazirliklərinə onların səlahiyyəti çərçivəsində həvalə olunur.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar və onların vəzifəli şəxsləri, fiziki və hüquqi şəxslərdən onların qanuni tələblərinin sözsüz yerinə yetirilməsini tələb etmək hüququna malikdirlər və bu yazılı və yaxud şifahi şəkildə ifadə oluna bilər və mütləq yerinə yetirilməlidir.

Qanunun tələbləri yerinə yetirməyən subyektlərin müvafiq qaydada məsuliyyətə cəlb edilməsi məsələlərinin qanunvericiliklə müəyyən eilməsində müəyyən "boşluqların" olmasını da etiraf etmək lazımdır.

Əməliyyat-axtarış orqanlarının vəzifəli şəxsləri inzibati-hüquqi səlahiyyətlərə malikdirlər və qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq hərəkətləri həyata keçirməyə onların hüququ vardır. Bu növ səlahiyyətlər ƏAF-nin subyektlərinin fəaliyyətini tam həcmdə nəzərdə tutan qanunvericilik aktları ilə əhatə olunur. Məsələn, «Polis haqqında» Qanunda (maddə 17 və s.) göstərilmişdir ki, polis əməkdaşları, (o cümlədən əməliyyat işçisi) hər bir şəxsdən cinayətlərə və digər hüquqpozmalara, şəxsiyyət və ictimai asayiş üçün təhlükə törədən və onlara şərait yaradan hərəkətlərə son qoyulmasını tələb etmək, cinayət və inzibati xəta törətməkdə şübhə edilənlərin şəxsiyyətini müəyyənləşdirmək üçün sənədləri yoxlamaq, qanunvericiliyə müvafiq olaraq odlu silah, xüsusi vasitələr, fiziki qüvvə tətbiq etmək hüququna malikdirlər.

Cinayət-prosessual səlahiyyətlər CPM-in tələblərinə əsaslanır, ona müvafiq olaraq təhqiqat orqanlarına daxili işlər orqanları, habelə mərkəzi icra hakimiyyətinin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi üzrə səlahiyyətlərə malik digər orqanları aid edilir. Təhqiqat orqanının funksiyalarını yerinə yetirərkən, HMO-ın, o cümlədən DİO-nun əməliyyat işçiləri cinayət törətmiş şəxsin müəyyənləşdirilməsi üçün axtarış və əməliyyat-axtarış tədbirləri görmək, müstəntiqin ayrı-ayrı istintaq hərəkətlərinə aid tapşırıqlarını (dindirilmə, axtarış, cinayətlə bağlı yerlərə baxış, sə-

nədlərə və cinayət alətlərinə baxış və onların götürülməsi və s.), habelə onun şəxsin tutulması, gətirilməsi, həbs olunması barədə qərarlarını yerinə yetirmək, onları yerinə yetirərkən kömək almaq hüququna malikdirlər.

Yeni Cinayət-Prosessual Məcəlləyə əsasən, əməliyyat-axtarış orqanlarının, təhqiqat orqanları sayılmasına baxmayaraq, təhqiqatçının səlahiyyətlərinə malik deyillər, yəni cinayət xarakterli ərizə və müraciətlərə baxa bilmir və onlar üzrə qərar qəbul etməyə, cinayət işi başlamağa, ilkin istintaq hərəkətləri keçirməyə hüquqları yoxdur.

Lakin o da qeyd olunmalıdır ki, cinayət işi üzrə əməliyyat-axtarış tədbirlərini həyata keçirmiş və ya keçirən şəxsin üzərinə təhqiqatın aparılması səlahiyyətinin qoyulmasına yol verilmir. Onu da nəzərə almaq lazımdır ki, CPM-in 86.5-ci maddəsində qeyd edilir ki, təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil.

Yeni CPM-də öz əksini tapmış, yuxarıda qeyd edilən məsələlər təcrübənin nəticələrinin təhlili və qüvvədən düşmüş CPM-in müvafiq müddəalarının təhlilinə əsaslanaraq təkmilləşdirilməsini vacib sayırıq[1].

**Beləliklə, əməliyyat-axtarış orqanlarının əməkdaşları geniş səlahiyyətlərə malikdirlər və onların qanuni tələblərinə tabe olmayan və xidməti vəzifələrin yerinə yetirilməsi zamanı onlara qarşı göstərilən zorakılıq və ya təhqirə görə vətəndaşlar inzibati, cinayət və digər məsuliyyətə cəlb oluna bilərlər.**

**Bu məsələlərdə alimlər və praktiki işçilər arasında yekdil fikir yoxdur və müəyyən problemlər mövcuddur.**

## § 3.Hüquq -mühafizə orqanlarına, o cümlədən DİO-ya məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə fəaliyyətin bəzi ümumi müddəaları

**Hüquq-mühafizə orqanları, o cümlədən DİO ilə məxfi əsaslarla (konfidensial) əməkdaşlıq əməliyyat-axtarış orqanlarının (ƏAF subyektlərinin) cinayətkarlıqla mübarizədə istifadə etdikləri qeyri-aşkar mübarizə formalarından biridir.**

1 Ş.İ.Hüseynov. "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi və təcrübi məsələləri və problemlərinin həlli yolları", XX və XXI Bölmələr, Bakı: Mütərcim, 2016)

Onun mahiyyəti cinayətkarların əməllərinin qabaqlanması, konkret tədbirlər görməklə, düşünülən, hazırlanan və törədilən cinayətlərin qarşısının alınması, onların törədilməsinə səbəb olan halların vaxtında aşkar edilməsi və aradan qaldırılması, törədilmiş cinayətlərin açılması, axtarışı elan olunmuş şəxslərin axtarılıb yaxalanması, həmçinin cinayətkarlıqla mübarizədə qarşıya çıxan digər əməliyyat-taktiki vəzifələrin həlli məqsədilə xüsusi tələblərə cavab verən (şəxsiyyət-psixoloji xüsusiyyətlərə, kəşfiyyat imkanlarına və s.) və imkanlara malik şəxslərin könüllülük əsasında əvəzli və əvəzsiz qaydada məxfi əməkdaşlığa cəlb edilib, onların köməyindən fəal surətdə istifadə etməkdən ibarətdir. Belə şəxslərlə iş cinayətkarlığın vəziyyəti və tendensiyasının, cinayətin törədilmə səbəb və şəraitinin, eləcə də cinayətkarlıqla mübarizənin nəticələrinin (xidməti ərazinin əməliyyat şəraitinin) dərin təhlili əsasında təşkil edilir və həyata keçirilir.

Vəzifəli şəxslərdən başqa, əməliyyat-axtarış fəaliyyətində xüsusi fiziki şəxslər də iştirak edə bilərlər. Onlar gizli və açıq surətdə əməliyyat aparatlarına cinayətkarlıqla mübarizə məsələlərində yardım göstərirlər. Ayrı-ayrı şəxslərin əməliyyat-axtarış tədbirlərinin hazırlanmasına və keçirilməsinə cəlb olunması «ƏAF haqqında» Qanunla və qanunqüvvəli idarə normativ-hüquqi aktlarla tənzimlənir.

Vətəndaşların əməliyyat-axtarış orqanlarına gizli köməklik göstərməsi ilk növbədə onu nəzərdə tutur ki, belə köməklik yalnız şəxslərin razılığı ilə həyata keçirilir, alınmış məlumatlar isə açıqlanmamalıdır. Bu şərt normativ aktların nəzərdə tutduğu bir sıra tədbirlərlə təmin olunur. Məxfi əməkdaşlığın bu növü kütləvi ədəbiyyatda çox vaxt konfident adlanır.

Konfidentin gizli yardım haqqında razılığı həm şifahi, həm də yazılı formada ifadə oluna bilər. Razılığın yazılı formasının əsasını (uzunmüddətli əməkdaşlıq barədə) müqavilə təşkil edir. Bu müqavilə əməliyyat-axtarış fəaliyyətinin subyekti və vətəndaş arasında bağlanır. Müqavilədə əməkdaşlığın müddəti, məqsədi, hər iki tərəfin hüquqları və vəzifələri, onun uzadılması müddəti və ya vaxtından qabaq ləğv olunması, ödənişin məbləği və ya xarakteri öz əksini tapır. Kontraktı əməliyyat-axtarış orqanı adından müvafiq idarə daxili normativ aktla müəyyən edilmiş rəhbər imzalayır. Bu zaman müqavilənin bağlanması üçün səbəblər müxtəlif ola bilər. **Bunlara misal üçün aşağıdakıları aid etmək olar:**

***- şəxsin ideoloji və mənəvi əqidəsinə əsaslanan hüquq-mühafizə orqanlarına təmənnasız yardım etmə arzusu;***

*- əməkdaşlıq etmə, cinayətlərin açılmasına fəal yardım etmə, vurulmuş ziyanın ödənilməsi hallarında cinayət məsuliyyətindən azad edilmə ehtimalı;*

*- cəzaçəkmə müəssisəsində saxlanılma şəraitinin yaxşılaşdırılması imkanı;*

*- cinayətkar mühitdəki intiqam, paxıllıq hissləri, rəqabət, hüquq-mühafizə orqanlarının konkret əməkdaşına xoş münasibət, risk etmə meyli;*

*- maddi maraq və s.*

Qanunla bu cür əməkdaşlığın zərurəti və sosial əhəmiyyəti ifadə edilir və bu məsələnin həllində üstünlük əməliyyat-axtarış orqanının səlahiyyətinə verilir. Bu zaman qanunverici qeyd edir ki, əməkdaşlığa ayrı-ayrı vətəndaşlar cəlb oluna bilər, bununla o, konfidensial (gizli) köməkliyin qrup (kollektiv) formasını istisna edir. Bu konspirasiya məqsədilə, həm də subyektin hüquqi statusunun fərdiləşməsinin təmin olunması üçün edilir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar yetkin yaşlı, iş qabiliyyətinə malik şəxslərlə, onların vətəndaşlığından, milliyyətindən, cinsindən, yaşayış yerindən, sosial və əmlak vəziyyətindən, qulluq mövqeyindən, ictimai birliklərə mənsubiyyətindən, dinə münasibətindən və siyasi əqidəsindən asılı olmayaraq, kontrakt bağlaya bilərlər.

**Bununla belə, ƏAF sahəsində qanunvericiliyin təhlili əsasında məxfi əməkdaşlığa cəlb olunmasına yol verilməyən şəxslərin siyahısına aşağıdakı şəxsləri daxil etmək olar:** deputatlar, hakimlər, prokurorlar, vəkillər, ruhanilər və rəsmən qeyd olunmuş dini birliklərin səlahiyyətli nümayəndələri və s. Bu cəhət hakimiyyət nümayəndələrinin müvafiq qanunverici, məhkəmə və nəzarət səlahiyyətlərinə malik olmaları və onların qanunvericilik fəaliyyətinə gizli təsir etmənin yolverilməzliyi ilə əlaqədardır. Bundan başqa, hakimlər müstəqildirlər və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər (AR Konstitusiyası, mad. 127). ***Digər şəxslər kateqoriyalarına aid məhdudiyyətlər daha çox mənəvi-etik normalarla bağlıdır.***

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara yardım göstərən fiziki şəxslər kateqoriyasının bir növü də əməliyyat-axtarış tədbirlərinin hazırlanmasına və keçirilməsinə açıq surətdə cəlb olunan ayrı-ayrı şəxslərdir. Bu şəxslərin nəzarət qaydasında mal alınmasında, müşahidənin aparılmasında, sorğuların keçirilməsində, müqayisəli tədqiqi üçün nümunələrin toplanmasında, şəxsiyyətin eyniləşdirilməsində

və digər tədbirlərdə istifadə edilə bilər. Qeyd edilən tədbirlərin nəticələri açıq surətdə istifadə oluna, şəxslər isə cinayət işi üzrə şahid kimi çıxış edə (dindirilə və s.) bilərlər.

Əməliyyat aparatı tərəfindən ştatdankənar əməkdaşların açıq yardımından istifadə edilə bilər. Onlar profilaktik tədbirlərin keçirilməsində, yoxlanılan şəxsi xarakterizə edən məlumatların toplanmasına, materialların kütləvi informasiya vasitələrinə hazırlanmasına, əhali arasında hüquq mövzusunda çıxışlara, əməliyyat işçilərinin müxtəlif tapşırıqlarının yerinə yetirilməsinə cəlb oluna bilərlər.

trial yardımın qaydası və şərtləri qanunqüvvəli aktlarla tənzimlənir. Bu aktlar DİN və MTN-in rəhbərləri və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən digər orqanların rəhbərləri tərəfindən təsdiq olunur və onlarda qeyd edilən şəxslərin əsas vəzifələri, hüquqları və s. məsələlər əhatə olunur. Sözsüz ki, vətəndaşların açıqköməklik üçün əməkdaşlığa cəlb olunması, həmçinin onların üzərinə müəyyən vəzifələrin qoyulmasını nəzərdə tutur. **Onlar:**

***- əməliyyat aparatları tərəfindən keçirilən tədbirlərdə könüllü surətdə iştirak etməlidirlər;***

***- qanunvericiliyin tələblərinə riayət etməlidirlər;***

***- əməliyyat aparatlarına onlara məlum olan hazırlanan, törədilən və ya törədilmiş cinayətlərə aid faktları çatdırmalıdırlar;***

***- cinayətlərin profilaktikasına aid tədbirlər görməlidirlər;***

***- əməliyyat-axtarış fəaliyyəti prosesində onlara məlum olan konfidensial məlumatın yayılmasına yol verməməlidirlər;***

***- əməliyyat işçilərinin tapşırıqlarını vicdanla yerinə yetirməlidirlər.***

Aşkar əməliyyat-axtarış tədbirlərinin keçirilməsində köməklik göstərmək məqsədi ilə cəlb olunan vətəndaşların işinin təşkili əməliyyat aparatlarının rəhbərləri tərəfindən həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əsas vəzifələrindən biri də ("ƏAF haqqında" Qanunun 6-cı maddəsinin 8-ci bəndi) öz əməkdaşlarının, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlakını hüquqazidd qəsdlərdən qorunmasını təmin etməkdir. ƏAF subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial müdafiəsi "ƏAF haqqında" Qanunun 17-ci maddəsində qeyd edilən, "Əmək pensiyaları təminatı haqqında" Qanunun müddəalarında öz əksini tapmışdır. Bu istiqamətdə də qanunvericiliyin təkmilləşməsinə ehtiyac vardır.

Bu işin hüquqi əsasları «ƏAF haqqında» Qanunun 1, 3, 6, 7, 10, 14, 17-ci və s. maddələrində birmənalı şəkildə göstərilmişdir. Qeyd edilən kateqoriyadan olan şəxslərlə işin təşkili ilə bağlı məsələlər DİN-in müvafiq normativ aktları və s. ilə tənzimlənir.

Yuxarıda qeyd olunan maddələrə əsasən, əməliyyat-axtarış tədbirləri zamanı ƏAF subyektlərinə (DİO-nun əməliyyat xidmətlərinin əməkdaşları) konspirasiya qaydalarına riayət etməklə, aşkar və qeyri-aşkar üsullarla tədbirlər həyata keçirmək, məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək, müqavilə və şifahi razılığa əsasən, fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından istifadə etmək, habelə məxfilik əsasında əməkdaşlıq edən şəxslərin anonimliyini təmin etmək və belə şəxslərin şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək və s. məsələlərlə bağlı səlahiyyətlər (hüquq və vəzifələr) müəyyən olunmuşdur.

**Bu işin subyekti – dövlət sirlərinə, o cümlədən ƏAF subyektləri ilə məxfilik əsasında əməkdaşlıq etməyə razı olan şəxslərlə işə buraxılışı olan DİO-nun əməliyyat xidmətlərinin əməkdaşları sayılır.**

DİO-nun əməliyyat aparatları ilə məxfilik əsasında əməkdaşlıq edən şəxslərlə fəaliyyəti həyata keçirilərkən, **HMO-ın, o cümlədən DİO qarşısında duran vəzifələr aşağıdakılardır:**

1. ağır və xüsusilə ağır cinayətlərin vaxtında aşkar edilməsi, qarşısının alınması, onların qısa müddətdə və tam açılması, cinayətkarların vurduqları maddi ziyanın vaxtında və tam ödənilməsinin təmin edilməsi;

2. məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, eləcə də cəza çəkməkdən yayınan məhkum olunmuşların, habelə itkin düşmüş şəxslərin axtarılması;

3. cəzaçəkmə müəssisələrində törədilən cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və aradan qaldırılması və s.

Məxfi əməkdaşlarla işi həyata keçirərkən, qanunçuluğun, məxfilik rejiminin tələblərinin pozulmasına görə təqsirkar vəzifəli şəxslər qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq olaraq cinayət (CM, mad. 284: «dövlət sirrini yayma», maddə, 284: «məzmununda dövlət sirri olan sənədləri itirmə», maddə 302: «Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma» və s.), inzibati və intizam məsuliyyəti daşıyırlar. **Qeyd edilən kateqoriyalardan olan şəxslərlə (məxfi əməkdaşlarla) işin təşkili, taktikası, üsul və formaları HMO-ın, o cümlədən DİN-in müvafiq normativ aktları ilə tənzimlənir.**

## § 4. Şəxslərin məxfilik əsasında əməkdaşlığa cəlb edilməsi

DİO-nun əməliyyat-axtarış orqanları (ƏAF subyektləri) ilə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq – təhkim olunmuş xidməti ərazidə mövcud əməliyyat şəraitinin və işin istiqamətinin dərin təhlilinə əsaslanmaqla, optimal, stabil və zəruri əməliyyat məlumatlandırmanın və DİO-nun cinayətkarlıqla mübarizə üzrə vəzifələrinin ixtisaslı və səmərəli yerinə yetirilməsini təmin etmək məqsədilə həyata keçirilir. Onun hüquqi əsasları «ƏAF haqqında» Qanunun 1, 3, 6, 7, 10, 14 və 17-ci maddələrində birmənalı şəkildə göstərilmişdir. Göstərilmiş maddələrə əsasən, əməliyyat-axtarış fəaliyyəti zamanı müvafiq dövlət orqanlarina konspirasiyaya riayət etməklə, aşkar və qeyri-aşkar üsullarla tədbirlər həyata keçirmək, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq, müqavilə və şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlardan istifadə etmək, əməkdaşlıq edən şəxslərin məxfiliyini təmin etmək və bu məqsədlə belə şəxslərin şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək hüquqları verilmişdir.

**Əməliyyat tapşırığını yerinə yetirərkən, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxsinin cinayətkar qrupların və ya kriminogen obyektlərin daxilində olması, habelə bu zaman zəruri özünümüdafiə və ya son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətlər Azərbaycan Respublikası cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibini yaratmır, eyni zamanda, cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əlamətləri olan və ağır cinayətlərə səbəb olmayan əməllər törədibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.** Qeyd edilən şəxslərlə konfidensial münasibətlər qısamüddətli və uzunmüddətli ola bilər. Belə münasibətlər könüllülük əsasında qurulur və hər hansı bir tərəfin istəyi ilə onlara son qoyula bilər. Belə əməkdaşlığın fiziki və psixoloji zorakılıq yolu ilə qurulması qadağandır. Bu münasibətlər kontrakt (müqavilə) əsasında qurula bilər. Müqavilə əsasında həyata keçirilən münasibətlər daha sabit, möhkəm olur və davamlı (daha uzun müddətli) olur. **Konfidensial münasibətlərə 18 yaşına çatmış istər Azərbaycan Respublikasının, istərsə də xarici dövlətlərin vətəndaşları və vətəndaş-**

**lığı olmayan şəxslər cəlb oluna bilər.** Konfidensial münasibətlərin qrup formasına yol verilmir. **Qanunvericilik hakimiyyətinin nümayəndəli, seçkili orqanlarının, məhkəmə hakimiyyəti orqanlarinın, həmçinin qanunvericiliklə nəzərdə tutulan digər orqanların nümayəndələri ilə məxfilik əsasında əməkdaşlığa yol verilmir.** Lakin MDB-yə daxil olan ölkələrin «ƏAF haqqında» qanunvericiliyinə görə, belə şəxslərlə konfidensial əməkdaşlıq tam qadağan olunmur və belə münasibətlər əsasında əməkdaşlıq nəzarət altında həyata keçirilə bilər.

**Kontrakt (müqavilə) yazılı formada rəsmiləşdirilir və o, DİO ilə konkret bir şəxs arasında bağlanan müqavilə (razılaşma) olub, özündə əməkdaşlığın məqsədini, müddətini, hər iki tərəfin hüquq və vəzifələrini, ona son qoyulmasının şərtlərini, müəyyən olunmuş mükafatları və s. əks etdirir.** Konfidensial əməkdaşlıq yalnız qanunda nəzərdə tutulan məqsədlərin və vəzifələrin həlli üçün istifadə olunur.

Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur.

**Məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya qanunla birbaşa nəzərdə tutulmuş hallarda aşkarlana bilərlər.**

Cinayət məsuliyyətinə cəlb olunması halları istisna edilməklə, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olunan şəxslərin və məxfi əməkdaşların şəxsiyyəti haqqında məlumatlar, həmin şəxslərin yazılı razılığı olduqda, prokurora təqdim edilə bilər. Əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vəsaitlərinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil.

**Nəzarəti həyata keçirən prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.**

İş və xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq olaraq cinayət və intizam məsuliyyəti daşıyırlar. HMO-ın, o cümlədən DİO-nun əməliyyat xidmətlərinin əməkdaşlarına məxfilik əsasında kömək etməyə razılaşan şəxslərin cəlb edilməsi taktikası, üsul və formaları DİN-in müvafiq normativ aktları ilə tənzimlənir və onların müddəaları (normativ göstərişləri) xidməti və dövlət sirlərinə dair məlumatlara aid edilir.

## § 5. Əməliyyat-axtarış fəaliyyətində müqavilə (kontrakt)

**Əməliyyat-axtarış fəaliyyətində müqavilə (ƏAF müqaviləsi) və onun rəsmiləşdirilməsi (bağlanması) şərtləri Azərbaycan Respublikasının 28.X.1999-cu il tarixli «ƏAF haqqında» Qanununun 17-ci maddəsinin II hissəsinə əsasən, əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı ilə bağlanmış müqavilə kimi başa düşülür.** Belə halda müqavilə ƏAF subyektlərinin əməliyyat aparatları ilə vətəndaşlığı, milliyyəti, cinsi və sosial vəziyyətindən, vəzifəsindən, müxtəlif təşkilat, birlik və siyasi partiyaların mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, anlaqlı, fəaliyyət, mülki fəaliyyət qabiliyyəti olan şəxslər arasında bağlana bilər.

Müqavilə iki və ya bir neçə şəxsin arasında olan razılaşmadan ibarət olub, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı məsələlərinin həllini təmin edir (Mülki Məcəllə, maddə 389). **ƏAF-də yuxarıda qeyd etdiyimiz müqavilə mülki hüquq baxımından nəzərdə tutulan müqavilədən qismən fərqlənir.** Sözsüz ki, ƏAF-də olan müqavilədə ƏAF-nin 2 subyekti arasında, ƏAO ilə məxfilik əsasında əməkdaşlıq etməyə razı olan şəxs arasında subyektiv hüquqları və vəzifələri müəyyən edir. Bu hüquqi akt olub, bağlanması və qüvvəyə minməsi hüquqi nəticələrlə bağlidır və bu prosesdə xüsusi əməliyyat-axtarış münasibətləri yaranır. Bununla yanaşı, belə müqavilə həyatda həmçinin hüquqi münasibətlərin (əmək, mülki-hüquqi və s.) yaranmasına da səbəb ola bilər.

**ƏAF subyektləri arasında bağlanan müqavilə yazılı qaydada rəsmiləşdirilir və ƏAF-nin məqsədləri və onlara nail olmaq vəzifələrinin həyata keçirilməsinə dair onun subyektlərinin qarşılıqlı vəzifə və hüquqlarını əhatə edir.**
Əməliyyat-axtarış müqaviləsi inzibati və mülki-hüquq müqaviləsindən seçilmə-lidir, belə ki, o, özündə qeyd edilən hər iki növ razılaşmanın elementlərini əhatə edir.

Mülki-hüquqi müqavilə fərdi, xüsusi marağa xidmət edirsə, əməliyyat-axtarış müqaviləsi cəmiyyət üçün əhəmiyyət kəsb edən nəticələrin əldə edilməsinə – insanları, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumağa xidmət edir.

**Müqavilənin (kontraktın)[1] məzmunu**

1 Kontrakt – latınca contractus sözündən götürülmüşdür, hüquqi mənada müqavilə kimi başa düşülür, ƏAF-də əməliyyat aparatının vəzifəli şəxsi ilə konfident arasında əməkdaşlıqla bağlı bağlanan, hər 2 tərəf üçün müəyyən hüquq və vəzifələri nəzərdə tutan müqavilə mənası daşıyır.

Bir qayda olaraq, müqavilədə onun predmeti və qüvvədə olması dövrü, tərəfərin hüquq və vəzifələri, onun əvəzli olub-olmaması, həmçinin onun uzadılması, xətm olunma şərtləri və qaydası göstərilir.

**Müqavilənin (kontraktın) predmeti**

Ümumi müddəalarla tərəfərin ƏAF-nin vəzifələrinin həlli ilə bağlı hansı öhdəlikləri öz üzərinə götürməsi qeyd olunur. Tərəfərin hərəkətlərini səciyyələndirən cəhətlər xüsusilə qeyd olunur və s. Müqavilədə dövlət sirlərini təşkil edən məlumatlara dair qeydlərin aparılmasına icazə verilmir.

**Tərəflərin hüquq və vəzifələrində müqavilənin predmeti qeyd edilməklə yanaşı, ƏAO-nun, müqavilə bağlayan şəxsin, onun ailə üzvlərinin, yaxın qohumlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı vəzifələri də qeyd olunur.**

Müqavilədə ƏAF subyektləri ilə əməkdaşlıq edən şəxslərin əmək haqqı, mükafat və digər təminatlara olan hüquqları və s. öz əksini tapır. Müqavilədə dövlət və xidməti sirlər ilə bağlı xüsusi şərtlər də ola bilər.

Əgər müqavilənin mətnində başqa müddət göstərilməyibsə, o, hər iki tərəfdən imzalandığı andan qüvvəyə minir. Müqavilə vaxtından əvvəl də öz qüvvəsini itirə bilər və buna səbəb müxtəlif əsaslar ola bilər (məsələn, müqavilə bağlanması üçün əsas olan məqsədə vaxtından əvvəl nail olunduqda, şəxsin xəstəliyi, kəşfiyyat-axtarış imkanlarinın itirilməsi və ya tükənməsi, müəyyən toxunulmazlıq statusunun əldə etməsi, olması, tərəfərdən birinin müqavilə şərtlərinə əməl etməməsi və s.). Müqavilənin ƏAO tərəfindən vaxtından əvvəl pozulması əsasları HMO-ın, o cümlədən DİN-in ƏAF-ni nizamlayan normativ aktlarında öz əksini tapır (məsələn, bilərəkdən yalan məlumatların verilməsi, cinayətin törədilməsi və ya gizlədilməsi və s.).

***Müqavilənin şərtlərinin bağlanma qaydalarına verilən tələblər ƏAF subyektlərinin (ƏAO) fəaliyyətini nizamlayan normativ aktlarında öz əksini tapmışdır.*** «ƏAF haqqında» qanunvericiliyə, Azərbaycan Respublikasının Konstitusiyasına, «Prokurorluq haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Milli Məclisin deputatlarinın statusu haqqında» və s. qanunlara müvafiq olaraq müqavilə əsasında ***Milli Məclisin deputatlarının, prokurorların, hakimlərin, vəkillərin və s. şəxslərin müqavilə əsasında konfidensial əməkdaşlığa cəlb olunmasına icazə verilmir. Belə qadağan 2 amillə şərtləndirilir.*** **Birincisi, hakimiyyət nümayəndələrinin müvafiq olaraq qanunvericilik, məhkəmə və nəzarət səlahiyyətlərinə malik olması ilə bağlı fəaliyyəti icra hakimiyyəti orqanlarına konfidensial müqavilə əsasın-**

**da köməklik göstərməsi ilə bir araya sığmır, ikincisi isə, mənəvi-etik əsaslardır (məsələn, şəxsin gizli olaraq din xadimləri qarşısında onun bağışlanması ilə əlaqədar olaraq öz günahlarını açıqlaması).**

## § 6. Hüquq-mühafizə orqanlarının, o cümlədən DİO-nun əməliyyat aparatları ilə məxfilik əsasında əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq edən şəxslərlə əlaqə

Belə əlaqə dedikdə, HMO-nun əməliyyat aparatlarının səlahiyyətli işçilərinin (vəzifəli şəxslərinin) onlarla məxfilik əsasında əməkdaşlıq edən şəxslərlə konspirativ qaydada sistemli olaraq cinayətkarlığa qarşı mübarizə ilə bağlı məsələlərin həlli üçün təmasda (ünsiyyətdə) olması başa düşülür. **Belə əlaqələr qüsamüddətli və uzunmüddətli ola bilər.**

DİO-nun əməliyyat xidmətləri ilə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əlaqə – təhkim olunmuş xidməti ərazidə mövcud əməliyyat şəraitinin və işin istiqamətinin xüsusiyyətlərindən asılı olaraq, HMO, o cümlədən polis orqanları üçün əməliyyat marağı kəsb edən şəxslər, faktlar və hadisələr barədə operativ məlumatlar almaq və bu işlərlə əlaqədar onlara tapşırıqlar vermək məqsədilə həyata keçirilir. **Əlaqə konspirasiya və məxfilik rejimi qaydalarına ciddi riayət etməklə həyata keçirilir. Bu əlaqələrə aşağıdakı tələblər verilir: fərdilik, differensial yanaşma, işgüzarlıq, sabitlik, konspirativlik, çeviklik, məxfilik rejimi qaydalarının təmin olunması və s.** Bu işin hüquqi əsasları «ƏAF haqqında» Qanunun 3, 6 və 7-ci maddələrində öz əksini tapmışdır. Qeyd olunan maddələrdə göstərilir: «Əməliyyat-axtarış fəaliyyəti konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsiplərinə əsaslanır. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən, konspirasiya qaydalarına riayət edilməsi üçün əməliyyat-axtarış fəaliyyəti subyektlərinə müvafiq tədbirlər görmək, hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

- hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq;
- əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemini yaratmaq və ondan istifadə etmək;

- əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən, fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;

- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bina, otaq və nəqliyyat vasitələrinin mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək hüquqları verilmişdir.

***Məxfi əməkdaşlarla əlaqənin təşkili, üsul və formaları, nəticələrinin sənədləşdirilməsi DİN-in müvafiq normativ aktları ilə tənzimlənir.***

BMT-nin polis tərəfindən təhqiqatın aparılmasına dair beynəlxalq standartlar sisteminə gizli məlumat verənlərlə də davranış qaydaları nəzərdə tutulmuşdur.

**Gizli məlumatlar verənlərlə davranışa aid bəzi aşağıdakı standartları misal göstərmək olar:**

Cinayət və cinayətkarlar barədə gizli məlumat verənlərdən alınmış informasiya xüsusi əhəmiyyət kəsb edir və bəzən ayrı-ayrı cinayətkarların, o cümlədən mütəşəkkil cinayətkar qruplaşmalarının üzvlərinin cinayət-mühakimə icraatı prosesində təqsirli olması və cinayət məsuliyyətinə cəlb edilməsi üçün yeganə vasitədir. Ayrı-ayrı polis müstəntiqləri tərəfindən gizli məlumat verənlərlə əlaqəyə girməsi və onlardan istifadə olunması polis orqanının işinin səmərəliliyini xeyli dərəcədə yüksəldə bilər.

**Eyni zamanda aşağıdakı səbəblər üzündən müəyyən təhlükələr yarana bilər:**

a) gizli məlumat verənlər (konfidentlər) adətən özləri cinayətkar fəaliyyətlə məşğul olurlar, yaxud cinayətkarlarla sıx əlaqədə olurlar;

b) məlumat adətən pulla, yaxud digər imtiyazlarla əldə edilir;

c) polis əməkdaşları ilə məlumat verənlər arasında münasibətlər zəruriliyinə görə məxfi qaydada aparılır.

**Prosesin təhlükələri aşağıdakılardır:**

a) məlumat verən vəziyyətdən belə istifadə edə bilər: cinayət törədərək, həbsdən qaça bilər;

b) cinayət barədə informasiya vermək üçün (maddi və s. maraqları məqsədilə) kriminal səciyyəli məlumatı olan və digər şəxsləri cinayət törətməyə təhrik edə bilər;

c) HMO-nun əməkdaşı fəaliyyətinin yüksək səmərəliliyi nümayiş etdirmək məqsədilə müəyyən çıxılmaz vəziyyətlər yaranmaqla şəxsləri cinayət törətməyə təhrik etməyə məcbur edə bilər;

z) gizli məlumat verənlərlə maddi maraqla bağlı əlaqələrə görə polis əməkdaşı korrupsiyaya (korrupsiya cinayətləri törədə bilər) uğraya bilər.

**Qeyd edilən səbəblər üzündən hüquq-mühafizə orqanları, o cümlədən polis orqanları əməkdaşları ilə gizli məlumat verənlər arasında əlaqələr və münasibətlər üzrə qaydaları təsis edib möhkəmləndirməlidir.**

**Bu tipli qaydalar aşağıdakıları nəzərdə tutmalıdır:**

a) gizli məlumat verənin «ifadəsinə», yəni məlumat verənlə əlaqələrin saxlanılmasına və münasibətlərin həyata keçirilməsinə görə yalnız bir polis əməkdaşı məsuliyyət daşımalıdır. Belə yanaşma, məlumat verənlə bütün münasibətlərə görə bir cavabdeh polis əməkdaşını müəyyən edir;

b) məlumat verənin şəxsiyyəti tamamilə məxfi saxlanılmalidır, lakin məlumat verənlə əməkdaşlıq edən HMO-ın, o cümlədən polis əməkdaşının müdafiəsi, habelə məlumat verənin müdafiəsi üçün həmin şəxsin və onunla əlaqəyə görə məsuliyyət daşıyan əməkdaşın şəxsiyyəti barədə rəsmi sənəd olmalıdır. Bu sənədə əsasən HMO-nun orqanının bir nəfər rəis heyətinin (vəzifəli şəxsi) yalnız bir şəxslə məxfi əməkdaşlıq edə bilər (beynəlxalq standartlara müvafiq olaraq; normativ aktlarda istisna hallarda nəzərdə tutula bilər);

c) gizli məlumat verənin fəaliyyətinə ciddi nəzarət təmin edilməlidir. Təcrübi fəaliyyətdə elə hallar olur ki, məlumat verən cinayətin hazırlanmasından məlumatlı olur bəzən də, o, həmin cinayətin hazırlanması mərhələsində iştirak edir və onun cinayət törədilməsində iştirak etmək ehtimalı yaranır. Ümumi qayda kimi bu yolverilməzdir, çünki bu mütləq məlumat verənin cinayət məsuliyyətinə cəlb edilməsi ilə nəticələnə bilir;

ç) yalnız bir sıra hallarda, cinayətkar fəaliyyətdə məlumat verənin iştirak etməməsi onun üçün təhlükə yaradarsa, belə vəziyyətdə o zərurət və zəruri müdafiə vəziyyətində və "ƏAF haqqında" Qanunun 10 maddəsinin VIII hissəsində qeyd edilən halda məlumat verən cinayət fəaliyyətində iştirak edə bilər. Cinayətkar fəaliyyət ilə, o cümlədən məlumat verənin belə fəaliyyəti ilə barışma vacib hüquqi və əxlaqi məsələlərə aiddir. Bu barədə hər bir qərar HMO-nun ən yüksək idarəçilik səviyyəsində və yalnız prokurorluq orqanları ilə məsləhətləşmələrdən sonra qanunvericilyin tələbləri rəhbər tutulmaqla qəbul olunmalıdır. Belə qərar və məsləhətləşmələr hər iş üzrə hərtərəfi müzakirə predmeti olmalıdır.

***Bu istiqamətdə də münasibətlərin tənzimlənməsinin təkmilləşdirilməsini zəruri hesab edirik.***

**Bir sıra xarici dövlətlərin qanunvericiliyində konfidentlər tərəfindən xüsusi təhlükəki cinayətlərin açılması məqsədi ilə, şəxsiyyət əleyhinə cinayətlər istisna olmaqla, konfident tərəfində az ağır cinayət əməllərinin törədilməsinə qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada yol verilir.**

d) gizli məlumat verənlərin informasiyalarına görə maddi mükafat həddindən artıq ola bilməz. Mükafat böyük stimul təşkil etməməlidir, əks təqdirdə, onlar digər şəxsləri cinayət törətməyə təhrik etməyə həvəsləndirə bilərlər.

Gizli məlumat verənlərlə səmərəli davranış sisteminin təsis olunması cinayətlərin qarşısını almaq və aşkar etmək üçün həyati əhəmiyyət kəsb edir. Bu sistemdə korrupsiya halının mövcudluğu HMO-ın əməkdaşlarının korrupsiyaya qurşamasına, cinayət mühakimə icraatında ciddi nöqsanlara və insan hüquqlarına qarşı sui-istifadəsinə gətirib çıxarır.

## § 7. Əməliyyat-axtarış orqanlarına vətəndaşlar tərəfindən köməkliyin göstərilməsi

Cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən əməliyyat-axtarış fəaliyyətinin müxtəlif metodları tətbiq olunur və qanunla müəyyən olunmuş tədbirlər həyata keçirilir. Bu zaman aşkar və qeyri-aşkar üsul və mübarizə formalarından istifadə olunur.

Vətəndaşların əməliyyat-axtarış orqanlarına kömək göstərmələri, konfidensial əsaslarla (məxfi) əməkdaşlıq etmələri, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin cinayətkarlıqla mübarizədə istifadə etdikləri qeyri-aşkar mübarizə formalarından biridir.

Bu sahədə fəaliyyəti tənzimləyən normaların (7-ci maddənin 2-ci və 4-cü bəndləri, 9, 17-ci və s. maddələri) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda əksini tapması qeyri-aşkar formada həyata keçirilən metodlar arasında agentur metodunun xüsusi yer tutmasını şərtləndirir.

**Agentur metodun mahiyyəti əməliyyat-axtarış fəaliyyətində və cinayətkar mühitdə müxtəlif kateqoriyalı konfidentlərin (məxfi əməkdaşların) bilavasitə fəaliyyətindən ibarətdir.** Bu metodun istifadə edilməsi sayəsində “cinayət aləminin” müxtəlif kateqoriyadan olan şəxslər (cinayətkarlar) haqqında məlumatın əldə edilməsi, cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılması məqsədinə nail olmaq, cinayətkar hərəkətlərin qeyri-leqal yolla əməliyyat-xidməti sənədlərlə rəsmiləşdirilməsi mümkün olur.

**Vətəndaşların əməliyyat-axtarış fəaliyyətində iştirakı və onların köməyi olmadan cinayətkarlıqla uğurlu mübarizə, dövlətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi qeyri-mümkündür. ƏAF-ın subyektlərinə kömək göstərən şəxslərin fəaliyyətinin müvəffəqiyyəti onların məxfiliyinin və anonimliyinin təmin edilməsindən çox asılıdır. Odur ki, bütün bunlar nəzərə alınaraq, onların təmin olunması münasibətləri «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 6-cı maddəsinin 9-cu bəndində əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifəsi kimi müəyyən olunmuşdur.**

Bununla əlaqədar olaraq konfidentlərin (məxfi əməkdaşların) fəaliyyəti əsasən gizli üsulların tətbiq edilməsini nəzərdə tutur.

Əməliyyat-axtarış orqanlarına vətəndaşların köməyi hadisələrin dərk olunması prosesində əldə edilən əməliyyat-axtarış xarakterli məlumatların təcrübədə istifadə olunmasından ibarətdir və hazırlanan və törədilən cinayətlərin qarşısının alınması, törədilmiş cinayətlərin açılması istiqamətində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bilavasitə bağlıdır. **Kömək göstərilməsi anlayışına əməliyyat-axtarış xarakterli məlumatların toplanması, əldə edilməsi və əldə edilmiş məlumatların əməliyyat-axtarış tədbirlərinin, həmçinin istintaq hərəkətlərinin hazırlanması və həyata keçirilməsi istiqamətində istifadəsinə dair fəal hərəkətlər daxildir.**

Belə məlumatları kömək göstərən şəxslər cinayəti hazırlayan, törədən və törətmiş, cinayət hadisəsinin şahidi olan şəxslərin hərəkətlərinin vizual müşahidəsi, eləcə də onlarla söhbət zamanı əldə edə bilirlər. Əldə edilmiş məlumatlardan cinayətlərin törədilməsi səbəb və şəraitinin aradan qaldırılması və ya cinayətlərin törədilməsini çətinləşdirən, qeyri-mümkün edən şəraitin yaradılması, eləcə də şəxsləri cinayət törətməkdən çəkindirmək və cinayətkarların hərəkətlərinin sənədləşdirilməsi məqsədilə istifadə edilə bilər.

**Vətəndaşların əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək göstərməsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanununda nəzərdə tutulmuş müvafiq normalarla, digər qanun və qanunqüvvəli normativ aktlarla, o cümlədən əməliyyat-axtarış fəaliyyəti subyektlərinin idarədaxili normativ-hüquqi aktları ilə tənzimlənir.**

**«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 9-cu maddəsinin I hissəsinin məzmununa görə Azərbaycan Respublikasının dövlət və yerli özünüidarəetmə**

**orqanlarının vəzifəli şəxsləri əməliyyat-axtarış fəaliyyəti subyektlərinə öz vəzifələrinin yerinə yetirilməsində kömək göstərməyə borcludurlar.** Qeyd olunan müddəanı şərh edərkən, belə bir fikir söyləmək olar ki, siravi vətəndaşlardan fərqli olaraq dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxslərinin əməliyyat-axtarış fəaliyyəti subyektlərinə köməyi onların iradəsindən kənar edilən hərəkətdir. Yəni, köməkliyin göstərilməsi onların hüququ yox, tutduğu vəzifədən və qulluq mövqeyindən irəli gələn borcudur. Qanunun 9-cu maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində olan hər bir şəxs əməliyyat-axtarış fəaliyyəti subyektinə onların səlahiyyətlərinin yerinə yetirilməsində kömək göstərə bilər. **Heç kəs əməliyyat-axtarış fəaliyyətində məcburi qaydada iştirak etməyə cəlb edilə bilməz. Yəni, hər hansı bir şəxsin əməliyyat-axtarış fəaliyyəti subyektinə kömək göstərməsi onun hüququdur və əməliyyat-axtarış fəaliyyətində iştirakı könüllülük əsasında həyata keçirilməlidir.**

Vətəndaşların köməyindən istifadə etmələri ilə əlaqədar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda əməliyyat-axtarış fəaliyyəti subyektləri üçün müəyyən hüquq və vəzifələr müəyyən olunmuşdur. Belə ki, qanunun 7-ci maddəsinin 2 və 4-cü bəndinə əsasən, əməliyyat-axtarış fəaliyyəti subyektləri öz səlahiyyətlərini yerinə yetirərkən, məxfilik əsasında onlara kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək, müqavilə və ya şifahi razılıq əsasında fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından, otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək hüququna malikdirlər. Bu hüquqlardan istifadə edərkən, qanunun 6-cı maddəsinin 8 və 9-cu bəndinə əsasən, hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək, köməklik göstərən edən şəxslərin, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlakını hüquqa zidd qəsdlərdən qorumaq əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifəsidir.

Əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin köməyindən istifadə zamanı yaranan münasibətlərdən irəli gələrək, qeyd olunanlardan qarşılıqlı olaraq həm əməliyyat-axtarış fəaliyyəti subyetləri, həm də əməkdaşlıq edən şəxslər üçün müəyyən öhdəliklər yaranır. Yəni şəxslər əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq etməyə başlayarkən, əməliyyat xarakterli məlumatlar əldə edilməsinə istiqamətlənməlidirlər. Çünki əməliyyat-axtarış orqanlarına hazırlanan, törədilən və törədilmiş cinayətlər barədə məlumat vermək onların vəzifəsidir. Qarşı tərəfin əsas öhdəliyi ondan ibarətdir ki, qeyd edildiyi kimi, əməkdaşlıq edən şəxslərin məxfiliyi, anonimliyi təmin edilməlidir və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 14-cü maddəsinin X

hissəsinə əsasən onlar barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər.

Məxfi əməkdaşlığa cəlb edilən namizədlərin seçilməsində onların şəxsiyyət psixoloji və sair zəruri olan keyfiyyət xüsusiyyətləri ilə hansı istiqamətdə və hansı növ cinayətlərə qarşı mübarizədə istifadə edilməsinin məqsədəuyğunluğu müəyyən edilməlidir.

**Şəxslərin əməliyyat-axtarış fəaliyyətində iştirak etmək hüququnun qanunvericilikdə təsbit olunması, o demək deyil ki, hər bir şəxsin belə bir istəyinin olması həmin hüquqların reallaşması ilə nəticələnəcək. Bunun üçün belə şəxslərlə əməkdaşlıq münasibətlərinin qurulmasına, onların əməliyyat-axtarış tədbirlərinin hazırlama və keçirilməsinə cəlb olunması üçün əməliyyat-axtarış orqanlarının razılığı olmalıdır.** Bununla bağlı məsələlərn həll edilməsi hər bir əməliyyat-axtarış fəaliyyəti subyektinin müstəsna hüququdur.

Şəxslərin əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşliğı məqsədə uyğun və qanuna müvafiq formada olmalı və müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsinə istiqamətlənməlidir. Bu zaman əməkdaşlığa cəlb edilən şəxsin imkanları, şəxsi keyfiyyətləri, verilən tapşırıqların yerinə yetirilməsi ilə bağlı əldə edilə biləcək nəticələrin təhlili və s. hallar nəzərə alınmalıdır.

**«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 17-ci maddəsinin II hissəsində qeyd olunmuşdur ki, əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilə bilər.** Bununla şəxsin əməliyyat-axtarış tədbirlərinin hazırlanması və keçirilməsində iştiraka razılığı obyektiv olaraq təsbit olunur. Qeyd edilənlərlə yanaşı, şəxslərin əməliyyat-axtarış fəaliyyəti subyektlərinə köməklik göstərmələri və buna razılıq vermələri müqavilə bağlanmadan, digər bir formada da həyata keçirilir və rəsmiləşdirilir.

***Bu, aşağıdakı hallarda baş verir:***

- əməkdaşlığa namizədin əməliyyat aparatının əməkdaşı ilə şəxsi söhbəti zamanı;
- tapşırığın yerinə yetirilməsi zamanı.

İkinci hal şəxsin öz rolunu və tapşırığın mənasını dərk etməyə imkan verir. Bu da yerinə yetirilən hərəkətlərin xarakteri haqqında nəticə çıxarmağa əsas verir və nəticədə şəxs əməkdaşlıq barədə yekun qərara gəlir. HMO, o cümlədən polis orqanları sisteminə qeyd olunan məsələlərin hüquqi tənzimlənməsi onların müvafiq normativ-hüquqi aktları ilə həyata keçirilir.

Köməkliyin müqavilə forması əməkdaşlıq haqqında mütləq şəkildə müqavilənin bağlanmasını nəzərdə tutur. Həmin müqavilədə əməkdaşlığa dair tələblər, xüsusi şərtlər, eləcə də tərəfərin hüquq və vəzifələri əks olunur. Belə müqavilənin müddəti tərəfərin razılığı ilə təyin edilir, eyni zamanda şəxsin əməliyyat-axtarış fəaliyyəti subyektinə kömək göstərməsi imkanları nəzərə alınmaqla, pozulması şərtləri müəyyən olunur. Məsələn, məxfilik əsasında cəlb edilmiş şəxs ifşa edildikdə, mövcud şərait dəyişdiyi halda və s.

Şəxslərin əməliyyat-axtarış fəaliyyətində iştirakı zamanı başlıca olaraq əsas iki prinsipi nəzərə almaq lazımdır. Bu prinsiplər konspirasiya və aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsipidir ki, həmin prinsiplər «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 3-cü maddəsində qeyd olunmuşdur. Bu halda məxfiliklə yanaşı, alternativ yanaşmaya yol verilir, yəni şəxslərin öz razılıqları ilə onlar əməliyyat-axtarış tədbirlərinin hazırlanmasına və keçirilməsinə aşkar, yaxud gizli formada cəlb edilə bilərlər.

**Aşkar və gizli köməkliyin mahiyyətini açıqlayan bir neçə halları təhlil edək.**

**Birinci hal. Əməliyyat-axtarış orqanlarını** onlara kömək edən şəxslərin iştirakı ilə aşkar və ya xüsusi konspirasiya tələb etməyən əməliyyat-axtarış tədbirləri hazırlayır və keçirirlər. Eyni zamanda şəxsin köməkliyi birdəfəlik xarakter daşıyır, əməliyyat-axtarış tədbirlərində öz iştirakını gizli saxlamağı tələb etmir və lazım gəldikdə şahid kimi çıxış etməyə hazırdır.

**İkinci hal. Əməliyyat**-axtarış tədbirləri gizli formada hazırlanır, yaxud keçirilir. Belə halda yardım edən şəxs:

- öz iştirakını bu tədbirdə gizli saxlamağını istəyir (məsələn, əşya və sənədlərin tədqiqi, nəzarət qaydasında mal almanın keçirilməsində iştirak etmə və s.), lakin sonra cinayət işi üzrə şahid qismində çıxış etməyə razılıq verir. Deməli, cinayət prosesinin başlanmasına qədər əməliyyat-axtarış tədbirinin nəticələrinin, həm də bu tədbirin keçirilməsində şəxsin köməkliyinin bir fakt olaraq aşkar edilməsi arzuolunmazdır;
- öz iştirakının gizli saxlanılmasını tələb edir və sonra da cinayət prosesinin iştirakçısı olmaq istəmir. Belə bir halda əməliyyat işçisi müəyyən edir ki, hansısa bir səbəbə görə kömək göstərən şəxsin iştirakını aşkar etmək olmaz.

Təcrübə əsaslı olaraq təsdiq edir ki, əməliyyat aparatları tam şəkildə aşkar olaraq əməliyyat-axtarış tədbirini keçirmirlər, çünki əməliyyat-axtarış fəaliyyətinin mahiyyətinə ziddir. Hər bir əməliyyat-axtarış tədbirinin çox hissəsi məxfi qalır. Bu həm

onun iştirakçılarına, həm də həmin tədbirin həyata keçirilmə taktikasına ziddir. Sonralar bir qayda olaraq, konkret əməliyyat-axtarış tədbirinin nəticələrinin istifadəsi zamanı onlar müəyyən dərəcədə aşkar olurlar, nəticələri isə cinayəti hazırlayan, törədən və törətmiş şəxslər barədə müvafiq tədbirlər görülməsi üçün istifadə edilir. Bu yolla aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsipi həyata keçirilir.

ƏAF-nin subyekti ilə məxfi əməkdaşlıq edən şəxsin əldə etdiyi məlumatlar əsasında ifşa edilən cinayət törətmiş şəxslər müəyyən məqsədlər (məlumat verəni ifşa etmək, cinayət məsuliyyətindən azad olmaq) güdərək, həmin şəxsin cinayət barəsində məlumatın olmasına, cinayətdə iştirak etməsinə dair cinayət prosesində müstəntiqə ifadə verməsi hallarında məxfi əməkdaşlıq münasibətlərinin konfidensiallığının təmin edilməsində müəyyən problemlər yaranır. Məhz bu məsələlərin də qanunvericilik yolu ilə həll edilməsi çox vacibdir.

**Yuxarıda qeyd olunanlar nəzərə alınaraq, əməliyyat-axtarış fəaliyyəti qanunvericiliyində bununla əlaqədar bəzi şəxslər və imtiyazlar nəzərə alınmışdır. Məsələn, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 17-ci maddəsinə əsasən, cinayətin açılmasında iştirak etmiş cinayətkar qrupun üzvünün köməyindən istifadə edilməsinə yol verilir və belə şəxslər tərkibində cinayət əlamətləri olan ağır nəticələrə səbəb olmayan əməllər törədilibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur. Qeyd edilən hüquq normasının təcrübi baxımdan reallaşdırılmasında (mexanizmində) bir sıra problemlər yaranır və onların qanunvericilik qaydasında həll edilməsini zəruri hesab edirik.**

**Şəxslərin əməliyyat-axtarış fəaliyyəti subyeklərinə köməkliyinin edilməsinin bir növü də anonim köməklikdir.** Onun əsas xüsusiyyəti ondan ibarətdir ki, cinayətlərin qarşısının alınması, törədilmiş cinayətlərin açılması, cinayət törətmiş şəxslərin, itkin düşmüşlərin və s. axtarışına dair əməliyyat-axtarış tədbirlərinin hazırlanması və keçirilməsində kömək edən şəxs iştirak etmir, sadəcə hər hansı faktla bağlı məlumat verməklə, əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə münasibətlərini anonim formada qurur. Bu eyni zamanda həmin şəxsdən şahid qismində istifadə olunmasını qeyri-mümkün edir. Deməli, bu şəxslərin əməliyyat-axtarış orqanlarına xüsusi köməklik növüdür ki, hər hansı şəxs müvafiq məlumatı verir, lakin onun şəxsiyyəti anonim olaraq qalır. Şəxslər anonim məlumatların əksər hissəsini telefon vasitəsilə və yazılı formada verirlər.

Fikirlərimizi ifadə edərkən, bir məsələyə diqqət yetirmək lazımdır ki, «kömək göstərmə» anlayışı ilə «əməkdaşlıq» anlayışı fərqlidir. Biz bu fərqi şəxslərin əməliyyat-axtarış fəaliyyətində iştirakı ilə bağlı məsələləri nəzəri və təcrübi baxımdan təhlil edərkən görürük. Bununla belə, məlum olur ki, bunlar mahiyyət etibarı ilə eyni olsa da, bəzi fərqli cəhətlərlə səciyyələnir. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin məzmunundan da bunu aydın başa düşmək olar.

**Kömək göstərmək dedikdə,** qanunvericiliyə müvafiq olaraq cinayətkarlıqla mübarizə məsələlərinin həllində konkret şəxsdən müəyyən köməyin alınması başa düşülür.

**Əməkdaşlığa cəlb etmə isə, birgə fəaliyyətlə məşğul olma mənasında dərk edilir.**

**Beləliklə, «kömək göstərmək» məfhumu «əməkdaşlıq» məfhumundan daha geniş anlayışdır və bir çox variantları əhatə edir, o cümlədən əməkdaşlığı da, yəni köməklik göstərməni bütün hallarda əməkdaşlıq və ya cəlb etmə kimi qeyd etmək olmaz.** Lakin hər iki halda bu prosesdə iştirak edən əməliyyat-axtarış fəaliyyəti orqanlarinın vəzifəli şəxsləri ilə fiziki şəxslər arasında müəyyən münasibətlər yaranır və qanunla tənzimlənir.

Qeyd olunan xüsusiyyətləri, kömək göstərmənin növlərini təhlil edərkən, aydın şəkildə görürük.

«Əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək göstərilməsi» məfhumunun məzmunu kömək göstərən şəxslərlə əməliyyat işçiləri arasında olan münasibətlərin müddəti ilə təyin olunur. Köməklik ***birdəfəlik, qısamüddətli, vaxtaşırı, müntəzəm uzunmüddətli və daimi uzunmüddətli ola bilər.***

Aşkar və anonim köməklik göstərən subyektlərin biri-birinə münasibəti, onların tələbatının davamlılığı ilə müəyyən edilir. ƏAF-də nəticələr əldə edildikdən sonra, yaxud digər şəraitlərdə (hallarda) əməliyyat-axtarış münasibətləri bir qayda olaraq sona çatır. Onlar yenidən yarana bilərlər və yaranan vəziyyətlə əlaqədar yenidən yarandıqda başqa xarakterə (səciyyəyə) malik ola bilərlər.

Əməliyyat-axtarış münasibətlərinin ən tipik növü olan gizli köməklik tamamilə başqadır. Məhz belə münasibətlərin qurulması zamanı onları quran subyektlərin rol uvə vəzifələri, eləcə də onlara xas olan digər xüsusiyyətlər özünü daha aydın göstərir.

Belə ki, birdəfəlik, qısamüddətli, yaxud vaxtaşırı köməklik növləri idarədaxili normativ aktlarda müvəqqəti əməliyyat əlaqəsi kimi müəyyən edilir. «Əməliyyat

əlaqəsi» məfhumu sırf əməliyyat-axtarış mənası daşıyır, lakin eyni zamanda «əlaqə» sözünün qəbul edilmiş izahını tamamilə əhatə etmir, bir növ əks mənasını ifadə edir – bilavasitə ünsiyyət, qarşılıqlı anlaşma, əməliyyat-axtarış xarakterli məlumat verən şəxslərlə gizli münasibətlərin qurulması mənası daşıyır.

**Qeyd olunanları nəzərə alaraq, "ƏAF-nin subyektlərinə köməklik" ifadəsini aşağıdakı kimi anlayışla (məzmun tutumu ilə) əhatə etmək olar: *əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə köməklik göstərmə dedikdə, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsində könüllü olaraq kömək göstərən və ya onlarla konfidensial əsaslarla əməkdaşlıq edən şəxslərin əməliyyat marağı kəsb edən şəxslər və faktlar barədə məlumatların toplanması və əməliyyat-axtarış tədbirlərinin hazırlanaraq, həyata keçirilməsi istiqamətində fəal iştirakı başa düşülür.***

Cinayətkarlıqla mübarizədə belə şəxslərin köməkliyindən istifadə təcrübəsi tamamilə özünü doğruldur və səmərəli nəticələr əldə olunmasında mühüm əhəmiyyətə malikdir.

## § 8. Əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin sosial və hüquqi müdafiəsi

Əməliyyat-axtarış fəaliyyəti subyektləri və onlara köməklik göstərən şəxslərin sosial və hüquqi müdafiəsi onların peşə borcunun və könüllü olaraq üzərinə götürdüyü öhdəliklərin səmərəli yerinə yetirilməsinə xidmət edir. Əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının sosial və hüquqi müdafiəsi məsələlərinə aydınlıq gətirmək üçün bu müdafiənin qabaqcadan mənasının dərk olunması, onun anlayişının müəyyən edilməsi vacib şərtlərdən biridir.

**Sosial və hüquqi müdafiə iki bir-biri ilə bağlı olan anlayışlardan ibarətdir:**

1. sosial müdafiə;
2. hüquqi müdafiə.

Əməliyyat-axtarış fəaliyyətində sosial və hüquqi müdafiənin vahid anlayışının düzgün ifadə edilməsi göstərilən iki anlayışın nisbəti və həcminin müəyyən edilməsindən asılıdır.

**Sosial və hüquqi müdafiə anlayışları qarşılıqlı asılılıqdadır. Sosial müdafiə meyarları hüquq normalarında təsbit olunduqda, onlar eyni zamanda həm də**

**hüquqi müdafiə meyarı kimi qiymətləndirilir.** Deməli, sosial və hüquqi müdafiəni əməliyyat-axtarış fəaliyyəti iştirakçıları üçün sosial zəmanətləri müəyyən və onların reallaşmasını təmin edən hüquqi müddəalar məcmusu kimi nəzərdən keçirmək lazımdır.

Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilikdə sosial müdafiə əməliyyat-axtarış fəaliyyəti iştirakçılarına təqdim edilən imtiyazlarda, pul ödənişlərində, maddi nemət və sair xidmətlər formasında ifadə olunur. Məhz bu imtiyazların, ödənişlərin və xidmətlərin «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunla (maddə 17, 18) müəyyən olunması əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının öz vəzifələrini yerinə yetirməsi ilə əlaqədar onların hüquq və qanuni maraqlarının müdafiəsi üçün zəmanətlər verir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda müdafiə meyarları yalnız sosial zəmanətlərlə məhdudlaşmır. Onlar daha geniş həcmdə təqdim edilir. Məsələn, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda nəzərdə tutulmuş, əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının öz vəzifələrinin icrasının təmin edilməsinə və onların hüquqlarının müdafiəsi üzrə lazımi şəraitlərin yaradılmasına yönəlmiş tədbirlər sistemi (cinayət məsuliyyətindən azad etmə – 17-ci maddənin VIII və 14-cü maddənin VII hissəsi, həyat və sağlamlığın qorunması – 17-ci maddənin IV hissəsi, cinayətkar qruplara daxil edilmiş şəxslər barədə məlumatların, konfidentlərin şəxsiyyətinin açıqlanmaması – 14-cü maddənin X, 20-ci maddənin III hissəsi və s.).

Həmin tədbirlərin reallaşdırılması əməliyyat-axtarış orqanı tərəfindən fəal hərəkət xarakteri daşıyır. Bu hərəkətlər əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının hüquqlarının təmin edilməsi üçün maksimum şəraitlərin yaradılmasına yönəlmişdir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda bu istiqamətdə nəzərdə tutulmuş müddəalar hüquqi və sosial müdafiənin xüsusiyyətlərini əks etdirir. Əgər müdafiə olunan şəxsin ölümü və ya ona zərərin yetirilməsi barədə söhbət gedirsə, onda pozulmuş hüququ bərpa etmək olduqca çətindir və bu halda yalnız kompensasiya tədbirləri tətbiq oluna bilər.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 17-ci maddəsində pul şəklində kompensasiya xarakterli müdafiə tədbirləri nəzərdə tutulmuşdur. Qanunun 17-ci maddəsinin 1-ci hissəsində qeyd olunur ki, əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslər dövlət tərəfindən müdafiə olunur. Həmin maddənin 2-ci hissəsinə diqqət yetirdikdə, görürük ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri

ilə əməkdaşlıq edən şəxslərlə subyektlər arasında öhdəlik münasibətləri əməkdaşlıq haqqında müqavilə bağlandıqdan sonra yaranır. Bu halda, məsələn, 17-ci maddənin 4-cü hissəsinə uyğun olaraq əməliyyat-axtarış fəaliyyətində iştirak etmələri ilə əlaqədar şəxslərin, eləcə də onların yaxın qohumlarının həyatına, sağlamliğina və əmlaklarına dəymiş zərərin kompensasiya ilə ödənilməsini icra olunan müdafiə tədbirlərindən biri kimi hesab etmək olar.

**Hüquqi müdafiə əksər hallarda qadağanedici normalarla reallaşır ki, bu da fəaliyyətin məzmunu ilə əlaqəlidir.** Məsələn, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 14-cü maddəsinin III hissəsinə əsasən müvəkkil edilmiş şəxslər istisna olunmaqla, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onların vəzifəli şəxslərinin qanuni hərəkətlərinə müdaxilə yolverilməzdir.

**Sosial və hüquqi müdafiəni təsbit edən normaların məzmunundan göründüyü kimi, həmin normalar əməliyyat-axtarış fəaliyyəti subyektlərinə və onlara yardım edən şəxslərə hüquqi müdafiə zəmanəti verir.** Bununla əlaqədar sosial və hüquqi müdafiəni dövlət tərəfindən müəyyən edilmiş hüquqi zəmanətlər məcmusu kimi qeyd etmək olar.

Qeyd edilən anlayışdan göründüyü kimi, hüquqi zəmanətlərin əsas elementi hüquqi və qanuni maraqların mühafizəsi və onların həyata keçirilməsi üçün əlverişli şəraitlərin yaradılmasıdır. Sosial və hüquqi müdafiə yalnız taktiki və hüquqi əsasların vəhdət təşkil etdiyi halda real əhəmiyyət kəsb edir.

***Beləliklə, əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının sosial və hüquqi müdafiəsi dedikdə, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onlara kömək edən şəxslərin hüquqi və qanuni maraqlarını təmin etmək, bununla bağlı məsələlərin səmərəli həllində əlverişli şəraitlərin yaradılması, həmçinin onlara dəymiş zərərin ödənilməsi məqsədilə dövlət orqanları tərəfindən qanunla nəzərdə tutulan məqsədli tədbirlərin həyata keçirilməsi başa düşülür.***

Əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının sosial və hüquqi müdafiəsinin qanunvericilik meyarları təsadüfi deyil, obyektiv səbəb və şərtlərlə izah edilir.

Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyə əsasən, əməliyyat-axtarış fəaliyyəti subyektləri əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən, onun məqsədinə nail olmaq və qarşısında duran vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlərin təşkili və həyata keçirilməsində iştirak edirlər və bu halda digər vəzifəli şəxslərin, mütəxəssislərin, əməkdaşlıq üçün razılıq verən ayrı-ayrı vətən-

daşların köməyindən istifadə edirlər. Bununla əlaqədar əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyektlərin fəaliyyətində əsasən gizli iş metod və vasitələrdən istifadə olunur.

Bütün bunlar əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının hərəkətlərini əsasən gizli (qeyri-aşkar) etməyə, məxfilik əsasında vətəndaşların yardımından istifadə etməyə məcbur edir, qanunvericilik səviyyəsində əməkdaşlığın məxfiliyi və anonimliyinin qorunması zərurətini yaradır. Məhz qeyri-aşkarlıq, digər müdafiə tədbirlərinin tətbiqi, əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının təhlükəsizliyi ilə bağlı hərəkətlərin effektivliyinin şərti kimi çıxış edir.

Əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslər, şübhəsiz ki, digər vətəndaşlarla bərabər hüquqlara malikdir. Mülki-hüquqi, cinayət-hüquqi, cinayət-prosessual, inzibati və digər münasibətlərin iştirakçıları kimi bütün sosial və hüquqi müdafiə tədbirləri onlara da şamil olunur. Lakin bəzi hüquqların reallaşdırılması əlavə zəmanətlərlə təsdiq olunmaqla bərabər, özünəməxsus xüsusiyyətlərə malikdir ki, bütün bunlar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda və digər qanunvericilik aktlarında öz əksini tapmışdır.

**Beləliklə, əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının sosial və hüquqi müdafiəsinin sosial səbəbləri var və aşağıdakı amillərlə bağlıdır:**

- ümumilikdə cinayətkar mühitin vəziyyəti və orada baş verən proseslərlə;
- xəbərdar edilməsi, qarşısının alınması və açılmasında iştirak etdiyi ictimai təhlükəli əməllərin xarakterləri ilə;
- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin (iştirakçılarının) fərqli xarakteristikası ilə;
- onların yerinə yetirdiyi xüsusi funksiyaların səciyyəsi ilə;
- əməliyyat-axtarış tədbirlərinin xüsusiyyətləri ilə;
- əməliyyat-axtarış fəaliyyətinin gizli xarakterinə və onun həyata keçirilməsinə kömək edən şəxslərə cəmiyyətdə olan mənfi münasibətlə və s.

«ƏAF haqqında» Qanunla əməliyyat-axtarış fəaliyyətinin subyektləri barəsində və həmin orqanlara kömək edən şəxslər barədə sosial və hüquqi müdafiə meyarları normativ şəkildə təsbit edilir. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri barədə belə meyarlar Qanunun 14, 18-ci maddələrində, onlara köməklik göstərən vətəndaşlar barədə isə 17-ci maddədə və bu sahədə münasibətləri tənzimləyən digər normativ-hüquqi aktlarda, Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «Polis

haqqında», 11 dekabr 1998-ci il tarixli «Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında», 7 fevral 2006-cı il tarixli «Əmək pensiyaları haqqında» qanunları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.11.2002-ci il tarixli 190-8 nömrəli «Əməliyyat-axtarış fəaliyyəti üçün vəsaitlərin xərclənməsi qaydaları və normalarının təsdiq edilməsi haqqında» Qərarı, həmin əqrara əlavə və dəyişikliklər barədə Nazirlər Kabinetinin 18.12.2008-ci il tarixli 276-34 nömrəli qərarı və s.) əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin idarə səciyyəli normativ-hüquqi aktlarında təsbit olunmuşdur.

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin sosial və hüquqi müdafiəsinin xüsusi meyarları onların qarşısında duran vəzifələrin səmərəli icrasını təmin etməli, səlahiyyətlərinə zəmanət verməli, onların fəaliyyətinin qanuniliyini və toxunulmazlığını təmin etməlidir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu əməliyyat-axtarış fəaliyyətinin subyekti və ya ona köməklik edən şəxs tərəfindən, xidməti borcunun və üzərinə düşmüş öhdəçiliyi yerinə yetirilməsi zamanı insan həyatını, sağlamlığını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət və hərbi sirri, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən qoruyarkən bəzi hallarda hüquqla mühafizə olunan maraqlara məcburiyyət qarşısında zərər yetirməyə yol verir. Məsələn, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» **Qanunun 14-cü maddəsinin VII hissəsində qeyd olunur ki, «Əməliyyat tapşırığını yerinə yetirərkən əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxsin cinayətkar qrupların və ya kriminogen obyektlərin tərkibində olması, habelə bu zaman zəruri özünümüdafiə və son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibi yaratmır», eləcə də 17-ci maddənin VIII hissəsinə əsasən, əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü tərkibində cinayət əlamətləri olan ağır nəticələrə səbəb olmayan əməllər törədibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.**

**Qeyd edilən münasibətdə CM-nin 37-ci maddəsinin (cinayət törətmiş şəxsi tutarkən ona zərər vurulması) müddəaları da rəhbər tutularaq köməklik göstərən şəxslər tərəfindən istifadə edilə bilər.**

Bu müddəaların təcrübədə reallaşdırılması ilə bağlı problemlərin olmasına və təkmilləşdirilməsinə ehtiyac duyulduğuna baxmayaraq, mənəvi-etik baxımdan son zərurətlə bağlı olan məna kəsb edir. Bu halda qanunun məcburən pozulması mənəvi baxımdan yolveriləndir, bəzi hallarda isə zəruridir ki, bu da konkret normada öz əksini tapmışdır.

Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək edən vətəndaşlar barəsində müdafiə meyarları köməklik formasından asılı olaraq fərqləndirilir. Belə halda şəxsin müqavilə əsasında əməkdaşlıq etməsi və müqaviləsiz köməklik göstərməsi nəzərə alınmalıdır. Məsələn, müqavilə əsasında əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslər üçün müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə zəmanət verilir, əməkdaşlıq dövrü əmək stajına daxil edilir. Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli «Əmək pensiyaları haqqında» Qanunu ilə nəzərdə tutulmuş qaydada onun üçün pensiya təyin olunur. Qanunla nəzərdə tutulmuş digər hallarda və şərtlər daxilində birdəfəlik müavinət və əlillik təqaüdü təyin olunur.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 17-ci maddəsinin VI hissəsinə əsasən əməliyyat-axtarış tədbirlərində iştirak edərkən həlak olmuş, yaxud şikəst olmuş şəxslərin ailəsinə müvafiq olaraq min yüz manat və beş yüz əlli manat miqdarında birdəfəlik müavinət verilir. Həmin şəxslərin ailəsinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada pensiya verilir (Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli «Əmək pensiyaları haqqında» Qanunu).

***Müqaviləsiz əməkdaşlıq edən şəxslərə gəldikdə isə onlarla bağlı zəmanətlər nisbətən fərqlidir.*** «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanuna uyğun olaraq onlar üçün dövlət müdafiəsi, onlara, ailə üzvlərinə və yaxınlarına qarşı qanunazidd qəsdlərin qarşısının alınması, cinayətin açılmasında köməkliyə və ya cinayət törətmiş şəxslərin müəyyən olunmasına yardıma görə mükafatların verilməsi nəzərdə tutulur. Belə şəxslərin təhlükəsizliyinin təminatı üçün, onların əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlığının konspirativliyi çox vacibdir. **Qanunverici qeyd edir ki, məxfiliyin qorunması əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifəsidir** («Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun, maddə 6, bənd 9), lakin yardım edən şəxslər üçün bu qayda onların istəyi ilə tətbiq olunur. Məsələn, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 14-cü maddəsini X hissəsinə əsasən, əməliyyat-axtarış fəaliyyəti subyektəri ilə əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar

yalnız həmin şəxslərin yazılı razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər və yaxud Qanunun 20-ci maddəsinin III hissəsinə əsasən «Cinayət məsuliyyətinə cəlb olunmuş hallar istisna edilməklə, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olmuş şəxslərin əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, ştatdankənar və məxfi əməkdaşların şəxsiyyəti haqqında məlumatlar həmin şəxslərin yazılı razılığı olduqda, qanunla müəyyən edilmiş qaydada və hallarda prokurora təqdim edilə bilər».

Sosial və hüquqi müdafiə meyarları, onların reallaşdırılması qaydası yalnız «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun normaları ilə məhdudlaşmır, digər normativ-hüquqi aktlarla da nizamlana bilər. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun çoxsaylı blanket və göndərici normaları bunu əyani olaraq sübut edir.

**Bu baxımdan hüquqi tənzimləmə sistemindən asılı olaraq müdafiə meyarlarını şərti olaraq:**

a) qanunla nəzərdə tutulanlara;

b) qanunqüvvəli normativ-hüquqi aktlarda nəzərdə tutulanlara bölmək olar.

**Hüquqi tənzimlənmə predmetindən asılı olaraq:**

a) əməliyyat-axtarış qanunvericiliyi;

b) digər normativ-hüquqi aktların normalarında təsbit olunmuş və həyata keçirilən meyarları kimi qruplaşdırıla bilər.

Əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətlərinə, iştirakçılar arasında münasibətlərin xarakterinə əsaslanaraq, sosial və hüquqi müdafiənin təminatı məqsədilə hüquq normalarının istifadə hədləri xeyli genişlənir. Məsələn, əməliyyat-axtarış fəaliyyətinin iştirakçıları təkcə əməliyyat-axtarış deyil, həm də inzibati, mülki, cinayət-hüquqi, cinayət-prosessual və s. hüquq münasibətlərin subyekti ola bilərlər. Deməli, müdafiə meyarlarının reallaşdırılması da müvafiq münasibətləri tənzimləyən hüquq normaları əsasında mümkündür. **Buna misal olaraq 11 dekabr 1998-ci il tarixli «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu qeyd etmək olur. Həmin Qanunun 1-ci maddəsində qeyd olunur ki, bu qanun cinayət prosesində iştirak edən şəxslərin təhlükəsizliyinin təmin edilməsini və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemini müəyyən edir», 3-cü maddəsinə əsasən isə müdafiə olunan şəxslər qrupundan biri də hüquq-mühafizə orqanlarına cinayət haqqında məlumat vermiş və ya**

**cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak etmiş şəxslərdir.**

Keçirilən əməliyyat-axtarış tədbirlərinin xüsusiyyətindən, onların subyektlərinin fəaliyyətinin xarakterindən, əməliyyat-axtarış fəaliyyətində onların rolu və funksiyaları arasında olan fərqli cəhətlərdən asılı olaraq ayrı-ayrı iştirakçılar barədə tətbiq olunan müdafiə meyarları da fərqlidir. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 17-ci maddəsinin VII hissəsinə və 14-cü maddəsinin VII hissəsinə əsasən əməliyyat-axtarış fəaliyyəti subyektinin və ona köməklik edən şəxslərin mütəşəkkil cinayətkar qruplarda xüsusi tapşırıqların yerinə yetirilməsinə görə onlar barəsində sosial və hüquqi imtiyazlar, həmçinin mühafizə tədbirləri nəzərdə tutulmuşdur.

**Keçirilən əməliyyat-axtarış tədbirlərinin mürəkkəbliyini, iştirakçıların üzləşə bildiyi təhlükəni nəzərə alaraq, normativ-hüquqi aktlarda onlar üçün əlavə sosial zəmanətlər nəzərdə tutula bilər.** Belə əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün hazırlanan şəxslərin tapşırığı yerinə yetirmək imkanı, onlardan zəif və ya zəifəmiş sinir sistemi olan şəxslər müəyyən edilərək, sağlamlığı üçün yarana bilən ağır fəsadların qarşısını almaq məqsədilə onlar müalicə-profilaktika müəssisələrinə, ağır psixi gərginlik keçirmiş tədbir iştirakçıları sanatoriya-müalicəvi reabilitasiya mərkəzlərinə göndərilə bilər.Bu istiqamətdə də münasibətləri tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsinə ehtiyac var.

**Əməliyyat-axtarış fəaliyyətinin iştirakçılarına göstərilən sosial yardımlar xarakterindən və növündən asılı olaraq birdəfəlik mükafatlar, müavinətlər və s. həvəsləndirici ödənişlər formasında təyin edilir və həyata keçirilir.**

Əməliyyat-axtarış fəaliyyətinin iştirakçılarının hüquqları və qanuni maraqları pozulduqda, onlar inzibati və məhkəmə qaydasında şikayət edib, pozulmuş hüququn bərpasını tələb edə bilərlər.

Göründüyü kimi, qanunvericilik aktlarında sosial və hüquqi müdafiə meyarlarına aşkar üstünlük verilir. Bu münasibətlərlə tam aydınlıq gətirilməsi üçün zənnimcə NK-nin "HMO ilə məxfi əməkdaşlıq edən şəxslər barədə" əsasnamənin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir.

Əməliyyat-axtarış fəaliyyətində sosial və hüquqi müdafiə meyarların dairəsi kifayət qədər genişdir. Həmin fəaliyyətin uğurla həyata keçirilməsini təmin edən meyarlar əvəzli, maddi və mənəvi həvəsləndirmə, cinayət və cinayət-prosessual səciyyə daşıyır.

## § 9. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial təminatı

**ƏAF subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial müdafiəsi «ƏAF haqqında» Qanunun 17-ci maddəsi, Nazirlər Kabinetinin müvafiq qərarları və s. ilə nizamlanır.** Əməliyyat-axtarış fəaliyyətinin subyektləri öz əməkdaşlarının, onların yaxın qohumlarının, ƏAF subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyinin və əmlakının hüquqazidd qəsdlərdən qorunmasını təmin etməyə borcludurlar («ƏAF haqqında» Qanunun 6 və 17-ci maddələri). ƏAF subyektləri ilə əməkdaşlıq edən şəxslər dövlət tərəfindən müdafiə olunurlar. Onların əməliyyat-axtarış tədbirlərində könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilir.

**ƏAF subyektləri ilə əməkdaşlıq edən şəxslərin əmək haqqı, mükafat və digər maddi təminatlar almaq hüququ vardır.**

ƏAF-də iştirak etmələri ilə əlaqədar şəxslərin, eləcə də onların yaxın qohumlarının həyatına, sağlamlığına və əmlakına real təhlükə yarandıqda, həmçinin təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlər görməlidirlər.

Əsas fəaliyyət növü kimi şəxslərin ƏAF subyektləri ilə əməkdaşlıq etdiyi dövr onların əmək stajına daxil edilir və bu şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təqaüd verilir.

Əməliyyat-axtarış tədbirlərində iştirak edərkən həlak olmuş, yaxud şikəst olmuş şəxslərin ailəsinə müvafiq olaraq minimum əmək haqqının bir min misli miqdarında və beş yöz misli miqdarında birdəfəlik müavinət verilir. Həmin şəxslərin ailəsinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada təqaüd təyin edilir.

Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi ilə əlaqədar vəzifələrini yerinə yetirməsi müddəti və müvafiq surətdə onun maddi təminatı birin üçə nisbəti hesabı ilə hesablanır.

Əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əlamətləri olan və digər ağır cinayətlərə səbəb olmayan əməllər törədibsə və vurul-

muş zərəri ödəyibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.

Əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlıq edən şəxslər tərəfindən mükafat qaydasında alınan vəsaitlər və digər ödənişlər üzrə vergilər nəzərdə tutulmur, həmçinin onlar gəlirlərə dair bəyannaməyə daxil edilmir.

Konrakt əsasında ƏAF-nin subyektləri ilə əməkdaşlıq edən şəxslərin razılığı ilə onların əməkdaşlıq dövrü onların əmək stajına daxil edilə bilər. Belə əməkdaşların sosial, o cümlədən maliyyə təminatı, hüquqi müdafiəsinin təşkili, rəsmiləşdirilməsi və s. məsələləri prosesində ilk növbədə HMO-ın, NK-nin müvafiq normativ aktlarının normativ göstərişləri, bir sıra hallarda isə Azərbaycan Respublikasının 11 dekabr 1999-cu il tarixli «Cinayət prosesinin iştirakçılarının dövlət müdafiəsi haqqında» Qanunun, CPM-in və digər qanunvericilik aktlarının müvafiq normalarının da rəhbər tutulması zəruridir.

Azərtrialn Respublikasının Prezidenti cənab İlham Əliyevin 30.06.2004-cü il tarixli 291 saylı Sərəncamı ilə «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı» (2004-2008-ci illər) Azərbaycan polisinin tarixində ilk dəfədir ki, qəbul edilmişdir və bu orqanlar qarşısında duran vəzifələrin həlli üçün müasir sivil tələblərə cavab verən güclü maddi-texniki təminat bazasının təməlini qoyur. Bu proqramda bir çox mühüm tədbirlər sırasında əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslərin cinayətkarlıqla mübarizə işi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.11.2002-ci il tarixli qərarı ilə təsdiq edilmiş xərclərin hədd normalarının artırılmasının nəzərdə tutulması diqqətəlayiqdir. **Bu hədd ölkə Prezidentinin təşəbbüsü ilə 2005-ci ildə artırılmışdır. Bu gün dünyada yaranan kriminogen durum, korrupsiya cinayətinin daha geniş vüsət almasını və s., cəmiyyətə, dövlətlərə qatşı təhdidlərin genişlənməsini nəzərə alaraq bu istiqamətdə tədbirlərin keçirilməsi zəruri hesab edilir.**

## § 10. Əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji strukturu və bu fəaliyyətin iştirakçılarının psixoloji səciyyəsi

**Əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji strukturu aşağıdakı əsas elementdən ibarətdir: normativlik; əməkdaşların hakimiyyət səlahiyyətləri; onun**

**subyektlərinin ünsiyyətinin konspirativliyi və münasibətlərinin konfidensiallığı** (məxfiliyi); **iştirakçıların fəaliyyət rollarının müxtəlifliyi; fəaliyyətin ekstremal səciyyəsi; əməliyyat-axtarış fəaliyyəti subyektlərinin fəaliyyətinin yaradıcılıq xüsusiyyətləri; əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müstəqilliyi, əməyinin nəticəsinə və konfidentlərin (məxfi əməkdaşların) təhlükəsizliyinin təmin olunmasına görə şəxsi məsuliyyəti; tədqiq olunanlarla çəkişmə (əsasən gizli formada) və onların müqaviməti.**

***Əməliyyat-axtarış fəaliyyətinin iştirakçılarının fəaliyyətinin normativ qaydada tənzimlənməsi*** əməliyyat işçiləri və konfidentlərin psixologiyasına müsbət təsir göstərərək, onların hüquq düşüncəsini, sosial istiqamətini, motivlərini, davranış qaydalarını formalaşdırır və inkişaf etdirir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan əməkdaşlarının hakimiyyət səlahiyyətlərinə malik olmaları onların şəxsiyyəti və davranışına təsir edərək müəyyən iz qoyur.

Belə səlahiyyətlərindən istifadə olunması prosesində vətəndaşların, hüquqi şəxslərin, təşkilatların hüquq və maraqlarına toxunulur, bu da barəsində hüquqi xarakterli hər hansı tədbir keçirilən şəxsin psixologiyasına, peşə etikasına, əməliyyat-taktiki vəziyyətlərin və subyektlərin davranışlarının proqnozlaşdırılması bacarığına dair biliklərə malik olmağı və emosional tarazlığı (müvazinıti) qorumağı əməkdaşdan tələb edir.

**Əməliyyat-axtarış fəaliyyətinin iştirakçıları arasında ünsiyyətin konspirativliyi, münasibətlərin konfidensiallığı** ***əməliyyat-axtarış fəaliyyətinin prinsiplərinə əsaslanmış, onların sosial-psixoloji xarakteristikasının mühüm spesifik elementidir. Konfidensiallıq və konspirativlik əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və konfidentlərin fərdi-psixoloji vəziyyətinə təsir edir (həyəcan, emosional gərginliyin yüksəlməsinə, psixi və fiziki yorğunluğun, neqativ stress vəziyyətin, məyusluğun, depressiyanın, ümidsizliyin yaranmasına səbəb olur), əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji xüsusiyyətlərinin mahiyyət etibarı ilə asılılığını müəyyən edir (psixoloji əlaqələrin və etibarlı münasibətlərin qurulması, uydurma və aşkar sosial rolların, müəyyən statusa malik ierarxiyanın və s. bölüşdürülməsi).***

***Əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının fəaliyyəti ilə bağlı davranış***

***rollarının müxtəlifiyi*** əməliyyatçılardan və konfidentlərdən aşkar və pərdələnmiş sosial rolların qismən əvəz edilməsini (dəyişdirilməsini), şəxslərarası əlaqələrin, ətrafdakılarla qarşılıqlı fəaliyyət taktikasının dəyişdirilməsini tələb edir. Aşkar və pərdələnmiş sosial rolların birləşdirilməsinin zəruriliyi, subyektlərin psixologiyasında müəyyən izlər qoyur, onlardan müəyyən rola girmə, başqa şəklə düşmə (əksər hallarda kriminal istiqamətlərdə) bacarıq və vərdişlərinin, psixoloji proseslərin dərk olunması ahəngdarlığının və digər psixoloji keyfiyyətlərin inkişaf etdirilməsini tələb edir. Sosial rolların və davranış modellərinin qismən bir-birilə əvəz olunması (dəyişməsi) həyatda neqativ psixi vəziyyətin yaranmasının qarşısının alınması və aradan qaldırılması, şəxsiyyətin bütövlüyünü (tamlığını) parçalayan meyllərin, şəxsin özünəməxsus psixopataloji xarakterinin inkişafının, «təqib etməyə aludəziliyin», paranoidal (ruhi xəstələr) təzahürlərin dəf edilməsi və s. istiqamətlərdə psixoloji tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunmalıdır.

**Əməliyyat-axtarış fəaliyyətinin emosional baxımdan təmin edilmə səciyyəsi onu müşayiət edən amillərlə müəyyən olunur. Onlardan ən geniş yayılanlara aşağıdakıları aid etmək olar:**

***- spesifik hərəkətlərin geniş həcmə malik olması və onların məlumat və vaxt məhdudluğu şəraitində həyata keçirilməsi;***

***- əməliyyat tapşırıqlarının yerinə yetirilməsi ilə əlaqədar peşəkarlıq riski;***

***- cinayətkarların fəal müqaviməti;***

***- orqanizmin sutkalıq fizioloji aktivliyinin pozulma halları ilə müşayiət olunan əmək şəraitində olan qismən dəyişiklik;***

***- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin yüksək emosionallıq şəraitində əməliyyat marağı kəsb edən və digər şəxslərlə qarşılıqlı əlaqələri.***

Göstərilən faktorlar əməliyyatçıların və konfidentlərin psixoloji xüsusiyyətlərinin məzmununa mühüm təsir göstərir, davamlı neqativ psixi vəziyyətin inkişafına təkan verir, nevrotik reaksiyaların, psixopatik və funksional pozğunluğun əmələ gəlməsinə şərait yaradır.

***Əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının fəaliyyətinin yaradıcılıq xüsusiyyətləri*** onun həyata keçirilmə prosesində müxtəlif vəziyyətlərin (şəraitin) yaranması ilə şərtləndirilir. Son dərəcə mürəkkəb vəziyyətin inkişaf etməsinin bütün mümkün variantlarını qabaqcadan nəzərə almaqla, əməliyyat-axtarış fəaliyyəti subyektləri və konfidentlər öz davranış xətləri və taktikalarının planlaşdırılmasını və proqnozlaşdırılmasını bir neçə istiqamətlərdə həyata keçirirlər.

***Əməliyyat işçilərinin (əməliyyat müvəkkillərinin) fəaliyyət sərbəstliyi, əməyinin nəticəsinə və konfidentlərin taleyinə görə şəxsi cavabdehliyi*** əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji xarakteristikasının ən vacib elementidir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 6-cı maddəsinə əsasən əməliyyat-axtarış fəaliyyəti subyektləri üçün bu və ya digər mühüm vəzifələr müəyyən olunmuş və 7-ci maddəsinə əsasən isə həmin vəzifələrin əhəmiyyətini özündə əks etdirən geniş hüquqlar verilmişdir ki, bu da öz növbəsində onlara yaranmış vəziyyətlərdən asılı olaraq mühüm qərarlar qəbul etməyə imkan verir. Bu istiqamətdə əməliyyatçıların davranışı peşə etik normalarının tələblərinə uyğun olaraq, konfidentlərin psixoloji xarakteristikası, onların özünəməxsus şəxsi keyfiyyətləri nəzərə alınmaqla müəyyən olunur.

***Əməliyyat-axtarış fəaliyyəti yoxlanılan (tədqiq olunan) şəxslərlə bir çəkişmə (əsas etibarı ilə gizli) və onların göstərdikləri əks müqavimət şəraitində həyata keçirilir. Çəkişmə və ya belə demək mümkünsə, əməliyyatçıdan mübarizədə (qarşıdurmada) cinayətkarları qabaqlamağı, onların cinayətkar əməllərini sənədləşdirməyi və psixoloji təsirə üstün gəlmək bacarığını tələb edir. Müqavimət göstərmək dedikdə isə, cinayətkar qrupun üzvlərinin təhlükəsizliyini təmin etmək, konfidentlərin uydurulmuş sosial rollarını üzə çıxarmaq və əməliyyat aparatları ilə onların əməkdaşlığını ifşa etmək məqsədilə tədqiq olunan şəxslər tərəfindən müxtəlif tədbirlərin və təhrikedici hərəkətlərin həyata keçirilməsi başa düşülür. Buna görə əməliyyatçılarda və konfidentlərdə əməliyyat tapşırığını yerinə yetirməyə zəruri olan iradi keyfiyyətlər, psixoloji hazırlıq və pərdələnmiş kriminal rolların ifası zamanı məqsədin aktuallığının formalaşdırılmasına xüsusilə diqqət yetirmək lazımdır.***

Əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji xarakteristikasinın qeyd olunan elementləri bir-birilə sıx əlaqədədir. Onların məzmununun dəyişdirilməsi yalnız uydurulmuş sosial rolun zahiri görünüşünə, konfidentlərin davranış xəttinə deyil, həm də onların psixoloji xarakteristikasına təsir edir, peşəkarlığın deformasiyaya uğramasına səbəb olur.

Əməliyyat-axtarış fəaliyyətinə əməliyyat-axtarış orqanlarının əməkdaşlarının və konfidentlərin psixoloji səciyyəsi mühüm əhəmiyyət kəsb edir. Əməliyyat-axtarış fəaliyyətinin səmərəliliyinin, onun subyektlərinin peşəkarlığının artırılması yalnız normativ-hüquqi bazanın təkmilləşdirilməsini deyil, həm də əməliyyatçı və konfidentlərin psixoloji cəhətdən fəallaşmasını nəzərdə tutur. Belə fəallaşma onların fər-

di-psixoloji xüsusiyyətlərinin, əməliyyat-axtarış fəaliyyətinə uyğun keyfiyyətlərin hərtərəfi öyrənilməsini nəzərdə tutur. Bu istiqamətdə vacib addım əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının psixoloji portretinin yaradılması və belə fəaliyyət üçün psixoloji yararlılıq meyarlarını müəyyən edib seçmək üçün yeni metodikaların hazırlanması, mövcud olanların yeni şəraitə uyğunlaşdırılması, həmçinin psixoloji faktorların təhlili və qiymətləndirilməsi əsasında əməliyyatçı və konfidentlərin seçilməsinin təkmilləşdirilməsidir.

Əməliyyat-axtarış fəaliyyəti insan fəaliyyətinin xüsusi bir növüdür və onun struktur məzmununa təsir edən təkrarsız xüsusiyyətlərə malikdir.

**Peşə üçün mühüm psixoloji xarakteristikaların aşağıdakı qrupları mövcuddur:**

- ***inkişaf etmiş kommunikativ keyfiyyət və bacarıqlar;***
- ***inkişaf etmiş iradi keyfiyyətlər;***
- ***diqqət və müşahidə etmək bacarığı;***
- ***yüksək intellektual keyfiyyətlər;***
- ***peşəkar yaddaş;***
- ***yüksək peşəkarlıq motivasiyası və sosial adaptasiya;***
- ***emosional xüsusiyyətlər;***
- ***vərdişlərin mövcudluğu və xüsusiyyətləri.***

**İnkişaf etmiş kommunikativ keyfiyyət və bacarıqlar dedikdə, aşağıdakılar nəzərdə tutulur:**

- insanların etimad və rəğbətini qazanmaq, həmsöhbəti dinləmək, öz davranışını əməliyyat-axtarış fəaliyyətinin digər iştirakçıları ilə uzlaşdırmaq bacarığı; şəxsi və işgüzar təmasları səmərəli qurmaq; yeni insanlarla tez bir zamanda psixoloji təmas qurmaq, həmsöhbətin psixi vəziyyəti və fərdi xüsusiyyətlərindən asılı olaraq onunla ünsiyyətin məqsədəuyğun formasını seçmək.

***Mənfi kommunikativ keyfiyyət və bacarıqlara*** özünəqapanma, şəxsi problemlərinə diqqətin cəlb edilməsi, psixoloji təmas və etibarlı münasibət qurmaqda vərdişlərin yoxluğu aiddir.

***İnkişaf etmiş iradi keyfiyyətlər*** – münaqişəli vəziyyətlərdə müvazinət və özünü ələ almadır, ehtiyat, ciddilik, qətiyyət və inadkarlıqdır.

***Əməliyyat-axtarış fəaliyyətinə mənfi təsir edən iradi keyfiyyətlərə*** qeyrimüvazinatlıq, səhlənkarlıq, qətiyyətsizlik aiddir.

***Diqqət və qeyri-müşahidəçilik dedikdə,*** operativ müşahidəçilik, öz diqqətini bir fəaliyyət növündən digərinə tez bir zamanda keçirmək bacarığı, ətraf şəraitdə dəyişiklikləri görə bilmək və duymaq bacarığı başa düşülür.

***İnkişaf etmiş intellektual keyfiyyətlərə aiddir***: cinayətkar ənənələrə, adətlərə bələd olma, jarqon, məhkum edilmiş şəxslərə məxsus digər xüsusiyyətləri bilmə, kriminal həyat tərzi keçirən və cinayətkar aləmin «nüfuzlu» şəxslərini (avtoritetləri) tanıma; əməliyyat şəraitini qiymətləndirmək və təhlil etmək bacarığı; konkret məsələnin həlli üçün lazım olan operativ informasiyanı əldə etmə bacarığı; inandırma bacarığı; dəyişən əməliyyat şəraitini təhlil etmək və müvafiq nəticələr çıxarmaq bacarığı; aktyorluq qabiliyyəti (uydurulmuş sosial rola girmək, zahirən dəyişmək, mimika və pantomima vasitələrini istifadə etmək bacarığı).

***Peşəkar yaddaşa aiddi***r – lazımi məqamda informasiyanı dəqiq yeniləşdirmə bacarığı, terminləri, rəqəmləri, adları və digər məntiqi materialları asanlıqla yadda saxlamaq, bir dəfə eşidilənləri dəqiq təkrarlamaq; insanın zahiri görünüşü və davranışını yadda saxlamaq; obyekt və əşyaların rəngini, formasını, ölçüsünü, hərəkətini və yerləşməsini yadda saxlamaq bacarığı; ünsiyyətdən sonra dolğun obrazı tərtib etmək üçün lazım olan xırda detalları yadda saxlamaq və vaxtında bərpa etmək bacarığı.

Əməliyyat aparatları əməkdaşlarının fəaliyyətində yuxarıda qeyd edilənlərin, həmçinin uzunmüddətli məntiqi və əyani obrazlı yaddaşın zəif inkişafı və onu təkmilləşdirmək niyyətinin olmaması mənfi qiymətləndirilir.

***Yüksək peşəkarlıq motivasiyasına*** düzgünlük, cəsarət, enerjilik, vicdanlıq, icraçılıq, intizam aiddir.

***Emosional xüsusiyyətlərə aiddir***: məsuliyyətli qərarların qəbulu zamanı emosional dayanıqlıq; qorxu və qeyri-müəyyənlik hissinə üstün gəlmək bacarığı, stresə qarşı davamlılıq.

Stresə qarşı davamsızlıq, həyəcan, nevrotizm, özünəməxsus psixopatik xüsusiyyətləri əməliyyatçıların və konfidentlərin peşəkar yararlılığına mənfi təsir göstərir.

***Əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin vərdişlərinə*** iş qabiliyyəti, fəallıq, yüksək peşəkarlıq və çeviklik aiddir.

*Ləng hərəkət, passivlik, tələskənlik, zəif iş qabiliyyəti funksiyaların reallaşdırılmasını çətinləşdirən amillərdir.*

# IX Fəsil
# Əməliyyat –axtarış fəaliyyətinin vasitələrı

## § 1. Əməliyyat-axtarış fəaliyyətində istifadə olunan xüsusi texnika

Əməliyyat-axtarış fəaliyyətində onun vasitələri ifadəsi xüsusi məzmun tutumuna malikdir. Bu ifadə elmi-praktiki termin mənasında ƏAF funksiyasının həyata keçirilməsinə yönəlmiş maddi obyektlərin məcmusu kimi başa düşülür. ƏAF elmində (nəzəriyyəsində) onlara əməliyyat texnikası, əməliyyat uçotları və axtarış itləri aid edilir.

Xüsusi texniki vasitələrin ƏAF-də istifadə olunması «ƏAF haqqında» Qanunun 10, 13, 14-cü maddələri, ƏAF-nin subyektlərinin, o cümlədən DİN-in müvafiq normativ aktları ilə nizamlanır.

Cinayətkarlığa qarşı mübarizədə texniki vasitələrin tətbiqinin günü-gündən genişlənməsi, onların istifadə edilməsinin üsul və fəndlərinin təkmilləşməsi ilə əlaqədar olaraq ƏAF nəzəriyyəsində **ƏAF-nin vasitələrinə aid olan «Əməliyyat texnikası» anlayışı altında xüsusi texniki vasitələrin öyrənilməsi nəzərdə tutulmuşdur. Nəzəriyyədə əməliyyat-texniki vasitələr şərti olaraq 2 yerə bölünür:** ***əsas (əsas etibarı ilə gizli qaydada əməliyyat-axtarış məlumatları almaq üçündür və xüsusi normativ aktlarla nizamlanır); köməkçi (texniki vasitələrin ümumi prinsipləri əsasında istifadə edilənlər).***

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində ƏAF subyektlərinə xüsusi və digər texniki vasitələrin tətbiqinə icazə verilmişdir. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada lisenziyalaşdırılmalıdır. Gizli informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növləri Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Vətəndaşların hüquq və azadlıqlarinın məhdudlaşdırılması ilə əlaqədar keçirilən əməliyyat-axtarış tədbirlərində xüsusi texniki vasitələrin tətbiqi qanunvericilikdə müəyyən olunmuş qaydada və ƏAF-nin sə-

lahiyyətli subyektinin və ya məhkəmənin qərarı ilə həyata keçirilir (CPM-in 442, 445-ci və s. maddələrinə «ƏAF haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulmuşdur). Şəxs haqqında xüsusi texnikanın köməkliyi ilə əldə edilmiş məlumat açıqlandıqda, həmin şəxs bu məlumatın qanunsuz əldə edilməsinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində xüsusi texnikanın tətbiqinə icazə alınmasına əsaslanaraq, ifadələrindən imtina və məhkəməyə şikayət edə bilər. Belə vəziyyətdə məhkəmə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin qanuniliyini araşdırıb, mübahisəli məlumatların qanuni yolla əldə edilməsini və ya hüquqi baxımdan qüvvəsiz hesab olunmasını elan edir. **İnsan səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır.**

**DİO-nun əməliyyat-axtarış orqanları əməliyyat-axtarış tədbirlərində əsasən aşağıdakı xüsusi texniki vasitələrdən istifadə edirlər:**

- gizli foto, kino çəkilişi və videoyazma;
- gizli daktiloskopiya;
- gizli səsyazma;
- əməliyyat-axtarış xarakterli texniki vasitələr və qaranlıqda görmə cihazları;
- xüsusi kimyəvi texniki vasitələr.

**Göstərilən xüsusi texniki vasitələrin təyinatı və tətbiq olunma qaydaları HMO-ın, o cümlədən DİN-in müvafiq normativ aktları ilə nizamlanır.**

Xüsusi texniki vasitələrin tətbiqinin nəticələri **raportla, izahatla, arayışla, aktla və normativ aktlarda göstərilmiş digər xidməti sənədlərlə rəsmiləşdirilir.** Belə nəticələr cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada yoxlandıqdan sonra, cinayət işləri üzrə sübut kimi istifadə oluna bilər. Məsələn, narkotik vasitələrin nəzarət qaydasında alınmasında iştirak edən əməliyyat işçisi ilk növbədə onların istismarında olan diktofondan istifadə edilməsinə dair qanunvericiliklə müəyyən edilmiş qaydaları rəhbər tutmalıdır (normativ aktların tələblərinə müvafiq olaraq). Qeyd edilən texniki vasitə (diktofon) istifadə edildikdən sonra, o, hal şahidlərinin iştirakı ilə götürülür və ona baxış keçirilir, danışıqlara qulaq asılır və cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq qablaşdırılıb, polis orqanının səlahiyyətli subyektinin razılığ ilə istintaq aparatına göndərilir və s.

## § 2. DİO-nun əməliyyat uçotları

ƏAF nəzəriyyəsində əməliyyat uçotları DİO-nun əməliyyat-axtarış fəaliyyətinin vasitələrinə aid edilmişdir. Onun təşkili, aparılması və istifadə olunmasının hüquqi əsasları «ƏAF haqqında» Qanunun 6-cı maddəsinin 10-cu bəndi, 7-ci maddəsinin 3-cü bəndi və HMO-in, o cümlədən DİN-in normativ aktları ilə nizamlanır. **Qanunun qeyd olunan maddələrində göstərilir:** ƏAF subyektlərinə hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq və əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək hüquqları verilmişdir.

**DİO-nun əməliyyat uçotlarv 3 formada aparılır:**

1. Əməliyyat-məlumat (arayış) xarakterli uçotlar;
2. Əməliyyat-profilaktiki uçotlar;
3. Əməliyyat-axtarış uçotları.

DİO-da əməliyyat uçotunun subyektlərinə aiddir:

- DİN-in Baş əməliyyat və Statistik İnformasiya İdarəsi (məsələn, axtarışda olan təqsirli şəxslər, xəbərsiz itkin düşən şəxslər, əvvəllər məhkum olunmuş şəxslər, əməliyyat qeydiyyat işləri və onlar üzrə keçən şəxslər və s. barəsində məlumatlar);
- Kriminalistik Tədqiqatlar İdarəsi (məsələn, hadisə yerindən götürülmüş eyniləşdirmək üçün yararlı olan əl-barmaq izləri, gilizlər və s.);
- şəhər, rayon polis idarə və şöbələrinin əməliyyat-axtarış bölmə və şöbələri (məsələn, cinayətin törədilmə üsulları, cinayət törədən şəxslərin ləqəb, xüsusi əlamətlərinə dair kartotekalar, oğurlanmış nəqliyyat vasitələri və s.), rəisin əmri ilə digər xidmətlərdə də aparıla bilər.

**Obyektləri** – polis orqanları üçün maraq kəsb edən şəxslər, faktlar, hadisələr, əşya və predmetlər ola bilər.

Beləliklə, əməliyyat uçotları – polis orqanları üçün maraq kəsb edən şəxslər, faktlar, hadisələr, əşya və predmetlər barədə məlumatların toplanması (yığılması), sistemləşdirilməsi, kartotekalar və məlumat bankları vasitəsilə saxlanılması və bu məlumatlardan qanunvericilikdə müəyyən edilmiş qaydada səlahiyyətli vəzifəli şəxslər tərəfindən əldə edilməsi və cinayətkarlıqla mübarizədə istifadə olunması kimi başa düşülür.

**Əməliyyat uçotlarına verilən tələblər:**

1. mərkəzləşdirilməsi;
2. tam həcmdə aparılması;
3. məqsədyönlüyü;
4. qanunauyğunluğu;
5. məxfilik və konspirasiya qaydalarına riayət olunması.

**Şəhər, rayon, xətt (nəqliyyatda) polis orqanlarında aşağıdakı istiqamətlərdə uçot kartotekalarından istifadə edilir:**

1. ŞRXPO üçün əməliyyat marağı kəsb edən şəxslərin;
2. xidməti əraçılərdə qeydə alınmış açılmış cinayətlərin;
3. oğurlanmış, tapılmış, sahibsiz, götürlümş əşya və əmlakın;
4. polis orqanlarının icazəsi ilə vətəndaşlarda və təşkilatlarda saxlanılan silahların (ov silahları daxil olmaqla) uçot kartotekası.

**DİN-in BƏSİİ-də aşağıdakı kartotekalar aparılır:**

1. Əməliyyat-məlumat (soyadlar üzrə və daktiloskopik);
2. axtarışda olan cinayətkarlar, itkin düşmüş şəxslər;
3. səhhəti və yaşına görə üzü barədə məlumat verə bilməyən xəstə uşaqlar;
4. şəxsiyyəti müəyyən olunmamış meyitlər;
5. dövlət nömrəsi və fərqləndirici əlamətləri olan oğurlanmış sahibsiz və götürülmüş əşyalar (silahlar, avtonəqliyyat vasitələri, tarixi və əntiq əşyalar, nümunələr və s.).

**Kriminalistik təhqiqat idarəsində aşağıdakı kolleksiya və izlər toplusu aparılır:**

1. qəlp pullar;
2. poliqrafiya üsulu ilə hazırlanmış saxta sənədlər;
3. saxta reseptlər və belə reseptləri hazırlayan şəxslərin yazı nümunələri;
4. cinayət baş vermiş yerdən götürülmüş qapı, qıfıl və s. sındırmaq üçün istifadə olunan alətlərin, həmçinin nəqliyyat vasitələrinin, ayaqqabıların izləri və mikroobyektlər;
5. cinayət törədilmiş yerdən götürülmüş əl və ayaqqabı izləri;
6. portret-axtarış.

# IV BÖLMƏ
# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNDƏ İNFORMASİYA
## X Fəsil
## Əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatı

### § 1 Əməliyyat-axtarış fəaliyyətində informasiya və onun təsnifatı aspektləri

Əməliyyat-axtarış fəaliyyətinin əsas məqsədinə nail olunması və vəzifələrinin müvəffəqiyyətlə həyata keçirilməsi, həmçinin onun praktiki və tətbiqi mahiyyətə malik olması bu fəaliyyətin daim informasiya ilə təmin edilməsini tələb edir.

Məhz ona görə də ƏAO onlara həvalə edilmiş vəzifələrin həyata keçirilməsi üçün digər hüquqlarla yanaşı, "ƏAF haqqında" Qanunla müəyyən edilmiş (maddə 7, bənd 3) informasiya sistemləri yaradır və onlardan istifadə edirlər.

**ƏAF-nin informasiya təminatı dedikdə, konkret cinayətlərlə əlaqəsi olmayan müxtəlif növ məlumatların toplanması, sistemləşdirilməsi, təhlili (analizi) və onlardan istifadə edilməsi kimi başa düşülür.**

Belə məlumatlara hüquqi səciyyəli məlumatları, kriminal səciyyəli məlumatları, digər növ istiqamətləndirici səciyyə daşıyan məlumatları aid etmək olar.

*Bu məlumatlar elə məzmun tutumuna malik olurlar ki, məhz onları nəzərə alaraq ƏAF-ni və onun əsas tərkib elementi olan ƏAT-ni həyata keçirməklə bu fəaliyyətin qarşısında duran vəzifələrin həllinə nail olunur.*

*Sözsüz ki, ƏAF-nin vəzifələrinin həllində digər mənbələrdən əldə edilən, əməliyyat marağı kəsb edən məlumatlar da mühüm rol oynayır. Qısaca olaraq qeyd edilən məlumatların cinayətkarlığa qarşı mübarizədə rolu və əhəmiyyəti üzərində dayanaq.*

**Hüquqi informasiyaya aşağıdakıları aid etmək olar:**

Normativ-hüquqi aktlar, müxtəlif hüquq sahələrinə aid olan normalarda əhatə edilən məlumatlar (normativ göstərişlər), həmçinin müxtəlif hüquqi hadisə, fakt, hallar və onlarla əlaqəli olan proseslər (məsələn, hüquq tətbiqinin nəticələri ilə bağlı məlumatlar, məhkəmə qərarları və.s). Bu məlumatlar bilavasitə hüquq sahələri ilə sıx əlaqəli olub konkret və real səciyyə daşıyır.

## ƏMƏLİYYAT-AXTARIŞ–FƏALİYYƏTİNİN–ƏSASLARI

Hüquq normaları hüquqi münasibətlərin tələb olunan, yol verilən və ya qadağan olunan davranışların mənbəyi və daşıyıcıları rolunu ifadə edir, eyni zamanda bu davranışların hansı hallarda və şərtlər çərçivəsində yol verilməsinin mümkünlüyünü və ya onlara riayət edilməyən hallarda baş verəcək qanunvericiliyə zidd nəticələrə dair məlumatları əks etdirir.

**Normativ informasiya öz funksiyanı ifadə edir:**

- *İstiqamətləndirici-(fəaliyyətin-şəraiti-və-şərtlərinə-dair-məlumatları-özündə -əks- etdirir);*
- *Proqram-mahiyyətli-(fəaliyyətin-məzmunu,-ardıcıllığı-və-xarakterini-göstərir)-;*
- *Praqmatik-səciyyə-daşıyan-(-fəaliyyətin-nəticələrinə-dair-təsəvvürlərin-və-bu-nəticələrin-fəaliyyətə-sonrakı-təsirinə-dair-məlumatlar).*

Qanunvericiliyin normalarının realizə edilməsinin (tətbiqinin) gedişatında müxtəlif hüquq sahələrinin normalarında təsbit edilmiş məlumatlar (göstərişlər) rəhbər tutularaq istifadə edilir. Qeyd edilən halda ən çox cinayət-hüquqi, cinayət-prosessual, cəza-icra hüquqi sahələrinin, CM, CPM, CİM, MM və ƏAF haqqında hüquqi əsaslara daxil olan normativ-hüquqi aktlarında, həmçinin Ali və Konstitusiya Məhkəmələrinin Qərarlarında, Baş Prokurorluğun Təlimatları və əmrlərində HMO-nın idarədaxili və idarələrarası normativ aktlarında əhatə edilən məlumatlardan istifadə edilir.

Müxtəlif fəaliyyət sahələrində müəyyən edilmiş qaydalarda (nəqliyyat, səhiyyə, tikinti, texniki təhlükəsizlik, sirlər və onların mühafizəsi, dağ-mədən, silah və döyüş sursatı, mülki dövriyyəsi məhdudlaşdırılan, dövriyyəsinə dövlət nəzarəti altında icazə verilən əşya, maddələr və.s bağlı davranış), təlimatlarda, əmrlərdə və.s hüquqi mənbələrdə əhatə edilən məlumatlar (göstərişlər) öyrənilən və tədqiq olunan fakt və hadisələrlə (hüquqpozmlarla, xüsusən cinayətlərlə) əlaqəsi varsa belə hallarda bu məlumatlardan istifadə etməklə onlarla bağlı problemli, müəyyən edilməsi zəruri olan məsələlərin həll edilməsi, əsaslı axtarış fərziyyələrinin irəli sürülməsi, onların yoxlanılması üçün taktiki hərəkətlərin seçilməsi, hansı mütəxəssislərin işə cəlb edilməsi, hansı növ kriminalistik və digər texniki vasitələrin istifadə edilməsi yolu ilə keçirilən tədbirlərin nəticələrinin rəsmiləşdirilməsi və.s. məsələlərin həllinə mühüm dərəcədə kömək edir. Bu növ məlumatlar vaxtlı-vaxtında peşə fəaliyətində, o cümlədən vəzifəli şəxslərin hərəkətlərində olan nöqsanları və müsbət məqamları aşkar edib qiymətləndirməyə imkan verir.

Qeyd edilənlərə, mövcud olan milli və beynəlxalq təcrübəyə əsaslanaraq demək olar ki, hüquqi informasiya ƏAF təcrübəsinin bütün istiqamətlərində mühüm rol oynayır.

Beləliklə hüquqi informasiya cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılmasında, axtarış işində, həmçinin ƏAF-nin təşkili və həyata keçirilməsində hüquqi baza (əsas) rolunu oynayır.

Ona görə də, HMO-nun əməliyyat aparatlarının (bölmələrinin) əməkdaşları bu hüquqi bazanı əhatə etdiyi normativ informasiyanı yaxşı bilməli, normativ hüquqi aktlarda təsbit edilmiş normaların şərhini və təcrübədə tətbiqini peşəkarcasına və yaradıcılıqla tətbiq etmək bacarıq və vərdişlərinə malik olmalı, mütəmadi olaraq ƏAF sahəsində yeni bilik və təcrübəni əks etdirən hüquqi mənbələrlə (ədəbiyyat, monoqrafiya, məqalə, tədqiqat materialları, normativ aktlara dair toplu, icmal, habelə ƏAF, istintaq və məhkəmə təcrübəsi materialları ilə) tanış olmalıdırlar.

ƏAF-nin informasiya təminatı məqsədi ilə HMO müxtəlif informasiya sistemləri yaradır və ondan istifadə edirlər.Belə informasiya sistemlərinin özəyini əməliyyat uçotları təşkil edir.

## § 2 Kriminal uçotlar əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatının bir vasitəsi kimi

Hüquq mühafizə orqanlarının xüsusilə də daxili işlər orqanlarının, o cümlədən polis orqanlarının uçotlarına kriminalistik, kriminaloji, əməliyyat, əməliyyat-arayış və inzibati uçotları aid edilir. Bu uçotlar ƏAF-nin vasitələrindən biri kimi hesab olunur. Onların hər biri öz məzmun tutumuna və təyinatına, obyektlərinə malik olub HMO-nın cinayətkarlığa qarşı mübarizədə müəyyən zəruri məlumatlarla təmin edir. Lakin ƏAF-nin informasiya ilə bağlı tələbatını daha lazım olan həcmdə əməliyyat-arayış, əməliyyat-axtarış, kriminalistik uçotları təmin edir və onları şərti olaraq ümumiləşdirilmiş bir "kriminal uçotları" adı ilə adlandırmaq olar.

**Kriminal[1] uçotlar dedikdə, aşağıdakılar başa düşülür**:

ƏAF-nin vəzifələrinin həllinin səmərəli informasiya təminatı məqsədilə şəxslər, faktlar (hadisələr), əşya, maddə, sənədlər, onların əlamətləri, xüsusiyyətləri haqqında xüsusi qaydada sistemləşdirilmiş informasiya massivi; bu massiv (məlumatlar bankı) kartotekalar (o cümlədən fototeka, videoteka və.s), kolleksiyalar, işlər, avtomatlaşdırılmış məlumatlar bankı (AMB) növləri kimi formalaşdırılır.

1 Kriminal - latın sözündən götürülüb, cinayət anlayışı mənasında başa düşülür.

Qeyd edilən uçotların formalaşdırlıb istifadə edilməsində “ƏAF haqqında” Qanunun 4-cü maddəsinin 1-ci hissəsinin 2-ci bəndinin müddəalarında Konstitusiyanın 32-ci maddəsinin 2-ci hissəsində təsbit edilmiş hər kəsin şəxsi və ailə həyatının ailə sirrini saxlamaq hüququnun təmin edilməsi konkretləşdirilir.

Həmin maddələrin normalarına görə qanunla nəzərdə tutulan hallardan başqa hər kəsin şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Bu məsələlər Azərbaycan Respublikasının digər qanunlarında da öz əksini tapır. Belə uçotların formalaşdırılmasında Konstitusiyanın 32-ci maddəsinin 3və 4-cü hissəsinin müddəaslarının rəhbər tutulması zəruridir.

**Krtriall uçotların təyinatı əsasən 3 istiqaməti nəzərdə tutulur**:

İdarəetmə – cinayətkarlığın strukturu, dinamikası, onunla mübarizənin nəticələri, mübarizədə iştirak edən hüquq mühafizə orqanlarının qüvvə və vasitələri haqqında məlumatlarla bütün səviyyələrdə rəhbər işçilərin təmin edilməsi;

Əməliyyat-axtarış – əməliyyat marağı kəsb edən şəxslərin və faktların aşkar edilməsi, cinayətlərin xəbərdarlığı, qarşısının alınması və açılması işinin səmərəliliyinin artırılması;

Əməliyyat xidməti–informasiyanın toplanmasının, işlənməsinin, saxlanmasının və arayış səciyyəli məlumatların verilməsinin təmin edilməsi

**Bu uçotlara aşağıdakı tələblər verilir**:

**Dəqiqlik** –*hər-bir-obyekt-yalnız-ona-məxsus-əlamətlərə-müvafiq-olaraq-təsvir-edilməlidir*;

**Vaxtli- vaxtında uçota götürülmə** –*tələb-olunan-obyektlər-vaxtında-aşkar-edilib-qeydiyyata-alınmalıdır.-Məsələn-“informasiya,-informasiyalaşdırma-və-informasiyanın-mühafizəsi-haqqında”-tarixli-Qanun-və-idarədaxili-normativ-aktların-tələbləri-və-s*.

**Tam həcmli** –*uçota-götürülməsi-tələb-olunan-bütün-obyektlər-nəzərə-alınmalıdır;*

**Sadəlik və rahatlıq** – *ümumiləşdirilmiş,-mürəkəb-olmayan,-doldurulması-asan-olan,-qeydiyyata-götürülən-obyektin-bütün-əsas-əlamətlərinin-əks-etdirilməsi,-avto-matlaşdırılmış-axtarış-sistemlərinin-geniş-tətbiqi*;

**Məqsədəuyğunluq** – *ƏAF-nin- subyektlərinin- informasiya- tələbatından-asılı-olaraq-məlumatların-dəqiq-sərhədlərinin-müəyyən-edilməsi-və-uçotların-təşkili-üçün - hüquq-mühafizə-orqanları-sisteminin-idarəçilik-səviyyəsinin-seçilməsi;*

**Kriminal uçotların obyektlərinə aid edilir:**

- *şəxslər-(axtarışda-olan-və-axtarılan-şəxslər);*

- *hadisələr-(faktlar-və.s);*
- *əşyalar,-sənədlər;*
- *eyniləşdirmə-üçün-yararlı-olan-izlər.*

**Bu uçotların massivinə daxil olan məlumatlarda aşağıdakı kateqoriyadan olan şəxslərə dair məlumatlar üstünlük təşkil edir**:

--*Hüquqpozmalara-(inzibati-xəta-və-cinayətlərə)-yol-verən-və-əməliyyat-marağı-kəsb-edən-şəxslər-;*

-

-*ətrafındakılar-üçün-təhlükə-mənbəyi-olan-psixi-xəstələr-(səhiyyə-orqanlarında-qeydiyyatda-olanlar)-;*

- *xəbərsiz-itkin-düşən-şəxslər,-naməlum-meyitlər;*

-

-*cinayət-törətmiş-və-axtarışa-elan-olunan-şəxslər-(yerli,-MDB-və-beynəlxalq-axtarış)-*

-

-*özləri-barədə-məlumat-vermək-iqtidarında-olmayan-yetkinlik-yaşına-çatmayan-şəxslər-və-ruhi-xəstələr-və-s.;*

--*Hüquq-mühafizə-orqanları-ilə-əməkdaşlıq-edən-şəxslər-(o-cümlədən-konfidensial-əsaslarla*)

**Hadisələr (uçot obyektləri)** –-*qeydə-alınmış-hüquqpozmalar,-o-cümlədən-cinayətlər-əməliyyat-xidməti-obyektlərinin-mühafizə-sistemi-və-onlara-nəzarət-(xüsusi-texniki-vasitələrin-qurulması,-qüvvələrin-yerləşdirilməsi-və.s).*

**Əşyalar** –-*təhqiqat,-ibtidai-istintaq-proeslərində-əməliyyat-axtarış-və-digər-tədbirlərin-keçirilməsi-zamanı-aşkar-olunmuş,-götürülmüş-əmlakı,-sənəd-(fərdi-nömrələrə-və-xüsusi-fərqləndirici-əlamətləri-olan-itirilmiş,-oğurlanmış-sənəd,-silah,-əntiq-əşyalar,-cinayət-alətləri,-nəqliyyat-vasitəsi,-yüklər-və.s*).

Hüquq mühafizə orqanlarının kriminal uçotlarının təşkili sistemi bu orqanların struktur quruluşlarının səviyyəsinə uyğun olaraq həyata keçirilir:

Mtrialn, şəhər (rayon) polis orqanları səviyyısində-yerli uçotlar (müxtəlif xidmətlərdə, növbətçi hissələrdə səlahiyyətləri çərçivəsində, ayrıca ayrılmış vəzifəli şəxs tərəfindən, ekspert-kriminalist tərəfindən (kriminalistik uçotlar və.s.). DİN-in baş idarələri (BƏSİİ, BMCMİ, BCAİ, İAQMBİ, BNMİ, KTİ, regional idarələr və.s) tərəfindən idarədaxili normativ aktlara əsasən təşkil edilib aparılan uçotlar. Bu istiqamətdə uçotlar digər HMO-ın fəaliyyətində onların səlahiyyətləri çərçivəsində xü-

susi ayrılmış xidmətlər (şöbə, idarə və vəzifəli şəxslər) tərəfindən aparılır.

**Hüquq mühafizə orqanları, xüsusilə də polis orqanlarının informasiyanın qeydiyyata alınması təcrübəsi əsasında uçotların aparılmasının əsasən aşağıdakı formalarından istifadə edilir:**

-  *kartotekalar*
-  *foto, videotekalar*
-  *işlər (Əməliyyat qeydiyyat işləri və s.)*
-  *avtomatlaşdırılmış iformasiya axtarış sistemləri (AİAS), MAPS (məlumat axtarış pasport sistemi və s.).*

Bəzi, xüsusilə ƏAF ilə konfidensial əsaslarla əməkdaşlıq edən şəxslər haqqında bəzi məlumatların qeydiyyatı ilə bağlı kargüzarlıqda informasiya texnologiyalarından istifadə edilməsi məsələlərində normativ-hüquqi aktlarla müəyyən olunmuş məhdudiyyətlər tətbiq edilir.

Hüquq mühafizə orqanlarının, əsasən də daxili işlər orqanlarının (polis orqanlarının) məlumatlar massivini özündə cəmləşdirən mərkəzi aparatları *əməliyyat arayış, axtarış, kriminalistik uçotları* **yerli və regional orqanlarının** uçotlarını müəyyən dəyişikliklər edilməklə özündə zəruri həcmdə mərkəzləşdirilmiş qaydada cəmləşdirir.

**Hüquq mühafizə orqanlarının, əsasən də daxili işlər orqanlarının ekspert-kriminalistik uçotları əsas etibarı ilə aşağıdakı kolleksiyaları özündə cəmləşdirir:**

-  *Cinayət hadisəsi ilə bağlı yerlərdən aşkar edilib götürülən güllə, gilizlər ;*
-  *saxta əlamətləri olan pul əskinazları, nişanələri və s.;*
-  *poliqrafik yolla hazırlanmış cinayətkarlıq fəaliyyətinə aid olan sənədlər.*

**Videoyazılar (videobanklar və videotekalar)** bazası əsasən də kriminal (əməliyyat) marağı təşkil edən şəxslərin, onların xüsusi zahiri əlamətlərinə görə şəxslərin uçotu müstəsna əhəmiyyət kəsb edir.

Hüquq mühafizə orqanlarının mərkəzləşdiriliş informasiya sistemlərində "**peşəkar cinayətkarlara**", o cümlədən "**qanunda oğrulara**", "**cinayət aləminin nüfuzlu şəxsləri" və digər xüsusi təhlükəli cinayətkarlar və s.** dair məlumatlar informasiya massivlərinə daxil edilir.

Kriminal uçotların əhəmiyyəti ondan ibarətdir ki, onlardan ƏAF-nin çoxsaylı subyektləri və məhkəmə orqanları istifadə etmək imkanlarına malik olur **( DİN, DTX, XKX, DGK, DSX, XDMX,VN, ƏN, FHN, KQMSİPO**)

Bu uçotlardan müəyyən strateji və taktiki səciyyəli proqnozların verilməsi və proqramların hazırlanmasında da istifadə etmək olar.

DİO-da Kriminal uçotların təşkilinin ümumi sistemini aşağıdakı cədvəldə qeyd edilən kimi vermək olar.

**Kriminal uçotlar sisteminin təşkilinin ümumi cədvəli**

| Adı və sıra №. | DİN sisteminin idarəçilik səviyyəsi. | Məlumatların (informasiyanın) toplanması dərəcəsi. | | Uçot növləri və onu aparan aparatlar (bölmələr). | |
|---|---|---|---|---|---|
| 1 | Hər bir səviyyə, məkan (ərazi), səlahiyyətlər hədlərində olan. | DİN-in müvaifq təlimatları ilə müəyyən olunmuş həcmdə və qaydada. | | Əməliyyat-arayış, axtarış, əməliyyat və kriminalistik uçotlar. | Ekspert-kriminalistik uçotlar. |
| 2 | Şəhər (rayon) polis orqanları. | Yerli uçotlar. | | 1-ci bənddə göstərilən uçot növləri; analiz və uçot qrupu (xüsusi ayrılmış əməkdaşlar). | Ekspert-kriminalistik qrup, əməliyyat aparatılarının digər xidmətləri və əməkdaşları. |
| 3 | DİN, Baş Polis İdarələri, NMR, BDİİ. | Regional uçotlar. | Mərkəzləşdirilmiş uçotlar. | 1-ci bənddə göstərilən uçotlar. | BƏSİİ, ƏSİİ analitik-informasiya qrupları. |

*Kriminal uçotlarının təşkili və istifadə edilməsində cinayətkarlığa qarşı mübarizənin əsas istiqamətləri rəhbər tutulur.*

***Məsələn, terrorçuluğa qarşı mübarizədə aşağıdakı informasiya sistemlərindən istifadə edilə bilər.***[1]

1. *Milli kriminalistik qeydiyyat sistemləri:*

- DİN-in əməliyyat-axtarış,axtarış və kriminalistik uçotları (Baş Əməliyyat Statistik İnformasiya İdarəsində və Kriminalistik Tədqiqatlar İdarəsində yerləşir);
- DİN “Vatson” (Baş Əməliyyat Statistik İnformasiya İdarəsində yerləşir);
- DİN “Sagem” (əl-barmaq izlərinin qeydiyyatı və axtarışı, Kriminalistik Tədqiqatlar İdarəsində yerləşir);

1 B.Ə.Əliyev. Terrorçuluğa qarşı mübarizənin elmi-nəzəri və hüquqi məsələləri. Monoqrafiya, Bakı, 2017, səh.

- DİN MAPS (məlumat axtarış pasport sistemi – şəxsiyyət vəsiqələrinin və ümumvətəndaş pasportlarının qeydiyyatı);
- DİN "Arsenal" (güllə-giliz kolleksiyanın elektron kolleksiyası və eyniləşdirilməsi sistemi, Kriminalistik Tədqiqatlar İdarəsində yerləşir);
- DİN Bakı BPİ (xarici vətəndaşların müvəqqəti qeydiyyatı);
- DİN DYP elektron məlumat massivi (avtomobil nəqliyyat vasitələrinin, dövlət nömrə nişanlarının, oğurlanmış avtonəqliyyatın qeydiyyatı);
- DİN ünvanlar bürosu;
- DİN tapıntılar bürosu;
- DTX (xüsusi uçot daxilində aparılan bəzi kriminalistik uçotlar);
- Vergilər Nazirliyi (VÖEN olan hüquqi və fiziki şəxslərin qeydiyyatı);
- Dövlət Gömrük Komitəsinin elektron məlumat massivləri (beynəlxalq əməkdaşlıq çərçivəsində təşkil ediləcək qeydiyyat da daxil olmaqla);
- AMAS "Gediş-gəliş" (DSX, DİN və DTX daxil olduğu avtomatlaşdırılmış məlumat axtarış sistemi, dövlət sərhəd keçid məntəqələrində ölkəyə gələn və gedən şəxslərin pasportlarının qeydiyyatı);
- Ədliyyə Nazirliyinin Hüquqi Şəxsləri Qediyyatı, Notariat və DVVAQ idarəsi (firma və müəssisələrin siyahısı, ünvanları, şəhadətnamələrin nömrələri və s.);
- Ədliyyə Nazirliyinin Penitensiar Xidməti (məhkumların qeydiyyatı və s.);
- Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi (İnterpol xətti ilə pul əskinazlarının qeydiyyatı);
- "Edison" (DSX və Beynəlxalq Miqrasiya Təşkilatının pasport sistemi, bütün dövlətlərin pasportlarının zəruri və mühafizə rekvizitlərinin qeydiyyatı);

*2. Milli qeyri-kriminalistik qeydiyyat sistemləri:*

- Mərkəzi Seçki Komissiyasının massivi (seçicilərin siyahısı, ünvanları və s.);
- Hərbi Komissarlığın elektron məlumat massivi (çağırışçılar, ehtiyata buraxılan zabitlər, gizirlər və s.);
- Səhiyyə Nazirliyinin müvafiq elektron məlumat massivləri (narkoloji dispanser, psixiatrik müalicə müəssisələrində qeydiyyatda olan şəxslərin siyahısı və s.);
- Dövlət Statistika Komitəsi ("Məhkumluq" adlı illik braşüra, cinayətkarlığın dinamikası, səviyyəsi, xüsusi çəkisi və s. statistik məlumatların dərc olunduğu mənbə);
- XİN (xidməti və diplomatik pasportların, vizaların, vətəndaşlığı olmayan şəxslərin siyahısı və s.);

- “Bakcell”, “Azercell”, “Azerfon” mobil rabitə operatorlarının elektron massivləri (abonent nömrələrinin elektron siyahısı, alqı-satqı məntəqəsində təqdim edilən sənədin surəti, zəng və mesajların giriş-çıxış tarixi və s.);
- Şəhər, rayon telefon qovşaqlarının abonent nömrələrinin elektron siyahısı;
- “Bakıelektrikşəbəkə”, “Azərsu”, “Azərqaz” və s. kommunal xidmətlər göstərən təşkilatların elektron məlumat massivləri (konkret obyektin adı, ünvanı, müştəri borclarının olması və s.);
- “AZAL” dövlət konserninin imkanları (aviabiletləri almış şəxslərin siyahısı, beynəlxalq aviabiletlərin alqı-satqısı sistemi və s.);
- Dövlət Pensiya Fondunun imkanları (təqaüdçülərin siyahısı, ünvanları, əmək stajı, əvvəllər işlədikləri yerlər və s.);
- Sosial Təminat Nazirliyinin imkanları (yaşa görə sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər və əlillər haqqında məlumatlar);
- Mədəniyyət və Turizm Nazirliyinin imkanları (tarixi abidələrin siyahısı, antiq əşyaların ölkədən çıxarılmasına icazə və s.);
- Yerli və xarici banklar (fiziki və hüquqi şəxslərin bank hesabları, adlarına elektron kartların olması, hesabdan pul çıxarmaları, ölkəmizdə nə vaxt və hansı bankomatlarda apardıqları əməliyyatlar, eyni zamanda, nəzərə almaq lazımdır ki, bankomatlarda müştərilərin fotoşəklinin çəkilməsi imkanları mövcuddur);

*3. Beynəlxalq kriminalistik qeydiyyat sistemləri:*

- İnterpol (Beynəlxalq Kriminal Polis Təşkilatı);
- Evropol (Avropa Birliyinin Kriminal Polis Təşkilatı);
- Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası İnformasiya Bankı (MDB DİB);
- GUAM dövlətlərin virtual informasiya mərkəzi;
- MDB ATM;
- MDB Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə üzrə Koordinasiya Bürosu

*4. Beynəlxalq qeyri-kriminalistik qeydiyyat sistemləri;*

- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Beynəlxalq Gömrük Təşkilatı;
- BMT yanında mütəşəkkil cinayətkarlığa və narkobiznesə qarşı mübarizə komitəsi;
- Beynəlxalq Aviasiya Təhlükəsizliyi Təşkilatı (İCAO);
- MAQATE (Atom enerjisindən istifadəyə nəzarət üzrə beynəlxalq təşkilat);
- İWAT (çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə maliyyə təşkilatı

Qeyd edilən informasiya sistemlərindən məlumatların sorğu əsasında əldə edilməsi və istifadə edilməsi qaydaları müvafiq normativ-hüquqi aktlarla nizamlnır və bu sorğuların müvafiq subyektləri müəyyən edilir.

## § 3 Əməliyyat uçotları

Əməliyyat uçotları kriminal uçotların bir növü olub, əməliyyat-axtarış fəaliyyəti üçün maraq təşkil edən obyektlərə dair məlumatlardan ibarət olan ixtisaslaşmış informasiya-axtarış sistemidir. Bu növ informasiya sistemləri əsas etibarı ilə ƏAF subyektləri və HMO-nın informasiya təminatlarının həyata keçirən ixtisaslaşmış mərkəzi xidmətləri tərəfindən formalaşdırılır və onlardan məlumat almaq hüquqlarına malik olan abonentlər normativ-hüquqi aktlarla müəyyən edilir.

Bu uçotlarda cəmləşən məlumatlardan ƏAF-nin subyektləri öz səlahiyyətləri çərçivəsində istifadə edir.

**Əməlliyyat uçotlarının obyektlərinə aid edilir:**

***1. HMO-nın əməlliyyat aparatları üçün maraq doğuran şəxslər;***

- *Əməliyyat-qeydiyyat-işləri-üzrə-keçən-şəxslər;*
- *ƏAF- haqqında- qanunvericiliyin- tələblərinə- müvafiq- olaraq- ƏAF-nin- sub-yektlərinə-köməklik-göstərən-şəxslər.*

***2. Zahirən kriminal əlamətləri müəyyən edilməyən fakt və hadisələrlə bağlı olan, yoxlanılan, tədqiq olunan şəxslərin hərəkətləri, davranışları və.s digər hadisələrlə əlaqəsi onların cinayətkar fəaliyyətlə məşğul olmasına dair kifayət qədər əsasların olmasına dəlalət edən hallar.***

***3. Əməlliyyat məlumatları üzrə keçən əşya, əmlak, cinayətlərin törədilmə aləti və vasitələri.***

**Əməliyyat uçotlarının əsas formalarına aid edilir**:

- *kartotekalar,-fotovideotekalar,-yoxlanılan,-tədqiq-edilən-və-axtarışı-elan-olunan-şəxslərə-və.s*
- *normativ-hüquqi-aktlarla-müəyyən-edilən-jurnallar*
- *Əməliyyat-qeydiyyat-işləri*
- *AMB,-əməliyyat-axtarış-təyinatlı-KMB*

**HMO-nın yerli ərazi orqanlarında, həmçinin onların ixtisaslaşmış bölmələrində formalaşdırılıb aparılır:**

**1. Kartotekalar**

*--ilkin-əməlliyyat-yoxlama-işləri-üzrə-keçən-şəxslər;*

*--axtarışa-elan-olunan-şəxslər;*
*--Əməliyyat-qeydiyyat-işləri-üzrə-keçən-şəxslər,-ƏAF-nin-subyektləri-ilə-konfidensial-əsaslarla-əməkdaşlıq-edən-şəxslərdən-alınan-və-ƏAT-nin-həyata-keçirilməsi-nəticəsində-əldə-edilən-məlumatlar.*

2. **Fotovideotekalar** - əməliyyat marağı kəsb edən bütün şəxslərə (əməliyyat-qeydiyyat uçotu və digər əməliyyat məlumatları üzrə keçən şəxslərə);

**2. Əməliyyat uçotu (qeydiyyat ) işləri** (onların növləri, qeydiyyatı və s., onlar üzrə icraat idarədaxili normativ aktlarla müəyyən olunur).

**3. Jurnal uçotu**

-  *ƏAF-nın-subyektlərinə-konfidensial-əsaslarla-köməklik-edən-şəxslər-;*
-  *ƏAF-nın-subyektlərinə-konfidensial-əsaslarla-köməklik-edən-şəxslərdən-daxil-olan-məlumatlar-;*
-  *ƏAF-ni- həyata- keçirən- orqanların- vəzifəli- şəxslərin- icraatında- əməliyyat-qeydiyyat-işləri-.*

**4. Əməliyyat-axtarış təyinatlı avtomatlaşdırılmış məlumatlar bankı özündə** (AMB, "Regional", "Respublika", "Mərkəz" və.s) aşağıdakı məlumatları cəmləşdirir:

-  *HMO-da-qeydiyyatda-olan-şəxslər-;*
-  *Cinayətlərin-törədilmə-üsulları,-bağlı-qalmış-cinayətlət-üzrə-axtarılan-şəxs-lərin-əlamətləri-;*
-  *Zavod,-fabrik-nömrələri-və-xarakterik-əlamətləri-olan-axtarılan-və-ya-aşkar- olunmuş-əşyalar,-nəqliyyat-vasitələri,-əmlak-və-s.:*

**AMB-dən aşağıdakı məlumatları *əldə* etmək olar:**

-  *informasiya-massivində-yoxlanılan,-tədqiq-olunan-şəxs-barəsində-məlumat-ları-olub-olmaması;*
-  *xarici-əlamətlər,-xüsusi-əlamətlər,-"döymələr"-("cinayət-aləmində"-işlədilən-tatuirovka),-cinayətin-növü-və-üsulları-haqqında;*
-  *şəxslərin-ləqəbləri,-cinayət-aləmində-statusu-və-əlaqələri-haqqında;*
-  *əldə-edilən-məlumatlara-uyğun-olaraq-şəxslərin-fotoşəkillləri-(fotorobot-və- "şifahi-portretləri")-və.s;*
-  *axtarışla-bağlı-qeydiyyata-qoyulmuş-nömrəli-və-ya-xüsusi-əlamətləri-olan- əşya,-əmlak-v\s.*

Məlumatların axtarışı ilə bağlı sorğuların verilməsində HMO-nın idarədaxili normativ aktları ilə müəyyən olunmuş xidməti sənədlərdən və terminlərdən istifadə edilir. Belə sorğular ƏAF-nın səlahiyyətli vəzifəli şəxsləri tərəfindən imzalanır.

## § 4 Əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatında dövlət və qeyri - dövlət orqanlarının informasiya sistemlərindən istifadə edilməsi.

ƏAF-nin təşkilində ölkəmizin və xarici dövlətlərin HMO-nun, digər dövlət qurumlarının informasiya sistemlərindən (banklarından) istifadə etmək olar. Bu informasiya sistemlərindən istifadə qaydaları Azərbaycan Respubilkası Qanunvericiliyi (CPM, GM, VM, "Polis", "Kəşfiyyat-əks kəşfiyyat", "ƏAF haqqında" Qanunlar və s. normativ-hüquqi aktları) HMO-nın idarələrarası normativ aktları və dövlətlər arası hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilərləlari ilə tənzimlənir. Məhz qeyd edilən hüquqi əsaslara müvafiq olaraq da ƏAF-də HMO sisteminə daxil olmayan dövlət orqanları və qeyri-dövlət orqanlarının informasiya sistemlərindən istifadə edilmə səlahiyyəti və qaydaları müəyyən edilir. Trasmilli mütəşəkkil cinayətkarlığa, habelə ağır və xüsusilə ağır cinayətlərə qarşı mübarizə sahəsində səlahiyyətlər, qarşıda duran vəzifələr və ümummilli maraqlar HMO-nun - gömrük, fövqalədə hallar, vergi və s. orqanlarının qarşılıqlı qaydada idarə səciyyəli informasiya sistemlərindən istifadə edilməsi zərurətini doğurur və bu istiqamətdə münasibətlər qanunvericiliklə tənzimlənir. Gömrük qanunvericiliyinə müvafiq olaraq gömrük orqanları öz səlahiyyətləri çərçivəsində ölkənin milli təhlükəsizliyini təmin edilməsində xüsusi xidmətlərə, digər dövlət orqanlarına köməklik etməklə yanaşı, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində bilavasitə fəaliyyət göstərir, insan və vətəndaşların, müəssisə və təşkilatların qanuni maraqlarının qorunmasında, ictimai qaydaların və ictimai təhlükəsizliyin mühafizəsi ilə bağlı vəzifələrin həyata keçirilməsi ilə əlaqədar hüquqi əsasları rəhbər tutaraq müəyyən olunmuş qaydada onları zəruri məlumatlarla təmin etmək vəzifələri də daşıyır. Eyni zamanda onlar gömrük işinin təşkili və həyata keçirilməsində digər HMO-nun dövlət orqanları və qeyri-dövlət orqanlarının informasiya sistemlərindən istifadə edirlər və belə halda onlar qanunvericiliyin tələblərini təmin etməklə ("Dövlət sirri haqqında", "Kommersiya sirri", "Bank və bank fəaliyyəti", "ƏAF haqqında" və s. haqqında qanunların , GM, CPM, MM, VM və s.) dövlət, peşə, kommersiya, bank və s. sirlərin məxfiliyini təmin etməlidirlər. Gömrük orqanları onların səlahiyyətlərinə aid olan cinayətlər üzrə təhqiqat, ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, gömrük statistikası, rəsmiləşdirilməsi və nəzarəti funksiyalarını həyata keçirir, gömrük obyektləri (risk və hədəfəri və s.) ilə bağlı informasiya sistemləri yaradır.

Artıq elə bir dövrdə yaşayırıq ki, (dünyada baş verən qloballaşma, milli iqtisadiyyatların inteqrasiyası) DİN, DTX, DGK, VN digər HMO-nun informasiya sistemlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada inteqrasiyasının təşkil edilib həyata keçirilməsinə ehtiyac vardır (məsəslən; AİAS- "Əntiq əşya",AİAS-"Axtarış", transmilli xüsusilə də qaçaqmalçılıqla məşğul olan cinayətkar qruplaşmalar və onlara dair məlumatlarla bağlı informasiya massivi və s.)

Gömrük orqanlarının informasiya sistemlərinin digər HMO-nun informasiya sistemləri ilə əlaqələndirilməsi (inteqrasiyası) işlərinin genişləndirilməsi müasir dövrdə cinayətkarlığın davamlı yüksəliş dinamikası ilə şərtləndirilir və zəruri hesab olunur.

Qanunvericiliklə müəyyən olunmuş qaydada vergi orqanları əməliyyat marağı kəsb edən şəxslərin kölgə iqtisadiyyatı ilə əlaqəsi olan, maliyyə durumu barədə mənbələrinə və əlaqələrinə dair öz informasiya massivlərində olan məlumatları digər HMO-ya qanunvericiliyin tələbləri rəhbər tutulmaqla verməlidir .

İnkişaf etmiş dövlətlərin (ABŞ, RF və s.) fərdi dedektiv (xəfiyyə fəaliyyəti) barədə təcrübəsindən də informasiya təminatında istifadə edilməsi məsələləri bu gün aktualdır. Məsələn ABŞ və RF-nın qanunvericiliyinə əsasən lisenziya almış fərdi dedektiv qurumunun rəhbəri və ya ştatda olan əməkdaşı polis orqanının (prokurorun) tələbinə əsasən cinayət işi ilə əlaqədar istənilən məlumatı verməlidir. Belə məlumatların həmin qurumda saxlanması və istifadə qaydaları da qanunvericiliklə müəyyən edilir. Sözsüz ki, bu qrumlara və onların əməkdaşlarının səlahiyyətləri çərçivəsində əldə etdikləri informasiyanın konfidensiallığının saxlanılmasına dair tələblər qanunla tənzimlənir. Qeyd edilən qurumların əməkdaşları (xəfiyyələr) HMO-nun, o cümlədən polis orqanlarının kriminal uçotlarından istifadə etmək hüquqlarına, həmçinin şəxslərin və vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması, habelə bütüvlükdə ƏAF-nin keçirilməsinə dair verilən səlahiyyətlərə malik deyillər.

Cinayətkarların axtarışı ilə bağlı HMO-nun ümumi vəzifələrinin həllində polis, gömrük, xüsusi xidmətlərin, sərhəd və s. orqanların səlahiyyətləri, ərazi, fəaliyyət istiqamətindən və s. asılı olaraq yaradılmış informasiya massivlərinin də böyük əhəmiyyəti vardır. Məsələn: AİAS-Aeroport (Hava limanı) informasiya sisteminin köməyi ilə qısa və riaı vaxt çərçivəsində sərnişinlər və onların sənədləri yoxlanılmaqla axtarışda olan şəxslərin aşkar edilməsi işinə nəzarəti həyata keçirmək üçün informasiya təminatı təmin edilir.

**Bir sıra dövlətlərdə "Mehmanxana" şərti adlı informasiya sistemlərindən istifadə olunur**. Belə informasiya sistemləri vasitəsilə qısa və real vaxt çərçivəsində informasiya texnalogiyalarıdan istifadə etməklə mehmanxanada yaşayan bütün şəxs-

ləri və onların sənədlərini kriminal uçotlardan yoxlamaq olar. Bir sıra dövlətlərdə dəmir yolu ilə hərəkət üçün biletlərin satışı ilə bağlı “Ekspres” və s. şərti adlı informasiya sistemləri yaradılmışdır. Bu informasiya sistemlərinin əsas məqsədi sərnişinlər arasında axtarışda olan şəxslərin olub-olmamasının yoxlanılmasıdır.

**Cinayətkarlığa qarşı mübarizədə sözsüz ki, səhiyyə, tibb müəsisələrinin informasiya sistemlərindən geniş istifadə edilir. Bu informasiya sistemlərindən istifadə etməklə aşaqdakı məlumatları əldə etmək olur:**

-

*Yoxlanılan,-tədqiq-olunan-cinayətdə-şübhəli-olan-və-kriminal-hadisələrin-digər-iştirakçılarının-psixi-vəziyyəti-barədə;*

-

*-Pisixi-durumunda-qüsurlar-olan,-narkomanlıq-diaqnozu-müəyyən-edilən-şəxs-lər-barədə;*

*--Müəyyən-xəstəliklərlə-əlaqəli-olan-axtarış-əlamətlərinin-aşkar-edilməsinə-dair-;*

*-Bədən-quruluşu-,-stomatoloji-əlamətləri,-müəyyən-xəstəliklərlə-bağlı-və-onların-müalicəsi-ilə-bağlı-olan-izlərə-əsasən-naməlum-meyitlərin-şəxsiyyəti-barədə-və-s.*

**Qeyd edilən uçotlarla bağlı tibb müəssisələrində ƏAF-nin informasiya təminatının daha çox əhəmiyyət kəsb edən bəzi formalarına aşaqdakıları aid etmək olar:**

**1. Stasionar tibb müəsisələrində**

*-stasionar-qaydada-müalicə-olunan-xəstənin-tibb-kartı;*

*-Əməliyyat-müdaxiləsinin-qeydləri-kartı;*

*-hamilə,-doğumu-keçirmiş,-doğan-qadınların-qəbulu-kartı;*

*-hamiləliyin-kartı;*

*-stasionar-doğuşların-qeydiyyat-kartı;*

*-bioloji-ölümün-təsdiqi-kartı-və-s.*

HMO-nun cinayətlərin aşkar edilməsi, xəbərdarlığı, qarşısının alınması və açılması, axtarış işinin həyata keçirilməsi ilə məşğul olan bölmə və xidmətlərin fəaliyyətinin (o cümlədən ƏAF-nin və digər hüquq-mühafizə fəaliyyəti növlərinin) informasiya təminatının müasir problemlərinin həlli ilk öncə və mühüm dərəcədə onların texniki təchizatlarından , kompyuterləşmə prosesindən, yeni müasir informasiya texnalogiyalarının tətbiqindən, həmçinin informasiyanın zəruri həcimdə toplamaq, zənginləşdirməkdə müasir bilik və peşə vərdişlərinə , əməliyyat ustalığına malik olan əməkdaşların fəaliyyətindən asılıdır.

Cinayətkarlığa qarşı mübarizədə səhiyyə orqanlarının informasiya massivindən (uçotlarından - psixi xəstələr, narkoloji, dəri-zöhrəvi dispanserlərdə və s. uçotda olan

şəxslər) HMO-nun səlahiyyətlərindən asılı olaraq istifadə edilir.

Ətraf mühitin mühafizəsi məsələlərinə aid xidməti fəaliyyətlə bağlı məlumatlar ekologiya və təbiətin mühafizəsi orqanlarinin ixtisaslaşmış informasiya sistemlərindən əldə edilir.

Müdafiə Nazirliyinin və onun hərbi səfərbərlik və çağrışla işi ilə məşğul olan orqalarının informasiya sistemindən qanunvericiliyin tələbləri rəhbər tutulmaqla hüquq-mühafizə fəaliyyəti ilə bağlı məlumatlar əldə olunur.

Bir sözlə informasiya texnalogiyalarından istifadə etməklə dövlət və qeyri-dövlət orqanlarının məlumatlar sistemlərindən cəmiyyətin həyatının müxtəlif istiqamətləri üzrə zəruri məlumatlar əldə etmək olar.

Lakin, nəzərə almaq lazımdır ki, hüquq-mühafizə və digər fəaliyyət sahələrində qanunvericilikdə dövlət, dövlət orqanları, insan və vətəndaşlarla bağlı sirlərin (məlumatların-dövlət, peşə kommersiya, notariat, bank, istintaq, ailə, şəxsi həyat və s.) mühafizəsi və onlardan istifadə qaydaları müəyyən edimişdir. Məhz ona görə də belə məlumatlar qanunvericiliyin tələbləri rəhbər tutulmaqla verilir və istifadə olunur.

Sözsüz ki,ƏAF-nin informasiya təminatında qarşıda duran strateji, təşkilati, taktiki vəzifələrdən asılı olaraq bütün dövlət orqanlarına səlahiyyətlərinə aid olan informasiya sistemlərindən qanunvericiliklə müəyyən olunmuş qaydada istifadə etmək olar. Bu informasiya sistemləri çox təyinatlı və çox şahəli, müxtəlif idarəçilik səviyyəsində qanunvericiliyə müvafiq olaraq təşkil edilir və onlardan müəyyən olunmuş subyektlər tərəfindən istifadə edilir.

**Dünyada gedən qloballaşma, milli iqtisadiyyatların geniş və beynəlxalq miqyasda inteqrasiyası, müasir informasiya texnologiyalarının tətbiqi, elmi-texniki tərəqqinin davamlı və sürətlə inkişafı ilə yanaşı terrorizmin, ekstremizim və separatizm kimi sosial hadisələrin miqyasının genişlənməsi, həmçinin transmilli mütəşəkkil cinayətkarlığın səviyyəsinin yüksəlməsi, informasiya texnologiyaları sahəsində cinayətkarlığın yüksəliş dinamikası müşahidə edilir. Məhz ona görə HMO-nun əsas vəzifələrindən biri kimi informasiya massivlərinin qorunmasında müasir texnologiya və vasitələrindən istifadə etməli bu istiqamətdə hüquqpozmalarla bağlı qanunvericiliyin təkminləşdirilməsinə dair təşəbbüslər göstərməlidirlər.**

# V BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN MADDİ TƏMİNATI

## XI Fəsil
## Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı

### § 1. Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki təminatı

“ƏAF haqqında” Qanuna əsasən ƏAT-nin keçirilməsi prosesində informasiya sistemlərindən, video, audio yazısından, kino və foto çəkilişindən qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə edilməsi nəzərdə tutulmuşdur. Qanunda həmçinin ƏAF-nin subyektlərinə öz səlahiyyətləri çərçivəsində əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemləri yaratmaq və onlardan istifadə etmək hüquqları verilmişdir. Qanunun digər maddələrində (mad.10, 14, 16, 21) texniki vasitələrdən istifadə ediməsi ilə bağlı münasibətləri tənzimləyən ümumi səciyyəli normalar öz əksini tapmışdır. Qeyd edilən texniki vasitələrin təcrübədə tətbiq ediməsinin təşkili və taktiki məsələləri, o cümlədən bununla bağlı tərtib edilən əməliyyat-xidməti sənədlər, onların qeydiyyatı, ƏAF-də və cinayət prosesində istifadə edilməsi qaydaları HMO-ın idarədaxili və idarələrarası normativ aktları ilə tənzimlənir. ƏAF-də istifadə edilən informasiya sistemlərinin və qeyd edilən texniki və digər vasitələrin tətbiqinin əsas şərtlərindən biri ondan ibarətdir ki, onlar ətraf mühitə insan həyatına və sağlamlığına zərər vurmasınlar. ƏAF-də **texniki vasitələr** ifadəsinin yerinə şərti olaraq əməliyyat **texnika** ifadəsi işlədilir. Tarixən ƏAF nəzəriyyəsində ənənəvi olaraq əməliyyat texnikası kriminal uçotlar, o cümlədən əməlyyat uçotları və axtarış itləri əməliyyat-axtarış fəaliyyətinin vasitələrinə aid edilir. Bir sira tanınmış alimlərin mütəxəssislərin yüksək bilik, peşə vərdişlərinə və təcrübəyə malik olan əməliyyat aparatları əməkdaşlarının apardığı araşdırmalarının nəticələrinə və əsaslandırılmış mülahizələrinə görə əməliyyat-axtarış fəaliyyətində istifadə edilən bir sıra yerləri (otaqlar mənzillər binalar və s.) də xüsusi vasitələrə aid etmək olar.HMO cinayətkarlığa qarşı mübarizədə o cümlədən ƏAF-də müxtəlif çeşidli texniki vasitələrdən istifadə edirlər.

**HMO-nun xüsusilə də DİO-nun (o cümlədən polis orqanları) əsas funksiyaları nəzərə alınmaqla istifadə etdikləri texniki vasitələrin təyinatı və tətbiq edilmə istiqamətindən asılı olaraq onları aşağıdakı kimi təsnif etmək olar :**

***-inzibati;***

***-kriminaltrial;***

***-əməliyyat.***

əməliyyat texnikası hadisələrin, əşyaların normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada aşkar və ya qeyri-aşkar yolla qeydə alınması, onlara dair məlumatların saxlanılması, əməliyyat-qeydiyyat işləri, həmçinin cinayət işləri üzrə ibtidai araşdimada (təhqiqat və ibtidai istintaq), qanunvericiliyin tələbləri rəhbər tutulmaqla, sübut qismində istifadə edilməsi məqsədini daşıyır.

*Əməliyyat- texnikasına- gizli- qaydada- informasiya- alınması- üçün- hazırlanmış,*
-
*ümumi-istifadə-xarakteri-daşıyan-məişət-texnikasını-və-xüsusi-təyinatlı,-qanunvericiliklə-müəyyən-edilmiş,-xüsusi-texniki-vasitələri-aid-etmək-olar.*

Bir sözlə, əməliyyat texnikasını ƏAF-nin, kəşfiyyat, əks-kəşfiyyat fəaliyyətinin vəzifələrinin həlli məqsədi ƏAT-nin keçirilməsində gizli qaydada tətbiq edilən qanunvericiliklə müəyyən edilmiş texniki vasitələrin xüsusi növü (qrupu) kimi də dəyərləndirmək olar.

**Əməliyyat texnikasının tətbiqinə verlən əsas tələblərə aid edilir.**

*-qanunveriliciliyin-tələblərinə-riayət-edilməsi;*

--*konspirasiya-qaydalarının-təmin-ediməsi;*

--*məqsədəuyğunluq-və-həmləlik.*

Qanunçuluğun təmin ediməsi aşagıdakıları nəzərdə tutur:

--*Əməliyyat-texnikasının-normativ-aktların-tələblərinə-ciddi-riayət-etməklə-tətbiq-edilməsi;*

--*Əməliyyat-texnikasının-yalnız-ƏAF-nin-subyektləri-tərəfindən-və-normativ-aktlarla- müəyyən- edimiş- qaydada- digər- şəxslər- tərəfindən- bu- fəaliyyətin- vəzifələrinin - həlli-məqsədi-ilə-tətbiq-edilməsi-;*

--*onun-tətbiqi-və-nəticələri-rəsmiləşdirilməlidir.*

Əməliyyat-texniki vasitələri qanunvericiliyə müvafiq olaraq ƏAT-nin həyata keçirilməsində tətbiq edilir və onun istifadə edilməsini hüquği cəhətdən əsaslı sayilması üçün ondan istifadə edilməsi ƏAT-nin keçirilməsinə dair qərarda təfsilatı ilə (onun növü, texniki göstəriciləri, təyinatı və s.) öz əksini tapmalıdır.

ƏAF-nin 21-ci maddəsində və CM-in 302-ci maddəsinə əsasən gizli informasiya almaq üçün əməliyyat texnikasından qanunsuz istifadə edilməsinə görə məsuliyyət (cinayət inzibati intizam ) nəzərdə tutulmuşdur.

ƏAF-nin həyata keçirilməsində istifadə edilən xüsusi texniki vasitələrə (Əməliyyat texnikasının və s.) qanunvericiliyin tələblərinə müvafiq olaraq sertifikat verilməlidir. Onların növləri Nazirlər Kabineti tərəfindən müəyyən olunur. ƏAT-nin nəticələrini əks etdirən sənədlərdə istifadə edilən xüsusi texniki vasitələrin texniki göstəriciləri tətbiqi qaydası və şəraitinə dair qeydlər edilməlidir. Xüsusi texniki vasitələrin tətbiqi ilə bağlı çox mürəkkəb və yüksək dərəcədə konspirativlik tələb edən insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı ƏAT-nin qanunvericiliyə müvafiq olaraq DTX, XKX və DİN-in ixtisaslaşmış bölmələri tərəfindən və ya ƏAF-nin digər subyektlərinin vəzifələrinin icrası üçün onların sorğuları əsasında həyata keçirilir. Bu sahədə də istər elmi-nəzəri, hüquqi, istərsə də təcrübi baximdan problemlərin mövcud olmasını etiraf etmək lazimdır.[1]

***Qeyd edilən bölmələrin fəaliyyətinin təşkilatı, taktiki maliyyə təminatı və s. məsələləri yuxarıda göstərilən subyektlərin normativ- hüquqi aktları ilə tənzimlənir.***

***XTV-nin istifadə edilməsinin konspirativliyi dedikdə onların qeyri-aşkar (gizli) və ya əfsanələşdirilmiş (pərdələndirilmiş- gizli fənd və üsullardan həmçinin səhnələşdirilmədən istifadə etməklə) qaydada tətbiq edilməsi başa düşülür.***

**Əməliyyat texnikasının əsas növlərinə aşağıdakılar aid edilir**:

- *gizli foto video vasitələri;*
- *əməliyyat eyniləşdirmə vasitələri;*
- *xüsusi kimyəvi vasitələr;*
- *radiostansiya vasitələri və akustika nəzarət vasitələri;*
- *axtarış cihazları;*
- *vizual müşahidə cihazları (vizual latın sözü olub görmə orqanı ilə baxış);*
- *xüsusi vasitələr (o cümlədən poliqraf).*

Qeyd edilən əməliyyat texnikasının növlərinə dair ətrafı və daha geniş məlumatlar ƏAF-yə dair son illərdə yazılmış elmi mənbələrdə əhatə edilmişdir.

1 Ş.İ.Hüseynov. "Narkotik vasitələrin və psixotrop madələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi, təcrübi məsələrin və problemlərin həlli yolları". XX, XXI bölmələr. B. Mütərcim, 2016.

Son illərdə bir sıra dövlətlərdə (o cümlədən ABŞ, RF və s.) ƏAF və digər fəaliyyət növlərində poliqrafdan istifadə edilir və onlardan istifadə edilməsi normativ-hüquqi aktlarla tənzimlənir.

***Xüsusi vasitə-poliqraf (lay –dedektor varioqraf pletizmoqraf) insana verbal[1] təsir etmək və maksimal dərəcədə reallığa yaxın şərait yaratmaq yolu ilə onda yaradılan hisslər, emosiyalar psixoloji-emosional vəziyyətlərin çoxsaylı göstəricilərin qeydə alınmasını təmin edən bir sıra əlaqəli cihazların məcmusundan ibarətdir***.

Bir sözlə, poliqrafdan istifadə etməklə insanın emosional halı ilə bağlı bir növ tədqiqat həyata keçirilir. Poliqrafdan əsas etibarı ilə cinayət faktları üzrə ifadələrin düzgünlüyünü yoxlamaq məqsədi ilə istifadə edilir. Poliqrafın tətbiq edilməsinə şəxsin könüllü razılığı olmalıdır və onun tədbiqi nəticəsində əldə edilən məlumatlar heç bir hüquqi qüvvəyə malik deyildir və cinayət prosesində sübut qüvvəsinə malik deyildir, istiqamətverici və psixoloji təsvir səciyyə və mahiyyəti daşıyır. Beynəlxalq təcrübədə kontaktlı və kontaktsız (insan bədəni ilə birbaşa əlaqəsi olmayan və şəxsin razılığı olmadan keçirilən) poliqrafdan istifdə edilir. Ölkəmizin hüquq-mühafizə orqaları tərəfidən poliqrafdan istifadə edilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır və müasir dövrdə bu məsələnin müsbət həll edilməsi məqsədəuyğundur.

**Poliqrafın köməyi ilə aşağıdakı vəzifələrin həllinə nail olmaq olar:**

- *şəxsin bilvasitə cinayətdə iştirak etməsi və yaxud cinayətlə əlaqəsi; olan şəxslər və faktlar barəsində məlumata malik olması;*
- *cinayətin törədilmə faktının təsdiq edilməsi;*
- *cinayət əməli ilə bağlı sübut qismində istifadə edilə biəcək əşya, maddə və sənədlərin aşkar edilməsi;*
- *cinayət prosesi iştirakçılarının verdiyi məlumatlarin doğruluğu və s. yoxlanılması.*

Poliqraf tədqiqatları xüsusi hazırlıq keçmiş, bu fəaliyyətə buraxılışı olan mütəxəssislər tərəfindən həyata keşirilir və əldə edilən məlumatlar yalnız tədqiq olunan şəxsə (onun müdafiəçisinə) və aidiyyatı olan səlahiyyətli şəxslərə verilə bilər. Bu məlumatlar müvafiq xidməti sənədlə rəsmiləşdirilir və yalniz CPM-də nəzərdə tutulmuş qaydada yoxlandıqdan və təsdiq edildikdən (cinayət-prosesual sənədləşdirildikdən) sonra cinayət işi üzrə sübut qismində istifadə edilə bilər.

Əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin müvəffəqiyyətlə həyata keçirilməsində texniki vasitələrlə yanaşı digər vasitələrdən də istifadə edilir. Son illərdə

1 Verbal latın sözü "verbalis"dən götürülmüşdür, şifahi, sözlə ifadə edilən mənası daşıyır.

ƏAF elmində nəzərdə tutulan və cinayətkarlığa qarşı mübarizədə istifadə edilən xüsusi yerləri (otaqları, binaları vəs.) kimyəvi tələləri və axtarış itlərini aid etmək olar. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tarixən cinayətkarlığa qarşı mübarizədə özlərinin qeyri- aşkar fəaliyyətində xüsusi yerlərdən bir vasitə kimi istifadə etmişlər. Məsilən Fransa gizli polisinin(Syurte) yaradıcılarından biri kimi tanınan Ejen Fransua ona gizli köməklik göstərən Vidan adlı şəxslə əməkdaşlıqda belə mənzil-tələlərdən istifadə edirdi. Bu gün ƏAF haqqında qanunvericiliyə əsaslanaraq belə yerlərdən istifadə edilməsini bir növ əməliyyat eksperimenti kimi də dəyərləndirmək olar. Bu vasitələrdən istifadə etməklə əməliyyat maragı kəsb edən məlumatlar əldə etmək axtarışda olan cinayət törətmiş şəxslərin yerini müəyyən edib yaxalamaq, bağlı qalmış cinayətlərin açılmasına, həmçinin ƏAF-nin digər vəzifələrinin həllinə nail olmaq mümkündür. Belə belə xüsusi yerlərdən konfidensial görüşlərin keçirilməsi üçün də istifadə etmək olar. Belə mənzillərdən (mənzil-sığınacaq) HMO və onların daxili təhlükəsizlik bölmələri ganunvericiliklə dövlət müdafiəsi nəzərdə tutulmuş şəxslərin həyat və sağlamlığının təhlukəsizliyinin təmin edilməsi məqsədi ilə istifadə edirlər. Qeyd edilən yerlər müvəqqəti konspirativ sığınacaq – təhlükəsizlik yerləridir və qeyri-aşkar qaydada yüksək dərəcədə nəzarətdə saxlanılır.

Axtarış itləri HMO-nun (DİN DGK DTX FHN və s.) tərəfindən cinayətlərin aşkar olnması, qarşısının alınması, açılması, məhkəmə və istintaqdan yayınan cəzaçəkmə müəssisələrindən qaçan və s. şəxslərin axtarışı cinayət alət və vasitələrinin qacaqmalçılığın predmetlərinin aşkar edilməsi, habelə hüquq-mühafizə fəaliyyətinin digər vəzifələrinin həllində geniş istifadə edilir.

***Axtarış itləri ƏAF-nin müstəqil bir vasitəsi olub inspektor-kinolq[1] tərəfidən hüquq-mühafizə fəaliyyətinin vəzifələrinin*** **icraası ilə bağlı aşağıdakı tədbirlərdə istifadə edilir**:

*-yaşayış yerinin, tikililərin, torpaq sahələrinin yoxlanılması;*

**-odoroloji**[2]*-seçmə əsasında insan və əşyaların eyniləşdirilməsi;*

*-narkotik vasitələrin, psixotrop maddələrin, silahlarin, düyüş sursatının qaçaqmqlçılıq predmetlərinin axtarışı;*

*--odoroloji tədqiqatlarda (dedektor itləri);*

1 Kinoloq – yunan sözü olub (kinos – it+loqos (anlayış, təlim, elm) itlər, onların cinsləri və onlara qulluq edilməsi mənasında başa düşülür. Hüquq-mühafizə fəaliyyətində (ƏAF-də) peşə termini kimi istifadə edilir, xidməti – itçilik işi sahəsi ilə bağlı və HMF-də ixtisaslaşmış itləri tədbiq edən şəxs (işçi) mənasında istifadə edilir.

2 Odorologiya, yunan sözü olub, iylər haqqında elm sahəsi kimi başa düşülür.

--*cinayətkarların-təqib-edilməsində;*

--*əməliyyat-kombinasiyalarının-keçirilməsində;*

---*tutulan-həbs-və-məhkum-edilən-şəxslərin-müşiyət-edilməsində;*

--*müxtəlif-obyektlərin-mühafizə-edilməsində;*

--*cinayət-törıdib-müqavimət-göstərən-şəxslərin-tutulmasında;*

--*təbii-fəlakətlərdə-fövqəladə-vəziyyətlərdə,-qəza-xilasetmə-işlərində-və-s.*

Cinayətkalığa qarşı mübarizə məqsədilə HMO-da itçilik təsərüfatının təşkili maliyyələşdirilməsi, cins itlərin seçilməsi, yetişdirilməsi, qidalandırılması, sanitariya-gigiyena qaydaları, onlarla təlimlərin keşirilməsi, onların cinayətkarlığa qarşı mübarizədə istifadə edilməsi və s. münasibətlər DGK, FHN və DİN və s. normativ aktlar ilə tənzimlənir.

Qeyd etmək lazımdır ki DGK-nin strukturuna daxil olan kinoloji xidmətin əməkdaşları tərəfindən axtarış itlərinin istifadə edilməsi nəticısində hər il ölkəyə gətirilməsi, qadağan olunan məhdudlaşdırılan narkotik vasitələr, psixotrp maddələr, düyüş sursatı və s. aşkar edilərək götürülür. Bu faktlarla bağlı çoxsaylı cinayətlər açılır və cinayətkar qruplaşmalar ifşa olunur.

**Axtarış itlərinin cinayıtkarlığa qarşı mübarizədə nəticələri (səmərəliyi) aşağıdakı şərtlərdən asılıdır:**

--*hadisə-baş-verdikdən-sonra-mümkün-qədər-qısa-müddətdə-istifadə-edilməsi-(elmi-əsaslar-və-təcrübə-nəzərə-alınmaqla);*

--*izlərin,-iylərin-mühafizəsi-ilə-bağlı-tədbirlərin-görülməsi;*

---*kinoloqun-peşə-hazırlığı-və-onun-HMO-nun-əməkdaşları-ilə-qarşılıqlı-əlaqəsi;*

--*axtarış-itinin-hazırlıq-səviyyəsi-və-müxtəlif-vəziyyətlərdə-hərəkətləri-(dözümlülüyü,-səslərə,-iylərə,-ətrafdakılra,-atəşə-reaksiyası-və-s.).*

Axtariş itinin istifadəsinin nəticəsi aktla rəsmiləşdirilir və inspektor kinoloq, axtarış itinin tətbiqində iştirak edən HMO-nun əməkdaşı və digər səxs tərəfindən imzalanır. Bu sənəd hüquqi qüvvəyə malik deyildir, cinayət prosesində sübut qismində istifadə edilə bilməz. Lakin nəzərə almaq lazımdır ki, axtarış itlərinin tətbiqi psixoloji üsul kimi, həmçinin əməliiyat kombinasiyalarında istifadə edilə bilər. Bütün hallarda qanunvericiliyin tələbləri rəhbər tutulmalıdır.

## § 2. əməliyyat-axtarış fəaliyyətinin maliyyə təminatı

Əməliyyat-axtarış fəaliyyəti hüquq-mühafizə fəaliyyətinin digər növləri kimi əməkdaşların mənəvi və fiziki gücündən istifadə edilməsi ilə yanaşı, mütləq qaydada müəyyən maliyyə xərcləri də tələb edir. Müasir dövrdə əməliyyat aparatları qarşısında cinayətkarlığa qarşı uğurla mübarizə vəzifələrinin həyata keçirilməsi üçün ƏAF subyektlərinin lazımi səviyyəli maliyyə bazası ilə təmin edilməsi çox önəmlidir.

Məlum məsələdir ki, bazar və liberal iqtisadi münasibətlərinin geniş tərəqqisi, milli iqtisadiyyatların geniş miqyaslı inteqrasiyası prosesləri gedən müasir dövrdə pul vəsaitləri, beynəlxalq valyuta ictimai inkişafın əsas amillərindən biri kimi hesab olunur. Bu proseslər ƏAF-nə də aid olunduğundan, cinayətkarlığa qarşı mübarizədə onun maliyyə təminatı mühüm rol oynayır. Təsadüfi deyil ki, "ƏAF haqqında" Qanununda, Azərbaycan Respublikasının Prezidentinin Fərmanları və Nazirlər Kabinetinin qərarlarının müvafiq normalarında ƏAF-nin maliyyə təminatını tənzimləyən müddəalar təsbit edilmişdir.

Təəssüf ki, ƏAF nəzəriyyəsi, həmçinin normativ hüquqi aktlarda, elmi və tədris mənbələrində bu ifadələrin anlayışı (məzmun tutumu) lazımi həcmdə açıqlanmamışdır. Maliyyə təminatı söz birləşməsi "ƏAF haqqında" Qanunun 18-ci maddəsində istifadə edilmişdir və məzmun etibarı ilə "maliyyələşdirmə" sözünün məzmununa yaxındır. Maliyyə hüququnda bu ifadələr pul vəsaitlərinin (resurslarının) əvəzli və əvəzsiz qaydada müəyyən fəaliyyətin məqsədləri üçün istiqamətləndirilməsi mənasında başa düşülür. Məhz buna görə də bu məsələlərin mahiyyətinin açıqlanmasına zərurət vardır.

**trialnat" sözü dedikdə, nəyinsə lazımi (kifayət) miqdarda maddi vasitələrlə təchiz edilməsi başa düşülür. Bu anlayışın əsas cəhətlərindən biri ondan ibarətdir ki, onun məzmun tutumu ilə maliyyə resurslarının (pul vəsaitlərinin) xərclənməsi qaydaları və normaları ilə tənzimlənməsi əhatə edilsin.**

Bu qeyd edilənləri nəzərə alaraq əməliyyat-axtarış fəaliyyətində "maliyyə təminatı" dedikdə əməliyyat aparatlarına (bölmələrinə) onların qarşısında duran vəzifələrin həlli üçün zəruri və kifayət dərəcədə pul vəsaitlərinin ayrılması nəzərdə tutulur.

Pul vəsaitlərinin hansı şərtlərlə, miqdarda və hansı istiqamətlərdə xərclənməsi, rəsmiləşdirilməsi məsələləri Azərbaycan Respublikasının NK Qərarı və HMO-nun normativ aktları ilə tənzimlənir.

Azərbaycan Respublikası Nazirlər Kabineti Konstitusiyanın 119-cu maddəsinin müddəalarına müvafiq olaraq maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir.

Büdcənin ƏAF-nin subyektləri üçün ayrılan pul vəsaitlərinin miqdarı bu subyektlərin səlahiyyətlərindən, təhqiqatı və istintaqı onların səlahiyyətlərinə aid olan cinayətlərin sayı və xüsusi çəkisindən, əməliyyat aparatlarının (bölmələrinin) və onların əməkdaşlarının sayından, əməliyyat şəraitindən, vəziyyətindən və s. asılı olaraq müəyyən edilir.

HMO-da, o cümlədən DİN-də Maliyyə Nazirliyindən alınan kreditlərin (maliyyə vəsaitlərinin) əsas sərəncam vericisi onlara rəhbərlik edən birinci şəxslər sayılır.

Ayrılan pul vəsaitləri digər məqsədlərlə yanaşı əməliyyat, əməliyyat-axtarış, əməliyyat-texniki bölmələri (aparatlarının) üçün müasir cihazların əldə edilməsi, xüsusi təyinatlı yaşayış və xidməti otaqların saxlanması məqsədilə də istifadə edilir.

Maliyyə xərcləri anlayışı baha başa gələn, tətbiqi çox mürəkkəb, çətin və mürəkkəb olan ƏAT təşkili və tətbiqi, həmçinin onların keçirilməsi üçün əlverişli şəraitin yaradılması məqsədi ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada pul vəsaitlərindən istifadə edilməsi kimi məzmunla əhatə edilir və son dərəcə zəruridir. Əməliyyat xərcləri üçün ayrılan vəsaitdən təyinatı üzrə qanunvericiliyə müvafiq olaraq səmərəli istifadə edilməlidir. Zənnimizcə ƏAF subyektlərinin maliyyə təminatı ilə bağlı münasibətlərdə də bir sıra problemlər mövcuddur.

trialin maliyyə təminatına nəzarəti normativ-hüquqi aktlarla müəyyən edil-miş ƏAF-nin subyektlərinin səlahiyyətli vəzifəli şəxsləri və Maliyyə Nazirliyinin bu sahədə məhdudiyyət səciyyəli hüquq və vəzifələr verilmiş əməkdaşları həyata keçirir. Bu şəxslər qanunvericiliklə müəyyən edilmiş həcmdə (hədlərdə) bu sahəyə nəzarətlə bağlı dövlət sirlərinə buraxılışa malik olmalı və xüsusi xidməti hazırlıq keçirlər.

Maliyyə xərcləri normativ aktlarla müəyyən edilmiş tələblərə müvafiq olaraq səmərəli təyinatı üzrə və müəyyən olunmuş hədlərdə və miqdarda istifadə edilir və nəticələri qanunvericiliklə müəyyən edimiş qaydada rəsmiləşdirilərək HMO-nun maliyyə orqanlarına dövlət sirlərinin mühafizəsi təmin edilməklə təqdim edilir. Bu xərclərin qanunsuz olaraq istifadə edilməsi müəyyən edilən hallarda xidməti yoxlama keçirilir və nəticəsindən asılı olaraq (hüquqpozmanın növündən asılı olaraq) hüquqpozmaya yol vermiş şəxslər məsuliyyətə cəlb edilirlər.

**Əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabından maliyyələşdirilir.** Əməliyyat-axtarış fəaliyyəti prosesində hazırlanan və törədilən cinayətlərin qarşısının alınmasında, törədilmiş cinayətlərin aşkar edilməsi və açılmasında, bu cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsində, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun boyun qaçıran, itkin düşmüş şəxslərin axtarılmasında, milli təhlükəsizliyin cinayətkar qəsdlərdən qorunmasında, həmçinin cinayətkarlıqla bağlı digər əməliyyat-taktiki tapşırıqların yerinə yetirilməsində xidmətlərinə görə əməliyyat-axtarış subyektləri ilə əməkdaşlıq edən şəxslərə əmək haqqı, mükafat, pensiya və digər maddi təminatlar almaq hüququ verilir.

**«ƏAF haqqında» Qanunun 18-ci maddəsində ƏAF subyektlərinin maddi-texniki və maliyyə təminatı nəzərdə tutulmuşdur və orada aşağıdakılar öz əksini tapmışdır:**

- əməliyyat-axtarış fəaliyyətini və avtomatlaşdırılmış informasiya sistemlərinin qurulmasını, saxlanılmasını və mühafizəsini bu qanunun tələblərinə uyğun surətdə keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə zəruri maliyyə vəsaitləri və maddi-texniki təminat verilir;
- bu vəsaitlərin xərclənməsi qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər mənbələr hesabına maliyyələşdirilir («Rabitə haqqında» və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunları və s.).

- əməliyyat-axtarış fəaliyyəti subyektlərinin maddi-texniki təminatının qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir;
- əməliyyat-axtarış fəaliyyəti subyektlərinə ayrılan maliyyə vəsaitinin xərclənməsinə həmin subyektlərin rəhbərləri tərəfindən nəzarət edilir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən,

«Vətəndaşların pensiya təminatı haqqında» Qanunun 68-ci maddəsinin I hissəsinə aşağıdakı redaksiyada 8-ci abzası əlavə edilmişdir:

- «Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsi müddəti birin üçə nisbəti ilə hesablanır və onların iş stajına daxil edilir».

ƏAF-də istifadə olunan pul vəsaitləri və digər ödənişlərin uçotu DİN-in maliyyə xidmətlərinin dövlət sirləri təşkil edən məlumatlara buraxılışı olan xüsusi ayrılmış əməkdaşı tərəfindən aparılır.

**DİN sistemində maliyyə vəsaitlərinin xərclənməsinin əsas sərəncamvericisi Daxili İşlər Nazirliyi sayılır. Digər HMO-da da qeyd edilən subyektlərə onlara rəhbərlik edən birinci vəzifəli şəxslər aid edilir.**

**ƏAF subyektlərinin ƏAF-ni nizamlayan təşkilati-normativ aktlarında maliyyə vəsaitlərinin xərclənməsinin aşağıdakı növləri nəzərdə tutulur:**

a) əməliyyat aparatlarının və xidmətlərinin saxlanması üçün;

b) bu orqanlara cinayətkarlığa qarşı mübarizədə, cinayətkarların ifşa olunmasında köməklik göstərən şəxslərin xidmətlərinə görə, həmçinin onların sosial məsələlərin həlli üçün;

c) əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin təmin edilməsi;

ç) əməliyyat aparatlarının texniki təminatı.

ƏAF-də maliyyə xərclərinə nəzarəti HMO-ın, o cümlədən DİO-nun (polis orqanının və onların əməliyyat aparatlarının) rəhbərləri həyata keçirirlər. Nəzarətin hüquqi əsaslarına «ƏAF haqqında» Qanundan başqa, maliyyə vəsaitlərinin dövriyyəsini nizamlayan qanunvericilik aktlarını da aid etmək olar.

Əməliyyat-axtarış fəaliyyəti üçün vəsaitlərin xərclənməsi qaydaları, normaları, şərtləri, rəsmiləşdirilməsi və s. məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin və HMO-ın müvafiq normativ aktları ilə tənzimlənir.

# VI BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN PSİXOLOJİ TƏMİNATI

## XII FƏSİL
## Əməliyyat-axtarış fəaliyyətində psixologiya elminin imkanları

### § 1. Əməliyyat-axtarış fəaliyyəti və psixologiya

Əməliyyat-axtarış fəaliyyətinin məzmunu dövlətin qanunverici, icra və məhkəmə orqanları tərəfindən hüquqi çərçivəyə salınmış sosial əhəmiyyətli məsələ və funksiyaların yerinə yetirilməsidir.

Azərbaycan Respublikasının "ƏAF haqqında" Qanunda həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin tam dairəsi müəyyən edilmişdir. Bu tədbirlərin əsas məqsədi cinayətkarlıqla mübarizə və dövlət təhlükəsizliyinin təmini, törədilmiş, törədilən, eləcə də hazırlanan cinayətlər barədə məlumatların əldə edilməsi və onların reallaşdırılması yolu ilə ƏAF-nın tələb olunan məqsədlərinə nail olmaqdır. Əməliyyat-axtarış məlumatları nəinki ƏAF-nin əsası, həmçinin cinayətkarlıqla mübarizə və təhlükəsizliyin təminatı isitiqamətində dövlət fəaliyyətlərinin əlaqələndirici hissəsidir.

Hüquq-mühafizə orqanları tərəfindən müxtəlif istiqamətdə həyata keçirilən əməliyyat-axtarış fəaliyyətinin özəyini informasiyaların əldə edilməsi təşkil edir. İnformasiya əməliyyat-axtarış tədbirləri zamanı müxtəlif texniki vasitələrlə yanaşı, bilavasitə məlumat daşıyıcıları olan şəxslərdən əldə edilir. Bu insanlardan məlumatların əldə edilməsinə psixologiya elminin nəzəri və praktiki biliklərindən istifadə edilməsi yolu ilə nail olunur.

Əməliyyat-axtarış fəaliyyəti prosesində mövcud olan təcrübələr göstərir ki, istənilən insan davranışını, xüsusilə cinayətkar fəaliyyəti, şəxsin psixologiyası, psixoloji mexanizmlər və motivlər, sosial-psixoloji hadisə və proseslər barədə əsaslı elmi biliklər olmadan dərk etmək, müəyyənləşdirmək çox çətindir. Digər tərəfdən "canlı" praktikanı, yəni cinayətkarın ehtiras və istəklərini, mürəkkəb və təkrarolunmaz həyat

yollarını, faciəvi taleyi və xüsusi fərdi keyfiyyətlərini nəzərə almadan yalnız elmi araşdırmalarla, cinayət işlərini öyrənməklə əməliyyat-axtarış tədbirlərini müvəffəqiyyətlə həyata keçirmək mümkün deyil.

Psixoloji qanunauyğunluqlar barədə biliklər və müəyyən psixoloji üsulların əməliyyat-axtarış fəaliyyətində tətbiqi əməliyyat işçilərinin işini asanlaşdırır, onları maraqlandıran şəxslərlə münasibətlərin qurulması və tənzimlənməsinə köməklik göstərir, insanların hərəkətlərinin motivinin dərindən başa düşülməsi, obyektiv gerçəkliklərin dərk edilməsi, onun düzgün qiymətləndirilməsi istiqamətində əməliyyat-axtarış və istintaq fəaliyyəti üçün baza yaratmış olur.

Psixoloji məqamlardan istifadə etmədən məlumatların əldə edilməsi cəhdi əksər hallarda müvəffəqiyyətsizliklə nəticələnir. Insan xarakteri olduqca müxtəlifdir. Eyni xarakterli iki insan tapmaq mümkün deyil, lakin bununla yanaşı insanların bir-birinə oxşar xarakterik xüsusiyyətlərini də müəyyənləşdirmək mümkündür. İnsanların keçiriləcək söhbətlər zamanı özlərini necə aparacaqlarını əvvəlcədən müəyyənləşdirmək mümkün olmasa da, onlara psixoloji təsirlərin hansı nəticələr verə biləcəyini böyük dəqiqliklə planlaşdırmaq olar. Psixologiya elmi daima inkişaf edir və onun müasir dövrdə ən aktual bölmələrindən biri insanlar arasında ünsiyyətin psixologiyası, insanlara təsir vasitə və üsullarıdır. Psixologiyanın Z.Freyd, Baxterev kimi klassik baniləri ilə yanaşı, müasirlərdən Çaldini, Mitçell, D.Karneqi kimi psixoloqlar insanların davranışları, onun mexanizm və qanunauyğunluqları, insanlara təsir üsul və vasitələrini də araşdırmışlar. Əməliyyat-axtarış fəaliyyəti zamanı da psixologiya elminin bu istiqamətdə nailiyyətləri mütləq tətbiq edilməlidir. çünki belə təsir üsul və vasitələri ən azı əməliyyat işçilərinin ünsiyyət prosesində hansı istiqamətdə fəaliyyət göstərmələrini müəyyənləşdirə bilər.

Lakin bu psixoloji üsullardan xaotik və sərhədsiz istifadə insan və vətəndaşların həm hüquqi, həm də etik baxımdan mənafelərinə toxuna bilər. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün hansı psixolojı üsul və metodlardan istifadə olunması və bunun hüquqi, həmçinin etik əsasını müəyyən etmək qarşıda duran vacib problemlərdən biridir. Qanunvericilikdə psixoloji təsirin növləri, sərhədləri barədə konkret göstərişlər olmasa da, insanların şəxsi həyatına müdaxilə etmək, onların yaxın qohumları və özləri barədə nüfuzdansalıcı məlumatları təqdim etmələrini məcbur etmək konstitusiya ilə qadağan edilmişdir. Psixoloji təsirlərlə şəxsin iradəsini sındır-

maq, qeyri-humanist metodlarla psixoloji məcburiyyətlərə məruz qoymaq həm etik, həm hüquqi baxımdan yolverilməzdir.

Heç də həmişə psixoloji təsirin qanuni və ya qeyri-qanuni olmasını müəyyənləşdirmək mümkün deyil. Qanunvericilikdə psixoloji təsirin dəqiq çərçivəsi müəyyən edilmədiyindən ancaq etik baxımdan bir çox psixoloji təsir üsullarının yolverilməzliyindən danışmaq olar. Məsələn, cinayətdə şübhəli olan şəxsin psixoloji metodlarla ağzından söz qaçırmağa təhrik etmək adi üsullardan biridir. Burada məqsəd onun qeyri-ixtiyari şüurunu qıcıqlandıraraq iradəsindən asılı olmayaraq müəyyən verbal və digər hərəkətlər etməyə təhrik etməkdir. Təsir kobudluqla, qorxutmaqla, mənəvi təzyiq və işgəncələrlə müşayiət olunarsa, bu qeyri-əxlaqi hesab edilməlidir.

Əməliyyat-axtarış fəaliyyətində psixoloji metodların tətbiqinin mənəvi tənzimlənməsi eyni zamanda hüquqi nizamasalmanın da əsasını təşkil etməlidir.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun bir çox maddələrində həyata keçiriləcək tədbirlərin mənəvi cəhətlərinə toxunulmuşdur. Məsələn, ƏAF məqsədi kimi insan və vətəndaşların həyatı, sağlamlığı, hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini və milli təhlükəsizliyinin təmini göstərilmişdir.

Əməliyyat-axtarış tədbirləri zamanı insan və vətəndaşların hüquq və azadlıqlarına hörmət və əməl olunması, həmçinin vətəndaşların şəxsi həyatı, ailə və şəxsi sirlərinin, şərəf və ləyaqətlərinə toxunan məlumatların gizli saxlanılması əsas tələb olunan məqamlardandır.

Hər hansı bir fəaliyyətin qanuni olmasını qəbul etmək heç də onun həmişə mənəvi cəhətdən yol verilən olması demək deyil. Belə ki, həmin qanun ictimai şüurda qeyri mənəvi hesab edilə bilər. Məhz buna görə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək üçün qanuni əsasla yanaşı onun mənəvi məzmununu müəyyənləşdirmək və mənəvi normalara uyğunluğunu aydınlaşdırmaq lazımdır. Qeyd olunanlar, xüsusilə, əməliyyat-axtarış tədbirləri zamanı tətbiq edilən psixoloji üsullara da şamil edilməlidir.

Əməliyyat-axtarış fəaliyyəti prosesində praktiki məsələlərin həll edilməsində psixologiya elminin nailiyyətlərinin tətbiqi həmin elmin inkişaf istiqamətinə də təsir göstərmişdir.

İnsanları psixoloji aspektdən öyrənən psixologiya elmi insan fəaliyyətinin müx-təlif sahələrini əhatə etmiş olur və buna uyğun yeni istiqamətlərdə araşdırmalar apa-rılması zərurəti yaranır. Məsələn, biznes sahəsində, idarəetmədə, ailə-məişət məsələ-

lərində yaranmış problemlərin həlli üçün psixoloji üsullardan yan keçmək mümkün deyil. Lakin bu sahələr müxtəlifdir və həyatın müxtəlif istiqamətlərini əhatə edir. Ona görə də psixologiya elmi üçün müxtəlif istiqamətdə də araşdırmalar aparmaq zərurəti yaranır. Anoloji olaraq hüquq sahəsində də psixoloji araşdırmalara ciddi ehtiyaclar var. Qeyd olunan sahələri ümumiləşdirən cəhətlər də mövcuddur. İnsanlarla ünsiyyət qurmağı bacarmaq, onlara təsir etmək, yaranmış problemləri dinc yolla optimal qaydada həll etmək üçün istifadə olunan psixoloji metodlar göstərilən hər bir sahədə tətbiq oluna bilər. Həmsöhbəti ilə ilkin psixoloji kontaktlar yaratmaq, maraqlandıran məlumatları əldə etmək üçün psixoloji təsir üsullarını tətbiq etmək idarəetmə, menecment sahəsində tətbiq olunduğu kimi, dindirmə kimi istintaq hərəkətində və ya şəxslərin sorğusu kimi əməliyyat-axtarış tədbirində də istifadə oluna bilər. Psixologiya elminin müxtəlif sahələrindəki nailiyyətlər hüqüq praktikasında da müvəffəqiyyətlə tətbiq oluna bilər.

***Məşhur avstriyalı psixoloq Z.Freyd "Səhv hərəkətlər" adlı elmi əsərində qeyri-ixtiyari edilən səhv hərəkətlərin səbəbləri barədə geniş izah verərək, həyəcan vəziyyətində insanlara bilmədən gizli saxladığı məlumatların verilməsinin xas olmasını qeyd etmiş və gərginlik, təhlükə yaradan şəraitdə insanların zehinlərində, yaddaşlarında olan şüuraltı informasiyaya uyğun hərəkətlər etməsini bildirmişdir. Qeyd olunan insan təbiətinə məxsus psixoloji xüsusiyyətlərdən istifadə edərək dindirmə istintaq hərəkəti zamanı və ya əməliyyat-axtarış tədbirlərində şübhəli olan şəxsi, şahidləri və s. şəxsləri müəyyən şəraitə salmaqla gizlətmək istədikləri məlumatları almaq mümkündür. Digər tərəfdən D.Karneqi, Çaldini kimi psixoloqların insanlara necə psixolojı təsir edib onların inamını qazanaraq lazımi hərəkətləri etməyə yönəltmək kimi psixoloji üsullardan istifadə edərək əməliyyat sorğusu və ya dindirmədə lazımi şəraitin yaradılması, ilkin psixoloji kontaktların qurulması və maraqlandırılan məlumatların əldə edilməsi üçün həmin şəxslərin inamının qazanılmasında müvəffəqiyyətlə tətbiq etmək olar.***

***İnsan faktoru dedikdə onların malik olduqları sosial-psixoloji, psixoloji və psixofizioloji xassələri kimi geniş bir sahəsi başa düşülür.*** İnsanların ehtiyac və bacarıq, hərəkətlərinin motivləri, maraq və yaradıcı qabiliyyətləri, əmək və fəaliyyət bacarıqları, intellekti və emosiyaları, iradə və xarakteri, dərketmə və özünüdərketmə bacarığı, sosial xüsusiyyətlərinin formalaşması, mənəvi dəyərlər baxımından düşüncələri kimi psixoloji xassələri həyatın konkret fəaliyyət sahəsi zamanı özünü büruzə

verir və hüquqi baxımdan da maraq kəsb edir. İnsan faktorundan danışarkən ilk öncə onun psixikası ön plana çıxır. ***Əməliyyat işçilərinin psixoloji biliklərə malik olması (peşə hazırlığı) baxımından hazırlıqlı olması, onların insan psixikasını düzgün dərk etməsi və praktikada istifadə etmək qabiliyyəti əməliyyat-axtarış fəaliyyətinin effektli aparılmasının subyektiv faktorlarından ən əsasıdır.***

## § 2. Əməliyyat-axtarış fəaliyyətində informasiya əldə edilməsinin əsasını təşkil edən psixoloji aspektlər

Əməliyyat-axtarış fəaliyyətinin psixoloji məqamları çoxşaxəlidir. Ünsiyyət, qeyri-ixtiyari şüur, psixoloji təsir, şəxsiyyətin fəaliyyətinin psixoloji əsası, cinayətkar əməllərin psixoloji xarakteristikası, psixolojı kontaktların yaradılması, söhbətlərin aparılmasının psixolojı əsasları, psixolojı təsir və inandırma, xarakterin psixoloji xüsusiyyətləri və s. bu kimi psixolojı xüsusiyyətlər əməliyyat-axtarış fəaliyətinin tərkib elementlərindən biridir. Əməliyyat-axtarış fəaliyyətində istifadə olunan və onun tərkib elementlərindən biri hesab edilən bu psixoloji məqamların məzmunu, tətbiqi istiqamətləri necədir, əməliyyat-axtarış fəaliyyətinin özü ilə hansı kəsişmə müstəvisinə malikdir sualına cavab vermək üçün yuxarıda qeyd olunan psixoloji xüsusiyyətləri ayrılıqda nəzərdən keçirək.

**Şəxsiyyətin psixoloji xassələri və cinayətkar fəaliyyətin psixologiyası. Əməliyyat-axtarış fəaliyyəti** prosesində şəxsiyyətin psixoloji cəhətdən öyrənilməsi cinayətkar əməllərin xarakterini, səbəblərini, buna gətirib çıxardan şəraiti, səbəb və motivi müəyyənləşdirməyə çox köməklik etmiş olur. Şəxsiyyət sosial münasibətlərin subyekti kimi sosial keyfiyyətlərə malik insandır. Əməliyyat-axtarış fəaliyyəti prosesi zamanı ən vacib psixoloji aspektlərdən biri şəxsiyyətin psixoloji xassələri və onun strukturudur. Şəxsiyyətin sosial əhəmiyyətli həyat fəaliyyətində psixoloji requlyativ keyfiyyətləri onun davranışında realizə olunur. İnsanın davranışı onun psixoloji güzgüsüdür. İnsan fəaliyyətinin bütün tənzimləyici komponentləri - idrakı, iradəvi və emosional prosesləri bir-biri ilə ayrılmaz əlaqədə fəaliyyət göstərir və insanın psixi fəaliyyətini, xüsusi halda şəxsiyyətin psixi xassələrini təşkil edir. Şəxsiyyətin psixi xassələrinin məcmusu şəxsiyyətin psixi durumunu müəyyənləşdirmiş olur. **Şəxsiyyətin psixi keyfiyyətləri ənənəvi olaraq dörd qrupa ayrılır:** 1) temperament, 2) istiqamətlilik, 3) bacarıq və ya qabiliyyət və 4) xarakter. Bu psixoloji keyfiyyətlər

şəxsiyyətin strukturunu təşkil edir. Əməliyyat-axtarış fəaliyyəti prosesində şəxsiyyətin nəzərə alınması zəruri olan **əsas psixoloji xassələri** - temperament, istiqamətlilik və xarakterdir.

**Temperament -** fərdin davranışının həyati təsirlərə reaksiyasının dinamikasında, tonusunda və müvazinətində büruzə verilən təbii xüsusiyyətləridir. Temperamenti formalaşan sinir-əsəb fəaliyyətinin əsas xüsusiyyətləri kimi fərddə cərəyan edən psixi proseslərin sürət və intensivliyi, psixi aktivlik, davranışın xarici təəssüratlara tabeliliyi (ekstraversiya) və daxili aləminə, yəni hisslərinə, təsəvvürlərinə tabeliliyi (introversiya), xarici dəyişikliklərə qarşı adaptasiyalılığı, plastikliliyi, hissiyyatlılığı, senzitivliyi və qavramaqlılığı qeyd etmək olar.

**Ənənəvi olaraq temperamentin dörd əsas növü fərqləndirilir** – sanqvinik, xolerik, feqmatik və melanxolik.

Temperamentin qeyd olunan növləri hər bir şəxs üçün nisbi xarakter daşıyır və insanlar adətən qarışıq temperamentə malik olurlar. Belə ki, sanqvinik hesab edilən temperamentdə xoleriklik və ya feqmatiklik cizgiləri də hiss oluna bilər. Əsas temperament insanlarda təbii, anadangəlmə olsa da dəyişkən xarakterə malikdir. ***İ.P.Pavlovun eksperimentləri və araşdırmaları göstərmişdir ki, sinir-əsəb sistemi plastikdir və dəyişkən təbiətə malikdir: "İnsanların və heyvanların davranış tərzi yalnız sinir-əsəb sisteminin anadangəlmə xüsusiyyətləri ilə deyil, həmçinin fərdi mövcudluğu prosesində orqanizmə düşən təsirlər vasitəsilə də müəyyənləşir və geniş mənada müntəzəm təlim və tərbiyə proseslərindən də asılıdır. Buna görə də, yuxarıda qeyd olunan keyfiyyətlərlə yanaşı, ən vacib keyfiyyətlərdən biri - yüksək plastiklik də mühüm rol oynayır".***

**Şəxsiyyətin istiqamətliliyi** – onun şüurunun dəyər-istiqamətlilik kəskinləşməsi olub, insanın seçim münasibətlərini və aktivliyini müəyyən edən arzu, niyyət, istəklər sistemidir. Fərd müxtəlif xarakterli ictimai münasibətlərə, əlaqələrə girərək müxtəlif praktik sahələrdə fəaliyyətlə məşğul olur. Bu zaman şəxsiyyət müəyyən istək, arzu, niyyət və motivlərlə istiqamətlənir. İnsan istiqamətliliyinin əsasını tələbatlar təşkil edir. **Tələbatlar (və ya ehtiyaclar)** insanın həyatının müəyyən şəraitində və axarında yaranan zərurətlərdir. İnsan tələbatları müxtəlifdir və maddi-mənəvi və ictimai qruplara bölünür. Bu qruplaşmanı nisbi hesab etmək olar. Məsələn, **amerikalı psixoloq A.Maslou insan tələbatını vacibliyinə görə aşağıdakı iyerarxik qruplara bölmüşdür**:

– Özünü aktuallaşdırma tələbatı (şəxsiyyətin məqsədlərinin, bacarıqlarının, özünüinkişafının realizəsi);

– Estetik tələbat (harmoniya, simmetriya və s.);

– İdraki tələbat (müvəffəqiyyət əldə etmə, tanınma, avtoritet və s.);

– Məhəbbət və aidiyyət tələbatı (cəmiyyətə aid olma, insanlarla birgə olma, digərləri tərəfindən qəbul edilmə və s.);

– Təhlükəsizlik tələbatı (özünü müdafiə edilmiş hiss etmə, qorxudan, uğursuzluqdan, təcavüzdən azad olma);

– Fizioloji (orqanik) tələbat (aclıq, susuzluq və s.)

Bütün tələbatlar istiqamətlilik, gərginlik və dövrülük xarakterinə malikdir.

**Motivlər müəyyən davranış və hərəkətlərə təhrik edən niyyətlərdir. İnsanın motivi maraq, istək, cəhd, niyyət, meyllilik, ehtiras kimi psixolojı əsaslara malikdir.**

Şəxsiyyətin vacib səciyyələndirici xassələrindən biri də onun xarakteridir. **Xarakter** şəxsiyyətin sosial davranışında, ilk növbədə insanlara, işə, özünə qarşı münasibətlərində büruzə verilən psixi fəaliyyətin özünəməxsus xüsusiyyətlər məcmusudur. Deməli, xarakter şəxsiyyətin davranış tipi olaraq, fərdin həyati strategiyası ilə formalaşan sabit, ümumiləşmiş davranışdır. Şəxsiyyətin fizioloji davranışının əsası temperament, sosial şərtləşmiş sferası isə xarakter anlayışı ilə müəyyənləşdirilir. Xarakterin vacib keyfiyyətlərindən biri onun cizgilərinin tamlığı, davamlılığı, müvazinətliliyidir. Mühitin şəraiti, mikromühitdə müxtəlif davranışların qəbul edilməsi və ya inkarı xarakterin formalaşmasının əsas istiqamətidir. Xarakterdə həmçinin səriştə, bacarıq və vərdişlərin yaranmasının qanunauyğunluqları da əks olunur.

**Əməlitrialaxtarış fəaliyyəti prosesində xarakterin nəzərə alınan psixoloji xüsusiyyətlərindən biri də onun tipləridir. 4 əsas tip fərqləndirilir:** 1) harmonik tam; 2) daxili konfiktli və eyni zamanda xarici mühitlə harmonik razılaşan; 3) aşağı adaptasiyalı konfiktli və 4) variantlı tip. Harmonik tiplər ətraf aləmlə sabit münasibətlərə girə və saxlaya bilir, daxili də ziddiyyətsiz olurlar. Belə şəxslərlə əlaqə yaratmaq, söhbətlər aparmaq problem təşkil etmir. Daxili konfiktli və xarici normal şəxslər isə ətraf mühitdə sabit münasibətlər saxlamağa çalışsalar da, buna böyük gərginliklə nail olurlar. Bu cür şəxslərlə münasibətlər yaratmaq onların psixikasını, maraqlarını, narahat edən cəhətlərini mütləq nəzərə almaq lazımdır. Aşağı adaptasiyalı konfikt tiplər, yəni emosional hissləri ilə, sosial vəzifələri ilə ziddiyyətə malik şəxlər

aşağı səviyyəli kommutativlikləri ilə seçilirlər. Variantlı tiplər isə xarici aləmlə prinsipsizlik, qeyri-sabit əlaqələr əsasında münasibətlər yaradırlar və şəxsi keyfiyyətlərinin aşağı səviyyədə olması ilə fərqlənirlər. 3-cü və 4-cü tip şəxslərlə əməliyyat-axtarış fəaliyyəti baxımından münasibətlərin qurulması, ciddi məsələlərin həll edilməsi, onların malik olduğu və təqdim etdiyi məlumatların əsaslığı nəzərə alınmalıdır.

Hüquq elmində, xüsusilə hüquq psixologiyası və cinayət hüququ sahəsində cinayətkar əməlin psixologiyası vacib öyrənmə obyektlərindən biridir. Cinayət əməlinin psixoloji əsasını cinayətkarın şəxsiyyəti termini təşkil edir.

**Cinayətkarın şəxsiyyəti termini hüquq ədəbiyyatında** müxtəlif müzakirələrə səbəb olsa da (heç kim cinayət törətməzdən əvvəl, yəni məhkəmənin hökmü olmadan cinayətkar hesab edilə bilməz), psixoloji baxımdan cinayət əməlini törətmiş şəxsin psixoloji xarakteristikası kimi baxıla bilər. Cinayətkarın şəxsiyyəti - cinayət əməlini törətməyə səbəb olan tipoloji keyfiyyətlərin məcmusudur. Hazırkı dövrdə şəxsiyyətin psixologiyasının öyrənilməsi onun fəaliyyətinin nəticəsinin təhlili, tərbiyə və öyrənilmə prosesində şəxsiyyətin psixikasının formalaşmasının izlənməsi, psixolojı fəaliyyət zamanı patoloji dəyişikliklərin təhlili kimi üç istiqamətdə aparılır.

**Qərb hüquq elmində geniş yayılmış "Ayzenkin cinayətkarlıq nəzəriyyəsi"ni xüsusi qeyd etmək lazımdır.** Ayzenk nəzəriyyəsi onun "Cinayətkarlıq və şəxsiyyət" əsərində qeyd olunmuşdur. Bu nəzəriyyə şəxsiyyət nəzəriyyəsi əsasında yarandığından əsas vəziyyət olaraq sinir-əsəb sisteminin üç genetik əsaslanmış xüsusiyyətlərini özündə əks etdirən ölçüləri - ekstraversiya, nevrotizm və psixotizmi qeyd edir. Bu ölçülərin hər biri insan hərəkətlərinin cizgilərində əks olunur və bunların müxtəlif variasiyaları təkrarolunmaz insan xarakterini müəyyən etmiş olur.

**Ayzenk "Cinayətkarlıq və şəxsiyyət" əsərində öz nəzəriyyəsinin əsas məqamlarını aşağıdakı kimi göstərmişdir:**

*— Cinayət törətməyə meyl universaldır, lakin əksər hallarda subyektin şüuru, dərrakəsi ilə saxlanılır;*

*— Şüur uşaqlıqda və yeniyetmə dövründə Pavlov şərtlərinə uyğun olaraq formalaşmış mühitin stimullarına reaksiya verən əsas şərti-reflektor cavablardır;*

*— Bu şüur bəzən fərdin inkişafına kifayət etməyən ailə və cəmiyyətin yaratdığı mühit və ya şərti-reflekslərin anadangəlmə zəif olması ilə lazımi səviyyədə olmur;*

*— Mərkəzi sinir sistemində qıcıqlanma tormozlanmadan həmişə zəif olur;*

*—Yüksək nevrotizm və ya həyəcanlılıq həm qıcıqlanmanı, həm də tormozlanmanı gücləndirərək antisosial hisslərə gətirib çıxarır.*

Ayzenk nəzəriyyəsi cinayətkarlığın sırf psixoloji baxımdan izahı hesab edilə bilər. Göründüyü kimi Qərbdə geniş yayılmış bu nəzəriyyə psixologiyanın hüquq aləminə necə təsir etməsinə misal ola bilər.

Cinayət əməlinin psixolojı analizi şəxsiyyətin törətdiyi cinayət əməlinin struktur elementlərinin məzmununun psixoloji araşdırılmasıdır. Hər bir cinayət əməli psixoloji xarakteristikaya malikdir. Cinayətin psixoloji məzmunu onun subyektiv tərəfidir.

**Psixologiya elmində hərəkəti reflektor, impulsiv, instinktiv və iradəvi kimi təsnifini aparırlar.** Cinayət əməlini də bu aspektdən səciyyələndirmək mümkündür. Hüquq pozuntusunun psixologiyası dedikdə anlaqlı şəxsin iradəsinə uyğun dərk etdiyi qeyri-hüquqi əməlləri törətməsidir. Hər bir əməliyyat-axtarış tədbirləri zamanı əməliyyat işçisi şəxsin hərəkətlərinə diqqət yetirməli və onun psixoloji səbəbini aydınlaşdırmalıdır.

Hər bir cinayət əməli motivləşdirilmiş, məqsədyönlü, idarə olunan qeyri-qanuni davranışdır. Bu cür fəaliyyətin müəyyən mənası olur və nisbətən yaxın məqsədlərə çatmaq məqsədi daşıyır. Motiv isə müəyyən şəxsi hər hansı hərəkəti etməyə sövq edir və qarşıya qoyulan məqsədə çatması ilə təmin olunur. Bu qeyd olunan cəhətlər cinayətkar hərəkətin mənasını müəyyənləşdirir və başa çatmış iradəvi olması ilə səciyyələnir.

**Ünsiyyət (kommunikasi).** Ünsiyyət sosialoji psixologiyanın institutlarından biridir və əməliyyat-axtarış fəaliyyətində nəzərə alınan vacib istiqamətlərdəndir.

Ünsiyyət psixoloji baxımdan - birgə fəaliyyət zərurətindən irəli gələn, insanlar arasında kontaktların yaranması və inkişafı kimi mürəkkəb, çoxplanlı proses olub, özündə informasiya mübadiləsi, qarşılıqlı təsirin, digər insanların başa düşülməsi və fikirlərinin qəbulunun vahid strategiyasını cəmləşdirir. Ünsiyyət öz təyinatı üzrə çoxfunksiyalıdır.

**Onun beş əsas funksiyasını göstərmək olar:**

***1. Praqmatik funksiya*** - insanların birgə fəaliyyəti prosesində realizə olunur

**2. *Formalaşdırıcı*** - insanın inkişafı və formalaşması prosesində yaranır. Doğrudan da, böyüklərlə ünsiyyətdə olmadan uşaqların şəxsiyyət kimi böyüməsi mümkün deyil.

**3.** ***Təsdiqləyici funksiya*** - digərləri ilə ünsiyyət prosesində insanlar özünü dərk edə, başa düşə və təsdiq edə bilər.

**4.** ***Şəxslərarası ünsiyyətin təşkili və davam etdirilməsi funksiyası*** - insanlar üçün ünsiyyət digərlərini qiymətləndirmə və müəyyən emosional münasibətlərin doğurması ilə əlaqədardır. Eyni bir insan ünsiyyət prosesində digər insanlarda müxtəlif vəziyyətlərdə müxtəlif hisslər yarada bilər.

**5.** ***Şəxsiyyətdaxili funksiya*** - hər bir insan öz daxili dialoqu ilə müəyyən qərarlar qəbul edir.

**Psixologiyada ünsiyyətin üç əsas tipi fərqləndirilir - imperativ, manipulyativ və dialoqoji:**

*—İmperativ-ünsiyyət-həmçin in-avtoritar-və-ya-direktiv-adlandırılır.-Bu-ünsiyyətin- məzmunu-birinin-digərini-özünə-tabe-etməsi,-fikir-və-davranışını-nəzarətə-götürməsi,- müəyyən-hərəkətləri-etməyə-təhrik-etməsidir;*

*— Manipulyativ-münasibət-imperativ-münasibətə-oxşasa-da-müəyyən-dərəcədə- fərqlənir.-Bu-ünsiyyətin-məqsədi-partnyora-gizli-olaraq-təsir-etməkdir.-Burada-da-son- nəticə-digərini-özünün-istəyinə-müxtəlif-vasitələrlə-tabe-etməkdir;*

*— Dialoqoji-ünsiyyət-digər-iki-tipdən-fərqli-olaraq-eyni-hüquqlu-münasibətə- əsaslanır.*

**Dialoqoji ünsiyyət aşağıdakı şərtlərlə mümkündür:**

*a)-həmsöhbətin-emosional-vəziyyətinə-uyğunlaşmaq;*

*b)-inam-prinsipi,-yəni-partnyorun-istəklərinə-inanmaq;*

*c)-partnyorun-bərabər-hüquqlu-qəbul-edilməsi,-yəni-öz-fikirləri-və-qərarları-ilə- qəbul-etmək;*

*ç)-problematiklik-prinsipi,-yəni-ümumi-problemlərin-həllinə-istiqamətlilik;*

*d)-həmsöhbətə-öz-adından-müraciət-və-s.*

*Ünsiyyətin-əsas-məzmununu-söhbətlərin-aparılması-təşkil-edir.-Əməliyyat-axtarış-fəaliyyətində-daima-müxtəlif-şəxslərlə-müxtəlif-xarakterli-söhbətlərin-aparılması- lazım-gəlir.-Söhbətlərin-aparılmasının-həm işə-müəyyən-məqsədləri-olur.-Əksər-hallarda-söhbətin-məqsədi-əməliyyat-baxımından-lazımi-informasiyaların-alınmasıdır.-*

Söhbətlərin aparılmasının effektli olması psixoloji qanunauyğunluqlardan, isti-

fadədən asılıdır. Söhbət etmək qabiliyyəti dedikdə psixoloji baxımdan həmsöhbəti ilə düzgün münasibətləri qurmaq və söhbətin mövzusunu lazımi istiqamətə yönəltmək başa düşülür. Psixoloji məqamları nəzərə almadan və istifadə etmədən effektli söhbət

aparmaq qeyri-mümkündür. Söhbət prosesini psixoloji baxımdan üç hissəyə bölmək olar – ilkin kontaktların yaradılması, maraqlandıran mövzu ətrafında söhbət və yekun hissə. Hər bir hissədə istifadə olunan psixoloji üsullar özünəməxsus xüsusiyyətlərə malikdirlər.

İlkin kontaktların yaradılmasını çox zaman psixoloji kontaktların yaradılması da adlandırırlar.

**Psixoloji kontakt** – söhbət aparılmalı olan şəxslə ilkin tanışlıq, qarşılıqlı qiymətləndirmə, ümumi maraqların müəyyənləşdirilməsi, həmsöhbətin psixolojı xüsusiyyətlərinə "köklənmə"dir. Psixoloji kontaktlar həyatda çox rast gəlinən prosesdir. Bizim hər birimiz müntəzəm olaraq yeni şəxslərlə tanış olmaq və onlarla ünsiyyət yaratmaq zərurətinə düşürük. Hər bir halda ilkin psixoloji münasibətlər yaranır və sonradan ümumi maraqlar ətrafında söhbətlər davam etdirilir. Bəzən əvvəldən tanıdığımız şəxslərlə də müəyyən müddətdən sonra yeni görüşlər keçiririk. Bu zaman da ilkin psixoloji kontaktlardan istifadə edirik. ***Psixoloji baxımdan ilkin kontaktlar üç istiqamətdə aparılır – tanışlıq, həmsöhbətdə kontaktlara maraq oyatmaq və etibarlı münasibətlərin yaradılması.***

Psixoloji kontaktlar yaradılarkən obyektin fərdi-psixoloji xüsusiyyətləri, maraq dairəsi, psixolojı və sosial tipi, davranışının motivasiyası kimi psixoloji faktorlar nəzərə alınmalıdır.

Psixoloji kontaktlar yaradılarkən subyektin ilkin fikir formalaşdıran xarici görünüşü, ekspressiv reaksiyaları (mimikası, jestləri və s.), danışıq tərzi, nitqi, lazımi diqqətin yetirilməsi, əks tərəfdə simpatiya və etibarın yaradılması kimi psixoloji xüsusiyyətləri nəzərə almaq vacibdir.

Söhbətin ikinci fazası maraqlandıran mövzu ətrafında danışıqların aparılmasıdır. Bu prosesdə də bir neçə psixoloji xüsusiyyətlərdən istifadə edilir. İlk növbədə psixoloji baxımdan söhbətin aparılmasına maneçilik törədən üç əsas cəhəti qeyd etmək olar. Birincisi, partnyorun başa düşülməməsi, onun arqumentlərin qiymətləndirilməməsi, ikincisi, həmsöhbətdə subyektin yalnız öz fikirlərini yeritməyə çalışması təsəvvürünün yaranması və üçüncüsü, tərəfərin bir-birini başa düşməməsi. Söhbət aparılarkən bu psixolojı amillərin yarana bilməsi ehtimalı nəzərə alınmalı və aradan qaldırılmalıdır.

**Söhbətin səmərəli aparılması üçün aşağıdakı psixoloji metodları qeyd etmək olar:**

*—Həmsöhbətin-diqqətlə-dinlənilməsi-və-bunun-söhbət-prosesində-nəzərə-çarp-dırılması;*

*—Danışıq-zamanı-aydın-başa-düşülən,-birmənalı-ifadələrin-işlədilm*

*əsi;- —Problemə-öz-münasibətinin-bildirilməsi;*

*—Söhbət-prosesində-fasilələrin-yaranmasına-imkan-verilməm*

*əsi; —Həmsöhbətlə-işgüzar-şəraitin-yaradılması;*

*—Həmsöhbətinə-bərabər-tərəf-kimi-baxılm*

*ası; —Söhbətin-emosional,-"canlı"-aparılm*

*ası;*

*—Qərarların-qəbul-edilməsi-prosesinin-həmsöhbətlə-birgə-aparılması;*

*—Öz-maraqlarını-aydın-və-dəqiq-bildirməli;*

*—Birgə-maraqların-daima-axtarılması;*

*—Obyektiv-kriteriyaların-istifadə-edilməsi-və-s.*

Yekun hissədə isə həmsöhbətlə mehriban, səmimi, qarşılıqlı etibarlı şəraitdə vidalaşmalı, gələn görüşlər üçün əsasların təmin edilməsinə çalışılmalıdır.

Göründüyü kimi, sırf psixoloji aspektdən səciyyələndirilən ünsiyyətlilik əməliyyat-axtarış fəaliyyətində də tətbiq edilə bilər. Məsələn, vətəndaşların sorğusunun keçirilməsi prosesində ünsiyyətin qeyd olunan cəhətləri lazımi məlumatların alınmasında müvəffəqiyyətlə tətbiq edilə bilər.

**Qeyri-ixtiyari şüurluluq nəzəriyyəsi.** Qeyri-şüurluluq dedikdə insanların şüurunda cərəyan edən və onun dərk etmədiyi və ya dərk edə bilmədiyi proseslər nəzərdə tutulur. Qeyri-şüurlu psixi proseslər orqanizmin normal fəaliyyəti üçün zəruri hadisədir. Belə proseslər şüurun gərginlik zamanı "boşalmasına" gətirib çıxarır ki, "müdafiə mexanizminin" yaranmasına təkan vermiş olur. Müdafiə mexanizmlərinin "işə düşməsi" insanların konkret şərait və vəziyyətdə fəaliyyətinə maneçilik törədən və ya zidd olan məlumatların boğulması və ya sıxışdırılıb çıxarılmasında ifadə olunur.

Şəxsiyyətin psixoloji srukturunda müxtəlif qeyri-şüurlu psixi elementlər mövcuddur. Məsələn, temperament, istedad, qabiliyyət, anadangəlmə meyllər kimi bioloji müəyyənləşdirilmiş keyfiyyətlər subyekt tərəfindən çox zaman dərk olunmur. Bir çox psixi hadisələrə də qeyri-şüurluluq xasdır. Peşəkar və həyati təcrübənin sabit elementləri də subyekt tərəfindən hiss olunmur. Bunlar instinktlər, bacarıqlar və xüsusilə, vərdişlərdir. İnsanların bir çox həyati əhəmiyyət kəsb edən fəaliyyətləri dəfələrlə təkrarlanır və özləri tərəfindən tam dərk edilmir. Məsələn, biz məişətdə dəfələrlə müxtəlif əşyalardan istifadə edirik və onların birbaşa təyinatlarını dərk edirik, lakin

demək olar ki, həmişə bunların həndəsi forması, quruluşları və s. bu kimi digər əlamətlərini bizdən soruşanda onları söyləməyə çətinlik çəkirik. İnsan xarakterinin bəzi müəyyən cizgiləri, ona məxsus qabiliyyət və bacarıqlar da çox zaman dərk edilmir. Belə xüsusiyyətlərin üzə çıxması üçün çox zaman fövqəladə halların baş verməsi lazım gəlir. Bəzi hallarda isə subyektin öz bacarıqlarını üzə çıxarması üçün fəaliyyəti prosesində özünüdərketmənin inkişafı tələb olunur. Beləliklə, qeyri-şüurlu hadisə heç də insan psixikasının möcüzəli və sehrli sahəsi deyil, bunlar dərk və özünüdərketmənin lazımi səviyyəsinə çatmayan adi psixi proseslərdir.

Əməliyyat-axtarış fəaliyyəti prosesində cünayət törətmiş şəxsin törətdiyi əməlləri müxtəlif formada büruzə verməsi, əməliyyat baxımından məlumatlara malik şəxslərin əməliyyat işçisinə təqdim etməmək istəyi olduqda ondan söz alınması və s. bu kimi tədbirlər zamanı psixologiyanın qeyri-ixtiyari şüurluluq nəzəriyyəsindən müvəffəqiyyətlə istifadə etmək mümkündür.

**Psixoloji təsir**.-Psixoloji təsir son zamanlar praktiki psixologiyanın ən çox araşdırılan hissələrindən biridir. Bu sahədə çoxlu sayda müxtəlif xarakterli eksperimentlər aparılmış və geniş ümumiləşdirmələr edilmişdir. Həyatın müxtəlif sferalarında - siyasətdə, biznesdə, idarəçilikdə psixolojı təsir elementlərindən geniş istifadə olunur. Psixoloji təsir insanın psixikasının qanunauyğunluqlarından istifadə etməklə onu arzu olunan hərəkətlər etməyə sövq etməkdir. Psixoloji təsirin bir neçə istiqamətini qeyd etmək olar. Məsələn, inandırmaq, rəübətini qazanmaq, fikrini dəyişdirmək, maraqlandırmaq və s.

**trialt Çaldini "Psixoloji təsir" əsərində insanlara psixoloji təsirin hansı qanunauyğunluqlara əsaslandığını, bu istiqamətdə aparılan araşdırmalar və onların praktikada necə "fəaliyyət göstərilməsi" barədə qeyd etmişdir.** Bu əsərdə insanların müəyyən situasiyalarda eyni cür reaksiya verməsi, stereotip düşüncələrə malik olması və s. bu kimi psixoloji xüsusiyyətlərə malik olmasından necə istifadə olunduğu qeyd olunmuşdur. Əsərin çox maraqlı məqamlarından biri insanların heyvanlarda olduğu kimi müəyyən dövr ərzində avtomatlaşan vərdişləri anoloji situasiyalarda eyni qaydada, düşünülmədən eyni hərəkətlərin edilməsinə, çox zaman isə məntiqsiz səhvlərə yol verilməsinə gətirib çıxarması fikridir. R.Çaldini bunu psixi qanunauyğunluqlarla əsaslandırır. Belə ki, insanlara effektlilik və ya qənaətlilik məxsusdur. Cəmiyyətin informasiya "bolluğu" insanların onlara adi gələn, həmişə təkrar olunan informasiyalara eyni reaksiya verməsi məhz qənaətlilikdən yaranır.

Psixoloji təsirin vacib elementlərindən biri inandırmadır. Əməliyyat-axtarış fəaliyyəti prosesində əməliyyat işçisi tərəfindən müxtəlif şəxslərlə kontaktda olaraq, vacib məlumatların əldə edilməsi lazım gəlir. Lakin həmin şəxslərin etibarını qazanmadan, öz məqsəd və niyyətlərini inandırmadan söhbətlərin aparılması az effektlidir.

İnandırmanın əsasını etibar, etimad və inam təşkil edir. İnam nədir və onun əsasını hansı psixolojı faktorlar təşkil edir?

**Amerika psixoloqu Doyçun araşdırmalarına əsasən inamın (etibarın) qazanılma mərhələləri aşağıdakılardır:**

*1. Şəxs elə şəraitdədir ki, inanmaq və ya inanmamaq arasında seçim ya müsbət, ya da mənfi nəticələnə bilər. Ona görə də inanmaq risklidir.*

*2. Başa düşür ki, nəticənin faydalı və ya zərərli olması etibar edilən şəxsin gələcək hərəkətlərindən asılıdır.*

*3. İnanmağın gələcəkdə mənfi nəticələri zamanı şəxs müsbət nəticədəki faydadan daha çox zərər görə biləcəyini dərk edir.*

*4. Bunlara baxmayaraq, şəxs digər şəxsin gələcəkdə müsbət nəticə verə biləcək davranışına əmindir.*

İnandırma digərinin ən əvvəl inamını qazanmaqdır. İnam qazanması isə yuxarıda qeyd olunan mərhələlərdən keçir. İnam digər şəxsi inandırmaq, yəni arzu olunan hərəkətləri etməyə təhrik etməkdir.

**Psixoloqlar tarixən inandırmanın müxtəlif metodlarının, "inandırma düsturunun" tapılmasına səylər göstərmişlər.** Qeyd etmək lazımdır ki, əməliyyat-axtarış fəaliyyətində informasiya əldə etməyin sırf psixoloji metodlarından biri kimi çıxış edən inandırma və ya inamın qazanılması insan şüuruna, düşüncələrinə bilərəkdən, məqsədli təsirdir. İnandırma da bu səbəbdən insan şüurunun psixoloji qanunauyğunluqlarına əsaslanır. İnandırmanın psixoloji ədəbiyyatda bir çox metodları göstərilmişdir. Hələ antik dövrlərdə yaşamış filosofar söhbət prosesində inandırmanın bəzi üsullarını qeyd etmişlər.

**Məsələn, Homer üsulu, yəni gətirilən dəlillərin, arqumentlərin təsir və inandırma güclərinə görə müəyyən ardıcıllıqla təqdim edilməsi. Bu üsula əsasən, zəif dəlilləri inandırma prosesində gətirmək məqsədəuyğun deyil. Belə ki, inandırılan şəxslər adətən arqumentlərdə nəinki güclü, həttda zəif cəhətləri belə axtarır.** ***Ən optimal dəlillərin gətirilməsi qaydası aşağıdakılardır:***

– güclü, orta güclü, bir çox güclü arqumentlər və ya güclü, orta güclü, çox güclü arqumentlərin gətirilməsi.

Ardıcıllıqlardan göründüyü kimi dəlillərin ən əsaslısı son mərhələyə, yəni həlledici məqama saxlanılır.

**Sokrat üsulu** - yəni əgər siz müsbət nəticəyə nail olmaq istəyirsinizsə, bu məsələni üçüncü yerə qoyun və əvvəlcə həmsöhbətin mütləq "hə" cavabı verən sualları, məsələləri müzakirəyə çıxarın. Bü üsul neçə illərdir ki, insanlara "xidmət" edir. Yalnız son zamanlar bu üsulun dərin fizioloji əsası müəyyənləşdirilmişdir. Aydınlaşdırılmışdır ki, insan "yox" cavabı eşidəndə və ya söyləyəndə onun qanına adrenalin hormonları daxil olur və mübarizəyə hazırlayır, əksinə "hə" cavabı zamanı insan qanına sakitləşdirici həzz hormonları alan endorfinlər daxil olur. İki ardıcıl həzz hormonları alan insan sakitləşir və bu haldan çıxmamaq üçün üçüncü "hə" cavabını verir.

**Paskal üsulu** - həmsöhbəti "küncə" sıxmayın, onun "simasını saxlamağa" şərait yaradın. Çox zaman həmsöhbətimiz bizimlə ona görə razılaşmır ki, bu hal onda mənliyini itirməklə assosiasiya olunur. Paskal bu barədə belə qeyd etmişdir: "Şərəfi təslim kimi heç nə tərkisilah edə bilməz". Əməliyyat-axtarış fəaliyyəti prosesi zamanı da məlumata malik şəxslər çox zaman məlumatları təqdim etməkdən ona görə çəkinirlər ki, əməliyyatçı qarşısında zəif simada görsənməsinlər və ya onlar haqqında arzuolunmaz fikirlər yaranmasın. Əməliyyatçının ən əsas vəzifəsi Paskal üsuluna əsasən, həmsöhbətində bu fikirləri neytrallaşdırmaqdır.

**İnandırma tədbiri dörd əsas inandırma təsiri növünə ayrılır:**

*1. məlumat vermə;*

*2. izah edilmə;*

*3. sübut etmə;*

*4. inkar etmə.*

**Məlumat vermə.** Şəxsin hər hansı bir hərəkəti etməzdən əvvəl nə etməsi və onun nəticələri barədə informasiyaya malik olmalıdır. Ona görə də qulaq asan şəxsi inandırmaq üçün etməli olduğu hərəkətlər, onun məqsədləri, nəticələri barədə məlumatlar təqdim etmək vacibdir. Məlumatın verilməsi müxtəlif metodlarla realizə olunur. Onların arasında ən əsası nəql etmədir. Nəql etmə məzmunu canlı və obrazlı söyləməkdir. **Nəql etmə iki üsulla aparılır** - induktiv (ayrı-ayrı faktlara ümumi yanaşmadan gəlmə) və deduktiv (ayrı-ayrı faktlardan ümumiyə getmə). İnduktiv nəql etmədə söhbətin əvvəlində elə sual qoyulur ki, onun cavabı bütün mövzunu əhatə etmiş olur. Deduktivdə isə sual əsas fikrin bildirildiyindən sonra verilir. Hesab edilir

ki, əgər qulaq asan xolerik temperamentə malikdirsə onunla deduktiv, əgər feqmatikdirsə induktiv nəql etmənin aparılması məqsədəuyğundur.

**İzahetmə.** İzahetmə üç əsas üsulla aparılır. **Birincisi,** instruktivdir. İnstruktiv izahetmə qulaq asan şəxsin etməli olduğu hərəkətləri yadda saxlaması tələb olunan zaman aparılır. Yaradıcı təbiətə malik şəxslərə bu üsul xoş gəlmirsə, ciddi, alqoritmik göstərişləri yerinə yetirən şəxslər tərəfindən isə etirazlar olmur.

**İkincisi,** hekayəvi izahetmə - nəql etməyə yaxındır, faktların rəvayət, nağıl formasında təqdim edilməsidir.

**Üçüncüsü,** mühakiməli izahetmə - bu üsul həmsöhbəti fikirləşməyə, öz mülahizələrini bildirməyə yönəldilmiş izahetmədir. Həmsöhbəti müzakirə zamanı “lehinə” və ya “əleyhinə” kimi öz fikrini bildirməyə yönəlmiş sualların verilməsidir.

**Sübutetmə.** Sübutetmə məntiqin qanunauyğunluqlarına əsaslanır. Eynilik, ziddiyyət, üçüncünün istisnası və s. bu kimi məntiqi qanunlardan istifadə edilir.

**İnkaretmə.** İnandırmanın ən çətin və məharət tələb edən üsuludur. Həmsöhbətin fikirləri ilə ziddiyyət yarandıqda onun söylədiklərini inkar etməkdir. Məntiqi baxımdan sübutetmə ilə eyni təbiətə malikdir. Hansısa bir fikri biz sübut edərkən, digərini inkar etmiş oluruq və buna görə də sübutetməyə xas olanlar inkaretməyə də aid olur. Lakin psixoloji baxımdan sübutetmə ilə inkaretmə arasında əsaslı fərq mövcuddur. İnkaretmə tənqidi yanaşmadır və həmsöhbətin formalaşmış baxışlarını, stereotipləri inkar edərkən onun “mən”liyinə toxunulmuş olur. Polemikalarda qalib gəlmək olar, lakin inandırmaq mümkün deyil.

Psixoloji baxımdan inandırmanın hansı şəxslərə qarşı hansı üsullardan istifadə edilməsi, inandırmanın sxemini, fizioloji əsaslarını və s. qeyd etmək olar. ***Onu qeyd etmək lazımdır ki, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməliyyat işçisi bu psixoloji məqamları bilməli və praktikada tətbiq etməyi bacarmalıdır. Əməliyyat-axtarış fəaliyyətində psixoloji təsirin bu kimi nailiyyətlərindən müvəffəqiyyətlə istifadə oluna bilər. Psixoloji təsir vasitəsilə maraqlandıran şəxsləri lazımi hərəkətlər etməyə sövq etmək mümkündür. Ən açı onların hərəkətlərinin mənasını, məqsədini, motivini aydınlaşdırmaq olar. Ümumiyyətlə, psixoloji təsiretmə üsullarını öyrənmək mümkündür, lakin təcrübədə tətbiq etmək çətindir.***

***Bu zaman qarşıya belə bir sual çıxır - psixoloji məqamları bilmədən ƏAF-ni həyata keçirmək nə dərəcədə mümkündür. Qeyd etmək lazımdır ki, əksər əməliyyat işçiləri bu psixoloji aspektləri bilmirlər. Lakin təcrübə prosesində müəyyən üsulla-***

rı özlərində formalaşdırır və bəzən müvəffəqiyyətlə tətbiq edirlər. Bəzən əməliyyat işçiləri çox çətin hallarla rastlaşırlar. Onlar konfidentlərin cəlb edilməsində, sorğu prosesində, əməliyyat nüfuzetməsində və s. bu kimi əməliyyat-axtarış tədbirlərində maraqlandıran şəxsin psixoloji xüsusiyyətlərini nəzərə almırlar, ünsiyyətin yaradılmasının, psixoloji təsirin, inandırmanın psixoloji üsullarını tətbiq etmirlər və ya edə bilmirlər, çox hallarda isə əməliyyat işçisinin özünə güvənməsi, arxayınçılıq, şəraitin psixoloji baxımdan düzgün qiymətləndirilməməsinə səbəb olur ki, nəticədə qarşıya qoyulmuş məsələləri həll edə bilmirlər, müvəffəqiyyətsizliyə uğrayırlar. Lakin təcrübə nə qədər çox olsa da psixoloji məqamları, qanunauyğunluqları nəzərə almadan bütün tədbirləri tam surətdə, keyfiyyətlə başa çatdırmaq çətindir. Bir çox hallarda əməliyyat işçiləri uğursuzluqla rastlaşsa da, lakin bunun səbəblərini aydınlaşdıra bilmirlər. Səbəblərin əsasını isə psixoloji məqamlarda axtarmaq lazımdır.

# XIII FƏSİL

# Əməliyyat-axtarış fəaliyyətində informasiya əldə edilməsinin üsul və vasitələrinin psixoloji əsasları

## §1. Əməliyyat məlumatlarının alınmasının psixoloji üsulları

Əməliyyat-axtarış fəaliyyəti zamanı informasiyanın əldə edilməsi əməliyyat-axtarış tədbirlərinin növündən və onların xüsusiyyətlərindən asılı olaraq müxtəlif üsullarla aparılır. **Əməliyyat-axtarış tədbirlərində informasiya dedikdə** "cinayətkarlıqla mübarizə prosesində əldə edilən fakt, hadisə, şərait, əsas, sübut və dəlillər başa düşülür". İnformasiya müxtəlif mənbələrdən alınır və onların növündən və xüsusiyyətlərindən asılı olaraq istifadə olunan psixoloji metodlar da fərqləndirilir. **İnformasiyanın əldə edilmə mənbələrini iki qrupa ayırmaq olar** – məlumatın daşıyıcısı olan insanlar (bura agentləri, məxfi əməkdaşları, hadisənin şahidi olmuş şəxsləri, cinayətkarlar haqqında hər hansı məlumata malik və onlar barədə əməliyyat baxımından informasiya təqdim edə bilən insanları aid etmək olar) və texniki tədbirlər, analitik fəaliyyət və s. bu istiqamətdə əldə olunan məlumatlar. Birinci halda informasiyanın alınması üçün psixoloji üsullardan istifadə əməliyyat-axtarış tədbirinin özəyini təşkil edirsə, ikinci halda tamamilə başqa psixoloji faktorlar əsas rol oynayır. Məsələn, telefon danışıqlarına qulaq asılarkən texniki əməkdaş tərəfindən müxtəlif vasitələrlə söhbətlərin qeydə alınması, əməliyyatçı tərəfindən isə maraqlı məqamların analizi istiqamətində əməliyyat tədbirləri həyata keçirilir. Burada da psixolojı məqamlar var, lakin hər iki halda əməliyyatçının özünün psixi durumu baxımından işin effektli və düzgün aparılması tələb olunur. Digər tərəfdən cinayətkar qrupun üzvlərinin konfident qismində əməkdaşlığa cəlb edilməsi və ya əməliyyat nüfuzetməsi zamanı informasiyanın əldə edilməsində isə məlumatın mənbəyi bilavasitə insanlar olur. Bu zaman istifadə olunan psixolojı üsullar isə tamamilə birinci haldan fərqlənir. Artıq insanları inandırma, təsiretmə və s. bu kimi psixoloji üsullardan istifadə olunmalıdır. Digər tərəfdən, bir çox ədəbiyyatlarda informasiyanın əsas mənbələri kimi məxfi əməkdaşlar, konfidentlər göstərilir. Lakin informasiyanın əsas mənbələri

bunlarla kifayətlənmir. Məsələn, vətəndaşların sorğusu kimi əməliyyat-axtarış tədbirlərində əməkdaşlara əvvəllər heç bir tanışlığı olmayan insanlardan məlumatların alınması lazım gəlir.

İnformasiyanın əldə edilməsi üzrə təcrübə göstərir ki, bu prosesin əsasını psixoloji faktorlardan istifadə təşkil edir. Məlumatların əldə edilməsi üçün aparılan əməliyyat-axtarış tədbirlərində demək olar ki, həmişə əməliyyat işçisinin həmsöhbəti ilə ilk növbədə kontaktın yaradılması və inkişafı tələb olunur. Bu halda müvəffəqiyyət əməliyyatçının söhbət apardığı şəxsin psixikasının şüurlu və qeyri-şüurlu sferasına təsir göstərə bilməsi bacarığından çox asılıdır. Bu təsirlərin məqsədi müxtəlif ola bilər, əsasən isə mənbənin heç kimlə bölüşdürmək istəmədiyi məlumatların əldə edilməsi nəzərdə tutulur.

Bir çox ədəbiyyatlarda əməliyyat baxımından maraq kəsb edən məlumatların əldə edilməsinin ümumpsixoloji əsasını qeyri-ixtiyari şüurluluq nəzəriyyəsinin təşkil etməsi bildirilir. **Qeyri-ixtiyari şüurluluq hadisəsi dedikdə**, insanların şüurunda cərayan edən və onun dərk etmədiyi və ya dərk edə bilmədiyi proseslər nəzərdə tutulur. Məlumatın söz çəkmə yolu ilə alınmasının əsas məzmunu maraq dairəsində olan subyektin psixoloji fəaliyyətinin ümumi qanunauyğunluqlarına əsaslanaraq, bu və ya digər formada əməkdaşa informasiyanı verməsi durur. Subyektlərin çox zaman şüurlu surətdə belə informasiyaların təqdim etmək istəyi olmadığını nəzərə alaraq, ondan qeyri-ixtiyari şüurlu məlumatların alınması istiqamətində psixi təsir göstərmək lazım gəlir.

Psixoloji araşdırmalar göstərir ki, qeyri-şüurlu psixi proseslər orqanizmin normal fəaliyyəti üçün zəruridir. Belə proseslər şüurun “boşalmasına” gətirib çıxarır ki, “müdafiə mexanizminin” yaranmasına təkan vermiş olur. Müdafiə mexanizminin “işə düşməsi” insanların konkret şərait və vəziyyətdə fəaliyyətinə maneçilik törədən və ya zidd olan məlumatların boğulması və ya sıxışdırılıb çıxarılmasında ifadə olunur.

**Şüurluluqla qeyri-şüurluluğun sərhədi olduqca nisbidir.** Müxtəlif zehni qurğuların konfikti özünüdərk mexanizmlərini təhlükə altına qoyduqda müdafiə mexanizmi onun tamlığı, sabitliyi, dözümlüyü və identiklivliyini təmin etməyə yönəlir.

***Şəxsiyyətin psixoloji strukturuna nəzər salsaq, onun müxtəlif qeyri-şüurlu psixi elementlərini görə bilərik. Məsələn, temperament, istedad, qabiliyyət, anadangəlmə meyllər kimi bioloji müəyyənləşdirilmiş keyfiyyətlər subyekt tərəfindən çox zaman dərk olunmur. Bir çox psixi hadisələrə də qeyri-şüurluluq xasdır. Peşəkar***

***və həyati təcrübənin sabit elementləri də subyekt tərəfindən hiss olunmur. Bunlar instinktlər, bacarıqlar və xüsusilə vərdişlərdir. İnsanların bir çox həyati əhəmiyyət kəsb edən fəaliyyətləri dəfələrlə təkrarlanır və özləri tərəfindən tam dərk edilmir. Məsələn, biz məişətdə dəfələrlə müxtəlif əşyalardan istifadə edir və onların birbaşa təyinatlarını dərk edirik, lakin demək olar ki, həmişə bunların həndəsi forması, quruluşları və s. bu kimi digər əlamətlərini bizdən soruşanda onları söyləməyə çətinlik çəkirik.***

Nəhayət, insan xarakterinin bəzi müəyyən cizgiləri, ona məxsus qabiliyyət və bacarıqlar da çox zaman dərk edilmir. Belə xüsusiyyətlərin üzə çıxması üçün çox zaman fövqəladə halların baş verməsi lazım gəlir. Bəzi hallarda isə subyektin öz bacarıqlarını üzə çıxarması üçün fəaliyyəti prosesində özünüdərketmənin inkişafı tələb olunur. Beləliklə, qeyri-şüurlu hadisə heç də insan psixikasının möcüzəli və sehrli sahəsi deyil, bunlar dərk və özünüdərketmənin lazımi səviyyəsinə çatmayan adi psixi proseslərdir.

Lakin bir məqamı qeyd etmək lazımdır. Heç də informasiyanın əldə edilməsinin psixoloji baxımdan əsasını bütünlüklə qeyri-ixtiyari şüurluluq təşkil etmir. **Məsələn, Çufarovskiy Y.V. "Əməliyyat-axtarış fəaliyyətinin psixologiyası" adlı kitabında informasiya əldə edilməsinin qeyri-ixtiyari şüurluluq nəzəriyyəsinə əsaslanan bir neçə üsullarını göstərmişdir. Qeyd etmək lazımdır ki, bu üsulların əksəriyyətində şüuraltı sfera ilə yanaşı, birbaşa şüura təsirin də elementləri mövcuddur və onları tamamilə qeyri-ixtiyari şüurluluq nəzəriyyəsi ilə bağlamaq, fikrimizcə, düzgün olmazdı.**

**Burada qeyri-ixtiyari şüurdan istifadə edərək əməliyyat məlumatlarının alınmasının aşağıdakı üsulları qeyd edilir:**

*1. Bizim üçün maraq kəsb edən şəxsin yaddaşında müəyyən obrazı canlandıra bilən və bu barədə onda qeyri-ixtiyari söz qaçırması ilə nəticələnən müəyyən predmet və əşyaların göstərilməsi;*

*2. Həmmərz (bir-birinə yaxın) mövzularda söhbətin aparılması. Koqnitivit müsahibə;*

*3. Şəxsin özünü dəyərləndirmə hisslərindən istifadə;*

*4. Şəxsi ləyaqətə toxunan hisslərə müraciət;*

*5. Emosional stressdən istifadə;*

*6. Məlumatlılığı büruzə vermək;*

*7.-Biganəliyin,-etinasızlığın-büruzə-verilm*
*əsi; 8.-Gözlənilməz-sualın-verilməsi;*
*trialyri-dəqiq-və-ya-yalan-bəyanat;*
*10.-“Vacib”-məlumatların-bildirilməsi;*
*11.-“Sadəlövh”-obrazının-yaradılması;*
*12.-“Saxta”-(yalan)-sübutların-bildirilm*
*əsi;*
*13.-Subyektin-cinayətkar-fəaliyyətinə-dəlalət-edən-konkret-predm*
*etlərin-göstə-rilməsi;*
*14.-Qısamüddətli-psixoloji-həyati-şəraitin-yaradılması.*

Ayrılıqda bu üsullara nəzər salaq və onların qeyri-ixtiyari şüurluluq nəzəriyyəsinə hansı dərəcədə əsaslandığını qeyd edək.

Bizim üçün maraq kəsb edən şəxsin yaddaşında müəyyən obrazı canlandıra bilən və bu barədə onda qeyri-ixtiyari söz qaçırması ilə nəticələnən müəyyən predmet və əşyaların göstərilməsi.

Əlbəttə, bu əşyaların göstərilməsi avtomatik olaraq söhbət aparılan şəxsin qeyri-ixtiyari müəyyən informasiya verməsi ilə nəticələnməyəcək. Bunun üçün əvvəlcədən planlaşdırılmış müəyyən şəraitin yaradılması və söhbətin istiqamətinin bu yöndə aparılması vacibdir. Əməliyyat işçisi (bu konfident də ola bilər) yaranmış şəraiti düzgün qiymətləndirməli, söhbət aparılan şəxsin psixoloji vəziyyətini izləməli və lazımi nəticəni almaq üçün əşyanın göstərilməsi vaxtını düzgün müəyyən etməlidir.

Göstərilən əşyalar məqsəddən asılı olaraq müxtəlif ola bilər. ***Məsələn, əməliyyat işçisi müxbir haqqında məlumat əldə etmək istəyirsə, müəyyən jurnal, qəzet fraqmentlərini özü ilə götürür və söhbəti* bu istiqamətə yönəldir. *Əgər hər hansı fotoşəkildəki şəxs barədə məlumatların alınması tələb* olunursa, *əməliyyatçı söhbətin mövzusunu yönəltmək* üçün *müxtəlif fotoəşyaları özü ilə götürür. Bəzi* hallarda *barəsində məlumat əldə etmək tələb* olunan *şəxsin özünəməxsus* olan *əşyalar* - *geyimlər*, kitablar, *sənəti ilə bağlı* olan *bəzi predmetlər*, *təəssüratlar* yarada bilən *əlaqələrinə məxsus predmetlər*, muzey, *sərgi eksponatlarından* da *istifadə etmək* olar. *Belə* konkret *əşyaların göstərilməsi* ikiqat *psixoloji effektə* malikdir. *Bir tərəfdən, keçmişdə baş vermiş hadisələri yaddaşda canlandırır, digər tərəfdən müvafiq ifadələri, sözləri qeyri-ixtiyari “qaçırtmağa” təsir edir.***

**Yaddaşda müəyyən təəssüratların canlanması kifayət qədər dərk olunan prosesdir, digər tərəfdən, maraqlandıran şəxs öz həyat fəaliyyəti və ya digər ona**

**aid məqamlar barədə danışarkən, bir qayda olaraq, anlamır ki, hüquq-mühafizə orqanlarını maraqlandıran məlumatları təqdim edir.**

Qeyd olunan metodun müvəffəqiyyətlə tətbiqi göstərilmə üçün seçilmiş predmet bizi maraqlandıran şəxsin yaddaşında aydınlaşdırılmalı olan hadisəni canlandırmaq üçün stimul olan predmetlə uyğunluq təşkil etməli; predmetin göstərilməsi həmişə təbii olmalıdır və konkret şəraitdə özünü doğrultmalı; əşyaların göstərilməsi zamanı əməliyyat işçisinin hərəkətləri ekspressiv əsaslandırılmalı, yəni predmetə münasibətini mimika və jestləri ilə tamamlamalı; predmetlərin nümayişində əvvəl maraqlandıran şəxsin psixoloji durumu, xarakteri, dünyagörüşü, məlumatlılığı dəqiq öyrənilməli; predmetlər birdən-birə deyil, müəyyən psixoloji şərait yaradıldığı zaman göstərilməlidir kimi şərtlərə əməl olunması zəruridir.

Qeyd etmək lazımdır ki, bu metodun tətbiqində, yəni predmetlərin göstərilməsi zamanı qeyri-ixtiyari söz qaçırılmasına o zaman nail olunur ki, həmin şəxs bu predmetlərin məhz onun bilmədən fikir yürütməsi üçün təqdim olunmuşdur. Predmetlərin göstərilməsi informasiyanın alınması üçün sadə üsullardan sayılır və hüquqi təcrübə formalaşmışdır. Bu metod insanların qeyri-ixtiyari şüurunun qıcıqlandırılmasından ibarətdir.

Qeyd etmək olar ki, bu üsulun əsasını insanların məhz qeyri-ixtiyari şüurunun qıcıqlandırılması təşkil edir və müəllifə razılaşmaq olar.

**Emosional stressdən istifadə**. Bu mənada emosional stress dedikdə psixi gərginlik başa düşülür. Belə vəziyyətdə insanın öz hərəkət və danışıqlarına nəzarəti zəifləyir. Bu vəziyyətin inkişafının bir neçə mərhələsi fərqləndirilir. Emosional stress insana psixikasını qıcıqlandıran və ətraf mühütdə oriyentasiyasının itirilməsi ilə müşayiət olunan hər hansı güclü və qəfəti təsir nəticəsində yaranır. Əsas etap güclü sarsıntılar, demək olar ki, nəzarət olunmayan hərəkət və danışıqlar mərhələsidir. Emosional stress vəziyyəti tədricən sakitliyə keçidlə nəticələnir.

Şəxsin emosional stress vəziyyətinə çatdırılmasına gözlənilməz sual, qeyri-dəqiq və ya yalan bəyanat verməklə, həmçinin "vacib" məlumat təqdim etmək və hansısa hadisədən xəbərdar olmağı göstərməklə nail olmaq olar.

**Gözlənilməz sualın verilməsi**. Bu üsul iki növə malikdir. Gözlənilməz sualla şəxsi tərəddüdə salmaq və ya nədəsə onu ifşa etmək, məsələn yalanda. Birinci halda həmin şəxsin həmsöhbətin məqsədini dərk edə bilməsi mümkündürsə, ikinci halda bu isə mütləq dərk edilir.

**Bu metodun müvəffəqiyyətlə tətbiq edilməsi üçün əsas şərtlər aşağıdakılardır:**

*1) Gözlənilməz sual söhbətin mövzusuna aid olmamalıdır;*

*2) Bu suallar intim problemlər və ya şəxsi sirlərə aid olmalıdır; 3) Sualın ikibaşlı mənası olmamalıdır.*

Bu metodun əsas qaydası ondan ibarətdir ki, əgər qarşıda həmsöhbəti ifşa etmək məqsədi durursa, sual onu çıxılmaz vəziyyətə salmalıdır, digər tərəfdən onu çaşdırmaq lazımdırsa, həmin şəxs üçün çıxış yolları nəzərdə tutulmalıdır.

**Qeyri-dəqiq və ya yalan bəyanat.** Biz yalan bəyanat verərkən və ya qeyri-dəqiq, düzgün olmayan faktı söyləyərkən həmsöhbətin bunlara etiraz əlaməti olaraq təkzib və ya düzəlişlər, həmçinin tamamlamalar etməsinə çalışırıq. Bu üsul, xüsusilə, emosional, çılğın, impulsiv şəxslərə qarşı daha effektlidir ki, faktların təhrif edilməsi onların psixoloji sabitliyini pozmuş olur. Həmçinin özlərini "bilici" sayan şəxlərə qarşı da bu vasitə yaxşı nəticə verə bilər.

***Bu üsulun tətbiqi üçün əsas şərt aşağıdakılardır:***

1) Qeyri-dəqiq, yalan bəyanat həmin vaxtda bizi maraqlandıran şəxsi həyəcanlandıran ideyalar sferasını əhatə etməlidir;

2) Bu cür bəyanatlar və ya hərəkətlər həmin şəxsdə söyləmək və ya söyləməmək, göstərmək və ya göstərməmək, bildirmək və ya bildirməmək kimi motivlərin daxili mübarizəsini yaratmalıdır;

3) Bunları edən əməliyyat işçisi tam səmimi olmalı və əminliyini açıq-aşkar büruzə verməlidir.

Bu üsulun tətbiqinin əsas qaydası ondan ibarətdir ki, söylənən yalan "gerçək" faktlara əsaslanmalı və qeyri-dəqiqlik müəyyən məqamları əhatə etməlidir.

**"Vacib" məlumatların bildirilməsi.** İnsanların əhval-ruhiyyəsini dəyişə bilən belə məlumatların təqdim edilməsi söhbətin istiqamətinin lazımi səmtə yönəlməsinə və beləliklə, maraqlı məlumatların əldə edilməsinə kömək edir.

***Bu metodun əsas tətbiqi şərtləri bunlardır:***

1) Belə "vacib" məlumatların seçilməsi zamanı insanın individual (fərdi)-psixoloji xüsusiyyətləri və məlumatın təsir effekti düzgün qiymətləndirilməlidir;

2) Maraqlandıran şəxslə etibarlı münasibətlər yaradılmalıdır;

3) İnformasiyanın mənbəyi həmin şəxsin etibar etdiyi, onun gözlərində müəyyən nüfuza malik olan şəxs olmalıdır;

**Subyektin cinayətkar fəaliyyətinə dəlalət edən konkret predmetlərin göstərilməsi.** Qeyd olunan metod əməliyyat və istintaq praktikasında müvəffəqiyyətlə istifadə olunur.

Bu metodun psixoloji xüsusiyyətləri ondan ibarətdir ki, maraqlandıran şəxsə törədilmiş hadisəyə aid və ya onun fəaliyyəti ilə əlaqədar göstərilən predmetlər onda müəyyən emosiyalar, assosiasiyalar, müxtəlif hisslər yaradır ki, obyektin konkret ekspressiv və fiziki hərəkətlər etməsinə nail olunur.

***Bu metodun müvəffəqiyyətli tətbiqi üçün şərtlər aşağıdakılardır:***

1) Göstərilən predmetlər konkret və cinayətkar fəaliyyətlə bağlı olmalıdır;

2) Predmetin göstərilməsi üçün müvafiq şəraitin hazırlanması vacibdir. Yaxşı olar ki, həmin şəxs müəyyən psixi vəziyyətə çatdırılsın və bu zaman ona predmet göstərilsin;

3) Predmeti göstərən şəxs həmin əşyaya qarşı neytral münasibətdə olduğunu büruzə verməlidir.

**Qısamüddətli psixoloji həyati şəraitin yaradılması.** Belə şərait təbii yaranan və ya süni surətdə hazırlanmış ola bilər. Əsas psixoloji məzmunu ondan ibarətdir ki, demək olar ki, hər bir kəsi narahat edən müəyyən səbəblər olarkən elə şərait yaranır və ya yaradılır ki, o, istər-istəməz, mexaniki hər hansı reaksiyasını büruzə vermiş olsun. ***Məsələn, evlərə baxış keçirən zaman gizlədilən əşyaların yerini müəyyənləşdirmək məqsədilə axtarışın aparılması prosesi ilə yanaşı obyektin reaksiyası da izlənilir. çox hallarda əşyaların gizlədildiyi yerə yaxınlaşarkən obyektdə qeyri-ixtiyari reaksiyalar olur. Gömrük orqanlarında da qadağan edilmiş malları gömrük sərhəddindən keçirən şəxsləri müəyyənləşdirmək üçün bu metoddan istifadə edilir. Peşəkar, psixoloji cəhətdən yaxşı hazırlanmış qaçaqmalçıları nəzərə almasaq, bir çox hallarda qeyri-qanuni predmetləri keçirən şəxslər yoxlama prosesində qeyri-ixtiyari ekspressiv və fiziki reaksiyalar büruzə verirlər. Qeyd etmək lazımdır ki, belə reaksiyaların yaranması üçün qısamüddətli kəskin həyati şəraitin yaradılması əsas şərtlərdən biridir. Belə ki, birdən-birə, qəfətən yaranan şəraitdə daimi daxili həyəcan vəziyyətində olan şəxsin reaksiyası da instinktiv olur (yəni müdafiə mexanizmi yaranır) və qısa müddət ərzində onun hərəkətləri daxili nəzarətsiz qalır.***

**Bu metodun müvəffəqiyyətlə tətbiqi üçün aşağıdakı əsas şərtlərin nəzərə alınması vacibdir:**

*1) Yaranmış şərait subyekt üçün həyati vacib xarakterə malik olmalıdır;*

*2) Şəraitin yaradılması zamanı elə anı seçmək lazımdır ki, subyekt mütləq ona reaksiya vermiş olsun;*

*3) Şəraiti istifadə edən şəxsin hərəkətləri təbii olmalı, vəziyyətdən məntiqi çıxmalı və müvafiq ekspressiv təsdiqlə edilməlidir;*

*4) Yaranmış şəraitdə subyektin psixi vəziyyəti və ifadə olunan hərəkətləri nəzarətdə saxlanılmalı və qeyd edilməlidir.*

***Qeyd olunan psixoloji məqam bir çox psixoloqların əsərlərində də əks olunub. Psixoanalizin banilərindən biri Z.Freyd "Səhv hərəkətlər" adlı elmi əsərində qeyri-ixtiyari edilən səhv hərəkətlərin səbəbləri barədə geniş izah vermişdir. Onun qeydlərinə görə müəyyən həyəcan vəziyyətində insanlara bilmədən gizli saxladığı məlumatların verilməsi xasdır. Gərginlik, təhlükə yaradan şəraitdə insanlar zehinlərində, yaddaşlarında olan informasiyaya uyğun hərəkətlər edirlər. Bu bilmədən söz qaçırma, səhv yazılar, səhv hərəkətlər (məsələn, hər hansı əşyanı yaddan çıxartma, itirmə, sındırma və s.) etmiş olurlar. O, bu hadisələrin səbəblərindən biri kimi insanların ani reaksiyasının nəticəsi hesab edilir.***

Beləliklə, informasiyanın əldə edilməsinin psixoloji əsasları psixologiya elminin insanların qeyri-şüuri psixi fəaliyyətinin qanunauyğunluqlarına əsaslanır. Bunlar xarici formaya qeyri-ixtiyari, bilmədən nitq reproduksiyası, ekspressiv və fiziki hərəkətlərlə müşayiət edilirsə, əslində daxili psixoloji səbəblərə malikdir. Yuxarıda qeyd olunan bu üsulların hamısı məhz tamamilə qeyri-ixtiyari şüurluluq psixoloji xüsusiyyətlərinə əsaslanır.

Qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatlarında informasiya əldə edilməsinin bəzi üsullarını qeyd edirlər ki, onlar tamamilə qeyri-ixtiyari şüurluluğa əsaslanır. Lakin bu üsullarda şüura təsir edərək mənbədən onun iradəsi ilə iradəsindən asılı olmayan məlumatları əldə etmək prinsipi öz əksini tapır. Yəni qeyri-ixtiyari şüurluluqla ixtiyari şüurluluq vəhdətdə olur. Aşağıdakı üsulları nəzərdən keçirək.

**Həmmərz (bir-birinə yaxın) mövzularda söhbətin aparılması. Koqnitivit müsahibə.** - Bu, sualların verilməsi ilə məqsədyönlü söhbətin aparılmasıdır. Bu cür mövzularda söhbətlərin aparılması maraqlandırılan şəxsin yaddaşında təcrid olunmuş informasiyanın orbit və obrazlarını canlandırır. Bu üsulun effektli olması üçün mövzunun əvvəlcədən hazırlanması və bu zaman həmin şəxsin psixoloji xarakteristikası, durumu müəyyənləşdirilməlidir. Söhbət prosesində seçilmiş mövzu təbii olaraq daxil edilməlidir və istiqamətləndirici suallarla əsas sualı verib ona cavab almaq ba-

carığından çox asılıdır. Bu mövzunun söhbət predmetinə çevrilməsindən əvvəl neytral sualların verilməsi də zəruridir.

***Deyilənlərə aid belə bir misal gətirmək olar. Axtarılan şəxsin mümkün gizləndiyi yerləri müəyyənləşdirmək üçün onun 3-4 il əvvəl yoldaşlıq etdiyi bir nəfərlə söhbətin aparılması lazım gəlmişdir. Onu tanıyan etibarlı şəxs onunla görüşür və kafeyə dəvət edir. Keçmiş yoldaşlarından, dostlarından söhbət apararaq tədricən müzakirənin istiqamətini onun yoldaşlarına yönəldir. Söhbət qızışarkən maraqlandırılan şəxs axtarışda olan dostunu da xatırlayır, ağılsızlıq edərək cinayət törətdiyini bildirir və keçmiş xatirələrini yada salaraq onunla birlikdə tanış olduğu digər şəxslər, əlaqə saxladığı qadınlar barədə ətrafı məlumat təqdim edir. Onun məlumatları nəticəsində axtarışda olan şəxsin gizləndiyi yer tezliklə müəyyənləşdirilir. Məlum olur ki, o, 5 il əvvəl tanış olduğu dul qadının mənzilində yaşayır.***

***Qeyd olunan misalda mövzu düzgün seçilmiş və söhbətin aparılması üçün müvafiq şərait yaradılmışdır. Dostlardan söhbət aparılarkən istər-istəməz həmin şəxs axtarışda olan yoldaşını da xatırlamış və özü də bilmədən maraqlandıran məlumatları təqdim etmişdir. Əvvəlcədən müəyyənləşdirilmişdir ki, o, istintaqa çağırılsaydı, öz dostu barədə heç bir məlumat təqdim etməyəcəkdi, çünki 3-4 il əvvəl onların xırda cinayətlər törətməsi ehtimal olunurdu. Əlbəttə, əgər o, 3-4 il əvvəl yoldaşlıq etdiyi şəxs barədə məlumat versəydi özünün də ifşa olunacağından ehtiyat edərdi. Deməli, həmmərz mövzuda etibarlı şəxsin söhbət aparması onun dostu barədə bir neçə il əvvəl xatirələrini yada salması ilə nəticələndi.***

Bu hadisənin izahı, məzmunu oxşar sözlər səsləndikdə onun yazılışı və səslənməsindən asılı olmayaraq insanlarda həmişə eyni reaksiyanın yaranmasıdır.

**Bu üsulun tətbiq edilməsinin əsas şərtləri aşağıdakılardır:**

*1) İstifadə olunan həmmərz mövzu maraqlandırılan şəxsə məlum olmalıdır və onun üçün şəxsi əhəmiyyət kəsb etməlidir;*

*2) Həmmərz mövzu konkret şəraitdə məntiqi ardıcıllıqla daxil edilməlidir;*

*3) Söz çəkməni həyata keçirən şəxsin hərəkətləri və danışığı psixoloji cəhətdən əsaslanmalıdır və ekspressiv təsdiqlənməlidir, yəni şəxsin milli, professional, individual xüsusiyyətlərinə uyğun gəlməlidir.*

**Bu üsulun tətbiqinin əsas metodik şərti bunlardır:**

*1) Həmmərz mövzu mətləbə çox yaxın olmalı deyil, çünki əks halda oxşar mövzu pis pərdələnmiş birbaşa suala çevrilər;*

*2)-Eyni-zamanda-həmm ərz-mövzu-əsas-mövzudan-çox-uzaq-da-olm alı-deyil,-çünki- lazım-olan-məlum atı-alm aq-üçün-əlavə-sualların-verilm əsinə-gətirib-çıxarar-ki,-bu-da- pərdələnmiş-məqsədi-açmış-olar;*

*3)-Həmmərz-mövzu-əvvələcədən-hazırlanmalı,-maraqland ırılan-şəxsin-şəxsi-keyfiyyətlərinə,-psixoloji-durumuna,-məlumatlılıq-dərəcəsin ə-uyğun-seçilməlidir.*

**Çuforovski öz kitabında qeyd edir ki,** hüquq-mühafizə orqanlarının *əməkdaş-ları* tərəfindən həmmərz mövzulardan istifadə etmənin məzmunu maraqlandıran şəxsin yaddaşında keçmiş təəssüratları canlandırmaqdan, əsas mövzunu pərdələməkdən və nəticədə qeyri-ixtiyari lazımi məlumatları almaqdan ibarətdir. Lakin burada iki məqama diqqət yetirmək lazımdır. Belə ki, qeyd olunan üsulda koqnitivit intervyu metodu ilə yaddan çıxmış və ya zəif xatırlanan məlumatları yada salmaq nəzərdə tutulursa, məlumatın təqdim edilməsi ixtiyari və ya iradəvi verilir. Məsələn, qeyd olunan misalda sorğusu keçirilən şəxsin məlumatı xatırlaması və təqdim etməsi şüurlu və iradəvi surətdə olmuşdur. Lakin o, konfidentin söhbəti nə məqsədlə aparmasını bilməmişdir.

**Şəxsin özünü dəyərləndirmə hisslərindən istifadə**. İnsanlar, bir qayda olaraq, şəxsi mənliklərini saxlamağa və bir qədər artırmağa çalışırlar. Bu hissələrə toxunaraq, maraqlandıran şəxs öz nüfuzunu və ya "mən"liyini saxlamaq üçün hüquq-mühafizə orqanı əməkdaşını maraqlandıran informasiyanı təqdim edə bilər. Məqsədyönlü söhbətdə şəxsin bütün vasitələrlə öz nəzər-nöqtəsini müdafiə etmək və ətrafdakılar arasında şəxsi dəyərini artırmaq istəyindən istifadə etmək olar. Bu zaman həmin şəxslə yaranmış qarşılıqlı münasibəti nəzərə almaq lazımdır. Məsələn, hüquq-mühafizə orqanı üçün maraq kəsb edən şəxs əməliyyat işçisini yoldaş, asılı şəxs, opponent kimi qəbul edə bilər. Həmin şəxsin əməkdaşa hansı münasibət bəslədiyini nəzərə alaraq, informasiyanın alınmasına lazımi zəmin yaradıla bilər.

**Bu ilkin şərtlərə aşağıdakılar aid edilə bilər:**

*a)-həmsöhbətin-partnyoruna-səmimi-və-əvəzsiz-kömək-etm ək-istəyi;*

*b)-partnyorun-hərəkətinə-qarşı-minnətdarlıq-hissi.-Buna-səbəb-"xidm ətə-qarşı- xidmət"-kimi-qiymətlənd irilən-hərəkət-ola-bilər.-Ona-görə-ki,-həmsöhbət-müvafiq-mə-lum atı-verərək-öz-hərəkətlərinə-"borcun"-qaytarılması-kimi-baxa-bilər;*

*c)-opponentinə-gözlənilməz,-xoşagəlm*

*əz-təəccüb-yaradaraq-onda-çaşqınlıq-ya-ratm*
*aq-hissləri.-Bu-fakt-hər-iki-tərəfin-maraqlarına-toxunan-diskusiya,-mübahisə-za-manı-yarana-bilər.*

*ç) həmsöhbətin öz sözlərinə, fikirlərinə cavab almaq zərurəti. Bu faktor partnyorun həmsöhbətinə qarşı avtoritet kimi baxması zamanı xüsusi əhəmiyyət kəsb edir. İnsanlar tez-tez onlarla söhbət edən şəxslərin fikirlərini bölüşdürməyə, səy göstərməyə çalışırlar. Bəzən nə isə danışarkən dəyərləndirdiyi şəxslərdən məsləhət, razılıq cavabı almağı istəyirlər.*

Bütün bunlar hüquq-mühafizə orqanları əməkdaşına lazımi məlumatları alarkən maraqlandıranların şəxsi ləyaqət hisslərinə müraciət, ona qarşı biganəliyin göstərilməsi, şəxsin özünüdəyərləndirmə hisslərinə toxunma “oyunu” kimi spesifik metodları istifadə etməsinə əsas verir.

Lakin bu üsula aid də bəzi məqamları qeyd etmək olar. Birincisi, şəxsin ləyaqət hisslərinə müraciət və s. bu kimi psixolojı təsirlər tam qeyri-ixtiyari şüurluluqla bağlı deyil. Zənnimizcə, qeyri-ixtiyari şüurluluq şəxsin özü bilmədən, arzu etmədiyi, qəfətən avtomatik məlumatları təqdim etməsidir və ya yaddan çıxardığı, nə vaxtsa gördüyü lakin onu şüurlu surətdə qavramamasıdır. Lakin biz şəxsin müəyyən hisslərinə toxunub onun arzu etdiyimiz hərəkətlər etməsinə nail oluruqsa, bu zaman həmin şəxs etdiyi hərəkəti dərk edir, lakin onun bu hərəkətlərin edilməsinə təhrik edildiyini anlamır. Bu zaman isə eyni zamanda qeyri-ixtiyari şüurluluqla şüurluluq bir-biri ilə vəhdət təşkil etmiş olur.

**Şəxsi ləyaqətə toxunan hisslərə müraciət.** Belə vasitələrə xoşa gələn tərif, bilərəkdən həddən artıq hörmət, həmsöhbətinə ciddi, kifayət qədər yüksək diqqətin yetirilməsi, özünə qarşı fərəh hissləri yaradan ifadələrin söylənilməsi aiddir. Bu üsulların şöhrətpərəst, özündən razı insanlara edilməsi daha effektlidir. Bu zaman belə şəxslərlə daha yaxın, səmimi münasibətlərin yaradılması ilə nəticələnir və daha dolüun və düzgün informasiyanın alınmasına gətirib çıxarır.

Bir çox sosioloji psixologiyaya aid elmi işlərdə “komplimentin” (tərifin) edilməsi və eyni zamanda qeyri-verbal üsullardan istifadə edilməsinin həmsöhbətini özünə qarşı rəğbət bəslətmək mümkündür.

***Robert Çaldini, D.Karneqi və s. bu kimi psixoloqlar tərif və komplimentlərin insanlara təsir edən güclü psixoloji metod kimi qeyd edirlər. R.Çaldinin “Təsir psixologiyası” adlı əsərində göstərilir ki: “biz çox zaman özümüzə qarşı edilən yersiz, artıq tərifəri qəbul edib, bunların bizi manipulyasiya etmək üçün edildiyini başa düşürük, lakin demək olar ki, həmişə inanırıq, bunları edən şəxslərə rəğbət bəsləyirik və hətta, bəzən tərifər açıq-aşkar farş (yalan, şişirdici) olduqda belə”.***

**V.P.Şeynovun "İnandırma məharəti" kitabında gizli komplimentlər və qeyri-verbal vasitələrin bir neçə üsulu qeyd olunur.**

**Bunların bəzilərini xüsusilə göstərmək olar:**

*1)-Həmsöhbətinə-qarşı-xüsusi-diqqət-və-marağın-göstərilməsi.-Bu-da-öz-növb ə-*
*sində-gizli-komplimentdir,-belə-ki,-hər-bir-kəsin-özünə-qarşı-diqqət-hiss-etm*
*əsi-xoşuna- gəlir.-Diqqət-həmişə-səmimi-olmalı-və-həmsöhbətdə-həqiq*
*ətə-uyğun-maraqlı-məqam-lara-əsaslanmalıdır.*

*2)-Ümumi-hər-hansı-birliyə-aidiyyəti.-İnsanların-həmişə-hər-hansı-birliyə,-cəmiy-*
*yətə---ailə,-yoldaşlar,-həmfikirlər,-kollektiv-və-s.-aid-olma-tələbatı-var.-Biz-həm*
*işə-öz- qrupumuza-aid-insanlara-daha-yaxşı-münasibət-bəsləməyə-meylliyik.-Qeyd-etm*
*ək-la-zımdır-ki,-Azərbaycan-reallığın*
*a-bu-xüsusilə-şamil-edilə-bilər.-Belə-ki,-biz-çox-zaman- hansı-regiond*
*an,-hətta-hansı-küçədən,-hansı- "məhəllədən"-olması-kimi-məqamlara- xüsusi-diqq*
*ət-yetiririk.-İdmançılar-da-çox-zaman-digər-idmançıları- "öz-adamları"-*
*hesab-edirlər.-Bu-metod-da-təbii-olmalıdır-və-əməliyyatçıdan-xüsusi-səmim*
*iliyi-tələb- edir.-Həmçinin-bu-kimi-mövzulara-təbii-yolla-gəlinməlid*
*ir.-Əgər-əməliyyatçının-hə-min-qrupa-aidiyyəti-yoxdursa-və-ya-bu-regiond*
*an,-məhəllədən-deyilsə,-mütləq-həmin- qrupun-xüsusiyyətlərini,-qeyd-olun*
*an-yerləri-yaxşı-tanımalı,-bunlarla-əlaqəsini-ciddi- əsaslandırmalıdır.-**Təcrübəyə əsaslanaraq qeyd etmək olar ki, bu kimi metodlar in-tensiv tətbiq edilir və demək olar ki, həmişə xüsusi effekt verir.***

*3)-Franklin-Ruzvelt-metodu.-Ruzvelt-həmişə-söhbətə-hazırlaşarkən-həm*
*in-şəxsin- maraqlarını,-hobbilərini-müəyyənləşdirir-və-söhbətin-predmeti-ilə-əvvəlcəd*
*ən-maraq-lanırdı.-Əməliyyat-işində-də-bu-metodun-istifadəsi-lazımi-effekt-verə-bilər.-*

*4)-Tez-tez-həmsöhbətin-adını-çəkmək,-ona-öz-adı-ilə-müraciətlər-etmək.-Adın*
*ın- çəkilməsi-emosional-müşayiətlə-və-səmimi-olmalıdır.-*

***Qeyri-verbal vasitələri də xüsusi qeyd etmək olar. Belə ki, həmsöhbətinin söylədiklərinə diqqət və maraq jestlə, sifətin mimikası ilə müşayiət olunduqda çox güclü psixoloji nəticələr verir.***

**Bunların bəzilərini sadalayaq**:

1. Vizual kontakt. Danışan şəxsə baxarkən dinləyici ilk növbədə ona olan marağını büruzə vermiş olur, ikincisi danışanın sözlərinə diqqətini cəmləmiş olur.

2. Qulaq asarkən başla müvafiq jestlərin edilməsi. Başın razılıq əlaməti olaraq

əsdirilməsi danışanın söylədiklərinə təsdiq bildirmiş olur.

3. Müxtəlif əl və bədən pozaları və jestləri. Məsələn, bədənin arxaya çəkilməsi, əllər və ayaqların üst-üstə qoyulması həmsöhbətə qarşı etinasızlıq, inamsızlıq bildirmiş olur. Əksinə, başın bir qədər irəli və aşağı aparılması ona olan diqqəti büruzə vermiş olur.

***Bu metodun müvəffəqiyyətlə tətbiqi üçün həmsöhbətə daim diqqət yetirmək, onun vacibliyini müxtəlif vasitələrlə büruzə vermək; tariflərin, komplimentlərin edilməsi ilə paralel müvafiq sifətin mimikasını almaq və jestləri etmək; eyni zamanda onun opponentləri ilə müqayisəni apararaq vacib "keyfiyyətlərini" qeyd etmək; tarifləri əsaslı və yerində etmək, həmsöhbətin psixoloji xüsusiyyətləri və durumu kimi şərtləri mütləq nəzərə almaq lazımdır.***

**Biganəliyin, etinasızlığın büruzə verilməsi.** Bu metoda əsasən informasiya təqdim edən şəxsin söylədiklərinin az əhəmiyyətli olmasını büruzə verərək onda özünüqiymətləndirmə hissləri oyatmaqla, daha vacib məlumatların verilməsinə çalışmaq. Həmsöhbətin təqdim etdiyi və bunu vacib saydığı informasiyaya etinasızlıq göstərərkən onun hissiyyatına toxunulur və o, məlumatın vacibliyini qeyd etmək üçün daha ətrafı və əlavə məlumatları təqdim edir.

**Bu metodun tətbiqində dair psixoloji əsaslar aşağıdakılardır:**

*1) İlk növbədə səmimi, yaxın münasibət yaradılmış şəxsə qarşı bu üsulun tətbiqi effekt verə bilər, əks halda onda qarşılıqlı etinasızlıq yaranar.*

*2) İnformasiyanı təqdim edən şəxsdə məlumatların bolluğu hiss olunduqda bu metod vaxtında olunmalı, həmçinin ehtiyatla edilməlidir.*

*3) Etinasızlıq göstərərkən ayrı mövzunu söhbət predmetinə çevirmək olmaz.*

*4) Təqdim edilən məlumatın az əhəmiyyətli olmasını büruzə verərkən əlavə verilən məlumatlara nisbi maraq göstərilməli və həmsöhbətə hiss etdirilməlidir.*

**Məlumatlılığı büruzə vermək.** Bu metod sualın müəyyən detalları məlum *olduqda* və əlavə məlumatların əldə edilməsi tələb olunduqda tətbiq edilir. Hətta çox az miqdarda məlum olan məlumatları məharətlə elə təqdim etmək olar ki, digər tərəfdə bu faktlar ətrafında tam məlumata malik olma hissləri yaransın və onun səmimi olması ilə nəticələnsin.

**"Saxta" (yalan) sübutların bildirilməsi.** Məlumdur ki, insanlar çox zaman özlərinin fikrən gəldiyi nəticələrə daha çox inanır, nəinki digərlərinin gəldikləri qənaətlərə. Bu səbəbdən də təcrübəli əməliyyat işçiləri obyektə birbaşa təzyiq etməyərək onun fikirlərinə dolayısıyla təsir göstərirlər. Qeyd olunan metodun əsas məğzi ondan

ibarətdir ki, əvvəlcədən hazırlanmış ideya, informasiya, guya bilmədən obyektə bildirilir ki, sonuncu bundan özü müəyyən birmənalı nəticələr çıxararaq həmsöhbətinə lazımi məlumatları təqdim etsin.

**"Sadəlövh" obrazının yaradılması.** Bu metodun əsas məqsədi əməliyyat işçisinin professionallıq baxımından naşı olması və obyektin ona nisbətən daha ağıllı təəssüratının yaranması və nəticədə həmin şəxsin ehtiyatının itirilməsidir. Təcrübədə belə hallar kifayət qədər tez-tez olur. ***Məsələn, əməliyyat kombinasiyalarının keçirilməsi zamanı şübhələndirilən şəxsə müəyyən təsirlər edilir və guya əməliyyat orqanlarının məqsədə nail olunmaması, onların konkret vəziyyətdə gücsüzlüyü büruzə verilir ki, obyektdə arxayınçılıq yaransın və o, müəyyən hərəkətlər etmiş olsun. Bu tədbirlərin keçirilməsi zamanı obyektin hərəkətlərinin daim nəzarət altında saxlanılması vacibdir.***

Yuxarıda qeyd etdiyimiz kimi, qeyd olunmuş bu üsullarda qeyri-ixtiyari şüurluluqdan istifadə edib məlumatların əldə edilməsindən çox ixtiyari şüura təsir edərək mənbəni iradəsindən asılı olmayaraq müəyyən hərəkətlər etməyə yönəltməkdir. Bu üsullarda mənbə məlumatı təqdim etmək istəmir və ya çəkinir, ehtiyat edir. Göstərilmiş psixoloji təsir onların iradəvi surətdə təqdim etmək istəmədiyi məlumatları sanki "bilmədən" verməsidir. Lakin burada sanki "bilmədən" tam dərk etmədən məlumatı təqdim etmək deyil.

## §2. Əməliyyat-axtarış orqanlarını maraqlandıran məlumatların alınmasının metodikası

Söhbət aparılan şəxsin ilkin öyrənilməsi, məlumatların söz alma ilə əldə etmə metodunun qarşısında duran əsas məsələlərdən biridir. Hüquq-mühafizə orqanları əməkdaşlarının söhbət aparmalı olduqları şəxslərin bioqrafiyası, həyat tərzi, ailə vəziyyəti, professional fəaliyyəti, əlaqələri, vərdişləri, həmçinin siyasi, dini baxışları, əqidəsinin əvvəlcədən öyrənilməsi onun psixoloji portretinin müəyyənləşdirilməsinə imkan yaradır və ilkin kontaktların yaradılmasına köməklik edir. Maraqlandıran şəxsin xüsusiyyətlərinin digər tərəfərinin də, məsələn, ünsiyyət prosesində davranış normalarının da nəzərə alınması vacibdir. Təcrübə baxımından, insanların ünsiyyət prosesindəki hərəkətləri, münasibətlərini tənzimləyən normaların nəzərə alınması ciddi surətdə informasiyaların alınmasına köməklik edə bilər. Bu normaların bəziləri insanların milli-psixo-

loji xüsusiyyətləri ilə də müəyyənləşdirilir. Bu həmçinin maraqlandıran şəxsin xarakterinin cizgiləri də ola bilər. Əməkdaşlar, həmçinin söhbət prosesində insanların hansı şəxsi keyfiyyətlərinin məlumatların alınmasına köməklik göstərəcəyini, xarakterlərinin hansı tərəfərinin isə maneçilik edəcəyini əvvəlcədən müəyyənləşdirməlidir. İnsan psixologiyası olduqca müxtəlif xüsusiyyətlərə malikdir. Bir çoxları psixoloji cəhətdən qeyri-sabit olurlar, onlar malik olduqları məlumatları saxlaya bilmirlər. Belə şəxslərlə ardıcıl, məqsədyönlü söhbətlərin aparılması zamanı onlar bir müddətdən sonra malik olduqları məlumatları təqdim edir və psixoloji yükü özlərindən atırlar. Özündən razı, şəxsi keyfiyyətləri barədə yüksək fikirdə olan şəxslərin bu kimi keyfiyyətlərindən məharətlə istifadə etmək mümkündür. Belə insanlar bəzən özlərinə diqqəti artırmaq, digər şəxs tərəfindən özü barədə yüksək fikir yaratmaq üçün fikirləşməmiş addımları ataraq, əvvəlcədən təqdim etmək niyyətində olmadıqları informasiyanı belə bildirə bilərlər. Bir çox şəxslər üçün həqiqəti söyləmək, yalan məlumat verməkdən dəfələrlə asandır. Onlar yalan məlumatlar verərkən özlərini diskomfort hiss edir və tez-tez uyğunsuz fikirlər söyləyir, bəzən isə bilmədən həqiqəti belə bildirirlər.

Həmsöhbətin intellektual və nitq qabiliyyəti, yaddaş və müşahidə bacarığını nəzərə almaq olduqca vacibdir. Bu, həmin şəxslər barədə düzgün təsəvvürə malik olmağa və onun bildirdiyi məlumatların obyektiv qiymətləndirilməsinə əsas verir. Şəxslərin ünsiyyətcillik dərəcəsini də bilmək vacibdir. Belə ki, onunla hansı istiqamətdə söhbətlərin aparılması, onun söhbət zamanı təşəbbüsü öz əlinə alması və ya passiv mövqe tutmasını əvvəlcədən bilmək söhbəti düzgün qurub, lazımi istiqamətdə aparılmasına köməklik edə bilər. Söhbət prosesində həmsöhbətin əhval-ruhiyyəsini də nəzərə almaq lazımdır. Söhbətdən əvvəlki hadisələr həmsöhbətin əhvalına və psixi vəziyyətinə, eləcə də onun həyəcanına, söhbəti başlamağa hazır olmasına, davam etdirməsinə nəzərə çarpacaq dərəcədə təsir göstərə bilər.

Şəxs barəsində son qənaətə gələrkən onun psixi xüsusiyyətlərinin qiymətləndirilməsi neytral mövqedən aparılmalı, əməliyyatçı tərəfindən şəxsi emosiyalara, yəni qabaqjadan yanlış fikirlər çıxartmaq, buna tələsməkdən yayınmaq lazımdır. Əvvəlcədən insan haqqında yanlış fikir çıxartmaq, onun bütün şəxsi keyfiyyətlərini, xarakterini, psixoloji durumunu ətrafı müəyyənləşdirmədən hər hansı qənaətə gəlmək insanı obyektiv öyrənilməsinə mane olacaq və səhv nəticələr çıxartmasına gətirib çıxaracaq. Bundan əlavə bəzən əvvəldən qapalı, maraqsız, hətta məhdud dünyagörüşünə malik kimi görünən insanların sonradan kifayət qədər xoş həmsöhbət şəxs olmaları məlum olur.

Məqsədyönlü söhbətin müvəffəqiyyətlə keçməsi üçün hüquq-mühafizə orqanları əməkdaşları da söhbətin istiqamətinin lazımi səmtə yönəldilməsi üçün kifayət qədər ümumi hazırlığa malik olmalıdır. Erudisiyalı əməliyyat işçisi müxtəlif peşələrə və maraqlara malik, sosial və yaş qrupları nümayəndələri ilə müvəffəqiyyətlə söhbətlər apara bilər. Həmsöhbətin maraq dairəsinin müəyyənləşdirilərək öyrənilməsi onunla söhbətə hazırlıqlı getməyin əsasını təşkil edir.

Məqsədəyönlü söhbətlərə psixoloji hazırlıq bir neçə komponentlərdən ibarətdir. Bunlardan biri söhbəti çətinlik çəkmədən başlamaq üçün lazımi ilkin psixoloji əhval-ruhiyyənin yaradılmasıdır.

***Artıq gərginlikdən azad olmaq, söhbətin istənilən mərhələsində istiqaməti lazımi səmtə yönəltmək məqsədilə məşhur psixoloq D.Karneqinin narahatlılığı aradan qaldırmaq üsullarını nəzərə almaq lazımdır. O, əsərlərində qeyd edir ki, əvvəlcədən görüləcək işin müvəffəqiyyətsizliyini göz önünə gətirmək, nəticələr barədə qabaqcadan narahat olmaq, səhvlər haqqında fikirləşmək lazım deyil. Uğursuzluğun nəticəsini təsəvvür etmək, onun şəxs üçün hansı arzuolunmaz hallara gətirib çıxaracağını fikirləşib bunun hələ "çıxılmaz vəziyyət olmadığını" özünə təlqin etmək vacibdir. Əməliyyat işçisi bilməlidir ki, hər bir işdə səhv ola bilər. Vacib odur ki, onlar vaxtında müəyyənləşdirilib aradan qaldırılsın.***

Psixoloji hazırlığın digər vacib məqamı gələcək söhbətin optimal xəttinin seçilməsidir. Müvəffəqiyyətlə məlumatları almaq üçün əməliyyat işçisi özünü sərbəst, inamlı, bir qədər laqeyd aparmalıdır. Əməliyyat işçisinin davranış xəttinin seçilməsi həmsöhbətinin xarakterinə uyğunluqla yanaşı, öz fərdi keyfiyyətləri, xasiyyət və temperamenti nəzərə alınmaqla seçilməlidir.

İnformasiyanın "çəkilməsinin" psixoloji hazırlığının müstəqil komponentlərindən biri də şəraitin proqnozlaşdırılmasıdır. Belə ki, həmsöhbətin əhval-ruhiyyəsinin dəyişməsi, çəkinməklik, inciklik, xoşagəlməyən emosional reaksiyaları yaranmış şəraiti çətinləşdirə bilər. Söhbətə ciddi və hərtərəfi hazırlıq vəziyyətin arzuolunmayan dəyişilməsi zamanı əməliyyat işçisinin ani reaksiya verməsi və şəraitin lazımi hala gətirilməsinə köməklik edər.

Söhbətin aparılması şəraiti onun müvəffəqiyyətlə aparılmasına ciddi təsir göstərə bilər. "Qeyri-rəsmi şərait", sakit yer, kənar faktorlardan asılıqsızlıq, vaxtın kifayət qədər olması informasiyanın əldə edilməsi istiqamətində məsələləri həll etməyə

köməklik göstərir. Məqsədyönlü söhbətlərin həmsöhbətin professional vəzifələrinin icrasından azad şəraitdə aparılması da vacib şərtlərdən biridir.

Söhbətə başlayarkən sərbəst şəraitin yaradılması lazımdır. İlkin mövzu neytral xarakterli olmalıdır. Bu da nisbidir. Bəzən geniş dünyagörüşünə malik, erudisiyalı, psixoloji cəhətdən hazırlıqlı şəxslərlə ilkin, əsas mövzudan kənar söhbətlərin aparılması onu qıcıqlandıra və əməliyyat işçisinin qeyri-səmimi, özündən razı bir şəxs olması təəssüratı yarada bilər.

İlkin kontaktlar yaradılmadan informasiyanın alınmasına səylərin göstərilməsi adətən arzulanan nəticələri vermir. Eyni zamanda ilkin kontakt zamanı söhbətin uzadılması da arzuolunmazdır. Əməliyyat işçisi söhbətin tədricən əsas mövzuya keçirilməsi anını hiss etməlidir. Lazımi məlumat ətrafında sorğu dalğavari olmalıdır. Əsas məqsəd açıqlanmadan mövzu ətrafında söhbət aparıb lazımi məlumatların əldə edilməsi əməliyyat işçisindən bacarıq tələb edir. Məlumat alındıqdan sonra söhbət tədricən neytral mövzulara yönəldilməli və bir müddət davam etdirilməlidir.

Hüquq-mühafizə orqanları əməkdaşları qarşısında duran əsas vəzifələrdən biri də məqsədyönlü söhbətlər zamanı toxunulan məsələlərdə əsas maraqlandıran məqsədləri pərdələməkdir. Belə hallarda həmsöhbətin sorğunun və söhbətin məqsədini aydınlaşdırmaq istəyi təbiidir. Sorğunun müvəffəqiyyətlə keçirilməsi əməkdaşın hərəkətlərinin şübhə doğurmaması üçün təbii aparılmasından çox asılıdır.

İnformasiyanın "çıxarılması" (əldə edilməsi) üçün psixoloji üsul və vasitələrdən istifadə edilməsi xüsusən vacibdir. Bunlar, həmçinin cinayət əməllərinin qarşısının alınması, eləcə də ilkin istintaq tədbirləri zamanı müvəffəqiyyətlə tətbiq edilə bilər. Bir çox hallarda şəxslərin cinayətkar əməlləri barədə məlumatlar məhz maraqlandıran məlumatların psixoloji üsul və vasitələrlə əldə edilir və bu əksər hallarda ilkin siqnal olur. Belə məlumatların əldə edilməsi nəticəsində cinayət əməllərində şübhəli şəxslər barədə müvafiq tədbirlərin aparılma istiqamətini müəyyənləşdirmək mümkün olur. Psixoloji üsul və vasitələrlə məlumatların əldə edilməsi cinayət əməllərinin aşkar edilməsi və qarşısının alınması üçün həyata keçirilən əməliyyat tədbirlərinin diapazonunu genişləndirmiş olur və obyektiv faktorlarla yanaşı subyektiv faktorların da istifadəsinin vacibliyini müəyyənləşdirir.

Beləliklə, psixoloji üsullarla əməliyyat marağı kəsb edən məlumatların əldə edilməsi əsasən istiqamətləndirici rol oynayır, yəni əməliyyat-axtarış tədbirlərinin daha düzgün istiqamətlərdə aparılması üçün köməklik göstərir və keyfiyyət baxımından bu fəaliyyətin dolğunluğunu tamamlamış olur.

# XIV FƏSIL

## Əməliyyat baxımından maraq doğuran şəxslərin sorğusunun psixoloji aspektləri

### § 1. Əməliyyat sorğusu, onun hüquqi, psixoloji və etik məzmunu

**Sorğu əməliyyat-axtarış tədbirləri arasında məlumatların əldə edilməsi üçün ən çox istifadə olunan əməliyyat-axtarış tədbiridir. Psixoloji baxımdan da bu əməliyyat-axtarış tədbirləri psixoloji üsulların ən çox istifadə edilənidir.**

Azərbaycan Respublikasının "ƏAF haqqında" Qanununun 10-cu maddəsinin I hissənin 1-ci bəndində əməliyyat-axtarış tədbiri kimi vətəndaşların sorğusu qeyd olunmuşdur. Bu termində bir qədər qeyri-dəqiqlik mövcuddur. Birincisi, qanunvericilikdə "vətəndaşların sorğusu" kimi göstərilsə də, Azərbaycan Respublikasında əcnəbi və vətəndaşlıq statusu olmayan şəxslər yaşayır və fəaliyyət göstərir. "ƏAF haqqında" Qanundan belə görünür ki, bu statusda şəxslərin sorğusu fərqləndirilməlidir. Lakin qanunvericilikdə bu barədə heç bir göstəriş olmadığından vətəndaşların sorğusu dedikdə bu kimi şəxslərin də sorğusunun keçirilməsi nəzərdə tutulur. Rusiya Federasiyasının "ƏAF haqqında" Qanununda isə yalnız sorğu termini göstərilmişdir. İkincisi, sorğu sözü sormaq, soruşmaq felinin isimləşmiş formasıdır və bir insanın digərindən müəyyən mövzuda məlumatın alınması kimi başa düşülür. Sorğu müxtəlif hallarda işlənə bilər, məsələn, işə götürülən hər bir şəxsin də sorğusu keçirilə bilər. Əməliyyat-axtarış fəaliyyətində tapşırıq icra edən konfidentlərin də sorğusu aparılır. Sorğu əməliyyat-axtarış tədbirinin bu kimi hərəkətlərdən fərqləndirilməsi üçün "Əməliyyat sorğusu" termininin işlədilməsi daha məqsədəuyğun hesab edilir.

**Qanunvericilikdə bilavasitə əməliyyat sorğusunun məzmunu açıqlanmasa da, hüquq ədəbiyyatında sorğu əməliyyat-axtarış fəaliyyəti qarşısında duran məsələləri həll etmək üçün əhəmiyyət kəsb edən faktiki məlumatların ona malik olan şəxslərdən xüsusi söhbət əsnasında əldə edilməsi kimi başa düşülür. Bir sözlə, bu sorğu ƏAF subyektinin (onun vəzifəli şəxsinin), konfidentlərin hər hansı əməliyyat marağı kəsb edən informasiyaya malik şəxslə həyata keçirdiyi kəşfiyyat xarakterli söhbətidir.**

**Əməliyyat sorğusu çox geniş tətbiq olunan əməliyyat-axtarış tədbiridir.** Bəzən sorğu vasitəsilə əməliyyat baxımından xüsusi əhəmiyyət kəsb edən operativ məlumatlar əldə etmək mümkün olur. Törədilmiş cinayətlər üzrə “isti izlərlə” əməliyyat-axtarışı təşkil edilərkən hadisə barədə məlumatların əldə edilməsi, onun iştirakçıları, şahidi olmuş şəxslərin dairəsinin müəyyənləşdirilməsi zamanı da ilkin sorğuların keçirilməsi olduqca vacibdir. Həyata keçirilən demək olar ki, bütün kompleks əməliyyat-axtarış tədbirlərində də əməliyyat sorğusu tətbiq edilir. Əks-kəşfiyyat tədbirlərinin keçirilməsi prosesində əməliyyat şəraitinin, xarici xüsusi xidmət orqanlarının maraq doğuran obyektlərinin müəyyənləşdirilməsi zamanı da əməliyyat sorğusundan geniş istifadə edilir.

Şəxslərin sorğusu dindirmə istintaq hərəkəti və inzibati-prosessual sorğu ilə müəyyən oxşar cəhətlərə malik olsa da, hüquqi, psixoloji və etik baxımdan ciddi surətdə onlardan fərqlənir. Hüquqi baxımdan olan fərqlər bu iki oxşar hərəkətlərin psixolojı baxımdan da fərqlənməsini müəyyənləşdirir. Dindirmə və inzibati-prosessual sorğu şəxslər üçün məcburi xarakter daşıyır və müvafiq olaraq, CPM və İXM ilə tənzimlənir. Hər bir Azərbaycan Respublikasında yaşayan şəxs istintaq orqanlarının çağırışı ilə dindirilməyə cəlb oluna bilər və o, bilə-bilə yalan ifadə verməyə və ifadə verməkdən imtinaya görə cinayət məsuliyyəti daşıyır. Hər bir şəxs dindirilərkən bu iki cəhət dindirmə istintaq hərəkətinin psixolojı xarakterinə təsir etmiş olur. Deməli, sorğu məcburilik və məsuliyyət baxımından dindirmə istintaq hərəkətindən fərqlənir. Belə ki, sorğu yalnız şəxslərin razılığı ilə aparılmalıdır və təqdim olunan məlumatlara əsasən həmin şəxslər ancaq inzibati məsuliyyətə cəlb oluna bilər.

Dindirmə istintaq prosesində dindirilən şəxslərin hansı şəxs qismində cəlb olunmalarından asılı olaraq, tətbiq olunan psixoloji üsul və vasitələrlə fərqlənir. Əməliyyat sorğusunda isə sorğusu keçirilən şəxs prosessuallıq baxımından yalnız neytral mövqedən söhbətə cəlb edilir.

Cinayət-Prosessual Məcəlləsində dindirmənin hüquqi baxımdan aparılma qaydası tam həcmdə göstərilmişdir. Əməliyyat sorğusunun isə kimlərə qarşı keçirilə bilməsi, kimlərin əməliyyat sorğusuna cəlb edilə bilməməsi, əməliyyat sorğusunun hansı formada və üsullarla keçirilməsi, onun nəticələrinin rəsmiləşdirilməsi, hüquqi qüvvəyə malik olması və s. məsələlər barədə qanunvericilikdə heç bir göstəriş yoxdur.

Dindirmə istintaq hərəkətindən fərqli olaraq, kimlərə qarşı sorğunun keçirilməsinə yol verilməməsi də qanunvericilikdə müəyyən edilməmişdir. Hüquq ədəbiyyatında sorğunun kimlərə qarşı keçirilməsinə yol verilməməsi halları kimi dindirmə istintaq hərəkətlərinə uyğun olaraq azyaşlı olduqlarına, fiziki və psixi qüsurlarına görə hadisəni düzgün qavraya və ifadə edə bilməyən şəxslər, müdafiəçi qismində hüquqi yardım

göstərməsi ilə əlaqədar məlumatlara malik vəkillər, hüquq pozuntusuna yol verdiyinə görə məsuliyyət daşıyan şəxslərin həyat yoldaşları və yaxın qohumları qeyd olunur. Lakin əməliyyat sorğusu dindirmədən aşağıdakı amillərdə nəzərə alınmaqla da də fərqlənməlidir. Əməliyyat yolu ilə əldə olunan məlumatlar sübut kimi qiymətləndirilmir. Əksər hallarda belə informasiyalar əməliyyat tədbirlərinin hansı istiqamətdə aparılmasını müəyyənləşdirir, əməliyyat şəraitinin düzgün qiymətləndirilməsini təmin etmiş olur, həmçinin cinayət mühakimə icraatında istifadə edilir. Əməliyyat sorğusunun subyektləri həm əməliyyat işçiləri, həm də konfident qismində cəlb olunmuş şəxslərdir. Əməliyyat sorğusu zamanı əldə edilən məlumatlar aparılan subyektlərdən asılı olmayaraq qeyri-prosessual məlumatlardır. Digər tərəfdən sorğu zamanı əldə edilmiş məlumatların subyektlərdən və onların özlərini təqdim etmələrindən asılı olaraq rəsmi və qeyri-rəsmi kimi təsnifatını apara bilərik. Əgər konfident əməliyyat işçisinin tapşırığı ilə müəyyən əfsanə ilə cinayətdə şübhəli şəxsin yaxın qohumlarından söhbət əsnasında əməliyyat baxımından maraq kəsb edən məlumatları əldə etmişsə, aydındır ki, belə məlumatlar qeyri-rəsmidir, yəni qeyri-prosessualdır, sübut kimi (CPM-in 124-cü mad.) qəbul edilə bilməz. Deməli, buna görə də qeyri-qanuni hesab edilə bilməz və bu hal sual doğurmur, daha dəqiq desək qanunvericiliyə müvafiq olaraq həyata keçirilir. Digər tərəfdən əməliyyat işçisi tərəfindən rəsmi qaydada şəxslərin sorğusunu keçirirsə bu zaman alınan məlumatlar da rəsmi məlumatlar olacaqdır. Əgər sorğu şübhəli şəxsin həyat yoldaşı ilə aparılmışdırsa, bu zaman əldə olunan məlumatlar necə qiymətləndirilməlidir. Belə məlumatlara sübut kimi baxmaq olmaz və yalnız əməliyyat tədbirlərinin aparılması istiqamətinə təsir edən informasiya kimi qəbul edilir. Bu səbəbdən də nə üçün sorğu yuxarıda qeyd olunan kateqoriyalı şəxslərə qarşı aparılmamalıdır.

**Deməli, qeyd olunanlardan belə nəticə çıxartmaq olar ki, hüquqi baxımdan sorğu bütün şəxslərə qarşı keçirilə bilər, lakin bu mütləq könüllü xarakter daşımalıdır.**

**Əməliyyat sorğusu etik baxımdan da mənəvi-əxlaqi tələblərə müvafiq olaraq aparılmalıdır. Sorğu aktiv aparılarkən əməliyat işçisi obyektiv və diqqətli olmalı, emosiyalara, çılğınlığa yol verməməli, yüksək tonda danışmamalı, təhqiredici ifadələr işlətməməlidir. O, özünü təmkinli aparmalı, nitqi səlis, konkret, qısa olmalıdır. Mənəvi baxımdan sorğu yalana, hədəyə və şantaja əsaslanmamalı, fiziki və psixi təzyiqlərə də yol verilməməlidir. Sorğusu keçirilən şəxsin şərəf və ləyaqətinə toxunulmamalı, yalana, amoral hərəkətlərə məcbur edilməməli, dini hisslərdən, mənəvi dəyərlərindən, xarakterindəki zəif cəhətlərinin qeyri-insani istifadə edilməsinə yol verilməməlidir.**

## §2. Əməliyyat sorğusunun psixoloji və taktiki üsulları

Əməliyyat sorğusu onu keçirən subyektlərdən və aparılma üsulundan asılı olaraq fərqləndirilir. Sorğu əməliyyat işçisi və onun tapşırığı ilə konfidentlər tərəfindən aparılır. Eyni zamanda sorğu rəsmi (yəni aşkar) və qeyri-rəsmi (qeyri-aşkar) formada keçirilir. Hər bir hal üçün sorğunun psixoloji baxımdan öz spesifik xüsusiyyətləri mövcuddur. Digər tərəfdən aydındır ki, konfidentlər tərəfindən sorğu həmişə qeyri-aşkar formada keçirilməlidir. Subyektlərdən asılı olaraq keçirilən sorğu tədbirinin xüsusiyyətlərini nəzərdən keçirsək, qeyri-aşkar və aşkar sorğuların da xüsusiyyətlərini nəzərdən keçirmiş olarıq.

**1. Əməliyyat işçisi tərəfindən keçirilən sorğular.**- Əməliyyat işçisi yaranmış əməliyyat zərurəti ilə əlaqədar sorğunu rəsmi və ya qeyri-rəsmi formada keçirə bilər.

**a) Rəsmi sorğular.** Rəsmi sorğu yalnız əməliyyat işçisi tərəfindən və özünü təqdim etməklə aparılır. Sorğusu keçirilən hər bir şəxs onunla söhbət edənin dövlətin hüquq-mühafizə orqanlarının təmsilçisi kimi çıxış edən əməliyyat işçisi olduğunu dərk edir və ona anoloji münasibət bəsləyir. Psixoloji baxımdan qeyri-rəsmi sorğular rəsmi sorğulardan bu xüsusiyyətinə görə fərqlənir.

Sorğu həm əvvəlcədən məlum olan şəxslə, həm də məlum olmayan şəxslə keçirilə bilər. Məsələn, əməliyyat baxımından əhəmiyyət kəsb edən hər hansı bir şəxs müəyyənləşərsə, onun barəsində şəxsiyyəti, yaşayış və iş yeri və s. kimi məlumatları əvvəlcədən müəyyənləşdirmək mümkündür. Digər tərəfdən əgər hadisə yerinə gəlmiş əməliyyat işçisi hadisə barədə məlumat əldə etmək zərurəti yarandıqda ətrafda olan, yaşayan şəxslərlə söhbət etmək məcburiyyətində olur. Bu zaman isə çox hallarda əvvəlcədən şəxsiyyəti məlum olmayan şəxslərlə sorğunun keçirilməsi zərurəti yaranır. Qeyd olunanların sorğu keçirilməsi üçün psixoloji baxımdan çox əhəmiyyəti var. Əgər sorğusu keçirilməli şəxs barədə əvvəlcədən kifayət qədər səciyyələndirici məlumatlar olarsa, onunla söhbətin necə aparılmasını qabaqcadan planlaşdırmaq mümkündür. Əks halda isə əməliyyat işçisi tərəfindən sorğunun gedişatından asılı olaraq sorğusu keçirilən şəxsin psixoloji xüsusiyyətlərini müəyyənləşdirir və müvafiq psixoloji üsulları tətbiq edir.

trial sorğular dindirmə istintaq hərəkətini xatırladır. Yuxarıda qeyd etdiyimiz kimi, psixoloji baxımdan rəsmi sorğularla dindirməni fərqləndirən əsas cəhət dindirmə zamanı yalan ifadəyə görə şəxsin cinayət məsuliyyəti daşımasıdır. Məsuliyyəti

dərk edən dindirilən şəxs yalan ifadə verməkdə maraqlı olsa belə, çox zaman bundan çəkinir. Lakin sorğu zamanı onun yalnız inzibati məsuliyyət daşıması xeyli dərəcədə yüngülləşdirilmiş olur. Lakin dindirmədən sorğunu fərqləndirən əsas cəhətin biri də rəsmi sorğuların çox halda qəfətən keçirilməsidir. Yəni istintaqa çağırılmış şəxs əvvəlcədən xəbərdar edilir, əks halda isə o, vəkilin iştirakını tələb edə bilər və onun davranışını əvvəlcədən planlaşdırma vaxtı olur. Qəfətən keçirilən sorğularda isə sorğusu keçirilən şəxsin əvvəlcədən hazırlaşma vaxtı olmur. Gözlənilməzlik faktoru çox zaman məlumat təqdim edən şəxsin səhv etməsinə imkan yaradır. Eyni zamanda dindirmə istintaq hərəkətindən fərqli olaraq sorğu könüllü olmalıdır. Yəni sorğusu keçirilməli olan şəxs cavab verməkdən imtina edə bilər.

Rəsmi sorğular zamanı tətbiq edilən psixoloji üsullar dindirmə istintaq hərəkəti prosesində tətbiq olunan psixoloji üsullarla demək olar ki, eynilik təşkil edir. Dindirmə taktikası zamanı nəzərə alınan və istifadə edilən psixoloji qanunauyğunluqlar hüquq psixologiyasında kifayət qədər araşdırılmışdır. Bu qanunauyğunluqların bəzilərini xüsusi qeyd etmək lazımdır ki, sorğu prosesində də müvəffəqiyyətlə istifadə edilir.

Qeyd etmək lazımdır ki, informasiyaya malik olma dedikdə müəyyən hadisələri, faktları şüurunda canlandırma və ifadə etmə başa düşülür. Gerçəkliklərin insan şüurunda əksi şəxsiyyətin müəyyən modelləşdirici mexanizmləri ilə - milli-mədəni, yaş faktorları, peşəkar və həyati təcrübəsi, ümummədəni səviyyəsi ilə əlaqəlidir. Dindirmə prosesini öyrənən alimələrin bir qismi ifadələrin formalaşması və onun mərhələləri terminindən istifadə edirlər. Yəni dindirilən şəxs hər hansı məlumatı verərkən ilk növbədə o, reallıqları qəbul edir, saxlayır və ifadə edir. Digər alimlər isə bu prosesə başqa cür yanaşırlar. Onların fikrincə, qavrama, yadda saxlama, ifadə etmə sxemi tam deyil və arada bir çox xüsusiyyətlər itir. İnsan robot deyil ki, görsün, yadda saxlasın və ifadə etsin proqramı ilə işləsin. İnsanların yaddaşından alınan materiallar ancaq həmin an onun qarşısına qoyulmuş vəzifədən asılı olaraq aktuallaşır və rekonstruksiya olunur. İnsan nəyi görürsə və eşidirsə ilk növbədə qiymətləndirir, interpritasiya edir, əsasən şəxsi dəyərlər sistemində fəaliyyəti üçün əhəmiyyət kəsb edənlərə diqqət yetirir. Qavrama insanın təcrübəsi, fəaliyyətinin məqsədi və məzmunu ilə əlaqəlidir. Fəaliyyətin məqsədi qavramanın sahəsini müəyyən edir: bəzi obyektlər vacib mənaya malik olur, digərləri isə fəaliyyət fonuna çevrilir.

İnsanlar məlumatları şüurlu, yəni dərk edərək və şüuraltı, yəni dərk etmədən qavrayır. Əksər hallarda xarici təsir olmadan onlar yalnış dərk etdikləri məlumatla-

rı təqdim edir. Lakin nəzərə almaq lazımdır ki, insanların dərk etdikləri məlumatlar şüuraltı formalaşmış şəxsi psixi xüsusiyyətlərin təsiri altındadır.

Yuxarıda göstərilənlərlə əlaqədar qeyd etmək olar ki, sorğu prosesində də anoloji psixoloji faktlar nəzərə alınmalıdır. Deməli, sorğunun məzmunu sorğusu keçirilən şəxsin malik olduğu məlumatları canlandırıb ifadə etməsidir. Əməliyyat işçisindən müxtəlif vasitələrlə bu məlumatların tam, dolğun, ətrafı əldə edilməsini təmin etmək tələb olunur, aydındır ki, qanun və etik normalar çərçivəsində. Başqa sözlə desək, əməliyyat işçisinin sorğu zamanı qarşısında duran vəzifəsi – subyektiv təsvirin ilkin obyektiv əsasını müəyyənləşdirməkdir. Qarşıya qoyulmuş vəzifələrə görə sorğunu dindirmədən fərqləndirən cəhətlərdən biri də dindirmədə baş vermiş hadisə barədə şahidin gördüklərini, eşitdiklərini, hiss etdiklərini sübut kimi reallaşdırmaq, sorğuda isə əldə ediləcək məlumatlarla keçirilən əməliyyat tədbirləri zamanı qarşıda duran məsələləri həll etməkdir. Deməli, dindirmədə konkret faktlar ətrafında söhbət aparılırsa, sorğuda daha ümumi, gələcəkdə əhəmiyyət kəsb edə biləcək faktlar barədə sorğu keçirilir. Qeyd etmək lazımdır ki, yalnız inzibati hüquq pozuntusu zamanı şahidlərin sorğusu keçirilərkən dindirmə ilə anoloji məsələləri həll etmək lazım gəlir.

**Müəyyən məlumatları xatırlamaq üçün əməliyyat işçisi tərəfindən mnemonik (latıncadan tərcüməsi yada salma) köməkliklərin göstərilməsi vacibdir.** Sorğusu keçirilən şəxsin bəzi faktları xatırlaması üçün ona əməliyyat işçisi tərəfindən edilən köməkliklər mürəkkəb xarakter daşıyır və psixolojı hazırlıq tələb edir. Bu təsirin məzmunu məna və fəza-vaxt əlaqələrinin assosiativ canlandırılmasıdır.

**Mnemonik (mnemik) köməkliyin əsas üsulları quruluş-funksional məcmu ilə hadisələrin oxşar, əlaqəli, kontrast, məntiqi assosiativ canlandırılmasına əsaslanır. Yada salmanın üç növü fərqləndirilir:**

1) avtomatik - yadda yaxşı qalanların dərhal xatırlanması;

2) konativ - yadasalma üçün gərginliyin, səylərin tələb olunması;

3) refeksiv - yadasalma üçün dərin fikirləşmə tələb olunur.

Avtomatik yadasalmada avtomatik səhvlər də mümkündür. Bunun qarşısını almaq üçün sorğusu keçirilən şəxsin sualları diqqətlə dinləməsi, dərhal yox, bir qədər fikirləşib cavab verməsini tələb etmək lazımdır.

**Yaddaşın mobilizasiyası üçün aşağıdakı üsulları tətbiq etmək olar.** Birincisi, malik olduğu informasiyaların sərbəst danışılması, müxtəlif mərhələlərdə təkrarlanması, yadasalma çətinləşirsə və ya güclü gərginlik tələb edirsə (paradoksal faza) mü-

vəqqəti istirahətin verilməsi və s. İkincisi, yadasalma üçün oxşar halların gətirilməsi, əyani əşyaların göstərilməsi. Üçüncüsü, hadisələrin dərk edilərək yada salınması. Bir neçə üsulu da qeyd etmək olar ki, əsasən dindirmədə istifadə olunur.

**Mnemik köməkliyin göstərilməsi zamanı sorğusu keçirilən şəxsin yaddaşının tipini - obrazlılıq, məna assosiyası qabiliyyətliyi, sensor-perseptiv sisteminin fərdi xüsusiyyətliliyini nəzərə almaq lazımdır. Bəzi insanlarda görmə yaddaşı, bəzilərində eşitmə yaddaşı və s. güclü ola bilər. Fərdin psixikasının yaş xüsusiyyətlərinin də nəzərə alınması zəruridir.**

**b) Qeyri-rəsmi (qeyri-aşkar) sorğular.** Qeyri-rəsmi sorğular əməliyyat işçisi və ya onun tapşırıqları əsasında konfident tərəfindən qeyri-aşkar formada keçirilən sorğulardır. Əvvəlcə əməliyyat işçisi tərəfindən keçirilən qeyri-aşkar sorğuları nəzərdən keçirək.

Qeyri-aşkar sorğular o zaman keçirilir ki, müxtəlif səbəblərdən aşkar sorğuların keçirilməsi zamanı qarşıya qoyulan məsələləri, yəni maraqlandıran məlumatları əldə etmək mümkün olmasın və ya nəticələr baxımından məqsədəuyğun hesab edilməsin. Belə ki, aşkar sorğular zamanı barəsində əməliyyat tədbirləri keçirilən şəxslərin duyuq düşməsi və ya aşkarlanma faktları mümkündür.

Qeyri-aşkar sorğuların keçirilməsi zamanı görüləcək tədbirlər, aparılacaq söhbətlərin əvvəlcədən planlaşdırılmalı və müvafiq əfsanələrin hazırlanması mühüm şərtlərdəndir. Bu zaman iki hal mümkündür - sorğusu keçiriləcək şəxs əvvəlcədən məlumdur və ya əksinə. Birinci halda həmin şəxsin psixoloji xüsusiyyətləri, xassələri, fəaliyyət istiqamətləri, peşəsi, maraqları əvvəlcədən müəyyənləşdirilməli və onunla davranış xətti və söhbətin aparılmasının əfsanəsi seçilməlidir.

**Əfsanə seçilməsi və onun tətbiqi olduqca mürəkkəb prosesdir. Əfsanələr aşağıdakı tələblərə cavab verməlidir:**

*—Reallığa-yaxın-olmalıdır;*

*—Yoxlanılması-qeyri-mümkün-olmalı-və-ya-bu-zaman-təsdiqini-tapmalıd ır; —əfsanə-münasibətlərin-yaradılmasına-istiqamət-verməlidir; trialçının-söhbətin-düzgün-istiqamətdə-aparılmasına-şərait-yaratmalıdır; –*

*-əfsanə-şübhə-doğurmamalıdır;*

*—Sorğusu-keçiriləcək-şəxsin-dünyagörüşü,-məlum atlılıq-səviyyəsi,-xüsusilə-psi-xoloji-xüsusiyyətləri-nəzərə-alınmaqla-seçilməlid ir-və-s.*

**Əfsanənin düzgün seçilməsinə aid təcrübədən aşağıdakı misalı göstərmək olar:**

**Külli miqdarda narkotik maddələrin respublikaya gətirilməsi, hazırlanması və satışı ilə məşğul olmaqda təqsirli bilinməsi ilə əlaqədar axtarışda olan şəxsin yaxın əlaqəsi barədə ilkin məlumatlar daxil olmuş və onun Bakı şəhərində iki girişli binaların birində yaşaması müəyyənləşdirilmiş, lakin onun şəxsiyyətini müəyyən edən göstəricilərin (anket məlumatlarının) məlum olmadığından onun şəxsiyyətini müəyyən etmək mümkün olmamışdır. İlkin məlumatlara əsasən, həmin şəxs Əfqanıstan və İran vətəndaşları ilə əlaqə saxlayır. Binada yaşayan sakinlərlə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri (sorğu və s.) nəticəsində ümumiyyətlə burada belə bir şəxsin yaşaması , həmçinin İran və Əfqanıstan vətəndaşları ilə hər hansı əlaqələrə malik sakinlərin olması müəyyənləşdirilməmişdir. Həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin məxfi saxlanılması məqsədilə bina sakinləri arasında qeyri-rəsmi sorğuların keçirilməsi qərara alınmışdır. İlkin araşdırmalar zamanı məlum olmuşdur ki, binanın birinci mərtəbəsində yaşayan vətəndaş "M" əksər vaxtını bina ətrafında həyətyani sahəsində keçirir və sakinləri yaxından tanıyır. Onun barəsində əldə edilmiş səciyyələndirici məlumatlara əsasən vətəndaş "M" psixoloji cəhətdən qeyri-sabit, yəni əsəbi, tez özündən çıxan, xolerik temperamentə malik bir şəxsdir və hüquq-mühafizə orqanlarına mənfi münasibət bəsləyir. Həmçinin o, bina ətrafında su və kanalizasiya borularının təmiri ilə əlaqədar aparılan qazıntı və təmir işlərinə narazılığını bildirərək dəfələrlə müvafiq orqanlara şikayət məktubu göndərmişdir.**

**Əməliyyat işçisi həmin şəxsin həyətyani sahədə olmasını nəzərə alıb, onun yaxınlığında qazıntı yerlərindən keçərkən qəsdən yıxılır və geyimi tozlanır. O, həmin şəxsə yaxınlaşıb onun həyətyani sahəsində yerləşən su kranından istifadə etməyi xahiş edir. Geyimi təmizləyərkən əməliyyat işçisi vətəndaş M. ilə söhbət edərək belə xaotik qazıntıların aparlmasına qəti etirazını bildirir və bu barədə müvafiq təşkilatlara müraciət etməyin zəruriliyni vurğulayır. Bu mövzuda aparılan söhbət zamanı vətəndaş "M" ilə ilkin münasibətlər yaradılır. Daha sonra əməliyyat işçisi həmin binanı göstərən vətəndaş "M"-ə yaxın tanışının burada yaşadığını bildirmiş, onun İran və Əfqanıstan vətəndaşları ilə işgüzar əlaqələrinin olduğunu, iki il əvvəl həmin şəxsin mənzilinə baş çəkdiyini, lakin adını və ya-**

**şadığı mənzili xatırlamadığını qeyd etmişdir. Bina sakini burada belə bir şəxsin yaşamadığını söyləmiş, lakin bir ilə yaxın bundan öncə binanın ikinci mərtəbəsində yaşayan 30-35 yaşlı "H" adlı şəxsin binanın yanında dayanmış Mersedes markalı avtomaşında fars dilində danışan şəxslərlə bir neçə dəqiqə ünsiyyətdə olmasının şahidi olduğunu bildirmişdir.**

**Həmin şəxs əməliyyat tədqiqinə götürülmüş və axtarışda olan şəxslə əlaqəsinin olması müəyyənləşdirilmişdir.**

**Misaldan göründüyü kimi, bu qeyri-rəsmi sorğu iki əfsanə ilə müşayiət olunmuşdur. Birincisi, vətəndaş "M"-lə ümumi maraqlarla psixolojı kontaktlar yaradılmış, ikincisi onunla etibarlı münasibətlər yaradılaraq əlavə əfsanə tətbiq edilmişdir. Sorğunun keçirilməsi prosesi təbii, şübhə doğurmayan əfsanələrin tətbiqi ilə aparıldığından müsbət nəticə vermişdir.**

*Əfsanələrin seçilməsi və tətbiqi psixoloji qanunauyğunluqlar nəzərə alınaraq aparılmalıdır. Həmçinin əfsanələr psixoloji üsulların tətbiqinə şərait yaratmalıdır.*

Qeyd etmək lazımdır ki, bəzən rəsmi sorğular zamanı da maraq obyektinin açıqlanmaması məqsədilə müvafiq əfsanələr tətbiq edilir.

**Konfidentlər tərəfindən keçirilən sorğular.** Konfidentlər sorğunu əməliyyat işçisinin tapşırığı əsasında ciddi davranış xətti ilə, müvafiq əfsanə və bəhanələrlə keçirə bilər. Ümumiyyətlə, konfidentlərin keçirdikləri sorğular ümumi aparılan söhbət prosesində şübhə doğurmadan maraqlandıran məlumatların əldə edilməsinə yönəlir.

***Konfidentlərin həyata keçirdikləri sorğular zamanı aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır:***

*— Sorğu məqsədli, əvvəlcədən hazırlanmış qaydalara uyğun olaraq keçirilməlidir;*

*— Söhbətin başlanılması və müvafiq istiqamətdə davam etdirilməsi ciddi pərdələnməli və şübhə doğurmamalıdır;*

*— Maraqlandıran məlumatlar ətrafında söhbətin istiqamətləndirilməsi təbii olmalı və yaxşı olardı ki, söhbət elə qurulsun ki, sorğusu keçirilən şəxsin özü lazımi mövzuya toxunsun;*

*— Söhbətdən çıxış xətti işlənilib hazırlanmalıdır;*

*— Sorğusu keçirilən şəxsin psixoloji xüsusiyyətləri öyrənilməli və davranış xəttinin seçilməsində nəzərə alınmalıdır.*

Konfidentlər tərəfindən həyata keçirilən sorğuların əsas şərti konfidentlərin aşkarlanmamasıdır. Ona görə də vacib məqamlardan biri sorğusu keçirilən şəxslə konfidentin görüşünün təşkil edilməsidir. Əgər həmin şəxs konfidentlə mütəmadi görüşürsə, məsələn bir yerdə işləyirlər və ya qonşuluqda yaşayırlar, onda görüşün keçirilməsi üçün bəhanə və əfsanələrin seçilməsi asandır. Digər tərəfdən əgər onlar nadir hallarda görüşürlər, hətta bir-birilərini tanımırlarsa, bu zaman müvafiq bəhanə və əfsanələrin seçilməsinə xüsusi diqqət yetirilməli və psixoloji məqamlar mütləq nəzərə alınmalıdır. ***Digər tərəfdən ola bilsin ki, həmin şəxs sorğu mövzusu barədə əvvəlcədən məlumatlara malik olduğunu dərk edir və bu zaman onunla söhbət prosesi zamanı ehtiyatsız hərəkət aşkarlanmaya gətirib çıxara bilər. Əgər konfidentin aşkarlanma ehtimalı yüksəkdirsə, sorğunun keçirilməsinə yol verilməməlidir və mütləq ciddi pərdələnmə tətbiq edilməlidir.***

## § 3. Sorğunun mərhələləri və onların psixoloji xüsusiyyətləri

Sorğunun keçirilməsi mərhələləri bir-birindən psixoloji xüsusiyyətlərinə, keçirilmə qaydaları və üsullarına görə fərqlənən hissələridir.

**Sorğu əməliyyat-axtarış tədbirinin keçirilmə mərhələlərini şərti olaraq üç mərhələyə ayırmaq olar:**

– sorğunun keçirilməsinə hazırlıq mərhələsi;

– sorğunun keçirilmə mərhələsi;

– sorğunun nəticələrinin qeyd edilməsi və əməliyyat-axtarış fəaliyyətində, ibtidai istintaq və təhqiqat prosesində nəzərə alınması (istifadə edilməsi, leqallaşdırılması) mərhələsi.

**Sorğunun keçirilməsinə hazırlıq mərhələsi.** İstər rəsmi, istərsə də qeyri-rəsmi sorğular zamanı ilk növbədə sorğunun məqsədi və həll edilməli olan məsələlər dairəsi müəyyənləşdirilməli, psixoloji baxımdan effektliliyinə təsir edə biləcək məqamlar seçilməlidir. Əməliyyat işçisi həll edilməli olan məsələlərə uyğun sorğunun keçirilməsi növünü seçməlidir (yəni əməliyyat işçisi tərəfindən rəsmi, qeyri-rəsmi və ya konfident tərəfindən).

Əməliyyat işçisi tərəfindən sorğusu keçirilən şəxsin sosial statusu, sosial fəaliyyəti, sosial əhəmiyyətli şəxsi keyfiyyətləri, psixolojı xarakteristikasının öyrənilməsi vacibdir. Lakin bunların öyrənilməsi heç də həmişə mümkün olmur. Ciddi problemlərin həll edilməsi zərurəti yaranarsa, digər əməliyyat-axtarış tədbirləri ilə şəxs barədə bu kimi məlumatları əldə etmək mümkündür.

Şəxs barədə qeyd olunan səciyyələndirici məlumatların əldə edilməsi onunla söhbət xəttinin, ilkin münasibətlərin yaradılması və ya arzuolunmaz şərait alındıqda tətbiq ediləcək psixoloji təsir üsullarının seçilməsinə imkan verəcək. Lakin şəxsin sorğu prosesində özünü necə aparmasını əvvəlcədən müəyyənləşdirmək heç də həmişə mümkün olmur. İnsan psixologiyası barədə son illərdə aparılan çox saylı araşdırmalar, təcrübələr nəticəsində belə təsəvvür yaranır ki, keyfiyyət və kəmiyyət baxımından elə səviyyəyə gəlib çatmışıq ki, insanların hansı şəraitdə özünü necə aparmasını dəqiqliklə proqnozlaşdırmaq mümkündür. Lakin çoxlu sayda elmi faktlar onu göstərir ki, eyni şəxsin davranışının bir şəraitdəki statistik ölçüləri digər oxşar şəraitdəki davranış ölçülərindən kəskin fərqlənir. Yəni şəxs barədə nə qədər səciyyələndirici məlumatlar olsa da, onun sorğu prosesində özünü necə aparmasını müəyyənləşdirmək mümkün deyil. Lakin onun müəyyən psixoloji xüsusiyyətlərini bilərək psixoloji təsir üsulları vasitəsilə arzuolunan davranışı təmin etmək olar.

**Sorğunun keçirilmə mərhələsi.**

***Sorğu prosesi - söhbət apararaq əməliyyat baxımından əhəmiyyət kəsb edən məlumatların əldə edilməsidir.*** Yəni sorğunun mahiyyətini söhbət prosesi təşkil edir. **Sorğu tədbirinin söhbət mərhələsini də üç hissəyə ayırmaq olar:**

—*ilkin-psixoloji-kontaktların-yaradılması;*

—*-əsas-mövzu-ətrafında-aparılan-söhbət-mərhələsi;-*

—*-söhbətin-yekunlaşdırılması-mərhələsi.*

Uğurlu psixoloji kontaktların yaradılması sorğunu müvəffəqiyyətlə keçirməyə baza yaratmış olur. Bəzən psixoloji kontaktlar yaradılma mərhələsində belə lazımi məlumatları əldə etmək mümkün olur. *Psixoloji-kontaktların-yaradılması-şəxsin-dünyagörüşü,-maraqları,-hobbisi,-fəaliyyət-istiqamətləri,-peşəsi,-şəxsi-keyfiyyətləri,-temperamenti,-əlaqələri-nəzərə-alınmaqla-aparılmalıdır.* Bu mərhələdə söhbətlər neytral mövqedə aparılmalı, şəxsin söhbətə münasibəti və həvəsi, əməliyyat işçisinə qarşı yaranan münasibəti, eləcə də onun psixoloji durumu və xüsusiyyətləri öyrənilməlidir. Bu qısa müddətdə sorğusu keçirilən şəxsin psixoloji xüsusiyyətlərini müəyyənləş-dirmək əməliyyat işçisindən həmişə məharət, psixoloji hazırlıq, bəzən isə intuisiya tələb edir. ***Deməli, psixolojı kontakt - söhbət aparılmalı olan şəxslə ilkin tanışlıq, qarşılıqlı qiymətləndirmə, ümumi maraqların müəyyənləşdirilməsi, həmsöhbətin psixoloji xüsusiyyətlərinə "köklənmə"dir.***

Psixoloji kontaktlar yaradılarkən obyektin fərdi-psixoloji xüsusiyyətləri, maraq dairəsi, psixolojı və sosial tipi, davranışının motivasiyası kimi psixoloji faktorlar nəzərə alınmalıdır.

Ptrialoji kontaktlar yaradılarkən subyektin ilkin fikir formalaşdıran xarici görünüşü, ekspressiv reaksiyaları (mimikası, jestləri və s.), danışıq tərzi, nitqi, lazımi diqqətin yetirilməsi, əks tərəfdə simpatiya və etibarın yaradılması kimi psixoloji xüsusiyyətlərini nəzərə almaq vacibdir.

***Psixoloji kontaktların yaradılmasına aid təcrübədə olan aşağıdakı misalı gətirmək olar. Axtarışda olan şəxsin yaxın əlaqələrindən biri müəyyənləşdirilmiş və onunla sorğunun keçirilməsi qərara alınmışdır. İlkin öyrənilmə prosesi zamanı onun qapalı, melanxolik temperamentli, söhbətə az meylli, lakin uzun müddət rəssamlıqla məşğul olması və avanqard cərəyanın pərəstişkarı olması məlum olmuşdur. Onunla sorğu keçirməli olan əməliyyat işçisi iki gün ərzində avanqard cərəyanı üzrə rəssamlıq və rəssamlar barədə müxtəlif ədəbiyyatlarla tanış olur, bu sahədə mütəxəssislə söhbət aparıb lazımi məlumatlar əldə edir.***

***Qeyd olunan rəssamla psixoloji kontakt yaradılması prosesində əməliyyat işçisi onun mənzilində olan rəsm nümunələrini görüb, özünün də avanqard cərəyanın pərəstişkarı olduğunu bildirir. Bu mövzu ətrafında aparılan bir saatdan artıq söhbətlər zamanı əməliyyat işçisi ilə rəssam arasında çox səmimi, mehriban münasibətlər yaranır. Bundan sonra əsas mövzu ətrafında söhbət aparılır və əməliyyat baxımından çox əhəmiyyətli məlumatlar əldə edilir. Misaldan göründüyü kimi, qapalı həyat tərzi keçirən rəssam əməliyyat işçisinin avanqard stilə olan marağını gördükdə sanki onu eyni məsləkdaş, həmfikir kimi qəbul etmiş, ona inamı artmış və nəticədə onun maraqlarından istifadə edilib yaradılan psixoloji kontakt müsbət nəticə vermişdir.***

Rəsmi sorğular zamanı məlumatların əldə edilməsi sorğusu keçirilən şəxslə kontaktların yaradılmasının mürəkkəbliyi ilə əlaqədar çətinləşə bilər. **Bu zaman aşağıdakı üsullardan istifadə etmək lazımdır:**

– sorğusu keçirilən şəxsə diqqət, hörmət, ehtiyatlı münasibətlərin göstərilməsi, onlarla səmimi, sakit, müvazinətli davranma;

– sorğusu keçirilən şəxsin fərdi keyfiyyətlərini, xarakterini, temperamentini, diqqətliliyini, müşahidə qabiliyyətini, intellektini, mənəvi keyfiyyətlərini müəyyənləşdirmək məqsədilə ilkin neytral söhbətlərin aparılması;

– açıq, səmimi söhbətlərin aparılması, vəziyyətin düzgün izahı;

– şəxsin sorğuya cəlb olunmasından yayınma səbəblərini, motivini müəyyənləşdirmək və aradan qaldırılmasını təşkil etmək;

– sorğusu keçirilənin şəxsi keyfiyyətlərində müsbət halları dəqiqləşdirib, onlardan istifadə etmək;

– əməllərində olan hüquq pozuntusuna görə məsuliyyətin dərəcəsini, həmçinin təqsirin könüllü etiraf edilməsi halında yüngülləşdirici halları izah etmək;

– mənəvi dəyərləri, hüquq-mühafizə orqanlarının apardığı fəaliyyətin əhali, cəmiyyət üçün əhəmiyyətliliyini vurğulamaq və s.

Söhbətin ikinci fazası maraqlandıran mövzu ətrafında danışıqların aparılmasıdır. Psixoloji kontaktlar yaradıldıqdan sonra əsas mövzuda söhbətə keçid çətin məqamlardandır. Rəsmi sorğular zamanı əsas mövzu ətrafına keçid tədricən aparılır və ikinci, üçüncü dərəcəli məqamlara toxunulur. Bu zaman sorğusu keçirilən şəxsin həmin mövzuya münasibəti müəyyənləşdirilir. Burada bir neçə hal ola bilər. Birincisi, həmin şəxs həvəslə mövzu ətrafında söhbətə qoşulur və lazımi məlumatları təqdim edir. Belə halda əsas məqamlara toxunmaq və lazımi məlumatları əldə etmək çətinlik törətmir. İkincisi, şəxs söhbətə ehtiyatla qoşulur və məlumatları ya təqdim etməkdən yayınmağa çalışır, ya da bildiklərini axıra qədər təqdim etmir. Belə halda psixoloji təsir vasitə və üsullarından istifadə edilməlidir. İlk növbədə məlumatların təqdim edilməsinə mane ola bilən məqamları müəyyənləşdirmək tələb olunur. Əlavə yanakı suallarla bunu müəyyən etmək mümkündür. Bu vəziyyətdə məlumatı təqdim edən şəxsin ehtiyat etdiyi, çəkindiyi, qorxduğu səbəbləri dəqiqləşdirərək inandırma üsulu ilə mane olan səbəbləri aradan qaldırmaq mümkündür.

***Təcrübədən belə bir misalı gətirmək olar. 20-25 yaşlı şəxsin sorğusu keçirilir və onun hadisə ilə bağlı ola bilən şəxslər barədə məlumatlara malik olması ehtimal edilir. Aparılmış ilkin söhbətlər zamanı onun bildiklərini tam təfərrüatı ilə təqdim etməkdən çəkinməsi əməliyyat işçisi tərəfindən müəyyənləşdirilir. Bunun səbəblərini araşdırarkən məlum olur ki, o, yoldaşları arasında satqın imicini qazanmasından və onun ətrafdakı tanışları tərəfindən qınanılacağından ehtiyat etdiyi üçün malik olduğu məlumatları təqdim etməkdən çəkinir. Psixoloji təsir vasitələri ilə ona hüquq-mühafizə orqanlarına köməklik etməklə vətəndaşlıq borcunu yerinə yetirməsi, ədalətin və düzgünlüyün bərpa olunması üçün mənəvi borcu olduğu başa salınmış və söhbətin məzmununun ciddi surətdə məxfi saxlanılacağı, təqdim edə-***

***cəyi məlumatların isə yalnız əməliyyat tədbirlərində istifadə ediləcəyi və sübut kimi qəbul edilməyəcəyi vurğulanmışdır. Bundan sonra həmin şəxs malik olduğu məlumatları tam şəkildə təqdim etmişdir.***

Bir çox hallarda rəsmi sorğular zamanı əməliyyat işçisi yalan məlumatların verilməsi ilə rastlaşır. Belə halların müəyyənləşdirilərək aradan qaldırılması üçün ilk növbədə ona sakit formada düzgün məlumatları təqdim etməyi tövsiyə etmək, tam, dolğun, məqamları məlum olan hadisələrin sorğusundan başlamaq, araşdırılan hal barədə ətrafı məlumatlara malik olma təəssüratı yaratmaq, əldə olan sübutları mötəbərlik ardıcıllığı ilə təqdim etmək, konkret suallarla hal üzrə detallaşdırılmasını təşkil etmək, yalan məlumatların axıra qədər, təkrar təqdim edilməsini təşkil edərək uyğunsuzluqları müəyyənləşdirmək, yalan məlumatın təqdim edilməsi səbəblərini aydınlaşdıraraq, aradan qaldırmaq vacib şərtlərdəndir.

Qeyri-rəsmi sorğularda isə əsas mövzu ətrafında söhbətlərə keçid əməliyyat işçisi və ya konfidentdən xüsusilə diqqətli və ehtiyatlı olmağı tələb edir. İlk növbədə əsas mövzuya keçid üçün bəhanə və ya müvafiq əfsanə tətbiq edilməlidir. Yaxşı olardı ki, əsas mövzuya yaxın elə mövzu ətrafında söhbət edilsin ki, buradan əsas mövzuya keçid hətta sorğusu keçirilən şəxsin öz təşəbbüsü ilə olsun. ***Qeyd olunanlara uyğun aşağıdakı misalı göstərmək olar. Əməliyyat zərurəti ilə əlaqədar konfidentin tanışının qonşusu barədə ətrafı səciyyələndirici məlumatların əldə edilməsi zərurəti yaranır. Müvafiq bəhanə ilə konfident tanışı ilə görüşür və ümumi mövzularda söhbət aparır. Söhbətin bir məqamında konfident öz qonşuları barədə danışaraq, onlardan şikayətlənir. Tədricən onun tanışı da qonşuları barədə söhbət aparır və konfident bu məqamlardan istifadə edərək həmin şəxs barədə tam səciyyələndirici və əməliyyat baxımından çox dəyərli məlumatlar əldə edir.***

Qeyd etmək lazımdır ki, istər psixoloji kontaktlar yaradılma mərhələsi, istərsə də əsas mövzu ətrafında söhbətlərin aparılma mərhələsində kommunikativlik üsullarından istifadə etmək zəruridir.

**Sorğunun üçüncü mərhələsi** alınan nəticələrin analizi və gələcəkdə əməliyyat tədbirlərində istifadə imkanlarının müəyyənləşdirilməsidir.

**Qeyd etmək lazımdır ki, bəzən tətbiq edilən üsulların nəticəsində sorğu keçirilən şəxsin söylədikləri və ya davranışı əməliyyat əhəmiyyətli məlumatlara malik olmasına baxmayaraq, əməliyyat işçisi tərəfindən lazımi dərəcədə araşdırılıb istifadə edilməsi istiqamətləri müəyyənləşdirilmir və ya onların mahiyyə-**

**ti sonradan əməliyyat-axtarış fəaliyyətinin faktiki vəzifələrinin həlli prosesində məlum olur. Ona görə də, hər bir sorğu tədbirindən sonra təqdim olunmuş məlumatlar hərtərəfli araşdırılmalı və nəticəslərninin istifadə edilməsinin mümkünlüyü müəyyənləşdirilməlidir. Yadda saxlamaq lazımdır ki, hər bir nəticə (müsbət və ya məxfi) də müəyyən qərar qəbul etmək üçün də bir nəticədir və əsas kimi sayıla bilər.**

# VII BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN METODLARI ƏMƏLİYYAT AXTARIŞI

## XV Fəsil

## § 1. Şəxsən axtarma

**Əməliyyat-axtarış fəaliyyətinin metodlarına (kəşfiyyat sorğusu, əməliyyat müəyyənləşdirilməsi, gizli müşahidə, əməliyyat baxışı, şəxsən axtarma və agentura) dair elmi-nəzəri və təcrübi səciyyəli müddəalar ƏAF nəzəriyyəsinin müvafiq hissəsi ilə əhatə olunmuşdur.**

Əməliyyat-axtarış fəaliyyətinin metodlarına dair tədqiqatları aparan və bu fəaliyyət sahəsində fundamental işləri ilə tanınan bir sira məşhur rus alimlərinin (D.V.Qrebelskiy, V.O.Samoylov, A.S.Vandışev və d.) əsas etibarı ilə məxfi qrifi[1] monoqrafiya səciyyəli işlərində bu metodların adları, anlayışı, onların vəzifələri, təşkilati və taktiki aspektlərinin elmi-nəzəri əsaslarını vermişlər. Onlar bu gün də öz aktuallığını və əhəmiyyətini itirməyib, hüquq-mühafizə orqanlarının tədris müəssisələrində ƏAF elmi çərçivəsində öyrənilir, bu fəaliyyətinin vəzifələrinin həllində müvəffəqiyyətlə tətbiq olunur.

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «ƏAF haqqında» Qanununun 10-cu maddəsinin I hissəsinin 1-18-ci bəndlərində əməliyyat-axtarış tədbirlərinin siyahısının verilməsi ilə əlaqədar olaraq onlarla əməliyyat-axtarış fəaliyyətinin metodları arasında olan qarşılıqlı əlaqələrinin bəzi elmi-nəzəri səciyyəli problemləri yarandı və onlara bağlı bir sıra elmi-tədqiqat işlərinə aydınlıq gətirilməsinə cəhdlər edilmişdir. Tədqiqatların nəticəsinə görə «ƏAF-nin metodları» adlı kateqoriyadan istifadə edilməsi həm elmi, həm də təcrübi baxımdan əsaslıdır.

1 В.М.Атмажитов, В.Г.Бобров. Об основных направлениях дальнейшего развития оперативно-розыскной деятельности органов внутренних дел. Актуальные вопросы теории и практики оперативно-розыскной деятельности. Труды Академии Управления МВД России). М. 2001, с. 20-23; Ш.Щцсейнов. Ямялиййат-ахтарыш фяалиййятинин методлары вя ямялиййат-ахтарыш тядбирляри арасында гаршылыглы ялагянин бязи елми-нязяри вя тяърцби аспектляри. Азярбайъан Республикасында дювлят вя щцгуг гуруъулуъунун актуал проблемляри. Елми мягаляляр мяъмуяси. АМЕА ФСЩТИ, 16 бурахылыш, сящ. 287-293.

***Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin, o cümlədən daxili işlər orqanlarının cinayətkarlığa qarşı mübarizə fəaliyyətində geniş tətbiq olunan və universal metodlarından biri – şəxsən axtarma metodudur.***

***Şəxsən axtarma*** *– cinayətlərin aşkar olunması, qarşısının alınması, açılması, gizlənən cinayətkarların axtarışı və əməliyyat-axtarış fəaliyyətinin digər vəzifələrinin, o cümlədən əməliyyat taktiki vəzifələrin həlli məqsədilə əməliyyat işçiləri tərəfindən şəxsən aşkar və qeyri-aşkar qaydada, konkret şəraitlə müəyyən olunan kompleks tədbirlərin və ƏAF-nin metodlarının[1],[2] həyata keçirilməsinin realizə olunma formasıdır.*

**Şəxsən axtarma** anlayışı cinayətkarlığa qarşı mübarizə təcrübəsində tətbiq edilməsi ilə əlaqədar işlədilir və «şəxsən axtarmaq», «şəxsən aşkar etmək», «şəxsən cinayətkarın izi ilə getmək» sözlərinin sinonimii kimi anlamında istifadə edilir. Bu metodun əsas xüsusiyyəti ondan ibarətdir ki, onun subyekti (ƏAO-nun əməkdaşı) qarşıda duran vəzifələri şəxsən və bilavasitə həll edir. ***Məsələn, əməliyyat işçisi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini, əməliyyat-axtarış fəaliyyətinin metodlarını tətbiq etməklə əməliyyat marağı kəsb edən şəxsləri, faktları və s. şəxsən, bilavasitə aşkar edir, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən şəxsləri axtarıb tapır, cinayətin qarşısını alır və ya qeyri-aşkar şəraitdə baş verən cinayəti açır.***

Cinayətkarlığa qarşı mübarizə təcrübəsində bu metod həll edilən vəzifələrdən asılı olaraq, qanunvericiliyin tələbləri rəhbər tutulmaqla, **əməliyyat müvəkkili, sahə inspektorları, DYP-in, post-patrul xidmətinin, polisin, mühafizə xidmətlərinin və s. əməkdaşları tərəfindən tətbiq edilə bilər**.

Təcrübədə ƏAF-nin subyektləri ilə əməkdaşlıq edən şəxslər də bu metodun elementlərindən istifadə edirlər.

Onu da yadda saxlamaq lazımdır ki, vətəndaşların sorğusu, soraqlaşma, insanların güdülməsi və digər əməliyyat-axtarış tədbirlərini, həmçinin ƏAF-nin digər metodlarını şəxsən axtarma ilə eyniləşdirmək olmaz və onların elementlərindən bu metodun tətbiq edilməsində istifadə edilə bilər. Bu qeyd edilənlər və şəxsən axtarmada

1 «Метод» йунан сюзц олуб, тядгигат, йахуд идрак, нязяриййя, тялим мянасыны дашыйыр, ян цмуми мянада мягсядя чатмаг цсулу, юйрянилян щадисяляря йанашма, щягигятин мцяййян едилмясинин планлашдырылмасы йолу, цмумян щяракятлярин цсул вя фяндляри мянасында ишлядилир. Фялсяфя енсиклопедийасы лцьяти. Азярбайъан енсиклопедийасы. Няшриййат-полиграфийа бирлийи. Б. 1997, сящ. 273;
2 Словарь иностранных слов. ГИИНС. М. 1949, стр. 406.

ƏAF-nin digər metodlarının və ƏAT-nin elementlərindən istifadə olunması onu digər metodlardan fərqləndirən əlamətlərdən biridir.

Böyük şəhərlərdə polis orqanlarının xüsusi vəzifələrinin həlli üçün yaradılan ixtisaslaşmış xidmət və hissələr tərəfindən bu metoddan daha geniş istifadə olunur. **Bu xidmətlərin vəzifələrinə aiddir:**

- cibgirlik, narkotik vasitələrin dövriyyəsi ilə bağlı cinayətlərin aşkar olunması;
- ictimai yerlərdə baş verən dələduzluq, oğurluq, soyğunzuluq, quldurluq cinayətlərinin qarşısının alınması və açılması;
- oğurluq əşyaları, mülki dövriyyəsi qadağan olunan, məhdudlaşdırılan əşya, maddələrin satan şəxslərin aşkar olunması və cinayət məsuliyyətinə cəlb olunması;
- ənənəvi metodlarla və ƏAF-nin digər metodları, həmçinin ƏAT-nin tətbiq edilməsi vasitəsilə açılması çətin və mürəkkəb olan cinayətlərin açılması və s.

**Şəxsən axtarma metodu aşağıdakı vəzifələrin həlli üçün tətbiq olunur:**

- *cinayətlərin aşkar olunması (cibgirliyin, latent səciyyəli cinayətlərin və s.);*
- *cinayət törətməyi düşünən, onları hazırlayan və ya törədən şəxslərin, onların əlaqələrinin və cinayətkar fəaliyyəti ilə bağlı faktların aşkar olunması;*
- *şahidlərin, zərərçəkən şəxslərin müəyyən olunması;*
- *isti izlərlə cinayətkarın şəxsiyyəti, hadisə yerindən qaçdığı istiqamətlər, gizlənməsi ehtimal olunan yerlər barədə məlumatların əldə edilməsi (məsələn, hadisə yerində və digər məqsədəmüvafiq yerlərdə, istiqamətlərdə təxirəsalınmaz ƏAF-nin metodları və ƏAT-nin elementlərindən istifadə etməklə, kəşfiyyat-axtarış tədbirləri keçirməklə);*
- *oğurlanmış əmlakın, cinayət alət və vasitələrinin aşkar olunması;*
- *məhkəmə, istintaq və təhqiqatdan gizlənən, cəzaçəkmə müəssisələrindən qaçan və digər şəxslərin axtarışı.*

Şəxsən axtarmanı həyata keçirən əməliyyat müvəkkili əməliyyat qarberobundan[1], ekipirovkadan[2], həmçinin konspirasiya[3] məqsədilə şəxsiyyətini, idarə mənsubiyyətini pərdələndirən sənədlərdən istifadə edə bilər («ƏAF haqqında» Qanun və idarə səciyyəli normativ aktların tələbləri rəhbər tutulmaqla).

1 «Ямялиййат гардеробу» - пешя терминидир, фярди вя груп маскаланма (пярдяляндирмя) цчцн харичи эюркямли дяйишилмясидир (эейим, грим, парик вя с. истифадя етмякля). Бах: В.Ю.Голобовский. Оперативно-розыскная деятельность. Словарь-справочник. Санкт-Петербург. Изд. «Лань», 2001, с. 27;

2 «Екипировка» франсыз сюзц олуб, лявазиматла, эейимля тямин етмяк мянасында ишлядилир.

3 «Конспирасийа» латын сюзц олуб, разылыг, щямряйлик кими тяръцмя олунур, ЯАФ-дя онун бюлмяляри

тяряфиндян бу бюлмяляр вя онун цзвляринин фяалиййятинин гейри-легал олмасыны тямин етмяк цчцн истифадя етдийи систем вя методлар вя йа сирин сахланмасыны тямин етмяк мянасында ишлядилир.

Şəxsən axtarma metodunu tətbiq edən əməliyyat işçisi ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 24-71, 90, 106, 123 və 128-ci, «Polis haqqında» Qanunun 3-27-ci, «ƏAF haqqında» Qanunun 10-16-cı, CPM-in 10-20, 84-86, 124-148, 204-215, 442-448-ci, CM-nin 14-34, 302-ci, «Dövlət sirri haqqında» Qanunun 5-ci, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 15, 31-ci maddələrinin və s. qanunların, ölkə Prezidentinin 19 iyun 2001-ci il tarixli «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanı, ƏAF subyektlərinin ƏAF sahəsində münasibətləri (təşkilati və taktiki təyinatlı) tənzimləyən normativ aktların tələblərini bilməli və onlara riayət edilməsini təmin etməlidir.

Bu tədbiri tətbiq edən əməliyyat-axtarış orqanlarının əməkdaşları, DİO-nun axtarış fəaliyyətində polis əməkdaşları şəxsən axtarma metodu tətbiq edərkən, bir çox hallarda şəxsiyyətin eyniləşdirilməsi kimi əməliyyat-axtarış tədbirindən istifadə edirlər. Məhz bunun üçün onlar zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi ilə bağlı kriminalistika elmində öyrənilən biliklərə və peşə vərdişlərinə malik olmalıdırlar[1].

**Bu metodun tətbiqinin digər metodların tətbiqi ilə müqayisədə bir sıra aşağıdakı üstünlükləri var:**

***- həyata keçirilən kəşfiyyat-axtarış səciyyəli tədbirlərin operativliyi və çevikliyi, zəruri olan məlumatların bilavasitə əldə olunması, qiymətləndirilməsi və onların təxirə salınmadan istifadə edilməsinin mümkünlüyü;***

***- bəzi kateqoriyadan olan cinayətlərə qarşı mübarizədə yüksək nəticələrin əldə olunması;***

***- əməliyyat işçisi tərəfindən əməliyyat şəraitinin və ya situasiyasının şəxsən dərk edilməsi və qiymətləndirilməsi imkanının yaranması;***

***- müxtəlif mənbələrdən alınan məlumatların realizə olunması;***

***- digər metod və ƏAT ilə müqayisədə daha geniş əməliyyat-taktiki vəzifələrin həll edilməsinin və xüsusi texniki vasitələrin tətbiq edilməsinin mümkünlüyü və s.***

Bu metodun səmərəli təşkili və tətbiqi üçün əməliyyat işçisi əməliyyat şəraitini bilməli, cinayətlərin törədilmə üsul və vasitələri, ƏAF sahəsində qanunvericiliyin tələblərini, cinayətkarların öz cinayət əməllərini maskalandırma üsul və fəndlərini yaxşı bilməli, zəruri psixoloji biliklərə və s. malik olmalıdır.

**Bu metodun səmərəli təşkili və keçirilməsi üçün təcrübədə yarana biləcək 3 vəziyyət nəzərə alınmalıdır:**

1 Криминалистика. Али мяктябляр цчцн дярслик. Щцгуг ядябиййаты няшриййаты. Б. 1999, с. 277-293

***I vəziyyət*** – əməliyyat şəraitindən asılı olaraq hər hansı bir ərazidə müəyyən növ cinayətlərin (narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, cibcirlik və s.) qarşısının alınması və açılması, axtarışda olan şəxslərin (səxsiyyəti bəlli olan, istərsə də konkret əlamətləri müəyyən edilməmiş səxsiyyəti bəlli olmayan) tutulması üçün bu metodun tədbiq edilməsi zəruri hesab olunur;

***II vəziyyət*** – hər hansı bir konkret cinayətin (məsələn eyni üsulla törədilən çoxsaylı cinayələr, o cümlədən "maniaklar" tərəfindən törədilən ağır və xüsusilə ağır cinayətlər və s.) açılması üçün bu metodun tətbiq edilməsi məqsədəuyğun sayılır;

***III vəziyyət*** – əməliyyat işçisi və ya digər xidmətin polis əməkdaşı öz xidməti vəzifələrini icra edərkən və ya digər səbəblərdən asılı olaraq qəfətən yaranmış vəziyyətdə bu metodu tətbiq etmək məcburiyyətində olur.

Əməliyyat-axtarış təcrübəsində şəxsən axtarmanın ümumiləşdirilmiş nəticəsini əks etdirən bir forma işlənib hazırlanmamışdır. Ona görə də bu metodun tətbiq edilməsi prosesində istifadə olunan digər əməliyyat-axtarış fəaliyyətinin metodları və əməliyyat-axtarış tədbirlərinə müvafiq olaraq və əsaslanaraq müəyyən sənədlər tərtib olunur. **Bu metodun tətbiqi zamanı aşağıdakı sənədlər tərtib oluna bilər:**

- əgər vətəndaşlarla sorğu aparılırsa, onun forma və növündən və habelə, sorğu aparılanın ona münasibətindən asılı olaraq əldə olunan məlumatlar sonuncunun ərizəsində, izahatında və ya əməliyyat işçisinin tərtib etdiyi arayışda əks etdirilə bilər. Bu halda video, səsyazma və digər texniki vasitələrdən istifadə oluna bilər;
- əgər şəxsiyyətin eyniləşdirilməsi ƏAT-dən istifadə olunubsa, rəhbərliyin adına raportla məruzə olunur;
- əgər gizli müşahidə şəxsən axtarma metodu vasitəsilə, o cümlədən vətəndaşların könüllü iştirakı ilə keçirilibsə, onun nəticəsi raportla və zəruri olan hallarda iştirak edən şəxslərdən alınan izahatlarla rəsmiləşdirilə bilər;
- əgər nəzarət qaydasında mal alınması ƏAT-dən istifadə edilirsə, onun nəticəsi aktla rəsmiləşdirilir (idarədaxili normativ aktlarla müəyyən olunmuş qaydada). Bu tədbir gizli keçirilibsə, onun nəticəsi əməliyyat-axtarış orqanının əməkdaşı tərəfindən tərtib olunmuş arayışla rəsmiləşdirilir. Zəruri hallarda onun həyata keçirilməsində iştirak edən şəxslərdən izahat alınır;
- bu metodun tətbiq edilməsində müxtəlif sənədlər nəzərdən keçirilib öyrənilibsə və əməliyyat marağı kəsb edən məlumatlar aşkar olunubsa, onun nəticələri sənədlərin surəti, şəkli əlavə olunmaqla, raport və ya arayışla rəsmiləşdirilir və s.

Bu metodun nəticələrinin sənədləşdirilməsi prosesi çox mühüm əhəmiyyətə malikdir. Belə ki, «ƏAF haqqında» Qanunun 16-cı, CPM-in 137-ci maddələrinin tələbləri rəhbər tutulmaqla, sonrakı mərhələdə onların cinayət prosesində istifadə edilməsi məsələsi ortaya çıxır. Bu mərhələdə onların hüquqi baxımdan qiymətləndirilməsi, istiqamətləndirilməsi və qanuniliyi nəzarət qaydasında (prokuror, məhkəmə nəzarəti və s.) yoxlanılır.

Təcrübədə qeyd edilən metodun tətbiqi nəticəsində və digər metodların tətbiqi həmçinin onların ƏAT-də istifadə olunması nəticəsində açılması çətin və mümkün olmayan cinayətlərin açılmasına nail olunur. Belə bir misalı nəzərdən keçirək. **"H" şəhəri ərazisində polis orqanının istintq bölməsində "valyuta" dəyişmə məntəqələrinə və vətəndaşlara silahlı basqın etmiş 4 nəfərdən ibarət mütəşəkkil cinayətkar qruplaşma barədə bir icratda birləşdirilmiş 12 cinayət üzrə cinayət işinin istintaqı aparılırdı. Cinyətkar qruplaşmanın tərkibinə 1 nəfər cavan qadın da daxil idi. Onlar nəinki quldurluq, həmçinin cinyətin qurbanlarını qətlə yetirir və onları zorlayırdılar. Cinayətkarlarin müəyyən edilib cinayət məsuliyyətinə cəlb edilməsinə dair həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri lazimi nəticələr vermirdi.**

**Zərər çəkənlərlə həyata keçirilən istintaq hərəkətləri və ƏAT nətiəsində müəyyən edilmişdir ki, (4 nəfərin izahatlarına əsasən, onların şəxsi psixaloji keyfiyyətləri və verdiyi ifadələrin reallığa yaxın olmasi məzmun və mahiyyət etibarı ilə uzlaşması nəzərə alınaraq) cinayətkarlardan ikisinin, o cümlədən qadının "şifahi portreti" (fotorobotu) hazırlanmış, şəhər rayon polis orqanlarında və cəzaçəkmə müəssisələrinə istiqamətləndirmələr göndərilmişdir.**

**"M" saylı cəzaçəkmə müəssisəsində fotorobotla göstrilən əlamətləin əsas etibarı ilə oxşarlığı olan "K" adlı məhbus şəxsin axtarma metodunun və eyniləşdirmə ƏAT-nin tətbiqi yolu ilə müəyyən edilmişdir. Polis orqanının istintaq, cinayət axtariş bölmələrinin, həmçinin CÇM-in əməliyyat hissəsinin birgə keçirdiyi istintaq hərəkətləri (o cümlədən dindirmə, tanıma və s.) və ƏAT nəticəsində cinayətkar qruplaşmanın (bandanın) bütün üzvləri müəyyən edilmiş və cinayət məsuliyyətinə cəlb edilmişdir**.

**Bu metodun təşkili və taktikasına dair münasibətlər xüsusi ədəbiyyat və ƏAF-nin subyektlərinin normativ aktları ilə tənzim olunur.**

## § 2. Əməliyyat axtarışının mahiyyəti və əsas istiqamətləri

Axtarış hüquqi termin kimi məzmun etibarı ilə geniş həcmli anlayışa malikdir. Axtarış dedikdə, kiminsə və ya nəyinsə aşkar olunması (müəyyən olunması) istiqamətində həyata keçirilən fəal hərəkət başa düşülür və əməliyyat-axtarış prosesinin ilkin mərhələsi kimi sayılır. Aşkar etmə prosesi ictimai həyatın müxtəlif sahələrində, məişətdə və s. həyata keçirilən bir prosesdir. Hüquqi anlamda yanaşdıqda isə qeyd etməliyik ki, axtarış hüquqi və nəzəri cəhətdən əsaslandırılaraq, proseduru müəyyən olunmaqla həyata keçirilən prosessual hərəkət və eyni zamanda əməliyyat-axtarış fəaliyyəti sahəsində məqsədyönlü olaraq kompleks tədbirlərin həyata keçirilməsidir. Belə halda onun həyata keçirilməsi təcrübədə əməliyyat axtarişı adlanan xüsusi bir forma yaradır. Onun mahiyyətini izah edərkən xüsusi bir məqama diqqət yetirmək lazımdır. Bu məqam ondan ibarətdir ki, əməliyyat-axtarış fəaliyyətində «axtarış» dedikdə, bu söz məzmun etibarı ilə iki mənada başa düşülür. Başqa sözlə desək, **geniş və dar mənada**.

**Geniş mənada** götürüldükdə, burada söhbət ümumi olaraq axtarışın həyata keçirilməsindən gedir və bu zaman axtarışın obyekti məlum və ya konkret olan, həmçinin məlum və konkret olmayan, lakin əməliyyat marağı kəsb edən şəxslər və faktlar ola bilər.

**Dar mənada** götürüldükdə isə yuxarıda qeyd olunanları, bundan əlavə hər bir axtarışın obyektini, təşkilini və eləcə də, həyata keçirilmə formasını və s. nəzərə alaraq, hər birini ayrılıqda izah etməliyik.

Rus müəlliflərinin yazdığı ədəbiyyatlara, eləcə də Rusiya Federasiyası qanunvericiliyinə diqqət yetirdikdə, görürük ki, hər bir axtarış növü məzmunundan əlavə, terminoloji baxımdan ifadə formasına və yazılışına görə başqa anlayışlarla verilir. Məsələn, «rozısk» və «poisk». Azərbaycan dilində isə ədəbiyyatlarda və normativ-hüquqi aktlarda hər ikisi «axtarış» anlayışı ilə ifadə olunursa da, təcrübədə həyata keçirilmə formasına və mahiyyətinə görə fərqlənir.

Qeyd edilənləri göstərməkdə məqsəd ondan ibarətdir ki, axtarışın bu iki istiqaməti əməliyyat-axtarış fəaliyyəti sahəsində istifadə edilir və bunların bir-birindən fərqli olan xüsusiyyətləri nəzərə alınmalıdır. Məlum olduğu kimi cinayətkarlığa qarşı mübarizə istiqamətində maraq kəsb edən xüsusi informasiyalardan (əvvəllər hüquq-mühafizə orqanlarına məlum olmayan) ibarət olan məlumatların aşkar olun-

ması, yoxlanması və toplanması üçün əməliyyat-axtarış fəaliyyəti subyektləri tərəfindən kompleks tədbirlər həyata keçirilir. Həmin bu proses əməliyyat axtarışı adlanan xüsusi bir forma yaradır. Digər növ axtarışa gəldikdə isə, burada söhbət konkret şəxsin axtarışından gedir ki, məhz bu sahədə axtarış işinin həyata keçirilməsi müvafiq normativ-hüquqi aktlarla, o cümlədən əməliyyat-axtarış fəaliyyətinin müvafiq subyektlərinin idarədaxili normativ aktları ilə tənzimlənir. Bu normativ aktlarda axtarışın obyektləri, növləri, subyektləri, təşkili və taktikası ilə bağlı münasibətlər konkret müddəalarda öz əksini tapır. ***Məsələn, DİN-in və digər HMO-nun səlahiyyətləri rəhbər tutulmaqla bu subyektlərin əmrləri ilə təsdiq olunmuş axtarış işinin təşkilinə dair təlimatlarda axtarılan şəxslərin sırasında məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran, itkin düşmüş şəxslər, hüquqi və fiziki şəxslərə dəymiş ziyanın ödənilməsinə görə mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclular və onlarin milli beynəlxalq axtarişl ilə bağlı münasibətlər və s. göstərilmişdir.***

Qeyd olunduğu kimi, əməliyyat axtarışı əməliyyat-axtarış prosesinin ilkin mərhələsidir. Belə axtarışı istənilən idrak fəaliyyətinin elementi kimi və özünün xüsusi təşkilati, hüquqi, psixoloji əsaslarına və prinsiplərinə malik sistem olaraq fərqləndirmək lazımdır.

**Əməliyyat axtarışının məzmununu aşkar olunan obyektlərə xas olan əlamətlərə dair subyektlərin məlumatları təşkil edir. Hüquq ədəbiyyatlarında həmin əlamətlər aşağıdakı qaydada təsnif olunur:**

1. cinayəti hazırlayan, törədən və törətmiş, cinayət yolu ilə əldə edilmiş əmlakı satan və ya alan şəxslərə xas olan əlamətlər, həmçinin yoxlanılan şəxslərin həyat tərzini xarakterizə edən əlamətlər;
2. ictimai təhlükəli əməl törədən şəxslərin psixoloji durumuna xas olan əlamətlər;
3. cinayət yolu ilə əldə olunmuş və axtarılan əşya və predmetlərə xas olan əlamətlər;
4. cinayətin törədilməsinə səbəb olan və şərait yaradan halları xarakterizə edən əlamətlər.

Qeyd edilən qrup əlamətlərdən hər biri bu və ya digər cinayətləri törədən şəxslərin hərəkət xüsusiyyətlərinə uyğun olaraq istifadə oluna bilər. Buna və cinayət törədilən şəraitə müvafiq olaraq axtarılan obyektlərin aşkar edilib tanınma taktikası müəyyən edilir.

Axtarışı həyata keçirən subyektlər axtarılan obyektləri, özlərinə məlum olan əlamətləri obyektlərdəki əlamətlərlə müqayisə edərək müəyyən edirlər. Əməliyyat axtarışı əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin və «şəxsən axtarma» və s. metodların tətbiq olunması yolu ilə, həmçinin əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə məxfi əsaslarla əməkdaşlıq edən şəxslər tərəfindən gizli və aşkar formada həyata keçirilir. Bu prosesdə HMO-nun digər hökümət və qeyri-hökümət orqanlarının informasiya sistemlərindən və texniki vasitələrindən qanunvericiliyin tələbləri rəhbər tutulmaqla istifadə oluna bilər.

***Bu fəaliyyətin bir növü də informasiya axtarışıdır, yəni informasiya sistemlərinin köməyi ilə məlumatların toplanmasıdır. Bura həm yerli, həm də mərkəzləşdirilmiş informasiya sistemləri aid edilir. Məsələn, DİN-in BƏSİİ, KTİ-nin uçotları, digər informasiya, bank sistemləri üzrə sorğular vasitəsilə yoxlamaların keçirilməsi. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, axtarışın həyata keçirilməsi zamanı əldə edilmiş və əhəmiyyət kəsb edən məlumatlar müvafiq informasiya sistemləri üzrə uçota alınaraq gələcəkdə əməliyyat axtarışının həyata keçirilməsində və nəticələrin təhlil olunmasında da istifadə edilir.***

***Təşkilati sistem kimi əməliyyat axtarışının digər əməliyyat-axtarış fəaliyyəti formalarından fərqləndirən xüsusi əlamətləri mövcuddur.*** Onun birinci fərqləndirici xüsusiyyəti məlum faktlar və şəxslərlə əlaqədə olmadan həyata keçirilməsidir. Əməliyyat axtarışının əsas vəzifəsi hələ məlum olmayan cinayət faktlarının, onları törətmiş şəxslərin aşkar edilməsidir.

***Əməliyyat axtarışının digər fərqləndirici xüsusiyyəti axtarılan obyektlərin aşkar edilməsi üçün daha çox ehtimal olunan yerlərdə təşkil olunmasıdır.*** Belə ehtimal müəyyən şəraitdə, konkret məkanda və zamanda kriminogen proseslər təkrarlanma müəyyən edildikdə yaranır.

Bu qanunauyğunluqlar mürəkkəb statistik səciyyəyə malikdirlər. Buna görə də onlara əsaslanmış fərziyyələr yalnız ehtimal nəzəriyyəsi əsasında və çərçivəsində həyata keçirilə bilir. Bu ümumi müddəalar istənilən əməliyyat-axtarış işinin təşkilinin əsasını yaradır. Bu fəaliyyət kriminogen obyektlərin aşkar edilməsi üçün xüsusi qaydada aparılan təhlil əsasında təşkil olunur.

Müəyyən ərazidə (obyektdə) hüquq pozuntularının dəfələrlə törədilməsi haqqın-da məlumatların mövcudluğu orada yeni cinayətlərin törədilmə ehtimalını proqnoz-

laşdırmaq üçün və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 1-ci maddəsinin III hissəsinə uyğun olaraq törədilmiş cinayətlərin aşkar edilməsi və açılması, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədilə əməliyyat-axtarış tədbirlərini keçirmək üçün kifayət qədər obyektiv səbəb kimi çıxış edir.

***Əməliyyat axtarışının fərqləndirici xüsusiyyətlərindən biri də onun sistematik olaraq həyata keçirilməsidir.*** Axtarışın müəyyən vaxtda və şəraitdə, axtarılan obyektin ola biləcəyi yer və obyektlərdə həyata keçirilməsi, bu istiqamətdə tədbirlərin fasiləsiz keçirilməsini şərtləndirir.

Tədbirlər zamanı müəyyən faktlar aşkar edildikcə, axtarış yeni-yeni fakt və şəxs-lərin üzə çıxarılması məqsədilə davam etdirilir. Əməliyyat axtarışı qrup halında da həyata keçirilə bilər. Bununla əlaqədar hətta ixtisaslaşdırılmış əməliyyat axtarışı bölmələri və ya qrupları (məsələn, cibgirliklə bağlı cinayətlərlə mübarizə bölməsi və s.) yaradıla bilər ki, bunların da əsas fəaliyyət istiqamətini əməliyyat axtarışı təşkil edir.

Axtarış prosesində əldə edilmiş məlumatlar müvafiq xidməti sənədlərdə əks olunur. Lakin vəzifəli şəxslərin işi bununla məhdudlaşmır. Axtarılan obyektin mövcudluğu və ya yoxluğu haqqında qərarın qəbulu üçün əməliyyat-axtarış fəaliyyəti subyektləri çatışmayan informasiyanı toplamalı, yoxlamalı, təhlil etməli və qiymətləndirməlidirlər.

**Yuxarıda qeyd olunanlari ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, əməliyyat axtarışının anlayışını aşağıdakı məzmunla ifadə etmək olar : *«Əməliyyat axtarışı dedikdə, əməliyyat marağı kəsb edən şəxslər və faktlar barədə cinayətkarlığa qarşı mübarizədə əhəmiyyətə malik olan məlumatların aşkar olunması, toplanması və yoxlanılması istiqamətində əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən məqsədyönlü kompleks tədbirlərin həyata keçirilməsi başa düşülür».***

Əməliyyat marağı kəsb edən şəxs və faktların aşkar edilməsi tədbirləri əməliyyat aparatlarının xidmət apardıqları ərazini əhatə edərək, vahid axtarış tədbirləri kompleksi təşkil edir. Belə tədbirlər kompleksi şərti olaraq vahid işarəverici və ya mühafizəedici sistem kimi nəzərdən keçirmək olar ki, bu da konkret cinayətdən və ya şəxsdən asılı olmayaraq fəaliyyət göstərir, lakin vaxtlı-vaxtında cinayət faktı haqqında, əməliyyat marağı kəsb edən şəxslər barədə məlumatların operativ qaydada əldə edilməsinə imkan verir. ***Misal üçün, xidmət göstərilən ərazidə müəyyən zaman ərzində cinayət törədilmir və yaxud maraq kəsb edən şəxslər barəsində əsaslı, tutarlı***

***məlumatlar mövcud olmur, lakin axtarış daim və məqsəyönümlu davam etdirilir, çünki, vəziyyət hər an dəyişə bilər. Məsələn, terrorizmin, mülkiyyət, əleyhinə iqtisadi fəaliyyət sahəsində törədilən, xüsusilə də latent səciyyə daşıyan və s. cinayətlərin qarşısının alınması məqsədilə tədbirlər ardıcıl və sistemli qaydada həyata keçirilməlidir.***

**Əlbəttə, bu o demək deyil ki, əməliyyat axtarışı reallıqdan uzaqdır, ərazidə baş verən hadisələrlə əlaqəsi yoxdur. Əksinə, axtarış prosesində və onun yekununda maraq kəsb edən şəxslər və faktlar barədə əldə olunmuş məlumatların və əməliyyat şəraitinin hərtərəfli təhlilinin həyata keçirilməsinə nail olunur.**

***Aşağıdakı istiqamətlərdə axtarış tədbirləri daha səmərəli nəticə verir*:**

*– xidməti ərazidə yaşayan və çalışan əhali arasında aparıldıqda;*

*– əməliyyat marağı kəsb edən şəxslərin cəmləşdiyi yerdə, kriminogen obyektlərdə və cinayətlə əldə edilmiş əşya və predmetlərin satıldığı obyektlərdə aparıldıqda;*

*– kriminal qruplarda (narkomanlar, tüfeyli həyat tərzi keçirənlər, cinayət törətməyə meylli olan şəxslər və s. arasında) aparıldıqda;*

*– bağlı qalmış cinayətlər üzrə şübhəli və təqsirləndirilən şəxslər arasında aparıldıqda.*

Əhali arasında əməliyyat axtarışı xeyli zəhmət və bacarıq tələb edən axtarış istiqamətlərindən biridir (qüvvə və vasitələrdən istifadə olunmasına görə). Əhali arasında axtarış həyata keçirərkən, əməliyyatçılar yataqxanalara, yaşayış binalarına mehmanxanalara və s. xüsusi diqqət yetirməlidirlər. Belə hallarda yataqxana işçiləri və yaşayış sahəsində olan ictimai iaşə obyektlərində işləyən şəxslər və s. arasından konfidentlərin əməkdaşlığa cəlb olunması uğurlu nəticələr əldə etməyə imkan verir.

Əməliyyat-axtarış orqanlarının çoxillik təcrübəsi göstərir ki, əməliyyat marağı kəsb edən şəxslər daha çox vağzallarda, limanlarda, kütləvi istirahət yerlərində, bazarlarda, spirtli izkilər satılan bar, kafe və diskotekalarda cəmləşirlər.

Vağzallarda, limanlarda, sərnişinlərin cəmləşdiyi digər obyektlərdə axtarışın aparılması zərurəti bir sıra faktlarla bağlıdır. İlk növbədə nəqliyyat obyektlərindəki vəziyyət (insanların sıxlığı, daimi hərəkət, sərnişnlərin psixoloji durumu və s.) müəyyən növ cinayətlərin törədilməsi üçün əlverişli şərait yaradır (oğurluq, dələduzluq, terror aktları və s.). Belə obyektlərin gün ərzində fasiləsiz işləməsi hesabına əməliyyat marağı kəsb edən şəxslər buradakı kommunal və s. xidmətlərdən bəhrələ-

nir və gecələyə bilərlər. Belə obyektlərdə əməliyyat axtarışının təşkili üçün buranın

işçilərindən və eyni zamanda burada fəaliyyət göstərən yeməkxana, kafe və s. iaşə obyektlərinin işçilərindən konfident qismində əməkdaşlığa cəlb etmək lazımdır.

Nəqliyyat obyektlərində əməliyyat axtarışını təşkil edərkən, ərazi və nəqliyyat polis orqanları arasında qarşılıqlı əlaqəni təmin etmək vacibdir. Bu halda informasiya mübadiləsinin zəruriliyini, konfidentlərin imkanlarından istifadədə səylərin koordinasiyasını nəzərə almaq lazımdır. Hər bir obyekt üzrə informasiya mərkəzləşdirilmiş şəkildə toplanmalı və istifadə olunmalıdır ki, tədbirlər vaxtında planlaşdırılsın və təkrarlığa yol verilməsin.

Kütləvi istirahət yerlərində, parklarda, çimərliklərdə, şəhərkənarı istirahət zonalarında, diskotekalarda xuliqanlıq, quldurluq və narkotiklərin satışı kimi cinayətlərin törədilməsi ehtimal olunduğundan, belə yerlərdə axtarış tədbirlərinin həyata keçirilməsi məqsədəuyğundur. Belə yerlərdə əməliyyat axtarışı məxfi əməkdaşların cəlb olunması ilə keçirilməlidir. Həmçinin əməliyyat işçiləri «şəxsən axtarma» metodundan istifadə etməklə, axtarış obyektlərindəki vəziyyəti, orada olan insanlar, onlar arasındakı əlaqələri müəyyən edir, konfidentləri seçirlər, yeni peyda olan şəxsləri qeydə alır, hazırlanan cinayətlərin qarşısının alınması istiqamətində tədbirlər görürlər.

Obyektlərdə konfidentlərin mövcudluğu, «şəxsən axtarma» metodu ilə kompleks tədbirlərin həyata keçirilməsi, cinayətlərin açılması və cinayətkarların aşkar edilməsi üzrə bir çox operativ məsələləri həll etməyə imkan verir.

Oğurlanmış əmlakın satışı yerləri mülkiyyət əleyhinə törədilən cinayətlər üzrə materialların təhlili əsasında müəyyən edilir. Satış yerlərinə daha çox toplansatış bazarları, «qara bazarlar», dükanlar, köşkülər və küçə ticarətinin aparıldığı müxtəlif yerlər aid edilir. Nəzərə almaq lazımdır ki, cinayətkarlar ticarət edən şəxslərlə əlaqə yaradaraq, oğurlanmış əmlakı onların vasitəsilə sata bilərlər. Belə obyektlərdə işləyən və ya tez-tez həmin yerlərdə olan şəxslər müəyyən olunmaqla əməkdaşlığa cəlb olunur. Bu yerlərdə tədbirlərin keçirilməsi üçün axtarış qrupları təşkil olunur ki, həmin qrupların işində oğurlanmış əmlakı tanıya bilən zərərzəkmişlər də iştirak edə bilər. Axtarışa cəlb olunmuş digər bütün şəxslər oğurlanmış əmlakın əlamətləri barədə informasiya ilə təmin olunmalıdır.

Axtarış prosesində müəyyən edilmiş əşyalar dərhal oğurlanmış əmlakın uçotu üzrə yoxlanılmalıdır. Eyni zamanda şübhəli şəxslərin şəxsiyyəti ciddi yoxlanışdan keçirilməlidir. Nəzərə almaq lazımdır ki, son vaxtlar əməliyyat-axtarış orqanlarının iş sistemini bilən cinayətkarlar ifşa olunmamaları üçün müxtəlif üsullara əl atırlar.

Bu da onu təsdiq edir ki, axtarış təkcə oğurlanmış əmlakın əlamətlərinə görə deyil, həm də belə əmlakı satan və ya ona sahiblik edən şəxslərin davranışı üzrə də həyata keçirlməlidir. ***Məsələn, satış zamanı həddindən artıq ehtiyatlı davranma; xəlvəti satma; aşağı qiymətlə satma; əşyanın həqiqi dəyəri barədə məlumatsızlıq; mənşəyi haqqında xəbərsizlik kimi hallar yuxarıda qeyd olunan davranışa aid olunur.***

Əməliyyat axtarışının istiqamətlərindən biri də kriminogen qruplar daxilində axtarışın keçirilməsidir. *«Kriminogen-qruplar»-termini-şərtidir-və-ictimai-faydalı-həyat-tərzi-sürməyən-insanlar-kateqoriyasını-açıqlamaq-üçün-istifadə-olunur-(tüfeyli-həyat-tərzi-sürənlər,-narkomanlar,-əxlaqsız-həyat-tərzi-keçirənlər,-cinayət-törətməyə-meylli- olan- insanlar- və- s.).* Sadalananların əksəriyyəti ictimai faydalı əməklə məşğul ol-mur, qanuni qazanc mənbəyinə malik deyillər. Bu kateqoriyadan olan şəxslər daha çox cinayət törədirlər. Onlar qanunvericiliyin tələbləri rəhbər tutulmaqla, əməliyyat uçotuna götürülməlidir və barələrində profilaktiki tədbirlər həyata keçirilməlidir. Son illər belə şəxslərin müəyyən hissəsini narkomanlar təşkil edir. Onlar arasında axtarı-şın təşkili zamanı bir sıra amilləri nəzərə almaq lazımdır. Birincisi, kiçik şəhərlərdə, qəsəbələrdə və digər yaşayış məntəqələrində əksər narkomanlar bir-birini üzdən ta-niyır və yeni tanışlardan, xüsusən də narkotikdən istifadə etməyən insanlardan çəki-nirlər. İkincisi, narkomanlar arasından konfident seçmək məqsədəuyğun deyil. Bütün bunlar narkomanların arasında olarkən, onlara profilaktiki təsir göstərməkdə və ci-nayətdə iştirak etməsini yoxlamaqda müəyyən çətinliklər yaradır. Ona görə də keç-mişdə narkotiklərdən istifadə etmiş və narkomanlarla əlaqə saxlayan şəxslər arasında konfident seçmək daha məqsədəuyğundur. Bu istiqamətdə axtarışı həyata keçirmək üçün tibb və narkoloji müəssisələrin işçiləri arasından da konfidentlər əməkdaşlığa cəlb edilə bilər. Belə əməkdaşlıq vasitəsilə narkomanlara narkotiklərin çatdırılma-sı kanallarını, qanunsuz alış-satışla məşğul olan şəxsləri aşkar etmək mümkün olur, müəyyən edilmiş faktlar üzrə təxirəsalınmaz tədbirlər görməyə imkan yaranır.

Əməliyyat axtarışının məqsədlərindən biri də bağlı qalmış cinayətlərin açılması və onu törədən şəxslərin müəyyən olunmasidır. Bu istiqamətdə axtarış tədbirləri cinayətləri törətməkdə şübhəli və təqsirləndirilən şəxslər arasında aparılır.

Bəzi əməliyyat-axtarış orqanlarında müvəqqəti saxlama və istintaq təcridxanalarında həbsə alınan və cinayətlərin törədilməsində şübhəli şəxs qismində saxlanılan şəxslərin arasında əməliyyat axtarişinın təşkili üçün xüsusi əməkdaşlar ayrılır. Lakin təcridxanada saxlanilan və həbsə alınan şəxsin yoxlanılması yeganə üsul de-

yil. Onun cinayətkar əlaqələrini öyrənmək, uçotlar üzrə, yaşayış və iş yerləri üzrə yoxlamaq yaranmış vəziyyətdən aslı olaraq zəruri hesab edilə bilər. Bağlı qalmış cinayətlər haqqında məlumatı olan şəxslər barədə informasiyalar tutuşdurularaq, onun həmin cinayətlərin iştirakçısı olub-olmaması barədə fərziyyələr irəli sürüməklə yoxlanılması həyata keçirilə bilər. Cinayət və inzibati məsuliyyətə cəlb olunan şəxslər arasında əməliyyat axtarışının keçirilməsi əməliyyat marağı kəsb edən digər şəxslərin, həmçinin cinayətlərin törədilməsinə kömək edən digər amillərin və sair faktların müəyyən olunmasına geniş imkan yaradır.

# VIII BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİNİN ANLAYIŞI VƏ MƏZMUNU, ONLARIN KEÇİRİLMƏSİ ÜÇÜN SƏBƏB, ƏSAS VƏ ŞƏRTLƏR

## XVI FƏSİL

## Əməliyyat-axtarış tədbirlərinin anlayışı və məzmunu

### § 1. Əməliyyat-axtarış tədbirlərinin anlayışı və onların növləri

**Əməliyyat-axtarış tədbirləri əməliyyat-axtarış fəaliyyətinin əsas struktur elementlərindən biridir.** Əməliyyat-axtarış tədbirləri bir-biri ilə qarşılıqlı əlaqədə olan hərəkətlər sistemindən ibarətdir və onlar konkret taktiki vəzifələrin həll olunmasına yönəlmişdir. Bu tədbirlər axtarış-kəşfiyyat səciyyəsi daşıyır və cinayət törətmək niyyəti olan, cinayəti hazırlayan və onu törədən şəxslər, hüquqazidd fəaliyyətin izləri, istintaqdan və məhkəmədən yayınan, cəzaçəkmə müəssisələrindən və digər yerlərdən qaçan şəxslərin yerləri, habelə itkin düşmüş şəxslər barədə məlumatın alınmasına yönəlmişdir.

**Əməliyyat-axtarış tədbirləri insan və vətəndaşların həyat və sağlamlığını, əmlakını, hüquq və azadlıqlarını, cəmiyyətin və dövlətin təhlükəsizliyini cinayətkar əməllərdən qorunmasının təmin olunması məqsədləri ilə birləşdirilmiş və əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həll edilməsinə yönəlmiş aşkar və qeyri-aşkar üsullarla həyata keçirilən əməliyyat-axtarış hərəkətləri məcmusudur.**

Əməliyyat-axtarış tədbirləri yalnız «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 1-ci maddəsi ilə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə digər hüquqi vasitələrlə nail olmaq mümkün olmadıqda həyata keçirilir.

Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi ilə bağlı konkret vəziyyətdən, tədbirlərin nəticəsindən asılı olaraq əməliyyat aparatının vəzifəli şəxsləri müvafiq döv-

lət orqanının mənafelərini rəsmi şəkildə (aşkar formada) təmsil edir və yaxud onun adından çıxış edir. Eyni zamanda əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə yardım edən vəzifəli şəxs və ya vətəndaş öz səlahiyyətlərini gizli yolla yerinə yetirə bilər. Gizli tədbirlərin həyata keçirilməsinin zəruriliyi onunla əsaslandırılır ki, bəzi ağır və ya xüsusilə ağır cinayətlərin qarşısının alınması və üstünün açılmasına yönəlmiş hərəkətlərin və yaxud inzibati xarakterli tədbirlərin aşkar qaydada həyata keçirilməsi praktiki olaraq mümkün deyil.

Əməliyyat-axtarış tədbirlərini sistem yanaşma baxımından təhlil edərkən, onun tərkibində aşağıdakı bir-biri ilə bağlı elementləri ayırıb göstərmək olar: obyekt, məqsədli hərəkətlərin əlaqələndirilməsi və uzlaşdırılması, onu həyata keçirən subyektlər, onun səmərəliliyini artıran kompleks təşkilati fəndlər, üsullar və s.

Əməliyyat-axtarış tədbirlərinin obyekti cinayəti hazırlayan, törədən və ya törətmiş şəxslər, habelə məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşmüş şəxslərdir. Bundan başqa, əməliyyat-axtarış fəaliyyətinin obyektlərinə şübhəli şəxs barədə faktiki məlumatları cəmləşdirə bilən kriminal hadisələr və hallar da aid edilir.

Bununla yanaşı, "ƏAF haqqında" Qanunun 6-cı maddəsinin 7-ci bəndində əməliyyat-axtarış fəaliyyətinin subyektləri üzərinə öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq və s. kimi vəzifələr qoyulmuşdur.

**Bu vəzifələr dairəsinə aşağıdakıları daxil etmək olar:**

1. Barələrində dövlət sirrini təşkil edən məlumatlardan istifadə edilməsi, yaxud insan həyatına və sağlamlığına, habelə ətraf mühitə yüksək təhlükə törədən obyektlərin istismarı ilə əlaqədar işlərə buraxılış məsələsi həll olunan vətəndaşlar;

2. Əməliyyat-axtarış fəaliyyətində və ya onun həyata keçirilməsi nəticəsində alınmış materiallardan istifadə edilməsində iştirakı ilə bağlı buraxılış məsələsi həll olunan şəxslər;

3. Əməliyyat-axtarış tədbirlərinin hazırlanması və ya keçirilməsi zamanı gizli əməkdaşlıq münasibətləri qurulan və yaxud saxlanılan şəxslər;

4. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşların təhlükəsizliyinin təmin olunması üzrə qərarların qəbul olunması üçün barələrində məlumatların yığılması vacib olan şəxslər.

MDB-yə daxil olan ölkələrdə, məsələn, RF-nin «ƏAF haqqında» Qanununda bu vəzifələrə, həmçinin DİO-ya fərdi detektiv və mühafizə fəaliyyəti ilə məşğul olmaq üçün icazənin alınması xahişi ilə müraciət edən şəxslərin yoxlanması da aid edilir.

«ƏAF haqqında» Qanunun 11-ci maddəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərində bu maddədə nəzərdə tutulmuş səbəb və əsaslar olmalıdır ki, onlar da dərslikdə öz əksini tapmışdır.

Əməliyyat-axtarış tədbirlərinin məqsədi onun əldə olunmasına yönəlmiş proqnozlaşdırılmış nəticədir. Məqsədə konkret əməliyyat marağı kəsb edən məlumatların toplanması vasitəsilə nail olunur və xüsusi vəzifələrin həlli həyata keçirilir.

Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin səmərəliliyi xeyli dərəcədə əməliyyat aparatı əməkdaşları tərəfindən müəyyən hərəkətlərin bacarıqla əlaqələndirilməsindən (uzlaşdırılmasından) asılıdır, bunlara konspirasiya fəndləri və faktiki məlumatların toplanması, qeydiyyatı, yoxlanması və istifadə edilməsi üsulları daxildir. Əməliyyat-axtarış tədbirlərinin xüsusiyyətlərindən biri pərdələnmə üsullarından istifadə etməkdir (məsələn, əməliyyat işçisinin onun keçirildiyi yerdə iştirak etməsi və yaxud onun şəxsiyyətinin və tədbirin məqsədinin gizli saxlanılması).

ƏAF sahəsində qanunvericiliyə müvafiq olaraq ("ƏAF haqqında" Qanunun 14-cü maddəsinin VIII, IX hissələri) qeyd edilir ki, əməliyyat-axtarış tədbirləri zamanı istifadə olunan və yaxud istifadə olunmuş qüvvələr, vasitələr, habelə, onların keçirilməsinin təşkili və taktikası barədə məlumatlar dövlət sirrinin bir növü kimi mühafizə olunur. Bu maddənin X hissəsində qeyd olunur ki, ƏAF subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxsin yazılı razılığı ilə qanunvericilikdə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər. Bununla əlaqədar konspirasiya qaydalarına riayət edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu ondan ibarətdir ki, əməliyyat-axtarış tədbirlərini həyata keçirərkən, onların təşkili və taktikası, tətbiq olunan qüvvə, vasitə və metodlar cinayəti hazırlayan və ya törədən şəxslərdən gizli saxlanılır.

**ƏAO əməkdaşları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində "ƏAF haqqında" Qanunun 7-ci maddəsinə əsasən aşağıdakı hüquqlara malikdirlər:**

- «ƏAF haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;

- ƏAF subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və əvəzsiz qaydada əməkdaşlıq etmək;

- ƏAF-ni təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək;

- ƏAF zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakdan istifadə etmək;

- konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə ƏAF subyektlərinin müvəkkil edilmiş şəxslərin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi prosesində gizli məlumatın alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (NK) tərəfindən müəyyən edilmişdir.

«ƏAF haqqında» Qanunun 14-cü maddəsinin IV hissəsinə əsasən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoçəkilişdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilir.

Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı subyektlərin, yəni onları bilavasitə həyata keçirən şəxslərin rolu və peşəkarlıq səviyyəsi mühüm əhəmiyyət kəsb edir. Əməliyyat-axtarış işinin subyektləri kimi konkret ƏAO-nun (DİN-də BCA MCM, NM, İAQM və s.) əməkdaşları, vəzifəli şəxsləri çıxış edir. Onlar əməliyyat-axtarış aparatının tərkibinə daxildirlər.

Müxtəlif səbəblərə görə əməliyyat işçisinin əməliyyat-axtarış tədbirlərində iştirakı çətinləşdikdə, əməliyyat-axtarış səciyyəli vəzifələrin həlli üçün əməliyyat aparatları digər şəxslərin açıq və gizli köməyindən istifadə edə bilər. Onların bu tədbirlərə cəlb olunması qanunvericiliklə, xüsusi olaraq müəyyən olunmuş qaydada, əmr və təlimatlar əsasında və yaxud onunla məxfi əməkdaşlıq barədə razılıq əldə etmək yolu ilə həyata keçirilməlidir.

Əməliyyattrialrış tədbirlərinin keçirilməsi yalnız real əməliyyat-axtarış vəziyyətinin təhlilinə əsaslanan kompleks təşkilati üsulların hazırlanması nəticəsində planlı və konkret şəkil alır. Belə vəziyyətləri fərqləndirən cəhət kriminal hadisənin

inkişaf prosesinin gizliliyi, əməliyyat işçisi və cinayət törətməkdə şübhəli şəxsin qarşıdurmasıdır. Bu zaman əməliyyat işçisi tərəfindən müəyyən hərəkətlərin ardıcıllığı və istiqaməti, onların reallaşdırılmasının və icrasına nəzarətin optimal qaydası seçilir, zəruri hallarda əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin (maliyyələşdirmə daxil olmaqla) planı tərtib edilir və yaxud proqramı seçilir. Əgər tədbir bir neçə subyektin iştirakı ilə keçirilirsə, bu zaman tətbiq olunan xüsusi qüvvə və vasitələrə mərkəzləşdirilmiş rəhbərlik nəzərdə tutulur.

**Əməliyyat-axtarış təcrübəsinin təhlili göstərir ki, əməliyyat-axtarış tədbirlərinin növünün seçilməsinə və keçirilməsinin səmərəliliyinə aşağıdakılar təsir göstərə bilər:**

1) əməliyyat aparatının şəxsi heyətinin peşə və psixoloji hazırlığının səviyyəsi;

2) icraçıların say tərkibi (bir əməliyyat əməkdaşı, ona yardım göstərən şəxslər, əməliyyat qrupu);

3) əməliyyat-axtarış münasibətlərinə cəlb olunmuş şəxslərə peşəkar (bacarıqlı) rəhbərlik;

4) tədbirin hazırlıq dərəcəsi (şübhəli şəxs haqqında, cinayətin törədilməsi və hüquqazidd fəaliyyətin izlərinin ört-basdır edilməsinin üsulları və s. haqqında məlumatların mövcudluğu);

5) əməliyyat-axtarış fəaliyyəti obyektinin fəal müqavimət göstərməyə (mübarizəyə) hazırlığı (psixoloji hazırlığı, əməliyyat işinin üsulları və metodları haqqında məlumatlığı, əks tədbirlərin həyata keçirilməsi və s.);

6) nəticələrin cinayət prosesində istifadə olunmasının mümkünlüyü ilə bağlı hallar.

Göstərilən elementlərin ardıcıl olaraq yerinə yetirilməsi fəaliyyətin əsas sahələrini əhatə edən məntiqi silsilə təşkil edir.

**“ƏAF haqqında“ Qanunun 10-cu maddəsinə əsasən aşağıdakı əməliyyat-axtarış tədbirləri həyata keçirilir:**

1. Vətəndaşların sorğusu;
2. Soraqlaşma;
3. Telefon danışıqlarına qulaq asma;
4. Poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;
5. Texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

6. Məhkumların məktublarının yoxlanılması;

7. Nəqliyyat vasitələrinə baxış keçirilməsi;

8. Binalara, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərin, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;

9. Binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;

10. İnsanların güdülməsi;

11. Şəxsiyyətin eyniləşdirilməsi;

12. Nəzarət qaydasında mal alınması;

13. Əşya və sənədlərin tədqiqi;

14. Müqayisəli tədqiq üçün nümunələrin toplanması;

15. Nəzarətli göndəriş;

16. Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;

17. Hüquqi şəxsin yaradılması;

18. Əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

Bu siyahı tamdır. Onu dəyişdirmək və ya ona əlavə etmək yalnız Qanun vasitəsilə mümkündür. CPM-in 445.1.5-ci maddəsində qeyd edilən əməliyyat-axtarış tədbiri bu siyahıya daxil edilməmişdir və bununla bağlı bir sıra elmi araşdırmalar aparılıb və təklifər verilmişdir. Məhz onun nəticəsində qanunvericilikdə olan dəyişiklərə əsasən qeyd edilən tədbirin obyektlərin dairəsi genişləndirilmiş və 10-cu maddənin I hissəsinin 9-cu bəndi ilə də əhatə edilmişdir.

Bununla belə, ƏAF təcrübəsinin və qanunun təhlili əsasında belə fikir söyləmək olar ki, "ƏAF haqqında" Qanunda əməliyyat-axtarış tədbirlərinin siyahısının təkmilləşdirilməsi, onların məzmununun tutumunun açıqlanması, əməliyyat-axtarış fəaliyyətinin metodlarının bir qisminin əhatə olunmasına, həmçinin bir sıra əməliyyat-axtarış tədbirlərinin (məsələn, müşahidənin vizual və ya elektron-texniki tətbiqi məsələlərinin) həyata keçirilməsi şərtlərinin yüngülləşdirilməsinə ehtiyac vardır və cinayət-hüquq siyasəti, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi baxımından əsaslıdır.

**Həyata keçirilməsinin mümkünlüyündən asılı olaraq əməliyyat-axtarış fəaliyyətində bütün göstərilən əməliyyat-axtarış tədbirlərini şərti olaraq iki qrupa bölmək olar:**

1) vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan;

2) vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran.

***Birinci qrupa bunları aid etmək olar*:** vətəndaşların sorğusu, soraqlaşma, müqayisəlli tədqiq üçün nümunələrin toplanması, nəzarət qaydasında mal alınması, əşya və sənədlərin tədqiqi; şəxsiyyətin eyniləşdirilməsi, cinayətkar qruplara, kriminogen obyektlərə daxil edilməsi, nəzarətli göndəriş, əməliyyat eksperimenti və s.

**İkinci qrupa insan və vətəndaşın konstitusion hüquqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri aiddir:** insanların güdülməsi, binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə , qurğulara, torpaq sahələrinə daxil olma və baxış keçirmə, nəqliyyat vasitələrinə baxış keçirilməsi, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, telefon danışıqlarına qulaqasma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması, texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerlərinə və s. obyektlərə müşahidə edilməsi və s.

ƏAT-nin təsnifatı digər əsaslar üzrə də keçirilə bilər. Bu tədbirlərin təşkili və keçirilməsinin çətinliyindən asılı olaraq onları ***sadə*** və ***mürəkkəb*** tədbirlərə ayırmaq olar. ***Sadə tədbirlərə*** əməliyyat işçisi əlavə qüvvə, vasitə, cəlb etmədən bilavasıtə özü tərəfindən keçirilən tədbirləri (vətəndaşların sorğusu, soraqlaşma, şəxsiyyətin eyniləşdirilməsi, müqayisəli tədqiq üçün nümunələrin götürülməsi və s.) aid etmək olar.

***Mürəkkəb tədbirlərə*** onun təşkili və keçirilməsinə əlavə əməliyyat işçilərinin, məxfi əməkdaşların, mütəxəssislərin, vətəndaşların və digər HMO-nun əməkdaşlarının cəlb edilməsi, həmçinin tədbirlərin keçirilməsi prosesində müxtəlif əməliyyat kombinasiyaların və pərdələndirmə üsullarının tətbiqi, yüksək dərəcədə konspirativliyin təmin edilməsi şərtləri tələb edən tədbirləri (güdmə, nəzarətli göndəriş, əməliyyat eksperimenti, cinayətkar qruplara və kriminogen obyektlərə daxil edilmə vəs.) aid etmək olar.

ƏAT-ni ***konsperativlik***[1] dərəcəsinə görə də qruplaşdırmaq olar.

1 Konspirativlik latınca “konspiratiya”sözü olub, gizli, rəsmi hakimiyyət dairələrindən və kənar şəxslərdən gizli mənada başa düşülür.

I qrupa həm açıq, həm də gizli qaydada keçirilən tədbirləri (vətəndaşların sorğusu, müşahidə, soraqlaşma, müqayisəli tədqiq üçün nümunələrin götürülməsi, nəzarət qaydasında mal alınması, şəxsiyyətin eyniləşdirilməsi və s.) aid etmək olar.

II qrupa yoxlanılan, tədqiq olunan şəxsdən yalnız gizli keçirilən tədbirləri (poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, telefon danışıqlarına qulaq asma, cinayətkar qruplara, kriminogen obyektlərə daxilolma, insanların güdülməsi və s.) aid etmək olar.

ƏAT-nin keçirilmə ***müddətinin davamlığından*** asılı olaraq ***qısa müddətli*** (vətəndaşların sorğuda soraqlaşma, müqayisəli tədqiq üçün nümunələrin götürülməsi və s.) və müəyyən ***vaxt həddində davam edən*** tədbirlər (telefon danışıqlarına qulaq asma, insanların güdülməsi, müxtəlif obyektlərə müşahidə və s.) kimi də qruplaşdırmaq olar.  Bu məsələlərin də normativ qaydada tənzim edilməsinə ehtiyac vardır.

ƏAT-nin ***digər əlamətlərə*** (ona bilavasitə həyata keçirmək səlahiyyəti olan və səlahiyyəti olmayan, ƏAF-nin subyektinin qərarı və hakimin qərarı ilə həyata keçirilməsi və s.) görə də təsnifəşdirmək olar. Belə təsnifəşdirmə kifayət dərəcədə şərti səciyyə daşıyır, belə ki, bu və ya digər tədbir eyni əsas və əlamətlərə görə bu və ya digər qrupa aid edilə bilər.

Bir sıra ƏAT CPM ilə nəzərdə tutulmuş istintaq hərəkətləri ilə oxşardırlar. Belə oxşarlıq ondan ibarətdir ki, onların hər ikisində dərketmənin fərdi metodlarından istifadə edilir. Məhz ona görə ƏAT ilə istintaq hərəkətlərinin mahiyyət səciyyəli analogiyasına dair fikir söyləmək olar. ***Məsələn, sorğu əməliyyat-axtarış tədbiri öz məzmununa, istifadə edilən dərk etmək metoduna və bir çox cəhətlərinə görə dindirmə istintaq hərəkətinə, şəxsin eyniləşdirilməsi tanınmaya, müqayisəli tədqiq üçün nümunələrin götürülməsi prosessual qaydada nümunələrin götürülməsinə və s. oxşardır.***

Lakin qeyd edilən ƏAT mühüm dərəcədə istintaq hərəkətlərindən onların keçirilməsinin əsaslarına, subyektlərinə, təşkili və taktiki məsələlərinə, hüquqi nəticələrinə və prosessual formalarına görə fərqlənir. İstintaq hərəkətləri (bəziləri istisna olmaqla) yalnız cinayət işi başlandıqdan sonra həyata keçirilirsə, əməliyyat-axtarış tədbirləri icraatda cinayət işləri olan və olmayan hallarda keçirilə bilər onların keçirilməsi üçün səbəb və əsaslar əsas etibarı ilə fərqlidir. ƏAT açılmış əməliyyat qeydiyyat işi çərçivəsində (bu məsələ ilə bağlı elmi-nəzəri əsalar, təcrübə və qanunvericilik arasında ziddiyyətlər-problemlər mövcuddur ) həyata keçirilir.

**İstintaq hərəkətlərinin nəticələri sübut qüvvəsinə malik olduğu halda, ƏAT-nin nəticələri yalnız prosessual qaydada rəsmiləşdirildikdən sonra sübut qüvvəsinə malikdir. İstintaq hərəkətləri və ƏAT müxtəlif subyektlər tərəfindən həyata keçirilir. İstintaq hərəkətlərinin keçirilməsi proseduru CPM ilə, ƏAT-nin keçirilməsi proseduru isə ƏAF-nin subğyektlərinin idarədaxili normativ aktları ilə müəyyən edilir. Bundan əlavə, bir sıra ƏAT istintaq hərəkətləri ilə heç bir oxşarlığa malik deyildir və yalnız ƏAF-nin subyektlərinə xasdır və onların istifadə edildiyi dərkedilmə metodları, cinayət prosesində yol verilməyən, məlumatların gizli əldə edilməsi fənd və üsullarına əsaslanır.**

## § 2. Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirləri

Bu tədbirlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar insan və vətəndaşın yaşayış yerlərinin, o cümlədən mənzilinin toxunulmazlığı, yazışmasının, telefon danışıqları hüququnun bilavasitə toxunulmazlığını pozmur. Bundan başqa, əməliyyat-axtarış şəraiti nəzərə alınmaqla bu tədbirlərin bəzilərinin açıq keçirilməsinə yol verilir.

***Vətəndaşların sorğusu*** - *əməliyyat-axtarış fəaliyyətinin konkret vəzifələrinin həll edilməsi üçün vacib olan məlumatların əldə edilib öyrənilməsi məqsədilə belə məlumatların daşıyıcısı ehtimalı olan şəxslərlə aparılan xüsusi söhbətdir* (məsələn, cinayət haqqında, onu törədən şəxslər, cinayətkar fəaliyyətin izləri və s. barədə). İnsanlarla sorğunun keçirilməsinə yalnız onların söhbət etmək üçün verdiyi razılıq şərti ilə icazə verilir. Bu zaman əməliyyat işçisi söhbəti şəxsən apara bilər və yaxud onun aparılmasını başqa vəzifəli şəxsə tapşıra bilər. Əgər tədbirin keçirilməsi başqa şəxsə tapşırılsa, bu zaman o, ƏAO-nun səlahiyyətli əməkdaşı tərəfindən ətrafı təlimatlandırılır. Sorğunun cinayətkarlığa meyli olan və ya kriminal mühitlə əlaqəli olan, cinayətin hazırlanmasında və ya törədilməsində şübhəli olan, ƏAO üçün maraq doğuran məlumata malik şəxslər arasında keçirilməsi daha səmərəlidir. Şəxslə xüsusi olaraq təşkil edilmiş söhbətin səmərəliliyi ona hazırlıqdan, şəxslə tanışlıq dərəcəsindən, onun psixoloji keyfiyyətlərindən, cinayətkarlığa və şübhəli şəxsə münasibətdən, hüquq-mühafizə orqanlarına qarşı loyallığından (xeyirxah münasibətdən) və s. amillərdən asılıdır. Sorğunun keçirilməsi zamanı həyata keçirilən tədbirin qeyd edilməsinin və bu zaman alınmış məlumatların həm açıq, həm də gizli istifadəsi mümkündür

(maqnitofonlar, videokameralar, diktofonlar və s.istifadə etməklə). Sorğu apararkən, ƏAO əməkdaşları söhbətin gedişini proqnozlaşdıra bilərlər. Bu tədbirin keçirilməsinin əsl məqsədinin və əməkdaşların şəxsiyyətinin, peşə mənsubiyyətinin gizlədilməsinə qanunvericilikdə yol verilir.

Bir sıra xarici dövlətlərdə (o cümlədən RF-də) sorğunun aparılmasında müvafiq idarə səciyyəli normativ aktlara əsaslanaraq, poliqrafdan və hipnozdan (şahidlərə, zərərçəkən şəxslərə, onların könüllü razılığı ilə tətbiq edilir) istifadə edilir. Bu tədbir "ƏAF haqqında" Qanun qəbul edilənədək ƏAF nəzəriyyəsi və təcrübəsində **«kəşfiyyat sorğusu»** adlanırdı və əməliyyat-axtarış fəaliyyətinin metodlarına aid edilirdi və təcrübədə onun təşkili və taktikasının elmi-nəzəri əsaslarına istinad edilirdi, həmçinin qüvvədən düşmüş CPM-in ümumi müddəaları rəhbər tutulurdu.[1] Qeyd edilən metod cinayətkarlığa qarşı mübarizə təcrübəsində əməliyyat-marağı kəsb edən məlumatların əldə edilməsində çox geniş istifadə edilən taktiki üsullardan biri kimi dəyərləndirilirdi və böyük əhəmiyyətə malik idi. Bu metod bu gün zərrə dərəcədə də öz əhəmiyyətini itirməmiş və onun tətbiq ediməsində əməliyyat işçisinin taktiki baxımdan geniş yaradici tətbiq etmə imkanları vardır. Bu tədbirlərin tətbiqinin nəticələri mühüm dərəcədə onun həyata keçirilməsi prosesində müasir psixologiya elm sahəsinin biliklərindən istifadə edilməsi ilə də sıx bağlıdır.

«ƏAF haqqında» Qanununda təsbit edilmiş bu tədbirin məzmun tutumu ***adi*** söhbət kimi deyil, kəşfiyyat səciyyəli ***xüsusi*** söhbət kimi başa düşülməlidir. Onun təşkili, həyata keçirilməs taktikaları, mahiyyəti, məqsədi, subyektləri, obyektləri və s. cəhətləri (xüsusiyyətləri) digər insan fəaliyyət sahələrində (tibbi sahəsində, gömrük işində, vergi işində, təhsil işi, jurnalistika və s.) həyata keçirilən sorğulardan mühüm dərəcədə fərqlənir.

**Sorğunu aşağıdakı növləri vardır**:

-*açıq;*

-*gizli;*

-*şifrələnmiş;*

-*əfsanələşdirilmiş;*

-*hipnozdan istifadə edilməsi;*

-*poliqraf*[2] *sorğusu.*

1 Ş.İ.Hüseynov. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Dərs vəsaiti, səh. 112. Mütərcim. B. 2008.

2 Poliqraf – polygraphia – yunan sözündən götürülmüşdür, çoxyzma mənası verir. ƏAF-də sorğunun şəxsin razılığı ilə xüsusi cihazın *(qurğunun) istifadə edilməsi ilə həyata keçirilməsi başa düşülür.

***Sorğunun hansı növünün seçilib tətbiq edilməsi, konkret əməliyyat şəraiti və vəziyyətindən, sorğu aparılan şəxsin kriminallıq dərəcəsindən, şəxsiyyət- psixoloji keyfiyyətlərindən, hüquq sahəsində məlumatlılığından, intellektuallığından, ailəyə, həyata və cəmiyyətə baxışından, dünyagörüşündən, HMO-ya olan münasibətindən, hansı psixi tipə məxsusluğundan, milliyyətindən və bununla bağlı adət və ənənələrdən, dinə münasibətindən, öyrənilən və tədqiq olunan hadisələrə, faktlara, şəxslərə münasibətindən və s. amillərdən də asılıdır.***

**Sorğunun subyektləri**:

*– əməliyyat aparatlarının əməkdaşları, ƏAF-nin subyektlərinin vəzifəli şəxsləri;*

*– HMO-nun digər xidmətlərinin əməkdaşları (ƏAF həyata keçirilən bölmənin vəzifəli şəxslərinin tapşırığı ilə və ya təxirəsalınmaz hallarda hüquqi mənbələrdə müəyyən edilmiş qaydada müstəqil);*

*– ƏAF-nin subyektlərinə məxfi əməkdaşlıq edən şəxslər (ƏAF-nin tapşırığı ilə və ya təxirə salınmaz hallarda normativ aktlarla müəyyən edilmiş qaydada);*

*– ƏAF-nin subyektlərinə köməklik göstərməyə könüllü razılıq verən şəxslər (hüquqi mənbələrdə göstərilən şərtlərlə və qaydada) və s.*

**Sorğunun nəticələri raport, arayış, şifahi ərizə protokolları və izahatlarla rəsmiləşdirilə bilər.** Əgər söhbət açıq formada keçirilirsə, əldə edilmiş məlumatlar yazılı izahatla rəsmiləşdirilə bilər və bu halda iş üçün əhəmiyyət kəsb edən məlumatlar əldə edilməlidir. Arayışda və yaxud raportda onun gedişi, nəticələri, aparılma şəraiti və sorğu aparılan şəxs barədə bütün müəyyənləşdirilmiş məlumatlar əks olunur. Mütləq şəxsin hüquq-mühafizə orqanının maraqlandığı hadisənin hansı şəraitdə şahidi olduğunu qeyd etmək lazımdır. Arayışa (raporta) sorğu nəticəsində alınmış sənədlər, habelə əşyalar, sxemlər, audio və videolentlər və s. əlavə edilməlidir. Sözsüz ki, raportda sorğunun keçirilməsi səbəb və üsullarına istinad edilməlidir. Sorğunun keçirilməsində aşkar və gizli qaydada tətbiq edilən texniki vasitələr və onlardan istifadə edilməsi nəticəsində əldə edilən məlumatlar qeydə alınır.

***Texniki vasitələrin tətbiq edilməsi nəticəsində əldə edilən məlumatların qeydə alınması, sənədləşdirilməsi və ondan cinayət prosesində və digər istiqamətlərdə istifadə edilməsi qaydaları ƏAF-nin subyektlərinin idarədaxili normativ aktlarla müəyyən edilir.***

***Soraqlaşma tədbiri dedikdə – əməliyyat marağı kəsb edən şəxslər və faktlar barəsində məlumatların qanunvericiliyin tələbləri rəhbər tutulmaqla müxtəlif in-***

***formasiya sistemlərindən əldə edilməsi, əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həlli məqsədilə aşkar və ya qeyri-aşkar üsullarla belə məlumatları özündə əhatə edən sənədlərin bilavasitə öyrənilməsi, həmçinin dövlət və qeyri-dövlət orqanlarına, təşkilat və müəssisələrinə sorğuları göndərməklə belə məlumatların əldə edilməsi başa düşülür.***

**Bu tədbiri keçirmək səlahiyyəti olan subyektlərə** bir qayda olaraq əsasən ƏAF-nin subyektlərinin səlahiyyətli vəzifəli şəxsləri, (məsələn, DİO-da cinayət axtarış, narkotiklərə qarşı mübarizə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, gömrük hüquqpozmalarına qarşı mübarizə, xüsusi xidmətlərin əməliyyat bölmələrinin və s. vəzifəli şəxsləri) həmçinin onlarla məxfi əməkdaşliq edən şəxslər aid edilir. Tədbirlər onun keçirilməsinin məqsədi, şəraiti, konspirativliyi, mürəkkəbliyi və s. amillərdən asılı olaraq qanunvericiliyin tələbləri rəhbər tutulmaqla HMO-nun digər vəzifəli şəxsləri, ƏAF-nin subyektləri ilə məxfi və ya qeyri-aşkar əsaslarla əməkdaşlıq edən şəxslər tərəfindən həyata keçirilə bilər. Tədbirin keçirilməsi prosesində onun subyekti öz şəxsiyyətini, idarə mənsubiyyətini əfsanələşdirə, həmçinin tədbirin məqsədini pərədəndirə bilər.

***Soraqlaşma ƏAF- vəzifələrinin həlli məqsəd və vəzifələrinin həllinə xidmət edir və onun tətbiqində ƏAF subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslərin imkanlarından da istifadə edilir.***

Bu tədbirin keçirilməsi prosesində qeydiyyat, mühasibat, kadrların uçot sənədləri və s. təhlil edilir. Məlumatın alınmasının məqsədlərindən və şərtlərindən asılı olaraq, daimi və müvəqqəti yaşayış yerlərinə dair sənədlər (mehmanxana, sanatoriya, xəstəxana və s.), müəssisənin təsərrüfat fəaliyyətini xarakterizə edən sənədlər, habelə arxiv mənbələri öyrənilib təhlil edilə bilər. ***Əgər ƏAO-nun əməkdaşı tərəfindən soraqlaşma prosesində lazımi məlumat əldə olunubsa, tədbirin nəticələri arayış, raport vasitəsilə rəsmiləşdirilir.***

**Soraqlaşma tədbirləri bu ünvanlara sorğu göndərməklə həyata keçirilə bilər:**

a) məlumat-büro xidmətlərinə (onlarda qeydiyyatlar, kartotekalar, məlumatlar bankı vardır);

b) əməliyyat-axtarış orqanlarına (qarşılıqlı əlaqələr və əməliyyat marağı kəsb edən məlumatlarla mübadilə prosesində);

c) digər təşkilatlara, idarələrə, müəssisələrə (psixiatrik xəstəxana, şübhəli şəxsin iş yeri, mənzil istismarı sahəsi, hərbi çağırış və səfərbərlik orqanlarına, narkoloji dispanser, telefon-rabitə şəbəkələri və s.). Nəzərdən keçirilən əməliyyat-axtarış tədbirləri yoxlanılan şəxs barədə bioqrafik məlumatların, habelə qohumluq əlaqələri, peşəsi, maddi vəziyyəti, məhkumluğu, əməliyyat marağı baxımından əhəmiyyət kəsb edən və s. barədə məlumatların toplanmasını nəzərdə tutur. Bu məlumatların əsasında onun hüquqazidd fəaliyyətinin əlamətlərini aşkar edib müəyyənləşdirmək mümkün olur.

Bu tədbirin keçirilməsi və qarşıda duran vəzifələrinin həlli məqsədilə əməliyyat işçisi və ya onunla məxfi əməkdaşlıq edən şəxs vətəndaşların sorğusu (kəşfiyyar sorğusu) ƏAT-dən istifadə edilə bilər.

Mövcud qanunvericiliyə müvafiq olaraq bəzi məlumatların toplanmasının, yəni dövlət, istintaq, kommersiya, jurnalist, vəkil, bank, həkim, notariat, övladlığa götürmə və digər sirlərdən ibarət olan məlumatların əldə edilməsinin xüsusi rejimi müəyyən edilmişdir. Belə məlumatların vətəndaşların razılığı olmadan təqdim edilməsinə qanunvericiliklə müəyyən edilmiş qaydada yalnız məhkəmənin, prokurorluğun, ibtidai araşdırma orqanlarının rəsmi müraciəti (qərarları) əsasında icazə verilir.

Əməliyyat aparatlarının əməkdaşları bu tədbirin təşkili və tətbiqi məsələlərini mənimsəyərək mövcud əməliyyat vəziyyətlərinə yaradıcılıqla yanaşaraq təcrübi fəaliyyətdə çoxsaylı qeyri-aşkar şəraitdə tərədilmiş cinayətlərin açılmasına nail olurlar. **Qısaca olaraq aşağıdakı misalı göstərmək olar.**

**“H” şəhərinin polis idarəsinin narkoiklərlə mübarizə şöbəsinin əməkdaşı tərəfindən əməliyyat-qeydiyyat işi çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əldə edilmiş məlumatlara əsasən müəyyən edilməşdir ki, “Qara” ləqəbli bir şəxs, İİR-dən qaçaqmalçılıq yolu ilə ölkəyə narkotik vasitələr gətirir və satışını təşkil edir. Onun şəxsiyyətini müəyyən etmək üçün soraqlaşma əməliyyatı tədbirindən istifadə etməklə DİN-nin və ərazi polis orqanlarının “ləqəblər” və xüsusi əlamətlər üzrə informasiya sistemlərindən “Qara” ləqəbli şəxsin şəxsiyyəti müəyyən edilmişdir.**

**Əmətrialt qeydiyyat işi çərçivəsində həyata keçirilən əməliyyat axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil cinayətkar qrupun üzvləri müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmişdir. Cinayətkar qruplaşmalara daxil olan digər şəhər sakinlərindən**

**2 nəfərinin şəxsiyyəti müqayisəli tədqiq üçün nümunələrinin götürülməsi ƏAT keçirməklə əl barmaq izlərinin əldə edilməsi və BƏSİİ –də qeydiyyatda olan əvəllər məhkum olunmuş şəxslərin əl barmaq izləri ilə eyniləşdirməsi həyata keçirməklə müəyyən edilimişdir.**

**"ƏAF haqqında" Qanunnun 16-cı və CPM-nin 124, 137-ci maddələrinin müddəaları rəhbər tutulmaqla həyata keçirilən prosessual və istintaq hərəkətləri, həmçinin ƏAT nəticəsində cinayətin bütün iştirakçıları müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmişdir.**

**Müqayisəli tədqiq üçün nümunələrin toplanması** – müxtəlif maddi obyektlərin müəyyən edilməsi və tanınması üçün onların ƏAO-da olan analoqları ilə eyniləşdirilməsi (indentifikasiyası) məqsədilə aşkar edilməsi və götürülməsi kimi başa düşülür.

«Bu tədbir əməliyyat marağı kəsb edən məlumatların daşıyan maddi obyektlərin aşkar edilib tədqiq edilməsi (kriminalistik və s. növ tədqiqatlar keçirməklə, həmçinin eyniləşdirmə və s. tədbirlər) yolu ilə müəyyənləşdirilməsi məqsədilə götürülməsini (toplanmasını) nəzərdə tutur.

***Bu tədbirin obyektlərinə aşağıdakıları aid etmək olar:***

- *cinayətlərin törədilməsində əsaslı şübhə doğuran şəxslər;*
- *şəxsiyyəti bəlli olmayan meyitlər;*
- *cinayətkar fəaliyyətlə bağlı məlumat daşıyıcıları olan əşyalar, maddələr, sənədlər və digər kriminogen obyektlər.*

**Toplanan nümunələrin növləri müxtəlif ola bilər və onlar aşağıdakı qaydada qruplaşdırıla bilər:**

***Götürülən nümunələrin növləri çox geniş ola bilər və onları şərti olaraq iki qrupa bölmək olar:***

- *müqayisəli tədqiq (eyniləşdirmə) üçün etalon qismində istifadə olunan əşya və maddələr (insanın fizioloji komponentləri, qan, tüpürcək, əl barmaq izləri, saç, səs, xətt; ayaqqabı və nəqliyyat vasitələrinin izləri, mikroobyektlər və s.;*
- *tam hissənin tərkib hissəcikləri olan və müstəqil olaraq müqayisəli tədqiq üçün istifadə edilən obyektlər (mülki dövriyyədən götürülmüş əşyalar: silahlar, döyüş sursatları, narkotik vasitələr; xammal, yarımfabrikatlar və hazır məhsullar; mühasibat uçotu sənədləri, kompüter proqramları və fayllar, oğurlanmış əşyalar və s.).*

Tədbirin adı süni olaraq onun məzmun və mahiyyətini məhdudlaşdırır, belə ki, nümunələr yalnız müqayisəli tədqiq üçün deyil, həmçinin istənilən digər kriminalistik tədqiqat üçün də (məsələn, götürülən maddənin növünü, tərkibini, mənşəyini və s. xassələrini müəyyən etmək məqsədilə) götürülə bilər.

***Bu tədbirin keçirilməsinin əsas məqsədi digər əşya və sənədlərin tədqiqi, ƏAT-nin keçirilməsi üçün zəruri olan obyektlərin (materialların) əldə edilməsidir. Qeyd edilən tədbir müstəqil dərketmə əhəmiyyətinə malik deyil və ƏAF-də köməkçi (yardımçı) rolunu oynayır.***

***İlkin əməliyyat vəziyyətindən asılı olaraq tədbir, aşkar, gizli və pərdələndirilmiş (şifrələnmiş) qaydada müxtəlif taktiki fənd və üsullardan istifadə etməklə həyata keçirilə bilər.***

**Bu tədbirin keçirilməsi subyektlərinə qanunvericiliklə müəyyən olunmuş qaydada əməliyyat aparatlarının və HMO-nun digər vəzifəli şəxslərini, peşə vərdişlərinə malik olan mütəxəssisləri, kriminalistləri, tibbi işçilərini, informasiya-proqram təminatı ilə məşğul olan işçiləri və s. aid etmək olar. Zərurət olan hallarda bu tədbirin keçirilməsinə ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlıq edən şəxsləri də cəlb etməkdir. Belə halda tədbirlərin təşkili və keçirilməsi qaydaları idarədaxili normativ aktlarla tənzimlənir.**

Əgər cinayət işi başlandıqdan sonra müqayisəli tədqiq üçün nümunələr götürülmüş obyektlər öz halını (vəziyyətini) itirmişdirsə, belə halda, ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlar vasitəsilə alınan nümunələr istisna olmaqla, bu tədbirin nəticələri ibtidai araşdırmada istifadə edilə bilər.

***Bu tədbirin keçirilməsinin təşkili və taktiki məsələləri ƏAF-nin subyektlərinin idarədaxili normativ aktları ilə tənzimlənir.***

**Toplanan nümunələrə müxtəlif obyektlər aiddir:** əl-barmaq və ayaq izləri, tük, səs, qan, xətt, nəqliyyat vasitələrinin izləri, xammal, yarımfabrikatlar, hazır məhsul, narkotiklər və s. Nümunələrin götürülməsi akt, daktiloskopik cədvəl və yaxud digər əməliyyat xidməti sənədləri (raport, arayış və s.) ilə rəsmiləşdirilir. Bu zaman götürülmüş sənədlər onların saxlanılması məqsədi ilə sistemləşdirilir, onun keçirilməsinin konspirativliyindən asılı olaraq tədbir iştirakçılarının (mütəxəssislərin, hal şahidlərinin) imzaları ilə təsdiqlənir və onlar müəssisənin, idarənin möhürü ilə möhürlənir.

Nümunələrin toplanması prosesində vətəndaşların sağlamlığına təhlükə yaradan, onların ləyaqətini alçaldan, müəssisələrin, təşkilatların normal fəaliyyətini çətinləşdirən, habelə ayrı-ayrı şəxslərin həyat fəaliyyətini pozan hərəkətlərə yol vermək olmaz.

ƏAO əməkdaşları toplanmış nümunələrin tədqiqi məqsədilə çatdırılması üçün lazımi idarələri, müəssisələri seçir (kriminalistik tədqiqatlar idarəsi, elmi-tədqiqat institutları və laboratoriyaları, istehsal edən zavodlar və s.). İdarə və müəssisəni seçərkən qoyulmuş məsələnin həlli üzrə onun mütəxəssislərinin imkanları və səlahiyyətləri nəzərə alınır.

**“M” polis idarəsinin narkotiklərlə mübarizə şöbəsinin əməliyyat işçisinin icraatında olan əməliyyat qeydiyyat işi çərçivəsində həyata keçirilən əməlyyat axtarış tədbirləri nəticəində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil cinayətkar qrupun üzvləri müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmişdir. Cinayətkar qruplaşmalara daxil olan digər şəhər sakinlərindən 2 nəfərinin şəxsiyyəti müqayisəli tədqiq üçün nümunələrinin götürülməsi ƏAT keçirməklə əl barmaq izlərinin əldə edilməsi və BƏSİİ –də qeydiyyatda olan əvvəllər məhkum olunmuş şəxslərin əl barmaq izləri ilə eyniləşdirməsi həyata keçirməklə müəyyən edilimişdir**.

**Nəzarət qaydasında mal alınması**. Bu əməliyyat-axtarış fəaliyyəti prosesində malların, əşyaların və ya maddələrin ticarət qaydalarının gözlənilməsinin, maliyyə, təsərrüfat və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin yoxlanılması, habelə dövriyyəsi (satışı) məhdudlaşdırılmış və ya qadağan olunmuş əşyaların və maddələrin yayılması, satışı faktlarının aşkar edilməsi (qiymətli metallar, narkotik maddələr, silah, döyüş sursatı, radioaktiv maddələr, zəhərlər və s.) məqsədilə alınmasıdır.

Əslində bu, hüquq-mühafizə orqanları tərəfindən alqı-satqı aparmaq görünüşü altında keçirilən müəyyən bir tədbirdir və bütün hallar üçün hüquqi nəticələrin baş verməsi niyyətini nəzərdə tutmur. Bu cəhəti bu növ əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin planlaşdırılmasında və onun hüquqi nəticələrinin qiymətləndirilməsində nəzərə almaq lazımdır, çünki onun aparılması bir sıra hallarda ödənilməsi zəruri olan kifayət miqdarda maliyyə vəsaitləri tələb edir. Nəzarət qaydasında mal alınması bilavasitə əməliyyat işçiləri tərəfindən, yaxud onların tapşırığı ilə başqa şəxslər tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir və protokol (aktla) rəsmiləşdirilir. Bu tədbirin əsas məqsədi hüquqazidd əməlin aşkar edilib

sənədləşdirilməsi, o cümlədən mülki dövriyyəsi qadağan olunmuş, məhdudlaşdırılmış, əşya və maddələrin alqı-satqısı ilə məşğul olan, habelə onlarla bağlı dələduzluq cinayətləri törədən şəxsləri aşkar etmək, həmçinin ticarət sistemində istehlakçıları aldadan şəxsləri aşkar edib qanunvericiliyə əsasən məsuliyyətə cəlb edilməsini təmin etməkdən ibarətdir. Latent xarakteri cinayətlərin və onu törədən şəxslərin aşkar edilməsiində HMO-nun təcrübəsində nəzərdən keçirilən tədbirdən daha geniş istifadə edilir.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2017-ci il tarixli Fərmanı ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin və onu törədən şəxslərin aşkar edilməsi məqsədi ilə ƏAF bir sıra subyektlərinə (DİN, DTX, XKX, DGK, DSX) nəzarət qaydasında yuxarıda qeyd edilən maddə və vasitələri öz səlahiyyətləri çərçivəsində almaq hüququ vermişdir.

Bu gün ƏAF haqqında qanunvericiliyin təhlilinə, o cümlədən GM-in 214-cü maddəsinin müddəalarına əsaslanaraq gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağan olunan mallar saxta kağız və metal pullar, pornoqrafik materiallar və ya əşyalar, gömrük ərazisinə idxal və bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən qadağan olunmuş mallar ƏAF-nin səlahiyyətli subyekti tərəfindən onların səlahiyyətləri çərçivəsində nəzarət qaydasında alına bilər.

Bu tədbirin subyekti qismində (şərti alıcı qismində) əməliyyat aparatının əməkdaşı və ya onun tapşırığı ilə könüllü qaydada digər şəxslər, o cümlədən ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlıq edən şəxslər iştirak edə bilərlər.

Tədbirin gedişatı prosesində qanunvericiliklə müəyyən olunmuş qaydada xüsusi texniki vasitələrdən istifadə edilə bilər. Tədbirin keçirilməsi məqsədilə ayrılan pul vəsaitləri nişanlana bilər və bu qeyd edilənlər idarədaxili normativ aktlarda göstərilən qaydada sənədləşdirilir.

Qeyd edilən tədbirin təşkili, keçirilməsi taktikaları, rəsmiləşdirilməsi və istifadə edilməsi məsələləri də tam həcmdə idarədaxili normativ aktlarla tənzimlənir.

**Bu tədbir konfidensial qaydada həyata keçirilir və onun təşkili taktiki məsələləri idarədaxili normativ –hüquqi aktlarla tənzimlənir.**

**Etiraf etmək lazımdır ki, qeyd edilən normativ-hüquqi aktlar bu tədbirin təşkili və keçirilməsi ilə bağlı yaranan münasibətlərə tam həcmdə aydınlıq gətirmədiyindən təcrübədə bir sıra ciddi problemlər yaranır.**

**Bu tədbir latent səciyyə daşıyan cinayətlərin açılmasında mühüm əhəmiyyətə malikdir.**

**Qeyd edilənı nəzərə alaraq əyani olaraq aşağıdakı misalı nəzərdən keçirək:**

**"H" gömrük idarəsinin gömrük hüquqpozmalarına qarşı mübarizə bölməsinə daxil olan məlumata əsasən "MMC" Milli məhdud özəl şirkəti rəhbərliyi xaricdə hazırlanmış saxta aksizlə markalanmış külli miqdarda qeyri-zavod üsuli ilə alınan araq əldə edir və nisbətən ucuz qiymətə müəyyən edilmiş mağazalar vasitəsilə realizə edilməsinə nail olur. Tədbirin keçirilməsi üçün ƏAF-nin səlahiyyətli vəzifəli şəxsi tərəfindən qərar təstiq edilmiş, şərti alıcı qismində əməliyyat işçisi müəyyən edilmiş və əməliyyat qrupu yaradılmışdır. GHQM bölməsinin əməkdaşı tərəfindən vətəndaşların iştirakı ilə həyata keçirilən "nəzarət qaydasında mal alınması" ƏAT nəticəsində həmin mağazalardan 3-4 ədəd araq alınmış və onların tədqiqi nəticəsndə daxil olan əməliyyat məlumatı öz təsdiqini tapmışdır. GHQM bölməsinin təhqiqatçısı və əməliyyat işçisi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində şirkətin istifadəsində olan binanın zirzəmisindən saxta aksizlə markalanmış külli miqdarda araq aşkar edilərək götürülmüşdür. Fakt üzrə cinayət məcəlləsinin 213-1 və 320-ci maddələri ilə cinayət işi başlanılmış müstəntiq və əməliyyat işçisi tərəfindən müvafiq olaraq həyata keçirilmiş istintaq hərəkətləri və ƏAT nətiəsində mütəşəkkil cinayətkar qruplaşmanın üzvləri yaxalanaraq ifşa edilmişdir.**

**Tədbir "ƏAF haqqında" qanunun tələblərinə müvafiq olaraq həyata keçirilir. Yadda saxlamaq lazımdır ki, tədbirdə şərti alıcı qismində iştirak edən şəxs hər an satıcı və onun əlaqələri vasitəsilə yoxlanıla bilər. Bu tədbirin keçirilməsi prosesində, onun mürəkkəbliyindən, cinayətin coxşaxəli olmasından, cinayətkar qruplaşmaların mütəşəkkilliyindən asılı olaraq istintaq-əməliyyat qrypy da yaradıla bilər.**

**Əşya və sənədlərin tədqiqi** cinayətkar fəaliyyətin izi və yaxud cinayət aləti olan obyektlərin qeyri-prosessual, kriminalistik tədqiqidir. Qanunvericilikdə ƏAT-nin anlayışına aydınlıq gətirilməmişdir. Lakin ƏAF nəzəriyyəsində və həyata keçirilən elmi araşdırmalarda ƏAT-nin anlayışlarının məzmun tutumuna nəzəriyyədə də bir mənalı

olaraq aydınlıq gətirilməmişdir, müxtəlif alimlər tərəfindən bu tədbirlərin anlayışı bir sıra fərqli və ümumilikdə nisbətən oxşar məzmunla əhatə edilir.[1]

**Məsələn, bu tədbiri aşağıdakı məzmunla da əhatə etmək olar:**

*Əşya-və-sənədlərin-tədqiqi-dedikdə-–*

*-cinayətkar-fəaliyyətin-əlamətlərini-və-ona-aidiyyatı-olan-şəxsləri-aşkar-etmək-məqsədilə-digər-ƏAT-nəticəsində-əldə-edilmiş-obyektlərin-(aşkar-və-qeyri--aşkar-üsullarla)-qeyri-prosessual-kriminalistik,-elmi-texniki-və-digər-yolla-tədqiqi-başa-düşülür.-*

***Bu tədbirin obyektlərinə 2 qrup predmetləri aid etmək olar:***

*--şəxsiyyətin-eyniləşdirilməsinə-imkan-verən-vasitələr-(əl-barmaq-izləri,-qan-nümunələri,-iylər,-xətlər,-ayaqqabı,-nəqliyyat-vasitələrinin-izləri-və-s.);*

*--özündə-cinayətin-izlərini-daşıyanlar-(silah,-döyüş-sursatı,-mülki-dövriyyəsi-qadağan-olunan,-məhdudlaşdırılan-maddələr,-cinayət-alətləri,-kompüter-proqramları-və-digər).*

**Bu tədbirin məqsədi ƏAF-nin vəzifələrinin həlli üçün əhəmiyyət kəsb edən məlumatların əldə edilməsi məqsədilə bioloji obyektlərin aidiyyatını müəyyən etmək, eyniləşdirilməsini həyata keçirmək, predmetin mənşəyi, təyinatını, hazırlanma texnologiyası, yeri, vaxtını müəyyən etmək; cinayətkar fəaliyyətin izlərinin eyniləşdirilməsini həyata keşirmək, predmetin digər xassə, əlamət və xüsusiyyətlərinin müəyyən edilməsidir.**

Öz mahiyyətinə görə bu tədbir ibtidai istintaq prosesində həyata keçirilən kriminalistik və digər ekspertizalara çox oxşardır. Lakin onu fərqləndirən cəhət ondan ibarətdir ki, «ƏAF haqqında» qanunvericiliyə əsaslanaraq həyata keçirilir, nəticələri digər sənədlərlə rəsmiləşdirilir, bilavasitə sübut qüvvəsinə malik deyildir və yalnız qanunvericiliklə (CPM 137, «ƏAF haqqında» Qanun, 16 maddə və s.) müəyyən olunmuş qaydada cinayət işi üzrə sübut kimi istifadə edilə bilər.

Əşya və sənədlərin tədqiqi təcrübəsində onların tədqiqindən əvvəl müqayisəli tədqiq üçün nümunələrin toplanması kimi əməliyyat-axtarış tədbirləri keçirilə bilər. Nümunələr digər ƏAT-nin keçirilməsi prosesində də əldə edilə bilər.

Tədqiqat təhlil olunan obyektləri (informasiya daşıyıcılarını) eyniləşdirməyə, qoyulmuş suallara cavab verməyə və alınmış məlumatları əməliyyat-axtarış fəaliyyəti ilə bağlı vəzifələrin həlli üçün istifadə etməyə imkan verir. O həm kriminalistika,

1 Бах: Ш.И.Щцсейнов. «Наркотик васитялярин, психотроп маддялярин ганунсуз дювриййясиня гаршы мцбаризя: елми-нязяри, щцгуги, тяърцби аспектляри вя проблемляринин щялли. Мцтяръim няшриййаты. Бакы, 2016-ъы ил

həm də elmi fəaliyyətin başqa sahələrin nümayəndələri (kimyaçılar, bioloqlar, əmtəəşünaslar, incəsənətşünaslar və s.) tərəfindən həyata keçirilə bilər. Əşyaların, maddələrin, sənədlərin tədqiqi zamanı onların təyinatı, vaxtı, hazırlama yeri, keyfiyyəti, məzmunu, bioloji obyektlərin şəxsə məxsusluğu (qan, saç və s.) və tədqiq olunan obyektlərin digər xüsusiyyətlərinə dair məlumatlar eldə edilə bilər.

Tədqiqatın təşəbbüskarı əməliyyat işçisidir. Tədqiqat əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların yazılı tapşırığı ilə hüquq-mühafizə orqanlarının kriminalistik tədqiqat idarələri (KTİ), habelə elmi-tədqiqat institutları və idarələrinin mütəxəssisləri tərəfindən aparılır. Standartlaşdırılmış metodikalar olduqda, tədqiqatlar ƏAO əməkdaşları tərəfindən də aparıla bilər (məsələn, narkotik maddənin ekspress analizator vasitəsilə müəyyənləşdirilməsi).

İxtisaslaşdırılmış idarələr tərəfindən, habelə kriminalistik (barmaq izləri, xətt), əmtəəşünaslıq (malın keyfiyyəti, növü), mühasibat, kimyəvi və digər tədqiqatlar aparıla bilər.

Aparılmış tədqiqatın nəticələri tədqiqatı aparan şəxsin tərtib etdiyi arayışla rəsmiləşdirilir. Digər idarələrdə aparılan tədqiqatların nəticələri müvafiq idarələrin normativ aktları ilə müəyyən olunmuş sənədlərlə rəsmiləşdirilir.

**Şəxsiyyətin eyniləşdirilməsi**-*yoxlanılan-şəxsin-şəxsiyyətini-müxtəlif-əlamətlərə-görə-(barmaq-izləri,-xarici-görünüşü,-qoxusu-və-hadisə-yerində-qoyduğu-izlər-əsasında)-müəyyənləşdirilməsindən-ibarətdir.* O, bilavasitə və dolayı yolla edilə bilər. Şəxsiyyətin eyniləşdirilməsi ƏAT dedikdə cinayətkar fəaliyyətlə məşğul olan və ya axtarışda olan şəxsləri onları xarici görünüşünə (əlamətlərinə, səsinə, qoxusuna, əl-barmaq izlərinə və digər eyniləşdirmə əlamətlərinə) görə qeyri-prosessual qaydada şəxsiyyətinin müəyyən edilməsi ilə bağlı hərəkətlər başa düşülür.

Bu tədbirin məqsədi cinayət törətmiş şəxsin, naməlum meyitin şəxsiyyətinin, bu və ya digər əşyanın aidiyyatını (kimə məxsusluğunu) müəyyən etməkdən ibarətdir.

***Tədbirin keçirilməsinin xarakterindən, təşkilatı-taktiki formasından və şəraitindən asılı olaraq onun bir neçə aşağıdakı növlərini qeyd etmək olar:***

--*şəxsiyyətin-fototeka,-fotoalbom-və-HMO-nun-video-qeydiyyatları-üzrə-bilava-sitə-eyniləşdirilməsi;*

-

*- axtarılan- şəxslərin,- onların- peyda- olması- ehtimalı- olan- yerlərdə,- həmçinin-HMO-nun-saxladıqları-şəxslər-arasında-əməliyyat-axtarışının-keçirilməsinin-gedişatı-prosesində-bilavasitə-eyniləşdirmə-tədbirlərinin-həyata-keçirilməsi;*

-

- *«şifahi portretə» (fotorobota), rəsm çəkilişinə, foto şəklə, xüsusi əlamətlərə görə çoxsaylı naməlum şəxslər arasında vasitəli eyniləşdirmə hərəkətləri keçirməklə;*

– *HMO-nun əməliyyat-axtarış uçotlarında xarici əlamətlər, xüsusi əlamətlər,*

*Cinayətlərin törədilmə üsulları, «ləqəblər» üzrə axtarış hərəkətləri yolu ilə vasitəli - eyniləşdirmə tədbirləri həyata keçirməklə;*

-*xidməti-axtarış itlərinin köməyi ilə iy izlərinə əsasən şəxsiyyətin eyniləşdiril-məsi.*

Bu tədbirin subyektləri qismində əməliyyat aparatlarının əməkdaşlarından başqa HMO-nun informasiya, ekspert-kriminalistik bölmələrinin əməkdaşları, kinoloqlar, digər xidmətlərinin axtarışa cəlb edilən əməkdaşları da iştirak edə bilər.

Şəxsiyyətin eyniləşdirilməsi tədbirinə şəraitdən asılı olaraq mütləq qaydada eyniləşdirmə obyektini əvvəllər görmüş və görməyən vətəndaşlar (zərər çəkənlər, şahidlər, həmçinin HMO-ya köməklik göstərən şəxslər) də cəlb edilir.

Bilavasitə eyniləşdirmə əvvəllər axtarılan şəxslə görüşən və onun görünüşünü, xüsusi əlamətlərini yadda saxlamış şəxslər tərəfindən həyata keçirilir. Dolayı yolla eyniləşdirmə şifahi təsvir və çəkilmiş portret, fotoşəkil, fotorobot, barmaq izləri və s. ilə şəxsin tanınmasını nəzərdə tutur. Belə eyniləşdirmənin əsas şərti ondan ibarətdir ki, onun həyata keçirilməsi bir qayda olaraq yoxlanılan şəxsdən gizlin saxlanılır.

Bu tədbir həm təbii şəraitdə (cinayətkarın görünməsi ehtimal olunan yerlərdə), həm də süni surətdə yaradılan şəraitdə (məsələn, şübhəli şəxsin hüquq-mühafizə orqanlarına çağırılması) aparıla bilər. Tədbirin keçirilməsi prosesində insanların həyat və sağlamlığına, ətraf mühitə ziyan vurmayan texniki vasitələrdən istifadə edilə bilər. *Eyniləşdirmənin nəticələri əməliyyat işçisinin raportu və şəxsin tanınması üçün təqdim olunmuş fotoşəkillər, süjetlərin videoyazısı əlavə olunmuş arayışla rəsmiləşdirilir.*

Şəxsin xidməti-axtarış iti vasitəsilə iy əsasında eyniləşdirilməsi onun izinin və yaxud əşyalarının iyə görə seçilməsi yolu ilə həyata keçirilir. Belə eyniləşdirmənin nəticələri itin tətbiq edilməsi aktı ilə rəsmiləşdirilir. Bu aktı kinoloq tərtib edir. Qeyd edilən akt cinayət törətmiş şəxsin məqsədyönlü axtarışı üçün və yaxud sübut-dəlil ola bilən faktiki məlumatların əldə edilməsi üçün çox böyük əhəmiyyətə malik olaraq istiqamətləndirici səciyyə daşıyır.

Yuxarıda qeyd edilən elmi-nəzəri müddəalara və ƏAF haqqında qanunvericiliyin tələbləri nəzərə alınmaqla əməliyyat aparatlarının peşəkar əməkdaşları tərəfindən ağır

və xüsusilə ağır cinayətlərin açılmasına nail olunar. Bunu aşağıdakı misallar təsdiq edir.

**“H” şəhəri ərazisində polis orqanının istintaq bölməsində vətəndaşlara silahlı basqın etmiş 5 nəfərdən ibarət mütəşəkkil cinayətkar qruplaşma barədə bir icratda birləşdirilmiş 9 cinayət üzrə cinayət işinin istintaqı aparılırdı. Cinyətkar qruplaşmanın tərkibinə 1 nəfər cavan qadının da daxil idi. Əldə edilən məlumatlara əsasən müəyyən edilmişdir ki, onlar nəinki quldurluq cinayətləri törədir, həmçinin narkotik vasitələrin və odlu silahların dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətlə məşğul olurlar. Cinayətkarlarin müəyyən edilib cinayət məsuliyyətinə cəlb edilməsinə dair həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri lazimi nəticələr vermirdi.**

**Zərər çəkənlərlə həyata keçirilən istintaq hərəkətləri və ƏAT nəticəsində müəyyən edilmişdir ki, 5 nəfərin ifadələrinə (izahatlarına) əsasən (onların şəxsi psixoloji keyfiyyətləri və verdiyi ifadələrin reallığa yaxın olması və məzmun və mahiyyət etibarı ilə uzlaşması nəzərə alınaraq) cinayətkarlardan ikisinin, o cümlədən qadının “şifahi portreti” (fotorobotu) hazırlanmış şəhər, rayon polis orqanlarında və cəzaçəkmə müəssisələrinə istiqamətləndirmələr göndərilmişdir.**

**“M” saylı cəzaçəkmə müəssisəsində fotorobotla göstrilən əlamətlərin əsas etibarı ilə oxşarlığı olan “K” adlı məhbus eyniləşdirmə tədbiri yolu ilə müəyyən edilmişdir. Polis orqanının istintaq, cinayət axtariş bölmələrinin, həmçinin CÇM-in əməliyyat hissəsinin birgə keçirdiyi istintaq hərəkətləri (o cümlədən dindirmə, tanıma və s.) və ƏAT nəticəsində cinayətkar qruplaşmanın (bandanın) bütün üzvləri müəyyən edilmiş və cinayət məsuliyyətinə cəlb edilmişdir.**

**“H” şəhərinin polis idarəsinin narkoiklərlə mübarizə şöbəsinin əməkdaşı tərəfindən əməliyyat-qeydiyyat işi çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əldə edilmiş məlumatlara əsasən müəyyən edilmişdir ki, “H” şəhəri ərazisində polis orqanının istintq bölməsinin icraatında “valyuta” dəyişmə məntəqələrinə və vətəndaşlara silahlı basqın etmiş 4 nəfərdən ibarət mütəşəkkil cinayətkar qruplaşma barədə bir icraatda birləşdirilmiş 12 cinayət üzrə cinayət işinin istintaqı aparılırdı. Cinayətkar qruplaşmanın tərkibinə 1 nəfər cavan qadın da daxil idi. Onlar nəinki quldurluq cinayətləri törədir, həmçinin cinayətin qurbanlarını qətlə yetirir və onları zorlayırdılar. Cinayətkarların müəyyən edilib cinayət məsuliyyətinə cəlb edilməsi məqsədi ilə həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri lazımi nəticələr vermirdi. Zərər çəkənlərlə həyata keçirilən sorğular prosesində 4 nəfərin izahatlarına əsasən onların şəxsi psixoloji-keyfiyyətləri və**

**verdiyi ifadələrin reallığı və məzmun uzlaşması nəzərə alınaraq cinayətkarlardan ikisinin, o cümlədən qadının şifahi portireti (fotorobotu) hazırlanmış şəhər rayon polis orqanlarında və cəzaçəkmə müəsisələrinə istiqamətləndirmələr göndərilmişdir. "M" saylı cəzaçəkmə müəssisəsində tərtib edilmiş fotorobotda göstərilən əlamətlərlə əsas etibarı ilə oxşarlığı olan "K" adlı məhbus eyniləşdirmə tədbiri yolu ilə müəyyən edilmişdir.Axtarılan "B" polis idarəsinin fototekasında qeydə alınmış şəxslər arasında eyniləşdirmə yolu ilə müəyyən edilmişdir. Polis orqanının cinayət-axtarış bölməsinin və istintaq aparatının və cəzaçəkmə müəssisəsinin əməliyyat hissəsinin birgə keçirdiyi müvafiq istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətkar qruplaşmanın ( bandanın) bütün üzvləri müəyyən edilmiş və cinayət məsuliyyətinə cəlb edilmişdir.**

**Bu və digər çoxsaylı misallar əyani olaraq təsdiq edsir ki, ƏAF-nin elmi əsaslarının və qanunvericilik müddəalarının, informasiya sistemləri və texnologiyaların, həmçinin qabaqcıl təcrübənin əlaqəli qaydada və uzlaşdırılması əsasında ağır və xüsusilə də ağır cinayətlərin açılmasına nail olmaq olar.**

**Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilmə** əməkdaşların və onlarla məxfi əməkdaşlıq edən şəxslərin əməliyyat-axtarış fəaliyyəti vəzifələrin həlli üçün vacib olan məlumatın əldə olunması məqsədilə əfsanələşdirilmiş yolla kriminal mühitə daxil etməklə məlumatların toplanması üsuludur.

Daxiledilmə həyata keçirilərkən, əməliyyat aparatlarının əməkdaşlarının onların hüquq-mühafizə orqanlarına mənsubiyyətini, o cümlədən iş haqqında, istifadə etdikləri nəqliyyat vasitəsi və s. barədə məlumatları pərdələndirən sənədlərdən istifadə etməyə hüquqları vardır («ƏAF haqqında» Qanun, mad. 7, bənd 5).

**Subyektdən asılı olaraq iki növ daxiledilmə növləri vardır:**

1) əməliyyat-axtarış orqanı əməkdaşının tədqiqə daxil edilməsi;

2) ƏAO ilə məxfi əməkdaşlıq edən şəxsin tədqiqə daxil edilməsi.

Ştatda olan məxfi əməkdaşlar, habelə onlarla məxfilik (konspirasiya) əsasında əməkdaşlıq edən şəxslər barədə məlumatlar dövlət sirrini təşkil edir və yalnız onların yazılı razılığı ilə və ƏAF sahəsində qanunvericilikdə nəzərdə tutulduğu hallarda aşkarlana bilər («ƏAF haqqında» Qanunun 14-cü maddəsinin VIII, IX hissələri, 20-ci maddəsinin III hissəsi).

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VII hissəsində qeyd edilir ki, nəzər-dən keçirilən əməliyyat-axtarış tədbirinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qu-

rumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

Bu tədbiri digər tədbirlərdən fərqləndirən cəhət onun çoxaspektli və universal olmasıdır. Bu tədbirin ilk öncə əsas məqsədi cinayətkar niyyətlər və kriminogen obyektlər, mütəşəkkil cinayətkar qruplaşmalar və onların cinayət əməlləri, cinayət alətləri və onların törədilmə üsulları, cinayət yolu ilə əldə edilən əşya və sərvətlərin satış kanalları və gizlədilmə yerləri, kriminal qruplaşmaların tərkibi, onun üzvləri arasında rolların bölüşdürülməsi, cinayətlərin izlərinin gizlədilməsi, cinayətkarların HMO-ya təsir üsulları, xüsusən də latent səciyyə daşıyan cinayətlər və s. dair əməliyyat-axtarış fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən məlumatların əldə edilməsidir.

***Tədbirin təşkil edilib həyata keçirilməsi yüksək səviyyədə konspirativlik tələb edir, kifayət dərəcədə çətin və məsuliyyətlidir, şəraitə uyğun olaraq çoxlu sayda müstəqil yaradıcılıq, qarşılıqlı əlaqə, yüksək dərəcədə konfidensialliq, təhlükəsizlik, operativ və təxirəsalınmaz digər hərəkətlərin tətbiqi, habelə digər ƏAT-nin keçirilməsi ilə sıx bağlıdır.***

Bu tədbirin təşkili və keçirilməsi ilə bağlı istifadə edilən subyektlər haqqında məlumatlar dövlət sirrinə aid edilir və yalnız onların yazılı razılığı ilə qanunvericilikdə müəyyən edilmiş qaydada (ilk növbədə onların razılığı ilə) açıqlana bilər və onların əldə etdiyi məlumatlar qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət prosesində istifadə edilə bilər.

***Bu tədbirin təşkili prosesində aşağıdakı amillər nəzərə alınmalıdır:***

*--tədbirin-keçirilməsinin-əsaslandırılması-və-zəruriliyi;*

*--qarşıda-duran-vəzifələrin-həll-edilməsinin-yalnız-bu-yolla-mümkünlüyü;-*

*--daxil-edilən-subyektin-pərdələnməsi-və-davranış-xəttinin-müəyyən-edilməsi,-zərurət-olan-hallarda-müxtəlif-əməliyyat-kombinasiyaların-həyata-keçirilməsi;-*

*--ekstremal-vəziyyətlərdə-hərəkət-və-davranışları;-*

*--cinayətkar-fəaliyyətin-«səhnələşdirilməsində»-fəallığının-hədləri;-*

*--onun-mühafizəsinin-təmin-edilməsi-ilə-bağlı-tədbirlər;-*

*--HMO-ilə-qarşılıqlı-əlaqələr-üsulu;*

*--daxil-olmanın-müddətinin-və-maddi-təminatın-müəyyən-edilməsi-və-s.*

**Bu tədbir nəticəsində əldə edilən məlumatlar raport, arayışla və digər əməliyyat xidməti sənədlərlə rəsmiləşdirilir.**

Tədbirin təşkili və keçirilməsinin taktiki məsələləri idarədaxili normativ aktlarla tənzimlənir. Lakin nəzərə almaq lazımdır ki, tədbirin uğurla həyata keçirilməsində yuxarıda qeyd edilən amillərlə yanaşı, daxil edilən şəxsin şəxsiyyət-psixoloji və peşəkarlıq səviyyəsi də mühüm rol oynayır. Belə tədbirin tətbiqi digər tədbirlərdə olduğu kimi ƏAF-nin səlahiyyətli subyektinin qərarı ilə keçirilir. Lakin tədbirin keçirilməsindən əvvəl müvafiq əmrlə əməliyyat qrupu yaradılır (digər vəzifələrlə yanaşı xüsusi daxil edilənin mühafizəsini təmin etmək məqsədi ilə) və onlar arasında vəzifə bölgüsü müəyyən edilir.

**Nəzarətli göndəriş** - cinayətkar fəaliyyətin əlamətləri barədə informasiya almaq üsuludur, cinayətlərin və onlara aid olan şəxslərin aşkar edilməsi məqsədilə hüquq-mühafizə orqanlarının məxfi nəzarəti altında yüklərin və əşyaların yerinin dəyişməsi və daşınmasından ibarətdir.

**Daşınması nəzarət edilə bilən əşyalar və mallar aşağıdakılar ola bilər:**

- açıq satışı qadağan olunmuş və ya satışı məhdudlaşdırılmış əşyalar, maddələr və məhsullar (narkotik maddələr, psixotrop maddələr və onların prekursorları və onların alınmasında istifadə edilən avadanlıq, silah, mədəni sərvətlər, qiymətli daşlar və metallar, güclü təsir edən və ya zəhərli, radioaktiv maddələr, xarici valyuta əskinazları, gizli informasiya alınması üçün istifadə edilən xüsusi texniki vasitələr, və s.);
- cinayət yolu ilə əldə olunmuş və yaxud üzərində cinayətin izi qalmış predmetlər;
- cinayət alətləri və yaxud vasitələri (pullar, qiymətli əşyalar, sənədlər, silah və s.).

Narkotik vasitələrin və psixotrop maddələrin **nəzarətli göndərişinin** həyata keçirilməsinin hüquqi əsası Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının dövriyyəsi haqqında" Qanununun 30-cu maddəsində və «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 15-ci bəndində və həmin maddənin VII hissəsində öz əksini tapmışdır. Bu tədbirin hüquqi əsaslarına, həmçinin Gömrük Məcəlləsinin 216-cı maddəsində və ölkə Prezidentinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» 22.05.2007-ci il tarixli Fərmanının 1.4-cü bəndində təsbit edilən müddəalarını da aid etmək olar. Yerindən asılı olaraq bu tədbir **daxili** (Azərbaycanın ərazisi daxilində), **xarici** (beynəlxalq, bir neçə dövlətin ərazisində) və **tranzit** (iki və daha artıq ölkələr arasında Azərbaycanın ərazisi vasitəsilə) nəzarətli göndəriş kimi də təsnif olunur.

Bu fərmanla qeyd edilən maddə, vasitə və onların prekursorlarının nəzarət qaydasında alınması hüquqi olan ƏAF-ın subyektlərinin dairəsi (DİN, DTX, DGK və DSX) müəyyən edilmişdir.

Nəzarətli göndəriş əməliyyat-axtarış tədbirinin beynəlxalq-hüquqi əsasları bir sıra sənədlərdə, o cümlədən BMT-nin "Narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında" (1988) Vyana Konvensiyasında, MDB çərçivəsində dövlətlərin "Narkotik və psixotrop vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlığı haqqında" (30 noyabr 2000-ci il tarixdə Minskdə imzalanıb) və "Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı" mübarizə haqqında (15 noyabr 2000-ci il tarixdə Romada imzalanıb) inzibati-hüquqi aktlarında təsbit edilmişdir.

Narkotik maddələrin, silahın və döyüş sursatının göndərilməsi poçt göndərişləri vasitəsi ilə də (banderollar, sovqatlar, poçt konteynerləri) həyata keçirilə bilər. Əgər belə fakt qeyd olunubsa, lakin nəzarət edilən yükün daşınması barədə qərar qəbul olunmayıbsa, bu zaman ƏAO əməkdaşları satışı qadağan olunmuş və yaxud məhdudlaşdırılmış məhsulların və ya əşyaların aşkar edildiyi hallarda Azərbaycan Respublikasının qanunvericiliyi əsasında ("Poçt vasitəsilə göndərilməsi qadağan olunmuş sənədlərin siyahısının təsdiq edilməsi və onların müsadirə edilməsi və ləğv edilməsi qaydası barədə") onları müəyyən edilmiş qaydada götürə bilərlər.

Bununla yanaşı, poçt müəssisələrinin əməkdaşları hər bir poçt göndərişi ilə bağlı şübhə yarandıqda qanunvericiliklə müəyyən olunmuş qaydada onu aça bilərlər. Poçt göndərişini açan poçt müəssisələrinin işçiləri bu barədə akt tərtib edirlər və oradakı bütün əşyaların və predmetlərin siyahısını tuturlar. Qadağan olunmuş əşyalar aşkar olunduqda, aktın surəti bu poçt göndərişinin içərisinə qoyulur. Narkotik vasitələr aşkar olunduqda, aktda onların mövcudluğu, çeşidi, sayı göstərilir və bu barədə dərhal ƏAO-ya məlumat verilir, poçt göndərişinin özü narkotiklərin aşkar edilməsi faktı sənədləşdirildikdən və laboratoriya tədqiqatı üçün nümunələr götürüldükdən sonra bağlanılır və onu əvvəlki görkəmə salırlar. Dərhal ƏAO əməkdaşları bu poçt göndərişini göndərən və onu qəbul edən şəxslərin müəyyənləşdirilməsinə və əməliyyat yolu ilə yoxlanılmasına yönəlmiş bütün lazımi tədbirləri görürlər. Beynəlxalq göndərişləri həyata keçirmək səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin «Əməliyyat-axtarış tədbirlərinin keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» 10 iyun 2001-ci il tarixli və "Narkotik vasitələrin, psixotrop maddələrin

və onların prekursorlarının dövriyyəsi haqqında“ Qanunun icrasının təmin edilməsi barədə» 22 may 2007-ci il tarixli Fərmanlarına müvafiq olaraq DİN, MTN (qanunvericilikdə olan dəyişiklərə əsasən DTX və XKX), DGK və DSX öz səlahiyyətləri daxilində həyata keçirirlər.

Cinayətkarlığa qarşı mübarizə sahəsində münasibətləri tənzimləyən bir sıra normativ aktlarla bu metodun (tədbirin) silah, döyüş sursatının, narkotik vasitələrin və psixotrop maddələrin, tarixi, incəsənət, arxeoloji sərvətlərin və digər əşya və maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin qarşısının alınması və açılmasında ƏAF subyektlərinin tərəfindən tətbiq edilməsinin mümkünlüyü təsbit edən konkret hüquq normalarinın olmasına baxmayaraq, qanunveicilikdə bir sıra problemlər mövcud olmasını da etiraf etmək lazımdır[1].

Bu tədbirin əsas məqsədi istiqamətində cinayətkarlığa qarşı mübarizə ilə bağlı elə vəzifələr həll edilir ki, onlar digər ƏAT həyata keçirməklə həll edilə bilmir və ya onların həlli bir sıra çətinliklərlə bağlıdır.

**Həmin vəzifələrə aşağıdakıları aid etmək olar:**

*--dövriyyəsi-qadağan-olunmuş,-məhdudlaşdırılmış-və-xüsusi-icazə-əsasında-dövriyyəsinə-icazə-verilmiş-əşya-və-maddələrin-qanunsuz-alqı-satqısı-ilə-məşğul-olan-və-onları-təşkil-edən-şəxsləri,-qruplaşmaları-aşkar-edib-ifşa-edilməsi;*

-

*-yuxarıda-qeyd-edilənlərin-hazırlanması,-əldə-edilməsi,-saxlanması,-daşınması-kanallarının,-üsullarının-aşkar-edilməsi-və-onların-qarşısının-alınması;*

-

*-qeyd-edilənlərin-qanunsuz-dövriyyəsinə-köməklik-göstərən-HMO-və-digər-dövlət-orqanlarında-xidmət-edən-korrupsiya-ilə-əlaqəli-olan-şəxslərin-aşkar-edilib-qa-nunvericiliklə-nəzərdə-tutulmuş-məsuliyyətə-cəlb-edilməsi;*

*--qeyd-edilənlərin-qanunsuz-dövriyyəsi-ilə-məşğul-olan-cinayətkar-qruplaşmaların-(cinayətkar-qrup,-mütəşəkkil-cinayətkar-dəstə,-birləşmə-və-təşkilat)-bütün-iştirakçılarının-cinayət-əməllərinin-aşkar-edilib-sənədləşdirilməsi-və-qanunverciliyin-tələbləri-rəhbər-tutuimaqla-cinayət-prosesində-istifadə-edilməsi-və-s.).*

**Cinayət hüququnun elmi-nəzəri əsasları və normalarına istinad edərək «nəzarətli göndəriş» metodunu şərti olaraq «son zərurət» institutunun bir növü kimi də qiymətləndirmək olar. Qeyd ediləni qanunvericiliyin şərhi nöqteyi-nəzərdən belə izah etmək olar:**

«Bir sıra inkişaf etmiş dövlətlərin qanunverciliyində bu tədbirin keçirilməsi

prosesində aşkar edilən hüquqa zidd əməldən qarşıda duran məqsəd və vəzifələr-

1 Bax: Əlavə tövsiyyə edilən ədəbiyyatların siyahısında verilən mənbələrə.

dən, əməliiyyat şəraiti və vəziyyətindən asılı olaraq, son zərurət, əsaslı və əməliyyat riskləri nəzərə alinmaqla qarşısını almamağa və onun törədilməsinə və davam etdirilməsinə, habelə digər cinayətlərin törədilməsinə (dövlətin konstitusion, quruluşu, şəxsiyyət və digər ağır, xüsusilə ağır cinayətlər istisna olmaqla) yol verilməsi halları və qaydaları təsbi edilmişdir.

Buna o halda yol verilir ki, bu cinayətlər onların əhatə edildiyi kriminal silsilədən olan fəaliyyət zəncirinin ayrı-ayrı hissələrini təşkil edir və sonda aşkar edilmiş və sənədləşdirilmiş cinayət əməlləri əsasında digər ağır və xüsusilə ağır cinayətləri aşkar etmək imkanı yaranır və s.

***«Nəzakətli göndəriş»*** tədbirini birmənalı olaraq adi əməliyyat axtarış tədbiri kimi səciyyələndirmək mümkün deyil, belə ki, onun keçirilməsi bir çox digər ƏAT-nin keçirilməsi ilə müşayiət olunur və yaxud onların elementlərindən istifadə edilir. Bu tədbirin keçirilməsi prosesində şəxslərin sorğusu, soraqlaşma, fiziki, elektron və ya kompleksli müşahidə, telefon danışıqlarına qulaq asma və s. ƏAT keçirilə bilər. Məhz qeyd edilənlər nəzərə alınaraq qəti olaraq bu tədbiri həmçinin «xüsusi əməliyyat» və ya məqsədinə, yerinə və vaxtına görə razılaşdırılmış təşkilatı-taktiki kompleks səciyyəli ƏAT kimi dəyərləndirmək olar.

***Obyektin yer dəyişməsinin (daşınması, göndərilməsi və s.) başlanğic və son yerinin yerləşməsindən asılı olaraq bu tədbiri 3 qrup üzrə bölmək olar:***

*- daxili – ölkə ərazisində həyata keçirilən;*

*- xarici – beynəlxalq müqavilə və razılaşmalara əsasən xarici dövlətin ərazisində həyata keçirilən;*

*- tranzit – ölkə ərazisindən daşınan (keçirilən) obyektlərlə bağlı xarici dövlətlərin HMO-nun və ya beynəlxalq HMO-nun (interpol, yevropol və s.) təşəbbüsü ilə həyata keçirilən.*

**Bu obyektlər üzərinə cinayətkar qruplaşmalar tərəfindən tətbiq edilən nəzarət fəndlərini, onların daşınması (göndərilməsi) üsulundan asılı olaraq kuryer, yük (konteyner) və poçt fəndlərinə ayırmaq olar**.

Nəzarətli göndəriş HMO-nun səlahiyyətli vəzifəli şəxsi tərəfindən təsdiq edilmiş qərar əsasında və tərtib edilmiş kompleks plan əsasında həyata keçirilir. Həmin plan bu tədbirdə iştirak edən digər HMO-nun rəhbərləri ilə razılaşdırılır. Tədbirdə iştirak edən HMO-ın əməkdaşları lazımi səviyyədə təlimatlandırılır, tədbirin təşkili və keçirilməsinə rəhbərlik edən vəzifəli şəxs müəyyən edilir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi tədbirinin təşkili və həyata keçirilməsi ilə bağlı münasibətləri bilavasitə tənzimləyən əsas müddəalar «Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanununun 15, 24, 25, 30, 32-ci maddələrinin, Nazirlər Kabinetinin «Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhəddindən keçirilən mülki dövriyyədən çıxarılmış və mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydasının təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı, Gömrük Məcəlləsinin 216, 217-ci maddələrinin normalarında əhatə edilmişdir.

**Bu tədbirin nəticələri yekun müfəssəl arayışla rəsmiləşdirilir, ona keçirilən digər ƏAT-nin nəticələri, izahatlar, raportlar, foto və videomateriallar, götürülən vasitə və maddələrə dair akt (protokollar), cinayətin izləri ilə bağlı materiallar, əməliyyat–xidməti sənədlər və s. əlavə edilir. Bu arayış və ona əlavə edilən materiallardan dövlət sirləri istisna olunmaqla cinayət prosesində istifadə edilə bilər.**

*Nəzarətli göndəriş tədbirinin təşkili və keçirilməsinin taktikası idarədaxili və idarələrarası normativ aktlarda əhatə edilir.*

Bu tədbirin keçirilməsinin təşkili və keçirilməsində əksər hallar bir neçə HMO-nun qarşılıqlı əməkdaşlığı ilə əlaqəli olur və kompleks ƏAT-nin tətbiqinin bir zəruriyyət kimi əsaslandırır, tədbirin keçirilməsi yüksək səviyyədə konspirativliyin təmin edilməsi, müxtəlif əməliyyat kombinasiyalarının tətbiqi ilə bağlı olmaqla yanaşı lazımi səviyyədə peşəkar idarəçilik bacarığı tələb edir. Belə ki, bu tədbirin ən əsas məqsədi mütəşəkkil cinayətkar qruplaşmaların cinayətkar fəaliyyətini aşkar edib ifşa etməkdən ibarətdir.

Qeyd edilənləri aşağıdakı misallarda əyani olaraq görmək olar.

**Moskva şəhərinin «Şeremetyevo» hava limanında gömrük orqanlarının əməkdaşları tərəfindən Dehli şəhərindən Praqa şəhərinə uzan sərnişinin yükündə əvvəlcədən hazırlanmış gizli yerdə ümumi dəyəri («qara bazar» qiymətləri ilə) təxminən 2 milyon dollar olan narkotik vasitə aşkar edilmişdir. Yükün sahibinin onun yükünə (baqajına) əməliyyat aparatı əməkdaşları tərəfindən texniki vasitələrdən istifadə etməklə gizli baxışın keçirilməsi barədə məlumatının olmadığını və onun özünü sakit aparmasını və uçuşu davam etdirmək niyyətində olmasını nəzərə alaraq, Çexiya dövlətinin gömrük orqanları ilə razılaşdırılmaqla «nəzarətli göndəriş» metodundan istifadə etməklə, əməliyyatın keçiril-**

məsinə dair qərar qəbul edilmişdir. Həmin şəxs (qaçaqmalçı) Praqa şəhərində təyyarədən düşdükdən sonra Çexiya dövlətinin xüsusi xidmət əməkdaşlarının gizli nəzarəti altında müşayiət edilməklə Almaniyanın Nyurnberq şəhərinə gedən qatara minmişdir. Əməliyyatın keçirilməsinə Çexiya həmkarları tərəfindən 50 agent (ştatda olan məxfi əməkdaş) cəlb edilmiş və qatarın hərəkəti istiqamətində yerləşən stansiyalarda onlarla avtomaşından istifadə edilmişdir.

Almaniya ilə sərhəddə alman həmkarları müşahidənin davam etdirilməsinə hazır olduqlarını bildirməsinə baxmayaraq, Nyurnberq şəhərinin prokuroru qaçaqmalçının Almaniyaya buraxılmasına razılıq vermədiyindən, o, Çexiyanın sərhədində saxlamaq məcburiyyətində tutulmuşdur. Belə ki, prokuror öz qərarında milli qanunvericiliyin müddəalarına əsaslanmışdır. Yaxşı olardı ki, prokurorun belə qərar verməsinin mümkünlüyü əvvəlcədən proqnozlaşdırılardı. Göründüyü kimi, narkotik vasitənin kimə ünvanlandığını və mütəşəkkil cinayətkar qruplaşmanın üzvlərini bu əməliyyatın sonunda müəyyən etmək mümkün olmadı və çoxsaylı insan, maliyyə resursları, vasitələri və s. istifadə edildi. Əlbəttə ki, tutulan şəxsin əməliyyat tədqiqini keçirməklə qeyd edilən qaranlıq məqamlara aydınlıq gətirmək olar, lakin əminliklə demək olmur ki, keçirilən tədbirlər öz bəhrəsini verəcəkdir.

Hindistanın xüsusi orqanlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində gizli yerdə 3 kq. tiryək aşkar edilmişdir. Bu faktla bağlı davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilmişdir ki, baqaj (yük) yeri Avstriya vətəndaşı olan sərnişinə məxsusdur və o, Hindistandan Moskva şəhərindən tranzitlə İsveçə gedir. Hindistan, Rusiya və İsveç dövlətlərinin hüquq-mühafizə orqanları tərəfindən birgə keçirilən «nəzarətli göndəriş» əməliyyatı tədbiri (metodu) nəticəsində narkotik vasitənin qaçaqmalçılığında təqsirli olan Avstriya vətəndaşı Stoqholm şəhərində tutulmuşdur. Cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və sonrakı əməliyyat-axtarış tədbirləri narkotik vasitənin əldə edilmə mənbələri və tutulan şəxsin digər cinayət əməllərinin və əlaqələrinin aşkar edilməsi istiqamətlərində həyata keçirilmişdir.

Moskva şəhəri Şeremetyevo gömrük idarəsinə İngiltərə gömrük orqanlarından əməliyyat məlumatı daxil olmuşdur ki, Moskva şəhərinə Rio de Janeyrodan kokainin qaçaqmalçılığında şübhəli bilinən bir qadın gəlməlidir və o, kokaini öz çantasının xüsusi hazırlanmış gizli yerində aparacaqdır. Həyata keçirilən

**yoxlama tədbirləri nəticəsində müəyyən edilmişdir ki, həmin qadın Rusiya ərazisindən tranzitlə Budapeşt şəhərinə yollanır. Rusiya dövlət gömrük orqanları ilə əlaqə yaradaraq, «nəzarətli göndəriş» əməliyyatının keçirilməsi barədə qərar qəbul etmişdir. Birgə keçirilən tədbirlər nəticəsində narkotik vasitənin daşıyıcısı (narkokuryer) Budapeşt şəhərində tutularaq, ona məxsus çantadan 4,3 kq. kokain götürülmüşdür. Faktla bağlı cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və sonrakı əməliyyat-axtarış tədbirləri cinayətkar qruplaşmaların üzvlərinin, onların cinayət əlaqələri və digər cinayət əməllərinin aşkar edilib müəyyən edilməsinə yönəldilmişdir.**

Təəssüfər olsun ki, transmilli səciyyə daşıyan bu növ cinayətlərə qarşı mübarizə sahəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində bir sıra obyektiv və subyektiv amillərlə bağlı nüqsanlar mövcuddur.

Bu tədbirlərin məqsədi «ƏAF haqqında» Qanunun 1-ci maddəsinin III hissəsində nəzərdə tutulan vəzifələrlə üst-üstə düşür.

***Məsələn, Rusiya Federasiyasının təhlükəsizlik orqanları və Dövlət Gömrük Komitəsinin Almaniya təhlükəsizlik orqanları ilə «nəzarətli göndəriş» əməliyyatının (tədbirinin, metodun) birgə keçirilməsi nəticəsində beynəlxalq mütəşəkkil cinayətkar qruplaşmanın cinayətkar fəaliyyətinin qarşısının alınmasına nail olunmuşdur. Bu cinayətkar qruplaşma tərəfindən Nigeriyadan Rusiya ərazisindən tranzitlə Hollandiyaya böyük miqdarda narkotik vasitə daşınırdı. Rusiya hüquq-mühafizə orqanlarının yüksək bacarıq və ustalıqla keçirdikləri tədbirlər nəticəsində narkoişbazları 6,5 milyon dollar dəyərində olan, 2,5 ton marixuananı xüsusi hazırlanmış gizli yerə boşaldan zaman yaxalanmışlar.***

***«Nəzarətli göndərişlərin» poçt rabitə kanallarında müvəffəqiyyətlə keçirilməsinə dair çoxsaylı misallar göstərmək olar. Orta Asiya ölkələrinin birinin paytaxtından Rusiyaya göndərilən sovqatda gömrük nəzarəti qaydasında keçirilən baxış zamanı 1,5 kq. tiryək aşkar edilmişdir. Onun aşkar olunması faktının gizliliyinin təmin edilməsinə əmin olduqdan sonra, gömrük orqanı tərəfindən təhlükəsizlik orqanları ilə birgə «nəzarətli göndəriş» əməliyyatının (əməliyyat-axtarış tədbirinin) keçirilməsinə dair qərar qəbul edilmişdir. Bir sıra digər əməliyyat-axtarış tədbirləri keçirməklə, bu əməliyyat başa çatdırılaraq, sovqatı alan şəxs saxlanılmış, cinayətin iştirakçısı qismində həbs edilmişdir. Gömrük orqanlarının sonradan saxlanılan şəxslə əlaqədar paytaxt şəhərin hüquq-mühafizə orqanları ilə birgə həyata***

***keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 7 nəfərdən ibarət cinayətkar qruplaşmanın üzvləri müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmişdir.***

***Məsələn, ABŞ, İngiltərə və RF-nın hüquq-mühafizə orqanlarinın birgə keçirdikləri əməliyyat-axtarış tədbirlərinin, o cümlədən «nəzarətli göndəriş» əməliyyatının gedişatı prosesində Rusiya iş adamı V.Petrov tərəfindən təşkil edilmiş mütəşəkkil cinayətkar qruplaşma ifşa edilmişdir. Onun rəhbərliyi ilə 10 il müddətində konteynerlərdə tonlarla sintetik narkotik və Kolumbiya kokaini Avropa və Afrikaya daşınmışdır.***

**Əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi** dedikdə əsas etibarı ilə ağır və xüsusilə ağır cinayətlər törətməkdə əsaslı olaraq şübhə doğuran şəxslərin hüquqazidd əməllərinin üzə çıxarılması üçün gizli surətdə nəzarət edilən şəraitin və obyektlərin yaradılmasıkimi başa düşülür.

Bu tədbirin təşkili və keçirilməsi prosesində bir növ cinayətdə əsaslı olaraq şübhəli olan şəxslərin cinayət əməllərini, cinayətkkar niyyətlərinin büruzə verilməsi məqsədilə, HMO tərəfindən gizli qaydada nəzarət edilən şəraitin və obyektlərin yaradılması ilə bağlı hərəkətlər həyata keçirilir.

Sözsüz ki, bu tədbirin keçirilməsində insan həyat və sağlamlığı, dövlətin konstitusiya quruluşu və təhlükəsizliyi və sair, ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə və onların törədilməsi üçün şəraitin yaradılmasına yol verilə bilməz və yalnız onların qarşısı alına bilər.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VIII hissəsində qeyd edilmişdir ki, bu tədbirin, həmçinin ***narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması, həmin cinayətlərin açılması və ya onları törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir. Ümumiyyətlə, "ƏAF haqqında"Qanunda bu və ya digər ƏAT-nin keçirilməsi şərtlərində, onların nəticələrinin hüquqi qüvvəsi barədə müddəalarda çoxsaylı problemli məsələlər mövcuddur.***[1]

1 Бах: Ш.И.Щцсейнов. «Наркотик васитялярин, психотроп маддялярин ганунсуз дювриййясиня гаршы мцбаризя: елми-нязяри, щцгуги, тяърцби аспектляри вя проблемляринин щялли yollarы. XX, XXI Бюлмяляр. Mцrtяcim няшриййаты. Бакы, 2016-ъы ил

Tədbirin əsas məqsədi müxtəlif kateqoriyadan olan çoxsaylı eyni növ cinayətlər törətmiş naməlum şəxslərin aşkar edilib tutulması, həmçinin belə şəxslərin cinayət başında (cinayətə hazırlıq və qəsd mərhələsində) yaxalanması və cinayət əməllərinin sənədləşdirilməsidir.

Tədbirin keçirilməsinin konkret məqsədindən aslı olaraq onun **iki əsas növünü** qeyd etmək olar.

**I növünə** – cinayət törədmiş naməlum şəxslərin müəyyən edilməsi istiqamətində həyata keçirilən eksperimenti aid etmək olar. Onun mahiyyəti ondan ibarətdir ki, müxtəlif «tələlər» dən istifadə olunur. Bunun üçün cinayət qəsdinin predmetinə oxşar obyekt və şərait hazırlanaraq nəzarətə götürülür.

Belə ***«tələlər»*** cinayətlərin ən çox törədildiyi və törədilməsi ehtimal olunan ərazilərdə yerləşdirilir. Məsələn, nəqliyyat vasitələrinin qaçırılması və oğurluğu ilə məşğul olan şəxsləri aşkar edilməsi üçün «avtomobil tələlərdən» istifadə edilir.

İstisna hallarda soyğunçuluq, quldurluq, «manyak»lar[1] tərəfindən törədilən çoxsaylı cinayət törətmiş şəxsləri aşkar etmək məqsədilə xüsusi qaydada «ekipirovka» olunmuş və təlimatlandırılmış, fiziki və döyüş hazırlığı olan şəxslərdən onların könüllü razılığı və yüksək dərəcədə mühafizəsi təmin edilməklə istifadə etmək olar. Qeyd edilən halda ən əsas tələblərdən biri həmin şəxslərin təhlükəsizliyinin təmin edilməsidir, belə təminat mövcud deyilsə, bu tədbirin keçirilməsindən imtina edilməlidir.

**II növ** əməliyyat eksperimenti konkret şəxsi cinayət başında yaxalamaq və onun cinayət əməlini sənədləşdirmək məqsədi daşıyır. Belə halda bu tədbir əsas etibarı ilə rüşvətlə bağlı cinayətlərin və onun iştirakçılarının aşkar edilib cinayət əməllərinin rəsmiləşdirilməsi məqsədilə həyata keçirilir.

***Konkret şəxslə bağlı keçirilən tədbirdə cinayətə təhrikə, şantajla bağlı hərəkətlərə yol verməmək üçün HMO-nun təcrübəsinə əsaslanaraq aşağıdakı tövsiyələrin rəhbər tutulması zəruri hesab edilir.***

- konkret şəxs barəsində tədbirin keçirilməsinə dair qərar qəbul etmək üçün ilk öncə müxtəlif mənbələrdən (daha çox qərəzsiz və etibarlı) şəxsin cinayətkar fəaliyyəti barədə obyektiv, konkret məlumatın olması (məsələn, rüşvət alan barədə tədbir keçirmək üçün rüşvətin ən azı iki şəxsdən tələb edilməsinə dair konkret real və əsaslı məlumat olmalıdır və s.);

1 "manyak" fransızca "maniak" sözündən götürülübdür bir tərəfi, qeyri-normal nəyəsə hərislik mənası daşıyır; manyak həmçinin yunanca "mania" sözündən götürülüb, nəyəsə hərislik mənası daşıyır.

- cinayət niyyəti, təşəbbüs və cinayətə hazırlıq cinayətdə əsaslı şübhə doğuran şəxs tərəfindən göstərilməlidir (məsələn, cinayətin subyekti rüşvət tələb etməli və onun əldə edilməsi üçün müəyyən hərəkətlər etməli, pul vəsaitlərinə malik olaraq narkotik vasitə, silah əldə etmək istəyi və s.);

- cinayətkar fəaliyyətdə şübhə doğuran şəxsin cinayət törətmək istəyi və təşəbbüsü, belə məlumatların daşıyıcıları olan materiallarda əhatə edilməsi və onların qanunvericiliyin tələbləri rəhbər tutulmaqla sübutetmə prosesində istifadə edilməsi.

**Əməliyyat eksperimentinin istintaq eksperimenti ilə müəyyən oxşarlığının olmasına baxmayraaq, bir çox fərqli cəhətləri vardır və onlar aşağıdakılardan ibarətdir:**

*--məqsədləri-və-taktiki-aspektləri,-hüquqi-əsasları-müxtəlifdir;-*

-

*-istintaq-eksperimenti-toplanmış-sübutların-yoxlanması,-yeni-sübutların-əldə-edilməsi-məqsədi,-əməliyyat-eksperimenti-işə-cinaətkar-əməl,-davranış-və-fəaliyyəti - aşkar-etmək-məqsədini-daşıyır;*

*--onlar-öz-vaxt-amili-ilə-fərqlənirlər:-istintaq-eksperimenti-keçmişdə-olan-hadisə-və-faktların-(əsas-etibarı-ilə-cinayətdə-təqsirli-olan-şəxslərin)-yoxlanmasına-istiqamətlənirsə,-əməliyyat-eksperimenti-həm-bu-günün-və-həm-də-keçmişin-hadisə-və - faktlarla-bağlı-cinayətdə-şübhə-doğuran-şəxslərin-hərəkətlərinə-istiqamətlənir;*

-

*-istintaq-eksperimenti-cinayət-işi-çərçivəsində-keçirilir-və-cinayət-üzrə-ibtidai-araşdırmaya-ayrılan-vaxt-həddində-həyata-keçirilirsə,-əməliyyat-eksperimenti-icraatda-cinayət-işi-olmadan-da-o-vaxt-həddində-keçirilir-ki,-bu-vaxt-cinayət-əməlinin*

-

*törədilmə-ehtimalı-yüksəkdir-və-altı-ayla-məhdudlaşdırılır-(bu-münasibətlərin-tənzimlənmsində-də-qanunvericilikdə-problemlər-mövcuddur);*

-

*-istintaq-eksperimenti-yeni-cinayət-hüquqi-münasibət-yaratmır,-lakin-əməliyyat-eksperimenti-belə-münasibətləri-yaradır.*

ƏAF elmində (nəzəriyyəsində) əməliyyat ***eksperimenti*** əməliyyat ***kombinasiyası*** ilə müəyyən oxşarlığa malik olmasına baxmayaraq, onların da bir sıra fərqli cəhətləri var və onları qəti eyniləşdirmək olmaz. ƏAF-də əməliyyat kombinasiyası proqnozlaşdırılmış nəticələrin əldə edilməsi üçün sünü şərait yaratmaq yolu ilə əməliyyat-taktiki vəzifələrin həlli üsulu kimi dəyərləndirilir.

**Lakin əməliyyat kombinasiyası daha geniş məzmun tutumuna malikdir, belə ki, onun vasitəsi ilə həll edilən vəzifələrin dairəsi daha genişdir.**

**Əməliyyat eksperimenti əməliyyat kombansiyasının şərti olaraq struktur elementi kimi də ola bilər və ya onun tərkib elementi əməliyyat eksperimentinin həyata keçirilməsi risklə bağlıdır, məhz bu amillər nəzərə alınaraq onun təşkili və keçirilməsi məqsədilə xüsusi plan hazırlanır.**

Tədbirin nəticəsi əməliyyat işçisinin raportu ilə, cinayətin aşkar edilməsi, onu törədən şəxslərin aşkar edilməsi ilə bağlı olan halda isə forma və məzmununa görə istintaq eksperimentinin nəticəsinin rəsmiləşdirilməsinə verilən tələblər nəzərə alınmaqla protokol (aktla) rəsmiləşdirilir. Bu məsələlərə də qanunvericilikdə aydınlıq gətirilməmişdir. Lakin bu məsələlərə dair elmi araşdırmalar aparılmış və müvafiq təklifər verilmişdir.[1]

Sözsüz ki, bu sənəddə dövlət sirrinə aid olan məlumatlar qeyd edilmir. Ona texniki vasitələrin istifadə edilməsi nəticəsində əldə edilən məlumatların fiziki daşıyıcıları əlavə edilə bilər. Qeyd edilən sənədlər, tədbirin keçirilməsinə dair qərar, tədbirin keçirilməsində iştirak edən şəxslərin izahatları, raportlar, götürülən cinayət əməlinə aid olan əşya, predmetlər, şübhəli şəxs qismində tutma protokolu birlikdə cinayət işinin başlanması üçün əsas o halda qanuni hesab edilir ki, CPM-in tələbləri (46,137, 207, 208, 210-cu maddələr) və ƏAF haqqında Qanunun müvafiq müddəaları (16- cı maddəsi) rəhbər tutulsun.

Əməliyyat eksperimenti keçirilərkən, iştirak edən şəxslərin ləyaqətinin alçaldılmasına və onların sağlamlığına təhlükənin yaradılmasına yol verilmir. Əməliyyat eksperimenti onun tətbiq edilməsi yolu ilə əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həlli üçün əhəmiyyət kəsb edən məlumatların əldə edilmə üsuludur.

***Əməliyyat eksperimentinin nəticələrinin reallığı, düzgünlüyü onun maksimal dərəcədə reallığa yaxın olan şəraitdə keçirilməsindən və ƏAO tərəfindən heç bir təhrikedici hərəkətlərə yol verilməməsindən mühüm dərəcədə asılıdır. Belə hərəkətlərə yol verilən hallarda əldə olunan nəticələr sonradan sübut kimi istifadə edilə bilməz və bu hərəkətlərə görə qanunvericilikdə müvafiq məsuliyyət nəzərdə tutulmuşdur.***

Əməliyyat eksperimenti həm əsaslı surətdə cinayətkar fəaliyyətlə məşğul olmaqda şübhə doğuran konkret şəxslər barədə (rüşvətin alınması, silah və narkotiklərin

1 Bax Ş.İ. Hüseynov. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi əsasları və problemlərinin həlli yolları. Mütərcim. XX, XXI bölmələri. B. 2016; Гармаев Ю.П. Использование результатов оперативно-розыскной деятельности в доказывании по уголовным делам о незаконном обороте наркотиков. Практическое пособие. М. Изд. Дом Шумиловой. 2005.

satışı, oğurluq, soyğunçuluq və s.), həm də bir çox silsilə cinayətlər törədən naməlum şəxslər və onların niyyətlərinin üzə çıxarılması üçün müxtəlif "tələlərdən" istifadə etməklə həyata keçirilə bilər.

Əməliyyat eksperimentinin keçirilməsi üçün cinayət əməlinin yönəldiyi obyektlər və yaxud daha çox cinayət baş verən yerlərdə aldadıcı vasitə olan kimyəvi və digər «tələlər» qoyulur. Bu zaman müstəsna hallarda, küçə qarətlərinin, (soyğunçuluğun) və quldurluğun aşkar edilməsi üçün ƏAO-nun xüsusi geyim vasitəsi ilə təmin olunmuş əməkdaşlarından istifadə edilə bilər. Belə halda həmin əməkdaşlar xüsusi, psixoloji, fiziki və döyüş hazırlığına malik olmalıdırlar və onların mühafizəsi konspritiv qaydada təmin edilməlidir. Əməliyyat eksperimentinin təşkili və keçirilməsi müvafiq qərar və xüsusi plan ilə rəsmiləşdirilir. Onun sonradan keçirilməsinə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin əsaslandırılmış qərarı əsasında icazə verilir.

**Əməliyyat eksperimenti keçirilərkən aşağıdakılara qadağan qoyulur:**

*1) şəxsi hüquqazidd hərəkətlərin edilməsinə təhrik etmək (sövq etdirmək) və yaxud məcbur etmək;*

*2) şəxsi öz tələbatlarını qanuni yolla ödənilməsini çətinləşdirən şəraitə salmaq.*

**Əməliyyat eksperimentinin keçirilməsi nəticəsində alınmış məlumatlar aşağıdakı məsələlərin həllinə kömək edə bilər:**

***- irəli sürülmüş əməliyyat-axtarış fərziyyələrinin yoxlanılması;***

***- konkret şəxsin bu və ya digər hadisəyə (hərəkətə, əmələ, prosesə) aid olması barədə məlumatların yoxlanılması və dəqiqləşdirilməsi;***

***- əsas etibarilə ağır və xüsusilə ağır cinayət törətmiş şəxsin cinayət əməlini törədərkən hadisə yerində tutulması;***

***- istintaq və məhkəmə hərəkətlərinin həyata keçirilməsinə hazırlıq;***

***- ağır və xüsusilə ağır cinayətlərin törədilməsinin səbəb və şəraitinin müəyyənləşdirilməsi və s.***

Qeyd edilən əməliyyat-axtarış tədbirləri, əməliyyat əhəmiyyətli məlumatların aşkar edilməsinə yönəlmişdir və onların cinayət-prosessual qanunvericiliyə müvafiq olaraq yoxlandıqdan sonra, sübut mənbəyinin daşıyıcıları ola bilərlər. Bu tədbirlərin nəticələri müvafiq əməliyyat-xidməti sənədlərdə əks olunur və onlar qanunverciliklə müəyyən olunmuş qaydada istintaq orqanlarına, prokurora və məhkəməyə verilə bilər («ƏAF haqqında» Qanunun 16-cı maddəsinin VII hissəsi).

## § 3. Vətəndaşların konstitusiyada təsbit edimiş hüquqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri

Ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi vətəndaşların şəxsi həyatına müdaxilə edilməsini nəzərdə tutur. Bu, qanunvericilikdə cinayətkarlığın daha təhlükəli təzahürləri ilə mübarizənin optimallaşdırılması, yüksək bəşəri dəyərlərin, həmçinin beynəlxalq qanunvericiliyin tələblərinin təmin edilməsi naminə nəzərdə tutulmuşdur. Əməliyyat-axtarış tədbirlərinin bu qrupunun keçirilməsinin qanuniliyi əməliyyat-axtarış orqanlarının mövqelərini xeyli dərəcədə artırır və cinayət təqibinin sübutetmə prosesində faktiki materiallardan istifadə etməsinə imkan verir.

**Müşahidə** – kriminal hadisənin törədilməsi ilə əlaqəsi olan şəxs və qanunvericilikdə müəyyən edilmiş obyektlər üzərində (CPM-in 7.0.34-cü maddəsində) əməliyyat işçisi tərəfindən hüquqi mənbələrdə təsbit edilmiş qaydada gizli formada nəzarətdə saxlanması (diqqət altında saxlanması) ilə bağlı hərəkətlərdən ibarətdir. Müşahidə binalar, yaşayış yerləri, hasarlanmış tikili obyektləri, torpaq sahələri, nəqliyyat vasitələri və s. üzərində də aparıla bilər.

Mövcud elmi-nəzəri müddəalara, beynəlxalq qanunvericiliyə və normativ aktlara müvafiq olaraq ictimai yerlərdə güdmə xarici müşahidəyə aid edilir və bu halda nəzərdə tutulur ki, **şəxsin konstitusion hüquqları məhdudlaşdırılmır.**

Lakin vətəndaşın yaşadığı evə daxil olmaqla əlaqəli olan müşahidə (texniki vasitələrdən istifadə etməklə), onun konstitusion hüquqlarını məhdudlaşdırır və deməli, əməliyyat-axtarış tədbirinin ikinci qrupuna aid edilir. Lakin Azərbaycan Respublikasının qanunvericiliyində müşahidənin aparılması (binalara, yaşayış yerlərinə və s. obyektlərin) müşahidə tədbirlərinin mahiyyəti ilə əhatə olunmuşdur («ƏAF haqqında» Qanun, 10-cu maddənin I hissəsinin 9-cu bəndi) və CPM-in 445.1.5-ci maddəsində isə texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerlərinin (o cümlədən mənzilin və s. obyektlərin) müşahidə edilməsi kimi əməliyyat-axtarış tədbiri nəzərdə tutulmuşdur. Məhz bu qeyd edilən tədbirlər bəzi şərtlərlə bir tədbir anlayışı altında verilməsi məqsədəuyğun sayılır və hüquqi tətbiq məsələlərinin təkmilləşdirilməsinə xidmət etmiş olur. Bu tədbirlərə dair hələ əvvəlki 2008-2009-cu illərdə araşdırmalar aparılmış və konkret təklifər verilmişdir ki, sonradan onlar qanunvericilikdə öz əksini tapmışdır.

**Müşahidə fiziki (vizual), elektron və ya kompleks, yəni hər iki elementi özündə cəmləşdirən formalar kimi təsnif oluna bilər.**

***Fiziki müşahidəyə*** (bu müşahidə vizual üsula əsaslanır) işin bu metodları üzrə ixtisaslaşan əməkdaşların fəaliyyətini aid etmək olar. Fiziki müşahidənin gedişində texniki vasitələrdən – fotoaparatlardan, videokameralardan, həmçinin xüsusi texniki vasitələrdən istifadə etmək olar. Bunlar tədbirin gedişini qeyd etməyə imkan verir. Belə müşahidənin nəticəsində alınmış məlumatlar, bir qayda olaraq, real və düz olur, çünki müşahidə obyektinin davranışı ilə əlaqədar bütün hadisələr müşahidəçinin nəzarəti altında keçir.

***Etrialon müşahidə*** binalarda, nəqliyyat vasitələrində və s. qapalı yerlərdə şübhəli şəxsin hərəkətlərinə nəzarət etmək üçün xüsusi texniki vasitələrin tətbiqinə əsaslanır. Elektron müşahidə audioyazı aparatları vasitəsilə cinayətdə  şübhəli şəxslərin səslərinin, söhbətlərinin yazılması və onlara nəzarət məqsədilə həyata keçirilə bilər.

Elektron müşahidə məqsədilə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə edilir. Onlar mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub olan və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyalara aid edilir. Qeyd edilən xüsusi texniki vasitələrin növləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Müşahidə məhdud xarakterli tədbirdir və onun fiziki formada həyata keçirilməsi əməliyyat-axtarış fəaliyyəti subyektinin qərarı (əsasən, uzunmüddətli müşahidə və «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 9-cu bəndi və 11, 12-ci maddələrinə müvafiq olaraq) əsasında həyata keçirilir. Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran elektron müşahidə insanların güdülməsi, binalara, yaşayış yerlərinə və s. obyektlərə daxildən elektron müşahidəsi məhkəmə qərarı əsasında həyata keçirilir («ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 9 və 10-cu bəndləri; CPM-in 445.1.5., 445.1.6-cı maddələri). Ayrı-ayrı dövlətlərdə müşahidə ƏAT-nin təşkili və keçirilməsinə hüquqi baxımdan müxtəlif yanaşmalar mövcuddur. Bu tədbirin, o cümlədən güdmənin ictimai yerlərdə müxtəlif obyektlərlə, həmçinin milli qanunvericilikdə müəyyən edilmiş obyektlərə (CPM-in 7.0.34-cü maddəsində qeyd edilən obyektlərə) tətbiqinin hüquqi əsaslarında müəyyən problemlər mövcuddur.

1 Бах: Ш.И.Щцсейнов. «Наркотик васитялярин, психотроп маддялярин ганунсуз дювриййясиня гаршы мцбаризя: елми-нязяри, щцгуги, тяърцби аспектляри вя проблемляринин щялли yollarы. ХХ вя ХХЫ Бюлмяляр. Мцтяръим няшриййаты. Бакы, 2016-ъы ил

**Bu obyektlərə müşahidənin subyektlərinə aid elilir:**

- ixtisaslaşmış əməliyyat-axtarış və əməliyyat-texniki bölmələr;
- ƏAF subyektlərinin səlahiyyətli vəzifəli şəxsləri (əməliyyat işçiləri);
- ƏAF-nin subyektlərinə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada konfidensial əməkdaşlıq və köməklik göstərən şəxslər;

Müşahidənin ƏAF-nin hansı subyektlər tərəfindən hansı həcmdə həyata keçirmək səlahiyyəti Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli «ƏAT-nin həyata keçirilməsində ƏAF-nin subyektlərinin səlahiyyət bölgüsü” haqqında Fərman ilə müəyyən olunur.

Müşahidə və güdmə anlayışlarına, yaşayış yerlərinə, mənzillərə, xidməti otaqlara,xüsusi texniki vasitələrin quraşdırılması yolu ilə müşahidə, ictimai yerlərdə müşahidə cihazlarının quraşdırılması ilə müşahidə anlayışlarına qanunvericiliklə aydınlıq gətirilməməsinə baxmayaraq, bu istiqamətdə elmi araşdırmalar aparılmışdır. (Bax: tövsiyyə edilən mənbələrə)

**Aparılmış müşahidənin nəticələri əməliyyat-xidməti sənədlərdə (arayış-icmal və s.) fotoşəkillər, maqnit lentləri və videokasetlər (originalı) əlavə olunmaqla qeyd olunur və bunlar aidiyyatı işlər üzrə istintaq orqanlarına və yaxud hakimə verilə bilər. Tədbirin təşkili və keçirilməsi ilə bağlı taktiki məsələlər və nəticələrinin rəsmiləşdirilməsi ƏAF-nin subyektlərinin idarədaxili və ya idarələrarası normativ aktlarlı ilə tənzimlənir.**

**İnsanların güdülməsi -** şübhəli (yoxlanılan, tədqiq edilən) şəxsin cinayətkar fəaliyyətini, cinayətə hazırlıq və ya cinayətin izini itirmək, cinayətə aid olan əşya və sənədlləri gizlətmək məqsədi ilə əl atdığı və s. əməllərin üzə çıxarılması üçün gizli izlənilməsidir. Bu tədbirin həyata keşirilməsində “ƏAF haqqında” Qanunun 10 CPM-in 445.2 446.2 Azərbaycan Respublikası Prezentinin 19 iyun 2001-ci il tarixli Fərmanının vəs.tələbləri rəhbər tutulmalıdır

**Güdmə prosesində aşağıdakılar aşkar edilə bilər:**

- ***cinayət hadisəsinin şahidləri;***
- ***bilavasitə cnayət törədən şəxslər və onun iştirakçıları ;***
- ***oğurlanmış malların satış yerləri;***
- ***cinayətlərlə əlaqəli olan maddi sərvətlərin saxlandığı gizli yerlər;***
- ***şübhəli şəxsin həyat tərzi və kriminal əlaqələri haqqında məlumatlar;***
- ***mütəşəkkil cinayətkar qrupların gizli surətdə yığıldığı gizli saxlanc yerləri.***

Bu tədbiri təşkil edən, bilavasitə həyata keçirən və təşəbbüskarı olan ƏAF-nin subyektləri müxtəlifdir. Bu tədbiri keçirməkdə təşəbbüs göstərmək (ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror qarşısında vəsatət qaldırmaq səlahiyyəti olan ƏAF-nin subyekti) hüququ ƏAF-nin bütün subyektlərinə öz səlahiyyətləri hədlərində verilir. Ümumiyyətlə hakimin qərarı ilə həyata keçirilən ƏAT ("ƏAF haqqında" Qanunun 10-cu maddəsinin I hissəsinin 3-5, 8, 9 (qismən),10-cu maddəsində qeyd edilən tədbirlərin keçirilməsi üçün ƏAF-nin subyekti ibtidai araşdırmaya prosesual rəhbərliyi həyata keçirən prokuror qarşısında vəsadət qaldırmalı, sonuncu isə hakimə təqdimatla müraciət etməlidir və belə halda "ƏAF haqqında" Qanunun 10-cu, CPM-in 442, 445, $446^1$, $447^1$, $448^1$, $452^1$, $453^1$, $454^1$-cü maddələrinin tələblərini rəhbər tutmalıdırlar. "ƏAF haqqında" Qanunun 10-cu və CPM-in 445-ci maddəsinə əsasən ƏAT bu qanunda göstərilən şərtlərə müfaviq olaraq ƏAF-nin səlahiyyətli subyektinin əsaslandırılmış qərarı ilə də, həyata keçirilə bilər.

***Lakin qanunvericiliyə əsasən, bu tədbiri bilavasitə həyata keçirən subyektlər aşağıdakılardır:***

*-DİN-in ixtisaslaşmış əməliyyat-axtarış aparatı;*

*-Xüsusi xidmətlərin (DTX, XKX) ixtisaslaşmış əməliyyat-axtarış aparatları və s.*

Bu tədbirin keçirilməsi prosesində konfidensial qaydaları təmin etməklə qanunvericiliklə müəyyən edilmiş xüsusi texniki vasitələrdən istifadə edilir.

Qeyd edilən tədbiri təşkil edib bilavasitə həyata keçirmək hüququ olmayan ƏAF-nin subyektləri təhqiqatı və istintaqı onların səlahiyyətlərinə aid olan cinayətlərlə əlaqədar olaraq keçirmək qərarına gəldikdə yuxarıda göstərilən subyektlərə qanunvericiliklə müəyyən olunmuş qaydada sorğu göndərirlər. Sorğu ilə bağlı və onun icrasından sonra tərtib edilən sənədlər ƏAF-nin sorğu göndərən subyektinə məxfi kargüzarlıq qaydalarına müvafiq olaraq qaytarılır.

***Tədbirin təşkili, keçirilməsi taktikası və nəticələrinin sənədləşdirilməsi qaydaları ilə bağlı məsələlər idarədaxili normativ aktlarla tənzimlənir.***

**Binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, torpaq sahələrinə daxil olma və baxış keçirmə** adları çəkilmiş və digər obyektlərin əməliyyat (qeyri-prosessual) baxışının (müayinəsinin) həyata keçirilməsi kimi başa düşülür. Tədbirin məqsədi cinayətkar fəaliyyətin izlərinin, cinayət alətlərinin, axtarılan şəxslərin yerlərinin aşkar edilməsi, habelə əməliyyat-axtarış fəaliyyətinin digər

vəzifələrinin həll edilməsi üçün zəruri məlumatların (əməliyyat marağı kəsb edən) əldə edilməsidir. Əməlliyat-axtarış fəaliyyəti nəzəriyyəsi və təcrübəsində bu tədbir ənənəvi olaraq **"əməliyyat baxışı"** metodu adı altında istifadə edilir. Lakin nəzəriyyədə «Əməliyyat baxışı" ƏAF-nin metodlarına aid edilir, qeyd edilən ƏAT-dən fərqli olaraq əksər hallarda əsas etibarı ilə gizli yolla həyata keçirilir və əməliyyat-xidməti sənədlərlə rəsmiləşdirilir.

***ƏAF haqqında qanunericiliyin tələbləri rəhbər tutulmaqla bu tədbirin obyektlərinə CPM-in 7.0.34-cü maddəsinə obyektlər, həmçinin sənədlər, şəxsi əşyalar, heyvanlar, bədənində cinayətin izləri olan şəxslər, nəqliyyat vasitələri və s. aid edilir.***

**Baxışın (müayinənin) müxtəlif növləri vardır: aşkar, pərdələnmiş (şifrələnmiş) və gizli (qeyri-aşkar).**

Aşkar (açıq) baxış yoxlanılan obyektin sahibinin razılığı və iştirakı ilə aparılır.

Pərdələnmiş müşahidə zamanı əməliyyat işçisi, bir qayda olaraq, yoxlamanın həqiqi məqsədlərini və yaxud özünün əməliyyat aparatına mənsubiyyətini gizlədir. **Pərdələnmə üsulları ən müxtəlif ola bilər:** mənzil-kommunal təsərrüfatı xidmətinin, sığorta təşkilatının nümayəndəsi, kütləvi informasiya vasitələrinin əməkdaşı, xeyriyyə cəmiyyətinin üzvü və s. qismində. Bu növ baxışın keçirilməsi prosesində şəraiti təsvir etməyə imkan verən əməliyyat-texniki vasitələrdən (gizli gəzdirilən və istifadə olunan) istifadə edilə bilər.

Bir sıra xarici dövlətlərdə bütün göstərilən növlərin içərisində yalnız gizli baxışın (müayinə) həyata keçirilməsi xüsusi prosedura malikdir, çünki o, vətəndaşların mənzil toxunulmazlığı kimi konstitusiyada təsbit edilmiş hüququnun məhdudlaşdırılması ilə əlaqədardır. Məhz ona görə də baxışın bu növü "ƏAF haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin III hissəsinə, bu qanunla müəyyən edilmiş hallar istisna edilməklə, əsasən məhkəmə qərarı əsasında həyata keçirilə bilər.

Baxışın bütün növlərinin keçirildiyi zaman cinayətkar fəaliyyətlə bağlı bütün növ izlərin axtarılması və qeyd edilməsi üçün müəyyən bilik və vərdişlərinə malik mütəxəssislər dəvət oluna bilərlər (ekspert-kriminalist, mütəxəssis-mühasib, dağ-mədən və partlayış işləri üzrə texniki işçilər və s.).

**Bu tədbirin keçirilməsinin gedişatında aşağıdakı vəzifələrin həll edilməsi təmin olunur:**

***1) gələcəkdə maddi sübut kimi istifadə edilə bilən əşyaların və sənədlərin aşkar edilməsi;***

***2) Cinayət yolu ilə əldə edilmiş əmlakın və qiymətli əşyaların, cinayət alətlərinin saxlanıldığı yerlərin müəyyən edilməsi;***

***3) aşkar edilmiş əşyalar, sənədlər haqqında məlumatların onların rəsmi qaydada qanunvericiliyə müvafiq olaraq götürülməsinə qədər saxlanılması;***

***4) əşyaların və sənədlərin xüsusi kimyəvi maddələrlə nişanlanması;***

***5) qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin təmin olunması;***

***6) cinayət işləri üzrə istintaq hərəkətlərinin müvəffəqiyyətlə həyata keçirilməsi və s.***

Bu tədbirin keçirilməsi prosesində bir sıra əməliyyat-taktiki vəzifələrin həllinə nail olmaq mümkündür.

***Məsələn, maddi məsul şəxsin iş yerində və ya mənzilində hüquqa zidd əmələ dair qaralama qeydləri, saxta sənədlərin, külli miqdarda milli və xarici valyuta əsginazlarının aşkar edilməsi; şəxsi əşyalara – məktub, qeydiyyat kitabçaları, məktublara, sənədlərə, mobil telefonlara baxış keçirməklə axtarışda olanların yeri, cinayət törətmiş şəxslərin əlaqələri, törətdikləri cinayətlər, cinayətin qurbanları və s. dair məlumatların əldə edilməsi; gələcəkdə ibtidai araşdırmada sübut qismində istifadə edilməsi üçün maddi obyektlərin fotoşəklinin çəkilməsi, kserosurətlərinin çıxarılması və sürəti çıxarilmış sənədlərin yerinin dəyişdirilməsi, cinayətin törədilmə alətlərinin və digər vasitələrinin yararsız hala salınması və ya törədilməsinə yol verilməyən şəraitin yaradılması yolu ilə cinayətin qarşısının alınması və s.***

Bu tədbirin keçirilməsində kriminalistik və əməliyyat-texniki vasitələrdən istifadə edilə bilər.

Qeyd edilən obyektlərin gizli və pərdələndirilmlşbaxışının xüsusi qaydaları idarədaxili və idarələrarası normativ aktlarla tənzimlənir.

**Baxışın nəticələri onun keçirilməsinin növlərindən və aşkarlıq dərəcəsindən asılı olaraq raport, arayış, baxış protokolu (aktı) ilə rəsmiləşdirilə bilər.**

Bu tədbirlərin keçirilməsinə dair çoxsaylı faktlardan biri olan aşağıdakı misala nəzər salaq.

**“H” şəhərinin polis idarəsinin narkotiklərlə mübarizə şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən ƏAT nəticəsində əldə edilən məlumatlara əsvsən müəyyən edilmişdir ki, CM-nin 206.2 və 234-cü maddələri ilə əvvəllər məhkum olunmuş şəhər sakini “K” qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilmiş narkotik vasitə heroinin və ekstazinin satışı ilə məşğul olur. Əməliyyat qeydiyyat işi çərçivəsində həyata keçirilmiş kompleks ƏAT nəticəsində, o cümlədən “cinayətkar qruplara və kriminogen obyektlər daxil edilmə”, nəzarət qaydasında mal alınması və s. ƏAT həyata keçirilməsi nəticəsində vətəndaş “K” və onun xarici vətəndaşlardan ibarət cinayətkar əlaqələri müəyyən edilmişdir. DİN-in idarədaxili normativ-hüquqi aktının müddəalarına müvafiq olaraq ƏAF-nin səlahiyyətli vəzifəli şəxsi tərəfindən qərar cıxarılmış və onun əsasında vətəndaş “K” nın mənzilinə və həyətyanı sahəsinə baxış zamanı xüsusi hazırlanmış gizlənc yerlərindən 12 kq heroin və külli miqdarda ekstazi narkotik vasitə aşkar edilərək götürülmüş və mütəşəkkil cinayətkar qruplaşmanın 3 nəfəri o cümlədən bir İİR-nin vətəndaşı həbs edilmişdir. Narkotiklərlə mübarizə şöbəsinin və istintaq təcridxanasının əməliyyat hissələrinin birgə keçirdikləri ƏAT nəticəsində və əldə edilmiş məlumatların realizə edilməsi nəticəsində cinayətkar qruplaşmaların daha 2 üzvü müəyyən edilərək saxlanılmışdır.**

**Cinayətkar qruplaşmanın ifşa edilməsi məqsədi ilə yaradılmış istintaq-əməliyyat qrupuna daxil olmuş əməkdaşlar həyata keçirdikləri ƏAT və istintaq hərəkətlərinin gedişatında Azərbycan Respublikasının “ƏAF haqqında” Qanunun 10-cu maddəsinin 1-ci və VII hissələrinin, Azərbaycan Respublikasının Prezidentinin 19.06.2001 ci il və 22.05.2007 ci tarixli Fərmanlarının, CPM-in 137, 445, 446-cı maddələrinin və DİN, ƏAT-nin təşkili və keçirilməsi taktikasını tənzimləyən normativ aktlarının tələblərini, Konstitusiya Məhkəməsinin Plenumunun 12.02.2015 ci il tarixli Qərarının müddəalarını rəhbər tutmuş və əməliyya-axtarış psixologiyası sahəsində elmi biliklərdən məharətlə (əməliyyat ustalığı) istifadə etmişlər.**

Nəzərə almaq lazımdır ki, “ƏAF haqqında” Qanunda «Əməliyyat baxışı» anlayışının, onun keçirilməsinə toxunan məsələlərin ətrafı izahı yoxdur. ƏAF nəzəriyyəsində bu ad altında bu fəaliyyətin metodu verilir. Onun müddəaları əsasən ümumi göstəriş xarakteri daşıyır. Bu cür məsələlər idarə səciyyəli normativ aktlarda konkretləşdirilir, onlar əməliyyat baxışının təşkilini və taktikasını rəsmi olaraq müəyyənləşdirir.

**Poçt, teleqraf və digər göndərişlərin yoxlanılması və nəzarət edilməsi.** Bu, tədbir şübhəli şəxslərin cinayətkar fəaliyyəti haqqında poçt, teleqraf və digər elektrik

şəbəkəsi və poçt rabitəsi vasitəsilə göndərilən məlumatların gizli yoxlanma yolu ilə alınması üsulu kimi başa düşülür.

***Nəzarət obyektinə bütün növlərdən olan məktublar, teleqramlar, radioqramlar, banderollar, sovqatlar, pul baratları, poçt konteynerləri aid edilir (CPM, mad. 255).*** Lazım olduqda, poçt göndərişlərinin surətini çıxarırlar, göndərişlərin məzmununun fotoşəklini çəkirlər, tədqiq üçün nümunələr seçilir. Xüsusi hallarda tədbir elmi-texniki bölmənin mütəxəssislərinin iştirakı ilə keçirilir.

Bu tədbirin keçirilməsi nəticəsində şübhəli şəxsin əlaqələri, o cümlədən xaricdəki əlaqələri haqqında, obyektin cinayətkar fəaliyyəti, şəxsi xüsusiyyətləri haqqında məlumatların əldə edilməsinə nail olmaq olar. Bunlar digər əməliyyat-axtarış tədbirlərini, habelə istintaq hərəkətlərini daha səmərəli surətdə hazırlamağa və həyata keçirməyə, göndərişin içindəki əşyaları ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması və s. açılması üçün maraq doğuran maddələri və s. aşkar və qeyd etməyə (qanunazidd hərəkətləri sənədləşdirmək məqsədilə) imkan verir.

Ölkə Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanına əsasən bu tədbirin keçirilməsi MTN (yeni qanunvericiliyə müvafiq olaraq DTX və XKX) və DİN orqanlarının səlahiyyətinə aiddir.

**Onun gedişində əməliyyat işçisi**:

- *nəzarət faktının gizli saxlanılmasını;*
- *poçt göndərişinin qorunmasını;*
- *poçt göndərişlərində olan məlumatın gizli saxlanmasını təmin etməlidir.*

Bununla yanaşı, anlaşılmaz, yəni mənası pərdələnmiş mətnlərin, habelə banderollarda və göndərişlərdə olan sənəd, maddələrin və s. kriminalistik və digər növ tədqiqi də həyata keçirilə bilər.

Təhlil olunan tədbir şəxslərin şəxsi həyatına (konstitusion hüquqlarına) maksimum dərəcədə müdaxilə edir. Ona görə də onun hazırlanmasında "ƏAF haqqında" Qanunun 11-ci maddəsinin II, III hissələrində qeyd olunmuş səbəb və əsaslar rəhbər tutulmalıdır. Bu tədbir əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin (idarə səciyyəli normativ aktlarla müəyyən olunur) rəhbərinin əsaslandırılmış prokuror qarşısında qaldırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun hakimə göndərdiyi təqdimatına müvafiq olaraq məhkəmənin təkbaşına, müstəqil çıxardığı («ƏAF haqqında» Qanunun 10-cu maddəsinin III hissəsi, CPM-nin 442, 445, $446^1$, $447^1$, $448^1$-ci maddələri) qərarı əsasında keçirilir. Bu tədbi-

rin təşkili və keçirilməsi taktikası idarələrarası və idarə səciyyəli xüsusi normativ aktları ilə konkretləşdirilir. Bu tədbir «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin IV, V hissələrinin tələbləri rəhbər tutulmaqla, hakimin icazəsi olmadan da keçirilə bilər.

Gizli yoxlama zamanı aşkar edilmiş əşyaların müsadirəsinə və əvəz olunmasına müstəsna hallarda, bu tədbirin keçirilməsi haqqında qərarı təsdiq etmiş rəhbərin icazəsi ilə yol verilir.

Gizli yoxlamanın keçirilməsinin nəticələri əməliyyat aparatı əməkdaşının raportu (arayışı) ilə rəsmiləşdirilir. Bu sənəddə yoxlamanın gedişi, texniki vasitələrin istifadəsi, aşkar olunmuş əşyalar və sənədlər əks olunur. Raporta məlumatın qeyd olunduğu texniki daşıyıcılar əlavə oluna bilər.

**Telefon danışıqlarına qulaq asma** telefon xətləri ilə yoxlanılan, tədqiqat olunan və cinayətlərdə şübhəli olan şəxslər tərəfindən ötürülən məlumatın gizli qaydada əldə edilməsidir. Azərbaycan Respublikasının «Rabitə haqqında» Qanununda qeyd edilir ki, təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən rabitə müəssisələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün şərait yaratmağa, bu məqsədlə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən orqanın şərtlərinə uyğun rabitə şəbəkələrini əlavə texniki vasitələrlə təchiz etməyə, təşkilati məsələləri həll etməyə və bu tədbirlərin keçirilməsində istifadə olunan üsulları gizli saxlamağa borcludurlar. Bu şərtlərin pozulmasına görə rabitə müəssisələri (hüquqi şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Bu zaman qanunvericiliyin tələbləri rəhbər tutulmaqla ƏAO-ya texniki vasitələrlə verilən məlumatlarla tanış olmağa və onları qiymətləndirməyə, habelə lazımi məlumatları yazı aparatları vasitəsilə məlumatların müxtəlif daşıyıcılarında (audiokasetlərdə, disketlərdə) qeyd etməyə dair hüquqlar verilir.

Telefon danışıqlarının dinlənilməsinə, poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasında olduğu qaydada yalnız məhkəmə qərarı əsasında (istisna hallar nəzərə alınmaqla) yol verilir. Qulaqasmanın maksimum müddəti qərar çıxarılan gündən başlayaraq 6 aydır. Onun uzadılmasına ehtiyac olduqda, hakim bu barədə yenidən təqdim olunmuş materiallar əsasında qərar çıxarır. Hakimin ilkin razılığı olmadan vətəndaşların sağlamlığına, mülkiyyətinə təhlükə yarandıqda, telefon danışıqlarının dinlənilməsinə yol verilmir. Telefon danışıqları yalnız ev sahiblərinin razılığı haqqın-

da yazılı ərizələri qəbul edildikdə, orqan rəhbərinin qərarı əsasında qanunvericiliyin tələbləri rəhbər tutulmaqla hakimin qərarı olmadan da qulaqasıla bilər. («ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VI hissəsi, DTX, DİN, XKX). Bir sıra dövlətlərin, o cümlədən RF-nin «ƏAF haqqında» Qanununda belə hallarda tədbirin keçirilməsi barədə 48 saat ərzində mütləq hakimə və ya məhkəməyə məlumat verilir. Azərbaycan Respublikasının qanununda belə şərt nəzərdə tutulmamışdır.

Bu tədbir DİN-in xüsusi texniki-təminat, həmçinin DTX və XKX-nin müvafiq xidmətləri tərəfindən həyata keçirilir. Onun keçirilməsi nəticəsində əməliyyat işçisinin ƏAF-nin vəzifələrinin həlli məqsədilə telefon danışıqlarının abunəçiləri, telefon nömrələri, iştirakçılar arasında əlaqələr və s. barədə məlumatlar əldə edilir.

Telefon danışıqlarına qulaq asmanın rəsmiləşdirilməsi əməliyyat-xidməti sənədləri ilə həyata keçirilir. Onlara fonoqram və informasiyanın müxtəlif texniki daşıyıcıları əlavə oluna bilər. Sonradan sənədlər əlavələrlə birlikdə müəyyən olunmuş qaydada tapşırığın təşəbbüskarına təqdim edilir.

Telefon danışıqları nəticəsində alınmış məlumatlar qeyri-prosessual (əməliyyat səciyyəli) məlumatlara aiddir. Qeyri-prosessual məlumatın cinayət prosesinə daxil edilməsi üçün əməliyyat materiallarına sübut-dəlil statusu verilməlidir, onları “leqallaşdırmaq”, lazımi prosessual formaya salmaq tələb olunur. Sonralar bu nəticələr cinayət işi üzrə sübut kimi yalnız fonoqrammanın əməliyyat aparatından müstəntiqə verilməsi ilə əlaqədar onlar üzrə istintaq hərəkətlərinin həyata keçirilməsindən, habelə onların istintaq baxışı və ekspert tədqiqatı (bunlar insanın fonoqrammada yazılmış səsi ilə eyniləşdirilməsinin elmi surətdə əsaslandırılmış metodikaları əsasında keçirilir) keçirildikdən sonra, əldə olunan nəticələr maddi sübut kimi istifadə oluna bilər («ƏAF haqqında» Qanunun 16-cı maddəsi, CPM-in 137-ci maddəsi).

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq, fonoqramma bütünlükdə müstəntiqin qərarı əsasında maddi sübut kimi cinayət işi materiallarına daxil edilir. Fonoqramma çap olunmuş şəkildə onun dinlənilməsini və yayılmasını istisna edən (kənar şəxslər tərəfindən), onun təkrarən dinlənilməsi, o cümlədən məhkəmə iclası üçün saxlanılmasını və texniki yararlığını təmin edən şəraitdə saxlanılır.

**Texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması əməliyyat texniki tədbirdir**. Bu tədbir xüsusi texniki vasitələrlə açıq (gizli

şəklə salınmamış) yoxlanılan şəxslər tərəfindən texniki rabitə kanalları ilə verilən məlumatın ələ keçirilməsindən ibarətdir.

Bu tədbirin telefon danışıqlarına qulaqasma ƏAT ilə bir sıra oxşar cəhətləri olsa da, onunla eyniləşdirmək olmaz. Telefon xətti nitqlə bağlı informasiyanın verilməsi ilə yanaşı, bir qayda olaraq faksmil, rəqəmsal informasiyanın kompüterlərarası mübadiləsi, videosiqnalların və digər məlumatların ötürülməsi üçün istifadə edilir. Bunun üçün telefon xətlərinə ənənəvi telefon aparatları ilə yanaşı, digər geniş elektron aparatların dairəsi (faks, modem, kompüterlər, mühafizə siqnalizasiya cihazları və s.) də qoşulur. Bu halda (şəraitdə) telefon danışıqlarının qeyd edilən tədbirdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, birinci tədbirin keçirilməsi zamanı nitqlə bağlı məlumata nəzarət edilir və onun qeydiyyatı aparılır.

Digər formada məlumatların (qrafik, mətn, videogörüntü və s.) ötürülməsinə nəzarət ilə bağlı hərəkətlər isə «texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması» ƏAT-yə aid edilir.

Bu tədbirləri həyata keçirmək hüquqları olan subyektlər Azərbaycan Respuğlika-sının Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə DİN, DTX, XKX verilmişdir.

***Onun təşkili və taktikası, rəsmiləşdirilməsi ilə bağlı münasibətlər idarədaxili və idaələrarası normativ aktlarla tənzimlənir.***

**Texniki rabitə kanallarına** selektor, radiorele rabitəsi, habelə teleks, faksimil, abunəçilər arasında peydcinq informasiya mübadiləsi kanalları, radioəlaqə, kompüter şəbəkələri (İnternet) və s. aiddir.

Bu tədbirlər xüsusi texniki xidmətlər tərəfindən keçirilir. Bu xidmətlər əməliyyat-axtarış orqanları tərkibində də fəaliyyət göstərə bilər. Tədbirlərin keçirilməsi vaxtı alınmış məlumatlar arayışa əlavə olunan fiziki daşıyıcılarda (maqnit lentləri, disketlər və s.) və sonralar istintaq orqanlarına cinayət işləri üzrə sübut prosesində istifadə edilməsi üçün təqdim olunan sənədlərdə əks olunur.

Əməliyyat-axtarış orqanlarının sərəncamında nəzərdən keçirilən əməliyyat-axtarış tədbirlərinin mövcudluğu və yeni texniki vasitələrin yaradılması ağır və xüsusilə ağır cinayətlərlə mübarizənin səmərəliliyini xeyli artırır. Ümumiyyətlə, ƏAF sahəsində qanunvericilik əməliyyat-axtarış tədbirlərinin, xüsusilə də insanların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə bağlı əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin yalnız istisna hallarında son zərurət kimi əməliyyat-axtarış fəaliyyətinin mümkün olmasını müəyyənləşdirir.

# XVII FƏSİL

## Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün səbəb, əsas və şərtlər

### § 1. Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin səbəb və əsasları

«ƏAF haqqında» Qanunun 10-cu maddəsində nəzərdə tutulan kompleks əməliyyat-axtarış tədbirləri, kompleks əməliyyat-axtarış hərəkətlərindən ibarət olub, hazırlanması və keçirilməsi müddəti bir neçə saatdan 6 aya və daha çox müddətə qədər vaxt apara bilər. Bununla əlaqədar, cinayətkarlıqla mübarizədə operativliyin, həmləliyin təmin edilməsi məqsədilə bu tədbirlərin keçirilməsi üçün səbəb və əsas olmalıdır. Səbəblər əməliyyat işçisinə əməliyyat-axtarış münasibətləri sahəsinə aid olan hüquqazidd əməllər haqqında daxil olan məlumatlar ola bilər. Səbəblər həm yazılı məlumatlarda (Əməliyyat-xidməti sənədlər, müstəntiqin tapşırıqları və s.), həm də əgər kriminoloji şəraitlərə cəld reaksiya tələb olunursa, şifahi məlumatlarda ifadə oluna bilər.

«ƏAF haqqında» Qanunun 11-ci maddəsinin II hissəsi ilə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün aşağıdakı səbəblər göstərilmişdir:

1. Fiziki şəxslərin ərizələri;
2. Müəssisə, idarə və təşkilatların vəzifəli şəxslərinin müraciətləri;
3. Kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;
4. ƏAF subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;
5. ƏAF-nin digər subyektlərinin yazılı sorğuları;
6. Azərbaycan respublikası ali dövlət hakimiyyəti orqanlarını və xüsusi obyektlərini mühafizə edən orqanlarının yazılı sorğuları;
7. Cinayət işləri üzrə təhqiqat və ya istintaqı aparan şəxslərin yazılı tapşırıqları;
8. Xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatlarının rəsmi sorğuları;
9. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin yazılı sorğuları.

**Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar aşağıdakılardır («ƏAF haqqında» Qanunun III hissəsi):**

*1.-Məhkəmənin-(hakimin)-qərarları;*

*2.-İstintaq-orqanlarının-qərarları;-*

*3.-Əməliyyat-axtarış-fəaliyyətinin-səlahiyyətli-subyektlərinin-qərarları;*

**«ƏAF haqqında» Qanunun 11-ci maddəsinin IV hissəsinə əsasən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya ƏAF-nin səlahiyyətli subyektinin qərarı yalnız aşağıdakı hallarda qəbul oluna bilər:**

***1. Başlanmış cinayət işi mövcud olduqda;***

***2. Cinayət işinin başlanmasına kifayət qədər əsaslar*** **olmasa da,** ***cinayəti hazırlayan, törədən və ya törətmiş şəxs barəsində*** **etimad doğuran,** ***məlum və qərəzsiz mənbədən məlumat*** **daxil olduqda;**

***3. Dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda;***

***4. Şəxs məhkəmə,*** **istintaq** ***və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən*** **boyun** ***qaçırdıqda, yaxud*** **itkin** ***düşdükdə;***

***5. Naməlum meyit aşkar edildikdə;***

**Əməliyyat-axtarış tədbirlərinin əsasları 2 cür təsnif oluna bilər: faktiki və hüquqi (formal).**

**Faktiki əsaslar – əməliyyat-axtarış tədbirlərinin** keçirilməsinin bilavasitə obyektiv səbəbləridir. Bu səbəblər konkret hüquqazidd hərəkətlər haqqında faktiki məlumat və yaxud qanunvericilikdə göstərildiyi şəkildə təqdim olunur (mad. 11, II hissə).

**Səbəbin xarakterinə görə faktiki məlumatlar arasında onlar belə fərqləndirilir:**

-

-*Cinayətin- törədilməsinin- qarşısının- alınması- və-* latent- *səciyyəli- cinayətlərin-aşkar-olunması-vəzifəsinin-həll-edilməsinin-vacibliyi;-----------------*

--*Cinayətin-törədilməsi-barədə-məlumatların-mövcudluğu;*

--*şəxsin-itkin-düşməsi-barədə-məlumatlar;----------------*

--*inzibati-hüquqi-rejimlərin-təmin-edilməsinin-vacibliyi;-----*

--*Azərbaycan-Respublikasının-qoşulduğu-beynəlxalq-müqavilələrin-yerinə-*yeti-*rilməsinin-vacibliyi.-----------------------------------------------*

**Hüquqi əsaslar – əməliyyat**-axtarış qanunvericiliyi və yaxud digər normativ aktlarda nəzərdə tutulmuş və əməliyyat işçisinə daxil olmuş faktiki məlumat mənbələridir (bir qayda olaraq sənədləşdirilmiş). Burada əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin faktiki əsası barədə məlumatlar göstərilməlidir.

Əməliyyat-axtarış tədbirinin keçirilməsi üçün ən mühüm əsas kimi konkret fakt, hadisə üzrə başlanmış cinayət işinin mövcudluğu nəzərə alınmalıdır. Bu zaman cinayət işinin təhqiqat orqanı, müstəntiq və ya məhkəmə tərəfindən başlanmasının əhəmiyyəti yoxdur.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə əsasən, cinayət işi prokurora göndərildikdən sonra təhqiqat orqanı (əməliyyat aparatı) bu iş üzrə təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərini müstəntiqin tapşırığı ilə keçirə bilər. «ƏAF haqqında» Qanunun 12-ci maddəsinə əsasən, əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərar, yazılı tapşırıq və ya rəsmi sorğu yalnız Azərbaycan Respublikasının qanunvericiliyi əsasında belə səlahiyyətə malik olan şəxs tərəfindən verilə bilər. Cinayət törətmiş şəxs aşkar olunmadığı halda təhqiqat orqanı (ƏAO) cinayət törətmiş şəxsin müəyyənləşdirilməsi üçün əməliyyat-axtarış tədbirlərini həyata keçirməlidir və onun nəticələri barədə müstəntiqi rəsmi qaydada qanunvericiliyin tələbləri rəhbər tutulmaqla məlumatlandırılmalıdır.

Müstəntiqin ayrica tapşırığı olmadıqda, əməliyyat işçisi hazırlanan, törədilən cinayətlərin qarşısının alınması və törədilmiş cinayətlərin açılması məqsədilə lazımi əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə normativ aktlarda müəyyənləşdirilmiş qaydada qərar qəbul etməyə hüququ vardır. Bu halda öz fəaliyyətinin gedişi və nəticələri barədə əməliyyat işçisi müstəntiqlə qanunvericiliklə ("ƏAFhaqqında" Qanun, CPM və idarə daxili normativ aktlarla) müəyyən olunmuş hallarda və qaydada öz təşəbbüsü ilə qarşılıqlı əməkdaşlıq münasibətləri qurur. Cinayət işi üzrə əməliyyat işçisinin fəallığı müstəntiqin imzaladığı tapşırığın olmamasına əsaslanaraq məhdudlaşdırılmamalıdır və tamamilə onun peşəkarlığından, ixtisasından və cinayətlərin açılmasında qeyri-aşkar metodların tətbiqi ilə bağlı nəticələrinə və onların istifadə edilməsi yollarına dair məlumatlı olmasından da asılıdır.

Əməliyyat-axtarış tədbirinin keçirilməsi üçün əsaslardan biri də əsas etibarilə əməliyyat-axtarış yolu ilə əldə olunan aşağıdakı məlumatlardır: hazırlanan, törədilən və yaxud törədilmiş hüquqazidd hərəkətlərin əlamətləri barədə məlumatlar.

Hazırlanan, törədilən və yaxud törədilmiş hüquqazidd hərəkət (cinayət əməli) dedikdə, cinayətin müxtəlif mərhələlərdə törədilməsi nəzərdə tutulur: **başa çatmış və başa çatmayan Cinayət** (CM, mad.27).

*Hüquqazidd əməlin əlamətləri barədə məlumatlar vətəndaşların məktublarında, ərizələrində, idarə və müəssisələrin vəzifəli şəxslərinin məlumatlarında, kütləvi informasiya vasitələrində, habelə məxfi mənbələrdən (həmçinin texniki müşahidə nəzarət vasitələri ilə) daxil olmuş məlumatlarda olur.* Bu, bir qayda olaraq, cinayətlərin əlamətləri barədə ilkin məlumatlardır və onlarda cinayət işinin başlanması üçün hələ kifayət qədər əsas olmur və bu məlumatların əməliyyat-axtarış yolu ilə yoxlanmasına ehtiyac duyulur. Onlar üzrə qərarın qəbul edilməsi, bir qayda olaraq, vaxt qıtlığı (məhdudluğu, çatışmamazlığı), məlumatların ziddiyyətliyi və məhdudluğu ilə müşayiət olunur.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının dövlət, hərbi, iqtisadi və ekoloji təhlükəsizliyinə təhlükə yaradan hadisələr, hərəkətlər və onlar haqqında məlumatlar insanların iradəsindən asılı olmayaraq mövcud ola bilər. **Belə, hərəkət (əməl) dedikdə – qanunvericilik cəmiyyət üçün təhlükəli, fəal əməli, davranışı nəzərdə tutur.**

Təhqiqat orqanlarından, istintaqdan və məhkəmədən gizlənən və yaxud cəza çəkməkdən boyun qaçıran şəxslər haqqında məlumatlar, müstəntiqin cinayət məsuliyyətinə cəlb olunmalı şəxs barədə axtarış elan edilməsi barədə tərtib etdiyi qərarda, ƏAO-nun istiqamətvericilərində, axtarış tapşırıqlarında, habelə məxfi mənbələrdən alınan məlumatlarda göstərilə bilər.

**Gizlənən şəxslərə aşağıdakılar aiddir:**

- *cəzaçəkmə müəssisələrindən qaçmış məhbuslar və s. - həbslə bağlı olmayan qətimkan tədbirinin tələblərini pozmuş müttəhimlər (barəsində ittiham elan edilmiş);*
- *ibtidai istintaq zamanı həbsdən qaçmış müttəhimlər (barəsində ittiham elan edilmiş);*
- *müşayiət edilən zaman qaçmış müttəhimlər (barəsində ittiham elan edilmiş);* -

İtkin düşmüş şəxslər və şəxsiyyəti müəyyən edilməmiş (tanınmamış) meyitlərin aşkar olunması barəsində məlumatlar vətəndaşların, vəzifəli şəxslərin ərizələrində və digər mənbələrdə ola bilər.

Əməliyyat-axtarış tədbirinin keçirilməsinin səbəblərinə, habelə müstəntiqin, təhqiqat orqanının tapşırığı, prokurorun göstərişi və yaxud məhkəmənin baxılan iş

üzrə qərarı da aiddir. Bu zaman tapşırıq müstəntiq tərəfindən yazılı şəkildə əməliyyat-axtarış fəaliyyətinin hər bir subyektinin əməliyyat-axtarış orqanına verilə bilər.

Müstəntiqin yazılı tapşırığında aydınlaşdırılmalı məsələlər dəqiq ifadə olunur və onların yerinə yetirilməsi üçün zəruri məlumat qeyd olunur. Tapşırığın yerinə yetirilmə müddəti 10 gündən artıq olmamalıdır. Onun bu müddət ərzində yerinə yetirilməsi mümkün olmadıqda, müvafiq əməliyyat aparatının rəhbəri və müstəntiq yeni icra müddətini, yaranmış şəraiti nəzərə alaraq müəyyən edirlər.

Tapşırığı yerinə yetirərkən müstəntiq ona məlum olan məlumatları (tapşırığın yerinə yetirilməsini şərtləndirən və asanlaşdıran) əməliyyat işçisinə verə bilər, lakin ona tapşırığın icrası ilə bağlı müəyyən qüvvə, vasitə və metodların istifadə edilməsi barədə göstəriş verməyə onun hüququ yoxdur, çünki bu yalnız əməliyyat-axtarış orqanlarının səlahiyyətlərinə aiddir.

Qeyd edək ki, Cinayət işi prokurora göndərildikdən sonra təhqiqat orqanı bu iş üzrə əməliyyat-axtarış tədbirlərini yalnız müstəntiqin tapşırığı və nəticələri barədə məlumatlandırmaqla keçirə bilər.

Prokuror CPM-in 84.5.7-ci maddəsinə əsasən təhqiqat orqanına əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə yazılı göstərişlər verməyə də səlahiyyəti vardır. Lakin bu cür göstərişlər gizli tədbirlərin keçirildiyi yerlərə və onların keçirilmə vaxtına, habelə onları həyata keçirərkən istifadə olunmuş qüvvə və vasitələrə aid edilməməlidir. Bütün bu məsələlər müstəqil surətdə əməliyyat aparatının rəhbəri tərəfindən həll olunur.

Əməliyyat-axtarış tədbirini həyata keçirən orqanlar üçün Azərbaycan Respublikasının CPM-in 53.1.3 və 278-ci maddələrinə əsasən, istintaqdan gizlənmiş təqsirli şəxsin axtarışı haqqında qərarın da icra edilməsi vacibdir.

Müstəntiqin göstərişi ilə keçirilən əməliyyat-axtarış tədbirinin nəticələri əməliyyat işçisinin raportu və ya digər əməliyyat-xidməti sənədlər ilə rəsmiləşdirilir. Bu raportda cinayətin açılması, istintaqı və yaxud məhkəməyə iş üzrə qərarın çıxarılması üçün əhəmiyyəti olan məlumatlar verilir.

Əməliyyat-axtarış tədbirinin keçirilməsi üçün səbəblərdən biri də Azərbaycan Respublikası dövlət orqanlarının, habelə xarici dövlətlərin, beynəlxalq hüquq-mühafizə təşkilatlarının və hüquq-mühafizə orqanlarının Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələrə müvafiq olaraq yazılı və rəsmi sorğuları da aiddir.

**Sorğu - əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həlli üçün əhəmiyyəti olan və faktiki məlumatlarla bağlı olan digər orqana göndərilən rəsmi əməliyyat-xidməti sənəddir.** Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən digər hüquq-mühafizə orqanlarına bunlar aiddir: DİN, DTX, XKX, ƏN, FHN, VN, XDMX, DSX, DGK və KQMSİPO.

Beynəlxalq miqyasda tanınmış və hüquq-mühafizə funksiyasını həyata keçirən təşkilat Cinayət Polisinin Beynəlxalq Təşkilatıdır (İnterpol). Ona 177 dövlət, o cümlədən Azərbaycan (1992-ci ildən) daxildir. İnterpolun qərargahı Lion (Fransa) şəhərində yerləşir.

Bundan başqa, 1991-ci ildə Avropol (narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan Avropa Şurasının orqanı) yaradılmışdır. Lakin Azərbaycan Avropol haqqında Konvensiyaya qoşulmaq mərhələsindədir.

ƏAO daha sadələşdirilmiş qarşılıqlı münasibətləri MDB-yə daxil olan ölkələrin DİN-i arasında mütəşəkkil cinayətkarlıqla və təhlükəli cinayətlərin digər növləri ilə mübarizə üzrə birgə tədbirlərinə dair dövlətlərarası proqram əsasında qurulur.

Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin daha bir əsası müdafiə olunan şəxslərə aid təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi barədə qərardır. Hakimlər, hüquq-mühafizə orqanlarının əməkdaşları "Hakimlərin, hüquq-mühafizə orqanlarının işçilərinin dövlət müdafiəsi haqqında" (1998) Qanuna əsasən, müdafiə olunurlar. **Ümumiyyətlə, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aşağıdakı şəxslər müdafiə olunurlar:**

***1. Bütün növ məhkəmələrin hakimləri;***

***2. Prokurorlar;***

***3. Müstəntiqlər;***

***4. Təhqiqat, istintaq aparan şəxslər;***

***5. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər;***

***6. İctimai asayişi və ictimai təhlükəsizliyi təmin edən, habelə cinayət işləri üzrə məhkəmənin hökmlərini, qərarlarını, istintaq orqanlarının və prokurorların qərarlarını həyata keçirən əməkdaşları:***

***6.1. Cinayət-icra sistemi orqanlarının və idarələrinin əməkdaşları;***

***6.2. Silahlanmış cinayətkarların, qanunsuz silahlı təşkilatların və digər mütəşəkkil cinayətkar qrupların cinayətkar hərəkətlərinin qarşısının alınmasında bilavasitə iştirak edən DİN-in və digər hüquq-mühafizə orqanlarının əməkdaşları;***

***7. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən orqanların əməkdaşları;***

***8. Dövlət gömrük, vergi, fövqəladə hallar orqanlarının əməkdaşları;***

***9. Dövlət sərhəd xidməti, xüsusi dövlət mühafizə xidmətinin əməkdaşları;***

***10. Məhkəmə icraçıları;***

***11. Ov fondu ərazisində ov qaydalarının riayət edilməsinə nəzarət edən orqanların, dövlət meşə və sanitar-epidemioloji nəzarət orqanlarının, maliyyə orqanlarının, auditor palatasının işçiləri;***

***12. 1-12-ci bəndlərdə qeyd edilən şəxslərin yaxın qohumları və s.***

*Rus alimi O.A.Zaytsevin «Cinayət prosesinin iştirakçılarının dövlət müdafiəsinin hüquqi və nəzəri əsasları» adlı monoqrafiyasında (M. 1997, səh. 88) qeyd edilir ki, ibtidai istintaqı aparan əməkdaşların ünvanına belə hədələr daha çox səslənir: qisas alma (83 %), qətl (33 %), yaxın adamlara qarşı zorakılıq (17 %) namus və ləyaqəti alçaldan məlumatların yayılması (12 %), əmlakın məhv edilməsi (12 %).*

**Müdafiə edilən şəxslərə aid təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi səbəbləri aşağıdakılardır:**

**- vəzifəli şəxsin xidməti fəaliyyəti ilə əlaqədar həyatına, sağlamlığına, əmlakına qəsd etmək təhlükəsi barədə ərizəsi;**

**- məhkəmə sədrlərinə və yaxud hüquq-mühafizə orqanı rəhbərinə göstərilən şəxsin təhlükəsizliyinə real təhlükənin mövcudluğu barədə müraciəti;**

**- təhlükəsizliyi təmin edən orqan tərəfindən vəzifəli şəxslərə qarşı təhlükənin mövcudluğu haqqında əməliyyat məlumatının alınması və s.**

Göstərilən şəxslər kateqoriyasına aid onların təhlükəsizliyinin təmin olunması üçün əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qanunvericiliyin tələbləri rəhbər tutulmaqla qərar qəbul edilir. Bu zaman qeyd edilən şəxslərin konstitusion hüquqlarını məhdudlaşdıran tədbirlərin keçirilməsinə məhkəmə qərarı olmadan onların yazılı razılığı ilə yol verilə bilər. Qeyd edilən şəxslərin müdafiəsi və mühafizəsi ilə bağlı tədbirlər və həmçinin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı məsələlər idarə (təşkilati) səciyyəli normativ aktlarla müəyyənləşdirilir. Hal-hazırda qeyd edilən normativ aktların bir qisminin hazırlanmasına və digərlərinin yenidən işlənməsinə ehtiyac vardır. Bu normativ aktlarda qanunla təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi həvalə edilən orqanlar müəyyənləşdirilmişdir. Bu orqanlar DİO, DTX

və s.-dir. Onlarda xüsusi xidmətlər yaradılmışdır (məsələn, DİN, ƏN, DGK və s. daxili təhlükəsizlik xidmətləri).

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar öz səlahiyyətləri çərçivəsində, habelə aşağıdakı qərarları qəbul etmək üçün zəruri olan məlumatları toplamaq hüququna malikdirlər:

**1. Dövlət sirrini təşkil edən məlumatlara buraxılış barədə əməliyyat-axtarış orqanı** tərəfindən aparılan yoxlama tədbirlərinin istiqaməti və həcmi şəxsin buraxılacağı (tanış olacağı) məlumatların məxfilik dərəcəsindən asılıdır. Əməliyyat-axtarış tədbirinin keçirilməsi prosesində dövlət sirrini təşkil edən məlumatlarla buraxılışa (belə məlumatlarla tanış olmağa) yol verməyən əsaslar müəyyən olunur («Dövlət sirri haqqında» Qanunun 23-cü maddəsi);

**2. İnsanların həyatı, sağlamlığı, ətraf mühit üçün yüksək təhlükəli olan obyektlərin istismarı ilə bağlı işlərə buraxılış barədə.** Belə obyektlərə təhlükəli radiasiya materiallarının və yaxud növə silahı komponentlərinin istehsalı, dövriyyəsi, saxlanılması, kimyəvi, təhlükəli, baktereoloji, radioaktiv maddələrin və onların tullantılarının istifadəsi ilə əlaqədar təşkilatlar və müəssisələr aiddir (dövlət, xüsusi, hərbi və qeyri-hərbi).

**3. Əməliyyat-axtarış fəaliyyətində iştirak etmək və yaxud onun həyata keçirilməsi nəticəsində alınmış materiallarla tanış olmaq, şəxslə əməliyyat-axtarış tədbirinin hazırlanması və keçirilməsi zamanı əməkdaşlıq münasibətlərinin qurulması barədə**.- *Əməliyyat-axtarış-fəaliyyətini* yalnız qanuni səlahiyyətlərə malik olan şəxslər həyata keçirdiyinə və bu zaman alınan məlumatların böyük həcminin məxfi olduğuna görə əməliyyat-axtarış tədbirləri, həmçinin əməliyyat aparatlarında xidmətə qəbul olunan, DİN, MTN və əməliyyat-axtarış fəaliyyətinin digər subyekt-lərinin ali məktəblərinə təhsil almağa namizəd olan şəxslər barədə keçirilə bilər, belə ki, onlar ali məktəblərə daxil olan halda öz funksional vəzifələrinə görə gizli sənəd-lərlə tanış olmaq hüququna malik olacaqlar. Konkret şəxslərin məxfi əməkdaşlığa cəlb olunması ilə əlaqədar əməliyyat-axtarış məlumatlarının əldə edilməsinin xüsusi əhəmiyyəti vardır. Bunlar şəxs barəsində zəruri məlumatların alınması, əməkdaşlığın motivlərinin, cinayətkarlığa qarşı mübarizə sahəsində imkanların müəyyənləşdiril-məsinə şərait yaradır. Bir sıra dövlətlərdə “Detektiv və mühafizə fəaliyyəti haqqında” Qanunların qəbul edilməsi ilə əlaqədar olaraq müvafiq qərar qəbul etmək üçün aşağı-dakı məlumatın da toplanmasına icazə verilir:

**Mühafizə fəaliyyəti ilə məşğul olmaq üçün icazənin verilməsi haqqında**. Məsələn, qüvvədə olan qanunvericiliyə görə Rusiya Federasiyasında mühafizə fəaliyyəti üçün lisenziya verilir. Belə lisenziyalar DİO-nun lisenziya-icazə xidmətləri tərəfindən verilir.

Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi prosesində yoxlanılan şəxslər barədə (onların konstutision hüquqlarını məhdudlaşdıran ƏAT istisna olmaqla) məlumatların toplanmasına, lisenziyaların verilməsinə qadağan qoyulan əsasların (psixi xəstəlik, narkomanlıq, qəsdən cinayət törədilməyə görə məhkumluğu, cinayətkar fəaliyyət və s.) müəyyən edilməsinə nail olunur.

Qeyd edilən əsaslar, yəni əməliyyat-axtarış tədbirinin keçirilməsi üçün yuxarıda adları çəkilmiş əsaslar mövcud olduqda, əməliyyat işçisi təcrübəni, lazımi qüvvələri, vasitələri və vaxtı nəzərə alaraq, konkret hərəkətlərin keçirilməsi barədə qərar qəbul edir. Bununla belə, bəzi əməliyyat-axtarış tədbirləri vətəndaşların konstitusion hüquqlarını əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər. Buna görə onların keçirilməsi zamanı qanunvericiliklə müəyyən edilmiş şərtlərə əməl etmək lazımdır.

## §2. Əməliyyat-axtarış tədbirinin keçirilməsi şərtləri

Əməliyyat-axtarış tədbirinin keçirilməsi şərtləri əməliyyat-axtarış qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi qaydalardan ibarətdir. Bu qaydaların dəqiq yerinə yetirilməsi konkret əməliyyat-axtarış tədbirinin səmərəli həyata keçirilməsinə şərait yaradır və əməliyyat-axtarış fəaliyyətinin prinsiplərinə əməl olunmasını təmin edir.

***Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanununa görə, əgər qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, hər hansı bir şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz (maddə 3, II hissə).*** Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi bütün vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi prinsipini qanuniləşdirir. Bununla əlaqədar olaraq, hər bir şəxs barəsində qanuni əsas olduqda əməliyyat-axtarış tədbiri keçirilə bilər. **Bu normativ göstəriş qismən müəyyən şərtlərlə yalnız vəzifəli şəxslərin xüsusi kateqoriyaları üçün istisna təşkil edir:** Azərbaycan Respublikasının Prezidenti, Baş Naziri, Milli Məclisin deputatları və İnsan hüquqları üzrə səlahiyyətli şəxslər (ombudsmanlar) və s. toxunulmaz hesab edilirlər (Azərbaycan Respublikası Konstitusiyası, maddələr 90,

91, 106, 123, 128 və «Məhkəmələr və hakimlər haqqında», «Milli Məclis deputatının statusu haqqında» və s. qanunlar).

Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Qüvvədə olan qanunvericilik Prezidentin və s. toxunulmazlıq immunitetinə malik olan şəxslərin cinayət-prosessual və əməliyyat-axtarış toxunulmazlığı anlayışına və onun hədlərinə tam və zəruri həcmdə aydınlıq gətirmir; 107-ci maddənin 1-ci hissəsində qeyd edilir ki, Prezidentin vəzifədən kənarlaşdırılması təşəbbüsü onun ağır cinayət törətdikdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 gün müddətində verilən rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürülə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinə əsasən Milli Məclisin deputatlarının şəxsiyyəti bütün səlahiyyət müddətində toxunulmazdırlar. Bu maddənin I hissəsinə və «Milli Məclisin deputatının statusu haqqında» Qanuna əsasən, deputatın toxunulmazlıq hüququ onun yaşadığı evə və iş yerinə, şəxsi və xidməti nəqliyyat vasitələrinə, yazışmalarına, istifadə etdiyi rabitə vasitələrinə, habelə ona məxsus olan sənədlərə aid edilir. Qeyd edilən Qanunların və ƏAF sahəsində qanunvericiliyin təhlili əsasında demək olar ki, göstərilən toxunulmazlıq hüquqlarını pozan əməliyyat-axtarış tədbiri keçirilə bilməz, lakin bu hüquqlara toxunmayan digər əməliyyat-axtarış tədbirinin keçirilməsi istisna edilmir.

Hakimlərin toxunulmazlığı Konstitusiyanın 128-ci maddəsində, «Məhkəmələr və hakimlər haqqında» Qanunun 101-ci maddəsində öz əksini tapmışdır. Qeyd edilən sonuncu qanunun 101-ci maddəsində göstərilir ki, Konstitusiyanın 128-ci maddəsinin I hissəsinə uyğun olaraq hakimlər toxunulmazdır və onlar cinayət məsuliyyətinə cəlb edilə, tutula və ya həbs edilə bilməzlər, onların barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, onlar axtarış, şəxsi müayinəyə və gətirilməyə məruz qala bilməzlər. Hakimlərin toxunulmazlığı, həmçinin onların mənzillərinə, xidməti otaqlarına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil olunur. Bu maddənin mahiyyətinə görə hakimə qarşı əməliyyat-axtarış tədbirlərinin (insan hüquqlarının məhdudlaşdırılması ilə bağlı) yalnız cinayət işi üzrə icraat prosesində həyata keçirilə bilər. Lakin bu, digər əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin mümkünlüyünü istisna etmir.

Prokurorların və prokurorluğun müstəntiqlərinin toxunulmazlığı məsələləri Azərbaycan Respublikasının "Prokurorluq haqqında" Qanununda əhatə olunmuşdur. Qanununun 33-cü maddəsində (prokurorluq işçisinin məsuliyyəti) göstərilmişdir. Prokurorluq işçisi cinayət törətdikdə ümumi əsaslarla məsuliyyət daşıyır. Onların inzibati qaydada həbs edilməsi, gətirilməsi, tutulması, cinayət məsuliyyətinə cəlb edilməsi, həbsə alınması, mənzilində, nəqliyyat vasitəsində, iş yerində axtarışına, şəxsi axtarışına, telefon və digər vasitələrlə danışığına qulaq asmağa (cinayət başında yaxalanma halları istisna edilməklə) Azərbaycan Respublikası Baş Prokurorunun müraciəti əsasında Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin razılığı əsasında həyata keçirilə bilər. Bu halda dərhal Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə məlumat verilməklə, müvafiq sənədlər təqdim edilir. O, razılıq vermədikdə, tutulmuş və yaxud həbs olunan şəxs dərhal azad edilir. Azərbaycan Respublikası Baş Prokurorunun toxunulmazlığına dair həmin hərəkətlər Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun razılığı olmadan həyata keçirilə bilməz. Prokurorluq işçisinin barəsində cinayət işini yalnız Azərbaycan Respublikasının Baş Prokuroru başlayır və cinayət işi üzrə ibtidai istintaq Baş Prokurorluqda aparılır.

Bizim zənnimizcə, bir sıra milli və beynəlxalq qanunvericilik və təcrübi materiallara, habelə aparılan araşdırmalara əsaslanaraq, yuxarıda qeyd edilən şəxslərin toxunulmazlığı haqqında müddəaların hüquqi dövlət, ümumbəşəri, demokratik dəyərlər prinsiplərinin və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi zəruriliyi müstəvisi baxımından təkmilləşdirilməsi vacibdir.

İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) səlahiyyətləri müddəti ərzində toxunulmazdır (Azərbaycan Respublikasının "İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Qanunun 6-cı maddəsi). Müvəkkil səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Müvəkkil cinayət başında yaxalanarsa, onu tutan orqan bu barədə 24 saat müddətində Azərbaycan Respublikasının Baş Prokuroruna və Azərbaycan Respublikasının Milli Məclisinə xəbər verməlidir. Müvəkkilin toxunulmazlığı həmçinin onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil olunur.

**“ƏAF haqqında” Qanunun 10-cu maddəsində göstərilən bütün əməliyyat-axtarış tədbirlərinə şamil olunan və qanunverici tərəfindən müəyyən edilən onların həyata keçirilməsi şərtlərini (“ƏAF haqqında” Qanunun 10, 13, 14 və s. maddələri) iki qrupa bölmək olar:**

a) məhkəmənin icazəsi tələb olunan tədbirlər;

b) əməliyyat-axtarış fəaliyyətini həyata keçirən DİO-nun səlahiyyətli şəxsinin (rəhbərinin) qərarını tələb edən tədbirlər.

**Birinci qrupa** insan və vətəndaşın konstitusion hüquqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri (son zamanlar «iti» əməliyyat-axtarış tədbirləri kimi də ifadə edilir) daxildir. Azərbaycan Respublikasının Konstitusiyasında qanuniləşdirilmiş bu növ insan hüquqlarına yazışmanın gizliliyi (mad. 32), telefon danışıqlarının, poçt, teleqraf və digər məlumatların gizliliyi, habelə mənzil toxunulmazlığı (mad. 33) daxildir. Müvafiq olaraq vətəndaşların göstərilən hüquqları mənzilə baxışın keçirilməsi, telefon danışıqlarına gizli qulaqasma, poçt, teleqraf və digər göndərişlərin məxfi yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması və CPM-in 445.1.5-ci maddəsində nəzərdə tutulan əməliyyat-axtarış tədbirlərinin keçirilməsi nəticəsində pozula bilər. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun (mad. 13, I-IV hissələr) bu qrup tədbirlərin tətbiqi üçün konkret şərtləri nəzərdə tutur.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsində və CPM-in 445.1.5-ci maddələrində əhatə olunan tədbirlərəin tətbiqinə aşağıdakı şərtlərini də aid etmək olar.

«ƏAF haqqında» Qanunun 11-ci maddəsinin IV hissəsinin 1-5-ci bəndlərində qeyd edilən hallarda əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ƏAF-nin səlahiyyətli subyektinin (idarə, şöbə, bölmə və s. rəhbərləri) qərarının qəbul edilməsinin mümkünlüyü qeyd olunmuşdur.

Qeyd edilənlərlə yanaşı, cinayətkarlıqla mübarizə təcrübəsi üçün qanunvericiliklə nəzərdə tutulan («ƏAF haqqında» Qanunun 14-cü maddəsinin VI hissəsinin 1, 2-ci bəndləri, CPM-in 445, $446^1$ və $447^1$, $448^1$ və s. maddələri) əməliyyat-axtarış tədbirlərinin həyata keçirilmə müddəti və onların keçirilməsinə baxılma müddətlərinin, həmçinin hakim tərəfindən çıxarılan qərarın icra müddətinin mühüm əhəmiyyəti vardır. Bu tədbirlərin keçirilmə müddəti onların keçirilməsinə dair qərar qəbul ediləndən sonra sutka ilə hesablanır və bu müddət 6 aydan çox olmamalıdır. Bu müd-

dətin axınına fasilə verilmir. CPM-də əməliyyat-axtarış tədbirinin (CPM-in 445.1-ci maddəsi ilə nəzərdə tutulmuş) keçirilməsinə dair ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirən prokurora ƏAF-nin subyekti tərəfindən təqdim olunan vəsatətə əsasən, məhkəməyə müvafiq qərarın çıxarılması barədə təqdimatın göndərilməsi və yaxud vəsatətin müdafiə edilməsindən imtina olunmasının müddətinə dair konkret göstərişlər yoxdur. Bu isə öz növbəsində cinayətkarlığa qarşı mübarizənin fasiləsizliyi, ardıcıllığı, həmləliyi, səmərəliliyi, həmçinin qanunçuluğun təmin olunmasında müəyyən problemlərin, çətinliklərin yaranması üçün şərait yaradır. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra, 3(üç) gündən gec olmayaraq vəsatəti göndərən şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir. Bir sözlə, aparılan araşdırmaların nəticələrinə əsaslanaraq, bizim fikrimizcə, CPM-in 445, $446^{1}$, $447^{1}$, $448^{1}$-ci və həmçinin $452^{1}$, $453^{1}$ və $454^{1}$-ci maddələrinin təkmilləşdirilməsinə ehtiyac duyulur.

Onu da qeyd etmək lazımdır ki, «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin IV hissəsində göstərilmişdir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda ƏAF-nin subyektləri hakimin qərarı olmadan da insan və vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran ƏAT-i həyata keçirə bilərlər. **Qanunverici belə hallara aşağıdakıları aid edir:**

- şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusilə təhlükəli dövləti cinayətlərin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asıla, poçt, teleqraf və göndərişləri yoxlanıla, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiya çıxarıla, habelə insanlar güdülə bilər;

- Cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış yerlərinə, habelə digər hasarlanmış tikinti obyektlərə, qurğulara və torpaq sahələrinə və s. obyektlərə baxış keçirilə bilər.

Bu qeyd edilən hallarda ƏAF-nin subyektləri həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora əsaslandırılmış qərarı təqdim etməlidirlər. Bu prosesin də qanunvericiliklə tənzimlənməsi məsələlərini bir sıra problemləri mövcuddur.

Ayrı-ayrı şəxslərin həyatı, sağlamlığı və mülkiyyətinə təhlükə yaranarsa, həmçinin hər hansı bir şəxsə zor işlədilməsi, hədə-qorxu ilə tələb etmə və hüquqazidd digər hərəkətlər tətbiq edilməsi təhlükəsinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməsi zəruri olduqda, onların telefonu və ya digər danışıq cihazları ilə aparılan danışıqlara həmin şəxsin ərizəsi əsasında müvafiq ƏAF-nin subyekti tərəfindən qulaq asıla bilər. Aparılan danışıqları yazmaq üçün istifadə olunan cihaz və qurğular abunəçinin ünvanına daxil olan zənglər üzrə danışıqların qeyd olunması üçün işə düşür.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsi ilə əhatə olunan II qrup ƏAT-yə vətəndaşların sorğusu, soraqlaşma, məktubların yoxlanılması, şəxsiyyətin eyniləşdirilməsi, nəzarət qaydasında mal alınması, nəzarətli göndəriş, müqayisəli tədqiq üçün nümunələrin toplanması, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olma, əməliyyat eksperimenti və s. aid etmək olar.

«ƏAF haqqında» Qanunun 12-ci maddəsinə əsasən, ƏAT-lər ƏAF-nin səlahiyyətli subyektlərinin qərarları, yazılı tapşırıqları və sorğuları əsasında həyata keçirilir. Lakin bu qərarların yazılı və şifahi qaydada qəbul edilməsinə dair qanunda göstəriş yoxdur və bu məsələləri qanunverici orqan ƏAF-nin səlahiyyətli subyektlərinin öhdəsinə verir (yəni ƏAF-nin idarə səciyyəli normativ aktları ilə müəyyən olunur). Bununla yanaşı, bu maddənin II hissəsində qeyd edilir ki, bütün tədbirlərin həyata keçirilməsi barədə qərarda, yazılı tapşırıqda və rəsmi sorğuda belə tədbirin zəruriliyi əsaslandırılmalıdır. **Qeyd edilən maddənin III hissəsində qanunun 10-cu maddəsinin I hissəsinin 3-5, 8-10-cu bəndlərində nəzərdə tutulmuş ƏAT-nin keçirilməsi barədə qərarda bundan başqa aşağıdakı rekvizitləri mütləq qaydada öz əksini tapması qeyd edilmişdir:**

1. Müvafiq tədbir keçirmək təklifi verən əməkdaşın soyadı, adı, atasının adı və vəzifəsi;

2. Haqqında tədbir keçirilməsi təklif edilən şəxsin soyadı, adı, atasının adı və ya obyektin təsviri;

3. Müdaxilə xarakterli üsul və vasitələrin tətbiqi;

4. Adi təhqiqat üsulu vasitəsi ilə zəruri məlumatın alınmasının qeyri-mümkünlüyünün əsaslandırılması;

5. Müdaxilə xarakterli üsul və vasitələrin tətbiqinin nəzərdə tutulan müddəti;

6. Tədbir keçirilməsi ilə əlaqədar əldə edilə bilən nəticə.

ƏAF subyektlərinin «Əməliyyat-axtarış tədbirlərinin təşkili və taktikasını, onun nəticələrinin sənədləşdirilməsi və cinayət prosesində istifadə edilməsinə dair» idarə səciyyəli normativ aktlarına, ƏAF sahəsində qanunvericiliyin tətbiqi təcrübəsinə, hüquq yaradıcılığı və qanunşünaslıq elminin əsaslarına, xarici dövlətlərin bu istiqamətdə təcrübəsinə və xüsusilə də qanunçuluğun təmin edilməsi prinsiplərinə söykənərək, ƏAT-nin keçirilməsi ilə bağlı sənədlərin məzmunu da müxtəlif qaydada təsnif oluna bilər. ***Məsələn, əməliyyat eksperimenti, nəzarət qaydasında mal alınması, nəzarətli göndəriş, cinayətkar qruplara, kriminogen obyektlərə daxil olma, hüquqi şəxsin yaradılması kimi əməliyyat-axtarış tədbirləri ƏAF-nin səlahiyyətli subyekti tərəfindən təsdiq olunmuş yazılı qərar əsasında həyata keçirilir. Bu sənədlərin prokuror və yaxud məhkəmə ilə razılaşdırılması tələb olunmur.***

Lakin nəzərə almaq lazımdır ki, cinayətkar qruplara, kriminogen obyektlərə daxil edilmə, hüquqi şəxsin yaradılması kimi ƏAT-nin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişlərinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır Cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması, həmin Cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar olaraq yol verilir.

***Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsində belə bir mühüm halı nəzərə almaq vacibdir: obyektiv səbəblərdən ƏAT-nin tətbiqini qeyri-mümkün edən şərait yarandıqda (qarşısı alına bilməyən fövqəladə hadisə baş verdikdə, qarşısı alına bilməyən qüvvə mane olduqda və ya ictimai təhlükəsizliyə real təhlükə yarandıqda), belə tədbirlərin həyata keçirilməsi dayandırılır.***

Öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri və yaxud ƏAF-nin subyektləri ilə məxfi əməkdaşlığa cəlb edilmək üçün seçilmiş namizədləri yoxlamaq üçün insan və vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə bağlı olan ƏAT-nin keçirilməsinə yol verilmir.

Vətəndaşların sorğusu, soraqlaşma, şəxsiyyətin eyniləşdirilməsi, müqayisəli tədqiq üçün nümunələrin toplanması kimi əməliyyat-axtarış tədbirlərinin keçirilməsi mövcud əməliyyat situasiyasından asılı olaraq bilavasitə əməliyyat işçisi tərəfindən qərar çıxarılmadan həyata keçirilə bilər (təcrübədə təxirə salınmaz hallarda, operativlik və həmlənin tələb edilən və qəfətən yaranmış vəziyyətlərdə). Bu məsələlərə də

qanunvericilik tam aydınlıq gətirməmişdir. Qeyd edilən istiqamətdə də milli səviyyədə araşdırmalar aparılmışdır və onun nəticələrinə müvafiq olaraq konkret, əsaslandırılmış təklifər verilmişdir.

Əməliyyat-axtarış tədbirlərinin təşkili, tətbiqi və bilavasitə həyata keçirilməsi ilə bağlı məsələlərin tam həcmdə araşdırılması da ƏAF-nin subyektləri üçün çox önəmlidir. Məsələn, ölkə Prezidentinin 19 iyun 2001-ci il tarixli «Əməliyyat-axtarış tədbirlərinin keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanına müvafiq olaraq binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini DİN, DTX, XKX, VN və dövlət sərhəddinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti qanunvericilikdə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində həyata keçirir. Lakin nəzərə almaq lazımdır ki, əgər DGK, FHN, ƏN və s. subyektlərin ƏAO öz səlahiyyətləri çərçivəsində bu tədbiri həyata keçirmək istəsə, daha dəqiq desək, onu tətbiq etmək hüququndan istifadə edərək qərar çıxarmalı və bu qərarı DİN-ə və ya DTX-yə göndərməlidirlər. Sonuncular isə bu tədbirləri bilavasitə həyata keçirib nəticələrini sorğu edən subyektlərə təqdim etməlidirlər.

Bir sıra əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin çoxmərhələli və mürəkkəb olmasını, onların keçirilməsində ƏAF-nin bir neçə subyektinin iştirakının zəruriliyi, belə tədbirlərin keçirilməsində ƏAF-nin bir çox metodlarından və bir sıra digər ƏAT-dən istifadə edilməsini nəzərə alaraq, tədbirin keçirilməsinə dair qərardan başqa, tədbirin səmərəli keçirilməsi və tədbir iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi, ƏAF-nin subyektləri arasında qarşılıqlı işgüzar əlaqələrin yaradılması məqsədilə xüsusi tədbirlər planlarının hazırlanması vacib sayılır. Məsələn, mülki dövriyyəsi qadağan olunmuş əşyaların və maddələrin beynəlxalq nəzarətli göndərişinin (yəni göndərilən əşya və maddələrin göndərildiyi ölkə xarici dövlət olan halda) həyata keçirilməsi barədə qərar çıxaran ƏAF-nin səlahiyyətli subyekti (Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli və 22 may 2007-ci il tarixli Fərmanlarına müvafiq olaraq DTX, DİN, DSX və DGK qərar qəbul edə bilər) müvafiq qərar qəbul edir, tədbirlər planı hazırlayır və onun məzmunu ilə şəraitdən asılı olaraq gizli müşahidə, insanların güdülməsi, telefon danışıqlarına qulaq asma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması və s. əhatə olunur. Əməliyyat-axtarış tədbirləri, həmçinin nəzarətli göndərişin iştirakçılarının

təhlükəsizltrialn təmin edilməsi və DTX, DSX, DİN və s. hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətlə bağlı tədbirlər əhatə olunur.

Əgər belə tədbirin keçirilməsi təşəbbüsü (DGK istisna olmaqla) ƏAF-nin digər subyektləri tərəfindən göstərilərsə belə halda tədbirin keçirilməsinə dair qərar DGK ilə razılaşdırılmalıdır.

Yekunda onu da qeyd etmək lazımdır ki, əməliyyat-axtarış tədbirlərinin səmərəli həyata keçirilməsi üçün ƏAO əməkdaşları onların məzmun və mahiyyətini bilməklə yanaşı, ilk növbədə qanunvericilik aktları ilə onların təşkili və taktikasına verilən tələbləri yaxşı bilməli və ciddi riayət etməlidirlər. Bu tədbirlərin həyata keçirilmə səbəb və əsaslarını, habelə şərtlərini dərk edib rəhbər tutmaqla, onların həyata keçirilməsində cinayətkarlığa qarşı mübarizənin müxtəlif istiqamətlərində yüksək nəticələr əldə etmək olar.

# IX BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİN İSTİFADƏ EDİLMƏSİ

## XVIII FƏSİL

### Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatların realizə olunması

Azərbaycan Respublikasının əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyinə, habelə cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların sübut kimi qəbul edilməsinin mühüm şərtləri - onların cinayət-prosessual məcəlləsinin tələblərinə uyğun olaraq təqdim edilməsi və yoxlanılmasıdır. İlk növbədə əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin Cinayət-prosessual məcəlləsinin tələblərinə uyğun olaraq təqdim edilməsinin mexanizmi haqqında məsələləri təhlil etmək istərdik.

Etiraf etməyə məcburuq ki, cinayət prosessual qanunvericiliyində əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların təqdim edilmə qaydaları barədə heç bir göstəriş yoxdur. Hüquq ədəbiyyatında isə bu məsələ ilə bağlı son dərəcədə maraqlı fikirlər söylənilmişdir.

*Məsələn, T.İ.Əliyeva göstərir ki, "Əməliyyat-axtarış nəticələri cinayət prosesinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın təşəbbüsü ilə, yaxud icraatında olan cinayət işi və ya digər materiallarla əlaqədar təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin tələbi ilə təqdim edilməlidir".*

*Bu fikri optimal hesab etsək də, burada əməliyyat-axtarış fəaliyyəti nəticələrinin təqdim edilməsi sahəsində cinayət prosesinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın təşəbbüsü və təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin tələbi məfhumlarına aydınlıq gətirilmir. Daha dəqiq desək, həmin təşəbbüsün və ya tələbin icra qaydaları və mexanizmi haqqında açıqlamalar verilmir.*

*Müəllif daha sonra qeyd edir ki, əməliyyat-axtarış tədbirlərinin nəticələrinin təhqiqatçıya, müstəntiqə, prokurora, hakimə təqdim edilməsi bir sıra hərəkətlərdən*

*ibarət olur: a) əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın rəhbəri tərəfindən əməliyyat-axtarış tədbirlərinin nəticələrinin ibtidai araşdırma orqanlarına, yaxud məhkəməyə təqdim edilməsi barədə qərarın çıxarılması; b) göndərilməli olan sənədlərin rəsmiləşdirilməsi və materialların faktiki verilməsi.*

Yuxarıda əks olunan fikirlər olduqca əhəmiyyətli təsir bağışlasa da sırf doktrinal xarakter daşıyır və qanunvericilikdə bu məsələlər barədə müddəalar müəyyən edilməmişdir. Qeyd etməliyik ki, cinayət-prosessual fəaliyyətin ən mühüm və spesifik xüsusiyyəti, bu fəaliyyətin prosessual hərəkətlərin və prosessual qərarların məcmusunu ehtiva etməsində özünü göstərir. Başqa sözlə, hər bir hərəkət və hər bir qərar prosessual xarakter daşımalı və qanunda onun forma və məzmunu barədə göstərişlər nəzərdə tutulmalıdır. Məhz bu səbəbdən CPM-in 137-ci maddəsində əməliyyat-axtarış fəaliyyəti nəticələrinin Məcəllənin tələblərinə uyğun təqdim edilməsi barədə müddəaya yer verildiyindən, həmin təqdim etmə hərəkətinin prosessual qaydaları da mütləq qanunda öz əksini tapmalı idi. Təəssüf ki, bu sahədə böyük bir boşluğun olması aşkardır.

Hüquq ədəbiyyatında prosessual qərarların tərtib olunmasına dair qanunda göstərilən ümumi qaydaları rəhbər tutaraq yuxarıda adı çəkilən müəllif hesab edir ki, əməliyyat-axtarış fəaliyyəti nəticələrinin təhqiqatçıya, müstəntiqə, prokurora və ya məhkəməyə təqdim edilməsi haqqında qərarda sənədin adı, onun çıxarıldığı yer və vaxt, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbərinin rütbəsi və vəzifəsi, hansı əməliyyat-axtarış tədbirinin və hansı məqsədlə keçirildiyi, həmin tədbir nəticəsində hansı materialların əldə edilməsi, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi üçün məhkəmə qərarının olması, qərarın çıxarılmasının əsası haqqında məlumatlar öz əksini tapmalı, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu, 11-ci, 13-cü və 14-cü maddələrinə istinad olunmalıdır. Qərarda göstərilən sənədlərin siyahısı da göstərilməlidir" (Komment.s 458).

Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin təqdim edilmə qaydaları haqda müəllifin yuxarıdakı fikirlərini tam hesab etmək çətindir. Belə ki, əməliyyat-axtarış fəaliyyəti nəticələrinin əldə edilmə mənbələrini heç də hər zaman açıqlamaq mümkün olmur, digər tərəfdən "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanuna müvafiq olaraq məhkəmə qərarı ilə aparılan əməliyyat-axtarış tədbirlərinin təxirəsalınmaz hallarda belə qərar olmadan da aparılma imkanı nəzərdə tutulmuşdur. Belə vəziyyətdə

əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin təqdim edilməsi haqqında qərarda həmin halların necə əks olunması məsələsi açıq qalır.

Lakin bunlara baxmayaraq, biz əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların həmin fəaliyyəti həyata keçirən orqanın qərarı əsasında təqdim edilməsi fikrini məqbul hesab edirik. Belə ki, E.A.Dolya əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların təqdim edilməsi barədə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın qərarının forma və məzmununun prosessual qanunvericilikdə nəzərdə tutulmamasını neqativ qiymətləndirərək qeyd etmişdir ki, "Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət prosesində təqdim edilməsi əsaslılığı və qanuniliyini təmin etmək və deməli, vətəndaşların hüquq və azadlıqlarına riayət etmək üçün verilmiş qərarın əhəmiyyətini nəzərə alaraq güman etmək olar ki, qanunvericilik müvafiq əsaslar olmadan verilmiş halları nəzərə almamışdır. Məhz qanunvericilikdə belə bir formanın (qərarın) nəzərdə tutulması vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının təmin olunması üçün qəbul edilən qərarların adekvat təsirinin ən effektiv təminatlardan biridir.

Təcrübə göstərir ki, əməliyyat-axtarış fəaliyyətinin nəticələri, bir qayda olaraq, ibtidai istintaq zamanı sübutetmədə istifadə edilməsi üçün təqdim edilir. Cinayətlərin açılması və onların istintaqının uğurla aparılması, işin həlli üçün zəruri olan sübutların toplanılması əməliyyat məlumatlarının daha erkən mərhələdə əldə edilib istifadəsini tələb edir. Bundan əlavə, təhqiqat və ibtidai istintaq mərhələsində göstərilən məlumatların əldə edilməsinin qanuniliyinin və onların mənbəyinin yoxlanılması üçün daha geniş imkanlar vardır. Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin məhkəməyə təqdim etmə zərurəti yarandığı hallarda, bu, ümumi qaydalar üzrə həyata keçirilməlidir. Bu zaman məhkəmə tərəfindən əməliyyat-axtarış məlumatları əsasında müəyyən edilmiş sübutların mötəbərliyi və mümkünlüyü yoxlanılmalıdır.

Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların təhqiqat orqanına, müstəntiqə və ya məhkəməyə təqdim edilməsinin əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbərliyinin qərarı əsasında həyata keçirilməsi məqsədəmüvafiq olardı. Belə qaydanın əhəmiyyəti ondan ibarətdir ki, o, əməliyyat yolu ilə əldə edilmiş məlumatların məsul vəzifəli şəxslərin – əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan rəhbərlərinin nəzarəti altında sübutetmədə istifadə üçün təqdim edilməsini təmin edir. Bu, əməliyyat-axtarış tədbirlərinin icraatının qanuni olması-

na, təqdim edilən məlumatların mötəbərliyinə, habelə konspirasiya tələblərinin riayət edilməsinə zəmanət verən amillərdən biri kimi çıxış edir.

Əməliyyat-axtarış fəaliyyətinin nəticələri ümumiləşdirilmiş rəsmi məlumat (məsələn, arayış, raport və s.) və ya müvafiq əməliyyat-xidməti sənədlərin əsli şəklində təqdim edilə bilər.

*“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunda və cinayət-prosessual qanunvericilikdə cinayət təqibi orqanlarına təqdim edilən əməliyyat-axtarış materiallarının məzmunu və forması haqqında göstərişlərin olmaması təcrübədə bir çox problemlərin yaranmasına səbəb olur. Belə ki, əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin təqdim edilməsi ilə bağlı qanunvericilikdə əməliyyat materiallarının forma və məzmununu müəyyən edən qaydaların olmaması həmin materialların cinayət prosesində sübut kimi qəbul edilməsini istisna edə bilər.*

Son dövrlərə qədər hüquq ədəbiyyatında təqdim edilən materialların məzmunu və forması ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür.

Bu fikirləri ümumiləşdirərək bəzi məsələlərin təhlil edilməsini zəruri hesab edirik. İlk növbədə cinayət prosesini həyata keçirən orqana təqdim edilən materialların, başqa sözlə, əməliyyat məlumatlarının əks olunduğu sənədlərin (və digər məlumat daşıyıcılarının) dəqiq adı göstərilməlidir. Bu həmin məlumatlardan cinayət prosesində düzgün istifadə edilməsi üçün zəruridir.Bundan əlavə, təqdim edilən materiallarda həm də cinayət mühakimə icraatı üçün əhəmiyyətli olan hansı məlumatların əldə edilməsi göstərilməlidir (bu məlumatların xarakteri, mahiyyəti və əhəmiyyəti barədə məsələlərə işin növbəti hissəsində daha ətrafı toxunacağıq).

Təqdim edilən materiallarda əməliyyat-axtarış nəticələrini (məlumatlarını) əldə edən əməliyyat-axtarış fəaliyyəti subyektləri barədə də göstərişlərin olması məqsədəmüvafiq olardı. Buna baxmayaraq, onu da deməliyik ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri və onlara kömək edən şəxslər barədə məlumatların məxfiliyi tələb olunduğu hallarda “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 6-cı maddəsinə müvafiq olaraq göstərilən şəxslər barədə məlumatları yaymadan təqdim edilməlidirlər.

Digər tərəfdən, əgər təqdim edilən materialların sübutetmədə istifadəsi əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin təhlükəsizliyinə xələl yetirə bilərsə, onda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan onların müdafiəsi üçün konkret tədbirlər görməlidir.

Əməliyyat materiallarını təqdim edən subyektlər eyni zamanda həmin materiallardan məhz hansı sübut növü kimi istifadə edilməsinin mümkünlüyü barədə də öz mülahizələrini cinayət prosesini həyata keçirən orqanlara təqdim etmələri əhəmiyyətli olardı.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 14-cü maddəsinin IV hissəsinə müvafiq olaraq "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilə bilər".

Bu müddəaya əsasən cinayət prosesini həyata keçirən orqanlara təqdim edilən əməliyyat-axtarış materiallarında istifadə edilmiş yuxarıda göstərilən texniki vasitələr barədə də dəqiq məlumatlar öz əksini tapmalıdır.

Əməliyyat-axtarış tədbirləri keçirilərkən müəyyən məlumatların qeyd olunduğu sənədlər, audio və video yazılar, əşyalar və s. Əldə edildikdə və ya sübutetmədə əhəmiyyətli ola biləcək hər hansı digər predmetlər aşkar edildikdə, onlar da, şübhəsiz, əməliyyat-axtarış fəaliyyətinin nəticələri ilə birlikdə təqdim edilməlidir. Qeyd edilən predmet və sənədlər maddi sübutların qablaşdırılma qaydaları üzrə müvafiq vəzifəli şəxsin imzası və orqanın möhürü ilə qablaşdırılmalıdır.

Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət işləri üzrə sübutetmədə istifadəsinin əsas şərti - dövlət sirrini əks etdirən və bu fəaliyyətə aid olan məlumatların açılmasının qarşısını almaqdır. Belə ki, cinayət prosessual sübutetmədə əməliyyat-axtarış fəaliyyəti nəticələrindən istifadə edən vəzifəli şəxslər onlara məlum olan dövlət sirrini əks etdirən məlumatların məxfi qalmasını təmin etməlidirlər.

Lakin təcrübədə müəyyən hallarda cinayət prosessual sübutetmədə əməliyyat-axtarış fəaliyyəti nəticələrindən istifadə edilərkən bir sıra məlumatların məxfilik, konspirasiya tələbi işin hallarının tam, hərtərəfi və obyektiv tədqiqi, həqiqətin üzə çıxarılması sahəsində çətinliklər yaradır. Elə hallar da olur ki, dövlət sirri təşkil edən məlumatların tələb edilməsi əməliyyat məlumatları əsasında formalaşmış sübutların mötəbərliliyini yoxlamaq üçün zəruri olur. Belə məlumatların təqdim edilməsindən imtina etmək nəticədə təqsirləndirilən şəxsin müdafiə hüququnun məhdudlaşdırılmasına, qanunun işin hallarının tam və hərtərəfi tədqiqi haqqında tələblərinin pozulmasına səbəb olur.

Cinayət işi üzrə sübutetmədə istifadə etmək üçün təqdim edilən əməliyyat-axtarış fəaliyyətinin nəticələri, onların əsasında formalaşmış sübutların cinayət mühakimə icraatında yoxlanılmasına imkan verən məlumatları da əks etdirməlidir. Lakin bu zaman onu da nəzərə almaq lazımdır ki, dövlət, hərbi və xidməti sirr sayılan, əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, əməliyyat məlumatlarının mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi həyatına aid olan məlumatlar aşkarlanmamalıdır ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 14-cü maddəsinin IX hissəsi).

Qanunun belə tələbi olduğu halda məxfi sayılan əməliyyat məlumatlarının təqdim edilmə mexanizmi necə olmalıdır?

**Bu problem öz həllini cinayət-prosessual qanunvericiliyində tapmışdır. Belə ki, CPM-in 199-201-ci maddələrində cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması məsələləri əks olunmuşdur.** Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallarda olan məxfi məlumatların təqdim edilmə mexanizmi də məhz yuxarıda göstərilən normalarda nəzərdə tutulmuşdur. Əməliyyat-axtarış məlumatlarının bilavasitə Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim olunması tələbi də (CPM-in 137-ci maddəsi) özü-özlüyündə bir daha bizim mövqeyimizin doğruluğunu təsdiq edir.

*Məsələn, CPM-in 200-cü maddəsinə müvafiq olaraq "cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir. Cinayət prosesini həyata keçirən orqan şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə, o, dindirmə və ya digər istintaq hərəkəti protokolunda bu materialların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir". Cinayət-prosessual qanunun bu müddəasından görünür ki, dövlət sirri təşkil edən məlumatların cinayət prosesində təqdim edilməsi yalnız cinayət mühakimə icraatı üçün onların zəruri olduğu hallara şamil edilir. Bu mühüm şərt olduqda həmin məlumatlar cinayət prosesini həyata keçirən orqanlara təqdim edilməklə onların məxfiliyi barədə müvafiq rəsmiləşdirilmələr aparılmalıdır.*

Eyni zamanda qanunda belə məlumatların yayılmaması üçün hansı tədbirlərin görülməsi barədə də qeydlər vardır. Belə ki, CPM-in 200.5-ci maddəsinə əsasən "cinayət işi üzrə icraatın məqsədləri üçün dövlət sirrini təşkil edən məlumatlarla tanış olmaq üçün təqdim edilmiş və ya digər üsulla bildirilmiş digər şəxslər həmin məlumatların yayılmaması barədə əvvəlcədən iltizam verməlidirlər. Qanuni nümayəndə istisna olmaqla, müdafiəçi və digər nümayəndə bu iltizamı verməkdən imtina etdikdə, o, cinayət prosesində iştirak etmək hüququndan məhrum edilir, qalan şəxslərə isə dövlət sirrini əks etdirən məlumatlar verilmir. Cinayət prosesi iştirakçısının dövlət sirrinin yayılmaması barədə öhdəlik götürməsi onun dövlət sirrini təşkil edən məlumatların qapalı məhkəmə iclasında tədqiq olunmasını tələb etməsinə mane olmur". Bu müddəada əhəmiyyətli cəhətlərlə yanaşı müəyyən qüsurlar da vardır. Belə ki, qanunverici qanuni nümayəndə istisna olmaqla müdafiəçi və digər nümayəndənin dövlət sirrini təşkil edən məlumatları yayılmaması barədə əvvəlcədən iltizam vermədiyi hallarda onları cinayət prosesində iştirak etmək hüququndan məhrum edir. Bu müddəaya əsasən belə nəticəyə gəlmək olar ki, qanuni nümayəndə göstərilən hallarda cinayət prosesində iştirak edir, lakin bu zaman qanuni nümayəndəyə dövlət sirri təşkil edən məlumatların verilib-verilməməsinə qanunda aydınlıq gətirilmir. Digər tərəfdən, prosessual qanun cinayət prosesinin bütün digər iştirakçılarına dövlət sirrini əks etdirən məlumatların verilməməsi tələbi ilə çıxış edir. Bunların sırasında qanuni nümayəndənin olub-olmaması da sual altında qalır. Bizim fikrimizcə, Cinayət Prosessual Məcəllənin 200.5-ci maddəsində göstərilən məsələyə aydınlıq gətirilməlidir.

Onu da qeyd etmək lazımdır ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanuna müvafiq olaraq aparılmış əməliyyat-axtarış fəaliyyətinin üsulları, mənbələri və digər vasitələri haqqında məlumatların gizli saxlama zərurəti müəyyən hallarda bu və ya digər konkret cinayətin açılma maraqlarından daha mühüm ola bilər. Əgər bu belədirsə, onda bu məlumatlar, çox güman ki, təqdim edilməməlidir. Lakin əgər buna baxmayaraq, əməliyyat-axtarış fəaliyyəti nəticələrinin sübutetmədə istifadə üçün təqdim edilməsi haqqında qərar qəbul edilirsə, onda bu fəaliyyəti həyata keçirən orqanlar əməliyyat məlumatları əsasında formalaşan sübutların başqa dəlillər kimi tam və hərtərəfi yoxlanacağına hazır olmalıdırlar.

CPM-in 137-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış fəaliyyəti gedişində əldə edilmiş materialların cinayət təqibi üzrə sübut kimi qəbul edilməsinin əsas

şərtlərindən biri də onların Cinayət-Prosessual Məcəllənin tələblərinə uyğun yoxlanılmasıdır.

*Hüquq ədəbiyyatında əməliyyat materiallarının yoxlanılması CPM-in 144-cü maddəsi ilə əlaqələndirilir. Belə ki, T.İ.Əliyeva CPM-in 137-ci maddəsinə şərh verərək göstərir ki, əməliyyat-axtarış materialları "prosessual qanunvericiliyin tələblərinə uyğun təqdim edildikdən sonra cinayət işi üzrə onların sübut kimi qəbul edilib-edilməməsi məsələsi yalnız həmin məlumatlar CPM-in 144-cü maddəsində göstərilmiş qaydada yoxlanıldıqdan sonra həll edilməlidir"[1]. Bu cür yanaşma ilə müəyyən mənada razılaşmaq olar. Lakin onu da nəzərdən qaçırmaq olmaz ki, CPM-in 144-cü maddəsi sübutların yoxlanılmasından bəhs edir, halbuki CPM-in 137-ci maddəsində əməliyyat-axtarış materialları cinayət təqibi üzrə sübut kimi qəbul edilməsi üçün yoxlanılmalıdır. Müəllifin fikri ilə razılaşsaq, onda əməliyyat materialları CPM-in 144-cü maddəsinə müvafiq olaraq yoxlanıldıqdan və bundan sonra sübut kimi qəbul edildikdən sonra yenə bu dəfə sübut kimi yoxlanılmalıdır. Zənnimizcə, əməliyyat-axtarış materiallarını və sübutları eyniləşdirmək düzgün deyil.*

Əməliyyat-axtarış materiallarının yoxlanılması - ilk növbədə onların "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunmasının qanuniliyinin dəqiq yoxlanılmasını nəzərdə tutur. Əgər təqdim edilən məlumatların əsaslandığı əməliyyat-axtarış tədbirlərinin qanun pozuntusu ilə həyata keçirildiyi meydana çıxarsa, onda onlar sübutetmədə istifadə edilə bilməz.

Əməliyyat-axtarış materialları yoxlanılarkən ilk növbədə onların insan və vətəndaş hüquq və azadlıqlarını pozub-pozmaması aydınlaşdırılmalıdır. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 4-cü maddəsinə müvafiq olaraq, "Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar: "ƏAF haqqında" Qanunda nəzərdə tutulmayan məqsədləri güdmək və ya vəzifələri yerinə yetirmək; hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır".

Daha sonra "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 4-cü maddəsinin II hissəsində göstərilmişdir ki, "Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini pozmaq qa-

dağandır”.

Cinayət təqibini həyata keçirən orqanlar təqdim edilən əməliyyat-axtarış materiallarını yoxlayarkən yuxarıda göstərilənləri nəzərə almalıdırlar. Lakin "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasını da nəzərdə tutmuşdur. Belə ki, həmin Qanunun 4-cü maddəsinin II hissəsinə əsasən "Əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız bu Qanunla müəyyən edilmiş qaydada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər".

Qanunda göstərilən belə məhdudlaşdırılma özü-özlüyündə də müəyyən qaydalara uyğun həyata keçirilməlidir. Burada insan və vətəndaş hüquq və azadlıqlarını müvəqqəti məhdudlaşdıran əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə prokuror və məhkəmə nəzarəti müəyyən edilmişdir. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinə müvafiq olaraq insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri kimi - telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurüulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə, insanların güdülməsi həmin Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə başqa yolla nail ola bilmədikdə məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər.

Nəzərdən keçirdiyimiz tədbirlər məhkəmə qərarı olmadan da həyata keçirilə bilər. Lakin hətta belə bir vəziyyətdə də həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora əsaslandırılmış qərar təqdim edilməlidir.

Bütün göstərilən şərtlərə əməl edilib-edilməməsi cinayət təqibi orqanları tərəfindən dəqiq yoxlanılmaya məruz qalmalıdır.

Cinayət təqibi orqanları təqdim edilmiş əməliyyat materiallarını yoxlayarkən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəb və əsasların mövcud olub-olmamasını da aydınlaşdırmalıdırlar. Bu zaman cinayət təqibi orqanları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərar qəbul etməsini şərtləndirən halların mövcudluğuna xüsusi diqqət yetirməlidir.

Belə ki, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 11-ci maddəsinə əsasən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə qərar yalnız aşağıdakı hallarda qəbul oluna bilər:

1) başlanmış cinayət işi mövcud olduqda;

2) cinayət işinin başlanmasına kifayət qədər əsaslar olmasa da, cinayəti hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda;

3) dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda;

4) şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən boyun qaçırdıqda, yaxud itkin düşdükdə;

5) naməlum meyit aşkar edildikdə.

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun müddəalarına müvafiq olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan və ya vəzifəli şəxs tərəfindən fiziki və hüquqi şəxslərin hüquq və qanuni mənafelərinin pozulması halları aşkar edildiyi zaman həmin materialların sübut kimi qəbul olunması istisnalıq təşkil edir və cinayət təqibi orqanları belə hallarda pozulmuş hüquq və qanuni mənafelərin bərpa olunması və vurulmuş zərərin əvəzinin ödənilməsi üçün tədbirlər görməlidir.

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 16-cı maddəsində əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş materialların cinayət təqibi üzrə sübut kimi istifadə edilməsinin mümkünlüyü qeyd edilsə də, həmin materiallardan sübutetmə prosesində məhz hansı istiqamətlərdə istifadə olunması barədə heç bir göstəriş əks olunmamışdır. Bizim zənnimizcə, bu mühüm problemlərdən biridir.

Nəzərə almaq lazımdır ki, əməliyyat-axtarış fəaliyyətinin nəticələri heç də bütün hallarda sübut kimi qəbul edilmir. Lakin buna baxmayaraq onların sübut etmədə istifadə olunması imkanını tamamilə istisna etmək olmaz.

Hüquq ədəbiyyatında belə əməliyyat-axtarış nəticələrinə bir qayda olaraq qeyri-aşkar üsullarla əldə edilmiş əməliyyat-axtarış materialları aid edilir. Nəzərdən qaçırmaq olmaz ki, müəyyən əməliyyat-axtarış tədbirləri (xüsusən aşkar üsullarla aparılmış tədbirlər) qanun tərəfindən müəyyən edilmiş qaydada prosessual və açıq informasiyaya çevrilə bilər. Belə imkanlar olmadıqda, yəni məxfi materialların açıqlanması mümkün olmadığı hallarda, onlardan sübutetmədə yalnız istiqamətləndirici məlumatlar kimi istifadə edilməsi mümkündür.

Belə ki, bu zaman cinayət təqibi orqanları həmin əməliyyat-axtarış materiallarından istintaq və məhkəmə hərəkətlərinin hazırlanması və həyata keçirilməsi, habelə ayrı-ayrı istintaq hərəkətlərinin taktiki baxımdan effektivliyinin təmin edilməsi üçün istifadə edilə bilər.

İstintaqın planlaşdırılması, təşkili, istintaq hərəkətlərinin hazırlanması və icrası zamanı müstəntiq tərəfindən informasiyanın sadalanan növlərindən hər birinin istifadəsinin öz spesifik cəhətləri vardır. Qeyd etmək lazımdır ki, prosessual qaydalara uyğun əldə edilmiş informasiyanın mümkün istifadə formaları çox genişdir. Bundan fərqli olaraq qeyri-prosessual, əməliyyat yolu ilə əldə edilmiş informasiya istintaqın və ya məhkəmə baxışının optimal təşkili və taktiki baxımdan uğurlu aparılması sahəsində müstəntiq üçün istiqamətləndirici əhəmiyyət kəsb edə bilər.

Buna baxmayaraq, göstərilən əməliyyat-axtarış məlumatları istintaq zamanı daha məhdud istifadə imkanlarına malikdir. Onlar sübut edilməli hallar, sübutların mənbələri, şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxslərin, şahidlərin və cinayət prosesinin digər iştirakçılarının əlaqələri, şəxsiyyətlərinin xüsusiyyətləri haqqında çox vaxt cinayət işi üzrə həqiqətin müəyyən edilməsi və istintaqın istiqamətinin düzgün seçilməsinə yardım edir. Lakin, müstəntiq işin planlaşdırılması, istintaq hərəkətlərinin hazırlığı və keçirilməsi zamanı göstərilən məlumatları mötəbərliyi baxımından müfəssəl yoxlamalı və bütün ehtimal olunan fərziyyələrin yoxlanılması və taktiki qərarların qəbul edilməsi zərurətini nəzərdən qaçırmamalıdır.

Təcrübədə məxfi mənbələrdən və ya məxfi tədbirlərin keçirilməsi yolu ilə əldə edilmiş və gizli saxlanılmalı informasiyalardan istifadə etmək son dərəcə mürəkkəbdir. Burada xüsusi ehtiyat tələb olunur. Müstəntiqin belə informasiyanın reallaşdırılma formalarını bu informasiyanı verən əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbəri ilə razılaşdırması daha yaxşı olardı.

**Öz məzmununa görə müstəntiqin əməliyyat-axtarış orqanlarından əldə etdiyi istiqamətləndirici informasiyanı aşağıdakı qruplara bölmək olar:** 1) cinayət işi üzrə sübut etmə mənbələri haqqında; 2) istintaq hərəkətlərinin aparılma taktikası və istintaqın düzgün təşkili üçün əhəmiyyət kəsb edən hallar haqqında.

**Birinci halda** bu, ifadələri sübut olunmalı halların aydınlaşdırılması üçün əhəmiyyət kəsb edən şəxslər, cinayət alətlərinin, oğurlanmış qiymətli əşyaların və pul vəsaitlərinin, cinayətin izlərini özündə daşıyan predmetlərin mövcud olması və yerləşdiyi yer haqqında məlumatlardır.

**İkinci halda** - cinayətkar qrupda münaqişələr, şahidlərin, zərərçəkmiş və təqsirləndirilən şəxslərin şəxsiyyətlərinin fərdi xüsusiyyətləri, onların istiqamətləri, qarşılıqlı münasibətlərinin xarakteri və iş üzrə sübutetmənin predmetinə daxil olmayan, lakin istintaqın planlaşdırılması və təşkili, istintaq hərəkətlərinin və ümumilikdə istintaqın nəticələrinin yüksəldilməsi üçün əhəmiyyət daşıyan digər hallar haqqında məlumatlardır.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi nəticəsində əldə edilmiş məlumatlar eyni zamanda həm istiqamətləndirici və həmçinin də sübutların formalaşması üçün istifadə edilə bilər. ***Məsələn, əməliyyat-axtarış orqanının əməkdaşı tərəfindən vətəndaşların qeyri-aşkar aparılan sorğusu zamanı əldə edilmiş məlumatlar cinayətin törədilmə halları, onu törədən şəxslər barədə fərziyyələrin irəli sürülməsi, habelə ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması zamanı istifadə edildiyi kimi, sonradan sorğu edilmiş həmin şəxslər istintaqın gedişində şahid qismində dindirilə və onların dindirilmə protokolu isə sübut kimi işə əlavə edilə bilər.***

**Əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən cinayət mühakimə icraatında cinayət işinin başlanmasının səbəbi kimi istifadə edilməsi məsələsi son dərəcə aktual xarakter daşıyır. Qeyd edək ki, təcrübədə bu hal tez-tez özünü göstərir. Lakin cinayət-prosessual qanunvericiliyində bu məsələ öz həllini tapmamışdır.**

Azərbaycan Respublikası CPM-in XXV fəsilində cinayət işinin başlanılmasının üç səbəbi göstərilir, bunlara törədilmiş və ya hazırlanan cinayət haqqında: 1) fiziki şəxslərin, 2) hüquqi şəxslərin və 3) kütləvi informasiya vasitələrinin məlumatları aid edilir. Lakin nədənsə qanunvericilikdə əməliyyat-axtarış məlumatlarından sübut kimi istifadə imkanlarının nəzərdə tutulmasına baxmayaraq, onlardan cinayət işinin başlanmasının səbəbi kimi istifadənin mümkünlüyü diqqətdən kənarda qalmışdır, halbuki əməliyyat-axtarış məlumatları cinayət işinin başlanması sahəsində daha effektiv vasitələrdir.

Bu, CPM-in 208-ci maddəsində də öz əksini tapmışdır. Belə ki, həmin maddədə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ilə cinayət işinin başlanmasını şərtləndirən hallar əks olunur. Onlardan biri belə müəyyən olunmuşdur: "təhqiqatçı cinayət haqqında məlumatı təhqiqat orqanının əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşlarından və ya bu Məcəllənin 86-cı maddəsinə müvafiq olaraq digər

cinayətin təhqiqatı zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda" (CPM-in 208.0.2-ci maddəsi).

Nəzərdən keçirilən müddəa özü-özlüyündə bizim fikirlərimizin doğruluğunu və əməliyyat məlumatlarının cinayət işinin başlanması üçün nə dərəcədə əhəmiyyətli olmasını təsdiq edir. **Bu səbəbdən CPM-in XXV fəslində cinayət işinin başlanmasının səbəbləri sırasına əməliyyat-axtarış məlumatlarının da daxil edilməsini təklif edirik.**

Əməliyyat-axtarış fəaliyyəti nəticələrindən istiqamətləndirici məlumatlar kimi istifadə edilməsi ibtidai istintaqın ilkin mərhələsində cinayət təqibi orqanlarının effektiv fəaliyyəti üçün son dərəcə vacibdir.

İstintaqı mürəkkəb olan, xüsusən yaxşı hazırlanmış və gizlədilmiş cinayətlər barədə işlər üzrə göstərilən əməliyyat məlumatları mühüm əhəmiyyət kəsb edir. Onların əldə edilməsi üçün təcrübəli müstəntiqlərdən və yüksək ixtisaslı əməliyyatçılardan ibarət istintaq-Əməliyyat qruplarının yaradılması zəruridir. Belə qruplarda istintaq və əməliyyat-axtarış fəaliyyətinin subyektləri arasında sabit, psixoloji cəhətdən optimal əlaqələrin yaradılması, habelə istintaq fərziyyələrinin irəli sürülməsi və onların yoxlanılması, istintaqın planlaşdırılması, istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin səmərəliliyinin yüksəldilməsi üçün bütün mümkün tədbirlər görülməlidir.

İstintaq və əməliyyat qruplarının birgə fəaliyyətinin və bu zaman qarşılıqlı əlaqələrinin spesifikliyi istintaqın ilkin mərhələsinin xüsusiyyətləri, bu mərhələdə həll edilən məsələlərin xarakteri ilə şərtlənir. Belə ki, istintaqın ilkin mərhələsində ən geniş yayılmış istintaq hərəkətlərindən biri olan hadisə yerinə baxış prosesində əməliyyatçılara, əgər onlar bunu öz şəxsi təşəbbüsləri ilə etməmişlərsə, cinayətkarların istifadə etdiyi nəqliyyat vasitələrinin, onların əl-ayaq izlərinin, onlar tərəfindən itirilmiş predmetlərin və ya cinayətin alət və vasitələrin, istintaq üçün əhəmiyyətli digər predmetlərin aşkar edilməsi məqsədi ilə ətraf binalara, əraçılərə baxış keçirilməsi haqqında tapşırıq verilə bilər. Belə ilkin araşdırmaların nəticələri çox zaman baxışın hədlərinin düzgün müəyyənləşdirilməsinə və şübhəli şəxslərin vaxtında saxlanılmasına, onların şəxsiyyətini eyniləşdirməyə, təqsirli şəxslərin ifşa edilməsinə zəmin yaradan zəruri sübutların əldə edilməsinə imkan verir.

İlkin istintaq hərəkətlərinin aparılması mərhələsində əməliyyat-axtarış fəaliyyətinin, xüsusən qeyri-aşkar əməliyyat tədbirlərinin həyata keçirilməsi həmin hərəkətlərin effektivliyi üçün vacibdir. Bu tədbirlərdən hadisə yerində olmuş, cinayətin

törədildiyi yerə yaxın olan vətəndaşların sorğusu, soraqlaşma kimi əməliyyat-axtarış tədbirlərinin aparılması son dərəcə əhəmiyyətlidir. Bu zaman əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əldə edilən məlumatlara əsasən cinayəti gözü ilə görən və istintaq üçün zəruri məlumatlara malik olan şəxslər aşkar edilə bilər. Belə şəxslər haqqında əldə edilmiş məlumatlar ləngidilmədən dərhal təhqiqatçıya və ya müstəntiqə ötürülməlidir. Cinayət işi başlanana qədər bu şəxslərdən yazılı izahatlar və sonra isə ifadələr alına bilər.

Yuxarıda göstərilən şəxslərdən istintaq üçün əhəmiyyət kəsb edəcək məlumatların alınmasında da istiqamətləndirici əməliyyat-axtarış məlumatlarının böyük rolu ola bilər. Belə ki, dindirilən şəxslərdən düzgün məlumatların alınması üçün müstəntiq sonuncuların dindirilməsinə müfəssəl hazırlaşmalıdır. Bu hazırlıq prosesində o, cinayətin törədilmə halları və onu törədən şəxs barəsində əldə etdiyi əməliyyat məlumatlarından istifadə edərək, dindirmə hərəkətinə yaxşı hazırlaşa bilər. Onu da nəzərə almaq lazımdır ki, ilkin mərhələdə alınan izahat və ifadələr sonradan digər sübutların aşkar edilməsi və uğurla toplanılmasına əhəmiyyətli təsir göstərir.

Mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi idarələr və əməliyyat-axtarış bölmələrinin fəaliyyətində şübhəli şəxslərin tutulduğu və təqsirləndirilən şəxslərin həbs edildiyi ilk saatlardan nəticələri bir sıra hallarda istintaq üçün əhəmiyyətli olan istiqamətləndirici informasiyanın əldə edilməsinə imkan verən müşahidə və cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olma kimi əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Bu informasiya, cinayət əməlinin naməlum iştirakçıları və epizodları, istintaq və məhkəmədən gizlənən şəxslərin ehtimal olunan yeri, cinayət qurbanlarının gizlədildiyi, cinayətin törədilməsi zamanı istifadə olunmuş alət, nəqliyyat vasitələri, sübutetmə üçün əhəmiyyətli ola bilən izləri özündə əks etdirən geyim və başqa predmetlərin yerləşdiyi yer haqqında məlumatları təşkil edir.

Xüsusilə ağır cinayətlərin istintaqı təcrübəsində əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyektlərin onlarla gizli əməkdaşlıq edən şəxsləri onların istəyinə baxmayaraq, cinayət işi üzrə şahid kimi ifadə verməyə və beləliklə cinayət qrupunda öz rolunu açmağa məcbur etmə halları da özünü göstərir. Onlar buna cinayət məsuliyyətinə cəlb olunma və digər neqativ fəsadların qorxusundan razılıq verirlər ki, buna görə də çox zaman cinayətkarlar tərəfindən qisas alınmasına məruz qalırlar.

Unutmaq olmaz ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 14-cü maddəsinin X hissəsinə müvafiq olaraq "Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə

məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya qanunla birbaşa nəzərdə tutulduğu hallarda aşkarlana bilər". Təcrübədə belə şəxslərin cinayət işləri üzrə şahid qismində dindirilməsi arzu edilməzdir. Digər tərəfdən əməliyyat-axtarış orqanlarının əməkdaşları da bir qayda olaraq, göstərilən şəxslər barədə məlumatları cinayət təqibi orqanlarına təqdim etmirlər.

İbtidai istintaqın ilkin mərhələsində olduğu kimi onun sonrakı gedişində də əməliyyat-axtarış nəticələrindən istiqamətləndirici məlumatlar qismində istifadə edilməsi mümkündür. "Bu mərhələdə adətən ittiham elan etmə, qətimkan tədbirlərinin seçilməsi, təqsirləndirilən şəxsləri ifşa edən sübutların sonradan toplanılma və yoxlanılması haqqında məsələlər öz həllini tapır, cinayət-prosessual qanunun cinayət işi üzrə sübut edilməli halların tədqiqinin hərtərəfi, tam və obyektiv olması haqqında tələblərinin yerinə yetirilməsi problemi kəskin şəkildə ortaya çıxır".

***Təcrübə materiallarının öyrənilməsi onu göstərir ki, mürəkkəb cinayət işləri üzrə əməliyyat-axtarış orqanlarının istiqamətverici məlumatlardan istifadə etmədiyi hallarda ibtidai araşdırma çox vaxt kifayət qədər məqsədyönlü və səmərəli olmur. Bu, cinayət təqibinin dayandırılmasına, bir sıra hallarda ona xitam verilməsinə, müəyyən hallarda isə həmin iş üzrə məhkəmə tərəfindən bəraət hökmünün çıxarılmasına gətirib çıxarır. Məhz bu səbəbdən cinayət işi üzrə istintaqın bütün mərhələlərində onun sonuna qədər istintaq-Əməliyyat qruplarının imkanlarından istifadə və müstəntiqin əməliyyat-axtarış bölmələri ilə əməkdaşlığının digər formaları çərçivəsində birgə fəaliyyət praktikası, bir qayda olaraq, müsbət nəticələr verir.***

**Hüquq ədəbiyyatında Y.V.Korenevski və M.E.Tokareva istintaqın ilkin mərhələsi başa çatdıqdan sonra müstəntiqin əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla əməkdaşlığının əsas istiqamətlərini aşağıdakı kimi müəyyən etmişlər:**

**Birinci.** Cinayəti törətmiş şəxslərin (əgər onlar aşkar edilməmişsə) müəyyən edilməsi üzrə işlərin davam etdirilməsi;

**İkinci.** Cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin istintaq tərəfindən müəyyən edilməmiş cinayətkar fəaliyyətinin ayrı-ayrı halları haqqında fərziyyələrin yoxlanılması;

**Üçüncü.** İş üzrə kifayət qədər araşdırılmamış sübut edilməli halların, habelə sübutların mənbələri, o cümlədən qrup cinayətlərinin törədilmə motivlərinin fərdiləşdirilməsinə, cinayətkar qrupda rolların bölüşdürülməsi, cinayətin yetirdiyi zərərin xa-

rakteri və ölçüsü, cinayət qurbanlarının gizlədilməsi, silahların, narkotik maddələrin, oğurlanmış əmlakın və qiymətli əşyaların saxlanıldığı yerlərin, onların satış kanallarının müəyyən edilməsinə aid olan dəlillər haqqında istiqamətverici informasiyanın əldə edilməsi;

**Dördüncü.** Şübhəli, təqsirləndirilən şəxslərin və onların müdafiəçilərinin müdafiə fərziyyələrinin yoxlanılması;

**Beşinci.** Şübhəli, təqsirləndirilən şəxslər və cinayət prosesinin digər iştirakçılarının şəxsiyyəti, habelə istintaqın optimal təşkili və planlaşdırılması, dindirmə taktikasının düzgün seçilməsi, hazırlığı və digər istintaq hərəkətləri üçün istifadə edilə bilən başqa hallar haqqında istiqamətverici informasiyanın əldə edilməsi;

**Altıncı.** Cinayətkarlar tərəfindən planlaşdırılan və həyata keçirilən cinayət izlərini gizlətmə və istintaqa maneə yaratma üsulları haqqında istiqamətverici informasiyanın əldə edilməsi.

İlkin istintaq hərəkətlərini başa vuran cinayət təqibi orqanları əməliyyat-axtarış məlumatlarından istifadə edərək istintaqın sonrakı gedişinin istiqamətlərini, habelə əməliyyat-axtarış subyektlərinin iştirakı ilə eyni zamanda sonuncuların fəaliyyət istiqamətlərini də onların qarşısında konkret vəzifələr qoymaqla müəyyən edir.

Təcrübə materiallarının təhlili onu göstərir ki, xüsusilə ağır cinayətlər, ilk növbədə mütəşəkkil cinayətkar qrupların törətdiyi cinayətlər haqqında olan işlər üzrə şübhəli, təqsirləndirilən, habelə zərərçəkmiş şəxslər və şahidlər bir çox hallarda, bəzən dəfələrlə ibtidai istintaqda və məhkəmədə müxtəlif və bəzən az inandırıcı səbəbləri əsas gətirməklə öz ifadələrini dəyişirlər. Belə şəxslərin təkrar dindirilmə taktikasını düzgün seçmək, onların yalan ifadələrini ifşa etmək və cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün müstəntiq şəxsi istintaqın gedişində öz mövqeyini dəyişdirməyə məcbur edən faktiki hal və səbəblərlə bağlı ən azı qeyri-prosessual informasiya əldə etməlidir.

***Məsələn, təcrübədə bir qayda olaraq, bu, şübhəli və ya təqsirləndirilən şəxslərin törətdikləri cinayətlərə görə cəzalarını yüngülləşdirmək və cinayət məsuliyyətindən ümumiyyətlə yayınmaq üsulları haqqında yanlış təsəvvürü ilə əlaqədar olur. Belə hallarda müstəntiqin səyləri onun yanlış fikirlərini qanunun cəzanı yüngülləşdirən hallar haqqında müvafiq müddəalarını izah etmək, üzləşdirmə, müstəntiqi və ya məhkəməni aldatmağa cəhd etmənin faydasız və mənasız olmasını göstərən dəlilləri təqdim etmək yolu ilə alt-üst etməyə yönəlməlidir.***

Şahid və zərərçəkmiş şəxslərin isə istintaqın sonrakı gedişində və xüsusən də məhkəmə baxışı zamanı öz ifadələrini tez-tez dəyişməsi, onların özlərinin və ya yaxınlarının həyatı, sağlamlığının, əmlakının cinayətkarlar tərəfindən təhlükə altına alınacaqlarından ehtiyat etmələri ilə bağlı olur. Bu zaman cinayət prosesində iştirak edən şəxslərin təhlükəsizliyini təmin etmə tədbirlərinə ehtiyac yaranır.

Bu göstərişləri nəzərə almaqla müstəntiqin cinayət prosesi iştirakçısının təhlükəsizliyini istintaqda olan cinayət işinin nəticəsində maraqlı şəxslər tərəfindən ona qanunsuz müqavimət tədbirləri barədə xəbərdarlıq etmə və onların qarşısını almaq yolu ilə təmin etmək üzrə əməliyyat-axtarış tədbirlərinin icraatı haqqında əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara tapşırıq, prokurorun isə göstəriş vermə hüququ vardır. Belə tapşırıq və ya göstəriş üçün əsas cinayət işi materialları, əməliyyat-axtarış tədbirlərinin nəticələri, həmçinin müstəntiq və prokuror tərəfindən əldə edilmiş digər informasiya ola bilər. Bunlara vətəndaşların şikayətləri, ərizələri, məktubları və kütləvi informasiya vasitələrində verilən məlumatları və s. aid etmək olar.

Dayandırılmış cinayət işləri üzrə əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin istifadə olunması üzərində xüsusi olaraq dayanmaq lazımdır. CPM-in 277.6-cı maddəsinə müvafiq olaraq "icraatı dayandırılmış iş üzrə istintaq hərəkətlərinin aparılmasına yol verilmir". Lakin istintaq hərəkətlərindən fərqli olaraq əməliyyat-axtarış tədbirləri müstəntiqin istintaqdan gizlənən cinayətkarların axtarışı, onların olduğu yerin, həmçinin təqsirləndirilən şəxs qismində cəlb edilməli şəxslərin müəyyən edilməsi haqqında tapşırığına əsasən həyata keçirilə bilər.

CPM-in 277.5-ci maddəsinə əsasən cinayət işi dayandırıldıqdan sonra müstəntiqin özü və ya təhqiqat orqanı vasitəsilə aşağıdakı hərəkətlər yerinə yetirilir:

– təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməsi üçün tədbirlər görür;

– təqsirləndirilən şəxsin olduğu yerin müəyyən edilməsi üçün tədbirlər görür;

– istintaqdan gizlənmiş təqsirləndirilən şəxslərin axtarışı üçün tədbirlər görür.

Qanunun göstərilən maddəsinin tələblərinə əsaslansaq, onda müstəntiq özü də yuxarıda sadalanan hərəkətləri həyata keçirə bilər. Bu müddəanın qəribəliyi ondan ibarətdir ki, CPM-in 277.5-ci maddəsində əks olunan və cinayət işi dayandırıldıqdan sonra müstəntiqin icra etmək hüququna malik olduğu hərəkətlər istintaq hərəkətləri kimi nəzərdən keçirilə bilməz. Ona görə ki, CPM-in 277.6-cı maddəsinin tələbinə görə "icraatı dayandırılmış iş üzrə istintaq hərəkətlərinin aparılmasına yol verilmir".

Deməli, bu hərəkətlər əməliyyat-axtarış tədbirləri kimi nəzərdən keçirilməlidir. Belə olduğu təqdirdə müstəntiq əməliyyat-axtarış fəaliyyətinin subyekti olmadığına görə yuxarıda göstərilən tədbirləri həyata keçirə bilməz. Məhz bu səbəbdən də CPM-in 277.5-ci maddəsində “müstəntiq özü və ya təhqiqat orqanı vasitəsilə” sözləri “müstəntiq təhqiqat orqanı vasitəsi ilə” sözləri ilə əvəz edilməlidir.

**Təcrübədə kifayət qədər mürəkkəb olduğuna görə müstəntiqlər nadir hallarda dayandırılmış iş üzrə əməliyyat-axtarış fəaliyyətinin nəticələri ilə maraqlanırlar və yalnız epizodik şəkildə əməliyyat orqanlarına həmin məsələlərlə bağlı informasiyaların təqdim edilmə zərurəti haqqında müraciət edirlər. Nəticədə cinayət işləri uzun müddət dayandırılmış qalır. Belə problemlərin olmaması üçün cinayət təqibi orqanları əməliyyat-axtarış fəaliyyəti nəticələrindən daha geniş istifadə etməyə çalışmalıdırlar.**

Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət işləri üzrə sübutetmə prosesində istifadə imkanı ilə bağlı hüquq ədəbiyyatında vahid bir fikir yoxdur. Belə ki, bəzi müəllifər sübutların əməliyyat-axtarış fəaliyyəti çərçivəsində formalaşması imkanını qəbul edirlər.

Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət işləri üzrə sübutetmədə istifadə problemlərinin düzgün həlli üçün sübutlar nəzəriyyəsinin fundamental müddəalarını - xüsusən cinayət prosesində müxtəlif növ sübutların əldə edilməsinin və onlardan istifadənin eyni olmayan hüquqi rejimini nəzərə almaq lazımdır.

Uzun müddət hüquq ədəbiyyatında əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilən faktiki halların sübut kimi qəbul edilməsinin mümkünlüyü və onun əsas şərtləri barədə diskussiyalar aparılır. Bəzi müəllifər belə imkanı inkar edir və göstərirlər ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əldə olunan “hallar” cinayət işində öz əksini tapmır və sübut əhəmiyyətinə malik olmur, digərləri isə (məsələn, Fatkulin F.N., Korneyeva L.M., Şeyfer S.A. və başqaları) məsələyə məzmunun və formanın vəhdəti anlayışından yanaşırlar. Bu vəziyyətdə əməliyyat-axtarış fəaliyyəti ilə əldə edilmiş faktiki hallar - məzmun, onların müəyyən edilməsinin və cinayət prosesinə daxil edilməsinin prosessual qaydası isə forma kimi müəyyən edilir.

***Məsələ ilə bağlı* L.M.Korneyeva bildirir ki, *əməliyyat mənbəyindən alınmış* məlumatlar prosessual yolla - dindirmələr, müayinə, axtarış və s. hərəkətlərlə təsdiq olunduqda, *yəni qanunla müəyyən edilmiş mənbədən alındıqda* sübut kimi qəbul edilir. Bu mülahizəni konkretləşdirən V.L.Doroxov qeyd edir ki, *əməliyyat yolu***

***ilə aşkar edilən predmet və sənədlər, o halda nəzərdən keçirilə bilər ki, aşkar edilməsindən sonra onların prosessual toplanılması baş versin və bu zaman maddi və yazılı sübutların mümkünlüyünü müəyyən edən rejim tam şəkildə tətbiq edilsin.***

Göstərilən nöqteyi-nəzərlə müəyyən mənada razılaşsaq da, fikrimizcə, yuxarıda göstərilən vəziyyətdə faktiki halların prosessual toplanılması baş vermir və buna zərurət də yoxdur. Burada məzmun müəyyən forma alır, yəni əməliyyat-axtarış fəaliyyəti ilə əldə edilən faktiki hallar prosessual qaydada rəsmiləşdirilir.

Nəticə etibarı ilə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əldə edilən materiallar prosessual cəhətdən rəsmiləşdirilmədən sübut kimi qəbul edilə bilməz. Bu da cinayət işləri üzrə əməliyyat-axtarış fəaliyyətinin nəticələrini cinayət prosessual prosedurlardan asılı edir.

Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar prosessual qaydada rəsmiləşdirilmədikdə onların əsasında məcburetmə tədbirlərinin tətbiq edilməsinə yol vermək olmaz. Əməliyyat-axtarış fəaliyyətinin nəticələri cinayət prosessual qanunun tələblərinə uyğun olaraq təqdim edilmədikdə və yoxlanılmadıqda onlar hüquqi əhəmiyyət kəsb etmir. Prosessual qaydalara uyğun rəsmiləşdirilməmiş əməliyyat-axtarış fəaliyyətinin nəticələri əsasında qəbul edilmiş hər hansı qərar vətəndaşların hüquq və qanunla qorunan maraqlarını məhdudlaşdıra bilər.

Faktların idraki əhəmiyyətini qiymətləndirərək D.İ.Bednyakov göstərir ki, reallığın inikası kimi əməliyyat-axtarış və sübut informasiyası öz tələblərinə görə eynidir və ətraf mühitlə qarşılıqlı əlaqənin nəticəsi olan dəyişikliklərin idrakı prosesində meydana çıxır.

Obyektiv səbəblərə görə sübutetmə predmetini formalaşdıran hallarla və fakültətiv faktlarla bağlı olan əməliyyat-axtarış fəaliyyəti nəticələrindən cinayət prosesində istifadənin mümkünlüyündən danışmaq olar. Onlar cinayət işi və ümumilikdə iş üzrə sübut edilməli ayrı-ayrı hallar üzrə sübutetmə prosesində məntiqi nəticələr çıxarılması üçün, məsələn, cinayət məsuliyyətinə cəlb edilən şəxsin təqsiri, cinayət nəticəsində yetirilən zərərin xarakteri və ölçüsü haqqında nəticələr üçün əsas ola bilməz. Lakin onlardan sübutların optimal toplanılması və yoxlanılması üçün istifadə etmək məqsədə müvafiqdir. Onlar cinayət prosesində sübutların formalaşması üçün əsas kimi də xidmət edə bilər.

Artıq qeyd edildiyi kimi əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatlar özü-özlüyündə sübut hesab edilmir. Sübut statusu alması üçün onlar cina-

yət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş sübutların toplanılma, yoxlanılma və qiymətləndirilməsini tənzimləyən normalara uyğun olaraq cinayət prosesinə daxil edilməlidir.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun və Cinayət-Prosessual Məcəlləsinin bu məsələ ilə bağlı müddəalarının təhlili, həmçinin toplanılmış təcrübənin tədqiqi belə nəticəyə gəlməyə əsas verir ki, əməliyyat yolu ilə əldə edilmiş məlumatlar aşağıdakı dəlillərin formalaşması üçün əsas ola bilər: şahid ifadələri (nadir hallarda - şübhəli və ya təqsirləndirilən şəxslərin ifadələri); maddi sübutlar və digər sənədlər.

**Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət prosesinə daxil edilmə üsullarından istifadə praktikada çətinliklərin yaranmasına gətirib çıxaran və müvafiq tövsiyələr tələb edən ayrı-ayrı əməliyyat-axtarış tədbirləri əsasında daha konkret və əyani surətdə nəzərdən keçirilə bilər. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsində verilmiş əməliyyat-axtarış tədbirlərinin siyahısının, habelə onların keçirilməsi zamanı əldə edilmiş məlumatların sübut etmədə istifadə praktikasının bu nöqteyi-nəzərdən təhlili aşağıdakı nəticələrə gətirib çıxarır:**

1. Vətəndaşların sorğusu, müqayisəli tədqiq üçün nümunələrin toplanılması, əşya və sənədlərin tədqiqi, şəxsiyyətin eyniləşdirilməsi kimi əməliyyat-axtarış tədbirlərinin nəticələri, əgər onlar müstəntiqə və ya məhkəməyə təqdim edilirsə, yalnız istiqamətverici əhəmiyyət daşıya və yalnız istintaq və məhkəmə hərəkətlərinin hazırlığı və keçirilməsi üçün istifadə edilə bilər. Onlar prosessual sübutların formalaşması üçün əsas ola bilməz.

2. Soraqlaşma - müəssisə, təşkilat, dövlət orqanları (xüsusilə, hüquq mühafizə orqanlarının müxtəlif uçot və informasiya sistemlərindən) və ya yerli özünüidarəetmə orqanları, habelə vətəndaşlardan iş üçün zəruri olan məlumatların alınmasıdır. Bu tədbir vasitəsilə əldə edilmiş məlumatlar, əgər onlar iş üçün əhəmiyyət kəsb edirsə (məsələn, şübhəli şəxsin mühakiməsi, ondan götürülmüş silahın mənşəyi haqqında məlumatlar və s.) maneəsiz işə əlavə edilə bilər.

3. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsində göstərilmiş digər əməliyyat-axtarış tədbirlərinə gəlincə isə, ilk növbədə, bir tərəfdən təcrübədə daha geniş yayılmış, digər tərəfdən, nəticələri cinayət prosesinə daxil edildiyi zaman çətinliklər yaradan tədbirləri nəzərdən keçirmək lazımdır. Hər iki meyarı nəzərə

alaraq onlara aşağıdakıları aid etmək olar: nəzarət qaydasında mal alınması, nəzarətli göndəriş, telefon danışıqlarına qulaqasma, əməliyyat eksperimenti.

Ctrialt prosessual sübutetmədə qeyri-aşkar üsullarla həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş materiallardan istifadə edilməsi, xüsusən onların rəsmiləşdirilməsi müəyyən çətinliklərlə müşayiət olunur. Bəzi mütəxəssislər cinayət prosessual sübutetmədə belə materiallardan istifadəni qeyri-mümkün sayır və onları heç bir halda sübutların mənbəyi kimi qəbul etmirlər. Məsələn, E.A.Doya göstərir ki, cinayət prosesində sübutların toplanılmasının yeganə qanuni üsulu istintaq və məhkəmə hərəkətlərinin icrasıdır.

Təcrübədə göstərilən məsələnin həlli sahəsində bir sıra maraqlı yanaşmalar mövcuddur. Müstəntiqlər istintaq hərəkətlərinə hazırlıq və onların icra olunmasında qeyri-aşkar üsullarla əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallardan geniş istifadə etməyə çalışır, həmçinin belə materialları prosessual qanuna uyğun olaraq rəsmiləşdirdikdən sonra sübutetmədə də onlara müraciət etməyə cəhd edirlər.

İlk baxışdan belə üsullar hüquqi və mənəvi nöqteyi-nəzərdən şübhə doğurur. Ona görə ki, qeyri-aşkar üsullarla əldə edilmiş predmet və ya sənədin hansı səviyyədə sübut əhəmiyyəti kəsb etməsindən asılı olmayaraq əldə olunma üsulu və mənbəyinin aydın olmaması onların sübut kimi mümkünlüyünü istisna edir. Bu da məhkəmə icraatında belə sübutların saxtalaşdırılması haqda şübhələnməyə əsas verə bilər.

Göstərilənlər CPM-in 125.1-ci maddəsinin tələbləri ilə üst-üstə düşür. Həmin maddəyə əsasən “məlumatların, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda onlar sübut kimi qəbul edilə bilərlər”. Əks təqdirdə məlumatların, sənədlərin və digər əşyaların sübut kimi mümkünlüyündən danışmaq olmaz.

Halbuki “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 6-cı maddəsinin 3-cü bəndinə əsasən “Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək” əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələrindən biri kimi müəyyən edilmişdir. Adı çəkilən qanunun digər maddələrində də, o cümlədən 6-cı maddənin 8,9-cu bəndlərində, 7-ci maddənin 2,5-ci bənlərində, 14-cü maddəsinin 9-cu bəndində və s. Əməliyyat-axtarış fəaliyyətinin istintad etdiyi mənbələr, bu fəaliyyəti həyata keçirən orqanlara kömək

göstərən şəxslər, habelə əməliyyat-axtarış fəaliyyətinin üsulları barədə məxfi məlumatların açıqlanmaması nəzərdə tutulmuşdur.

Qanun əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatların yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya qanunla birbaşa nəzərdə tutulmuş hallarda aşkarlanması imkanını istisna etmir ("Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanunun" 14-cü maddəsinin 10-cu bəndi), lakin göstərilən şərtlər olmadıqda əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatların açıqlanması qadağandır.

**B.T.Bezlepkin** belə bir fikirlə çıxış etmşdir ki, müəyyən hallarda qeyri-aşkar əməliyyat-axtarış üsulu ilə əldə edilmiş və əldə edilmə mənbəyi konspirasiya baxımından göstərilməyən və ya göstərilməsi mümkün olmayan materiallar sübut qismində qəbul edilə bilər. Müəllifin qənaətinə görə, bu yalnız mühüm şərtlə, daha dəqiq desək həmin materialın mənbəyinin və əldə edilmə üsulunun sübutetmə üçün əhəmiyyət kəsb etmədiyi halda mümkündür.

Bu mülahizə həm hüquqi və həm də mənəvi cəhətdən xüsusi aktuallığa malikdir. **Belə ki, S.A.Zaysev, L.M.Zeynalova, N.A.Qromov** və digər mütəxəssislər "məhkəmənin bütün hallardan xəbərdar olması" fikrini optimal hesab etmirlər. Onların qənaətinə görə məhkəmədə bütün halların aydınlaşdırılması mümkün deyil, məhkəmə yalnız iş üzrə həqiqətin müəyyən edilməsi üçün zəruri olan halları bilməlidir. Bu halların həcmi isə sübutetmə predmetinin hədləri ilə ciddi şəkildə şərtlənmişdir.

Yuxarıda göstərilən müəllifər öz araşdırmalarında qeyri-aşkar üsullarla həyata keçirilən əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatların mənbəyinin, müəyyən hallarda bu məlumatların mötəbərliliyi baxımından tamamilə əhəmiyyətsiz olması fikrini qəbul edirlər. Öz fikirlərini əsaslandırmaq üçün bildirirlər ki, "müəyyən təsvirlərin, hərəkət və bu hərəkətin iştirakçılarının əks olunduğu fotoşəkil bəzi hallarda onun kim tərəfindən və nə zaman çəkilməsindən asılı olmayaraq özü-özlüyündə dəyərlidir. Belə ki, müstəntiqə və ya prokurora iş üzrə təqdim edilmiş, cinayət hadisəsinə aidiyyəti olan faktın əks olunduğu fotoşəkil, özü-özlüyündə maddi sübutun bütün əlamətlərinə malik olur. Bu zaman fotoşəkilin kim tərəfindən, hansı üsulla və hansı şəraitdə çəkilməsi vacib deyil, texniki vasitələrin köməyi ilə əldə edilmiş təsvirlərin özü sübut əhəmiyyəti kəsb edir".

**E.A.Dolya** bu fikirlərlə razılaşır və göstərir ki, yuxarıda qeyd edilən hallar is-tisna olmaqla "bütün digər hallarda cinayət prosessual sübutetmənin subyektinə

əməliyyat-axtarış fəaliyyəti nəticələrinin hansı texniki vasitələrin köməyi ilə nə zaman, hansı qaydada və şəraitdə əldə edildiyi məlum olmalıdır".

Bizim fikrimizcə, **B.T.Bezlepkinin** mülahizələri ilə müəyyən mənada razılaşmaq olar, lakin hesab edirik ki, istənilən əşyanın maddi sübut kimi qəbul edilməsi üçün CPM-in 128-ci maddəsinə müvafiq olaraq cinayət prosesini həyata keçirən orqanın qərarı zəruridir, yəni hər bir halda əməliyyat-axtarış fəaliyyəti ilə əldə olunan materiallar əməliyyat-axtarış fəaliyyəti nəticəsi prosessual rəsmiləşdirməyə məruz qalmalıdır. Bu zaman cinayət prosesini həyata keçirən orqan qanunun tələbinə görə bütün hallarda həmin əşyanın və ya predmetin xüsusiyyətlərini və əlamətlərini, mənşəyini, aşkar edildiyi yeri, vaxtı və s. halları nəzərə almalıdır.

**L.D.Kokarev və N.P.Kuznetsov** düzgün olaraq göstərirlər ki, qeyri-prosessual yolla əldə edilmiş faktiki hallar özü-özlüyündə sübut kimi qəbul edilə bilməz, lakin onlar müstəntiq və ya məhkəmə tərəfindən qanuni yollarla (təqdim edilmə, tələb edilmə, istintaq hərəkətlərinin icrası) əldə edildiyi hallarda belə keyfiyyətə malik ola bilərlər.

Artıq qeyd etdiyimiz kimi qeyri-aşkar əməliyyat-axtarış tədbirləri aparıldığı zaman istifadə edilmiş üsullar, metodlar, vasitələr haqda məlumatlar, mütəşəkkil cinayətkar qruplara daxil edilmiş şəxslər, əməliyyat-axtarış orqanları ilə əməkdaşlıq edən şəxslər, habelə əməliyyat-axtarış tədbirlərinin aparılmasının təşkili və taktikası haqda məlumatlar gizli saxlanılmalı və cinayət mühakimə icraatı hədlərində aşkar istifadə üçün verilməməlidir.

Lakin bir çox hallarda əməliyyat-axtarış tədbirlərinin aparıldığı zaman istifadə edilmiş vasitələrin texniki xarakteristikası haqda məlumatların cinayət prosesini həyata keçirən orqana verilməsi vacibdir. Qeyd etməliyik ki, müəyyən şəraitdə göstərilən məlumatlar olmadan keçinmək qeyri-mümkündür. **Məsələn, cinayət işi üzrə müayinə zamanı digər xarakteristikalı texniki vasitələrin tətbiqi müvafiq daşıyıcılarda əks olunan faktların və halların təhrif olunmasına gətirib çıxara bilər.** Bu da nəticədə cinayət işi üçün onların əhəmiyyətinin müəyyən edilməsində çətinlik yarada bilər.

Əməliyyat-axtarış materiallarının təqdim edilməsi zamanı gizli olan bəzi məlumatlar əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbəri tərəfindən əsaslandırılmış qərar qəbul edilməklə açıqlanmalı, yaxud "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 11,15 və 16-cı maddələrinin tələblərinə uyğun olaraq təqdim edilməlidir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbəri əməliyyat-axtarış materiallarının təhqiqatçıya, müstəntiqə, prokurora və ya məhkəməyə təqdim edilməsi haqda qərar qəbul edərkən əməliyyat qeydiyyat işi materiallarını müfəssəl təhlil etməlidir.

E.S.Dubonosovun fikrinə əsasən, materialların diqqətli tədqiq edilməsi ilə əməliyyat-axtarış nəticələrinin mötəbər və cinayət mühakimə icraatı üsulları ilə cinayətin tez və tam açılmasını təmin etmək üçün kifayət etməsini, habelə bu materiallardan cinayət prosesində aşkar istifadə edilməsinin əməliyyat-axtarış fəaliyyətinə zərər yetirməyəcəyini əvvəlcədən müəyyənləşdirmək olar.

Hazırda qüvvədə olan cinayət-prosessual qanunvericiliyində əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların cinayət prosesində istifadə edilməsini çətinləşdirən bir sıra problemlər də mövcuddur. Bunlardan ən mühüm hesab etdiyimiz, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş cinayət prosesinin subyektlərinə təqdim edilmə prosedurlarının qanunla açıqlanmamasıdır.

Hüquq ədəbiyyatında bü prosedurlar haqqında bəzi mülahizələr öz əksini tapmışdır. **Məsələn, V.T.Bezlepkin göstərir ki, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən əldə edilmiş materialların təqdim edilməsi hüquqi təbiətinə görə fərqli xarakterə malikdir.** Belə ki, əməliyyat-axtarış fəaliyyəti nəticələrinin realizə formalarından biri bu fəaliyyətlə əldə edilmiş materialların icraatında cinayət işi olan təhqiqatçıya, müstəntiqə və ya məhkəməyə təqdim edilməsidir. Belə təqdimetmə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın rəhbəri tərəfindən qəbul edilmiş qərar əsasında icra edilir. Lakin bu qərar əməliyyat-axtarış materiallarının sübutlar sisteminə daxil edilməsi ilə bağlı məsələni həll etmir. Ümumiyyətlə, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların bu fəaliyyəti tənzim edən qanuna uyğun olaraq təqdim edilməsi hələ özü-özlüyündə həmin materialların sübut kimi qiymətləndirilməsi üçün əhəmiyyət kəsb etmir. Əməliyyat-axtarış materiallarının sübut kimi qəbul edilməsi haqda məsələ bilavasitə müstəntiq, prokuror və ya məhkəmə tərəfindən həll edilir. Göstərilən orqanlar əməliyyat-axtarış materiallarının cinayət işinə aidiyyətinin olmaması və ya sübutların mümkünlüyü tələblərinə cavab verməməsini müəyyən etdikdə onların işə əlavə edilməsinə etiraz edilməsi (rədd edilməsi) haqda qərar çıxara bilərlər.

Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilən materialların təqdim edildikdən sonra yoxlanılma mexanizmi və onun müddəti də qanunvericiliklə birbaşa

tənzim edilmir. Əməliyyat-axtarış materialları cinayət prosesini həyata keçirən subyektlər tərəfindən yoxlanıldığı zaman onların sübut kimi qəbul edilməsi mümkün olmadıqda, bununla bağlı təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin konkret olaraq hansı tədbirləri həyata keçirəcəyi və bu tədbirlərin prosessual mexanizminə qanunda yer verilməmişdir.

Fikrimizcə, əməliyyat-axtarış materiallarından cinayət prosesində istifadə edilməsi mümkün olmadığı hallarda, belə qənaətə gəlmiş cinayət prosesini həyata keçirən orqan həmin materialları geri qaytarmalıdır. Bu zaman cinayət prosesini həyata keçirən orqan öz hərəkətini yazılı şəkildə əsaslandırmalı və əməliyyat-axtarış materiallarında olan fakt və halların əlavə olaraq əldə edilməsi və s. haqda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara tapşırıqlar verməlidir.

Əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin sübutetmədə istifadəsi cinayətin faktiki hallarının və onu törədən şəxslərin düzgün və adekvat müəyyən edilməsinə əsaslı şəkildə kömək edər və bunun hesabına ən təhlükəli cinayətlərlə və mütəşəkkil cinayətkarlıqla mübarizənin güclənməsinə zəmin yarada bilər. Lakin buna nail olmaq üçün əməliyyat-axtarış fəaliyyətinin nəticələri peşəkarcasına, işi bilməklə və ən başlıcası isə qanunun tələblərinə ciddi şəkildə əməl etməklə təqdim edilməli və onlardan istifadə olunmalıdır.

**Əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən cinayət işləri üzrə sübutetmədə istifadə olunması cinayətkarlığa qarşı mübarizə, insanların hüquq və qanuni mənafeyinin, dövlətin və cəmiyyətin maraqlarının cinayətkar qəsdlərdən müdafiəsi sahəsində böyük əhəmiyyətə malikdir. Bununla belə, bu fəaliyyətin gözlənilməz mənfi nəticələrə səbəb olma riskini də nəzərə almamaq olmaz. Belə ki, əməliyyat-axtarış fəaliyyəti öz xarakterinə və xüsusiyyətlərinə görə (bir sıra əməliyyat-axtarış tədbirlərinin aparılması, barələrində bu tədbirlərin aparıldığı şəxslərin hüquqlarının məhdudlaşdırılması, cinayət prosessual sahədə mövcud olan bir sıra təminatların olmaması və s.) insan hüquq və azadlıqlarının pozulması və məhdudlaşdırılması kimi hallara gətirib çıxara bilər. Bu səbəbdən əməliyyat-axtarış tədbirlərindən istifadə böyük ehtiyac tələb etməklə yanaşı qanunla ciddi tənzim edilməlidir.**

# X BÖLMƏ

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNƏ NƏZARƏT

## XIX FƏSİL
## Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və ona nəzarəti həyata keçirən subyektlər

### § 1. Nəzarət və yoxlamanın əməliyyat-axtarış fəaliyyətində mahiyyəti

**Nəzarətin mahiyyəti idarəetmə subyektinin idarə olunan obyektin onun göstərişlərini necə yerinə yetirməsini yoxlamaqdan və uçotunu aparmaqdan ibarətdir.** Bu funksiyanın əsas məqsədi idarəetmə subyektini onun fəaliyyəti üçün müəyyən olunmuş idarə proqramlarından yayınma hallarından təcrid etmək, həmçinin normadan kənaraçıxma hallarına rast gəlindikdə, bütün sosial tənzimləyicilərdən istifadə edərək idarəetmə sistemlərini sabit vəziyyətə gətirməkdir.

*Sosial idarəetmə və nəzarət – bir-biri ilə sıx bağlı olan hallardır. Hər ikisi müstəqil təsisat olsa da, onlar qarşılıqlı münasibətlərində sabit sistem yaradırlar. Sosial idarəetmə prosesində (burada: əməliyyat-axtarış fəaliyyəti) nəzarət idarəedici dövlətlər arasında əlaqələndirici element kimi çıxış edir. Idarəetmə prosesi aşağıdakı funksional məntiqi funksiyalardan ibarətdir: idarəedici qərarlar; icranın yoxlanılması və ona nəzarət; nəticələrin qiymətləndirilməsi. Beləliklə, nəzarət idarəetmənin zəruri müstəqil mərhələsidir.*

**Nəzarət və yoxlama arasında fərqi müəyyən etmək olduqca mürəkkəb bir məsələdir, çünki yoxlama orqanlarının fəaliyyətində nəzarət elementləri, nəzarət orqanlarının fəaliyyətində isə yoxlama elementləri mövcuddur. Doğrudur, nəzarəti yalnız dövlət orqanları həyata keçirir, yoxlamanı isə ictimai təşkilatlar və birliklər də apara bilərlər.**

İcraya nəzarət və yoxlama konkret icraedici qərarların öyrənilməsindən başlayır, fəaliyyət proqramının tərtibi prosesini müşayiət edir, qərarın faktiki icra olunması mərhələsində dolüun və tam şəkildə ifadə olunur. İdarəetmənin ilkin prosesini başa

vuran nəzarət fəaliyyəti yeni idarəetmə mərhələsi üçün daha əlverişli perspektivlər yaradır. Nəzarət zamanı aşağıdakılar aşkar olunur: idarə qərarının özünün keyfiyyəti; onun icrası üçün qəbul edilən təşkilati tədbirlərin səmərəliliyi; obyektin təşkilinin idarə qərarında əksini tapmış göstərişlərin müvəffəqiyyətlə həyata keçirilməsi məqsədlərinə uyğunluğu, həmçinin qərarı icra edən kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyələndirilməsi.

Nəzarətdə sosial idarəetmənin funksiyası kimi onun informasiya və korreksiya mahiyyəti özünü aydın büruzə verir. Nəzarət əks əlaqə kanalı ilə informasiya alınmasının universal vasitəsidir. Obyekt və subyekt arasında əks əlaqə mexanizmi olmadan sosial idarəetmə prosesi özünün dəqiqliyini və məqsədyönlülüyünü itirər. İdarəetmənin səmərəliliyi üçün idarə edən, idarə olunan obyektə özünün idarəedici təsirinin nəticələrini bilməlidir. Nəzarət obyektlərin işlərinin vəziyyətini doğru-dürüst əks etdirən operativ informasiya almağa, qəbul olunmuş qərarların məzmununda onların həyata keçirilməsinin təşkilində, bu qərarların reallaşması üçün üsul və vasitələrdə nöqsanları açmağa, işçilərin işgüzarlıqlarını öyrənməyə imkan verir.

Əgər informasiya mərhələsində nəzarətdə olan obyekt haqqında məlumatların axtarılıb toplanması, qəbul olunmuş qərarla, nəzərdə tutulan məqsədlərin faktiki icrasının tutuşdurulması həyata keçirilirsə, korreksiya mərhələsində yoxlama fəaliyyətinin subyekti faktiki vəziyyətlə modelin, proqramın arasında aşkar olunmuş uyğunsuzluğun aradan qaldırılması üsullarını müəyyən edib, nəzarətdə olan obyektin fəaliyyətinin normallaşdırılması üçün qərar formalaşdırır. Korreksiyanın mahiyyəti və xarakteri nəzarət subyektindən, yəni onun fəaliyyətində tənzimləyici və qoruyucu mənbələrin nə dərəcədə bir-biri ilə bağlılığından asılıdır.

**V.Q.Afanasyev qeyd edir ki, nəzarət obyektin fəaliyyət prosesinin qəbul edilmiş idarə qərarlarına - qanun, plan, norma, standart, qayda və əmrlərə uyğunluğunun müşahidə və yoxlanılması, subyektin obyektə təsirinin nəticələri, idarə qərarları tələblərindən yol verilən sapmaların üzə çıxarılması üzrə əməkdir. Kənara çıxmaları və onların səbəblərini aşkarlayan nəzarət işçiləri idarə obyektinin təşkilinin korreksiyası yollarını və kənara çıxmaları aradan qaldırmaq məqsədilə obyektə təsir üsullarını, sistemin optimal fəaliyyətində qarşıya çıxan maneələrin aradan qaldırılmasını müəyyən edirlər.**

Nəzarət fəaliyyəti hüquqi forma kimi hüquqi reallaşdırma mexanizminin idarə blokunun tərkib hissəsidir. O, hüquqi reallaşdırma proseslərinə onların dəqiqliyini,

qanuniliyin tələblərinə uyğunluğunu təmin etmək məqsədilə daxil olur və hüququn tətbiq edilmə proseslərinin idarə edilməsinin əsas təşkilati-hüquqi üsuludur.

Nəzarət fəaliyyəti ideal, konstruktiv, texnoloji kanal üzrə idarə qərarlarının icra prosesini istiqamətləndirən özünəməxsus maneə rolunu oynayır. Nəzarətin aktiv təşkiledici rolu da məhz bununla müəyyənləşir.

Təqdim olunan fəaliyyət ictimai həyatın dinamik prosesləri ilə yanaşı addımlayır, onları müşayiət edir, nəzarətdə olan obyektlərə mümkün olan model çərçivəsində müstəqil, təşəbbüskar hərəkətlər etməyə yardımçı olur və onları təmin edir. Bu baxımdan nəzarətin mahiyyəti bu və ya digər orqanların və şəxslərin fəaliyyətinin (bizim təqdim etdiyimiz halda ƏAF-ni həyata keçirən orqanlar və onların vəzifəli şəxslər) onların qarşısında duran tapşırıqlara, idarə subyektlərinin idarə olunan obyektlərə təsirinin nəticələrinə uyğunluğu, qoyulan məqsədlər və onlara nailolma üsullarından, məqsəd və yayınma hallarını, həmçinin onların səbəblərini aşkar etməkdən ibarətdir. Məqsəd idarəetmə proseslərinə dərindən yiyələnmək və təsdiq etmək üçün ilkin şərait yaratmaqdır. Başqa sözlə, nəzarət fəaliyyəti təsdiqedici funksiya daşıyır.

**F.Məmmədov və M.Mustafayev qeyd edirlər ki, yoxlama və nəzarət olmadan hər hansı bir fəaliyyət normal hesab edilə bilməz. Hesab edirik ki, müəlliflərin bu fikri ilə razılaşmaq olar.**

## §2. Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və ona nəzarəti həyata keçirən subyektlərin təsnifatı

**ƏAF-ni yoxlayan və nəzarəti həyata keçirən subyektlərin anlayışı.** Azərbaycan Respublikası 28 oktyabr 1999-cu il tarixli "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunda əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin siyahısı göstərilməsə də qanunun müxtəlif maddələrində bu haqda fikirlər öz əksini tapmışdır. Belə subyektlər qismində qanunvericiliklə əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, təmin edilməsinə və ya həyata keçirilməsinə nəzarət funksiyasının verildiyi dövlət orqanları və onların vəzifəli şəxsləri, eynilə qanunvericiliklə nəzərdə tutulmuş əməliyyat-axtarış orqanlarının Azərbaycan Respublikası qanunlarının icra etməsinə nəzarət funksiyasının həvalə olunduğu, Azərbaycan Respublikası Baş Prokuroru və onun səlahiyyət verdiyi prokurorlar məhkəmələr çıxış edir.

Rusiya Federasiyasının 12.08.1995-ci il tarixdə qəbul edilmiş ƏAF haqqında qanunda bilavasitə ƏAF-ni yoxlayan və nəzarəti həyata keçirən subyektlərin siyahısında ölkənin Prezidenti, Parlamenti, Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Prokurorluq orqanı, idarə nəzarəti göstərilmişdir.

Əməliyyattrialrış fəaliyyətində spesifik funksiyaları (yoxlama və nəzarət funksiyalarını) realizə edən bu subyektlər qanunvericiliklə nəzərdə tutulmuş vəzifələri icra edir və müvafiq hüquqlardan istifadə edirlər.

**Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin təsnifatı.**-Bütün bu subyektlər üç əsas meyardan asılı olaraq təsnifəndirilir.

**Birincisi**, onları **funksiyalarına görə** iki qrupa ayırırlar:

1) əməliyyat-axtarış fəaliyyətində yoxlamanı həyata keçirən (nəzarət funksiyasını realizə edən subyektlər) orqanlar.

2) əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti prokuror nəzarəti funksiyasını həyata keçirən orqanlar.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə idarə nəzarətinin müxtəlif forma və növlərini qiymətləndirərkən nəzərə almaq lazımdır ki, heç bir forma və növə üstünlük vermək olmaz.

Onların hər birinin həm müsbət, həm də çatışmayan cəhətləri mövcuddur. Buna görə də yoxlamanın müxtəlif forma və növlərinin məharətlə uyğunlaşdırılması əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində idarə yoxlamasının qarşıya qoyduğu məsələləri yaranmış şəraitlə, real imkanlarla və şərtlərlə həll etmək imkanına malikdir.

Qanunvericiliyə görə, əməliyyat-axtarış fəaliyyətində qanunların icrasını baş prokuror və onun səlahiyyət verdiyi prokurorlar həyata keçirir.

**İkincisi**, subyektləri **“nəzarətçilərə” verilmiş səlahiyyətlərin həyata keçirilməsi sahəsinə görə xarici** (başqa sözlə, idarədənkənar) yoxlama və nəzarəti həyata keçirən subyektlərə və **daxili** (başqa sözlə idarə) nəzarəti həyata keçirən subyektlərə ayırırlar. ƏAF haqqında qanuna görə, idarə nəzarətini əməliyyat-axtarış orqanlarının rəhbərləri və əməliyyat-axtarış orqanlarının xüsusi nəzarət bölmələrinin (təftiş, təşkilati, kadr və s.) vəzifəli şəxsləri həyata keçirir.

Üçüncüsü, ƏAF-ni yoxlama və nəzarəti həyata keçirən bütün subyektləri **hüqu-qi və fiziki şəxslərə** ayırırlar. Hüquqi şəxslər qismində müvafiq dövlət orqanları (on-

ların bölmələri), fiziki şəxslər qismində isə vəzifəli şəxslər (məsələn, ƏAO rəhbəri, prokuror, hakim) çıxış edir.

**Əməliyyat-axtarış fəaliyyətinə xarici (idarədənkənar) nəzarəti həyata keçirən subyektlər.** "ƏAF haqqında" Qanunda sadalanmış subyektlərin həyata keçirdikləri ƏAF-yə nəzarət dövlət hakimiyyəti orqanları tərəfindən nəzarətdən ibarətdir. O, dövlətin səlahiyyətli orqanlarının və vəzifəli şəxslərinin fəaliyyətinin "ƏAF haqqında" Qanunda və onun icrası məqsədilə qəbul olunmuş qanun qüvvəli aktlarda müəyyən olunmuş vəzifələrə, prinsiplərə və qaydalara uyğunluğunun müşahidəsi və yoxlanması sistemində ifadə olunur. Belə nəzarətin son məqsədi ondan ibarətdir ki, ƏAF-də müəyyən olunmuş normativlərdən kənara-çıxmaya yol verilməsin, zərurət yarandıqda isə müvafiq orqanların və vəzifəli şəxslərin fəaliyyətində düzəlişlər aparılsın, onların səmərəli işi yolundakı maneələr aradan qaldırılsın.

**ƏAF-yə xarici nəzarətin subyektləri.** "ƏAF haqqında" Qanunun mahiyyətinə görə, Konstitusiya və müvafiq qanunlarla müəyyən olunan səlahiyyətlər daxilində ƏAF-yə bu nəzarəti aşağıdakılar həyata keçirir:

– AR Prezidenti;

– AR Milli Məclisi;

– AR Nazirlər Kabineti;

– vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına səbəb olan ƏAT-nin həyata keçirilməsinə qərar verən məhkəmə;

– səlahiyyətli prokurorlar;

– Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin maliyyə nəzarətini həyat keçirmək səlahiyyətinə malik nümayəndələri.

**Qanunverici və icraedici hakimiyyət subyektlərinin ƏAF-yə nəzarətinin ümumi müddəaları.** "ƏAF haqqında" Qanunun 5-ci maddəsinin 2-ci hissəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyünü Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

**Azərbaycan Respublikasının Prezidenti** ƏAF-yə nəzarəti Konstitusiya və qanunlarla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində həyata keçirir. Konstitusiyaya görə, Prezident bu sahədə geniş səlahiyyətlərə malikdir. AR Prezidentinin ən mühüm funksiyası bundan ibarətdir ki, o, Konstitusiyanın, insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı qismində çıxış edir. O, Konstitusiya ilə müəyyən olunmuş qay-

dada AR-ın suverenliyinin mühafizəsi, dövlət müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsi üzrə tədbirlər görür.

AR Prezidentinin milli təhlükəsizliyin təmin edilməsi sahəsində əsas səlahiyyətləri dairəsinə aşağıdakı səlahiyyətlər də daxildir:

– Prezident AR Təhlükəsizlik Şurasını təşkil edir və ona başçılıq edir, Təhlükəsizlik Şurasının statusu isə qanunla müəyyən olunur;

– qanunda nəzərdə tutulmuş hallarda və qaydada Prezident AR ərazisində, yaxud onun ayrı-ayrı əraçılərində fövqəladə hal elan edir, bu barədə 24 saat müddətində AR Milli Məclisinin təsdiqinə verir.

AR Prezidenti dövlətin ali vəzifəli şəxsi kimi funksiyasına ƏAF-nin həyata keçirilməsinin, "ƏAF haqqında" Qanunun əməli icrasının daxil olduğu nazirlik və idarələrin fəaliyyətinə strateji nəzarəti həyata keçirir. Bu nəzarətin gedişində aşağıdakılar qiymətləndirilir:

– Qanunun bütövlükdə AR ərazisində, o cümlədən ayrı-ayrı nazirlik və idarələr tərəfindən tam və səmərəli icrası;

– ƏAF-nin qanun qüvvəli aktlar bazasının vəziyyəti, onun qanunlara uyğunluğu;

– ƏAF subyektlərinin ümumi peşəkarlıq səviyyəsi;

– Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının ƏAF subyektləri üçün müəyyən olunmuş hüquqi və sosial müdafiə təminatlarını yerinə yetirməsi.

Prezident, həmçinin özünün ƏAF ilə bağlı qəbul etdiyi hüquqi aktların və verdiyi tapşırıqların icrasına öz administrasiyası vasitəsi ilə nəzarət edir.

**AR Milli Məclisi** də ƏAF-yə nəzarəti həyata keçirən subyektlərdən biri qismində çıxış edir. AR Konstitusiyasına görə, Milli Məclis - parlament Azərbaycan Respublikasının ali nümayəndəli qanunverici orqanıdır.

Qanunverici orqan tərəfindən ƏAF-yə nəzarət onun həyata keçirilməsində qanunçuluğa riayət olunmasının təmin edilməsi mexanizminin elementlərindən biridir. Lakin Konstitusiyanın qanunları nəzərə alınmaqla parlament nəzarəti yalnız aşağıdakı hallarda realdır:

– parlamentarların ƏAF sahəsində qanun layihələrini qəbul etmək (rədd etmək) hüququna malik olduğu qanunyaratma işinin gedişində;

– ƏAF-nin həyata keçirilməsinə ayrılmış maliyyə vəsaiti xərcləndikdə. Beləliklə, AR Milli Məclisi "ƏAF haqqında" Qanunun icrasına ümumi nəzarəti həyata keçirir. O, konkret ƏAF-sn həyata keçirilməsinin əsaslarına və qaydasına şamil olunmur

(şamil oluna da bilməz), həm bütövlükdə ölkədə, həm də müvafiq nazirlik və idarələr tərəfindən "ƏAF haqqında" Qanunun icrası sahəsində yaranan ümumi vəziyyətin qiymətləndirilməsi məqsədi güdür.

"ƏAF haqqında" Qanunun icra vəziyyəti haqqında analitik informasiya seçicilərlə iş, vətəndaşların ərizə və məktublarına baxılması, müvafiq nazirlik və idarələrin rəhbərlərinin məlumatlarının MM-in, onun komitələrinin iclaslarında dinlənilməsi, ƏAF haqqında qanunvericiliyə dəyişiklik və əlavələrin hazırlanması, dövlət hakimiyyəti orqanlarının təqdim etdikləri sənəd və materiallara baxılması əsasında formalaşır.

AR MM hadisələr və vəzifəli şəxslər haqqında müəyyən məlumatların yoxlanması üçün xüsusi komissiyalar yaratmaq hüququna malikdir, lakin bu komissiyaların fəaliyyəti əməliyyat yoxlamasının və işləməsinin keçirilməsinin, məxfi əməkdaşlarla işin qanuniliyinin yoxlanmasını əhatə edə bilməz.

Qanunverici idarədənkənar nəzarətin üçüncü subyekti qismində **AR Nazirlər Kabinetini** göstərmişdir. NK-nın səlahiyyətləri Konstitusiya ilə müəyyən olunmuşdur. Ona nazirliklərə və ali icra hakimiyyətinin digər orqanlarına ümumi rəhbərlik məsələləri üzrə, eləcə də qanunçuluğun, vətəndaşların hüquq və azadlıqlarının, cinayətkarlığa qarşı mübarizənin, Azərbaycan Respublikasının müdafiəsinin və milli təhlükəsizliyinin təmin edilməsi sahəsində geniş səlahiyyətlər verilmişdir.

Bununla birlikdə, nəzərə alınmalıdır ki, qanunvericiliyə əsasən, müdafiə, təhlükəsizlik, daxili işlər və digər məsələlərə baxan icra hakimiyyəti orqanlarının fəaliyyətinə rəhbərliyi məhz AR Prezidenti həyata keçirir. Prezident həmin orqanların rəhbərlərini təyin edir, eləcə də AR Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi digər səlahiyyətləri həyata keçirir.

NK nazirlik və idarələrin cinayətkarlığa qarşı uğurlu mübarizə vəzifələrinin həlli üçün ƏAF-in keçirilməsi üzrə verilmiş səlahiyyətlərindən tam və səmərəli surətdə istifadə etməsini yoxlamaq səlahiyyətinə malikdir. Bu funksiyalar NK-nin sərəncamında olan müvafiq informasiyanın təhlili, NK iclaslarında müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərinin məruzə və hesabatlarının dinlənilməsi prosesində realizə olunur.

NK-nin nəzarət fəaliyyətinin istiqamətlərindən birini ƏAF-yə aid idarə aktlarının AR Konstitusiyasına və qanunvericiliyə uyğunluğunun yoxlanması təşkil edir.

Bu nəzarət fəaliyyətinin istiqamətlərindən birini ƏAF-yə aid idarə aktlarının AR Konstitusiyasına və qanunvericiliyə uyğunluğunun yoxlanması təşkil edir.

Bu nəzarət mexanizmi icra hakimiyyəti orqanlarının vətəndaşların hüquqlarına, azadlıqlarına və qanuni mənafelərinə toxunan, yaxud idarələrarası xarakterə malik normativ aktlarının dövlət qeydiyyatından ibarətdir.

Nazirlik və idarələrin normativ aktlarının dövlət qeydiyyatı AR Prezidentinin müvafiq fərmanı və NK-nin müvafiq qərarları ilə tənzimlənir.

İdarə normativ aktlarının dövlət qeydiyyatının mahiyyəti bundan ibarətdir ki, akt nazirlik və idarə rəhbəri tərəfindən imzalandıqdan sonra AR Ədliyyə Nazirliyinə təqdim olunur.

Burada onun Konstitusiyaya, qüvvədə olan qanunvericiliyə uyğunluğu yoxlandıqdan sonra həmin akta müvafiq dövlət qeydiyyatı nömrəsi verilir.

Yalnız bundan sonra həmin akt qüvvəyə minir. Qüvvədə olan qanunvericiliklə ziddiyyətlər aşkar olunduqda normativ akt yenidən işlənməyə qaytarılır.

NK-nin ƏAF-ni həyata keçirmək səlahiyyətinə malik nazirlik və idarələrin qanuna zidd olan və icra hakimiyyəti orqanlarının səlahiyyətləri çərçivəsindən kənara çıxan digər hüquqi aktlarını ləğv etmək hüququ vardır.

NK-nın səlahiyyətinə ƏAF-yə ayrılan maliyyə vəsaitinin əsaslı surətdə xərclənməsinin yoxlanması daxildir. Belə yoxlamalar AR Maliyyə Nazirliyi tərəfindən bu məqsədlə xüsusi ayrılan əməkdaşlar vasitəsilə həyata keçirilir. Azərbaycan Respublikası "ƏAF haqqında" Qanunun 18-ci maddəsinin 2-ci hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri hesabından maliyyələşdirilir.

Qeyd olunanları nəzərə alaraq təklif edirik ki, ƏAF-ni yoxlayan və nəzarət edən subyektlərin siyahısı Qanunda öz əksini ayrıca maddədə tapsın.

**ƏAF-də maliyyə nəzarətinin subyektləri, onların icraat predmeti və səlahiyyətləri.** Belə subyektlər qismində aşağıdakılar çıxış edir: 1) ƏAO rəhbəri və 2) AR Maliyyə Nazirliyinin maliyyə nəzarətini həyata keçirmək səlahiyyətinə malik nümayəndələri.

ƏAO rəhbərləri maliyyə nəzarətinin gedişində "ƏAF haqqında" Qanunla və digər qanunvericilik aktları ilə onlara verilmiş səlahiyyətlərdən istifadə edirlər.

AR Maliyyə Nazirliyinin nümayəndələrinin üzərinə qanunvericiliyə və AR Maliyyə Nazirliyinin normativ hüquqi aktlarına müvafiq surətdə vəzifələr qoyulur və onların hüquqları müəyyən edilir. AR Maliyyə Nazirliyinin nümayəndələri dövlət sirri təşkil edən məlumatlarla tanışlıq prosedurunu keçməlidir, bundan sonra onlar ƏAF-nin maliyyələşdirilməsi haqqında müvafiq sənədlərin tam həcmdə təqdim edilməli olduğu səlahiyyətli vəzifəli şəxslərə çevrilirlər.

# XX FƏSİL
# Məhkəmə nəzarətinin həyata keçirilməsi

## § 1. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə məhkəmədə baxılma qaydası

Azərbaycan Respublikasında son illər aparılan hüquqi islahatların əsas məqsədlərindən biri cinayətləri tezliklə və bütünlüklə açmaqdan, təqsirli şəxsləri aşkara çıxarmaqdan və qanunun düzgün tətbiq olunmasını təmin etməkdən ibarətdir ki, cinayət edən hər bir şəxs ədalətli surətdə cəzalandırılsın, təqsiri olmayan heç bir şəxs cinayət məsuliyyətinə cəlb edilməsin.

Məhz bu prinsipə əsaslanan Azərbaycan Respublikası Konstitusiyasında məhkəmə nəzarətini həyata keçirən bir sıra müddəalar öz əksini tapmışdır. Hüquq ədəbiyyatında məhkəmə nəzarətinin ayrıca institut kimi fəaliyyət göstərilməsi haqqında son on illər ərzində müxtəlif fikirlər söylənilmişdir. Artıq MDB ölkələrində, o cümlədən Azərbaycanda cinayət prosessual qanunvericiliyində məhkəmə nəzarətinin həyata keçirilməsi ayrıca bölmədə yerləşdirilmişdir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan CPM-ə məhkəmə nəzarətinə aid olan məsələlər və onların həyata keçirilməsi qaydası müəyyən edilmişdir.

28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası "ƏAF haqqında" Qanuna görə, vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına səbəb olan hər bir ƏAT yalnız hakimin qərarı ilə keçirilə bilər.

ƏAT həyata keçirilərkən vətəndaşların yazışma, telefon danışıqları, poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, mənzil toxunulmazlığı barədə konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara baxış, bir qayda olaraq,belə ƏAT-nin keçirildiyi yer üzrə, yaxud onların keçirilməsi barədə vəsatət qaldırmış orqanının yerləşdiyi ərazi məhkəmə tərəfindən baxılır.

Azərbaycan Respublikasının CPM-in 442.1. maddəsində qeyd edilir ki, məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir.

Hakimin belə materialların təqdim olunması halında onlara baxmaqdan imtina etmək hüqüqu yoxdur.

ƏAF-nin tətbiq edilməsində hakim geniş səlahiyyətlərə malikdir. Belə ki, ƏAF-də hakimin icraat predmetinə aşağıdakılar daxildir:

1) ƏAT-ı həyata keçirərkən vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara baxır. Qeyd olunmalıdır ki, "ƏAF haqqında" Qanunda bütün ƏAT-nin deyil, onların yalnız bir hissəsinin vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran tədbirlərin sanksiyalaşdırılması qaydası təsbit olunmuşdur. Azərbaycan Respubliksı CPM-in 445-ci maddəsində göstərilir ki, məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat-axtarış tədbirləri həyata keçirilir:

– telefon danışıqlarına qulaqasma;

– poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

– texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

– binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;

– texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi;

– insanların güdülməsi.

2) əməliyyat-axtarış orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərinin qanuniliyinin yoxlanılması;

3) əməliyyat-axtarış orqanlarından verilmiş şikayətlərə baxılması;

4) əməliyyat-axtarış tədbirlərinin keçirilməsindən imtina ilə əlaqədar hakimlə ƏAO arasında yuxarı instansiya məhkəməsində mübahisənin həll edilməsi.

**Qanunverici hakimin üzərinə aşağıdakı bir sıra vəzifələri qoymuşdur:**

– hakimin təqdim edilən materiallara baxmaqdan imtina etmək hüququ yoxdur;

– hakim materiallara 24 saat ərzində baxır;

– hakim ƏAT-nin keçirilməsinə dair əsaslandırılmış vəsatətə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatının təmin edilməsi və ya rədd edilməsi haqqında əsaslandırılmış qərardad çıxarmağa borcludur;

Qanunvericilikdə, yaxud hər hansı bir normativ hüquqi aktlarda, təlimatlarda, qaydalarda əməliyyat-axtarış orqanlarından və prokurorluqdan daxil olmuş materialların qeydiyyat məsələsi nəzərdə tutulmamışdır. Hesab edirik ki, belə bir qayda kar-

güzarlıq haqqında təlimatda öz əksini tapmalı və məhkəmə sədrləri üzərinə bir vəzifə kimi qoyulmalıdır.

Məhkəmənin sədrləri tərəfindən hakimə təqdim olunan operativ-xidməti sənəd-lərdə göstərilən məlumatların məxfiliyinin təmin edilməsi üçün şərait yaradılmalıdır. Bu şəraitin yaradılması vəzifəsini məhkəmə orqanlarının rəhbərlərinə, yəni ilk növbədə müvafiq məhkəmələrin sədrlərinə həvalə edilməlidir. Müvafiq məhkəmənin sədri ƏAO-dan daxil olmuş materiallara baxmalı olan hakimlərə onlara məlum olmuş məlumatların açıqlanmamasının, eləcə də onun qəbul etdiyi qərarın mahiyyətinin sirr kimi saxlanmasının zəruriliyini izah etməyə borcludur.

Materialların məhkəmə baxışına qədər və istintaq aparılması dövründə, həmçinin təqsirləndirilən şəxs haqqında məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə qədər məhkəmə sədrləri vəsatətin və təqdimatın tədqiqinin kənar şəxslərin onlara tanış olmasını istisna edən şəraitdə keçirilməsinə, eləcə də onların müvafiq səlahiyyətli vəzifəli şəxslərin sərəncamından sanksiyalaşdırılmamış şəkildə çıxarılmasına görə də məsuliyyət daşıyırlar. Məsələn: makinaçıya və digər yardımçı heyət şəxslərinə hakimin qəbul etdiyi qərarın rəsmiləşdirilməsini tapşırmaq olmaz.

**Sadalanan vəzifələrin reallaşdırılması üçün hakimə müvafiq hüquqlar verilmişdir:**

– hakim müvafiq ƏAT-nin keçirilməsinə icazə vermək, yaxud bundan imtina etmək hüququna malikdir;

– hakim şəxsin hüquqlarının məhdudlaşdırılması haqqında qərarın qüvvədə olma müddətini uzatmaq hüququna malikdir;

– hakimin tələbi üzrə ona ƏAT-nin keçirilməsinin əsaslarına dair əlavə materiallar təqdim oluna bilər;

– hakim ƏAO-dan ərizəçiyə verilməsindən imtina olunmuş məlumatların göstərildiyi operativ-xidməti sənədləri təqdim etməyi tələb etmək hüququna malikdir.

Atrialycan Respublikası CPM-in 143.2 maddəsində qeyd edilir ki, məhkəmə cinayət prosesi tərəfərinin vəsatəti yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə ƏAF-ni həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.

ƏAF-yə vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı.

***ƏAT keçirilərkən yazışma, telefon danışıqları, poçt, teleqraf və poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, eləcə də mənzil toxunulmazlığı barədə vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı qaydası Azərbaycan Respublikası CPM-də nəzərdə tutulmuşdur.***

**O, aşağıdakı elementləri əhatə edir:**

– şəxsin konstitusion hüququnun məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı üçün əsaslar;

– materialların baxılma yeri;

– qərar qəbul edən subyekt (materiallara baxan vəzifəli şəxs);

– materialların baxılma müddəti;

– materiallara məhkəmə tərəfindən baxılma qaydası;

– materiallara məhkəmə baxışın yekunları;

– təqdim olunmuş materialların mahiyyəti üzrə çıxarılmış məhkəmə qərarının qüvvədə olma müddəti;

– təqdim olunmuş materialların mahiyyəti üzrə çıxarılmış məhkəmə qərarının qüvvədə olma müddətinin uzadlıması qaydası.

Şəxsin konstitusion hüququnun məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışının əsası.

Rusiya Federasiyasının 12 avqust 1995-ci il tarixli ƏAF haqqında Qanununa görə vətəndaşın konstitusion hüququnu məhdudlaşdıran ƏAT-nin keçirilməsi məsələsini həll edərkən əsas kimi ƏAO rəhbərlərindən birinin əsaslandırılmış qərarı hakim tərəfindən məhkəmə iclasında baxılır.

Bu əsas insanın və vətəndaşın bu və ya digər konstitusion şəxsi hüququnun məhdudlaşdırılmasına səbəb olan konkret ƏAT-nin keçirilməsinə icazə almaq üçün əməliyyat bölməsinin məhkəməyə rəsmi müraciətidir. Şumirov A.Y. göstərir ki, əsaslandırılmış qərar ƏAO-nun müvafiq vəzifəli şəxsinin qərarı olaraq, hakim üçün vəsatət rolunu oynayır. Bununla əlaqədar bu sənəd "Məhkəmə qarşısında konkret… (ƏAT-nin adı göstərilir) keçirilməsinə icazə verilməsi haqqında vəsatət qaldırılmasına dair Qərar" adlandırılmalıdır.

Azərbaycan Respublikası ƏAF haqqında qanunda göstərilməsə də Azərbaycan Respublikası CPM-in 446.1.3 maddəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı məhkəmədə baxılmaq üçün əsasdır.

**Qanunverici ƏAO rəhbərinin vəsatətinin əsaslandırılması üçün bir sıra tələblər irəli sürür.**

**Vəsatətdə aşağıdakılar göstərilməlidir:**

– vəsatətin tərtib edildiyi tarix, vaxt, yer;

– vəsatəti tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

Vəsatətin müvafiq vəzifəli şəxs tərəfindən çıxarılmasına hakim əmin olmaq imkanı əldə etməlidir, buna görə də o, ƏAT-ni həyata keçirərkən vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması barədə qərar qəbul etmək səlahiyyətinə malik vəzifəli şəxslərin siyahılarının müəyyən olunduğu müvafiq idarə normativ aktları ilə tanış olmaq hüququna malikdir;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar törədilən, qarşısı alınan və ya xəbərdar edilən cinayət haqqında məlumatlar;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində kimin və hansı hüquq və ya azadlıqlarının məhdudlaşdırıla biləcəyi;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyinin əsaslandırılması;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində hansı nəticələrin əldə edilməsinin güman edildiyi və həmin nəticənin hansı üsulla rəsmiləşdiriləcəyi;

– əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu;

– məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.

**Əməliyyat-axtarış orqanının vəsatətində qeyd olunan müddəalar əsaslandırılmaqla prokurora təqdim edilir. Prokuror öz növbəsində əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi haqqında materialları nəzərdən keçirməklə mü-**

**vafiq qərar qəbul edir, yəni vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarır, yaxud zəruriliyini təsdiq edən materialları vəsatətə əlavə edilməklə müvafiq qərarın qəbul edilməsi barədə məhkəməyə təqdimat göndərir. Məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.**

*Məhkəmə iclasında vəzifəli şəxs nəyə görə konkret qərarı qəbul etdiyini, nəyə görə bu və ya digər arqumentlərdən istifadə etdiyini (istifadə etmədiyini) izah etməlidir, yəni vəsatət vəzifəli şəxsin tutduğu mövqeyi əsaslandıran izahat və mülahizələri təsbit etməlidir. Qeyd edildiyi kimi, əsaslandırılmış vəsatəti ƏAO-nun rəhbərlərindən biri qəbul edir. Onların sırasına, bir qayda olaraq, orqanın rəhbəri və onun müavinləri daxil olur. Lakin hər bir nazirlikdə (idarədə) vətəndaşın konstitusion hüququnun məhdudlaşdırılmasına sanksiya almaq üçün məhkəməyə göndərilən vəsatəti təsdiqləmək səlahiyyətinə malik rəhbərlərin özünəməxsus, başqalarından fərqli siyahıları qəbul edilmişdir, buna görə də hakim zərurət yarandıqda müvafiq siyahını müəyyən edən idarə normativ aktı ilə tanış olmaq hüququna malikdir.*

**Hakimin ƏAT-nin keçirilməsi haqqında vəsatəti və təqdimatı alması hüquqi fakt olaraq, onun üçün təqdim olunmuş operativ-xidməti sənədlərə baxışa başlamaq vəzifəsini doğurur.**

F.Məmmədov və M.Mustafayev hesab edirlər ki, konstitusion hüquq və azadlıqların məhdudlaşdırılması ilə bağlı materiallara məhkəmə baxışı ədalət mühakiməsi hesab edilə bilməz, çünki onun həyata keçirilməsi üçün aşkarlıq, çəkişmə və s. prinsiplər nəzərdə tutulmur. Obyektiv olaraq məhkəmə işin bütün hallarını bilavasitə tədqiq etmək imkanına malik olmur. Bu fikirlə razılaşmaq olmaz. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsində qeyd edildiyi kimi məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəfərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Məhkəmə icrası qapalı aparılsa da, məhkəmədə tərəfər iştirak edir və ya etməlidir. Məhkəmə nəzarəti də əsasən ona görə lazımdır ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi təmin edilsin. "Məhkəmələr və hakimlər haqqında" Qanunun 12-ci maddəsində göstərilir ki, bütün hallarda məhkəmənin qərarları açıq elan edilir. Bu mülahizələr alimlər arasında fikir ayrılığına səbəb olur.

Əməliyyat-axtarış fəaliyyətinin strukturuna daxil olan vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə əlaqədar həyata keçirilən ƏAT Qanunun 10-cu

madtrialin IV hissəsində göstərildiyi kimi, hakimin qərarı olmadan da həyata keçirilə bilər. ƏAF-nin subyektləri hakimin qərarı olmadan şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər; həmçinin cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrum etmə yerlərindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurüulara və torpaq sahələrinə baxış keçirə bilərlər. Keçirilmiş ƏAT haqqında əməliyyat-axtarış fəaliyyətinin subyektləri 48 saat ərzində məhkəməyə əsaslandırılmış qərar təqdim etməlidirlər.

**Hüquq ədəbiyyatında təxirəsalınmaz tədbirlərin anlayışı dəqiq tədqiq edilmədiyi üçün məhkəmə və istintaq təcrübəsində, ƏAT-nin həyata keçirildiyi zamanı bir sıra qanun pozuntularına yol verilir.**

**İ.A.Kolokolov göstərir ki, təxirəsalınmaz tədbirlər anlayışı geniş anlayış olduğu üçün və belə hallarda yol verilmiş nöqsanları yalnız prokuror nəzarəti vasitəsilə müəyyən etmək lazımdır. Ona görə ki, belə hərəkətlərdən məhkəməyə şikayət etmək işlənilməmişdir. Bu fikirlə hesab edir ki, razılaşmaq olmaz. Mövcud cinayət mühakimə icraatına görə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlər məhkəmə nəzarətinin predmetinə daxildir. Məhkəmə ədalət mühakiməsini həyata keçirən yeganə orqan olsa da istintaq prokurorluq və ƏAO-nun fəaliyyəti məhkəmə qarşısında duran vəzifələrin yerinə yetirməsinə yaxından kömək etməlidir.**

Telefon danışıqlarına qulaq asılması təxirəsalınmaz hərəkət kimi məhkəmənin qərarı olmasını nəzərə alıb hesab edirik ki, burada müəyyən fikir mübadiləsinə ehtiyac vardır. Belə ki, məhkəmə təcrübəsindən göründüyü kimi, telefon danışıqlarına uzun müddət qulaq asılması nəzərdə tutulmuşdur.

Materiallara baxış yeri, ƏAT keçirilərkən vətəndaşların şəxsi həyat sirri barəsində konstitusiyada təsbit edilmiş hüquqlarının məhdudlaşdırılması haqqında materiallara baxış, bir qayda olaraq, belə tədbirlərin keçirildiyi yer üzrə, yaxud onların keçirilməsi haqqında vəsatət qaldırmış orqanın yerləşdiyi yer üzrə məhkəmə tərəfindən həyata keçirilir. Bu normativ göstərişdən üç qayda irəli gəlir:

1) daxil olmuş materiallara qanunverici, yaxud icraedici hakimiyyət orqanları deyil, məhkəmə (yəni qanunla müəyyən olunmuş qaydada cinayət, mülki və inzibati işlərə baxış və onların həlli formasında ədalət mühakiməsini həyata keçirən AR məhkəmə sisteminin müvafiq orqanı) tərəfindən baxılmalıdır;

2) vətəndaşın konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında vəsatətlə birlikdə materiallara, ümumi qaydaya görə, birinci instansiya məhkəmələri (yəni rayon məhkəmələri və onlara bərabər tutulan məhkəmələr) tərəfindən baxılmalıdır;

3) ƏAO-nun rəhbəri ƏAT keçirilməsinə vəsatət üçün birinci növbədə konkret ƏAT-nin həyata keçirildiyi yer üzrə məhkəməyə müraciət etməlidir.

**N.A.Kolokolov göstərir ki, vətəndaşların konstitusion hüquqları ilə əlaqədar ƏAT-nin keçirilməsinə məhkəmə qərarının alınması Rusiyanın bütün ərazisində mümkündür. Belə ki, ƏAF-ni həyata keçirən orqan və onun bölmələri ölkənin bütün ərazisində fəaliyyət göstərir.**

Qərar qəbul edən subyekt (materiallara baxan vəzifəli şəxs). Azərbaycan Respublikası CPM-in 442.3 maddəsinə görə vəsatət, təqdimat və şikayətlərə məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəmənin hakimi tərəfindən təkbaşına baxılır. Bununla birlikdə, hakim daxil olmuş operativ-xidməti sənədlərə baxılması üzrə konkret səlahiyyətləri, bir qayda olaraq, müvafiq məhkəmənin sədrindən alır. Materiallara növbətçi hakim tərəfindən baxılması variantı da istisna olunmur.

Hakim ƏAO-nu vəsatətinə və prokurorun təqdimatına mahiyyəti üzrə baxaraq hüquqi əhəmiyyətli qərar qəbul etmək vəzifəsinə və hüququna malikdir. Onun razılığı ilə operativ-xidməti sənədlərin öyrənilməsində ƏAT-nin keçirilməsi haqqında vəsatət qaldırmış ƏAO-nun nümayəndəsi iştirak edərək zəruri izahatlar verə bilər.

***Materiallara baxış müddəti, Azərbaycan Respublikası CPM-in 447.2 maddəsində qeyd edilir ki, ƏAT həyata keçirməsinə dair müraciətlərə dair məhkəməyə daxil olduqdan sonra 24 saat müddətinə baxılır. F.Məmmədov və M.Mustafayev göstərirlər ki, məhkəməyə materiallar daxil olduqdan sonra dərhal baxılmalıdır. Rusiya Federasiyasının "ƏAF haqqında" Qanunda da materiallara dərhal baxlması göstərilmişdir. Materiallara hakim tərəfindən dərhal baxılması o deməkdir ki, ƏAO-nun vəzifəli şəxsi, prokuror dərhal təxirə salınmadan hakim tərəfindən qəbul edilməli, hakim ƏAT-nin keçirilməsinə dair operativ-xidməti materialları qəbul etməli və onlara baxmalıdır. Hesab edirik ki, qanunda 24 saat müddət göstərilməsi məqsədə müvafiq olmaqla zəruridir.***

**Materiallara baxışın gedişi, Azərbaycan Respublikası CPM-in 447.7 maddəsində qeyd edilir ki, ƏAT-nin həyata keçirməsinə dair məsələlər üzrə məhkəmə icrası aşağıdakı ardıcıllıqla aparılır:**

– hakim məhkəmə iclasını açır, hansı müraciətə baxılmasını elan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır, onlara hüquq və vəzifələrini izah edir;

– vəsatət vermiş şəxs öz vəsatətini şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

– ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz yekun sözündə məhkəməyə vəsatətin təmin və ya rədd edilməsini təklif edir, bu zaman prokuror özünün məhkəməyə göndərdiyi təqdimatdan imtina etmək hüququna malikdir.

Qeyd olunduğu kimi məhkəmə iclasında ilk növbədə prokuror və ƏAO-nun rəhbərinin hakimə daxil olmuş qərarının əsaslılığının öyrənilməsindən ibarətdir. Bununla birlikdə, "ƏAF haqqında" Qanuna və CPM-nə görə hakimin tələbi üzrə ona ƏAT keçirilməsinin əsaslarına aid digər materiallar da təqdim oluna bilər (siyahısı müəyyən olunmuş məlumatlar istisna olmaqla).

**Materiallara baxış yekunları.** Azərbaycan Respublikası CPM-in 448.1 maddəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim müvafiq ƏAT-nin keçirilməsinə icazə verir və ya onun keçirilməsindən imtina edir, bu barədə əsaslandırılmış qərar qəbul edir. Özü də möhürlə təsdiqlənmiş qərar ƏAT-nin keçirilməsinin təşəbbüsünə verilərək, eyni zamanda, təqdim olunmuş materiallar da qaytarılır.

Beləliklə, istənilən qərarı qəbul etdikdə hakim əsaslandırılmış qərardad çıxarmalıdır. Məsələn, onun təqdim olunmuş qərarın operativ bölməsində (istər icazə verən, istərsə də qadağan edən) dərkənar qoymaqla kifayətlənmək hüququ yoxdur.

**Hakimin qərarında aşağıdakılar göstərilməlidir:**

– qərarın tərtib edildiyi tarix və yer;

– hakimin soyadı, adı, atasının adı və vəzifəsi;

– vəsatət vermiş şəxsin və prokurorun soyadları, adları, atalarının adları və vəzifələri;

– qərarın mahiyyəti (müvafiq ƏAO orqanı hansı konkret ƏAT-nin keçirilməsinə icazə verməyi xahiş edir; hansı materiallar təqdim olunub; onların əsasında "ƏAF haqqında" Qanunun müvafiq maddələri ilə nəzərdə tutulmuş şərtlərin mövcudluğu nəticəsinə gəlmək olarmı və s.);

– qərarın qüvvədə olma müddəti;

– qərarın icra edilməsi, həvalə edilən vəzifəli şəxs və orqan.

Məhkəmə tərəfindən bu məsələlərə diqqət yetirilməsini zəruri hesab edirik:

Rusiya Federasiyası “ƏAF haqqında” Qanun tələb edir ki, qərarın əsli və ƏAO-dan alınmış operativ-xidməti sənədlər istisnasız olaraq qaytarılmalıdır. Zərurət yarandıqda qərarın surətləri çıxarıla bilər (onların sayı faktiki tələbatla müəyyən olunur), həmin surətlər məxfi kargüzarlıq qaydaları əsasında qeydiyyata götürülür və saxlanılır.

Hesab edirik ki, bu fikirlə tam razılaşmaq olmaz. Məhkəmədə baxılan bütün işlərin əsilləri məhkəmədə saxlandığı üçün, bu kateqoriya üzrə çıxarılmış məhkəmə qərarları məhkəmənin arxivində qalmalıdır.

Qərar mütləq qaydada möhürlə təsdiqlənməlidir, yəni onun mətninin üzərində (bir qayda olaraq, hakimin imza etdiyi yerdə) hakim ƏAT-nin keçirilməsinə sanksiya vermiş məhkəmənin gerbli möhürünün aydın görünən ottiski qoyulmalıdır.

**Təqdim olunmuş materialların mahiyyət üzrə qərarın** *(qərarın adı)*-**qüvvədə olma müddəti,** “ƏAF haqqında” Qanunun 14-cü maddəsinə görə, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti sutka ilə onun qəbul edildiyi gündən etibarən hesabla-nır və qərarın özündə başqa hal nəzərdə tutulmadıqda, altı aydan artıq ola bilməz. Bu zaman müddətin gedişi dayandırılmır.

Hakimin çıxardığı qərarın qüvvədə olduğu müddət dedikdə “ƏAF haqqında” Qanuna görə əməliyyat bölməsinin vətəndaşın konstitusion hüququnu məhdudlaşdıran konkret ƏAT-ı həyata keçirmək səlahiyyətinə malik olduğu müddət başa düşülür. Belə müddətin həm sutka ilə, həm də ayla hesablanması nəzərdə tutulmuşdur.

Hakimin çıxardığı qərarın qüvvədə olma müddəti, ilk növbədə, onun qəbul edildiyi gündən etibarən sutka ilə hesablanır. Bu halda hakimin qərarı çıxardığı saat və gün hesaba alınmır. Qərarın qüvvədə olma müddəti sonuncu günün gecə saat 12-də başa çatır.

ƏAT-nin icrası müddətinin gedişi nə onun keçirilməsinin təşkilindən, nə də cinayət işi üzrə cinayət-prosessual icraatdan asılı deyildir. Bu, o deməkdir ki, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti icazə verilmiş ƏAT-nin təxirə salınması, dayandırılması, yaxud onun həyata keçirilməsinə xitam verilməsi və ya cinayət işi üzrə icraat müddətinin başa çatması (cinayət hadisəsi, yaxud tərkibi olmadığına görə işə xitam verilməsi istisna olmaqla) ilə əlaqədar kəsilə (dayandırıla, uzadıla) bilməz.

Bundan başqa, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti qərarın özündə başqa hal nəzərdə tutulmadıqda, altı aydan artıq ola bilməz. Bu halda müddət ayın istənilən günündə, ayın müvafiq günü olmadıqda isə həmin ayın sonuncu günündə başa çatır.

Qanunverici qərarın özündə müvafiq göstərişin bilavasitə göstərilməsi şərtilə müddətin altı aydan artıq uzadılmasına yol verir. Bir qayda olaraq, vətəndaşın konstitusion hüququnun adi müddətdən daha artıq müddətə məhdudlaşdırılması davamlı cinayətlər araşdırıldıqda, həmçinin konkret əməliyyat-axtarış vəziyyəti üçün xarakterik olan digər hallar nəzərə alınmaqla baş verir. Özü də bu halda hakimin çıxardığı qərarın qüvvədə olma müddətinin son həddi "ƏAF haqqında" Qanunda müəyyən olunmamışdır.

**Təqdim olunmuş materialların mahiyyəti üzrə qərarın** *(qərardadın)* **qüvvədə olma müddətinin uzadılması qaydası.** Azərbaycan Respublikası CPM-in 448.8 maddəsinə görə, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair vəsatətin rədd edilməsi barədə hakim tərəfindən qərar çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir. Hesab edirik ki, qərarın qüvvədə olma müddətinin uzadılması zərurəti yarandıqda hakim yeni təqdim olunmuş materiallar əsasında məhkəmə qərarı çıxarılmalıdır. Belə materiallar dedikdə, ilk növbədə, müəyyən müddət ərzində ƏAT-nin davam etdirilməsinin zəruriliyi haqqında əsaslı və əsaslandırılmış vəsatətin açıqlandığı qərar başa düşülməlidir. Qərarla yanaşı, hakimə qərarın qüvvədə olma müddətinin uzadılması tələbatının həqiqətən mövcud olduğunu təsdiqləyən operativ-xidməti sənədlərin təqdim edilməsi zəruridir. Ona keçirilən ƏAT nəticəsində əldə olunmuş faktiki informasiyanın göndərildiyi arayışda təqdim olunur.

Bundan başqa, hakimə mütləq qaydada əvvəl ona ünvanlanmış operativ-xidməti sənədlər (ƏAT-nin keçirilməsi haqqında qərar və s.) təqdim olunur.

## §2. Məhkəmə nəzarəti haqqında işlərə yenidən baxılması

Məhkəmə nəzarətinin həyata keçirilməsi haqqında işlərə baxılması qaydası Azərbaycan Respublikası CPM-in 452, 453-cü maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir. Barəsində qərar çıxarılmış fiziki şəxs, onun müdafiəçisi çıxarılmış qərarlardan şikayət, prokuror isə protest verə bilər. **Məhkəmə nəzarəti qaydasında olan işlər üzrə qərarlar şikayət və protest şəklində aşağıdakı qaydada verilir.**

1. Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından yuxarı səlahiyyətli orqana vəzifəli şəxsə və məhkəməyə şikayət və protest verilə bilər.

2. Məhkəmə nəzarətini həyata keçirən işlər üzrə qərardan verilən şikayət və prokurorun protesti həmin qərarı qəbul etmiş hakimə səlahiyyətli orqanın vəzifəli şəxsinə verilir. Hakim, səlahiyyətli orqan, vəzifəli şəxs qərarın çıxarıldığı gündən yaxud qərar təqdim edildiyi vaxtdan 3 gün müddətinə şikayəti və protesti iş üzrə bütün materiallarla birlikdə Apellyasiya məhkəməsinə, yaxud yuxarı səlahiyyətli orqana göndərir.

3. Azərbaycan Respublikası CPM-in 442.4 .1-də göstərilir ki, hakimin çıxardığı qərarlara, yəni əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hüquq və azadlıqları məhdudlaşdırılan şəxsin şikayəti üzrə; 442.4.2 maddəsində isə qeyd edilir ki, ibtidai araşdırmaya prosessual rəhbərliyi və ya əməliyyat-axtarış fəaliyyəti üzərində nəzarəti həyata keçirən prokurorun protesti üzrə Apellyasiya instansiya məhkəməsi işlərə yenidən baxa bilər.

4. Məhkəmə nəzarəti haqqında olan izlər üzrə qərardan verilən şikayətin və ya protestin baxılmasına hazırlıq zamanı hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən aşağıdakı məsələlər həll olunur:

a) məhkəmə nəzarəti haqqında olan iş həmin hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) aiddirmi;

b) məhkəmə nəzarəti haqqında olan işlər üzrə icraatı rədd edən hallar mövcuddurmu;

c) vəsatətlərə baxılıb, şikayətin və protestin baxılması üçün lazımi şəxslər çağırırlar;

ç) məhkəmə nəzarəti haqqında olan işlər üzrə verilmiş şikayət və protest Apellyasiya instansiya məhkəməsində cinayət və inzibati hüquqpozmalara dair işlər üzrə Məhkəmə Kollegiyasında baxılır. Azərbaycan Respublikası CPM-in 454-cü maddəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair məhkəmə qərarlarından, hakimin qərarından şikayət verilməsi və onun qanuniliyinin və əsaslılığının yoxlanılması Məcəllənin 452-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Hesab edirik ki, qanunvericiliyin bu tələbi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar çıxarılmış qərarlardan şikayət və protest verilməsi arasında müəyyən fərqlər olunmalıdır. Azərbaycan Respublikası CPM-in 452-ci maddəsin-

də göstərilir ki, qərar elan olunduqdan sonra 3 gün müddətində təqsirlənən şəxsin müdafiəsi, habelə zərərçəkmiş şəxsin qanuni nümayəndəsi tərəfindən isə şikayət və prokuror tərəfindən protest verilə bilər. Məhkəmə təcrübəsinə nəzər salsaq aydın olar ki, qanunvericiliyin bu tələbinin həyata keçirilməsi qeyri mümkündür. Məhkəmə nəzarəti haqqında işlər üzrə qərardan verilən şikayət və protest Apellyasiya instansiya məhkəməsində qapalı məhkəmə iclasında 3 hakimdən ibarət tərkibdə baxılır. Məhkəmə iclası başlananadək Apellyasiya məhkəməsi ona təqdim olunmuş bütün materialları əvvəlcədən öyrənir. **Burada şikayətin və protestin baxılması, kim tərəfindən verilməsi müəyyən edilməlidir. Azərbaycan Respublikası CPM-in 453.5.1-ci maddəsində göstərilir ki, hakimin qərarının qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:**

1. Məhkəmə iclasında sədrlik edən məhkəmə iclasını açır, hansı qərardan verilmiş hansı şikayətə və ya protestə baxdığını elan edir. Məhkəmə iclasının iştirakçılarının səlahiyyətlərini yoxlayır və onlara hüquq və vəzifələrini izah edir.

2. Şikayəti və protesti vermiş şəxs öz müraciətini şifahi əsaslandırır, hakimlərin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir.

3. Hakimlər məhkəmə iclasının iştirakçılarının fikirlərini dəqiqləşdirmək üçün zəruri olan suallar verir.

4. Şikayəti və protesti vermiş şəxslərin gəlmədiyi halda onun səbəbləri aydınlaşdırılır.

5. Şikayətin və protestin həmin şəxslərin iştirakı olmadan baxılması məsələsi həll edilir, yaxud işin baxılması təxirə salınır, zəruri hallarda şikayətin baxılması üçün zəruri hesab edilən sənədlərin və şəxslərin gətirilməsi barədə qərardad qəbul edilir.

6. Məhkəmə nəzarəti qaydasında işlər üzrə prokuror iştirak etdiyi hallarda prokurorun rəyi dinlənilir.

Hakimin qərarının qanuniliyinin və əsaslılığının yoxlanılması üzrə məhkəmə iclasının yekununda Apellyasiya instansiya məhkəməsi aşağıdakı qərarlardan birini qəbul edir:

1. Birinci instansiya məhkəməsinin qərarının dəyişdirilmədən saxlanılması barədə.

2. Qərarın dəyişdirilib yeni qərar qəbul edilməsi haqqında.

Qərarın dəyişdirilib yeni qərar qəbul edilməsi haqqında qanunvericilikdə konkret müddəa olmamasına baxmayaraq hesab edirik ki, belə bir qərar qəbul edilməlidir.

Bu fikir əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar qəbul edilmiş qərarlara alimlər və hüquq-mühafizə orqanı işçiləri arasında fikir mübadiləsi aparılmasını zəruri hesab etməklə qanunvericilik qarşısında məsələ qaldırılması məqsədəmüvafiqdir.

**Məhkəmə təcrübəsi göstərir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar çoxlu sayda qanun pozuntularının olmasına baxmayaraq, məhkəmələr tərəfindən xüsusi qərardadlar cüzi qaydada çıxarılır. Çıxarılmış xüsusi qərardadlar isə formal xarakter daşımaqla ciddi tədbirlər görülməyir. "ƏAF haqqında" Qanun 1999-cu ildəqəbul edilməsinə baxmayaraq, apardığımız müşahidələr göstərir ki, Azərbaycan Respublikasının Daxili İşlərNazirliyində, Milli Təhlükəsizlik Nazirliyində, Azərbaycan Respublikasının Ali Məhkəməsində və digər məhkəmələrdə ƏAT-lə əlaqədar ümumiləşdirmələr aparılmadığı üçün bu tədbirlərin aparılması ilə əlaqədar müəyyən materialların tətqiqatçılara (alimlərə) təqdim edilmədiyini nəzərə alıb, hesab edirik ki, məhkəmə nəzarətinin həyata keçirilməsi ilə əlaqədar yol verilmiş pozuntular gələcəkdə aradan qaldırılacaq, qanunlarda olan müəyyən boşluqlar elmi əsaslandırılmış təkliflər verilməklə öz həllini tapacaqdır.**

# XI BÖLMƏ

## Hüquq-mühafizə, o cümlədən daxili işlər orqalarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafının əsas istiqamətləri

**HMO, o cümlədən DİO-nun əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafı əsasən, bu sahədə mövcud olan problemlərin həllinə yönəlmiş və həyata keçirilən müasir elmi tədqiqatların nailiyyətlərinə əsaslanaraq müəyyən edilməlidir.**

ƏAF ilə bağlı nəzəriyyənin yaranma anından bu günə kimi baxdığımız elm sahəsində bir sıra vacib məsələ və suallar müxtəlif elmi kollektivlərdə əsas etibarı ilə fundamental səviyyədə tədqiq olunmuşdur. Elmi mənbələrə və həyata keçirilən tədqiqatların nəticələrinə uyğun olaraq, əməliyyat-axtarış fəaliyyətinin obyekti, predmeti, vasitələri, metod və formaları, ümumi və xüsusi taktikasının əsas müddəaları, agentur işinin ilkin başlanğıc əsasları, konkret növ cinayətlərin aşkar olunması, qarşısının alınması və açılması, gizlənmiş cinayətkarların axtarışının təşkili və taktikasının əsasları, habelə digər istiqamətləri müəyyən edilmişdir.

Qeyd olunanlar və bu sahədə mövcud olan problemlər hüquq elmləri namizədi və ya doktorluq elmi dərəcəsi almaq üçün tədqiqat aparan alimlərin dissertasiya işləri çərçivəsində araşdırılaraq təcrübədə sınaqdan keçirilmişdir. Belə ki, 2000-ci ilin yekununa görə, MDB-yə üzv olan dövlətlərdən təkcə Rusiyada 40-a yaxın doktorluq, 500-ə yaxın namizədlik işi hazırlanmış və müdafiə olunmuşdur. Bu işlərdən 100-ü daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyətinin ümumi nəzəriyyəsinə, 400-ü müxtəlif növ cinayətlərin qarşısının alınması və açılmasının təşkili və taktikası ilə bağlı mövzulara həsr edilmişdir. Təəssüfə qeyd etmək lazımdır ki, Azərbaycanda əməliyyat-axtarış fəaliyyəti sahəsində böyük və zəngin təcrübəyə malik olan insanların (DİN, DTX, XKX-nin və s. əməliyyat işçiləri), onların fəaliyyəti ilə bağlı elmi və praktiki cəhətdən əhəmiyyət kəsb edən empirik materialların olmasına baxmayaraq, bu sahədə elmi-tədqiqat işləri lazımi səviyyədə, mövcud olan obyektiv və subyektiv səbəblərdən təşkil edilməmişdir.

DİO-nun əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin yaranmasına və inkişafına xüsusi töhfələr, bu sahədə fundamental və geniş araşdırmalar aparmış tanınmış

alimlər A.Q.Lekar, D.V.Qrebelski, V.A.Lukaşov, VM.Atmajitov, V.Q.Bobrov, V.Q. Sumoylov və digərləri tərəfindən verilmişdir.

Əməliyyat-axtarış fəaliyyətinin müstəqil bir elmə çevrilməsində onların əməyi danılmazdır.

MDB-yə daxil olan ölkələrdə DİO-nun əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyə və təcrübəsi ilə bağlı müxtəlif aktual məsələlərə həsr edilmiş kifayət qədər elmi işlərin olmasına baxmayaraq, bu fəaliyyətlə bağlı xeyli tədqiq olunmamış sahələr qalmaqdadır və gələcəkdə tədqiq olunmasına ehtiyac duyulur. Bu sahələrdə daha dərin və geniş tədqiqatların həyata keçirilməsi zərurəti son illərdə cəmiyyətin sosial-iqtisadi həyatının tələblərindən, cinayətkarlığın dinamikasında olan davamlı yüksəlişdən, cinayətlərin strukturunda baş verən neqativ, kəskin kəmiyyət və keyfiyyət dəyişikliklərindən, transmilli cinayətkarlığın geniş yayılma ehtimalından, əməliyyat-axtarış fəaliyyətini tənzimləyən Azərbaycan Respublikasının ƏAF qanunvericiliyində (normativ-hüquqi aktlarında) mövcud olan problemlərdən, bu fəaliyyətlə bağlı nəzəriyyənin və təcrübənin müasir vəziyyətindən, həmçinin digər amillərdən irəli gəlir.

***Müasir dövrdə DİO-nun əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafının əsas istiqamətləri, tanınmış rus alimləri V.Q.Bobrov, V.M.Almajitov və s. tərəfindən aparılan elmi araşdırmaların nəticəsinə görə aşağıdakılardan ibarətdir:***

***1. HMO-in, o cümlədən DİO-nun (polis orqanlarının) əməliyyat-axtarış fəaliyyətinin mahiyyəti və məzmununun müəyyən edilməsi problemi.***

«DİO-nun əməliyyat-axtarış fəaliyyəti» terminınə iki cəhətdən yanaşmaq olar:

- birincisi, DİO-nun təcrübi fəaliyyəti kimi;
- ikincisi, bu fəaliyyətin nəzəriyyəsi kimi.

Bu baxımdan qeyd olunan fəaliyyətin birinci aspektdə mahiyyət və məzmununun müəyyən edilməsi ilə əlaqədar olan məsələlərin nəzəri cəhətdən tədqiq olunması diqqət tələb edir.

DİO-nun əməliyyat-axtarış fəaliyyətinin məzmunu son illərdə ənənəvi olaraq, elmi mənbələrdə cinayətkarlığa qarşı mübarizə məqsədilə xüsusi səlahiyyət verilmiş subyektlər tərəfindən əsas etibarı ilə qeyri-aşkar formada, xüsusilə məxfi qüvvə, vasitə və metodların tətbiq edilməsi ilə həyata keçirilən tədbirlər sistemi kimi öz əksini tapır.

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «ƏAF haqqında» Qanununun 1-ci hissəsində ilk dəfə olaraq bu fəaliyyətin anlayışı əks etdirilmişdir. Hə-

min anlayışın məzmunu xüsusi səlahiyyətli subyektlər tərəfindən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi mahiyyəti daşıyır və bu fəaliyyətin əsaslandırılmış elmi-nəzəri və real təcrübi aspektlərini nəzərə almır.

Qanunverici tərəfindən əməliyyat-axtarış fəaliyyətinin anlayışının bu formada müəyyən edilməsi, fikrimizcə, tam deyil və onun dəqiqləşdirilməsi tələb olunur. Belə ki, o, bu fəaliyyətin məzmununu qismən əhatə edir və əsas tərkib elementlərini özündə ehtiva etmir. Qanunda anlayışın bu cür müəyyənləşdirilməsi, xüsusilə də əməliyyat-axtarış tədbirlərinə aid olmayan, lakin həmin fəaliyyətin məzmunu ilə əhatə olunan hərəkətləri özündə əks etdirmir[1].

Onu da qeyd etmək lazımdır ki, hələ 1970-ci ilin ortalarında professor V.A.Lukaşovun (RF) bir sıra elmi işlərində DİO-nun əməliyyat-axtarış fəaliyyətinin məzmununa təşkilati-idarəçilik, həmçinin təşkilati-taktiki xarakterli tədbirlərin əsasları aid edilmişdir (əməliyyat şəraitinin analizi və qiymətləndirilməsi, planlaşdırma, qarşılıqlı əlaqənin təşkili və s.). Təəssüfər olsun ki, bu əsaslar sonradan ƏAF nəzəriyyəsində və idarədaxili normativ aktlarda lazımi dərəcədə nəzərə alınmamışdır.

***Bütün bu qeyd olunanlardan irəli gələrək, DİO-nun əməliyyat-axtarış fəaliyyətinin mahiyyətini və məzmununu açan xarakterik xüsusiyyətlərin müəyyən edilməsi zərurəti yaranır.***

***Bizim fikrimizcə, bu xüsusiyyətlərin əsaslarına aşağıdakıları aid etmək olar:***[2]

- DİO-nun əməliyyat-axtarış fəaliyyətinin sosial şərtləndirilməsi və dövlət-hüquqi xarakteri;
- bu fəaliyyəti əhatə edən müstəqil elm sahəsinin mövcudluğu və onun inkişafının zəruriliyi;
- onun vəzifələrinin özünəməxsus xüsusiyyətləri;
- əməliyyat-axtarış fəaliyyətinin müəyyən olunmuş ümumi prinsipləri ilə yanaşı, spesifik prinsiplərə əsasən həyata keçirilməsi;
- artıq bu fəaliyyət sahəsinin əsasını təşkil edən xüsusi hüquq sahəsinin formalaşdırılması və inkişafı perspektivləri;
- bu fəaliyyətin normativ-hüquqi nizamlanması;

1 Ş.İ.Hüseynov. "Əməliyyat-axtarış fəaliyyətinin anlayışı və onun strukturu ilə bağlı bəzi məsələlər "AMEA, Fəlsəfə və SHTİ, elmi əsərlər, №2 (4). B. 2007.
2 Bu qeyd edilənlər V.M.Almajitov, V.Q.Bobrovun (RF-nin professorları) elmi işlərindəki qeydlərindən qismən fərqlənir. Bölmədə qeyd edilənlər bu və ya digər dərəcədə (subyektlərin funksiyaları, səahiyyətləri və s. nəzərə alınmaqla) ƏAF-nin digər subyektlərinə də aid edilə bilər.

- DİO-nun əməliyyat-axtarış fəaliyyətinin əməliyyat-axtarış tədbirləri vasitəsilə həyata keçirilməsi;
- əməliyyat axtarış fəaliyyətinin vəzifələrinin, təşkilati-idarəçilik, təşkilati-faktiki formalardan, xüsusi əməliyyat-axtarış vasitə və metodlarından istifadə etməklə həll edilməsi;
- DİO-nun əməliyyat axtarış fəaliyyətinin xüsusi səlahiyyətli, habelə digər subyektlər vasitəsilə həyata keçirilməsi;
- bu fəaliyyətin təşkilati sistem xarakterli olması;
- onun özünə məxsus taktikasının olması;
- DİO-nun əməliyyat axtarış fəaliyyətinin maddi-texniki və xüsusi maliyyə təminatı;
- bu fəaliyyətə qanunvericiliklə müəyyən olunmuş müxtəlif növ nəzarətin həyata keçirilmə mexanizmləri.
- ƏAF-ni həyata keçirən orqanların, həmçinin onlarla əməkdaşlıq edən şəxslərin sosial-hüquqi müdafiəsi və s.

DİO-nun əməliyyat axtarış fəaliyyətinin nəzəriyyəsinin sonrakı inkişafı, bizim fikrimizcə, bu fəaliyyətin qeyd etdiyimiz xarakterik xüsusiyyətlərinin elmi tədqiq olunması ilə çox bağlıdır. Bunlara aid edilən ayrı-ayrı problem xarakterli məsələlərə biz aşağıda baxacağıq. Ancaq bununla da gələcəkdə elmi axtarış və tədqiqat aparılması tələb olunan problemlər bitmir.

**2. DİO-nun əməliyyat-axtarış fəaliyyətinin metodoloji problemləri**

***DİO-nun əməliyyat-axtarış fəaliyyətinin metodologiyası ilə* bağlı məsələlər** XX əsrdə əsas etibarı ilə rus alimlərinin elmi-tədqiqat işlərində (A.İ.Alekseyev, V.Q. Lekar, D.V.Qrebelski, V.A.Lukaşov, V.Q.Samoylov, A.Q.Markuşin, A.Y.Şumilov və digərləri) öz əksini tapmışdır. Göstərilən problemin tədqiqatına V.İ.Yelinskinin doktorluq dissertasiyası həsr olunmuşdur (1999-cu il)

***Eyni* zamanda, əməliyyat *axtarış-fəaliyyətinin nəzəriyyəsi ilə bağlı metodoloji məsələlərin böyük əksəriyyətinin gələcəkdə əsaslı tədqiqat işilə öyrənilməsinə ehtiyac vardır.*** Bunlara əsasən, əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin obyektini, prinsiplərini, metodlarını və s. aid etmək olar. Tədqiqatçılar arasında bu məsələdə yekdil fikir yoxdur. Ancaq bu, o demək deyildir ki, fikir müxtəlifiyi problemin bütün tərəfərini əhatə edir. Əksinə, DİO-nun əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyəsi

sahəsində mütəxəssislər tərəfindən yekdilliklə qəbul edilmiş bir sıra ümumi əsaslar vardır. Bu səbəbdən də bir sıra mübahisəli anlara diqqət yetirməyi vacib sayırıq.

Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin obyektinə bir sıra müəllifər tərəfindən diqqət yetirilmişdir (A.İ.Alekseyev, D.V.Qrebelskı, V.l. Yelinski və s.). Onların arasında fikir ayrılıqlarının olmasına baxmayaraq, bu tədqiqatçıların əksəriyyəti ənənəvi olaraq buna cinayətkarlığı, ictimai təcrübəni, əməliyyat-axtarış fəaliyyətini və onun hüquqi nizamlanmasını aid edirlər.

Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin obyektinin müəyyən edilməsinə bu cür yanaşmanın tam düzgünlüyünü etiraf etməklə yanaşı, onu da qeyd etmək lazımdır ki, cinayətkarlığın müasir vəziyyəti, onunla mübarizədə əməliyyat-axtarış təcrübəsi və qüvvədə olan qanunvericiliyin dəqiqləşdirilməsi, bu fəaliyyətin digər elmlərlə müştərək olduğu qarışıq elm sahələrinin (əməliyyat-axtarış psixologiyası və kriminalogiyası, cinayət və əməliyyat-axtarış proseslərinin qarşılıqlı münasibəti) sürətlə inkişaf etdirilməsinə olan ehtiyacın mövcudluğunu şərtləndirir. ***Bizim fikrimizcə, qeyd olunan nəzəriyyənin obyektinə göstərilən «element»lərdən əlavə, həmçinin aşağıda göstərilənlər də aiddir:***

- bu nəzəriyyənin fərdi-metodoloji problemi (onun obyekt və predmetinin məzmunu, nəzəriyyə terminologiyası, dili və s.);
- DİO-nun qarşısında həll edilməsi bilavasitə bir vəzifə kimi qoyulmayan, kriminal xarakter daşımayan hüquq pozuntusu (inzibati, mülki-hüquqi və s.);
- böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərlə bağlı əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin hüquqi, təşkilati və taktiki tərəfəri;
- bilavasitə və ya dolayısı ilə əməliyyat-axtarış tədbirləri keçirməklə öyrənilməli olan kriminal xarakter daşımayan hüquqpozmalar (inzibati xətalar, mülki hüquqpozmalar və s.)

Onların araşdırılıb öyrənilməsi HMO, o cümlədən daxili işlər orqanları (polis) qarşısında cinayətkarlığa qarşı mübarizə ilə bağlı mühüm məsələlərin həllinə kömək edəcəkdir (məsələn, ağır, xüsusilə ağır, terrorizmə, korrupsiyaya qarşı mübarizədə);

- qüvvədə olan normativ aktların tələblərinə uyğun olaraq, onların əməliyyat-axtarış tədbirləri tətbiq etməklə yoxlanılması tələb olunan hüquqazidd xarakterli olmayan faktlar və hallar (kriminal xarakteri daşımayan itkin düşmüş şəxslərin axtarışı, şəxsiyyəti müəyyən olunmamış meyitlərin, xəstələrin, özü haqda məlumat verə bilməyən şəxslərin, uşaqların şəxsiyyətinin müəyyən edilməsi, dövlət sirlərini təşkil

edən məlumatlara və işlərə buraxılış, fərdi detektiv və mühafizə fəaliyyətinə icazənin verilməsi və s.);

- iqtisadiyyat və sosial həyat sahələrində mövcud olan, həmçinin hüquqazidd xarakterli olmayan, lakin qanunvericilikdə mövcud olan hüquqi boşluqlara və təşkilati idarəçilik fəaliyyətində olan qarışıqlığa görə cinayətkar məqsədlərlə istifadə olunması ehtimal olunan (gizli auksionlar, özəlləşdirmələr, idman yarışları, kommersiya strukturlarının yaradılması və s.) və onların əməliyyat imkanlarından istifadə etməklə aşkar olunub-yoxlanılması tələb olunan faktlar və hallar;
- müxtəlif elm sahələrinin (xüsusilə də pedaqogika, psixologiya və s.) nailiyyətlərinin DİO-nun əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyə və təcrübəsində tətbiq olunması məsələləri (həmçinin, tarix, fəlsəfə, məntiq, psixologiya, sosiologiya, hüquq, informasiya texnologiyaları və idarəetmə elmləri və s.).
- yuxarıda qeyd edilən və digər elmlərin ƏAF elminə inteqrasiyası ilə bağlı qovuşuq elm sahələrinin formalaşdırılması və cinayətkarlığa qarşı mübarizədə tətbiqi.

Nəzərə almaq lazımdır ki, hüququn xüsusi əməliyyat-axtarış hüququ sahəsinin formalaşması, ƏAF qanunvericiliyinin təkmilləşdirilməsi, yeni elmi-təcrübi tədqiqatların nəticələri və s. aspektlər DİO-nun əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin predmetinin dəqiqləşdirilməsinə ehtiyac olmasını əsaslandırmağa imkan verir. Bizim fikrimizcə, ənənəvi ona aid edilən qanunauyğunluqlardan başqa (cinayət əməlləri haqqında əməliyyat-axtarış informasiyasının aşkar olması, əldə edilməsi, yoxlanılması, qeyd olunması və istifadə edilməsi qanunauyğunluğu, DİO-nun əməliyyat-axtarış fəaliyyətinin hüquqi nizama salınması qanunauyğunluğu, onun təşkili və s.), bu predmetə, həmçinin yuxarıda qeyd olunan obyektlərin müxtəlif tərəfəri haqda olan qanunauyğunluqlar da daxil edilməlidir.

Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsində xüsusi yerlərdən birini bu nəzəriyyənin prinsip və metodu tutur. Xüsusi ədəbiyyatlarda qeyd edilən məsələlərə diqqət yetirilməsinə baxmayaraq bu sahədə də tədqiqatların aparılmasına ehtiyac vardır.

3. ***DİO-nun əməliyyat-axtarış fəaliyyətinin hüquqi problemləri***

Əməliyyat-axtarış fəaliyyətinin hüquqi nizama salınması məsələsi bu sahədə tədqiqatla məşğul olan mütəxəssislərin diqqətini çoxdan cəlb etmişdir.

1999-cu ilə kimi bu sahədəki münasibətlərin normativ hüquqi aktlar (təşkilati və idarə səciyyəli normativ) nizama salırdı və onların məzmunu, qismən də olsa,

təşkilati xarakter (maraq) daşıyırdı. O dövrdə qüvvədə olan normativ hüquqi aktlarda (CPM, fərman və s.) ayrı-ayrı normalar təsbit edilirdi ki, onlar ancaq çox məhdud sayda əməliyyat-axtarış tədbirlərinin tətbiq olunmasının, demək olar ki, tam həcmdə olmayan ümumi əsaslarını müəyyən edirdi, lakin bu tədbirlərin həyata keçirilməsi qaydalarının zahirən əhəmiyyət kəsb etməyən kimi hesab edilən məsələlərini (təcrübədə mühüm sayılan və problemlər yaradan) tənzimləmirdi.

Son illər, xüsusilə də, SSRİ dağıldıqdan və ona daxil olan ölkələrin müstəqillik qazanmasından sonra, dövlət quruculuğunda aşkarlıq, demokratik prinsiplərin, insan hüquq və azadlıqlarının təminatında beynəlxalq hüquq normalarının rəhbər tutulması zəruriliyi əməliyyat-axtarış fəaliyyətinin hüquqi nizamasalınmasında köklü dəyişikliklərin həyata keçirilməsinə təkan verdi.

XX əsrin sonlarında Azərbaycanda hüquqi dövlətin yaradılması ilə bağlı dövlət proqramları əsasında həyata keçirilən islahatlara müvafiq olaraq digər sahələrdə olduğu kimi, əməliyyat-axtarış fəaliyyətinin qanunla nizamlanması da xüsusi əhəmiyyət kəsb edirdi və aktual idi. 1990-cı ilə qədər bu fəaliyyətə baxış, demək olar ki, çox bəsit səviyyədə idi. Cinayətkarlığa qarşı mübarizədə bu fəaliyyət əsasən məxfi (qapalı) idarə daxili normativ-hüquqi aktlar çərçivəsində konfidensial qaydada həyata keçirildiyi üçün əsasən dövlət nəzarətindən kənar qalırdı və nəticədə insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına tez-tez rast gəlmək olurdu. Respublikamız müstəqillik qazandıqdan sonra hüquqi dövlət quruculuğunda əsas insan və vətəndaş hüquq və azadlıqları ön plana çəkildiyindən, bu fəaliyyətin qanunla tənzimlənməsinə zərurət yarandı. Məhz qeyd edilənləri rəhbər tutaraq respublikamızda **Ölkəmizin Ümummilli Lideri H.Ə.Əliyevin təşəbbüsü ilə** *1999 cu ilin oktyabr ayının 28-də «ƏAF haqqında» Qanun qəbul edildi.*

Əməliyyat-axtarış fəaliyyətini tənzimləyən bu və digər qanunlar, eyni zamanda, onun hüquqi tənzimlənməsi sahəsində elmi tədqiqatların aparılmasının bir çox istiqamətlərinin müəyyən edilməsinə zəmin yaratdı. Son dövrlərdə əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsaslarına dair çoxlu sayda elmi məqalələr, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və s. buraxılmışdır (əsasən, aşkar materiallarda). Bundan başqa, bu mövzu üzrə iki doktorluq dissertasiyası müdafiə olunmuşdur (N.V.Surkov, A.Y.Şumilov).

Bütün bunlara baxmayaraq, qeyd etmək lazımdır ki, əməliyyat-axtarış fəaliyyətinin müasir hüquqi tənzimlənməsi günün tələblərinə tam cavab vermir və tək-

milləşdirilməsinə ehtiyac var. Bu məsələnin tam həll edilməsi problemin müxtəlif aspektlərinin elmi tədqiqinin nəticəsinə əsaslanmaqla və təcrübənin tələbləri nəzərə alınmaqla mümkündür. O, çoxşaxəlidir. Onun ayrı-ayrı konseptual xarakter daşıyan sahələrini nəzərdən keçirək.

Əsas tədqiq olunmalı prinsipial xarakter daşıyan məsələlərdən biri əməliyyat-axtarış hüququnun formalaşması ilə bağlı tədqiqat prosesidir. **Bu hüquq barədə ilk fikri hələ 1970-ci illərdə A.İ.Alekseyev və Q.K.Sinilov söyləmişdir. XX əsrin sonlarında A.A.Çuvilyov qəti olaraq belə fikir söyləmişdir ki, artıq hüquqda yeni bir sahə - «Əməliyyat-axtarış hüququ» meydana gəlib. Bu gün qeyd edilən hüquq sahəsi ilə bağlı fənn MDB-yə daxil olan bir sıra ölkələrin ali məktəblərində tədris olunur.**

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyətinin göstərilən istiqamətdə tədqiq olunması gələcək hüquqi nizamasalınmanın müəyyənləşdirilməsi üçün ilk növbədə bu fəaliyyətin müasir hüquqi əsaslarının dərindən və hərtərəfi analiz edilməsinə ehtiyac olduğunu göstərir. İlk növbədə, bu problem əməliyyat-axtarış fəaliyyətinin qanunvericiliyinə aiddir. Son illər ölkəmizdə bu sahədə elmi baxımdan əhəmiyyətli olan bir sıra araşdırmalar həyata keçirilmişdir.[1]

**«ƏAF haqqında» Qanunun vacibliyindən danışmağa, fikrimizcə, ehtiyac yoxdur.** *Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, bu qanunda müəyyən qüsurlar (ƏAF-da olan münasibətlər tam həcmdə aydınlıq gətirilməyib, bir çox ziddiyyətli məsələlər var, təcrübə ilə elmi nəzəri əsaslar arasında olan qeyri uyğunluq və s.)vardır.* **Onun ayrı-ayrı müddəalarında zəruri həcmdə hüquqi münasibətlərə aydınlıq gətirilməmişdir:** bir sıra kolliyazalar mövcuddur, bəzi normalarıının dəqiqləşdirilməsinə ehtiyac var və müxtəlif mənada başa düşülür (şərh edilir) və ya öz aralarında ziddiyyət təşkil edir, normaların tətbiqində ciddi problemlər yaranır, ümumilikdə qanun əməliyyat-axtarış fəaliyyəti prosesini, onun mərhələlərini məhdud həcmdə əhatə edir və s. Bu, həmçinin əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin, prinsiplərinin, əməliyyat-axtarış tədbirlərinin müəyyən edilməsində (onların siyahısının və məzmun tutumunun müəyyən edilməsində, keçirilməsinin səbəb və şərtlərində və s.), habelə, onların nəticələrinin sənədləşdirilməsi ve leqallaşdırılmasında, bu tədbirlərdə iştirak edən subyektlərin hüquq və vəzifələrinin, habelə onların sosial və hüquqi müdafiəsinin nizama salınmasında özünü biruzə verir.

1 Bax: kitaba əlavədə, tövsiyyə edilən ədəbiyyatların siyahısına

***«ƏAF haqqında» Qanunun və onun tətbiq olunma təcrübəsinin təhlili, təcrübəli HMO-nun, o cümlədən polis əməkdaşları ilə keçirilən sorğuların, həyata keçirilən tədqiqatların nəticələri göstərir ki, mahiyyət etibarilə bu qanunda bir sıra dəyişikliklərin edilməsi zəruridir. Bu məsələlərin həllinin ən optimal variantı qanunun yeni redaksiyada işlənib hazırlanmasıdır. Belə ki, bizim fikrimizcə, qanunda hər hansı kiçik dəyişikliyin edilməsi az əhəmiyyətlidir və mövcud olan problemlərin bütövlükdə həll edilməsini təmin edə bilməz.***

Eyni dərəcədə çatışmazlıqlar əməliyyat-axtarış fəaliyyəti sahəsində münasibətləri tənzimləyən digər normativ-hüquqi aktlarda da müəyyən olunmuşdur. Onların əksəriyyətində «ƏAF haqqında» Qanunun ayrı-ayrı normalarının reallaşdırılmasının dəqiq realizə mexanizmi müəyyən edilməyib (məsələn, əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, ƏAT-nin nəticələrinin cinayət prosesinə daxil edilmə və onların nəticəsindən cinayət prosesində istifadə edilmə qaydaları, prokuror nəzarətinin həyata keçirilməsi, əməliyyat-axtarış fəaliyyətinin keçirilməsi ilə bağlı vətəndaşların şikayətlərinə baxılması qaydaları və s.).

***Vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə bağlı əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətinin vacib institutlarından olan kriminogen obyektlərə daxiletmə, əməliyyat eksperimenti, nəzarətli göndəriş, hüquqi şəxsin yaradılması (müəssisə, idarə, təşkilat) kimi məsələlərin normativ-hüquqi tənzimlənməsinə ehtiyac duyulur.***

Zənnimizcə, hüquq-mühafizə orqanların və onların əməliyyat aparatlarının hüquqi statusunun da təkmilləşdirilməsinə ehtiyac var. Bütün qeyd edilənlər hüquq-mühafizə orqanlarının əməliyyat-axtarış fəaliyyətinin gələcək hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinin zəruriliyini əsaslandırır.

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyətinin normativ-hüquqi nizama salınması ilk növbədə bu fəaliyyət sahəsində yaranan hüquqi münasibətlərlə sıx bağlıdır. Bu məsələ uzun vaxtlardır ki, tədqiqatçıların diqqətini cəlb edir və mütəmadi olaraq onların elmi maraqlarının mərkəzində yer alır. Bu, təsadüfi deyildir. Hüquq münasibətlərində əsasən hüquqi təsir mexanizminin xüsusiyyətləri əks olunur. **Göstərilən bu sahədə hüquq münasibətlərinin yaranması probleminə A.İ.Alekseyev, İ.İ.Basetski, D.V.Qrebelski, A.Q.Lekar, V.A.Lukaşov və digər tədqiqatçılar öz elmi işlərini həsr etmişlər.**

**Problemin ayrı-ayrı aspektlərinə müəlliflər müxtəlif mövqedən yanaşırlar.**

***Bütün qeyd olunanlar problemin aktuallığını müəyyənləşdirir və həmin problemin gələcəkdə tədqiqat aparılmasına ehtiyac duyulan əsas istiqamətlərini müəyyən etməyə imkan verir.***

**Birincisi,** bu fəaliyyət sahəsində mövcud olan real faktiki münasibətin növünü müəyyən etmək lazımdır.

**İkincisi,** bu münasibətin hüquqi xarakter daşıması və hüququn hansı sahəsi ilə tənzimlənməsini müəyyən etmək vacibdir.

**Üçüncüsü,** hüquqla tənzimlənməyən faktiki münasibətlər müəyyən olunursa, elmi cəhətdən əsaslandırılmış tövsiyə işlənilib hazırlanmalıdır.

**4. Əməliyyat-axtarış fəaliyyətinin vasitələri problemi.**

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsində bu fəaliyyətin vasitələrinə ənənəvi olaraq əməliyyat uçotları, əməliyyat texnikası və axtarış itlərinə aid edilir.

Əməliyyat texnikası və onun cinayətkarlığa qarşı mübarizədə istifadə olunması ilə bağlı məsələlər çoxdan bir sıra müəlliflərin diqqətini cəlb etmişdir. Axtarış fəaliyyətində texniki vasitələrin tətbiq olunmasına həmişə cinayətlərin müvəffəqiyyətlə açılmasının, təqsirli şəxslərin axtarışının əsas bir vasitəsi kimi baxılmışdır. **Hələ XX əsrin əvvəllərində Rusiyanın ilk kriminalistlərindən biri olan V.İ.Lebedev yazırdı ki, müasir cinayətkarlıqla mübarizəni yalnız müasir texnika ilə silahlanmış və onun tətbiq olunmasını dərindən bilən polis apara bilər. Bu fəaliyyətin texnika ilə təmin edilməsinin zəruri olması barədə S.M.Potapov, P.S.Semenovski, İ.N.Yakimov və digər kriminalistlərin elmi işlərində qeyd olunmuşdur. Son dövrlərdə cinayətlərin açılması və istintaqının aparılmasının texniki vasitələrlə təmini haqda məsələlərlə bağlı elmi tədqiqat işləri ilə R.S.Belkin, A.İ.Vinberq, B.M.Gilver və digər kriminalistlər məşğul olmuşlar.**

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin inkişafı ilə əlaqədar olaraq, cinayətkarlığa qarşı mübarizədə əməliyyat texnikasının istifadə olunması probleminin tədqiqatı ilə təkcə kriminalistlər deyil, eyni zamanda, bu sahənin mütəxəssisləri də məşğul olmuşlar. Onlar tərəfindən aparılan elmi tədqiqatlar nəticəsində dərs vəsaitləri hazırlanmış, elmi məqalələr yazılaraq səmərəli nəticələr əldə olunmuşdur. Bütün bunlara baxmayaraq, bu sahədə də gələcəkdə tədqiqatların aparılmasına ehtiyac duyulur.

**Əməliyyat texnikası ilə müqayisədə cinayətkarlığa qarşı mübarizədə əməliyyat uçotları ilə bağlı məsələlər çox az tədqiq olunmuşdur. Hazırki problem haqda bir sıra elmi işlər çərçivəsində tədqiqatlar aparılmasına baxmayaraq (E.A.Andriyevski, V.N.Dudin, A.L.Novazov, A.P.Fyodorov və s.), bu sahədə öyrənilməsi tələb olunan aspektlər hələ də qalmaqdadır.**

*Onu-da-qeyd-etmək-lazımdır-ki,-əvvəllər-formalaşdırılmış-elmi-əsasların-müəyyən--hissəsi-köhnəlmişdir.-Onların-müasir-əməliyyat-axtarış-təcrübəsi-və-müxtəlif-elm-sahələrinin-müsbət-nəticələri-nəzərə-alınmaqla-dəqiqləşdirilməsinə-ehtiyac-vardır.*

Bizim fikrimizcə, əməliyyat uçotlarının HMO-nun, o cümlədən daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyətinin nəzəriyyə və təcrübəsinin bir institutu kimi əhəmiyyətini nəzərə alsaq, xüsusi nəzəri hissəsinin işlənib hazırlanmasının çoxdan vaxtı çatmışdır.

*Bu-hissənin-formalaşdırılması-zamanı-aşağıdakıları-dəqiq-müəyyən-etmək-lazımdır:*

- əməliyyat uçotunun HMO-nun, o cümlədən daxili işlər orqanlarının əməliyyat-axtarış və digər istiqamətdə informasiya təminatında yeri və rolu;
- əməliyyat uçotlarının normativ-hüquqi nizama salınması sahəsində tədbirlərin görülməsi;
- bu uçotun obyekti və subyektləri, onların müxtəlif hissələrdə təşkili və onlarda əhatə edilən məlumatların qarşılıqlı mübadilə qaydaları;
- əməliyyat uçotlarının nəqliyyatda polis orqanlarında təşkili və istifadə olunmasının xüsusiyyətləri;
- cinayətkarlığa qarşı mübarizədə əməliyyat uçotlarının istifadəsi ilə əlaqəli olan digər məsələlərin həlli yolları.

***Daha az tədqiq olunan problemli sahələrdən biri də hüquq-mühafizə orqanlarının əməliyyat-axtarış fəaliyyətinin vasitələrindən biri - axtarış itləridir.***

Hazırki problemlə bağlı nəşr olunmuş işlərdə, bir qayda olaraq, onun tətbiq olunmasına geniş yer verilir (cinayətkarın «isti izlərlə» təqib olunması, maddi sübut ola biləcək predmetlərin aşkar olunması; əməliyyat-axtarış tədbirləri və informasiya mənbəyinin şifrələnməsi və s.). Bundan başqa, son illərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə, silah, döyüş sursatı, partlayıcı maddələrin və meyitlərin aşkar edilməsi və s. sahələrdə axtarış itlərinin tətbiq olunmasında kifayət qədər təcrü-

bə əldə edilmişdir. Bu təcrübə də dərindən öyrənilməli və ümumiləşdirilərək, əməliyyat paratları üçün elmi cəhətdən əsaslandırılmış tövsiyyələr hazırlanmalıdır.

Xarici ölkələrin təcrübələri nəzərə alınmaqla, axtarış itlərinin cinayətlərin açılması və istintaqında tətbiq olunması məsələsinin daha geniş öyrənilməsini də vacib sayırıq.

5. **Əməliyyat-axtarış tədbirlərinin hüquqi nizamlanması.** Bu məsələdə olan problemlər və onların həlli yollarına dair tədqiqatlar Polis Akademiyası «DİO-nun ƏAF», DGK-nin "Humanitar və hüquqi fənlər" kafedralarının və digər xüsusi təhsil müəssisələrinin əməkdaşları tərəfindən aparılır və onun nəticələri yaxın vaxtda işıq üzü görəcəkdir.[1]

**6. Əməliyyat-axtarış taktikası problemi.**

*Əməliyyat-axtarış- taktikası- problemi- elmi- işçilərin- mütəmadi- diqqət- mərkəzindədir.- Onun- tədqiq- olunmasına- bu- fəaliyyət- sahəsində- tanınmış- rus- alimləri- A.M.Abramov,- A.İ.Alekseyev,- Q.P.Afonkina,- A.S.Vandışev,- A.X.Axalaya,- S.İ.Vinokurov,- B.P.Mixaylov,- V.Q.Samoylov,- Q.K.Sinilov,- N.M.Yaşkin- və- s.- öz- elmi- işlərini- həsr- etmişlər.- Bu,- təsadüfi- deyildir.- Belə- ki,- qeyd- olunan- taktika- konkret- əməliyyat- şəraitindən-asılı-olaraq,-yaradıcı-xarakter-daşıyır-və-cinayətkarlığa-qarşı-mübarizə- təcrübəsi-üçün-çox-böyük-əhəmiyyətə-malikdir.-Bu-istiqamətdə-də-elmi-təcrübi-səciyyəli--tövsiyyələrin-hazırlanması-mühüm-məsələlərdən-biridir.*

**Müasir cinayətkarlığın təhlili göstərir ki, bu sahədə böyük kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Bütün bunlar tələb edir ki, qeyd edilən dəyişikliklər nəzərə alınmaqla, elmi cəhətdən əsaslandırılmış müasir taktiki fənd, üsul və metodlar aşağıdakı istiqamətlərdə işlənib hazırlansın.**

- Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş CM-də nəzərdə tutulan yeni cinayətlərə - adam oğurluğu (mad. 144), terrorçuluğu maliyyələşdirmə (mad. 214.1), yetkinlik yaşına çatmayanın alqı-satqısı (mad. 173, qanunsuz sahibkarlıq (mad. 192), yalançı sahibkarlıq (mad. 193), xarici valyuta vəsaitlərini xaricdən qaytarma (mad. 208). qəsdən müfisləşmə (mad. 211), müfisləşmə (mad. 212) və s. mübarizə ilə bağlı müasir forma, metod və üsulların işlənməsi ilə bağlı tədqiqatların aparılması xüsusi əhəmiyyət kəsb edir;
- son dövrlər geniş yayılmış ağır və xüsusilə ağır cinayətlərə (sifarişli qətllər; silah və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər,adam oğurluğu, kiber cinayətlər və s.) qarşı mübarizə üzrə tövsiyyələrin hazırlanması;

1 Bax: kitaba əlavədə, tövsiyyə edilən ədəbiyyatların siyahısına bax

- HMO-ın ƏAF-nin vəzifələrinin həllində yeni texniki vasitələrdən istifadə olunması;

- vətəndaşların HMO (o cümlədən DİO) ilə əməkdaşlığının müxtəlif növlərindən istifadə olunmasının (aşkar, anonim, konfidensial və s.) müasir taktiki məsələlərin müəyyənləşdirilməsi ilə bağlı normativ aktların təkminləşdirilməsi;

Onu da xüsusilə qeyd etmək lazımdır ki, son illər elmi ədəbiyyatlarda əməliyyat-axtarış taktikası, «əməliyyat-axtarış metodikası» termini kimi ifadə edilir. Bizim fikrimizcə, əməliyyat-axtarış metodikasının əməliyyat-axtarış taktikasına münasibətdə mahiyyətini müəyyən etmək üçün ətrafı tədqiqat aparılmasına ehtiyac duyulur.

***7. HMO-ın əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunçuluğa, insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunması problemi.***

Bizim fikrimizcə, göstərilən istiqamətdə aparılan elmi tədqiqatların, habelə təcrübənin nəticələri HMO-ın ƏAF-nin həyata keçirilməsi zamanı qarşıda duran vəzifələrin müsbət həll edilməsi üçün qanunçuluğun, habelə insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında istifadə olunmalıdır.

**Bu sahə ilə bağlı məsələlərin araşdırılmasına A.İ.Yefremov, V.V.Sergeyev öz doktorluq dissertasiyalarını, A.E.Kazan namizədlik dissertasiyasını, habelə digər müəlliflər öz elmi işlərini həsr etmişlər.**

**Müasir reallığı nəzərə alaraq, bizim fikrimizcə, hazırki problemin gələcəkdə nəzəri tədqiqatının əsas istiqamətləri aşağıdakılardır:**

- HMO-ın ƏAF sahəsində qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarını təmin edən konsepsiyanın işlənib hazırlanması;

- HMO-ın ƏAF sahəsində qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarını təmin edən hüquqi tədbirlərin müəyyən edilməsi;

- HMO-ın ƏAF sahəsində qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasının sosial-psixoloji və etik əsaslarının hazırlanması;

- HMO-ın ƏAF sahəsində qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması sahəsində nəzarətin effektivliyini artıran tədbirlərin müəyyən edilməsi.

**8. Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin inkişafında müxtəlif elm sahələrinin biliklərindən istifadəsi problemi.**

**9. Müasir dövrdə ən əsas problemlərdən biri də ondan ibarətdir ki, HMO-nun əməliyyat-axtarış fəaliyyətinin vahid, ümumiləşdirilmiş, elmi əsaslandırıl-**

**mış nəzəriyyəsi işlənib hazırlanmamışdır və bu istiqamətdə elmi tədqiqatlar deməz olar ki, həyata keçirilmir**.

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsi boş yerdən yaranmamışdır. O, digər elm sahələrinə, ilk növbədə kriminalistika, cinayət hüququ elmlərinə əsasən formalaşmış və inkişaf etmişdir. Onların nailiyyətlərindən əməliyyat-axtarış nəzəriyyəsinə uyğun elmi əsaslandırılmış müddəaların hazırlanmasında istifadə olunur. Həmçinin əksinə, bu nəzəriyyə digər hüquq elmlərinin zənginləşməsinə öz müsbət təsirini göstərir.

Əlbəttə ki, HMO-nun, o cümlədən daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafında bu problemin nəzəri tədqiqatında təkcə qeyd olunan sahələrin deyil, həmçinin digər elm sahələrində olan biliklərdən və nailiyyətlərdən də istifadə olunmalıdır (tarix, fəlsəfə, məntiq, sosiologiya, psixologiya, kibernetika, informatika, digər elm sahələri). Müasir dövrdə peşəkar cinayətkarlığa, həmçinin cəmiyyət üçün çox təhlükəli olan terrorizm, korrupsiya və s. qarşı mübarizə məqsədilə zəruri olan qovuşuq elm sahələrindəki bilikləri əhatə edən əməliyyat-axtarış psixologiyası və kriminalogiyası və s. kimi elm sahələrinin inkişaf etdirilməsini vacib sayırıq.

***Sonda aşağıdakıları qeyd etməyi zəruri hesab edirik.***

**Birincisi**, bizim fikrimizcə, bu dərslikdə HMO-ın, o cümlədən DİN-in əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafının əsas vacib istiqamətlərinin, problemlərinin bəziləri əhatə edilmiş və qısaca baxılmışdır. Onu da qeyd etmək lazımdır ki, bir mövzu çərçivəsində əməliyyat-axtarış fəaliyyəti sahəsində mövcud olan problemləri tam həcmdə və təfsilatı ilə əhatə etmək mümkün deyildir. Qeyd edilən sahədə digər istiqamətlər də vardır ki, (əməliyyat-axtarış fəaliyyətinin metodları problemləri, HMO, o cümlədən polis orqanlarına vətəndaşların kömək göstərməsi sahəsində problemləri; əməliyyat-axtarış fəaliyyətinin təşkili, ƏAF-də informasiya texnologiyalarından istifadə edilməsi məsələləri, subyektlər arasında qarışıqlı əməkdaşlıq, fəaliyyətin maliyyə təminatı problemləri və s.), onlar bir sıra müəlliflərin işlərində öz əksini tapmış və elmi tədqiqatlar aparılarkən nəzərə alınması tövsiyə olunur.

**İkincisi**, kitabın açıq nəşr olunmasını nəzərə alaraq, məxfi xarakter daşıyan məsələlərə toxunulmamış, dövlət və xidməti sirləri əhatə edən misallar göstərilməmişdir.

**Üçüncüsü**, müvzuda bütün problemlər qeyd olunmamışdır, belə ki, onlardan bəziləri mübahisəlidir və əlavə müzakirəyə ehtiyac duyulur.

**Dördüncüsü**, müasir dövrdə ƏAT sahəsində beynəlxalq və milli təcrübənin nəticələrini, o cümlədən onun qanunvericilik əsaslarını, dövlət sirlərinə aid edilən məlumatların məzmununda olan dəyişiklikləri, demokratik təssisatları rəhbər tutmaqla onların qismən məhdudlaşdırılmasını və keçmiş dövrdən qalmış "məxfilik xofunu" nəzərə alaraq, "ƏAF haqqında" Qanun və bu sahədə ictimai münasibətləri tənzimləyən digər normativ hüquqi aktların əsaslı olaraq təkmilləşdirilməsinə ehtiyac duyulur. "ƏAF haqqında" qüvvədə olan qanundan fərqli məzmun və mahiyyətə malik olan yeni qanunun (qeyd edilən əsas problemlərin həllini təsbit edən müddəaları özündə ehtiva edən) işlənib hazırlanması zənnimizcə düzgün olardı[1].

**Beşincisi,** ƏAF sahəsində, o cümlədən ƏAF-nin həyata keçirilməsində, ƏAF-nin subyektləri arasında münasibətləri tənzimləyən idarələrarası normativ-hüquqi aktların işlənib hazırlanması və "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə müvafiq olaraq rəsmiləşdirilməsi.

**Altıncı**, ƏAF sahəsində elmi-tədqiqat işlərinin təşkil edilməsi və bunun üçün aparıcı elmi-tədqiqat müəssisələri tərəfindən lazımi tədbirlərin həyata keçirilməsi və s.

1 Dərsliyə əlavədə tövsiyyə edilən mənbələrdə, son illərdə aparılan elmi araşdırmaların nəticəsinə əsasən verilən təkliflərin nəzərə alınması zəmninizcə düzgün olardı.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

## Azərbaycan dilində:

1. N.H.Cəfərli. Səfəvilər dövlət hakimiyyət və idarəçilik orqanları. Hüquq ədəbiyyatı nəşriyyatı. Bakı, 2000-ci il. səh.139.

2. V.N.Xropanyuk. «Dövlət və hüquq nəzəriyyəsi». (Azərbaycan dilində ixtisarla), «Sabah» nəşriyyatı, B. 1995, səh. 9

3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik, «Hüquq ədəbiyyatı» nəşriyyatı, B.2002, s. 8.

4. İnsan hüquqları və polis. Tədris-metodik vəsait. Polis Akademiyası, Bakı, 2002, s. 77, 80, 171

5. "İnsan hüquqları haqqında" Beynəlxalq Bill, BMT-nin Azərbaycan nümayəndəliyi, "Azərbaycan" nəşriyyatı, B. 1998, s. 5-12

6. Cəfərquliyev M.Ə. Cinayət prosesi. "Qanun", 2002, s. 6

7. S.İ.Hüseynov, B.Ə.Əliyev,E.Y.İsmayılov,Əməliyyat-axtarış fəaliyyəti haqqında qanun sxemlərdə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik; dərs vəsaiti, DİN-mətbəəsi, Bakı, 2008

8. Ş.İ.Hüseynov "ƏAF-nin metodları", dərs vəsaiti, Polis Akademiyası. Bakı, 2007-ci il

9. Ş.İ.Hüseyenov ƏAF sahəsində qanunvericilikdə, onun Cinayətkarlığa qarşı mübarizədə tətbiq olunmasında və bu fəaliyyətə, prokuror nəzarətinin həyata keçirilməsində olan problemlər və onların həlli yolları" məqalə, " Qanun" jurnalı, B . 2002, № 4, s. 7-17

10. Bayramzadə X.Ə. Əməliyyat-axtarış fəaliyyətinə idarə nəzarəti. Bakı, XXI əsr dirçəliş, 94-96, 2006. s.197.

11. S.İ.Hüseynov,K.N.Səlimov İ.Ə.Kazımov və başqaları; Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti, dərs vəsaiti, umumi və xüsusi, hissə, Bak,ı Mütərcim, 2011

12. Ş.İ.Hüseynov, E.Q.Muradov, R.M.Nəsirov; Əməliyyat-axtarış fəaliyyətinin əsasları, mühazirələr toplusu. Bakı, "Mütərcim", 2008

13. Bayramzadə X.Ə. «Beynəlxalq hüquq», ictimai, siyasi, elmi və təcrübi jurnal. Bakı, № 10, 2005-ci il.

14. Fəlsəfə ensiklopedik lüğət. Azərbaycan Ensiklopediyası, NPB, B. 1997, s.7

15. Ş.İ.Hüseynov, K.N.Səlimov, B.Əliyev, M.Usubov, M.kazımov, A.Mahmudov, X. Bayramzadə əməliyyat-axtarış fəaliyyətinin əsasları, dərs vəsaiti, Bakı, Qanun nəşriyyatı, 2010

16. Abdullayev F.S. Apellyasiya Məhkəməsində Cinayət mühakimə icraatının təkmilləşdirilməsi problemləri. Aftoreferat. 2006. s. 15.

17. Ş.İ.Hüseynov Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi –nəzəri, təcrübi məsələləri və problemlərinin həlli yolları, Bakı, Mütərcim, B., 2016

18. M.B.Əhmədov, Ş.İ.Hüseynov, Ə.İ.Əliyev. B.Ə.Əliyev və başqaları. İnsan hüquqları və polis. Dərs vəsaiti. DİN-in Polis Akademiyası, B. 2002, s. 77-103

19. K.F. Heydərov. Gömrük işinin təşkili, 3-cü cild. ADN. B., 2000, səh. 157-160

20. B.Ə.Əliyev. Terrorçuluğa qarşı xüsusi hüquqi mübarizə: Kriminalistika və əməliyyat-axtarış aspektləri, monoqrafiya "Çıraq" nəşriyyatı. B., 2017 və s.

21. "İnsan hüquqları və hüquq-mühafizə orqanları", BMT, İHÜAK, Cenevrə, 1997, s. 73-74; 207-220;

22. Azərbaycan Respublikasının Cinayət və Gömrük Məcəllələri.

23. "Məhkəmələr və hakimlər haqqında" Qanun.

24. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2007 s. 457.

25. Azərbaycan Respublikası HMO-ın idarə daxili normativ-hüquqi aktları Azərbaycan Respublikasının "Normativ-hüquqi aktlar" haqqında Konstitusiya Qanunu.

26. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli "ƏAT-nin həyata keçirilməsində ƏAF-nin subyektləri arasında səlahiyyət bölgüsünə dair" Fərmanı.

27. Azərbaycan Respublikası Ali Məhləməsi Pleniumunun "Qacaqmalçiliq işləri üzrə məhkəmə təcrübəsi" haqqında 1993-cü il tarixli Qərarı.

28. "Azərbaycan Respublikasında normativ hüquqi aktların və normativ aktların dövlət uçotu və qeydiyyatı haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı

29. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 4 mart 2011-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Qərarı;

30. "Konstitusiya Məhkəməsinin 20 aprel 1999-cu il tarixli Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə" anlayışının şərh edilməsi haqqında" 20 aprel 1999-cu il tarixli Qərarı.

31. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Pleniumunun CPM-in 137 və 445.2 maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 15 fevral 2015-ci il tarixli Qərarı və s.

## *Rus dilində:*

1. Энциклопедия шпионажа . М, 1998 – с.5.

2. К.К. Горяинов, Ю.Ф. Кваша, К.В. Сурков. Федеральный закон об Оперативно-розыскной деятельности. Комментарий, М., Новый Арбат, 1997, с. 232-233.

3. Атмажитов В.М. и др. «Оперативно-розыскная деятельность». Учебник. Академия МВД СССР, М. 1990, с.15.

4. Воронцов С.А. Правоохранительные органы и спецслужбы Российской Федерации. М., 1999, с.553-573.

5. Закон РФ «О внешней разведке».

6. «О частном сыске и охране» РФ-нын гануну, 7-си маддянин 1-си щиссясинин 2-си бянди.

7. «Оперативно-розыскная деятельность органов внутренних дел». Учебник. Академия МВД СССР. М, 1990. с.31.

8. Актуальные проблемы теории оперативно-розыскной деятельности. Омская ВШ, Омск, 1986. с. 59-71.

9. Оперативная работа органов внутренних дел. МВШ МВБ СССР, Минск, 1991, с. 149-173.

10. Белкин Р.С. Криминалистика: проблемы сегоднящнего дня. Злободневные вопросы российской криминалистики. – М.: НОРМА (Издательская группа НОРМА – ИНФОРМА- М), 2001, с.104.

11. Дубов Т.В. и др. «Профессиональная этика сотрудников правоохранительных органов» М. Щить – М., 2000, с. 215-226.

12. Возный А.Ф. Оперативно-розыскная деятельность.М. Высшее образование. М., 2001. с. 73.

13. Профессиональная этика сотрудников правоохранительных органов. М., 1997. 14.

14. Плеханов Г.В. Избранные философские произведения. М., 1956, Т. 1. с. 704-705.

15. Х.Хегел. Философия права. М., 1990, с. 189.

16. И.В.Андреев «Теория – как форма организации научного знания», М. «Наука», 1979, с. 21.

17. Васильев М.А. Правовые категории. Методологические аспекты разработки системы категории права. М. 1976. стр. 134.

18. Шумилов Л.Ю. Краткая сыскная энциклопедия.. М. 2000. с. 63.

19. Головин С.Ю. Словарь практического психолога. Минск-Москва, 2003, с. 238.

20. Учебник «Оперативно-розыскная деятельность ОВД», под редакцией К.К.Горянкова,НФРА-М, 2001, ж. 107.

21. Основы управления в органах внутренних дел. Учебник МА, МВД Р Ф, М. ЦЮЛ «ШИТ», ж. 27-32.

22. Словарь иностранных слов. ГИИНС, М. 1949, с. 257.

23. Основы управления в органах внутренних дел. Учебник МА, МВД РФ, М ЦЮЛ «ШИТ», ж. 27-32.

24. Н.А.Климов. «Оперативно-розыскная деятельность–как процесс познания».Институт права. МВД РФ, 1994.

25. Актуальные вопросы теории и практики ОРД. Труды Академии Управления МВД РФ, М. 2001, с. 7-29, в статье В.М.Атмажитова, В.Г.Боброва. «Об основных направлениях далнейшего развития теории оперативно-розыскной деятельности ОВД».

26. К.К.Горяинов, В.С.Овчинский, А.Й.Шумилов и т.д. «Оперативно-розыскная деятельность», Учебник, М.ИНФРА-М, с. 773-789.

27. Актуальные вопросы теории и практики оперативно-розыскной деятельности. Труды Академии Управления МВД РФ, М. 2001 г. с. 7-30

28. А.Атмажитов, В.Г.Бобров, М.П.Казаченко, Й.Ф.Кваша, В.А.Лукашов и др. «ОРД ОВД». Учебник Академии МВД СССР. М.1990, с. 5-8

29. Елински В.М. Основы методологии теории ОРД. Монография, М. 2001, с. 90

30. Елински В.И. «Основы метологии теории оперативно-розыскной деятельности». Монография, М. 2001, с. 90-91

31. Чечетин А.Е. Актуальные проблемы теории оперативно-розыскных мероприятий, монография, Изд.дом Шумиловой М.Н. М. 2006.

32. Потапов С.М. Судебная фотография. М. 1926

33. Гросс Щ. Руководство для судебных следователей-как система криминалистики. СПб. 1908

34. Вейнгард А. Уголовная тактика. Петроград, 1910;

35. Эйндл Р. Уголовная техника. Из материалов уголовного розыска. М.1925

36. Стибер В., Шнейкерт Г. Практическое руководство для уголовного розыска. М.1925

37. Белкин Р.С. Курс советской криминалистики. М. 1977, Ж. И , с. 96

38. Белкин Р.С. Курс криминалистики. М.1997, Ж. И с. 200

39. Комментарии к уголовному кодексу РФ.. «Феликс», Ростов-Дон, Москва-Саранск-Ростов на Дону, 1996. с. 154-155

40. Ожегов С.И. Словарь русского языка. М. 1987, с. 951

41. Комментарии к Уголовному Кодексу РФ М. ИНФРА-М-Норма, 1996, с. 8647.

42. Зелински А.Ф. Доброволный отказ от преступления. «Советская юстиция», 1968, № 8, с. 8-10

43. Комментари к УК Российской Федерации, М.-ИНФРА-М-НОРМА, 1996, с. 57

44. Алексеев А.И. и б. «Криминология и профилактика преступлений», Учебник, М-МВШМ МВД СССР, 1989.

45. Аванесов А.Г. Криминология. Академия МВД СССР, М. 1984.

46. Шумилов А.Ю. Закон и оперативно-розыскных деятельность, Изд. Фирма "АВС", М. 1996

47. Исаченко А.П. Оперативно-розыскная криминология. Дярслийя ялавя, МО РФ, Москва, ИНФРА-М., 2001

48. Чуфоровеки Ю.В. Психология оперативно-розыской деятельности. М. “МЗ- ПРЕСС ” , 2001.с 127

49. Шумилов А.Ю. Закон и оперативно-розыскная деятельность, Изд. Фирма, АВС, М. 1996

50. Кедров Б.М. Классификация наук. Т. И., М.1961, с. 8-14

51. Добров Г.М. Наука о науке. Киев, 1966, с. 68-84

52. Ставская М.Р. Философские вопросы развития современной науки. М.1974, с. 31-39 и т.д.

53. В.А.Черепанов. Психологические вопросы оперативно-розыскной деятельности, ВНИИ МВД СССР, М.1981. Психологические аспекты оперативно-розыскной деятельности. Межвузовский сборник научных трудов. Оперативно-розыскная психология.

54. Зубов Н.Н. Федеральный Закон «Об оперативно-розыскной деятельности»(начучко-прак. комент.) Спорк, М. 2000, с. 50

55. Словарь иностранных слов. ГИИНС, М. 1949, с. 425

56. Лопатин В.Н. Информационная безопасность России. Санкт-Петербург, «Университет» фонду. 2000, с. 79

57. Шумилов А.Ю. Комментарии к Федеральному закону об ОРД. М. 1999, с. 242

58. Б.М. Егоринин, А.Б. Федоров, А.Б. Шахматов «Федеральный закон об оперативно-розыскной деятельности» в схемах и акте конституционного правосудия: Учебное пособие. Санкт-Петербургский Университет МВД России, 2001, стр 47-51.

59. Шумилов А.Ю. «Основы уголовно-розыскного права», М. , 2000, с. 44

60. Оперативно-розыскной словар. МВД, ВНИИ, Санкт-Петербург, 2001, с. 37

61. А.Ю. Шумилов. Основы уголовно-розыскного права. Учебное пособие, М. 2000, с. 51

62. Шумилов А.Ю. Комментарии к Федеральному Закону об оперативно-розыскной деятельности. М. 2000, с. 27

63. Оперативно-розыскная деятельность ОВД., Академия МВД СССР, учебник. М. 1990, с. 26

64. Основы оперативно-розыскной деятельности. Учебник, РФ МВД, Санкт-Петербургский Университет, 1999, с. 95,

65. Минковски Г.М. Криминалная милиция (полиция): проблемы, организация, функции, содержание и формы деятельности. М. СССР Академия МВД, 1991.

66. Горянков К.К. и т.д. «Об оперативно-розыскной деятельности», Федеральный Закон, «Новый юрист» тип. 1997, с. 150

67. Международное право. МГИМО, МИД. М. 2000, ж.525, 545, 551-579

68. Шумилов А.Ю. Комментарии к Федеральному Закону «Об оперативно-розыскной деятельности». 2-ое издание, М. 2000, с. 10675.

69. Афанасьев В.Г. Научное управление обществом. М.,1983 г., с. 240.

70. Шумилов А.Ю., Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., 1997 г. С.31.

71. Горяинов К.К., Овчинский В.С., Синиров Г.К., Шумилов А.Ю. Оперативно-розыскная деятельность. Учебник. М., ИНФРА – М., 2004 г., с. 251.

72. Шумилов А.Ю.Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М. 1997 г., с. 125.

73. Колоколов Н.А. Судебный контроль в стадии предварительного расследовании. М., 2004 г. с.80; с.70.

74. Рушайло В.Б. Основы оперативно-розыскной деятельности. Санкт-Петербург 2002.

75. Хамколов В.П. Организация управления оперативно-розыскной деятельностью: системный подход. Москва. «Закон и право». Юнити, 1999 г.

76. Чуфаровский Ю.В. Психология оперативно розыскной деятельности. М., 2001, с. 5; с. 121.

77. Овчинский А.С. Информация и оперативно-розыскная деятельность. М., 2002, с. 3.

78. Еникеев М.И. Общая и социальная психология. М., 2002, с. 313; с. 329.

79. Общая психология. Учеб. Под ред. В.Богословского, А.Ковалева, А.Степанова. М., 1981, с. 333.

80. Павлов И.П. Полн. собр. соч. Т. 3 Кн 2. М.-Л., 1951, с. 269.

81. Общая психология. Учеб. Под ред. В.Богословского, А.Ковалева, А.Степанова. М., 1981, с. 81.

82. Еникеев М.И. Юридическая психология. М., 2001, с. 46.

83. Богомолова С.Н. Психологическая теория преступности Айзенка. Юридическая психология. (Хрестоматия). Санкт-Петербург, 2001, с. 32.

84. Чуфаровский Ю.В. Психология оперативно-розыскной деятельности. М., 2001, с. 17.

85. Рогов Е.И. Психология общения. М., 2002, с. 11.

86. Чуфаровский Ю.В. Психология оперативно-розыскной деятельности. М., 2001, с. 96.

87. Джонсон Д.У. Тренинг общения и развития. М., 2001, с. 53.

88. Шейнов В.П. Искусство убеждать. М., 2000, с. 35.

89. Овчинский С.С. Оперативно-розыскная информация. М., 2000, с. 7.

90. Карнеги Дейл. Учебник жизни. М., 2003, с. 420-431.

91. Оперативно-розыскная деятельность: Учебник Под ред. К.К.Горяинова, В.С.Овчинскового, А.Ю.Шумилова.М., 2002, с. 364.

92. Чуфаровский Ю.В. Психология оперативно-розыскной деятельности . М., 2001, с. 185.

93. Оперативно-розыскная деятельность: Учебник Под ред. К.К.Горяинова, В.С.Овчинскового, А.Ю.Шумилова.М., 2002, с. 364.

94. Кореневский Ю.В. и Токарева М.Е. Использование результатов оперативно-розыскной деятельности в доказывании по уголовным делам. М., 2000. с. 22.

95. Жук О.Д. Организованная преступность в современной России. Раскрытие и расследование преступлений, совершенных организованными преступными формированиями. Томск. 1998, с.149-169

96. Криминалистика: Учебник Под ред. В.Образцова. М., 2001, с. 504.

97. Криминалистика: Учебник, Под ред. Р.Белкина. М., 2001 с. 598.

98. Еникеев. М.И. Юридическая психология. М., 2001, с. 204.

99. Росс Л., Нисбет Р. Человек и стиуация. М., 2000, с. 169.

100. Доля Е.А. Использование в доказывании результатов оперативно-розыскной деятельности. М., 1996, с.73-74.

101. Исаченко А.П. Оперативно-розыскная криминология, учебное пособие. Изд., ИНФРА-М, М. 2001

102. Соловьев А.Б., Багаутдинов Ф.Н., Филиппов М.Н. Прокурорский надзор за всесторонностью, полнотой и обжективностью расследования преступлений. М., 1996, с. 89.

103. Кипнис Н.М. Доказательства в уголовном судопроизводстве. М., 1995, с. 9;

104. Кокарев Л.Д., Кузнецов Н.П. Уголовный процесс: доказательства и доказывание. Воронеж, 1995, с.164.

105. Хлынцев М.Н. Криминалистическая информация и моделирование при расследовании преступлений. Саратов, 1982, с.34-38. 111. Лукашов А. О сущности и значении оперативно-розыскной информации. – М., с.21-22.

106. Овчинский С.С. Оперативно-розыскная информация. Проблемы теории и практики. М., 1976, с.16.

107. Зайцева С.А., Зейналова Л.М., Громов Н.А., Гущин А.Н. Царева Н.П. Оперативно-розыскная деятельность: совершенствование форм вхождения ее результатов в уголовный процесс. М. 2004, с.73.

108. Бедняков Д.И. О реализации оперативно-розыскной информации в процессе доказывания и особенности ее оценки. Проблемы надежности доказывания в советском уголовном процессе. М., 1984, с.70.

109. Доля Е.А. Использование в доказывании результатов оперативно-розыскной деятельности. Российская юстиция. 1995. № 5, с.35.

110. Безлепкин Б.Т. Проблемы уголовно-процессуального доказывания Сов. государство и право. 1991. №8, с.1

111. В.И. Михайлов, Контролируемая поставка как оперативно-розыскная операция, учебно-практическое пособие, Изд. Шумиловой И.И. М. 1998

112. Ю.В. Чуфаровский. Психология оперативно-розыскной и следственной деятельности. Учебное пособие. Изд. «Проспект». М., 2002

113. В.Л. Цветков, В.М. Шевченко, Н.Е. Шаматава. Психология оперативно-розыскной деятельности. Изд. ЮНиТИ-ДАНА, 2009

**Əlavə 1**

## Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyə daxil olan bəzi normativ-hüquqi aktlar və onlardan çıxarışlar

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir.

### Birinci fəsil

### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əməliyyat-axtarış fəaliyyətinin anlayışı, məqsədləri və vəzifələri**

I. Əməliyyat-axtarış fəaliyyəti - müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir.

II. Əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə həyata keçirilir.[1]

III. Əməliyyat-axtarış fəaliyyətinin vəzifələri aşağıdakılardır:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;

3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;

5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Maddə 2. **Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik**

I. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublika-sının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər normativ

hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

II. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar (bundan sonra əməliyyat-axtarış fəaliyyətinin subyektləri adlanacaq) öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin təşkilini və taktikasını tənzimləyən normativ hüquqi aktlar qəbul edirlər.

Maddə 3. **Əməliyyat-axtarış fəaliyyətinin prinsipləri**

I. Əməliyyat-axtarış fəaliyyəti qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hürmət, konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması prinsiplərinə əsaslanır.

II. Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə mane ola bilməz.

Maddə 4. **İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatları**

I. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar:

1) bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmayan məqsədləri güdmək və ya vəzifələri yerinə yetirmək;

2) hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır.

II. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini pozmaq qadağandır. Əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız bu Qanunla müəyyən edilmiş qaydada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektinin hər hansı bir siyasi partiyanın və ya digər ictimai birliklərin mənafeyi naminə hərəkətlər etməsi, qanunvericilik və ya məhkəmə hakimiyyəti orqanlarının, habelə qanunla müəyyən edilmiş qaydada qey-

diyyatdan keçmiş ictimai birliklərin və dini təşkilatların işində onların qanuni fəaliyyətinə təsir etmək məqsədilə məxfi iştirak etməsi qadağandır.

IV. Əməliyyat-axtarış fəaliyyəti subyektinin hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş hər bir şəxs həmin əməliyyat-axtarış fəaliyyətinin subyektinin tabe olduğu yuxarı orqanının rəhbərinə, prokurora və ya məhkəməyə şikayət etmək hüququna malikdir.

V. Belə şikayətin mahiyyəti üzrə qərar qəbul etmək üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada müvafiq olaraq xidməti yoxlama və ya məhkəmə baxışı aparılmalıdır. Onun hərtərəfiyini və dolğunluğunu təmin etmək məqsədi ilə əməliyyat-axtarış fəaliyyətinin subyekti məhkəmənin qərarına əsasən dövlət sirrinin və xidməti sirrinin yayılması və əməliyyat-axtarış fəaliyyətinin keçirilməsinə gizli surətdə yardım göstərən şəxslər haqqında məlumatlar istisna olmaqla, əməliyyat-qeydiyyat işinin məzmunu ilə şikayətzini tanış etməyə borcludur.

Maddə 5. **Əməliyyat-axtarış fəaliyyətinin subyektləri**

I. Əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirir

II. Əməliyyat-axtarış tədbirlərin əməliyyat-axtarış fəaliyyətinin hansı subyekti tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyünü Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkili olunmuş şəxsləri öz vəzifələrini yalnız bu orqanların səlahiyyətləri daxilində həyata keçirirlər.

IV. Poçt göndərişlərinin, teleqraf və digər məlumatların yoxlanılması, mülkiyyət formasından asılı olmayaraq rabitə xidmətləri göstərən, rabitə vasitələri təqdim edən idarə, müəssisə və təşkilatların, fiziki və hüquqi şəxslərin stansiya avadanlığına qoşulmaqla telefon danışıqlarının qulaqasması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması ilə bağlı əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı tərəfindən tətbiq edilir.

V. Korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış tədbirlərini yalnız korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı, yaxud həmin prokurorluq orqanının yazılı tapşırığı əsasında təhqiqat orqanları həyata keçirirlər.

Maddə 6. **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri**

Bu Qanunun 1-ci maddəsində göstərilən məqsədlərə nail olmaq üçün əməliyyat-axtarış fəaliyyəti subyektlərinin aşağıdakı vəzifələri vardır:

1) insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri görmək;

2) əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirmək;

3) əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatları, onların mənbəyini və əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək;

4) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatlarının sorğularına cavab vermək;

5) Azərbaycan Respublikasının ərazisində əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətinə aid olan faktların aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər keçirməklə onları xəbərdar etmək və lazımi kömək göstərmək;

6) əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;

7) öz qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılacaq şəxslər barədə yoxlama tədbirlərini "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirmək;

8) öz əməkdaşlarının, onların yaxın qohumlarının, əməliyyat-axtarış fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının, habelə cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlakını hüquqazidd qəsdlərdən qorunmasını təmin etmək;

9) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

10) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

Maddə 7. **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları**

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri öz səlahiyyətlərini bilavasitə yerinə yetirərkən aşağıdakı hüquqlara malikdirlər:

1) bu Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək;

2) əməliyyat-axtarış fəaliyyəti subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək;

3) əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq və ondan istifadə etmək;

4) əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;

5) konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə və ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanların bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin idarə mənsubiyyətini, eləcə də bu orqanlara məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pərdələndirən sənədlərdən istifadə etmək.

Maddə 8. **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin səlahiyyətlərinin həddi**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə öz səlahiyyətlərinin icra edilməsi zamanı:

1) insanların həyatını, sağlamlığını, əmlakını və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol vermək;

2) hər hansı şəxsi qanun pozuntularına təhrik etmək;

3) zor işlətmək, hədələmək və şantaj etmək, habelə insan və vətəndaşların hüquq və azadlıqlarını, qanunla müdafiə olunan mənafelərini məhdudlaşdıran digər qanunsuz tədbirlərə əl atmaq;

4) səlahiyyətindən kənara çıxan tədbirləri həyata keçirmək qadağan olunur.

Maddə 9. **Əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərilməsi**

I. Azərbaycan Respublikasının dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərmək borcludurlar.

II. Azərbaycan Respublikasının ərazisində olan hər bir şəxs əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsində kömək göstərə bilər. Heç kəs əməliyyat-axtarış fəaliyyətində məcburi qaydada iştirak edilməsinə cəlb edilə bilməz.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməməsi və ya onlara manezilik törədilməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan məsuliyyətə səbəb olur.

## İkinci fəsil
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

Maddə 10. **Əməliyyat-axtarış tədbirləri**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri bu Qanunla müəyyən edilmiş qaydada aşağıdakı əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər:

1) vətəndaşların sorğusu;

2) soraqlaşma;

3) telefon danışıqlarına qulaqasma;

4) poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;

6) məhkumların məktublarının yoxlanılması;

7) nəqliyyat vasitələrinə baxış keçirilməsi;

8) binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;

9) binaların, o cümlədən yaşayış yerlərinin,hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;

10) insanların güdülməsi;

11) şəxsiyyətin eyniləşdirilməsi;

12) nəzarət qaydasında mal alınması;

13) əşya və sənədlərin tədqiqi;

14) müqayisəli tədqiq üçün nümunələrin toplanılması;

15) nəzarətli göndəriş;

16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;

17) hüquqi şəxsin yaradılması;

18) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

II. Bu maddənin I hissəsində göstərilmiş əməliyyat-axtarış tədbirlərin siyahısı yalnız Qanunla dəyişdirilə bilər.

III. Bu maddənin I hissəsinin 3-5, 8, 9 (texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, vidto foto, kino və digər çəkliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə) və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri bu maddənin IV hissəsində göstərilən hallar istisna olmaqla məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər.

IV. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan:

1) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər;

2) cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər. [9]

V. Bu maddənin IV hissəsində nəzərdə tutulmuş hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora əsaslandırılmış qərarı təqdim etməlidirlər.

VI. Hər hansı bir şəxsə zor işlədilməsi, hədə-qorxu ilə tələb etmə və ya hüquqazidd digər hərəkətlər tətbiq edilməsi təhlükəsinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməsi zərurəti olduqda onların telefonu və ya digər danışıq cihazları ilə aparılan danışıqlara həmin şəxsin ərizəsi əsasında müvafiq əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən qulaq asıla bilər.

VII. Bu maddənin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövlət cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

VIII. Bu Qanunla müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən əməliyyat-axtarış tədbirlərinin aparılması, habelə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən (yəni əməliyyat-axtarış tədbirləri çərçivəsində informasiyanın gizli yolla əldə olunması məqsədilə xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş, proqramlaşdırılmış, təkmilləşdirilmiş avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər texniki vasitələr) istifadə olunması qadağandır.

IX. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələr mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyalara aiddir. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən onların istehsalı, satışı, əldə edilməsi, ölkəyə gətirilməsi və ölkədən çıxarılması yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada verilən xüsusi icazə əsasında həyata keçirilə bilər.

X. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir

**Qeyd:** Bu Qanunun 10-cu və digər maddələrində "yaşayış yeri" dedikdə Azərdfycan Respublikasının Cinayət-Prosessuai Məcəlləsinin 7.0.34-cu maddəsində nəzərdə tutulmuş yerlər başa düşülür.

Maddə 11. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərində bu maddədə nəzərdə tutulmuş səbəblər və əsaslar olmalıdır.

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər aşağıdakılardır:

1) fiziki şəxslərin ərizələri;

2) müəssisə, idarə, təşkilatların vəzifəli şəxslərinin müraciətləri;

3) kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;

4) əməliyyat-axtarış fəaliyyəti subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;

5) əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin yazılı sorğuları;

6) Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarını və xüsusi obyektlərini mühafizə edən orqanlarının yazılı sorğuları;

7) cinayət işləri üzrə təhqiqatı və ya istintaqı aparan şəxslərin yazılı tapşırıqları;

8) xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatlarının rəsmi sorğuları.

9) kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin yazılı sorğuları.

III. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün əsaslar aşağıdakılardır:

1) məhkəmənin (hakimin) qərarları;

2) istintaq orqanlarının qərarları;

3) əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları.

IV. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı yalnız aşağıdakı hallarda qəbul oluna bilər:

1) başlanmış cinayət işi mövcud olduqda:

2) (Çıxarılıb);

3) cinayət işinin başlanmasına kifayət qədər əsaslar olmasa da, cinayət hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda;

4) dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda;

5) şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən boyun qaçırdıqda, yaxud itkin düşdükdə;

6) naməlum meyit aşkar edildikdə.

Maddə 12. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarlar, yazılı tapşırıqlar və sorğular**

I. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərar, yazılı tapşırıq və ya rəsmi sorğu yalnız Azərbaycan Respublikasının qanunvericiliyinin əsasında belə səlahiyyətə malik olan şəxs tərəfindən verilə bilər.

II. Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda, yazılı tapşırıqda və ya rəsmi sorğuda belə tədbirin zəruriliyi əsaslandırılmalıdır.

III. Bu Qanunun 10-cu maddəsinin I hissəsinin 3 - 5, 8 və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qərarda bundan başqa aşağıdakılar mütləq öz əksini tapmalıdır:

1) müvafiq tədbir keçirmək təklifi verən əməkdaşın soyadı, adı, atasının adı və vəzifəsi;

2) haqqında tədbir keçirilməsi təklif edilən şəxsin soyadı, adı, atasının adı və ya obyektin təsviri;

3) müdaxilə xarakterli üsul və vasitələrin tətbiq olunması haqqında tələbi əsaslandıran faktlar;

4) adi təhqiqat üsulu vasitəsi ilə zəruri məlumatın alınmasının qeyri-mümkünlüyünün əsaslandırılması;

5) müdaxilə xarakterli üsul və vasitələrin tətbiqinin nəzərdə tutulan müddəti;

6) tədbir keçirməsi ilə əlaqədar əldə edilə bilən nəticə.

Maddə 13. **Əməliyyat-axtarış tədbirlərinin tətbiqinin şərtləri**

I. Qanunla mühafizə edilən yazışma, telefon, poçt-teleqraf və digər rabitə üsulları ilə ötürülən məlumatların sirrinin qorunması, eləcə də mənzil toxunulmazlığı ilə əlaqədar əməliyyat-axtarış tədbirlərinin tətbiqinə ancaq cinayət hazırlayan, cinayət törətməyə sui-qəsd edən, cinayət törədən, həmçinin məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslər barədə məlumat toplamaq, habelə oğurlanmış əmlakı tapmaq, dəlillərinin gizlədilməsinin və məhv edilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilən tədbirlər nəticəsində əldə olunmuş məlumatların cinayət işi üzrə sübut ola biləcəyini və axtarılan şəxslərin tutula biləcəyini güman etmək üçün kifayət qədər əsas olduğu halda icazə verilir.

II. Telefon və digər danışıqlara qulaqasması və onların yaçılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, poçt-teleqraf göndərişlərinin yoxlanılması və mənzillərə baxış keçirilməsi ilə əlaqədar tətbiq edilən əməliyyat-axtarış tədbirlərdə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslərində həmin tədbirlərin tətbiqinə dair qərar və üzlərinin xidməti vəsiqələri olmalıdır.

III. Şəxs tərəfindən cinayətin törədilməsi və ya hazırlanması barədəki kifayət qədər əsas olduqda onun özü və əlaqələri haqqında məlumat almaq məqsədilə tətbiq edilən əməliyyat-axtarış tədbirində insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır.

IV. Əməliyyat-axtarış tədbirlər tətbiq edilərkən əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsləri, həmin tədbirlərin cinayətkar qəsdlərin dövlətin və cəmiyyətin mənafeyinə vura biləcəyi ziyanın ictimai təhlükəsizlik dərəcəsinə uyğunluğunu gözləməyə borcludurlar.

Maddə 14. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi əməliyyat-axtarış fəaliyyəti subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

II. Əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi zamanı bilavasitə və birbaşa rəisinə tabedir. Rəisindən açıq-aşkar qanunsuz əmr və ya göstəriş aldıqda o qanunu rəhbər tutmalı və əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqanına bu barədə məlumat verməlidir. Əməliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi tərəfindən rəisinin əmrini və yaxud göstərişini yerinə yetirdiyi vaxtda cinayət baş verərsə və ya verəcəyi ehtimal olunarsa, bu barədə əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqanına və yaxud məhkəməyə şikayət verə bilər.

III. Qanunla birbaşa buna müvəkkil edilmiş şəxslər istisna olmaqla əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onların vəzifəli şəxslərin qanuni hərəkətlərinə heç kəs müdaxilə edə bilməz.

IV. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və fotoşəkillərdən, həmçinin vətəndaşların həyatı və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilə bilər.

V. Obyektiv səbəblərdən əməliyyat-axtarış tədbirlərinin tətbiqini qeyri-mümkün edən şərait yarandıqda (qarşısı alına bilməyən füvqəladə hadisə baş verdikdə və ya qarşısı alına bilməyən qüvvə mane olduqda və yaxud ictimai təhlükəsizliyə real təhlükə yarandıqda) belə tədbirlərin həyata keçirilməsi dayandırılır.

VI. Həyata keçirilən əməliyyat-axtarış tədbirlərinə aşağıdakı hallarda son qoyulur:

1) bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunduqda;

2) haqqında keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

VII. Əməliyyat tapşırığını yerinə yetirərkən əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxsin cinayətkar qrupların və ya kriminogen obyektlə-

rin daxilində olması, habelə bu zaman zəruri özünümüdafiə və ya son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətlər Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibini yaratmır.

VIII. Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur.

IX. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən dövlət sirri və xidməti sirr sayılan, əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, əməliyyat məlumatların mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi və ailə həyatına aid olan məlumatlar aşkarlanmamalıdır.

X. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilərlər.

Maddə 14-1. **Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi**

I. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi bu Qanuna, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə müvafiq həyata keçirilir.

II. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün səbəblər və əsaslar, onların tətbiqi şərtləri, həyata keçirilməsi, tətbiqinə nəzarət, bu tədbirlərə dair qərarların, yazılı tapşırıqların və sorğuların verilməsi, habelə keçirilən tədbirlərin nəticələrindən istifadə edilməsi qaydaları bu Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

*Maddə 14-2.* ***Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyəti***

*I. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış tədbirləri bu Qanunla müəyyən edilmiş qaydada tətbiq edilir.*

*II. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətini müvafiq olaraq həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin müdiriyyəti həyata keçirir. Müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətlərinə aid edilmiş cinayət işləri-*

*üzrə-əməliyyat-*
*axtarış-fəaliyyətini-həbs-yerlərinin-və-ya-cəzaçəkmə-müəssisələrinin-*
*müdiriyyəti-ilə-birgə-həyata-keçirirlər.*

*III.-Həbs-yerlərində-və-cəzaçəkmə-müəssisələrində-əməliyyat-*
*axtarış-fəaliyyəti-*
*nin-həyata-keçirilməsi-zamanı-qanunların-icrasına-nəzarəti-bu-Qanunun-20-*
*ci-mad-dəsi-ilə-müəyyən-edilmiş-qaydada-prokurorluq-orqanları-həyata-keçirirlər.*

Maddə 15. **Əməliyyat-qeydiyyat işi**

I. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi olduqda bu qanunun 11-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş qərarların əsasında əməliyyat-qeydiyyat işi başlanılmalı və bu iş əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən mütləq qeydiyyata alınmalıdır.

II. Əməliyyat-axtarış fəaliyyətinin subyektində məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənilən, cəza çəkməkdən boyun qaçıran, cinayət törətməkdə şübhəli olan və ya itkin düşən şəxslər haqqında eyni hüquqazidd hərəkətlərə görə yalnız bir əməliyyat-qeydiyyat işi aparılmalıdır.

III. Əməliyyat-axtarış tədbirlərinin nəticələri əməliyyat-qeydiyyat işində əks edilməli və sistemləşdirilməlidir.

IV. Əməliyyat-qeydiyyat işi onu aparan əməliyyat-axtarış fəaliyyətinin subyektində saxlanılır.

V. Ədalət mühakiməsi naminə hallar istisna olunmaqla, cinayətin törədilməsində qanunla müəyyən olunmuş qaydada təqsiri sübuta yetirilməyən şəxs haqqında əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş materiallar bir il müddətində saxlanılır, sonra isə məhv edilir.

Maddə 16. **Əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadə edilməsi**

I. Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar bu qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi nəticəsində əldə edilmiş məlumatlar bu tədbirlərin məqsədlərinə uyğun olmadıqda onların aşkar edilməsi və ya hüquqi və fiziki şəxslərin əleyhinə istifadə edilməsi qadağandır.

III. Şəxs haqqında xüsusi texnikanın köməyi ilə əldə edilmiş məlumat açıqlandıqda həmin şəxs bu məlumatın qanunsuz əldə edilməyinə və ya əməliyyat-axta-

rış tədbirinin həyata keçirilməsində xüsusi texnikanın tətbiqinə icazə alınmamasına

əsaslanaraq ifadələrindən imtina və məhkəməyə şikayət edə bilər. Belə vəziyyətdə məhkəmə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi qanuniliyini araşdırıb mübahisəli məlumatların qanuni yolla əldə edilməsini və ya hüquqi baxımdan qüvvəsiz hesab olunmasını elan edir.

IV. Bu qanunun tələblərinə riayət olunmadan əldə edilmiş məlumatlar dərhal məhv edilməlidir.

V. İnsanın şəxsi və ailə həyatına, şərəfinə və ya ləyaqətinə aid olan, lakin tərkibində qanunla qadağan edilməmiş hərəkətlərin törədilməsindən xəbər verən əməliyyat-axtarış tədbirlərinin nəticəsində əldə edilmiş məlumatlar saxlanıla bilməz və onlar məhv edilməlidir.

VI. Açılmamış cinayətlər üzrə insanların təhlükəsizliyinə və ya istintaqa ziyan vura biləcək əməliyyat-axtarış tədbirlərin nəticəsində əldə edilmiş məlumatlarını yaymaq qadağandır.

VII. Hər hansı cinayətin törədilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatlarla tanış olmaq hüququ məlumatların mənbəyini aşkarlamamaq şərti ilə yalnız həmin cinayət işi üzrə istintaqı aparan şəxsə, prokurora və ya məhkəməyə verilir.

## Üçüncü fəsil
## YEKUN MÜDDƏALAR

Maddə 17. **Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial müdafiəsi**

I. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslər dövlət tərəfindən müdafiə olunurlar.

II. Əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilə bilər.

III. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin əmək haqqı, mükafat və digər maddi təminatlar almaq hüququ vardır.

IV. Əməliyyat-axtarış fəaliyyətində iştirak etmələri ilə əlaqədar şəxslərin, eləcə də onların yaxın qohumlarının həyatına, sağlamlığına və əmlakına real təhlükə yarandıqda səlahiyyətli orqanlar onların mühafizəsi və dəymiş zərərin ödənilməsi, həmçinin təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlər görürlər.

V. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin pensiya təminatı «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

VI. Əməliyyat-axtarış tədbirlərində iştirak edərkən həlak olmuş, yaxud şikəst olmuş şəxslərin ailəsinə müvafiq olaraq min yöz manat və beş yöz əlli manat birdəfəlik müavinət verilir. Həmin şəxslərin ailəsinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada pensiya təyin edilir.

VII. Əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi ilə əlaqədar vəzifələrini yerinə yetirilməsi müddəti və müvafiq surətdə onun maddi təminatı birin üçə nisbəti hesabı ilə hesablanır.

VIII. Əməliyyat-axtarış fəaliyyətinin subyekti ilə əməkdaşlığa cəlb olunmuş və cinayətin açılmasında fəal iştirak etmiş cinayətkar qrupun üzvü, tərkibində cinayət əmlləri olan və ağır nəticələrə səbəb olmayan əməllər törədilibsə və vurulmuş zərəri ödəyibsə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətindən azad olunur.

Maddə 18. **Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin maddi-texniki və maliyyə təminatı**

I. Əməliyyat-axtarış fəaliyyətini və avtomatlaşdırılmış informasiya sistemlərinin qurulmasını, saxlanılmasını və mühafizəsini bu qanunun tələblərinə uyğun surətdə həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə zəruri maliyyə vəsaitləri və maddi-texniki təminat verilir.

II. Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda digər mənbələr hesabına maliyyələşdirilir. Bu vəsaitlərin xərclənməsi qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

III. Əməliyyat-axtarış subyektlərinin maddi-texniki təminatının qaydalarını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

IV. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinə ayrılan maliyyə vəsaitinin xərclənməsinə həmin subyektlərin rəhbərləri tərəfindən nəzarət edilir.

trial 19. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunçuluğun təminatı**

Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin rəhbərləri əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi zamanı qanunçuluğa əməl olunmasına nəzarət edirlər və buna görə fərdi məsuliyyət daşıyırlar.

Maddə 19-1. əməliyyat**-axtarış fəaliyyətinə məhkəmə nəzarəti**

Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Maddə 20. **Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti**

I. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış fəaliyyətini yerinə yetirməsi zamanı qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru həyata keçirir.

II. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanun pozuntularına yol verilməsi barədə materiallar, məlumatlar və ya vətəndaşların yazılı ərizələri daxil olduqda, habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair müəyyən olunmuş qaydalar və qəbul olunmuş qərarların qanuniliyi yoxlanıldıqda, prokurorların sorğuları əsasında əməliyyat-axtarış fəaliyyəti subyektlərinin rəhbərləri əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəb və əsaslarına dair sənədləri təqdim etməlidirlər.

III. Cinayət məsuliyyətinə cəlb olunması halları istisna edilməklə cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil olmuş şəxslərin, əməliyyat-axtarış subyektlərinin ştatdan kənar və məxfi əməkdaşlarının şəxsiyyəti haqqında məlumatlar həmin şəxslərin yazılı razılığı olduqda qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda prokuror nəzarətinin subyektinə təqdim edilə bilər

IV. Əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar (korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının əməliyyat-axtarış tədbirləri ilə bağlı məlumatları istisna olmaqla) prokuror nəzarətinin predmetinə daxil deyil.

V. Əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

Maddə 21. **Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı qanunçuluğun pozulmasına görə məsuliyyət**

I. Əməliyyat-axtarış fəaliyyətinin bu qanunla müəyyən edilmiş məqsədlərə, əsaslara və ya şərtlərə əməl edilmədən təşkili və həyata keçirilməsi, onun keçirilməsi üçün etibar olunmuş və ya iş və xidmətlə əlaqədar belə məlumatlarla tanış olmuş şəxslər onları yaymağa görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq olaraq cinayət, inzibati və intizam məsuliyyəti daşıyırlar.

II. İnsanın hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafeləri pozulduqda, habelə haqqında əməliyyat-axtarış tədbirləri keçirilmiş şəxsin hüquqpozmaya aidiyyəti təsdiq olunmadıqda əməliyyat-axtarış fəaliyyətinin subyekti pozulmuş hüququ bərpa etməyə və vurulmuş maddi və mənəvi ziyanı ödəməyə borcludur.

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən bu Qanunda nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin tətbiqi istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

## KEÇİD MÜDDƏALARI

I. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

II. Hakimlərin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar bu qanunda nəzərdə tutulmuş səlahiyyətləri yeni cinayət-prosessual qanunvericiliyi qəbul olunduqdan və «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən hakimlər təyin edildikdən sonra qüvvəyə minir.

II. Hakimlərin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar bu qanunda nəzərdə tutulmuş səlahiyyətləri qüvvəyə minənədək, həmin səlahiyyətlər mövcud cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Azərbaycan Respublikasının prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 oktyabr 1999-cu il
№ 728-IQ

# Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyir, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

Maddə 1 . **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

1.0.1. narkotik vasitələr - BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasında, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir;

1.0.2. psixotrop maddələr - BMT-nin 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır;

1.0.3. prekursorlar - narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır;

1.0.4. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövriyyəsi nəzarət edilən, məhdudlaşdırılmış və ya qadağan edilmiş (bundan sonra - nəzarət edilən) narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsi (idxalı), Azərbaycan Respublikasının ərazisindən çıxarılması (ixracı) və ya onların tranzit nəql edilməsi, habelə həmin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması, alınması, daşınması, göndərilməsi, məhv edilməsi, istifadə edilməsi və onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların aparılmasıdır;

1.0.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir;

1.0.6. tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilməsi və ya toplanmasıdır;

1.0.7. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması - həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və psixotrop maddələrin bilavasitə hazırlanmasına, yəni narkotik vasitələrin və psixotrop maddələrin istehsalına, emalına, safaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevrilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə, tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına, narkotik vasitələrin və psixotrop maddələrin alınmasına yönəldilmiş hərəkətlərdir;

1.0.8. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi - həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı ol-

mayan şəxsin vasitəsilə və digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş bütün hərəkətlərdir;

1.0.9. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi - həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlərdir;

1.0.10. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması - məqsədindən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla şəxsin idarəçiliyində olan narkotik vasitələrin və psixotrop maddələrin öz sərəncamında saxlanmasına yönəldilmiş bütün hərəkətlərdir;

1.0.11. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satılması - miqdarından asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, yaxud digər şəxsi maraq məqsədilə yayılmasına yönəldilmiş hərəkətlərdir;

1trial. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq orqanizmə yeridilməsi - narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxsin orqanizminə onun iradəsinə zidd olaraq hər hansı üsulla yeridilməsidir;

1.0.13. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əlavə edilməsi - narkotik vasitələrin və psixotrop maddələrin ərzaq məhsullarına, içkilərə və ya qidaya istehlakzının xəbəri olmadan əlavə edilməsidir;

1.0.14. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsidir;

1.0.15. narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxs tərəfindən qanunsuz istehlakına yardım edilməsi - narkotik vasitələrin və psixotrop maddələrin

qanunsuz istehlakı üçün başqa şəxslərə hər hansı bir şəxs tərəfindən vəsait, avadanlıq və ya yer verilməsi, yaxud da belə istehlaka bilavasitə köməklik göstərilməsidir;

1.0.16. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına təhrik etmə - bədii, audio, video və sair materialların, o cümlədən kompüterləşdirilmiş informasiya və digər vasitələr ilə düçünə və ya dolayı yolla narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etmədir;

1.0.17. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb etmə - nəticəsindən asılı olmayaraq düçünə və ya dolayı yolla digər şəxslərin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb edilməsidir (təklif etmə, qonaq etmə və sair);

1.0.18. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığa gətirə biləcək şəkildə onların qəbul edilməsidir;

1.0.19. narkomanlıq - xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılıqla, o cümlədən psixi və davranış pozuntuları ilə ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.20. narkomanlıq xəstəliyinə düçar olan şəxs - narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində onlardan psixi və (və ya) fiziki asılılıq vəziyyətinə düşən, o cümlədən psixi və davranış pozuntuları ilə müşahidə olunan və barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən "narkomanlıq" diaqnozu təyin edilmiş şəxsdir;

1.0.21. könüllü müalicə - özünün və ya onun qanuni nümayəndəsinin razılığı ilə xəstənin narkomanlıqdan narkoloji-tibb müəssisəsində müalicəsidir;

1.0.22. məcburi müalicə - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada həyata keçirilən narkomanlıq xəstəliyinə düçar olan şəxsin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsidir.

Maddə 9 . **Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılması**

9.1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

9.2. Milli İnformasiya Mərkəzinin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan və obyektiv məlumatların məcmusunu təşkil etməkdir.

9.3. Milli İnformasiya Mərkəzi aşağıdakı məlumatları özündə əks etdirir:

9.3.1. narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi və tibbi istifadəsi, onların tibbi, iqtisadi və digər nəticələri haqqında;

9.3.2. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onun nəticələri haqqında;

9.3.3. narkotik vasitələrə və psixotrop maddələrə olan tibbi və qeyri-tibbi tələbat haqqında;

9.3.4. narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərin və onlara olan qeyri-tibbi məqsədlərlə təklifin azaldılmasına yönəlmiş tədbirlər haqqında;

9.3.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı şəxsi həyat sirri olmayan məlumatlar;

9.3.6. narkotik vasitələrin və psixotrop maddələrin yayılmasına qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri tədbirlər haqqında;

9.3.7. narkotik vasitələrə və psixotrop maddələrə dair ölkədə aparılan epidemioloji tədqiqatların yekunları və ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi haqqında;

9.3.8. narkotik vasitələrə dair dövlət siyasətini və normativ hüquqi *tənzimlənmə-məsələləri* əhatə edən məlumatlar

## III fəsil

## NARKOTİK VASİTƏLƏRDƏN, PSİXOTROP MADDƏLƏRDƏN VƏ ONLARIN PREKURSORLARINDAN İSTİFADƏ

Maddə 23 . **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirləri**

23.1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət məsuliyyəti Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda yaranır.

23.2. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət məsuliyyətinə cəlb edildikdə onun müalicə olunduğu narkolojitibb müəssisəsi bu barədə məlumatlandırılır.

## V fəsil
## NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Maddə 24 . **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar həyata keçirilən tədbirlər**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

Maddə 25 . **Tibbi müayinə**

25.1. Tibbi müayinə yalnız narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata *keçirilir*. Narkotik sərxoşluq vəziyyətində olması və ya öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı şübhələr olan, habelə özündə narkotik vasitələr və psixotrop maddələr aşkar edilmiş şəxs Azərbaycan Respublikasının

qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tibbi müayinədən *keçirilir*. Tibbi müayinə dövlət narkoloji-tibb müəssisələrində həyata keçirilir.

25.2. Tibbi müayinə həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata *keçirilir*. Şəxsin tibbi müayinədən keçməsi haqqında tərtib edilən rəydə onun narkotik sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə insanın bioloji mühitlərinin tədqiqatı nəticəsində aşkarlanan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı əks etdirilməlidir.

25.3. Şəxsin tibbi müayinədən keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 30. **Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi**

30.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi - narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir.

30.2. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin vaxtında aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə yol verilir.

30.3. Nəzarətli göndərişin keçirilməsinə dair qərar yalnız narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul *edilir*.

Həmin qərarda istifadə edilən narkotik vasitənin, psixotrop maddənin və ya onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatlar mütləq göstərilməlidir.

30.4. Nəzarətli göndərişin həyata keçirilməsinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları həmin əməliyyatın Azərbaycan Respublikasının ərazisində aparılmasına bilavasitə rəhbərlik edirlər.

Maddə 31 . **Nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər.

Maddə 32 . **Müsadirə**

32.1. Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz hazırlanması üçün istifadə edilən alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür.

32.2. Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi yalnız Azərbaycan Respublikasının məhkəmə, prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılmış komissiya tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

32.3. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirlərinin tətbiq edilməsi nəticəsində müsadirə olunmuş və dövlət

hesabına yönəldilmiş əmlak, yalnız narkomanlığın profilaktikasına və narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsinə və sosial reabilitasiyasına sərf edilir.

## VI fəsil
## YEKUN MÜDDƏALAR

Maddə 33 . **Qanunun qüvvəyə minməsi qaydası**

33.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

33.2. Bu Qanun qüvvəyə mindiyi gündən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 1999-cu il 18 iyun tarixli Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 iyun 2005-ci il

## Polis haqqında
AZƏRBAYCAN RESPUBLİKASININ 28 oktyabr 959-IIQ№-li
QANUNU

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

**Maddə 1** .Əsas anlayışlar

Bu qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

trial - Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş, hüquq-mühafizə orqanıdır;

polis əməkdaşı - polis orqanlarında müəyyən vəzifə tutan və bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata kecirən dovlət qulluqçusudur;

tutulma - Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılmasıdır;

həbs - inzibati xətanın törədilməsinə görə inzibati tənbeh kimi və ya qətimkan tədbiri qismində Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində

nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığının müvəqqəti məhdudlaşdırmaqla müvafiq həbsdə saxlanılma yerində saxlanılmasıdır; i[1]

fiziki qüvvə - insan əzələlərinin gərilməsi nəticəsində yaranan güc vasitəsi ilə mexaniki təsir göstərmək qabiliyyətidir;

xüsusi vasitələr - dəyənəklər, əl-qolu bağlama vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatın məcburi dayandırma vasitələri və

Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş digər xüsusi vasitələrdir.

II. Polisin əsas vəzifələri aşağıdakılardır:

1) ictimai qaydanı qorumaq və ictimai təhlukəsizliyi təmin etmək;

2) cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər gormək;

2-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində fəaliyyət göstərmək; ii[2]

3) şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mulkiyyəti hüquqa zidd əməllərdən qorumaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda dovlət idarələrini və digər obyektləri muhafizə etmək;

5) törədilmiş cinayətləri açmaq;

6) cinayətlərin qeydiyyatını və uçotunu aparmaq;

7) cinayətkarları aşkara çıxarmaq və tutmaq;

8) səlahiyyətlərinə aid edilmiş işlər uzrə təhqiqat və istintaq aparmaq;

9) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati tənbeh və ya başqa təsir tədbirləri tətbiq etmək, tutulmuş və inzibati xətaya görə həbsə alınmış şəxsləri saxlamaq; iii[3]

10) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada Əməliyyat-axtarış fəaliyyətini həyata kecirmək;

11) kriminalistik və başqa tədqiqatların aparılmasını təmin etmək;

12) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətini müvafiq icra hakimiyyəti orqanı ilə birgə həyata kecirmək; iv[4]

13) hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq məqsədi ilə müqavilələr bağlamaq;

14) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş icazə-qeydiyyat işlərini aparmaq;

15) yol hərəkəti qaydalarına və hərəkət təhlukəsizliyinə riayət olunmasına nəzarət etmək;

16) yol hərəkəti təhlukəsizliyinin təmin edilməsi üçün tədbirlər gormək;

17) yol hərəkəti və onun təhlukəsizliyi göstəricilərinin vahid dovlət uçotu sistemini təşkil etmək.

II. Polisin hər hansı şəxslə insanın ləyaqətini alzaldan şəkildə rəftar etməsi

yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələnilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır.

III. Şəxsin hüquq və azadlıqlarına qarşı polis tərəfindən bu Qanunla nəzərdə tutulmuş tədbirlərin həyata kecirilməsinə yalnız Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş əsaslarla və qaydada yol verilir.

IV. Hər hansı şəxsin hüquq və azadlıqları məhdudlaşdırıldıqda polis əməkdaşı məhdudlaşdırmanın əsaslarını və səbəblərini, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrini ona izah etməlidir.

V. Polis tutulan və ya həbsə alınan şəxsin hüquqlarının həyata kecirilməsini təmin edir.

VI. Şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər gorməyə, vurulan ziyanı ödəməyə borcludur.

VII. Polis əməkdaşlarının qanuna zidd hərəkətləri nəticəsində vurulmuş ziyan

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir.

**Maddə 7** .Polisin qanuni tələblərinin icrasının məcburiliyi

I. Polis əməkdaşı bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri yerinə yetirərkən dovlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edir.

II. Azərbaycan Respublikasının ərazisində olan bütün hüquqi və fiziki şəxslər polis əməkdaşının qanuni tələblərini icra etməlidirlər.

III. Polis əməkdaşının qanuni tələblərinə tabe olmamaq, ona müqavimət göstərmək və zor işlətmək və ya onu təhqir etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

## II fəsil
## POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ

**Maddə 13** .Polis əməkdaşının ümumi vəzifələri

I.Polis əməkdaşının ğmumi vəzifələri aşağıdakılardır:

1) Hazırlanan cinayət və ya digər hüquqpozmaların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər gormək;

2) cinayət və ya digər hüquqpozmalar törətmiş şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlər gormək;

3) cinayətin baş verdiyi hadisə yerinin muhafizəsini təşkil etmək və şahidlərin müəyyənləşdirilməsi üçün tədbirlər gormək;

4) cinayətdən və digər hüquqpozmalardan, bədbəxt hadisədən zərərcəkmişlərə, həmcinin köməksiz, həyatı və sağlamlığı üçün təhlukəli vəziyyətə düşmüş şəxsə kömək vəilk tibbi yardımın göstərilməsini təmin etmək;

5) tutulmuş və ya həbsə alınmış şəxsin hüquqlarının və qanuni mənafelərinin pozulmamasını təmin etmək;

6) təbii fəlakətlər, qəzalar və digər fövqəladə hallar baş verdikdə insanların və əmlakın xilasetmə tədbirlərində iştirak etmək;

6-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınmasına yonəldilmiş tədbirlər həyata kecirmək; viii[8]

7) səlahiyyətlərini həyata kecirərkən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət etmək.

II. Polis əməkdaşları öz vəzifələrini həyata kecirərkən ayrıca əmr və ya göstəriş gozləmədən əməkdaşlıq etməyə, qarşılıqlı fəaliyyət göstərməyə və bir-birinə hərtərəfi kömək etməyə borcludurlar.

**Maddə 15** .Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri

Cintrialərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) cinayətin və digər hüquqpozmanın qarşısının alınması, baş vermiş cinayət hadisəsinin aşkara çıxarılması və onu törədən şəxsin müəyyənləşdirilməsi, cinayəti doğuran səbəblərinoyrənilməsi və aradan qaldırılması üçün tədbirlər gormək;

2) cinayət və digər hüquqpozmalar haqqında daxil olan ərizələrin və məlumat-ların qəbul edilməsini, qeydiyyatdan kecirilməsini və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada tədbirlərin gorulməsini təmin etmək;

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada cinayət işlərini başlamaq, təhqiqat və istintaq aparmaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata kecirmək;

5) bu maddənin 1-4-cü bəndlərində göstərilən məsələlər uzrə məhkəmənin (hakimin) və ya prokurorun qərarlarını, habelə mustəntiqin və ya təhqiqatçının qərarlarını və yazılı tapşırıqlarını icra etmək.

**Maddə 1 7** .Polis əməkdaşının ümumi hüquqları

Üzərinə duşən vəzifələrin yerinə yetirilməsi üçünn polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) hər bir şəxsdən cinayətlərə və digər hüquqpozmalara, şəxsiyyət və ictimai asayiş üçün təhlukə törədən və onlara şərait yaradan hərəkətlərə son qoyulmasını tələb etmək;

2) cinayət və ya inzibati xəta törətməkdə şübhə edilənlərin şəxsiyyətini müəyyənləşdirmək üçün sənədlərini yoxlamaq; xi[11]

3) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət və ya digər hüquqpozma törətmiş yaxud törədilməsində şübhələnilən şəxsi tutmaq;

4) cinayətin və digər hüquqpozmanın törədilməsinə şərait yaradan halların aradan qaldırılmasıüçün qanunla müəyyənləşdirilmiş qaydada dovlət və qeyri-dovlət orqanlarına, muəssisələrə, idarələrə, təşkilatlara, siyasi partiyalara, ictimai birliklərə, həmkarlar ittifaqları təşkilatlarına və vəzifəli şəxslərə baxılması məcburi olan təqdimatlar vermək;

5) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada binalara, yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, torpaq sahələrinə, muəssisə, idarə, təşkilatların əraçılərinə və tikililərinə daxil olmaq; xii[12]

6) xarici dovlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat vasitələri istisna edilməklə, son zərurət vəziyyətində hüquqi və fiziki şəxslərə məxsus olan nəqliyyat vasitələrində hadisə yerinə getmək, təcili tibbi yardıma ehtiyacı olan şəxsləri tibb muəssisələrinə çatdırmaq və cinayət törətmiş şəxsləri təqib etmək üçün bu nəqliyyat vasitələrindən istifadə etmək (belə hallarda nəqliyyat vasitələri sahiblərinin tələbi ilə onlara dəymiş ziyan polis tərəfindən ödənilməlidir);
7) dəbilqə, qalxan, zirehli köynək və digər fərdi muhafizə vasitələrindən istifadə etmək;
8) bu Qanunla müəyyənləşdirilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq etmək.
**Maddə 19** .Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının hüquqları
Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:
1) hazırlanan və törədilmiş cinayətlər haqqında ərizə və məlumatları yoxlamaq;
2) cinayətin açılması, təhqiqatın və istintaqın aparılması ilə əlaqədar hüquqi və fiziki şəxslərdən, dovlət sirri təşkil edən sənədlər istisna olmaqla, zəruri izahatlar, məlumatlar, arayışlar, sənədlər almaq, cinayət törətməkdə şübhələnilən şəxslərin barmaq izlərini göturmək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada prosessual hərəkətləri həyata kecirmək;
3) əməliyyat-axtarış fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata kecirmək;
4) cinayətin törədilməsi şəraitinin, onu törədən şəxsin, zərərcəkənlərin və şahidlərin müəyyənləşdirilməsi, gizlənən cinayətkarların və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı üçün dovlət informasiya vasitələrinin imkanlarından pulsuz istifadə etmək.

## I I I f ə s i l
## ŞƏXSİN AZADLIQ, MƏNZİL TOXUNULMAZLIĞI HÜQUQLARININ MƏHDUDLAŞDIRILMASI, FİZİKİ QÜVVƏNİN, XÜSUSİ VASİTƏLƏRİN VƏ YA ODLU SİLAHIN TƏTBİQİ İLƏ BAĞLI POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ

**Maddə 21** .Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılması

I. Polis əməkdaşı şəxsin azadlıq hüququnu hakimin qərarına əsasən tutulma və həbsəalma yolu ilə yalnız aşağıdakı hallarda məhdudlaşdıra bilər:

1) cinayət və ya inzibati hüquqpozma törədilməsində şübhəli olduqda, yaxud cinayət və ya inzibati hüquqpozma törətməsinə görə həbs olunduqda;

2) yetkinlik yaşına çatmamış şəxs üzərində tərbiyəvi nəzarət həyata keçirildikdə və ya səlahiyyətli orqana gətirildikdə;

3) yoluxucu xəstəliklərin yayılmasının qarşısı alındıqda, habelə ruhi xəstələr, alkoqoliklər, narkomanlar və avaralıqla məşğul olanlar zərərsizləşdirildikdə;

4) şəxsin olkəyə qanunsuz gəlməsinin qarşısı alındıqda və ya şəxs olkədən çıxarıldıqda, yaxud başqa dovlətə verildikdə;

5) təqsirləndirilən şəxsin, cavabdehin, şahidin məhkəmə iclasına gəlməsini təmin etdikdə, atalığın müəyyənləşdirilməsi üçün test keçirildikdə, psixi muayinə aparıldıqda və ya hər hansı öhdəliyin yerinə yetirilməsi (müqavilə öhdəlikləri istisna olmaqla) təmin edildikdə.

II. Polis əməkdaşı hər hansı şəxsi o vaxt tuta və ya həbsə ala bilər ki, məhkəmənin (hakimin) qərarında məhz həmin şəxsin azadlıq hüququnun məhdudlaşdırılması nəzərdə tutulsun.

III. Polis əməkdaşı tərəfindən məhkəmənin (hakimin) qərarı olmadan hər hansı şəxsin təxirəsalınmadan tutulmasına yalnız aşağıdakı hallarda yol verilə bilər: xvii[17]

1) şəxs cinayət və ya inzibati xəta törədərkən, yaxud törətdikdən bilavasitə sonar yaxalandıqda;

2) hadisəni bilavasitə görənlər, o cumlədən zərər çəkmiş şəxslər məhz həmin şəxsin cinayət və ya inzibati xəta törətdiyini göstərdikdə;

3) şübhə edilən şəxsdə və ya onun paltarında, ona məxsus digər əşyalarda və ya mənzilində cinayətin və ya inzibati xətanın izləri tapıldıqda.

IV. (çıxarılıb) xviii[18]

V. Şəxsin qanunsuz tutulmasına və ya həbsə alınmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**Maddə 22** .Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılma müddətləri

I. Bu qanunun 21-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılma müddəti yalnız qanunla müəyyənləşdirilir.

II. Bu qanunun 21-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılması müddətləri inzibati xətanın törədilməsi ilə əlaqədar Azərbaycan Respublikasının inzibati xətalar haqqında qanunvericiliyi ilə, cinayətin törədilməsi ilə əlaqədar isə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyənləşdirilir. xix[19]

**Maddə 23** .Azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşının vəzifələri

I. Azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı səlahiyyətlərini həyata kecirən polis əməkdaşı:

1) zəruri müdafiə və son zərurət halları istisna olmaqla şəxsin tutulması və ya həbsə alınması zamanı təhlukəsiz üsul və vasitələrdən istifadə etməlidir;

2) tutulan və ya həbsə alınan şəxsə özünü təqdim etməklə xidməti vəsiqəsini göstərməlidir;

3) tutulmadan dərhal sonra şəxsə tutulmanın əsaslarım bildirməli, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək, müdafiəcinin yardımından istifadə etmək hüquqlarını izah etməlidir; xx[20]

4) tutulmuş və ya həbsə alınmış şəxsi təxirəsalınmadan polis orqanına gətirməli, tutulma və ya həbsəalma faktını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada protokollaşdırmalı, tutulmuş və ya həbsə alınmış şəxsi bu protokolla tanış etməli, hər bir tutulma və ya həbsə alma faktını müvafiq polis orqanında qeydiyyatdan kecirməlidir;

5) tutulmuş və ya həbsə alınmış şəxsin yaxın qohumlarına, onun tələbi ilə iş və ya təhsil yerinə tutulması və ya həbsə alınması barədə təxirəsalınmadan məlumat verməlidir (qocaların, yetkinlik yaşına çatmayanların və psixi vəziyyətinə görə imkanı

olmayan tutulmuş şəxslərin ailə uzvlərinə müvəqqəti saxlama yerlərinin müdiriyyəti öz təşəbbusu ilə xəbər verir); xxi[21]

6) tutulmuş və ya həbsə alınmış şəxsin tələbi ilə habelə müdafiəcinin iştirakı məcburi olan hallarda həmin şəxsin müdafiəcinin köməyindən istifadə etmək hüququnu təmin etməlidir; xxii[22]

7) tutulmuş və ya həbsə alınmış şəxslə davranışda onun şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşmalı, qadınlara, yetkinlik yaşına çatmayanlara, qocalara, xəstələrə və əlillərə xüsusi diqqət yetirməlidir;

8)(çıxarılıb)

9) (çıxarılıb) xxiii[23]

10) məhkəmənin (hakimin) qərarına əsasən, habelə tutulma və ya həbsəalma müddətləri kecəndən sonra tutulan və ya həbsə alınan şəxsi dərhal azad etməlidir.

II. Polis əməkdaşı tutulmuş və ya həbs edilmiş şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqlarını təmin edir. xxiv[24]

**Maddə 24** .Polis tərəfindən mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması

I. polis əməkdaşı tərəfindən hər hansı şəxsin mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırmasına və mənzilə orada yaşayanların iradəsi ziddinə daxil olmasına yalnız aşağıdakı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada yol verilir: xxv[25]

1) hakimin qərarı olduqda;

2) digər şəxslərin hüquq və azadlıqlarının qorunması, ictimai qaydanın və ictimai təhlukəsizliyin təmin olunması və yaxud ağır cinayətlərin, bədbəxt hadisələrin, təbii fəlakətlərin, qəzaların, epidemiyaların və epizootiyaların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması məqsədi ilə təxirəsalınmaz tədbirlər həyata keçirildikdə.

II. Hakimin qərarı olmadan polis əməkdaşı mənzilə orada yaşayanların iradəsi ziddinə aşağıdakı əsaslardan birinin olduğu barədə dəqiq məlumatı və ya əsaslı şübhələri olduğu halda qanunvericiliklə müəyyən edilmiş qaydada daxil ola bilər: xxvi[26]

1) mənzildə şəxsiyyət əleyhinə ağır cinayətin və ya xüsusi təhlukəli dovləti cinayətin törədilməsi;

2) cinayət törətmiş, həbsdən və ya cəzacəkmə muəssisələrindən qaçmış şəxsin həmin mənzildə gizlənməsi; xxvii[27]

3) cinayət törətmiş şəxsin bilavasitə “isti izlərlə” təqib edilməsi;

4) mənzildə insan meyitinin olması;

5) mənzildə insan həyatı və ya sağlamlığı üçünn real təhlukənin olması, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə səbəb ola bilən əxlaqsız hərəkətlərin edilməsi.

III. Məhkəmənin (hakimin) qərarı və ya bu maddənin 1 və 2-ci hissələrində göstərilmiş hallardan və əsaslardan hər hansı biri olmadan mənzil toxunulmazlığı hüququnu məqsədəuyğunluq, müvəqqəti zərurilik və ya digər mulahizələrlə məhdudlaşdırmaq qadağandır.

IV. (çıxarılıb) xxviii[28]

V. Bu maddənin müddəaları fiziki və ya hüquqi şəxslərə məxsus qeyri-yaşayış binalarına, tikililərə, torpaq sahələrinə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər obyektlərinə daxilolma hallarına da şamil edilir.

VI. Mənzil toxunulmazlığı hüququnun qanunsuz məhdudlaşdırılmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**Maddə 25** .Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşının vəzifələri

I. Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı səlahiyyətlərini həyata kecirən polis əməkdaşı:

1) Bu Qanunun 24-cü maddəsinin 1-ci və 2-ci hissələrində göstərilmiş hallar və əsaslar olmadan mənzilə orada yaşayanların iradəsi ziddinə əsassız daxil olmamalıdır;

2) mənzilə daxil olmazdan əvvəl orada yaşayan və ya müvəqqəti qalan başqa şəxsə mənzilə daxilolmanın əsaslarını bildirməlidir;

3) mənzilə daxilolma ilə əlaqədar mənzildə yaşayan şəxsə onun hüquqlarını, həmin şəxs mənzilə daxil olmağa icazə vermədikdə isə onun qanuna zidd hərəkət etdiyini izah etməlidir;

4) mənzilə orada yaşayanların iradəsi ziddinə daxilolma zamanı zəruri müdafiə və ya son zərurət halları istisna olmaqla, təhlukəsiz üsul və vasitələrdən istifadə etmə-

li, mənzildə olan şəxslərin şərəf və ləyaqətinə, həyatı və sağlamlığına, mülkiyyətinə hörmətlə yanaşmalı, zərurət olmadan zərər vurulmasına yol verməməlidir;

5) mənzilə orada yaşayanların iradəsi ziddinə daxilolma faktını Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş qaydada təxirəsalınmadan protokollaşdırmalı və müvafiq polis orqanında qeydiyyatdan kecirməlidir;

6) (çıxarılıb) xxix[29]

7) mənzilə daxilolma ilə əlaqədar mənzildə yaşayanların şəxsi və ailə həyatının ona məlum olmuş hallarını açıqlamamalıdır. xxx[30]

II. Polis əməkdaşı mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirməlidir. xxxi[31]

**Maddə 26** .Polis tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi

I. Polis əməkdaşı onun qanuni tələblərini icra etməyən hər hansı şəxsə qarşı yalnız aşağıdakı hallarda fiziki qüvvə tətbiq edə bilər:

1) hazırlanan və ya törədilən cinayətin qarşısı alındıqda;

2) inzibati xətanı və ya cinayət törədən şəxs tutulduqda; xxxii[32]

3) hər hansı hüquqpozmanın törədilməsində güc işlədildikdə.

II. Polis əməkdaşı onun qanuni tələblərini icra etməyən hər hansı şəxsə qarşı xüsusi vasitələri aşağıdakı hallarda tətbiq edə bilər:

1) insan həyatına və sağlamlığına real təhlukə yaradan basqın və ya digər zorakılıq edildikdə;

2) qiyam və ya kütləvi iğtişaşlar baş verdikdə;

3) girov saxlanılan şəxs və ya zəbt olunmuş binalar, tikililər, qurğular, torpaq sahələri və nəqliyyat vasitələri azad edildikdə;

4) yaşayış binalarına, habelə muəssisələrin, idarələrin, təşkilatların binalarına qrup halında basqın dəf edildikdə;

5) müqavimət göstərən və ya insan həyatı və sağlamlığı, habelə mulkiyyət əleyhinə cinayət törədən şəxs yaxalandıqda və ya qaçmağa cəhd göstərdikdə;

6) tutulan şəxs tərəfindən silahlı müqavimət göstərildikdə və ya göstərəcəyinə ehtimal etməyə kifayət qədər əsas olduqda;

ü) cinayət törədilməsində şübhələndiyinə görə tutulmuş, barəsində həbs qəti-imkan

tədbiri seçilmiş və ya müəyyən müddətə azadlıqdan məhrum etmə yaxud ümürlük azadlıqdan məhrum etmə novundə cəzaya məhkum olunmuş şəxsin həbsdən qaçmasının qarşısını aldıqda, habelə bu şəxsin qanunsuz azad edilməsi üçün kənar şəxslər tərəfindən güc işlədildikdə; xxxiii[33]

8) ictimai təhlukəli əməl törətmiş şəxsi tutub polisə gətirərkən onun müqavimət göstərə biləcəyi və ya qaçma ehtimalı olduqda;

9) həbs olunanları muşayiət etdikdə;

10) şəxsin təhlukəli hərəkətləri ilə özünə və ya ətrafındakılara zərər yetirə biləcəyi ehtimalı olduqda;

11) ictimai təhlukəli əməl törətmiş şəxs tutularkən onu binadan, nəqliyyat vasitəsindən çıxmağa məcbur etdikdə;

12) şəxs öz hərəkətləri ilə insan həyatına və sağlamlığına real təhlukə yaratdıqda, nəqliyyat vasitəsini dayandırmaq haqqında polis əməkdaşının aşkar olan dayanma tələbinə tabe olmadıqda və onun saxlanılmasına başqa imkan olmadıqda (məcburi dayandırma vasitələri).

III. 2-ci və 12-ci bəndləri istisna olmaqla bu maddənin 2-ci hissəsində nəzərdə tutulmuş hallarda polis əməkdaşı xidməti itdən də istifadə edə bilər.

IV. Polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aşağıdakı hallarda odlu silah tətbiq edə bilər:

1) bu maddənin 2-ci hissəsinin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində nəzərdə tutulmuş hallarda ictimai təhlukəli əməl odlu silah işlədilməklə törədildikdə;

2) bu maddənin 2-ci hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş hallar olduqda;

3) insan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə;

4) şəxs yaxalanarkən silahlı müqavimət göstərdikdə;

5) insan həyatına real təhlukə yaradan cinayətin qarşısı alındıqda;

6) odlu silahın digər şəxs tərəfindən ələ kecirilməsinin qarşısı alındıqda;

7) insana hücum edən və ya real təhlukə yaradan heyvan məhv edildikdə.

V. Bu maddənin 4-cü hissəsində müəyyən edilən hallardan başqa, həmcinin təhlukə və ya xəbərdarlıq siqnalı verildikdə, habelə yardım çağırıldıqda odlu silahdan istifadə edilə bilər.

VI. Bu qanunun tələblərinə uyğun olaraq fiziki qüvvənin, xğsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi yaranmış təhlukəyə mutənasib olmalıdır. Fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi zamanı hər hansı şəxsin həyatdan məhrum edilməsi yaşamaq hüququnun pozulması kimi qiymətləndirilə bilməz.

VII. Polis əməkdaşı tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edildiyi hər bir halda polis orqanında xidməti yoxlama aparılmalı və fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın qanunauyğunluğu barədə müvafiq rəy

verilməlidir.

VIII. İnsanın anatomik bütovlüyünə muxtəlif dərəcəli xəsarətlər yetirməklə dağıdıcı təsir göstərə bilən və ya özünü doğrultmayan yuksək təhlukə mənbəyi olan xüsusi vasitələrin polisin sərəncamına verilməsi qadağandır.

IX. Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın qanunsuz tətbiqinə yol verən polis məkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**Maddə 27** .Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının vəzifələri

I. Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı vəzifələrini həyata keçirən polis əməkdaşı:

1) insana qarşı fiziki qüvvə, xüsusi vasitələri və ya odlu silahı yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquqpozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq etməlidir;

2) odlu silah işlətməklə basqın edildiyi və ya silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, fiziki qüvvə, xüsusi vasitələr və odlu silah qadınlara, azyaşlılara, yanında azyaşlı olan, əlilliyi, sağlamlıq imkanlarının məhdudluğu və digər fiziki və psixi qüsurları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı yerlərdə kənar şəxslərin zərər cəkəbiləcəyi hallarda odlu silahı tətbiq etməməlidir; xxxiv[34]

3) yalnız real təhlükənin qarşısı alınarkən odlu silah tətbiq edə bilər;

4) odlu silahı tətbiq etməzdən əvvəl şifahi xəbərdarlıq etməli və ya xəbərdarlıq atəşi azmalıdır (qəfil, yəni birdən-birə gozlənilməz hücum baş verərsə, habelə hücum üçün odlu silahdan, mexaniki nəqliyyat vasitəsindən, təhlukə yaradan yırtıcı, vəhşi

və ya başqa heyvandan istifadə olunarsa, polis əməkdaşı xəbərdarlıq etmədən odlu silahı tətbiq edə bilər.

5) fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi nəticəsində zərərçəkənlərə tibbi yardımın göstərilməsini təmin etməlidir;

6) odlu silahın tətbiq edildiyi yerin dəyişdirilməmiş saxlanılmasına çalışmalıdır;

7) fiziki qüvvə, xüsusi vasitələr və odlu silah tətbiq etdiyi hallar barəsində polis əməkdaşı dərhal xidmət etdiyi və ya odlu silahın tətbiq edildiyi ərazinin polis orqanınayazılı məlumat verməlidir;

8) fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi barədə 24 saat ərzində müvafiq prokurora yazılı məlumat verməlidir.

**Gömrük Məcəlləsindən (çıxarış)**

24 iyun 2011-ci il tarixli 164-IV Q №li Qanunla təsdiq edilmişdir.

**Maddə 8. Gömrük orqanlarının vəzifələri.**

8.0.10. gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların, ozonlaşdırıcı maddələrin, xalqların mədəni, tarixi və arxeoloji sərvətlərinin, əqli mülkiyyət hüquqları obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq;

**Maddə 9. Gömrük orqanlarının hüquqları.**

9.0.6. malların, nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin bunlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərinin yerinə yetirilməsini yoxlamaq, gömrük prosedurlarına nəzarəti həyata keçirmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, əməliyyat-axtarış fəaliyyətini sürətləndirmək və digər məqsədlər üçün gömrük orqanlarının sistemi daxilində mobil qruplar yaratmaq;

9.0.7. təhqiqatı, istintaqı gömrük orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, onları hazırlayan, törədən və törətmiş şəxsləri müəyyənləşdirmək məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

9.0.8. cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təhqiqat və ibtidai istintaq aparmaq;

9.0.13. bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada fiziki qüvvədən, xüsusi vasitələrdən (o cümlədən texniki vasitələrdən) və odlu silahdan istifadə etmək;

**Maddə 19. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti**.

19.1. Gömrük orqanları təhqiqatının və istintaqının aparılması səlahiyyətlərinə aid edilmiş cinayətlərin qarşısının alınması, azkar edilməsi və açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirirlər.

19.2. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və əməliyyat-axtarış fəaliyyətini tənzimləyən digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 214. Malların gömrük ərazisinə gətirilməsinin və bu ərazidən aparılmasının qadağan edilməsi.**

214.1. Milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, mülkiyyət hüququnun, o cümlədən əqli mülkiyyət hüquqları obyektlərinin, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması baxımından və Azərbaycan Respublikasının başqa maraqları nəzərə alınaraq, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq aşağıdakı malların gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağandır:

214.1.1. saxta kağız və metal pullar;

214.1.2. gömrük ərazisinə idxalı və bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları;

214.1.3. pornoqrafik materiallar və əşyalar;

214.1.4. gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan olunmuş mallar.

**Maddə 216. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişinin xüsusiyyətləri.**

216.1. Nəzarətli göndəriş – qanunsuz dövriyyəyə daxil edilmiş ayrı-ayrı malların xarici dövlətlərin gömrük və başqa səlahiyyətli orqanları ilə razılaşdırılmış mallara və ya beynəlxalq müqavilələrə uyğun olaraq əməliyyat-axtarış fəaliyyəti subyekt-

lərinin nəzarəti altında gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və ya tranzitlə keçirilməsi üzrə əməliyyat-axtarış tədbiridir.

216.2. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişinə, malların qanunsuz beynəlxalq dövriyyəsi ilə bağlı törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması və dövriyyədə iştirak edən şəxslərin aşkar edilməsi məqsədi ilə yol verilir.

216.3. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla digər əməliyyat-axtarış fəaliyyətinin subyektləri qəbul edir.

216.4. Gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi metodundan istifadə haqqında qərar qəbul edildikdə və malların təyinat yeri xarici ölkə olduqda, əməliyyat-axtarış işi açılmaqla, dərhal Azərbaycan Respublikasının Baş prokuroruna məlumat verilir və əməliyyat-axtarış tədbirlərinin nəticələrindən asılı olaraq, qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət işinin başlanılıb-başlanılmaması məsələləri həll edilir.

**Maddə 217. Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən malların götürülməsi.**

Nəzarətli göndəriş metodundan istifadə etməklə gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış mallar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada götürülə bilər.

## Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir.

### I Fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti anlayışı və onun təyinatı

1.1. Kəşfiyyat fəaliyyəti - Azərbaycan Respublikasının müvafiq dövlət orqanla-rının ölkənin siyasi, iqtisadi, sosial, elmi-texniki, hərbi və digər sahələrdə milli maraqlarının müdafiəsi ilə bağlı məlumatların əldə edilməsinə və təhlilinə yönəlmiş, milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətidir.

1.2. Kəşfiyyat fəaliyyəti Azərbaycan Respublikasının milli maraqlarının təmin edilməsinə və milli təhlükəsizlik siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmişdir.

1.3. Əks-kəşfiyyat fəaliyyəti - Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və digər milli maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətdir.

1.4. Əks-kəşfiyyat fəaliyyəti Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsinə mane olan və ya bu maraqlara təhlükə yaradan şərait, proses və amillərdən qorunmasına yönəlmişdir.

**Maddə 2.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin hüquqi əsasları

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, “Milli təhlükəsizlik haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunları, bu qanun və digər normativ

hüquqi aktlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

**Maddə 4.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarının təminatları

4.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti həyata keçirilərkən şəxsiyyətin şərəf və ləyaqətini alzaldan hərəkətlərə yol verilməməlidir. Hər bir şəxs kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri ilə əməkdaşlığa yalnız öz razılığı ilə cəlb edilə bilər.

4.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti zamanı şəxsi toxunulmazlıq hüququnun məhdudlaşdırılmasına yol verilmir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti prosesində hər kəsin şəxsi və ailə həyatı barədə əldə edilmiş sirlərin onun razılığı olmadan açıqlanmasına yol verilmir.

4.3. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirləri tətbiq edilərkən mənzil toxunulmazlığı, telefon danışıqları, poçt, teleqraf və digər göndərişlər vasitəsi ilə ötürülən məlumatların sirrini saxlamaq hüquqlarının məhdudlaşdırılması, həmçinin texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, insanların güdülməsi ilə əlaqədar tədbirlərin keçirilməsinə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunu, habelə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada yol verilir.

4.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları öz xidməti vəzifələrini yerinə yetirərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulmasına yol verdikdə, müvafiq subyektlər bu hüquq və azadlıqların bərpa olunması, dəymiş zərərin ödənilməsi və təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görməlidirlər.

4.5. Hakimiyyətdən sui-istifadə etmiş və ya qulluq səlahiyyətlərini aşmış kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

4.6. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri tərəfindən bu Qanunda nəzərdə tutulmuş kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi halları istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə,

səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.[1]

## II Fəsil
## KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİNİN SUBYEKTLƏRİ, ONLARIN SƏLAHİYYƏTLƏRİ VƏ ƏLAQƏLƏRİ

**Maddə 6**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri

6.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri - Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən xüsusi xidmət orqanlarıdır.

6.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri və onların səlahiyyət dairəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Həmin subyektlərin işinin əlaqələndirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

6.3. Digər müvafiq icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin müraciəti əsasında kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsində iştirak edirlər.

**Maddə 7.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin vəzifələri

7.1. Kəşfiyyat fəaliyyəti subyektlərinin vəzifələri aşağıdakılardır:

7.1.1. xarici dövlətlərin, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının milli maraqlarına təhdid edən real və potensial imkanları, hərəkətləri, planları və niyyətləri barədə məlumatların əldə edilməsi, təhlili və təhdidlərin proqnozlaşdırılması;

7.1.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılması;

7.1.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının və digər dövlət orqanlarının siyasi, iqtisadi, hərbi, elmi-texniki, ekoloji və milli təhlükəsizliyin təminatı ilə bağlı digər sahələr üzrə qərarlar qəbul etməsi üçün zəruri kəşfiyyat məlumatları ilə təmin olunması;

7.1.4. Azərbaycan Respublikasının iqtisadi inkişafına, elmi-texniki tərəqqisinə və təhlükəsizliyinin hərbi təminatına köməklik göstərilməsi;

7.1.5. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən idarə və təşkilatlarında dövlət sirlərinin mühafizəsinin təmin edilməsi;

7.1.6. kəşfiyyat tədbirlərinin tətbiqi zamanı əks-kəşfiyyat təminatının həyata keçirilməsi;

7.1.7. texniki kəşfiyyatın həyata keçirilməsi;

7.1.8. Əks-kəşfiyyat fəaliyyəti subyektlərinin kəşfiyyat məlumatları ilə təmin edilməsi;

7.1.9. Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik və digər nümayəndəliklərinin əməkdaşlarının və onların ailə üzvlərinin təhlükəsizliyinin zəruri hallarda təmin edilməsi;

7.1.10. dövlət sirri təşkil edən məlumatların daşıyıcıları olan Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə ezamiyyət müddətində təhlükəsizliyinin zəruri hallarda təmin edilməsi.

7.2. Əks-kəşfiyyat fəaliyyəti subyektlərinin vəzifələri aşağıdakılardır:

7.2.1. xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, habelə cinayətkar qrupların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və sair milli maraqlarına zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin aşkarlanması, qabaqlanması və qarşısının alınması;

7.2.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına və onun tapşırığı ilə digər dövlət orqanlarına ölkənin milli təhlükəsizliyinə və milli maraqlarına zərər vura biləcək təhdidlər barədə məlumat verilməsi;

7.2.3. xarici xüsusi xidmət orqanlarının texniki kəşfiyyatına qarşı əks tədbirlərin həyata keçirilməsi;

7.2.4. öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsinin əməliyyat təminatının həyata keçirilməsi;

7.2.5. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, hərbi hazırlığının və döyüş qabiliyyətinin zəifədilməsinə yönəlmiş fəaliyyətin aşkarlanması, qabaqlanması və qarşısının alınması;

7.2.6. öz səlahiyyətləri daxilində müdafiə kompleksi, energetika, nəqliyyat, rabitə və digər sahələrdə strateji əhəmiyyətli obyektlərin, həmçinin milli təhlükəsizlik

baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və bu fəaliyyətin nəticələrinin, o cümlədən məlumatların, sənədlərin və proqram təminatı vasitələrinin təhlükəsizliyinin təmin edilməsi;

7.2.7. ali dövlət hakimiyyəti orqanlarının və xüsusi obyektlərin mühafizəsinin əks-kəşfiyyat təminatının həyata keçirilməsi;

7.2.8. Azərbaycan Respublikasının ərazisində yerləşən xarici dövlətlərin diplomatik və digər nümayəndəliklərinin təhlükəsizliyinin başqa dövlət orqanları ilə qarşılıqlı əlaqədə təmin edilməsi;

7.2.9. öz qulluq mövqeyinə görə dövlət sirri təşkil edən məlumatlar, sənədlər və texniki vasitələrlə işləməyə buraxılacaq şəxslər barədə yoxlama tədbirlərinin "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilməsi; [2]

7.2.10. öz qüvvə və vasitələri, o cümlədən texniki vasitələri ilə polisə və digər hüquq mühafizə orqanlarına cinayətkarlıqla mübarizədə kömək göstərilməsi;

7.2.11. kəşfiyyat fəaliyyəti subyektlərinin əks-kəşfiyyat məlumatları ilə təmin edilməsi;

7.2.12. öz səlahiyyətləri daxilində transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin aparılması;

7.2.13. Əks-kəşfiyyat fəaliyyətinin təminatı ilə bağlı "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda müəyyən edilmiş digər vəzifələrin həyata keçirilməsi.

7.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri həmçinin:

7.3.1. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparır, informasiya təhlükəsizliyini təmin edir;

7.3.2. öz əməkdaşlarının və onlara kömək edən şəxslərin məxfiliyini təmin edir;

7.3.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin xüsusi xidmət orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularını icra edir;

7.3.4. öz əməkdaşlarının, onların yaxın qohumlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərin, onların yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlaklarını hüquqazidd qəsdlərdən qoruyur;

7.3.5. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət sirri təşkil edən məlumatların mühafizəsini, məxfilik rejimini, xüsusi rabitə növlərinin və şifrləmə işinin təhlükəsizliyinin təmin edilməsində iştirak edir;

7.3.6. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin müəyyən etdiyi qaydada öz daxili təhlükəsizliyini təmin edir;

7.3.7. milli təhlükəsizlik məsələləri ilə bağlı elmi tədqiqatlar və araşdırmalar aparır;

7.3.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

7.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri Azərbaycan Respublikasının ərazisində bu fəaliyyətin digər subyektlərinin səlahiyyətlərinə aid olan faktlar aşkar edildikdə, təxirəsalınmaz tədbirlər həyata keçirməklə həmin subyektləri məlumatlandırır və onlara zəruri kömək göstərir.

**Maddə 8.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hüquqları

8.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hüquqları aşağıdakılardır:

8.1.1. Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunmasına, onun milli maraqlarına zərər vura biləcək əməllərdən qorunmasına dair dövlət proqramlarının işlənib hazırlanmasında iştirak, habelə milli təhlükəsizliklə bağlı qanunların və digər normativ hüquqi aktların, beynəlxalq saziş və müqavilə layihələrinin öyrənilməsi və müvafiq təkliflərin verilməsi;

8.1.2. Azərbaycan Respublikasına qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti aparan xarici xüsusi xidmət orqanlarına və təşkilatlarına nüfuzetmənin həyata keçirilməsi;

8.1.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada rabitə kanallarından və digər mənbələrdən məlumatların çıxarılması;

8.1.4. informasiya sistemlərindən, radioelektron, video, audio vasitələrdən, kino və fotoçəkilişlərdən və digər metod və vasitələrdən istifadə edilməsi;

8.1.5. kriminalistik tədqiqatların aparılması;

8.1.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məlumatların toplanması, təhlili və istifadəsi, o cümlədən dövlət və yerli özünüidarə orqanlarından, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlardan və onların vəzifəli şəxslərindən tələb olunan məlumatların əvəzsiz alınması, onların sənədlərindən və informasiya banklarından istifadə edilməsi;

8.1.7. könüllülük və məxfilik prinsiplərinə əsasən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edə bilən şəxslərlə əməkdaşlıq münasibətlərinin qurulması;

8.1.8. qarşılıqlı razılıq, o cümlədən müqavilə əsasında, dövlət və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların binalarından, həmçinin vətəndaşların yaşayış və digər tikililərindən zəruri müddətlərdə istifadə edilməsi;

8.1.9. xüsusi xidmət orqanlarının müəyyən etdiyi hallarda və qaydada kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının şəxsiyyətinin, onların idarə mənsubiyyətinin, bina və nəqliyyat vasitələrinin, habelə məxfi əsasla bu subyektlərə kömək edən şəxslərin pərdələnməsi məqsədi ilə digər dövlət və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların sənədlərindən istifadə edilməsi;

8.1.10. konspirasiya məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada uydurma idarə, müəssisə, təşkilat və digər hüquqi şəxslərin yaradılması;

8.1.11. informasiya-məlumat sistemləri və əməliyyat materialları fondlarının yaradılması, habelə orada olan məlumatların və sənədlərin uçotu, saxlanması və istifadə qaydalarının müəyyənləşdirilməsi;

8.1.12. odlu silahın, digər xidməti və mülki silahın, döyüş sursatının əldə edilməsi və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada istifadə olunması;

8.1.13. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xüsusi təyinatlı dəstələrin yaradılması və onlardan istifadə olunması;

8.1.14. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və öz səlahiyyətləri daxilində xarici dövlətlərin xüsusi xidmət və hüquq mühafizə orqanları ilə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, onlarla əməliyyat məlumatının, xüsusi texniki və digər vasitələrin mübadilə edilməsi, beynəlxalq müqavilələrin və sazişlərin bağlanması;

8.1.15. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlardan istifadə edilməsi.

8.2. Əks-kəşfiyyat fəaliyyəti subyektlərinin həmçinin aşağıdakı hüquqları vardır:

8.2.1. milli maraqlara zərər vura biləcək kəşfiyyat fəaliyyətinin və təxribat-pozuculuq əməllərinin vaxtında qarşısının alınmasına yönəlmiş profilaktik tədbirlərin həyata keçirilməsi;

8.2.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər daxilində cinayət işlərinin başlanılması, təhqiqatın və ibtidai istintaqın aparılması;

8.2.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə olan təhdidlərin reallaşmasına zəmin yaradan səbəb və şəraitin aradan qaldırılması barədə dövlət və yerli özünüidarə orqanlarına, mülkiyyət formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatlara, onların vəzifəli şəxslərinə təqdimatların verilməsi.

## III Fəsil
## KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

**Maddə 10**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi üçün səbəblər və əsaslar

10.1. Kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi üçün səbəblər aşağıdakılardır:

10.1.1. Azərbaycan Respublikasının milli maraqlarının təmin edilməsi üçün əlverişli şəraitin yaradılması;

10.1.2. Azərbaycan Respublikasına qarşı təcavüz, güc tətbiqi və ya tətbiq edilməsi hədəsi, düşmənzilik siyasətinin yeridilməsi;

10.1.3. kütləvi qırğın silahlarının Azərbaycan Respublikasına qarşı istifadə edilə bilməsi ehtimalı;

10.1.4. transmilli təhdidlərin mövcudluğu;

10.1.5. Azərbaycan Respublikasının maraqlarına toxunan mövcud və potensial regional münaqişələrin olması;

10.1.6. xarici dövlətlərin xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının milli maraqlarına zidd olan kəşfiyyat-pozuculuq fəaliyyəti;

10.1.7. Azərbaycan Respublikasının dövlət müstəqilliyinə, suverenliyinə, konstitusiya quruluşuna, ərazi bütövlüyünə, xalqın və ölkənin milli maraqlarına, şəxsiyyət, cəmiyyətin və dövlətin hüquq və mənafelərinə qarşı xarici təhdidlərin mövcudluğu.

10.2. Kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi prioritetlərini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

10.3. Əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi üçün səbəblər aşağıdakılardır:

10.3.1. siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, mədəni və elmi-texniki sahələrdə Azərbaycan Respublikasının milli maraqlarına təhdidlərin mövcudluğu;

10.3.2. xarici xüsusi xidmət orqanlarının və təşkilatların, habelə ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının təhlükəsizliyinə qarşı yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinə aid məlumatların olması;

10.3.3. dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təmin olunması zərurəti;

10.3.4. separatizm, etnik, dini və siyasi ekstremizm halları haqqında məlumatların mövcudluğu;

10.3.5. kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, hərbi texnikanın, silahın və sursatın qanunsuz daşınması məqsədilə Azərbaycan Respublikasının ərazisindən tranzit kimi istifadə edilməsi cəhdlərinin mövcudluğu;

10.3.6. məxfi əsasla əməkdaşlığa cəlb olunan və ya kömək edən şəxslərin öyrənilməsi zərurəti;

10.3.7. daxili təhlükəsizliyin təmin edilməsi.

10.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti xüsusi xidmət orqanlarının səlahiyyətli şəxslərinin qərarları əsasında həyata keçirilir.

**Maddə 11**. Kəşfiyyat və əks-kəşfiyyat tədbirləri

11.1. Kəşfiyyat fəaliyyəti subyektləri bu fəaliyyətin məqsədlərinə nail olmaq üçün aşağıdakı tədbirləri həyata keçirə bilərlər:

11.1.1. vətəndaşların sorğusu;

11.1.2. soraqlaşma;

11.1.3. radioelektron, video, audio, kino və fotoçəkilişlərinin aparılması;

11.1.4. rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;

11.1.5. Əşya və sənədlərin tədqiqi;

11.1.6. müqayisəli tədqiq üçün nümunələrin toplanılması;

11.1.7. şəxsiyyətin eyniləşdirilməsi;

11.1.8. nəzarətli göndərişlərin həyata keçirilməsi;

11.1.9. hüquqi şəxsin yaradılması.

11.2. Kəşfiyyat fəaliyyəti həyata keçirilərkən bu fəaliyyətin mahiyyətinə uyğun dövlət sirri təşkil edən xüsusi tədbirlərdən, metod və vasitələrdən istifadə edilə bilər.

11.3. Azərbaycan Respublikasının ərazisində öz vətəndaşları barədə kəşfiyyat fəaliyyətinin xüsusi tədbirlərinin, metod və vasitələrinin tətbiq edilməsinə yol verilmir.

11.4. Əks-kəşfiyyat fəaliyyətinin subyektləri bu fəaliyyəti həyata keçirərkən “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunmuş əməliyyat-axtarış tədbirlərini və dövlət sirri təşkil edən digər xüsusi tədbirləri tətbiq edirlər.

11.5. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün səbəblər və əsaslar, onların tətbiqi şərtləri, həyata keçirilməsi, bu tədbirlərə dair qərarların, yazılı tapşırıqların və sorğuların verilməsi, habelə keçirilən tədbirlərin nəticələrindən istifadə edilməsi qaydaları “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir.

11.6. Kəşfiyyat və əks-kəşfiyyat tədbirləri həyata keçirilərkən konspirasiya prinsipinə əsasən xüsusi xidmət orqanlarının qüvvə, vasitə, hərəkət, plan və niyyətlərinin xarici təzahürləri gizlədilə, həmçinin rəqibin aldadılması məqsədi ilə münasib niyyətləri və hərəkətləri təqlid edən davranış modeli tətbiq edilə bilər.

11.7. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə bağlı tədbirlərin hazırlanması və həyata keçirilməsi qaydası, həmçinin istifadə edilməli gizli üsul və vasitələr, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərini özündə əks etdirən əməliyyat-qeydiyyat işlərinin başlanılması, növləri, qeydiyyatı, aparılması qaydaları, habelə bu işlərə dair materialların saxlanılması müddətləri kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin normativ hüquqi aktları ilə müəyyən olunur.

**Maddə 12**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələrindən istifadə edilməsi

12.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri barədə məlumatlar ümumiləşdirilərək milli təhlükəsizlik siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün mütəmadi olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

12.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri:

12.2.1. milli təhlükəsizliyin təmin olunması sahəsində dövlət proqramlarının hazırlanmasında;

12.2.2. milli təhlükəsizliyin təmin olunması ilə bağlı qanunların və digər normativ hüquqi aktların, beynəlxalq saziş və müqavilələrin layihələrinin hazırlanmasında və ya onlara dair təklifərin verilməsində;

12.2.3. kəşfiyyat fəaliyyətinin prioritetlərinin müəyyən edilməsində;

12.2.4. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin qiymətləndirilməsində və təkmilləşdirilməsində;

12.2.5. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə konkret göstərişlərin hazırlanmasında;

12.2.6. milli təhlükəsizliyə təhdidlərin proqnozlaşdırılmasında;

12.2.7. siyasi, iqtisadi, hərbi, elmi-texniki və milli təhlükəsizliyin təminatı ilə bağlı digər sahələrdə qərarların qəbul edilməsində;

12.2.8. iqtisadi inkişafa, elmi-texniki tərəqqiyə nail olunmasında;

12.2.9. dövlət sirlərinin mühafizəsi işinin təkmilləşdirilməsində;

12.2.10. cinayət təqibinin başlanmasında istifadə edilə bilər.

12.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri cinayət prosesində, bir qayda olaraq, bu şərtlə istifadə edilir ki, onlar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq surətdə əldə edilmiş olsun. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri yalnız xüsusi xidmət orqanının səlahiyyətli şəxsinin qərarı əsasında ibtidai araşdırmanı aparan orqana və ya məhkəməyə verilə bilər.

12.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti nəticəsində əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət prosesində sübut kimi qəbul edilməsinin mümkünlüyü Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 13.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında məlumatların mühafizəsi

13.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti həyata keçirilərkən bu fəaliyyətin mahiyyətinə uyğun aşkar, yaxud qeyri-aşkar metod və vasitələrdən istifadə edilir.

13.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin təşkili, taktikası, gizli üsulları və vasitələri haqqında, habelə qanunvericilikdə müəyyən olunmuş digər məlumatlar dövlət sirri təşkil edir.[3]

13.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektinə hərbi xidmətə (işə) qəbul olunan vətəndaşlar, həmçinin bu orqanlar haqqında məlumatları bilmək hüququna malik şəxslər dövlət sirri təşkil edən məlumatların yayılmaması barədə öhdəlik qəbul etməklə, müvafiq rəsmiləşdirmə prosedurunu keçirlər.

13.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinin əməkdaşları və bu orqanlarla əməkdaşlıq (kömək) edən və ya etmiş şəxslər dövlət sirri təşkil edən məlumatları yaymağa görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. [4]

13.5. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinin əməkdaşları, onlarla məxfi əsasla əməkdaşlıq (kömək) edən və ya etmiş şəxslər barədə, habelə göstərilən fəaliyyətin həyata keçirilməsinin təşkili, taktikası, üsul və vasitələri haqqında məlumatları ehtiva edən sənədlərin və materialların yayılmasına yol verilmir və onlar bu orqanların arxivlərində saxlanılır.

13.6. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinin arxivlərinin məxfilikdən çıxarılmış tarixi və ya elmi əhəmiyyət kəsb edən materialları Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada saxlanmaq üçün digər dövlət arxivlərinə verilə bilər.

## IV Fəsil

**Maddə 14**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları

14.6. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq etmək hüququna malikdirlər.

14.7. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları dövlət və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə, təşkilatların xidməti otaqlarına və əraçılərinə onların rəhbərlərini qabaqcadan xəbərdar etməklə daxil olmaq hüququna malikdirlər.

14.10. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının peşə hazırlığının artırılması və kadrların hazırlanması məqsədi ilə tədris müəssisələri yaradılır.

14.11. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri xarici dövlətlərin xüsusi xidmətləri ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində əməkdaşlıq edə bilərlər.

**Maddə 16**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslər

16.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri onların üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün aşkar və ya məxfi əsasla öz razılığını verən, yetkinlik yaşına çatmış, fəaliyyət qabiliyyətli şəxsləri əməkdaşlığa cəlb edə bilərlər.

16.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslər aşağıdakı hüquqlara malikdirlər:

16.2.1. məxfi əməkdaşlıq barədə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri ilə müqavilə bağlamaq və ya şifahi razılıq vermək;

16.2.2. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarından öz vəzifələri və hüquqları barədə məlumat almaq;

16.2.3. konspirasiya məqsədi ilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin müəyyən etdiyi qaydada şəxsiyyəti pərdələyən sənədlərdən istifadə etmək;

16.2.4. Əmək haqqı, mükafat və digər maddi təminatlar almaq.

16.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərin vəzifələri aşağıdakılardır:

16.3.1. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri ilə bağlanmış əməkdaşlıq haqqında müqavilənin və ya şifahi razılaşmanın şərtlərinə əməl etmək;

16.3.2. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə həvalə olunmuş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar tapşırıqları yerinə yetirmək;

16.3.3. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə qeyri-obyektiv, yanlış, qərəzli və ya böhtan xarakterli məlumatların qəsdən təqdim edilməsi hallarına yol verməmək;

16.3.4. dövlət sirri təşkil edən, həmçinin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək göstərilməsi prosesində onlara bəlli olmuş digər məlumatları yaymamaq.

16.4. Bu qanunun 16.1-ci maddəsində göstərilmiş şəxslərin fəaliyyəti ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları ilə tənzimlənir.

**Maddə 17.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin informasiya təminatı

17.1. Öz fəaliyyətini təmin etmək məqsədi ilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri informasiya, rabitə sistemləri, habelə kriptoqrafik və digər məlumat müdafiə sistemləri yarada və onlardan istifadə edə bilər. İnformasiyanı mühafizə vasitələrinin yaradılması, istehsalı, təmiri, idxalı, ixracı, satışı, istifadəsi, bu sahədə xidmətlər göstərilməsi, eləcə də onların yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

17.2. Xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının kəşfiyyat və digər fəaliyyətləri haqqında məlumatların, habelə ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının təhlükəsizliyinə zərər vurmağa yönəlmiş hüquqazidd əməlləri barədə məlumatların uçotu, saxlanılması və istifadə olunması qaydaları kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin normativ hüquqi aktları ilə müəyyən edilir.

17.3. İnformasiya sistemlərində fiziki və hüquqi şəxslər barədə məlumatların olması kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə göstərilən şəxslərin hüquq və azadlıqlarını məhdudlaşdırmaq üçün tədbirlər görməyə əsas vermir.

17.4. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən rabitə müəssisələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin keçirilməsi üçün şərait yaratmağa, bu məqsədlə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən şərtlərə uyğun rabitə şəbəkələrini əlavə texniki vasitələrlə təchiz etməyə, təşkilati məsələləri həll etməyə və bu tədbirlərin keçirilməsində istifadə olunan üsulları gizli saxlamağa borcludurlar.

# V Fəsil
# KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİ SUBYEKTLƏRİ ƏMƏKDAŞLARININ VƏ BU SUBYEKTLƏRƏ KÖMƏK EDƏN ŞƏXSLƏRİN HÜQUQİ VƏ SOSİAL MÜDAFİƏSİ

**Maddə 19**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının hüquqi müdafiəsi

trial Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirərkən dövlət hakimiyyəti nümayəndəsi kimi çıxış edirlər və dövlət tərəfindən müdafiə olunurlar. Azərbaycan Respublikasının qanunvericiliyi ilə səlahiyyət verilmiş dövlət orqanlarından və vəzifəli şəxslərdən başqa, heç kəsin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının xidməti fəaliyyətinə qarışmağa ixtiyarı yoxdur.

19.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşının xidməti vəzifələrinin icrası zamanı ona müqavimət göstərmək, zor tətbiq etmək və ya zor tətbiqi ilə hədələmək, təhqir etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

19.3. Öz xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının və onların ailə üzvlərinin həyat və sağlamlığının, həmçinin əmlakının cinayətkar qəsdlərdən qorunması Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

19.4. Kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları, onların ailə üzvləri Azərbaycan Respublikasının ərazisindən kənarda həbs və ya azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdə, dövlət orqanları bu şəxslərin azad olunması üçün zəruri tədbirlər həyata keçirməlidirlər.

19.5. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşı xidməti vəzifələrini yerinə yetirərkən (cinayət başında yaxalanma halları istisna olmaqla), bu subyektlərin rəsmi nümayəndəsinin iştirakı olmadan onun məcburi gətirilməsinə, tutulmasına, şəxsi axtarışına, əşya və nəqliyyat vasitəsinin baxışına yol verilmir. Əməkdaşların kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməliyyat bölmələrinə mənsubiyyətinin açıqlanmaması məqsədi ilə, habelə digər dövlət sirlərinin

mühafizəsi naminə onun şahid qismində dindirilməsi yalnız bu subyektlərin rəhbərliyinə məlumat verilməklə həyata keçirilə bilər.

19.6. Xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qrupların tərkibində tapşırıqlar yerinə yetirmiş və ya yetirən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları barədə məlumatlar dövlət sirri təşkil edir və onların açıqlanması yalnız bu subyektlərin rəhbərlərinin və göstərilən əməkdaşların yazılı razılığı əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda mümkündür.

**Maddə 20**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının sosial müdafiəsi

20.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri hərbi qulluqçularının sosial müdafiəsi "Hərbi qulluqçuların statusu haqqında", "Əmək pensiyaları haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları, bu qanunla və digər qanunvericilik aktları ilə müəyyən edilir.

20.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının pul təminatı (təminat xərcliyi) vəzifə maaşından, rütbə maaşından, xidmət illərinə görə əlavədən, üstəlik verilən pul təminatının digər növlərindən, kompensasiyalardan və müavinətlərdən ibarətdir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin rəhbəri həmin subyektin hərbi qulluqçularına bu qanuna və xidmətin xüsusiyyətləri nəzərə alınmaqla digər qanunvericilik aktlarına əsasən üstəlik verilən pul təminatı növlərinin normalarını və ödəniş qaydalarını müəyyən edir.

20.3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası qanununa və bu qanuna uyğun pensiya hüququna malik olan kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hərbi qulluqçularına pensiya təyin edilən zamanı onların xidmətdən tərxis olunan günə aldıqları miqdarda bütün növ pul təminatı (ərzaq payı əvəzinə verilən pul kompensiyasından başqa digər növ kompensasiya, birdəfəlik ödəmələr və müavinətlər istisna olmaqla) nəzərə alınır. [5]

trial Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin rəhbəri həmin subyektin əməkdaşlarına peşəkarlığa, mühüm vəzifə və tapşırıqların yerinə yetirilməsinə, xidmətdə fərqlənməyə görə vəzifə maaşının 50 faizindən çox olmamaqla əlavələr təyin edə bilər.

20.5. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşının və onun ailə üzvlərinin yeni xidmət yerinə köçməsi və əmlakının daşınması Azərbaycan Respubli-

kasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin hesabına həyata keçirilir.

20.6. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin hərbi qulluqçularına hər il məzuniyyətə çıxarkən iki aylıq pul təminatı məbləğində müavinət verilir.

20.7. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları (pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla), o cümlədən onların ailə üzvləri pulsuz dövlət tibb xidməti ilə təmin olunurlar. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə onlara iki aylıq pul təminatı məbləğində birdəfəlik müavinət verilir.

20.8. Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajı Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablana bilər.

20.9. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qruplarda tapşırıqlar yerinə yetirdiyi zaman xidmət müddəti Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada, pensiya məbləğinin hesablanması, hərbi rütbələrin verilməsi, xidmət illərinə görə əlavə faiz hesablanması üçün xidmət illərinə əlavə olunmalıdır. [6]

20.10. Məxfi, tam məxfi və xüsusi əhəmiyyətli sənədlərlə və ya digər məlumat daşıyıcıları ilə işləyən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının və işçilərinin vəzifə maaşlarına artımların miqdarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

20.11. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının həyatı və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına onların 5 illik pul təminatı məbləğində sığorta edilir.

20.12. Xidməti vəzifələrin icrası zamanı həlak olmuş (ölmüş), xəsarət (yaralanma, travma, kontuziya) almış, xəstəliklə əlaqədar sağlamlığına digər ziyan dəymiş kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri əməkdaşlarına və ya onların ailəsinə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və həcmdə kompensasiya verilir. [7]

20.13. Xidməti vəzifələrinin icrası zamanı kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri əməkdaşlarının əmlakına dəyən zərər dövlət büdcəsinin vəsaiti hesabına tam həcmdə ödənilir.

**Maddə 21.** Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərin hüquqi və sosial müdafiəsi

21.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə kömək edən şəxslərin hüquqi və sosial müdafiəsi "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu və bu qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilir.

21.2. Məxfi əsasla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən və ya etmiş şəxslər haqqında məlumatlar dövlət sirri təşkil edir və onların açıqlanmasına yalnız bu subyektlərin rəhbərlərinin və göstərilən şəxslərin yazılı razılığı əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və hallarda yol verilə bilər.

21.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən və ya kömək etmiş şəxslər Azərbaycan Respublikasının vətəndaşı olmadıqda, qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilərlər.

21.4. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərə əmək haqqı, mükafat və digər maddi təminatların verilmə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## VI Fəsil
## KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİNƏ NƏZARƏT

**Maddə 22**. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə nəzarət

22.1. Xüsusi xidmət orqanları tərəfindən öz vəzifələrinin lazımi səviyyədə yerinə yetirilməsi, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin təşkili və keçirilməsi zamanı qanunçuluğa əməl olunması məqsədilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

22.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində

bu fəaliyyətin subyektləri, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

22.3. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına öz fəaliyyətləri barədə mütəmadi hesabat verirlər. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin rəhbərləri məlumatların etibarlılığına, obyektivliyinə və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına vaxtında çatdırılmasına görə şəxsi məsuliyyət daşıyırlar.

22.4. Əks-kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiqinə nəzarətin həyata keçirilməsi “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

22.5. Əks-kəşfiyyat fəaliyyəti subyektlərində aparılan təhqiqata və ibtidai istintaqa prosessual rəhbərliyi Azərbaycan Respublikasının baş prokuroru və onun müvəkkil etdiyi prokurorlar həyata keçirirlər.

22.6. Əks-kəşfiyyat fəaliyyəti subyektləri tərəfindən istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin və əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsinə məhkəmə nəzarətinin həyata keçirilməsi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilir.

22.7. Əks-kəşfiyyat fəaliyyətinin təşkili, taktikası, üsulları və vasitələri, o cümlədən bu subyektlərə kömək edən və ya etmiş şəxslər barədə məlumatlar bu fəaliyyətin subyektləri rəhbərlərinin və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının nəzarəti istisna olmaqla, digər nəzarətin predmetinə daxil deyildir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2004-cü il
№ 711-IIQ

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (çıxarış)
## (Bu Məcəllə Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.)
## Ümumi hissə
## Birinci bölmə. Əsas müddəalar
## I fəsil. Cinayət-prosessual qanunvericiliyi

**Maddə 1. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin təyinatı**

1.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki:

1.2.1. qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun;

1.2.2. cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin üzbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın;

1.2.3. heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın.

**Maddə 3. Cinayət-prosessual qanunvericiliyin məkana görə qüvvəsi**

3.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 3.3 və 3.4-cü maddələrində nəzərdə tutulan istisnalarla, heç bir məhdudiyyət qoyulmadan qüvvədədir.

3.2. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəaları Azərbaycan Respublikasının ərazisindən kənarda Azərbaycan Respublikasının bayrağı altında olan və ya onun tanınma nişanlarını daşıyan, yaxud onun limanlarında qeydə alınan dəniz, zay və ya hava gəmilərində də tətbiq olunur.

3.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin məkana görə qüvvəsinin digər qaydalarının tətbiqi halları müəyyən edilə bilər.

3.4. Xarici dövlətin cinayət-prosessual qanunvericiliyinin normalarının Azərbaycan Respublikasının ərazisində tətbiqinə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda və Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmadıqda yol verilir.

**Maddə 4. Cinayət-prosessual qanunvericiliyin zamana görə qüvvəsi**

4.1. Azərbaycan Respublikasında cinayət-prosessual hərəkətlərin aparılması, cinayət-prosessual qərarların qəbul və icra edilməsi həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun həyata keçirilir.

4.2. Cinayət prosesi iştirakçılarının hüquqlarını məhdudlaşdıran Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyi müddəalarının geriyə qüvvəsi yoxdur.

4.3. Ədalət mühakiməsi həyata keçirilərkən sübutların mümkünlüyü həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun olmalıdır. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişirsə, yeni müddəalara uyğun gəlməyən sübutlar ittihamın əsasını təşkil edə bilməz.

**Maddə 5. Cinayət-prosessual qanunvericiliyin xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər barəsində qüvvəsi**

5.1. Cinayətin törədilməsində şübhə və ya ittiham olunan xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslər haqqında cinayət-prosessual fəaliyyət Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun həyata keçirilir.

5.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş diplomatik, habelə digər imtiyaz və toxunulmazlıqlara malik şəxslər haqqında və ya onların iştirakı ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətin xüsusiyyətləri bu Məcəllənin 436—441-ci maddələrinin müddəaları ilə müəyyən olunur.

**Maddə 7. Cinayət-prosessual qanunvericiliyin əsas anlayışları**

7.0. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

7.0.1. cinayət hadisəsi — cinayətin əlamətlərini özündə əks etdirən hadisədir;

7.0.2. ərizəçi — özünün həqiqi və ya ehtimal olunan hüquqlarının müdafiəsi üçün cinayət prosesini həyata keçirən orqanlara və ya məhkəməyə müraciət edən şəxsdir;

7.0.3. cinayət prosesi — cinayət təqibi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul olunan prosessual qərarların məcmusudur;

7.0.4. cinayət təqibi — cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir;

7.0.5. cinayət prosesini həyata keçirən orqanlar — icraatında cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat, istintaq, prokurorluq orqanları və ya məhkəmələrdir;

7.0.6. cinayət işi — törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusudur;

7.0.7. cinayət təqibi ilə bağlı digər materiallar — məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət və ya xüsusi icraat üzrə cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar toplanmış materiallardır;

7.0.8. cinayət mühakimə icraatı — bu Məcəllədə nəzərdə tutulmuş qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;

7.0.9. məhkəmə — Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ədalət mühakiməsini həyata keçirmək məqsədilə yaradılan, bu Məcəllə ilə müəyyən edilmiş qaydada birinci, apellyasiya və kassasiya instansiyası qismində cinayət işlərinə və ya cinayət təqibi ilə bağlı digər materiallara baxan məhkəmədir;

7.0.10. birinci instansiya məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda hər hansı şəxsə qarşı irəli sürülmüş ittihama baxmaq və həmin ittihamın mahiyyəti üzrə hökm və ya digər yekun qərarı çıxarmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.11. apellyasiya instansiyası məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə baxmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.12. kassasiya instansiyası məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin andlı iclasçıların iştirakı ilə çıxarılmış və ya apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest, yaxud təqdimatlara baxmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.13. hakim — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin vəzifəyə təyin edilmiş şəxsdir (məhkəmənin sədri, onun müavini, kollegiya sədri və ya birinci, apellyasiya, yaxud kassasiya instansiyası məhkəməsinin hakimi);

7.0.14. məhkəmə iclasında sədrlik edən — cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiallara təkbaşına, bir neçə hakimdən ibarət tərkibdə və ya andlı iclasçıların iştirakı ilə baxılarkən məhkəmə iclasında sədrlik edən hakimdir;

7.0.15. andlı iclasçı — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada andlı iclasçılar siyahısına daxil edilmiş, bu Məcəllədə nəzərdə tutulmuş qaydalar üzrə seçilmiş və ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək üçün məhkəməyə çağırılmış şəxsdir;

7.0.16. andlı iclasçılar kollegiyası — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət işlərinə baxılması üçün yaradılan andlı iclasçılardan ibarət qurumdur;

7.0.17. andlı iclasçıların aparıcısı — verdikt çıxarılması üçün müşavirə otağına gedənədək andlı iclasçıların öz tərkibindən seçdikləri şəxsdir;

7.0.18. cinayət prosesinin iştirakçıları — təhqiqatçı, müstəntiq, prokuror, habelə zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiazı, onların qanuni nümayəndələri və nümayəndələri, şübhəli və ya təqsirləndirilən şəxs, onların qanuni nümayəndələri, müdafiəçi, mülki cavabdeh, onun qanuni nümayəndəsi və ya nümayəndəsidir;

7.0.19. cinayət prosesinin tərəfəri — çəkişmə və hüquq bərabərliyi əsasında cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən cinayət prosesinin iştirakçılarıdır;

7.0.20. ittiham — bu Məcəllədə müəyyən olunmuş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsidir;

7.0.21. ittiham tərəfi — birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiazıdır;

7.0.22. ibtidai araşdırma — cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatdır;

7.0.23. prokuror — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir;

7.0.24. müstəntiq — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir;

7.0.25. təhqiqatçı — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxsdir;

7.0.26. xüsusi ittihamçı — bu Məcəllədə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə ittiham irəli sürən və onu müdafiə edən zərər çəkmiş şəxsdir;

7.0.27. müdafiə — cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi istinad edilən şəxsə qarşı irəli sürülmüş ittihamın təkzibi və ya yüngülləşdirilməsi, onun hüquq və azadlıqlarının müdafiəsi, habelə cinayət təqibinə qanunsuz məruz qalmış şəxsin pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə həyata keçirilən prosessual fəaliyyətdir;

7.0.28. müdafiə tərəfi — birlikdə götürülmüş şübhəli və ya təqsirləndirilən şəxs, onun müdafiəçisi və mülki cavabdehdir;

7.0.29. cinayət prosesində iştirak edən digər şəxslər — hal şahidi, şahid, mütəxəssis, ekspert, məhkəmə iclasının katibi və tərcüməçidir;

7.0.30. zərər çəkmiş şəxsin, mülki iddiazının, şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud mülki cavabdehin qanuni nümayəndələri — bu Məcəllədə nəzərdə tutulmuş hallarda cinayət prosesi zamanı zərər çəkmiş şəxsin, mülki iddiazının, şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil edən valideynlər, övladlığa götürənlər, qəyyumlar, himayəzilər, habelə qəyyumluq və ya himayəzilik orqanıdır;

7.0.31. zərər çəkmiş şəxsin, mülki iddiazının və ya mülki cavabdehin nümayəndəsi — cinayət prosesi zamanı zərər çəkmiş şəxsin, mülki iddiazının, yaxud mülki

cavabdehin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş vəkalətnaməyə malik olan şəxsdir;

7.0.32. yaxın qohumlar — babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ügey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələrdir;

7.0.33. qohumlar — babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ya ügey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumlarıdır;

7.0.34. yaşayış yeri — bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən mülkiyyətində olan və ya icarəyə götürülmüş yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, yataqxanada otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və zardağı, habelə dəniz gəmisinin kayutası və ya uzaq səfərdə olan qatarın kupesidir (bunlardan əlavə bu Məcəllənin məqsədləri üçün yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, zay və dəniz gəmisini əhatə edir);

7.0.35. gecə vaxtı — yerli vaxtla axşam saat 22-dən səhər saat 7-dək olan vaxt müddətidir;

7.0.36. zərər — cinayət nəticəsində zərər çəkmiş şəxsə vurulmuş mənəvi, fiziki və ya maddi ziyandır;

7.0.37. prosessual hərəkətlər — cinayət prosesi iştirakçılarının bu Məcəllədə nəzərdə tutulmuş və onun müddəalarına uyğun həyata keçirdikləri hərəkətlərdir;

7.0.38. qətimkan tədbiri — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını müvəqqəti məhdudlaşdırmaqla onun haqqında seçilən prosessual məcburiyyət tədbiridir;

7.0.39. tutulma — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığını qısa müddətə məhdudlaşdırmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılmasıdır;

7.0.40. həbs — qətimkan tədbiri qismində bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla həbsdə saxlanılma yerində (istintaq təcridxanalarında) saxlanılmasıdır;

7.0.41. vəsatət — cinayət prosesi iştirakçılarının cinayət prosesini həyata keçirən orqana ünvanlanmış xahişidir;

7.0.42. izahat — cinayət prosesi iştirakçılarının və ya ərizəçilərin üzlərinin, yaxud təmsil etdikləri şəxsin tələblərini əsaslandırmaq üçün göstərdikləri şifahi və ya yazılı dəlillərdir;

7.0.43. prosessual qərar — cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hakimin və ya hakimlərin (hökmlər istisna edilməklə), habelə təhqiqatçının, müstəntiqin, yaxud prokurorun bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada qəbul etdiyi prosessual aktdır;

7.0.44. verdikt — məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsin təqsirliliyi və ya təqsirsizliyi məsələsi barəsində andlı iclasçıların çıxardığı qərardır;

7.0.45. məhkəmənin hökmü — şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərardır;

7.0.46. protest — dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokurorun yuxarı məhkəməyə verilən şikayətidir;

7.0.47. şikayət — prosessual hərəkətlərin və ya prosessual qərarların qanunsuz, yaxud əsassız olduğu barədə cinayət prosesini həyata keçirən orqana ünvanlanmış yazılı müraciətdir.

**Maddə 15. Şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi**

15.1. Məhkəmənin qərarı olmadan və ya tutulma, yaxud həbsə alma hallarından başqa hər hansı şəxsin axtarışı və şəxsi müayinəsi, onun toxunulmazlığı hüququnu pozan digər prosessual hərəkətlər bu şəxsin və ya onun qanuni nümayəndəsinin iradəsi əleyhinə aparıla bilməz.

15.2. Cinayət təqibi gedişində aşağıdakılar qadağandır:

15.2.1. işgəncələr vermək, fiziki və psixi zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar tətbiq etmək;

15.2.2. uzun sürən və ya kəskin fiziki iztirabla, yaxud səhhətin müvəqqəti pozulması ilə müşayiət olunan eksperimentlərdə və ya digər prosessual hərəkətlərdə iştiraka cəlb etmək, habelə buna bənzər hər hansı digər sınaqlar keçirmək;

15.2.3. zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsdən, habelə cinayət prosesində iştirak edən' digər şəxslərdən zorakılıq, hədə-qorxu, aldatma yolu ilə və onların hüquqlarını pozan sair qanunsuz hərəkətlər tətbiq etməklə ifadə almaq.

**Maddə 16. Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi**

16.1. Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatının sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz.

16.2. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması bu Məcəllə ilə müəyyən edilmiş hallarda, bir qayda olaraq, məhkəmənin qərarı ilə həyata keçirilə bilər.

**Maddə 17. Mənzil toxunulmazlığı hüququnun təmin edilməsi**

17.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa heç kəs mənzildə yaşayanların iradəsi ziddinə mənzilə daxil ola bilməz.

17.2. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, orada axtarış və mülkiyyət hüququnu məhdudlaşdıran digər istintaq və prosessual hərəkətlər, bir qayda olaraq, məhkəmənin qərarı əsasında məcburi həyata keçirilir.

.

**Maddə 19. Hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi**

19.1. Cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir.

19.2. Cinayət prosesini həyata keçirən orqan, zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki iddiazı və ya onun qanuni nümayəndəsi, şübhəli, yaxud təqsirləndirilən şəxsin qanuni nümayəndəsi, habelə mülki cavabdeh cinayət, prosesi gedişində özlərinin dəvət etdiyi nümayəndənin hüquqi yardımından istifadə etmək hüququnu gözləməlidir.

19.3. Zərər çəkmiş şəxsin və ya şahidin dindirilməsi zamanı cinayət prosesini həyata keçirən orqanın həmin şəxslərin nümayəndə qismində dəvət etdikləri vəkilin onların yanında olmasını qadağan etməyə hüququ yoxdur.

19.4. Cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin aşağıdakı hüquqlarını təmin etməlidir:

19.4.1. tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək;

19.4.2. hüquqlarını izah etmək;

19.4.3. öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxt vermək və imkan yaratmaq;

19.4.4. şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq;

19.4.5. onun əleyhinə ifadə vermiş şahidləri məhkəmə istintaqı zamanı dindirmək.

19.5. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllə ilə müəyyən edilmiş hallarda şübhəli və ya təqsirləndirilən şəxsin qanuni nümayəndəsini işə cəlb etməlidir.

19.6. Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsi bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməz.

19.7. Şübhəli və ya təqsirləndirilən şəxs ifadə verməyə, cinayət prosesini həyata keçirən orqana hər hansı materiallar təqdim etməyə və onlara hər hansı yardım göstərməyə məcbur edilə bilməz.

**Maddə 20. Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik**

20.1. Heç kəs şəxsən özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz.

20.2. İbtidai araşdırma və ya məhkəmə baxışı zamanı özünü, yaxud yaxın qohumlarını cinayət törətməkdə ifşa edən məlumatları verməsi təklif olunan şəxs bunun özü üçün hər hansı mənfi hüquqi nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

**Maddə 21. Təqsirsizlik prezumpsiyası**

21.1. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır.

21.2. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedura daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır.

21.3. Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

**Maddə 27. Cinayət mühakimə icraatının aşkarlığı**

27.1. Bu Məcəllədə nəzərdə tutulmuş dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır.

27.2. Bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla Azərbaycan Respublikasının məhkəmələrində cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsinin qiyabi aparılmasına yol verilmir.

27.3. Bütün hallarda cinayət mühakimə icraatı zamanı qəbul olunmuş məhkəmə qərarları açıq elan olunur.

## III fəsil
## Cinayət təqibi

**Maddə 37. Cinayət təqibinin növləri**

37.1. Cinayətin xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq cinayət təqibi bu Məcəllənin müddəalarına uyğun xüsusi, ictimai-xüsusi və ya ictimai ittiham qaydasında həyata keçirilir.

37.2. Xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1-ci maddələrində göstərilən cinayətlər üzrə həyata keçirilir və məhkəmə mü-

şavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir.

37.3. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və ya bu Məcəllənin 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda prokurorun təşəbbüsü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127, 128, 129.2, 130.2, 131.1, 132—134, 142.1, 149.1, 150.1, 151, 156—158, 163, 175—177.1, 178.1, 179.1, 184.1, 186.1, 187.1, 190.1, 197 və 201.1-ci maddələrində göstərilən cinayətlərə görə həyata keçirilir.

37.4. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibinə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-cü maddəsində nəzərdə tutulmuş hallardan başqa zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar xitam verilə bilməz.

37.5. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bilər:

37.5.1. törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda;

37.5.2. cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə;

37.5.3. cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;

37.5.4. cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə;

37.5.5. cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.

37.6. Bu Məcəllənin 37.2 və 37.3-cü maddələrində göstərilməyən digər cinayətlər üzrə cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilir.

**Maddə 46. Cinayət işinin başlanması ilə bağlı cinayət təqibi üzrə icraatın açılmasının xüsusiyyətləri**

46.1. İctimai ittiham və ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi üzrə cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olmalıdır.

46.2. Cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin)

və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

46.3. Cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır.

46.4. Cinayət təqibini istisna edən halların mövcudluğu istisna edilməklə, məhkəmə iclasında sədrlik edən ədalət mühakiməsi əleyhinə olan hər hansı cinayətin əlamətlərinin məhkəmə baxışı zamanı müəyyən olunduğuna prokurorun diqqətini cəlb etdikdə, prokuror bununla bağlı dərhal cinayət işi başlamalıdır. Bu halda prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edərsə, məhkəmə iclasında sədrlik edən həmin qərarın qanunsuz və əsassız olması qənaətinə gəldikdə yuxarı prokurordan zəruri tədbirlərin görülməsini tələb edə bilər.

46.5. Cinayət işinin dərhal başlanması üçün bu Məcəllənin 206.2-ci maddəsində nəzərdə tutulmuş halların mövcudluğu da kifayətdir. Bu halda hərtərəfi, tam və obyektiv ibtidai araşdırma cinayət təqibinin həyata keçirilməsinə mane olan aşağıdakı hallar müəyyən olunanadək aparılır:

46.5.1. cinayət hadisəsinin mövcudluğunu təsdiq edən sübutlar əldə edilmədikdə;

46.5.2. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində yeganə təqsirləndirilə bilən şəxsə qarşı bu Məcəllənin 39.1.4—39.1.7 və 39.1.10-cu maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda;

46.5.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə görə hər hansı şəxsə qarşı bu Məcəllənin 39.1.3, 39.1.11 və 39.1.12-ci maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda.

**trial 47. Cinayət təqibi üzrə icraatı aparan orqanlar**

47.1. Cinayət təqibi üzrə icraat cinayət prosesini həyata keçirən orqan tərəfindən aparılır. Bununla əlaqədar məsuliyyət müvafiq olaraq icraatında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat üzrə material və ya xüsusi ittiham qaydasında şikayət üzrə material olan təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin üzərinə düşür.

47.2. Xarici dövlətlərin müvafiq orqanları ilə cinayət təqibi üzrə münasibətlərin qurulması, həmçinin bu dövlətlərin məhkəmə və istintaq orqanlarının göstərişlərinin yerinə yetirilməsi ilə bağlı icraat aparılması Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilən müvafiq məhkəmənin, prokurorun və müstəntiqin üzərinə düşür.

## VIII fəsil. İttiham tərəfi

**Maddə 84. Prokuror**

84.1. Cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur.

trial Prokuror bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

84.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq və bu halda müstəntiqin səlahiyyətlərindən istifadə edərək onun ibtidai istintaqını aparmaq, yaxud onu təhqiqatçıya və ya müstəntiqə tapşırmaq;

84.2.2. cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək;

84.2.3. məhkəmədə mülki iddia qaldırmaq və onu müdafiə etmək;

84.2.4. məhkəmədə cinayət işi üzrə ittihamı müdafiə etmək;

84.2.5. cinayət təqibinin gedişində digər səlahiyyətləri həyata keçirmək.

84.3. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı bu Məcəllənin müddəalarının icrası və tətbiqinə həmin iş üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məsuliyyət daşıyır. Cinayət işi üzrə ibtidai istintaq aparmış, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş və ya məhkəmədə dövlət ittihamçısı qismində iştirak etmiş prokuror şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamalıdır.

84.4. Cinayət işi üzrə ibtidai istintaq aparmış və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş prokuror məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edə bilməz.

84.5. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi üzrə aparılan təhqiqata və ibtidai istintaqa nəzarət edərkən aşağıdakı hüquqları həyata keçirir:

84.5.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində qanunun tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlamaq;

84.5.2. təhqiqatçıdan və ya müstəntiqdən cinayət işinin materiallarını, sənədlərini, ibtidai araşdırmanın gedişi haqqında məlumatları tələb etmək, habelə cinayət işlərinin materiallarını və sənədlərini yoxlamaq, ibtidai araşdırmanın gedişi vəziyyəti ilə yerində tanış olmaq;

84.5.3. cinayət işinin ibtidai istintaqı aparan bir orqandan digərinə verilməsi halları istisna olmaqla, istintaqın hərtərəfi, tam və obyektiv aparılmasını təmin etmək məqsədilə, habelə qanunun tələblərinin pozulması ilə istintaq edilən cinayət işini təhqiqatçının və ya müstəntiqin icraatından götürərək digər təhqiqatçının və ya müstəntiqin icraatına vermək;

84.5.4. cinayət işi üzrə ibtidai araşdırmanı istintaq qrupuna tapşırmaq və qrupun tərkibini müəyyən etmək;

84.5.5. vəkilin cinayət prosesində iştirakını istisna edən hallar müəyyən edildikdə, onu cinayət işi üzrə icraatdan kənarlaşdırmaq;

84.5.6. təhqiqatçıya və ya müstəntiqə, habelə onların üzü üçünə verilmiş etirazlara baxmaq;

84.5.7. hadisənin araşdırılması, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, əməlin tövsifi, cinayət törətmiş şəxsin axtarışı, ittiham aktının məzmunu, qərarların qəbul edilməsi, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya və ya müstəntiqə yazılı göstərişlər vermək;

84.5.8. təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək;

84.5.9. təhqiqatçının və ya müstəntiqin qərar və hərəkətlərindən verilmiş şikayətlərə baxmaq;

84.5.10. toxunulmazlıq hüququndan istifadə edən şəxsin cinayət təqibi zərurəti yarandıqda, onun toxunulmazlıq hüququndan məhrum edilməsinə razılıq verilməsi barədə müvafiq orqan qarşısında vəsatət vermək üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna müraciət etmək;

84.5.11. təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətinin artırılması, habelə bu Məcəllənin 177.3 və 444-cü maddələrində nəzərdə tutulmuş hallarda təqdimatla məhkəməyə müraciət etmək;

84.5.12. məhkəmə qarşısında cinayət prosesini həyata keçirən orqanı təmsil etmək;

84.5.13. bu Məcəllənin 39, 40-cı maddələrində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə xitam vermək və cinayət təqibindən imtina etmək;

84.5.14. ittiham aktını, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda təhqiqatçının və ya müstəntiqin qərarlarını təsdiq etmək, yaxud bundan imtina edərək icrası məcburi olan göstərişləri ilə cinayət işini müstəntiqə qaytarmaq;

84.5.15. cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndərmək;

84.5.16. cinayət işi üzrə müvafiq qərarları şəxsən qəbul etmək, ayrı-ayrı istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

84.5.17. cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

84.5.18. hadisələr və onlarla əlaqəsi olan şəxslər barədə sənədləri və materialları tələb etmək;

84.5.19. təhqiqatçı və ya müstəntiq tərəfindən tutulma, məcburi gətirilmə və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılmasının qanuniliyinə nəzarət etmək, habelə prosessual hərəkətlərin aparılmasını təhqiqat orqanına tapşırmaq;

84.5.20. zərər çəkmiş şəxsin, şahidin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyi üçün tədbirlərin görülməsini təmin etmək;

84.5.21. qanuni əsaslar olmadan və ya bu Məcəllənin 148.4, 158, 159-cu maddələri ilə müəyyən olunmuş müddətlərdən artıq tutulan şübhəli şəxsi, yaxud həbsdə saxlanılan təqsirləndirilən şəxsi azad etmək;

84.5.22. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

84.6. Xüsusi ittiham qaydasında cinayət təqibi halları istisna olmaqla, məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edərkən prokuror bu Məcəllədə nəzərdə tutulmuş qaydalara riayət etməklə aşağıdakı hüquqlara malikdir:

84.6.1. etirazlar etmək;

84.6.2. vəsatətlər vermək;

84.6.3. məhkəmədə həll edilən məsələlər və cinayət prosesinin digər iştirakçılarının vəsatətləri üzrə öz rəyini bildirmək;

84.6.4. ittiham tərəfinin sübutlarını məhkəməyə təqdim etmək, habelə məhkəməyə sübutların təqdim olunması məqsədilə məhkəmənin qərarı ilə prosessual məcburiyyət tədbirləri tətbiq etmək;

84.6.5. birinci və apellyasiya instansiyası məhkəmələrində məhkəmə istintaqında və işin materiallarının tədqiqində iştirak etmək;

84.6.6. birinci instansiya məhkəməsinin iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;

84.6.7. müdafiə tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

84.6.8. qeyd olunmalı hərəkətlərin istintaq və ya digər prosessual hərəkətlərin protokoluna və ya məhkəmənin iclas protokoluna daxil edilməsini tələb etmək;

84.6.9. bu Məcəllənin 41.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibindən imtina etmək;

84.6.10. birinci və apellyasiya instansiyası məhkəmələrində giriş, yekun nitqi və replika söyləmək, kassasiya instansiyası məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

84.6.11. məhkəmələrdə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə tanış olmaq, hökmdən və məhkəmənin digər qərarlarından protest vermək;

84.6.12. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

84.7. Dövlət ittihamçısı aşağıdakı vəzifələri yerinə yetirməlidir:

84.7.1. məhkəmə iclasında qaydaya riayət etmək;

84.7.2. məhkəmə iclasında sədrlik edənin sərəncamlarına tabe olmaq;

84.7.3. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri icra etmək.

84.8. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror yuxarı prokurorun göstərişlərini yerinə yetirməlidir. Təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair yuxarı prokurorun göstərişləri ilə razı olmayan ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirən prokuror öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və öz yazılı göstərişlərini

geri götürür və ya onun dəlliləri ilə razılaşmayaraq cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi digər prokurora tapşırır. Prokurorun yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır.

**Maddə 85. Müstəntiq**

85.1. Cinayət təqibini həyata keçirərkən müstəntiq qanunun tələblərini rəhbər tutaraq, prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir.

85.2. Müstəntiq bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

85.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfi, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

85.2.2. şübhəli şəxsə tutulduğu, təqsirləndirilən şəxsə isə ittiham elan olunduğu və ya həbs edildiyi andan hüquqlarını bildirmək, müvafiq olaraq tutulmasının, cinayət məsuliyyətinə cəlb edilməsinin və ya həbsə alınmasının səbəblərini izah etmək;

85.2.3. şəxsin tutulduğu, ittiham elan olunduğu və ya həbsə alındığı andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (bu Məcəllənin 153.2.5—153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);

85.2.4. şübhəli şəxs tərəfindən cinayət törədilməsini təsdiq edən kifayət qədər sübutlar toplandığı halda, onu cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb etmək və ona ittiham elan etmək;

85.2.5. zərurət olduqda bu Məcəllənin 154—157, 160; 163—172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli və ya təqsirləndirilən şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

85.2.6. qanuni əsaslar olmadan və ya bu Məcəllənin 148.4, 158, 159-cu maddələri ilə müəyyən olunmuş müddətlərdən artıq tutulan şübhəli şəxsi, yaxud həbsdə saxlanılan təqsirləndirilən şəxsi azad etmək;

85.2.7. prokurorun göstərişlərini icra etmək;

85.2.8. prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

85.2.9. bu Məcəllənin 193-cü maddəsinə uyğun olaraq şübhəli və ya təqsirləndirilən şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

85.2.10. müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiazı və ya mülki cavabdeh qismində tanımaq;

85.2.11. cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

85.2.12. bu Məcəllənin 158, 159, 218—221-ci maddələrinin tələblərinə riayət etməklə ibtidai istintaqı başa çatdırmaq, habelə cinayət işinin materialları ilə təqsirləndirilən şəxsi, onun müdafiəçisini, zərər çəkmiş şəxsi, mülki iddiazını və onların nümayəndələrini tanış etmək, bununla əlaqədar verilmiş vəsatətlərə baxmaq və cinayət işi üzrə ittiham aktını tərtib edərək işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək;

85.2.13. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

85.2.14. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

85.3. Cinayət işi üzrə ibtidai istintaqı aparan müstəntiq istintaq və ya digər prosessual hərəkətləri qanuni və vaxtında aparmağa borcludur.

85.4. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada müstəntiq aşağıdakı hüquqları həyata keçirir:

85.4.1. hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

85.4.2. şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) və digər istintaq hərəkətlərini aparmaq;

85.4.3. dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək, şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ekspert qismində cəlb etmək;

85.4.4. dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

85.4.5. müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

85.4.6. tutulma, məcburi gətirilmə və digər prosessual məcburiyyət tədbirlərinin aparılmasını müvafiq təhqiqat orqanına tapşırmaq, habelə ondan istintaq və ya digər prosessual hərəkətlərin keçirilməsinə kömək göstərilməsini tələb etmək;

85.4.7. müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq;

85.4.8. müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;

85.4.9. hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;

85.4.10. cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

85.4.11. cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

85.4.12. məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

85.4.13. cinayət işi üzrə icraatın dayandırılması və ya xitam olunması barədə qərar qəbul etmək;

85.4.14. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

85.5. İbtidai istintaq aparарkən müstəntiq təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişi, yaxud qərarı ilə razılaşmadıqda öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və aşağı prokurorun yazılı göstərişlərini ləğv edir və ya onun dəlilləri ilə razılaşmayaraq ibtidai istintaqın aparılmasını digər müstəntiqə tapşırır. Prokurorün yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır.

85.6. Müstəntiqin bütün səlahiyyətlərindən istifadə edən istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini) bu Məcəllənin tələblərinə əməl edərək:

85.6.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə

ibtidai istintaqın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını müstəntiq, yaxud müstəntiqlər qrupuna tapşırır;

trial2. müstəntiqin cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;

85.6.3. cinayət işləri üzrə hərtərəfi, tam və obyektiv ibtidai istintaq aparılması üçün zəruri təşkilati tədbirlər görür;

85.6.4. bu Məcəllənin 84.5.3, 84.5.5, 84.5.8, 84.5.10 və 84.5.20-ci maddələrində nəzərdə tutulmuş məsələlər üzrə baxılması məcburi olan vəsatətləri ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir.

**Maddə 86. Təhqiqatçı**

86.1. Cinayət təqibini həyata keçirərkən təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq, prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir.

86.2. Təhqiqatçı bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

86.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfi, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

86.2.2. şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;

86.2.3. şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (bu Məcəllənin 153.2.5—153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);

86.2.4. zərurət olduqda bu Məcəllənin 154—156, 160, 165—172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

86.2.5. qanuni əsaslar olmadan və ya 48 saatdan artıq tutulan şəxsi azad etmək;

86.2.6. müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiazı və ya mülki cavabdeh qismində tanımaq;

86.2.7. cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

86.2.8. bu Məcəllənin 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

86.2.9. prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;

86.2.10. prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

86.2.11. ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra cinayət işi başlanmasından 10 (on) gündən gec olmayaraq iş üzrə bütün materialları istintaq aidiyyəti qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

86.2.12. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

86.2.13. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarını təhqiqat başlanmasından 10 (on) gündən gec olmayaraq yekun protokolu ilə prokurora göndərmək;

86.2.14. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

86.3. Cinayət təqibini həyata keçirən təhqiqatçı səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri qanuni və vaxtında aparmağa borcludur.

86.4. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

86.4.1. hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

86.4.2. şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

86.4.3. dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək; şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ya ekspert qismində cəlb etmək;

86.4.4. dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

86.4.5. müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

86.4.6. müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;

86.4.7. hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;

86.4.8. cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

86.4.9. cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

86.4.10. məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

86.4.11. cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək;

86.4.12. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

86.5. Təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil.

86.6. Cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir.

86.7. Təhqiqat orqanının rəhbəri bu Məcəllənin tələblərinə əməl edərək öz səlahiyyətləri daxilində:

86.7.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır;

86.7.2. təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;

86.7.3. öz səlahiyyətləri daxilində fəaliyyət göstərən prokurorun təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq

imkanını təmin edir, habelə prokurorun və müstəntiqin göstərişlərinin və qərarlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir;

86.7.4. məhkəmə qərarlarının yerinə yetirilməsini təşkil edir.

86.8. Təhqiqat orqanının əməkdaşı bu Məcəllənin tələblərinə əməl edərək öz səlahiyyətləri daxilində:

86.8.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin qarşısının alınması üçün tədbirlər görür;

86.8.2. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törədən şəxsləri və şübhəli şəxsləri tutur;

86.8.3. tutduğu yerdə tutulan şəxsin üslunu yoxlayır;

86.8.4. tutulan şəxsə onun hüquqlarını izah edir;

86.8.5. hadisə yerinin mühafizəsi, cinayətin izlərinin qorunması, hadisəni görən şəxslərin müəyyən edilib izahatlarının alınması üçün zəruri tədbirlər görür;

86.8.6. hadisə yerində prosessual hərəkətlərin həyata keçirilməsi üçün müstəntiqin və ya prokurorun göstərişlərini yerinə yetirir.

## IX fəsil. Müdafiə tərəfi

**Maddə 90. Şübhəli şəxs**

90.1. Şübhəli şəxs qismində aşağıdakı fiziki şəxs tanınır:

90.1.1. ittiham elan olunması üçün barəsində tutulma haqqında qərar çıxarılmış şəxs;

90.1.2. cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxs;

90.1.3. haqqında həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılmış şəxs.

trial Cinayət prosesini həyata keçirən orqan aşağıdakı müddətlərdə şəxsi şübhə-li şəxs vəziyyətində saxlamağa haqlı deyil:

90.2.1. tutulmuş şəxsi — 48 saatdan artıq;

90.2.2. həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, haqqında qətimkan tədbiri seçilmiş şübhəli şəxsi — qətimkan tədbiri seçilməsi haqqında qərarın elan edildiyi andan 10 (on) gündən artıq.

90.3. Bu Məcəllənin 90.2-ci maddəsində nəzərdə tutulmuş müddət qurtaranadək cinayət prosesini həyata keçirən orqan şübhəli şəxsi azad edərək, haqqında seçilmiş

qətimkan tədbirini ləğv etməli və ya onun təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarmalıdır.

90.4. Şübhə kifayət qədər əsaslı deyilsə, cinayət prosesini həyata keçirən orqan və ya məhkəmə bu Məcəllənin 90.2-ci maddəsində nəzərdə tutulmuş müddətlər qurtaranadək şübhəli şəxsi azad etməli və haqqında seçilmiş qətimkan tədbirini ləğv etməlidir.

90.5. Şəxs azad edildiyi, haqqında seçilmiş qətimkan tədbiri ləğv olunduğu və ya təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxarıldığı andan şübhəli şəxs vəziyyətindən çıxmış hesab olunur.

90.6. Cinayət təqibini həyata keçirən təhqiqatçı, müstəntiq və ya prokuror şübhəli şəxsin hüquqlarını təmin etməli və ona qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə etməklə müdafiə hüququnu həyata keçirməsinə mane olmamalıdır.

90.7. Tutulduğu və ya qətimkan tədbirinin seçilməsi haqqında qərar elan edildiyi andan şübhəli şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

90.7.1. nədə şübhələnildiyini bilmək (şübhənin məzmunu — ona istinad edilmiş cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin faktiki tərəfi və hüquqi tövsifi);

90.7.2. tutulduğu halda tutulmanın əsaslarını bilmək və tutulduğu andan müdafiəçidən hüquqi yardım almaq, onu tutmuş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq;

90.7.3. tutulma haqqında və ya qətimkan tədbiri seçilməsi haqqında qərarın surətini almaq;

90.7.4. tutulma haqqında protokol tərtib olunduqdan dərhal sonra onunla tanış olmaq və ona protokolda əks olunmalı qeydlərini vermək;

90.7.5. tutulduğu və ya qətimkan tədbirinin seçilməsi haqqında qərar elan olunduğu andan müdafiəçiyə malik olmaq;

90.7.6. tutulduqdan dərhal sonra ailəsinə, qohumlarına, yaşadığı və ya işlədiyi (oxuduğu) yerə telefonla və ya digər vasitələrlə tutulması barədə xəbər vermək;

90.7.7. müstəqil olaraq müdafiəçi seçmək, onun səlahiyyətinə xitam vermək, müdafiəçidən imtina etdiyi halda üzü özünü müdafiə etmək;

90.7.8. söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi ilə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq;

90.7.9. müdafiəçinin yardımından pulsuz istifadə etmək, öz vəsatəti əsasında müdafiəçinin iştirakı ilə ifadə vermək;

90.7.10. ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək;

90.7.11. ana dilində və ya bildiyi başqa dildə ifadə (izahat) vermək;

90.7.12. tərcüməçinin köməyindən pulsuz istifadə etmək;

90.7.13. etirazlar etmək və vəsatətlər vermək;

90.7.14. istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək, yaxud bu Məcəllədə başqa qayda nəzərdə tutulmayıbsa, həmin hərəkətlərdə iştirakdan imtina etmək;

90.7.15. öz vəsatəti əsasında aparılan istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin yardımı ilə iştirak etmək;

90.7.16. cinayət işinə əlavə olunması üçün sübutlar və digər materiallar təqdim etmək;

90.7.17. cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkətlərin protokolunda qeyd edilməsini tələb etmək;

90trial. iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokolları ilə tanış olmaq, protokoldakı yaçıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək; istintaq və ya digər prosessual hərəkətlərdə iştirak edərkən qeyd olunması zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək;

90.7.19. cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul edilmiş və onun hüquq və qanuni mənafeyinə toxunan qərarlar haqqında həmin orqan tərəfindən məlumatlanmaq və öz xahişi ilə bu qərarların surətlərini almaq;

90.7.20. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin qərarlarından və hərəkətlərindən şikayət etmək, habelə özünün və ya müdafiəçinin verdiyi şikayətdən imtina etmək;

90.7.21. zərər çəkmiş şəxslə barışmaq;

90.7.22. cinayət işi üzrə icraat zamanı sərf etdiyi xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq;

90.7.23. şübhə təsdiq olunmadıqda bəraət almaq;

90.7.24. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

90.8. Şübhəli şəxs öz müdafiəsini müstəqil həyata keçirərkən onun vəziyyətində mümkün dərəcədə bu Məcəllədə müdafiəçi üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir.

90.9. Şübhəli şəxsin öz hüquqlarından istifadə və ya bundan imtina etməsi onun ziyanına şərh edilməməli və ona münasib olmayan nəticələrə gətirib çıxarmamalıdır. Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə, şübhəli şəxsin üzərinə verdiyi ifadəyə və ya izahata görə heç bir məsuliyyət qoyula bilməz.

90.10. Yetkinlik yaşına çatmayan və fəaliyyət qabiliyyəti olmayan şübhəli şəxsin hüquqlarını onun əvəzinə bu Məcəllədə nəzərdə tutulmuş qaydada qanuni nümayəndəsi həyata keçirir.

90.11. Şübhəli şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

90.11.1. cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək;

90.11.2. tutularkən baxışa və şəxsi axtarışa məruz qalmaq;

90.11.3. həkim müayinəsinə, əl-barmaq izlərinin götürülməsinə, şəklinin çəkilməsinə, qan, bədən ifrazatı nümunələrinin götürülməsinə məruz qalmaq;

90.11.4. müayinəyə məruz qalmaq;

90.11.5. ekspertiza aparılmasına məruz qalmaq;

90.11.6. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

90.11.7. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 91. Təqsirləndirilən şəxs**

91.1. Müstəntiqin, prokurorun və ya məhkəmənin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxardığı fiziki şəxs təqsirləndirilən şəxs kimi tanınır.

91.2. Anlaqsız vəziyyətdə və ya cinayət məsuliyyəti yaradan müəyyən yaş həddinə çatmamış cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi istinad edilən şəxs də bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əlavə və istisnalarla yanaşı, təqsirləndirilən şəxsin hüquqlarına malikdir və onun vəzifələrini daşıyır.

91.3. Şəxsin barəsində cinayət təqibinə xitam verildiyi andan o, təqsirləndirilən şəxs vəziyyətindən çıxmış hesab olunur.

91.4. Müstəntiq, prokuror və ya məhkəmə təqsirləndirilən şəxsin hüquqlarını təmin etməli və ona qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə

etməklə müdafiə hüququnu həyata keçirməsinə mane olmamalı və onun xahişi ilə müdafiəyə hazırlıq üçün kifayət qədər vaxt verməlidir.

91.5. Təqsirləndirilən şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

91.5.1. nədə təqsirləndiyini bilmək (ittihamın məzmunu verilmiş ittihamın faktiki tərəfi və hüquqi tövsifi), ittiham elan edildikdə, habelə həbsə alındıqdan və ya barəsində qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduqdan dərhal sonra müvafiq qərarın surətini almaq;

9trial. onu tutmuş və ya həbs haqqında qərarı icra etmiş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq;

91.5.3. dərhal tutulma və həbsə alma protokolu tərtib olunduqdan sonra onunla tanış olmaq və ona protokolda əks olunmalı qeydlərini vermək;

91.5.4. həbsə alındığı və ya ittiham elan olunduğu andan müdafiəçiyə malik olmaq;

91.5.5. müdafiəçinin yardımından pulsuz istifadə etmək;

91.5.6. tutulduqdan dərhal sonra ailəsinə, qohumlarına, yaşadığı və ya işlədiyi (oxuduğu) yerə telefonla və ya digər vasitələrlə tutulması barədə xəbər vermək;

91.5.7. müstəqil olaraq müdafiəçi seçmək, onun səlahiyyətlərinə xitam vermək, müdafiəçidən imtina etdiyi halda üzü özünü müdafiə etmək;

91.5.8. söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi ilə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq;

91.5.9. öz vəsatəti əsasında müdafiəçinin iştirakı ilə dindirilmək;

91.5.10. ifadə (izahat) vermək, üçünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək;

91.5.11. ana dilində və ya bildiyi başqa dildə ifadə (izahat) vermək;

91.5.12. tərcüməçinin köməyindən pulsuz istifadə etmək;

91.5.13. etirazlar etmək və vəsatətlər vermək;

91.5.14. istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək, bu Məcəllədə başqa hal nəzərdə tutulmayıbsa, həmin hərəkətlərdə iştirakdan imtina etmək;

91.5.15. öz vəsatəti əsasında aparılan istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin yardımı ilə iştirak etmək;

91trial. cinayət işinə əlavə və məhkəmə iclasında tədqiq olunması üçün sübutlar və digər materiallar təqdim etmək;

91.5.17. təqsirli olduğunu və ya təqsirli olmadığını bildirmək;

91.5.18. cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkətlərin protokolunda qeyd edilməsini tələb etmək;

91.5.19. iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokolları ilə tanış olmaq, protokoldakı yaçıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək; istintaq və ya digər prosessual hərəkətlərdə və məhkəmə baxışında iştirak edərkən, qeyd edilməsi zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək;

91.5.20. ekspertizanın təyin olunması haqqında qərarla və ekspertin rəyi ilə tanış olmaq;

91.5.21. həbsə alma və həbsdə saxlamanın qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi materiallarla tanış olmaq;

91.5.22. ibtidai araşdırma qurtardığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan işin materialları ilə tanış olmaq, ona aid zəruri sənədlərin surətlərini çıxarmaq;

91.5.23. cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilməsinə etiraz etmək;

91.5.24. Əsassız gecikməyə yol verilmədən açıq məhkəmə baxışını tələb etmək;

91.5.25. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında və işin materiallarının tədqiqində iştirak etmək;

91.5.26. birinci instansiya məhkəməsinin iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;

91.5.27. öz müdafiəsini müstəqil həyata keçirərkən birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında giriş sözü (haqqında irəli sürülmüş ittihamda özünü təqsirli bilib-bilməməsinin, mülki iddianı qəbul edib-edilməməsinin elan olunması), nitq və replika söyləmək;

91.5.28. məhkəmə baxışında son sözlə çıxış etmək;

91.5.29. hüquqlarına və qanuni mənafeyinə toxunan qərarlar haqqında cinayət prosesini həyata keçirən orqan tərəfindən məlumatlanmaq və xahişi ilə bu qərarların, o cümlədən qətimkan tədbirinin seçilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması, təqsirləndirilən şəxs qismində cəlb etmə, ittiham

elan olunması haqqında qərarların, habelə ittiham aktının, iddia ərizəsinin, hökmün, məhkəmənin digər yekun qərarının, apellyasiya və ya kassasiya şikayətlərinin, yaxud protestlərinin surətlərini almaq;

91.5.30. təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarlarından, yaxud hərəkətlərindən şikayət etmək;

91.5.31. hökmdən və məhkəmənin digər qərarlarından apellyasiya, kassasiya və ya əlavə kassasiya qaydasında şikayət vermək və həmin qərarların surətlərini almaq;

91.5.32. məhkəmə iclasının protokolu ilə tanış olmaq və ona dair qeydlərini vermək;

91.5.33. özünün və ya müdafiəçisinin verdiyi hər bir şikayətdən imtina etmək;

91.5.34. zərər çəkmiş şəxslə barışmaq;

91.5.35. cinayət prosesini həyata keçirən orqan tərəfindən onun nəzərinə çatdırılmış məlumatlardan və ya cinayət prosesinin digər iştirakçılarının şikayətlərindən ona məlum olmuş hallara öz etirazını bildirmək;

91.5.36. onun şikayəti ilə cinayət işinə apellyasiya, kassasiya, əlavə kassasiya qaydasında və ya hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə baxılmasında, həbsdə saxlanılmırsa, cinayət prosesinin digər iştirakçısının şikayətinə etiraz olduqda, həmçinin məhkəmə iclasında işin materiallarının tədqiqində iştirak etmək;

91.5.37. iş üzrə verilmiş şikayət və protestlərdən xəbərdar olmaq və onlara öz etirazlarını bildirmək;

91.5.38. məhkəmə iclasında cinayət prosesinin digər iştirakçıları tərəfindən verilmiş vəsatət və təklifər, habelə məhkəmə tərəfindən həll edilən məsələlər üzrə öz fikrini bildirmək;

91.5.39. cinayət prosesinin digər tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

91.5.40. cinayət işi üzrə icraat zamanı sərf etdiyi xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq;

91.5.41. ittiham sübut olunmadığı halda bəraət almaq;

91.5.42. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

91.6. Təqsirləndirilən şəxs öz müdafiəsini müstəqil həyata keçirərkən onun vəziyyətində mümkün dərəcədə bu Məcəllədə müdafiəçi üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir.

91.7.Təqsirləndirilən şəxsin öz hüquqlarından istifadə və ya bundan imtina etməsi onun ziyanına şərh edilməməli və ona münasib olmayan nəticələrə gətirib çıxarmamalıdır. Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını biləraəkdən çəkdiyi hallar istisna edilməklə, təqsirləndirilən şəxsin üzərinə verdiyi ifadəyə və izahata görə heç bir məsuliyyət qoyula bilməz.

91.8. Təqsirləndirilən şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

91.8.1. cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək;

91.8.2. həbsə alınarkən baxışa və şəxsi axtarışa məruz qalmaq;

91.8.3. həkim müayinəsinə, əl-barmaq izlərinin götürülməsinə, şəklinin çəkilməsinə, qan, bədən ifrazatı nümunələrinin götürülməsinə məruz qalmaq;

91.8.4. müayinəyə məruz qalmaq;

91.8.5. ekspertiza aparılmasına məruz qalmaq;

91.8.6. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

91.8.7. məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan fasilə elan olunanadək məhkəmənin iclas zalını tərk etməmək;

91.8.8. məhkəmə iclasında qaydaya riayət etmək;

91.8.9. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

91.9. Yetkinlik yaşına çatmayan və ya fəaliyyət qabiliyyəti olmayan təqsirləndirilən şəxsin hüquqlarını onun əvəzinə bu Məcəllədə nəzərdə tutulmuş qaydada qanuni nümayəndə həyata keçirir.

## Üçüncü bölmə. Sübutlar və sübutetmə

## XIV fəsil. Sübutlar

**Maddə 124. Sübutların anlayışı və növləri**

124.1. Məhkəmənin və ya cinayət prosesi tərəfərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar:

124.1.1. cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu Məcəllə ilə nəzərdə tutulmuş təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırmaqla əldə olunmalı;

124.1.2. hadisənin cinayət hadisəsi olub-olmamasını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamasını, bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamasını, habelə ittihamın düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən digər halları göstərməlidir.

124.2. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur:

124.2.1. şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxsin və şahidlərin ifadələri;

124.2.2. ekspertin rəyi;

124.2.3. maddi sübutlar;

124.2.4. istintaq və məhkəmə hərəkətlərinin protokolları;

124.2.5. digər sənədlər.

**Maddə 128. Maddi sübutlar**

128.1. Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlanıldığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir əşya maddi sübut hesab edilə bilər.

128.2. Əşya cinayət prosesini həyata keçirən orqanın qərarı ilə maddi sübut hesab edilir.

128.3. Əşyanın maddi sübuti əhəmiyyəti məhkəmə tərəfindən o halda qəbul olunur ki:

1trial1. Əşya əldə olunduqdan dərhal sonra o, ətrafı təsvir edilməklə, möhürlənməklə və bu kimi hərəkətlər yerinə yetirilməklə onun üzərindəki izlərin əlamət-

lərinin və xüsusiyyətlərinin əhəmiyyətli surətdə dəyişdirilməsi imkanı aradan qaldırılmış olsun;

128.3.2. şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxs və ya şahid onu bilavasitə məhkəmədə tədqiqdən əvvəl tanısın.

**Maddə 137-1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti nəticəsində əldə edilmiş materiallardan sübut kimi istifadə edilməsi**

137-1.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti nəticəsində əldə edilmiş məlumatlar, sənədlər və digər əşyalar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

137-1.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri yalnız həmin fəaliyyəti həyata keçirən orqanın səlahiyyətli şəxsinin qərarı əsasında ibtidai araşdırmanı aparan orqana və ya məhkəməyə verilə bilər.

## XVI fəsil. Tutulma

**Maddə 147. Cinayət prosesində tutulmanın tətbiqi**

147.1. Cinayət prosesində tutulma yalnız aşağıdakı şəxslərə tətbiq oluna bilər:

147.1.1. cinayəti törətməkdə şübhəli olan şəxsə;

147.1.2. ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə;

147.1.3. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, yaxud cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələsinin həlli məqsədi ilə məhkuma.

147.2. Tutulma aşağıdakı hallarda tətbiq edilir:

147.2.1. şəxsin cinayət törətməsinə şübhə yarandıqda;

147.2.2. bu Məcəllənin 147.1.2-ci maddəsində nəzərdə tutulmuş şəxs haqqında cinayət təqibi orqanının müvafiq qərarı olduqda;

147.2.3. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə

şərti məhkum etmənin və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələsinin həllinədək məhkumun tutulması barədə məhkəmənin qərarı olduqda.

147.3. Şəxsin qanunsuz tutulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə148. Cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması**

148.1. Cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması onun cinayət törətməsinə bilavasitə şübhə yarandığı və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduğu hallarda həyata keçirilir.

148.2. Şəxsin cinayət törətməsinə bilavasitə şübhə yarandıqda təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror onun tutulmasını aşağıdakı hallarda tətbiq edə bilər:

148.2.1. şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda;

148.2.2. zərər çəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə;

148.2.3. şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda.

148.3. Şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduqda, o, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror tərəfindən aşağıdakı hallarda tutula bilər:

148.3.1. hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;

148.3.2. daimi yaşayış yeri olmadıqda və ya başqa ərazidə yaşadıqda;

148.3.3. şəxsiyyəti müəyyən edilmədikdə.

148.4. Bu Məcəllənin 148.1 və 148.2-ci maddələrində nəzərdə tutulmuş hallardan biri mövcud olduqda tutulma müvafiq cinayət işi başlananadək həyata keçirilə bilər. Cinayət işinin başlanmasına dair qərar şəxsin tutulduğu andan 24 saat keçənədək qəbul olunmazsa, tutulmuş şəxs dərhal azad olunmalıdır. Belə qərar qəbul olunsa da şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. Tutulmuş şəxsə tutulduğu andan 48 saat keçənədək ittiham elan edilməli, həbslə bağlı prokurorun təqdimatı olduqda isə o, məhkəməyə gətirilməli, məhkəmə işə təxirə salınmadan baxmalı və

onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarmalıdır.

**Maddə 149. Hadisəni görən şəxsin köməyi ilə cinayət törətmiş şəxsi tutub saxlamanın xüsusiyyətləri**

149.1. Cinayət baş verdikdə və ya cinayət baş verdikdən bilavasitə sonra onu törətmiş şəxs gizlənməyə cəhd göstərdikdə, hadisəni görən şəxs onun yaxalanması üçün şəxsin tutulmasında cinayət təqibi orqanına kömək göstərə bilər, o cümlədən:

149.1.1. müqavimət göstərdikdə cinayət törətmiş şəxsin əl-ayağını bağlaya bilər;

149.1.2. cinayət törətmiş şəxsin üstündə silah və ya başqa təhlükəli alətin, yaxud cinayət işi üzrə əhəmiyyət kəsb edən digər əşyaların olmasını ehtimal etdikdə onun üstünü yoxlayaraq bu əşyaları cinayət təqibi orqanına təqdim etmək üçün götürə bilər.

149.2. Cinayət təqibi orqanının əməkdaşı olmadıqda, cinayəti törətmiş şəxsi yaxalayan dərhal polis çağırmalı, bunu etmək mümkün olmadıqda isə tutulmuş şəxsi təxirə salınmadan məcburi qaydada polisə çatdırmalıdır.

**Maddə 153. Tutulmuş şəxsin hüquqlarının təmin edilməsi**

153.1. Cinayət təqibi orqanı hər hansı şəxsin tutulduğu halda onun hüquqi statusundan asılı olaraq bu Məcəllədə şübhəli və ya təqsirləndirilən şəxs üçün nəzərdə tutulmuş hüquqlarını təmin etməlidir.

153.2. Tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerlərinin əməkdaşları aşağıdakıları etməlidirlər:

153.2.1. tutulmadan dərhal sonra şəxsə tutulmanın əsaslarını bildirmək, üçünə və yaxın qohumlarına qarşı ifadə verməmək, müdafiəçinin yardımından istifadə etmək hüquqlarını izah etmək;

153.2.2. tutulmuş şəxsi təxirə salınmadan polis və ya digər təhqiqat orqanlarının müvəqqəti saxlama yerlərinə gətirmək, tutulma faktını qeydə almaq, protokollaşdırmaq və onu tutulma protokolu ilə tanış etmək;

153.2.3. hər bir tutulma faktı müvəqqəti saxlama yerlərində qeydiyyatdan keçirildikdən dərhal sonra müvafiq təhqiqat orqanının rəhbərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat vermək (bu məlumat yazılı və tutulma anından sonra 12 saat müddətində verilir);

153.2.4. tutulmadan dərhal sonra şəxsin tutulması barədə xəbər vermək hüququnu təmin etmək (qocaların, yetkinlik yaşına çatmayanların və psixi vəziyyətinə görə

imkanı olmayan tutulmuş şəxslərin ailə üzvlərinə müvəqqəti saxlama yerlərinin müdiriyyəti öz təşəbbüsü ilə xəbər verir);

153.2.5. şəxsə tutulduğu andan öz vəkili və qanuni nümayəndəsi ilə ləyaqətli şəraitdə və nəzarət altında təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmaq;

153.2.6. tutulmuş şəxsin öz vəkili olmadıqda, ona müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etmək, seçilmiş vəkillə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmaq;

153.2.7. tutulmuş şəxsin maddi vəziyyəti öz hesabına vəkil tutmağa imkan vermədikdə, ona dövlət hesabına müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarına daxil olan növbətzi vəkillə görüşmək imkanı yaratmaq;

153.2.8. tutulmuş şəxs vəkildən imtina etdikdə, bu barədə onun yazılı ərizəsini almaq (ərizə yazmaqdan boyun qaçırıldıqda, həmin faktla əlaqədar vəkil və müvəqqəti saxlama yerinin nümayəndəsi tərəfindən müvafiq protokol tərtib olunur);

153.2.9. cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin tərcüməçinin xidmətindən pulsuz istifadə etmək hüququnu təmin etmək;

153.2.10. tutulmuş şəxslə davranışda onun şəxsiyyətini və ləyaqətini alzaltmamaq, qadınlara, yetkinlik yaşına çatmayanlara, qocalara, xəstələrə və əlillərə isə xüsusi diqqət yetirmək;

153.2.11. tutulmuş şəxsin barəsində həbs qətimkan tədbiri seçmək, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələlərinin həlli üçün bu Məcəllənin 148, 150—152-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət edilməsi məqsədilə tutulmuş şəxsi qabaqcadan məhkəməyə gətirmək;

153.2.12. bu Məcəllənin 161.0.1—161.0.8, 161.0.10-cu maddələrində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək.

153.3. Tutulmuş şəxs cinayət prosesini həyata keçirən orqan tərəfindən aşağıdakı hallarda azad edilməlidir:

153.3.1. şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi barədə şübhələr təsdiq edilmədikdə;

153.3.2. şəxsi gələcəkdə həbsdə saxlamaq üçün zərurət olmadıqda;

153.3.3. çıxarılıb

153.3.4. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələlərinin həlli üçün tutulma anından 7 (yeddi) gün, digər hallarda isə tutulma anından 48 saat müddətində tutulmuş şəxsi həbs etmək üçün məhkəmə qərarı verilmədikdə.

153.4. Bu Məcəllənin 153.3.1 və 153.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda tutulmuş şəxs müvafiq olaraq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən, bu Məcəllənin 153.3.4-cü maddəsində nəzərdə tutulmuş halda isə həmçinin müvəqqəti həbsdə saxlama yeri üzrə müdiriyyətin rəhbəri tərəfindən azad edilə bilər.

153.5. Cinayətin törədilməsində şübhəli şəxs kimi tutulmuş və şübhə təsdiq olunmadığına görə azad olunmuş şəxs həmin şübhəyə görə yenidən tutula bilməz.

## XVIII fəsil.
## Cinayət prosesində digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi

**Maddə 176. Prosessual hərəkətlərin aparılması üçün tətbiq olunan məcburiyyət tədbirləri**

Bu Məcəllənin 147 və 154-cü maddələrində nəzərdə tutulmuş prosessual məcburiyyət tədbirlərindən başqa, cinayət prosesini həyata keçirən orqan sübutların əldə edilməsinə mane olan halları müəyyən etdikdə prosessual hərəkətlərin aparılması üçün digər məcburiyyət tədbirləri tətbiq edə bilər. Bu Məcəllənin 444.1.4 və 444.2-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirləri məhkəmənin qərarı əsasında tətbiq olunur.

***Maddə 177. İstintaq hərəkətlərinin məcburi aparılması hüququ***

177.1. Cinayət prosesini həyata keçirən orqan istintaqın normal gedişini təmin etmək üçün istintaq hərəkətini məcburi apara bilər, onun iştirakçılarının bu hərəkətin başlanmasını gözləmələri və onun aparıldığı yeri tərk etməmələri üçün tədbirlər görə bilər.

177.2. İstintaq hərəkətinin aparılmasına müvafiq şəxs tərəfindən icazə verilmədiyi və onun məcburi aparılması üçün məhkəmənin qərarı tələb olunduğu halda,

müsttrialin əsaslandırılmış vəsatəti ilə razı olan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə təqdimatla müraciət edir.

177.3. Aşağıdakı istintaq hərəkətlərinin məcburi aparılması üçün bir qayda olaraq məhkəmə qərarının alınması tələb olunur:

177.3.1. yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, axtarış, götürmə və digər istintaq hərəkətlərinin aparılması;

177.3.2. tutulmuş və ya həbs edilmiş şəxsdən başqa, şəxsin iradəsinə zidd olaraq onun şəxsi müayinəsi;

177.3.3. Əmlak üzərinə həbs qoyulması;

177.3.4. poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması;

177.3.5. telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi;

177.3.6. maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi;

177.3.7. meyitin qəbirdən çıxarılması (eksqumasiya).

*177.3.8. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması.*

177.4. Baxış, axtarış və götürmə istisna edilməklə yaşayış yerində, xidməti və istehsalat binalarında digər istintaq hərəkətləri, habelə bu Məcəllənin 177.3.6 və 177.3.7-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri yalnız məhkəmənin qərarı əsasında aparıla bilər. Müstəntiq müvafiq məhkəmə qərarı olmadan öz qərarı əsasında aşağıdakı istintaq hərəkətlərini məcburi apara bilər:

177.4.1. yaşayış yerində, xidməti və ya istehsalat binalarında baxış, axtarış və ya götürmə aparılması — bu Məcəllənin 243.3-cü maddəsində nəzərdə tutulmuş əsaslar və hallar olduqda;

177.4.2. şəxsi müayinə aparılması — bu Məcəllənin 238-2-ci maddəsində nəzərdə tutulmuş hallarda;

177.4.3. Əmlak üzərinə həbs qoyulması — bu Məcəllənin 249.5-ci maddəsində nəzərdə tutulmuş hallarda;

177.4.4. poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması, habelə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə

ötürülən məlumatların ələ keçirilməsi — şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə olan ağır və ya xüsusilə ağır cinayətlər üzrə sübutların müəyyən edilməsi üçün təxirə salına bilməyən hallar yarandıqda.

*177.4.5. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması — pul vəsaitləri və ya digər əmlakla əməliyyatın terrorçuluğun maliyyələşdirilməsinə yönəlməsini və ya cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasını güman etməyə kifayət qədər əsas verən təxirə salına bilməyən hallar yarandıqda.*

177.5. Bu Məcəllənin 177.3.1-177.3.5 və 177.3.8-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri təxirə salına bilməyən hallarda müstəntiqin əsaslandırılmış qərarı ilə aparılmışdırsa, müstəntiq bu Məcəllənin 443.2-ci maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməlidir. *Müstəntiqin qərarı istintaq hərəkətinin məhkəmənin qərarı olmadan aparılmasının zəruriliyi və təxirə salına bilməməyi əsaslandırılmaqla bu Məcəllənin 446.2-ci maddəsinin tələblərinə uyğun olaraq tərtib edilir.*

177.6. Yaşayış, xidməti və ya istehsalat yerində müvafiq olaraq yaşayan, işləyən və ya həmin yerin sahibi olan şəxsin dəvəti, yaxud onun icazəsi ilə müstəntiq tərəfindən bu Məcəllənin 177.3.1-ci maddəsində nəzərdə tutulmuş istintaq hərəkətlərinin aparılması üçün məhkəmə qərarının alınması tələb edilmir.

**Maddə 178. Məcburi gətirilmə**

178.1. Məcburi gətirilmə şəxsin cinayət prosesi aparan orqana məcburi çatdırılmasından, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında onun iştirakının məcburi təmin edilməsindən ibarətdir.

1178.2. Məcburi gətirilmə cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxsə yalnız aşağıdakı hallarda tətbiq edilə bilər:

178.2.1. cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışlarına üzürlü səbəb olmadan gəlmədikdə;

178.2.2. cinayət prosesini həyata keçirən orqanın çağırışlarını almaqdan boyun qaçırdıqda;

178.2.3. cinayət prosesini həyata keçirən orqandan gizləndikdə;

178.2.4. daimi yaşayış yeri olmadıqda.

178.3. 14 yaşınadək olan şəxslərin, hamilə qadınların, ağır xəstələrin, habelə xüsusi ittihamçının məcburi gətirilməsinə yol verilmir.

178.4. Məcburi gətirilmə cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı və ya cinayət prosesi iştirakçılarının vəsatəti ilə məhkəmənin qərarı əsasında həyata keçirilir.

178.5. Məcburi gətirilmə barədə qərar təhqiqat orqanı və ya qanunla üzərinə bu vəzifə qoyulmuş digər orqan tərəfindən icra olunur.

## Altıncı bölmə.
## Cinayət mühakimə icraatı zamanı-konfidensiallıq və müddət məsələləri

## XXIII fəsil. Cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması

**Maddə 199. Şəxsi və ailə sirrinin qorunması**

199.1. Cinayət mühakimə icraatı zamanı şəxsi və ailə sirrini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.

199.2. Prosessual hərəkətlərin gedişində hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə istintaq və məhkəmə hərəkətlərinin iştirakçıları bu məlumatların yayılmamasını öhdələrinə götürür və onlardan bu barədə yazılı iltizam alınır.

199.3. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə onun şəxsi həyatına aid məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir. Cinayət prosesini həyata keçirən orqan şəxsə özünün və ya başqasının həyatına aid məlumatları bildirməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.

199.4. Şəxsi və ya ailə sirlərini açıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq edilməlidir.

199.5. Şəxsi həyatın toxunulmazlığının pozulması, şəxsi və ya ailə sirrinin yayılması nəticəsində hər hansı şəxsə vurulan ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada ödənilməlidir.

**Maddə 200. Dövlət sirrinin qorunması**

200.1. Cinayət mühakimə icraatı zamanı dövlət sirrini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.

200.2. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir. Cinayət prosesini həyata keçirən orqan şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə, o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.

200.3. Cinayət prosesini həyata keçirən orqan dindirmə və ya digər istintaq hərəkəti protokolunda bunun qadağan edilməsi barədə qeydlər etməyibsə, dövlət qulluqçusu ona etibar edilmiş dövlət sirrini təşkil edən məlumatlara dair ifadə verməsi barədə dərhal müvafiq dövlət orqanının rəhbərinə yazılı məlumat verməlidir.

200.4. Dövlət sirrini özündə əks etdirən məlumatlarla bağlı cinayət işlərinin icraatı bu cür məlumatların yayılmaması barədə öhdəlik götürmüş müstəntiqlərə, prokurorlara və ya hakimlərə həvalə edilir. Öz vəzifələrinin icrası zamanı hakimlər, habelə dövlət sirri təşkil edən məlumatlarla bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatında müdafiəçi qismində çıxış edən vəkillər dövlət sirri ilə işləməyə «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar. Dövlət sirrini açıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq edilməlidir.

200.5. Məhkəmə və prokurorluq orqanlarında dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət bu orqanların rəhbərləri tərəfindən təşkil edilir.

**Maddə 201. Peşə və kommersiya sirrinin qorunması**

201.1. Cinayət mühakimə icraatı zamanı peşə və kommersiya sirlərini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.

201.2. Prosessual hərəkətlər aparılarkən peşə və ya kommersiya sirlərini əks etdirən məlumatların zərurət olmadan toplanmasına, istifadə və yayılmasına yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə istintaq və məhkəmə hərəkətlərinin iştirakçıları həmin məlumatları yaymamalıdırlar və onlardan bu barədə iltizam alınır.

201.3. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə peşə və ya kommersiya sirlərini əks etdirən məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir.

201.4. Cinayət prosesini həyata keçirən orqan şəxsə peşə və kommersiya sirrini özündə əks etdirən məlumatların bildirilməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə, o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.

201.5. Cinayət prosesini həyata keçirən orqan dindirmə və ya digər istintaq hərəkəti protokolunda bunun qadağan edilməsi barədə qeydlər etməyibsə, dövlət qulluqçusu və ya hər hansı mülkiyyət formasına malik müəssisə və ya təşkilatın işçisi ona etibar edilmiş peşə və kommersiya sirrini təşkil edən məlumatlara dair ifadə verməsi barədə dərhal müvafiq orqanın, müəssisə və təşkilatın rəhbərinə yazılı məlumat verməlidir.

201.6. Peşə və ya kommersiya sirrini azıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq olunmalıdır.

## Xüsusi hissə
## Yeddinci bölmə. Cinayət təqibi üzrə məhkəməyədək icraat

## XXV fəsil. Cinayət işinin başlanması

### Maddə 204. Törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxslərin məlumatları

trial. Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hesab edilən fiziki şəxslərin məlumatları yazılı və ya şifahi şəkildə ola bilər.

204.2. İstintaq hərəkətlərinin aparılması və ya məhkəmə baxışı zamanı, törədilmiş və ya hazırlanan cinayət haqqında verilmiş şifahi məlumat müvafiq olaraq istintaq hərəkəti və ya məhkəmə iclası protokoluna yazılır. Digər hallarda ayrıca protokol tərtib edilir. Protokolda məlumatı verən şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış və ya iş yerinin ünvanı, onun cinayətə münasibəti, məlumatı aldığı mənbə, habelə onun təqdim etdiyi vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd haqqında məlumatlar qeyd edilməlidir. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs tərəfindən vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd təqdim edilmədikdə onun şəxsiyyəti haqqında məlumatların yoxlanılması üçün digər tədbirlər görülməlidir.

204.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs 16 (on altı) yaşına çatmışsa, ona bilə-bilə yalan xəbərzilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

204.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında və məlumat verən şəxsə onların məlum olduğu hallar barədə məlumatlar protokolda birinci şəxs adından qeyd olunur.

204.5. Protokolu törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs və məlumatı qəbul edən vəzifəli şəxs imzalayırlar.

204.6. Törədilmiş və ya hazırlanan cinayət haqqında imzalanmamış və ya saxta imza ilə imzalanmış, yaxud uydurma fiziki şəxs adından yaçılmış ərizə və ya digər anonim məlumat cinayət işinin başlanması üçün səbəb ola bilməz.

204.7. Bu Məcəllənin 204.1, 204.2, 204.4 və 204.5-ci maddələrində nəzərdə tutulmuş qaydalar şəxsin təqsirini könüllü boynuna alma haqqında ərizə ilə müraciət etdiyi hallara da şamil edilir.

**Maddə 205. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında hüquqi şəxslərin (vəzifəli şəxslərin) məlumatları**

205.1. Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hesab edilən hüquqi şəxsin (vəzifəli şəxsin) məlumatları məktub, yaxud təsdiq edilmiş teleqram, telefonoqram, radioqram, teleks və ya digər qəbul edilmiş müraciət formasında olmalıdır.

205.2. Törədilmiş və ya hazırlanan cinayət haqqında hüquqi şəxsin (vəzifəli şəxsin) məktubuna cinayətin törədilməsini təsdiq edən sənədlər əlavə edilməlidir.

205.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında hüquqi şəxsin (vəzifəli şəxsin) məktubunda hüquqi şəxsin tam adı, yaxud vəzifəli şəxsin soyadı, adı, atasının adı, ərizəçinin xidməti ünvanı, onun cinayətə münasibəti, məlumatı aldığı mənbə, eləcə də məktuba əlavə edilən sənədlər haqqında məlumatlar qeyd edilməlidir.

205.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında imzalanmamış və ya saxta imza ilə imzalanmış, yaxud uydurma hüquqi şəxs (vəzifəli şəxs) adından yaçılmış ərizə və ya digər anonim məlumat cinayət işinin başlanması üçün səbəb ola bilməz.

**Maddə 206. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında kütləvi informasiya vasitələrinin məlumatları**

206.1. Cinayətin törədilməsi və ya onun törədilməsinə hazırlıq faktına dair müvafiq kütləvi informasiya vasitəsinə məlum olmuş, cinayət işinin başlanması üçün səbəb hesab edilən kütləvi informasiya vasitələrinin məlumatları mətbuatda, radioda, televiziyada əks etdirildikdən sonra cinayət təqibi orqanlarına göndərilməlidir.

206.2. Törədilmiş və ya hazırlanan cinayətlərlə əlaqədar kütləvi informasiya vasitələrinə ünvanlanmış, dərc edilməmiş yazışmalar kütləvi informasiya vasitələrinin vəzifəli şəxsləri tərəfindən bu Məcəllənin 205-ci maddəsində nəzərdə tutulmuş qaydada cinayət təqibi orqanlarına göndərilə bilər.

206.3. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatları dərc etmiş və ya aidiyyəti üzrə göndərmiş kütləvi informasiya vasitələrinin vəzifəli şəxsləri, habelə həmin məlumatların müəllifəri onlarda olan və cinayət haqqında məlumatı təsdiq edən sənədləri təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya məhkəməyə təqdim etməlidirlər.

**Maddə 207. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılması qaydası**

207.1. Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

207.1.1. törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki və ya hüquqi şəxs tərəfindən daxil olmuş, habelə onun səlahiyyətlərinə aid olan və kütləvi informasiya vasitələrində əks etdirilmiş və təsdiq edən sənədlərlə birgə təqdim edilmiş məlumatı dərhal qeydə almaq və ona baxmaq;

207.1.2. zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə

əlaqədar isə *20 (iyirmi) gündən, bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən* artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparmaq;

207.1.3. törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılmasının (aparılmış yoxlamanın) nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul etmək.

207.2. Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər haqqında məlumatlara baxarkən həmin cinayətlərdən zərər çəkmiş şəxslərin şikayəti olduğu halda yoxlama apara bilər. Belə şikayət olmadığı halda ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər haqqında digər şəxslərin məlumatları təhqiqatçı və ya müstəntiq tərəfindən nəzərə alınmamalıdır. Həmin məlumatlara prokuror bu Məcəllənin 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda baxa bilər.

*207.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılarkən hüquqi şəxsin fəaliyyətinin elm, texnika, incəsənət və digər peşə sahələrində xüsusi biliklərdən istifadə etməklə yoxlanılması zərurəti yarandıqda aşağıdakı hərəkətlər yerinə yetirilir:*

*207.3.1. müvafiq dövlət orqanları və ya auditor təşkilatlarından mütəxəssisin ayrılmasının təmin edilməsinə dair ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qərar qəbul edilir;*

*207.3.2. toplanmış yoxlama materialları əsasında cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilir.*

207.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ərizəçilərdən əlavə sənədləri, onlardan və digər şəxslərdən izahatları tələb edə, habelə hadisə yerinə baxış keçirə bilər. Hadisə yerinə baxış istisna olmaqla cinayət işinin başlanmasından əvvəl digər istintaq hərəkətlərinin aparılması, habelə prosessual məcburiyyət tədbirlərinin tətbiqi qadağandır.

207.5. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul etməlidir:

207.5.1. cinayət işi başlamaq;

207.5.2. cinayət işinin başlanmasını rədd etmək;

207.5.3. məlumatı istintaq aidiyyəti üzrə göndərmək;

207.5.4. xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək.

207.6. Bu Məcəllənin 207.5.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna edilməklə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatları aldıqda məhkəmə onda olan bütün məlumatları dərhal baxılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora gündərir.

207.7. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlərə dair şikayətlərə baxılması qaydası bu Məcəllənin 293—297-ci maddələri ilə müəyyən olunur.

**Maddə 208. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi**

208.0. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi cinayət işinin başlanmasına aşağıdakı hallarda səbəb olur:

208.0.1. təhqiqatçı, müstəntiq və ya prokuror cinayətin törədilməsini göstərən halları, yaxud cinayətin törədilməsindən dərhal sonra onun izlərini və nəticələrini aşkar etdikdə;

208.0.2. təhqiqatçı cinayət haqqında məlumatı təhqiqat orqanının əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşlarından və ya bu Məcəllənin 86-cı maddəsinə müvafiq olaraq digər cinayətin təhqiqatı zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.3. müstəntiq cinayət haqqında məlumatı bu Məcəllənin 85-ci maddəsinə müvafiq olaraq digər cinayətin istintaqı zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.4. prokuror cinayət haqqında məlumatı bu Məcəllənin 84-cü maddəsinə müvafiq olaraq digər cinayətin ibtidai araşdırması və ya məhkəmə icraatı zamanı, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.5. məhkəmə cinayət haqqında məlumatı ədalət mühakiməsinin hər hansı icraatı üzrə həyata keçirilməsi zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda.

## XXIX fəsil. Baxış, meyitin qəbirdən çıxarılması və şəxsi müayinə

**Maddə 236. Baxış**

236.1. Cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə müstəntiq hadisə yerinin, binaların, sənədlərin, əşyaların, insan meyitinin və heyvan cəsədinin baxışını aparır.

236.2. Hadisənin aşkar edilməsindən sonra hadisə yerinin təxirə salınmadan baxışı halları istisna olmaqla baxış gündüz vaxtı aparılır.

236.3. Baxış cinayət işi başlandıqdan sonra və həmin iş üzrə təqsirləndirilən və ya şübhəli şəxs olduğu halda aparıldıqda, onun aparılmasında təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi iştirak edə bilər. Bu halda müstəntiq baxışın aparılmasında müdafiəçinin iştirakını əvvəlcədən təmin etməlidir. Hadisə yerinin baxışının aparılmasında azı 2 (iki) hal şahidi iştirak edir.

236.4. Müstəntiq vətəndaşların hüquqlarını pozmamaq şərti ilə görünən obyektlərin baxışını aparır. Zəruri hallarda müstəntiq baxışın aparıldığı yeri və ayrı-ayrı əşyaları ölçür, yerin və ayrı-ayrı əşyaların plan, sxem və cizgilərini tərtib edir, imkan olduqda isə onların foto, video və kino çəkilişlərini aparır.

236.5. Baxış zamanı müstəntiq müstəqil və ya mütəxəssisin köməyi ilə izləri, əşyaları, sənədləri, habelə gələcəkdə iş üzrə sübut əhəmiyyəti kəsb edə biləcək digər əşyaları götürür.

236.6. Baxış qurtardıqda müstəntiq protokol tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

236.6.1. baxışın aparıldığı vaxt, tarix və yer;

236.6.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

236.6.3. baxışda iştirak edən şəxslərin soyadı, adı, atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

236.6.4. hal şahidlərindən hər birinin şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxslə qarşılıqlı münasibətləri barədə məlumatlar (yalnız hadisə yerinin baxışında hal şahidlərinin iştirak etdiyi halda);

236.6.5. hal şahidlərindən hər birinə onun hüquqlarının, vəzifələrinin və məsuliyyətinin izah edilməsi haqqında qeyd (yalnız hadisə yerinin baxışında hal şahidlərinin iştirak etdiyi halda);

236.6.6. baxışın xüsusiyyətləri, xüsusən baxış zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi haqqında qeyd;

23trial. müşahidə edilmə ardıcıllığı ilə baxış zamanı bütün aşkar olunanlar.

236.7. Protokol ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları və müstəntiq tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər vərəqi istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır.

236.8. Baxış zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə edilir.

236.9. Yaşayış yerinə, xidməti və ya istehsalat binalarına və orada görünən obyektlərə baxış bu Məcəllənin 243.3-cü maddəsində göstərilən əsaslar və hallar olduqda və bu Məcəllənin 177.2—177.6-cı maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə aparılır.

**Maddə 238. Şəxsi müayinə**

238.1. Məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq onların şəxsi müayinəsini apara bilər.

238.2. Şəxsi müayinə aparılması haqqında məhkəmənin və ya müstəntiqin qərarı, barəsində qərar çıxarılmış şəxs üçün məcburidir. Şəxsin tutulması və ya həbs edilməsi halları istisna olmaqla insanın iradəsinə zidd onun şəxsi müayinəsi yalnız məhkəmənin qərarı əsasında aparılır.

238.3. Təqsirləndirilən və ya şübhəli şəxs üzərində şəxsi müayinənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir.

238.4. Zəruri hallarda şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə və ya qanunla müəyyən edilmiş hallarda həkim-narkoloq, həkim olmadıqda isə, feldşer-narkoloq tərəfindən aparılır. Barəsində şəxsi müayinə aparılan şəxsin soyundurulması ilə müşayiət edilən şəxsi müayinə eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.

238.5. Əks cinsdən olan şəxsin soyundurulması zərurəti yarandığı halda müstəntiq, təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin aparılmasında iştirak edə bilməz. Bu halda müstəntiqin tapşırığı ilə şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır.

238.6. Şəxsi müayinə qurtardıqdan sonra müstəntiq bu istintaq hərəkətinin protokolunu tərtib edir və protokolda aşağıdakılar göstərilir:

238.6.1. şəxsi müayinənin aparıldığı vaxt, tarix və yer;

238.6.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

238.6.3. şəxsi müayinədə iştirak etmiş məhkəmə təbabəti sahəsində mütəxəssisin və ya həkimin vəzifəsi, soyadı, adı və atasının adı;

238.6.4. şəxsi müayinənin aparılmasında iştirak edən şəxslərin soyadı, adı və atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifələri, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

238.6.5. müşahidə edilmə ardıcıllığı ilə şəxsi müayinə zamanı bütün aşkar olunanlar.

238.7. Şəxsi müayinə protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən imzalanır.

## XXX fəsil. Şəxsin və əşyaların tanınması

### Maddə 239. Şəxsin tanınması

239.1. Hər hansı şəxsi şahidə, zərər çəkmiş, şübhəli və təqsirləndirilən şəxsə tanınma üçün təqdim etmə zərurəti yarandıqda müstəntiq əvvəlcədən onları həmin şəxsin xarici görkəmi və əlamətləri barədə, habelə tanıyanın tanınanı gördüyü hallar barədə dindirir və bu barədə müvafiq protokol tərtib edilir.

239.2. Müstəntiq təqsirləndirilən və ya şübhəli şəxsin tanınmasında həmçinin onun müdafiəçisinin iştirakını əvvəlcədən təmin etməlidir.

239.3. Müstəntiqin göstərişi və ya icazəsi ilə şəxsin tanınması zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

239.4. Tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda, o, əvvəlcədən ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə

cinayət məsuliyyəti haqqında, habelə özünün, yaxud yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ haqqında xəbərdar edilir.

239.5. Tanınmalı olan şəxs tanıyana azı 3 (üz) nəfər eyni cinsdən olan və tanınmalı olan şəxsdən xarici görkəmi və geyimi ilə kəskin fərqlənməyən digər şəxslərlə birlikdə təqdim edilir.

239.6. Tanınma başlanmazdan əvvəl müstəntiq tanınmalı olan şəxsə digər şəxslər sırasında istənilən yeri tutmağı təklif edir.

239.7. Tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə və ya onun tələbi ilə şəxsin tanınmaya təqdim edilməsi tanıyan şəxsin tanınmalı olan şəxs tərəfindən vizual müşahidəsini istisna edən şəraitdə aparıla bilər.

239.8. Tanıyan qeyri-müəyyənliyinə görə tanınanın şəxsiyyətinin eyniləşdirilməsi üçün kifayət edən əlamətləri göstərmədikdə tanınma aparıla, aparılmış tanınma isə əsaslı hesab edilə bilməz. Şəxsin eyni şəxs tərəfindən və eyni əlamətlər üzrə təkrar tanınması aparıla bilməz.

239.9. Zərurət olduqda tanınma xarici görkəminə və geyiminə görə kəskin fərqlənməyən müxtəlif şəxslərin fotoşəkilləri üzrə də aparıla bilər.

**Maddə 240. Əşyaların tanınması**

240.1. Hər hansı əşyanı tanınma üçün təqdim etmək zəruri olduqda müstəntiq tanıyan şəxsi bu əşyanın əlamətləri və həmin əşyanı gördüyü şərait barədə qabaqcadan dindirir və bu barədə protokol tərtib edilir.

240.2. Əşyanın tanınmasında təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi iştirak etmək hüququna malikdir. Müstəntiq tərəfindən bu istintaq hərəkətinin aparılması barədə əvvəlcədən xəbərdar edilmiş müdafiəçi əşyanın tanınmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

240.3. Müstəntiqin göstərişi və ya icazəsi ilə əşyanın tanınmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

240.4. Tanıyan şəxs şahid və ya zərər çəkmiş şəxs olduqda, ona qabaqcadan ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə, habelə özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə xəbərdarlıq edilir.

240.5. Tanınmalı olan əşya eyni növdən olan əşyalar arasında tanıyan şəxsə təqdim edilir. Tanıyan şəxsə onun tanıya bildiyi əşyanı göstərmək və həmin əşyanı məhz hansı əlamətlərinə görə tanıdığını izah etmək təklif olunur.

240.6. Meyitin, onun hissələrinin, habelə analoqunu tapmaq qeyri-mümkün və ya çətin olan əşyaların tanınması təqdim edilmiş vahid nüsxə üzrə aparılır.

240.7. Tanıyan şəxsin sağlığında müşahidə etdiyi insan meyitinin tanınması aparıldıqda onun qrimlənməsinə yol verilir. Əşya tanındıqda onun çirkdən, pasdan və digər çöküntülərdən təmizlənməsinə yol verilir.

**Maddə 241. Tanınma protokolu**

241.1. Tanınma aparıldıqdan sonra müstəntiq aşağıdakıları əks etdirən tanınma protokolu tərtib edir:

241.1.1. tanınmanın aparıldığı yer, tarix və vaxt;

241.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

241.1.3. tanınmada iştirak etmiş şəxslərin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer; vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduğu yer;

241.1.4. tanınmada iştirak etmiş şəxsə onun hüquq, vəzifə və məsuliyyətinin izah edilməsi haqqında qeyd;

241.1.5. tanınmanın xüsusiyyətləri, meyitin qəbirdən çıxarılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

241.1.6. müşahidə edilmə ardıcıllığı ilə bütün aşkar olunanlar, o cümlədən tanınma üçün təqdim edilmiş əşyaların təsviri və tanınmanın aparıldığı əlamətlərin təsviri.

241.2. Tanınma protokolunu ona öz qeydlərinin əlavə edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları imzalayırlar. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir səhifəsi istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

241.3. Tanınmanın aparılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yaçılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə edilir.

## XXXI fəsil. Axtarış və götürmə

**Maddə 242. Axtarış və ya götürmənin aparılması**

242.1. Əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və ya istehsalat binasında, digər yerdə, yaxud hər

hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və ya sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə, müstəntiq axtarış apara bilər.

242.2. Axtarış, həmçinin axtarışda olan şəxslərin, habelə heyvanların, insan meyitlərinin və ya heyvan cəsədlərinin aşkar edilməsi məqsədi ilə aparıla bilər.

242.3. Toplanmış sübutlarla və ya əməliyyat-axtarış fəaliyyətinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin kimdə və harada olması müəyyən edildikdə müstəntiq həmin əşya və sənədləri götürə bilər.

**Maddə 243. Axtarış və ya götürmənin aparılması üçün əsaslar**

trial. Axtarış və ya götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər. Axtarış və ya götürmə bu Məcəllənin 177.2—177.6-cı maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə aparılır.

243.2. Axtarış və ya götürmənin aparılması haqqında qərarda aşağıdakılar göstərilməlidir:

243.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

243.2.2. qərarı çıxarmış şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

243.2.3. axtarış və ya götürmənin aparılması üçün əsas olmuş obyektiv hallar və motivlərin əsaslandırılması;

243.2.4. axtarışın və ya götürmənin aparılacağı şəxsin soyadı, adı və atasının adı;

243.2.5. axtarış və ya götürmənin aparılacağı konkret yer (yaşayış, xidməti, istehsalat binası, ünvanı və ya yerləşdiyi yer);

243.2.6. götürmə haqqında qərar qəbul edildikdə, həmçinin götürülməli olan əşya və sənədlər.

243.3. Təxirə salına bilməyən hallarda müstəntiq axtarış və ya götürməni məhkəmənin qərarı olmadan yalnız aşağıdakıları güman etməyə əsas verən dəqiq məlumat olduqda apara bilər:

243.3.1. şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən əşya və ya sənədlərin yaşayış yerində gizlədilməsini;

243.3.2. şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayəti hazırlayan, törədən, törətmiş, həbsdən və ya azadlıqdan məhrum etmə yerlərindən qaçmış şəxsin yaşayış yerində gizləndiyini;

243.3.3. yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olmasını;

243.3.4. yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükə olduğunu.

243.4. Bu Məcəllənin 243.3-cü maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq axtarış və ya götürmənin aparılması barədə əsaslandırılmış qərar çıxarır. Müstəntiqin qərarı bu Məcəllənin 243.2-ci maddəsinin tələblərinə müvafiq olaraq, habelə məhkəmənin qərarı olmadan axtarış və ya götürmə aparılmasının zəruriliyi və təxirə salına bilməməsi əsasları nəzərə alınmaqla tərtib edilir.

**Maddə 244. Axtarış və ya götürmə zamanı iştirak edən şəxslər**

244.1. Axtarış və ya götürmə zamanı azı 2 (iki) hal şahidinin iştirakı məcburidir.

244.2. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində axtarış və götürmənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Həmin istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi axtarış və götürmədə iştirak etmək arzusunu bildirdikdə müstəntiq onun bu hüququnu təmin etməlidir.

244.3. Zəruri hallarda axtarış və ya götürmənin aparılmasında tərcüməçi və mütəxəssis iştirak edə bilər.

244.4. Axtarış və ya götürmə zamanı barəsində axtarış və götürmənin aparıldığı şəxsin, onun yetkinlik yaşına çatmış ailə üzvünün və ya qanuni mənafelərini təmsil edən şəxslərin iştirakı təmin edilməlidir. Göstərilən şəxslərin iştirakını təmin etmək mümkün olmadıqda mənzil-istismar təşkilatının, yaxud yerli icra hakimiyyəti orqanının nümayəndəsi dəvət edilir.

244.5. İdarə, müəssisə, təşkilatlara, hərbi hissələrə məxsus olan binalarda axtarış və ya götürmə onların nümayəndəsinin iştirakı ilə aparılır.

244.6. Barəsində axtarış və ya götürmənin aparıldığı şəxslər, habelə hal şahidləri, mütəxəssislər, tərcüməçilər, nümayəndələr, müdafiəçilər müstəntiqin bütün hərəkətləri zamanı həmin yerdə olmaq, protokolda yaçılmalı olan qeydlər vermək hüququna malikdirlər.

**Maddə 245. Axtarış və ya götürmənin aparılması qaydası**

245.1. Müstəntiq axtarış və ya götürmə haqqında qərara əsasən yaşayış binasına, yaxud digər binaya daxil olmaq hüququna malikdir.

245.2. Axtarış və ya götürmə aparılmasından əvvəl müstəntiq barəsində axtarış və ya götürmənin aparıldığı şəxsi bu barədə qərarla tanış etməlidir.

245.3. Müstəntiq axtarış və ya götürməni foto, video və kino çəkilişdən, yaxud digər yazan texniki vasitələrdən istifadə etməklə aparmaq hüququna malikdir.

245.4. Müstəntiq axtarış və ya götürmə faktlarının, habelə onların nəticələrinin və barəsində axtarış aparılan şəxsin şəxsi həyatının hallarının yayılmaması üçün tədbirlər görməlidir.

245.5. Müstəntiq axtarış və ya götürmə qurtaranadək axtarış və ya götürmənin aparıldığı yerdə olan şəxslərə oranı tərk etməyi, habelə öz aralarında və digər şəxslərlə ünsiyyətdə olmalarını qadağan edə bilər.

245.6. Götürmə apararkən müstəntiq qərarı elan etdikdən sonra götürülməli olan əşya və sənədləri könüllü surətdə verməyi təklif edir, bundan imtina edildikdə isə götürməni məcburi aparır.

245.7. Axtarış apararkən müstəntiq qərarı elan etdikdən sonra götürülməli olan əşya və sənədlərin könüllü surətdə verilməsini və gizlənən şəxsin yerinin könüllü göstərilməsini təklif edir. Əşya və sənədlər könüllü verildikdə və ya gizlənən şəxsin yeri könüllü göstərildikdə, bu, protokolda öz əksini tapmalıdır. Axtarılan əşya və sənədlər verilmədikdə və ya tam verilmədikdə, yaxud gizlənən şəxsin yeri göstərilmədikdə axtarış aparılır.

245.8. Axtarış və ya götürmə zamanı götürülmüş bütün əşya və sənədlər istintaq hərəkətinin iştirakçılarına təqdim edilir, onların müvafiq olaraq miqdarı, ölçüsü, çəkisi, hansı materialdan hazırlanması və digər xüsusi əlamətləri göstərilməklə ətrafı təsvir edilir, əşyalar və sənədlər qablaşdırılır, zərurət olduqda isə müstəntiq tərəfindən möhürlənir.

245.9. Axtarış və ya götürmə apararkən bağlı bina və saxlanc yerlərinin sahibləri onları könüllü surətdə azmaqdan imtina etdikdə müstəntiq həmin bina və saxlanc yerlərini azmağa haqlıdır.

245.10.Axtarış və ya götürmənin aparılması zamanı aşağıdakılar qadağan edilir:

245.10.1. qapıların, qıfılların, digər əşyaların lüzumsuz olaraq zədələnməsi və triala qaydanın pozulması;

245.10.2. kimyəvi və psixotrop maddələrin, habelə insanın səhhətinə və ətraf mühitə ziyan vura biləcək texniki vasitələrin və ya qurğuların istifadə edilməsi.

**Maddə 246. Şəxsi axtarış və götürmə**

246.1. Müstəntiq iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və ya bədənində ola bilən əşya və sənədləri, bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər.

246.2. Məhkəmənin qərarı alınmadan şəxsi axtarış aşağıdakı hallarda aparıla bilər:

246.2.1. şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə;

246.2.2. təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbiri tətbiq edildikdə;

246.2.3. axtarış və ya götürmənin aparıldığı binada olan şəxsin cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədləri gizlətməsini güman etməyə kifayət qədər əsaslar olduqda.

246.3. Şəxsi axtarış və götürmə müstəntiq tərəfindən mütəxəssisin və barəsində şəxsi axtarış aparılan şəxslə eyni cinsdən olan azı 2 (iki) hal şahidinin iştirakı ilə aparılır.

**Maddə 247. Axtarış və ya götürmə protokolu**

247.1. Axtarış və ya götürmə qurtardıqdan sonra müstəntiq bu istintaq hərəkətlərinə dair aşağıdakıları əks etdirən protokol tərtib edir:

247.1.1. axtarış və ya götürmənin aparıldığı yer, tarix və vaxt;

247.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

247.1.3. axtarış və ya götürmədə iştirak etmiş digər şəxslərin soyadı, adı, atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduqları yer;

247.1.4. barəsində axtarış və ya götürmə aparılmış şəxsə onun hüquq, vəzifə və məsuliyyətinin izah edilməsi haqqında qeyd;

247.1.5. hal şahidlərinin soyadı, adı, atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü, yaşadığı və qeydiyyatda olduqları yer;

247.1.6. hal şahidlərinin hər birinin şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxslə qarşılıqlı münasibəti haqqında məlumat;

247.1.7. hal şahidlərinin hər birinə onün hüquq, vəzifə və məsuliyyətinin izah edilməsi haqqında qeyd;

247.1.8. axtarış və ya götürmənin xüsusiyyətləri, axtarış, yaxud götürmənin aparılmasında foto, kino və video çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

247.1.9. axtarış və ya götürmə aparılarkən müşahidə edilmə ardıcıllığı ilə bütün aşkar olunanlar, o cümlədən axtarılan əşya və şəxslərin könüllü surətdə verilməsi hallarının olub-olmaması; istintaq hərəkəti zamanı belə hal baş vermişsə, aşkar edilmiş əşya və sənədləri gizlətmək cəhdləri; götürülmüş əşyaların sayı, ölçüsü, çəkisi, fərdi əlamətləri və digər xüsusiyyətləri göstərilməklə ətrafı təsviri.

247.2. Axtarış və ya götürmə protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

247.3. Axtarış və ya götürmə zamanı foto, kino və video çəkilişdən, yaxud digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq yaçılar, fotoşəkillər, çəkiliş lentləri və ya başqa məlumat daşıyıcıları protokola əlavə edilir.

247.4. Axtarış və götürmə protokolunun surəti barəsində istintaq hərəkəti aparılan şəxsə və ya onun yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə və ya təmsil etdiyi şəxsə, onlar olmadıqda isə ərazisində istintaq hərəkəti aparılan mənzil-istismar təşkilatının nümayəndəsinə verilir.

247.5. Axtarış və ya götürmə idarə, müəssisə, təşkilat və hərbi hissənin ərazisində aparıldıqda, protokolun surəti onların nümayəndələrinə verilir.

## XXXIII fəsil. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və başqa məlumatların ələ keçirilməsi

### Maddə 255. Üzərinə həbs qoyula bilən poçt-teleqraf və digər göndərişlərin siyahısı

255.0. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən çatdırılan korrespondensiyalar və digər göndərişlər istisna olmaqla, üzərinə həbs qoyula bilən poçt, teleqraf və digər göndərişlərə aşağıdakılar aiddir:

255.0.1. bütün növlərdən olan məktublar;

255.0.2. teleqramlar;

255.0.3. radioqramlar;

255.0.4. banderollar;

255.0.5. sovqatlar;

255.0.6. poçt konteynerləri;

255.0.7. pul baratları.

**Maddə 256. Poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulmasının əsasları**

256.1. Poçt, teleqraf və digər göndərişlər üzərinə həbs, bir qayda olaraq, məhkəmənin qərarı əsasında qoyulur. Şübhəli və ya təqsirləndirilən şəxsin poçt, teleqraf göndərişlərində və ya onların göndərdikləri, yaxud onlara başqa şəxslər tərəfindən göndərilən poçt, teleqraf və digər göndərişlərdə cinayət işi üzrə sübut əhəmiyyəti daşıyan məlumatların olmasını güman etməyə kifayət qədər əsaslar olduqda, müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq təqdimatı üzrə məhkəmə poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulması haqqında qərar çıxarır. Poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulması bu Məcəllənin 177.2—177.5-ci maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə həyata keçirilir.

256.2. Poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması haqqında qərarda aşağıdakılar göstərilməlidir:

256.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

256.2.2. qərarı çıxarmış şəxsin soyadı, adı və atasının adı, vəzifəsi;

256.2.3. poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması üçün əsas olan obyektiv hallar və bunun motivinin əsaslandırılması;

256.2.4. poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulmuş şəxsin (şəxslərin) soyadı, adı, atasının adı və dəqiq ünvanı;

256.2.5. üzərinə həbs qoyulmalı olan poçt, teleqraf və digər göndərişin dəqiq növü (növləri) və onun olduğu yer;

256.2.6. üzərinə poçt, teleqraf və digər göndərişi saxlamaq vəzifəsi qoyulmuş rabitə idarəsinin adı;

256.2.7. poçt, teleqraf və digər göndərişin üzərinə həbs qoyulduğu müddət.

256.3. Poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması haqqında qərar əsasında, həmçinin göndərişlərin baxışı və götürülməsi aparılır.

256.4. Poçt, teleqraf və digər göndəriş üzərinə qoyulan həbsə aşağıdakı hallarda xitam verilir:

256.4.1. poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması haqqında qərarı çıxarmış məhkəmənin və ya yuxarı məhkəmənin həbsin ləğv edilməsi barədə qərarı əsasında;

256.4.2. poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulduğu müddətin qurtarması ilə əlaqədar;

256.4.3. poçt, teleqraf və digər göndəriş üzərinə həbsin davam etməsinin lüzumsuzluğu barədə müstəntiqin qərarı, habelə müstəntiq tərəfindən çıxarılmış qərarın qanunsuz hesab edilməsi və onun ləğv olunması haqqında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qərarı əsasında.

**Maddə 257. Poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulmasının, onun baxışının və götürülməsinin aparılması qaydası**

257.1. Müstəntiq poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması haqqında qərarı müvafiq rabitə idarəsinin rəisinə göndərir.

257.2. Rabitə idarəsinin rəisi bu barədə müstəntiqə dərhal məlumat verməklə müvafiq qərarda göstərilən poçt, teleqraf və digər göndərişləri saxlayır.

257.3. Poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması ilə əlaqədar müstəntiq aşağıdakı hərəkətləri yerinə yetirir:

257.3.1. müvafiq qərarda göstərilən poçt, teleqraf və digər göndərişin saxlanması barədə rabitə idarəsinin rəisindən məlumat aldıqda, rabitə idarəsinə gəlir və həmin idarənin işçilərinin iştirakı ilə müvafiq göndərişə baxış keçirir;

257.3.2. poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması barədə qərar əsasında rabitə idarəsinin rəisini həmin qərarın götürülməyə dair hissəsi ilə imza etdirməklə tanış edir və müvafiq göndərişi götürür.

257.4. Poçt, teleqraf və digər göndərişdə iş üçün əhəmiyyətli ola biləcək sənəd və əşyaları aşkar etdikdə, müstəntiq müvafiq göndərişi götürə və ya onların surətini çıxarmaqla kifayətlənə bilər. İş üçün əhəmiyyətli ola biləcək məlumatlar olmadıqda, müstəntiq baxılmış göndərişin ünvanı üzrə verilməsi və ya onun müəyyən etdiyi müddətədək saxlanılması barədə göstəriş verir.

257.5. Müstəntiq poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması zamanı, onun baxışı və götürülməsində foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etmək hüququna malikdir.

**Maddə 258. Poçt, teleqraf və digər göndərişin baxışı və ya götürülməsi protokolu**

258.1. Poçt, teleqraf və digər göndərişin baxışı və ya götürülməsinə dair protokol tərtib edilir və həmin protokolda aşağıdakılar göstərilir:

258.1.1. baxış və ya götürmənin aparıldığı tarix, vaxt və yer;

258.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

258.1.3. poçt, teleqraf və digər göndərişin üzərində baxış və ya götürmə aparılan şəxsin soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

258.1.4. baxışın və ya götürmənin aparılmasında iştirak etmiş digər şəxslərin (rabitə idarəsi rəisinin, zərurət olduqda həmin idarənin digər qulluqçularının) soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

258.1.5. baxış və ya götürmənin aparılmasının xüsusiyyətləri, hansı göndəriş üzərində baxış və ya götürmənin aparıldığı, ünvan üzrə göndərilməli və müvəqqəti saxlanılmalı olan göndəriş, hansı poçt, teleqraf və digər göndərişdən surətlərin çıxarıldığı, hansı texniki vasitələrdən istifadə edildiyi barədə qeyd;

258.1.6. İstintaq hərəkəti aparılarkən müşahidə edilmə ardıcıllığı ilə baxış və ya götürmədə bütün aşkar olunanlar.

258.2. Poçt, teleqraf və digər göndəriş üzərində baxış və ya götürmənin aparılması protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan həmin istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

258.3. Poçt, teleqraf və digər göndəriş üzərində həbs qoyulması zamanı, onun baxışın və ya götürülməsinin aparılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yaçılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

**Maddə 259. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi**

259.1. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki, vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi, bir qayda olaraq, məhkəmənin

qərarı əsasında həyata keçirilir. Şübhəli və ya təqsirləndirilən şəxsin digər şəxslərə ötürdükləri məlumatlarda (yaxud təqsirləndirilən və ya şübhəli şəxsə ötürülən məlumatlarda) cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik olan məlumatların olmasını güman etməyə kifayət qədər əsaslar olduqda müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq təqdimatı üzrə, məhkəmə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatın və ya başqa məlumatın ələ keçirilməsi haqqında qərar çıxarır. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi bu Məcəllənin 177.2—177.5-ci maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə həyata keçirilir.

259.2. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi altı aydan artıq davam edə bilməz.

259.3. Maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi yalnız məhkəmənin qərarı əsasında həyata keçirilə bilər.

259.4. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən və ya başqa məlumatların ələ keçirilməsi haqqında qərarda aşağıdakılar göstərilməlidir:

259.4.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

259.4.2. qərarı çıxarmış şəxsin soyadı, adı və atasının adı, vəzifəsi;

259.4.3. müvafiq danışıqların və ya məlumatların ələ keçirilməsi üçün əsas olan obyektiv hallar və bunun motivinin əsaslandırılması;

259.4.4. müvafiq danışıqları və ya məlumatları ələ keçirilməli olan şəxsin (şəxslərin) soyadı, adı, atasının adı və dəqiq ünvanı;

259.4.5. Ələ keçirilməli olan danışıqların və ya məlumatların dəqiq növü və ya növləri;

259.4.6. üzərinə müvafiq danışıqların və ya məlumatların ələ keçirilməsi vəzifəsi qoyulmuş idarənin adı;

259.4.7. müvafiq danışıqların və ya məlumatların ələ keçirilməsinə tətbiq edilən müddət.

259.5. Telefon və digər qurğularla aparılan danışıqlar, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatlar və ya başqa məlumatlar səlahiyyətli şəxslər tərəfindən müvafiq qərar əsasında ələ keçirilir. Ələ keçirilmiş danışıqlər və ya məlumatlar kağız, yaxud maqnit daşıyıcılarda əks etdirilir, onları ələ keçirmiş şəxsin imzası ilə təsdiq olunur və müstəntiqə verilir. İşə aid danışıqların və ya məlumatın ələ keçirilməsi barədə qısa məzmunlu protokol tərtib olunur və cinayət işinin materiallarına əlavə edilir. İşə aid olmayan əldə edilmiş məlumatlar dərhal ləğv olunur.

## XXXVI fəsil. Tədqiqat üçün nümunələrin götürülməsi

**Maddə 273. Tədqiqat üçün nümunələrin götürülməsinin şərtləri**

trial. Müstəntiq tədqiqat üçün nümunələrin götürülməsi məqsədilə müvafiq istintaq hərəkətini aşağıdakı hallarda apara bilər:

273.1.1. nümunələr hər hansı insanın, heyvanın, insan meyitinin, heyvan cəsədinin, habelə əşya və ya maddələrin xassələrini əks etdirdikdə;

273.1.2. nümunələr cinayət təqibi üçün əhəmiyyətli olduqda.

273.2. Tədqiqat üçün nümunələrin götürülməsi məqsədilə müvafiq istintaq hərəkətinin aparılması üçün müstəntiq əsaslandırılmış qərar çıxarır. Həmin qərarda aşağıdakılar göstərilməlidir:

273.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

273.2.2. müstəntiqin soyadı, adı, atasının adı və vəzifəsi;

273.2.3. tədqiqat üçün nümunələrin götürülməsinə əsas verən obyektiv hallar və onun motivlərinin əsaslandırılması;

273.2.4. tədqiqat üçün nümunələri götürməli olan şəxsin soyadı, adı və atasının adı;

273.2.5. tədqiqat üçün nümunələrin götürülməli olduğu şəxsin soyadı, adı və atasının adı;

273.2.6. tədqiqat üçün hansı nümunələrin və hansı miqdarda götürülməli olduğu;

273.2.7. tədqiqat üçün nümunələrin götürülməsi üçün şəxsin nə vaxt və kimin yanına gəlməli olduğu;

273.2.8. tədqiqat üçün nümunələr götürüldükdən sonra onların nə vaxt və kimə verilməli olduğu.

273.3. Tədqiqat üçün nümunələr, həmçinin bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş hallarda və qaydada baxış, axtarış, götürmə, əmlak və ya yazışma üzərinə həbs qoyulması zamanı da götürülə bilər.

273.4. Zəruri hallarda başqa şəxslərin hüquqlarını pozmamaq şərti ilə tədqiqat üçün nümunələr ekspert tərəfindən də götürülə bilər.

trial. Tədqiqat üçün nümunələrin götürülməsi üsulundan asılı olmayaraq onların insana əzab verən, onun həyatına, səhhətinə və ya bədən bütövlüyünə təhlükə törədən üsulla götürülməsi qadağandır.

**Maddə 274. Tədqiqat üçün götürülən nümunələrin növləri**

274.0. Tədqiqat üçün aşağıdakı nümunələr götürülə bilər:

274.0.1. qan, sperma (məni), tük, dırnaq kəsintisi, bədənin xarici örtüklərinin mikroskopik qaçıntısı;

274.0.2. tüpürcək, tər və orqanizmin digər ifrazatları;

274.0.3. dəri naxışının (nəqşəsi), dişlərin və əl-ayağın izləri;

274.0.4. Əlyazmalar, döyünlər, məmulatlar və insan bacarığını əks etdirən digər materiallar;

274.0.5. səsfonoqramı;

274.0.6. material, maddə, xammal və hazır məhsulun nümunələri;

274.0.7. alətlər, güllə və gilizlər;

274.0.8. digər maddələr və əşyalar.

**Maddə 275. Müstəntiqin qərarı əsasında tədqiqat üçün nümunələrin götürülməsi**

275.1. Tədqiqat üçün nümunələrin götürülməsi məqsədilə müstəntiq nümunələr götürülən şəxsi çağırış vərəqəsi ilə öz yanına çağırır və ya onun olduğu yerə gəlir.

275.2. Təqsirləndirilən və ya şübhəli şəxsdən tədqiqat üçün nümunələr götürüldükdə onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi tədqiqat üçün nümunələrin götürülməsində iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

275.3. Müstəntiqin dəvəti ilə tədqiqat üçün nümunələrin götürülməsində, həmçinin mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edə bilər.

275.4. Tədqiqat üçün nümunələrin götürülməsindən əvvəl müstəntiq bu istintaq hərəkətinin aparılmasında iştirak edən bütün şəxsləri imza etdirməklə tədqiqat üçün

nümunələrin götürülməsi haqqında qərarla tanış edir, onların hüquq və vəzifələrini izah edir.

275.5. Tədqiqat üçün nümunələrin götürülməsində müstəntiq foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etmək hüququna malikdir.

275.6. Müstəntiq və ya onun göstərişi əsasında digər şəxs zəruri hərəkətləri aparır və əks cinsdən olan şəxsin soyunması ilə bağlı hallar istisna olmaqla, bu istintaq hərəkətinin aparılmasında iştirak edən digər şəxslərin yanında tədqiqat üçün nümunələri götürür. Sənədlər istisna olmaqla, tədqiqat üçün götürülmüş nümunələr qablaşdırılır və mühürlənir.

**Maddə 276. Nümunələrin götürülməsi protokolu**

276.1. Nümunələri götürdükdən sonra müstəntiq protokol tərtib edir və həmin protokolda aşağıdakılar göstərilir:

276.1.1. nümunələrin götürüldüyü tarix, vaxt və yer;

276.1.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

276.1.3. tədqiqat üçün nümunələrin götürülməsində iştirak edən şəxslərin vəzifəsi, soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

276.1.4. tədqiqat üçün nümunələrin götürülməsində iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd;

276.1.5. tədqiqat üçün nümunələrin götürülməsinin xüsusiyyətləri, o cümlədən tədqiqat üçün nümunələrin götürülməsi zamanı hansı nümunələrin və hansı yolla götürüldüyü, habelə tədqiqat üçün nümunələrin götürülməsi zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilib-edilməməsi barədə qeyd;

276.1.6. yerinə yetirilməsi ardıcıllığı ilə nümunələrin götürülməsi üçün görülmüş tədbirlər, tətbiq edilən elmi-texniki üsul və vasitələr, habelə nümunələrin özünün təsviri;

276.1.7. müşahidə edilməsi ardıcıllığı ilə nümunələrin götürülməsi zamanı bütün aşkar olunanlar (nümunələrin götürülməsinin halları və nəticələri təfərrüatı ilə göstərilir).

276.2. Tədqiqat üçün nümunələrin götürülməsi protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan bu istintaq hərəkətinin bütün işti-

rakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə, onun hər bir vərəqi göstərilən istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

276.3. Protokola tədqiqat üçün götürülmüş nümunələr əlavə edilir. Tədqiqat üçün nümunələrin götürülməsi zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yaçılar, fotoşəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

## XXXVII fəsil. Cinayət işi üzrə icraatın dayandırılması və ona xitam verilməsi

**Maddə 277. Cinayət işi üzrə icraatın dayandırılması qaydası**

277.1. Cinayət işi üzrə icraat bu Məcəllənin 53.1-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiqin əsaslandırılmış qərarı ilə dayandırılır.

277.2. Cinayət işi üzrə icraatın dayandırılması barədə qərarda aşağıdakılar göstərilməlidir:

277.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

277.2.2. müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

277.2.3. cinayət işi nə vaxt və kim tərəfindən başlanmışdır;

277.2.4. cinayət işinin başlanmasına səbəb və əsas olan hallar,

277.2.5. İbtidai istintaq zamanı müəyyən edilmiş hallar;

277.2.6. cinayət işi üzrə icraatın dayandırılması üçün motivlər;

277.2.7. bu Məcəllənin 53.1-ci maddəsində göstərilən hallardan birinə və ya bir neçəsinə istinad edilməklə müstəntiqin cinayət işi üzrə icraatın dayandırılması barədə qərarının əsaslandırılması;

277.2.8. müvafiq hallarda barəsində cinayət işi üzrə icraatın dayandırıldığı şəxsin soyadı, adı və atasının adı;

277.2.9. cinayət işi üzrə icraatın dayandırılması ilə əlaqədar görülməli tədbirlər.

277.3. Cinayət işi üzrə icraatın dayandırılması barədə müstəntiqin qərarının çıxarıldığı andan 24 saatdan gec olmayaraq onun surəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

277.4. Müstəntiq zərər çəkmiş şəxsi, onun nümayəndəsini, mülki iddiazını, mülki cavabdehi və ya onların nümayəndələrini yazılı qaydada cinayət işi üzrə icraatın dayandırılması barədə qərarla tanış etməli və onlara cinayət işi üzrə icraatın dayandı-

rılması barədə qərardan bu Məcəllənin 122-ci maddəsində nəzərdə tutulmuş qaydada şikayət verilməsinin mümkünlüyünü izah etməlidir. Bu Məcəllənin 53.1.4—53.1.6-cı maddələrində nəzərdə tutulmuş əsaslarla cinayət işi üzrə icraat dayandırıldıqda bu barədə, həmçinin təqsirləndirilən şəxs və onun müdafiəçisi də məlumatlandırılır.

277.5. Cinayət işi üzrə icraat dayandırıldıqdan sonra müstəntiq özü və ya təhqiqat orqanı vasitəsilə aşağıdakı hərəkətləri yerinə yetirir:

277.5.1. bu Məcəllənin 53.1.1-ci maddəsində nəzərdə tutulmuş halda—təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməsi üçün tədbirlər görür;

277.5.2. bu Məcəllənin 53.1.2-ci maddəsində nəzərdə tutulmuş halda—təqsirləndirilən şəxsin olduğu yerin müəyyən edilməsi üçün tədbirlər görür;

277.5.3. bu Məcəllənin 53.1.3-cü maddəsində nəzərdə tutulmuş halda—istintaqdan gizlənmiş təqsirləndirilən şəxsin axtarışı üçün tədbirlər görür.

277.6. İcraatı dayandırılmış cinayət işi üzrə istintaq hərəkətlərinin aparılmasına yol verilmir.

**Maddə 278. Təqsirləndirilən şəxsin axtarışı**

278.1. Təqsirləndirilən şəxsin axtarışı müstəntiq tərəfindən cinayət işi üzrə ibtidai istintaq aparılması zamanı və ya cinayət işi üzrə icraatın dayandirilması ilə eyni vaxtda elan edilə bilər.

278.2. Təqsirləndirilən şəxsin olduğu yer məlum olmadıqda və ya təqsirləndirilən şəxs cinayət təqibi orqanından gizləndikdə müstəntiq öz qərarı ilə onun axtarışını müvafiq təhqiqat orqanına tapşırır.

278.3. Təqsirləndirilən şəxsin axtarışı onun olduğu yerin müəyyən edilməsi, tutulması və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün tədbirlər görülməsini nəzərdə tutur.

278.4. Bu Məcəllədə nəzərdə tutulmuş qaydada aşkar edilmiş və tutulmuş və ya Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizlənən və axtarışda olan təqsirləndirilən şəxs barəsində aşağıdakı tədbirlər tətbiq edilə bilər:

278.4.1. məhkəmə nəzarətini həyata keçirən məhkəmə həbs və ona alternativ olan qətimkan tədbirini seçə və ya dəyişə bilər;

278.4.2. müstəntiq icraatında olan cinayət işi üzrə həbs və ona alternativ qətimkan tədbirləri istisna edilməklə, digər qətimkan tədbirlərini seçə və ya dəyişə bilər.

.

## LI fəsil. Beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan şəxslər barəsində icraatın xüsusiyyətləri

**Maddə 436. Diplomatik immunitet hüququna malik olan şəxslərin Azərbaycan Respublikasının yurisdiksiyası altına düşməsi**

Müvafiq xarici dövlətin və ya beynəlxalq təşkilatın aydın ifadə edilmiş razılığı olduqda, diplomatik immunitet hüququna malik olan şəxslər Azərbaycan Respublikasının yurisdiksiyası altına düşə bilərlər.

**Maddə 437. Diplomatik immunitet hüququndan istifadə edən şəxslər**

437.0. Diplomatik immunitet hüququndan aşağıdakı şəxslər istifadə edirlər:

437.0.1. xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri, həmin nümayəndəliklərin diplomatik heyətinin üzvləri və onlarla birgə yaşadıqda və Azərbaycan Respublikasının vətəndaşları olmadıqda, onların ailə üzvləri;

437.0.2. qarşılıqlı və ikitərəfi dövlətlərarası müqavilələrə uyğun olaraq diplomatik nümayəndəliklərin inzibati-texniki heyətinin əməkdaşları və onlarla birgə yaşayan ailə üzvləri, həmin əməkdaşlar və onların ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşları olmadıqda və Azərbaycan Respublikasında daimi yaşamadıqda;

437.0.3. qarşılıqlı və ikitərəfi dövlətlərarası müqaviləyə uyğun olaraq diplomatik nümayəndəliklərin Azərbaycan Respublikasının vətəndaşları olmayan və ya Azərbaycan Respublikasında daimi yaşamayan xidmət heyətinin əməkdaşları;

437.0.4. diplomatik kuryerlər;

437.0.5. konsulluqların rəhbərləri və konsulluğun digər vəzifəli şəxsləri;

437.0.6. xarici ölkələrin nümayəndələri, parlament və hökumətin nümayəndə heyətlərinin üzvləri, habelə qarşılıqlı və ikitərəfi dövlətlərarası müqaviləyə uyğun olaraq beynəlxalq danışıqlarda, beynəlxalq konfranslarda və müşavirələrdə iştirak etmək üçün və ya digər rəsmi tapşırıqlarla ölkəyə gələn, yaxud həmin məqsədlər üçün tranzitlə ölkə ərazisindən keçən xarici ölkə nümayəndə heyətlərinin əməkdaşları və Azərbaycan Respublikasının vətəndaşları olmadıqda, həmin şəxsləri müşayiət edən ailə üzvləri;

437.0.7. beynəlxalq sazişlər və ya hamılıqla qəbul edilmiş beynəlxalq adətə uyğun olaraq xarici ölkələrin beynəlxalq təşkilatlarda nümayəndəliklərinin rəhbərləri,

üzvləri və heyəti, həmin təşkilatların Azərbaycan Respublikasının ərazisində olan vəzifəli şəxsləri;

437.0.8. Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçən xarici ölkələrin üçüncü ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, nümayəndəliklərin diplomatik heyətinin üzvləri və onları müşayiət edən və ya onlara qoşulmaq üçün, yaxud öz ölkələrinə qayıtmaq üçün onlardan ayrı gedən həmin şəxslərin ailə üzvləri.

**Maddə 438. Şəxsi toxunulmazlıq**

438.1. Bu Məcəllənin 437.0.1—437.0.4, 437.0.6—437.0.8-ci maddələrində sadalanmış şəxslər şəxsi toxunulmazlıq hüququna malikdirlər. Onlar barəsində qanuni qüvvəyə minmiş hökmün icrası üçün zəruri olan hallar istisna olmaqla, həmin şəxslər saxlanıla və ya həbs edilə bilməzlər.

438.2. Konsulluqların rəhbərləri və konsulluğun digər vəzifəli şəxsləri yalnız onlar ağır cinayətin törədilməsinə görə təqib edildikdə, yaxud barələrində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü icra edildikdə saxlanıla və həbs edilə bilərlər.

438.3. Bu Məcəllənin 438.1 və 438.2-ci maddələrində göstərilən şəxsləri müvafiq olaraq saxlamış və ya həbs etmiş ibtidai araşdırma orqanı, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına dərhal məlumat verməlidir.

**Maddə 439. Cinayət yurisdiksiyası üzrə immunitet**

439.1. Bu Məcəllənin 437.0.1, 437.0.2, 437.0.4, 437.0.6—437.0.8-ci maddələrində sadalanmış şəxslər Azərbaycan Respublikasında cinayət yurisdiksiyası üzrə immunitetə malikdirlər. Belə şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edilməsi diplomatik yolla həll edilir.

439.2. Azərbaycan Respublikasının vətəndaşları olmayan və ya Azərbaycan Respublikasında daimi yaşamayan diplomatik nümayəndəliklərin xidmət heyətinin əməkdaşları konsulluq idarələrinin rəhbərləri və konsulluqların digər vəzifəli şəxsləri yalnız xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı törətdikləri cinayətlər barəsində Azərbaycan Respublikasının cinayət yurisdiksiyası altına düşürlər.

**Maddə 440. İfadə vermək üzrə immunitet**

440.1. Bu Məcəllənin 437.0.1—437.0.4, 437.0.6—437.0.8-ci maddələrində sadalanmış şəxslər şahid və zərər çəkmiş şəxs qismində ifadə verməyə bilərlər, belə ifadələri verməyə razı olduqları halda isə bundan ötrü müstəntiqin, ibtidai araşdırmaya

prosessual rəhbərliyi həyata keçirən prokurorun yanına və məhkəməyə gəlməyərək yazılı şəkildə təqdim edə bilər.

440.2. Həmin şəxslərin ibtidai istintaqda zərər çəkmiş şəxs və şahid qismində ifadə verdikləri, lakin məhkəmə iclasına gəlmədikləri halda məhkəmə onların ifadələrini elan edə bilər.

440.3. Konsulluqların rəhbərləri və digər vəzifəli şəxsləri onların xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı olan məsələlər istisna olmaqla, şahid və zərər çəkmiş şəxs sifətində ifadə verməkdən imtina edə bilməzlər. Konsulluqların vəzifəli şəxsləri şahid ifadələrini verməkdən imtina etdikdə, onlar barəsində prosessual məcburiyyət tədbirləri tətbiq edilə bilməz.

440.4. Bu Məcəllənin 440.1-ci maddəsində göstərilən razılıq alındıqda, həmin şəxslərə ünvanlanmış çağırışda onların cinayət prosesini həyata keçirən orqana gəlməmələrinə görə prosessual məcburiyyət tədbirləri ilə hədə olmamalıdır.

440.5. Diplomatik immunitetə malik olan şəxslər onların xidməti vəzifələrinin yerinə yetirilməsinə aid olan yazışma və digər sənədləri istintaq orqanına, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəməyə verməyə borclu deyillər.

**Maddə 441. Binaların və sənədlərin toxunulmazlığı**

441.1. Diplomatik nümayəndəliyin yerləşdiyi binalər, diplomatik nümayəndəliyin rəhbərinin qərargahı, diplomatik heyət üzvlərinin yaşayış binaları, onlarda olan əmlak toxunulmazdır. Bu binalara giriş, axtarış, götürmə, həbsə alma, əmlak üzərinə həbs qoyulması yalnız diplomatik nümayəndəliyin rəhbərinin və ya onu əvəz edən şəxsin razılığı ilə aparıla bilər.

441.2. Qarşılıqlı və ikitərəfi dövlətlərarası müqaviləyə uyğun olaraq bu Məcəllənin 441.1-ci maddəsində nəzərdə tutulmuş hüquqlar Azərbaycan Respublikasının vətəndaşları olmayan və ya Azərbaycan Respublikasında daimi yaşamayan diplomatik nümayəndəliklərin inzibati-texniki heyətinin əməkdaşları və onların ailə üzvləri tərəfindən tutulmuş yaşayış binalarına da şamil edilir.

441.3. Konsulluğun yerləşdiyi bina və konsulluq rəhbərinin qərargahı toxunulmazdır. Bu binalara giriş, axtarış, götürmə və həbsə alma yalnız konsulluq və ya diplomatik nümayəndəlik rəhbərlərinin razılığı və ya xahişi ilə aparıla bilər.

441.4. Diplomatik nümayəndəliklərin və konsulluqların arxivləri, sənədləri və rəsmi yazışmaları toxunulmazdır. Diplomatik poçt açıla və gecikdirilə bilməz.

441.5. Diplomatik nümayəndəlik və konsulluqların bu Məcəllənin 441.1, 441.2 və 441.3-cü maddələrində qeyd edilən binalarına giriş, onlarda axtarış, götürmə və həbs aparılmasına dair razılığı istintaq və ya prokurorluq orqanı tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı vasitəsilə sorğu edilir.

441.6. Qeyd edilən binalarda axtarış, götürmə və həbs mütləq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı nümayəndəsinin iştirakı ilə aparılır.

## On birinci bölmə. Xüsusi icraatlar
## LII fəsil. Məhkəmə nəzarətinin həyata keçirilməsi

**Maddə 442. Məhkəmə nəzarətinin həyata keçirilməsinə dair ümumi müddəalar**

442.1. Məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir.

442.2. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə aşağıdakılara baxır:

442.2.1. hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, *mülkiyyət* hüququnu, şəxsi sirrinin (o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara;

442.2.2. cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlərə.

442.3. Bu Məcəllənin 442.2-ci maddəsində göstərilən vəsatət, təqdimat və şikayətlərə məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəmənin hakimi tərəfindən təkbaşına baxılır.

442.4. Bu Məcəllənin 442.2-ci maddəsində göstərilmiş məsələlər üzrə hakimin çıxardığı qərarlara apellyasiya instansiyası məhkəməsi tərəfindən aşağıdakı hallarda yenidən baxıla bilər:

442.4.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hüquq və azadlıqları məhdudlaşdırılan şəxsin şikayəti üzrə;

442.4.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi və ya əməliyyat-axtarış fəaliyyəti üzərində nəzarəti həyata keçirən prokurorun protesti üzrə.

442.5. Məhkəmə nəzarəti sahəsinə aid olan məsələlər, habelə onların həyata keçirilməsi qaydası bu Məcəllənin 443—454-cü maddələri ilə müəyyən edilir.

**Maddə 443. Məhkəmənin qərarı əsasında məcburi aparılan istintaq hərəkətləri**

443.1. Bu Məcəllənin 177.3-cü maddəsində nəzərdə tutulmuş istintaq hərəkətləri bir qayda olaraq məhkəmənin qərarı əsasında məcburi aparılır.

443.2. Bu Məcəllənin 177.3.1-177.3.5 və 177.3.8-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri məhkəmənin qərarı olmadan müstəntiqin əsaslandırılmış qərarı əsasında məcburi aparıldığı hallarda müvafiq istintaq hərəkətinin aparılması qurtardıqdan sonra müstəntiq aşağıdakıları yerinə yetirməlidir:

443.2.1. aparılmış istintaq hərəkəti barədə 24 saat müddətində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verməK;

443.2.2. 48 saat müddətində aparılmış istintaq hərəkətinin qanuniliyinin yoxlanılması üçün həmin istintaq hərəkətinə aid olan materialları məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etmək.

**trial 444. Məhkəmənin qərarı əsasında tətbiq edilən prosessual məcburiyyət tədbirləri**

444.1. Aşağıdakı prosessual məcburiyyət tədbirləri yalnız məhkəmənin qərarı əsasında tətbiq edilir:

444.1.1. bu Məcəllənin 152-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma;

444.1.2. qətimkan tədbiri qismində həbs;

444.1.3. qətimkan tədbiri qismində təqsirləndirilən şəxsin vəzifədən kənarlaşdırılması;

444.1.4. məhkəmə-psixiatriya və ya məhkəmə-tibb ekspertizasının aparılması üçün şübhəli, təqsirləndirilən və ya psixi vəziyyətinə görə təqsirləndirilən şəxs qismində cəlb edilə bilməyən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi.

444.2. Cinayət təqibi orqanının tələbləri yerinə yetirilmədikdə, məhkəmənin qərarı əsasında, həmçinin aşağıdakı prosessual məcburiyyət tədbirləri tətbiq edilir:

444.2.1. şəxsin ekspertizadan keçirilməsi və ya tibb müəssisəsinə yerləşdirilməsi üçün onun tibb müəssisəsinə çatdırılması;

444.2.2. tədqiqat üçün nümunələrin götürülməsi.

**Maddə 445. Məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirləri**

445.1. Məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat axtarış tədbirləri həyata keçirilir:

445.1.1. telefon danışıqlarına qulaqasma;

445.1.2. poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

445.1.3. texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

445.1.4. binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;

445.1.5. texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazların quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi;

445.1.6. İnsanların güdülməsi.

445.2. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda bu Məcəllənin 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

**Maddə 446. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinin həlli üçün məhkəməyə müraciət etmə**

446.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinin məhkəmədə baxılması üçün aşağıdakılar əsasdır:

446.1.1. İstintaq hərəkətinin məcburi aparılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;

446.1.2. prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiqin və ya digər səlahiyyətli şəxsin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;

446.1.3. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.

446.2. Bu Məcəllənin 446.1-ci maddəsində nəzərdə tutulmuş hər hansı vəsatətdə aşağıdakılar göstərilməlidir:

446.2.1. onun tərtib edildiyi tarix, vaxt və yer;

446.2.2. onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

446.2.3. cinayət işinin olduğu halda, o nə vaxt, kimin tərəfindən və nə ilə əlaqədar başlandığı;

446.2.4. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar törədilən qarşısı alınan və ya xəbərdar edilən cinayət haqqında məlumatlar;

446.2.5. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində kimin və hansı hüquq və ya azadlıqlarının məhdudlaşdırıla biləcəyi;

446.2.6. barəsində vəsatət verilən istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyinin əsaslandırılması;

446.2.7. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması;

446.2.8. İstintaq hərəkətinin məcburi aparılmasının prosessual məcburiyyət tədbirinin tətbiq edilməsini və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu;

446.2.9. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində hansı nəticələrin əldə edilməsinin güman edildiyi və həmin nəticənin hansı üsulla rəsmiləşdiriləcəyi;

446.2.10. İstintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu;

446.2.11. məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.

446.3. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi üçün məhkəmənin qərarının alınması haqqında əsaslandırılmış vəsatəti aldıqdan sonra 48 saat müddətində müvafiq qərarın qəbul edilməsi barədə təqdimatı məhkəməyə verməli və ya vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarmalıdır.

446.4. İstintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar vəsatətə əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

**Maddə 447. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə məhkəmə tərəfindən baxılma qaydası**

447.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə hakim tərəfindən təkbaşına, qapalı məhkəmə iclasında baxılır.

447.2. Məhkəmədə qətimkan tədbiri qismində həbsin seçilməsi və əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair müraciətlərə onlar məhkəməyə daxil olduqdan sonra 24 saat müddətində, digər müraciətlərə isə 48 saat müddətində baxılır.

447.3. İstintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında aşağıdakı şəxslər iştirak etmək hüququna malikdirlər:

447.3.1. vəsatət vermiş şəxs;

447.3.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror;

447.3.3. vəsatətlə hüquqlarının məhdudlaşdırılması nəzərdə tutulan şəxs onun müdafiəçisi və ya qanuni nümayəndəsi (bu Məcəllənin *177.3.4-177.3.6-və-177.3.8-ci* maddələrində göstərilən prosessual məcburiyyət tədbirlərinə *və-Azərbaycan-Respublikasının-ərazisindən-kənarda-istintaqdan-gizlənən-və-axtarışda-olan-təqsirləndirilən-şəxslərə* dair məsələlər istisna edilməklə).

447.4. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında yalnız hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən prokuror iştirak edirlər.

447.5. Hakim istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi ilə bağlı məhkəmə iclasına ifadələr, vəsatəti təsdiq və ya təkzib edən şəxsləri çağırıb dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir.

447.6. Müraciətlərin baxılma yeri və müddəti haqqında vaxtında məlumatlandırılmış bu Məcəllənin 447.3-cü maddəsində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri üzrə məhkəmə iclasına gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur.

447.7. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələri üzrə məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:

447.7.1. hakim məhkəmə iclasını açır, hansı müraciətə baxılmasını elan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır, onlara hüquq və vəzifələrini izah edir;

447.7.2. vəsatət vermiş şəxs öz vəsatətini şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

447.7.3. məhkəmə iclasında müraciətlə əlaqədar qanuni mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və nümayəndələri iştirak etdikdə, onlara izahat vermək və etirazlarını bildirmək imkanı yaradılır;

447.7.4. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz yekun süçündə məhkəməyə vəsatətin təmin və ya rədd edilməsini təklif edir, bu zaman prokuror özünün məhkəməyə göndərdiyi təqdimatdan imtina etmək hüququna malikdir;

447.7.5. hakim bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə müvafiq olaraq vəsatətin təmin və ya rədd edilməsi barədə qərar çıxarır və onu iştirak edən şəxslərə dərhal elan edir.

**Maddə 448. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair hakimin qərarı**

448.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim aşağıdakı qərarlardan birini qəbul edir:

448.1.1. müvafiq olaraq istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair vəsatətin təmin edilməsi barədə;

448.1.2. İstintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair vəsatətin rədd edilməsi barədə;

448.1.3. təqsirləndirilən şəxs barəsində həbs və ya ona alternativ olan qətimkan tədbirinin seçilməsi, yaxud bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması və ya bundan imtina barədə.

448.2. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar qərar çıxarıldıqda, məhkəmə bu Məcəllənin və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına əsaslanır.

448.3. Məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakimin qərarında aşağıdakılar göstərilməlidir:

448.3.1. qərarın tərtib edildiyi tarix, vaxt və yer;

448.3.2. hakimin soyadı, adı, atasının adı və vəzifəsi;

448.3.3. vəsatət vermiş şəxsin və prokurorun soyadları, adları, atalarının adları və vəzifələri;

448.3.4. qərarın mahiyyəti (bu Məcəllənin 446.2.5—446.2.10-cu maddələrində göstərilən məsələlərə məhkəmənin münasibəti dəqiq göstərilməklə);

448.3.5. qərarın qüvvədə olma müddəti;

448.3.6. qərarın icra edilməsi həvalə edilən vəzifəli şəxs və ya orqan;

448.3.7. məhkəmənin möhürü ilə təsdiq edilmiş hakimin imzası.

448.4. İstintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair vəsatətin rədd edilməsi barədə məhkəmənin qərarına bu Məcəllənin 448.3.1—448.3.3 və 448.3.7-ci maddələrində göstərilmiş müddəalar, imtinanın motivləri, habelə qərarın qəbul edilməsi ilə əlaqədar göstərilməli olan digər mühüm hallar daxil edilir.

trial. Həbs qismində qətimkan tədbirinin seçilməsinin və ya həbsdə saxlama müddətinin uzadılmasının rədd edilməsi haqqında hakimin qərarı elan edildikdən dərhal sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəmənin qərarı ilə razı olmadığını və həmin qərardan apellyasiya instansiyası məhkəməsinə protest verəcəyini bildirdikdə, hakim öz qərarına təqsirləndirilən şəxsin müvəqqəti olaraq 7 (yeddi) gün müddətində ev dustaqlığı və ya həbsdə saxlanılması barədə müddəa əlavə edir.

448.6. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üz) gündən gec olmayaraq aşağıdakı şəxslərə göndərilir:

448.6.1. vəsatəti vermiş şəxsə;

448.6.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora;

448.6.3. təqsirləndirilən şəxsin həbsdə saxlanılma yerinin müdiriyyətinə;

448.6.4. müvafiq xahiş olduqda, barəsində istintaq hərəkətinin aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələlərinin baxıldığı şəxsə.

448.7. Təqsirləndirilən şəxs məhkəmənin iclasında iştirak etdikdə və məhkəmə onun barəsində həbs qismində qətimkan tədbiri seçilməsindən (həbsdə saxlama müddətinin uzadılmasına) imtina barədə qərar çıxardıqda, bu Məcəllənin 448.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olunmaqla, təqsirləndirilən şəxs dərhal məhkəmə iclası zalında həbsdən azad edilir.

448.8. İstintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair vəsatətin rədd edilməsi barədə, habelə həbs qismində qətimkan tədbiri seçilməsindən (həbsdə saxlama müddətinin uzadılmasına) imtina barədə hakim tərəfindən qərar

çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir

**Maddə 454. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında hakimin çıxardığı digər qərarlardan şikayət verilməsi və onların qanuniliyinin və əsaslılığının yoxlanılması**

İstintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, habelə cinayət prosesini həyata keçirən orqanlarının qərar və hərəkətlərinin qanuniliyinin yoxlanılması məsələlərinə dair hakimin qərarından şikayət verilməsi və onun qanuniliyinin və əsaslılığının yoxlanılması bu Məcəllənin 452 və 453-cü maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ

## ÜMUMİ HİSSƏ

## BİRİNCİ BÖLMƏ

## CİNAYƏT QANUNU

**(çıxarış)**

## 1-ci fəsil

## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT QANUNUNUN VƏZİFƏLƏRİ VƏ PRİNSİPLƏRİ

Maddə 1. **Azərbaycan Respublikasının cinayət qanunu**

1.1. Azərbaycan Respublikasının cinayət qanunu bu Məcəllədən ibarətdir.

1.2. Bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır.

1.3. Cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər.

Maddə 2. **Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri**

2.1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

2.2. Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Maddə 3. **Cinayət məsuliyyətinin əsasları**

Yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

## 2-ci fəsil
## CİNAYƏT QANUNUNUN QÜVVƏSİ

Maddə 10. **Cinayət qanununun zamana görə qüvvəsi**

10.1. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

10.2. İctimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilmə vaxtı, onun nəticələrinin baş verdiyi andan asılı olmayaraq, cinayətin törədildiyi vaxt sayılır.

10.3. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və bu əmələ görə cəzanı aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır, yəni həmin qanunun qüvvəyə minməsindən əvvəl müvafiq əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərə, habelə cəza çəkən, yaxud cəzasını çəkmiş, lakin məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslərə şamil edilir.

10.4. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və həmin əmələ görə cəza müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran cinayət qanununun geriyə qüvvəsi yoxdur.

Maddə 11. **Cinayət qanununun Azərbaycan Respublikası ərazisində törədilən cinayətlərə görə qüvvəsi**

11.1. Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxs bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir. Azərbaycan Respublikası ərazisində başlamış, yaxud davam etmiş və ya başa çatmış cinayət, Azərbaycan Respublikası ərazisində törədilmiş cinayət sayılır.

11.2. Azərbaycan Respublikasının ərazi sularında, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, Azərbaycan Respublikasının üzərindəki hava məkanında və iqtisadi zonasında törədilən cinayət Azərbaycan Respublikası ərazisində törədilmiş cinayət sayılır.

11.3. Azərbaycan Respublikasının hava və ya dəniz limanında qeydiyyatda olan, Azərbaycan Respublikasının Dövlət və ya tanınma nişanı altında Azərbaycan Respublikasının hüdudlarından kənarda açıq sularda və ya hava fəzasında hərəkət edən

su və ya hava gəmisində cinayət törətmiş şəxs bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir. [4]

11.4. Azərbaycan Respublikasının hərbi donanmasına və ya hərbi hava qüvvələrinə məxsus olan gəmidə cinayət törətmiş şəxs, həmin gəminin olduğu yerdən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir.

11.5. Azərbaycan Respublikası ərazisində cinayət törətmiş xarici dövlətlərin diplomatik nümayəndələrinin və toxunulmazlıq hüququna malik olan digər şəxslərin cinayət məsuliyyəti haqqında məsələ beynəlxalq hüquq normalarına uyğun olaraq həll edilir.

Maddə 12. **Cinayət qanununun Azərbaycan Respublikası ərazisindən kənarda törədilən cinayətlərə görə qüvvəsi**

12.1. Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

12.1-1. Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törədikləri korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayətə görə xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.[5]

12.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdikləri halda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda və bu cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

12.2-1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimləri olan Azərbaycan Respublikası vətəndaşlarının iştirakı ilə korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət törətdikləri halda və həmin cinayətə

görə xarici dövlətdə məhkum olunmadıqda, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edililər.

12.3. Sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, insan alveri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır. [6]

12.4. Sülhməramlı hərbi birləşmələrin tərkibinə daxil olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinə mənsub hərbi hissələrin hərbi qulluqçuları Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri cinayətə görə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə başqa hal nəzərdə tutulmamışsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

12.5. Bu Məcəllənin 12.1-ci maddələrində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz.[7]

Maddə 13. **Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya)** [8]

13.1. Xarici dövlətin ərazisində cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşları xarici dövlətə verilə bilməz. Həmin şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi bu Məcəllənin 12-ci maddəsinə müvafiq qaydada həll edilir.

13.2. Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş və Azərbaycan Respublikasında olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayət məsuliyyətinə cəlb edilməsi yaxud təyin edilmiş cəzanın icrası üçün "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətə verilə bilərlər. [9]

13.3. Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş şəxslər xarici dövlətə verilmirsə və həmin əməl (hərəkət və ya hərəkətsizlik) bu Məcəlləyə əsasən cinayət sayılırsa, onlar Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb edilirlər.

13.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə cinayət törətmiş şəxslərin verilməsinə dair digər müddəalar müəyyən olunduqda, beynəlxalq müqavilələr tətbiq edilir. [10]

## İKİNCİ BÖLMƏ
## CİNAYƏT HAQQINDA

### 3-cü fəsil
### CİNAYƏT ANLAYIŞI VƏ CİNAYƏTLƏRİN TƏSNİFATI

Maddə 14. **Cinayət anlayışı**

14.1. Bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır.

14.2. Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni ºəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Maddə 15. **Cinayətlərin təsnifatı**

15.1. Bu Məcəllə ilə nəzərdə tutulmuş əməllər (hərəkət və ya hərəkətsizliklər) xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə bölünür.

15.2. Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmuş əməllər, yaxud qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iki ildən artıq olmayan əməllər böyük ictimai təhlükə törətməyən cinayətlər hesab olunur.

15.3. Bu Məcəllə ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmayan əməllər az ağır cinayətlər hesab olunur. [11]

15.4. Bu Məcəllə ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər ağır cinayətlər hesab olunur. [12]

15.5. Bu Məcəllə ilə qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər xüsusilə ağır cinayətlər hesab olunur. [13]

Maddə 16. **Cinayətlərin təkrar törədilməsi**

16.1. Bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilir.

16.2. Bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda cinayətin təkrar törədilməsi hesab edilir.

16.3. Əvvəllər törətdiyi cinayətə görə bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.

Maddə 18. **Cinayətlərin residivi və onun növləri**

18.1. Qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini yaradır.

18.2. Cinayətlərin residivi aşağıdakı hallarda təhlükəli sayılır:

18.2.1. qəsdən cinayət törətməyə görə əvvəllər iki dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs, yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda;

18.2.2. qəsdən ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən ağır cinayət törətdikdə.[14]

18.3. Cinayətlərin residivi aşağıdakı hallarda xüsusilə təhlükəli sayılır:

18.3.1. qəsdən az ağır və ya qəsdən ağır cinayət törətməyə görə əvvəllər hər hansı ardıcıllıqla öz dəfədən az olmayaraq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda; [15]

18.3.2. qəsdən ağır cinayət törətməyə görə əvvəllər iki dəfə və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər bir dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən ağır cinayət törətdikdə; [16]

18.3.3. qəsdən ağır və ya xüsusilə ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs yenidən xüsusilə ağır cinayət törətdikdə. [17]

*18.4. Residivin müəyyən edilməsi zamanı aşağıdakılar nəzərə alınmır:* **[18]**

*18.4.1. böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkumluqlar;*

*18.4.2. yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərə görə məhkumluqlar;*

*18.4.3. bu Məcəllənin 83-cü maddəsində nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar.*

18.5. Bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla və hədlərdə cinayətlərin residivinə görə daha sərt cəza tətbiq edilir.

## 4-cü fəsil
## CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLMƏLİ OLAN ŞƏXSLƏR

Maddə 19. **Cinayət məsuliyyətinin ümumi şərtləri**

Bu Məcəllə ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Maddə 20. **Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi**

20.1. Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

20.2. On dürd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam üldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunzuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, düyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri tala-

mağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

20.3. İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman bu Məcəllənin 20.1 və 20.2-ci maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlər və həmin tədbirlərin tətbiqi qaydası müvafiq qanunla müəyyən edilir. [19]

Maddə 21. **Anlaqsızlıq**

21.1. İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

21.2. Anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

21.3. Anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Maddə 23. **Sərxoş halda törədilmiş cinayətə görə məsuliyyət**

Səbəbindən asılı olmayaraq (alkoqollu izkilərin qəbulu, narkotik vasitələrdən və ya digər güclü təsir edən maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur.

## 5-ci fəsil
## TƏQSİR

Maddə 24. **Təqsirin formaları**

24.1. Əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır.

24.2. Ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır.

Maddə 25. **Cinayətin qəsdən törədilməsi**

25.1. Birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) qəsdən törədilmiş cinayət sayılır.

25.2. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur.

25.3. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur.

Maddə 26. **Cinayətin ehtiyatsızlıqdan törədilməsi**

26.1. Cinayətkarcasına üçünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır.

26.2. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına üçünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur.

26.3. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur.

## 6-cı fəsil
## BAŞA ÇATMAYAN CİNAYƏT

Maddə 27. **Başa çatmış və başa çatmayan cinayət**

27.1. Şəxs tərəfindən törədilmiş əməldə (hərəkət və ya hərəkətsizlikdə) bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətləri mövcuddursa, cinayət başa çatmış hesab olunur.

27.2. Cinayətə hazırlıq və cinayət etməyə cəhd başa çatmayan cinayət hesab olunur.

27.3. Başa çatmayan cinayətlərə görə cinayət məsuliyyəti bu Məcəllənin 28 və 29-cu maddələrinə istinad olunmaqla bu Məcəllənin başa çatmış cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələrinə uyğun olaraq müəyyən edilir.

Maddə 28. **Cinayətə hazırlıq**

28.1. Cinayət törətmək üçün vasitə və ya alət axtarma, əldə etmə və ya hazırlama, yaxud cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə, süvdələşmə və yaxud cinayət törətmək üçün qəsdən başqa cür şərait yaratma zamanı cinayət şəxsin iradəsindən asılı olmayaraq başa çatdırılmamışdırsa, belə əməllər cinayətə hazırlıq hesab olunur.

28.2. Yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur.

Maddə 29. **Cinayət etməyə cəhd**

Bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməl (hərəkət və ya hərəkətsizlik), şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, cinayət etməyə cəhd hesab olunur.

Maddə 30. **Cinayət törətməkdən könüllü imtina etmə**

30.1. Cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən şəxs tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəldilmiş əməlin (hərəkət və ya hərəkətsizliyin) dayandırılması, cinayəti törətməkdən könüllü imtina etmə sayılır.

30.2. Cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur.

30.3. Cinayəti başa çatdırmaqdan könüllü imtina edən şəxs yalnız o halda cinayət məsuliyyətinə cəlb olunur ki, onun törətdiyi əməldə başqa bir cinayətin tərkibi olsun.

30.4. Cinayətin təşkilatçısı və cinayətə təhrikçi müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında məlumat verməklə və ya digər tədbirlər görməklə icraçı tərəfindən cinayətin başa çatdırılmasını aradan qaldırdıqları halda, cinayət məsuliyyətinə cəlb olunmurlar. Köməkçi, bilavasitə cinayət törətməyə yönəlmiş əməllər başlananadək icraçıya qabaqcadan vəd olunmuş köməkdən imtina etmişdirsə və ya artıq göstərilmiş köməyin nəticələrini aradan qaldırmışdırsa, cinayət məsuliyyətinə cəlb olunmur.

30.5. Təşkilatçı və ya təhrikçi bu Məcəllənin 30.4-cü maddəsi ilə nəzərdə tutulan hərəkətləri ilə icraçı tərəfindən cinayətin törədilməsinin qarşısını ala bilmədikdə, məhkəmə cəza təyin edərkən onların hərəkətlərini yüngülləşdirici hal hesab edə bilər.

## 7-ci fəsil
## CİNAYƏTDƏ İŞTİRAKÇILIQ

Maddə 31. **İştirakçılıq**

İki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı iştirakçılıq sayılır.

Maddə 32. **İştirakçılığın növləri**

32.1. Cinayətin icraçısı ilə birlikdə, təşkilatçısı, təhrikçisi və köməkçisi cinayətin iştirakçıları sayılırlar.

32.2. Cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq), eləcə də bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs icraçı sayılır.

32.3. Cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs cinayətin təşkilatçısı sayılır.

32.4. Ələ alma, süvdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə süvq edən şəxs təhrikçi sayılır.

32.5. Cinayətin törədilməsinə məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayət alətlərini və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı gizlətməyi, belə pul vəsaitlərini və ya digər əmlakı əldə etməyi, onlara sahiblik və ya onlardan istifadə etməyi, yaxud sərəncam verməyi qabaqcadan vəd etmiş şəxs köməkçi sayılır.[20]

Maddə 34. **Cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi**

34.1. Qabaqcadan razılaşmadan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədilən cinayət bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur.

34.2. Qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur.

34.3. Bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət mütəşəkkil dəstə tərəfindən törədilmiş cinayət hesab olunur.

34.4. Ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi məqsədi ilə sabit mütəşəkkil cinayətkar qrupun yaradılması və ya eyni məqsədlərlə iki və ya daha çox mütəşəkkil cinayətkar qrupun sabit birliyi cinayətkar birlik (cinayətkar təşkilat) hesab olunur.

34.5. Cinayətkar birliyin (cinayətkar təşkilatın) məqsədlərinin yerinə yetirilməsi ilə əlaqədar belə birliyin (təşkilatın) üzvü (üzvləri) tərəfindən, habelə cinayətkar birliyin (cinayətkar təşkilatın) tapşırığı ilə həmin birliyin üzvü (üzvləri) olmayan şəxs (şəxslər) tərəfindən törədilən cinayət, cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilmiş cinayət hesab olunur.

34.6. Mütəşəkkil dəstə və ya cinayətkar birlik yaratmış, yaxud onlara rəhbərlik etmiş şəxs bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulan hallarda onları yaratmağa və rəhbərlik etməyə görə, habelə mütəşəkkil dəstənin və ya cinayətkar birliyin törətdiyi, bu şəxsin niyyəti ilə əhatə olunan bütün cinayətlərə görə məsuliyyət daşıyır. Mütəşəkkil dəstənin və ya cinayətkar birliyin digər üzvləri həmin cinayətlərdə iştirakına görə bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş hallarda, habelə hazırlanmasında və ya törədilməsində iştirak etdikləri cinayətlərə görə cinayət məsuliyyəti daşıyırlar.

34.7. Bu Məcəllənin Xüsusi hissəsinin maddələri ilə nəzərdə tutulmayan hallarda mütəşəkkil dəstənin yaradılması onun törədəcəyi cinayətə hazırlığa görə cinayət məsuliyyətinə səbəb olur.

34.8. Bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilən əməllər bu Məcəllə ilə nəzərdə tutulan əsaslara və hədlərə uyğun olaraq daha ciddi cəzalara səbəb olur.

## 8-ci fəsil
## ƏMƏLİN CİNAYƏT OLMASINI ARADAN QALDIRAN HALLAR

Maddə 36. **Zəruri müdafiə**

36.1. Zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır.

36.2. Peşə və ya digər xüsusi hazırlığından və qulluq vəziyyətindən asılı olmayaraq bütün şəxslər zəruri müdafiə hüququna malikdirlər. Bu hüquq, dövlət orqanlarına və ya başqa şəxslərə kömək məqsədi ilə müraciət etmək, habelə ictimai təhlükəli qəsddən yayınmaq imkanından asılı olmayaraq bütün şəxslərə şamil olunur.

36.3. Qəsdin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə açıq-aşkar uyğun gəlməyən qəsdən törədilən hərəkətlər zəruri müdafiə həddini aşmaq hesab edilir.

Maddə 37. **Cinayət törətmiş şəxs tutularkən ona zərər vurulması**

37.1. Cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanlarına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədi ilə tutulduğu zaman ona zərər yetirilməsi, əgər həmin məqsəd üçün bütün digər təsir imkanlarından istifadə lazımi nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır.

37.2. Cinayət törətmiş şəxsin tutulması üçün tətbiq edilən vasitələrin və üsulların törədilmiş əməlin və həmin əməli törətmiş şəxsin ictimai təhlükəlilik dərəcəsinə, habelə tutulmanın hallarına aşkar surətdə uyğun gəlməməsi və zərurət olmadan şəxsə açıq-aşkar həddən artıq zərər vurulması şəxsin tutulması üçün zəruri olan tədbirlərin həddini aşmaq hesab olunur. Həddi bu qaydada aşma, yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

Maddə 38. **Son zərurət**

38.1. Son zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün bu Məcəllə ilə qorunan obyektlərə zərər vurmaq yolu ilə törədilmiş hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə

ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə, cinayət sayılmır.

38.2. Baş vermiş təhlükənin xarakterinə və dərəcəsinə, habelə həmin təhlükənin aradan qaldırılması şəraitinə aşkar surətdə uyğun olmayan zərər vurulması və vurulmuş zərərin qarşısı alınmış zərərə bərabər və ya ondan artıq olması son zərurət həddini aşma sayılır. Son zərurət həddini bu qaydada aşma, yalnız qəsdən zərər vurulduqda cinayət məsuliyyətinə səbəb olur.

Maddə 39. **Əsaslı risk**

39.1. İctimai faydalı məqsədə nail olmaq üçün əsaslı risk nəticəsində bu Məcəllə ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır.

39.2. Göstərilən məqsədə risk ilə əlaqədar olmayan hərəkətlə (hərəkətsizliklə) nail olmaq mümkün deyildirsə və risk edən şəxs bu Məcəllə ilə qorunan obyektlərə zərər dəyməsini aradan qaldırmaq üçün zəruri tədbirləri görmüşdürsə, risk əsaslı hesab edilir.

39.3. Bilə-bilə insanların həyatı üçün təhlükə ilə, ekoloji və ya digər fəlakət təhlükəsi ilə müşayiət olunan risk əsaslı hesab edilmir.

Maddə 40. **Əmrin və ya sərəncamın yerinə yetirilməsi**

40.1. Müəyyən edilmiş qaydada verilmiş və icrası şəxs üçün məcburi olan əmr və ya sərəncamı yerinə yetirərkən həmin şəxs tərəfindən bu Məcəllə ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır. Belə zərərə görə qanunsuz əmr və ya sərəncam vermiş şəxs cinayət məsuliyyəti daşıyır.

40.2. Bilə-bilə qanunsuz əmri və ya sərəncamı yerinə yetirməklə qəsdən cinayət törətmiş şəxs ümumi əsaslarla cinayət məsuliyyətinə cəlb olunur.

40.3. Qanunsuz əmr və ya sərəncamın yerinə yetirilməməsi cinayət məsuliyyətinə səbəb olmur.

# ÜÇÜNCÜ BÖLMƏ
# CƏZA HAQQINDA

## 9-cu fəsil
## CƏZANIN ANLAYIŞI, MƏQSƏDİ VƏ NÖVLƏRİ

Maddə 41. **Cəzanın anlayışı və məqsədi**

41.1. Cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir.

41.2. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Maddə 42. **Cəzanın növləri**

42.0. Cəzanın növləri aşağıdakılardır:

42.0.1. cərimə;

42.0.2. nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə;

42.0.3. müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;

42.0.4. ictimai işlər;

42.0.5. xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə;

trial6. islah işləri;

42.0.7. hərbi xidmət üzrə məhdudlaşdırma;

~~42.0.8. Əmlak müsadirəsi;~~[21]

42.0.9. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma;

~~42.0.10. azadlığın məhdudlaşdırılması;~~[22]

42.0.11. intizam xarakterli hərbi hissədə saxlama;

42.0.12. müəyyən müddətə azadlıqdan məhrum etmə;

42.0.13. ömürlük azadlıqdan məhrum etmə.

Maddə 60. **Cəzanı yüngülləşdirən hallar olduqda cəzanın təyin edilməsi**

Bu Məcəllənin 59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallar olduqda və əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, təyin olunan cəzanın müddəti və ya həcmi bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə özündən artıq ola bilməz.

Maddə 61. **Cəzanı ağırlaşdıran hallar**

61.1. Cəzanı ağırlaşdıran hallar aşağıdakılardır:

61.1.1. cinayətlərin təkrar törədilməsi, cinayətlərin residivi;

61.1.2. cinayətin ağır nəticələrə səbəb olması;

61.1.3. cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi;

61.1.4. cinayətin törədilməsində xüsusilə fəal iştirak etmə;

61.1.5. psixi pozuntulardan əziyyət çəkən və ya sərxoş vəziyyətdə olan şəxslərin, habelə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərin cinayət törətməyə cəlb olunması;

61.1.6. cinayətin milli, irqi və ya dini düşmənzilik, dini fanatizm, digər şəxslərin qanuni hərəkətlərinə görə qisas almaq zəminində, tamah məqsədi ilə və ya sair alçaq niyyətlərlə, habelə başqa cinayəti ürt-basdır etmək və ya onun törədilməsini asanlaşdırmaq məqsədi ilə törədilməsi;

61.1.7. cinayətin müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya müqəssirdən asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi;

61.1.8. cinayətin öz qulluq və ya ictimai borcunu yerinə yetirən şəxsə və ya onun yaxın qohumlarına qarşı törədilməsi;

61.1.9. cinayətin zərərzəkmiş şəxsə qarşı xüsusi amansızlıqla, o cümlədən əzab və ya işgəncə verməklə törədilməsi;

61.1.10. cinayətin odlu silahdan, partlayıcı vasitələrdən və ya digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə etməklə törədilməsi;

61.1.11. cinayətin fövqəladə vəziyyət, təbii və ya digər ictimai fəlakət şəraitində, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi;

61.1.12. cinayətin hakimiyyət nümayəndəsinin xüsusi geyimlərindən və ya sənədlərindən istifadə etməklə törədilməsi;

61.1.13. cinayətin qulluq mövqeyinə və ya müqaviləyə əsasən təqsirkara göstərilən etimaddan istifadə etməklə törədilməsi.

trial Cəza təyin edilərkən bu Məcəllənin 61.1.1—61.1.13-cü maddələrində göstərilməmiş hallar cəzanı ağırlaşdıran hal qismində nəzərə alına bilməz.

61.3. Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində cinayət tərkibinin əlaməti kimi nəzərdə tutulmuş cəzanı ağırlaşdıran hal, cəza təyin edilərkən təkrar nəzərə alına bilməz.

## BEŞİNCİ BÖLMƏ
## YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT MƏSULİYYƏTİ

### 14-cü fəsil
### YETKİNLİK YAŞINA ÇATMAYANLARIN BARƏSİNDƏ CİNAYƏT MƏSULİYYƏTİNİN VƏ CƏZASININ XÜSUSİYYƏTLƏRİ

Maddə 84. **Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti**

84.1. Cinayət törədərkən on dürd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur.

84.2. Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Bakı şəhəri, 1 fevral 2016-cı il № 121-VQD

# Dövlət sirri haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

**Maddə** 1. Əsas anlayışlar

1.0. Bu Qanunda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.0.1. dövlət sirri - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır;

1.0.2. dövlət sirri təşkil edən məlumatların daşıyıcıları - dövlət sirri təşkil edən məlumatların rəmzlər, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələrdir;

1.0.3. dövlət sirrinin mühafizəsi sistemi - dövlət sirrini mühafizə orqanlarının, dövlət sirri təşkil edən məlumatların və həmin məlumatların daşıyıcılarının mühafizəsi üçün bu orqanların istifadə etdikləri vasitə və metodların, habelə bu məqsədlə həyata keçirilən tədbirlərin məcmusudur;

1.0.4. dövlət sirri ilə işləməyə buraxılma - vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa, müəssisə, idarə və təşkilatların isə belə məlumatlardan istifadə etməklə işlərin icrasına buraxılması hüququnun rəsmiləşdirilməsi qaydasıdır;

1.0.5. dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılma – səlahiyyətli vəzifəli şəxsin icazəsi ilə konkret şəxsin dövlət sirri təşkil edən məlumatlarla tanış olması qaydasıdır;

1.0.6. məxfilik qrifi - məlumat daşıyıcısının özündə və ya ona qoşulan sənədlərdə qoyulan, daşıyıcısı olduğu məlumatın məxfilik dərəcəsini göstərən rekvizitlərdir;

1.0.7. informasiyam mühafizə vasitələri - dövlət sirri təşkil edən məlumatların mühafizəsi üçün nəzərdə tutulan texniki, kriptoqrafik, proqramlı və başqa vasitələr, onların əks olunduğu vasitələr, habelə məlumatın mühafizəsinin səmərəliliyinə nəzarət vasitələridir;

1.0.8. dövlət sirri təşkil edən məlumatların siyahısı - müvafiqliyinə görə məlumatların qanunvericiliklə müəyyən olunmuş əsaslarla və qaydada dövlət sirrinə aid edildiyi və məxfiləşdirildiyi məlumat qruplarının məcmusudur.

**M a d d ə 2**. Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**M a d d ə 3**. Qanunun təsir dairəsi

3.1. Bu Qanunun müddəaları Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatları, dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini yerinə yetirmək öhdəliyi götürmüş və ya statusuna görə buna borclu olan Azərbaycan Respublikasının vəzifəli şəxsləri və vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən hökmən icra edilməlidir.

3.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində başqa hal nəzərdə tutulmadıqda, digər dövlətlər tərəfindən Azərbaycan Respublikasına verilmiş dövlət sirri təşkil edən məlumatlar bu Qanuna müvafiq mühafizə edilir.

**M a d d ə 5.** Dövlət sirri təşkil edən məlumatların siyahısı

5.4. Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar:

5.4.1. kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları, planları və nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa;

5.4.2. kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında;

5.4.3. dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin olunmasının təşkili, qüvvə və vasitələri, metodları haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatlan açıqlayırsa;

5.4.4. şifrlənmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında, şifrlər, şifrlərin işlənməsi və hazırlanması, onlarla təminat, şifrləmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-analitik sistemləri haqqında;

5.4.5. məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında;

5.4.6. dövlət sirrinin mühafizəsinin təşkili və faktiki vəziyyəti haqqında;

5.4.7. Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi haqqında;

5.4.8. Azərbaycan Respublikasında dövlətin müdafiəsinin, təhlükəsizliyinin və hüquq mühafizə fəaliyyətinin təmin olunması ilə əlaqədar dövlət büdcəsinin xərcləri haqqında;

5.4.9. dövlətin təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən tədbirləri açıqlayan kadr hazırlığı haqqında.

## II fəsil
## MƏLUMATLARIN DÖVLƏT SİRRİNƏ AİD EDİLMƏSİ, ONLARIN MƏXFİLƏŞDİRİLMƏSİ VƏ MƏXFİLİYİNİN AÇILMASI

**M a d d ə 7.** Dövlət sirrinə aid edilməyən və məxfiləşdirilməyən məlumatlar

7.0. Aşağıdakı məlumatlar dövlət sirrinə aid edilmir və məxfiləşdirilmir:

7.0.1. insanların həyat və sağlamlığı üçün təhlükə törədən fövqəladə hadisələr və qəzalar, onların nəticələri, habelə təbii fəlakətlər, onların rəsmi proqnozları və nəticələri haqqında;

7.0.2. ekologiya, səhiyyə, sanitariya, demoqrafiya, təhsil, mədəniyyət və kənd təsərrüfatının, habelə cinayətkarlığın vəziyyəti haqqında;

7.0.3. dövlətin vətəndaşlara, vəzifəli şəxslərə, müəssisə, idarə və təşkilatlara verdiyi imtiyazlar, güzəştlər və kompensasiyalar haqqında;

7.0.4. insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması faktları haqqında;

7.0.5. Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin səhhəti haqqında;

7.0.6. dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri tərəfindən qanunvericiliyin pozulması faktları haqqında.

**M a d d ə 8.** Məlumatların məxfilik dərəcələri və bu məlumatların daşıyıcılarının məxfilik qrifləri

8.1. Dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcəsi, bu məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula bilən ziyanın ağırlıq dərəcəsinə uyğun gəlməlidir.

8.2. Dövlət sirri təşkil edən məlumatların öz məxfilik dərəcəsi və müvafiq olaraq, bu məlumatların daşıyıcıları üçün öz məxfilik qrifi müəyyənləşdirilir: "xüsusi əhəmiyyətli", "tam məxfi" və "məxfi".

**M a d d ə 9**. Məlumatların dövlət sirrinə aid edilməsi qaydası

9.1. Məlumatlar onların sahə, idarə və ya məqsədli proqram mənsubiyyətinə, habelə bu Qanuna uyğun olaraq dövlət sirrinə aid edilir.

9.2. Məlumatların məxfiləşdirilməsi sahəsində vahid dövlət siyasətini həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı bu Qanunla müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi prinsipinə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla, dövlət sirrinə aid edilən məlumatların siyahısını tərtib edir. Siyahıda həmin məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları göstərilir. Siyahı onu təsdiq edən müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dərc edilir və zəruri hallarda siyahıya yenidən baxılır.

9.3. Dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları dövlət sirrinə aid edilən məlumatlar siyahısına uyğun olaraq məxfiləşdirilməli məlumatların geniş siyahılarını tərtib edir və bu siyahılara daxil edilmiş məlumatların məxfilik dərəcələrini müəyyənləşdirir.

9.4. Silah və hərbi texnika nümunələrinin hazırlanmasına və modernləşdirilməsinə dair məqsədli proqramlar, elmi tədqiqat və təcrübi-konstruktor işləri çərçivəsində işlərin sifarişçilərinin qərarı ilə məxfiləşdirilməli məlumatların ayrıca siyahıları tərtib edilə bilər. Bu siyahıları müvafiq dövlət hakimiyyəti orqanlarının rəhbərləri təsdiq edirlər. Siyahıların məxfiləşdirilməsinin məqsədəuyğunluğu onların məzmunu ilə müəyyənləşdirilir.

**M a d d ə 12**. Dövlət sirri təşkil edən məlumat daşıyıcılarının rekvizitləri

12.1. Dövlət sirri təşkil edən məlumat daşıyıcılarına rekvizitlər verilir. Rekvizitlərdə aşağıdakılar göstərilir:

12.1.1.müvafiq dövlət hakimiyyəti orqanında, müəssisə, idarə və ya təşkilatda qüvvədə olan məxfiləşdirilməli məlumatlar siyahısının müvafiq bəndinə istinadla, daşıyıcıdakı məlumatların məxfilik dərəcəsi;

12.1.2.daşıyıcını məxfiləşdirən dövlət hakimiyyəti orqanı, müəssisə, idarə, təşkilatın adı;

12.1.3.qeydiyyat nömrəsi;

12.1.4.məlumatların məxfiliyinin açılması tarixi və ya şərti, yaxud buna səbəb ola biləcək hadisə.

12.2.Bu rekvizitləri məlumat daşıyıcısında əks etdirmək mümkün olmadıqda onlar daşıyıcıya qoşulan sənədlərdə göstərilir.

12.3.Daşıyıcı məxfilik dərəcəsi müxtəlif olan tərkib hissələrindən ibarətdirsə, onların hər birinə müvafiq məxfilik qrifi, bütüvlükdə daşıyıcıya isə bu daşıyıcıda ən yüksək məxfilik dərəcəsi olan tərkib hissəsinin məxfilik qrifi verilir.

12.4.Bu Qanunun 12.1-ci maddəsində göstərilən rekvizitlərdən başqa, daşıyıcıya və (və ya) ona qoşulan sənədlərə vəzifəli şəxslərin onunla tanış olmaq səlahiyyəti barədə əlavə qeydləri də qoyula bilər. Belə qeydlərin növləri və qoyulması bu Qanunun 26-cı maddəsində nəzərdə tutulmuş vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa buraxılması qaydası ilə müəyyənləşdirilir.

## IV fəsil
## DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİ

**M a d d ə 20.** Dövlət sirrini mühafizə orqanları

20.1. Dövlət sirrini mühafizə orqanlarına aşağıdakılar aiddir:

20.1.1. müvafiq mərkəzi icra hakimiyyəti orqanları;

20.1.2. dövlət hakimiyyəti orqanları, müəssisə, idarə, təşkilatlar və onların dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri.

20.2. Bu Qanunun 20.1-ci maddəsində nəzərdə tutulan orqanlar və onların yerlərdəki orqanları dövlət sirrinin mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə onlara həvalə olunmuş funksiyalara müvafiq surətdə təşkil və təmin edirlər.

20.3. Dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təşkili üçün məsuliyyət onların rəhbərlərinin üzərinə qoyulur.

20.4. Dövlət sirri təşkil edən məlumatlardan istifadə etməklə görülən işlərin həcmindən asılı olaraq dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların rəhbərləri müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi normativ hüquqi sənədlərə uyğun olaraq dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri yaradır və görülən işlərin xüsusiyyətlərini nəzərə almaqla onların funksiyalarını müəyyənləşdirirlər.

20.5. Dövlət sirrinin mühafizəsi dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların əsas fəaliyyət istiqamətlərindən biridir.

**M a d d ə 21**. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması

21.1. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması könüllülük qaydasında həyata keçirilir.

21.2. Dövlət sirri ilə işləməyə, bir qayda olaraq, Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar.

21.3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

21.4. Vəzifəli şəxsin və vətəndaşın dövlət sirri ilə işləməyə buraxılması aşağıdakıları nəzərdə tutur:

trial1. ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında öhdəlik götürməsini; [5]

21.4.2. dövlət sirri haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının qanunvericiliyi ilə tanış olmasını;

21.4.3. bu Qanunun 25-ci maddəsində nəzərdə tutulan qismən və müvəqqəti məhdudiyyətlərə rəsmi yazılı razılıq verilməsini; [6]

21.4.4. onun barəsində səlahiyyətli orqanlar tərəfindən yoxlama tədbirlərinin keçirilməsinə yazılı razılıq verməsini;

21.4.5. dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və təşkilatın rəhbəri tərəfindən dövlət sirri ilə işləməyə buraxılma haqqında qərar qəbul edilməsini. [7]

21.5. Yoxlama tədbirlərinin həcmi dövlət sirri ilə işləməyə buraxılan şəxsin işləməyə buraxılacağı məlumatların məxfilik dərəcəsindən asılıdır. Yoxlama tədbirləri Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir. Yoxlama tədbirlərinin keçirilməsində məqsəd bu Qanunun 23.1-ci maddəsində nəzərdə tutulan əsasların olub-olmamasının müəyyənləşdirilməsidir. [8]\

21.5-1. Vəzifəli şəxsin və vətəndaşın xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirləri prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, digər dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən keçirilir. Yoxlama tədbirlərinin həcmi və keçirilməsi qaydası yoxlama tədbirlərini keçirən orqanlar tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təsdiq edilir.[9]

21.6. Vəzifəli şəxsin və vətəndaşın ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında götürdüyü öhdəliyi onunla işəgötürən arasında bağlanan əmək müqaviləsində, işə (xidmətə) qəbul əmək müqaviləsi ilə həyata keçirilmədikdə isə iltizamnamədə əks olunur. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə yol verilmir. [10]

21.7. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılmasının dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcələrinə uyğun öz forması müəyyən edilir: xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılma.

21.8. Vəzifəli şəxslərin və vətəndaşların məxfilik dərəcəsi daha yüksək olan məlumatlarla işləməyə buraxılışının olması, onların məxfilik dərəcəsi daha aşağı olan məlumatlarla işləməyə buraxılmasına əsas verir.

21.9. Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. [11]

21.10. Hərbi və fövqəladə vəziyyət şəraitində vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən dəyişdirilə bilər. [12]

**M a d d ə 22.** Dövlət sirri ilə işləməyə buraxılmanın xüsusi qaydaları

22.1. Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri, Azərbaycan Respublikası Konstitusiyasının

109-cu maddəsinə əsasən vəzifəyə təyin edilmiş şəxslər, öz vəzifələrinin icrası zamanı hakimlər, habelə dövlət sirri təşkil edən məlumatlarla bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatında müdafiəçi qismində çıxış edən vəkillər dövlət sirri ilə işləməyə bu Qanunla nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar. [13]

22.2. Bu Qanunun 22.1-ci maddəsində göstərilən şəxslər, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, dövlət sirrinin yayılmasına görə məsuliyyətə ümumi əsaslarla cəlb edilirlər.

**M a d d ə 23.** Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar[14]

23.1. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:

23.1.1. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;

23.1.2. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə, eləcə də digər xüsusilə ağır və ağır cinayətlərə görə məhkum edilməsi (məhkumluğun ödənilməsi və ya götürülməsindən asılı olmayaraq);

23.1.3. bu Qanunun 23.1.2-ci maddəsində göstərilən cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulması və ya barəsində hər hansı qətimkan tədbirinin seçilməsi (azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək);

23.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi siyahıya uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;

23.1.5. xarici ölkədə daimi yaşaması;

23.1.6. Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barədə müvafiq icra hakimiyyəti orqanına müraciət etməsi və ya barəsində "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin müddəalarının tətbiqi ilə bağlı icraata başlanılması; [15]

23.1.7. yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxması;

23.1.8. yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.

23.2. Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi barədə qərarı dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla, fərdi qaydada qəbul edir. Vəzifəli şəxsin və ya vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.

23.3. Dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən məlumatların aid olduğu hər hansı vəzifəli şəxs və ya vətəndaşların mərkəzləşdirilmiş uçotunun aparılması və məlumat bazasının yaradılması müvafiq icra hakimiyyəti orqanları tərəfindən təşkil edilir.

**Maddə 24.** Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi şərtləri

24.1. Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına dövlət hakimiyyəti orqanı, müəssisə, idarə və ya təşkilat rəhbərinin qərarı ilə aşağıdakı hallarda xitam verilir:

trial1. təşkilati və (və ya) ştat tədbirləri ilə əlaqədar onunla bağlanmış əmək müqaviləsinə xitam verildikdə;

24.1.2. Əmək müqaviləsinə əsasən dövlət sirrinin mühafizəsi üzrə götürdüyü öhdəlikləri bir dəfə pozduqda;

24.1.3. bu Qanunun 23.1-ci maddəsinə uyğun olaraq vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina üçün əsas verən hallar yarandıqda.

24.2. Dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri təşkil edən məlumatları yaymamaq haqqında götürdüyü öhdəliklərdən azad etmir.

**M addə 25**. Dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış vəzifəli şəxsin və ya vətəndaşın hüquqlarının məhdudlaşdırılması

25.0. Dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış vəzifəli şəxsin və ya vətəndaşın hüquqları müvəqqəti məhdudlaşdırıla bilər. Məhdudiyyətlər aşağıdakılara aid ola bilər:

25.0.1. dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququna;

25.0.2. dövlət sirri təşkil edən məlumatları yaymaq və bu cür məlumatları əks etdirən kəşfərdən və ixtiralardan istifadə etmək hüququna;

25.0.3. dövlət sirri ilə işləməyə buraxılmasının rəsmiləşdirilməsi (yenidən rəsmiləşdirilməsi) ilə əlaqədar yoxlama tədbirlərinin keçirildiyi müddətdə şəxsi toxunulmazlıq hüququna.

## VI fəsil
## DÖVLƏT SİRRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**Maddə 30.** Dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət və mübahisələrə baxılma qaydası

30.1. Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozan hüquqi şəxslər, vəzifəli şəxslər və vətəndaşlar qüvvədə olan qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.[16]

30.2. Müvafiq dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri məlumatların qeyri-qanuni yayılması üzrə qərar qəbul edərkən qeyri-qanuni yayılmış məlumatın dövlət sirri təşkil etməsi haqqında ekspert rəyinə əsaslanırlar. Ekspert rəyinin hazırlanması və təsdiqi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

30.3. Dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılması bütövlükdə Azərbaycan Respublikası və ya mərkəzi icra hakimiyyəti orqanı üzrə dövlətin təhlükəsizliyinə ziyan vurulmaqla nəticələndiyi hallarda məlumatların yayılması faktı üzrə materiallara müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılır və rəy verilir.

30.4. Vətəndaşların, dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, müəssisə, idarə və təşkilatların bu Qanunla bağlı qanuni maraqlarının və hüquqlarının qorunması, mübahisələrə baxılması məhkəmə qaydasında və ya qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

## VII fəsil
## DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİNİN TƏMİN OLUNMASINA NƏZARƏT

**M a d d ə 31**. Dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət

31.1. Dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

31.2. Dövlət sirrinin yayılmasının qarşısının alınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**M a d d ə 32.** Dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası və idarə nəzarəti

32.1. Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

32.2. Bu Qanunla müəyyən olunmuş qaydada dövlət sirrinə aid edilən məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik dövlət hakimiyyəti orqanları tabeliklərində olan müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarə nəzarətini həyata keçirir.

32.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının aparatlarında və Azərbaycan Respublikası Milli Məclisinin Aparatında dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət onların rəhbərləri tərəfindən təşkil edilir.

32.4. Məhkəmə və prokurorluq orqanlarında dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət bu orqanların rəhbərləri tərəfindən təşkil edilir.

32.5. İdarələrarası nəzarətin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 sentyabr 2004-cü il
№ 733-IIQ

## Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli Qanununa müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektləri arasında səlahiyyət bölgüsünün aparılması məqsədi ilə **qərara alıram:**

VI. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının milli təhlükəsizlik, daxili işlər, ədliyyə (Naxzıvan Muxtar Respublikasının ərazisində Naxzıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), vergilər nazirlikləri, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilsin:[1]

poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasını~~, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını~~ Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, beynəlxalq göndərişlərin yoxlanılmasını ~~isə~~ həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi~~, barəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilən mobil rabitə istifadəzisinin baza antenaları üzrə yeri (yerdəyişməsi) haqqında məlumatların və telefon danışıqları apardığı şəxslərin siyahısının texniki rabitə kanallarından və digər texniki vasitələrdən real vaxt rejimində çıxarılmasını həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi~~ həyata keçirirlər; [2]

telefon danışıqlarına qulaqasmanı*,-texniki-rabitə-kanallarından-və-digər-texniki-vasitələrdən-informasiyanın-çıxarılmasını* Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirlikləri həyata keçirirlər; [3]

İnsanların güdülməsini, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirlikləri, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər. [4]

iqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;[5]

məhkumların məktublarının yoxlanılmasını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi  və Naxzıvan Muxtar Respublikasının ərazisində Naxzıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər; [6]

hərbi hissələrdə və hərbi idarələrdə əməliyyat-axtarış tədbirlərinin tətbiqini təhlükəsizlik orqanları üçün müəyyən edilmiş həcmdə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir; [7]

mühafizə edilən şəxslərin və obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;[8]

korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi həyata keçirir. [9]

II. Əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının milli təhlükəsizlik, daxili işlər və vergilər nazirliklərinə həvalə edilir.[10]

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri bu Fərmanın 1-ci bəndi ilə tətbiqi məhdudlaşdırılmış əməliyyat-axtarış tədbirlərini qanunvericiliklə müəyyən edilmiş qaydada onların icrası həvalə edilmiş orqanlara sorğu göndərməklə həyata keçirirlər.

*IV.-Rabitə-xidmətləri-göstərən-hüquqi-və-fiziki-şəxslər-üçün-rabitə-şəbəkələrində-əməliyyat-axtarış-tədbirlərinin-təminatına-dair-texniki-təşkilati-şərtlərin-müəyyənləşdirilməsi-Azərbaycan-Respublikasının-Milli-Təhlükəsizlik-Nazirliyi-tərəfindən,-Azərbaycan-Respublikasının-Daxili-İşlər-Nazirliyinin-səlahiyyətlərinə-aid-olan-hissədə-isə-Azərbaycan-Respublikasının-Daxili-İşlər-Nazirliyi-ilə-razılaşdırılmaqla-Azərbaycan -Respublikasının-Xüsusi-Dövlət-Mühafizə-Xidməti-tərəfindən-həyata-keçirilir.-Rabitə*

*şəbəkələrində aparılan əməliyyat-axtarış tədbirləri üzrə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin rabitə şəbəkələrinə qoşulması Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar"a uyğun olaraq həyata keçirilir.*[11]

V. (Çıxarılıb) [12]

VI. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Qeyd: Fərmanda MTN, DTX və XKX kimi nəzərə alınsın.**
19 İyun 2001-ci il

## “Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında

trialAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. “Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təşkilini bu Fərmanla təsdiq edilən Qaydalara uyğunlaşdırsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, düyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər.

Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq mühafizə orqanlarının lazımi çevikliklə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı naraçılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur.

Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirməyin, qanunçuluğu və hüquq qaydasını möhkəmləndirməyin zəruriliyini nəzərə alaraq **qərara alıram:**

1. Ədliyyə, daxili işlər, milli təhlükəsizlik nazirliklərinə, Respublika Prokurorluğuna tapşırılsın və Azərbaycan Respublikasının Ali Məhkəməsinə təklif edilsin ki, bir ay ərzində respublikada cinayətkarlığa qarşı mübarizə üzrə dövlət proqramının layihəsini işləyib hazırlasınlar və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

2. Hüquq mühafizə orqanlarının rəhbərlərinə tapşırılsın ki, idarə, təşkilat və müəssisələrdə rüşvətxorluq faktlarının aşkar edilməsi, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna müvafiq surətdə cəzalandırılması, rüşvətxorluq faktlarının qarşısının alınması üçün təsirli tədbirlər görsünlər.

Azərbaycan Respublikasının məhkəmələrinə təklif edilsin ki, rüşvətxorluq faktları ilə bağlı açıq və səyyar məhkəmə prosesləri təşkil etsinlər.

3. Prokurorluq, istintaq və təhqiqat orqanlarına tapşırılsın və məhkəmə orqanlarına təklif edilsin ki, cinayət işləri üzrə ağır cinayətlər törədən və mütəşəkkil cinayətkar dəstələrin üzvü olan və ya onların törətdiyi cinayətlərdə fəal iştirak edən müttəhimlər barəsində ən ciddi qəti imkan tədbiri tətbiq etsinlər.

4. Prokurorluq, daxili işlər və milli təhlükəsizlik orqanlarına tapşırılsın və məhkəmə orqanlarına təklif edilsin ki, ağır cinayətlərin törədilməsində, habelə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilmiş cinayətlərlə əlaqəsi olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti, onların banklardakı əmanətləri və hesabları üzrə əməliyyatlar haqqında müvafiq orqanların vəzifəli şəxslərindən zəruri hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq sənədləri və məlumatları tələb edib ümumi qaydada alsınlar; belə tələblərin yerinə yetirilməsinə mane olan və ya bundan yayınan şəxslər barəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görsünlər.

5. Azərbaycan Respublikasının Prokurorluğu, müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirlikləri silah və hərbi sursat saxlayan bütün təşkilatlarda onların inventarlaşdırılmasını aparsınlar və nəticələrindən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görməklə iki ay müddətində görülmüş iş üzrə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

6. Daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, ağır cinayətlərin qarşısının alınması və üstünün açılması üçün əməliyyat-axtarış fəaliyyəti üzrə xidmət sahələrinin işini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədi ilə kompleks tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etsinlər və iki ay müddətində görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

7. Daxili İşlər Nazirliyinin tərkibində mütəşəkkil cinayətkarlığa, terrorizmə və banditizmə qarşı mübarizə idarəsi yaradılsın; daxili işlər naziri həmin idarənin təşkili və normal fəaliyyəti üçün zəruri tədbirləri daxili ehtiyatlar hesabına həyata keçirməklə on gün müddətində həmin idarənin fəaliyyətə başlamasını təmin etsin.

8. Ədliyyə Nazirliyinə tapşırılsın ki, korrupsiyaya, yalançı sahibkarlığa, qəsdən ifasa, qanunsuz kredit verməyə, kreditlərdən təyinatı üzrə istifadə etməməyə, valyuta vəsaitlərini xaricdən vaxtında və tam gətirməməyə, mühasibat uçotu qaydalarını qəsdən pozmağa, əmlakı zorakılıqla almağa (reketə) və başqa ictimai təhlükəli əməl-

lərə görə cinayət məsuliyyətinin müəyyən olunması; vergi ödənilməsindən boyun qaçırmağa və ya yayınmağa, oğurluğa, avtonəqliyyat vasitələrini qaçırmağa, qanunsuz odlu silah saxlamağa, gəzdirməyə və s. görə cinayət məsuliyyətinin gücləndirilməsi, cinayət və cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsi barədə bir ay müddətində qanunvericilik təklifəri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Respublikanın Prokurorluğuna və Daxili İşlər Nazirliyinə tapşırılsın ki, hazırlanan cinayət haqqında ciddi dəlillər olduqda təhqiqat orqanlarının əməkdaşlarına mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və tikintiləri müayinə etmək hüquqları verilməsi üçün qanunvericilik aktlarında zəruri dəyişiklik edilməsi haqqında təklifəri bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

10. Azərbaycan Respublikasının Prokurorluğuna, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, banditizmin və mütəşəkkil cinayətkarlığın geniş yayıldığı şəhər və rayonların siyahısını müəyyən etsinlər; onların ərazisində fəaliyyət göstərən daxili işlər və milli təhlükəsizlik orqanlarının cinayətkarlığa qarşı mübarizədə xüsusi tədbirlər həyata keçirilməsi ilə bağlı əməliyyat xidməti fəaliyyətinin gücləndirilmiş iş rejiminə keçirilməsini təmin etsinlər.

11. Nazirlər Kabinetinə tapşırılsın ki, cinayətkarlığa qarşı mübarizə aparan hüquq mühafizə orqanlarının vacib ehtiyaclarını nəzərə almaqla onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir kriminalistika texnikası vasitələri ilə təchiz edilməsi haqqında təklifərini bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

12. Azərbaycan Respublikasının Prokurorluğuna, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, cinayət işlərinin çevik və keyfiyyətli istintaqını təmin etmək məqsədi ilə həmin orqanların işçilərini iş göstəricilərindən asılı olaraq mənəvi və maddi cəhətdən həvəsləndirmək üçün lazımi tədbirlər görsünlər.

Cinayətkarlığa qarşı mübarizə işində fərqlənən vətəndaşların, daxili işlər, milli təhlükəsizlik, polis və prokurorluq orqanları əməkdaşlarının həvəsləndirilməsi üçün əlavə vəsaitlər cəmləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin xüsusi fondu yaradılsın.

Ədliyyə, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, həmin fondun Əsasnaməsinin layihəsini on gün ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 9 avqust 1994-cü il.
№ 181.

# Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi məqsədi ilə **qərara alıram:**

1. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin *müdafiə sahəsində hərbi kəşfiyyat*, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin əks-kəşfiyyat, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən strukturlarıdır.[1]

2. Müəyyən edilsin ki:

2.1. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 7.1.1-7.1.4-cü, 7.1.6-7.1.8-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

2.2. həmin qanunun 7.1.5-ci, 7.1.9-cu, 7.1.10-cu, 7.2.8-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir;

2.3. həmin qanunun 7.2.1-ci, 7.2.2-ci, 7.2.9-cu, 7.2.10-cu, 7.2.11-ci və 7.2.13-cü maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsi ilə

əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.4. həmin qanunun 7.2.3-cü maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və öz səlahiyyətləri daxilində dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.5. həmin qanunun 7.2.4-cü maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirirlər;

2.6. həmin qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və öz səlahiyyətləri daxilində dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tərkibində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.7. həmin qanunun 7.2.6-cı maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və öz səlahiyyətləri daxilində dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı energetika, nəqliyyat və rabitə obyektlərində Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.8. həmin qanunun 7.2.7-ci maddəsində nəzərdə tutulmuş vəzifələri dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirirlər;

2.9. həmin qanunun 7.2.12-ci maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

2.10. həmin qanunun 7.3-cü maddəsində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.11. həmin qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş hüquqları Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;

2.12. həmin qanunun 8.2.2-ci maddəsində nəzərdə tutulmuş hüquqları Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

2.13. həmin qanunun 8.2.1-ci və 8.2.3-cü maddələrində nəzərdə tutulmuş hüquqları Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər.

3. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində nəzərdə tutulmuş kəşfiyyat və əks-kəşfiyyat tədbirləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən bu orqanların səlahiyyətləri daxilində aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilsin:

3.1. həmin qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş kəşfiyyat tədbirlərini Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

3.2. həmin qanunun 11.4-cü maddəsində nəzərdə tutulmuş tədbirləri "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli fərmanı ilə müəyyən edilmiş bölgüyə əsasən Azərbaycan

Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər.

4. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 yanvar 2005-ci il
№ 186

## "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2005-ci il
№249

**Azərbaycan Respublikası Prezidentinin**
**2005-ci il 3 iyun tarixli 249 nömrəli Fərmanı ilə TƏSDİQ EDİLMİŞDİR**

1. Bu Qaydalar "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və məlumatların dövlət sirrinə aid edilməsi qaydalarım müəyyən edir.

2. Bu Qaydalar dövlət sirrinə aid edilən məlumatların siyahısı tərtib edilərkən, dövlət hakimiyyəti orqanları tərəfindən məxfiləşdirilməli məlumatların geniş siyahıları işlənib hazırlanarkən tətbiq edilməlidir.

3. Məlumatlar "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qanunilik, əsaslılıq və vaxtında həyata keçirilməsi prinsipləri əsasında, onların sahə, idarə və ya məqsədli proqram mənsubiyyətinə uyğun olaraq dövlət sirrinə aid edilir.

4. Məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi məqsədilə dövlət sirrinə aid edilən məlumatların siyahısı hazırlanır. Həmin siyahı "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və bu Qaydaların 3-cü bəndində nəzərdə tutulan prinsiplərə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifəri nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya (bundan sonra - İdarələrarası Komissiya) tərəfindən hazırlanır.

Siyahıda dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları və onların sərəncamına verilmiş məlumatlar göstərilir.

Siyahı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Zəruri hallarda siyahıya yenidən baxıla bilər. Siyahıya yenidən baxılması onun hazırlandığı qaydada həyata keçirilir.

5. Dövlət sirri təşkil edən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanında məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi sahəsində fəaliyyətin tənzimlənməsi məqsədilə bu orqan üzrə məxfiləşdirilməli məlumatların geniş siyahısı (bundan sonra - geniş siyahı) tərtib edilir.

Geniş siyahı bu Qaydaların 4-cü bəndində nəzərdə tutulan siyahı ilə dövlət hakimiyyəti orqanının sərəncamına verilmiş məlumatlar əsasında tərtib edilir. Geniş siyahıya dövlət hakimiyyəti orqanı və bu orqanın tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyəti ilə bağlı dövlət sirri təşkil edən məlumatlar daxil edilir.

Geniş siyahıya vətəndaşlar, bu siyahını hazırlayan dövlət hakimiyyəti orqanının tabeliyində olmayan müəssisə, idarə və təşkilatlar tərəfindən əldə edilmiş (hazırlanmış) məlumatlar da daxil edilə bilər, bir şərtlə ki, həmin məlumatlar bu Qaydaların 4-cü bəndində nəzərdə tutulmuş siyahıda sadalanmış olsun.

6. Geniş siyahının layihəsini hazırlamaq məqsədilə dövlət hakimiyyəti orqanı rəhbərinin sərəncamına əsasən dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılmış mütəxəssislərdən ibarət ekspert komissiyası yaradılır.

Ekspert komissiyası geniş siyahıya daxil edilməli məlumatları müəyyən etmək məqsədilə bu orqanın və onun tabeliyində olan müəssisə, idarə və təşkilatların bütün fəaliyyətinin ekspertizasını həyata keçirir (təhlilini aparır), vətəndaşların, həmin orqanın tabeliyində olmayan müəssisə, idarə və təşkilatların mülkiyyətində olan mə-

lumatların məxfiləşdirilməsi barədə onların təqdimatlarını öyrənir və geniş siyahının layihəsini hazırlayır.

Geniş siyahıda konkret məlumatların (məlumat qruplarının) məxfilik dərəcələri göstərilməlidir. Geniş siyahının strukturu idarə və sahə xüsusiyyətləri nəzərə alınmaqla tərtib edilməlidir.

Vətəndaşlar, geniş siyahının tərtib edildiyi dövlət hakimiyyəti orqanının tabeliyində olmayan müəssisə, idarə və təşkilatlar tərəfindən əldə edilmiş (hazırlanmış) və geniş siyahıya daxil edilmiş məlumatların məxfilik dərəcəsi həmin orqan ilə bu vətəndaşlar, müəssisə, idarə və təşkilatlar arasında "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əldə edilmiş razılıq əsasında müəyyən edilir. Əgər belə razılıq əldə edilməzsə, bu cür məlumatların məxfilik dərəcəsi İdarələrarası Komissiya tərəfindən müəyyən edilir.

7. Geniş siyahıya daxil edilən məlumatlara "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı məxfilik dərəcələri verilə bilər:

"xüsusi əhəmiyyətli" - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikasının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

"tam məxfi" - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

"məxfi" - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində ayrı-ayrı dövlət müəssisə, idarə və təşkilatlarının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi.

Dövlət sirri təşkil edən məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula biləcək ziyanın kəmiyyət və keyfiyyət göstəriciləri dövlət sirrinə aid edilmiş məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanlarının İdarələrarası Komissiya ilə razılaşdırılmaqla təsdiq etdikləri normativ-metodiki sənədlərlə müəyyən edilir.

Bir neçə dövlət hakimiyyəti orqanının sərəncamında olan dövlət sirrinə aid edilən məlumatların məxfilik dərəcəsi həmin orqanlar arasında əldə olunmuş qarşılıqlı razılıq əsasında müəyyən edilir.

8. Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanının rəhbəri ekspert komissiyası tərəfindən hazırlanmış geniş siyahını təsdiq edir və bu siyahının özünün də məxfiləşdirilməsinin məqsədəuyğunluğu məsələsini həll edir.

9. Təsdiq edildikdən sonra geniş siyahı aşağıdakılara təqdim edilir:

İdarələrarası Komissiyaya - tam həcmdə;

aidiyyəti dövlət hakimiyyəti orqanlarına - tam və ya zəruri həcmdə;

dövlət hakimiyyəti orqanlarının tabeliyində olan müəssisə, idarə və təşkilatlara - zəruri həcmdə;

birgə işlərin aparılmasında iştirak edən təşkilatlara - sifarişçi tərəfindən müəyyən edilən həcmdə.

**Azərbaycan Respublikası adından**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

## Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə iclas katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Qəbələ rayon Məhkəməsinin sədri Vahid Sadıqovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati qanunvericilik sektorunun müdiri Fuad Məmmədovun, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professor əvəzi, hüquq üzrə elmlər doktoru Midhəd Qəfərovun və müstəqil ekspert hüquq üzrə fəlsəfə doktoru Aydın Yusubovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Munis Abuzərlinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Baş istintaq idarəsinin şöbə rəisi Mahir Qasımovun, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş cinayət axtarışı idarəsinin əməliyyat müvəkkili Ceyhun Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Qəbələ rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertlərin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Qəbələ rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra — Konstitusiya Məhkəməsi) müraciət edərək, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilən materiallara münasibətdə məhkəmə nəzarətini həyata keçirən məhkəmənin səlahiyyətlərini müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra — CPM) 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Qəbələ rayon Məhkəməsinin icraatına CPM-in 445.2-ci maddəsinin tələblərinə uyğun olaraq Qəbələ rayon polis şöbəsi tərəfindən "Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair" 8 iyul 2014-cü il tarixli qərar və bu qərar əsasında həmin tarixdə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə bağlı "Baxış keçirilməsi haqqında" iki protokol daxil olmuşdur.

Müraciətedənin fikrincə, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların sübut kimi qəbul və istifadə edilməsinə yalnız həmin materialların cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun təqdim edilməsi və yoxlanılması şərti ilə yol verilir (CPM-in 137-ci maddəsi). Bu isə CPM-in 445.2-ci maddəsinə əsasən əməliyyat-axtarış tədbirinin aparılması barədə qərarın məhkəməyə sadəcə məlumatlandırmaq üçün təqdim edilməsini deyil, həm də məhkəmənin əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilmiş materiallar üzrə müvafiq tədbirin keçirilməsinin qanuniliyini yoxlamaq səlahiyyətini nəzərdə tutur. Əməliyyat-axtarış materiallarının təqdim edilməsi və yoxlanılması qaydaları isə cinayət-prosessual qanunvericiliyində müəyyən edilməmişdir.

Qeyd edilənlərə əsaslanaraq, Qəbələ rayon Məhkəməsi CPM-in 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin hədləri baxımından şərh edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi vacib hesab edir.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri də məhkəmə-hüquq islahatlarıdır. Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra — Konstitusiya) ali dəyər olan insan və vətəndaş hüquq və azadlıqlarının təminatında məhkəmələrin rolu xüsusi qeyd olunmuşdur. Hüquqi dövlətdə insan hüquqlarının məhdudlaşdırılması yalnız qanun

əsasında mümkündür. İnsan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarəti isə məhkəmələr həyata keçirirlər.

Məhkəmə nəzarəti cinayət-prosessual qanunvericiliyi sahəsində əsasən məhkəməyədək icraat mərhələsində öz funksional yükönü daşıyır. Məhkəmə nəzarəti cinayət-prosesi çərçivəsində təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun fəaliyyəti nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilələrin qarşısını almağa, pozulmuş hüquqların bərpasına xidmət edən məhkəmə fəaliyyətinin müstəqil növüdür.

Məhkəmə nəzarətinin hüquqi əhəmiyyəti Konstitusiya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə müəyyən edilir.

Konstitusiyanın 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyinin məhkəmələr tərəfindən həll edilməsi məhz Konstitusiyanın 71-ci maddəsinin VII hissəsindən irəli gəlir. Belə ki, Konstitusiyanın həmin normasına görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Hər kəs əmin olmalıdır ki, dövlət orqanları tərəfindən hər hansı qanuni təqib həyata keçirilirsə, həmin fəaliyyətə müstəqil məhkəmə orqanı tərəfindən nəzarət mövcuddur.

Bununla yanaşı, ayrı-ayrı konstitusiya normalarında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasında məhkəmə nəzarətinin vacibliyi xüsusi qeyd edilir. Məsələn, Konstitusiyanın 33-cü maddəsinin II hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə hez kəs mənzilə daxil ola bilməz.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra — Konvensiya) 5-ci maddəsində azadlıq və toxunulmazlıq hüququnun təminatında məhkəmə nəzarətinin vacibliyi birbaşa vurğulanmışdır.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində məhkəməyədək icraat mərhələsində məhkəmə nəzarəti nisbətən yeni institutdur. Prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarəti məhkəməyədək icraat mərhələsində ibtidai araşdırma subyektlərinin fəaliyyətinin insan hüquq və azadlıqlarına qanunsuz müdaxiləsinin qarşısının alınmasına yönəlmişdir. Prokuror nəzarəti ümumilikdə təhqiqat

və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunçuluğa riayət edilməsinə yönəldiyi halda, məhkəmə nəzarəti əməliyyat-axtarış fəaliyyəti subyektləri tərəfindən insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyi, əsaslılığı, mütənasibliyi, məqsədəmüvafiqliyi və təxirəsalınmazlığının yoxlanılması funksiyasını daşıyır.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli Qanununa (bundan sonra — "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun) əsasən əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti prokuror nəzarətindən fərqli olsa da, onlar arasında oxşar cəhətlər də mövcuddur.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 20-ci maddəsinin I hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər. Həmin maddənin IV və V hissələrinə görə əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

Belətrial, məhkəmə nəzarəti ilə prokuror nəzarəti arasında nəzarətin predmeti baxımından fərqlilik müşahidə olunsa da, əməliyyat-axtarış fəaliyyətinin spesifik xüsusiyyətlərini nəzərə alaraq, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 20-ci maddəsinin IV və V hissələrinin tələblərini məhkəmə nəzarəti fəaliyyətinə də aid etmək olar.

Məhkəmə prosessual funksiyaların bölüşdürülməsi prinsipini rəhbər tutaraq, əməliyyat-axtarış və ya ibtidai araşdırma subyektlərinin fəaliyyəti sahəsində bütövlükdə qanunçuluğa nəzarət etmək vəzifəsini daşımır. Belə ki, cinayət barədə məlumatların qeydiyyatı, ibtidai araşdırmanın başlanması haqqında qərar və ya digər insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olmayan prosessual tədbirlər məhkəmə nəzarətinin predmeti ola bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 5 avqust 2009-cu il tarixli Qərarında qeyd edilmişdir ki, məhkəmə nəzarəti icraatında məhkəmə əsasən iki vəzifə daşıyır: cinayət təqibi üzrə müvəkkil edilmiş orqanlar və vəzifəli şəxslər tərəfindən edilən ayrı-ayrı hərəkətlərin və qəbul olunan qərarların qanuniliyinin

təmin olunması; cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının qorunması (əsassız və qanunsuz məhdudlaşdırılmasının istisna edilməsi, hüquqların pozulmasına son qoyulması və pozulmuş hüquqların bərpası).

Beləliklə, prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarətinin predmetini — insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı təşkil edir.

Qeyd edildiyi kimi, məhkəmə nəzarəti Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nisbətən yeni institutdur. 2000-ci il 1 sentyabr tarixindən qüvvəyə minmiş CPM-in 442.2-ci maddəsi məhkəmə nəzarətinin obyektini müəyyən edərək göstərir ki, məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə aşağıdakılara baxır: hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, mülkiyyət hüququnu, şəxsi sirrinin (o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara, bununla yanaşı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlərə.

Məhkəmə nəzarəti sahəsinə aid olan məsələlər, habelə onların həyata keçirilməsi qaydası CPM-in 443-454-cü maddələri ilə müəyyən edilir. Bu maddələr cinayət prosesində istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, habelə əməliyyat-axtarış tədbirinin keçirilməsi halında mütləq qaydada məhkəmə nəzarətinin mövcudluğunu nəzərdə tutur.

Bununla yanaşı, əməliyyat-axtarış fəaliyyətinin əsasları “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanun ilə tənzimlənir. Bu Qanun insanların konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönələn hər hansı bir əməliyyat-axtarış tədbirinin yalnız məhkəmənin qərarı əsasında keçirilməsini və ya keçirildikdən dərhal sonra məhkəməni həmin tədbir haqqında məlumatlandırmağı nəzərdə tutur.

trial Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra — Avropa Məhkəməsi) bir sıra qərarlarında məhkəmə nəzarətinin vacibliyini vurğulamışdır. Belə ki, Avropa Məhkəməsi Xudobin Rusiyaya qarşı iş üzrə 26 oktyabr 2006-cı il tarixli Qərarında bildirmişdir ki, istintaq tədbirlərinə sanksiya verən, nəticələrini öncədən görmək

mümkün olan aydın prosedur mövcud olmalı, eləcə də həmin tədbirlərə lazımi qaydada nəzarət təşkil edilməlidir ki, hakimiyyət orqanlarının vicdanlı davranması və hüquqa zidd olmayan hüquq mühafizə məqsədlərinə riayət edilməsi təmin olunsun. Eyni hüquqi mövqe Avropa Məhkəməsinin Klass və başqaları Almaniyaya qarşı iş üzrə 6 sentyabr 1978-ci il, Lüdi İsvezrəyə qarşı iş üzrə 15 iyun 1992-ci il tarixli Qərarlarında da ifadə edilmişdir.

Avropa Məhkəməsi öz qərarlarında göstərir ki, əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti sui-istifadənin qarşısının alınmasına və qüvvənin mütənasib istifadəsinə nəzarət edir. Avropa Məhkəməsi Uzun Almaniyaya qarşı işi üzrə 2 sentyabr 2010-cu il tarixli Qərarında bildirmişdir ki, şübhəli şəxslərin avtomobilində quraşdırılan və güdmə funksiyasını daşıyan GPS (qlobal təsvir sistemi) hazırlanan cinayətin qarşısının alınması məqsədi ilə məhkəmə nəzarəti altında istifadə edildiyinə görə adekvat və effektiv təminatlarla aparılıb. Bu isə istifadə olunan əməliyyat-axtarış tədbirlərinin aparılmasında sui-istifadənin qarşısının alınması üçün faydalı vasitədir.

Məhkəmə nəzarətinin mövcudluğu, ilk növbədə, əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin mövcudluğunu ifadə edir. Avropa Məhkəməsi Avropaya inteqrasiya və insan hüquqları naminə Assosiasiya və Ekimciyeva Bolqarıstana qarşı iş üzrə 28 iyun 2007-ci il tarixli Qərarında qeyd etmişdir ki, məxfi müşahidənin tətbiqinə ümumi nəzarətin bilavasitə xüsusi vasitələrin tətbiq edilməsini həyata keçirən daxili işlər orqanlarına həvalə edilməsi nəticə etibarı ilə əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin olmadığını bildirir, bu isə Konvensiyanın 8-ci maddəsinin tələblərinin pozulduğunu göstərir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət prosesində istifadə olunan əməliyyat-axtarış fəaliyyətinin nəticələri iki yolla əldə oluna bilər: 1) məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində; 2) əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan həmin tədbir barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində.

Birinci halda, məhkəmə qərarının əvvəlcədən alınması qaydasında əməliyyat-axtarış fəaliyyətinin aparılmasına məhkəmə nəzarətinin həcmi (həddi) problemi təcrübədə hər hansı mübahisə yaratmır. CPM-in 446.4-cü maddəsindən görünür ki, istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar vəsatətə əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə,

ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Qanunverici əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın rəhbərinin vəsatətinin əsaslandırılması üçün bir sıra tələblər irəli sürür. Məsələn, vəsatətdə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmalı, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu və digər əhəmiyyətli məlumatlar göstərilməlidir.

Əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın vəsatətində qeyd olunan müddəalar əsaslandırılmaqla prokurora təqdim edilir. Prokuror öz növbəsində əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi haqqında materialları nəzərdən keçirməklə müvafiq qərar qəbul edir, yəni vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarır, yaxud zəruriliyini təsdiq edən materialları vəsatətə əlavə etməklə müvafiq qərarın qəbul edilməsi üçün məhkəməyə təqdimat göndərir.

Beləliklə, məhkəmənin razılığı ilə aparılan tədbirlərə dair məhkəmə nəzarətini həyata keçirən hakimin qanunvericiliklə müəyyən edilən səlahiyyətləri kifayət qədər genişdir. Əvvəla, məhkəmənin razılığını almaq məqsədi ilə qaldırılan vəsatətə istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Göründüyü kimi, CPM-də əməliyyat-axtarış tədbirləri keçirilərkən şəxsi toxunulmazlıq, yazışma, telefon danışıqları, poçt, teleqraf və poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, eləcə də mənzil toxunulmazlığı barədə hər bir kəsin konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına dair materiallara məhkəmə qaydasında baxılması nəzərdə tutulmuşdur. Məhkəmə nəzarəti qaydasında daxil olan əməliyyat-axtarış sənədlərində göstərilən məlumatların məxfiliyinin təmin edilməsi üçün məhkəmədə şərait yaradılır.

CPM-in 448-ci maddəsinə görə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim müvafiq əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verir və ya onun keçirilməsindən imtina edir, bu

barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar əməliyyat-axtarış tədbirinin keçirilməsinin təşəbbüskarına verilir və təqdim olunmuş materiallar geri qaytarılır. Eyni zamanda, məhkəmə nəzarəti qaydasında qəbul edilən qərar hakim tərəfindən tam əsaslandırılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Qəbələ rayon Məhkəməsinin müraciəti araşdırılarkən müəyyən edilmişdir ki, təxirəsalınmaz tədbirlərin keçirilməsindən sonra məhkəmə nəzarəti qaydasında keçirilmiş tədbirlər barəsində məhkəməni məlumatlandırmaq qaydası təcrübədə fərqli tətbiq edilir. Bunun səbəbi isə ilk növbədə, qanunu tətbiq edən subyektlərin normanın tələblərinə tam formal yanaşmasıdır. Belə ki, CPM-in 445.2-ci maddəsinin tələblərinə görə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda CPM-in 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

CPM-in qeyd edilən norması əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqandan məhkəmə nəzarəti qaydasında, formal olaraq müvafiq tədbir keçirildikdən sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə yalnız əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə təqdim etməsini tələb edir.

Məsələyə formal cəhətdən yanaşıldığı təqdirdə məhkəmə yalnız həyata keçirilmiş əməliyyat-axtarış tədbirinin zəruriliyini və qanuna uyğun aparıldığını yoxlamaqla müvafiq qərar çıxarmalıdır. Bu qərarın surəti əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqana və ibtidai istintaqa rəhbərlik edən prokurora göndərilir. Gələcəkdə işə mahiyyəti üzrə baxılarkən bu əməliyyat tədbirinin nəticələrinə ümumi qaydada baxılır. Yəni digər sübutlar kimi əməliyyat-axtarış tədbirlərinin nəticələri də yoxlanılıb qiymətləndirilir.

Məhkəmə nəzarətinin formal olması məhkəmə nəzarəti funksiyasını "passiv legitimləşdirmə" fəaliyyətinə oxşar edə bilər. Bu terminin izahı ətrafı olaraq Konstitusiya Məhkəməsi Plenumunun "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azər-

baycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair" 19 may 2014-cü il tarixli Qərarında verilmişdir. Lakin məhkəmə qarşısında məhkəməyədək mərhələdə nəzarətə dair xüsusi prosessual vəzifə — insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilənin qarşısının alınması vəzifəsi qoyulmuşdur.

Nəzərə alınmalıdır ki, məhkəmə nəzarətinin obyekti iki əsas elementdən ibarətdir: 1) konstitusiya hüquq və azadlıqlarının qorunması; 2) həmin hüquq və azadlıqların qorunması ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı. Bu elementlərə nəzarətin təminatı üçün məhkəmələrin kifayət qədər məhkəmə nəzarəti funksiyalarını həyata keçirmək səlahiyyətləri olmalıdır.

CPM-in 143.2-ci maddəsində qeyd edilir ki, məhkəmə cinayət prosesi tərəfərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.

Məhkəmənin bu səlahiyyətləri sübutların toplanması prosesinə aiddir. Əməliyyat-axtarış tədbirlərinin məhkəmə nəzarəti altında aparılması isə sonda həmin tədbirin nəticələrinin cinayət-prosessual qaydada sübut qismində istifadəsinə əsas verir. Beləliklə, məhkəmələr sübutların gələcək məhkəmə prosesində faydalı və obyektiv istifadəsini təmin etmək məqsədi ilə məhkəməyədək mərhələdə məhkəmə nəzarəti funksiyasının geniş və hərtərəfi aparılmasında səlahiyyətli olmalıdırlar.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hakim məhkəməyə qədər mərhələdə məhkəmə nəzarətini həyata keçirən zaman aşağıdakı səlahiyyətlərə malikdir:

- əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə vermək və tədbirin keçirilməsinə dair qaldırılan vəsatəti təmin etmək və ya etməmək;
- şəxsin konstitusiya hüquq və azadlıqlarının qanuni məhdudlaşdırılması haqqında qərarın qüvvədə olma müddətini uzatmaq;
- əməliyyat-axtarış tədbirinin keçirilməsinin əsaslarına dair əlavə materialları tələb etmək;

- hüquq və azadlığı məhdudlaşdırılan şəxsi dinləmək və ehtiyac olduğu halda (Əməliyyat-axtarış tədbirlərinin gizli və ya aşkar keçirilməsindən asılı olaraq) ərizəçini ona qarşı aparılan əməliyyat-axtarış tədbirlərinin səbəbləri haqqında məlumatlandırmaq;

- şəxsin konstitusiya hüquq və azadlıqlarının təminatı məqsədi ilə digər tədbirlər görmək.

Nəzərə alınmalıdır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində və ya əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan bunun barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində əldə edilməsindən asılı olmayaraq, həmin tədbirlərin keçirilməsinə məhkəmə nəzarətinin hədləri dəyişilməzdir. Öz növbəsində, məhkəmə nəzarəti qaydasında keçirilən yoxlamanın nəticəsində məhkəmələr müvafiq qərar qəbul edirlər. Məhz bu baxımdan, məhkəmələr əməliyyat-axtarış tədbiri keçirildikdən sonra məhkəmə nəzarəti qaydasında həmin tədbirin insan hüquq və azadlıqlarının təminatı baxımından qanuni, əsaslı, mütənasib, məqsədəmüvafiq və təxirəsalınmaz keçirilməsini yoxlayaraq CPM-in 448-ci maddəsinə əsasən müvafiq qərar qəbul etməlidirlər.

Qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- CPM-in 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalı və ehtiyac olduğu halda əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər;

- əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanuna uyğun əldə olunduqda və CPM-in tələblərinə uyğun təqdim edildikdə və məhkəmə nəzarəti qaydasında ət-rafı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu

## QƏRARA ALDI:

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalıdır, ehtiyac olduğu halda isə əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər.

2. Əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə, habelə məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski rabozi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz

**Sədr**
**Fərhad Abdullayev**
Bakı şəhəri, 12 fevral 2015-ci il

**“Dövlət qeydiyyatına alınmışdır”**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi
Qeydiyyat № 3464
“26” avqust 2009-cu il
trial ____________ Fikrət Məmmədov

## Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə TƏLİMAT (çıxarılış)

### 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrinə, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “İnformasiya əldə etmək haqqında” Qanunlarına və digər normativ hüquqi aktlara əsasən hazırlanmış, kriminal və axtarış xarakterli məlumatların toplanması, işlənilməsi, mühafizəsi və istifadəsi qaydalarını müəyyən edir.

1.2. Mərkəzləşdirilmiş kriminal və axtarış uçotları cinayətlərin, o cümlədən xüsusi təhlükəli, silsilə və bölgə xüsusiyyətli cinayətlərin açılması və qarşısının alınması işində köməklik göstərmək məqsədilə formalaşır. Uçotların informasiya bazasını cinayətin kriminoloji xarakteristikasına daxil olan məlumatlar təşkil edir.

1.3. Uçotlarda olan məlumatlar hüquq-mühafizə orqanlarının istintaq, əməliyyat-axtarış və kriminalistik fəaliyyətlərində istiqamətləndirici, diaqnostik material və identifikasiya məqsədilə istifadə olunur.

1.4. Mərkəzləşdirilmiş uçot - uçotun obyektləri barədə informasiyanın Avtomatlaşdırılmış Məlumat Bankında əks edilməsidir.

Avtomatlaşdırılmış Məlumat Bankı (AMB) uçot obyektləri barədə tərtib olunmuş uçot sənədləri əsasında DİN-in Baş əməliyyat və Statistik İnformasiya İdarəsində (BƏSİİ) formalaşır.

1.5. Mərkəzləşdirilmiş kriminal uçotun obyektləri aşağıdakılardır :

- ağır və xüsusilə ağır cinayətlər və onları törədən şəxslər ;
- silsilə və ya bölgə xüsusiyyətli cinayətlər və onları törədən şəxslər ;
- xarakterik üsulla törədilən cinayətlər və onları törədən şəxslər.

1.6. Mərkəzləşdirilmiş axtarış uçotun obyektləri aşağıdakılardır :

- talanmış və ya müsadirə edilmiş nömrəli sənədlər (qiymətli kağızlar, şəxsiyyət vəsiqəsi, pasport, diplom, attestat, viza sənədlərinin nömrəli blankları, plastik kartlar və digər) və əşyalar ;
- talanmış, itirilmiş və aşkar edilmiş silahlar, düyüş sursatlar ;
- axtarışda olan nəqliyyat vasitələri ;
- talanmış və ya müsadirə edilmiş elmi-texniki, ədəbi-bədii və mədəni-tarixi sərvətlər sayılan əşyalar ;

**Qeyd:** Təqsirləndirilən, itkin düşmüş şəxslərin, mülki-hüquqi öhdəliklərin icrasından yayınan borcluların, naməlum meyitlərin, səhhətinə və ya yaşına görə üzləri haqqında məlumat verə bilməyən şəxslərin mərkəzləşdirilmiş uçotunun aparılması qaydaları hüquq-mühafizə orqanlarının birgə əmri ilə təsdiq olunmuş "Axtarışda olanların, naməlum meyitlərin, səhhəti və yaşına görə üzləri haqqında məlumat verə bilməyən şəxslərin vahid uçotunun təşkili və aparılması qaydaları barədə" Təlimatla müəyyən edilir.

1.7. AMB-ni formalaşdıran uçot sənədləri təhqiqatçı, müstəntiq, əməliyyat aparatının (hissəsinin) əməkdaşı və digər səlahiyyətli şəxslər tərəfindən iki nüsxədə tərtib olunaraq kartotekalara yerləşdirilməsi üçün DİN BƏSİİ-yə və ərazi polis orqanına göndərilir.

Cəzaçəkmə yerindən azadlığa buraxılmış şəxsə dair penitensiar müəssisəsi tərəfindən tərtib olunmuş uçot sənədinin bir nüsxəsi yaşayış yeri üzrə ərazi polis orqanına göndərilir.

1.8. Uçot sənədlərinin doldurulması, müvafiq kartotekalara yerləşdirilməsi (düzülüşü, ardıcıllığı) və Avtomatlaşdırılmış Məlumat Bankına daxil edilməsi qaydaları metodiki vəsaitlərlə müəyyən olunur.

1.9. Uçot sənədlərinin doldurulmasına təhqiqat və istintaq orqan rəislərinin əmri ilə bu işin aparılması üçün təyin edilmiş əməkdaşlar məsuliyyət daşıyırlar.

Uçot sənədləri, habelə sorğular kompüter vasitəsilə və ya makinada çap olunmalıdır.

1.10. DİN BƏSİİ rəhbərliyinin qərarı ilə xüsusi əhəmiyyət kəsb edən uçot materiallarının saxlanılması müddətləri uzadıla bilər.

1.11. Avtomatlaşdırılmış Məlumat Bankına sorğuların hazırlanması, qeydiyyatı və göndərilməsi işi ümumi kargüzarlıq qaydalarına uyğun həyata keçirilir.

1.12. Mərkəzləşdirilmiş kriminal və axtarış uçotları üzrə sorğuların imzalanması hüququ aşağıdakı şəxslərə verilir :

- Azərbaycan Respublikasının Daxili İşlər, Ədliyyə, Milli Təhlükəsizlik, Müdafiə, Fövqəladə Hallar, Vergilər nazirliklərində, Xüsusi Dövlət Mühafizə Xidmətində, Dövlət Gömrük Komitəsində, Dövlət Sərhəd Xidmətində - aidiyyəti baş idarə, idarə (şöbə) rəisləri və onların müavinləri, həmçinin Naxzıvan MR-də müvafiq orqanların rəisləri və onların müavinləri ;
- qeyd olunan mərkəzi icra hakimiyyəti orqanlarının tabeliyində olan təhqiqat və istintaq orqanlarının (regional, şəhər, rayon) rəisləri və onların müavinləri;
- prokurorlar, onların müavinləri, köməkçiləri ;
- hakimlər.

1.13. Təcili sorğuların imzalanması hüququ həmçinin yaradılmış istintaq-Əməliyyat qruplarının rəhbərlərinə verilir.

1.14. AMB-də toplanan məlumatlar DİN sistemində məlumat-axtarış səpgili informasiyaları cəmləşdirən Vahid Avtomatlaşdırılmış Məlumat Axtarış Sisteminin informasiya ehtiyat resurslarına daxil edilir.

1.15. Bu uçotlarda saxlanan məlumatlar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətlərə verilə bilər.

1.16. Sorğuların təqdim etmə və icrası qaydaları.

1.16.1. Sorğular sərbəst formada aşağıdakı vasitələrlə həyata keçirilir :

- teleqram ;
- şifrteleqram ;
- əsaslandırılmış məktub-müraciətlər (yazılı və ya elektron sənədlə).

Teleqram və şifrteleqram şəklində göndərilən təcili sorğular daxili işlər orqanlarında müəyyən edilmiş qaydalar əsasında icra olunaraq cavablandırılır.

1.16.2. Sorğular məzmununa görə yalnız uçot sənədində olan rekvizitlər üzrə və ya statistik xarakterli ola bilər.

1.16.3. DİN BƏSİİ-yə daxil olan sorğular 7 iş günündən gec olmayaraq, təcili sorğular isə 1 gün ərzində icra edilir.

Sorğu mürəkkəb və ya böyük həcmli olduqda DİN BƏSİİ-nin rəhbərliyi sorğunun icra müddətini əlavə olaraq 7 iş gününə qədər uzada bilər.

1.17. Uçot obyektləri barədə alınmış məlumatların məqsədi üzrə istifadə edilməməsinə görə sorğu vermiş vəzifəli şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

1.18. Bu Təlimatla müəyyən olunmuş uçot məlumatları ilə işləyən əməkdaşlara qadağan olunur :

- saxlama müddətləri bitməyən uçot sənədlərinin kartotekadan çıxarılması ;
- rejimli obyektlərə kənar şəxslərin buraxılması, xüsusi mühafizəsi təşkil edilməyən otaqlarda kağız və ya maqnit daşıyıcılarda olan informasiyanın saxlanılması;
- informasiyanın aidiyyəti olmayan şəxslərə verilməsi.

1.19. Qanunvericiliyin tələblərinə uyğun mühafizəsi və təhlükəsizliyi təmin olunmamış avtomatlaşdırılmış informasiya sistemlərinin ehtiyat resurslarına kriminal və əməliyyat-axtarış xarakterli məlumatların daxil edilməsi qadağandır.

1.20. Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkilinə və aparılmasına nəzarət.

1.20.1. Təhqiqat və istintaq orqanlarının rəhbərləri :

a) bu Təlimatın tələblərinin icrasını təmin edir ;

b) uçot sənədlərinin Təlimatın tələblərinə uyğun qaydada tərtib edilməsi və müəyyən olunmuş müddətlərdə DİN BƏSİİ-yə göndərilməsinə nəzarət edir ;

c) bu sahədə uçot-qeydiyyat intizamının vəziyyətini mütəmadi araşdırır və uçot obyektlərinin mərkəzləşdirilmiş uçotunu təmin etməyən, məlumatların təhrifinə yol verən əməkdaşların məsuliyyətə cəlb olunması məsələsini həll edir;

1.20.2. DİN BƏSİİ :

a) Təlimatın tələblərinə uyğun mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkilinə və aparılmasına nəzarət edir ;

b) avtomatlaşdırılmış məlumat bankının fəaliyyətini təmin edir ;

c) uçot materiallarının dolğunluğuna və keyfiyyətinə nəzarət edir ;

z) digər informasiya sistemlərində toplanan məlumatlar üzrə üzləşdirmələr aparır və müvafiq tədbirlər görür ;

d) uçotun təmin edilməsi sahəsində aşkar olunan nüqsanlar barədə orqan rəhbərlərini məlumatlandırır.

1.21. Uçot subyektlərinin müvafiq uçot sənədləri ilə mərkəzləşdirilmiş təminatını DİN-in Katibliyinin Mətbəəsi həyata keçirir.

## 2. Təqsirləndirilən, məhkum edilmiş şəxslərin və cinayətlərin mərkəzləşdirilmiş kriminal uçotu

*2.1. Uçotun təyinatı*

Təqsirləndirilən, məhkum edilmiş şəxslərin və cinayətlərin mərkəzləşdirilmiş kriminal uçotu hüquq-mühafizə orqanları tərəfindən əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin keçirilməsində informasiya təminatı məqsədilə aparılır.

*2.2. Uçotun obyektləri*

2.2.1. Ağır və xüsusilə ağır cinayətlər, habelə onların törədilməsində təqsirləndirilən və məhkum edilmiş şəxslər uçotun obyektləri sayılır.

Uçota alınmalıdır :

a) ağır və xüsusilə ağır, silsilə və ya bölgə xüsusiyyətli, habelə xarakterik üsulla törədilmiş cinayətlər ;

b) aşağıdakı xüsusatlı şəxslər :

- ağır və ya xüsusilə ağır cinayət törədənlər, həmçinin cinayətin residivini yaradanlar ;

- mütəşəkkil dəstə və ya cinayətkar birliyinin təşkilatçıları, rəhbərləri və iştirakçıları;

- silsilə və ya bölgə xüsusiyyətli, habelə xarakterik üsulla cinayət törədənlər.

*2.3. Uçota alınmanın, uçotdan çıxarılmanın, həmçinin məlumatlara dəyişikliklərin edilməsinin əsasları.*

Cinayətlər və onları törədən şəxslər üzrə :

a) cinayət işinin başlanması barədə qərar ;

b) cinayət işinin ayrılması barədə qərar ;

c) cinayət işinin birləşdirilməsi barədə qərar ;

ç) cinayət işinin aidiyyəti üzrə göndərilməsi barədə qərar ;

d) təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar ;

e) cinayət işi üzrə icraatın dayandırılması barədə qərar ;

ə) həbs qətimkan tədbirinin seçilməsi barədə məhkəmənin qərarı ;

f) axtarış işinin açılması barədə qərar ;

g) cinayət işi üzrə icraata xitam verilməsi barədə qərar ;

ğ) məhkəmənin hökmü və ya digər yekun qərarları.

*2.7. Uçot sənədlərinin saxlanılması müddətləri*

2.7.1. Şəxslərə dair uçot sənədləri Daxili İşlər Nazirliyinin 25.11.2002-ci il tarixli 439 №-li və Ədliyyə Nazirliyinin 30.12.2002-ci il tarixli 36 №-li birgə əmri ilə qüvvəyə minmiş və 07.01.2003-cü il tarixdə 2952 nömrə ilə dövlət qeydiyyatına alınmış "Cinayət törətmiş, məhkum olunmuş şəxslərin mərkəzləşdirilmiş fərdi uçotu üzrə əməliyyat-sorğu kartotekalarının aparılması və onlara dair məlumatların verilməsi qaydaları barədə" Təlimata uyğun olaraq saxlanılır.

2.7.2. Açılmamış cinayətlərə dair tərtib olunmuş uçot sənədləri daima saxlanılır.

2.7.3. Açılmış cinayətlərə dair uçot sənədləri uçota alınan gündən etibarən 15 il müddətində saxlanılır.

## 3. Talanmış və müsadirə edilmiş nömrəli sənədlərin və əşyaların mərkəzləşdirilmiş uçotu

*3.1. Uçotun təyinatı*

Bu uçot talanmış və müsadirə edilmiş sənəd və inventar nömrəsi olan əşyaların axtarışının təmin olunması və mənsubluğunun müəyyən edilməsi, habelə onların talanması ilə açılmamış cinayətlərin açılması məqsədilə aparılır.

*3.2. Uçotun obyektləri*

DİN BƏSİİ-nin mərkəzləşdirilmiş uçotuna talanmış və müsadirə edilmiş nömrəli əşyalar, o cümlədən soyuq silahlar (atıcı, pnevmatik), nömrəli sənədlər və nişanlar, qiymətli kağızlar alınır.

*3.3. Uçotrialınmanın əsasları*

Nömrəli sənədlər və əşyalar cinayət işinin başlanması barədə qərara əsasən mərkəzləşdirilmiş uçota alınır.

## 4. Talanmış, itirilmiş və ya aşkar edilmiş silah və düyüş sursatların mərkəzləşdirilmiş uçotu

*4.1. Uçotun təyinatı*

Bu uçot talanmış və itirilmiş silahın axtarışının təmin edilməsi, aşkar edilmiş silahın mənsubluğunun müəyyən edilməsi və onların istifadəsilə törədilmiş cinayətlərin açılması məqsədilə aparılır.

*4.2. Uçotun obyektləri*

İstehsalzı müəssisə tərəfindən və ya icazə sistemində qeydiyyata alınarkən verilmiş fərdi nömrəsi olan talanmış, itirilmiş və aşkar edilmiş (müsadirə edilmiş, tapılmış, könüllü təhvil verilmiş) silahların aşağıdakı növləri uçota alınır:

- istifadəsinə görə yararlı atıcı, xidməti, mülki (ov və idman) yivli və yivsiz bütün növ odlu silahlar ;
- qumbaraatanlar ;
- od püskürənlər ;
- artilleriya sistemləri ;
- qaz silahları ;
- fərdi nömrəsi olan düyüş sursatları və partlayıcı qurğular ;
- xüsusi qurğular (məsələn, atıcı kəşfiyyat bızağı).

**Qeyd :** vətəndaşların və təşkilatların sərəncamlarında olan odlu silahlar daxili işlər orqanlarına təhvil verilərkən, habelə mənsubluğu (sahibi) bəlli olan aşkar olunmuş silahlar uçota alınmır.

*4.3. Uçota alınmanın əsasları*

Bu Təlimatın 4.2. bəndində göstərilən silah və sursatların talanması, itirilməsi və ya aşkar olunması faktının nəzərdə tutulmuş qaydada qeydə alınması həmin silahların uçota alınmasına əsasdır.

*4.5. Uçot sənədlərinin tərtib edilməsi və DİN BƏSİİ-yə göndərilməsi qaydaları*

4.5.1. Talanmış, itirilmiş və aşkar edilmiş (müsadirə edilmiş, tapılmış, könüllü təhvil verilmiş) silaha dair ərizə (məlumat) daxil olduqda təhqiqatçı, müstəntiq və ya əməliyyat aparatının (hissəsinin) əməkdaşı tərəfindən uçot sənədi tərtib olunaraq aidiyyəti üzrə göndərilir.

4.5.2. Silahın üzərində nömrənin, seriyanın, buraxılış ilinin silinməsi və ya düydürmə izləri müəyyən edildikdə, yaxud qeyd edilən göstəricilər oxunmadıqda həmin

trial göstəricilərin müəyyən edilməsi məqsədi ilə DİN-in ekspert-kriminalistik qurumlarına göndərilir.

4.5.5. Odlu silahın talanması, itirilməsi və ya aşkar edilməsi barədə məlumatın daxil olduğu vaxtdan və ya silahın üzərindəki göstəricilərin müəyyən edilməsi üçün ekspert-kriminalist qurumlarından daxil olan cavabdan sonrakı 2 gün ərzində uçot sənədləri tərtib olunaraq aidiyyəti üzrə göndərilir.

4.5.6. Xarici dövlətin ərazisində talanmış, itirilmiş və aşkar edilmiş odlu silah və digər sursatların mərkəzləşdirilmiş uçota alınmasına əsas Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosundan daxil olan məlumatdır.

Aparılan kartoteka aşağıdakı bölmələrdən ibarətdir :

- tüfənglər, karabinlər ;
- avtomatlar ;
- pulemyotlar ;
- tapanza və revolverlər ;
- yivli ov tüfəngləri ;
- qumbaraatanlar, od püskürən, artilleriya qurğuları ;
- yivsiz silahlar ;
- qaz tapanzaları ;
- fərdi nömrəsi olan düyüş sursatları ;
- artilleriya qurğu və sistemləri.

## 5. Axtarışda olan nəqliyyat vasitələrinin mərkəzləşdirilmiş uçotu

*5.1. Uçotun tətrialı*

Bu uçot istehsalzı-müəssisənin nömrəli markirovkası olan mənsubluğu müəyyən edilməyən və ya axtarışda olan nəqliyyat vasitələri barədə məlumatların toplanması, sistemləşdirilməsi, saxlanılması, işlənilməsi və müəyyən olunmuş qaydalar əsasında verilməsi məqsədilə aparılır.

Qeyd olunan uçotda daxili işlər, prokurorluq, milli təhlükəsizlik, sərhəd mühafizə, gömrük, vergi, ədliyyə və məhkəmə orqanları tərəfindən axtarılan nəqliyyat vasitələri barədə məlumatlar toplanır.

*5.2. Uçotun obyektləri*

Aşağıda göstərilən axtarışda olan nəqliyyat vasitələri mərkəzləşdirilmiş uçota alınır :

- minik və yük avtomobilləri ;
- avtobuslar ;
- traktorlar ;
- üzügedən maşınlar ;
- motosikletlər ;
- motorollerlər ;
- motoarabalar ;
- qoşqular

*5.3. Uçota alınmanın əsasları və qaydaları*

5.3.1. Nəqliyyat vasitəsinin talanması, qanunsuz ələ keçirilməsi və ya cinayətin törədilməsində istifadəsi barədə əməliyyat və əsas məlumatlar mərkəzləşdirilmiş uçota alınır.

**Əməliyyat məlumatı** cinayət işinin başlanılmasına qədər, **əsas məlumat** isə müstəntiqin (təhqiqatçının) icraatında olan cinayət işi üzrə nəqliyyat vasitəsinin axtarışı barədə məlumatdır.

Ərazi polis orqanları tərəfindən DİN-in Növbətzi Hissələri İdarəetmə Xidmətinə verilən əməliyyat məlumatında hüquqpozmanın fabulası (oğurluq, quldurluq, soyğunzuluq, qanunsuz ələ keçirmə, yol-nəqliyyat hadisəsi zamanı nəqliyyat vasitəsinin atıb getməsi və s.), nəqliyyat vasitəsinin dövlət qeydiyyat nömrə nişanı, identifikasiya markası, modeli, istehsal ili, mühərrikin modeli və nömrəsi, şassi nömrəsi, ban (qoşqunun) nömrəsi və xüsusi əlamətləri (zədələnməsi, təmir izləri, yapışdırılmış şəkillər və əlavə qurğular), axtarış aparan orqan barədə məlumatlar öz əksini tapmalıdır.

DİN-in Növbətzi Hissələri İdarəetmə Xidmətində hazırlanan gündəlik "Əməliyyat məlumatı"na əsasən nəqliyyat vasitələrin talanması və qanunsuz ələ keçirilməsi ilə bağlı məlumatlar DİN BƏSİİ-nin mərkəzləşdirilimiş uçotuna alınır.

## 6. Talanmış və ya müsadirə edilmiş elmi-texniki, ədəbi-bədii və mədəni-tarixi sərvətlər sayılan əşyaların mərkəzləşdirilmiş uçotu

*6.1. Uçotun təyinatı*

Bu uçot talanmış və ya müsadirə edilmiş elmi-texniki, ədəbi-bədii və mədəni-tarixi sərvətlər sayılan əşyaların axtarışı və bununla açılmamış cinayətlərin açılması məqsədilə aparılır.

*6.2. Uçotun obyektləri*

Aşağıda göstərilən əşyalar mərkəzləşdirilmiş uçota alınır :

- xüsusi tarixi, elmi, ədəbi və mədəni dəyəri olan əşyalar, xalqın həyatında, cəmiyyətin və dövlətin tarixi inkişafı ilə bağlı əşyalar ;
- arxeoloji qazıntılar zamanı əldə edilmiş bu növ əşyalar və onların fraqmentləri ;
- əl işi sayılan şəkil və təsvirlər ;
- orijinal heykəltəraşlıq əsərləri və relyefər ;
- orijinal ədəbi kompozisiyalar və montajlar ;
- dini ayinə aid olan əşyalar, ikonalar ;
- qravyuralar, estamplar, litoqrafiyalar və onların orijinal mətbəə formaları ;
- dekorativ tətbiqi incəsənət əsərləri, habelə şüşədən, saxsıdan, metaldan, sümükdən, palçıqdan və digər materiallardan hazırlanmış sənət əsərləri ;
- ənənəvi xalq ədəbi yaradıcılığına dair əşyalar ;
- monumental incəsənət, arxitektur, tarixi abidələr və onların hissələrinin fraqmentləri ;
- ayrıca və ya kolleksiya şəklində xüsusi əhəmiyyət kəsb edən elmi, tarixi, ədəbi qədimi kitablar, dərclər ;
- nadir əlyazmalar və abidələr ;
- foto, fono, video və kino arxivləri ;
- təkrarolunmaz və nadir musiqi alətləri ;
- qədimi odlu və soyuq silahlar;
- ayrıca və kolleksiyada poçt markaları, başqa filoteliya materialları ;
- qədim sikkələr, ordenlər, mühürlər və başqa kolleksiyalı əşyalar ;
- paleontologiya elmi üçün əhəmiyyət kəsb edən fauna və foranın kolleksiyaları və nümunələri ;

- dövlət tərəfindən tarix və mədəniyyət abidəsi kimi qorunan başqa daşınar əşyalar.

**Qeyd :** müasir suvenirlər, kütləvi seriya istehsalı olan mədəni təyinatlı əşyalar uçota alınmır.

*6.3. Uçota alınmanın əsasları*

Uçot obyektinin talanması faktı üzrə cinayət işinin başlanılması haqqında qərar, habelə Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosundan daxil olan məlumat əşyanın uçota alınması üçün əsasdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

# KOLLEGİYA Q Ə R A R I

**№ 100/02/003**

**Bakı şəhəri** **“ 22 ” iyul 2014-cü il**

## “Risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi Qaydaları”nın təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli, 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11-ci bəndinə əsasən

**QƏRARA ALIR:**

1. “Risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsi (Sənan Muxtarov) təsdiq edilmiş Qaydaların 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Kollegiyanın sədri** **Aydın Əliyev**

**Dövlət Gömrük Komitəsi Kollegiyasının**
**“100/02/003” nömrəli, 22 iyul 2014-cü il tarixli**
**qərarı ilə təsdiq edilmişdir.**

## Risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə “Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2011-ci il tarixli, 499 nömrəli Fərmanı”-nın 28.7-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının gömrük orqanları (bundan sonra - gömrük orqanları) ilə aidiyyəti orqanlar arasında risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi məsələlərini tənzimləyir.

1.2. Risklərə dair məlumatlar - gömrük orqanları tərəfindən həyata keçirilən gömrük işi, əməliyyat-axtarış, təhqiqat və istintaq fəaliyyəti nəticəsində əldə edilən, habelə qanunvericiliklə nəzərdə tutulmuş müxtəlif mənbələrdən daxil olmuş gömrük qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsinə ehtimal yaradan hallar, hərəkətlər, hadisələr, şəxslər, mallar və nəqliyyat vasitələri, onların təhlil və qiymətləndirmə meyarları haqqında məlumatlardır.

1.3. Gömrük kəşfiyyatına dair məlumatlar - gömrük orqanları tərəfindən gömrük işi, Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsi, daxili bazarının qorunması və istehlakzılarının hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən fəaliyyət nəticəsində əldə edilmiş məlumatlardır.

1.4. Risklərə və gömrük kəşfiyyatına dair məlumatların mübadiləsinin hüquqi əsasını Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, əməliyyat-axtarış fəaliyyəti və dövlət sirri haqqında qanunvericilik təşkil edir.

### 2. Risklərə və gömrük kəşfiyyatına dair məlumatların mübadiləsi qaydası

2.1. Gömrük orqanları tərəfindən risklərə və gömrük kəşfiyyatına dair məlumatlar əldə edildikdə həmin məlumatlar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra - Komitə) aparatına, daha sonra Komitə rəhbərliyi tərəfindən

onun aparatının həmin məlumatın aid olduğu sahə üzrə məsul struktur bölməsinə göndərilir.

2.2. Komitənin aparatının məsul struktur bölməsi risklərə və gömrük kəşfiyyatına dair məlumatları Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsi, daxili bazarın qorunması, istehlakzıların hüquqlarının müdafiəsi baxımından təhlil edir və bu vəzifələrinin yerinə yetirilməsi üçün aidiyyəti orqanlarla həmin məlumatların mübadiləsi üçün Komitə rəhbərliyinə təklifər verir.

2.3. Komitə rəhbərliyi tərəfindən təklif məqbul hesab edildiyi təqdirdə əlaqələndirici şəxs təyin edilməklə və onlardan istifadə ilə əlaqədar şərtlər və məhdudiyyətlər müəyyənləşdirilməklə risklərə və gömrük kəşfiyyatına dair məlumatlar poçt, feldyeqer rabitəsi və ya texniki rabitə kanalları vasitəsilə aidiyyəti orqanlara göndərilir.

2.4. Aidiyyəti orqanlar öz fəaliyyət istiqamətləri üzrə hüquq və vəzifələrini həyata keçirmək məqsədilə Komitəyə risklərə və gömrük kəşfiyyatına dair məlumatların əldə edilməsi üçün sorğu göndərə bilərlər.

2.5. Komitənin aparatının məsul struktur bölməsi bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş qaydada sorğu olunan məlumatın mübadiləsinin məqsədəuyğunluğu barədə Komitə rəhbərliyinə təklif verir.

2.6. Bu Qaydalara əsasən hər hansı şəkildə verilən və ya əldə olunan məlumat məhkəmə və ya inzibati araşdırmanın aparılması zamanı istifadə də daxil olmaqla, yalnız bu Qaydalarda göstərilmiş məqsədlər üçün və məlumat verən aidiyyəti orqan tərəfindən qoyulan şərtlərə və məhdudiyyətlərə uyğun olaraq istifadə edilir.

2.7. Risklərə və gömrük kəşfiyyatına dair məlumatlar yalnız məlumat verən aidiyyəti orqanın yazılı razılığı olduqda həmin orqan tərəfindən qoyulmuş şərtlərə və məhdudiyyətlərə riayət edilməklə digər məqsədlər üçün istifadə oluna bilər.

**3. Müvafiq məxfilik dərəcəsi olan və konfidensial hesab olunan risklərə və gömrük kəşfiyyatına dair məlumatların mübadiləsi qaydası**

3.1. Müvafiq məxfilik dərəcəsi olan və konfidensial hesab olunan risklərə və gömrük kəşfiyyatına dair məlumatları alan orqan onun məxfiliyinin və konfidensiallığının qorunmasını təmin etməlidir.

3.2. Müvafiq məxfilik dərəcəsi olan və konfidensial hesab olunan risklərə və gömrük kəşfiyyatına dair məlumatların orqanlarla mübadiləsi dövlət sirri və məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması haqqında qanunvericiliyə ciddi riayət olunmaqla həyata keçirilir.

# H Ö K M
# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**25 yanvar 2017-ci il      №1(106)69/2017      Şirvan şəhəri**

**Şirvan Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası** hakimlər Dosiyev Amil Qaraxan oğlu (sədrlik edən və məruzəçi), Babayev Zəki Baba oğlu və Novruzov Ələsgər Əli İskəndər oğlundan ibarət tərkibdə, İsmayılzadə Kürdoğlu Vidadi oğlunun katibliyi, dövlət ittihamçısı Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət İttihamının müdafiəsi üzrə idarəsinin apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri Sadıqov Səyavuş Köçəri oğlunun, məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun və onun müdafiəçisi Quliyev Fədai Əli oğlunun iştirakları ilə,

Ağayev Etibar Mirnağı oğlunun Azərbaycan Respublikası CM-nin 234.4.1 və

234.4.3-cü maddələri ilə məhkum edilməsi barədə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayəti üzrə işə apellyasiya qaydasında açıq məhkəmə iclasında baxaraq,

## M Ü Ə Y Y Ə N   E T D İ

**İşin halları:**

İbtidai istintaq orqanı tərəfindən Ağayev Etibar Mirnağı oğluna Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə ittiham elan olunmuşdur ona görə ki, o, qəsdən tamah niyyəti və satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə əldə etmə, saxlama, daşıma və satma barədə şəxsiyyəti istintaqa məlum olmayan İran İslam Respublikasının vətəndaşı Əli adlı şəxslə əvvəlcədən razılaşıb cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs təşkil etmiş, bu məqsədlə 29 iyul 2015-ci il tarixdə günorta saatlarında Biləsuvar şəhərində yerləşən bazarda İran İslam Respublikasının vətəndaşı Əli adlı şəxsdən satış məqsədi ilə qa-

nunsuz olaraq xaş- xaş bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda – 1030,0 qram çəkidə narkotik vasitə tiryəki tamah niyyəti ilə əldə edib Biləsuvar şəhərində yerləşən «Zirvə» mehmanxanasının yaxınlığındakı magistral yolun kənarına qanunsuz daşıyaraq saxlamış, onun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olması barədə daxil olmuş məlumat əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbiri zamanı Etibar Ağayev 29 iyul 2015-ci il tarixdə saat 21:00-da Biləsuvar şəhərində yerləşən «Zirvə» mehmanxanasının yaxınlığındakı magistral yolun kənarında saxlanılaraq üstünə baxış keçirilərkən onun tamah niyyəti və satış məqsədi ilə qanunsuz olaraq əldə edib üzərində daşımaqla saxladığı külli miqdarda – 1030,0 qram çəkidə narkotik vasitə tiryək sağ əlindəki bir ədəd göy rəngli polietilen torbanın izərisində olan bir ədəd şəffaf sellofan torbada aşkar edilərək götürülmüşdür.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmü ilə (sədrlik edən Quliyev Nizami Fərzi oğlu, hakimlər Nuriyev Xamməd Abış oğlu və Cəlilov Oruc Yusif oğlu)

28 avqust 1980-ci ildə Biləsuvar şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, ailəli, orta təhsilli, fərdi əməklə məşğul olan, əvvəllər məhkum olunmuş, Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanında qeydiyyatda olan və həmin ünvanda yaşamış, barəsində həbs qətimkan tədbiri seçilmiş

**Ağayev Etibar Mirnağı oğlu** Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməkdə təqsirli bilinib 8 (səkkiz) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, cəzaçəkmə müddətinin əvvəli 29 iyul 2015-ci il tarixdən hesablanmış, onun barəsində seçilmiş həbs qətimkan tədbiri hökm qanuni qüvvəyə minənədək dəyişdirilmədən saxlanılması, barəsində Azərbaycan Respublikası CM-nin 93.1.2-ci maddəsinə əsasən cəza çəkdiyi müddətdə narkomaniyadan müalicə tibbi xarakterli məcburi tədbirlərin tətbiq

edilməsi, iş üzrə maddi sübut olan və Azərbaycan Respublikası DİN-nin BNMİ-nin maddi sübutların saxlanma kamerasında saxlanılan 1029,9 qram olan narkotik vasitə tiryəkin məhv edilməsi, iş üzrə 73 manat 04 qəpik ekspertiza xərcinin E.M.Ağayevdən alınıb dövlət nəfinə verilməsi hökm edilmişdir.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 hökmdən narazı qalan məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun müdafiəçisi Quliyev Fədai Əli oğlu həmin hökmdən apellyasiya şikayəti vermişdir.

## Apellyasiya şikayətinin dəlilləri:

Müdafiəçisi Quliyev Fədai Əli oğlu apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, məhkəmənin hökmünü əsassız və qanunsuz hesab edir. Hüquqlarını müdafiə etdiyi Ağayev Etibar Mirnağı oğluna qarşı qabaqcadan əlbir olan bir qrup şəxs halında satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitəni əldə etmə, saxlama və daşıma ittihamı verilmişdir. Lakin cinayət işinin ibtidai araşdırılması və eləcə də məhkəmə istintaqı zamanı müvəkkili özünü ona qarşı elan edilmiş ittiham üzrə təqsirli bilməyərək göstərmişdir ki, 29 iyul 2015-ci il tarixdə saat 15-16 radələrində evdə olarkən onun yaşadığı valideynlərinə məxsus Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanına mülki geyimli şəxslər daxil olmuş, onun və atasının əllərini qandalla bağlamış və ondan narkotik vasitənin harada gizlətməsini soruşaraq, narkotik vasitəni təhvil verməsini tələb etmişlər. Biləsuvar rayon polis şöbəsinin əməkdaşıları da onun yaşadığı evə daxil olduğundan onların vasitəsi ilə ona məlum olmuşdur ki, mülki geyimli şəxslər də polis əməkdaşlarıdır. Və sonradan bilmişdir ki, həmin mülki geyimli şəxslər DİN BNMİ-nin əməkdaşlarıdır. 29 iyul 2015-ci il tarixdə saat 16:00-da DİN BNMİ-nin əməkdaşları tərəfindən onu, anası Bikəxanımı, atası Mirnağını Biləsuvar rayon polis şöbəsinə gətirmişlər, orada anası Bikəxanımı sərbəst buraxmış, atası Mirnağı ilə birlikdə Bakı şəhərinə aparmışlar. Bakı şəhərinə aparıldıqdan sonra orada onun gözləri qarşısında atası Mirnağıya işgəncələr verilmiş və ondan bu cinayəti törətməsini etiraf etməsi tələb olunmuş və əksi təqdirdə onların ikisinin də cinayət məsuliyyətinə cəlb ediləcəklərini bildirməklə, daha ağır işgəncələr verəcəklərini söyləmiş və Etibar Ağayev elektroşok cihazı ilə işgəncəyə məruz qalmışdır. Məhz bu işgəncələrə tab gətirmədiyindən, digər tərəfdən atasının həbs edilə-

cəyindən qorxaraq (atası ağır ürək xəstəsidir) o, müstəntiq tərəfindən tərtib edilmiş cinayət əməlinin onun tərəfindən törədilməsini təsdiq edən etirafedici izahat və ifadələrə imza etmişdir. O, müstəntiq tərəfindən diktə edilən sözləri izahat kimi atasının yanında digər polis işçilərini iştirakı ilə öz xətti ilə yazmışdır. Onun diktə ilə izahat yazmağının şahidi kimi atasını göstərmişdir. Məhz bundan sonra atası sərbəst buraxılmışdır. Atası buraxıldıqdan və idarənin müvəqqəti saxlama yerindən təcridxanaya köçürüldükdən, işgəncələrdən və onun təhlükəsindən qurtardıqdan sonra və atası tərəfindən vəkillə təmin olunduqdan sonra ona qarşı verilmiş ittiham üzrə özünü təqsirli bilmədiyini, yazmış olduğu izahat və ifadələrin təhdid, işgəncələr altında yazdığını imzaladığını bildirmişdir. Məhkəmə istintaqı zamanı o bu sözləri bir daha təsdiq etmişdir. Məhkəmədə şahid qismində ifadə vermiş Elvin Alışov, Nadir Məmmədov və Şahlar Zeynalovun ifadələri şablon formasında tərtib olunmuş və məqsəd Etibar Ağayevin cinayət əməlinin sübuta yetrilməsinə yönəlmişdir. Polis əməkdaşları maddi sübutun götürmə protokolunun Etibar Ağayevin saxlanıldığı yerdə tərtib olunduğunu bildirmişlər. Əslində isə cinayət işinin materiallarından görünür ki, həmin protokol Bakı şəhərində tərtib edilmişdir. müdafiəçi kimi Elvin Alışova maddi sübutun gütrülmə protokolunun harada və hansı qaydada tərtib edilməsi haqqda verdiyi suala o, həmin protokolun hadisə yerində – Biləsuvar şəhərində E.Ağayevin saxlanıldığı yerdə üzlərinə məxsus avtomobildə əl yazısı ilə yaçılmaqla tərtib etdiyini bildirmişdir. Lakin cinayət işinin materiallarından görünür ki, həmin protokol 30 iyul 2015-ci il tarixdə saat 00:30-00:50 radələrində Bakı şəhərində tərtib olunmuşdur. Yəni həmin protokola görə təqsirləndirilən şəxsin üzərinə baxış keçirilməsi və maddi sübutun götürülməsi üçün o, hadisə yerindən 200 km kənar məsafəyə həmin əməliyyatda iştirak etmiş polis əməkdaşları, hal şahidləri ilə birlikdə getmiş və orada onun üzərində baxış keçirilmiş və onun əlində olan selofan torbanın izərisində 1030,0 qram çəkidə narkotik vasitə aşkar olunmuşdur. Bu fakt təsdiq edir ki, müvəkkilinə qarşı verilmiş ittiham saxtadır, qanunsuz və əsassız olaraq verilmişdir. Odur ki, 30 iyul 2015-ci il tarixli əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokol sübut kimi qiymətləndirilə bilməz və sübutlar siyahısından çıxarılmalıdır. Hal şahidlərinin Bakı və Cəlilabad rayon sakinlərinin olması əsaslı şübhələr yaradır. Məhkəməyə ifadə vermiş müdafiə tərəfin şahidləri ifadələrində göstərmişlər ki, həmin vaxt Biləsuvar rayon polis şöbəsin əməkdaşları, polis şöbəsinin rəis müavini Mehman Abışov orada olmuşdur. Bununla əlaqədar həmin polis əməkdaşlarının şahid qismində məhkəməyə

çağırılmaqları və ifadələrinin alınması üçün məhkəməyə vəsatət vermiş, lakin məhkəmə vəsatəti rədd edərək təmin etməmişdir. Əslində işin düzgün araşdırılması üçün həmin şahidlərin ifadələri mühüm əhəmiyyət kəsb edirdi. Şahidlərin ifadləri arasında ziddiyyətlər olmuşdur. Bu ifadələr bir-birini təkzib etmişdir. Lakin ibtidai istintaq tərəfindən bu ziddiyyətlər aradan qaldırılmamışdır. Məhkəmə araşdırması zamanı da həmin ziddiyyətlər aradan qaldırılmadı və tərəfərindən bu ziddiyyətlərin aradan qaldırılması və həqiqətin müəyyən edilməsi üçün verilmiş vəsatətlər də təmin edilmədi. Təqsirləndirilən şəxs guya sərbəst şəkildə izahatında göstərib ki, həmin narkotik vasitəni həmin ərazidə basdırmaq istəyib və özünün istifadəsi üçün lazım olanda gəlib götürsün. Bu sözlərin diktə ilə yaçılması açıq aşkar görünür. Belə ki, “Zirvə” mehmanxanası xüsusi mülkiyyətdədir. Oranın təhlükəsizliyi və qorunması, habelə digər məqsədlər üçün ora müşahidə kameraları quraşdırılmışdır. Bu əraziyə kənar daxil olmalar və yaxud da onun ətrafından keçən, gedən hər bir obyekt o kameralar tərfindən aşkarlanır. İkincisi, guya Etibar Ağayev bildirib ki, həmin narkotik vasitəni basdırmaq istəyirmiş. Bu mümkün deyildir. Əvvəla 29 iyul yayın ən qızmar istiləri olan bir vaxtdır. Həmin vaxtda torpağı qaçmaq üçün xüsusi alətlər, külüng, lom, bel və s. lazımdır. Maddi sübutun götürmə və baxış protokolunda onun əlində və ya üzərində yer qaçmaq üçün hər hansı bir alətin olması təsdiqlənmir. Təqsirləndirilən şəxs iki aya yaxın vaxt idi ki, cəzaçəkmə müəsissəsində cəzasını çəkib evə buraxılmışdır. Heç bir yerdə işləmir. Yəni əmək haqqısı və ya sahibkarlıq fəaliyyəti olmamışdı. Yəni qazancı və gəliri olmamışdı. Lakin onun ifadəsində göstərilir ki, guya Etibar Ağayev Biləsuvar rayon mərkəzi bazarında bir nəfər İİR-nın vətəndaşı ilə rastlaşır və o, şəxs dərhal bir dəqiqə əvvəl tanış olduğu adamla narkotik vasitənin alveri haqqında söhbət açır və ona narkotik vasitə satır. Digər bir məsələ ondan ibarətdir ki, qeyd etdiyi kimi qazancı və gəliri olmayan, cəzaçəkmə müəsissəsindən təzə azad olunmuş bir şəxs Biləsuvar rayon mərkəzi bazarına cibində 1.000 manat məbləğində pul ilə gedir. Bu qədər pul onda hardadır. Bundan başqa Əli adında İİR vətəndaşı necə oldu ki, Biləsuvar rayon mərkəzi bazarında böyük bir izdiham izərisində məhz Etibar Ağayevə inandı və onunla narkotik vasitənin alverini etdi? Biləsuvar rayon mərkəzi bazarında daimi olaraq çoxlu sayda polis əməkdaşı xidmətdə olur. Onlar öz işlərinin peşəkarlarıdırlar. Bu təhlil təsdiq edir ki, təqsirləndirilən şəxs Etibar Ağayevə həqiqətən də bu ifadə diktə ilə yazdırılmışdır və sübut kimi qəbul edilməzdir. Bu faktlar bir daha təsdiq edir ki, müvəkkilinə qarşı CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə

verilmiş ittiham tamamilə əsassız və qanunsuzdur. Lakin məhkəmə araşdırması zamanı qeyd olunan qanunsuzluqlara qiymət verilməmiş və ittiham tərəfinin sübutları əsas götürməklə müvəkkili barəsində qanunsuz hökm çıxarılmışdır. Qeyd olunanlara əsasən hüquqlarını müdafiə etdiyi Ağayev Etibar Mirnağı oğlu ona Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə verilmiş ittiham üzrə təqsirli olmadığından Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli 1(089)-315/2016 nömrəli hökmünü ləğv edərək Etibar Ağayevin barəsində bəraət hökmünün çıxarılmasını apellyasiya instansiyası məhkəməsindən xahiş etmişdir.

**Məhkəmə istintaqı və proses iştirakçılarının çıxışları:**

Apellyasiya məhkəməsi iclasında məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin dəlillərini müdafiə etdiyini bildirdi.

Apellyasiya məhkəməsi iclasında məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun müdafiəçisi Quliyev Fədai Əli oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən verdiyi apellyasiya şikayətinin dəlillərini müdafiə etdiyini bildirdi.

Apellyasiya məhkəməsi iclasında Azərbaycan Respublikası Baş prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri Sadıqov Səyavuş Köçəri oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin dəlillərinə etiraz etdiyini bildirdi.

Apellyasiya məhkəməsi iclasında məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlu Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilməyərək, göstərdi ki, o, 29 iyul 2015-ci il tarixdə saat 16 radələrində Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılaraq atası və anası ilə birlikdə Biləsuvar Rayon Polis Şöbəsinə aparılmış, orada ona bir selofan kulokda narkotik vasitə tiryək təqdim edərək ona məxsus olduğunu etiraf etməzsə, atasının da onunla birlikdə sənədləşdirəcəklərini

dediklərindən o bu təzyiq altında narkotik vasitəni tutulduğu gün Biləsuvar rayonu ərazisində olan bazarda TIR sürücüsü olan İran İslam Respublikası vətəndaşından 1.000 manat verməklə alması barədə izahat və ifadələr vermişdir. İlkin izahat və ifadələrini vəkillərinin iştirakı ilə vermişdir. Hadisə günü atası sərbəst buraxılsa da əhəmiyyətinin olmayacağını düşünərək sonralar ona təsir və təzyiq edilməsinə dair heç bir yerə şikayət etməmişdir. Lakin aşkar edilərək götürülmüş narkotik vasitənin ona heç bir aidiyyəti olmamışdır.

Apellyasiya məhkəməsi iclasında şahid Şahbazov Natiq İzzət oğlu ifadəsində göstərdi ki, Etibar Ağayev onun qonşusudur, bir neçə ay bundan qabaq həbsdən qayıtmışdır. Qeyd olunan həmin gün, yəni 29 iyul 2015-ci il tarixdə saat 15-16 radələrində işdən evə gəlmiş, bu zaman səs-küy gəldiyini eşitmişdir. Evdən çıxanda görmüşdür ki, Etibarı, onun atasını və anasını polislər aparırlar. Həmin vaxt Biləsuvar RPŞ-nin əməkdaşları da orada olmuş, amma həmin əməkdaşların adlarını bilməmir. Etibar Ağayevin narkotik vasitə ilə tutulması və ya narkotik vasitədən istifadə edib-etməməsi barədə məlumatı olmayıb, sadəcə onun tululmasından xəbəri olub. Etibar Ağayev polislər tərəfindən tutulanda günortadan sonra idi, haradasa saat təxminən 4-5 olardı.

Apellyasiya məhkəməsi iclasında şahid Məmmədov Əlifağa Abı oğlu ifadəsində göstərdi ki, Etibar Ağayev onun qonşusudur, təxminən 100 metr aralı məsafədə yaşayır. O, sürücü işləyir, 29 iyul 2015-ci il tarixdə günortadan sonra saat təxminən 4-5 arası olardı ki, yaşadığı evin həyətində əkilmiş tut ağacının altında oturutarkən, bu vaxt mülki geyimdə olan və sonradan ona məlum olan polis əməkdaşlarının Etibar Ağayevin yaşadığı evə "zabordan" hoppanaraq daxil olduqlarını görmüşdür. Yarım saat sonra polis əməkdaşlarının Etibar Ağayevi, anası və atasının əli qandallı apardıqlarını görmüşdür. Polislərin bir neçəsi gecə səhərə kimi orada qaldı. Orada Biləsuvar RPŞ-nin əmakdaşlarından Mehman adlı polkovnik və serjantlar olub. Lakin həmin serjantların adlarını bilməmişdir. Etibar Ağayev polislər tərəfindən tutulanda onun üstündə nə isə çıxdığını görməmiş, sadəcə Etibarı başaşağı apardıqlarını görmüşdür.

Apellyasiya məhkəməsi iclasında şahid Baxışov Elməddin Gülşən oğlu ifadəsində göstərdi ki, Etibar Ağayev qonşusudur, onunla qohumluq əlaqəsi və ya hər hansı bir ədavəti yoxdur. 29 iyul 2015-ci il tarixdə təxminən günortadan sonra saat 4-5 arası olardı. Küçədə su çəkərkən eşidib bilmişdir ki, polis əməkdaşları Etibar Ağayevin yaşadığı evə gəliblər. O, Etibargilin yaşadığı evə yaxınlaşanda artıq polis əməkdaşları

oradan getmişdilər. Orada olanlardan eştmişdir ki, Etibarı, anasını və atasının polis əməkdaşları aparıblar. Etibar Ağayevin polislər tərəfindən aparıldığını uzaq olduğu üçün görməmiş, sadəcə orada olanlardan eşitmişdir.

Apellyasiya məhkəməsi iclasında şahid Babayev Tahir Murtuza oğlu ifadəsində göstərdi ki, Etibar Ağayev qonşusudur, onunla qohumluq əlaqəsi və hər hansı bir ədavəti yoxdur. Həmin gün təxminən günortadan sonra saat 4-5 arası olardı ki, bu zaman küçədə camaatın toplaşdığını və polislərin də orada olduğunu görmüşdür. Rayon polis şöbəsinin rəis müavini onunla qonşuluqda yaşayır və onun da orada olduğunu görüb ona yaxınlaşaraq nə baş verdiyini soruşmuşdur. O nəsə deməsinə baxmayaraq, başa düşməmişdir. Sonra Etibarın, anasının və atasının polis əməkdaşları tərəfindən aparıldığını görmüşdür. Biləsuvar RPŞ-nin əməkdaşlarından rəis müavini Mehman Abışov orada olmuş, qalanlarını tanımamışdır. Polis əməkdaşları onları həyətə yaxınlaşmağa qoymamışlar. Bir neçə gün sonra eşitmişdir ki, Etibar Ağayevi "tiryəkə" görə tutub Bakıya aparmışlar.

Apellyasiya məhkəməsi iclasında şahid Zəkiyev Mehman Mürvət oğlu ifadəsində göstərdi ki, Etibar Ağayev qonşusudur, onunla qohumluq əlaqəsi və hər hansı bir ədavəti yoxdur. Haradasa 1-2 ay əvvəl olardı ki, həbsdən qayıtmışdı. 29 iyul 2015-ci il tarixdə gündüz saat təxminən 4 radələrində atasıgilə gedərkən, polis maşınlarının gəldiyini və maşından düşən polis əməkdaşlarının Etibar Ağyevin yaşadığı evə hasardan keçərək daxil olduqlarını görmüşdür. O, bir az qabağa gəlib nə baş verdiyini aydınlaşdırmaq istəsə də, polis əməkdaşları onu irəli gəlməyə qoymamışlar. Etibarın anasının ağlama səsini eşitmişdir. Sonradan Etibarın, anasının və atasının polislər tərəfindən evdən çıxarıldğnı və atasının tanıdığı Eldəniz adlı polisin maşınına mindirilərək aparıldığını görmüşdür. O, atasıgilə getmiş və 1-2 saat sonra qayıtmışdır. Biləsuvar RPŞ-nin əməkdaşlarından Azəri, Şamili və bir də Eldənizi tanımış, Etibar Ağayevin nə üçün aparıldığını deməmişlər. Sonra Etibarın atasını görmüş, o bildirmişdir ki, onları əvvəlcə Biləsuvar RPŞ-nə, oradan da Bakıya aparmışlar.

Apellyasiya məhkəməsi iclasında şahid Həsənov Telman Rza oğlu ifadəsində göstərdi ki, o, Qarabağ əlilidir. Etibar Ağayev onun qonşusudur, onunla qohumluq əlaqəsi və hər hansı bir ədavəti yoxdur. O, şəhərdə zayxana işlədir. Hardasa 1-2 ay əvvəl olardı ki, Etibar həbsdən qayıtmışdı. O, 29 iyul 2015-ci il tarixdə gündüz saat 4-5 arası olardı ki, zayxana işlədərkən səs-küy gəldiyini eşitmiş və çölə çıxanda qonşularının Etibargilə tərəfə qaçdıqlarını görmüşdür. Sonradan Etibarın, anasının

və atasının polislər tərəfindən evdən çıxarıldığnı və polislərə məxsus maşına mindirilərək aparıldığını görmüşdür. Orada Biləsuvar Rayon Polis əməkdaşlarından adlarını bilmədiyi, amma üzdən tanıdıqları şəxslər də olmuşdur. Etibar Ağayevin nəyə görə tutulduğunun səbəbini bilməmişdir. Sonradan eşitdiyinə görə, guya Etibarı “Zirvə” mehmanxanasının yanında tutublar, amma o, həmin vaxt Etibarın evlərindən aparıldığını görmüşdür.

Apellyasiya məhkəməsi iclasında şahid polis nəfəri Quliyev Azər Əbil oğlu ifadəsində göstərdi ki, qeyd olunan 29 iyul 2015-ci il tarixdə, ona təhkim olunmuş şəhərin bazar adlanan ərazisində xidmət apardığı zaman, ona məlum olmuşdur ki, əlisilahlı polis işçiləri Etibar Ağayevin yaşadığı evə daxil olmuşlar. O da bu barədə dərhal rəis müavini Mehman Abışova ratsiya ilə xəbər vermişdir. Lakin əməliyyatda iştirak etməmişdir. Ona görə də keçirilmiş əməliyyat barədə ətrafı məlumatı yoxdur. Təxminən günortadan sonra idi. Bakıdan gələn polis işçiləri Etibarı Biləsuvar RPŞ-yə apardıqlarını görməmişdir.

Apellyasiya məhkəməsi iclasında şahid Biləsuvar RPŞ-nin əməkdaşı Abışov Mehman Gülağa oğlu ifadəsində göstərdi ki, Etibar Ağayevi əvvəllər tanımamışdır. O həmin vaxtlar xidmət etdiyi vəzifəyə yenicə təyin olunmuşdur. 29 iyul 2015-ci il tarixdə saat təxminən 16 radələrində dislokasiya üzrə sahə nəfərləri ona məlumat vermişlər ki, Biləsuvar şəhəri, S.Vurğun küçəsi adlanan ərazidə əməliyyat tədbiri keçirilir. O da 4 nəfərlə birlikdə həmin əraziyə gəlmiş və məlum olmuşdur ki, DİN-nin BNMİ-nin əməkdaşları qeyd olunan ünvanda Etibar Ağayev barəsində tədbir keçirirlər. Həmin tədbir onların ərazisində olsa da, səlahiyyətlərindən kənar olduğu üçün onlara hər hansı şəkildə mane olmaq olmazdı. Odur ki, əməliyyatı keçirən şəxslərin işlərinə qarışmamışdır. Həmin vaxt Etibar Ağayevdən hər hansı bir şey götürülməsi və oradan hara aparılması barədə onda məlumat yoxdur. Sonra onunla gələn polis əməkdaşları birlikdə rayon polis şöbəsinə qayıtmışlar. Amma qalan şeylər yadında deyildir. Etibar Ağayevi şöbəyə gətirilməsi və orada səs-küy olması ilə bağlı qeyd edir ki, o, şöbəyə gələndə sakitzilik olub. BNMİ Baş İdarə olduğu üçün onların əməkdaşları Respublikanın istənilən ərazisində tədbir keçirə bilərlər. Əgər rəhbərlik müvafiq rayonun polis əməkdaşlarının da tədbirdə iştirakını məsləhət bilərsə, o halda onlarla birlikdə iştirak edirlər. Etibardan hər hansı narkotik vasitənin götürülməsini görməmişdir.

Apellyasiya məhkəməsi iclasında şahid polis nəfəri Təhməzov Eldəniz Rafiq oğlu ifadəsində göstərdi ki, Etibar Ağayevi rayon sakini kimi əvvəllər də tanıyıb.

Qeyd olunan gün disloksiya üzrə sahə polis nəfəri rəsi müavini Mehman Abışova zəng vuraraq rayon ərazisində əməliyyat tədbirini keçirilməsi barədə məlumat verdikdən sonra Mehman müəllimin göstərişi ilə Mehman müəllim, CAB-nin rəisi, o və başqa bir nəfər birlikdə əməliyyat keçirilən Etibar Ağayevin yaşadığı evə gəlmişlər. Onların həyətində 10-15 dəqiqə olduqdan sonra oranı tərk etmişlər. Etibardan hər hansı bir şey aşkar olunub götürülməsi barədə məlumatı olmamışdır. Etibar Ağayevin valideynlərinin aparılması və şöbəyə gətirilməsi ilə bağlı məlumatı yoxdur.

Apellyasiya məhkəməsi iclasında şahid Məmmədov Nadir Müslüm oğlu ifadəsində göstərdi ki, 29 iyul 2015-ci il tarixdə işlədiyi Baş Narkotiklərlə Mübarizə İdarəsinə Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3-də yaşayan, əvvəllər məhkum olunmuş, Ağayev Etibar Mirnağı oğlunun narkotik vasitə tiryəki qanunsuz əldə edib qəbul etməsi və külli miqdarda satışı ilə məşğul olması barədə məlumat daxil olmuş və həmin məlumat rəhbərliyinə məruzə edilmiş və bundan sonra əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərar qəbul edilərək əməliyyat qrupu yaradılmış, idarənin bir neçə əməkdaşını həmin qrupa daxil etmişdir. əməliyyat tədbiri barədə məlumatlandırıldıqdan sonra əməliyyat qrupu ilə birlikdə Biləsuvar şəhərinə gələrək orada iki nəfər şəxs hal şahidi qismində iştirak etmək üçün cəlb olunaraq, onlara hüquq və vəzifələri izah edilmişdir. Bundan sonra həmin hal şahidləri ilə birlikdə saat 21:00-da məlumatda qeyd olunmuş Etibar Ağayevin olması ehtimal olunan «Zirvə» hotelinin yaxınlığına gedərək, oradan keçən magisral yolun kənarında, sağ əlində 01 ədəd bağlama olan Ağayev Etibar Mirnağı oğlu tərəfərindən saxlanılmışdır. Saxlanılan şəxs Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanında qeydiyyatda olan və həmin ünvanda yaşayan Ağayev Etibar Mirnağı oğlu olduğunu bildirmişdir. Etibar Ağayevə onun narkotiklərin qanunsuz dövriyyəsində şübhəli olduğu bildirilməklə ona üstündə qeyri-qanuni əşya varsa təqdim etməsi təklif olunmuş, o əlində olan 1 ədəd bağlamada izərisində 1 kiloqrama yaxın narkotik vasitə tiryək olduğunu bildirib, həmin bağlamanı onlara təqdim etmiş, bağlama hal şahidlərinin iştirakı ilə açıldıqda izərisində tünd qəhvəyi rəngli, kəskin iyli, narkotik vasitə tiryəkəoxşar maddə aşkar olunmuşdur. Sorğu edilərkən Etibar Ağayev ondan aşkar edilərək götürülmüş, 1 kiloqram tiryəki 29 iyul 2015-ci il tarixdə günorta vaxtı Biləsuvar bazarında təsadüfən tanış olduğu, İran İslam Respublikasının vətəndaşı olan TIR markalı yük avtomobilinin sürücüsündən 1.000 manata öz istifadəsi üçün aldığını, həmin maddəni Biləsuvar şəhəri ərazisində yerləşən «Zirvə» hotelinin yaxınlığında gizlətmək istədiyini bildir-

mişdir. 29 iyul 2015-ci il tarixdə saat 16 radələrində Ağayev Etibar Mirnağı oğlunun evində olmamışdır. Oraya axşam saat 9-dan sonra getmişlər. Həmin vaxt Etibar Ağayevgildə heç kim olmamışdır.

Apellyasiya məhkəməsi iclasında şahid Hacıyev Rüvşən Məmməd oğlu ifadəsində göstərdi ki, qeyd olunan gün Biləsuvar rayonuna adam gətirmişdir. Zirvə şadlıq sarayına yaxın məsafədə maşını saxlayıb, Bakıya boş qayıtmamaq üçün sərnişin gözləyərkən, polis əməkdaşları ona yaxınlşıb üzlərini təqdim etmiş və əməliyyat tədbiri ilə əlaqədar hal şahidi olmağı ona təkilf etmiş, o da razı olmuşdur. Hal şahidi kimi hüquq və vəzifələri ona izah edilmişdir. Həmin vaxt axşam idi, amma dəqiq vaxt yadında deyil. Həmin vaxt orada 3 nəfər polis əməkdaşı, o və bir də digər hal şahidi olmuşdur. Etibargilin evlərinə gedəndə orada heç kim olmamışdır. Etibarı tutduqdan sonra Bakıya getmişlər. Etibar Ağayevin ata-anasının onlarla getməsi yadında deyil. Narkotiki onun yanında çəkməmişlər.

Apellyasiya məhkəməsi iclasında şahid Yaqubov Rəcəb İsrafil oğlu birinci instansiya məhkəməsində vermiş olduğu ifadəni təsdiq etdi və əlavə olaraq göstərdi ki, o həmin gün axşam Biləsuvar rayonuna şəxsi işi ilə əlaqədar olaraq gəlmişdir. Bu zaman polis əməkdaşları ona yaxınlşıb üzlərini təqdim etmiş və əməliyyat tədbiri ilə əlaqədar hal şahidi olmağı ona təkilf etmişlər. O da razı olmuşdur. Hal şahidi kimi hüquq və vəzifələri ona izah edilmişdir. Etibarda olan klokdan narkotik vasitə olan “tiryək” aşkar olunmuş, lakin əlində olan klokun nə rəngdə olması yadında qalmamışdır. Narkotik vasitəni orada çəkməmişlər. 10-15 dəqiqə sonra Etibargilin evinə getmişlər. Etibargilin evində kimsə olmamışdır. Eyni zamanda şahid Rəcəb Yaqubov qeyd etdi ki, o, əvvəllər heç vaxt hər hansı iş üzrə hal şahidi qismində iştirak etməmişdir.

Apellyasiya məhkəməsi iclasında məhkəmə çıxışları zamanı Azərbaycan Respublikası Baş prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri Sadıqov Səyavuş Köçəri oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin dəlilləri ilə razı olmadığını, törədilmiş cinayət hadisəsinin iş materialları ilə tam sübuta yetirildiyini və birinci instansiya məhkəməsi tərəfindən qanuni, ədalətli və əsaslı hökm çıxarıldığını bildirdi. Eyni zamanda, dövlət

ittihamçısı S.K.Sadıqov Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin təmin olunmamasını və həmin hökmün dəyişdirilmədən saxlanılmasını məhkəmə kollegiyasından xahiş etdi.

Apellyasiya məhkəməsi iclasında məhkəmə çıxışları zamanı məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun müdafiəçisi Quliyev Fədai Əli oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən verdiyi apellyasiya şikayətinin təmin edilməsini, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmünün ləğv edilməsini, Ağayev Etibar Mirnağı oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə bəraət hökmünün çıxarılmasını məhkəmə kollegiyasından xahiş etdi.

Apellyasiya məhkəməsi iclasında son süçündə məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlu Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin təmin edilməsini, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmünün ləğv edilməsini və barəsində Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə bəraət hökmünün çıxarılmasını məhkəmə kollegiyasından xahiş etdi.

**Hüquqi məsələlər:**

Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsində göstərilir ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hürmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Konstitusiyanın 60-cı maddəsində isə qeyd olunur ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın 6-cı maddəsinin («Ədalətli məhkəmə araşdırması hüququ») 1-ci hissəsində göstərilir ki, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı

hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Həmin Konvensiyaya dair 22 noyabr 1984-cü il tarixli 7 nömrəli Protokolun 2-ci maddəsinin 1-ci bəndində isə qeyd olunur ki, cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə və ya təyin olunmuş cəzaya yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ vardır. Bu hüququn həyata keçirilməsi və onun həyata keçirilə biləcəyi əsaslar qanunla tənzimlənir.

Azərbaycan Respublikası CPM-nin 1.3-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarına hürmətin bərqərar olmasına imkan yaradır.

Həmin Məcəllənin 12.1-ci maddəsində isə qeyd göstərilir ki, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.

Həmin Məcəllənin 397.1-ci maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən işin faktiki hallarının müəyyən edilməsinin, habelə cinayət qanununun və bu Məcəllənin normalarının tətbiq edilməsinin düzgünlüyünü yoxlayır.

Həmin Məcəllənin 397.2-ci maddəsinə əsasən, birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş faktiki hallar apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız apellyasiya şikayətinin və ya apellyasiya protestinin hüdudlarında yoxlanılır. Birinci instansiya məhkəməsi tərəfindən cinayət qanununun və bu Məcəllənin normalarına riayət edilməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən apellyasiya şikayətinin və ya apellyasiya protestinin dəlillərindən asılı olmayaraq yoxlanılır.

Şirvan Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası qismən məhkəmə istintaqı aparmaqla cinayət işinin materiallarını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək və apellyasiya şikayətinin dəlilləri barədə proses iştirakçılarının mövqeyini dinləyərək hesab edir ki, Ağayev Etibar Mirnağı oğlunun Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə məhkum edilməsi barədə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli

oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməli, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmü ləğv edilməli, iş üzrə yeni hökm çıxarılmalı və Ağayev Etibar Mirnağı oğluna Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə bəraət verilməlidir.

Belə ki, birinci instansiya məhkəməsi iclasında təqsirləndirilən şəxs Ağayev Etibar Mirnağı oğlu özünü elan olunmuş ittihamla təqsirli bilməyərək ifadəsində göstərmişdir ki, 29 iyul 2015-ci il tarixdə Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılaraq atası və anası ilə birlikdə Biləsuvar Rayon Polis Şöbəsinə aparılmış, orada bir selefon kulokda narkotik vasitə tiryək təqdim edərək ona məxsus olduğunu etiraf etməzsə, atasının da onunla birlikdə sənədləşdirəcəklərini dediklərindən o bu təzyiq altında narkotik vasitəni tutulduğu gün Biləsuvar rayonu ərazisində olan bazarda TIR sürücüsü olan İran İslam Respublikası vətəndaşından 1.000 manat verməklə alması barədə izahat və ifadələr vermişdir. O daha sonra ifadəsində göstərmişdir ki, ilkin izahat və ifadələrini vəkillərinin iştirakı ilə vermişdir. Hadisə günü atası sərbəst buraxılsa da sonralar ona təsir və təzyiq edilməsinə dair heç bir yerə şikayət etməmişdir. Lakin aşkar edilərək götürülmüş narkotik vasitənin ona heç bir aidiyyəti olmamışdır.

Birinci instansiya məhkəməsi iclasında dindirilmiş şahid Alışov Elvin Yaqub oğlu ifadəsində göstərmişdir ki, 29 iyul 2015-ci il tarixdə işlədiyi Baş Narkotiklərlə Mübarizə İdarəsinə Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3-də yaşayan, əvvəllər məhkum olunmuş Ağayev Etibar Mirnağı oğlunun narkotik vasitə tiryəki qanunsuz əldə edib qəbul etməsi və külli miqdarda satışı ilə məşğul olması barədə məlumat daxil olmuş və həmin məlumat rəhbərliyə məruzə edilmiş və bundan sonra əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərar qəbul edilərək əməliyyat qrupu yaradılmış, idarənin bir neçə əməkdaşını həmin qrupa daxil etmişdir. Əməliyyat tədbiri barədə məlumatlandırıldıqdan sonra əməliyyat qrupu ilə birlikdə Biləsuvar şəhərinə gələrək orada iki nəfər şəxs hal şahidi qismində iştirak etmək üçün cəlb olunaraq, onlara hüquq və vəzifələri izah edilmişdir. Bundan sonra həmin hal şahidləri ilə birlikdə saat 21:00-da məlumatda qeyd olunmuş Etibar Ağayevin olması ehtimal olunan «Zirvə» hotelinin yaxınlığına gedərək, oradan keçən magisral yolun kənarında, sağ əlində 01 ədəd bağlama olan Ağayev Etibar Mirnağı oğlu tərəfərindən saxlanılmışdır. Saxlanılan şəxs Biləsuvar şəhəri, S.Vurğun küçəsi ev 3 ünvanında qeydiyyatda olan və həmin ünvanda yaşayan Ağayev Etibar Mirnağı oğlu olduğunu bildirmişdir. Etibar

Ağayevə onun narkotiklərin qanunsuz dövriyyəsində şübhəli olduğu bildirilməklə ona üstündə qeyri-qanuni əşya varsa təqdim etməsi təklif olunmuş, o, əlində olan 1 ədəd bağlamada izərisində 1 kiloqrama yaxın narkotik vasitə tiryək olduğunu bildirib, həmin bağlamanı onlara təqdim etmiş, bağlama hal şahidlərinin iştirakı ilə açıldıqda izərisində tünd qəhvəyi rəngli, kəskin iyli, narkotik vasitə tiryəkə oxşar maddə aşkar olunmuşdur. Bağlama SF-400 markalı elektron tərəzidə çəkilmiş, çəkisinin 1 kiloqram olduğu müəyyən olunmuşdur. Həmin bağlama qablaşdırılaraq Daxili İşlər Nazirliyinin 7 nömrəli mühürü ilə mühürlənmişdir. Bundan sonra hal şahidlərinin iştirakı ilə Etibar Ağayevin üstünə baxış keçirilmiş və baxış zamanı onun əynində olan boz rəngli idman şalvarının sağ yan cibindən 20 manat pul, küynəyin sağ düş cibindən 01 ədəd «WEST» markalı siqaret qutusu və 1 ədəd alışqan aşkar olunmuşdur. Sorğu edilərkən Etibar Ağayev ondan aşkar edilərək götürülmüş, 1 kiloqram tiryəki 29 iyul 2015-ci il tarixdə günorta vaxtı Biləsuvar bazarında təsadüfən tanış olduğu, İran İslam Respublikasının vətəndaşı olan TIR markalı yük avtomobilinin sürücüsündən 1.000 manata öz istifadəsi üçün aldığını, həmin maddəni Biləsuvar şəhəri ərazisində yerləşən «Zirvə» hotelinin yaxınlığında gizlətmək istədiyini bildirmişdir. Bundan sonra Etibar Ağayevin razılığı ilə hal şahidləri və özünün iştirakı ilə onun yaşadığı Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi ev 3 ünvanına getmişlər. Evdə həz kim olmamışdır. Etibar Ağayevin yaşadığı birmərtəbəli 3 otaqdan ibarət evə və həyətyanı sahəyə hal şahidlərinin iştirakı ilə baxış keçirilmiş, baxış zamanı oradan qanunsuz əşya və predmetlər aşkar olunmamışdır. Bundan sonra həmin şəxslərlə Baş İdarəyə getmişlər. Orada Etibar Ağayevə hüquqlarının müdafiəsi ilə əlaqədar Bakı şəhəri 1 nömrəli hüquq məsləhətxanasının vəkili Qədimi Eldar Mehdi oğlu təqdim edilmişdir. Vəkilin iştirakı ilə protokol tərtib edilmiş, protokolu iştirakçılar oxuyub imza etmişlər. Həmin vaxt Etibar Ağayev vəkilinin iştirakı ilə əməlini etiraf edərək izahat yazmışdır. Onun atası Mirnağı Ağayev proseslərdə iştirak etməmişdir. Ona qarşı heç bir zorakılıq hərəkətləri göstərilməmişdir. O özü də əvvəllər narkotik maddələrin külli miqdarda satışı cinayətini törətməsinə görə məhkum olunmuşdur. Ona görə də bu yolla istintaqa və məhkəməyə təsir edəcəyini güman edib bühtanlar danışırlar.

Birinci instansiya məhkəməsi iclasında şahidlər Məmmədov Nadir Müslüm oğlu və Zeynalov Şahlar Nəbi oğlu şahid Alışov Elvin Yaqub oğlunun ifadəsində göstərdiklərini təsdiq etməklə eyni məzmunlu ifadə vermişlər.

İş materiallarında olan, üzləşdirmədə dindirmə protokolundan görünür ki, şahid Elvin Alışovla Etibar Ağayev arasında keçirilən üzləşdirmə zamanı Elvin Alışov ifadəsində qeyd etdiklərini bir daha Etibar Ağayevin üçünə qarşı təsdiq etmiş, lakin Etibar Ağayev onun dediklərinin yalan olduğunu bildirmişdir.

İş materiallarında olan, üzləşdirmədə dindirmə protokollarından görünür ki, şahidlər Nadir Məmmədov və Şahlar Zeynalovla təqsirləndirilən şəxs Etibar Ağayevin aralararında aparılan üzləşdirmə zamanı onlar ifadələrində göstərdiklərini bir daha Etibar

Ağayevin üçünə qarşı təsdiq etmiş, lakin Etibar Ağayev onların dediklərinin yalan olduğunu bildirmişdir.

Birinci instansiya məhkəməsi iclasında şahid Yaqubov Rəcəb İsrafil oğlu ifadəsində göstərmişdir ki, 29 iyul 2015-ci il tarixdə şəxsi işləri ilə əlaqədar Biləsuvar şəhərində olmuş, axşam saatlarında bir nəfər şəxs ona yaxınlaşıb özünü təqdim edib Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı olduğunu bildirmişdir. Həmin şəxs Biləsuvar şəhər sakini Ağayev Etibar Mirnağı oğlunun narkotik vasitələri qanunsuz əldə edilib qəbul edilməsi və külli miqdarda satışı ilə məşğul olması barədə məlumatın daxil olduğunu və həmin məlumatın yoxlanılması ilə əlaqədar keçiriləcək baxışda onun hal şahidi qismində iştirak etməyini təklif etmişdir. Hüquq və vəzifələri izah olunduqdan sonra keçiriləcək əməliyyat tədbiri barədə onları təlimatlandırmışlar. Bundan sonra Biləsuvar şəhəri “Zirvə” hotelinin yaxınlığına getmişlər. Saat təxminən 21 radələrində “Zirvə” hotelinin yaxınlığında magisral yolun kənarında, sağ əlində 1 ədəd bağlama olan şəxs müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılmışdır. Saxlanılan şəxs özünü təqdim edərək Biləsuvar şəhərində yaşayan Ağayev Etibar Mirnağı oğlu olduğunu bildirmişdir. Etibar Ağayevə narkotiklərin qanunsuz dövriyyəsində şübhəli olduğu bildirilmiş və onların iştirakı ilə onun üstündə qeyri-qanuni əşya varsa təqdim etməsi təklif olunmuşdur. Etibar Ağayev sağ əlində olan 1 ədəd bağlamada izərisində 1 kiloqrama yaxın narkotik vasitə - tiryək olduğunu deyib, həmin güy qara rəngli polietilen bağlamanı polis əməkdaşlarına təqdim etmişdir. Həmin bağlama onun və digər hal şahidinin iştirakı ilə açıldıqda izərisində tünd qəhvəyi rəngli, kəskin iyli, narkotik vasitə olan tiryəkə oxşar maddə aşkar olunmuşdur. Sonra da bağlama elektron tərəzidə çəkilərək çəkisinin təxminən 1 kiloqram olduğu müəyyən olunmuş, bağlama qablaşdırılaraq mühürlənmişdir. Bundan sonra onların iştirakı ilə Etibar Ağayevin üstünə baxış keçirilmişdir. Baxış zamanı onun əynində

olan idman şalvarının sağ yan cibindən 20 manat pul, küynəyinin sağ düş cibindən isə 01 ədəd «WEST» markalı siqaret qutusu və 01 ədəd alışqan aşkar olunmuşdur. Sorğu edilərkən Etibar Ağayev təqdim etdiyi 1 ədəd polietilen bağlamadakı 1 kiloqram narkotik vasitə olan tiryəki 29 iyul 2015-ci il tarixdə günorta saatlarında Biləsuvar bazarında təsadüfən tanış olduğu İran İslam Respublikasının vətəndaşı olan TIR markalı yük avtomobilinin sürücüsündən 1.000 manata öz istifadəsi üçün aldığını, həmin maddəni Biləsuvar şəhəri ərazisində yerləşən "Zirvə" hotelinin yaxınlığında basdırmaq istədiyini bildirmişdir. Sonra Etibar Ağayevin razılığı ilə polis əməkdaşları onların və Etibarın iştirakı ilə onun yaşadığı Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanına baxış keçirilmişlər. Baxış zamanı oradan qanunsuz əşya və predmetlər aşkar olunmamışdır. Bundan sonra onları Bakı şəhərinə Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparmışlar. Orada vəkilin iştirakı ilə protokol tərtib edilmiş, ucadan oxunmuş, onlar da protokolun doğruluğunu təsdiq etmişlər. Həmin vaxt Etibar heç bir etiraz etməmişdir. O, ifadəsində daha sonra göstərmişdir ki, bu prosesdə Etibara və onun ailə üzvlərinə heç bir təzyiq və təsir olunmamışdır. Etibarın atası Mirnağı onunla bərabər saxlanmamışdır. Evə baxış keçirilkərkən evdə heç kim olmamışdır.

İş materiallarında olan, şahid Rəcəb Yaqubovla Etibar Ağayevin üzləşdirmədə dindirmə protokolundan görünür ki, keçirilmiş üzləşdirmə zamanı şahid Rəcəb Yaqubov ifadəsində qeyd etdiklərini bir daha Etibar Ağayevin üçünə qarşı da təsdiq etmiş, lakin Etibar Ağayev onun dediklərinin yalan olduğunu bildirmişdir.

İş materiallarında olan, Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən tərtib olunmuş əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair 29 iyul 2015-ci il tarixli qərarın nəticə hissəsinin 1-ci bəndində göstərilir ki, 1980-ci il təvəllüdlü, Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3-də yaşayan, əvvəllər məhkum olunmuş Ağayev Etibar Mirnağı oğlunun müəyyən edilib ifşa olunması istiqamətində 29 iyun 2015-ci il tarixdən etibarən Biləsuvar rayonu ərazisində əməliyyat-axtarış tədbirləri həyata keçirilsin.

Həmin qərarın 2-ci bəndində isə qeyd olunur ki, Ağayev Etibar Mirnağı oğlunun müəyyən olunduğu təqdirdə zərirət yaranarsa, onun yaşadığı evə və həyətyanı sahəsinə baxış keçirilsin.

İş materiallarında olan, əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokoldan görünür ki, 29 iyul 2015-ci il tarixdə Biləsuvar şəhərin-

də keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində Ağayev Etibar Mirnağı oğlundan 1030,0 qram çəkidə narkotik vasitə tiryək aşkar edilərək götürülmüşdür.

İş materiallarında olan, məhkəmə-kimyəvi ekspertizasının rəyindən görünür ki, vətəndaş Ağayev Etibar Mirnağı oğlunun üzərindən aşkar edilərək götürülmüş və tədqiqata təqdim edilmiş bir ədəd güy rəngli polietilen torbadakı bir ədəd şəffaf sellofan torbada təmiz çəkisi – 1030,0 qram olan maddə xaş-xaş bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə – tiryəkdir.

İş materiallarında olan, narkoloji tibbi yoxlamanın rəyindən görünür ki, müayinə zamanı Ağayev Etibar Mirnağı oğlunda tiryək alkoloidlərini tərkibində saxlayan maddələrdən sui-istifadə edilməsi ilə nəticələnən narkomaniya xəstəliyi aşkar olunur. Narkomaniyadan məcburi müalicəyə ehtiyacı vardır. Ərazi narkoloji dispanserində qeydiyyata alınması məsləhət görülür.

İş materiallarında olan, sübutların qiymətləndirilməsi haqqında qərardan görünür ki, hazırki cinayət işindən cinayətin digər iştirakçıları haqqında Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə cinayət işi ayrılmışdır.

İş materiallarında olan, ibtidai istintaq orqanının qərarından görünür ki, götürülmüş maddə xaş-xaş bitkisindən kustar üsulla hazırlanmış 1030,0 qram olan narkotik vasitə tiryək maddi sübut kimi tanınmış və saxlanması üçün Azərbaycan Respublikası DİN-nin BNMİ-nin maddi sübutların saxlanma kamerasına təhvil verilmişdir.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş Azərbaycan Respublikası DİN-nin Biləsuvar RPŞ-nin 10.11.2016-cı il tarixli məktubundan görünür ki, Biləsuvar RPŞ-nin inzibati binasının ətrafında müşahidə kamaeralarının yaddaşı olmadığından çəkilişlərin SD disk vasitəsi ilə təqdim olunması mümkün deyildir.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş Bilsuvar Rayon Məhkəməsinin 25.10.2016-cı il tarixli 31/2016 nömrəli məktubundan görünür ki, Ağayev Etibar Mirnağı oğlu barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən tərtib olunmuş qərar Biləsuvar Rayon Məhkəməsinə daxil olmamışdır.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş, Zülfüqarov Bəxtiyar Abulla oğlu barəsində əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokolun surətindən görünür ki, qeyd olunan

cinayət işində Azərbaycan Respublikası DİN-nin BNMİ-nin əməliyyat müvəkkili polis leytenantı Alışov Elvin Yaqub oğlunun da iştirak etdiyi əməliyyat tədbirində Yaqubov Rəcəb İsrafil oğlu hal şahidi kimi iştirak etmişdir.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş, Biləsuvar rayon prokurorluğunun 07.12.2016-cı il tarixli 2701d-16 nömrəli məktubundan görünür ki, Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlunun Ağayev Etibar Mirnağı oğlunun barəsində əməliyyat axtarış tədbirlərinin keçirilməsi barədə 29 iyul 2015-ci il tarixli qərarı rayon prokurorluğuna daxil olmamışdır.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş, Biləsuvar rayon "Zirvə" Şadlıq sarayının direktoru Qəhrəmanov Niyazi Fərman oğlunun məktubundan görünür ki, "Zirvə" şadlıq sarayının müşahidə kamerası çəkilişləri yalnız 10 gün saxlamaq qabiliyyətindədir.

İş materiallarına əlavə edilmiş və apellyasiya instansiyası məhkəməsində tədqiq edilmiş, Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin 16.01.2017-ci il tarixli 008-188-1217 nömrəli məktubundan görünür ki, Ağayev Etibar Mirnağı oğlunun barəsində Baş Narkotiklərlə Mübarizə İdarəsində heç bir əməliyyat- qeydiyyat işi yoxdur.

Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərinə, habelə apellyasiya şikayətinin hüdudlarında birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş faktiki halların səhihliyinə, cinayət qanununun və cinayət-prosessual qanunvericiliyin normalarına riayət edilməsinə apellyasiya instansiyası məhkəməsi tərəfindən düzgün hüquqi qiymət verilməsi üçün baş vermiş hadisənin mənzərəsini xronoloji ardıcılıqla təsvir etməyi məqsədəuyğun sayır. Belə ki, Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlunun 29 iyul 2015-ci il tarixli raportundan, onun "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair" tərtib etdiyi 29 iyul 2015-ci il tarixli qərardan və 30.07.2015-ci il tarixli əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokoldan görünür ki, 28.08.1980-ci ildə Biləsuvar şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, ailəli, orta təhsilli, fərdi əməklə məşğul olan, əvvəllər məhkum olunmuş, Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanında qeydiyyatda olan və həmin ünvanda yaşayan Ağayev Etibar Mirnağı oğlunun mütəmadi olaraq narkotik vasitə olan tiryəkin qanunsuz olraq əldə edib qəbul

etməsi və külli miqdarda satışı ilə məşğul olması barədə məlumat daxil olmuşdur. Bundan sonra "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair" qərar qəbul edilərək əməliyyat qrupu yaradılmışdır. İdarənin bir neçə əməkdaşı həmin qrupa daxil edilmişdir. Əməliyyat qrupunun üzvləri həmin əməliyyat tədbiri barədə məlumatlandırıldıqdan sonra əməliyyat qrupu Biləsuvar şəhərinə gələrək orada iki nəfər şəxsi hal şahidi qismində iştirak etmək üçün cəlb edərək, onlara hüquq və vəzifələrini izah etmişlər. Bundan sonra həmin hal şahidləri ilə birlikdə saat 21:00-da məlumatda qeyd olunmuş Etibar Ağayevin olması ehtimal olunan «Zirvə» hotelinin yaxınlığına gedərək, oradan keçən magistral yolun kənarında, sağ əlində 01 ədəd bağlama olan Ağayev Etibar Mirnağı oğlu tərəfərindən saxlanılmışdır. Saxlanılan şəxs Biləsuvar şəhəri, S.Vurğun küçəsi, ev 3 ünvanında qeydiyyatda olan və həmin ünvanda yaşayan Ağayev Etibar Mirnağı oğlu olduğunu bildirmişdir. Etibar Ağayevə onun narkotiklərin qanunsuz dövriyyəsində şübhəli olduğu bildirilməklə ona üstündə qeyri-qanuni əşya varsa təqdim etməsi təklif olunmuş, o, əlində olan 1 ədəd bağlamada izərisində 1 kiloqrama yaxın narkotik vasitə tiryək olduğunu bildirib, həmin bağlamanı onlara təqdim etmiş, bağlama hal şahidlərinin iştirakı ilə açıldıqda izərisində tünd qəhvəyi rəngli, kəskin iyli, narkotik vasitə tiryəkə oxşar maddə aşkar olunmuşdur. Bağlama "SF-400" markalı elektron tərəzidə çəkilmiş, çəkisinin 1 kiloqram olduğu müəyyən olunmuşdur. Həmin bağlama qablaşdırılaraq Daxili İşlər Nazirliyinin 7 nömrəli möhürü ilə möhürlənmişdir. Bundan sonra hal şahidlərinin iştirakı ilə Etibar Ağayevin üstünə baxış keçirilmiş və baxış zamanı onun əynində olan boz rəngli idman şalvarının sağ yan cibindən 20 manat pul, küynəyin sağ düş cibindən 01 ədəd «WEST» markalı siqaret qutusu və 1 ədəd alışqan aşkar olunmuşdur. Sorğu edilərkən Etibar Ağayev ondan aşkar edilərək götürülmüş, 1 kiloqram tiryəki 29 iyul 2015-ci il tarixdə günorta vaxtı Biləsuvar bazarında təsadüfən tanış olduğu, İran İslam Respublikasının vətəndaşı olan TIR markalı yük avtomobilinin sürücüsündən 1.000 manata öz istifadəsi üçün aldığını, həmin maddəni Biləsuvar şəhəri ərazisində yerləşən «Zirvə» hotelinin yaxınlığında gizlətmək istədiyini bildirmişdir. Bundan sonra Etibar Ağayevin razılığı ilə hal şahidləri və özünün iştirakı ilə onun yaşadığı Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi, ev 3 ünvanına getmişlər. Evdə həz kim olmamışdır. Etibar Ağayevin yaşadığı birmərtəbəli 3 otaqdan ibarət evə və həyətyanı sahəyə hal şahidlərinin iştirakı ilə baxış keçirilmiş, baxış zamanı oradan qanunsuz əşya və predmetlər aşkar olunmamışdır. Bundan sonra həmin şəxslərlə Baş İdarəyə getmişlər. Orada

30.07.2015-ci il saat 00:30-dan saat 00:50-yə kimi əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokol tərtib edilmiş, Etibar Ağayevə hüquqlarının müdafiəsi ilə əlaqədar Bakı şəhəri 1 nömrəli hüquq məsləhətxanasının vəkili Qədimi Eldar Mehdi oğlu təqdim edilmişdir.

Lakin birinci instansiya məhkəməsi iclasında təqsirləndirilən şəxs Ağayev Etibar Mirnağı oğlu özünü elan olunmuş ittihamla təqsirli bilməyərək ifadəsində göstərmişdir ki, 29 iyul 2015-ci il tarixdə Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılaraq atası və anası ilə birlikdə Biləsuvar Rayon Polis Şöbəsinə aparılmış, orada bir selefon kulokda narkotik vasitə tiryək təqdim edərək ona məxsus olduğunu etiraf etməzsə, atasını da onunla birlikdə sənədləşdirəzəklərini dediklərindən o bu təzyiq altında narkotik vasitəni tutulduğu gün Biləsuvar rayonu ərazisində olan bazarda TIR sürücüsü olan İran İslam Respublikası vətəndaşından 1.000 manat verməklə alması barədə izahat və ifadələr vermişdir. O daha sonra ifadəsində göstərmişdir ki, ilkin izahat və ifadələrini vəkillərinin iştirakı ilə vermişdir. Hadisə günü atası sərbəst buraxılsa da, sonralar ona təsir və təzyiq edilməsinə dair heç bir yerə şikayət etməmişdir. Lakin aşkar edilərək götürülmüş narkotik vasitənin ona heç bir aidiyyəti olmamışdır.

Apellyasiya məhkəməsində icraat zamanı təqsirləndirilən şəxs Ağayev Etibar Mirnağı oğlunun, şahidlər Şahbazov Natiq İzzət oğlu, Məmmədov Əlifağa Abı oğlu, Baxışov Elməddin Gülşən oğlu, Babayev Tahir Murtuza oğlu, Zəkiyev Mehman Mürvət oğlu, Həsənov Telman Rza oğlu, Quliyev Azər Əbil oğlu, Abışov Mehman Gülağa oğlu və Təhməzov Eldəniz Rafiq oğlunun (həmin şahidlərin bir neçə nəfəri Biləsuvar RPŞ-nin əməkdaşlarıdır) ifadələrindən məlum olmuşdur ki, 29 iyul 2015-ci il tarixdə saat təxminən 16 radələrində Ağayev Etibar Mirnağı oğlunun yaşadığı Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi, ev 3 ünvanında Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən axtarış aparılmış, axtarış zamanı onun yaşadığı evdən hər hansı bir qanunsuz əşya, o cümlədən narkotik vasitə aşkar edilməməsinə baxmayaraq, o həmin vaxt BNMİ-nin əməkdaşları tərəfindən saxlanılmış, bir daha azad edilməmiş, axşam isə Bakı şəhərinə BNMİ-nə aparılmışdır. Yəni Ağayev Etibar Mirnağı oğlunun 29 iyul 2015-ci il tarixdə saat 21.00-da Biləsuvar şəhərində “Zirvə” hotelinin yanında narkotik vasitə ilə tutulması nəzəri və praktiki cəhətdən qeyri-mümkündür. Bir sözlə, Ağayev Etibar Mirnağı oğlunun 29 iyul 2015-ci il tarixdə saat 21.00-da Biləsuvar şəhərində “Zirvə” hoteli-

nin yanında Etibar Ağayevdən götürülməsi iddia olunan xaş-xaş bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda – 1030,0 qram çəkidə narkotik vasitə olan tiryəkə hər hansı bir aidiyyəti yoxdur.

Bundan başqa 29 iyul 2015-ci il tarixdə saat təxminən 16 radələrində Ağayev Etibar Mirnağı oğlunun yaşadığı Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi, ev 3 ünvanında Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən axtarış aparılarkən polis əməkdaşlarının əlində yalnız Ağayev Etibar Mirnağı oğlunun ətrafında təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlunun 29 iyul 2015-ci il tarixli "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair" qərarı olmuşdur. Həmin qərar isə onun saxlanılması və polis idarəsinə aparılması üçün əsas ola bilməzdi. Çünki həmin qərarda Ağayev Etibar Mirnağı oğlunun ətrafında təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, zərurət yaranarsa, onun yaşadığı evə və həyətyanı sahəsinə baxış keçirilməsi nəzərdə tutulmuşdu. Bundan əlavə əməliyyat-axtarış fəaliyyətinin subyektləri onun barəsində hər hansı əməliyyat-qeydiyyat işi azmamışdı. Halbuki bu işin açılması zəruri idi. Məhkəmə kollegiyası qeyd etməyi zəruri hesab edir ki, həmin qərar qəbul edilərkən Azərbaycan Respublikası CPM-nin 445.2 və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddələrinə istinad edilsə də, faktiki olaraq həmin normaların tələbləri pozulmuşdur. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinin 1-ci hissəsində göstərilir ki, əməliyyat- axtarış fəaliyyətinin subyektləri bu Qanunla müəyyən edilmiş qaydada aşağıdakı əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər:

1) vətəndaşların sorğusu;

2) soraqlaşma;

3) telefon danışıqlarına qulaqasma;

4) poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;

6) məhkumların məktublarının yoxlanılması;

7) nəqliyyat vasitələrinə baxış keçirilməsi;

8) binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;

9) binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;

10) insanların güdülməsi;

11) şəxsiyyətin eyniləşdirilməsi;

12) nəzarət qaydasında mal alınması;

13) əşya və sənədlərin tədqiqi;

14) müqayisəli tədqiq üçün nümunələrin toplanılması;

15) nəzarətli göndəriş;

16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;

17) hüquqi şəxsin yaradılması;

18) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

Yəni "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsi "kiminsə ətrafında təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin keçirilməsi" anlayışını özündə ehtiva etmir, yalnız yuxarıda sadalanan 18 əməliyyat-axtarış tədbirindən birini və ya bir neçəsini nəzərdə tutur. Əməliyyat-axtarış tədbirinin aparılması barədə sözügedən qərarın yalnız 2-ci bəndində zərurət yaranacağı təqdirdə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin 8-ci bəndində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdu. Həmçinin həmin qərarın məhkəmə nəzarətini həyata keçirən birinci instansiya məhkəməsinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim olunması barədə iş materiallarında hər hansı bir sübut yoxdur. Bir sözlə, əməliyyat-axtarış fəaliyyətinin subyektinin həmin qərarı həm əsaslandırılmamışdı, həm də müvafiq qanunvericiliyin tələblərinə cavab vermirdi.

Belə ki, Azərbaycan Respublikası CPM-nin 445.1-ci maddəsində göstərilir ki, məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat-axtarış tədbirləri həyata keçirilir:

--telefon danışıqlarına qulaq asma;

-- poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

--texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

--binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;

--texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi;

-- insanların güdülməsi.

Həmin Məcəllənin yuxarıda qeyd olunmuş 445.2-ci maddəsinə əsasən,

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dürdüncü hissəsində nəzərdə tutulmuş hallarda bu Məcəllənin 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

Lakin iş materiallarından, habelə apellyasiya instansiyası məhkəməsində aparılmış məhkəmə istintaqının nəticələrindən görünür ki, Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən Biləsuvar Rayon Məhkəməsinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməmiş, yalnız Biləsuvar rayon prokuroruna və Biləsuvar Rayon Məhkəməsinə göndərilmiş 30 iyul 2015-ci il tarixli məktublarda 29 iyul 2015-ci il tarixdə Biləsuvar şəhəri ərazisində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi, ev 3 ünvanında qeydiyyatda olan və yaşayan Ağayev Etibar Mirnağı oğlundan 1 kq 30 qram çəkidə narkotik vasitə olan tiryəkin aşkar edidiyini və Etibar Ağayevin 30.07.2015-ci il tarixdə şübhəli şəxs qismində tutulduğunu qeyd etmişlər. Həmçinin Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin müvafiq qərarı Biləsuvar Rayon Məhkəməsinə göndərilmədiyi üçün onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında həmin məhkəmə tərəfindən yoxlanılmamışdır.

Halbuki "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 fevral 2015-ci il tarixli Qərarı-

nın nəticə hissəsinin 1 və 2-ci bəndlərində göstərilir ki, Azərbaycan Respublikası Cinayət- Prosessual Məcəlləsinin 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalıdır, ehtiyac olduğu halda isə əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər. Əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə, habelə məhkəmə nəzarəti qaydasında ətrafı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Məhkəmə kollegiyası sübutların toplanılma proseduru və mexanizmi ilə bağlı isə aşağıdakıları qeyd etməyi zəruri hesab edir:

Hazırkı cinayət işinin materiallarından görünür ki, işin ibtidai araşdırması ilə məşğul olan təhqiqat və ibtidai istintaq orqanı "şübhəli şəxs" anlayışınının yalnız geniş mənasından istifadə etmişdir. Çünki "şübhəli şəxs" anlayışı həm geniş, həm də dar mənada işlədilir. Həmin anlayış geniş mənada hər hansı bir hərəkəti, yaxud da hər hansı bir cinayəti törətməsi ehtimal olunan şəxsi, dar mənada isə Azərbaycan Respublikası CM-nin 90.1-ci maddəsində nəzərdə tutulmuş şəxsi ehtiva edir.

Azərbaycan Respublikası CPM-nin 90.1-ci maddəsində göstərilir ki, şübhəli şəxs qismində aşağıdakı fiziki şəxs tanınır:

--ittiham elan olunması üçün barəsində tutulma haqqında qərar çıxarılmış şəxs;

--cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxs;

--haqqında həbs, girov və ya ev dustaqlığı istisna olmaqla, qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılmış şəxs.

Yəni cinayət mühakimə icraatında "şübhəli şəxs" anlayışına yalnız Azərbaycan Respublikası CM-nin 90.1-ci maddəsi prizmasından baxılmalıdır.

Azərbaycan Respublikası CPM-nin 90.11.2-ci maddəsinə əsasən, şübhəli şəxs tutularkən baxışa və şəxsi axtarışa məruz qala bilər.

Həmin Məcəllənin 91.8.2-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs həbsə alınarkən baxışa və şəxsi axtarışa məruz qala bilər.

Həmin Məcəllənin 246.1-ci maddəsinə əsasən, müstəntiq iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və ya bədənində ola bilən əşya və sənədləri, bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər.

Həmin Məcəllənin 246.2-ci maddəsinə əsasən, məhkəmənin qərarı alınmadan şəxsi axtarış aşağıdakı hallarda aparıla bilər:

--şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq mühafizə orqanına gətirildikdə(246.2.1-ci maddə);

--təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbiri tətbiq edildikdə(246.2.2-ci maddə);

--axtarış və ya götürmənin aparıldığı binada olan şəxsin cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədləri gizlətməsini güman etməyə kifayət qədər əsaslar olduqda(246.2.3-cü maddə).

Həmin Məcəllənin 246.3-cü maddəsinə əsasən, şəxsi axtarış və götürmə müstəntiq tərəfindən mütəxəssisin və barəsində şəxsi axtarış aparılan şəxslə eyni cinsdən olan azı 2 (iki) hal şahidinin iştirakı ilə aparılır.

Lakin həm iş materiallarının tədqiqindən, həm də apellyasiya instansiyası məhkəməsində aparılmış qismən məhkəmə istintaqının nəticələrindən görünür ki, Ağayev Etibar Mirnağı oğlu Azərbaycan Respublikası CPM ilə müəyyən edilmiş hər hansı bir statusa (şübhəli şəxs, təqsirləndirilən şəxs, şahid və s.) malik olmadan, cinayət prosesini həyata keçirən orqanın və ya məhkəmənin tutulma və ya məcburi gətirilmə barədə qərarı olmadan yalnız Ağayev Etibar Mirnağı oğlunun ətrafında təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən tərtib olunmuş 29 iyul 2015-ci il tarixli qərarı əsasında bir qrup polis əməkdaşının köməyi ilə məcburi qaydada qolları qandallı vəziyyətdə Azərbaycan Respublikası DİN-nin BNMİ-nə aparılmışdır.

Bundan başqa qeyd etmək lazımdır ki, cinayət işinin materiallarında çoxsaylı pozuntular vardır. Belə ki, Etibar Ağayev 29 iyul 2015-ci il tarixdə saat 16 radələrində Biləsuvar şəhərində yaşadığı evində saxlanılmasına baxmayaraq, 30 iyul 2015-ci il tarixdə o, DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən şübhəli şəxs qismində tutulmuş (hansı saatda tutulması müəyyən olunmur), elə həmin gün(hansı saatda təqdim olunması

müəyyən olunmur) ona şübhəli şəxsin hüquq və vəzifələrinin izah edilməsi barədə bildiriş təqdim olunmuşdur. Həmçinin 30 iyul 2015-ci il tarixdə Etibar Ağayevin hüquqlarını müdafiə etmək üçün dövlət büdcəsi hesabına vəkil dəvət edilmiş və elə həmin gün ondan Bakı şəhəri 1 saylı hüquq məsləhətxanasının vəkili Qədimi Eldar Mehdi oğlunun iştirakı ilə izahat alınmışdır. İzahatdan Etibar Ağayevdən hansı statusda (şahid, şübhəli şəxs və s.) izahatın alınması görünmür. Bundan başqa Etibar Ağayevdən izahat alınarkən ona Azərbaycan Respublikası Konstitusiyasının 66 və CPM-nin 90.7.10-cu maddələrinin tələbləri izah olunmamışdır. Çox maraqlıdır ki, Etibar Ağayevdən elə 30 iyul 2015-ci il tarixdə vəkili Qədimi Eldar Mehdi oğlundan imtina etməsi barədə ərizə alınmışdır. Ərizədə imtinanın səbəbləri göstərilməmişdir. Yəni eyni gündə Etibar Ağayev həm müdafiəçi – Bakı şəhəri 1 saylı hüquq məsləhətxanasının vəkili Qədimi Eldar Mehdi oğlunun onun hüquqlarını müdafiə etməsinə etiraz etmir, həm də səbəbini göstərmədən ondan imtina edir. Bundan əlavə iş materiallarında olan Etibar Ağayevin 29 iyul 2015-ci il tarixli ərizəsindən görünür ki, o, yaşadığı evə və həyətyanı torpaq sahəsinə baxış keçirilməsinə etiraz etməmiş və həmin ərizənin üzərinə elə 29 iyul 2015-ci il tarixdə də "dərkənar" qoyulmuşdur. Lakin Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlunun tərtib etdiyi 30.07.2015-ci il tarixli əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokoldan görünür ki, Etibar Ağayevin razılığı ilə hal şahidləri və özünün iştirakı ilə onun yaşadığı Biləsuvar şəhəri, Səməd Vurğun küçəsi, ev 3 ünvanında 29.07.2015-ci il tarixdə saat 21.40-dan saat 22.00-a kimi baxış keçirilmişdir. Etibar Ağayevin üzü isə həmin protokola görə 29.07.2015-ci il tarixdə saat 21-də DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdır. Belə olan təqdirdə, yəni 40 dəqiqə ərzində Etibar Ağayevin ərizəsinin DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparılması, orada həmin ərizəyə "dərkənar" qoyulması və həmin ərizənin Biləsuvar şəhərinə qaytarılması qeyri-mümkündür.

Azərbaycan Respublikası CPM-nin 147.1.1-ci maddəsinə əsasən, cinayəti törətməkdə şübhəli olan şəxsə tutulma tətbiq oluna bilər. CPM-nin 148.1-ci maddəsində isə qeyd olunur ki, cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması onun cinayət törətməsinə bilavasitə şübhə yarandığı və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduğu hallarda həyata keçirilir. Həmçinin CPM-nin 148.2-ci maddəsinə əsasən təhqiqatçı, təhqiqat

orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda, zərər çəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə, şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda onun tutulmasını tətbiq edə bilər. Eləcə də CPM-nin 178.2-ci maddsinə görə, cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışlarına üzrlü səbəb olmadan gəlmədikdə, cinayət prosesini həyata keçirən orqanın çağırışlarını almaqdan boyun qaçırdıqda, cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və daimi yaşayış yeri olmadıqda cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxsə məcburi gətirilmə tətbiq edilə bilər.

Həmin Məcəllənin 148.4-cü maddəsinə görə, bu Məcəllənin 148.1 və 148.2-ci maddələrində nəzərdə tutulmuş hallardan biri mövcud olduqda tutulma müvafiq cinayət işi başlananadək həyata keçirilə bilər.

Lakin hazırkı işin faktiki hallarından görünür ki, saxlanılarkən Ağayev Etibar Mirnağı oğlunun üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunmamışdı. Ona görə də Etibar Ağayevin 29 iyul 2015- ci il tarixdə saat 16 radələrində Biləsuvar şəhərində polis əməkdaşları tərəfindən saxlanılmasını cinayət başında yaxalama kimi qiymətləndirmək olmaz. Əslində əməliyyat-axtarış fəaliyyətinin subyekti Etibar Ağayevin barəsində əməliyyat-qeydiyyat işi azmalı və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinin 1-ci hissəsinin 10-cu bəndinə, habelə Azərbaycan Respublikası CPM-nin 445.1-ci maddəsinə uyğun olaraq "insanların güdülməsi" əməliyyat-axtarış tədbirini həyata keçirməli idi. Çünki bu zaman narkotik vasitənin mənbəyi də müəyyənləşdirilə bilərdi.

Deməli, hazırkı halda təhqiqat orqanının vəzifəli şəxsi Biləsuvar şəhər sakini Ağayev Etibar Mirnağı oğlunu Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin onun tərəfindən törədilməsi barədə əsaslı şübhələri olduğu təqdirdə, həmin fakt üzrə cinayət işi başlanıldıqdan sonra, yaxud da cinayət işi başlanılmadan belə, Etibar Ağayevin tutulmasını özünün əsaslandırıl-

mış qərarı və tutma protokolu ilə həyata keçirə bilərdi. Təhqiqat orqanının vəzifəli şəxsi Etibar Ağayevi tutduqdan sonra ona CPM-nin 90-cı maddəsində nəzərdə tutlmuş hüquqlarını, tutulmasının səbəblərini izah etməli, tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etməli idi. Çünki Azərbaycan Respublikası CPM- nin 86.2-ci maddəsinə əsasən, təhqiqatçının törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfi, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək, şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək və şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (bu Məcəllənin 153.2.5 —153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq) vəzifələri vardır. Yalnız bütün bunlardan sonra E.M.Ağayev məhkəmənin qərarı olmadan şəxsi axtarışa məruz qala bilərdi. Şəxsi axtarış zamanı onun üzərində külli miqdarda narkotik vasitə aşkar edildiyi təqdirdə, o, Azərbaycan Respublikası CM-nin müvafiq maddəsi üzrə şübhəli şəxs qismində dindirilməli idi.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, E.M.Ağayevin 29 iyul 2015-ci il tarixdə saat 16 radələrindən azadlıq hüququ kobud şəkildə pozulmuş, yəni o, cinayət təqibi orqanının qərarı olmadan məcburi qaydada Biləsuvar şəhərində yaşadığı evində saxlanılaraq Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparılmışdır. Təhqiqat orqanın tərtib etdiyi 30.07.2015-ci il tarixli əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi barədə protokoldan isə görünür ki, E.M.Ağayev məhkəmənin qərarı olmadan şəxsi axtarışa məruz qalmış, üzərindən narkotik vasitə olan tiryək aşkar edilmiş, sonra da hər hansı bir statusa malik olması müəyyən edilməmiş qaydada ondan izahat alınmış və o, həmin izahatında şəxsi axtarış zamanı üzərində aşkar edilən narkotik vasitənin ona məxsus olmasını bildirmişdir. Halbuki CPM-nin 246.1-ci maddəsinə görə, müstəntiq iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və ya bədənində ola bilən əşya və sənədləri, bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər. Yuxarıda qeyd olunduğu kimi, yalnız şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq mühafizə orqanına gətirildikdə həmin hərəkətlər məhkəmənin qərarı alınmadan aparıla bilər(246.2.1-ci maddə).

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinin III hissəsində qeyd olunur ki, heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

Konstitusiyanın 63-cü maddəsinin IV hissısinə görə, ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın (Avropa Konvensiyasının) „Azadlıq və toxunulmazlıq hüququ" adlanan 5-ci maddəsinin 1-ci bəndində göstərilir ki, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz:

a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra, şəxsi qanuni həbsə almaq;

b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması;

c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;

d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması;

e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması;

f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya, yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması.

Həmin maddənin 2-5-ci bəndlərində isə qeyd olunur ki, tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir. Bu maddənin I bəndinin "s" alt bəndinə müvafiq

olaraq tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəmədə iştirak etmə təminatlarının təqdim edilməsilə şərtləndirilə bilər. Tutulma və ya həbsə alma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir. Bu maddənin müddəalarının pozulması ilə tutulmadan və ya həbsə almadan zərər çəkmiş hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.

Həmin Konvensiyanın 3-cü maddəsinə görə, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alzaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

"Layıcov Azərbaycana qarşı" iş üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 10 aprel 2014-cü il tarixli Qərarında qeyd olunur ki, Məhkəmə təkrar edir ki, 3-cü maddə demokratik cəmiyyətlərin ən əsas dəyərlərindən birini təsbit edir. Hətta terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi ən çətin şəraitdə belə Konvensiya işgəncəni və qeyri-insani və ya alzaldıcı rəftarı, yaxud cəzanı qəti şəkildə qadağan edir.

Konvensiyanın və onun 1 və 4 nömrəli Protokollarının müddəalarından fərqli olaraq 3-cü maddə hər hansı istisnanı nəzərdə tutmamışdır və hətta insanların həyatı üçün təhlükə doğuran fövqəladə vəziyyətin olması halında belə 15-ci maddənin 2-ci bəndi ondan hər hansı formada kənara çıxmağa imkan vermir (bax: "*Assenov və Digərləri Bolqarıstana qarşı*" (*Assenov and Others v. Bulgaria,* 28 October 1998, § 93, *Reports of Judgments and Decisions* 1998-VIII) və "*Selmuni Fransaya qarşı*" (*Sel-mouni v. France* [GC], no. 25803/94, § 95, ECHR 1999-V)). ... Rəftar zərər çəkmiş şəxsdə qorxu, əzab və alzalma hissləri yaradaraq onu təhqir edirsə və ya ləyaqətini aşağılayırsa, Məhkəmə tərəfindən "alzaldıcı" hesab edilir.

"Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və insan hüquqları üzrə Avropa məhkəməsinin presedentlərinin tətbiqi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli, 5 nömrəli Qərarının 2 və 3-cü bəndində göstərilir ki, Azərbaycan Respublikası «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının iştirakçısı

və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır. Azərbaycan Respublikası Konvensiyanı ratifikasiya etdiyi dövrdən sonra yurisdiksiyası altında olan insanların Konvensiyada nəzərdə tutulan hüquqlarını təmin etməlidir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin həmin hüquqların təmininə yönəlmiş qərarlarının icrası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsidir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər. «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası normaları hüququn digər normalarından təcrid olunmuş şəkildə deyil, beynəlxalq hüququn müvafiq normaları nəzərə alınmaqla təfsir və tətbiq edilməlidir. Beynəlxalq müqavilələrin, o cümlədən «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası normalarının təfsiri zamanı onun konteksti ilə yanaşı, müqavilənin sonrakı tətbiqi təcrübəsinə istinad edilməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 04 mart 2011-ci il tarixli 2 nömrəli Qərarının 28-ci bəndində göstərilir ki, məhkəmələrin diqqətinə çatdırılsın ki, Azərbaycan Respublikası CPM-nin 246.2.1-ci maddəsinə əsasən məhkəmənin qərarı olmadan şəxsi axtarış şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə aparıla bilər. Azərbaycan Respublikası CPM-nin 153-cü maddəsinin mənasına görə isə tutulmuş şəxs təxirə salınmadan polis və digər tətqiqat orqanlarının müvvəqəti saxlama yerinə gətirilməli və onun tutulması müvafiq protokolla rəsmiləşdirilməlidir. Qanunun bu normalarının düzgün tətbiqi məsələsini nizama salmaq məqsədi ilə məhkəmələrə izah edilsin ki, şəxsi axtarışın şübhəli şəxs qismində tutma protokolu tərtib olunmazdan əvvəl (şəxsi axtarış barədə məhkəmə qərarı olmadan) aparılması halı müəyyən edildikdə məhkəmə buna münasibətini bildirməli və bu yolla əldə olunmuş sübutların mümkünlüyü məsələsini Azərbaycan Respublikası CPM-nin 125.1, 125.2.1 və 125.2.7-ci maddələrinə uyğun olaraq həll etməlidir.

Azərbaycan Respublikası CPM-nin 124.1-ci maddəsinə əsasən, məhkəmənin və ya cinayət prosesi tərəfərinin əldə etdiyi mütəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur.

Həmin Məcəllənin 124.2-ci maddəsinə görə, cinayət prosesində şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxsin və şahidlərin ifadələri, ekspertin rəyi, maddi sübutlar, istintaq və məhkəmə hərəkətlərinin protokolları və digər sənədlər sübut kimi qəbul olunur.

Həmin Məcəllənin 125.1-ci maddəsinə əsasən, məlumatların, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda onlar sübut kimi qəbul edilə bilərlər.

Həmin Məcəllənin 125.2-ci maddəsinə görə, aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:

-insan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda(125.2.1-ci maddə);

-zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alzaldan hərəkətlərin tətbiq edilməsi ilə(125.2.2-ci maddə);

-şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə(125.2.3-cü maddə);

-cinayət prosesində iştirak edən şəxsin hüquq və vəzifələrinin izah edilməməsi, tam və ya düzgün izah edilməməsi nəticəsində öz hüquq və vəzifələrini yanlış başa düşməsindən istifadə etməklə(125.2.4-cü maddə);

-cinayət təqibi üzrə icraatı həyata keçirmək, istintaq və ya digər prosessual hərəkətlər aparmaq hüququ olmayan şəxs tərəfindən bu hərəkətlər edildikdə(125.2.5-ci maddə);

-cinayət prosesində onun iştirakını istisna edən halları bildiyi və ya bilməli olduğu halda etiraz edilməli şəxsin iştirakı ilə(125.2.6-cı maddə);

-istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda(125.2.7-ci maddə);

-sənədi və ya digər əşyanı tanımağa qadir olmayan, onun həqiqiliyini, mənbəyini, əldə olunma hallarını təsdiq edə bilməyən şəxsdən alındıqda(125.2.8-ci maddə);

-məhkəmə iclasında məlum olmayan şəxsdən, yaxud müəyyən olunmayan mənbədən alındıqda(125.2.9-cu maddə);

-müasir elmi baxışlara zidd üsulların tətbiqi nəticəsində alındıqda(125.2.9-cu maddə).

Həmin Məcəllənin 125.3-cü maddəsinə görə, bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş hallarda alınmış məlumatlar, sənədlər və əşyalar hüquqi qüvvəsi olmayan hesab edilir və onlar ittihamın düzgün həlli üçün hər hansı halın sübut olunmasında istifadə edilə bilməz.

İş materiallarının tədqiqindən və apellyasiya instansiyası məhkəməsində aparılmış qismən məhkəmə istintaqının nəticələrindən aydın olur ki, Ağayev Etibar Mirnağı oğlu 29 iyul 2015-ci il tarixdə saat 16 radələrində Biləsuvar şəhərində yaşadığı evində polis əməkdaşları tərəfindən saxlanılarkən Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malik olan Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinin, Avropa Konvensiyasının 3, 5 və 6-cı maddələrinin, Azərbaycan Respublikası CPM-nin 125.2.1 və 125.2.3-cü maddələrinin tələbləri həm əməliyyat- axtarış fəaliyyətinin subyekti, həm də ibtidai araşdırma orqanı tərəfindən pozulmuş, yəni o, insan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, habelə Azərbaycan Respublikası CPM-nin tələblərinin pozulması ilə cinayət prosesi iştirakçısı kimi qanunla təminat verilən hüquqlardan məhrum edilmişdir. Ona görə də məhkəmə kollegiyası iş üzrə toplanılmış sübutların əldə edilməsi prosedurunu, həmin sübutların mənsubiyyətini, mümkünlüyünü və  mütəbərliyini Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası CPM-nin, Azərbaycan Respublikası CM-nin yuxarıda sadalanan normalarının tələbləri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi mövqeyi, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri kontekstindən dəyərləndirərək hesab edir ki, Ağayev Etibar Mirnağı oğlunun ibtidai istintaq orqanının iddiasına görə 29 iyul 2015-ci il tarixdə saat 21:00-da Biləsuvar şəhərində yerləşən «Zirvə» mehmanxanasının yaxınlığındakı magistral yolun kənarında onun üzərindən götürülmüş külli miqdarda – 1030,0 qram çəkidə narkotik vasitə olan tiryəkə hər hansı bir aidiyyəti yoxdur.

Bundan başqa, "Əməliyyat-axtarış fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin III hissəsində də göstərilir ki, bu maddənin I hissəsinin 3-5, 8 və 10-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə başqa yolla nail ola bilmədikdə məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilə bilər.

Həmin maddənin IV hissəsində göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduğu hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan:

1) şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər;

2) cinayəti hazırlayan, törədən, törətmiş, cəzaçəkmə müəssisələrindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər.

Yəni Azərbaycan Respublikası CPM-nin 90 və 91-ci maddələri ilə yanaşı "Əməliyyat-axtarış fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsi də bir daha təsdiq edir ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri tutma və həbsə alma halları istisna olmaqla heç bir halda məhkəmənin qərarı olmadan şəxsin barəsində şəxsi axtarış və götürmə hərəkətlərini apara bilməzlər.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin I hissəsində də göstərilir ki, əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş təhqiqat orqanları, korrupsiya ilə bağlı cinayətlər üzrə isə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı həyata keçirir.

Çünki Azərbaycan Respublikası CPM-nin 85.2.1-ci maddəsinə əsasən, müstəntiq bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfi, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək,

səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirməlidir.

Azərbaycan Respublikası CPM-nin 32.2.7-ci maddəsinə görə, məhkəmə tərəfindən hökm yalnız cinayət prosesi tərəfərinin iştirakı bərabər əsaslarla təmin edilməklə tədqiq olunmuş sübutlarla əsaslandırılır.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinə görə, məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Konstitusiyanın 129-cu maddəsinin III hissəsinə görə, məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır.

Konstitusiyanın 147-ci maddəsinin I və II hissələrinə görə, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

Konstitusiyanın 63-cü maddəsinə görə, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

Həmçinin yuxarıda adı çəkilən “Layıcov Azərbaycana qarşı” iş üzrə İnsan

Hüquqları üzrə Avropa Məhkəməsinin 10 aprel 2014-cü il tarixli Qərarının 63-cü bəndində qeyd olunur ki, ... prinsip etibarı ilə konkret sübut növlərinin, misal üçün ölkə qanunvericiliyinə görə qanunsuz yolla əldə edilmiş sübutun mümkünlüyünü və ya təbii olaraq ərizəçinin təqsirli olub-olmadığını müəyyənləşdirmək Məhkəmənin vəzifəsi deyil. Burada cavab verilməli olan sual bütünlükdə prosesin, o cümlədən sübutların əldə edilmə yollarının qanuni olub-olmadığıdır (digər qərarlarla yanaşı bax: “*Xan-Birləşmiş-Krallığa-qarşı*” (*Khan-v.-the-United-Kingdom*, no. 35394/97, § 34, ECHR 2000-V) və “*Allan-Birləşmiş-Krallığa-qarşı*” (*Allan-v.-the-United-Kingdom*,no. 48539/99, § 42, ECHR 2002- IX)).

Həmin Qərarın 64-cü bəndində göstərilir ki, prosesin bütünlükdə ədalətli olub-olmadığını müəyyən edən zaman eyni zamanda müdafiə tərəfinin hüquqlarının təmin olunub-olunmadığına fikir verilməlidir. Xüsusilə, ərizəçinin sübutun mötəbərliyinə

etiraz etməsi və onu təkzib etməsi üçün imkan yaradılmalıdır. Bundan əlavə, sübutun keyfiyyəti, o cümlədən onun əldə edilməsi şəraitinin sübutun mötəbərliyi və ya düzgünlüyünü şübhə altına alıb-almadığı nəzərə alınmalıdır (bax: yuxarıda qeyd edilmiş "*Xan*" işi, 35-ci və 37-ci bəndlər və yuxarıda qeyd edilmiş "*Allan*" işi, 43-cü bənd). Sübutun mötəbərliyi mübahisə olunduqda sübutun mümkünlüyünün araşdırılması üçün ədalətli prosedurların olması daha da çox əhəmiyyət kəsb etmiş olur (bax: yuxarıda qeyd edilmiş "*Allan*" işi, 47-ci bənd və "*Bıkov-Rusiyaya-qarşı*" (*Bykov-v.-Russia*-[GC], no. 4378/02, § 95, CHR 2009)).

Həmin Qərarın 65-ci bəndində qeyd olunur ki, məhkəmə təkrar edir ki, cinayət işləri ilə bağlı 6-cı maddənin ilkin məqsədi "cinayət məsuliyyəti"ni müəyyən etmək səlahiyyəti olan "məhkəmə" tərəfindən ədalətli araşdırmanın aparılmasının təmin edilməsi olsa da, bu, həmin maddənin məhkəməyə qədərki proseslərə tətbiq edilmədiyi anlamına gəlmir. Belə ki, 6-cı maddənin müddəalarına ilkin olaraq əməl olunmaması məhkəmə baxışının ədalətliliyinə ciddi xələl gətirdikdə, həmin maddə işin məhkəməyə göndərilməsinə qədər olan mərhələyə də tətbiq oluna bilər (bax: "*Salduz-Türkiyəyə-qarşı*" (*Salduz-v.-Turkey*-[GC], no. 36391/02, § 50, 27 November 2008)).

Həmin Qərarın 69-cu bəndində göstərilir ki, məhkəmə ilk növbədə qeyd edir ki, ərizəçinin üzərində və onun avtomobilində axtarışın onun həbsindən dərhal sonra həyata keçirilmədiyi tərəfər arasında mübahisə doğurmur. Bu axtarış onun həbs olunduğu yerin yaxınlığında deyil, Zaqatala Rayon Polis Şöbəsində aparılmışdır. Məhkəmə bununla bağlı qeyd edir ki, həbslə axtarış arasındakı təxminən otuz dəqiqəlik vaxt boşluğu sübutun "qoyulması" mümkünlüyü ilə bağlı qanuni narahatlıqlar ortaya çıxarır, belə ki, bu vaxt ərzində ərizəçi tamamilə polisin nəzarəti altında idi. Məhkəmə bundan əlavə qeyd edir ki, istintaq orqanları ölkədə keçirilmiş məhkəmə prosesləri zamanı ərizəçinin və onun avtomobilinin axtarışının video çəkilişinin surətini təqdim etməmiş (yuxarıda

21-ci bəndə bax) və Hökumətdən açıq şəkildə xahiş edilsə də, o, sözü gedən video çəkilişinin surətini Məhkəməyə təqdim etməmişdir.

Həmin Qərarın 70-ci bəndində qeyd olunur ki, hər bir halda hazırkı işdə axtarışın ərizəçinin həbsindən birbaşa sonra həyata keçirilməsini mümkünsöz edən hər hansı xüsusi halın mövcud olmasını güman etməyə əsas verən heç bir dəlil yoxdur. Bundan əlavə, onun hansı səbəbə həbs yerindən təxminən beş-on dəqiqə aralıda yerləşən

Balakən Rayon Polis Şöbəsinə deyil, Zaqatala Rayon Polis Şöbəsinə aparıldığı aydın deyil.

Həmin Qərarın 73-cü bəndində göstərilir ki, ...Məhkəmə qeyd edir ki, ərizəçi onun üzərində və avtomobilində tapılmış maddi sübutun mötəbərliyi məsələsini istər cinayət prosesinin başlanğıcında, istərsə də bütün məhkəmələrdə keçirilmiş proseslərdə qaldırmışdır. Lakin bu məsələyə ölkə məhkəmələri adekvat şəkildə baxmamışdır. Belə ki, onların qərarlarında bu məsələyə toxunulmamışdır.

Həmin Qərarın 74-cü bəndində qeyd olunur ki, Məhkəmə bununla bağlı qeyd edir ki, ərizəçinin Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə məhkum edilməsini son olaraq müəyyən etmiş Apellyasiya Məhkəməsinin 2006-cı il 22 dekabr tarixli qərarı ərizəçinin əleyhinə N.V. və H.M.-nin ifadələri kimi digər sübutların istifadə edilməsini istisna etmiş, lakin 2005-ci il 17 mart tarixində həyata keçirilmiş axtarış zamanı əldə edilmiş sübutlardan istifadə məsələsinə toxunmamışdır. Ali Məhkəmənin ərizəçinin üzərində və avtomobilində axtarışın hansı səbəbdən həbs yerində dərhal həyata keçirilmədiyini araşdırmağı apelyasiya məhkəməsindən xahiş etməsinə baxmayaraq Apellyasiya Məhkəməsi 2006-cı il 22 dekabr tarixli qərarında bu məsələyə toxunmamışdır.

Həmin Qərarın 76 və 77-ci bəndlərində göstərilir ki, Məhkəmə ərizəçinin üzərində və onun avtomobilində tapılmış maddi sübutun onun barəsində yekun ittiham hökmünün çıxarılması üçün yeganə sübut kimi çıxış etdiyini nəzərə alaraq hesab edir ki, yuxarıdakı mülahizələr Məhkəmənin ərizəçiyə qarşı məhkəmədə istifadə olunmuş maddi sübutun əldə edilmə üsulunun və bu sübutun mötəbərliyi ilə bağlı onun etirazları və haqlı dəlillərinə yerli məhkəmələr tərəfindən baxılmaması proseslərin bütünlükdə ədalətsiz olması qənaətinə gəlməsi üçün kifayətdir. ...beləliklə, bu işdə Konvensiyanın 6-cı maddəsinin pozuntusuna yol verilmişdir.

Yəni Avropa Məhkəməsinin qənaətincə, axtarış (o cümlədən şəxsi axtarış) şəxs saxlanıldıqdan dərhal sonra cinayət-prosessual qanunvericiliyin tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir. Halbuki hazırkı işdə də bu tələbə əməl olunmamışdır. Belə ki, Ağayev Etibar Mirnağı oğlu 29 iyul 2015-ci il tarixdə saat 16 radələrində Biləsuvar şəhərində yaşadığı evdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılmasına baxmayaraq, o, dərhal polis və digər təhqiqat orqanlarının müvvəqəti saxlama yerinə gətirilməmiş və onun tutulması müvafiq protokolla rəsmiləşdirilməmiş, 29 iyul

2015-ci il tarixdə saat 21 radələrində üzərində 1030,0 qram çəkidə narkotik vasitə olan tiryəkin aşkar edilməsi barədə 30 iyul 2015-ci il tarixdə protokol tərtib olunmuşdur. müdafiəçi ilə isə yalnız 30 iyul 2015-ci il tarixdə protokol tərtib edilərkən təmin olunmuşdur.

Azərbaycan Respublikası CPM-nin 94.1-ci maddəsinə görə, cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı ilə aşkar olunan faktların, onların məzmununun, gedişinin və nəticələrinin təsdiq olunması üçün bu Məcəllənin 236, 244, 246-cı maddələrində nəzərdə tutulmuş hallarda istintaq hərəkətinin aparılmasında iştirak etmək üçün cəlb edilmiş şəxs hal şahidi ola bilər. Təhqiqat, ibtidai istintaq, prokurorluq orqanlarının və məhkəmələrin əməkdaşları, yetkinlik yaşına çatmamışlar, Azərbaycan Respublikasının vətəndaşı olmayanlar, cinayət prosesinin iştirakçısı və ya onların yaxın qohumları, habelə görmə, eşitmə və nitq qabiliyyətində qüsurları olan və ya psixi xəstəliklərdən əziyyət çəkən şəxslər cinayət işi üzrə hal şahidi ola bilməzlər. Hal şahidi qismində cəlb olunmuş hər bir şəxs onun iştirakı ilə baş verənləri tam və düzgün dərk etmək qabiliyyətinə malik olmalıdır.

Lakin apellyasiya məhkəməsində icraat zamanı müəyyən olunmuşdur ki, hazırkı iş üzrə hal şahidi Yaqubov Rəcəb İsrafil oğlu Zülfüqarov Bəxtiyar Abulla oğlunun cinayət işində Azərbaycan Respublikası DİN-nin BNMİ-nin əməliyyat müvəkkili polis leytenantı Alışov Elvin Yaqub oğlunun da iştirak etdiyi əməliyyat tədbirində hal şahidi kimi iştirak etmişdir. Yəni hazırkı işdə hal şahidi Rəcəb Yaqubov cinayət prosesində şəxsi marağı olmayan şəxs hesab oluna bilməz.

Azərbaycan Respublikası CPM-nin 21.2-ci maddəsində nəzərdə tutulur ki, şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedura daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir.

Həmin Məcəllənin 21.3-cü maddəsinə görə cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

Həmin Məcəllənin 28.5-ci maddəsinə görə şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır.

Bundan başqa, Azərbaycan Respublikası CPM-nin 25.3-cü maddəsinə əsasən hakimlər cinayət işlərini sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquqi düşüncəsi ilə həll edirlər. Hazırkı işə baxmış məhkəmə qanunun bu tələbinə ziddinə olaraq sübutları Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində göstərilmiş təqsirsizlik prezumpsiyası və Azərbaycan Respublikasının CPM-nin tələbləri baxımından düzgün araşdırmamış, habelə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, Ağayev Etibar Mirnağı oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3-cü maddələri ilə elan olunmuş ittiham üzrə cinayətin törədilməsinə aidiyyəti olmadığından ona bu maddələr ilə elan olunmuş ittiham üzrə bəraət verilməlidir. Ona görə ki, apellyasiya instansiyasında məhkəmə baxışı zamanı məhkum edilmiş şəxsin törədilmiş cinayətin törədilməsinə aidiyyətini təsdiq edən qanuni əsaslarla toplanılmış hər hansı bir sübut müəyyən edilmədi. Eyni zamanda müəyyən olundu ki, birinci instansiya məhkəməsi işə baxan zaman yuxarıda qeyd edilən kobud hüquq pozuntularını araşdırmadan və onlara hüquqi qiymət vermədən məhkum edilmiş şəxs barəsində qanunsuz və əsassız ittiham hökmü çıxarmışdır.

Azərbaycan Respublikasının CPM-nin 9.2-ci maddəsinə əsasən bu Məcəllə ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər.

Cinayət mühakimə icraatının ümumi prinsipləri və şərtləri cinayət təqibinin həyata keçirilməsi üzrə fəaliyyətin ümumi normativ hüdudlarını müəyyən edir. Ona görə də istənilən prosessual hərəkətin edilməsi və prosessual qərarın qəbulu yalnız bu prinsip və şərtlərin tələblərinə tam dolğunluğu ilə riayət edildikdə qanuni və əsaslandırılımış olacaqdır.

Azərbaycan Respublikasının CPM-nin 138.2-ci maddəsinə görə təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi ittihamçının üzərinə düşür.

Həmin Məcəllənin 145.2-ci maddəsinə əsasən, təhqiqatçı, müstəntiq, prokuror, hakim və ya andlı iclasçılar qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfi, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər.

Həmin Məcəllənin 145.3-cü maddəsində qeyd edilmişdir ki, ittihamın sübut olunmasında yaranan şübhələri digər sübutlarla aradan qaldırmaq mümkün olmadıqda onlar şübhəli və ya təqsirləndirilən şəxsin xeyrinə təfsir edilir.

Həmin Məcəllənin 146.1-ci maddəsinə görə cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin.

Həmin Məcəllənin 349.5.1-ci maddəsinə əsasən məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanmalıdır.

Həmin Məcəllənin 318.1-ci maddəsinə əsasən məhkəmə baxışı zamanı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə yalnız təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş və ya məhkəməyə verilən ittiham daxilində baxılır.

Həmin Məcəllənin 346.1.4-cü maddəsinə əsasən məhkəmə baxışının nəticələrinə dair müşavirə otağında cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsirliliyinin sübuta yetirilib-yetirilmədiyi məhkəmə tərəfindən müzakirə edilməlidir (hakim tərəfindən baxılmalıdır).

Tədqiq edilmiş sübutların məcmusuna qiymət verən və qanunvericiliyin yuxarıda göstərilən tələblərini əldə rəhbər tutan məhkəmə kollegiyası hesab edir ki, Ağayev Etibar Mirnağı oğluna elan olunmuş “29 iyul 2015-ci il tarixdə saat 21:00-da Biləsuvar şəhərində yerləşən «Zirvə» mehmanxanasının yaxınlığındakı magistral yolun kənarında saxlanılaraq üstünə baxış keçirilərkən onun tamah niyyəti və satış məqsədi ilə qanunsuz olaraq əldə edib üzərində daşımaqla saxladığı külli miqdarda – 1030,0 qram çəkidə narkotik vasitə tiryək sağ əlindəki bir ədəd göy rəngli polietilen torbanın izərisində olan bir ədəd şəffaf sellofan torbada aşkar edilərək götürülmüşdür” ittihamına aidiyyəti sübuta yetmir.

Azərbaycan Respublikası CPM-nin 44.2-ci maddəsinə görə bəraət hökmü və ya cinayət təqibinə xitam verilməsi barədə qərar çıxarılması üçün müvafiq olaraq bu Məcəllənin 42 və 43-cü maddələrində göstərilən əsaslar mövcud olmadıqda, məhkəmə ittiham hökmü çıxarır.

Həmin Məcəllənin 42.1.3-cü maddəsinə görə cinayətin törədilməsinə aidiyyəti sübuta yetirilmədikdə məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsə qarşı irə-

li sürülmüş cinayətin törədilməsində onun təqsirsizliyini təsdiq edən bəraət hökmü çıxarılır.

Həmin Məcəllənin 42.2.3-cü maddəsində göstərilir ki, bu Məcəllənin 42.1.3-cü maddəsində nəzərdə tutulmuş əsaslara görə şəxsin təqsirləndirildiyi cinayətin törədilməsinə aidiyyəti olmaması sübut edildikdə və ya onun həmin əmələ aidiyyəti olmadığına görə bəraət hökmü çıxarılır.

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin I və II hissələrinə görə hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli 217A(III) nömrəli Qətnaməsi ilə qəbul və bəyan edilmş "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin 11-ci maddəsinin birinci hissəsinə görə **c**inayət törətməkdə ittiham olunan hər bir şəxs ona müdafiə üçün bütün imkanların təmin olunduğu açıq məhkəmə istintaqında günahı qanuni şəkildə sübut olunanadək günahsız hesab edilmək hüququna malikdir.

Insan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqinda Konvensiyanın 6-cı maddəsinin ikinci hissəsinə görə cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.

Həmin Konvensiyanın 5-ci maddəsinin 1 və 2-ci hissələrinə əsasən, hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs qanunla müəyyən olunmuş hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsinin 1 və 2-ci hissələrinə görə, hər bir insanın azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs

zorla həbs və yaxud dustaq edilə bilməz. Heç kəs qanunla müəyyən olunmuş əsaslar olmadan və müvafiq proseduralara əməl olunmadan azadlıqdan məhrum edilməməlidir. Hər kəs həbs olunarkən, əleyhinə sürülən hər hansı ittiham dərhal ona bildirilir.

BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli 217A(III) nömrəli Qətnaməsi ilə qəbul və bəyan edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 3-cü maddəsinə əsasən hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var.

Həmin Bəyannamənin 7-ci maddəsinə görə, bütün insanlar qanun qarşısında bərabərdirlər və qanun tərəfindən bərabər müdafiə hüququna malikdirlər. Bütün insanlar bu Bəyannaməni pozan hər hansı ayrı-sezkilikdən və belə ayrı-sezkiliyə hər hansı cəhddən eyni dərəcədə müdafiə olunma hüququna malikdirlər.

Həmin Bəyannamənin 8-ci maddəsinə görə, hər bir şəxs Konstitusiyanın və ya qanunun ona verdiyi hüquqların pozulması zamanı səlahiyyətli milli məhkəmələr tərəfindən hüquqlarının bərpa olunması hüququna malikdir.

Həmin Bəyannamənin 9-cu maddəsinə görə, heç kim üzbaşına həbsə, tutulmaya və ya sürgünə məruz qala bilməz.

“Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1.1-ci maddəsinə görə, Azərbaycan Respublikası Konstitusiyasının və bu Konstitusiya Qanununun heç bir müddəası dövlət orqanları, təşkilatlar və ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə və ya Azərbaycan Respublikası Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

Həmin Qanunun 2-ci maddəsinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində (müharibənin hüquqauyğun aparılması nəticəsində baş verən ölüm halları istisna olmaqla), 28-ci maddəsinin I hissəsində, 46-cı maddəsinin III hissəsində, 63-cü, 64-cü maddələrində və 71-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan hüquqlar məhdudlaşdırıla bilməz və onlara dair qeyd-şərtlər müəyyən edilə bilməz.

Avropa İnsan Hüquqları Məhkəməsi özünün bir çox qərarlarında (Delcourt Belçikaya qarşı iş üzrə 17 yanvar 1970-ci il tarixli qərarı; Piersack Belçikaya qarşı iş üzrə 01 oktyabr 1982-ci il tarixli qərarı; De Cubber Belçikaya qarşı iş üzrə 26 oktyabr 1984-cü il tarixli qərarı) bunu belə ifadə etmişdir: «Ədalət mühakiməsinin həyata keçirilməsi ilə bərabər, ədalətin bərqərar edildiyi də aydın görünməlidir».

“Taxqet Belçikaya qarşı” iş üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 13 yanvar 2009-cu il tarixli Qərarında göstərilir ki, vacibdir ki, qəbul edilmiş qərarın mənası təqsirləndirilən şəxslərə və eləcə də adından qərar qəbul edilən “Xalqa” izah edilsin, təqsirləndirilən şəxsin təqsirli və ya təqsirsiz olmasına dair qəbul etdiyi də-

lilləri, hər bir suala hansı əsasla təsdiqedici və ya inkar cavab verməsinin səbəbləri göstərilsin.

«Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə» 11 iyun 2004-cü il tarixli 688-İİQD nömrəli Azərbaycan Respublikası Qanununun 3-cü hissəsinin 9-cu bəndinin və 4-cü hissəsinin 7-ci bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 9-cu hissəsinə uyğunluğunun yoxlanılmasına dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi

Plenumunun 25 yanvar 2005-ci il tarixli Qərarının izahına əsasən «istənilən məhkəmə aktının qanuni və əsaslı hesab olunması üçün mütləq şərtlərdən biri onun ədalətli olmasıdır, çünki ədalət mühakiməsinin həyata keçirilməsi ilə bərabər, ədalətin bərqərar edildiyi də aydın görünməlidir».

“Məhkəmə hökmü haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 27 dekabr 1996-cı il tarixli 4 №-li Qərarının 2-ci bəndində qeyd olunur ki, izah edilsin ki, məhkəmənin hökmü yalnız məhkəmə iclasında bilavasitə təhqiq olunan sübutlara əsaslana bilər. Qanunun məzmununa görə, məhkəmə öz nəticələrini şərh edərkən, iş üzrə toplanılan, lakin məhkəmə iclasında təhqiq edilməyən və məhkəmə iclas protokolunda öz əksini tapmayan sübutlara istinad edə bilməz. Müttəhimin, zərərzəkmişin, şahidlərin təhqiqat, ibtidai istintaq və ya başqa məhkəmə iclasında verdikləri ifadələrə o vaxt istinad etmək olar ki, onlar məhkəmə iclasında elan edilməklə yanaşı, başqa sübutlarla müqayisəli şəkildə təhqiq edilmiş olsun.

Azərbaycan Respublikasının CPM-nin 350.1-ci maddəsinə əsasən, məhkəmənin bəraət hökmü təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb edildiyi və məhkəməyə verildiyi ittiham üzrə cinayətin törədilməsində onun təqsirli olmaması haqqında məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə qərarını əks etdirir.

Həmin Məcəllənin 350.2-ci maddəsinə əsasən, bu Məcəllənin 42.1-ci maddəsində nəzərdə tutulmuş hallardan biri olduqda, aparılmış məhkəmə baxışının nəticələrinə dair məhkəmə bəraət hökmü çıxarmalıdır.

Həmin Məcəllənin 350.4-cü maddəsinə əsasən, bəraət hökmü çıxarılarkən cinayəti törətmiş şəxs müəyyən edilməmiş qaldıqda, hökm qanuni qüvvəyə mindikdən sonra bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş qaydada həmin şəxsin cinayət təqibi məsələsinin həll edilməsi üçün məhkəmə baxılmış cinayət işi üzrə materialları və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir.

Həmin Məcəllənin 398.1.2-ci maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü və ya qərarını ləğv edərək yeni hökm və ya qərar çıxarmağa haqlıdır.

Həmin Məcəllənin 399.1.3-cü maddəsinə görə, birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş iş üçün əhəmiyyətli olan halların sübuta yetirilməməsi birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsasdır.

Həmin Məcəllənin 402-ci maddəsinə əsasən, irəli sürülmüş ittihama baxılması üçün mühüm əhəmiyyətə malik olan hallar birinci instansiya məhkəməsinin hökm və ya qərarında qanunda göstərilən sübutlarla təsdiq edilmədikdə, irəli sürülmüş ittihama baxılması üçün mühüm əhəmiyyətə malik olan hallar birinci instansiya məhkəməsinin hökm və ya qərarında mütəbər olmayan, ziddiyyətli, yolverilməz və ya aid olmayan sübutlarla təsdiq edildikdə birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş hallar sübuta yetirilməmiş hesab edilir.

Həmin Məcəllənin 33-cü maddəsinə görə, hakimlər cinayət mühakimə icraatının həyata keçirilməsində cinayət işi üzrə toplanmış sübutları bu Məcəllənin tələblərinə əsasən qiymətləndirirlər. Cinayət mühakimə icraatı həyata keçirilərkən bu Məcəllənin 125, 144—146-cı maddələrinin müddəalarının pozulması yolverilməzdir. Cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur. Hakimlərin sübutlara və sair materiallara qərəzli münasibət bəsləməsi, mövcud hüquqi prosedura daxilində tədqiq edilənədək sübut və digər materiallardan birinə digərinə nisbətdə çox və ya az əhəmiyyət verilməsi yolverilməzdir.

Bununla da, məhkəmə kollegiyası iş üzrə toplanmış, birinci instansiya və apellyasiya instansiyası məhkəməsinin məhkəmə iclaslarında tədqiq edilmiş sübutları bir daha təhlil edib, həm onlara, həm də yuxarıda qeyd edilən hallara, həmçinin apellyasiya şikayəti üzrə apellyasiya instansiyasında aparılmış qismən məhkəmə istintaqının nəticələrinə əsaslanıb, onlara obyektiv hüquqi qiymət verərək, eləcə də Azərbaycan Respublikası CM-nin, Azərbaycan Respublikası CPM-nın, "Məhkəmə hökmü haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 27 dekabr 1996-cı il tarixli 4 №- li və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə» 11 iyun 2004-cü il tarixli 688-İİQD nömrəli Azərbaycan Respublikası Qanununun 3-cü hissəsinin 9-cu bəndinin və 4-cü hissəsinin 7-ci bəndinin Azər-

baycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 9-cu hissəsinə uyğunluğunun yoxlanılmasına dair» 25 yanvar 2005-ci il tarixli qərarlarının yuxarıda sadalanan normalarının tələblərini, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsinin yuxarıda göstərilən presedentlərini nəzərə alaraq Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayətinin təmin edilməsini, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmünün məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlunun apellyasiya şikayətinə əsasən ləğv olunmasını və iş üzrə yeni hökm çıxarılmasını, Ağayev Etibar Mirnağı oğluna Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə elan edilmiş ittiham üzrə isə cinayətin törədilməsinə aidiyyəti olmadığına görə bəraət verilməsini məqsədəuyğun hesab edir.

Eyni zamanda məhkəmə kollegiyası yuxarıda göstərilənləri əsas tutub, həmçinin toplanmış sübutları Azərbaycan Respublikası CPM-nin yuxarıda sadalanan normalarının tələbləri, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin yuxarıda göstərilən presedentləri prizmasından qiymətləndirərək Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən tərtib olunmuş 30 iyul 2015-ci il tarixli "Əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi haqqında" protokolun, şahidlər Alışov Elvin Yaqub oğlu, Məmmədov Nadir Müslüm oğlu, Zeynalov Şahlar Nəbi oğlu, Yaqubov Rəcəb İsrafil oğlu və Hacıyev Rüvşən Məmməd oğlunun ifadələrinin sübutlar siyahısından çıxarılmasını məqsədəuyğun hesab edir.

Həmçinin məhkəmə kollegiyası Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 350.4-cü maddəsinə əsasən, Biləsuvar şəhərində aşkar olunmuş xalis şəkisi 1030,0 qram təşkil etmiş narkotik vasitə olan tiryəkin əldə edilməsi, daşınması və saxlanılması cinayətini törətmiş şəxs(şəxslər) müəyyən edilməmiş qaldığından həmin şəxsin(şəxslərin) cinayət təqibi məsələsinin həll edilməsi üçün cinayət işinin materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubova göndərilməsini məqsədəuyğun sayır.

İş üzrə ekspertiza tədqiqatının dəyəri olan 73 manat 04 qəpik manat pul Azərbaycan Respublikasının Dövlət büdcəsi hesabına Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə ödənilməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası CPM-nin 42.1.3, 344-357, 397-399, 402, 407-410 və 412-ci maddələrini rəhbər tutaraq Şirvan Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası

**H Ö K M  E T D İ :**

Ağayev Etibar Mirnağı oğlunun Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddələri ilə məhkum edilməsi barədə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmündən məhkum edilmiş şəxsin müdafiəçisi Quliyev Fədai Əli oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilsin.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 12 avqust 2016-cı il tarixli, 1(089)-315/2016 nömrəli hökmü məhkum edilmiş şəxs Ağayev Etibar Mirnağı oğlunun müdafiəçisi Quliyev Fədai Əli oğlunun apellyasiya şikayətinə əsasən ləğv edilsin və iş üzrə yeni hökm çıxarılsın.

Azərbaycan Respublikası DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili Alışov Elvin Yaqub oğlu tərəfindən tərtib olunmuş 30 iyul 2015-ci il tarixli "Əməliyyat tədbirinin keçirilməsi və maddi sübutun götürülməsi haqqında" protokol, şahidlər Alışov Elvin Yaqub oğlu, Məmmədov Nadir Müslüm oğlu, Zeynalov Şahlar Nəbi oğlu, Yaqubov Rəcəb İsrafil oğlu və Hacıyev Rüvşən Məmməd oğlunun ifadələri sübutlar siyahısından çıxarılsın.

Ağayev Etibar Mirnağı oğluna cinayətin törədilməsinə aidiyyəti olmadığına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3-cü maddələri ilə bəraət verilsin.

Ağayev Etibar Mirnağı oğlunun barəsində seçilmiş həbs qətimkan tədbiri ləğv edilsin və o, dərhal məhkəmə iclas zalından həbsdən azad edilsin.

İş üzrə ekspertiza tədqiqatının dəyəri olan 73 manat 04 qəpik pul Azərbaycan Respublikasının Dövlət büdcəsi hesabına Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə ödənilsin.

Hökmün ekspertiza xərcinə aid olan hissəsinin icrası Bilsuvar Rayon İcra Şöbəsinə həvalə edilsin.

Biləsuvar şəhərində aşkar olunmuş xalis şəkisi 1030,0 qram təşkil etmiş narkotik vasitə olan tiryəkin əldə edilməsi, daşınması və saxlanılması cinayətini törətmiş

şəxs(şəxslər) müəyyən edilməmiş qaldığından həmin şəxsin(şəxslərin) cinayət təqibi məsələsinin həll edilməsi üçün cinayət işinin materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubova göndərilsin.

Hökm elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir.

Hökmdən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 410-cu maddəsində nəzərdə tutulmuş müddətlərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına kassasiya şikayəti və kassasiya protesti verilə bilər.

**Sədrlik edən:** **Amil Dosiyev**

**Hakimlər:** **Zəki Babayev**
**Ələsgər Novruzov**

Sədrlik edən: İmza var. Hakimlər: İmzalar var

Əsli ilə düzdür. Sədrlik edən: Amil Dosiyev
25yanvarl 2017-ci il

**Əlavə 2.**

## Müdavim, dinləyici və ali məktəb tələbələrinə tövsiyyə olunan ədəbiyyatın (monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və elmi məqalələr)

## SİYAHISI


1. Аверанова Т.В., Белкин Р.С., Корухов Ю.Х., Россинская Е.Р. Криминалистика: Учебник для ВУЗов. – М.: НОРМА, 2000.
2. Актуальные вопросы теории и практики ОРД: Сб. статей. – М.: Академия Управления МВД РФ, 2001.
3. Алексеев М. Лексика русской разведки (исторический обзор). – М.: Междунар. отношения, 1996.
4. Ануашат Э. Искусство раскрытия преступлений и законы логики. – М.: ЛексЭСТ, 2001.
5. Атмажитов В.М., Бобров В.Г. О законодательном регулировании оперативно-розыскной деятельности: Научный доклад. – М., 2003.
6. Ахкубеков А.Х. Правовое регулирование оперативно-розыскной деятельности за рубежом и использование её результатов в уголовном процессе. – М., 2004.
7. Басков В.И. Оперативно-розыскная деятельность. Учебно-метод. пособие. – М.: БЕК, 1997.
8. Батаев И.А. Уголовно-процессуальный аспект использования результатов оперативно-розыскной деятельности. – Ижевск, 2005.
9. Батюшин Н. Тайная военная разведка и борьба с ней. – М.: X-History, 2002.
10. Бедняков Д.И. Непроцессуальная информация и расследование преступлений. – М.: Юрид. лит., 1991.
11. Белкин А.Р. Теория доказывания: Научно-метод. пособие. – М.: НОРМА, 1999.
12. Белкин А.Р. Теория доказывания в уголовном судопроизводстве. – М.: НОРМА, 2005.
13. Белкин Р.С. Криминалистическая энциклопедия. – М.: БЕК, 1997.

14. Белкин Р.С. Криминалистика: проблемы сегодняшнего дня. Злободневные вопросы российской криминалистики. – М.: НОРМА, 2001.

15. Белкин Р.С. Криминалистика. Учебник. – М.: ЮНИТИ: Закон и порядок, 2001.

16. Бельский К.С. Полицейское право. – М.: Дело и сервис, 2004.

17. Бобров В.Г. Понятие оперативно-розыскного мероприятия. Основания и условия проведения оперативно-розыскных мероприятий: Лекция. – М.: Академия управления МВД России, 2003.

18. Борисов А.Н. Особый отдел империи: История заграничной агентуры российских спецслужб. – СПб.: Нева; М.: ОЛМА-Пресс, 2001.

19. Борьба с международным терроризмом: Сб. докладов (Сост. К.А. Бекяшев, М.Р.Авясов. – М.: ТК Велби: Проспект, 2005.

20. Бояджи Э. История шпионажа: В 2 т.: Пер. с англ. – М.: ОЛМА-Пресс, 2003.

21. Брусницын Л.В. Обеспечение безопасности лиц, содействующих уголовному правосудию: российский, зарубежный и международный опыт XX века (процессуальное исследование). – М.: Юрлитинформ, 2001.

22. Букейханов П.Е. Аспекты стратегии и тактики розыска пропавших без вести. – М.: Агенство печати «Наука», 2005.

23. Бухарев Н.Н., Захаров С.И., Рохлин В.И., Фёдоров А.В., Шахматов А.В. Прослушивание телефонных переговоров в оперативно-розыскной деятельности: Учеб. Пособие (Под общ. ред. В.П.Сальникова. – СПб.: Фонд «Университет», 2005.

24. Вещественные доказательства: Информационные технологии процессуального доказывания (Под общ. ред. В.Я.Колдина. – М.: НОРМА, 2002).

25. Виниченко Н.А., Захарцев С.И., Рохлин В.И. Правовая регламентация использования результатов оперативно-розыскной деятельности в уголовном судопроизводстве (Под ред. В.П.Сальникова. – СПб., 2004.

26. Власов В.И., Гончаров Н.Ф. История розыскного процесса в России (законодательство и практика). – Домодедово: РИНК МВД России, 1997.

27. Водько Н.П. Характеристика организованной преступности. – М.: МИ МВД России, 2001.

28. Волеводз А.Г. Международный розыск, арест и конфискация полученных преступным путём денежных средств и имущества (правовые основы и методика). – М.: Юрлитинформ, 2000.
29. Волеводз А.Г. Правовое регулирование новых направлений международного сотрудничества в сфере уголовного процесса. – М.: Юрлитинформ, 2002.
30. Волеводз А.Г. Противодействие компьютерным преступлениям: правовые основы международного сотрудничества. – М.: Юрлитинформ, 2002.
31. Воронцов С.А. Правоохранительные органы и спецслужбы Российской Федерации. История и современность. – Ростов н/Д: Феникс, 1999.
32. Гаврилов Б.Я. Обеспечение конституционных прав и свобод человека и гражданина в досудебном производстве. – М.: МПСИ, 2003.
33. Гарфинкель С. Всё под контролем: Кто и как следит за тобой: Пер. с англ. – Екатеринбург: У-Фактория, 2001.
34. Гесснер Р., Херцог У. За фасадом права: методы новой тайной полиции. – М.: Юрид. лит., 1990.
35. Гладких С.Р. Комментарий к Закону «О частной детективной и охранной деятельности». – 2-е изд. – М.: Юрид. Дом «Юстицинформ», 2003.
36. Голубовский В.Ю. Теоретические и правовые аспекты информационного обеспечения оперативно-розыскной деятельности. – СПб.: Санкт-Петербургский университет МВД России, 2000.
37. Горяинов К.К., Кваша Ю.Ф., Сурков К.В. Федеральный закон «Об оперативно-розыскной деятельности»: Комментарий. – М.: Новый Юрист, 1997.
38. Горяинов К.К., Вагин О.А., Исиченко А.П. Теория и практика применения органами внутренних дел Закона «Об оперативно-розыскной деятельности»: Научный доклад. – М.: ВНИИ МВД России, 2001.
39. Государственная тайна и её защита в Российской Федерации (Под общ. ред. М.А.Вуса и А.В.Фёдорова. – СПб.: Юрид. центр Пресс, 2003.
40. Гриб В.Г. Противодействие организованной преступности: Учеб. Пособие для ВУЗов. – М.: ИНФРА-М, 2001.

41. Громов В.И. Дознание и предварительное следствие; Методика расследования преступлений; Осмотр места преступления. – Новое изд., перепеч. С изд. 1926; 1929; 1931 гг. – М.: ЛексЭСТ, 2003.
42. Громов Н.А., Пономаренков В.А., Гущин А.И., Франдифиров Ю.В. Доказательства, дознание и использование результатов ОРД. – М.: ПРИОР, 2001.
43. Громов Н.А., Гущин А.Н., Луговец Н.В., Лямин М.В. Доказательства, доказывание и использование результатов оперативно-розыскной деятельности: Учеб. пособие. – М.: ПРИОР-издат, 2005.
44. Гросс Г. Руководство для судебных следователей как система криминалистики. – Новое изд., перепеч. С изд. 1908 г. – М.: ЛексЭСТ, 2002.
45. Гущин А.Н., Громов Н.А. Царева Н.П., Зайцева С.А., Зейналова Л.М. Оперативно-розыскная деятельность: совершенствование форм вхождения её результатов в уголовный процесс: Учебно-практ. пособие. – 2-е изд. – М., 2004.
46. Давыдов Я.В. Оперативно-розыскная деятельность: Конспект лекций. – М.: Приор-издат, 2005.
47. Давыдов Я.В. Оперативно-розыскная деятельность (шпаргалка). – М.: Приор-издат, 2005.
48. Даллес А. Искусство шпионажа. – М.: Центрополиграф, 2000.
49. Даллес А. Асы шпионажа. – М.: Центрополиграф, 2002.
50. Дамаскин И.А. Сто великих разведчиков. – М.: Вече, 2002.
51. Джайлс Л. Сунь-цзы. Искусство войны: Пер. с англ. – 2-е изд. – Ростов н/Д: Феникс, 2003.
52. Диканова Т.А., Осипов В.Е. Борьба с таможенными преступлениями и отмыванием «грязных» денег: Метод. пособие. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2000.
53. Доказывание в уголовном процессе: традиции и современность /Под ред. В.А.Власихина. – М.: Юристь, 2000.
54. Долгова А.И. Преступность, её организованность и криминальное общество. – И., 2003.
55. Долгова А.И., Евланова О.А. Методика анализа организованной преступности. – М., 2005.

56. Доля Е.А. Использование в доказывании результатов оперативно-розфскной деятельности. – М.: Спарк, 1996.

57. Дубоносов В.С. Провакация взятки либо коммерческого подкупа: Лекция. – М.: Книжный мир, 2002.

58. Дубоносов Е.С. Основы оперативно-розыскной деятельности: Курс лекций. – М.: ЮИ МВД РФ: Книжный мир, 2002.

59. Дубягин Ю.П., Дубягина О.П., Михайлычев Е.А. Комментарий к Федеральному Закону «Об оперативно-розыскной деятельности». – М.: ЗАО Юстицинформ, 2005.

60. Европейский Союз: Справочник-путеводитель /Под ред. О.В.Буториной, Ю.А.Борко, И.Д.Иванова. – 2-е изд. – М.: Деловая литература, 2003.

61. Елинский В.И. Основы методологии теории оперативно-розыскной деятельности. – М., 2001.

62. Елинский В.И. История уголовного сыска в России (X – начало XX в.). – М.: ИНФРА-М, 2004.

63. Епихин А.Ю. Обеспечение безопасности личности в уголовном судопроизводстве. – СПб.: Юрид. центр Пресс, 2004.

64. Ефремов А.М. Оперативно-розыскная деятельность и личность: Монография. – СПб.: Санкт-Петербургский университет МВД России, 2000.

65. Жандармы России (сост. В.С.Измозик. – СПб.: Нева; М.: ОЛМА-Пресс, 2002.

66. Жук О.Д. Уголовное преследование по уголовным делам об организации преступных сообществ (преступных организаций). – М.: ИНФРА-М, 2004.

67. Журналистское расследование: История метода и современная практика /Под общ. ред. А.Д.Константинова. – СПб.: Нева; М.: ОЛМА-Пресс, 2003.

68. Зайцев О.А. Государственная защита участников уголовного процесса. – М.: Экзамен, 2002.

69. Записки Видока – начальника Парижской тайной полиции: Пер. с фр. – Киев: СП «СВЕНАС», 1991.

70. Захарцев С.И. Оперативно-розыскные мероприятия в России и за рубежом. – СПб., 2003.

71. Захарцев С.И. Оперативно-розыскные мероприятия: Общие положения. – СПб.: Юрид. центр Пресс, 2004.
72. Звонарёв К.К. Агентурная разведка: В 2 кн. – М.: Изд. Группа «БДЦ-ПРЕСС», 2003.
73. Землянов В.М. Своя контрразведка. – Минск: Харвест, 2002.
74. Землянов В.М. Основы сыскного ремесла. – Минск: Харвест, 2004.
75. Земскова А.В. Правовые проблемы использования результатов оперативно-розыскных мероприятий в уголовно-процессуальном доказывании. – Волгоград: ВЮЧ МВД России, 2000.
76. Земскова А.В. Теоретические основы использования результатов оперативно-розыскной деятельности при расследовании преступлений. – Волгоград: Волгоградская академия МВД России, 2002.
77. Зникин В.К. Оперативно-розыскное обеспечение раскрытия и расследования преступлений. – Кемерово, 2003.
78. Илларионов В.П., Путова И.В. Правовые и организационно-методические аспекты международного розыска преступников: Учеб. пособие. – М.: Книжный мир, 1999.
79. Илларионов В.П. Синедрион и Кесарь против Иисуса Христа. – М.: Академия, 2003.
80. Исиченко А.П. Оперативно-розыскная криминология: Учеб. пособие для ВУЗов. – М.: ИНФРА-М, 2001.
81. Казак А.Е. Оперативно-розыскная деятельность органов внутренних дел и права человека. – СПб., 1997.
82. Карпец И.И. Сыск (записки начальника уголовного розыска). – М., 1994.
83. Климов И.А., Синилов Г.К., Тузов Л.Л. Агентурный метод защиты интересов личности, общества, государства и борьбы с преступностью: Монография. – Калининград: Калининградский юридический институт МВД России, 2002.
84. Ковалёв О.Г. Оперативно-розыскная деятельность: историко-правовой и психологический анализ: Учеб. пособие. – Владимир, 2003.

85. Ковалёв О.Г., Емельянов С.Н., Веденин С.Т., Баландин Д.А. Введение в оперативно-розыскную деятельность: Учеб. пособие /ВЮИ Минюста России. – Владимир, 2001.
86. Колпакиди А.И., Прохоров Д.П. Внешная разведка России. – СПб.: Нева; М.: ОЛМА-Пресс, 2001.
87. Колпакиди А.И., Серяков М.Л. Щит и меч. Руководители органов государственной безопасности Московской Руси, Российской империи, Советского Союза и Российской Федерации. – СПб.: Нева; М.: ОЛМА-Пресс, 2002.
88. Комментарий к Таможенному кодексу Российской Федерации /Под общ. ред. Ю.Ф.Азарова и Т.В.Баландиной. – М.: Норма, 2004.
89. Комментарий к Федеральному закону «Об адвокатской деятельности и адвокатуре в Российской Федерации» /Под ред. Е.В.Семенянко и А.В. Грипенко. – М.: Норма, 2004.
90. Комментарий к Федеральному закону «Об оперативно-розыскной деятельности». С пост. Прил. Норм. актов /Авт.-сост. А.Ю.Шумилов. – 6-е изд. – М., 2004.
91. Кондрашов Б.П., Соловей Ю.П., Черников В.В. Комментарий к Закону Российской Федерации «О милиции». – 3-е изд. – М.: ТК Велби, 2003.
92. Кореневский Ю.В., Токарева М.Е. Использование результатов оперативно-розыскной деятельности в доказывании по уголовным делам: Метод. пособие. – М.: Юрлитинформ, 2000.
93. Корниенко Н.А. Российские и международные криминалистические учёты. СПб.: Юрид. центр Пресс, 2004.
94. Краткая сыскная энциклопедия: Деятельность оперативно-розыскная, контрразведывательная, частная сыскная (детективная)/ Авт. – сост. А.Ю. Шумилов. – М., 2000.
95. Крашенниников Н.И. Получение оперативно-процессуальной информации о преступлениях и использование её в оперативной судебно-следственной практике. – СПб., 2001.
96. Криминалистика: Учебник для ВУЗов /Под ред. А.Ф.Волынского. – М.: Закон и право: ЮНИТИ-ДАНА, 1999.

97. Криминалистика: Учебник /Отв. Ред. Н.П.Яблоков. – 2-е изд. – М.: Юристь, 2000.
98. Криминалистика: Учебник /Под ред. Е.П.Ищенко. – М.: Юристь, 2000.
99. Криминалистика: Учебник /Под ред. А.Г.Филиппова. – 2-е изд. – М.: Спарк, 2000.
100. Криминалистика: Учебник /Под ред. Т.А.Седовой, А.А.Эксархопуло. – СПб.: Лань, 2001.
101. Криминалистическое обеспечение деятельности криминальной милиции и органов предварительного расследования: Учебник /Под ред. Т.В.Аверьяновой и Р.С.Белкина. – М.: Новый Юрист, 1997.
102. Кудрявцев В.Н. Стратегии борьбы с преступностью. – 2-е изд. – М.: Наука, 2005.
103. Курс криминалистики. Общая часть /Отв. Ред. В.Е.Корноухов. – М.: Юристь, 2000.
104. Лопатин В.Н. Информационная безопасность Росси: Человек. Общество. Государство. – СПб.: Фонд «Университет», 2000.
105. Лубянка: Органы ВЧК-ОГПУ-НКВД-НКГБ-МВД-КГБ. 1917-1991: Справочник /Под ред. А.Н.Яковлева; Сост. А.И.Кокурин, Н.В. Петров. – М.: МФД, 2003.
106. Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Документы высших органов партийной и государственной власти. 1937-1938 /Под ред. А.Н.Яковлева; Сост. В.Н.Хаустов, В.П.Наумов, Н.С.Плотникова. – М.: МФД, 2004.
107. Макаревич Э.Ф. Политический сыск. Истории, судьбы, версии. – М.:Алгоритм, 2002.
108. Маркушин А.Г. Оперативно-розыскная деятельность – необходимость и законность. – Н.Новгород, 1997.
109. МВД России: Энциклопедия /Гл. ред. В.Ф.Некрасов. – М.: Объединённая редакция МВД России: ОЛМА-Пресс, 2002.
110. Международно-правовые основы борьбы с терроризмом: Сб. документов /Сост. В.С.Овчинский. – М.: ИНФРА-М, 2003.

111. Международно-правовые основы борьбы с коррупцией и отмыванием преступных доходов: Сб. документов /Сост. В.С.Овчинский. – М.: ИНФРА-М, 2004.
112. Международно-правовые основы борьбы с незаконной миграцией и торговлей людьми: Сб. документов /Сост. В.С.Овчинский. – М.: ИНФРА-М, 2003.
113. Международно-правовые основы противодействия незаконному обороту наркотиков: Сб. документов /Сост. В.С.Овчинский, А.В.Фёдоров. – М.: ИНФРА-М, 2003.
114. Мешков В.М., Попов В.В. Оперативно-розыскная тактика и особенности легализации полученной информации в ходе предварительного следствия: Учебно-практ. пособие. – М.: Шит-М, 1999.
115. Минин А.Я., Попов В.И., Стрельникова Т.Н. Организация и порядок проведения секретных операций специальными агентами против организованной преступности в США. – М.: МИ МВД России, 1998.
116. Минин А.Я., Попов В.И., Кудин В.А. Практика и порядок проведения тайных действий против организованной преступности в США. – М.: МИ МВД России, 1999.
117. Михайлов В.И. Контролируемая поставка как оперативно-розыскная операция: Учебно-практ. пособие. – М., 1998.
118. Михайлов В.И., Фёдоров А.В. Таможенные преступления: Уголовно-правовой анализ и общие вопросы оперативно-розыскной деятельности. – СПб.: Юрид. центр Пресс, 1999.
119. Монологи: Криминалисты о своей науке, призванной адекватно противостоять современной преступности /Под ред. И.В.Смольникова и В.И. Шиканова. – Иркутск: ИГЭА, 1999.
120. Москалькова Т.Н. Этика уголовно-процессуального доказывания. М., 1996.
121. Налоговое расследование: Экспериментальный учебник /Под ред. Ю.Ф.Кваши. – М.: Юристь, 2000.
122. Необходимое руководство для Агентов Чрезвычайных Комиссий. – М.: ЛесксЭСТ, 2001.

123. Образцов В.А., Богомолова С.Н. Криминалистическая психология: Учеб. пособие для вузов. – М.: ЮНИТИ-ДАНА, 2002.
124. Образцов В.А., Кручинина Н.В. Преступление. Расследование. Проверка достоверности информации: Научно-метод. пособие. – М.: Книжная находка, 2002.
125. Овчинский АС. Информации и оперативно-розыскная деятельность. – М.: ИНФРА-М, 2002.
126. Овчинский В.С. Стратегия борьбы с мафией. – М., 1993.
127. Овчинский В.С., Овчинский С.С. Борьба с мафией в России. – М.: МВД России, 1993.
128. Овчинский В.С. Интерпол (в вопросах и ответах). – М.: ИНФРА-М, 2001.
129. Овчинский В.С. XXI век против мафии. Криминальная глобализация и Конвенция ООН против транснациональной организованной преступности. – М.: ИНФРА-М, 2001.
130. Овчинский В.С. Криминология и биотехнологии. – М.: НОРМА, 2005.
131. Овчинский С.С. Оперативно-розыскная информация. – М.: ИНФРА-М, 2000.
132. Оперативно-розыскная деятельность: Учебник /Под ред. К.К.Горяинова, В.С.Овчинского, А.Ю.Шумилова. – М.: ИНФРА-М, 2001.
133. Оперативно-розыскная деятельность: Учебник /Под ред. К.К.Горяинова, В.С.Овчинского, Г.К.Синилова, А.Ю.Шумилова. 2-е изд., доп. И перераб.– М.: ИНФРА-М, 2004.
134. Оперативно-розыскная деятельность и уголовный процесс:: Учебно-практ. пособие /Под общ. ред. В.В.Черникова, В.Я.Кикотя. – М.: ИНФРА-М, 2002.
135. Оперативно-розыскная энциклопедия /Авт.-сост. А.Ю.Шумилов. – М., 2004.
136. Организованная преступность: Курс лекций. – СПб.: Питер, 2002.
137. Органы охраны правопорядка: Сб. документов /Сост. В.В.Черников. – М.: Проспект, 2004.
138. Осипенко А.Л. Борьба с преступностью в глобальных компьютерных сетях: Международный опыт: Монография. – М.: Норма, 2004.

139. Основные направления противодействия транснациональному организованному наркобизнесу /Под общ. ред. Е.П.Ищенко. – М.: ЛексЭСТ, 2003.
140. Основоположники теории оперативно-розыскной деятельности и их последователи: Бибилиографический справочник. – Калининград: Янтарный сказ, 1998.
141. Основы борьбы с организованной преступностью /Под ред. В.С.Овчинского, В.Е.Эминова, Н.П.Яблокова. – М.: ИНФРА-М, 1996.
142. Основы оперативно-розыскной деятельности: Учебник /Под ред. С.В.Степашина. – СПб.: Лань, 1999.
143. Остапенко П.В. Тайная война в Древнем Мире. – Минск: Харвест, 2004.
144. «Охранка»: Воспоминания руководителей охранных отделений / Вступ. Статья, подгот. Текста и коммент. З.И.Перегудовой: В 2 т. – М.: Новое литературное обозрение, 2004.
145. Перегудова З.И. Политический сыск России (1880-1917 гг.). – М.: РОССПЭП, 2000.
146. Петров В.В. Правовое регулирование осуществления оперативно-розыскных мероприятий по противодействию незаконному обороту наркотиков. – М., 2005.
147. Полиция России: Документы и материалы /Авт.-сост. А.Я.Малыгин и др. Саратов: СЮИ МВД России, 2002.
148. Попов В.Л. Теоретико-правовые аспекты проблемы совершенствования оперативно-розыскной деятельности. – Калининград, 1998.
149. Порубов А.Н. Ложь и борьба с ней на предварительном следствии. – Минск, Амалфея, 2002.
150. Право Европейского Союза: Учебник для вузов /Под ред. С.Ю.Кашкина. – М.: Юристь, 2002.
151. Правовая основа обеспечения национальной безопасности Российской Федерации /Под ред. А.В.Опалева. – М.: ЮНИТИ-ДАНА, 2004.
152. Правовые основы оперативно-розыскных мероприятий /Под ред. Е.М.Рябкова, В.В.Петрова. - М., 2004.

153. Практика уголовного сыска: Научно-практ. сборник /Под ред. А.И.Алексеева. – М.: Лига и Разум, 1999.
154. Проблемы теории и практики оперативно-розыскной деятельности: Материалы научно-практ. конференции /Под ред. К.К.Горяинова, И.А.Климова. – М.: ВНИИ МВД России, 2002.
155. Проблемы формирования уголовно-розыскного права (Актуальные вопросы обнаружения преступлений с помощью негласных возможностей): Вневедомст. Сборник научных работ /Под ред. А.Ю.Шумилова. – М., 2000.
156. Проблемы формирования уголовно-розыскного права (Право и сыск): Авторский сборник научных работ /Авт.-сост. А.Ю.Шумилов. – М., 2001.
157. Проблемы формирования уголовно-розыскного права (Десять лет российскому оперативно-розыскному закону): Вневедомст. сборник научных работ /Под ред. А.Ю.Шумилов. – М., 2002.
158. Проблемы формирования уголовно-розыскного права (Оперативно-розыскная теория и практика в государствах-участниках СНГ): Вневедомственный сборник научных работ /Под ред. А.Ю.Шумилов. – М., 2003.
159. Прокурорский надзор: Учебник для вузов /Под ред. А.Я.Сухарева. – М.: НОРМА, 2004.
160. Профессиональная этика сотрудников правоохранительных органов: Учеб. пособие /Под ред. Г.В.Дубово и А.В.Опалева. – 2-е изд., испр. И доп. – М.: Щит-М, 1999.
161. Прыгунов П.Я. Психологическое обеспечение специальных операций: ролевое поведение: Учеб. пособие. – М.: МПСИ; НПО «МОДЭК», 2003.
162. Радачанский С.Н. Уголовная ответственность за провокацию взятки либо коммерческого подкупа: Учеб. пособие. – М., 2003.
163. Реагирование на преступность: концепции, закон, практика. – М., 2002.
164. Ривман Д.В. Комментарий к Федеральному закону «Об оперативно-розыскной деятельности». – СПб.: Питер, 2003.

165. Российская криминологическая энциклопедия: Преступность и борьба с ней в понятиях и комментариях /Под общ. ред. А.И.Долговой. – М.: НОРМА, 2000.
166. Российский прокурорский надзор: Учебник /Под ред. А.Я.Сухарева. – М.: НОРМА, 2001.
167. Российский сыщик (оперативный) /Гл. ред. А.Ю.Шумилов. – М., 2004.
168. Роуан Р.У. Очерки секретной службы. Из истории разведки. – М.: Крафт+, 2003.
169. Роуэн Р.В. 3000 лет тайных войн. История секретных служб мира. – М.: Вече, 2004.
170. Саммерс Э. «Империя» ФБР: мифы, тайны, интриги: Пер. с англ. – Смоленск: Русич, 2001.
171. Сафонов И.И. Организация раскрытия и расследования терроризма. – М., 2004.
172. Сватиков С. Зарубежная агентура Департамента полиции. – М.: Х-Щисторй, 2002.
173. Словарь оперативно-розыскной деятельности /Авт. сост. А.Ю.Шумилов. – М., 2004.
174. Смирнов М.П. Зарубежная налоговая и криминальная полиция и их оперативно-розыскная деятельность. – М.: Изд-во МГУ, 2000.
175. Смирнов М.П. Комментарии оперативно-розыскного законодательства РФ и зарубежных стран: Учеб. пособие. – М.: Экзамен, 2002.
176. Судоплатов П. Спецоперации. Лубянка и Кремль. 1930-1950-е годы. – М.: ОЛМА-Пресс: Образование, 2003.
177. Сурков К.В. Принципы оперативно-розыскной деятельности и их правовое обеспечение в законодательстве, регламентирующем сыск. – СПб., 1996.
178. Сурков К.В. Опыт законодательного регулирования оперативно-розыскной деяытельности в Российской Федерации. – СПб., 1998.
179. Сысоев Н.Г. Тайный сыск России. От жандармов до чекистов. – М.: Вече, 2005.
180. Тайна преступника. – М.: Книжная находка, 2002.

181. Татасов А.М. Президентский контроль: понятие и система: Учеб. пособие. – СПб.: Юрид. центр Пресс, 2004.
182. Теория и практика использования результатов оперативно-розыскной деятельности в уголовном судопроизводстве: Материалы международной научно-практ. конференции /Под ред. К.К.Горяинова. – М.: ВНИИ МВД России, 2002.
183. Турло С.С., И.П.Залдат. Шпионаж. – М.: Х- Щисторй, 2002.
184. Уголовный процесс России: Учебник /Науч. Ред. В.Т.Томин. – М.: Юрайт-Издат, 2003.
185. Уолмен Дж. Журналистские расследования (Современные методы и техника). – М.: Виоланта, 1998.
186. Устинов В.В. Международный опыт борьбы с терроризмом: стандарты и практика. – М.: Юрлитинформ, 2002.
187. Федеральный закон «Об оперативно-розыскной деятельности»: Научно-практ. комментарий /Под ред. А.Е.Чечетина. – Барнаул: БЮИ МВД России, 2002.
188. Федеральный закон «Об оперативно-розыскной деятельности»: Научно-практ. комментарий /Под ред. В.В.Николюка. – М.: Спарк, 2003.
189. Федеральный закон «Об оперативно-розыскной деятельности» в схемах и акты конституционного правосудия. Учебно-наглядное пособие / Под общ. ред. В.П.Сальникова, А.В.Фёдорова. – 2-е изд. – М.: ИМЦ ГУК МВД России, 2004.
190. Фёдоров А.В., Шахматов А.В. Содействие граждан органам, осуществляющим оперативно-розыскную деятельность: Учеб. пособие /Под общ. ред. В.П.Сальникова. – СПб.: Фонд «Университет», 2004.
191. Фёдоров А.В., Шахматов А.В. Правовое регулирование содействия граждан органам, осуществляющим оперативно-розыскную деятельность. – СПб.: Юрид. центр Пресс, 2005.
192. Харитонов А.Н. Государственный контроль над преступностью (Теоретические и правовые проблемы). – Омск: Омский ЮИ МВД России, 1997.
193. Хомколов В.П. Организация управления оперативно-розыскной деятельностью: системыні подход. – М.: Закон и право: ЮНИТИ, 1999.

194. Черняк Е.Б. Пять столетий войны. Из истории секретной дипломатии и разведки. – 5-е изд. – М., 1991.
195. Черняк Е.Б. Интриги старины глубокой (истории закулисных тайн власти). – М.: РИПОЛ КЛАССИК, 2003.
196. Чертопруд С. Научно-техническая разведка от Ленина до Горбачёва. – М.: ОЛМА-Пресс: Образование, 2002.
197. Чечётин А.Е., Луговик В.Ф. Раскрытие преступлений аппаратами уголовного розыска. – Барнаул, 2002.
198. Чувилёв А.А. Оперативно-розыскное право. – М.: НОРМА, 1999.
199. Шаваев А.Г., Лекарев С.В. Разведка и контрразведка. Фрагменты мирового опыта и теории. – М.: БДЦ-пресс, 2003.
200. Шахматов А.В. Агентурная работа и российское законодательство / Под общ. ред. В.П.Сальникова, А.В.Фёдорова. – СПб.: СпбУ МВД России, 2004.
201. Шматов М.А. Теория оперативно-розыскной деятельности в системе уголовно-правовых наук. – Волгоград: Волгоградская академия МВД России, 2001.
202. Шумилов А.Ю. Проблемы законодательного регулирования оперативно-розыскной деятельности в России. – М., 1997.
203. Шумилов А.Ю. Начала уголовно-розыскного права. – М., 1998.
204. Шумилов А.Ю. Юридические основы оперативно-розыскных мероприятий: Учебно-практ. пособие. – М., 1999.
205. Шумилов А.Ю. Основы уголовно-правовой оценки сыскной информации. – М., 2000.
206. Шумилов А.Ю. Основы уголовно-розыскного права (правовое регулирование оперативно-розыскной деятельности). Общая часть: Учеб. пособие. – М., 2000.
207. Шумилов А.Ю. Оперативно-розыскная деятельность в схемах и определениях: Учеб. пособие. – 3-е изд., испр. и доп. – М., 2003.
208. Шумилов А.Ю. Оперативно-розыскная деятельность: вопросы и ответы: Научно-практ. пособие: В 2 кн. – М., 2005.
209. Экономическая безопасность России: Общий курс: Учебник /Под ред. В.К.Сенчагова. – М.: Дело, 2005.

210. Яблоков Н.П. Криминалистика. – М.: НОРМА – ИНФРА-М, 2000.
211. Яблоков Н.П. Расследование организованной преступной деятельности. – М.: Юристж, 2002.
212. Якимов И.Н. Криминалистика: Руководство по уголовной технике и тактике. – Новое изд., перепеч. С изд. 1925 г. – М.: ЛесксЭСТ, 2002.
213. Яковец Е.Н. Проблемы аналитической работы в оперативно-розыскной деятельности органов внутренних дел. – М., 2005.
214. Ярочкин В.И. Информационная безопасность: Учеб. пособие. – М.: Междунар. отношения, 2000.
215. Рогатых Л.Ф., Стрельченко Э.Г., Токарев С.Б. Борьба с контрабандой наркотических средств, психотропных и сильнодействующих веществ. Под редакцией А.В.Савельева, А.А.Майорова. Изд. «Питер», Санкт-Петербург, 2004
216. Hüseynov Ş.İ.Muradov F.H. «Əməliyyat-axtarış fəaliyyəti». Dərs vəsaiti. Polis Akademiyası. Bakı, 2007.
217. Məmmədov F., Mustafayev M. «Cinayət-axtarış hüququnun əsasları». Dərs vəsaiti. Bakı, 2002.
218. Narkotik vasitələr, psixtrop maddələr və prekursorlar (sənədlər toplusu). SJAD, Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı. JVS, poluqraphic production mətbəəsi.
219. Mansurov R.T. «Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi». Monoqrafiya. Bakı, 2005.
220. Hüseynov Ş.İ., Kazımov İ.Ə. «Əməliyyat-axtarış fəaliyyəti. 100 suala 100 cavab». Dərs vəsaiti. Bakı, 2005.
221. Hüseynov Ş.İ. «Terrorizmə qarşı mübarizə haqqında metodik tövsiyə». DİN-in BKİ və Polis Akademiyası, Xüsusi kitabxana. Bakı, 2000.
222. Hüseynov Ş.İ., Şükürov Ş.T., Eyyubov R. və b. «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə üzrə» dərs vəsaiti. Bakı, 2006, DİN-in BKİ və Polis Akademiyası. Xüsusi kitabxana.
223. Hüseynov Ş.İ., Muradov E.Q., Nəsirov R.M. «Narkomanlığa qarşı mübarizə hər bir polis əməkdaşının borcudur». Metodik tövsiyə. Bakı, 2002.

224. Hüseynov Ş.İ., Muradov E.Q., Nəsirov R.M. «Əməliyyat-axtarış fəaliyyətinin metodları». Albom-sxem. Bakı, 2006. Polis Akademiyası, Xüsusi kitabxana.
225. Hüseynov Ş.İ., Tahirov T.A., Muradov F.H. və b. «Əməliyyat-axtarış fəaliyyətində istifadə olunan əsas əməliyyat-xidməti sənədlərin nümunələri». Dərs vəsaiti, Polis Akademiyası, Xüsusi kitabxana, Bakı, 2007.
226. Hüseynov Ş.İ., Muradov F.H. «Əməliyyat-axtarış taktikasının əsasları». Dərs vəsaiti, Polis Akademiyası, Xüsusi kitabxana, Bakı, 2007.
227. Hüseynov Ş.İ., İsmayılov E.Y. «Əməliyyat-axtarış taktikası və əməliyyat-axtarış fəaliyyətinin formaları». Dərs vəsaiti. Polis Akademiyası, xüsusi kitabxana. Bakı, 2007.
228. Hüseynov Ş.İ., Nəsirov R.M. «Əməliyyat-axtarış fəaliyyətinin metodları». Dərs vəsaiti. Polis Akademiyası, xüsusi kitabxana. Bakı, 2007.
229. Bayramzadə X.Ə. «Əməliyyat-axtarış fəaliyyətinə nəzarət». Dərs vəsaiti. Bakı, 2007.
230. Hüseynov Ş.İ., Səlimov K.N., Əliyev B.Ə. «Əməliyyat-axtarış fəaliyyəti». Dərs vəsaiti, 1-ci hissə. Bakı, 2008.
231. Hüseynov Ş.İ. «Azərbaycan Respublikasında narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin bəzi aspektləri». DİN-in məlumat bülleteni, № 3, səh. 1-12, Bakı, 1998.
232. Hüseynov Ş.İ. «Некоторые правовые и организационно-тактические аспекты деятельности правоохранительных органов в борьбе с организованной преступностью». DİN-in məlumat bülleteni, № 3, səh. 13-18, Bakı, 1998.
233. Hüseynov Ş.İ., Muradov E.Q. «Terror aktları ilə bağlı cinayətlərin qarşısının alınması və üstünün açılmasında əməliyyat aparatlarının rolu». DİN-in məlumat bülleteni, № 4, səh. 25-36. Bakı, 2001.
234. Hüseynov Ş.İ. «Cinayətdə şübhəli olan şəxslərin tutulması institutu və onun əməliyyat-axtarış fəaliyyətində tətbiq edilməsinin insan və vətəndaş hüquq və azadlıqlarının təminatları ilə bağlı bəzi aktual məsələləri». Azərbaycan ET-MEK və KPİ, «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri», № 41, səh. 63-76, Bakı, 2005.

235. Hüseynov Ş.İ., Nəsirov R.M. «DİO-da əməliyyat-axtarış fəaliyyətinin psixoloji təminatının bəzi aspektləri». Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, № 2, Bakı, 2005, səh. 153-157.
236. Hüseynov Ş.İ., Muradov F.H. «Əməliyyat-axtarış fəaliyyətinin bəzi psixoloji aspektləri». Təhsil Nazirliyi, Təfəkkür Universiteti, «Elm və təhsil» elmi məqalələr məcmuəsi, № 17, səh. 22-36, Bakı, 2005.
237. Гусейнов Ш.И. «Террористические акты и ряд основных направлений оперативно-розыскной деятельности в предотвращении и раскрытии преступлений, связанных с ними». Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr toplusu, 11-ci buraxılış, MEA F və SHTİ, Bakı, 2005, səh. 356-366.
238. Hüseynov Ş.İ. «Некоторые вопросы правового регулирования оперативно-розыскных мероприятий, применяемых в борьбе с незаконным оборотом наркотических средств, психотропных и др. веществ»,, Təhsil Nazirliyi, Təfəkkür Universiteti, «Elm və təhsil» elmi məqalələr məcmuəsi, № 14, səh. 23-36, Bakı, 2005.
239. Əhmədov M.B., Hüseynov Ş.İ. «Некоторые вопросы, связанные с наркоманией и незаконным оборотом наркотиков в Азербайджанской Республике». AMEA Fəlsəfə və SHTİ, elmi əsərlər № 1, səh. 174-181, Bakı, 2006.
240. Hüseynov Ş.İ., Muradov F.H. «DİO-da əməliyyat-axtarış fəaliyyətinin metodları ilə bağlı problemlər». AMEA Fəlsəfə və SHTİ, elmi əsərlər № 2(4), səh. 154-163.
241. Hüseynov Ş.İ. «Əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilikdə, onun tətbiqində və bu fəaliyyətə prokuror nəzarətinin həyata keçirilməsində olan bəzi problemlər və onların həllinin əsas istiqamətləri». «Qanun» jurnalı № 4, səh. 7-17, Bakı, 2002.
242. Hüseynov Ş.İ., Muradov F.H. «DİO-da əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafının əsas istiqamətləri». «Qanun» jurnalı, № 4, səh. 3-10. Bakı, 2004.
243. Hüseynov Ş.İ. «Əməliyyat-axtarış fəaliyyətinin metodları və əməliyyat-axtarış tədbirlərinin qarşılıqlı əlaqələrinin bəzi elmi-nəzəri və təcrübi as-

pektləri». AMEA Fəlsəfə və SHTİ, Azərbaycan Respublikası dövlət və hüquq quruculuğunun aktual problemləri. 16-cı buraxılış. Bakı, 2006.
244. Hüseynov Ş.İ. «Əməliyyat-axtarış fəaliyyəti anlayışı və onun strukturu ilə bağlı aktual məsələlər». AMEA Fəlsəfə və SHTİ, elmi əsərlər, № 2(4). Bakı, 2006.
245. Hüseynov Ş.İ., Muradov F.H. «Narkotiklərlə bağlı Cinayətlərin istintaqında əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadə edilməsi». AMEA Fəlsəfə və SHTİ, elmi əsərlər, 18-ci buraxılış, № 2-3(9), Bakı, 2007.
246. Hüseynov Ş.İ., Nəsirov R.M. «Əməliyyat-axtarış fəaliyyətinin psixoloji aspektləri». AMEA Fəlsəfə və SHTİ, elmi əsərlər, Bakı, 2007.
247. Hüseynov Ş.İ., İsmayılov E.Y. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun sxemlərdə və əməliyyat-axtarış qanunvericiliyi», dərs vəsaiti, Bakı, 2008-ci il.
248. «İnsan hüquqları və polis». Dərs vəsaiti. (M.Əhmədov və müəllifər qrupu) (Ş.Hüseynov, V fəsil, səh. 77-124). Bakı, 2002. «Çaşıoğlu» nəşriyyatı.
249. Hüseynov Ş.İ., Muradov F.H. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin qanunvericilik əsasları və onların tətbiqinin bəzi problemləri». //«Azərbaycan Respublikasının dövlət və hüquq quruculuğunun aktual problemləri» jurnalı, AMEA, F və SHTİ, № 22, 2008.
250. Ş.Hüseynov, K.Səlimov. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsaslarına dair aktual məsələlər. //«Azərbaycan Respublikasının dövlət və hüquq quruculuğunun aktual problemləri» jurnalı, № 1, AMEA, F və SHİ, 2010.
251. Ş.Hüseynov, N.Salmanzadə. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin keçirilməsi prosesinin sənədləşdirilməsinin bəzi aktual məsələləri». //«Azərbaycan Respublikasının dövlət və hüquq quruculuğunun aktual problemləri» jurnalı, № 1, AMEA, F və SHİ, 2010
252. Həsənov Ə. Narkotizm və narkotik Cinayətkarlıqla mübarizə. B. Nurlan nəşriyyat-poliqrafiya müəssisəsi, 2005.
253. Hüseynov Ş.İ. Səlimov K.N. ƏAF-nin hüquqi əsasları və bəzi aktual məsələləri. AMEA FSHİ. B. 2010.

254. Hüseynov Ş.İ. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin qanunvepicilik əsasları və onun tətbiqində bəzi problemlər. DİN-in Polis Akademiyası. Elmi-praktik konfrans. B. 2008.
255. Hüseynov Ş.İ. «ƏAF haqqında» Qanunda və onun tətbiqində bəzi problemlər. DİN-in Polis Akademiyası. Elmi-praktik konfrans. B. 2010.
256. Гусейнов Ш.И. Террористические акты и ряд основных направлений оперативно-розыскной деятельности в предотвращении и раскрытии преступлений, связанных с ними. Евразийский юридический журнал № 10 (41), İSSN 2073-4, 506. M. 2011.
257. Гусейнов Ш.И. Актуальные вопросы правового регулирования оперативно-розыскных мероприятий, применяемых в борьбе с незаконным оборотом наркотических средств. Юридические науки. İSSN, 1728-8886. M. 2011.
258. Hüseynov Ş.İ. ƏAT-nin həyata keçirilməsi ilə bağlı qərarlar və onların qanunvericilik əsaslarının təkmilləşdirilməsi. Hüquq düşüncəsi jurnalı. İSSN, 2222-260X. B. 2011.
259. Hüseynov Ş.İ., Muradov E.Q., Nəsirov R.M. Narkomanliğa qarşı mübarizənin bəzi elmi-nəzəri, hüquqi və təcrübi məsələ-ləri. Dərs vəsaiti. Polis Akademiyası, Mütərcim nəşriyyatı. B. 2014.
260. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunvericiliyə aid edilən normativ hüquqi aktlar, o cümlədən ƏAF-nin subyektlərinin əməliyyat-axtarış fəaliyyəti sahəsinə dair idarədaxili və idarələrarası normativ aktları.
261. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində HMO-nın (DİN, DGK, DTX və s.) digər dövlətlərin hüquq mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq sahəsində ikitərəfi çox tərəfi normativ aktları, BMT-nin 1961, 1971, 1988 il tarixli konvensiyaları
262. Hüseynov Ş.İ. Əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunverici- likdə, onun tətbiqində və bu fəaliyyətə prokuror nəzarətinin həyata keçirilməsində olan bəzi problemlər və onların həllinin əsas istiqamətləri. "Qanun" jurnalı № 4, s. 7-11
263. Ş.İ.Hüseynov K.N.Səlimov B.Əliyev M.Usubov M.kazımov A.Mahmudov X. Bayramzadə əməliyyat-axtarış fəaliyyətinin əsasları dərs vəsaiti Bakı Qanun nəşriyyatı 2010

264. Ş.İ.Hüseynov. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi –nəzəri təcrübi məsələləri və problemlərinin həlli yolları Bakı Mütərcim 2016
265. Ş.İ.Hüseynov. Milli təhlükəsizliyin institutsional əsaslarının və hüquqi tənzimlənməsinin bəzi mühüm aspektləri, Bakı, Qanun nəşriyyatı, 2018

# M Ü N D Ə R İ C A T:

KİTABDA İSTİFADƏ EDİLMİŞ İXTİSARLAR......3
ÖN SÖZ ......5

## I BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNƏ GİRİŞ

I FƏSİL ......12
Əməliyyat-axtarış fəaliyyətinin qısa tarixi başlanğıcı, mahiyyəti və məzmunu ......12
§ 1. Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin qısa tarixi başlanğıcları ......12
§ 2. Əməliyyat-axtarış fəaliyyətinin ilkin vəziyyəti, sosial rolu və digər qovuşuq fəaliyyət növləri ilə qarşılıqlı münasibəti ......19
§ 3. Əməliyyat-axtarış fəaliyyətinin məqsədləri vəsifələri və funksiyaları ......33

II FƏSİL ......39
Əməliyyat-axtarış fəaliyyətinin anlayışı, prinsipləri və bu fəaliyyətdə dövlət sirləri ......39
§ 1. Əməliyyat-axtarış fəaliyyəti anlayışı və onun prinsiplər sistemi ......39
§ 2. Əməliyyat-axtarış fəaliyyəti prinsiplərinin məzmunu ......43
§ 3. Əməliyyat-axtarış fəaliyyətinin mənəvi-əxlaqi prinsipləri ......53
§ 4. Əməliyyat-axtarış fəaliyyətində dövlət sirləri və onun qorunmasının təmin edilməsi ......61

III FƏSIL ......67
Əməliyyat-axtarış fəaliyyətinin mənəvi əsasları ......67
§ 1. Əməliyyat-axtarış fəaliyyətinin əxlaqi əsaslarının təşəkkülü ......67
§ 2. Əməliyyat-axtarış fəaliyyətinin əxlaqi məzmunu ......72
§ 3. Əməliyyat-axtarış fəaliyyətində mənəvi-əxlaqi münasibətlər ......82

IV FƏSIL ......89
Əməliyyat-axtarış fəaliyyəti və onun metodologiyası ......89

§ 1. Vahid əməliyyat-axtarış nəzəriyyəsinin yaranması və inkişafı..........................89
§ 2. Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin (elminin) predmeti .......................96
§ 3. Əməliyyat-axtarış fəaliyyətinin problemlərinin elmi tədqiqinin metodologiyası ..........................................................................................................110
§ 4. Əməliyyat-axtarış fəaliyyəti tədris kursunun predmeti və sistemi .................125

V FƏSİL ..........................................................................................................134
Əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin elmlər, tədris fənləri sistemində yeri ..........................................................................................................134
§ 1. Dövlət və hüquq nəzəriyyəsi, kriminalistika və əməliyyat-axtarış fəaliyyəti ..134
§2. Əməliyyat-axtarış fəaliyyəti və cinayət hüququ ..............................................141
§3. Əməliyyat-axtarış fəaliyyəti və cinayət prosesi ...............................................160
§ 4. Əməliyyat-axtarış fəaliyyəti və kriminologiya ...............................................162
§ 5. Əməliyyat-axtarış fəaliyyəti və digər elmlər ................................................170

## II BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

VI FƏSİL ..........................................................................................................183
Əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsinin əsasları .......................183
§ 1. Əməliyyat-axtarış fəaliyyətində ictimai münasibətlərin tənzimlənməsinin hüquqi mənbələrinin ümumi səciyyəsi ......................................................................183
§ 2. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi anlayışı, onun hədləri və səviyyələri ..........................................................................................................188
§ 3. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsasları .............................................196
§ 4. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyinin formalaşması .......206

VII FƏSİL ..........................................................................................................210
Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunu ...210
§ 1. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun ümumi səciyyəsi və quruluşu ..........................................................................................................210
§2. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun zamana görə qüvvəsi ........220
§ 3. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun məkana görə qüvvəsi ......225

§ 4. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun şəxslərin dairəsinə görə qüvvəsi və onun növləri ....................232
§ 5. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun təfsiri və növləri ..............245

## III BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN SUBYEKTLƏRİ VƏ VASİTƏLƏRİ

VIII FƏSİL ....................257
Əməliyyat-axtarış fəaliyyətinin subyektləri, qüvvələri və vasitələri ....................257
§ 1. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri və onların səlahiyyətləri ............257
1.1. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəzifələri ....................260
1.2. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hüquqları ....................263
§ 2 əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar, onların sistemi və qüvvələri ....................264
2.1. Əməliyyat-axtarış fəaliyyətini keçirən orqanlar və onların sistemi ...............267
2.2. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşları bu fəaliyyətin subyekti kimi ....................276
2.3. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların səlahiyyətləri .........282
§ 3.Hüquq -mühafizə orqanlarına, o cümlədən DİO-ya məxfilik əsasında kömək etməyə razılaşan şəxslərlə fəaliyyətin bəzi ümumi müddəaları ....................288
§ 4. Şəxslərin məxfilik əsasında əməkdaşlığa cəlb edilməsi ....................293
§ 5. Əməliyyat-axtarış fəaliyyətində müqavilə (kontrakt) ....................295
§ 6. Hüquq-mühafizə orqanlarının, o cümlədən DİO-nun əməliyyat aparatları ilə məxfilik əsasında əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq edən şəxslərlə əlaqə ...297
§ 7. Əməliyyat-axtarış orqanlarına vətəndaşlar tərəfindən köməkliyin göstərilməsi ....................300
§ 8. Əməliyyat-axtarış fəaliyyətində iştirak edən şəxslərin sosial və hüquqi müdafiəsi ....................307
§ 9. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri ilə əməkdaşlıq edən şəxslərin hüquqi və sosial təminatı ....................315
§ 10. Əməliyyat-axtarış fəaliyyətinin sosial-psixoloji strukturu və bu fəaliyyətin iştirakçılarının psixoloji səciyyəsi ....................316
IX FƏSİL ....................322
Əməliyyat –axtarış fəaliyyətinin vasitələri ....................322

§ 1. Əməliyyat-axtarış fəaliyyətində istifadə olunan xüsusi texnika .......................322
§ 2. DİO-nun əməliyyat uçotları ........................................................................324

## IV BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNDƏ İNFORMASİYA

X FƏSİL .........................................................................................................326
Əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatı ..........................................326
§ 1 Əməliyyat-axtarış fəaliyyətində informasiya və onun təsnifatı aspektləri .......326
§ 2 Kriminal uçotlar əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatının bir vasitəsi kimi ..........................................................................................................328
§ 3 Əməliyyat uçotları ..........................................................................................335
§ 4 Əməliyyat-axtarış fəaliyyətinin informasiya təminatında dövlət və qeyri - dövlət orqanlarının informasiya sistemlərindən istifadə edilməsi ....................................337

## V BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN MADDİ TƏMİNATI

XI FƏSİL .........................................................................................................341
Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı ......................341
§ 1. Əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki təminatı ................................341
§ 2. əməliyyat-axtarış fəaliyyətinin maliyyə təminatı ...........................................347

## VI BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN PSİXOLOJİ TƏMİNATI

XII FƏSİL .......................................................................................................351
Əməliyyat-axtarış fəaliyyətində psixologiya elminin imkanları ............................351
§ 1. Əməliyyat-axtarış fəaliyyəti və psixologiya .................................................351
§ 2. Əməliyyat-axtarış fəaliyyətində informasiya əldə edilməsinin əsasını təşkil edən psixoloji aspektlər ...............................................................................................355
XIII FƏSİL ......................................................................................................368
Əməliyyat-axtarış fəaliyyətində informasiya əldə edilməsinin üsul və vasitələrinin psixoloji əsasları .......................................................................368
§1. Əməliyyat məlumatlarının alınmasının psixoloji üsulları ...............................368

§2. Əməliyyat-axtarış orqanlarını maraqlandıran məlumatların alınmasının metodikası ....381
XIV FƏSIL ....385
Əməliyyat baxımından maraq doğuran şəxslərin sorğusunun psixoloji aspektləri ....385
§ 1. Əməliyyat sorğusu, onun hüquqi, psixoloji və etik məzmunu ....385
§2. Əməliyyat sorğusunun psixoloji və taktiki üsulları ....388
§ 3. Sorğunun mərhələləri və onların psixoloji xüsusiyyətləri ....394

## VII BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN METODLARI
## ƏMƏLİYYAT AXTARIŞI

XV FƏSİL ....400
§ 1. Şəxsən axtarma ....400
§ 2. Əməliyyat axtarışının mahiyyəti və əsas istiqamətləri ....406

## VIII BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİNİN ANLAYIŞI VƏ MƏZMUNU, ONLARIN KEÇİRİLMƏSİ ÜÇÜN SƏBƏB, ƏSAS VƏ ŞƏRTLƏR

XVI FƏSİL ....414
Əməliyyat-axtarış tədbirlərinin anlayışı və məzmunu ....414
§ 1. Əməliyyat-axtarış tədbirlərinin anlayışı və onların növləri ....414
§ 2. Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirləri ....422
§ 3. Vətəndaşların konstitusiyada təsbit edimiş hüquqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri ....450
XVII FƏSİL ....461
Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün səbəb, əsas və şərtlər ....461
§ 1. Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin səbəb və əsasları ....461
§2. Əməliyyat-axtarış tədbirinin keçirilməsi şərtləri ....469

## IX BÖLMƏ

Əməliyyat-axtarış fəaliyyətinin nəticələrin istifadə edilməsi ....478
XVIII FƏSİL ....478

Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatların realizə olunması ....478

## X BÖLMƏ
## ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNƏ NƏZARƏT

XIX FƏSİL ....503
Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və ona nəzarəti həyata keçirən subyektlər ....503
§ 1. Nəzarət və yoxlamanın əməliyyat-axtarış fəaliyyətində mahiyyəti ....503
§2. Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və ona nəzarəti həyata keçirən subyektlərin təsnifatı ....505
XX FƏSİL ....511
Məhkəmə nəzarətinin həyata keçirilməsi ....511
§ 1. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə məhkəmədə baxılma qaydası ....511
§2. Məhkəmə nəzarəti haqqında işlərə yenidən baxılması ....521

## XI BÖLMƏ

Hüquq Mühafizə, o cümlədən daxili işlər orqalarının əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin gələcək inkişafının əsas istiqamətləri ....525

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində ....540
Rus dilində ....542

Əlavə 1 ....549
Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyə daxil olan bəzi normativ-hüquqi aktlar və onlardan çıxarışlar ....549
Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanun....549
Birinci fəsil ....549
ÜMUMİ MÜDDƏALAR ....549
İkinci fəsil ....554
ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ ....554
Üçüncü fəsil ....562
YEKUN MÜDDƏALAR ....562

KEÇİD MÜDDƏALARI ....................................................................................565
Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Qanun.....................................................................................566
I fəsil .....................................................................................................566
ÜMUMİ MÜDDƏALAR ...............................................................................566
III FƏSİL ..............................................................................................570
NARKOTİK VASİTƏLƏRDƏN, PSİXOTROP MADDƏLƏRDƏN VƏ ONLARIN PREKURSORLARINDAN İSTİFADƏ ...............................................................570
V fəsil ....................................................................................................571
NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR ..........................................................571
VI fəsil ...................................................................................................575
YEKUN MÜDDƏALAR ................................................................................575
Polis haqqında Qanun...............................................................................575
I fəsil .....................................................................................................575
ÜMUMİ MÜDDƏALAR ................................................................................575
II fəsil ....................................................................................................578
POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ ..................................................578
III fəsil ...................................................................................................581
ŞƏXSİN AZADLIQ, MƏNZİL TOXUNULMAZLIĞI HÜQUQLARININ MƏHDUDLAŞDIRILMASI, FİZİKİ QÜVVƏNİN, XÜSUSİ VASİTƏLƏRİN VƏ YA ODLU SİLAHIN TƏTBİQİ İLƏ BAĞLI POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ .....................................................................................581
Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında Qanun.....................................591
I Fəsil .....................................................................................................591
ÜMUMİ MÜDDƏALAR ................................................................................591
II Fəsil ....................................................................................................593
KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİNİN SUBYEKTLƏRİ, ONLARIN SƏLAHİYYƏTLƏRİ VƏ ƏLAQƏLƏRİ ..........................................593
III Fəsil ...................................................................................................598
Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi ..................................598

IV Fəsil ....602
V Fəsil ....605
KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİ SUBYEKTLƏRİ ƏMƏKDAŞLARININ VƏ BU SUBYEKTLƏRƏ KÖMƏK EDƏN ŞƏXSLƏRİN HÜQUQİ VƏ SOSİAL MÜDAFİƏSİ ....605
VI Fəsil ....608
KƏŞFİYYAT VƏ ƏKS-KƏŞFİYYAT FƏALİYYƏTİNƏ NƏZARƏT ....608
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (çıxarış) ....610
Birinci bölmə. Əsas müddəalar ....610
I fəsil. Cinayət-prosessual qanunvericiliyi ....610
III fəsil ....619
Cinayət təqibi ....619
VIII fəsil. İttiham tərəfi ....622
IX fəsil. Müdafiə tərəfi ....632
Üçüncü bölmə. Sübutlar və sübutetmə ....640
XIV fəsil. Sübutlar ....640
XVI fəsil. Tutulma ....641
XVIII fəsil. ....645
Cinayət prosesində digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi ....645
Altıncı bölmə. ....648
Cinayət mühakimə icraatı zamanı-konfidensiallıq və müddət məsələləri ....648
XXIII fəsil. Cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması ....648
Xüsusi hissə ....650
Yeddinci bölmə. Cinayət təqibi üzrə məhkəməyədək icraat ....650
XXV fəsil. Cinayət işinin başlanması ....650
XXIX fəsil. Baxış, meyitin qəbirdən çıxarılması və şəxsi müayinə ....655
XXX fəsil. Şəxsin və əşyaların tanınması ....657
XXXI fəsil. Axtarış və götürmə ....659
XXXIII fəsil. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və başqa məlumatların ələ keçirilməsi ....664
XXXVI fəsil. Tədqiqat üçün nümunələrin götürülməsi ....669
XXXVII fəsil. Cinayət işi üzrə icraatın dayandırılması və ona xitam

verilməsi ....672
LI fəsil. Beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan şəxslər barəsində icraatın xüsusiyyətləri ....674
On birinci bölmə. Xüsusi icraatlar ....677
LII fəsil. Məhkəmə nəzarətinin həyata keçirilməsi ....677
AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ ....686
ÜMUMİ HİSSƏ ....686
BİRİNCİ BÖLMƏ ....686
CİNAYƏT QANUNU (çıxarış) ....686
1-ci fəsil ....686
AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT QANUNUNUN VƏZİFƏLƏRİ VƏ PRİNSİPLƏRİ ....686
2-ci fəsil ....687
CİNAYƏT QANUNUNUN QÜVVƏSİ ....687
İKİNCİ BÖLMƏ ....690
CİNAYƏT HAQQINDA ....690
3-cü fəsil ....690
CİNAYƏT ANLAYIŞI VƏ CİNAYƏTLƏRİN TƏSNİFATI ....690
4-cü fəsil ....692
CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLMƏLİ OLAN ŞƏXSLƏR ....692
5-ci fəsil TƏQSİR ....693
6-cı fəsil ....694
BAŞA ÇATMAYAN CİNAYƏT ....694
7-ci fəsil ....696
CİNAYƏTDƏ İŞTİRAKÇILIQ ....696
8-ci fəsil ....698
ƏMƏLİN CİNAYƏT OLMASINI ARADAN QALDIRAN HALLAR ....698
UÇÜNCÜ BÖLMƏ ....700
CƏZA HAQQINDA ....700
9-cu fəsil ....700
CƏZANIN ANLAYIŞI, MƏQSƏDİ VƏ NÖVLƏRİ ....700
BEŞINCI BÖLMƏ ....702
YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT MƏSULİYYƏTİ ....702

14-cü fəsil ....................................................................................................702
YETKİNLİK YAŞINA ÇATMAYANLARIN BARƏSİNDƏ CİNAYƏT MƏSULİYYƏTİNİN VƏ CƏZASININ XÜSUSİYYƏTLƏRİ ............................702
Dövlət sirri haqqında Qanun..........................................................................................703
I fəsil........................................................................................................................703
ÜMUMİ MÜDDƏALAR ....................................................................................................703
II fəsil .......................................................................................................................705
MƏLUMATLARIN DÖVLƏT SİRRİNƏ AİD EDİLMƏSİ, ONLARIN MƏXFİLƏŞDİRİLMƏSİ VƏ MƏXFİLİYİNİN AÇILMASI ...............................705
IV fəsil .....................................................................................................................707
DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİ ...................................................................................707
VI fəsil .....................................................................................................................712
DÖVLƏT SİRRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT ................712
VII fəsil ....................................................................................................................713
DÖVLƏT SİRRİNİN MÜHAFİZƏSİNİN TƏMİN OLUNMASINA NƏZARƏT .......................................................................................................713
Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında Fərman.............................................714
“Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında Fərman........................................................................................717
Azərbaycan Respublikasının Prezidenti Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında Fərman ......................................................................................718
Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında ......................................................722
“Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Fərman ......................................................................................726
AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI ...................................................................730

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair ....................................730 Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə TƏLİMAT (çıxarılış) ..........................................................................741 1. Ümumi müddəalar ......................................................................................741 2. Təqsirləndirilən, məhkum edilmiş şəxslərin və cinayətlərin mərkəzləşdirilmiş kriminal uçotu ..........................................................................................................745 3. Talanmış və müsadirə edilmiş nömrəli sənədlərin və əşyaların mərkəzləşdirilmiş uçotu ................................................................................................................746 4. Talanmış, itirilmiş və ya aşkar edilmiş silah və düyüş sursatların mərkəzləşdirilmiş uçotu ................................................................................................................747 5. Axtarışda olan nəqliyyat vasitələrinin mərkəzləşdirilmiş uçotu ..........................748 6. Talanmış və ya müsadirə edilmiş elmi-texniki, ədəbi-bədii və mədəni-tarixi sərvətlər sayılan əşyaların mərkəzləşdirilmiş uçotu .............................................750

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ KOLLEGİYA Q Ə R A R I ..........................................................................752 Risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi
Q AYD ALAR I ..........................................................................................753 H Ö K M AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN ................................755 Müdavim, dinləyici və ali məktəb tələbələrinə tövsiyyə olunan ədəbiyyatın (monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və elmi məqalələr) SİYAHISI .............803